**LEV QUMİLYOV**

# ETNOGENEZ VƏ YERİN BİOSFERİ

**Bakı – «Nurlan» - 2005**

*Rus dilindən tərcümənin, ön sözün*
*və qeydlərin müəllifləri:*
**Kamil Vəli Nərimanoğlu**
professor
**Əliheydər Ağakişiyev**

*Redaktor:*
**Nadir Məmmədli**
filologiya elmləri doktoru, professor

**Lev Qumilyov. Etnogenez və yerin biosferi.**
**Bakı, «Nurlan», 2005, - 551 səh.**

Görkəmli etnoloq, sosioloq, tarixçi, coğrafiyaşünas L.N.Qumilyovun bir zamanlar yasaq edilən «Etnogenez və yerin biosferi» əsəri onun nəzəri baxışlarının sistemli ifadəsidir. Əsərdə passionarlıq nəzəriyyəsi, tarix fəlsəfəsi, şəxsiyyət və tarix, bioloji və sosioloji amillərin tarixdə rolu kimi məsələlər geniş şəkildə öz elmi şərhini tapmışdır.

Kitab mütəxəssislər, gənc araşdırıcılar, siyasətçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\frac{4702000000}{N-098-2005}$ ***Qrifli nəşr***

**© Azərbaycan Avrasiya Araşdırmalar Mərkəzi**

**© «Nurlan», 2005**

# MÜNDƏRİCAT


Lev Qumilyov və onun «Etnogenez və yerin biosferi» əsəri haqqında bir neçə söz ***(K.V.Nərimanoğlu, Ə.Ağakişiyev)***…………………………………… 5
Giriş……………………………………………………………………… 8

**I HİSSƏ. *GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN HAQQINDA***
*I. Etnoqrafiyanın faydası və dəf olunmalı çətinliklər haqqında...................... 13*
*II. Təbiət və tarix……………………………………………………….. 19*
*III. Etnos varmı?......................................................................................... 23*

***II HİSSƏ. ETNOSUN XASSƏLƏRİ***
*IV. Etnos və etnonim……………………………………………………. 35*
*V. Şəbəkəvarilik etnosun xassəsi kimi………………………………….. 37*
*VI. Etnik davranış stereotipii……………………………………………. 42*
*VII. Etnos sistem kimi……………………………………………….….. 46*
*VIII. Subetnoslar………………………………………………………... 50*
*IX. Suberetnoslar………………………………………………………. 51*
*X. Etnogenezin alqoritmi……………………………………………….. 54*
*XI. Etnik təmaslar………………………………………………………. 61*

***III HİSSƏ. ETNOS***
*XII. Ümumdünya tarixi haqqında düşüncələr………………………….. 59*
*XIII. Etnik tarix barədə fikirlər…………………………………………. 74*

***IV HİSSƏ. ETNOS COĞRAFİYADA***
*XIV. Tərs məsələ………………………………………………………… 80*
*XV. Landşaftların ahəngdarlığının rolu…………………………………. 85*
*XVI. Antropogen landşaftların təşəkkülü……………………………….. 88*
*XVII. Etnogenez partlayışları…………………………………………… 97*

***V HİSSƏ. TƏBİƏT BİZİM DAXİLİMİZDƏ***
*XVIII. Etnos və populyasiya……………………………………………... 102*
*XIX. Filogenez, yoxsa otnogenez………………………………………... 106*
*XXI. Ziddiyyətlərin (əksliklərin) məcmusu……………………………... 113*

***VI HİSSƏ. ETNOGENEZDƏ PASSİONARLIQ***
*XXII. Etnogen əlamət, yaxud «İks amili»……………………………….. 118*
*XXIII. Passionar obrazlar………………………………………………... 120*
*XXIV. Passionar gərginlik……………………………………………….. 124*
*XXV. Subpassionarilər………………………………………………….. 129*
*XXVI. Passionarlığın zəifləməsi………………………………………… 132*

***VII HİSSƏ. ELMLƏR ARASINDA KÖRPÜ***
*XXVII. Çöl sistemdə…………………………………………………….. 137*
*XXVIII. Passionarlığın təbiəti…………………………………………... 144*
*XXIX. Passionarlıq və şüur dairəsi……………………………………… 150*

***VIII HİSSƏ. ETNOSUN YAŞI***
*XXX. Elmi axtarış üsulu…………………………………………………. 159*
*XXXI. Passionar yüksəliş və həddən artıq qızma mərhələləri………………. 166*

*XXXII. Sapınmalar……………………………………………………….. 174*
*XXXIII. Çat mərhələsi……………………………………………………. 184*

*XXXIV. Ətalət mərhələsi……………………………………………………………… 191*
*XXXV. Cəhalət mərhələsi……………………………………………………………… 199*
*XXXVI. Sonucdan sonra…………………………………………………………… 204*

***IX HİSSƏ. ETNOGENEZ VƏ MƏDƏNİYYƏT***
*XXXVII. Etnogenezdə mənfi qiymətlər………………………………………….. 207*
*XXXVIII. Etnosferin bipolyarlığı…………………………………………………. 214*

Son söz……………………………………………………………………… 223
Müəllifin öz araşdırmalarında yararlandığı anlam və terminlərin izahlı sözlüyü……………………………………………………………………… 228
**Qeydlər……………………………………………………………………..** 234

# LEV QUMİLYOV VƏ ONUN «ETNOGENEZ VƏ YERİN BİOSFERİ» ƏSƏRİ HAQQINDA BİR NEÇƏ SÖZ

Əski sovet ideologiyasının yaratdığı mənzərə paradoksallığı ilə diqqəti cəlb edir. Bir tərəfdən elmə, təhsilə böyük diqqət yetirilir, o biri tərəfdən ayrı-ayrı elm sahələri təqib edilir. Kibernetika və genetika uzun zaman təqib edilən talesiz elm sahələrindəndir. Eyni vəziyyət mədəniyyətdə də özünü göstərir. Bir tərəfdən M.Bajan, N.Serafimoviç, D.Bednı, A.Korneyçuk, Ə.Vəliyev, S.Rüstəm, o biri tərəfdən B.Pasternak, M.Svetayeva, O.Mandelştam, S.Bəhlulzadə, A.Tarkovski, X.Məmmədov, R.Rza, B.Vahabzadə…

Sosialist realizmi mədəniyyəti ilə çağdaş mədəniyyətlərin ziddiyyəti uzun illəri əhatə etmiş, mühacirət axınları yaratmış, böyük faciələrə səbəb olmuşdur. Bu faciəni yaşayanlardan biri də Lev Qumilyov olmuşdur. Görkəmli tarixçi, türkoloq, coğrafiyaçı, fikir və əqidə adamı. Sovet dövrünün dissident ədəbiyyatının ən parlaq nümayəndələrindən Nikolay Qumilyovun və Anna Axmatovanın doğma övladı. Ailəcə təqiblər, fikir və düşüncə həyatının nəzarətdə saxlanması L.Qumilyovun alın yazısı idi. On dörd illik həbs cəzası, yasaqlar, aşılması çox çətin həyat zorluqları bütün ömrü boyu Lev Qumilyovla yol yoldaşı olub. Arzuolunmaz ailənin bu arzuolunmaz övladı sovet cəmiyyətində təqib olunub, düşüncə, vicdan məhbusluğunu yaşamağa məhkum edilib. Onlarca kitabı və məqaləsi deponent qeydiyyatda saxlanıb. Yalnız yenidənqurmadan sonra qapalı sovet sistemi və Kommunist Partiyasının Mərkəzi Komitəsi, Dövlət Təhlükəsizlik Komitəsi, Baş Kəşfiyyat İdarəsi içəridən dağılmağa başlayandan sonra yeni fikir axınlarına imkan yarandı. Hər şey fikirdən, ideyadan başlayır. Çoxallahlılıq fikrini məhv edən təkallahlılıq ideyasıdır. Maddəçiliyin ölümü idealist baxışdır. Realizmin hüdudları sürrealizmdə, neorealizmdə qırılır. Sistemdən doğan antisistem bir şeyin ölümünü, başqa bir şeyin yaşamını təsdiq edir. İnsan düşüncəsinin hüdudsuzluğunun bir təsdiqi də budur.

…Biz (K.V.Nərimanoğlu–red.) L.N.Qumilyovu şəxsən tanıyırdıq, Peterburqda bir dəfə də görüşmüşük. «Qədim türklər» adlı kitabını 1968-ci ildə oxumuşuq və həmin kitab o vaxtdan həmişəlik yol yoldaşımız, əqidə dostumuz olub. Sonra Lev Nikolayeviçin başqa kitablarını oxuduq. Tarixə yeni, namuslu münasibət, [3-4] əsl alim ilhamı və istedadı ilə isinmiş oxunaqlı səhifələr L.N.Qumilyovu hamıdan fərqləndirirdi.

Sovet tarixşünaslığına, onun metodologiyasına zidd baxışlar bizə Zəki Vəlidi Toğanın «Tarixdə üsul» və «Ümumi türk tarixinə giriş» kitablarından, eləcə də Lord Kinrossun, Arnold Toynbinin, Karl Yaspersin əsərlərindən bəlli olanda aydın oldu ki, sovet tarix nağılı artıq bitmişdir.

Doğrudur, stalinizm Stalindən daha uzun ömürlüdür. Stalin 1953-cü ildə ölmüş, 1959-cu ildən başlayaraq dövlət fikir həyatından uzaqlaşdırılmışsa da, stalinizm bu gün də Rusiyada da, dünyanın ayrı-ayrı ölkələrində, ayrı-ayrı sosial kəsimlər içərisində, sovet tarixçiliyi də müstəqillik qazanmış ölkələrdə, o cümlədən Azərbaycanda da yaşamaqdadır.

Aşkarlıq və yenidənqurma siyasəti buzları əritməyə başladı. Xruşov dövrünün varisi aşkarlıq dövrünün işığı axır ki, Qumilyovun da üzünə düşdü. Öz yolu, öz metodu, öz konsepsiyası olan tarixçinin üzünə qapanmış qapılar açıldı. Və o qapıdan böyük alimin əsərlərinə yol verildi.

Alimin qan yaddaşındakı bədii siqlətli ifadə tərzi elmi mübahisələrdə, diskussiyalarda dəfələrlə ortaya çıxan əzablı mübahisələrin kiçik bir hissəsidir. İmperativ məntiqə, sabitləşmiş fikrə əsaslanan, çoxluğa qarşı dayanan alimin ayrılmaz dostu həmişə yalnız həqiqət - tarixi həqiqət olub.

O həqiqət ki, onun yolunda Qumilyovlar ailəsi nəsillikcə qurban getdi və heç nəyini əsirgəmədi.

…1921-ci ildə Peterburqda anadan olan L.N.Qumilyov iki şairin – Nikolay Sergeyeviç Qumilyovun və Anna Andreyevna Axmatovanın oğludur. Bu adları epitetsiz işlətdik, çünki bu iki sənətkarın böyüklüyü və çəkdikləri əzablar bütün dünyaa bəllidir.

O taledən L.N.Qumilyovun da payına düşüb. Peterburq Dövlət Universitetini bitirdikdən sonra həbs edilib, üst-üstə on dörd il sürgündə, həbs düşərgələrində olub. 1956-cı ildə bəraət alıb. Ermitajda, Leninqrad Universitetinin coğrafiya fakültəsində çalışıb.

Maraq dairəsi:

1. Türk-monqol xalqlarının qədim və orta yüzilliklər tarixi, Avrasiya (Qıpçaq çöllərində, Orta və Mərkəzi Asiyada, Xəzər hövzəsində) türk mədəniyyətinin tarixi və xarakteri; [4-5]
2. Cəmiyyətin (xüsusən orta yüzilliklər türk və monqol cəmiyyəti) təbiətlə, tarixi və coğrafi mühitlə münasibətləri, insanda və insan cəmiyyətində bioloji və sosial faktorların tənasübü və s.

Ən böyük elmi nailiyyətləri:

1. Qədim və orta yüzilliklər (e.ə. III yüzillik – b.e. XIII yüzilliyi) türk-monqol tarixinə dair orijinal konsepsiyanın yaradılması və elmi cəhətdən əsaslandırılması;

2. Tarixi inkişaf dialektikasının, təbiət-cəmiyyət münasibətlərinin öyrənilməsi əsasında ilk dəfə olaraq mükəmməl, universal etnogenez nəzəriyyəsinin işlənib hazırlanması. Onun etnologiya adlandırdığı bu nəzəriyyə, əsasən, türk və monqol tarixinə dair materiallara söykənir.

L.N.Qumilyov Xəzər dövlətinin İtil adlı paytaxtının olduğuna inanmış və bir neçə illik axtarışlardan sonra həmin şəhərin indiki Volqa deltasında olduğunu sübut etmiş və arxeoloji qazıntılar nəticəsində meydana çıxarmışdı.

Tarixə dair əsərləri:

«Poiski vımışlennoqo tsarstva» («Uydurulumş səltənət sorağında»), «Xunnı v Kitae» («Hunlar Çində»), «Veliçie i padenie Tibeta» («Tibetin əzəməti və süqutu»), «Avrasiya».

Etnologiyaya dair əsərlər:

Ümumittifaq coğrafiya cəmiyyətinin xəbərlərində «Məruzə»lərində, müxtəlif elmi məcmuələrdə və «Priroda» jurnalında «etnos» anlayışının izahına, başqa sahələrlə əlaqəsinə dair onlarla məqalə çap etdirmişdir. Peterburq Universiteti «Xəbərləri»nin Coğrafiya seriyasında 1966-1976-cı illər arasında «Landşaft və etnos» seriyasından ondan yuxarı məqaləsi dərc edilib. Ümumi həcmi 30 çap vərəqindən çox olan «Etnogenez i biosfera zemli» («Etnogenez və yerin biosferi») kitabı 1979-cu ildə mütəxəssislərə çatdırılmaq üçün deponent edilsə də, çox-çox sonralar işıq üzü görmüşdü. Bu əsərdə L.N.Qumilyov etnoloji nəzəriyyəni bütün aspektlərdə, mürəkkəbliyi ilə işıqlandırmışdır.

Alimin Xəzər hövzəsindəki xalqların etnik-mədəni tarixinə dair digər bir kitabı isə 1986-cı ildə deponent edilmişdir.

Hazırda etnos nəzəriyyəsinə dair bir kitabı və «Rus i Velikaya Step» («Rusiya və Böyük Çöl») əsəri çapdadır.

L.N.Qumilyovun nəzəriyyə və fərziyyələrində tənqid olunan və bəzi məqamlarda həqiqətən tənqid olunmalı yerlər də var. Lakin bütün bunlar alimin onilliklər boyu sovet elmindəki ideoloji [5-6] hüdudlara, ətalətə, durğunluğa qarşı apardığı mübarizənin fonunda o qədər də nəzərə çarpmır.

Rusiya və türk-monqol xalqlarının tarixini və sağlam kökə söykənən birliyini ön planda götürən və bu böyük konsepsiyanın əleyhdarlarını, Avrosentrizmi, şovinist baxışları elmi məntiqlə, tarixi faktlarla rədd edən L.N.Qumilyov müasir dövr üçün Z.V.Toğan, Ç.Aytmatov, O.Süleymenov, F.Sümər, S.Əliyarlı, İ.Miziyev, M.Aci və başqaları tərəfindən müdafiə olunan yeni tarixi konsepsiyanın gerçəkliyini sübut edir. Müasir həyatımız üçün çox vacib olan slavyan və türk-monqol xalqlarının tarixi birliyi konsepsiyasını anlamaq, dərk etmək və sabahı həqiqət və yalnız həqiqət naminə duymaq, öyrənmək, təbliğ etmək zərurəti meydana çıxır.

…L.Qumilyov haqqında bu sözləri yaza-yaza qədim bir Şərq masalını (pritçasını) xatırlayırıq. Yuxusunda göydən qoyun, sonra tülkü, daha sonra canavar yağdığını görən bir padşah yuxusunu yozdurmaq istəyir. Bir kasıb kişi təsadüfən rast gəldiyi bir ilanın yardımı ilə bu yuxuların yozumunu padşaha söyləyir və hər dəfə min qızıl alır. Birinci dəfə padşah yuxuda göydən qoyun yağdığını görəndə o, yuxunu xeyir-bərəkət olacağına yozur və padşadan aldğı min qızılı ilanla yarı bölür. Padşah yuxuda tülkü yağdığını görəndə, yuxunu hiylə zamanı yetişdiyi kimi yozur və ilanın payını vermədən aradan çıxır. Göydən canavar yağmasını isə savaşların başlayacağına işarə kimi yozur, aldığı qızılları mənimsəmək üçün ilanı öldürmək istəyir, lakin öldürə bilmir - yalnız yaralayır. Bir müddət sonra yatdığı yerdə ilanı sinəsində görüb, qorxu və xəcalət içində qıvrılır. İlan ona deyir: «Heç xəcalət çəkmə, sənin mənə göstərdiyin üç münasibət üç ayrı-ayrı Zamanın, Vaxtın özüdür. Zəmanə düzlük, ədalət içində olanda, sən aldığını, danışdığımız kimi, mənimlə bölüşdün. Zəmanə tülkü, biclik zəmanəsi olanda, sən də biclik işlədib aradan çıxdın. Zəmanə canavar zəmanəsi olanda məni öldürmək istəyib yaraladın. Sən suçlu deyilsən, suçlu olan Zamandır». Bu ibrətli masalın ana məntiqi budur ki, insan öz zəmanəsinin övladıdır və hər kəs öz zamanının rəngindədir. Yalnız ayrı-ayrı şəxslər istisnadır. Həmin şəxslərə yadfikirlilər və ya dissident deyirlər. Lev Qumilyov da öz zamanının rəngində olmayan çox az şəxsiyyətlərdən biridir. Vaxtilə hürufi, sufi şair Nəsimi deyirdi: «Məndə sığar iki cahan, mən bu cahana sığmazam». Ata-anası, fikir, əqidə dostları kimi, L.N.Qumilyov da [6-7] zamanına sığmadı və bu sığmazlığı ilə də ağır cəzalar yedi, böyük əzablar yaşadı. Fəqət tarixin şərəfli və ləyaqətli şəxsiyyəti kimi onun adı tarixə yazıldı. Doğrudur, vaxtilə böyük türk şairi Yəhya Kamal yazırdı: «Irkın səni ikliminə bənzər yaratırkən…». Bu sözlərdən çıxan məna budur ki, insan yaşadığı məkana, bölgəyə, o bölgənin iqliminə, coğrafiyasına, təbii şərtlərinə bənzəyir. İnsan oğlunun gendən, qan yaddaşından, zamandan, məkandan asılılığı, onlarla iç-içə bağlılığı sosial ortama, təbii tarixi dəyişmələrə ciddi təsir göstərir. Biosferik bağlam (kontekst) insanı müəyyənləşdirir və istiqamətləndirir. Bu açıdan L.Qumilyovun araşdırmaları humanitar elmlər üçün, xüsusilə etnologiya və sosiologiya üçün yeni perspektiv açmışdır. Şübhəsiz, Lev Qumilyov maddəçi sovet sistemindən tam qurtulmuş deyildi və onun fikirlərində, düşüncələrində bu ziddiyyət özünü açıq-aydın göstərir. Bununla yanaşı, L.Qumilyov yalnız əski sovet tarixşünaslığında deyil, bütün dünya tarixçiliyində tarixi, fəlsəfi metodologiyada, sosioloji və etnoloji sistemdə böyük yenilik yaratmışdır.

L.Qumilyovun baxışlar sisteminin elmi-tarixi qaynaqları ayrıca bir mövzudur. Bu böyük mövzunun təfərrüatına varmadan, bəzi xüsusları göstərmək lazımdır. İlk öncə, tarixi rasional baxışın təmsilçisi kimi,

L.Qumilyov yunan fəlsəfəsinin tarixə və topluma baxışına söykənmişdir. Şərq və Qərb mifoloji tarixini, mif təfəkkürünü dərindən bilən alim ***Tövrat*** və ***Quran*** fəlsəfəsinə də vaqif olmuşdur. ***Aydınlaşdırma çağının*** hər cür fikir silahı üçün mifoloji və dini qaynaqları mükəmməl bilməsi Lev Qumilyovu modern sistm yaratmağa kömək edən əsas amil olmuşdur. Sistemli elmi baxış konsepsiyasına gəldikdə isə, istər ***Platonun*** idealist başlanğıcı, istər ***Demokritin*** materialist konsepsiyası, istərsə ***Heraklit*** dialektikası və Sokratın fəlsəfi müdrikliyi Lev Qumilyov üçün fikir zəmini olmuşdur. Bu məktəbin Şərqdəki pərvərişi, özəlliklə ***Fərabi, İbn Sina*** və ilk növbədə, ***İbn Xəldun*** məktəbi Lev Qumilyovun etnoloji və sosioloji konsepsiyasının təməlidir. ***İbn Xəlduna*** söykənən Lev Qumilyov orta əsrlərdə Avropa dillərinə tərcümə olunan Monteskye, Didro, Volter, Russo, Marks kimi filosoflara fikir qaynağı olan Şərq mütəffəkirinin sosioloji baxışlarının bir tərəfini inkişaf etdirmişdir. Əslində L.Qumilyovun əksi olan sosioloji baxışın da qaynağı İbn Xəldun sistemidir. ***İki başlanğıcı özündə birləşdirən İbn Xəldun təbiət və cəmiyyət elmlərinin iki istiqamətli inkişafına zəmin yaratmışdır.*** Fransız, [7-8] alman, ingilis filosofları, o cümlədən K.Marks hələ XVIII əsrdə fransızcaya tərcümə olunmuş İbn Xəldun konsensiyası ilə tanış idi. Tarixi və cəmiyyəti müxtəlif şəkildə yozumlama, tarix fəlsəfəsini, özəlliklə səbəbiyyət amilini ayrı-ayrı şəkillərdə təfsir və şərhetmə elmin inkişafı üçün ciddi rol oynamışdır. Tarix yazmaq və tarixi qavramaq üçün sosial həyatın anlaşılması bir şərt olduğundan, ***İbn Xəldun*** uzaqgörənliyi marksizmin at oynatdığı əski sovet ideologiyası üçün də doğma ola bilməzdi. Bu yadlıq Lev Qumilyov sistemində də açıq-aydın şəkildə özünü göstərir. Lev Qumilyovun biologiya, kimya, coğrafiya kimi təbiət elmlərinə söykənməsi və V.İ.Vernadski sistemindən qidalanması onun tarixi və etnoloji baxışlarının dərinliyi üçün ciddi rol oynamışdır.

Biz Lev Qumilyov sistemini ehkam hesab etmirik və bu əsəri tərcümə etməkdə də məqsədimiz onu bütləşdirmək deyil. Amma bunu da inkar etmək mümkün deyil ki, Lev Qumilyov məktəbini keçmədən müasir etnologiya və sosiologiya elminin nəzəri konsepsiyasını dərk etmək ziddiyyətli və qüsurludur. Bu məktəbi öyrənmək, dərk etmək gələcək elmi baxışlar üçün zəruridir.

* * *

L.Qumilyov Avrasiya nəzəriyyəsinin banilərindən biridir. XX əsrin 20-ci illərindən başlayan (N.S.Trubetskoy, P.N.Savitski, Q.Florovski, N.Alekseyev, L.Karsavin, Q.Vernadski və b.) Avrasiya konsepsiyasının mərkəzində Avrasiya nəzəriyyəsinin coğrafi, tarixi, mədəni, ictimai-siyasi yozumu nə qədər fərqli olsa da, əslində, sintez mədəniyyətini, indi dəbdə olan qloballaşmanın yeni biçimini əks etdirir.

Şübhəsiz ki, Avrasiyaçılığın zaman keçdikcə ortaya çıxan geopolitik konsepsiyaları iki əsas qütbdə birləşir: əski SSRİ ərazisini ehtiva edən mədəni-siyasi-tarixi-coğrafi ərazi, Türk dünyasını ehtiva edən mədəni-siyasi-tarixi-coğrafi ərazi.

Avrasiyaçı L.N.Qumilyov üçün Avrasiyanın mərkəzi xətti tarixi türk-slavyan birliyi idi. «Avrasiya ritmləri» əsərində L.N.Qumilyov Avrasiya problemini geniş təhlil edərək, məsələyə müxtəlif elmi baxışları şərh etmiş, tarixi-coğrafi, etnik-mədəni, sosial-fəlsəfi aspektlərdə Avrasiya dünyabaxışının köklərini, mahiyyətini ətraflı şərh etmişdir.

Etnosu biosfer fenomeni kimi qəbul edən və onu müxtəlif yönlərdən açıqlayan L.Qumilyov sistem metodologiyası ilə təhlil [8-9] aparmış və mədəniyyət fəlsəfəsi, tarix fəlsəfəsi açısından, kosmosdan enerji alış-verişi, enerji dövriyyəsi və ***passionarlıq*** prinsiplərini ortaya qoyan şərtlər daxilində dərin araşdırma aparmışdır.

«Hunlar», «Əski çağda Orta Asiya», «Qədim Türklər», «Uydurulmuş səltənət axtarşında», «Hunlar Çində», «Qədim burjat rəsm sənəti», «Qədim Rus və Böyük Çöl», «Rusiyadan Rusiyayacan», «Xəzər dənizi ətrafında minilliklər», «Avrasiya ritmləri», «Qara əfsanə», «Son və yenidən başlanğıc», «Tarixin «arabeskləri» və s. əsərlərində və şübhəsiz ki, sırf nəzəri əsəri «Etnogenez və yerin biosferi» adlı əsərincə Avrasiyaçılığın tam elmi mənzərəsi verilmişdir.

Qan yaddaşında Söz möcüzəsi yaşayan Lev Qumilyov elmi təfəkkürlə bədii-fəlsəfi təfəkkürü birləşdirmişdir.

Dünyanın onlarca dilində çap olunan L.Qumilyov əsərləri ölümsüzlüyə qovuşmuşdur. Yeri gəlmişkən, biz L.Qumilyov əsərlərini çap edən, yayıb təbliğ edən «L.N.Qumilyov dünyası» fonduna, Rusiyada Avrasiya regional araşdırmalar Məkrəzinə, L.N.Qumilyov adına Qazaxıstan Dövlət Universitetinə, «Tanaıs» Biblioqrafiya Mərkəzinə, bütün dünyadakı Qumilyovşünaslara təşəkkürlərimizi bildirməyi özümüzə borc bilirik. [9-10]

**Kamil Vəli NƏRİMANOĞLU,**
**Əliheydər AĞAKİŞİYEV**

*Xanımım Natalya Viktorovnaya həsr olunur.*

***GİRİŞ: Söhbət nədən gedir və bu nə üçün mühümdür.***

*Burada heç bir dəlil gətirilmədən etnologiyanın zəruriliyi əsaslandırılır və müəllifin etnogenezə münasibəti açıqlanır. Dəlillərə isə traktatın qalan hissəsi həsr olunub və burada müəllif oxucunu ziddiyyətlər labirintindən keçirib aparır.*

## MƏYUS OLMAQ QORXUSU

Müasir oxucumuz tarix, yaxud etnogenez haqqında yeni kitab alıb, onun ilk vərəqini açdığı zaman hələ onu yarıya qədər belə oxuyacağına əmin olmur. Kitab ona maraqsız, mənasız görünə, yaxud da sadəcə, zövqünə uyğun olmaya bilər. Hər halda, oxücü çox şey itirmir, yalnız iki-üç manat zərərə düşür. Bəs müəllif? Material toplanması. Məsələnin qoyuluşu. Uzun illər davam edən axtarışlır. Yazı masası arxasında keçən illər. Rəyçilərlə aydınlaşdırmalar. Redaktorla mübarizə. Və... hamısı hədər yerə - kitab maraqsızdır! Kitabxanalarda yatıb qalır və... heç kəs onu alıb oxumur. Deməli, bütün ömür də hədər yerə sərf olunub.

Bu elə qorxulu bir şeydir ki, belə bir sonucdan xilas olmaq üçün hər cür ölçü götürülməlidir. Lakin hansı? Universitetdə və aspiranturada təhsil aldığı müddətdə gələcək müəllifə tez-tez belə bir fikir aşılanır ki, onun vəzifəsi mənbələrdən mümkün qədər çox sitatlar toplayaraq, onları müəyyən qaydada sıralamaq, nəticə çıxarmaq lazımdır: qədim dövrdə quldarlar və qullar olub. Quldarlar pis olsalar da, onlar üçün yaxşı idi; qullar yaxşı olsalar da, onlar üçün pis idi. Kəndlilər isə pis yaşayırdılar.

Əlbəttə, bütün bunlar doğrudur, lakin bəzi şeylərə aydınlıq gətirmir. Məsələn, niyə bir ordu məğlub olur, digəri isə qalib gəlirdi, nə üçün bəzi ölkələr güclənmir, digərləri güclənirdi? Nəhayət, qüdrətli etnoslar hansı səbəbdən yaranır və hara yox olurdu, halbuki onların üzvləri heç də kökündən qırılmırdılar.

Sadalanan sualların hamısı seçdiyimiz mövzuya - bu və ya digər xalqın qəfildən qüvvətlənməsinə və sonradan yox olmasına aiddir. Bunə ən parlaq nümunə XII-XVII əsrlərin monqolları olsalar da, digər xalqlar da bu qanunauyğunluğa tabe olurdular. Mərhum akademik B.Y.Vladimirtsev problemi dəqiq ifadə etmişdir: "Mən bütün bunların necə və nə üçün baş verdiyini anlamaq istəyirəm!" Lakin digər tədqiqatçılar kimi, o da bu sualı cavabsız [10-11] qoyub. Bizsə təkrar-təkrar bu suala qayıdır və inanırıq ki, oxucu elə ikinci səhifədən sonra kitabı bir kənara tullamayacaq.

Tamamilə aydındır ki, məsələnin həllinə nail olmaq üçün biz, ilk növbədə, tədqiqatın metodikasını araşdırmalıyıq. Əks halda, bu məsələ artıq çoxdan həll edilmişdi, çünki faktların miqdarı o qədər çoxdur ki, söhbət onların artırılmasından yox, məsələyə aid olanların seçilməsindən gedir. Hətta hadisələrin müasirləri olan salnaməçilər də informasiya okeanında itib-batırdılar ki, bu onları problemin həllinə heç də yaxınlaşdırmırdı. Son əsrlər ərzində arxeoloqlar bir çox məlumatlar əldə edib, salnamələr toplanıb, çap olunub və onlara izahlar verilib. Şərqşünaslar isə müxtəlif dillərdə olan mənbələri yunan, çin, latın, ərəb mənbələrinə kodlaşdıraraq, bilik ehtiyatlarını daha da artırmışlır. Məlumatların miqdarı artsa da, keyfiyyətə keçmir, kiçik bir tayfanın hansı yolla bəzən dünyanın yarısında hökmranlığa nail olması, sayını artırması və itib getməsi yenə də sirr olaraq qalırdı.

Bu kitabın müəllifi biliklərimizin, daha doğrusu, tədqiqatın predmetinə nabələdliyimizin dərəcəsi haqqında məsələ qaldırdı. İlk nəzərdən sadə və asan görünən şeylər, oxucunu maraqlandıran süjetlərə yiyələnmək cəhdi edilərkən müəmmaya /tapmacaya/ çevrilir. Bu səbəbdən də müfəssəl bir kitab yazmaq lazımdır. Təəssüf ki, biz həmin an dəqiq tərif vermək imkanından məhrumuq /ümumiyyətlə, onlar araşdırmaları xeyli yüngülləşdirir/. Lakin ilkin ümumiləşdirmələr etmək imkanımız mövcuddur. Bunlar problemin bütün mürəkkəbliyini aradan götürməsə də, elə ilk yanaşmada hələ gələcəkdə yazılmalı olan etnik tarixə təfsirlər verməyə yarayır. Kitabın lap əvvəlində "etnos" anlayışının dəqiq açıqlamasını tələb edən vasvası rəyçi meydana çıxdıqda isə belə söyləmək olar: etnos - termodinamikanın ikinci mənbə prinsipinə müvafiq olaraq canlı maddənin geobiokimyəvi enerji ilə işləyən biosfer fenomeni, yaxud diskret tipli sistem vəhdətidir ki, bunu tarixi hadisələrin diaxronik xronologiyası da təsdiq edir. Anlamaq üçün bu kifayətdirsə, kitabın ardını oxumağa ehtiyac yoxdur.

### Etnoslar Homo sapiens növünün mövcudiyyat forması kimi

Yüz ildən artıqdır ki, mübahisələr gedir: Homo sapiens bioloji növü dəyişirmi, yoxsa sosial qanunauyğunluqlar növyaratma amillərini tamamilə sıxışdırıb aradan çıxarmışlır? Bütün digər canlı [11-12] varlıqlar kimi, insan üçün də mühitlə maddələr və enerji mübadiləsi zərurəti mövcuddur, lakin onun digər canlılardan əsas fərqi ondadır ki, yaşaması üçün lazım olan demək olar ki, hər şeyi zəhmətlə əldə etməli olur və bunula da təbiətlə yalnız bioloji deyil, ilk növbödə sosial varlıq kimi qarşılıqlı əlaqəyə girir. Şərait və vasitələr, istehsal qüvvələri və onlara müvafiq olan istehsal münasibətləri aramsız olaraq inkişaf edir.

Lakin bəşəriyyətin sosial inkişaf qanunauyğunluqları bioloji qanunauyğunluqların, məsələn, mutasiyaların1 fəaliyyətini "ləğv etmir". Əksinə, nəzəri qərəzçilikdən deyil, inkişafın daha ümumi qanunauyğunluqlarına tabe olduğumuzu nəzərə almamaq və ya bilərəkdən inkar etməklə özümüzün özümüz vurduğumuz əməli zərərdən qurtulmamız üçün onları /bioloji qanunauyğunluqları - tər./ araşdırmaq zəruridir.

Metodoloji cəhətdən bu tədqiqatı istehsalın konkret üsullarından bilərəkdən uzaqlaşmaq şərtilə başlamaq mümkündür. Belə tədricolunma bir də ona görə özünü doğruldur ki, etnogenezin xarakteri bəşəriyyətin sosial inkişaf ritmindən əsaslı şəkildə fərqlənir. Güman edirik ki, belə yanaşma metodu zamanı bəşəriyyətlə təbiətin qarşılıqlı əlaqə mexanizminin cizgiləri daha aydın olar.

Texnika nə qədər inkişaf etmiş olsa da, insanlar həyat üçün zəruri olan hər şeyi təbiətdən əldə edirlər. Deməli, onlar trofik /hər şeyi tənzimləyən/ zəncirə yaşadıqları bölgənin biosenozunun ən yuxarı, tamamlayıcı həlqəsi kimi daxil olurlar. Belə olduğu halda isə onlar struktur - sistem vəhdətlərinin elementlərini təşkil edirlər. Həmin vəhdətlərə isə insanlarla yanaşı, demostikatlar /ev heyvanları və mədəni bitkilər/, həm insan tərəfindən dəyişdirilən, həm də bakirəliyini saxlamış landşaftlar, yer təkinin sərvətləri, qonşularla dostluq, yaxud düşmənçilik münasibətləri, sosial inkişafın bu və ya digər dinamikası, həmçinin dillərin /bir və daha artıq/ maddi və mənəvi mədəniyyət elementləri ilə uzlaşması daxildir. Bu dinamik sistemi etnosenoz adlandırmaq mümkündür. O, tarixi zamanda meydana çıxır və parçalanır, özündən sonra müstəqil inkişaf etmək qabiliyyətindən məhrum və yalnız dağılmağa qabil insan fəaliyyəti abidələri və homeostaz mərhələsinə yetişmiş reliktlər / qalıqlar/ qoyub gedir. Lakin hər bir etnogenez prosesi yer səthində silinməz izlər qoyub gedir ki, bunların sayəsində etnik tarixin ümumi qanunauyğunluqlarının xarakterini təyin etmək mümkün olur. Təbiətin dağıdıcı antrogen təsirlərdən xilası elmin əsas probleminə çevrildiyini hazırki dövrdə fəaliyyətinin hansı cəhətlərinin etnosları öz ağuşuna [12-13] almış landşaftlar üçün daha məhvedici olduğunu aydınlaşdırmaq tələb olunur. Axı, təbiətin insanlar üçün fəlakətlərə gətirib çıxaracaq şəkildə dağıdılması yalnız zəmanəmizin bəlası deyil və heç də həmişə mədəniyyətin inkişafı və əhali artımı ilə müşayiət olunmur.

Qanunauyğun inkişafın iki formasının qarşılıqlı əlaqəsi məsələsini qoyan zaman, yanaşma aspekti barədə razılığa gəlmək tələb olunur. Söhbət ya biosferin insan fəaliyyətilə əlaqədar inkişafından, ya da təbii mühitin: bisfer və Yerin digər təbəqələrini - litosferi və troposferi təşkil edən ətalətli maddənin təşəkkülü ilə bağlı bəşəriyyətin inkişafından gedə bilər. İnsanla təbiətin təmasları daimi olsa da, həm məkan, həm də zamanca son dərəcə müxtəlif variantlıdır. Lakin zahiri rəngarəngliyin arxasında müşahidə edilən bütün fenomenlər üçün səciyyəvi olan vahid prinsip dayanır. Məsələnin belə qoyuluşu da elə məhz buna görədir!

Yerin təbiəti son dərəcə rəngarəngdir. Digər məməlilərdən fərqli olaraq, bəşəriyyət də çox müxtəlifdir, çünki insanın təbii arealı yoxdur və o, yuxarı paleolitdən başlayaraq, planetin bütün quru ərazisinə yayılıb. İnsanın adaptasiya qabiliyyəti digər heyvanlardakılardan bir pillə yuxarıdır. Deməli, müxtəlif coğrafi bölgələrdə və müxtəlif dövrlərdə insanlar və təbii komplekslər / landşaftlar və geobiosenezlər/ müxtəlif cür əlaqəyə girir. Özü - özlüyündə bu qənaət perspektivsizdir, çünki kaleydoskop tədqiq oluna bilməz. Lakin bu problemə təsnifat daxil edək və hər şey başqa şəkildə olacaq. Təbiətin qanunauyğunluqları və materiyanın hərəkətinin sosial formaları arasında daimi korrelyasiya mövcuddur. Lakin onun mexanizmi necədir və təbiətlə cəmiyyətin təmas nöqtəsi haradadır? Bu nöqtə isə mövcuddur, əks halda təbiətin insandan mühafizəsi məsələsi meydana çıxmazdı.

S.V.Kolesnik coğrafiyanı 1/iqtisadi - insanların fəaliyyətini tədqiq edən və 2/fiziki - Yerin təbii qatlarını, o cümlədən biosferi tədqiq edən kimi bölməyi təklif etmişdir.2 Çox ağıllı bölgüdür. Təbiət bizim yarada bilmədiklərimizi - dağları, çayları, meşələri və çölləri, yeni heyvan və bitki növlərini yaradır. İnsanlar isə evlər tikir, maşınlar quraşdırır, heykəllər yaradır və traktatlar yazırlar. Təbiət bunları etməyə qadir deyil.

Təbiətin yaratdıqları ilə insanın yaratdıqları arasında prinsipial fərq varmı? Bəli! Təbiətin elementləri bir-birinə keçir… "Bu daş nə vaxtsa nərə çəkirdi, bu mamır göylərdə pərvazlanırdı". Təbiət əbədi yaşayır, Günəş və Qalaktikamızın ulduzlarından, [13-14] planetimizin dərinliklərindəki nüvə parçalanmasından aldığı enerji hesabına daha da dolğunlaşır. Yer planetinin biosferi genişlənməyə can atan atomların biogen miqrasiyası yolu ilə bəşər entropiyasına qalib gəlir.3 Və əksinə, insan tərəfindən yaradılan əşyalar qala da, məhv ola da bilər. Piramidalar uzun müddət qalacaq, Eyfel qülləsi isə bu müddətə davam gətirməz. Lakin nə o, nə də bu əbədi deyil. Texnosfer nə qədər möhtəşəm olsa belə, onunla biosfer arasındakı köklü fərq də elə bundan ibarətdir.

Tədqiqat predmeti. Etnos haqqında elmin hazırki vəziyyətinin icmalı oxucuda təəccüb doğurmalıdır. Bu mövzuda yazan bütün müəlliflər, o cümlədən etnoqraflar da, əslində həqiqi etnoloji səciyyələri peşə, zümrə və i. a. əvəzləyirlər ki, bu da etnosun bir reallıq kimi inkarına bərabərdir. Etnosun mövcud olmasına yalnız onun insanlar tərəfindən bilavasitə fenomen kimi duyulması dəlalət edir ki, bu da özlüyündə hələ sübut deyil. Şair belə deyib: "Gecə də, gündüz lə Günəş gözümüzün önündən keçib gedir, lakin tərs Qaliley haqlıdır." Həqiqətən, etnoloqun pissimizmə qapılmaq üçün ilk nəzərdən təkzibolunmaz görünən bəzi əsasları var.

Etnologiya yaranmaqda olan elmdir. Ona ehtiyac yalnız XIX əsrin II yarısında meydana çıxdı. Bu zaman aydın oldu ki, etnoqrafik toplular və məlumatların sadəcə olaraq yığılıb qalması qarşısına problemlər qoymayan bir elmin boş kolleksiyaçılığa çevrilməsi təhlükəsini törədir. Odur ki, gözümüz görə-görə ilk nəzərdə eyni bir predmetlə – bəşəriyyətlə maraqlanan, lakin ona iki tamamilə müxtəlif aspektdən yanaşan iki elm meydana çıxdı – ictimaiyyəşünaslıq və etnologiya. Bu – qanunauyğundur. Hər bir adam eyni zamanda həm sosium, həm də etnos üzvüdür və bunlar heç də eyni şey deyil. Eynilə, bir elm kimi etnologiya öz tərifini tələb edir. Hələlik belə qəbul edək ki, etnologiya – etnik kollektivlərin davranış impulsları haqqında elmdir və etnologiyaya – heyvanların davranışı haqqında elmə bənzəyir. İmpulslar şüurlu və hissi ola bilər, fərdin şəxsi iradəsindən doğmuş, yaxud ənənənin, kollektivin təsirinin, xarici şəraitin, coğrafi mühitin, hətta tarixin irəliyə hərəkətinin məhsulu ola bilər. Belə mürəkkəb bir sualı anlamaq üçün müvafiq metodika lazımdır. Bu metodika isə ya humanitar, ya da təbiət elmlərinin ənənəvi metodikası ola bilər. Bəs tamamilə yeni bir elm sahəsinə girişən alimlərin qarşısında duran məsələləri müvəffəqiyyətlə həll etmək üçün hansını götürmək lazımdır?

İlk növbədə "humanitar elmlər" anlayışını dəqiqləşdirək. Orta əsrlərdə xristian dünyasında nüfuzlu elmi məlumatların yeganə [14-15] tam nüfuzlu mənbəyi iki kitab idi: İncil və Aristotelin əsərləri. Elm onlardan gətirilən sitatlara təfsirlər verməkdən ibarət idi. Sitatları düzgün seçmək tələb olunurdu, çünki savadsız iyerarxlar tez-tez özlərindən peyğəmbərlərin, İsanın və Aristotelin kəlamlarını uydururdular. Müasir dövrə qədər gəlib çıxan mətnə istinad sistemi də elə o dövrdə yaranmışdır. Elmin bu mərhələsi sxolastika adlanırdı və artıq XV əsrdə o, alimləri qane etmirdi. Belə olduqda, mənbələrin dairəsi genişləndirildi - digər qədim müəlliflərin əsərlərindən istifadə olunurdu ki, bunların da mətnlərini yoxlamaq tələb olunurdu. Beləcə sxolastikadan mətnlərə yanaşması ilə fərqlənən humanitar /yəni ilahi deyil, insani/ elm - filologiya meydana çıxdı. Lakin hər iki halda mənbə eyni idi – özgələrin sözləri. İntibah dövrdən sonra görkəmli təbiətşünaslar təbiəti müşahidəyə və təcrübələrə əsaslanan təbiət elmini informasiyanın əldə olunmasının humanitar üsullarına qarşı qoydular. Sualların qoyuluşu dəyişildi: "qədim müəlliflər nə deyiblər?" əvəzinə, "əslində necədir?" aydınlaşdırmağı can atırdılar. Gördüyümüz kimi, tədqiqat predmeti deyil, yanaşma və müvafiq olaraq, metodika dəyişdi.

Yeni metodika ləng və qeyri-bərabər şəkildə nüfuz qazanırdı. Hələ 1633-cü ildə Qaliley yerin Günəş ətrafında fırlanması ideyasından imtina etməli oldu. Bu zaman onun əleyhdarları ona əsaslanırdılar ki, onlara məlum olan ədəbiyyatda belə məlumat yoxdur. XVIII əsrdə Lavuazye Fransa Elmlər akademiyasının iclasında meteorit düşməsi xəbərini "qeyri-elmi" elan etdi: "Göydən daş düşə bilməz, çünki göydə daş yoxdur!"

Yalnız XIX əsrdə coğrafiya amazonkalar /cəngavər qadınlar/, tüklü /qıllı/ adamlar, gəmiləri batıran nəhəng cprutlar, sıravi oxucuların hərfi mənada qavradıqları digər cəfəngiyyatdan xilas ola bildi. Nə təcrübə keçirə, nə də müşahidəni təkrar edə bilən tarixçilərin vəziyyəti hamıdan ağır idi. Lakin bu zaman köməyə mənbənin həm komparativ, həm də daxilən tənqidə məruz qoymağa imkan verən monist yanaşma köməyə çatdı. Bir çox ağır, hərtərəfli tədqiqatlar sayəsində xronoloji cəhətdən əsaslandırılmış bir çox şübhə doğurmayan faktlar siyahıları tərtib olundu, şübhəli görünənlərin bir hissəsi rədd olundu. Bu möhtəşəm bilik xəzinəsi yalnız müəyyən bir obyektə aid edildikdə fayda gətirər. Həmin obyektin sosial birliklər-siniflər, yaxud siyasi vəhdətlər - dövlətlər, ya da ki, bizi maraqlandıran etnoslar olmasının heç bir fərqi yoxdur. Sonuncu halda tarixdəki məlumatlar "informasiya arxivinə" çevrilərək, digər coğrafi, bioloji, biofiziki və biokimyəvi materiallarla yanaşı [15-16] etnologiyanın məqsədlərinə xidmət edir. Bu isə, öz növbəsində, yaradıcı sintez mövcud olduğu halda, etnologiyanı ilkin material yığımı zamanı qeydə alınmış kifayət qədər həqiqi materiala əsaslanan təbiət elmi kimi qəbul etməyə imkan verir.

İndi isə ən əsas tezisə qayıdaq: həm təsvirli, həm də nəzəri etnoqrafiyanın coğrafiyanın diqqət dairəsindən çıxaraq, bütövlükdə tarix elmləri sahəsinə aid olduğunu demək olarmı? Yox, heç vəchlə! Fikrimizcə, belə mövqe əsassız və destruktivdir. O, elmi kasadlaşmağa, yəni elmi əməkdaşın bilik səviyyəsinin aşağı sayəsində sadələşməsinə doğru aparır. Doğrudur, onun işi yüngülləşir, lakin elmi fəaliyyəti perspektivliyini itirir və oxucuda maraq doğurmur. Qorxuram ki, burada qoyulan tezislə inadla razılaşmamaq nəinki təyinatına görə tətbiq olunmayan tarixi metodikanın, elmin - etnoqrafiyanın da nüfuzdan salınmasına gətirib çıxara bilər. Çünki elm üçün yalnız bir inkişaf yolu var - material toplanması və təsvirilə yanaşı, onun məsələnin qoyuluşunun tələb etdiyi yöndən təfsiri də baş verir.

Fəlsəfəyə ekskurs. Burada mümkün qədər qısa olmaq gərəkdir. Axı, biz ona əsaslanırıq ki, öz təşəkkülündə etnos təbii fenomendir və onun tədqiqinin bünövrəsi yalnız təbiətşünaslıq fəlsəfəsi, yəni dialektik materializm ola bilər. Tarixi materializm öz qarşısına ictimai inkişafın qanunauyğunluqlarının açılması məqsədini qoyur, yəni Marksın təbirincə, insanların vücudundakı təbiət tarixinə deyil, bəşər tarixinə aiddir. Hər iki "tarix" sıx qovuşaraq qarşılıqlı əlaqədə olsa da, elmi təhlil baxış nöqtəsinin, yəni aspektin dəqiqləşdirilməsini tələb edir. Cəlb etdiyimiz tarixi material bizim informasiya arxivimizdən başqa bir şey deyil. Təhlilin məqsədləri üçün bu zəruri və kifayətdir. Bununla əlaqədar K. Marks çox dəqiq fikir söyləmişdir: "Tarix özü təbiət tarixinin, təbiətin insan tərəfinin təşəkkülünün h ə q i q i hissəsidir. Sonralar təbiətşünaslıq insan haqqında elmi həmin elmin onu ehtiva etdiyi qədər ehtiva edəcək: bunlar bir elm olacaq". (4) Hazırda biz belə bir elmin yaranması ərəfəsindəyik.

Söhbət sintezdən getdikdə isə müvafiq olaraq, problemə yanaşma da dəyişəcək. Amma məlum olduğu kimi, sintezdən əvvəl analiz gəlir və hadisələri qabaqlamağa ehtiyac yoxdur. Yalnız onu qeyd edək ki, bu halda da elmi materialist təbiətşünaslığın əsasları sarsılmaz qalır. Terminlərin anlamı və metodikanın xarakteri barədə razılığa gəlib, problemin qoyuluşuna keçək. [16-17]

Bəşəriyyət Homo sapiens növü kimi. Adətən, "İnsan və Yer", yaxud "İnsan və Təbiət" deyilir, halbuki hələ orta məktəbdə izah olunur ki, bu - erkən orta əsrlərdən miras qalmış elementar, primitiv antrosentrizmdir. Bəli, əlbəttə insan nə mezozoy dövrünün dinozavrlarının, nə kaynazoy dövrünün mahayredusunun yarada bilmədikləri texnikanı yaratmışdır. Lakin XX əsrin bütün nailiyyətlərinə baxmayaraq, hər birimizin daxilində təbiətin bir parçası mövcuddur və o həm fərdi, həm də növ həyatının məzmununu təşkil edir. Digər şərtlə bərabər olduğu halda, insanlardan heç biri nəfəs almaqdan, yeməkdən, ölümdən qurtulmağa canatmadan və nəslini qorumaqdan imtina etməz. İnsan növ, Yerin təbəqələrindən biri olan biosfer hüdudlarında qalmışdır. İnsan ona xas olan həyat qanunlarını texnika və mədəniyyətin səciyyəvi hadisələrilə uyğunlaşdırır. Həmin səciyyəvi hadisələr insanı zənginləşdirsə də, onu doğulduğu mühitə aidiyyatından məhrum etməmişdir.

Bioloji növ kimi bəşəriyyət - buzlaq dövründən sonra Yer kürəsinin bütün ərazisinə yayılmış külli miqdarda variasiyaları olan vahid növdür. Növün paylaşma sıxlığı müxtəlif olsa da, qütblərdəki buzlaqlar istisna olmaqla, bütün Yer üzü insan məskənidir. İnsan ayağı dəyməyən "bakirə" ərazilər olduğunu düşünmək lazım deyil. Müasir səhralar və cəngəlliklər paleolit dövrünə aid insan məskənlərinin izlərilə doludur: Amazon meşələri vaxtilə qədim sakinlərinin əkinçilik fəaliyyətinin qurbanı olan torpaqlarda bitir, hətta And və Himalay dağlarının sıldırım qayalıqlarında belə bizim üçün anlaşılmaz qalan tikililərin izləri tapılmışdır. Başqa sözlə, mövcud olduğu müddət ərzində Homo sapiens növü dəfələrlə və daim yer üzərində paylaşmasını təkmilləşdirmişdir. Hər hansı digər bir növ kimi, o da mümkün qədər geniş əraziləri, mümkün qədər böyük sıxlıqla mənimsəməyə çalışmışdır. (5) Lakin nə isə ona mane olur, imkanlarını məhdudlaşdırırdı. Nə?

Məməlilərin əksəriyyətindən fərqli olaraq Homo sapiens nə sürü, nə də ayrıca yaşayan növ adlandırıla bilməz. İnsan yanaşma növündən asılı olaraq, gah sosium, gah da etnos kimi nəzərdən keçirilən kollektivdə yaşayır. Daha dəqiq desək, hər bir insan eyni zamanda həm cəmiyyət üzvü, həm də xalqının nümayəndəsidir. Amma bu iki anlayış bir müqayisəyə gəlmir və müxtəlif təbəqələrə aiddir (məsələn, uzunluq və çəki, qızma dərəcəsi və elektrik cərəyanı kimi).

Bəşəriyyətin sosial inkişafı yaxşı araşdırılıb və onun qanunauyğunluqları tarixi materializm tərəfindən formulə edilib. Sosial [17-18] formaların ictamai - iqtisadi formasiyalar vasitəsilə daxili səbəblər üzündən (spontan) inkişafı yalnız kollektiv daxilində olan insana xasdır və onun bioloji strukturu ilə heç cür ilgili deyil. Bu məsələ o qədər aydındır ki, onun üzərində dayanmağa dəyməz. Əvəzində, terminoloji qarışıqlığa yol verməmək məqsədilə etnoslar adlandırdığımız xalqlarla ilgili məsələlər son dərəcə qarışıq və cəfəngiyyatla doludur. Bir şey şübhə doğurmur - yer üzərində etnos xaricində olan bircə adam belə yoxdur. İstənilən şəxs "Sən kimsən?" sualına bir an belə düşünmədən "fars", "rus", "türk", "fransız" və i. a. cavabını verir. Deməli, şüurda etnik mənsubiyyət - ümumi hadisədir. Amma bu da hələ hamısı deyil.

"Etnos" anlayışının açıqlanması. Yuxarıda sadalanan adamların hər biri öz cavabını necə mənalandırır? Öz xalqım, millətim, tayfam dedikdə o nəyi nəzərdə tutur və qonşulardan fərqini nədə görür? Etnik diaqnostikanın indiyə qədər həll olunmayan problemi də elə budur. Məişət səviyyəsində bu problem heç bir yol oynamır - işıqla zülmət, isti ilə soyuq, şirinlə acı arasında fərq axtarmaq heç kimin ağlına gəlməz. Başqa sözlə, meyar kimi hisslər çıxış edir. Gündəlik həyat üçün bu kifayət etsə də, anlamaq üçün bəs etmir. Tərifə ehtiyac yaranır. Lakin burada fikir çarpazlaşması meydana çıxır. "Etnos ümumi mənşə ilə şərtlənən hadisədir", "etnos - dil ümumiliyindən doğan mədəni hadisədir"; "etnos bir birinə bənzəyən insanlar qrupudur"; "etnos - bu və ya digər formasiyadan asılı olaraq insanları ümumiləşdirən şərti təsnifdir" (bu o deməkdir ki, etnos kateqoriyası qeyri - realdır); "etnos ümumi özünüdərk əsasında birləşmiş insan toplusudur"; "etnos sosial kateqoriyadır".

Sovet alimlərinin təbiətlə ictimai insanın mütənasibliyinə dair baxışlarının təfərrüatlarına görə fərqlənənlərini, ümumiləşdirdikdən sonra onlardan üçünü qeyd etmək olar: 1. "Vahid" coğrafiya insanın bütün fəaliyyətini təbii qanunauyğunluqlara çevirir. (6) 2. Bəzi tarixçi və etnoqraflar bəşəriyyətlə ilgili bütün fenomenləri sosial hesab edərək, yalnız anatomiya və qismən də fiziologiyanı istisna sayırlar. (7) 3. Antropogen proseslərdə materiyanın hərəkətinin ictimai və təbii (mexaniki, fiziki, kimyəvi, bioloji formalarının təzahürləri fərqləndirilir. Son nəzəriyyə, fikrimizcə, yeganə düzgün nəzəriyyədir.

Məşhur arxeoloq və xəzərlərin tarixinin görkəmli araşdırıcısı M. İ. Artamonovun baxışları xüsusi yer tutur. Onun arxeoloji, yəni ölü mədəniyyətlər və inkişafdan məhrum, yalnız zaman keçdikcə aşılanan abidələrlə uzunmüddətli məşğuliyyətdən doğan fikrinə görə, [18-19] "sinif kimi etnos da sosial təşkilat deyil, hal, vəziyyətdir. Bu zaman insanın mədəni səviyyəsi nə qədər yüksək olarsa, onun təbiətdən asılılığı da bir o qədər az olar. Bu, Hamıya məlum həqiqətdir.". (8) Mülliflə razılaşmaq bir qədər çətindir.

Sonuncu tezisdən başlayaq. İnsan orqanizmi Yerin biosferinə daxildir və biosenozun konversiyasında (şərtlərinin dəyişdirilməsində,-tər.) iştirak edir. Heç kim sübut edə bilməz ki, professor buşmendən fərqli şəkildə nəfəs alır, yaxud qeyri - cinsi yolla nəsil artırır, ya kükürd turşusunun dəriyə

təsirini duymur, yeməksiz dolana bilir və ya birdəfəyə 40 adamın yediyini yeyir, ən nəhayət, Yerin cazibə qüvvəsi ona başqa cür təsir edir. Əslində bütün bunlar fəaliyyət göstərən və düşünən, mühitə uyğunlaşan və onu öz tələbatlarına uyğunlaşdıran, kollektivlər şəklində birləşən və dövlətlər yaradan həmin orqanizmin təbiətdən asılılığıdır. Düşünmək qabiliyyətinə malik fərdilik də oqranizmlə vəhdət təşkil etdiyindən, Yer planetinin təbəqələrindən biri olan canlı təbiətdən kənara çıxmır. Bununla yanaşı, insan digər canlılardan əmək alətləri düzəltməklə keyfiyyətcə yeni bir təbəqə - texnosfer yaratması ilə fərqlənir. İnsan əllərinin həm ətalətli, həm də canlı maddədən yaratdıqları (alətlər, incəsənət nümunələri, ev heyvanları, mədəni bitkilər) biosenozun konversiyasından kənarda qalır. Onlar yalnız da mövcud olur, ya da konservasiya olunmadıqda dağılıb gedir. Sonuncu halda təbiətin sonuna qayıdırlar. Çöldə atılıb qalan qılınc paslanır: və dəmir oksidinə çevrilir. Uçub-dağılan qəsr adi təpə olur. Vəhşiləşən it dinqoya, at isə mustanqa dönür. Bu, əşyaların (texnosferin) ölümü və təbiətin ondan oğurlanan materialı özünə qaytarmasıdır. Qədim sivilizasiyaların tarixi göstərir ki, təbiət texnikadan ziyan çəksə də, son nəticədə qalib gəlir və özünə məxsus olanı özünə qaytarır. Təbii ki, bərpası mümkün olmayan əşyalar istisna olunmaqla. Bunlar meyidlər, hətta mumiyalardır, çünki biosfer onları öz ağuşuna qaytara bilmir. Lakin planetimiz fəlakətə düçar olduğu halda, ətalətli maddələrdəki kimyəvi və termik (istilik) proseslər onları ilkin hala [19-20] sala bilər. Ona qədər isə bunlar sivilizasiyanın abidələri adlandırılacaq, çünki bizim texnikamız da nə vaxtsa abidəyə çevriləcək.

S.V.Kalenskinin təklif etdiyi təsnifatı əsas kimi götürərək, biz orada etnos fenomeni üçün yer tapmalıyıq. Hadisələri bir qədər qabaqlayaraq qeyd edək ki, etnos biosferlə sosiosfer sərhəddində yerləşərək, Yerin biosferinin strukturunda kifayət qədər xüsusm təyinata malik hadisədir. Dediklərimiz deklarasiya kimi səslənsə də, oxucumuz artıq bu kitabın nə məqsədlə yazıldığından xəbərdardır və müəllifin sadəcə tərif verməyə deyil, onun əldə olunmasına aparıb çıxaran yolu bütövlükdə göstərməyə, onun müasir elmin səviyyəsinə, tələblərinə cavab verdiyinə inandıran əsaslar üzərində qurulduğunu nümayiş etdirməyə çalışır. Bütün bunlardan sonra biz dəlillər sisteminə keçə bilərik. [20-21]

# BİRİNCİ HİSSƏ

# GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN HAQQINDA

**Burada səthi müşahidələrin araşdırıcını yanlış yola apardığı sübut olunur və özünənəzarət və özünüyoxlama üsulları təklif edilir**

## 1. ETNOQRAFİYANIN FAYDASI VƏ DƏF OLUNMALI ÇƏTİNLİKLƏR HAQQINDA

Etnosların təkrarsızlığı. Hər hansı bir xalq (1) uzun müddət sakitcə öz vətənində yaşayarsa, onda belə bir təsəvvür yaranır ki, həyat tərzi, davranışı, zövqləri, baxışları, sosial münasibətləri, bir sözlə indi "davranış stereotipi" adlandırılan hər şey onlarda yeganə düzgün və mümkün olanıdır. Harada isə müəyyən sapıntılar olsada, bunlar... "savadsızlıqdan" irəli gəlir. "Savadsızlıq" dedikdə isə sadəcə olaraq söyləyənin özünə bənzəməmək nəzərdə tutulur. Yadımdadır, uşaq ikən Mayn Ridə aludə olmuşdum və özünü mədəni sayan bir xanım mənə dedi: "Zəncilər də bizim mujiklarin tayıdır, amma rəngləri qaradır". Onun ağlına belə gələ bilməzdi ki, Malanta sahillərindən olan cadugər qadın da eyni əsasla "İngilis də bizim kimi insan kəllələri ovçusudur, amma rəngi ağdır" deyə bilər. Bəzən obıvatel mühakimələri daxilən məntiqi görünür, halbuki reallığın inkarına əsaslanır. Lakin həmin reallıqla təmasa girən kimi onlar tikə-tikə parçalanır.

Qərbi Avropanın orta əsrlər elmi üçün etnoqrafiya aktual deyildi. Avropalıların digər mədəniyyətlərlə təmasları sahillərində Roma imperiyasının bir qismi İslamı qəbul etmiş keçmiş təbəələrinin xələflərinin yaşadıqları Aralıq dənizi hövzəsi ilə məhdudlaşırdı. Əlbəttə, bu onları "franklar" və "latınlardan" fərqləndirsə də mədəniyyətin ümumi köklərə malik olması həmin fərqin anlaşılmazlığa çevrilməsinin qarşısını alırdı. Lakin böyük coğrafi kəşflər dövründə vəziyyət kökündən dəyişirdi. Zənciləri papuaslar, Şimali Amerika hindularına münasibətdə tətbiq olunması məqbul sayıla bilən "vəhşi" sözünü çinlilər, hindular, asketlər və inklərə aid etmək mümkün deyildi. Başqa izahlar axtarmaq lazım idi.

XVI əsrdə uzaq ölkələri kəşf edən avropalı səyyahlar qeyri-ixtiyarı olaraq onlarda adət etdikləri həyat formalarını axtarmağa başladılar. Xaçpərəstliyi qəbul etmiş kasikləri zadəgan sayan ispan [21-22] konkistadorları onlara "don" titulu verirdilər. Zənci tayfalarının başçıları "kral" titulu alırdılar. Tunqus şamanlarını "keşiş" adlandırsalar da, bunlar xəstəliklərin səbəblərin zalım "ruhlarda" görən, öz növbəsində, onları da, özlərini də heyvanlar, yaxud həmtayfaları kimi maddi varlıqlar sayan təbiblərdən başqa bir şey deyildilər. Qarşılıqlı anlaşılmazlıq anlaşmalı bir şey olmasına dair əmniyyətin olması ilə daha da möhkəmlənirdi ki, bu da aborigenlərin hisslərini təhqiq edən avropalıların öldürülməsinə səbəb olurdu. Buna cavab olaraq, ingilislər və fransızlar amansız cəza ekspertiziyaları təşkil edirdilər. Ziyalı avstriyalı aborigen Vayruldanya, yaxud Filip Roberts nəzərə çarpan heç bir səbəb olmadan meydana çıxan faciələrdən bəhs edir. Belə ki, aborigenlər siqaret yandıran avropalını bədənində alov gəzdirən ruh bilərək öldürmüşdülər. Bir başqa avropalının qətlinə səbəb cibindən saat çıxması və bu zaman günəşə baxması olmuşdu. Aborigenlərə elə gəlmişdi ki, o, Günəşi cibində gəzdirir. Bu cür anlaşılmazlıqlar əks təsirə - bütöv tayfaların qılıncdan keçirilməsi ilə sonuclanan cəza ekspedisiyalarının təşkilinə səbəb olurdu. Avstraliya aborigenləri və Yeni Qvineya papuaslarının yalnız ağdərililərlə deyil, malayyalılarla da toqquşmaları olurdu. Onların durumunu xüsusilə ağırlaşdıran yabançıların özlərilə gətirdikləri keçici xəstəliklər idi.(2)

30 oktyabr 1968-ci ildə atroari hinduları Amazonkanın qollarından biri olan Manaus çayı sahillərində Kolyari adlı missioneri və onun səkkiz yoldaşını qətlə yetirdilər. Səbəb çox sadə idi - nəzakətsizlik. Belə ki, müqəddəs ata atroarilərin ərazilərinə gəlişini atəş açmaqla bəyan etmişdi, bu isə hinduların adətlərinə görə ədəbsizlik sayılırdı. Bundan əlavə, ev sahiblərinin etirazlarına baxmayaraq, Kolyari onların komalarına daxil olmuş, uşağın qulağını dartmış, içində şorba olan qazançanı götürməyi qadağan etmişdi. Bütün dəstədən hinduların adətlərini bilən, onun məsləhətlərinə qulaq asmaq istəməyən və Amazonka sahillərində ya - şayanların Po sahillərində yaşayanlara tamamilə bənzəmədiklərini unudan padre Kalyaridən uzaqlaşan meşəbəyi salamat qalmışdı. (3)

Yalnız uzun bir müddət keçdikdən sonra ortaya belə bir sual çıxdı: aborigenləri qırmaqdansa, onlara uyğunlaşmaq daha yaxşı olmazmı? Lakin bunun üçün digər mədəniyyətlərə mənsub olan xalqların yalnız avropalılardan yox, bir-birindən də təkcə dil və etiqadlarına görə deyil, bütövlükdə "davranış stereotiplərinə" görə fərqləndikləri fikrilə razılaşmaq və yersiz mübahisələrdən qurtarmaq üçün həmin "stereotipi" araşdırmağın zəruriliyini qəbul etmək [22-23] lazımdır. Xalqlar arasındakı fərqlər haqqında elm olan etnoqrafiya beləcə yarandı.

Milli - azadlıq hərəkatının zərbələri altında geri çəkilən müstəmləkəçilik yox olmaqdadır, lakin etnoslararası təmaslar qalır və genişlənir. Deməli, qarşılıqlı anlaşma yaradılması problemi həm dünya siyasətinin qlobal miqyasında, həm də mikroskopik - qanışirin görünən, lakin bizə bənzəməyən adamlarla şəxsi görüşlər miqyasında getdikcə daha da zəruri olur. Belə olduqda, əməli əhəmiyyətinə baxmayaraq, nəzəri mahiyyət daşıyan yeni bir sual ortaya çıxır: Hansı səbəbdən bir birimizə bənzəməyən biz insanlar bir-birimizə "uyğunlaşmalı", özgə adət-ənənələrini öyrənməli, bizə təbii görünən, etnosdaxili təmaslar üçün

kifayət edən və qonşularımızla ilişkilər üçün qənaətbəxş olan yeni yollar aramalıyıq? Bəzi hallarda etnik cəhətdən bir birinə bənzəməmək coğrafi şəraitin müxtəlifliyilə izah etmək olar. Lakin o, iqlim və landşaftların oxşar olduqları yerlərdə də müşahidə edilir. Görünür, burada tarixsiz iş olmayacaq.

Həqiqətən, müxtəlif xalqlar müxtəlif dövrlərdə tapırdılar və fərqli tarixi talelərə malik olurdular. Həmin talelər isə ayrı - ayrı adamların xarakterlərini formalaşdıran şəxsi tərcümeyi - hallar kimi silinməz iz qoyurlar. Əlbəttə, insanın onu qidalandıran təbiətlə gündəlik təması vasitəsilə coğrafi mühit də etnoslara təsir göstərir. Lakin bu hələ hamısı deyil. Əcdadlardan miras qalan ənənələr də rolunu oynayır, qonşularla (etnik əhatə ilə) olan ənənəvi düşmənçilik, yaxud dostluq özünün mədəni təsirini göstərir, dinin öz önəmi var. Lakin bütün bunlardan əlavə, hər hansı bir təbii hadisə kimi, etnoslara da aid olan inkişaf qanunu da mövcuddur. Onun xalqların yaranması və yox olmasının rəngarəng proseslərindəki təzahürlərini biz etnogenez adlandırırıq. Materiyanın hərəkətinin bu formasının xüsusiyyətlərini nəzərə almadan biz etnopsixologiyanın sirrini nə əməli, nə də nəzəri cəhətdən açıqlaya bilmərik. Bizə hər ikisi gərək olsa da, seçdiyimiz yolda gözlənilməz çətinliklər meydana çıxır.

Tətbiq olunan terminologiyanın qarışıqlığı. İlkin informasiyanın artıqlığı və sistemləşdirmə prinsiplərinin zəif işlənməsi tarix və etnoqrafiyaya xüsusilə pis təsir göstərir. Axı, təkcə elə kitabiyyat bütöv bir cild təşkil edir ki, bəzən onlardan baş açmaq heç də elmi problemləri aydınlaşdırmaqdan asan olmur. Oxucuda məqalələrin çoxcildlik, həm də çox vaxt artıq köhnəlmiş ad siyahısını oxumağa deyil, hadisələrin bütün məcmusunu (aktualizm prinsipi), yaxud da onların təşəkkülünün bütün üsullarını izləmək tələbatı var. [23-24] Marksizim banilərinin əsərlərində tarixi proseslərin anlaşılmasına sistemli yanaşma proqramı olsa da, o hələ etnogenezə tətbiq edilməmişdir.

Doğrudur, qədim və qismən unudulan tarixşünaslıqdan bu sahəyə sistemli metod daxil etmək cəhdləri məlumdur. Lakin təbiət elmlərinin nümayəndələrindən fərqli olaraq, onlara qarşı nə anlaşma, nə də hüsn - rəğbət olmayıb. Hazırda Polibinin nəzəriyyəsini zərif bir əntiq şey, İbn Haldun nəzəriyyəsini gülünc hadisə kimi qarşılayırlar. Cambatista Viko yalnız elm tarixində xatırlanır. N.Y.Danilevski, O.Şpenqler, A.Toyanbinin möhtəşəm, lakin bir o qədər də uğurlu olmayan konstruksiyaları tarixi modellər quraşdırılmasından ümumiyyətlə imtina etmək üçün bəhanə oldu. Bu prosesin sonucu birmənalıdır. Tarixi olayların bütün məcmusunu yadda saxlamaq mümkünsüz olduğu, sistem olmadıqda isə ümumi terminologiya da olmadığı və ola bilmədiyi üçün, hətta tarixçilər arasında belə ildən ilə çətinləşir.

Terminlərə müxtəlif çalar və mənalar verməklə tarixçilər onları çoxmənalı sözlərə çevirirlər. Bu prosesin ilk mərhələlərində kontekstə, intonasiyaya, disputun keçdiyi şəraitə istinadən müsahibi anlamaq mümkün olur, amma sonrakı mərhələlərdə bu anlaşma (qeyri - qənaətbəxş olsa da) itib gedir. Belə ki, adətən, "nəsil" sözü "qəbilə quruluşu" anlayışına tətbiq olunur, lakin "Şuya boyarları nəsil" heç də bura aid deyil. Tərcümə zamanı daha da pis olur: hər hansı bir kelt klanına aid edilən termini heç vəchlə hər hansı bir orta və ya Kiçik qaxax Yusuna (ru), yaxud altay seokuna şamil etmək mümkün deyil. Bir o qədər də oxşar olmayan bütün bu olayları isə eyni cür adlandırır və daha pis - buna əsaslanaraq bir birinə bərabər tuturlar. Qeyri - ixtiyari olaraq tarixçi predmeti deyil, artıq mənasını itirmiş sözü tədqiq edir və bu zaman real olaylar nəzərindən qaçır. İndi isə təsəvvür edək ki, üç tarixçi problem ətrafinda diskussiya aparır, onlardan biri "nəsil" sözünü - klan, ikinci - seok, üçüncü isə - boyar nəsli anlamında işlədir. Aydındır ki, onlar nəinki bir birini, hətta nədən söhbət getdiyini də başa düşməyəcəklər. Əlbəttə, bizə etiraf edə bilərlər ki, terminlər barəsində razılaşmıq mümkündür. Lakin anlayışların sayı informaysiya toplanmasına düz mütənasib şəkildə artır, yeni terminlər meydana çıxır və sistem olmadığı halda onlar çoxmənalı (polisemantik) olur. Deməli, analiz və sintezin məqsədləri üçün yaramır. Amma burada da çıxış yolu tapmaq mümkündür.

Hələlik, biz araşdırmanın normalarından bəhs edirdik. İndi isə onun perspektivlərindən danışaq. Hər hansı predmetin araşdırılması [24-25] yalnız onu bütövlükdə izləmək imkanı olduqda əhəmiyyət kəsb edir. Belə ki, məsələn, elektrotexnik eyni dərəcədə olmasa da, ionlaşma və istilik mübadiləsi, elektromaqnit sahəsi və i. a. təsiri haqqında təsəvvürə malik olmalıdır. Yerin təbəqələrindən danışan fizik - coğrafiyaçı troposfer, litosfer və hətta biosferi unutmalıdır. Eləcə də, tarixçi yalnız vahid mühakimə daxilində bir birilə ilgili geniş olaylar kompleksini əhatə etməklə yanaşı, eyni zamanda terminologiya barəsində də şərtləşdikdə oxucular üçün daha samballı və maraqlı nəticələrə gələ bilər. Bu, çox çətin məsələ olsa da, heç də qeyri - mümkün şey deyil. Ən önəmlisi odur ki, nəticə nəzərə alınan bütün faktlara müvafiq olsun. Kimsə bu kitabda sadalanan faktların açıqlanması üçün daha incə, daha inandırıcı konsepsiya irəli sürərsə, mən dərin hörmətlə onun qarşısında baş əyərəm. Və əksinə, qənaətlərimi ən son nəticə elan edənlə razılaşmaram. Əfsuslar olsun ki, bir çox kitablar heç də insanlardan uzunömürlü olmur, elmin inkişafı isə bəşəriyyətin təşəkkülünün immanent (özünə xas olan, - tər.) qanundur. Bu səbəbdən də mən öz vəzifəmi heç bir xalqın onsuz mövcud ola bilmədiyi füsunkar Xanım Tarixə və onun müdrik bacısına - insanları öz ulu anaları Yerin biosferi (4) ilə doğmalaşdıran Coğrafiyaya gücü çatan faydanı verməkdir.

Ümumiləşdirmə və çözələmələr. Bütün quru ərazilərə və dəniz səthinin də xeyli hissəsinə yayılan Homo sapiens növü onun konfiqurasiyasında elə önəmli dəyişikliklər etmişdir ki, onları kiçik miqyaslı geoloji çevrilişlərə bərabər tutmaq mümkündür...(5) Lakin buradan belə çıxır ki, biz qanunauyğunluqların

xüsusi kateqoriyasını fərqləndiririk - tarixi - coğrafi. Bu kateqoriyanı nəzərdən keçirmək və araşdırmaq üçün araşdırma tarixi və coğrafi üsulları özündə birləşdirən metodika tələb edir. Özü özlüyündə bu yeni bir şey olmasa da, indiyədək problemə eklettik yanaşma mövcud idi. Məsələn, arxeloji abidələrin yaşının təyin olunması üçün S14 tətbiqi, elektrokəşfiyyat (əməli tətbiq üçün həddən artıq yöndəmsizdir), "daş heykəllərin" tədqiqi zaman tətbiq olunan kibernetik üsul (sadəcə baxmaqla hesablama zamanı əldə olunan nəticələri verdi) və i.a. Ən əsas şey isə nəzərdən yayınırdı. Fikrimizcə bu "əsas" şey mənbələrin susmasından informasiya əldə etmək bacarığı idi. İnduksiya yolu tarixçinin imkanlarını özgə sözlərinin sadəcə, yaxud tənqidi təkrarı ilə məhdudlaşdırır, həm də bu zaman araşdırmanın limiti (son həddi) mənbə inamsızlıq olur. Lakin bu nəticə neqativdir (mənfi) və buna görə də qəti deyil. Müsbət hal yalnız mübahisə doğurmayan müəyyən miqdarda faktın aşkarlanması ola bilər ki, [25-26] mənbədən qoparılan bu faktlar xronoloji cədvəl şəklinə salına və ya tarixi xəritədə yerləşdirilə bilər. Onları istənilən kimi təfsirləmək üçün filosofema, müddəa tələb olunur ki, bu da qəbul olunmuş induktiv araşdırma prinsipini pozur. Çıxılmaz durum!

Amma coğrafiyaçı, geoloq, zooloq, torpaqşünas heç vaxt artıq bilgilərə malik olmasalar da, elmləri inkişafdadır. Bu ona görə baş verir ki, fəlsəfi müddəa yerinə təbiyyatçılar "empirik ümumiləşdirmə" tətbiq edirdilər ki, V.İ.Vernadskinin fikrincə, onun həqiqiliyi müşahidə olunan fakta bərarbərdir.(6) Başqa sözlə, təbiyyət elmləri təbiətin susmasına üstün gəldilər və hətta bundan elm üçün fayda da əldə etdilər, çünki daim mənbənin özündə olan, yaxud qeyri - bərarbər qavrama yolu ilə ona şamil edilən yalandan xilas oldular. Bəs, nə üçün tarixçilər bundan imtina etməlidir? Təbiəti bir mənbə kimi cəlb etməklə biz müvafiq araşdırma metodikasının da əxz etməliyik. Bu isə bizə İzidanın örtüyünü bir qədər qaldırmağa imkan verən gözəl perspektivlər bəxş edir.

Elmin vəzifələrindən biri ən az miqdarda faktdan mümkün qədər çox informasiya əldə etməklə ən çeşidli olayları vahid baxımdın anlamaq, gələcəkdə isə onları araşdırmaq imkanı verən dəqiq qanunauyğunluqların fərqləndirilməsidir. Bu qanunauyğunluqlar gözəgörünməz olsalar da, uydurma deyillər: onlar ümumiləşdirmələr yolu ilə aşkarlanmışlar. Biologiyadan götürülən bir örnək: "Ulduzlar və planetlər səmada hərəkət edir. Hava şarı yuxarı qalxır, qayadan qopan daş isə uçuruma yuvarlanır. Çaylar dənizlərə axır, okeanlarda isə çöküntülər tədricən üst üstə yığılaraq, çöküntü süxurları əmələ gətirir. Siçanın pəncələri çox kiçik, filinkilər isə çox nəhəngdir. Quruda yaşayan heyvanlar kit və nəhəng kalmarlar boyda ola bilmirlər. Sadalanan bu faktlar arasında ümumi nə var? Onlar hamısı ümumdünya cazibəsinin qanunauyğunluqlarına əsaslanır, o isə özü kimi real, gözəgörünməz, amma idrakın dərk etdiyi digər qanunauyğunluqlarla qaynayıb - qarışır".(7)

Yer qravitasiyası həmişə mövcud olub, lakin insanların onun varlığından xəbər tutmaları üçün budaqdan düşən almanı izləyən Nyutonun kəşfi lazım oldu. Bizi əhatə və idarə edən təbiətin hələ nə qədər möhtəşəm qüvvələri idrakımız xaricindədir. Biz hələ tam olunmayan aləmdə yaşayır və çox vaxt kor - koranə ömür sürürük ki, bu da bəzən faciə ilə sonuclanır. Odur ki, dahi alimlərin gözlərinin açılması anlamında işlətdiyim elmin sehrli eynəkləri bizi əhatə edən dünyanı və bizim oradakı yerimizi dərk etmək, öz hərəkətlərinin [26-27] heç olmasa ən yaxın nəticələrini qabaqcadan görmək üçün lazımdır.

Mərkəzi Asiya tarixi və Volqanın aşağı axarının arxeologiyasının materialları əsasında fiziki coğrafiya və paleoetnologiya olaylarının funksional əlaqəsinin təyin olunmasına həsr edilmiş araşdırma üç nəticə çıxarmağa imkan verdi. 1. Etnosun onun təsərrüfat fəaliyətinin sonucu olan tarixi taleyi əhatəsində olduğu landşaftın dinamik durumu ilə bilavasitə ilgilidir. 2. Həmin etnosun taleyindəki kristallaşmış izi olan arxeoloji mədəniyyəti, dürüst təyin edilməsi mümkün olan dövrdə landşaftın paleoqrafik durumunu əks etdirir. 3. Tarixi və arxeoloji materialların uyğunlaşması etnosun bulunduğu landşaftın müəyyən dövrdə mövcud olmuş xarakteri, deməli, ondakı dəyişikliklərin səciyyəsi haqqında fikir yürütməyə imkan verir. (8)

Təbii ki, burada nisbi dəqiqlikdən söhbət gedir, amma hüdudların qeyri - müəyyən olduğu bir şəraitdə 50 illik xəta (az və ya çox) son nəticəyə təsir göstərmir və deməli, zərərsizdir. Həddən artıq dəqiqliyə can atmaq daha təhlükəlidir. Təbiət olaylarını tarixi hadisələrlə tutuşdurarkən məqbul sayılan 50-60 illik xəta azaldıla bilməz, çünki axtardığımız əlaqə qədim ölkələrin təsərrüfat sistemilə ilgilidir. (9) Əkinçilik, heyvandarlıq, hətta ovçuluq təsərrüfatı sistemi də ətalətlidir. Məsələn, təsəvvür edək ki, təsərrüfat sistemi quraqlıq nəticəsində tarazlıq halından çıxdığı halda, ona əsaslanan dövlət yalnız ehtiyatlar qurtardıqdan və daimi yarıaclıq (qısamüddətli aclıq yox) böyüməkdə olan nəsli taqətdən saldığı halda qüvvədən düşür. Bu prosesi təbii və tarixi olaylar arasında asılılığı tam dəqiqliyilə üzə çıxarmaqla deyil, yalnız tarixi hadisələrin sırasının geniş inteqrasiyası ilə nail olmaq mümkündür. Bununla əlaqədar, bir təbiətşünasın gözəl sözlərini xatırlamaq gərəkdir: "Siçanın hüceyrələrini mikroskop altında diqqətlə araşdırmaqla onun özünün nəyə oxşadığını heç vaxt öyrənə bilməyəcəksiniz. Həmçinin, qotik üslubda inşa olunan qəsrin bütün daşlarını bir-bir kimyəvi analizdən keçirsəniz də, onun valehedici gözəlliyini dərk etməyəcəksiniz.". (10) Təbii ki, bir, hətta iki digərlərindən təcrid olunmuş faktı nəzərdən keçirməklə biz qədim dövr müəlliflərinin əsirinə çevrilirik. Həm də nəzərə almaq lazımdır ki, onlar öz meyarlarını oxuculara çox ağıllı və bacarıqlı şəkildə aşılamağı bacarırlar. Amma biz mənbələrdən faktları seçə və iki fakt əvəzinə iki min fakt əldə edə bilsək, yalnız bir birilə deyil, bizim təklif etdiyimiz modellə də asılılıq

əlaqəsi ilə ilgili olan bir neçə səbəb-nəticə zənciri əldə [27-28] edərik. Bu, XVIII əsr coğrafi determinizm tərəfdarlarının, məsələn, Monteskyönün aradığı, sadəcə, funksional asılılıq deyil. Biz burada insaniyyətlə təbiət arasında ilişkilər haqqında elmin əsasını təşkil etmiş sistemli əlaqəni aşkar edirik.

Aşkar etdiyimiz qarşılıqlı əlaqənin universiallığı və səciyyəviliyi onu müstəqil, elmlərin sərhəddində yerləşən elm sahəsi kimi araşdırmağa və tarixlə - coğrafiyanın qovuşduğu kimi etnologiya adlandırmağa imkan verir. Lakin bu zaman daha bir ağıllı sual ortaya çıxır: etnosun əməli şəkildə hiss edilə bilən bir tərifi varmı?

**Hüdudlar.** Etnoslar barədə dəqiq nə məlumdur? Həddən artıq çox və həddən artıq az şey. Etnosun bir hadisə kimi paleolit dövründə də mövcud olduğunu iddia etməyə heç bir əsasımız yoxdur. Görünür, neandertal adamın yekə kəlləsində, irəliyə qabaran qaşüstü qövslərin altında düşüncə və hisslər varmış. Lakin elmi həqiqilik mövqeyində qalmaq istəyiriksə, onların nədən ibarət olması barədə heç fərziyyə yürütməyə də ixtiyarımız yoxdur. Yuxarı paleolit dövrünün adamları haqqında daha çox şey bilirik. Onlar gözəl ovçular idi, nizə və sapand düzəltməyi bacarırdılar, heyvan dərisindən paltar geyir və Paris impressionistlərindən heç də pis rəsmlər çəkmirdilər. Görünür, onların kollektiv varlıq formaları bizə bəlli olanlara bənzəyirdi. Lakin bütün bunlar yalnız fərziyyədir və onların üzərində elmi mühakimə belə qurmaq olmaz. Ola bilər ki, qədim dövrlərdə zəmanəmizə qədər gəlib çıxmayan hansısa xüsusiyyətlər də mövcud imiş.

Əvəzində, son paleolit və bürünc (e.ə.III-II minilliklər) dövrlərini kifayət qədər yəqinliklə tarixi hesab edə bilərik. Təəssüf ki, həmin dövrlərdəki etnik fərqlər haqqında bilgilər o qədər pərakəndə və çox səthidir ki, onlara əsaslandığımız halda, hazırda bizi ilgiləndirən qanunauyğunluğu lokal xüsusiyyətlərlə qarışdırmaq və fərdini ümumi kimi dəyərləndirərək yanlışlığa yol vermək təhlükəsi ilə üzləşirik.

Yazılı mənbələrin etnosların tarixi və qarşılıqlı münasibətlərini işıqlandırdığı və tarixi adlandırılan dövr təhlil üçün bizə mötəbər material verir. Mövzunun bu hissəsini araşdırdıqdan sonra bizim həmin müşahidələri daha erkən dövrlərə tətbiq etmək və ekstrapolyasiya yolu ilə araşdırmanın birinci mərhələsində biliklərimizdə meydana çıxan boşluqları doldurmağa ixtiyarımız var. Bununla da biz uzaqlıq aberrasiyasından (yayılma, qeyri - dəqiqlik, -tər.) - tarixi tənqidin ən tez-tez yol verdiyi yanlışlıqdan xilas olmaq imkanı əldə edirik. [28-29]

Ən yuxarı tarix kimi XIX əsrin əvvəlini götürmək məqsədəuyğundur, çünki qanunauyğunluqların təyin olunması üçün bizə yalnız artıq başa çatmış proseslər gərəkdir. Natamam proseslər haqqında yalnız proqnozlaşdırma məqsədilə danışmaq mümkündür. Bunun üçün isə qanunauyğunluq formuluna malik olmaq lazımdır. Axtardığımız da elə məhz bu formuldur. Bundan başqa, XX əsr olaylarının araşdırılması zaman yaxınlıq aberrasiyası baş verə bilər ki, bu zaman uzaqlıq aberrasiyasında olduğu kimi, olayların miqrasiyasını qeydə almaq mümkün olmur. Bu səbəbdən də problemin qoyuluşu üçün biz 3 min illik bir dövrlə kifayətlənirik - e.ə. XIX əsrdən eramızın XIX əsrinə qədər, yaxud daha əyani olmaq üçün - Troyanın süqutundan Napoleonun məğlubiyyətinədək.

Başlanğıc üçün həddən artıq çox olan materialımız həqiqiliyi şübhə doğurmayan məlumatların qarşılaşdırılmasına əsaslanaraq sinxronistik metodika yolu ilə araşdıraq. Daxil etmək fikrində olduğumuz yenilik faktların bizim təklif etdiyimiz baxımdan əlaqələndirilmişdir. Bu zəruridir, çünki müxtəlif xronoloji cədvəllərdəki tarixlər bolluğu oxucuda tarixi ömürləri boyu xalqların başlarına nə gəldiyi barəsində heç bir təsəvvür yaratmır. Təklif etdiyimiz metodika daha çox humanitar deyil, təbiət elmləri üçün səciyyəvidir. Həmin elmlərdə statistik mümkünlük və daxili məntiq əsasında faktlar arasında əlaqələrin təyin olunması müşahidə edilmiş faktın özü qədər mötəbər olan empirik ümumiləşdirmənin qurulması üçün yeganə yol sayılır. (11) İlkin material (təcrübə, müşahidə, ilkin mənbələrin oxunması) deyil, artıq toplanmış və yoxlanılmış faktlar üzərində qurulsa da, empirik ümumiləşdirmə nə fərziyyə, nə də populyarlaşdırma deyil. Materialın sistem halına salınması və konsepsiya yaradılması problemin fəlsəfi ümumiləşdirmədən əvvəl gələn orta dərk mərhələsidir. Bizim məqsədimiz üçün də məhz bu orta pillə gərəkdir.

Bizə elə gəlir ki, bu və ya digər əşya haqqında məlumatlar nə qədər ətraflı və geniş olarsa, onun haqqında tam qənaətbəxş təsəvvür əldə etmək də bir o qədər asan olar. Lakin həqiqətdə də belədirmi? Çox güman ki, yox. Ümumi təsviri bütövlükdə bir o qədər də dəyişməyən həddən artıq xırda, artıqlıq təşkil edən təfərrüatlar kibernetika və sistemologiyada “küylər”, “maneələr” adlandırılanlara səbəb olur. Lakin digər məqsədlər üçün məhz əhval - ruhiyyənin təfərrüatları gərəkdir. Qısası, hadisənin təbiətinin aydınlaşdırılması üçün elmin arsenalında olan bütün məlumatları deyil, [29-30] nəzərdən keçirilən məsələyə aid olan bütün faktlar toplusunu əhatə etmək gərəkdir.

Bəs, nəyi “məsələyə aid olan” hesab etməliyik? Yəqin ki, müxtəlif hallarda cavab müxtəlif olacaq. Bəşəriyyət tarixi və görkəmli adamın tərcümeyi - halı - bunlar bir birinə bərabər hadisələr deyil və hər iki halda cavablar fərqli olacaq, onlar arasında isə istənilən qədər dərəcələr mövcuddur. Məsələ onunla qəlizləşir ki, istənilən tarixi hadisəni - savaş, qanun verilməsi, memarlıq abidəsinin ucaldılması, knyazlıq və ya respublika yaradılması və i.a. bir neçə yaxınlaşma dərəcəsində nəzərdən keçirmək lazımdır. Bu dərəcələrin qarşılaşdırılması ilk nəzərdə bir birinə zidd nəticələr verir. Avropanın hamıya məlum olan tarixindən örnək gətirək. Reformasiyadan sonra protestant Uniyası ilə katolik Liqası arasında mübarizə başlandı. (a yaxınlaşması). Deməli, Qərbi Avropanın bütün protestantları bütün katoliklərə qarşı

savaşmalı idi. Lakin katolik Fransa protestant Uniyasının üzvü idi, protestant Danimarka isə 1643-cü ildə həmçinin protestant olan İsveçə arxadan hücum etdi, yəni siyasi maraqlar ideoloji maraqlardan üstün tutuldu (b yaxınlaşması). Bu o deməkdirmi ki, birinci müddəamız yanlış idi? Əsla yox. O yalnız daha ümumiləşdirilmişdi. Bundan əlavə, hər iki tərəfin qoşunlarında əksəriyyəti dinə qarşı laqeyd, qarət və soyğunçuluğa aludə muzdlu döyüşçülər idi. Deməli, növbəti yaxınlaşmada (s) Otuzillik savaşı quldurluğun tüfyanı kimi səciyyələndirə bilərik ki, bu da müəyyən mənada doğru olar. Nəhayət, dini şüarlar və kralların gizli tacları arasında real sinfi mənafe gizlənirdi ki, onları nəzərə almamaq doğru olmazdı (d yaxınlaşması). Bura ayrı - ayrı vilayətlərin paleotnoqrafiya yolu ilə aşkar edilən separatçılıq meyllərini (e yaxınlaşması) və i.a. əlavə etmək olar. Gətirdiyimiz örnəkdən göründüyü kimi, ardıcıl yaxınlaşma prinsipi hətta bir, həm də lokal epizodun təhlili zaman mürəkkəb məsələdir. Bununla belə, müvəffəqiyyətə ümidi itirmək lazım deyil, çünki hələ elmi deduksiya yolumuz qalır. Yerin hərəkəti bir çox qanunauyğun hərəkətdən ibarət mürəkkəb tərkibli hərəkət olduğu kimi (öz oxu və Günəş ətrafında fırlanma, qütblərin sapması, bütün planet sistemilə birlikdə qalaktikada yerdəyişmə və s.), bəşəriyyət də, antroposfer də inkişaf etdikcə, ayrı-ayrı elmlər tərəfindən araşdırılan bir neçə təsirə məruz qalır. İctimai inkişafda əks olunan spontan (daxili səbəblərdən doğan,-tər.) hərəkət tarixi materializm tərəfindən təsdiq olunur. İnsan fiziologiyası biologiyanın sahəsidir. İnsanın qarşılıqlı olan tarixi coğrafiya coğrafiya elmlərinin nüfuz dairəsindədir. [30-31] Savaş, qanun və təsisatların araşdırılması - siyasi fikir və ideyaların öyrənilməsi mədəni tarixdir. Dillərin araşdırılması linqvistika, ədəbi yaradıcılıqların araşdırılması isə filologiyaya aiddir və i. a. Bəs, bizim problemin yeri?

Başlanğıc üçün deyək ki, etnos (istənilən etnos), məsələn, dil, yaxud sosial hadisə deyil və bu səbəbdən də bir neçə formasiyada mövcud ola bilər. Spontan ictimai inkişafın təsiri ekzogendir (xarici, kənar səbəblərdən doğandır,-tər.) İctimai inkişaf yalnız həm siyasi, həm də mədəni inkişafda təcəssüm olunması şərtilə etnosların formalaşmasına və ya parçalanmasına təsir göstərə bilər. Buna görə də demək olar ki, etnogenez problemi tarix elminin sərhəddində, onun sosial aspektlərinin rəvan şəkildə təbii aspektlərə keçdiyi yerdə yerləşir.

Etnogenezin bütün olayları Yerin səthində bu və ya digər coğrafi şəraitdə baş verdiyindən, mütləq landşaftın təbii şəkildə formalaşmış insan kollektivlərinə - etnoslara iqtisadi imkanlar verən amil kimi rolu məsələsi ortaya çıxır. (12) Lakin bizim problem üçün tarixlə coğrafiyanın uzlaşdırılması kifayət deyil, çünki söhbət canlı orqanizmlərdən gedir. Onlar isə məlum olduğu kimi, daim ya təkamül, ya involyusiya (tərsinə inkişaf, əvvəlki duruma qayıdış - tər.), ya da monomorfizm (növ daxilində dayanıqlıq,- tər.) vəziyyətində olur və digər canlı orqanizmlərlə qarşılıqlı əlaqədə olaraq, qruplar - geobiosenozlar təşkil edir.

Beləliklə, problemimizi üç elmin - tarix, coğrafiya (landşaftşünaslıq) və biologiyanın (ekologiya və genetika) qovuşuğunda yerləşdirmək lazımdır. Əgər belədirsə, onda “etnos” termininin ikinci tərəfini açıqlamaq olar: etnos Homo sapiens növünün özünəməxsus mövcudiyyat forması, etnogenez isə növdaxili forma yaranmanın tarixi və horemonik (landşaft) amillərinin uzlaşması ilə şərtlənən lokal variantdır.

Bəşəriyyətin inkişafının hərəkətedici qüvvələrindən birinin ehtiraslar və niyyətlər olması aspekti qəribə görünsə də, əsaslandırmanın bu tipinin əsasını Ç.Darvin və F.Engels qoymuşlar. (13) Elmi ənənəni rəhbər tutaraq, biz insan fəaliyyətinin əksər araşdırıcılarının diqqətindən yayınan tərəfinə diqqət yetiririrk.

Tarixçi də coğrafiyasız “büdrəməyə” başlayır. İnsanın onu əhatə edən təbiətdən, daha dəqiq desək, coğrafi mühitdən asılılığı heç vaxt şübhə doğurmamışdır, halbuki müxtəlif alimlər bu asılılığın dərəcəsini fərqli şəkildə dəyərləndirirdilər. Lakin hər hansı bir halda, Yer üzərində yaşamış və yaşayan xalqların təsərrüfat həyatı [31-32] məskunlaşdıqları ərazilərin iqlimi və landşaftları ilə bağlıdır. Qədim dövrlərin iqtisadiyyatının yüksəliş və tənəzzüllərini izləmək kifayət qədər çətindir. Səbəb isə yenə də qaynaqlardan alınan informasiyanın tam dəyərə malik olmasıdır. Lakin bunun hərbi qüdrət kimi göstəricisi mövcuddur. Yeni dövrə gəldikdə isə bu heç kimdə tərəddüd doğurmur. Amma artıq iki min ildir ki, yalnız oturaq deyil, köçəri xalqlarda da problem eynidir. Yürüşlər üçün qarnı tox, güclü və dincəlmiş, kamanın yayını “qulaq dibinə” qədər çəkə bilən (bu halda ox 700 metr, yay “gözə qədər” çəkildikdə isə cəmi 350-400 metr uçur) və ağır qılıncla, yaxud bundan da çətin işi - əyri qılıncla vuruşmağı bacaran adamlara malik olmaq kmfayət deyildi. Yük karvanını da nəzərə almaqla, hər adambaşına 4-5 at, ox ehtiyatı (onları düzəltmək də ağır bir iş idi) olmalı idi. Azuqə ehtiyatı tələb olunurdu. Məsələn, köçərilərdə bu, qoyun sürüsü olurdu. Sürünü isə çobanlar otarmalı idi. Qadın və uşaqları qorumaq üçün ehtiyat keşikçilər tələb olunurdu və i.a. Bir sözlə, həmin dövrlərdə də savaş xeyli xərc tələb edirdi. Müharibəni düşmənin hesabına aparmaq üçün birinci, həm də parlaq qələbə tələb olunurdu. Onu əldə etmək üçün isə möhkəm arxa cəbhə, çiçəklənən təsərrüfat, deməli, müvafiq olaraq, optimal təbii şərait gərəkdir.

Coğrafi şəraitin, məsələn, relyefin hərbi tarix üçün önəmindən çoxdan, demək olar ki, həmişə danışılır. Qədim tarixdən bir neçə örnək gətirmək kifayətdir: Hannibal Trazimon gölü ətrafındakı döyüşdə qələbəni gölün ətrafında Roma qoşunlarının hərəkət etdikləri yola 90 , bucaq altında yerləşən vadilərdən yararlanmaqla qazandı. Belə mövqe nəticəsində o, Roma qoşununa üç yöndən zərbə endirdi və qalib gəldi. Kinoskefal ətrafında dərə - təpəli ərazidə makedoniya falanqası dağıldı və romalılar ağır silahla

silahlanmış və sıraları pozulmuş düşmənlərini asanlıqla qılıncdan keçirdilər. Bu və buna bənzər örnəklər daim tarixçilərin diqqət mərkəzindədir. İ. Baltinə məşhur kəlamını söyləmək imkanı verən də elə bunlar olmuşdur: "Əlində coğrafiya olmayan tarixçi büdrəyir". (14) Lakin XX əsrdə belə aydın məsələ üzərində dayanmaq məqsədəuyğun deyil, çünki hazırda həm tarix əvvəlkilərdən daha dərin məsələlər qoyur, həm də coğrafiya planetdəki qeyri - adiliklərin sadəcə təsvirindən uzaqlaşaraq, əcdadlarımız üçün əlçatmaz olan imkanlar əldə etmişdir.

Bu səbəbdən də biz məsələni başqa cür qoyuruq. Yalnız coğrafi mühit insanlara necə təsir edir yox, həm də insanlar özləri də nə dərəcədə Yerin hazırda biosfer adlandırılan qatının üzvüdür? [32-33] (15) Coğrafi mühit bəşəriyyətin həyatının məhz hansı qanunauyğunluqlarına təsir göstərir, hansılarına yox? Məsələnin bu cür qoyuluşu araşdırmanın rahat aparılması üçün problemin parçalanmasını tələb edir. Deməli, tarixin anlaşılması üçün onun yalnız yardımçı önəmi var, çünki məqsədimiz sintezdir. Lakin əfsuslar olsun ki, bünövrəsiz ev tikmək mümkün olmadığı kimi, əvvəlcədən parçalanma olmadan ümumiləşdirmə vermək də mümkün deyil. Minimumla kifayətlənək. Bəşəriyyət tarixindən danışarkən, adətən, tarixin hərəkətinin ictimai formasını, yəni bir vəhdət kimi bəşəriyyətin spiral üzrə mütərəqqi inkişafını nəzərdə tuturuq. Bu hərəkət spontandır və elə təkcə buna görə hər hansı bir xarici səbəbin funksiyası ola bilməz. Tarixin bu cəhətinə nə coğrafi, nə də bioloji nüfuzun heç bir təsiri yoxdur. Bəs, onlar nəyə təsir göstərir? Orqanizmlərə, o cümlədən insan orqanizmlərinə. 1922-ci ildə L.S. Berq bütün, o cümlədən insan orqanizmləri barədə bu qənaətə gəlmişdi. "Coğrafi Landşaft orqanizmlərə zorən təsir göstərərək, bütün fərdləri növün strukturu imkan verdiyi hüdudlarda müəyyən istiqamətdə variantlar seçməyə məcbur edir. Tundra, meşə, çöl səhra, dağlar, su mühiti, adalarda yaşamaq və i. a. - bütün bunlar orqanizmlərdə xüsusi izlər qoyur. Uyğunlaşa bilməyən növlər başqa coğrafi landşaftlara köçməli, ya da ölüb getməlidir". (16) "Landşaft" dedikdə isə "Yer səthinin digər sahələrdən keyfiyyətcə fərqlənən, təbii sərhədlərdə məhdudlaşan, əşya və olayların vahid və qarşılıqlı şərtlənmiş qanunauyğun məcmusundan ibarət, iri ərazidə səciyyəvi şəkildə əks olunan və bütün cəhətlərdən landşaft qatına qırılmaz bağlı olan sahəsi"nəzərdə tutulur. (17) Bütövlükdə bunu "inkişaf məkanı" (18) adlandırmaq mümkündür. Yuxarıda verilən tezisi L.S.Berq təkamülün boronomik (yunanca "horos" - yer) prinsipi adlandırmış və bununla da coğrafiyanı biologiya ilə əlaqələndirmişdir. Bizim qəbul etdiyimiz baxımdan adları çəkilən iki elmə tarix də əlavə olunsa da, prinsip dəyişməz qalır. Bundan əlavə, o gözlənilməz yeni bir təsdiq də alır ki, bu da bizi etnosun inkişafının qanunauyğunluqlarını nəzərdən keçirməyi davam etdirməyə məcbur edir. Bu şərtlə ki, yeni etnosların meydana çıxmasının dinamik anı, yəni etnogenez mərhələlərinin səciyyələndirilməsinə əsaslanan etnogenez nəzərə alınsın. Lakin bu, başqa bir fəslin mövzusudur. [33-34]

# II. TƏBİƏT VƏ TARİX

Təbiətşünaslıqla tarixin uzlaşması. Qədimdə insan dünyanı müşahidə olunan rəngarəngliyinə baxmayaraq, vahid və qarşılıqlı pərakəndəliyinə rəğmən qarşılıqlı şəkildə bir birinə ilgili təsəvvür edirdi. Bu dövrdə töəbiətşünaslıqla tarixin əəlaqələndirilməsi problemi heç meydana belə çıxa bilməzdi.Tarixin yaddaşında qalmağa layiq sayılan bütün olaylar qeydə alınırdı. Savaş və daşqınlar, çevriliş və epidemiyalar, dahilərin anadan olması və kometaların uçuşu - bütün bunlar sələflərimiz üçün eyni önəm və marağa malik olaylar sayılırdı. O dövrdə elmi təfəkkürdə sehrbazlıq prinsipi bərqərar olmuşdu: "bənzərlik bənzərini törədir". Bu prinsip geniş bənzətmələr yolu ilə təbiət hadisələri ilə xalqların, yaxud ayrı - ayrı adamların taleləri arasında ilişkiləri duymaq imkanı verirdi. Bu prinsip astrologiya və mantikada (fal açmaq haqqında elm) öz inkişafını tapdı. Lakin ayrı - ayrı elmlər inkişaf etdikcə, biliklər toplandıqca əsassız və əməli tətbiq zamanı özünü doğrultmayan bir prinsip kimi ondan imtina edildi.

XVIII-XIX əsrlərdə elmlərin differensiyası (bir birindən fərqlənməsi, - tər.) nəticəsində külli miqdarda bilgilər toplandı və XX əsrin əvvəllərində artıq onların ucu bucağı itməyə başladı. Obrazlı şəkildə desək, qüdrətli Elm çayı "suvarma arxlarına" yol tapdı. Həyatverici "maye" geniş əraziləri "suvarsa" da, onun əvvəllər təchiz etdiyi "göl", yəni vahid dünbaxışı məhv oldu. Budur, payız küləyi gölün dibindəki çöküntüləri havaya sovurur və tarlaların şumlanılmış torpaqlarına duzlu toz səpir. Tezliklə, quru da olsa, sürüləri doyuzduran qədər ot bitən çölün yerində şoranlıqlar əmələ gəlir, biosfer isə yerini ətalətli maddəyə verir. Əlbəttə, bu əbədi deyil, lakin uzun müddət sürür. Axı, insanlar məhkum olunmuş torpaqları tərk etdikdə arxlar lillənəcək, çaylar isə yenidən öz məcrasına qayıdıb təbii çökəkləri su ilə dolduracaq. Külək şoranlıqların üstünü nazik torpaq qatı ilə örtəcək və burada heyvanların yemədikləri otlar bitəcək. Bir neçə əsrdən sonra düzənlikdə qumus (çürüntü, -tər.) qatı, göldə plankton əmələ gələcək. Deməli, otyeyən heyvanlar qayıdacaq, quşlar isə caynaqlarında balıq kürüsü gətirəcək... Həyat yenidən bütün rəngarəngliyi ilə təntənə qazanacaq.

Elmdə də belədir: dar ixtisaslaşma yalnız biliklər toplanması üçün faydalıdır. Fənlərin fərqləndirilməsi zəruri və qaçılmaz bir mərhələ idi və onun həddən artıq uzanması məhvedicidir. Geniş ümumiləşdirmələr aparmadan, sistemləşdirmə olmadan biliklər [34-35] toplanması kifayət qədər mənasız bir məşğuliyyətdir. Həm də qədim elmin prinsipləri həqiqətənmi bu qədər yalançı idi? Bəlkə, onun əsassızlığı müddəalarda deyil, onların qeyri-qənaətbəxş həyata keçirilməsindədir? Axı, "təbiət tarixi ilə bəşəriyyət tarixinin" qarşılıqlı təması mövcuddur və toplanmış biliklər məcmusu və gözlərimiz önündə inkişaf etməkdə olan araşdırma metodikasından yararlanmaqla onu duymaq mümkündür. Gəlin, bu yolla irəliləməyə cəhd göstərək və vəzifəmizi aşağıdakı şəkildə ifadə edək: "təbiət hadisələrinin təsnifi zamanı tarixin araşdırılması faydalı ola bilərmi?"

Aydındır ki, sosial və təbii olaylar eyni olmasalar da, harada isə təmas nöqtəsinə malikdirlər. Məhz həmin nöqtəni arayıb tapmaq gərəkdir, çünki bu bütövlükdə antroposfer ola bilməz. Antroposferi biokütlə kimi qəbul etsək də, olayın iki tərəfini göstərməliyik: 1) şəbəkəvarilik, çünki müxtəlif insan kollektivləri ətraf mühitlə fərqli şəkildə qarşılıqlı əlaqəyə girir. Son beş ilin yaxşı məlum olan tarixini nəzərə aldıqda isə, müxtəliflik və onun səbəblərinin araşdırılması qoyduğumuz problemin açarına çevriləcək; 2) araşdırılan predmetin - bəşəriyyətin çoxcəhətliliyi. Bunu belə başa düşmək lazımdır ki, hər bir insan (yaxud bütövlükdə bəşəriyyət) həm fiziki cisimdir, həm də orqanizmdir, həm hər hansı bir biosenozun ən yuxarı həlqəsidir, həm cəmiyyətin üzvüdür, həm hansısa xalqın nümayəndəsidir və i.a. Sadaladığımız örnəklərin hər birində predmet (bizim halda - insan) müvafiq elmi fənn tərəfindən araşdırılır ki, bu heç də araşdırmanın digər aspektlərini istisna etmir. Bizim araşdırma üçün bəşəriyyətin bir bütöv kimi məhz etnik cəhəti önəmlidir.

Qnoseologiyaya kiçik bir səyahət edək. Gəlin, özümüz özümüzdən soruşaq: birbaşa müşahidə nəyi əhatə etməyə qadirdir? Məlum olur ki, buna predmetlər deyil, onların hüdudları aiddir. Biz dənizin suyunu, yer səthi üzərində uzanıb gedən səmanı görürük, çünki onlar sahillər, dağlarla həmsərhəddir. Lakin balıqlar yalnız tutulub sudan çıxarılan zaman suyun mövcudluğundan xəbər tuta bilər. Belə ki, biz bir kateqoriya kimi zamanın varlığından xəbərdar olsaq da, hüdudlarını görmədiyimizdən, ona hamı anlaşıqlı olan tərif verə bilmirik. Təzad qüvvətli olduqca görə bilmədiyimiz, yalnız təsəvvür etdiyimiz əşyalar bizim üçün bir o qədər aydın olur.

Biz bir tarixi olaylar zənciri kimi daim izləyirik. Deməli tarix sərhəddir... Amma xöşbəxtlikdən nəyin sərhəddi olduğunu bilirik - materiyanın hərəkətinin sosial forması ilə dörd təbii formanın. [35-36] Əgər belədirsə, onda sosiomühit və onun törətdiyi texnomühitlə yanaşı insanların ətrafında deyil, onların daxilində olan hansısa canlı bir mahiyyət mövcuddur. Həmin mühit o qədər təzadlıdır ki, insan şüuru heç bir çətinlik çəkmədən onu qavrayır. Humanitar konsepsiyalar da məhz bu səbəbdən gərəksiz, daha doğrusu, qeyri - qənaətbəxş oldular - onlar tarixi proseslərə coğrafi, bioloji, sosial və ya (idealist sistemlərdə) mənəvi amillərin təsiri məsələsini qoymaqla, onların əlaqələndirilməsini unudurdular. Bu isə həm prosesin özünün, həm də onun tərkib hissələrinin empitik ümumiləşdirilməsini mümkün edir. Burada təklif olunan yanaşma təhlil, yəni "parçalama"dan başqa bir şey deyil. Tarixdəki anlaşılmazlıqları

"açmaq" və bundan sonra müxtəlif araşdırma metodikalarının nəticələrinin nəzərə alındığı sintezə keçmək üçün bu zəruridir.

XIX əsr tarixşünaslığında sosial olanla təbiinin qarşılıqlı ilişkiləri heç də həmişə nəzərə alınmayıb. (19) Lakin hazırda təbii proseslərin dinamikası o dərəcədə araşdırılıb ki, onların tarixilərlə qarşılaşdırıla bilməsi imkanı göz qabağındadır. Biosenologiya göstərdi ki, insan landşaft biosenozuna ən yuxarıdakı tamamlayıcı həlqə kimi daxildir, çünki o iri yırtıcıdır və təbiətin təkamülünə tabedir. Lakin bunlar heç də əlavə bir məqamı öz - özünəinkişafdan məhrum və yalnız dağılmaq qabiliyyətinə malik texnosfer yaradan istehsal qüvvələrinin inkişafını istisna etmir.

Formasiyalar və etnoslar. O da var ki, bütün bəşər tarixini nəzərdən keçirsək görərik ki, formasiyanın dəyişməsilə yeni xalqların meydana çıxmasının üst - üstə düşməsi çox az-az təsadüf olunan istisnadır. Halbuki, bir formasiya daxilində daim bir birinə bənzəməyən etnoslar meydana çıxır və inkişaf edir.

Örnək üçün feodalizmin Atlantikadan Sakit okeanadək çiçəkləndiyi XIII əsri götürək. Məgər fransız baronları Skandinaviyanın azad kəndlilərinə, qul - döyüşçülərə - Misir məmlüklərinə, rus şəhərlərinin gur əhalisinə, dünyanın yarısını ələ keçirən dilənçi - istilaçılara - monqollara, yaxud Sun imperiyasının çinli mülkədarlarına bənzəyirdilərmi? Onlar üçün ümumi olan yeganə şey feodal istehsal üsulu idi, qalan şeylərdə isə bənzərlikləri çox azdı. Torpaq sahibi ilə köçəridə torpağa münasibət üst-üstə düşür; Çinə nisbətən, Avropada özgədə olana qarşı həssaslıq, yaxud mədəni əxzetmələr daha qüvvəli idi. Ərazilər qəsb etmək istəyi də elə onun kimi - bu hiss səlib yürüşlərinə təşviq edirdi. Rusiyadakı meşələri qırmaqla təmizlənmiş torpaqlarda aparılan əkinçilik Suriya və Peloponnesdəki üzümçülükdən sadə və primitiv olsa da, az əmək sərfi ilə [36-37] görünməmiş məhsul yetirirdi. Dillər, dinlər, mədəniyyət, incəsənət - heç biri digərinə bənzəmirdi, lakin bu müxtəlifllikdə qarmaqarışıqlığa yer yox idi - hər həyat tərzi müəyyən bir xalqa mənsub idi. Bu, etnosların yarandığı yaşadıqları landşaftlara münasibətlərində daha çox nəzərə çarpır.

Amma elə düşünmək lazım deyil ki, etnik orijinallıq dərəcəsini yalnız təbiət şərtləndirir. Əsrlər keçir və etnosların nisbəti dəyişirdi: bəziləri yox olur, yeniləri yaranırdı. Məhz elə bu prosesi sovet elmində etnogenez adlandırırlar. Vahid bəşər tarixində etnogenez ritmləri sosial inkişafın nəbzilə ilgilidir. Lakin bu bağlılıq heç də üst - üstə düşmə, ələlxüsus da vəhdət demək deyil. Tarixi prosesin amilləri müxtəlifdir və bizim vəzifəmiz ondan ibarətdir ki, burada bilavasitə etnogenezə xas olan fenomenləri fərqləndirməklə özümüz üçün etnosun nə olduğunu və onun bəşəriyyətin həyatındakı rolunu aydınlaşdırmaqdır.

Başlanğıc üçün terminlərin mənası və araşdırmanın hüdudları barəsində razılaşmaq lazımdır. Yunan sözü olan "etnos" sözünün sözlükdə bir çox anlayışı var və biz bu adamlar arasından insanları nəzərdə tutan "növ", "cins" mənasını seçmişik. Məsələni biz arzuladığımız şəkildə qoymaq üçün "tayfa", yaxud "millət" anlamlarının fərqləndirilməsinin mənası yoxdur, çünki bizi haşiyədən kənara çıxarıla bilən, başqa sözlə, ingilislər, masaylar, qədim yunanlar və müasir qaraçılarda ümumi olan üzv maraqlandırır. Bu, Homo sapiens növünün qüvvələrini cəm edərək özünün və "özününküləri" (bəzən yaxınlarını, bir çox hallarda isə demək olar ki, tamamilə özgələri) bütün qalan dünyaya qarşı qoya bilmək xassəsidir." Biz - onlar"- sonditro sine gua non est - qarşılaşdırması bütün dövr və xalqlar üçün səciyyəvidir: ellinlər və barnanlar, yəhudilər və sünnətsizlər, çinlilər (Orta dövlətin təbəələri) və hular (barbarlar, o cümlədən ruslar), ilk xəlifələr dövründəki ərəb -müsəlmanlar və "kafirlər", orta əsrlərin katolik avropalıları və "dinsizlər" (o cümlədən, ruslar və yunanlar), pravoslavlar və "kafirlər" (o cümlədən, katoliklər), taureqlər və qeyri - taureqlər və i.a. Belə qarşılaşdırma hadisəsi universaldır və bu onun dərin köklərə malik olduğunu göstərir. Amma özlüyündə, bu yalnız gur və iti axan çayda suyun üzərində əmələ gələn köpükdən başqa bir şey deyil və biz onun məğzinə bələd olmalıyıq. Artıq apardığımız müşahidələr etnik adlandırıla bilən effektin mürəkkəbliyinə əmin olmaq üçün kifayətdir. Sosial, mədəni, siyasi, dini və digərləri kimi, bu effekt də bəşəriyyətin etnik tarixinin qurulmasının aspektlərinin biri ola bilər. [37-38] Buna görə də bizim vəzifəmiz ilk növbədə prosesin prinsipini duymaqdır.

Etnik tarixin coğrafiya ilə əlaqəsi şübhəsizdir, lakin təbiətin rəngarəng olaylarının etnoslar tarixinin dolambacları ilə qarşılıqlı münasibətlərinin bütün mürəkkəbliyini bununla məhdudlaşdırmaq olmaz. Bundan başqa, etnosların təsnifatının əsasını təşkil edən istənilən əlamətin konkret mühitə münasibətdə uyğunlaşa bilən tezisi etnogenez prosesinin yalnız bir tərəfini əks etdirir. Hələ Hegel yazırdı ki, "İoniyanın iqlimini Homerin yaratdıqlarının səbəbi kimi göstərmək olmaz". (20) Lakin landşafta uyğunlaşma maksimal olan müəyyən bir bölgədə formalaşan etnos miqrasiya zamanı bir çox ilkin əlamətlərini qoruyub saxlayır və onu aborigen etnoslardan fərqləndirən də elə bu olur. Belə ki, Meksikaya köçən insanlar nə astek, nə də mayya olmadılar. Onlar özləri üçün mikrolandşaft - şəhərlər və möhkəmləndirilmiş asiyendalar quraraq, özlərinin həm maddi, həm də mənəvi mədəniyyətlərini qoruyub saxladılar. Baxmayaraq ki, Yukatanın rütubətli tropikləri və Anauakın yarımsəhraları Əndəlüs və Kastiliyadan xeyli fərqlənirdi. Meksikanın (o zaman Yeni İspaniya adlanırdı) XIX əsrdə İspaniyadan ayrılması da, əsasən, ispan dilini və katolikliyi qəbul edən, amma Rio - Qranededən şimala doğru gəzib - dolaşan azad komançilər tərəfindən dəstəklənən hindu tayfalarının xələflərinin səylərinin nəticəsi idi.

İndi isə gəlin bundan sonrakı hekayətimizdə çıxış nöqtəsi olaraq birinci nəticəni çıxaraq. Tarixi zamanda daim dəyişən və Yer planetinin landşaftları ilə qarşılıqlı əlaqədə olan şəbəkəvari antroposfer e t n o s f e r d ə n başqa bir şey deyil. Bəşəriyyət yerin quru səthinin hər yerinə, lakin qeyri-bərabər şəkildə paylaşdığı və təbii mühitlə müxtəlif cür də olsa, daimi qarşılıqlı təmasda olduğu üçün onu etnik fərqlərlə hesablaşmaq şərtilə Yerin təbəqələrindən biri kimi nəzərdən keçirmək daha məqsədəuyğundur.

Beləliklə, biz "etnosfer" terminini daxil edirik. Digər coğrafi hadisələr kimi etnosferin də bioloji və sosial qanunauyğunluqlardan fərqli olan öz qanunauyğunluqları olmalıdır. Etnik qanunauyğunluqlar məkan (etnoqrafiya) və zamanda (etnogenez və antropogen landşaftların paleoqrafiyası) müşahidə olunur.

Tarixi mənbələrə inanmaq olarmı? XV-XVIII əsrlərin coğrafi mühakimələrinə dair gözəl icmalar müəllifi V.K.Yatsunki haqlı olaraq qeyd edir: "Tarixi coğrafiya keçmişin adamlarının coğrafi təsəvvürlərini deyil, keçən əsrin konkret coğrafiyasını öyrənir". (21) Güman ki, bu axtarış üçün ilkin bilgiləri keçən əsrin tarixi [38-39] əsərlərində aramaq gərəkdir. Lakin necə? Təəssüf ki, mümkün ola bilən araşdırma metodikasına dair heç bir göstəriş yoxdur. Səbəbi isə aşağıdakılardır.

Qədimdəki iqlim şəraitini öyrənmək məqsədilə tarixi materiallar həmişə geniş istifadə olunub və indi də istifadə olunmaqdadır. L.S.Berqlə (22) Q.Y.Qrumm - Qrjimaylo (23) arasında tarixi dövrdə Mərkəzi Asiyanın quraqlıq olması barədə polemika da bu axarda cərəyan edirdi. Bu məsələ ilə bağlı eramızın I əsrində Xəzər dənizinin səviyyəsinin dəyişməsi problemini qədim dövr müəlliflərinin əsərlərindən sitatlar seçməklə həll edirdilər. (24) Şərqi Avropanın iqliminin dəyişməsi haqqında nəticə çıxarmaq üçün salnamələrindəki bilgilərdən çıxarışlar götürülürdü. (25) Lakin çoxsaylı və ağır araşdırmaların nəticələri ümidləri doğrultmadı. Bəzən mənbələrin məlumatları doğru çıxır, bəzən isə onların başqa yollarla yoxlanması təkzibə səbəb olurdu. Buradan belə bir nəticə çıxır ki, əldə edilən göstəricilərin həqiqətlə üst-üstə düşməsi təsadüf idi. Bu isə metodikanın mükəmməl olmadığını göstərir. Həqiqətən, sadəcə olaraq qədim və ya orta əsr müəllifinin şəhadətinə istinad etmək yolu yanlış, ən yaxşı halda isə qeyri-dəqiq qənaətə gətirib çıxarır. Belə də olmalıdır. Salnaməçilər təbiət hadisələri haqqında ya sözarası danışır, ya da o dövrün təsəvvürlərindən çıxış edərək ildırım, sel və quraqlığı ilahi xəbərdarlıq, ya da günahlara görə cəza kimi açıqlayırdılar. Hər iki halda təbiət hadisələri təsadüf nəticəsində müəllifin diqqətini cəlb edərkən təsvir olunurdu və onların nə qədərini qeydə alınmadığını heç təsəvvür etmək belə mümkün deyil. Bir müəllif təbiətə diqqət yetirirdi, bir sonra yaşamış başqa birisi isə yox. Nəticədə elə alınırdı ki, havaların quru keçdiyi bir dövrdə yağışlar leysan yağan dövrdən daha tez - tez qeydə alınırdı. Burada tarixi tənqid də kömək etmək imkanından məhrumdur, çünki səbəb - nəticə əlaqəsi ilə ilgili olmayan olayların qeydə alınması məsələsində o gücsüzdür.

Qədim müəlliflər həmişə əsərlərini müəyyən məqsədlə yazır və bir qayda olaraq, onları maraqlandıran olayların önəmini şişirdirdilər. Mübaliğə və ya kiçiltmənin dərəcisini açıqlamaq isə çox çətin, bəzən isə mümkünsüzdür.(26) Belə ki, L.S.Berq tarixi əsərlər əsasında belə bir qənaətə gəlmişdi ki, mədəni torpaqların səhralara çevrilməsi müharibələrin nəticəsidir.(27) Hazırda bu konsepsiya heç bir tənqidə məruz qalmadan qəbul edilir və əksər hallarda P. K. Kozlovun aşkar etdiyi və Hara-Horo adı altında daha çox tanınan tanqut şəhəri İdzin-ay misal gətirilir.(28) Bu məqam o qədər [39-40] səciyyəvidir ki, biz diqqətimizi yalnız bir problemə - şəhərin coğrafi mövqeyi və məhv olduğu şəraitə yönəldəcəyik.

Tanqut çarlığı hazırda səhralar olan Ordos və Alaşanda yerləşirdi. Güman etmək olardı ki, bu dövlət kasıb və əhalidən kasad olmalı idi. Əslində isə onun 150 min atlıdan ibarət ordusu, universiteti, akademiyası, məktəbləri, məhkəmələri vardı. Bütün bunları maliyyələşdirməklə yanaşı, bu dövlət kəsirlə ticarət aparırdı, yəni idxalı ixracı üstələyirdi. Kəsiri qismən Tibetdəki əyalətlərlə əldə olunan gizli qum, əsasən isə Tanqut çarlığının əsas sərvəti olan mal - qara hesabına ödəyirdilər. (29)

P.K.Kozlovun aşkar etdiyi şəhər Etsin - qolun aşağı axarında yerləşən və hazırda susuz ərazidən ibarət olan bir sahədir. Onu qərbdən və şərqdən əhatə edən iki qurumuş çay yatağı göstərir ki, əvvəllər buralarda su olub, lakin çay yatağını qərbə doğru dəyişib və hazırda iki qola bölünərək şor sulu Haşun-nor və şirin sulu Soqo-nor göllərinə tökülür. P.K.Kozlov Sofo-noru səhranın əhatəsində olan gözəl vadi kimi təsvir edir. Bununla yanaşı, onu da qeyd edir ki, burada bir o qədər də çox adamın təminatı üçün şərait yoxdur. Lakin İrzin-ay şəhərinin yalnız qalası hər tərəfi 400 metr olan kvadrat şəklindədir. Onun ətrafında isə daha kiçik tikililərin qalıqları, saxsı qırıntıları var ki, bu da şəhərətrafı qəsəbənin olmasından xəbər verir. Çox vaxt şəhərin dağıdılmasını monqollarla əlaqələndirirlər. Həqiqətən, 1927-ci ildə Çingiz xan şəhəri ələ keçirdi və monqollar onun əhalisinə qəddarcasına divan tutdular. Lakin P.K.Kozlovun aşkar etdiyi şəhər XIV əsrdə də yaşamaqda davam edirdi və ekspedisiya üzvlərinin tapdıqları çoxlu sənədlərdəki tarixlər də buna dəlalət edir. Bundan savayı, şəhərin süqutu çayın öz məcrasını, dəyişməsilə bağlıdır. Torqoutlardakı xalq rəvayətinə görə, şəhəri mühasirəyə alanlar torpaq doldurulmuş kisələrin köməyilə bənd yaratmaqla çayın yönün dəyişmişdilər. Həmin bənd indiyədək qalmaqdadır. Görünür, elə belə də olub, lakin bunun monqollara heç bir dəxli yoxdur. Uraxay (monqolca) və ya Heşuçen (çin) şəhərinin alınmasının təsvirlərində belə məlumatlara rast olunmur. Həm də ki, bu mümkünsüz olan bir iş idi, çünki monqol atlılarının müvafiq alətləri yox idi. Şəhərin məhvinin monqollara aid edilməsi orta əsrlərdə yaranmış və bütün bəd əməlləri onlara aid etmək məqsədini güdən pis ənənənin nəticəsidir. Əslində tanqut şəhəri 1372-ci ildə məhv oldu. O zaman sonuncu Çingizidlərlə mübarizə aparan Min

sülaləsinin çinli əsgərləri şəhəri ələ keçirərək, [40-41] onu monqolların Çin üçün qərbdən təhlükə yaradan dayaq məntəqəsi kimi yerlə yeksan etdilər. (30)

Bəs, nə üçün şəhər yenidən dirçəlmədi? Çayın məcrasının dəyişməsi səbəbi deyil, çünki şəhər Etsin-qolun digər axarına keçə bilərdi. P.K.Kozlovun kitabında bu suala cavab tapmaq olar. Ona xas olan müşahidəçiliklə müəllif qeydə alır ki, Soqo-nor gölü getdikcə dayazlaşır və onu qamış basmaqdadır. Çayın məcrasının qərbə dəyişməsi burada bir qədər rol oynasa da, bu XIII əsrdə külli miqdarda əhalini doyuzduran ölkənin XX əsrin əvvəli üçün səhraya çevrilmə səbəblərini açıqlamaq üçün kifayət deyil.

Beləliklə, Asiyanın mədəni torpaqlarının səhralara çevrilməsinin günahkarı monqollar deyil, iqlimi dəyişikliklərdir ki, həmin hadisəni xüsusi araşdırmamızda təsvir etmişik. (31)

Abidələrə inanmaq olarmı? Bəs, nə üçün tarixdə iri miqyaslı olaylar, məsələn, 841-846-cı illərdə uyğurların qırğızlar tərəfindən darmadağın edilməsi, 1756-1758-ci illərdə kalmıkların mancur imperatoru Tsyan Lun tərəfindən kütləvi qırğını olduğu halda, Asiyanın tarmar edilməsi Çingiz xan və onun sələflərinin adına çıxılırdı, digər olaylar isə tarixçilərin diqqətindən kənarda qalırdı?

Bu sualın cavabını xalqların tarixindən yox, tarixşünaslıqda axtarmaq lazımdır. Tarix üzrə istedadlı əsərlər heç də həmişə və hər hadisə ilə ilgili yazılmır. Bundan əlavə, onların heç də hamısı dövrümüzə qədər gəlib çıxmayıb. Yaxın Şərqdə XIV-XV əsrlər ədəbiyyatın intibah dövrü idi, İran və Rusiyada isə həmin I İran və Rusiyada isə həmin dövrdə ən ümdə problem monqol istilası ilə mübarizə olduğundan, həmin problemə külli miqdarda əsər həsr olunmuş və onların çoxu zəmanəmizə qədər qalmışdır. Onların arasında istedadlı, parlaq əsərlər də var və bunlar bizə bəllidir. Onlar çoxlu təqlid, təkrarlar doğurmuşlar ki, bu da həmin məsələyə həsr olunmuş əsərlərin ümumi sayını artırmışdır. Oyratların qılıncdan keçirilməsinin isə tarixçisi olmayıb, yaxud həmin adam qırğın zamanı həlak olub. Beləliklə, iş elə gətirib ki, hadisələr qeyri - bərabər işıqlandırılıb və onların əhəmiyyəti təhrif olunub, çünki onlar sanki müxtəlif miqyaslarda təqdim edilir. Çingiz xanın apardığı savaşlarda istila etdiyi ölkələrin əhalisini demək olar ki, ucdantutma qılıncdan keçirməsi və onların landşaftını dəyişdirməsi fərziyyəsi də buradan meydana çıxıb ki, bu tamamilə yanlış fərziyyədir və həqiqətə uyğun deyil. Qeyd etmək lazımdır ki, ən böyük quraqlıq heç də savaşın viran qoyduğu ölkələrdə deyil, ümumiyyətlə mübarizə üzü görməyən Uyğuristanda və başdan başa otlaqlar olan [41-42] çöllərini heç kimin məhv etmək fikrində olmadığı Cunqariyada baş vermişdi. Deməli, mənbələrin tarixi - coğrafi məlumatları mötəbər deyil.

Və nəhayət, möhtəşəm tarixi olayları, məsələn, monqolların XIII əsrdəki yürüşlərini miqrasiya kimi qəbul etmək meylləri də mövcuddur. Görkəmli alimlərdən E. Hantinqton və E. Brukq bu meylin təsiri altına düşmüşlər. Lakin monqol yürüşləri heç də miqrasiyalarla ilgili deyildi. Qələbələri saysız-hesabsız köçəri kütlələri deyil, yürüşlərdən sonra doğma çöllərinə qayıdan o qədər də böyük olmayan, gözəl təşkilatlanmış, sürətlə hərəkət edən dəstələr əldə edirdi. Doğma çölləri tərk edənlərin sayı hətta XIII əsrin özü üçün də çox cüzi idi. Belə ki, Çuçilər qoluna mənsub xanlar - Batı, Orda və Şeyban Çingiz xanın vəsiyyətinə əsasən hərəsi vur - tut 4 min, yəni cəmi 20 min süvari almışdılar ki, bunlar da Karpat dağlarından Altaya qədər uzanıb gedən ərazilərdə məskunlaşmışdılar. Bunun əksinə, kalmıkların XVIII əsrdə baş verən miqrasiyası Ümumdünya tarixi üzrə əsərlərdə bir o qədər də əks olunmadığında, tarixçilərin əksəriyyətinin diqqətindən yayınmışdır.

Deməli, qoyulan problemin həlli üçün tarixə dair ümumiləşdirilmiş mənbələrdəkindən daha sanballı biliklərə yiyələnmək, coğrafiya ilə bağlı isə tarixçilərin, yaxud iqtisadçı-kənd təsərrüfatı mütəxəssislərinin adətən kifayətləndiklərindən daha dərin, daha ətraflı biliklər əldə etmək lazımdır. Ən əsası isə - mötəbər informasiyanı Herodotdan başlamış zəmanəmizə qədər bir çox yazılı mənbə müəlliflərinə xas olan subyektiv qavrayışlardan ayırmaq zərurətidir.

Mötəbər informasiya dedikdə biz mənbələrin tarixi tənqid süzgəcindən keçərək, heç bir şübhə doğurmayan təfsirlərə malik informasiyanı nəzərdə tuturuq. Onun həcmi böyük olsa da, böyük əksəriyyəti siyasi tarixə aiddir. Mühüm döyüşlərin, sülh müqavilələrinin, saray çevrilişlərinin, möhtəşəm kəşflərin tarixini və təfərrüatlarını yaxşı bilsək də, təbiət hadisələrinin açıqlanması üçün bunlardan necə yararlanmalı? Tarixin faktlarının təbiətdəki dəyişiklərlə qarşılaşdırılması metodikası yalnız XX əsrdə yaradılmığı başlamışdır.

İqlim tarixçisi E. Lerua Ladyuri qeyd etmişdir ki, Avropanın müxtəlif ölkələrində təsərrüfatın yüksəliş və tənəzüllərini rütubətin artması, yaxud azaldılması, soyuqlama və istiləşmə dövrlərinə bağlamaq cəhdi iqtisadiyyat və sosial böhranların heç bir şübhə doğurmayan roluna etinasızlığa əsaslanır. Belə ki, XVI, xüsusən də [42-43] XVII əsrlərdə Aralıq dənizi hövzəsinə Pribaltika (yəni rus) taxılı ixracının artması və İspaniyada qoyun sürülərinin sayının azalmasını illik temperaturların əhəmiyyətsiz dərəcədə dəyişməsi (33) ilə tutuşdurmaqdansa, Avropa ölkələrini Reformasiya və Kontrreformasinın məruz qoyduğu dağıntılarla tutuşdurmaq daha asandır. O haqlıdır! Qeyd etmək kifayətdir ki, bu illərdə yalnız ərazisində Otuzillik savaş (1618-1648) gedən Almaniyada deyil, heç bir dağıntıya məruz qalmayan İspaniyada da əhalinin sayı azalırdı: 1600-cü il - 8 milyon nəfər, 1700-cü il, - 7,3 milyon nəfər. Bu, çox sadə izah olunur - cavan kişilərin əksəriyyəti Amerika, yaxud Hollandiyaya səfərbər olunmuşdu ki, bu da təsərrüfat və ailəni dəstəkləmək üçün zəruri olan işçi qüvvəsi çatışmazlığına gətirib çıxarmışdı.

E.Lerua Ladyuri yazır ki: “1850-ci ildən etibarən Avropanın iqtisadi inkişafını Alp dağlarında buzlaqların dəqiq bəlli olan azalması ilə izah etməyə başlayan tarixçi barəsində nə düşünərdilər?...” Onunla razılaşmamaq mümkün deyil. Deməli, bizim müəllifin fikrincə, sadəcə olaraq son dərəcə dəqiq tarixə malik, əsassız təfsirlərdən təmizlənmiş faktları toplamaq gərəkdir. Başqa sözlə, biz əmin olmalıyıq ki, maraqlandığımız faktın iqtisadi, sosial, etnoqrafik amilləri, nəhayət, sadəcə təsadüflər sayəsində izahı istisna edilir. (34) Coğrafiyada tam dəqiq tarixlərin təyininin dürüst metodikası yoxdur. Burada min illik sapınma məqbul sayılır. Hər hansı bir bölgədə ilgili gil təbəqəsini örtməsini təyin etməklə vaxtilə buraları su basdığını aşkar etmək çox asandır. Lakin həmin hadisənin nə vaxt - 500, yoxsa 5 min il bundan əvvəl baş verdiyini söyləmək mümkünsüzdür. Məsələn, bitkilərin tozcuqlarının analizi hazırda rütubətsevər bitkilərin bərqərar olduqları bölgədə vaxtilə quru iqlimə uyğunlaşmış bitkilərin bitdiyini göstərsə də, vadinin bataqlaşmasının iqlim yox, yaxınlıqdan axan çayın məcrasının dəyişməsi üzündən baş vermədiyinə heç bir zəmanət yoxdur. Monqolustan və Qazaxıstan çöllərində qalıqları tapılan meşələr haqqında heç kim tam əminliklə deyə bilməz ki, onlar quraqlıqdan məhv olub, ya insanlar tərəfindən qırılıb. Sonuncu fərziyyə sübuta yetdiyi halda belə, insanın landşafta divan tutduğu dövr məlum deyil.

Bəlkə, arxeologiya yardımçı olar? Maddi mədəniyyət nümunələri xalqların intibah və tənəzzül dövrlərini dəqiq qeydə alır və onlara kifayət qədər dürüst tarix qoymaq mümkündür. Torpağın altından tapılan əşyalar, yaxud qədim məzarlar heç də araşdırıcıları yayındırmağa, yaxud faktları təhrifə meyl etmir. Lakin əşyalar susur və arxeoloqun təxəyyülü üçün geniş meydan açılır. [43-44] Müasirlərimiz də fantaziyalara qalmaqdan heç də çəkinmirlər. Hərçənd ki, onların düşüncə tərzləri orta əsrlərdəkindən xeyli fərqlənsə də, onun gerçəkliyə daha yaxın olmasına heç bir əminlik yoxdur. XX əsrdə rastlaşdığımız arxeoloji qazıntıların qüdrətinə kor - koranə inam Misir, Babil, Hindistan, hətta dağlıq Altaydakı qazıntılar zamanı əldə olunmuş həqiqətən uğurlu tapıntılardan doğur. Bunların sayəsində qədim tarixin unudulmaz səhifələrini açmaq və araşdırmaq mümkün oldu. Lakin bunlar istisnalar idi və əksər hallarda arxeoloq qızmar çöllərin quru tozanaqlarında tapdığı saxsı qırıqları, talan edilmiş məzarlıqlardakı sümüklər və hündürlüyü bir kərpic izi qədər olan divar qalıqları ilə kifayətlənməli olur. Onu da yadda saxlamaq lazımdır ki, tapılanlar itirilənlərin həddən artıq cüzi bir hissəsidir. Yer ərazisinin əsas bölgələrində davamiyyəti çox olmayan materialların - ağac, parça, kağız, xəz və i. a. - əksəriyyəti məhv olub gedir. Heç vaxt məhz nəyin məhv olduğu məlum olmur, itib gedəni bir o qədər də önəmli saymamaq və bunları nəzərə alıb düzəlişlər etməmək isə aşkar yanlış qənaətlərə gətirib çıxarır, tarixsiz arxeologiya araşdırıcını yanlış qənaətə sövq edə bilər. Problemin həllinə başqa cür yanaşmağa çalışaq.

## III. ETNOS VARMI?

Etnosu təyin etmək üçün əlamət yoxdur. Təklif etdiyimiz tərifə əsasən, Homo sapiens növünün mövcudiyyat forması özünün bütün digər kollektivlərə qarşı qoyan fərdlər kollektividir. Tarixi dövrdə yaranması və yox olması ilə etnogenez problemini meydana çıxarsa da, o, bu və ya digər dərəcədə dayanıqlıdır. Bütün belə kollektivlər bəzən dili, bəzən adətləri, bəzən ideologiya sistemlərilə bir birindən müəyyən qədər fərqlənsə də, tarixi talelərinə görə fərqlənmələri daimidir. Deməli, etnos, bir tərəfdən, tarixi prosesin törəməsidir, digər tərəfdən isə, istehsal fəaliyyəti vasitəsilə daxilində yarandığı landşaftın biosenozu ilə ilgili təsərrüfatdır.

Sonralar xalq bu mütənasibliyi dəyişə bilər, amma bununla o tanınmaz dərəcədə şəklini dəyişir və sələflik yalnız tarixi metodika və mənbələrin ən ciddi tənqidi sayəsində izlənə bilir, çünki sözlər aldadıcıdır.

Bir qədər də irəli getməzdən əvvəl hələlik öz tərifini almayan “etnos” anlayışı barədə şərtləşmək istərdik. Yer üzündə qeyri - etnik olan bir nəfər də olmasına baxmayaraq, biz hər hansı bir etnosu təyin etmək üçün bircə dənə də olsun real əlamətə malik deyilik. [44-45] Sadalanan bütün əlamətlər etnosu yalnız “bəzən” təyinləyir, onların məcmusu isə ümumiyyətlə heç nə bildirmir. Bu tezisi neqativ metod kimi qəbul edək.

Tarixi materializm nəzəriyyəsində cəmiyyətin əsası kimi ictimai - iqtisadi formasiyalarda reallaşan istehsal üsulu qəbul olunur. Burada öz - özünə inkişaf həlledici rol oynadığından, ekzogen, o cümlədən təbii amillərin təsiri sosial tərəqqinin genezisində əsas ola bilmir. “Cəmiyyət” anlayışı maddi həyatın onlar üçün ümumi olan konkret - tarixi şərtləri əsasında birləşən insan toplusunu nəzərdə tutur. Həmin şərtlər sistemində əsas qüvvə kimi maddi nemətlərin istehsal üsulu çıxış edir. Adamlar istehsal prosesində birləşirlər və bu birləşmənin nəticəsi beş bəlli formasiyadan - ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və kommunizm -biri şəklində formalaşan ictimai münasibətlərdir.

“Etnosda birləşmək” mümkün deyil, çünki subyekt özü bu və ya digər etnosa mənsub olmasını bilavasitə qavrayır, ətrafındakıları isə bunu təkzibolunmaz fakt kimi qəbul edir. Deməli, etnik diaqnozlaşdırmanın əsasında hissiyat durur. İnsan körpəlikdən öz etnosuna mənsubdur. Bəzi hallarda yadların ilhaqı mümkün olsa da, geniş miqyasda tətbiq olunduğu halda bu, etnosun parçalanmasına səbəb olur. Etnos parçalana bilər, amma bu zaman çoxsaylı qalıq formaları yaratmaqla diaspor vəziyyətində qalır. Etnosun həyatı ərzində konkret - tarixi şərait dəfələrlə dəyişsə də, əksinə, etnosların divergensiyası bir istehsal üsulunun hökmdarlığı zamanı daha tez - tez müşahidə olunur. K. Marksın tarixi prosesin

təbiət tarixilə bəşər tarixinin qarşılıqlı təması olması fikrindən (35) çıxış edərək ilk, ən ümumi bölgünü təklif etmək mümkündür - texnosferdə meydana çıxan sosial və coğrafi mühitdən daim axıb gələn təbii stimullar. (36) Hər bir adam yalnız inkişafın müəyyən pilləsində olan cəmiyyətin üzvü deyil, həm də qravitasiyaya tabe olan fiziki cisim, hər hansı bir biosenozun tamamlayıcı həlqəsi, adaptasiyaya qadir və hormonların şərtlənən müəyyən yaşda olan orqanizmdir. Həmin sözləri sosial baxımdan müxtəlif səciyyəli sinfi dövlət və tayfa ittifaqları (sosial orqanizm), təbiət baxımından isə etnoslar (xalqlar, millətlər) yaradan uzunömürlü kollektivlər barəsində də demək olar. Bunların üst - üstə düşməməsi göz önündədir.

Etnos cəmiyyət deyil. Lakin başqa baxım da mövcuddur ki, ona görə "etnos" sosial - tarixi kateqoriyadır və onun genezisi təbiət qanunları ilə deyil, cəmiyyətin inkişafının səciyyəvi qanunauyğunluqları ilə şərtlənir". (37) Bunu necə başa düşməli? [45-46] Tarixi materializm nəzəriyyəsinə görə istehsal qüvvələrinin spontan inkişafı istehsal münasibətlərinin dəyişməsinə gətirib çıxarır ki, bu da dialektik sinifyaranma prosesinə səbəb olur. Sonuncunu isə siniflərin məhvi prosesi əvəzləyir. Bu materiyanın ictimai inkişafına xas olan qlobal hadisədir. Bəs, etnogenezin bura nə dəxli? Məgər, fransızlar, yaxud ingilislər kimi məşhur etnosların meydana gəlməsi xronoloji və ya ərazi cəhətdən feodal formasiyasının təşəkkülü ilə üst - üstə düşür? Yaxud həmin etnoslar feodalizmin süqutu və kapitalizmə keçidlə ilgilimi yox olub? Axı, artıq XIV əsrdə Fransa krallığı fransızlardan başqa keltbretonluları, provansalları və burqundları da əhatə edirdi. Məgər onlar etnos deyil? Çoxsaylı faktlardan biri olan bu fakt V. İ. Kozlovun definisiyasının birtərəfliliyilə fərqləndiyinə dəlalət etmirmi? Əgər belədirsə, bu, elmi disput üçün bəhanədir. Dialektik materializm materiyanın hərəkətinin çeşidli formalarını - mexaniki, fiziki, kimyəvi və bioloji - fərqləndirərək, onları təbii olanlara aid edir. Səciyyəvi xassələrinə - bütün təzahürlərilə yalnız bəşəriyyətə məxsus olmasına görə materiyanın ictimai fəaliyyəti təcrid olunmuş şəkildə durur. Hər bir adam və texnika və domestikatlara (ev heyvanları və mədəni bitkilər) malik insan kollektiv materiyanın həm ictimai, həm də zaman (tarix) və məkanda (coğrafiya) aramsız korrelyasiya edən təbii hərəkət formalarının təsirinə məruzdur. Materialın müşahidə və araşdırma üçün əlverişli olan kompleksdə (tarixi coğrafiya) ümumiləşdirilməsi zamanı biz onu iki mövqedən - sosial və təbii baxımlardan nəzərdən keçirməyə borcluyuq. Birinci mövqedən ictimai təşkilatları - tayfa ittifaqları, dövlətlər, dinlər, siyasi partiyalar, fəlsəfi məktəblər və i. a,; ikinci mövqedən isə etnosları, yəni nisbətən qısa müddət ərzində yaranan və dağılan, lakin hər dəfə orijinal struktura, təkrarsız davranış stereotipinə və son həddi homeostaz olan özünəməxsus ritmə malik insan kollektivini görürük.

Məlum olduğu kimi, siniflər sosial - tarixi kateqoriyalardır. Sinifli cəmiyyətlərdən əvvəlki cəmiyyətlərdə onların analoqu tayfa, qəbilə ittifaqları, məsələn, keltlərdəki klanlardır. Geniş mənada "sosial kateqoriya" anlayışı dayanıqlı təsisatlara, məsələn, dövlət, kilsə təşkilatı, polis (Elladada), yaxud feodallara da şamil edilə bilər. Lakin tarixi bilən hər bir kəsə məlumdur ki, bu cür kateqoriyalar etnosların sərhədlərilə çox az hallarda üst-üstə düşür, yəni burada birbaşa əlaqə yoxdur. Həqiqətən, Moskvada fəhlə, qulluqçu və tatarların yaşadıqlarını söyləməyə haqqımız varmı? Bizim nöqteyi-nəzərimizdən bu cəfəngiyyatdır, amma V.İ.Kozlovun məntiqinə [46-47] görə, yalnız belə alınır. Deməli, fərziyyə yanlışdır. Lakin bu azmış kimi, bütövlükdə materiyanın hərəkətinin ictimai formasına aid olan iqtisadiyyat milli hüdudları tarmar edir. Güman etmək olardı ki, ümumavropa bazarı müxtəlif ölkələrdə eynicinsli texnika, oxşar təhsil sistemlərinə malik, qonşu dillərin öyrənilməsinin çox asan olduğu XX əsr Avropasında etnik fərqlər silinib getməlidir. Bəs həqiqətdə?.. Öz qədim və demək olar ki, tam unudulmaz dillərini yenidən öyrənmək üçün var qüvvələrini sərf edən irlandlar artıq Böyük Britaniyanın tərkibindən çıxıblar. Şotlandiya və Kataloniya müstəqillik iddiasındadır, halbuki son 300 ildə heç də özlərini kölə sanmırdılar. Belçikada son zamana qədər dinc yanaşı yaşayan flamand və vallonlar hər iki etnosa məxsus tələbələr arasında küçə döyüşlərinə gətirib çıxaran qızğın mübarizəyə başlayıblar. (38) İctimai - siyasi və etnik yüksəlişlərin (yaxud tənəzüllərin) zirvəsinin üst - üstə düşməsi qədim dövrlərdə də çox az-az müşahidə edildiyindən, güman ki, biz inkişafın iki xəttini, yaxud riyazi dillə desək, iki müstəqil dəyişənin interferensiyasını müşahidə edirik. Bunu yalnız görmək istəməyən görməyə bilər.

**Dil.** Etnosların varlığının gözlə görünən təzahürlərinin- özünü hamıya qarşı qoymağın: "biz" və "bizdən olmayanlar"- təbiətini açıqlamağı cəhd edək. Bu qarşılaşdırmanı doğuran və qidalandıran nədir? Bu dil vəhdəti deyil, çünki iki - üç dildə danışan bir çox vahid etnoslar olduğu kimi, əksinə bir dildə danışan müxtəlif etnoslar da mövcuddur. Belə ki, fransızlar dörd: fransız, kelt, bask və provansal dillərində danışsalar da, Fransanın Paris krallığı tərəfindən birləşdirilməsi, daha doğrusu, Reyndən Piriney dağlarına qədər ərazini özlərinə tabe etmələri uzunmüddətli və qanlı bir tarixçəyə malik olsa da, bu onların hazırki etnik vəhdətinə mane olmur. Bununla yanaşı, meksikalılar, perulular, argentinalılar ispanca danışsalar da, ispan deyillər. XIX əsrin savaşların müflisləşdirdiyi Latın Amerikasının İngiltərə və ABŞ-ın ticarət kompaniyalarının əkinə keçməsi üçün axıdılan qanlar əbəs deyildi. Nortumberlenddə yaşayan ingilislər norveç dilinə yaxın dildə danışırlar, çünki onlar İngiltərədə məskunlaşan vikinqlərin xələfləridir. Son dövrədək yalnız ingilis dilini bilən irlandlar isə son nəticədə ingilis olmadılar. Ərəb dilində bir neçə müxtəlif xalq danışır, bir çox özbəyin ana dili isə tacik dilidir və s. və i.a.

Bundan başqa, zümrə dili də var. Məsələn, XII-XIII əsrlərdə İngiltərədəki fransız dili, e.a. II-I minilliklərdə Parfiyadakı yunan dili, VII əsrdən XI əsrədək İranda ərəb dili və i.a. Bu zaman [47-48] xalqların bütövlüyü pozulmadığından, belə bir nəticə çıxarmaq lazımdır ki, iş dildə deyil.

Üstəlik, çox vaxt müxtəlifliyi əməli tətbiqini tapır və bu müxtəlif dilli xalqları yaxınlaşdırır. Məsələn, Sakit okeanda amerikalılarla qarşıdurma zamanı yaponlar düşmənin radio ötürmələrinin şifrini açmaqda o dərəcədə ustalaşmışdılar ki, amerikalılar məxfi xəbərləri radio ilə ötürmək imkanından məhrum olmuşdular. Amma onlar çox incə və gözlənilməz çıxış yolu tapdılar - hərbi səfərbər olunmuş hindulara Morze əlifbasını öyrətdilər. Apaç məxfi informasiyanı atabas dilində navaha, assinboyn dakot dilində siusa çatdılar, onu qəbul edən isə ingilis dilinə tərcümə edirdi. Şifrələri açan yaponlar açıq ötürülən mətnlər qarşısında gücsüz qaldılar. Hərbi qulluq adamları bir birinə yaxınlaşdırdığı üçün evə qayıdarkən hindular "ağdərili" döyüş yoldaşları qazanmışdılar. Lakin bu zaman hinduların assimilyasiyası da olmamışdı, çünki komandanlıq məhz onların etnik xüsusiyyətlərini, o cümlədən iki dili bilmələrini dəyərləndirmişdi. Beləliklə, ayrı - ayrı hallarda dil etnik ümumiliyinin indikatoru kimi çıxış etsə də, heç də onun səbəbi deyil.

Qeyd edək ki, indiyə qədər də evlərində öz dillərində danışan, amma rusca təhsil alan vers, karel, udmurt, çuvaşlar sonralar öz kəndlərini tərk etdikdə, demək olar ki, ruslardan fərqlənmirlər. Doğma dillərini bilmək onlara heç də mane olmur.

Nəhayət, osmanlı türkləri! XIII əsrdə monqollardan qurtulmaq istəyən türkmən başçısı Ərtoğrul, təxminən, 500 ailəni Kiçik Asiyaya gətirdi. İkoniya soltanı "kafir" yunanlarla döyüşmək üçün bunları Nikeylə sərhəddə - Brussada yerləşdirdi. İlk soltanlar dövründə qənimət və məskunlaşmaq üçün torpaq əldə etmək arzusunda bulunan könüllülər - "qazilər", bütün Yaxın Şərqdən axışıb bura gəlirdi və süvari qoşun - "spagilər" təşkil etdilər. XIV əsrdə Bolqarıstan və Makedoniyanın fəthi türk soltanlarına xristian uşaqlarından təşkil olunmuş piyada qoşun yaratmaq imkanı verdi. Azyaşlı oğlanları ailələrindən ayırır, onlara İslamı və hərbi sənətini öyrədir və qvardiyayaya - "yanıçar"lar ("yeni qoşun") sırasına daxil edirdilər. XV əsrdə Aralıq dənizinin bütün hövzəsindən axışıb gələn macaraaxtaranlardan ibarət olan donanma formalaşdı. XVI əsrdə fəth edilmiş Diyarbəkr və Kürdüstandan toplanmış süvarilər - "əkinçilər" də bura əlavə olundu. Fransız reneqatları yəhudilər, yunanlar və ermənilər isə maliyyəçi və iqtisadçı olurdular. Bu adamlar arvadlarını qul bazarlarından alırdılar. Bunların arasında polyak, alman, italyan, gürcü, yunan zənci, ukraynalı və s. qadınlar vardı. [48-49] Həmin qadınlar XVII - XVIII əsr türk döyüşçülərinin ana və nənələri idi. Türklər etnos olsalar da, gənc döyüşçü türk dilində komanda alır, anası ilə polyak, nənəsi ilə isə italyan dilində danışır, bazarda yunanca alver edir, şerləri fars, duaları ərəb dilində oxuyurdu. Lakin o osmanlı idi, çünki özünün osman - İslamın mömin və cəsur döyüşçüsünə layiq şəkildə aparırdı.

XIX əsrdə bu etnik çoxsaylı fransız mürtədləri və Parisdə təhsil alan gənc türklər dağıtdılar. XX əsrdə osmanlı imperiyası süquta uğradı, etnos isə parçalandı, onu təşkil adənlər isə başqa etnosların tərkibinə daxil oldular. Yeni Türkiyəni Kiçik Asiyanın ucqarlarında yaşayan səlcuqların xələfləri yüksəltdi, osmanlıların qalıqları isə ömürlərini İstanbulun dar küçələrində başa vururdu. Deməli, 600 il ərzində osmanlıları dil yox, din ümumiliyi birləşdirirdi.

İdeologiya və mədəniyyət. İdeologiya və mədəniyyət də mütləq əlamətlər olmasalar da, bəzən əlamət kimi çıxış edirlər. Məsələn, yalnız pravoslav xristian bizanslı ola bilərdi və bütün pravoslavlar Konstantinopol imperatorunun təbəələri - "özününkülər" sayılırdı. Amma xaç suyuna çəkilən bolqarlar yunanlarla savaşa girişdikləri, pravoslav Rusiyanın isə Çarqrada tabe olmaq heç ağlına belə gəlmədikdə bu qada pozuldu. Məhəmmədin varisləri olan xəlifələr buna bənzər birlik prinsipi bəyan etsələr də, həmin yekfikirlilik prinsipi canlı həyatla rəqabətə duruş gətirmədi və islamı birlik daxilində də etnoslar yarandı. Artıq qeyd etdiyimiz kimi bəzən moizə insan qruplarını birləşdirərək etnosa çevirir. Misal üçün türk - osmanlılar, yaxud şimal - qərbi Hindistandakı sikhlər kimi. Yeri gəlmişkən, Osmanlı imperiyasında sünnü təriqətinə mənsub, soltana itaət edən amma özlərini türk saymayan ərəblər və tatarlar da vardı. Sonuncular üçün osmanlılarla dil yaxınlığı da bir rol oynamadı. Deməli, dini etiqad da etnik diaqnozlaşdırmanın əlaməti deyil.

Etnosun konfessional özünütəsdiqinə üçüncü örnək: mənşəcə hindli olan təriqətçilər - sikhlər. Hindistanda bərqərar olmuş kasta sistemi bütün hindlilər üçün məcburi sayılırdı. Bu, etnosun xüsusi bir strukturu idi. Hindli olmaq müəyyən, hətta ən aşağı, yəni toxunulmazlar kastasının üzvü olmaq deməkdi. Bütün qalanlar, o cümlədən, əsir tutulan ingilislər də heyvanlardan da miskin sayılırdılar. Siyasi birlik olmasa da, davranış stereotipinə ciddi, həddən artıq sərt riaəyət olunurdu. Hər kastanın müəyyən məşğuliyyət növü ilə məşğul olmaq hüququ vardı. Hərbi qulluğa girməyə [49-50] ixtiyarı olanların sayı məhdud idi. Bu, müsəlman olan əfqanlara Hindistanı ələ keçirmək və köməksiz dinc əhaliyə zülm imkanı verdi. Ən çox zülm çəkən isə Pəncab əhalisi oldu. XVI əsrdə burada əvvəlcə zülmə müqavimət göstərməməyi, daha sonra isə müsəlmanlarla savaşı qarşısına məqsəd qoyan təlim meydan çıxdı. Kasta sistemini ləğv edən sikhlər bununla özlərini hindlilərə qarşı qoydular. Onlar endohamiya (yalnız öz qohumu, tayfasından və ya ictimai qrupunda olanla evlənmək, - tər.) yolu ilə hind vəhdətindən təcrid olunmaq, öz davranış strukturlarını işləyib hazırladılar və öz icmalarının strukturunu qurdular. Bizim qəbul etdiyimiz prinsipə əsasən sikhləri yeni yaranan və özlərini hindlilərə qarşı qoyan etnos kimi nəzərdən

keçirmək gərəkdir. Onlar özləri özlərini belə dərk edirlər. Dini konsepsiya onlar üçün simvol, bizim üçün isə etnik divergensiya indikatoruna çevrilmişdir.

Sikh təlimini yalnız doktrin hesab etmək olmaz, çünki Moskvada kimsə bu dini tam qavrayarsa, o sikh olmayacaq və sikhlər də onu "özününkü" saymayacaqlar. Sikhlər din, monqollar qohumluq əsasında, dörd dildə danışan isveçlilər ölkəni istila edən Avstriya feodallarına qarşı uğurlu savaş sayəsində etnos oldular. Etnoslar müxtəlif üsullarla yaranır və bizim vəzifəmiz ümumi qanunauyğunluğu duya bilməkdir.

İri xalqların əksəriyyəti harmonik sistem təşkil etsələr də, öz aralarında həm zaman, həm də sosial stuktura görə xeyli fərqlənən bir neçə etnoqrafik tipə malikdir. Örnək üçün elə hündürpapaq, uzunsaqqal kişiləri və slyuda çəkilən pəncərələr önündə oturub sap əyirən qadınları olan XVII əsr Moskvası ilə parik qoyub, kamzol geymiş zadəganların öz xanımlarını ziyafətlərə apardıqları XVIII əsr Moskvanı, saqqallı tələbə-nihilistlərin artıq qarışmaqda olan bütün zümrələrə mənsub gənc xanımları maarifləndirdikləri XIX əsr Moskvasının tutuşduran və XX əsr dekadentlərini də bura əlavə edək. Eyni etnosdan söhbət getdiyini bilsək də, onları bir birilə tutuşdurduqda görərik ki, tarix etnoqrafiyadan xəbərsiz olan araşdırıcını dolaşığa salardı. Yalnız bir, məsələn, 1868-ci il üzrə məkanı kəsik də özünə görə əlamətdardır. Pomorlar, Piter fəhlələri, Zavoljyedəki köhnətəriqətçilər, Sibir qızılaxtaranları, meşəlik və çöllük quberniyaların kəndliləri, Don və Ural kazakları xarici görünüşdən bir birinə bir o qədər də bənzəməsələr də, bu, xalqın birliyini pozmurdu. Digər tərəfdən, məsələn, Qreben kazakları ilə çeçenlər arasındakı məişət yaxınlığı heç də onları birləşdirmirdi. [50-51]

Nə qədər qəribə görünsə də, burada təklif olunan nöqteyi-nəzər möhz anlaşılmalı olduğu yerdə fəal müqavimətlə qarşılaşdı.

Bir sıra etnoqraflar həm etnoqrafiya ilə coğrafiyanın qarşılıqlı münasibətləri, həm də problemin tarixi, yəni tarixşünaslıq məsələsində müəllifə qarşı öz nöqteyi -nəzərlərini irəli sürmüşlər.(39) Mübahisə etmək fikrində olmasam da, təkzibolunmazlıq iddiasında olan (kifayət qədər əsası olmadan) konsepsiyaya qarşı biganə qala bilmərəm. Bu, elmi nəzakətsizlik olardı.

V.İ.Kozlov və V.V.Pokşişevski etnoqrafiyanını bir elm kimi təşəkkülünü aşağıdakı kimi təsəvvür edirlər. XIX əsrin ortalarınadək coğrafiya və etnoqrafiya birgə inkişaf edirdilər, sonra isə etnoqrafiya ictimai - tarixi coğrafi istiqamətlərə ayrıldı. Birinciyə L.Q.Morqan, İ.Ü.Bahofen, E.Teylor, Ç.Frezer, L.Y.Şternberq, ikinciyə F.Patsel, L.D.Sinitski və A.A.Kuber, həmçinin fransız "insan coğrafiyası" məktəbi aid edilir. Təklif olunan təsnifatda əslində onun dəyərini heçə endirən bir qüsur var. "İstiqamətlər"in nümayəndələri müxtəlif süjetlərlə maraqlanır və müxtəlif mövzulara diqqət yetirirdilər. Belə olduğu halda isə onların qarşı - qarşıya qoyulması əsassızdır. Axı, F.Ratsel etnoqrafik bölgələşdirmənin coğrafiliyini əsaslandırmağa cəhd etdiyi zaman heç də animizm (hər şeydə ruhun mövcudluğuna inam,- tər.), simpatik (gözəgörünməz,-tər.) sehrbazlıq, yaxud kahinin mərasim qətlləri konsepsiyalarına, yəni C.Frezerin öz məşhur "Qızıl budaq" əsərini həsr etdiyi predmetləri təkzib etmirdi. Lakin müəlliflər etnoqrafiyanın coğrafiyadan ayrılaraq yenidən bir ictimai elm kimi yaranmasını məhz çoxcəhətli alimlərin rəngarəng maraqlarının mövcudluğu ilə izah edirlər. Burada kədərli naticələrə gətirib çıxara biləcək müəyyən dolaşıqlıq göz qabağındadır. Hər bir elm mövzuların sadəcə dəyişdirilməsilə deyil, araşdırmaların diapazonunun genişləndirilməsi yolu ilə inkişaf edir. Deməli,coğrafi etnoqrafiyanın nailiyyətlərinə tarixi aspektlər də əlavə olunarsa - bu elmin tərəqqisi, bir qisim süjet digərilə əvəzlənərsə - bu daim son dərəcə zərərli olan yerində saymaqdır.

Güman ki, bu diqqətlərini hər iki elmin qovuşuğunda yerləşən, lakin etnik coğrafiyanı əhatə etməyən əhali coğrafiyasına yönəltmiş alimlərin özlərinə də aydındır. Onların fikrincə, fərq ondadır ki, "iqtisadçı - coğrafiyaçılar üçün insan... - istehsal və istehlakın daşıyıcısıdır (mədəni, dil və s.)". Burada adı çəkilən məqalənin müəllifləri ilə heç cür razılaşmaq olmaz. Məgər, dəniz heyvanları ovunu nəzərə almadan yalnız fel formalarını, yaxud dəniz və tundranın açıqlı ruhları haqqında təsəvvürlərlə kifayətlənməklə eskimosu [51-52] öyrənmək mümkündürmü? Yaxud, çəltik sahələrindəki zəhmətlərini xatırlamadan yalnız krama və ruhun dəyişməsini ətraflı açıqlamaqla hindlilər haqqında təsəvvür yaratmaq mümkündürmü? Xeyr, əmək proseslərinin səciyyəsi, istehlak, savaş dövlətin təşəkkülü, yaxud süqutu toy mərasimləri və ya mərasim ayinləri kimi, bütün bunlar da etnoqrafik araşdırmalar obyektidir. Xalqları onların inkişaf mərhələlərində və özlərini qonşulara qarşı qoyulmasında araşdırılması coğrafi mühit nəzərə alınmadan mümkün deyil.

Eynilə, etnoqrafiyanı "sosial - iqtisadi inkişafın, təxminən, eyni səviyyəsində olan və oxşar təbii - coğrafişəraitdə (məsələn, "dəniz heyvanı ovlayan arktik ovçu", "quru çöl heyvanları" və i.a. tiplər) yaşayan xalqlar üçün səciyyəvi olan təsərrüfat - mədəni tiplər" (407 haqqında təlimlə əvəzləmək lazım deyil. Bu istiqamət iqtisadi coğrafiya üçün məhsuldar olsa da, etnoqrafiyaya heç bir aidiyyat yoxdur və ola da bilməz. Məsələn, maraqlı çukçalar (yəni çobanlar) və dəniz heyvanı ovlayan çukçalar (bununla marallarını itirənlər məşğul olurlar) təklif olunan təsnifata görə bir etnos təşkil etdikləri halda, müxtəlif bölmələrə aid edilməlidir. Məgər, Moskva yaxınlığından olan rus kəndliləri, pomorlar və Sibirin samur ovçuları bir etnos deyil? Belə örnəklərin sayını istənilən qədər artırmaq olar. V.İ.Kozlovun təklifi

etnoqrafiyanın ləğvi və onun əhalinin məşğuliyyəti nəzərə alınmaqla demoqrafiya ilə əvəzlənməsindən başqa bir şey deyil. Lakin bu mövzu bizdə maraq doğurmur.

Etnosu bioloji taksomanik vahidlərlərə - irq və populyasiyaya bərabər tutmaq da elə bu dərəcədə yanlışdır. İrqlər bir birindən insanın həyati fəaliyyəti üçün bir o qədər də önəmli olmayan fiziki əlamətlərlə fərqlənirlər. (41) Populyasiya - müəyyən ərazidə məskunlaşaraq, burada qonşu populyasiyalardan bu və ya digər dərəcədə təcrid olunmaqla sərbəst cütləşmə aparan fərdlər toplusudur. (42) Bizim təklif etdiyimiz anlamda isə etnos - təkrarsız daxili strukturu və orijinal davranış stereotipinə malik fərdlər kollektividir. Həm də bu zaman hər iki tərkib hissə dinamikdir. Deməli, etnos - nə sosioloji, nə bioloji, nə də coğrafi hadisələrə aid edilə bilməyən elementar olaydır.

Etnosun "dil - mədəniyyət proseslərilə" məhdudlaşdırılması gerçəkliyi təhrif edir və etnik tarixi mürəkkəblik dərəcəsini azaldır. Bunu açıqlayan Y.V.Bromley məsələni aydınlaşdırmaq məqsədilə əlavə terminlə artırılmasını təklif etmişdir: etnikos və eso ("etnososial təşkilatlanma" ifadəsindən,-tər.). (43) Tutalım, onun qərarı ilə razılaşmamıq olar, lakin ona qarşı tam etinasızlıq ədəbsizlikdir. [52-53] Sonra V.İ.Kozlovun tezisini hamıya məlum olan olaylara tətbiq etməklə sınayaq. Onun müddəasının məntiqinə görə, heç bir dil öyrənməyə qabil olan adam eyni zamanda bir neçə etnosa mənsub olmalıdır. Bu - cəfəngiyyatdır. İki, üç dildə danışan bir çox etnoslar olsa da, onlar linqvistik təsnifat əsasında qovuşmur. Elə Puşkin və onun dostlarını götürək - onlar heç də fransız olmadılar! Əksinə, ispanca danışan, katolik olan, Servantesi oxuyan meksikalılar və perulular heç də özlərini ispan saymırlar. Bu azmış kimi, onlar "azadlıq" savaşı adlandırdıqları müharibədə yüz minlərlə insan həyatını qurban da verdilər. Və elə həmin dövrdə Yuxarı Peru və Çako səhrası hinduları nə mədəni, nə iqtisadi, nə dil sahələrində heç bir ümumi cəhətləri olmayan İspaniya uğrunda vuruşurdular. Lakin bunun səbəbi çox sadədir - onların düşməni uzaqlarda yaşayan ispanlar yox, yerli sakinlər - müəyyən qədər ispanlaşan, amma XIX əsrin əvvəlləri üçün artıq müstəqil etnoslarda formalaşdıqlarından özlərini keçmiş həmtayfalarına qarşı qoyan metislər idi. V.İ.Kozlovun mövqeyindən bu qədər gecikmiş etnogenez izahaolunmazdır.

Bir əcdaddan törəmə. Qədim dövrdə bu, etnos üçün mütləq şərt sayılırdı. Real fiqur olmadığından, əcdad rolunda tez-tez totem olmayan bir heyvan çıxış edirdi. Türklər və romalılarda bu süd verən dişi canavar, uyğurlarda - şahzadə qızla izdivacda olmuş canavar, tibetlilər üçün - meymun və dişi rakşasa (meşə iblisi) idi. Lakin əksər hallarda əcdad əfsanənin tanınmaz dərəcədə dəyişdirdiyi adam olurdu. İbrahim - yəhudilərin, onun oğlu İsmayıl isə ərəblərin əcdadı sayılır. Koum - Fivə şəhərinin banisi və beotiyalıların əcdadıdır və s.

Nə qədər qəribə də olsa, bu arxaik baxışlar ölüb getmədi, sadəcə olaraq, dövrümüzdə hər hansı bir mövcud etnosun əcdadı kimi qədim tayfalardan birini göstərməyə çalışırlar. Lakin əvvəlkilər kimi, bu da doğru deyil. Yalnız ataya, yaxud yalnız anaya malik ola bilmədiyi kimi, müxtəlif əcdadlardan törəməyən etnos da yoxdur. Çox vaxt və tamamilə əsassız edildiyi kimi, etnosları irqlərlə qarışdırmaq lazım deyil. Bunun əsasını belə bir qərəzli fikir təşkil edir ki, guya rasogenez (rasa - rus dilində "irq" deməkdir,-tər.) prosesləri güman ki, dünyanın müəyyən bölgələrində inkişaf etmiş və həmin bölgələrin təbii mühitinin səciyyəvi xüsusiyyətləri yəni iqlim, coğrafi zonaların flora və faunası ilə şərtlənmişdir. (44) Burada obyektin yol verilməməli olan saxtalaşdırılması göz önündədir. [53-54] Başqa sözlə, ilkin irq ixtiyarı şəkildə etnosa bərabər tutulub. Aydınlaşdıraq.

Avropada subarktik iqlimin hökmran olduğu yuxarı paleolit dövründə Rona çayı vadisində Qrimaldi irqinə mənsub neqroidlər məskunlaşmışdı, Afrikanın tropik meşələrində isə monqoloid və neqroid əlamətlərini özündə birləşdirən koysan irqi yaşayırdı. Bu irq qədimdir, onun mənşəyi tam aydın deyil, lakin hibrid olduğunu da güman etməyə əsasımız yoxdur. Artıq tarixi sayıla bilən dövrdə - eramızın I əsrində neqroid bantular koysanları Afrikanın cənub ucqarlarına sıxışdırdılar. Sonralar bu proses XIX əsrə - beçuanların buşmenləri Kalaxari səhrasına qovduqları vaxtadək davam etdi. Bununla belə, iqlim şəraiti Afrikadakına yaxın olan ekvatorial Amerikada neqroidlik meydana çıxmadı.

Avrasiyanın arid zonasında Kromanyan tipli avropoeidlər və monqoloidlər məskunlaşsalar da, bu, irqi əlamətlərin yaxınlaşmasına səbəb olmadı. Tibetdə monqoloid botlarla avropeoiddard və pamirlilər, Himalayda isə qurklar və patanlar bir biri ilə qonşuluq edirdilər. Lakin iqlim şəraitinin oxşarlığı irqi görünüşə təsir göstərmədi. Qısası, razılaşmalıyıq ki, müxtəlif populyasiyalarla onların məskunşdıqları bölgələrin coğrafi şəraiti arasındakı antropoloji fərqlərin funksional əlaqəsi hələ aydın deyil. Bundan əlavə, ümumiyyətlə onun təbiətdə mövcud olub olmamasına tam əminlik də yoxdur. Üstəlik, bu fikir irqi təsnifatı coğrafi en dairələri üzrə deyil, meridianlar, bölgələr - Atlantik: bura avropeidlər və neqroidlər aid edilib və Sakit okean: bura Şərqi Asiya və Amerika monqoloidləri aiddir- üzrə quran müasir paleoantrologiyanın nailiyyətlərilə daban-dabana ziddir. (45) Bu baxım təbii şəraitin rasogenezə təsirini istisna edir, çünki hər iki qrup fərqli iqlim zonalarında formalaşıb.

Etnoslar isə, əksinə, fəal təsərrüfat fəaliyyəti sayəsində həmişə təbii əhatə ilə ilgilidir. Təsərrüfat fəaliyyəti özünü iki yöndə göstərir: Landşafta uyğunlaşma və onu özünə uyğunlaşdırma. Lakin hər iki halda etnoslar real mövcud olan bir varlıq kimi rastlaşırıq, halbuki onun yaranma səbəbi aydın deyil.

Araşdırılan mövzunun bütün rəngarəngliyini hansısa bir şeydə cəmləşdirmək də lazım deyil. Sadəcə olaraq, bu və ya digər amillərin rolunu açıqlamaq daha səmərəli olar. Məsələn, yeni etnik kollektiv

meydana çıxan zaman onun imkanlarını landşaft şərtləndirir, yenicə doğulan etnos isə landşaftı öz tələblərinə müvafiq şəkildə dəyişir. Belə qarşılıqlı uyğunlaşma yalnız yeni yaranmış etnosun qüvvəsinin aşıb-daşdığı və oun tətbiq etməyə yer aradığı dövrdə [54-55] mümkündür. Daha sonra isə yaranmış şəraitə alışqanlıq başlayır və həmin şərait xələflər üçün yaxın və doğma olur. Bunun inkarı isə mütləq belə bir qənaətə gətirib çıxarır ki, xalqların burada landşaft elementlərinin ürəkdən sevilən məcmusu kimi anlaşılan vətənəi yoxdur. Çətin ki, kimsə razılaşsın.

Elə bircə bu göstərir ki, etnogenez sosial proses deyil, çünki sosiosferin spontan inkişafı təbii olayların davamı olmayıb, yalnız onlarla qarşılıqlı əlaqəyə girir.

Lakin məhz etnogenezin - proses, bilavasitə işlənən etnosun isə - etnogenez mərhələsi və deməli, qeyri - sabit sistem olması faktı etnosların antropoloji irqlərlə, bununla da hər hansı bir irqi nəzəriyyə ilə qarşılaşdırılmasını istisna edir. Həqiqətən, antropoloji təsnifatın prinsipi - oxşarlıqdar, etnosu təşkil edən adamlar isə müxtəlifdir. Etnogenez prosesində həmişə iki və daha artıq komponent iştirak edir. Müxtəlif etnosların çarpazlaşdırılması bəzən yeni və daha sabit forma yaradır, bəzən isə məhvə aparıb çıxarır. Məsələn, slavyan, uqor, alan və türklərin qarışığı velikorusları meydana çıxardı, son iki min ildə böyük Çin səddi boyu tez-tez meydana çıxan və monqol - çin, mancur - çin metislərinin daxil olduqları təsisatlarsa səbatsız oldular və müstəqil etnik vahidlər kimi qala bilmədilər.

VII əsr Orta Asiyasında soqdilər yaşayır, hələ VIII əsrdə də "tacik" termini "ərəb", yəni xəlifənin döyüşçüsü anlamını bildirirdi. 733-cü ildə soqdilərin üsyanını yatıran zaman Nəsr İbn Səyyar seyrəlmiş qoşununu artıq İslamı qəbul etmş Xorasan farsları hesabına qüvvətləndirməli oldu. Sonuncular çoxluq təşkil etdiklərindən, onun ərəb ordusunda fars dili bərqərar oldu. Qələbə əldə olunduqdan, soqdilərin kişiləri qılıncdan keçirildikdən, uşaqlar qul kimi satıldıqdan, gözəl qız - gəlinlər və çiçəklənən bağlar qaliblər arasında bölüşdürüldükdən sonra Soqdiana və Buxarada xorasanlılara bənzəyən farsdilli əhali peyda oldu. (46) Amma 1510-cu ildə İranla Orta Asiyanın taleləri bir-birindən ayrıldı. Qatı şiə olan türk İsmayıl Səfəvi İranı ələ keçirdi və farsları şiə təriqətinə döndərdi. Orta Asiya isə sünni özbəklərə qismət oldu və orada yaşayan farsdilli əhali öz köhnə "tacik" adını saxladı ki, 1918-ci ildə Məngitlərin Buxara sülaləsinin süqutunadək buna heç bir əhəmiyyət verilmirdi. Keçmiş Türküstan diyarında özbək və tacik respublikaları yaradılan zaman isə, VIII əsr istilaçılarının - Xorasan farslarının Buxara və Səmərqənddə yaşayan xələfləri siyahıyaalınma zamanı özbək kimi, XI-XVI əsrlər fatehləri olan türklərin Düşənbə və Şəhrisəbzdə [55-56] məskunlaşmış xələfləri isə tacik kimi qeydiyyatdan keçdilər. Onlər hər iki dili uşaqlıqdan bilirdilər, müsəlman idilər və hansı ad altında qeydiyyata düşəcəkləri onları ilgiləndirmirdi. Son 40 ildə durum dəyişdi: taciklərlə özbəklər sosialist millətləri kimi formalaşdılar, lakin 20-ci illərədək - dini mənsubiyyətin etnik mənsubiyyəti (müsəlman və kafir) şərtləndirdiyi, taciklərdə isə nəsillərin olmadığı dövrdə onlara necə baxmalı? Həm də ki, hər iki etnik substrat - həm türklər, həm də iranlılar 1000 il bundan əvvəl Orta Asiyada "əcnəbi" etnoslar idilər və həmin müddət uyğunlaşma üçün tam kifayət edərdi. Görünür, burada açıqlanmalı və təsvir olunmalı müəyyən bir qanunauyğunluq fəaliyyət göstərir. Amma aydındır ki, mənşə eyniliyi etnosun təyini üçün indikator (göstərici,-tər.) ola bilməz, çünki bu - şüurumuza qədim dövrlərin primitiv elmindən miras qalan əfsanədir.

Etnos xəyal kimi. Bəlkə "etnos" sadəcə olaraq bu və ya digər cəmiyyətin formalaşdığı zaman yaranan sosial kateqoriyadır? (47) Belə olduğu halda, etnos - xəyalı vahiddir, etnoqrafiya isə mənasız vaxt itkisidir. Çünki sosial şəraiti araşdırmaq daha asandır. Mücərrəd mühakimələri təbii proseslər üzərində düşünmək qabiliyyətinə malik adam üçün anlaşıqlı olan müşahidələrlə əvəzləsək, bu baxımın yanlış olması tam aydınlaşır. Buna dair real örnəkləri nəzərdən keçirək. Fransada kelt - bretonlar və iberqaskonlar yaşayırlar. Vandeya meşələrində və Piriney dağlarının ətəklərində onlar öz kostyumlarını geyir, öz dillərində danışır və özlərini fransızlardan kəskin şəkildə fərqləndirirdilər. Lakin Fransa marşalları Mürat və ya Lanna barəsində demək olarmı ki, onlar fransız yox, baskdırlar? Yaxud tarixi personaj və Dumanın qəhrəmanı DArtanyan? Zadəgan Şatobriani, Jan dArkın silahdaşı Jil de Retsi fransız saymamaq olarmı? Məgər irland Oskar Uayld ingilis yazıçısı deyilmi? Məşhur şərqşünas Çokan Vəlixanov deyirdi ki, özünü eyni dərəcədə həm rus, həm qazax sayır. Belə örnəklərin sayı - hesabı yoxdur. Lakin onların hamısı göstərir ki, insanların şüurunda aşkar olunan etnik mənsubiyyət şüurun öz məhsulu deyil. Yəqin o insanın təbiətinin ali əsəb fəaliyyətinin forması kimi anladığımız şüur və psixologiyasının xaricindəki daha dərin tərəfini əks etdirir. Axı, digər hallarda etnoslar, hansı səbəbdənsə, əhatələrinin təsirinə qarşı nəhəng müqavimət qüvvəsi göstərir və assimilyasiya olmurlar.

Artıq 100 ildir ki, Hindistandakı icmalarından uzaq düşən qaraçılar doğma torpaqla əlaqəni itirsələr də, nə fransızlar, nə çexlər, nə də monqollarla qarışmamışlar. Onlar Avropa cəmiyyətinin [56-57] feodal institutlarını qəbul etmədiklərindən, düşdükləri bütün ölkələrdə yabançı qrup kimi qalmışlar. Eybəcər kapitalizm əhatəsində olan irokezlər indiyədək kiçik (onların sayı cəmi 20 000 nəfərdir) etnik qrup halında yaşayır və "amerikansayağı həyat tərzində" iştirak etmirlər. Monqolustanda yaşayan türk etnosları - soyotlar (ürənhaylar), qazaxlar və başqaları - "cəmiyyətin maddi və mənəvi inkişafının" oxşar olmasına baxmayaraq, monqollarla qarışmır və müstəqil etnoslar təşkil edirlər. "Cəmiyyətin, onun istehsal qüvvələrinin vəziyyətinin", inkişaf səviyyəsinin eyni olması da burada bir rol oynamır. Əksinə, XVIII əsrdə Kanadada məskunlaşan fransızlar öz etnik simalarını dövrümüzə qədər qoruyub saxlamışlar,

baxmayaraq ki, onların meşələrdə yerləşən qəsəbələrinin inkişafı ilə Fransanın sənaye şəhərlərinin inkişafı kifayət qədər fərqlidir. İspaniyadan qovulan yəhudilər 400 ildən artıqdır ki, Salonikidə endoqam qrup halında yaşasalar da, 1918-ci ilin məlumatına görə, öz qonşuları olan yunanlardan daha çox, ərəblərə bənzəyirlər. Eynilə Macarıstandakı almanlar xarici görünüşlərinə görə Almaniyadakı həmvətənlərinə, qaraçılar isə hindlilərə bənzəyir. Seçmə əlamətlərin nisbəti çox ləng dəyişir, mutasiyalara isə məlum olduğu kimi, az - az rast olunur. Buna görə də alışdığı landşaftda yaşayan hər hansı bir etnos demək olar ki, tarazlıq vəziyyətindədir.

Mövcudluq şərtlərinin dəyişməsinin etnoslara heç vaxt təsir göstərmədiyini dəyişmək lazım deyil. Bəzən bu amil o qədər güclü təsir göstərir ki, bu və ya digər dərəcədə sabit olan yeni əlamətlər yaranır və eyni etnik variantlar meydana çıxır. Biz bu proseslərin necə cərəyan etdiyini və nə səbəbdən fərqli nəticələrə gətirib çıxardığını aydınlaşdırmalıyıq.

Məşhur sovet araşdırıcısı S.A.Tokarevin irəli sürdüyü sosioloji konsepsiyada etnik ümumilik anlayışının tərifi əvəzinə, “xalqın dörd formasiyadakı dörd tarixi tipindən: ibtidai icmada tayfa - müəyyən ərazidəki bütün insan qrupunu əhatə edərək, onları qan - qohumluq əlaqələrilə birləşdirir; quldarlıqda demos - qullar istisna olmaqla bütün azad əhali; feodalizmdə xalq - hakim sinif istisna olmaqla ölkənin bütün zəhmətkeş əhalisi; kapitalizm və sosializmdə antaqonik siniflərə parçalanmış əhalinin bütün təbəqələri”ndən (48) danışılırdı. Gətirdiyimiz parça göstərir ki, “etnik ümumilik” ifadəsinə tamamilə başqa anlam verilirdi. Ola bilər ki, bu anlam müəyyən qədər yardımçı olur, lakin tarixi coğrafiyanın, ümumiyyətlə təbiət elmlərinin əhatə dairəsindən kənarda yerləşir. Bu səbəbdən də həmin konsepsiya ilə mübahisə məhsuldar olmazdı, [57-58] çünki nəyi etnos adlandırmaq haqqında mübarizəyə çevriləcəkdir. Sözlər haqqında mübahisə etməyin isə nə mənası var?

Qərblə Şərq arasında. Nə qədər ki, Aralıq dənizi hövzəsi mədəniyyətlərilə tanış olurduq, adət etdiyimiz anlayış və meyarlar mühitində idik. Din - Tanrıya inam, dövlət - müəyyən qayda və hakimiyyətin bərqərar olduğu ərazi demək idi. Ölkələrin adları, xalqların etnik mənsubiyyəti vardı, çaylar və göllər isə müəyyən yerlərdə yerləşirdi.

Amma alışdığımız “Qərb” və ”Şərq” anlamları özlərini bir o qədər də coğrafi şəkildə aparmırdı: Mərakeş “Şərq”, Macarıstan və Polşa isə “Qərb” hesab edilirdi. Hamı bu şərtiliyə alışdığından, dolaşıqlıq olmurdu. Bədii ədəbiyyat oxunması və canlı ənənələrin varlığı sayəsində hətta qeyri - mütəxəssislərə də tanış olan bu predmetin tətbiqi dərəcəsi də buna yardımçı olurdu.

Lakin Orta və Şərqi Asiyanı bir birindən ayıran dağ aşırımlarını keçən kimi başqa meyarlar sistemi dünyasına qovuşuruq. Burada nəinki Tanrının, bizi əhatə edən dünyanın da varlığını inkar edən dinlərlə qarşılaşırıq. Qayda - qanun və sosial quruluş dövlət və hakimiyyət prinsiplərinə ziddir. Adsız ölkələrdə dil, iqtisadiyyat, bəzi hallarda isə ərazi birliyi də olmayan etnoslarla rastlaşacağıq, çaylar və göllərsə köçəri çobanlar tək yerlərini dəyişəcək. Köçəri saydığımız tayfaları oturaq həyat keçirən görəcəyik, qoşunların qüvvəsi isə saydan asılı olmayacaq. Yalnız etnogenez qanunauyğunluqları dəyişməz qalacaq.

Fərqli material ona başqa cür yanaşılmasını, deməli, həm də başqa araşdırma miqyası tələb edir. Əks halda o, anlaşılmayacaq və kitab oxucu üçün maraqsız olacaq. Oxucu Avropa terminlərinə alışıb. O, “kral”, “qraf”, “kansler”, ”burjua kommunası”nın nə demək olduğunu bilir. Amma Oykumenanın şərqində ekvivalent terminlər yox idi. “Xaqan” nə kral, nə imperator deyil ömürlük seçilən hərbi rəhbərdir və o, paralel olaraq sələflərə ehtiram ayinlərini də yerinə yetirir. Məgər Riçard Şir ürəyini çərlədib öldürdüyü II Henrixin ruhuna dua oxuyan təsəvvür etmək mümkündürmü? Üstəlik də burada qaskon və ingilis zadəganlarının iştirakını? Axı, bu, sərsəmləmədir! Böyük Çölün şərqində isə o bunu etmək məcburiyyətində idi, yoxsa elə oradaca öldürülərdi.

“Çinlilər”, yaxud “hindlilər” kimi adlar “fransızlar” və ya “almanlara” deyil, ümumilikdə qərbi avropalılara ekvivalent idi, çünki başqa mədəniyyət prinsiplərinə əsaslanan etnos sistemləri idilər. Hindliləri kastalar sistemi, çinliləri isə heroqlif yazısı və [58-59] humanitar savad birləşdirirdi. Hindistanda anadan olan müsəlmanlığı qəbul edən kimi hindliliyini itirirdi, çünki həmvətənlilərinin nəzərində mürtədə çevrilir və toxunulmazlar kastasına aid olurdu. Konfutsiyə görə, barbarlar arasında yaşayan çinli barnar kimi qəbul olunurdu. Əvəzində, çin ədəb-ərkanına riayət edən əcnəbi çinliyə bərabər tutulurdu.

Şərq və Qərb etnoslarını tutuşdurmaq üçün biz bərabər dəyərə malik bölgüləri olan düzgün qarşılıqlar tapmaq zorundayıq. Bunun xatirinə etnosun bütün ölkə və əsrlərə xas olan təbii olay kimi xassələrini araşdıraq.

Qarşıya qoyulan məqsədə yetişmək üçün dünya haqqında qədim ənənəvi bilgilərə çox diqqətlə yanaşmaq, onları yalnız bizim müasir təsəvvürlərimizə uyğun gəlmədikləri üçün qabaqcadan rədd etməmək lazımdır. Biz daim unuduruq ki, bir neçə min il bundan əvvəl yaşamış adamlar da müasirlərimizin malik olduqları şüura bacarıq, həqiqət və biliklərə doğru can atmaq ehtirasına malik idilər. Müxtəlif dövrlərin müxtəlif xalqlarının zəmanəmizə qədər gəlib çatan traktatları buna dəlalət edir. Elə bu səbəbdən etnologiya əməli cəhətdən zəruri bir fəndir, axı onun metodikası olmadığı halda, qədim dövrlərin mədəni irsinin xeyli hissəsi bizim üçün əlçatmaz olaraq qalır.

Şərqi Asiyanın tarix və mədəniyyətinin anlaşması üçün adi yanaşma yaramır. Avropa tarixini öyrənərkən biz müxtəlif bölmələri fərqləndirə bilərik: Fransa, Almaniya, İngiltərə və i.a. tarixi, yaxud

qədim, orta əsr, yeni tarix. Daha sonra, məsələn, Roma tarixini araşdırarkın, qonşu xalqlara yalnız Romanın onlarla təmasda olması, yaxud toqquşması ilə ilgili toxunuruq. Qərb ölkələri üçün belə yanaşma əldə edilən nəticələrlə özünü doğruldursa da, Aralıq Asiyanın bu üsulla araşdırılması zamanı qənaətbəxş nəticələr əldə edə bilməyəcəyik. Bunun səbəbi çox dərindir. Məsələ ondadır ki, Asiya və Avropada "xalq" termininin anlamları tamamilə fərqlidir. Asiyanın özündə etnik müxtəlif cür anlaşılır. Mövzumuza birbaşa aidiyyəti olmayanlar kimi, Levant və Hindistanla Hind - Çini kənara atsaq belə, yenə də məsələnin müxtəlif anlamları qalır: Çin, İran və köçəri. Sonuncusu dövrdən asılı olaraq çox güclü şəkildə dəyişir. O, xun dövründə heç də uyğura yaxud monqol dövründə olduğu kimi deyil.

Avropada etnonim sabit, Ararlıq Asiyada müəyyən qədər yayğın, Çində - ehtivaedici, İranda - istisna edən anlamdır. Başqa sözlə, Çində çinli sayılmaq üçün adam çin əxlaqı, təhsili və davranış [59-60] qaydalarının əsaslarını qavramalı idi. Mənşə və dil nəzərə alınmırdı, çünki qədimdə də çinlilər müxtəlif dillərdə danışmırdılar. Buna görə də aydındır ki, Çin kiçik xalq və tayfaları fəth etməklə genişlənirdi. İranda isə, əksinə, fars sayılmaq üçün mütləq mənşəcə fars olmaq, üstəlik də mütləq Hörmüzə etiqad və Əhrimmənə nifrət etmək gərəkdi. Bunsuz "ari" olmaq mümkün deyildi. Orta əsr (Sasani) farsları kimi isə sıralarına qəbul etməyi heç ağıllarına belə gətirmirdilər, çünki özlərini "əsilzadə" (nomdoron) adlandırır, başqalarını isə bura aid etmirdilər. Nəticədə xalqın sayı durmadan azalırdı. Parfiyalıların anlayış tərzi haqqında mühakimə yürütmək çətindir. Lakin gümun ki, farslardakından prinsipial şəkildə fərqlənmirdi, yalnız bir qədər geniş idi.

Xunlarda xun sayılmaq üçün nəslin üzvü olmaq mütləq şərt idi. Amma nəslə ya nigah yolu ilə, ya da şanyuyun göstərişilə daxil olmaq olardı. Belə olduqda, həmin adam özününkünə çevrilirdi. Xunların sələfləri olan türkyurtlar bütöv tayfaları ilhaq etməyə başladılar. Qavrama əsasında qarışıq tayfa ittifaqları, məsələn, qazaxlar, yakutlar və başqaları meydana gəldilər. Ümumilikdə, türklər və xunlara kifayət qədər yaxın olan monqollarda orda, yəni intizam və rəhbərlik əsasında birləşmiş insan qrupu üstünlük qazandı. Burada mənşə, dil, etiqad yox, cəsarət və itaətə hazır olmaq tələb edilirdi. Aydındır ki, ordaların adları etnonimlər deyil, lakin ordalar mövcud olarkən etnonimlər ümumiyyətlə yox olur, çünki onlara ehtiyac qalmır - "xalq" anlayışı "dövlət" anlayışı ilə üst-üstə düşür.

Bununla əlaqədar biz möhkəm yadda saxlamalıyıq ki, sadaladığımız bütün hallarda "dövlət" anlayışı müxtəlifdir və tərcümə zamanı əvəzolunmazdır. Çinlilərdəki "qo" çəpər və əlində nizə olan adam şəklindəki heroqliflə işarə olunur. Bu, heç də ingilislərdəki "state", fransızlardakı "etat", hətta latınların "imperium", yaxud "respublikae" sözlərinə də müvafiq gəlmir. İranlıların "şəhr"i və yuxarıda göstərilən "orda"da məzmununa görə ondan çox uzaqdır. Bəzən fərqlərin təfərrüatları oxşarlığın elementlərindən önəmli olur, bu isə tarix xadimlərinin davranışını şərtləndirir: avropalıya dəhşətli görünən şey monqol üçün təbiidir və əksinə. Səbəb etikanın yox, predmetin, bizim halda dövlətin identik (tam eyni,-tər.) olmasındadır. Buna görə də araşdırdığımız xalqları üzücü sxemlərlə məhdudlaşdırmamaqdan ötrü, biz yalnız oxşarlığı deyil, fərqləri də qeydə alacayıq.

Əlbəttə, Avropadakılara bənzəməyən bütün dövlət formalarının, ictimai qurumların, etnik normaların, hətta izhar formalarının [60-61] sadəcə olaraq cahil, geridə qalmış, natamam və dəyərsiz olmaları barədə geniş yayılan fikir bizi məyus etməyə bilməz. Bayağı yevrosentrizm obivatel qavrayışı üçün kifayət olsa da, müşahidə olunan olayların çeşidliliyinin elmi dərki üçün yaramır. Axı, çinli, yaxud ərəbin də nöqteyi - nəzərində qərbi avropalılar qeyri - kamil görünürlər. Bu da eyni dərəcədə yanlış və perspektivsizdir. Görünür, biz elə bir dəyərləndirmə sistemi tapmalıyıq ki, orada bütün müşahidələr eyni dərəcəsində aparılsın. Yalnız bu cür yanaşma oxşar olmayan olayları tutuşdurmaq, bununla da mötəbər nəticələr çıxarmaq imkanı verir. Araşdırmanın burada sadalanan bütün araşdırma şərtləri yalnız tarix deyil, coğrafiya üçün də məcburidir, çünki o insan və coğrafi adlarla bağlıdır. Qərbdə ölkələri adları ilə fərqləndirirlər, bəs, Şərqdə?

Adsız ölkə və xalq. Müsəlman aləminin şərq sərhədilə Aralıq imperiyasının bizim Çin adlandırdığımız şimal - qərb ucqarları arasında müəyyən adi olmayan bir ölkə yerləşir. Bu, bir də ona görə qəribədir ki, ölkənin coğrafi sərhədləri dəqiq fərqləndirilib, fiziki - iqlimi şəraiti özünəməxsus və təkrarsızdır, əhalisi isə çoxdur və qədimdən bəri mədəniyyətlə ilgilidir. Bü ölkə Çin, ərəb, yunan coğrafiyaçılarına gözəl məlum idi. Ora rus və Qərbi avropa səyyahları səfərlər edirdi. Burada dəfələrlə arxeoloji qazıntılar aparılmışdı... və hamı ona təsviri bir ad qoyurdu, özünün adı isə yox idi. Bu səbəbdən də, sadəcə olaraq onun harada yerləşdiyini göstərək.

Pamirdən şərqə doğru iki dağ silsiləsi uzanıb gedir: cənubunda yerləşdiyi Tibetin Kunlun və Tyanşan. Bunların arasında bol sulu Tarım çayının axdığı qumlu səhra - Təklə -Məkan uzanıb gedir. Onun mənşəyi "Aral" yəni Yarkənddərya, Ağsudərya və Hotandərya adlanan üç çayın qolları arasındakı "ada" sayılır. Sonu bəzən səhrada itib - batır, bəzən Qaraburangöl çölünə çatır, bəzən isə Lob - noru - daim yerini dəyişən gölü qidalandırır. (49) Bu qəribə ölkədə çaylar və göllər yerini dəyişir, insanlar isə dağların ətəklərində daldalanırlar. Dağlardan şirin suyu olan bulaqlar axır, lakin dağ uçqunları altında qalaraq, dağlardan xeyli uzaqda yer üzünə çıxırlar. Həmin yerlərdə vahələr əmələ gəlir. Daha sonra çaylar yenidən, bu dəfə artıq qumlar arasında yoxa çıxır. Okean səviyyəsindən 154 metr aşağıda yerləşən ən dərin çökəklik də bu ölkədədir. Qədim mədəni mərkəz olan Türfan vahəsi bu çökəklikdədir. Yayın 48° S-yə

çatan istisində, qışın 37° S şaxtasında, qeyri - adi dərəcədə quru payız havasında və güclü bahar rüzgarları arasında əsən yerdə [61-62] elm və incəsənətlə necə məşğul olurdular? Amma məşğul olur, həm də müvəffəqiyyət əldə edirdilər.

Bu ölkənin qədim əhalisi özü - özünə ad qoymamışdı. Hazırda onları toharlar adlandırsalar da, bu, etnonim deyil, tibetcə ləqəbdir. (tha qar) ki, mənası da "ağ daş" deməkdir. Vahələrin sakinləri hind - avropa qrupuna məxsus müxtəlif dillərdə danışırdılar və bunların arasında Avropada məlum olan dillərə bənzəməyən qərbi ari dili də var. Blkənin cənub-qərbində, Kunlunun ətəklərində Hotan və Yarkənd Sakinlərilə sıx təmasda olan, lakin onlara qarışmayan Tibet köçəri tayfaları məskunlaşmışdı. (50) Eramızın ilk əsrlərində Kaşqardan cənuba doğru Hotanadək qərbdən gəlmiş saklar və ölkələrindəki vətəndaş savaşının dəhşətlərindən qaçmış çin mühacirləri məskunlaşmışdı. Çinlilər Türfan vahəsində öz koloniyalarını yaratdılar - Qaoçan. Bu koloniya IX əsrədək mövcud olduqdan sonra heç bir iz qoymadan yox oldu.

Göründüyü kimi, etnonimə görə ölkə üçün ad seçmək mümkünsüzdür. Halbuki, bu, Qədim dünyada ən yaxşı sayılmalı olan təsərrüfat yaratmış mədəni əhali idi.

Mərkəzi Asiya vahələrinin təbiəti qədim dövrlərdən bəri insanın tələbatlarına harmonik duruma gətirilmişdi. Türfanlıların iranlıların yeraltı su təchizatı sistemini - kəhrizlər qurulmasını öyrənməsi sayəsində suvarılan sahələr daha çox adamı ərzaqla təmin edirdi. İldə iki dəfə məhsul toplanırdı. Türfan üzümü haqlı olaraq yer üzərində ən yaxşı üzüm sayılmalıdır. Qovun, qarpız, ərik yazdan payızın lap axırınadək olurdu, uzunluğu pambıq tarlalarını piramida şəkilli qovaqlar və tut ağacları ruzgarlardan qoruyurdu. Ətraf isə çat vermiş qaya qırıntıları, çay daşı və kəsəklərlə örtülmüş, bircə dənə ot da bitməyən qarışıq səhra idi. (51) Bu, vahə üçün böyük ordulardan etibarlı müdafiə idi. Piyada qoşunu səhradan keçirmək çox çətindir, çünki təkcə ərzaq deyil, su da götürmək lazım gəlir ki, bu da yardımçı karvan üçün çox böyük yükdür. Köçərilərin yüngül silahlı süvari dəstələrinin hücumları isə qala divarları üçün heç bir təhlükə törətmir.

Ölkənin kinci iri mərkəzi - Qaraşər dağları, şirin sulu Baqraş - kul gölü yaxınlığında yerləşir. Bu şəhərin "bəhərli torpaqları... bol balığı var... Təbiət özü onu yaxşı möhkəmləndirib və burada müdafiə olunmaq çox asandır." (52) Baqraş-kuldan axan Konçədərya Lobnoru qidalandırır. Onun sahili boyunca susuzluğa məruz qalmadan ətrafını nəcib marallar və vəhşi qabanlar üçün sığınacaq [62-63] olan qovaq, çaytikanı, yulgun, hündür qamışdan ibarət meşəliklər bürümüş bolsulu Tarimə qədər gəlib çıxmaq mümkündür. (53)

Bu ölkənin oturaq həyat tərzinə keçmiş sakinlərinin qədim ideologiyası buddaçılığın hinayana ("kiçik keçid", yaxud "kiçik cəng arabası" - Buddanın heç bir qarışığı olmayan ən ortodoksal təlimi) forması idi ki, onu heç din adlandırmaq olmaz. Tanrını inkar edən hinayanaçılar onu karmanın əxlaqi qanunu ilə əvəzləyirlər (səbəb ardıcıllığı). Budda - kamiliyə çatan və nirvana mütləq dinclik halına yetişmək yolu ilə iztirab və cırlaşmadan qurtulmaq arzusunda bulunan hər bir kəs üçün örnək olan adamdır. Nirvanaya yalnız nə ilahi mərhəmətdən, nə kənar yardımdan asılı olmayan müəyyən məqsədə üz tutan adam - arhat (mömin) yetişə bilər. Ninayanaçılar deyirlər: "Özün öz çırağın ol".

Təbii ki, "kimillik yoluna qədəm qoymaq" çox az adama nəsib olurdu. Bəs, qalanlar nə etsin? Onlar sadəcə olaraq arhatlara ehtiram göstərir, gündəlik işlərilə məşğul olur, asudə vaxtlarında öyüd - nəsihət dinləyir və ümid edirdilər ki, gələcəkdə özləri də müqəddəs ola biləcəklər. Lakin başqa örnəklərdə biz artıq ehkamların etnik davranış stereotipinə nə qədər cüzi təsir göstərdiyinin şahidi olmuşuq. Türfan, Qaraşər və Küçi arharları, tacirləri, döyüşçü və əkinçiləri vahid sistem təşkil edirdilər və buddaçılıq bu sistemin yalnız bir çaları idi.

Amma bəzən predmetin rəngi, çaları da müəyyən, həm də önəmli rol oynamağa qadirdir. Hinayaçılar ictimai XV əsrədək mövcud olsa da, mücərrəd, yanğın, müxtəlif səciyyəli və mürəkkəb təlim olan mahayananın XI əsrdə Yarkənd və Hotanda artıq öz mövqelərini İslamı təhvil etməsi, güman ki, heç də təsadüfi deyil.

Türfana gələn uyğurlar manihiliyə (54) etiqad etsələr də, güman ki, onların manihiliyi də türfanların buddaçılığı kimi formal səciyyə daşıyırdı.

Müstəqil etiqad kimi manihilik hələ XII əsrədək itib getsə də, onun ideyaları bir sıra buddaçı fəlsəfi cərəyana və XI əsrdə bütün mərkəzi Asiyaya müzəffər yürüş edən nestorçuluğa daxil oldu. Həmin əsrlərdə Türfan, Qaraşər və Küçi sakinləri özlərini uyğur adlandırmağa başladılar.

Onlara xas olan dözümlülüyə rəğmən, Uyğurustanda nestorçular buddaçılarla yola getdilər. Görünür ki, xristianlıq hinayananın ateistik mücərrədliklərindən uzaq olan dini görüşlərə malik adamlar üçün məqbul idi. Tacirlər də xristian olurdular, çünki buddaçılıq "kamillik yoluna qədəm qoyanlara" qızıla, gümüşə [63-64] və qadınlara toxunmağı qadağan edirdi. Bu səbəbdən mömin olmaqla yahaşı, iqtisadi həyatda fəal iştirak edən adamlar yaşamaq və işləməyə mane olmayan din axtarmaq zorunda qalırdılar. Deməli, belə bir qənaətə gələ bilərik ki, hər iki ideoloji sistem üçün müvafiq ekoloji sığınacaq tapıldı.

Bu ölkənin rifahı, əsasən, əlverişli coğrafi mövqeyinə əsaslanırdı: buradan iki karvan yolu keçirdi - biri Tyanşandan şimala, digəri isə cənuba doğru. Bu yollarla Çin ipəyi Provansa daşınır. Fransa və Bizans

zinət əşyaları isə Çinə axıb gəlirdi. Vahələrdə karvanlar ağır səhra keçidlərindən sonra dincəlir, dəvələri və atları yedirirdilər. Bununla əlaqədar, vahələrdə yaşayan qadınlar arasında dünyanın ən qədim peşəsi çox geniş yayılmışdı. Kişiləri də buna rəğbətlə yanaşırdılar, çünki qazancın bir hissəsi onların cibinə gedirdi. Uyğur qadınları buna o qədər alışmışdılar ki, monqollarla ittifaq sayəsində Uyğurustan görünməmiş dərəcədə zənginləşdikdən sonra da sakinlər monqol xanı Uğededən onların qadınlarına səyyahları əyləndirməklə məşğul olmağı qadağan etməməyi xahiş etdilər.

Bu adət, daha doğrusu - etnik davranış stereotipinin elementi, dil, etiqad, siyasi quruluş və özünüadlandırmadan da qüvvətli oldu. Davranış stereoitipi adaptasiya əlaməti, yə ni etnosun coğrafi mühitə uyğunlaşma üsulu kimi formalaşır. Adlar isə burada onları daşıyan etnoslardan daha tez-tez dəyişirdi. Həm də etnonimlərin dəyişməsi siyasi durumla izah olunurdu.

Bu bərəkətli vahələrin zəngin və çoxsaylı cəngavər köçəriləri heç bir çətinlik çəkmədən qoydura bilirdi. Bundan əlavə, əvvəlcə uyğurlar, daha sonra isə monqollar təbəələrinin xarici düşmənlərdən mühafizəsini öz öhdələrinə götürmüşdülər. 300 il ərzində uyğurlar xeyli sakinlər arasında əriyib itsələr də, onları tohar dilini türk dililə əvəzləməyə məcbur etdilər. Amma bunun üçün bir o qədər də zəhmət çəkməli olmadılar, çünki XI əsrdə mavi Mərmərə dənizinin sahillərindən və Karpat dağlarının meşəli ətəklərindən Benqaliyyə cəngəlliklərinə və Böyük Çin səddinədək ərazidə bütün xalqlar türk dili ləhcələrində danışırdılar. Belə geniş yayılması həmin dili ticarət əməliyyatları üçün çox münasib edirdi. Orta Asiyanın hər iki hissəsinin vahələrinin sakinləri isə ticarəti çox xoşlayırdı. Bu səbəbdən də doğma, lakin çox az yayılmış dilin hamı üçün aydın olanı ilə əvəzlənməsi ilə yalnız Tarım hövzəsinin şərq hissəsində deyil, yağma və karluk türk tayfalarının uyğurların rolunu öz öhdələrinə götürdükləri cənub-qərb hissəsində də maneəsiz baş verdi. [64-65] Amma onlarla uyğurlar arasında fərq çox nəhəng idi. Uyğurlar təbəələrinin nə məişətinə, nə dininə, nə mədəniyyətinə toxunmadıqları halda, 960-cı ildə İslamı qəbul edən karluklar Kaşqar, Yarkənd və Hotani Səmərqənd və Buxaranın bənzərinə çevirdilər.

Beləliklə, coğrafi cəhətdən monolit vilayət bir birinə qarşı heç də dost münasibətdə olmayan iki etnik-mədəni bölgəyə parçalanmış oldu. Lakin qüvvələr bərabər, vahələr arasındakı məsafələr isə uzaq və çətin keçilən olduğundan, durum uzun müddət sabit qaldı.

Ölkənin adsız qalmasını bu durumla açıqlamaq olar. Qədimdə çinlilər onu Siyüy, yəni “Qərb diyarı” adlandırır və Pamirlə Altayı onun sonu sayırdılar. Ellinlər bu ölkəni “Serika”, oradan gətirilən qiymətli malı isə “serikum” (ipək) adlandırmışdılar. Bu sözün etimologiyasının açıqlanmasını öhdəmə götürə bilmərəm.

Yeni dövrdə şərti adlar - Kaşkarıstan, Şərqi Türküstan, yaxud Sintezyan, yəni hərfi mənada mancurların XVIII əsrdə bərqərar etdikləri “yeni sərhəd” -işlədilib. Bütün bu adlar dövrümüz üçün yaramır. Qədimdə çinlilər üçün “Qərb” olan XII-XIII əsrlərdə orta oldu. Türk dilini anlamağı öyrənən hind-avropalıların məskunlaşdıqları ölkəni “Türküstan” adlandırmaq cəfəngiyyatdır. Kaşkar hələ paytaxat olmamışdı, “yeni sərhəd” isə heç nəzərə belə çarpmırdı. Yaxşısı budur, coğrafi şərti adı - Tarım hövzəsini saxlayaq. Çay etibarlı, hər halda, bitərəf və uzunömürlü oriyentirdir. Bundan əlavə, “Sintszyan” termini Tyanşandan şimala yerləşən və tamamilə başqa tarixi taleyə malik Cinqariyanı (bu da şərti və daha sonrakı dövrlərə aid aiddir) da ehtiva edir.

Uyğurustanın şimal sərhəddini təyin etmək çətindir. Keçən əsrlər ərzində o əhəmiyyətli dərəcədə dəyişib və dəyişiliklərdən əksəriyyətinin tarixi məlum deyil. Hamı vadisinin, bəlkə də Dunhuan mağara şəhərinin - buddaçı incəsənət xəzinəsinin - uyğurlara mənsub olduğunu düşünmək olar. Lakin bir qədər də şərqə doğru olan torpaqları - Nanşan ətəklərindəki vahələri tanqutlar uyğurların əlindən aldılar. Özlərini belə adlandıran adamların olmasına rəğmən, uyğurlar kimi lanqutlar da hazırda olmayan xalqdır. Amma bu da ilgimdir. Özlərini uyğur adlandıranlar XV-XVIII əsrlərdə Şərqdə köçən Fərqanə türkləridir. Tanqut slavyanlar isə vaxtilə tanqutların ən qəddar düşmənləri olan və ən qədim dövrə mənsub etnos - köçəri tibetlilərdir.

Beləliklə, tarixi tənqid göstərdi ki, Asiyada adların anlamları və onların səslənməsi heç də həmişə üst-üstə düşmür. Acınacaqlı və çox təəssüf ki, tez-tez təkrarlanan yanlışlıqlardan qurtulmaq üçün [65-66] həm Avropa, həm Asiya, həm də Amerika, Okeaniya, Afrika və Avstraliya üçün həqiqi olan bir sistem işləyib hazırlamaq gərəkdir. Lakin bu sistemdə məna fonetikadan üstündür, yə ni onun əsasında dilçilik deyil, tarix durur.

“Etnos”- S.M.Şirokoqorovun əsəri. Törəmə deyil, müstəqil olay kimi etnosun ilk ümumi nəzəriyyəsi S.M.Şirokoqorova məxsusdur. (56) O, etnos daxilində bir növ kimi bəşəriyyət mövcud olmaq imkanı verən elementlərin quruculuğu, inkişafı və ölümün baş verdiyi forma” sayır. (57) Bu zaman etnos “mənşə, ənənə dil və həyat tərzinin eyniliyinin birləşdirdiyi adamlar qrupu” (58) kimi təyinlənir. Bu tezislərin hər ikisi XX əsrin əvvəllərində elmin durumunu səciyyələndirir. Coğrafiya baxımından “etnosun uyğunlaşdığı və tabe olaraq onun bir hissəsinə, törəməsinə çevrildiyi mühit” tanınır. V.Anuçin bu konsepsiyanı “vahid coğrafiya” adı altında bərpa etsə də, o, bir o qədər də nüfuz qazanmışdı. Sosial struktur bioloji kateqoriya - etnik əhatə hesabına inkişaf edən yeni uyğunlaşma forması kimi nəzərdən keçirilir: “Etnos qonşularından, necə deyərlər, onun xüsusi çəkisini artıran və ona müqavimət göstərmək xassəsi aşılayan dəyişiklik impulsları alır”. (59) Burada S.M.Şirokoqorovun konsepsiyası A.Toynbinin “Çağırış və cavab”

baxışı ilə səslənir ki, həmin baxışda yaradıcılıq mühitin “meydan oxumasına” cavab kimi səciyyələndirilir. (60)

S.M.Şirokoqorovun “ümumi qənaətçiləri” daha az müqavimət doğurur: “İ.Ernosun inkişafı... bütün kompleksin uyğunlaşması yolu ilə baş verir.. həm də bu zaman bəzi olayların mürəkkəbləşməsilə yanaşı, digərlərinin sadələşməsi mümkündür. II. Etnoslar özləri mühitə uyğunlaşır və onu da özlərinə uyğunlaşdırırlar. III. Etnosların hərəkəti ən az müqavimət yolu ilə baş verir”. (61) Hazırda bu, yeni bir şey deyil. Həm də yarım əsr ərzində S.M.Şirokoqorovun baxışlarının köhnəlməsində təəccüblü heç bir şey yoxdur. Zooloji qanunauyğunluqların etnologiya üçün istinad material olan tarixə mexaniki şəkildə şamil edilməsi daha pisdir. Bu səbəbdən də S.M.Şirokoqorovun prinsiplərinin tətbiqi dərhal keçilməz manеələrlə üzləşir. Məsələn, “etnos üçün varlığını -bir növ kimi həyatının məqsədini təmin edən istənilən mövcudiyyat forması məqbuldur” (62) tezisi sadəcə olaraq yanlışdır. Şimali Amerika hinduları, yaxud Cinqariya köçəriləri ABŞ və ya Çinin hakimiyyəti altında özünəməxsusluqlarından imtina etmək yolu ilə salamat qala bilidikləri halda, hər ikisi heç bir ümid yeri olmaya-olmaya qeyri-bərabər mübarizəyə başladı. Heç də bütün etnoslar yaşamaq naminə [66-67] düşmənə təslim olmaqla razılaşmır. Bu, əlavə dəlillər olmadan da aydındır. “Ərazilər qəsb etmək, mədəniliyi inkişaf etdirmək və əhalinin sayını araşdırmaq istəyi hər bir etnosun hərəkətinin əsasıdır” tezisi də (63) yanlışdır, çünki qədim etnoslar heç də təcavüzkar deyil. “Yalnız mədəniyyəti nisbətən aşağı etnoslar salamat qalır” (64) müddəası da ancaq qismən doğrudur, çünki bir sıra hallarda onların daha mədəni qonşuları olduğu halda süquta uğramaları müşahidə edilir. “Təşkilatlanma nə qədər mürəkkəb və xüsusi uyğunlaşma forması nə qədər yüksək olarsa, növün (yəni etnosun) mövcudluğu bir o qədər qısa olar” (65) müddəası isə tamamilə məqbul deyil. Əksinə, etnosların yox olması strukturun sadələşməsilə ilgililər ki, bu halda daha sonra danışacıq. Hər halda S.M.Şirokoqorovun kitabı öz dövri üçün irəliyə atılan bir addım idi, çünki etnoqrafiyanın etnologiyaya çevrilməsi gümanını genişləndirirdi. Yəqin ki, mənim yazdıqlarıma da 50 ildən sonra yenidən baxılacaq, lakin bu elə elmin inkişafı deməkdir.

S.M.Şirokoqorovdan fərqli olaraq, bizim ixtiyarımızda sistemli yanaşma, ekoloji sistemlər konsepsiyası, biosfer və canlı maddənin enerjisi (biokimyəvi) haqqında təlim, həmçinin, qlobal miqyasda antropogen landşaftların yaranması barədə material var. Bütün bunlar problemin yarım əsr bundan əvvəl mövcud olanlardan daha mükəmməl həlli imkanlarının təklif etmək imkanı verir.

“Vəziyyət” və “proseslər”. Gətirdiyimiz faktlar məcmusu göstərir ki, formasiyalar konsepsiyasının əsasını təşkil edən kateqoriyalar sistemi etnogenezə prinsipial şəkildə tətbiq oluna bilməz. Bu sistem cəmiyyətin istehsal üsulu ilə təyinlənən “vəziyyətini” qeydə alır. Öz növbəsində, istehsal üsulu istehsal qüvvələrinin, başqa sözlə desək - texnosferin səviyyəisndən asılıdır. Bu qeydiyyat sistemi maddi mədəniyyət tarixi, dövlət qurumları, incəsənətdəki üslubların fəlsəfi məktəbləri, bir sözlə - insan əllərilə yaradılan hər bir şeyi araşdırmaq üçün çox münasibdir. Son yüz il ərzində ona o qədər alışqanlıq var ki, mexaniki şəkildə etnogenezin təhlilinə də şamil edir və məsələn, aşağıdakı tezisləri irəli sürürlər: 1) “etnos - insanların sosial birliyidir”(66) 2) “sinif kimi etnos da sosial təşkilat deyil, istənilən sosial formanı - tayfa, tayfa ittifaqı, dövlət, kilsə, partiya və i.a., həm də birini deyil, eyni zamanda bir neçəsini qəbul edən amorf durumdur”.

Bundan başqa, “etnosu irqlər kimi bioloji kateqoriyalarla, sosial təşkilatların müxtəlif növlərilə qarışdırmamaq” (67) məsləhət görülür. Birinci tərif yuxarıda gətirdiyimiz örnəklər əsasında dərhal [67-68] təkzib olunduğu halda, ikincisi ətraflı araşdırılmalıdır, çünki bu qeyri-şüuru fikir əsasında imperiyalar yaranır və sübut edildi ki, bu da təbii ki, onların tabe etdiyi xalqların taleyində öz əksini tapırdı.

“Vəziyyət (hal-əhval” anlamında,-tər.) anlayışı həm təbiətə, həm cəmiyyətə aiddir. Təbiətdə dörd hal var. Bərk, maye, qaz və plazma. Ətalətli maddənin molekullarının bir haldan digərinə keçməsi ərimə, yaxud buxar əmələ gəlmənin gizli hərarətinə bərabər enerji zərfi edir tələb edir. Bu keçid kiçik sıçrayışla baş verir. Həm də proses dönəridir. Biosferin canlı maddəsində belə bir keçid orqanizmin məhvlə ilgilidir və qarşısıalınmazdır. Bu o demək ola bilərdi ki, orqanizmin iki vəziyyəti var: həyat və ölüm. Lakin ölüm bir vahid kimi orqanizmin məhvi demək olduğu üçün, bu anı “vəziyyət” adlandırmaq mənasızdır. Orqanizmin həyatına gəldikdə isə bu da “vəziyyət” deyil , prosesdir: doğuluş, yetkinlik və qocalıqdan keçərək, ölümə qədər həyat prosesinin ətalətli maddədəki analoqu mineralların kristallaşması və onların daha sonra amorf kürlə halında metamorflaşmasıdır.

“Vəziyyət” və “proseslər”i araşdırarkən biz daim müxtəlif metodika tətbiq edirik. “Vəziyyət” üçün - olayın bütövlükdə nəzərdən keçirilməsini asanlaşdıran istənilən ixtiyari prinsip üzrə təsnifat. “Proseslər”, xüsusən də təkamül, yaxud formayaranma ilə ilgili olanları üçün iyerarxiya prinsipinə -fərqli səviyyəli, eyni olmasalar da, oxşar olan qrupların qarşılıqlı tabeliliyinə əsaslanan sistemləşdirmə zəruridir. Linneyin Ç.Darvin tərəfindən təkmilləşdirilən sistemi məhz elə bu cürdür. Üzvi aləm sisteminin iyerarxik səciyyəsi həyata qırılmaz şəkildə bağlı və onun üçün mütləq olan təkamül proseslərinin gedişatı və xarakteri ilə şərtlənir. Lakin həyat dayanan kimi mühitin təsirilə bu və ya digər tezliklə dağıdılan “vəziyyət” yaranır və mühitin qarşısıalınmaz reformasiyalara məruz qalmış, ölü “vəziyyət”lərdən ibarət olması da burada bir rol

oynamır. Deməli, orqanizm, o cümlədən insan orqanizmi üçün “vəziyyət”ə düşməkdən ötrü yalnız bir yol var - mumiyaya çevrilmək. Etnos üçün isə bu yol arxeoloji mədəniyyət halına düşməkdir.

Texnosfer və onunla ilgili istehsal münasibətləri isə tamamilə başqa məsələdir. Burada “vəziyyət”lər mövcuddur. Traktoru çox asanlıqla metal qırıntısına, sonuncunu isə traktora [68-69] çevirmək mümkündür. Yalnız müəyyən (təəssüf ki, xeyli) miqdarda enerji gərəkdir. Sosial həyatda da “vəziyyət”lər var. Hazırda onlar vətəndaş vəziyyəti adlanır və VVAQ şöbələrində qeydə alınır. Əvvəllər onları zümrələr adlandırırdalar (etat). Məcazi anlamda sinfi mənsubiyyəti də “vəziyyət” adlandırmaq olar, lakin yadda saxlamaq lazımdır ki, o da istehsal münasibətləri və istehsal qüvvələrinin yəni texnosferin məhsuludur. Bu durum son dərəcə səbatsızdır. Əsir düşən döyüşçü qul olur, qaçıb canını qurtardıqdan sonra isə feodala çevrilə bilirdi. Belə bir adamın taleyində iyerarxik prinsip üçün nə yer, nə də ona ehtiyac var; burada sadəcə qeydəsalma kifayətdir. Beləliklə, sosial durumların dəyişməsi təbii durumların dəyişməsinə bənzəyir (amma tam eyni deyil): onlar dönəridir və birindən digərinə keçid zamanı əlavə enerji zərfi tələb olunur. Etnos da belədirmi? Müəyyən səy göstərməklə etnik mənsubiyyəti dəyişmək mümkündürmü? Güman ki, yox! Artıq elə yalnız bu göstərir ki, etnos “vəziyyət” deyil (əlalxüsus da vətəndaşlıq vəziyyəti), prosesdir.

“Vəziyyət” konsepsiyasının qidalandıran aberrasiya müşahidəçidə tarixi perspektivin olmaması ilə ilgilidir. Kənar pozuntular olmadan etnogenez prosesinin tam sönməsi 1200-1500 ilə tamamlandığı halda, elmi işçi mövzuya 1-2, ən çoxu - 3 il sərf edir. Buna görə olub keçənlər ona heç bir sistem və qanunauyğunluqları olmayan kaleydoskop kimi görünür və o məhdud bölgə və dövrdə bir neçə dəyişikliyi qeydə almaqla yalnız “vəziyyətlər” toplusunu müşahidə edir ki, bunlar da bir birilə ilgili olmayıb, yalnız yerinə və vaxtına görə üst-üstə düşür. Belə ki, geomorfologiya meydana çıxanadək insanlar dağılıb yerlərdə terrasların əmələ gəlməsini haradasa aşağılarda axan çayların erroziya fəaliyyətlə əlaqələndirmir, dağları isə relyefin əbədi, hətta ilkin forması sayırdılar. Təəssüflər olsun ki, elmdə bütün sübutlar yalnız tərəf-müqabilin müəyyən bilik sməviyyəsinə sahib olması şərtilə təsirli olur. Hətta Kopernik-Keplerin heliosentrik sistemi də XVII əsrdə yalnız astronomiyaya kifayət qədər bələd olanları inandırmışdı. G.Mendelin kəşfini isə De Friz təkrarlamışdı. [69-70]

“Vəziyyət” konsepsiyasının əleyhinə olan ikinci dəlil etnik təmaslar bölgəsində sərhədlərin qeyri-müəyyən olmasıdır.

Vətəndaşlıq (yəni sosial) vəziyyəti dərhal, məsələn, zadəgan adı verilməklə, əsgər rütbəsinə endirilməklə, qul kimi sıtılmaqla, yaxud azad edilməklə və i.a. dəyişdirilə bildiyi halda, Huanhe vadisindən Konstantinopolda, yaxud Şimali Amerikadakı etnik təmaslar daim yorucu, uzun sürən və metisləşmənin nəticəsinin çox vaxt gözlənilməz və həmişə kortəbii olması baxımından çoxvariantlı olduğu prosesdir. Sonuncu, əsasən, korkoranə deyil, etnik proseslərin nəticələrini nəzərə almaqla fəaliyyət göstərməyə imkan verən etnoloji nəzəriyyənin işlənib hazırlanması ilə izah olunur. [70-71]

# İKİNCİ HİSSƏ

## ETNOSUN XASSƏLƏRİ

**Bir hadisə kimi etnik fenomenin xüsusiyyətlərini sıralayır. Sıralama etnogenezə, etnosların yarandığı və yox olduğu prosessə ümumi açıqlama vermək imkanına malik olmaq üçün tərtib olunub**

## IV. ETNOS VƏ ETNONİM

Adlar aldadıcıdır. Etnologiyanın ümumi qanunauyğunluqlarını araşdırarkən ilk növbədə onu qavramaq lazımdır ki, bir tərəfdən, real etnos, digər tərəfdən isə onun üzvlərinin qəbul etdikləri etnik ad (etnonim) bir birinə adekvat deyil. (1) Biz tez-tez eyni ad daşıyan bir neçə müxtəlif etnosla, yaxud əksinə, eyni etnosun müxtəlif cür adlanması ilə rastlaşırıq. Belə ki, ilk mərhələdə "romalılar" (romani) sözü yalnız Roma polisinin vətəndaşlarına aid olub, nə onların qonşuları olan italikləri, nə də heç Latsiumun digər şəhərlərində yaşayan latınları əhatə etmirdi. I-II əsrlərdə Roma imperiyası dövründə romalıların sayı bütün italikləri: etrusklar, samnitlər, liqurlar, tzizalpin qalları və heç də latın mənşəli olmayan bir çox əyalətlərin sakinlərini əhatə etmək hesabına artdı. Karakollanın 212-ci ildəki fərmanından sonra isə Roma imperiyasının ərazisindəki bələdiyyələrin bütün azad sakinləri, o cümlədən, yunanlar, qallar, illiriyalılar, kappadokiyalılar, bərbərlər, yəhudilər və i.a. "romalı" adlandırıldı. "Romalı" anlayışı sanki bir növ öz etnik mənasını itirdi. Amma əslində heç də belə deyildi. Sadəcə olaraq o həmin mənanı dəyişmirdi. Mənşə və dil vəhdəti əvəzinə ümumi məqam, hətta mədəni birlik deyil, tarixi talenin eyniliyi oldu. Bu şəkildə etnos kifayət qədər uzun müddət - üç əsr mövcud olduqdan sonra da parçalanmışdı. Əksinə, ilk dörd kilsə məclisindən sonra müəyyənedici amilə çevrilən xristianlığın dövlət dini kimi qəbulundan sonra o IV-V əsrlərdə şəklini dəyişdi: dövlət tərəfindən icazə verilən bu yığıncaqları qəbul edənlər özününkü -romalı, etməyən isə düşmən kimi qavranılırdı. Bu prinsip əsasında formalaşan etnosu biz şərti olaraq "bizanslılar" adlandırırıq. Lakin unutmamalıyıq ki, bizim belə adlandırdıqlarımız özləri özlərini "romeylər", yəni romalılar adlandırsalar da yunanca danışırdılar. Tədricən, onlara çoxlu slavyan, erməni, suriyalı qoşulsa da, onlar "romalılar" adını 1453-cü ilə, yəni Konstantinopolun süqutunadək saxlaya bildilər. Onlar [71-72] feodalların lanqobardlar, şəhər sakinlərinin I-III əsrlərdə kimsəsizləşməkdə olan İtaliyada məskunlaşan Suriya semitləri, kəndlilərin isə vaxtilə İmperiyanın istila etdiyi bütün xalqların nümayəndələrindən ibarət olduğu italiya əhalisini deyil, məhz özlərini "romalılar" sayırdılar. Əvəzində, florensiyalılar, genuyalılar, venesiyalılar və İtaliyanın digər sakinləri də öz növbəsində yunanları yox, özlərini "romalı" sayaraq, etnik şəhərdən yalnız xərabələr qalmış Romanın birinciliyini bərqərar etməyə can atırdılar.

"Romalılar" etnoniminin üçüncü qolu Roma istilasından sonra sürgün yerinə çevrilən Dakiyada meydana çıxdı. Roma hökmranlığına qarşı üsyan edən frigiyalılar, yunanlar, illiriyalılar, kappadokiyalılar, frakiyalılar, qalatlar, suriyalılar, bir sözlə, Roma imperiyasının bütün şərqli sakinləri burada öz cəzalarını çəkirdilər. Bir birini anlamaq üçün onlar latın dilində danışırdılar. Roma legionları Dakiyanı tərk etdikdən sonra isə sürgün edilənlərin xələfləri burada qalaraq, XIX əsrdə "rumınlar", yəni "romalılar" adını qəbul etmiş etnos yaratdılar.

Respublika dövrü "romalılar" ilə yetkin İmperiya dövrünün "roma vətəndaşları" arasında funksional baxımdan mədəniyyətin tədricən yayılması ilə əlaqədar bağlılıq olması nöqteyi-nəzərindən vərəsəliyi izləmək mümkün olsa da, bizanslılarla romalılar arasında belə bağlılıq da yoxdur. Buradan belə çıxır ki, söz məna və məzmunu dəyişir və etnosun müəyyənləşdirici əlaməti kimi xidmət edə bilməz. Güman ki, həmin sözün məna yükü daşıdığı mətni və bununla da dövrü də nəzərə almaq lazımdır, çünki zaman keçdikcə sözlərin mənası dəyişir. "Türk", "tatar", "monqol" kimi etnonimlərin araşdırılması zamanı bu daha qabarıq şəkildə nəzərə çarpır və onları görməmək mümkün deyil.

Gizlənməyə dair örnəklər. VI əsrdə Altay və Hinqan dağlarının şərq ətəklərində yaşayan kiçik bir xalqı türk adlandırırdılar. Bir neçə uğurlu savaş nəticəsində türklər Hinqandan Azov dənizinə qədər uzanan çölləri özlərinə tabe edə bildilər. Daxildə işlətmək üçün özlərinə məxsus etnonimi qoruyub saxlayan Böyük xaqanlıq təbəələri də türk adlanmağa başladılar, çünki türk xanına tabe idilər. Soqdianani istila edən zaman köçərilərlə toqquşan ərəblər onların hamısını, o cümlədən uqor-madyarları da türk adlandırmağa başladılar. XVIII əsrdə avropa alimləri bütün köçəriləri "Les Tartars" adlandırır, linqvistikanın dəbdə olduğu XIX əsrdə isə konkret dillər qrupuna "türk" adı verirlər. Beləliklə, qədimdə türklərin [72-73] tərkibinə daxil olmayan bir çox xalqlar, məsələn, yakutlar, çuvaşlar və türk-osmanlılar da "türklərə" aid edildilər.

Sonuncular tarixçilərin gözü önündə Kiçik Asiyaya Ərtoğrulun başçılığı altında gəlmiş türkmənlərin, aralarında kürd, səlcuq, tatar, çərkəzlər olan islam uğrunda könüllü mücahidlər - qazilərin, yanıçarlığa götürülən slavyan gənclərinin, donanmada qulluğa girən yunan, italiyalı, ərəb kirpilərin, macəra və qazanc axtarışında olan mürtəd-fransızlar və almanların, tatarlar tərəfindən qul bazarlarında

satılan külli sayda gürcü, ukraynalı və polyak qadınları ilə qaynayıb qarışması nəticəsində formalaşmışlar. Yalnız dil türk dili idi, çünki o, orduda qəbul olunmuşdu. 1000 il bundan əvvəl Mərkəzi Asiya çöllərində özlərinə ad-san qazanan və özlərindən sonra xələf qoymadan ölüb gedən çöl bahadırlarının (2) şərəfinə özünü "türk" adlandırmış bu qarmaqarışıq kütlə XV-XVI əsrlər ərzində vahid, monolit xalq şəklində birləşdi. Yenə də etnonim məsələsinin həqiqi durumunu yox, ənənə və iddiaları əks etdirir.

"Tatar" etnoniminin modifikasiyaları isə birbaşa gizlədilməyə örnəkdir. XII əsrədək bu Kerulen sahillərində məskunlaşmış 30 iri nəsildən ibarət qrupun adı idi. XII əsrdə bu xalq qüvvətləndi və Çin coğrafiyaçıları bu etnonimi Mərkəzi Asiyanın bütün köçərilərinə: türkdilli, tunqusdilli və monqoldilli, o cümlədən, monqolların özlərinə də aid etdilər. 1206-cı ildə Çingiz "monqol" adını öz təbəələri üçün rəsmi ad kimi qəbul etdikdən sonra da qonşular adətləri üzrə bir müddət monqolları tatar adlandırmaqda davam edirdilər. "Monqol" sözünün sinonimi kimi "tatar sözü bu şəkildə Şərqi Avropaya gəlib çıxdı, Volqaboyunda bərqərar oldu. Buranın yerli əhalisi Qızıl Orda xanına rəğbətinin əlaməti olaraq, özünü tatar adlandırmağa başladı. (3) Beləliklə, bütün adlar yerlərini dəyişdi. Tatar antropoloji tipinin "monqoloid", Volqaboyunun türk-qıpçaqlarının dilinin "tatar" dili adlandırdığı elmi terminologiya da məhz bu dövrdə meydana çıxdı. Başqa sözlə, biz hətta elmdə də açıq-aşkar gizlənmiş terminlərdən yararlanırıq.(4)

Lakin bundan sonra sadəcə qarışıqlıq deyil, etnonimik fantasmaqoriya başlanır. Qızıl Ordanın heç də bütün köçəri təbəələri onun hökumətinə müsbət münasibət bəsləmirdi. Uraldan qərbə doğru yerləşən çöllərdə yaşayan üsyançılar noqay (5) adlanmağa başladılar, Çuçi ulusunun ən ucqarlarında - Tarbağatayda və İrtış sahillərində yaşayanlar isə paytaxtdan uzaq olmaları sayəsində demək olar ki, tam müstəqil idilər və qazaxların əcdadaları da məhz onlar oldular. Hər üç XIV-XV əsrlərdə müxtəlif etnik komponentlərin [73-74] güclü qarışması nəticəsində meydana çıxmışdı. Hoqayların əcdadları Batının tarmarından qurtulan polovestlər, çöl alanları, monqol ordusunun tərkibində gələn Orta Asiya türkləri və Rusiyanın cənub ucqarlarının o dövrdə etnik birlik simvoluna çevrilmiş İslamı qəbul edən sakinləri idi. Tatarların tərkibinə Kama bulqarları, xəzərlər, burtaslar, həmçinin polovetslərin bir hissəsi və uqor-limarlar daxil oldular. Ağ Ordanın əhalisi də belə bir qarışıqdan ibarətdi və XV əsrdə onun tərkibindən üç qazax cusu yarandı. Lakin bu hələ hamısı deyil.

XV əsrin sonunda Volqanın yuxarı axarlarından gələn rus dəstələri Orta Volqaboyundakı tatar şəhərlərinə basqınlar etməyə başladılar. Nəticədə, əhalinin bir hissəsi Şeybani xanın başçılığı altında (1500-1510) Orta Asiyaya köçməli oldu. Orada onları ən qəddar düşmən kimi qarşıladılar, çünki o dövrdə "cağatay" adını daşıyan (Çingiz xanın oğlu, Orta Asiya ülusunun başçısı Cağatayın adından) yerli türklər 1395-96-cı illərdə Volqaboyunu viran qoyana, çöl və Volqaboyu tatarlarının qatı düşməni olan Teymurləngin xələfləri tərəfindən idarə olunurdular.

Vətəni dərk edən ordalılar Qızıl Ordada İslamı dövlət dini kimi bərqərar etmiş Özbəy xanın (1312-1341) şərəfinə özlərini "özbək" adlandırmağa başladılar. XVI əsrdə "özbəklər" sonuncu Teymurini - Baburi darmadağın etdilər. Babur tərəfdarlarının qalıqlarını özü ilə Hindistana apararaq, orada yeni bir çarlıq qurdu. Səmərqənd və Buxarada qalan türklər isə öz fatehlərinin adını - özbək adını daşıyırlar. Onlardan olan, Hindistana mühacirət etmiş türklər üç yüz il əvvəl monqol şahzadəsinə tabe olmalarının şərəfinə "monqol" adlandılar. XIII əsrdə Şərqi İranda məskunlaşan və hətta öz dillərini qoruyub saxlayan həqiqi monqollar isə hezarlar (farsca hərbi birləşmə, diviziya anlamında işlənən "hezar"-min sözündən) adlanmağa başladılar.

Bəs, 240 il Rusiyanın başının üstünü kəsdirən "zülmə" ad verən monqollar haradadır? Bir etnos kimi onlar mövcud olmamışlar, çünki Çingiz xanın vəziyyətinə görə Cuçinin bütün oğulların üç ordaya cəmi 4 min döyüşçü düşmüşdü ki, bunlardan da yalnız bir hissəsi Uzaq Şərqdən gəlmişdi. Bu sonuncuları "tatar" deyil, curçenlərin Kin (müasir Tszin) (6) imperiyasının çinlilər tərəfindən verilən adından çıxış edərək, "hinlər" ("xinlər") adlandırırdılar. Çox az işlənən bu ada sonuncu dəfə "Zadonşina"da rast olunur ki, burada Mamay "hinovin" ("xinovin" - xinli, xinlərə məxsus) adlandırırlar. Deməli, "zülmü" heç də monqollar yox, köçəri özbəklərin əcdadları [74-75] həyata keçiriblər. Bu sonuncuları oturaq həyat keçirən özbəklərlə qarışdırmamalı. Onlar yalnız XIX əsrdə bir birinə qarışaraq, XVI əsrdə qarı düşmən olan Teymurilərlə Şeybanilərə eyni dərəcədə ehtiram bəsləyən vahid etnos təşkil etdilər, çünki XVIII əsrdə bu düşmənçilik artıq məna və əhəmiyyətini itirmişdi.

Filologiya və tarixin gücsüzlüyü. Göstərilən örnəklər etnik ad, hətta özünüadlandırmanın və Homo sapies növünə mənsub fərdlərin sabit kollektivi fenomeninin heç də bir birini üstələmədiyini qeyd etmək üçün tamamilə kifayətdir. Bu səbəbdən də etnologiyada sözləri araşdıran filologiya metodika tətbiq oluna bilməz və bu elmin problemimizin qoyuluşuna nə dərəcədə yardımçı ola biləcəyini yoxlamaq üçün tarixə üz tutmalıyıq. Lakin burada da gözlənilməz çətinliklərlə üzləşirik. Tarixin yararlandığı araşdırma vahidi ictimai institutdur ki, bu da dövlət, tayfa ittifaqı, dini sekta, ticarət kompaniyası (məsələn, Ost-Hind), siyasi partiya, bir sözlə, istənilən əsrdə və istənilən xalqın hər hansı bir qurumu ola bilər. Bəzən dövlət institutu və etnos üst-üstə düşür və bu zaman bir sıra hallarda müasir tipli millətləri müşahidə edirik. Lakin bu XIX-XX əsrlər üçün səciyyəvi hadisədir. Qədimdə isə bu cür üst-üstə düşmələr çox istisna hallarda baş verirdi. Bəzən elə olurdu ki, dini sekta həmfikir adamları birləşdirir, onlar etnosda qovuşur (məsələn,

Hindistandakı sikhlər kimi) və bu halda icmanın ehtiva etdiyi fərdlərin mənşəyi nəzərə alınmır. Lakin əksər hallarda belə icmalar qeyri-sabit olur və etnoslara parçalanır. Məhəmmədin VII əsrdə yaratdığı müsəlman icmasının taleyi buna bir örnəkdir. İlk dörd xəlifə dövründə İslam ölkələrində ərəb tayfaları, suriyalılar və qismən də farsların vahid etnos şəklində birləşmələri prosesi cərəyan etdiyi halda, artıq Ömərilər dövründə (661-750) bu proses dayandı. Abbasilər zamanında isə istilaçıların xələflərilə, istila olunanların xələfləri yeni etnoslarda birləşməyə başladılar. Onları şərti olaraq "müsəlman" adlandırılan etnosarası vahid mədəniyyəti, ümumi ərəb dili, xristian və bütpərəstlərlə qarşılaşdırılma zamanı dərk edilən birlikləri olsa da, tarixi taleləri və davranış stereotipləri fərqli idi ki, bu da özünü rəngarəng sektalar və ideoloji konsepsiyalar yaradılmasında göstərdi.

Güman etmək olardı ki, etnosların təcrid olması nəticəsində yaranan əmirlik soltanlıqlar etnik sərhədlərə müvafiq gəlməlidir. Amma belə olmadı. Qabiliyyətli sərkərdələr müxtəlif dilli əhalisi olan əraziləri qısa müddətə özlərinə tabe edir, sonra isə qonşularının qurbanı olurdular, yəni siyasi qurumların taleləri etnik vəhdətlərin [75-76] talelərindən fərqlənirdi. Əlbəttə, tarixi tale ümumiliyi etnosun yaranması və salamat qalmasına xidmət edirdi. Lakin tarixi tale ancaq iki-üç xalqda ümumi və bir xalq daxilində müxtəlif ola bilər. Məsələn, anqlosaslarla Uels keltləri XIII əsrdən etibarən dövlətçilik baxımından birgə olsalar da, vahid etnos halında birləşmələr və bu heç də onlara dinc yanaşı yaşamağa mane olmur. Digər bir örnək. Hələ III əsrdən İran tabe olan irqi ermənilərlə, elə həmin dövrdən Bizansa tabe olan ermənilərin taleləri fərqli olsa da, etnik vəhdətləri pozulmuşdu. XVI-XVII əsrlərdə fransız qugenot və katolikləri Nant ediktinə qədər də, ondan sonra da həm tarixi talelərinə, həm də mədəniyyətlərinin xarakterinə görə bir birindən xeyli fərqlənirdilər. Lakin qanlı savaşlara və draqonadaya rəğmən, Fransanın bütövlüyünə heç bir xələl gəlmədi. Deməli, etnosların təşəkkülü -etnogenez mənbələrin qeydə aldığı üzdə olan tarixi proseslərdən daha dəridə yerləşir. Tarix etnologiyaya kömək etməyə qabildir, amma onu əvəzləyə bilmir.

## V. ŞƏBƏKƏVARİLİK ETNOSUN XASSƏSİ KİMİ

Qəbilə quruluşu olmadan keçirmək mümkündür. Bir çox etnoslar qəbilə və nəsillərə bölünür. Bu bölgünü etnosun mütləq əlaməti, yaxud heç olmasa, onun yaranmasının ilkin mərhələsi, nəhayət, etnosun özünün meydana çıxmasının sələfi olan kollektiv forması saymaq olarmı? (9) Əlimizdə olan mötəbər material imkan verir deyək ki -yox!

İlk növbədə, heç də bütün müasir xalqlarda qəbilə və ya tayfa bölgüsü yoxdur, yaxud mövcud olduğu müddət ərzində də olmayıb. İspanlar, fransızlar, italyanlar, rumınlar, ingilislər, osmanlı türkləri, velikoruslar, ukraynalılar, sikhlər, yunanlar (ellinlər yox) və bir çox başqaları belələrinə örnəkdir. Əvəzində, klan (nəsil, tayfa) sistemi keltlər, qazaxlar, monqollar, tunquslar, ərəblər, kürdlər və bir sıra digər xalqlarda qalmaqdadır.

Klan sistemini daha erkən mərhələ saymaq çətindir, çünki monqollardan min, qazaxlardan isə 1200 ilə əvvəl meydana çıxan bizanslılar, yaxud Sasani farsları nəsil və fratriyalırsıs (bir nəsildən törəmiş bir neçə tayfadan ibarət qəbilə birliyi,- tər.) çox gözəl keçinirdilər. Əlbəttə, təxmin etmək olar ki, qədimdə qəbilə quruluşu hər yerdə bərqərar olub. Lakin bu əslində də belə olmuşsa da, belə bir ehtimalı xalqların (etnoslar) tarixçinin gözü önündə meydana çıxdığı dövrə tətbiq etmək olmaz. Ən düzgünü "nəsil- qəbilə - xalq [76-77] - millət" sxeminin ictimai inkişafa aid olduğunu, yəni başqa müstəvidə yerləşdiyini etiraf etmək olardı. Homo sapiens növünün mövcud olduğu müddət ərzində bütün bəşəriyyətdə hakim birgəyaşayış formaları ailənin çeşidli formaları olmasının problemə birbaşa dəxli yoxdur, çünki etnik vəhdət nə ailə özəyi, nə də istehsal və mədəniyyətin səviyyəsilə uyğun gəlmir. Bu səbəbdən, araşdırmamızda başqa meyarlar və başqa tanıtma əlamətləri axtarmalıyıq.

Bununla belə, qeyd etmək lazımdır ki, tayfa-qəbilə quruluşuna malik xalqlarda klanlara (keltlər), fratriyalara, kostlara (altaylardakı "seok" və tayfa ittifaqlarına (qazaxlarda "cus"u) böylünmə konstruktiv səciyyə daşıyır. Bu etnosdaxili vahidlər etnik vəhdətin özünün dəstələmək üçün zəruridir. Qruplara bölünmək yolu ilə həm ayrı-ayrı fərdlərin bütövlükdə etnosa, həm də tayfa və ya ailə kollektivlərinin öz aralarındakı münasibətləri tənzimlənir. Qan qohumları arasında nigahların qarşısını alan ekzoqamiya yalnız belə bir bölgü sayəsində qorunub saxlanır. Xalq toplantılarında tayfaların nümayəndələri təmsil etdikləri nəsillərin iradəsini bildirir, həm hücum, həm də müdafiə xarakterli xarici savaşların aparılması üçün sabit ittifaqlar yaradırlar. Məsələn, Qotlandiyada klan sistemi vikinqlərin X əsrdəki basqınlarına, ingilis burjuaziyası ilə XVII-XVIII əsrlərdəki savaşlara duruş gətirdi və onu yalnız kapitalist münasibətləri dağıda bildi.

Bu sistemin daha az səbatlı olduğu yerlərdə isə, məsələn, Polab slavyanlarında, alman və Danimarka cəngavərləri iki əsr (XI-XII) ərzində onu darmadağın etməyə müvəffəq oldular. Bodriçlərin, lütiçlərin və Ruqa adası sakinlərinin heç bir şübhə doğurmayan şücaəti belə bunun qarşısında aciz qaldı. Etnosun qəbilələrə parçalanması skelet funksiyasını daşıyır ki, onun üzərinə əzələlər artırmaqla ətraf mühitlə mübarizə üçün qüvvə toplamaq mümkündür.

İzlədiyimiz çarpışmaların bir hissəsi deyil, bütün toplusu üçün yaralı olan başqa bir hesablama sistemi təklif etmək cəhdində bulunaq.

Qəbilə quruluşunu nə ilə əvəz edirlər. Kifayət qədər inkişaf etmiş sinifli cəmiyyət mərhələsində olan cəmiyyətlərdə tayfa-qəbilə quruluşunun yoxluğu nə ilə əvəzlənir? Quldarlıq, feodalizm və kapitalizm quruluşlarında siniflərin və sinfi mübarizənin mövcudluğu qəti təyin olunmuş və yenidən baxılmasına heç bir ehtiyac olmayan faktlardır. Deməli, siniflərə bölünmə funksional cəhətdən qəbilələrə bölünməsi eyni ola bilməz. Həqiqətən də, cəmiyyətin siniflərə bölünməsi paralel şəkildə, biz etnosların heç də həmin bölgü ilə üst-üstə [77-78] düşməyən qruplara bölgüsünü aşkar edirik. Onları Şərqi olaraq "korporasiya" adlandırmaq olar, amma bu söz həmin anlama yalnız ilkin yanaşma zamanı müvafiq gəlir və sonralar əvəzlənəcək.

Məsələn, feodal Avropada bir etnos, tutalım, fransız etnosu daxilində həmin siniflər müxtəlif korporasiyalardan ibarətdir: 1) sözün həqiqi anlamında feodallardan, yəni taxt-tacla vassal andı ilə bağlı olan len sahiblərindən; 2) ordenlərdə birləşən cəngavərlərdən; 3) kral hakimiyyətini təşkil edən notabilardan (nobless des robes); 4) ali rütbəli ruhanilərdən; 5) alimlərdən, məsələn, Sorbonnodakı professorlardan; 6) ərazi prinsipi üzrə fərqləndirilən patrisilərdən və i.a. Qəbul olunan yaxınlıq dərəcəsindən asılı olaraq, az ya çox qrup fərqləndirmək olar, amma bu zaman partiya mənsubiyyətini, məsələn, XV əsrdə armanyak və ya burqund partiyasına mənsubiyyətini də nəzərə almaq gərəkdir. Bəzən oxucuda göstərilən qrupları zümrələrlə eyniləşdirmək kimi cazibədar bir şey yaranır. Həm də bu zaman zümrə dedikdə, sosial qruplar anlaşılır. Lakin dəqiq olmaq gərəkdir: sosial bölmələr - siniflər, zümrələr isə - inzibati bölmələrdir, çünki onlar orta əsrlərdən "siyasət aləmində xüsusi önəm kəsb etmir.. və özləri özlərini işarə edirdilər". (10)

Burada təsvir olunan qruplar isə, əslində, sözün tam mənasında zümrələr də olmayıb, "istehsalın zəmini olan" (11) icmalardır. Peşəkar icmaların variantları kimi qəbilə icmaları artıb-genişlənən ailələrdə çıxış edə bilir.(12) Buna görə K.Marks orta əsrlər tarixini zooloji adlandıraraq, qeyd edirdi ki, bu tipli "korporasiyalar" qanuna görə heç bir hüququ olmayan, lakin bunları fəallığı və ailə əlaqələri sayəsində əldə edən bastardlar hesabına artırdı. (13) Yüzillik savaşdan sonra bastardlar xüsusilə böyük rol oynayırdılar. Belə ki, bastard Dünya Fransanın birinci cəngavəri sayılırdı və qraf idi.

Xalq kütlələrinə münasibətdə isə belə fərqləndirmə daha yüksək dərəcədə tətbiq oluna bilər, çünki o zaman hər bir feodal əyalət özünü parlaq şəkildə biruzə verən fərdi səciyyə daşıyırdı. Məsələn, XII əsrdə ruanlılar onları ingilislərdən azad edən Filip II Avqusta qarşı düşmənçilik nümayiş etdirdilər., IX Lüdovikin Misirdə əsir düşdüyünü eşidən marsellilər isə "sir"lərdən xilas olmaq ümidilə "Te Deum" oxuyurdular. (14) Burjua cəmiyyətində artıq başqa korporasiyaları müşahidə etsək də, prinsip dəyişməz qalır. Etnoslar daxilində siniflərdən savayı da hər bir fərd üçün "öz mühitindən olanlar" və "yabançılar" da var. Lakin yadelli təcavüzlərə qarşı bütün bu qruplar bütöv bir vahid - fransızlar kimi çıxış edirdi. [78-79]

Bizim şərti olaraq "korporasiya" adlandırdıqlarımızın tayfa-qəbilə qruplarından ölçüyəgəlməz dərəcədə səbatlı və uzunmüddətli olması heç bir şübhə doğurmur, amma qruplar özləri də heç də əbədi deyil. Deməli, onlar arasındakı fərq prinsipial deyil. Bənzəyişləri isə vəzifələrin daxili paylaşdırılması yolu ilə etnosun birliyini təmin etməklə, eyni qədər yükə davam gətirməlidirlər.

Ən əsası və maraqlısı isə odur ki, yarandıqları zaman "korporasiyalara" bir birindən yalnız psixologiyanın təfərrüatları ilə seçilir, amma zaman keçdikcə fərqlər dərinləşir və kristallaşaraq, adət və ənənələrə, yəni etnologiyanın araşdırma obyektlərinə keçirlər. Məsələn, qədim slavyan öpüş mərasimi Rusiya və Polşada ərli qadınların əlini öpmək şəklinə düşərək, yalnız mülkədar və zadəganlarda qaldı, digər zümrələrin məişətindən isə itib getdi.

Volqaboyunun iri şəhərlərində meşşan və ziyalı-raznoçinlərin məişətini müşahidə edən A.M.Qorki elə dərin fərqlər qeydə alır ki, əhalinin nisbətən uzaq olmayan dövrdə formalaşması bəlli olan qruplarını "müxtəlif tayfalar" kimi nəzərdən keçirməyi təklif edir. (15) Sözün Qorki tərəfindən həmin anlamda işlənməsi (məişət, xasiyyət və təsəvvürdəki fərqlərə tətbiqən) tamamilə doğrudur və onun müşahidələri çox məhsuldardır. Bizim dövrümüzdə bu fərqlər demək olar ki, itib gedib. Onlar çox qısa, təxminən 80 illik bir dövr üçün səciyyəli idi, lakin biz artıq qeyd etmişdik ki, hadisənin müddəti işin prinsipial tərəfinə təsir göstərmir.

Subentik qrupların yaranması. Təklif etdiyimiz anlamda "korporasiya" anlayışı əyani olsa da, bizim təhlil üçün kifayət deyil, çünki haqqında danışılan vahidin yalnız etnoqrafik xüsusiyyətlərdən formalaşdığını deyil, həm də digər "korporasiyalardan" arakəsmələrlə təcrid olunuduğunu təxmin edir. Çox vaxt subetnik bölgülər ictimai bölgülərlə müvafiq gəlmir. Bu onu göstərir ki, gətirdiyimiz örnək aradığımız ümumi qaydaya dair fərdi hadisədir.

Fransalıların etnogenezindən olan örnəyimizi davam etdirək. XVI əsrdə Reformasiya bu xalqa da toxunaraq, aradakı "korporasiyalar"ı tanınmaz dərəcədə dəyişdi. Feodal aristokratiya, xırda zadəganlar, burjuaziya və kəndlilər "papaçılar" və "qugenotlar"a parçalandılar. Hər iki qrupun sosial bünövrəsi fərqlənməsə də, etno-ərazi bölgülər aydın şəkildə görünür. Kalvinçilik Luanranın aşağı axarında ticarət mərkəzi olan La-Roşel islahatçıların paytaxtına çevrildi. Qaskon senyorları və Navarra kralları kalvinçiliyi qəbul etdilər. Burqundların xələfləri, Sevenn kəndliləri və albiqoyların varisləri - Langedok burjuaları da hərəkata qoşuldular. [79-80] Lakin Paris, Lotaringiya və Mərkəzi Fransa Roma kilsəsinə

sadiq qaldılar. Bütün köhnə “korporasiyalar” yox oldu, çünki iki əsr müddətinə “icma”, yaxud “kilsəyə” məxsus olmaq bu və ya digər icmaya mənsubiyyətin göstəricisi olmurdu.

Həm də bu zaman teologiyanın həlledici rol oynadığını da söyləmək olmaz. Fransızların əsas hissəsi “siyasətçi” idi, yəni Sorbonna ilə Cenevrə arasındakı mübahisələrlə maraqlanmaqdan imtina edirdi. Savadsız Qaskon baronları, yarımvəhşi Sevenn dağlıları, La-Roşelin cəsur korsarları, yaxud Paris və Anjer ətrafının sənətkarı dini əsərlərin təfsirlərinin incəlikləriniaanlamırdılar. Həyatlarını messa, yaxud İncil naminə qurban verdikdə isə bu, o demək idi ki, hər ikisi onların özlərini təsbit etməyin və bir birinə qarşı durmağın simvolu və deməli, dərinlikdə yerləşən ziddiyyətlərin göstəricisi idi. Bu ziddiyyətlər sinfi deyildi, çünki hər iki tərəfdə zadəganlar burjuaziya və kəndlilərlə vuruşurdu. Lakin katolik və qugenotlar həqiqətən də davranış stereotiplərinə görə fərqlənirdilər. Biz isə əvvəldə şərtləşdik ki, bu - kifayət qədər əsassa malik etnik təcridolunmanın əsas prinsipidir.

Bəs qugenotlar özləri üçün müəyyən qədər ərazi qoruyub saxlaya bilsəydilər və orada, məsələn, isveçrəlilər, yaxud Şimali Amerika sakinləri kimi müstəqil dövlət yarada bilsəydilər necə? Güman ki, onları tarixi talenin sapınması nəticəsində meydana çıxmış xüsusi bir etnos kimi nəzərdən keçirmək lazım gələcəkdi, çünki özlərinin xüsusi məişəti, mədəniyyəti, psixi təfəkkürü və bəlkə də dili - çətin ki, onlar Paris dialektində danışaydılar, yerli dialektlərdən birinə üstünlük verəcəkləri daha ağlabatandır - olacaqdı. Bu, amerikalıların ingilislərdən ayrılmalarının eyni olan bir proses olacaqdı.

Şübhəsiz, şotlandlar, lakin onlar qaylenderlər (dağlılar) - keltlər və loulenderlərdən (Tvid çayı vadisi sakinləri) ibarətdir. Onların mənşəyi fərqlidir. Bədənlərini döymə şəkillərlə (pikta) bəzəyən qədim əhali I-II əsrlərdə romalıların hücumlarını dəf etdi. III əsrdə İrlandiyadan köçüb gələn skottlar da onlara qoşuldu. Hər iki qəbilə romanlaşmış Britaniyaya məhvedici basqınlar edir, daha sonralar isə İngiltərənin şimal ucqarlarına yürüşlər edərək, adanın şərqində möhkəmlənmiş norveç vikinqlərilə döyüşürdülər. 954-cü ildə şotlandların bəxti gətirdi onlar sakslar və norveç vikinqlərinin xələflərinin məskunlaşdıqları Lotian - Tvid çayı sahillərindəki düzəngahı ələ keçirdilər. Şotland kralları çoxlu zəngin təbəəyə sahib olub, onlarda özlərinə bağlılıq əmələ gəlməsinə və bununla da kelt krallarının başçılarının müstəqilliyinin azalmasına nail oldular. [80-81] Amma onlar təbəələrinin bir çox adətlərini, məsələn, feodal institutları və adətləri qavramalı oldular. Lotianın zəngin və fərasətli sakinləri öz kelt hökmdarlarını Şotlandiyanı kiçik krallığa çevirməyə vadar etdilər, çünki İngiltərə ilə sərhəddin mühafizəsini öz öhdələrinə götürmüşdülər. (16) XVI əsrdə krallardan Jan Baliol və Rober Brüsün məsləkdaşları olan fransız macaraaxtaranları ingilislərlə savaşmaq məqsədilə Şotlandiyaya axışıb gəldilər. Fransızlar sərhədyanı feodalların sayını daha da artırdılar. Reformasiya keltlərə daha çox sirayət etdi, vadilərfə isə kalvinçilərlə yanaşı, katoliklər də qala bildilər. Qısası, bu xalqın geneziyası zamanı irqlər və mədəniyyətlər, qəbilə quruluşu və feodalizm bir birinə qarışsa da, tərkibin mürəkkəbliyi etnik monolitliyi pozmadı ki, bu da özünü ingilislər, bir qədər sonra isə irlandlarla toqquşmalarda biruzə verdi.

Başqa qəbildən olan örnək - köhnətəriqətçilər - daha səciyyəvidir. Məlum olduğu kimi, bunlar velikorusların XVII əsrdəki kilsə islahatından bəzilərini qəbul etməyən kiçik bir hissəsidir. O dövrdə kilsə ayinləri yalnız dini mahiyyət deyil, həm də sintetik sənət funksiyası daşıyırdı, yəni estetik boşluğu doldururdu. Bu səbəbdən də ayinlərin yerinə yetirilməsinə verilən tələblər çox yüksək idi. Axı, dövrümüzdə yaramaz şerlərin oxunması və eybəcər rəsmlərin seyr edilməsi heç bir həzz vermədiyi kimi, ayinlərdə edilən dəyişikliklər və qaralmış ikonaların çəhrayı-mavi rəngli yenilərilə əvəzlənməsi də dua edənlərin müəyyən hissəsini sarsıdırdı. Sadəcə olaraq, onlar əsəblərini qıcıqlandıran bu yeni şəraitə alışa, fikirlərini cəmləyə bilmirdilər.

Əslində, bu, etnosun Avropada Reformasiya zamanı baş verən parçalanmaya bənzəyən, lakin daha kiçik miqyaslı bir parçalanması idi. Bu zaman heç də bütün pravoslavlar köhnə ayinlərə tərəfdar çıxmadı. Bu qayəyə tərəfdar çıxanlar isə nə edamlar, nə də işgəncələrdən çəkinmədən möhkəm durdular. Əlverişli şərait olduqda, onlar əks-həmləyə keçir və nikonçularla eyni qəddarlıqla davranırdılar. Şahzadə Sofya dövründəki strelets üsyanları buna bir örnəkdir. Ehtiraslar hər iki tərəfdən eyni dərəcədə cuşə gəlmişdi. XVII əsrdə mübarizə yalnız kilsə ayinləri üstündə, qalan şeylərdə -məişət, təhsil sistemi, adətlərdə - köhnətəriqətçilər heç də rusların ümumi kütləsindən fərqlənmirdilər. Onların I Pyotra dövrünə təsadüf edən ikinci nəsil əhalinin müəyyən təcrid olunmuş qrupunu təşkil edirdi. XVIII əsrin sonunda onlarla artıq ümumun qəbul etdiyindən kəskin fərqlənən adət-ənənə, ayinlər, geyim yaranmış və ya qorunub saxlanmışdı. II Yekaterina köhnətəriqətçilərə [81-82] qarşı-təqibləri dayandırsa da, bu onların etnosun əsas kütləsinə qovuşmasına səbəb olmadı. Yeni yaranan etnosdaxili vəhdətə milyonçular da, kazaklar da, tacirlər də, Zavolyuden olan yarıdilənçi kəndlilər də daxil idilər. İlk əvvəl tale ümumiliyi, yəni uğrunda ölümə belə hazır olduqları prinsiplərə bağlılıq əsasında birləşən bu fərdlər, məişət eyniliyinin birləşdirdiyi və başında müxtəlif məzhəb və təriqətlərə mənsub mənəvi başçıların (mürəbbi) durduqları qrupa çevrildilər. XX əsrdə bu qrup tədricən əriyib itməyə başladı, çünki onun meydana çıxmasına bais olan səbəb artıq çoxdan yox olub getmiş, yalnız onun doğurduğu ətalət qüvvəsi qalmışdı.

Gətirdiyimiz örnəklər parlaq olduqları qədər də istisnadır. Əksər hallarda etnosdaxili qrupların funksiyalarını təbii şəkildə yaranan birləşmələr -həmyerlilər birlikləri öhdəsinə götürür. Qəbilə quruluşunda fratriyaların olması kimi, bu cür bölgülərin mövcudluğu da etnik vəhdəti parçalamır.

İndi biz nəticə çıxara bilərik: etnosdaxili vəhdətlərin qəbul etdikləri sosial formalar qəribə olub, heç də həmişə etnosun bölmələrilə üst-üstə düşmür; etnosdaxili parçalanma isə etnosun bütövlüyünü dəstəkləyən və onu dayanıqlı edən bir şərtdir: o, cəmiyyətin inkişafının bütün dövr və mərhələləri üçün səciyyəvidir.

Etnos təmaslarının variantları. İndiyədək biz böyük etnosların daxilindəki pərakəndə qrupları nəzərdən keçirsək də, bu problem heç də tükənməyib. Real tarixi prosesdə etnosun təcrid olunmuş şəkildə mövcud olması müşahidə edilir. Üalnız siyasi cəhətdən polietnik dövlətlərdə birləşən müxtəlif etnosların məskunlaşdıqları ərazilərdə meydana çıxan etnik kontraktların müxtəlif variantları mövcuddur. Onların qarşılıqlı münasibətləri araşdırılarkən dörd variantı fərqləndirmək mümkündür: a) yanaşı yaşama - bu zaman etnoslar bir birinə qarışmır və bir birini təqlid etmir, yalnız texniki yenilikləri əxz edirlər; b) assimilyasiya, yəni bir etnosun digərinin daxilində mənşə və keçmiş ənənələrinin unudulması ilə müşayiət olunan tam əriyib yox olması; c) metisləşmə -bu zaman əvvəlki etnosların ənənələri və əcdadların xatirəsi hifz olunub saxlanır və əlaqələndirilir; bir qayda olaraq, bu variasiyalar səbatsız olur və yalnız yeni-yeni metislərlə təmin olunmaq sayəsində mövcud ola bilər; d) qovuşma - hər iki ilkin tərkib hissənin ənənələri unudulur və əvvəllər mövcud olmuş iki etnosla yanaşı (yaxud onların əvəzinə) üçüncü - yeni etnos yaranır. Əslində, bu etnogenezin əsas variantıdır, lakin nə üçünsə, ona bütün digərlərindən daha az-az rast olunur. [82-83]

Bu dörhədli sxemi əyani örnəklərlə aydınlaşdıraq. “a” variantı ən geniş yayılanıdır. Təsəvvür edək ki, tramvaya avropeoid irqinə mənsub, eyni cür geyinmiş, eyni yeməkxanada nahar etmiş və əllərində eyni qəzet tutan rus, alman, tatar və gürcü daxil olur. Fərdi əlamətləri nəzərə alınmasa belə, hamıya aydındır ki, onlar eyni deyillər. (17) Tərəf-müqabillərimdən biri demişkən: “Nə olsun? Bu tramvayda kəskin milli münaqişə baş verməzsə, dördüdə sakitcə yoluna davam edərək, öz etnoslarından ayrı düşmüş adamlara örnək olacaqlar.” Yox, fikrimizcə, durumun hər hansı şəkildə dəyişməsi, onlar birgə hərəkət etsələr belə, bu adamlarda fərqli reaksiyalar doğacaq. Tutalım, tramvaya sərxoş adam minir və qadına sataşmağa başlayır. Bizim personajlar özlərinin necə aparacaqlar? Çox güman ki, gürcü onun yaxasından yapışıb, tramvaydan düşürməyə çalışacaq, alman ikrahla üz-gözünü turşudaraq və milis çağırmağa başlayacaq, rus bir neçə kinayəli söz söyləyəcək, tatar isə münaqişədən yayınmağa cəhd göstərəcək. Davranışın dəyişdirilməsini tələb edən şərait dəyişməsi müxtəlif etnos və ya superetnosların nümayəndələrinin davranış stereotiplərindəki fərqləri xüsusilə nəzərə çarpdırır.

Bu, tamamilə izah oluna bilən bir şeydir. Bütün əşya və olaylar müqayisədə dərk olunur. Yanaşı səpilən soda və limon turşusu yalnız üstlərinə su tökdükdə güclü fışıltı ilə müşayiət olunan neytrallaşma reaksiyasına girirlər. Su məhsulunda olduğu kimi, tarixdə də daim reaksiyalar gedir və bunun başa çatacağına heç bir ümid yoxdur.

Müxtəlif etnosların dinc yanaşı yaşaması da onlar bir birinə yaxınlaşdıqları zaman neytral olmur. Bəzən bu, sadəcə olaraq zərurətdir. Belə ki, Konqo çayının yuxarı axarında bantu və piqmeylər simbioz şəklində yaşayırlar. Piqmeylərin köməyi olmadan zəncilər meşələrdə hərəkət zamanı cığırlardan kənara çıxa bilmirlər. Bu cığırları təmizləmədikdə isə, onları qısa vaxtda ot basır. Zənci bantu da avropalı kimi, meşədə aza və evinin 20 metrliyində həlak ola bilər. Piqmeylərə isə bıçaq, qab-qacaq və digər məişət əşyaları gərəkdir. Bu iki etnos üçün bir birinə bənzəməmək rifahın şərtidir və onları dostluğu da elə buna əsaslanır.

Qreben kazakları ilə çeçenlərin toqquşmalarını müşahidə edən L.N.Tolstoy daimi düşmənçiliklə müşayiət olunan uzunmüddətli yanaşı yaşamanı çox gözəl təsvir edib. Lakin o, iki qonşu etnosun qarşılıqlı ehtiramını və kazakların Terek çayı boyunca onların velikoroslar tərəfindən assimilyasiyasının pionerləri [83-84] olan əsgərlərə qarşı amansızlığını da çox doğru qeyd edib. Həmin assimilyasiya prosesi XX əsrin əvvəllərində başa çatdı.

“b” variantı (assimilyasiya) prosesi çox vaxt qan tökülməklə deyil, təhqiramizliyilə fərqlənən üsullarla həyata keçirilir. Assimilyasiya obyektinə iki yoldan birini seçmək imkanı verilir: ya vicdanını, ya da həyatını itirmək. Doğma və əziz olan hər şeydən imtina etmək və qaliblər arasında ikinci dərəcəli adamlara çevrilmək - xilas olmağın yeganə yolu budur. Qaliblər də çox şey əldə etmirlər, çünki riyakar və bir qayda olaraq, qeyri-mükəmməl həmtayfalar qazanırlar. Axı, tabe edilən etnosun əhval-ruhiyyəsinə deyil, yalnız davranışının xarici təzahürlərinə nəzarət etmək mümkündür. XIX əsrdə irlandlar ingilisləri, Simon Volivarın partizanları isə ispanları buna inanırdılar. Örnək həddən artıq çoxdur, lakin məsələ tam aydındır.

“c” variantına (metisləşmə) çox tez-tez rast olunsa da, ekzoqam nigahlardan törəyənlər ya üçüncü-dördüncü nəsildə məhv olur, ya da ata və ya ana xətlərinə ayrılır. Məsələn, XVI əsrdə türklər belə hesab edirdilər ki, türk olmaq üçün İslamı qəbul formulunu söyləmək və soltana tabe olmaq kifayətdir. Başqa sözlə, onlar etnik mənsubiyyəti ixtiya şəkildə dəyişdirilməsi mümkün ola bilən “hal” kimi nəzərdən keçirirdilər. Bu səbəbdən də türklər har hansı bir sənəti, yaxud hərbi yaxşı bilən istənilən macəraaxtaranı həvəslə qulluğa götürürdülər. Bunun nəticələri özünü 100 ildən sonra biruzə verdi.

XVII əsrdə Portanın tənəzzülə uğraması bunun müasiri olan türk yazarlarının diqqətini cəlb etdi. Onların fikrincə, tənəzzülün baisləri “əcəmoğlanlan”, yəni dönüklərin övladları (18) idi. Bu fikrin tərəfdarı

olanların səmimiliyi heç bir şübhə doğurmurdu. Dönüklərin bəziləri, məsələn, fransız Körpülü və yunan Hayrəddin Bərbərossa fəal və faydalı adamlar olsalar da, əksəriyyəti isti yuva axtarır, yüksək maaşlı vəzifələrə vəzirlərin polyak, italyan, xorvat və i.a. qadınları ilə dolu hərəmxanaları vasitəsilə yollar tapmaqla yiyələnirdilər. Nə dini, nə imanı olmayan (ni foi ni loi) olmayan fırıldaqçılar osmanlı etnosunu dağıdırdılar və artıq XVIII əsrdə əsl osmanlılar öz ölkələrində məzlum durumda olan etnosa çevrilmişdilər. Yabançıların axını davranış stereotipini şikəst edirdi ki, bu da özünü vəzirlərin satqınlığında, hakimlərin rüşvətxorluğunda, qoşunun döyüş qabiliyyətini itirməsində və iqtisadiyyatın dağılmasında göstərdi. XIX əsrin əvvəllərində Türkiyə artıq "xəstə adam" olmuşdu. Qüdrətli xalqın belə qəribə şəkildə zəifləməsinin səbəblərini [84-85] araşdıran və dönüklərin rolundan bəhs edən məşhur rus şərqşünası V.D.Smirnov öz dissertasiyasında yazırdı: "Yəni kimsə, zarafatla da olsa, iddia edərmi ki, Çaykovski, Langeviç və b. slavyan, macar, yunan, italyan və i.a. olan cənablar İslam inamlarına əsasən qəbul ediblər? Şübhəsiz, heç kim. Həqiqətdə isə osmanlı tayfasının şanlı zəfərlərinin nəticələrindən bəhrələnmək məhz bu qəbildən olan dönüklərə qismən oldu. Heç bir əqidəyə malik olmadıqlarından, onlar hər hansı bir əxlaqi inamdan da uzaq idilər; hökm etdikləri xalqa qarşı heç bir rəğbət duymayan bu adamlar bir ömür sürürdülər. Onlar üçün həqiqi, hər bir əsl vətəndaşı maraqlandıran siyasəti hərəmxana fitnə-fəsadları əvəz edirdi. Eybəcər hala salınmış orqanizm ailə əlaqələrini ya heç doğurmur, ya da onlar iyrənc əxlaqsızlıqlarla əvəzlənirdi... Rifah anlayışı yalnız öz cibini doldurmaq kimi başa düşülürdü. Məsuliyyət, borc hissəsi törədilən qanunsuzluqları ört-basdır etmək üçün qanuni bəhanələr arayıb tpmaq, özlərinə bənzər ictimai xadimlərin fırıldaqlarının qurbanına çevrilmək təhlükəsindən xilas olmağa çalışmaqla məhdudlaşırdı. Bir sözlə, adları osmanlı olsa da, əslində osmanlı deyildilər." (19) Bəs həlledici amil haradadır? Təbiətdə, yoxsa vətəndaşlıq vəziyyətində?

Ekzoqamiyanın rolu. Beləliklə, yadellilərin Türkiyədə bərqərar olması sinfi ziddiyyətlərin onsuz da artmaqda olan böhranını daha da kəskinləşdirdi. Bu ziddiyyətlər üçün etnik vəhdətin xülyaya çevrilməsi katalizator rolunu oynayırdı, çünki hər bir kəsə aydındır ki, səmimi loyal çinovniklər riyakar və prinsipsizlərdən daha dəyərlidir. Əksinə, sinfi ziddiyyətlərin inkişafı osmanlı etnosunun etnogenezi üçün vektor rolunu oynayırdı. Etnik və sosial proseslərin bir bölgədə uzlaşması isə qədimdə "bərəkətli aypara" ölkələri adlandırılan və vaxtilə ən zəngin olmuş ölkələrin landşaftlarının antropogen aşılanması amilinə çevrildi. I Səlimin XVI əsrdəki istilaları Suriya, Fələstin, Misir və Mesopotamiyanı Osmanlı soltanlarının ixtiyarına verdi. Həmin bölgələrdə isə intensiv əkinçilik hələ eramızdan əvvəl III əsrdə ilkin landşaftı dəyişmişdi.

Şumerlər Fərat və Dəclənin aşağı axarlarında "suyuqurudan yaratdılar" və müasirləri onların yaratdıqları ölkəni "Ədəm" adlandırırdılar. Akkadlar Bahili - "Tanrının qapılarını"- yer üzündə milyondan artıq əhalisi olan ilk şəhəri tikdilər. Bu şəhərə uzaq ölkələrdən azuqə gətirməyə ehtiyac yox idi. Antiohiya, daha sonra isə Dəməşq yerli ehtiyatlar hesabına çiçəklənən şən və mədəni şəhərlərdi. Kiçik Asiya nəhəng Konstantinopolu doyuzdururdu. [85-86]

Lakin mədəni Landşaftın daimi yardıma ehtiyacı vardı. Bunu Mesopotamiyadakı suvarma sistemini qoruyub saxlamaq məqsədilə Zənzibarda qullar alan ərəb xəlifələri, buraların iqlim şəraiti üçün ən intensiv saydıqları kiçik təsərrüfatlarının möhkəmləndirilməsinə yönəldilən xüsusi fərmanlar verən Bizans avtokratları, hətta Şimali Çayqovşaginin quraqlıq hissəsində kanal qazdıran monqol ilxanı Qazan da başa düşürdü. Ön Asiyanın mədəni landşaftının dağılması daha gec - Osmanlı imperiyasında sabit sülh və tənəzzül hökm sürdüyü XVII-XIX əsrlərdə baş verdi, çünki ağır vergilərdən boğaza yığılmış Suriya, İraq və Kilikiya kəndliləri torpaq sahələrini başlı-başına buraxaraq, dəniz quldurlarının sahilboyu şəhərlərində xoş güzəran axtarışlarına yollanırdılar. Həmin şəhərlərdə ya asanlıqla zənginləşir, ya da məhv olurdular. Evdə qalanlar isə tənbəllik və ya qorxaqlıq üzündən suvarma sistemini başlı-başına buraxır və vaxtilə zəngin olan bir ölkəni xarabazara çevirirdilər.

Bu dəhşətli və faciəli prosesin başlanğıcını artıq müasirləri müşahidə edirdilər. Fransız macəraaxtaranları və Aurenqzeb qvardiyasının həkimi Fransua Bernye eyni qayda-qanunu "Böyük Monqolların" hakim olduqları Hindistanda müşahidə edərək, Kolberə məktubunda üç böyük müsəlman dövlətinin: Hindistan, İran və Türkiyənin qaçılmaz zəifləməsini qabaqcadan göstərmişdi. İran barəsində onu da əlavə etmişdi ki, orada tənəzzül daha ləng gedəcək, çünki fars aristokratiyası yerli mənşəyə malikdir. O, Küçibəy Gümürcinski ilə sözü qabaqcadan bir neçə yerə qoymasa da, onların təxminləri üst-üstə düşmüşdü. Səbəb isə nəticə çıxarmağı və proqnoz verməyi bacaran iki ağıllı adamın eyni prosesi müşahidə etməsidir. Biz də razılaşmalı oluruq ki, eyni formasiya daxilindəki sabit sosial quruluşda, lakin siyasi sistemdə - dövlətdə etnik tərkib hissələrinin dəyişməsi şəraitində landşaftın vəziyyəti həssas barometr kimi, yüksəliş və enişlərin mövcudluğunu, həmçinin sabitləşmə dövrlərini qeydə alır.

Lakin əgər belədirsə, bizim adlarını çəkdiklərimiz müəllifin göstərdikləri səbəbi -sistemdə landşafta bağlı olmayan və bölgənin etnik rəngarəngliyini dəstəkləməklə kiçik etnik qrupları özündə ehtiva edən landşaftların qorunub saxlanmasına xidmət edən ekzoqam nigah məhdudiyyətlərindən azad yeni etnik qrupların meydana çıxmasını inkar etməyə əsasımız yoxdur. Belə olduğu halda isə deməli, təbiət və mədəniyyət azad təmas və azad məhəbbət məhv edir! [86-87]

Bu qənaət gözlənilməz və vahiməli olsa da, o, Nyutonun ikinci qanununun başqa şəkildə ifadəsidir: ictimai azadlıqda əldə edilən, təbiətlə, daha dəqiq desək, o coğrafi mühit və şəxsi fiziologiya ilə təmasda itirilir, çünki təbiət həm də bizim bədənimizin də daxilindədir.

Eyni olaylar qədim Roma, qədim İran və bir çox digər ölkələrdə baş verdiyindən, ümumi qanunauyğunluq çox asanlıqla nəzərə çarpır: ehdoqamiya etnik sədd kimi mövcud olduğu halda proseslər daha daha əziyyətsiz cərəyan edir. Etnos üçün isə 300, yaxud 1000 il ömür sürmək heç də eyni şey demək deyil. Bu səbəbdən də, Ü.V.Bromleyin endoqamiyanın - inkorporasiya əleyhinə səddin -sabitləşdirici rolu barəsində qeydi heç bir mübahisə doğurmur.(21)

Təfsir etmə təcrübəsi. Təsvir etdiyimiz prosesi araşdırmağa cəhd edək. Əgər etnos prosesdirsə, onda iki bir birinə bənzəməyən prosesin toqquşması ilkin tezliklərini pozan interferensiya doğurur. Yaranan birliklər xülyadır, deməli, xarici təsirə qarşı davamsız və qısaömürlüdür. Xülyavi sistemin məhvi onun komponentlərinin annihilyasiyasına və bu sistemə cəlb olunan adamların məhvinə səbəb olur. Qabaqcadan verilmiş qanunauyğunluğun pozulmasının ümumi mexanizmi belədir. Amma burada istisnalar da var. Yeni ritmlərin meydana çıxmasının şərti də məhz ilkin ritmlərin, yəni etnogenetik ətalət prosesinin qeyri-sabitliyidir. Biz hələlik bunun nə ilə ilgili olduğundan danışmayacağıq, çünki həddən artıq ciddi məsələ olduğu üçün onu ötəri olaraq həll etmək mümkünsüzdür. Lakin aydındır ki, etnik ənənələrin qorunub saxlanması üçün endoqamiya zəruridir, çünki endoqam ailə uşağa artıq qərarlaşmış stereotipi, ekzoqam ailə isə qarşılıqlı şəkildə biri digərini həzm edən iki stereotip bəxş edir. Beləliklə, heç də “sosial duruma” aid olmayan və başqa müstəvidə yerləşən ekzoqamiya etnogenez amilləri sırasına aid olur, yəni superetnik səviyyədəki təmas zamanı real destruktiv amilə şevrilir. Təmas bölgəsində yeni etnosun əmələ gəldiyi istisna hallarda belə, o, hər iki əvvəlki etnosu həzm, yəni məhv edir. Nəticə kimi qeyd edək ki, gətirdiyimiz örnəkdə, həmçinin əksər hallarda prinsip heç bir real rol oynamır. Söhbət samatik (bədən üzvlərilə ilgili, - tər.) yox, davranış fərqlərindən gedir, çünki çöl sakinləri, tibet dağlıları və çinlilər I sıra monqoloid irqinə mənsub idiliər. II sırayadək dəqiqləşdirdikdə isə aydın olur ki, irqi əlamətlərinə görə şimalli çinlilər cənubdakı çinlilərdən daha çox, sənbi və tibetlilərə yaxındır. Lakin qafa tası, [87-88] göz və saçların rənginin, epikantusun və s. xarici oxşarlığı etnogenetik proseslər üçün heç bir önəmə malik deyildi.

Sadaladığımız örnəkdə etnosun landşaftla bəzən şübhə altına alınan əlaqəsi də açıq aşkar görünür. Huanhe vadisini ələ keçirən xunlar orada mal-qara otarırdılar, çinlilər əkin sahələri salır və suvarma kanalları çəkirdilər. Onların qarışmasından törəyənlərsə nə heyvandarlıq, nə də əkinçiliklə məşğul olmaq vərdişlərinə yiyələnmədiklərindən, qonşuları və öz təbəələrini vəhşicəsinə soyub-talayırdılar. Bu isə dincə qoyulmuş torpaqların meydana çıxıb artmasına, meşələrin qırılması və hökmdarların ova çıxmaları ilə bağlı dırnaqlı heyvanların qırılması üzündən zəifləmiş də olsa, təbii biosenozun bərpasına səbəb olurdu. Hər şey uyğun gəlir.

Beləliklə, etnosun hal-vəziyyət olması konsepsiyasının rədd edilməsi yalnız nəzəri mühakimələr deyil, faktiki bilgilərin təfsirinin zəruriliyindən də doğur. Lakin əgər etnos uzunmüddətli prosesdirsə, onda o, yerin biosferinin bir hissəsidir. Landşaftların texnikadan istifadə yolu ilə dəyişdirilməsi etnosla ilgili olduğundan isə, etnologiyanı coğrafi elmlərə aid etmək gərəkdir. Halbuki o, ilkin materialı sözün dar mənasında anlanan tarixdən, yəni olayları əlaqəli və ardıcıllıqla öyrənməklə əldə.

## VI. ETNİK DAVRANIŞ STEREOTİPİ

Bənzərsizlik prinsip kimi. Hər bir etnosun öz daxili strukturu və özünün təkrarsız davranış stereotipi var. Bəzən etnosun strukturu və davranış stereotipi nəsildən nəslə dəyişir. Bu onu göstərir ki, etnos inkişaf edir, etnogenes isə sönməyib. Bəzən etnosun strukturu sabitdir, cünki yeni nəsil xələflərinin həyat siklini təkrarlayır. Belə etnosları persistent, yəni qismətindən artıq yaşamış adlandırmaq olar. Bu barədə daha sonra danışacağıq. İndi isə davranış stereotipinin səbatlılığından və dəyişkənliyinin xarakterindən asılı olmayaraq, (struktur) anlayışının ona tətbiqən mənasından danışaq.

Etnik davranış stereotipinin strukturu-münasibətlərin çox ciddi şəkildə təyinlənmiş normasıdır. a) kollektivlə fərd arasında, b) fərdlərin öz aralarında, c) etnosdaxili qruplar arasında; d) etnosla etnosdaxili qruplar arasında. Ayrıca götürülmüş hər bir halda özünəməxsuz olan bu normalar, gah ləng, gah da sürətlə dəyişməklə, həyat və məişətin bütün sahələrinə qeyri-rəsmi şəkildə nüfuz edərək, konkret etnosda və hər bir dövrdə birgə yaşayışın yeganə üsulu kimi davranılır və bu səbəbdən də etnos üzvləri üçün usandırıcı olmur. [88-89] Başqa etnosdakı davranış norması ilə təmasda olduqda isə həmin etnosun bütün üzvləri təəccüblənir, özünü itirir və özhəmtayfalarına digər xalqın qəribəliklərini nəql etməyə çalışırlar. Əslində, etnoslararası ilişkilərin özləri qədər qədim olan etnoqrafiya elmini də elə məhz bu hekayətlər təşkil edir. Onun ilkin halı ilə elmi ümumiləşdirmə arasındakı fərq yalnız əhatə genişliyində və məlumatın sistemləşdirilməsində, bir də başqa etnosun adət-ənənə və qaydalarının etnoqrafı şok halına salmamasındadır.

Örnəklərdə aydınlaşdıraq. Olviyada olmuş qədim Afina sakini skiflərin evlərinin olmamasından və öz bayramlarında ağıllarını itirənədək içki itirmələrindən nifrətlə danışırdı. Yunanların vakxanaliyalarını

izləyən skiflərdə isə elə bir ikrah hissi yaranirdı ki, bir dəfə onlar Olviyada qonaq olan çarlarını təntənəli mərasimdə başında dəfnə çələngi və əlində tirs (dəfnə yarpağından hörülən əsa,- tər.) ellinlər arasında gedən görüb, onu qətlə yetirdilər. Yəhudilər romalılara donuz əti yedikləri üçün nifrət edir, romalılar isə sünnəti qeyri-təbii bir şey sayırdılar. Fələstini ələ keçirən səlibçi cəngavərlər ərəblərin çoxarvadlılığına qarşı çızır, ərəblər isə fransız qadınlarının üzüaçıq gəzmələrini abırsızlıq sayırdılar və i.a. Örnəklərin sayı-hesabı yoxdur.

Etnoqrafiya bu cür səmimiliyə üstün gəldi və müşahidələrə prinsip sistemini fərdlərin qarşılıqlı münasibətlərinin normaları kimi daxil etdi. Bu norma fərdlərin həm öz aralarında, həm də onların bütövlükdə kollektivlə qarşılıqlı münasibətlərini təyin edir. Örnək üçün nigah-intim münasibətlərin ən adisinə müraciət edək. Kobud şəkildə desək, belə münasibətlərin formaları çox rəngarəngdir: monoqam ailədən cinsi əlaqələrin tam özbaşınalığınadək. Məsələn, bəzi xalqlarda nigaha daxil olan qız mütləq bakirə olmalı, digərlərində isə bundan əvvəl (məhəbbət) elminə yiyələnməlidir. Boşanma bəzən asan, bəzən çətin, bəzən də mümkünsüzdür. Bəzi xalqlarda ərdə olan qadının başqa kişi ilə cinsi əlaqəsi ölümlə cəzalandırılır, başqalarında isə- şirnikləndirilir (məsələn, artıq qeyd etdiyimiz kimi, Çingizilərin himayəsində olan Hami vahəsi uyğurları öz qadınlarını tacirlərin ixtiyarına verməklə o qədər zənginləşmişdilər ki, hətta qonşulara çirkin görünən bu adətdən imtina etmək belə istəmirdilər).

Borc hissinin qavranılmasının müxtəlif variasiyalarını da eyni şəkildə araşdıra bilərik. Feodal ingiltərə, yaxud Fransada vassal öz süzereninə yalnız siyasi benefisiya ("ödəniş") aldıqda qulluq etməli idi. Bundan məhrum edildikdə isə başqa süzerenin [89-90] (məsələn, İspaniya kralının) yanında qulluğa keçməyə ixtiyarı vardı. Yalnız başqa, məsələn, müsəlman dinindən olanların himayəsi altına keçmək xəyanət sayılırdı. Lakin bu o qədər geniş yayılmış bir hal idi ki, xüsusi bir termin də yarandı - reneqat (dönük, mürtəd, - tər.). Əksinə, Roma və ya Yunanıstanda ictimai mükəlləfiyyətlərin yerinə yetirilməsi ödənişlə müşayiət olunmur və polis vətəndaşının borcu sayılırdı. Əslində, həmin vətəndaşlar ictimai işlər vasitəsilə o qədər zənginləşmişdilər ki, özləri özlərini həddən artıq mükafatlandırmışdılar.

Etnik davranış stereotipi çox möhtəşəm qüvvəyə malikdir, çün ki etnos üzvləri onu yeganə layiqli davranış forması, bütün başqaları isə "vəhşilik" kimi qavrayır. Məhz bu səbəbdən avropalı müstəmləkəçilər hinduları, afrikalıları, monqolları, hətta rusları da vəhşi adlandırardılar, halbuki həmin sözü elə ingilislərə aidən də söyləyə bilərdilər. Çinlilər onlardan təkəbbürlü idilər. Məsələn, Min dövrünə aid coğrafi arayışda Fransa haqqında belə deyilirdi: "Cənub-qərb dənizi sahilindədir... 1518-ci ildə kralları çoxlu ənamla nümayəndə göndərib, onu kral kimi tanimağı rica edirdi". (22)

Davranış stereotiplərinin dəyişkənliyi. Etnosun davranış stereotipi də elə etnosun özü kimi dinamikdir. Mərasimlər, adət və normalar gah ləng və tədricən, gah da çox sürətlə dəyişir. Məsələn, İngiltərəyə bir nəzər salaq. Məgər "Ağ dəstə"dəki şən və cazibədar Robin Qudla onun kelt körpələrini qətlə yetirən qaniçən saks əcdadı arasında bir oxşarlıq varmı? Yaxud, elə həmin Robin Qudu onun birbaşa xələfi dəniz qulduru Frensis Dreykə və ya Kromvelin "dəmir böyürlü" əsgərinə bənzətmək mümkündürmü? Bəs onların xələfləri - viktorian dövründə səliqəli və təkəbbürlü, XX əsrdə isə dekadent və narkoman Siti qulluqçusu? Halbuki, İngiltərə daim mühafizəkar bir ölkə olub. Öndə siması yalnız daxili inkişaf deyil, həm də kənar təsirlər - mədəni əxzetmələr, adətlərin məcburən dəqişdirilməsinə bais olan istilalar, nəhayət, məşğuliyyət növünü dəyişən və etnosun tələbatlarını zor işlətməklə nizamlayan iqtisadi təzyiqlərə məruz qalan başqa etnoslar necə olsun? (23)

Etnosun davranış stereotipindən danışarkən, biz həmişə haqqında danışılan dövrü qeyd etməyə borcluyuq. "Vəhşi" və ya "primitiv" adlandırılan qəbillərin "sivilizasiyalı" millətlərdən daha mühavizəkar olduqlarını da düşünmək lazım deyil. Bu qənaət yalnız hinduların, afrikalıların və Sibir xalqlarının kifayət qədər araşdırılmasından doğub. Dakotların və polineziyalıların davranış stereotipinin dəyişməsi üçün Kanadada araq, Taitidə isə konserv [90-91] satışını təşkil etmək kifayətdi. Həm də çox az-az hallarda bu dəyişiklik yaxşılığa doğru oludu. Lakin bütün hallarda dəyişikliklər artıq formalaşmış vərdiş və təsəvvürlərə əsaslanaraq, öz yolu ilə irəliləyirdi. Hər bir etnosun təkrarsızlığı, həmçinin etnogenez proseslərinin heç vaxt birini təkrar etməməsinin səbəbi də bundadır. Doğrudur, qanunauyğunluq da mövcuddur və onu yalnız tapmağı bacarmaq lazımdır.

Ölkələrin, o cümlədən hüquqi, iqtisadi, sosial, məişət, dini və i.a. münasibətlərə dair, onların mürəkkəblik dərəcəsindən asılı olmayaraq, davranış stereotipinin nümunələrinin sayını istənilən qədər artırmaq mümkündür. Qeyd edək ki, etnosdaxili strukturun dəstəklənməsinin əsas prinsipi də elə məhz qarşılıqlı ilişkilərdəki mürəkkəblikdir. Humanitar elmlər baxımından təsvir etdiyimiz olay sosial münasibətlərin ənənə və çeşidləri kimi məlumdur, təbiyyət elmləri aspektində isə eyni qanunauyğunluqla lokal bölgələr və növdaxili populyasiyalarda çeşidli variantlara malik davranış stereotipi kimi anladılır. İkinci aspekt qeyri-adi olsa da,aşağıda görəcəyimiz kimi, çox məhsuldardır.

Beləliklə etnos-fərdlərin özünü bütün digər kollektivlərdən fərqləndirən kollektivdir. Tarixi dövr ərzində yaranıb məhv olsa da, etnos müəyyən dərəcədə sabitdir. Etnosu təyin edən bircə dənə də olsun elə bir real əlamət yoxdur ki, bizə məlum olan bütün hallara tətbiq edilə bilsin. Dil, mənşə, adətlər, maddi mədəniyyət, ideologiya bəzən təyinedici məqam kimi çıxış edir, bəzən isə yox. Yalnız bircə şeyi haşiyə bilərik? Hər bir fərdin etiqadını. "Biz beləyik, qalan hamı isə - başqa cür". Bu universal olduğundan,

təxmin etmək olar ki, o, hansısa fiziki, yaxud bioloji reallığı əks etdirir və və aradığımız qiymət də elə budur. Bu "qiyməti" yalnız etnosların meydana çıxma və yox olma yollarını təmin etmək və etnosların əz aralarında prinsipial fərqlərini açıqlamaq yolu ilə çeşidıəmək mümkündür. Fərdləri aşkar etmək üçün bu və ya digər etnosun davranış stereotipinin ardıcıl təsviri gərəkdir. Lakin yadda saxlamaq lazımdar ki, etnosun davranışı yaşından asılı olaraq dəyişir və onun yaşını etnosu tarix səhnəsinə çıxması məqamından hesablamaq daha rahatdır. Bu səbəbdən də "etnos" anlayışının təyin olunmasına ikinci yanaşmada keçmək üçün, təhlilə etnodinamikanınqeydə alınması üsulunu daxil etmək lazımdır. Bu, bir tərəfdən, istisnasız olaraq, bütün adamlara xas olan, digər tərəfdən, etnik dinamikanın indikatoru kimi istifadə edilmək üçün kifayət qədər [91-92] çeşidlənə bilən psixoloji məqam: bir vəhdət kimi etnosun zaman kateqoriyasına münasibətdir.

Etnos və zamanın dörd cür duyulması. "Zaman" nə olduğunu heç kim bilmir. Amma insanlar onu ölçməyi öyrəniblər. Hər hansı bir şərti tarixdən ("Romanın əsasının qoyulması", "dünyanın yaranması", "İsanın anadan olması", "Hicrət - Məhəmmədin Məkkədən Mədinəyə köçməsi" və i.a.) etibarən xətti hesablanmasına ehtiyacı olmayan xalqlar belə, gecə ilə gündüzü, ilin fəsillərini, öz həyatlarının əlamətdar məqamlarına əsaslanan "canlı xronologiyanı", ən nəhayət, həftələri, ayarları, hər biri bir heyvanın adını daşıyan 12 ildən ibarət (türk-monqol təqvimi) dövrləri fərqləndirirlər. Müqayisəli etnoqrafiyanın verdiyi məlumata görə, zamanın xətti hesablanması etnosun öz tarixini istisna bir olay kimi deyil, həmsərhəd ölkələrin tarixilə ilgili şəkildə dərk etməyə başladıqda meydana çıxır. Bilik ehtiyatı yarandıqca, zamanın insanların şüurlarında kvantlaşması, yəni onun müddətinə görə son dərəcə qeyri-bərabər, amma zəngin olduqları olaylara görə ekvivalent olan dövrlərə bölünməsi baş verir. Burada "zaman" kateqoriyası "qüvvə" kateqoriyası - fərdi hallarda tarixi prosesin sürətlənməsinə bais olan səbəblə - təmasa girir. (24)

Hesablama sistemlərinin belə çeşidliyini göstərir ki, onlar etnopsixologiyanın ciddi dəyişiklərinə cavab verir, bu isə öz növbəsində, etnosun yaş səviyyasinin dəyişməsilə təyinlənir. Bizim məqsədlərimiz üçün bu və ya digər hesablama sistemi deyil, keçmiş müasir dövrlər və gələcək anlayışlarındakı fərqlər mühümdür.

Etnik vəhdət təşəkkülünün birinci yaradıcılıq dövrünə qədəm qoyduğu zaman onun əhalisinin bütün sistemi etnik inkişaf yolu ilə irəlilədən aparıcı hissəsi maddi və ideya sərvətlərini toplayır. Etika sahəsində bu toplama "imperativə" (qeyd-şərtsiz tələb,-tər.) çevrilərək, zamana münasibətdə "passeizm" adlandırıla bilən hiss şəklini alır. Mənası isə budur ki, etnik vəhdətin hər bir qurucusu özünü əcdadların keçirdikləri xəttin davamçısı bilir, ona nə isə əlavə edir: daha bir qələbə: daha bir bina, daha bir polad qılınc. Həmin bu "daha bir" ona dəlalət edir ki, keçmiş tamamilə itməyib, o insanın daxilində yaşayır və bu səbəbdən də ona nə isə yeni bir şey əlavə etməyinə dəyər, çünki bununla keçmiş üst-üstə toplanaraq, irəliləyir. Yaşanılan hər yeni dəqiqə mövcud keçmişə artım kimi qəbul edilir (Passe existente).

Zamanın belə qavranmasının nəticəsi həyatlarını vətən uğrunda fəda edən qəhrəmanlardır: Sparta bazilevsi Leonidin [92-93] Fermoril yaxınlığında, konsul Attili Requlun Karfagendə, Rolandın Ronseval dərəsində. Həm də bu, tarixi şəxsiyyət olmuş breton markqrafina da, "Roland haqqinda nəğmənin qəhrəmanına da eyni dərəcədə aiddir. Bahadur - rahiblər Peresvet və Oslyabla Sergi Radonejskinin Kulikovo çölündə həlak olan davamçıları, "öz təbii xanına" qaçıb qurtulmaq imkanı vermək üçün Çingiz xanın qoşunlarının diqqətini özünə cəlb edən kərait bahadırı Hadeh - Baaadur da belələrindən idilər. (25) Bu təbiətə malik avropalılar öz adlarını əbədiləşdirmədən qotik məbədlər ucaltmış, hindlilər mağaralardakı məbədgahlarında qeyri-adi heykəllər yonub-düzəltmiş, misirlilər sərdabələr tikmiş, polineziyalılar öz həmvətənləri üçün Amerikanı kəşf etmiş və adalara kumara (şirin kartof) gətirmişlər. Onlar üçün şəxsi mənafenin olmaması səciyyəvidir. Onlar sanki gördükləri işi özlərindən çox istəyirdilər. Lakin bu, heç də altruizm (təmannasız yardım, - tər.) deyildi. Onların məhəbbət predmeti həm öz daxillərində idi, həm də yalnız ora ilə də məhdudlaşmırdı. Özlərini sadəcə olaraq möhtəşəm ənənələrin varisi deyil, onların bir zərrəsi hiss edir və həyatlarını bu ənənələr naminə döyüşçü kimi qısa bir müddətə, yaxud memarlar kimi tədricən qurban verməklə, onlar fəaliyyətlərinin vektor və səciyyəsini müəyyənləşdirən əsəbi-psixofiziki xüsusiyyətlərinə müvafiq şəkildə hərəkət edirdilər. Belə təbiətə malik adamlara bütün dövrlərdə rasr olunsa da, etnogenezin ilkin mərhələlərində onların sayı çoxdur. Onların faiz nisbəti azalan kimi, bizim "intibah" adlandırdığımız, əslində isə "israfetmə" adlandırılmalı olan dövr bərqərar olur.

Passeizmin yerini aktualçılıq tutur. Bu təbiətə malik adamlar keçmişi unudur və gələcəkdən xəbərdar olmaq istəmirlər. Onlar bu gün və özləri üçün yaşamaq arzusundadır, mərd, fəal, istedadlıdırlar, amma etdikləri yalnız özləri üçündür. Qəhrəmanlıqlar etsələr də, səbəbi şəxsi tamahdır. Hakimiyyətdən həzz almaq üçün yüksək mənbələrə can atırlar, çünki onlar üçün reallıq yalnız bugünkü gündür və həmin bu gün özününkü, şəxsi kimi anlaşılır. Romada Qay Mari və Lütsi Korneli Sulla, Afinada Alkiviad, Fransada "Böyük Konde", XVI Lüdovik və Napoleon, Rusiyada İvan Qroznı, Çində Suy imperatoru Yan Di (605-618) belələrindəndir. Yalnız və yalnız öz adlarını şöhrətləndirmək naminə bəzən nə isə möhtəşəm bir şey edən professor, rəssam, memar, yazar və i.a. isə heç sadalamaq belə mümkün deyil! Şən, eyşişrətli dolu həyat tərəfdarları da bu cürdürlər və onlar uzunluğu bir ömür müddətində də olan bircə gün yaşamaq arzusundadırlar - təki bu ömür onlarınki olsun. [93-94] Etnosun tərkibində belə adamların sayı artdıqda,

onların fədakar sələfləri tərəfindən toplananlar qısa müddət ərzində israf olunur və bu aldadıcı olan bolluq təsəvvürü yaradır ki, bu səbəbdən də “çiçəklənmə sayılır.

Oxucuda belə bir təsəvvür yarana bilər ki, müəllif bu cür təbiətli adamları qınayır. Əsla yox! Onların zaman qavrayışı da yuxarıda təsvir olunanın eynidir və öz istəklərindən deyil, ali əsəb sisteminin xüsusiyyətlərindən asılıdır. Onlar istəsələr belə, başqa cür ola bilməzlər. Məhşur “Qoy bircə gün də olsa, təki mənim olsun! Və “Bizdən sonra qoy dünya dağılsın!” ibarələri abırsızlıq, həyasızlıq deyil, səmimiyyətdir və etnosun tərkibində təbiətli adamların olması onun yox olmasına deyil, yalnız inkişafdan qalmasına səbəb olur ki, bu da bəzən hətta məqsədəuyğun olur, çünki özlərini qurban verməyən bu adamlar qonşularını da qurbanlığa çevirmək fikrinə düşmürlər, etnik arealın sonsuz olaraq genişləndirilməsi cəhdi sərhədlərin bərqərar olması ilə əvəzlənir.

Zaman və dünyaya mümkün olan və real mövcud münasibətin üçüncü variantı gələcək naminə yalnız keçmişə yox, hazırki dövrə qarşı da etinasızlıqdır. Keçmiş itib-getdiyi, hazırki dövr isə qeyri-məqbul olduğu üçün rədd edilir, yalnız arzulanan real sayılır. Dünyanı bu cür qavrananın ən parlaq nümunələri Elladada Platon idealizmi, Roma imperiyasında yəhudi hilaizmi, manihi (albiqoylu) və markionit (boqumilik) məzhəbləridir. Ərəb xilafəti də futurist (onu belə adlandırmaq ən düzgündür) təsirdən yayına bilmədi. XI əsrdən etibarən buradakı bədəvilər kərmatlığın ideoloji sistemini qəbul etməyə və Suriya, Misir və İranda yayılmağa başladılar. Misirdə kərmatlar öz sülalələrini- Fatimiləri hakimiyyətə gətirdilər, İranda dağ qalalarını - Ələmut, Girdekuh və Lümbəsəri ələ keçirib, oradan müsəlman soltan və əmirlərinə öz ibarələrini diqtə edirdilər. Farslar onları ismaililər, səlibçilər isə - əsasinlər adlandırırdılar.

Kərmatların ideologiyası açıq-aşkar idealistik olsa da, dini deyildi. Onların təliminə görə, dünya güzgü kimi əks etdirən iki hissədən ibarətdir. Bu aləmdə kərmatlar üçün pis idi - onları döyür, istismar edir, incidir, talan edirdilər. Anti-aləmdə isə hər şey əksinə olmalıdır: kərmatlar müsəlman və xristianlara zülm edəcək, incidəcək və dərilərini soyacaqlar. Antialəmə isə yalnız “canlı tanrı” və onun təyin etdiyi pir-müəllimlərin köməyilə keçmiş olar, bunun üçün həmin adamlara sözsüz tabe olmaq və pul vermək lazımdır. Kərmatların fəaliyyəti haqqında yalnız məzlumlarla feodalların mübarizəsi kimi təsəvvürlər işin yalnız bir, həm də o qədər önəmli [94-95] olmayan tərəfini əks etdirir. Qahirədəki Fatimilər və Ələmutdakı Həsən Sabbah da eynilə düşmənlər kimi kəndlilərə zülm edirdilər. Sadəcə olaraq, onlar bəzən sosial ziddiyyətlərdən öz siyasətlərinin mənafeyi üçün yararlanırdılar. Həm də quldur dəstəsi, yaxud sekta geniş kütlələrin mənafeyini ifadə etmək iqtidarındadırmı?

Lakin Çində zamanın III əsrdə meydana çıxmış futuristik qavranması kəndlilərin “sarı sarıq” üsyanına gətirib çıxardı. Kiçik Xan sülaləsinin hakimiyyəti dövründə /25-220/ həqiqi sinfi ziddiyyətlərlə yanaşı, daos alimləri konfutsiçilər tərəfindən bütün dövlət vəzifələrindən sıxışdırılıb çıxarılırdı və dolanmaq üçün xəstəlikləri müalicə etmək və hava durumunu proqnozlaşdırmaqla məşğul olmağa başladılar. Belə dilənçi güzaran onları qane rtmədiyi üçün, aralarında “zorun /zülmün/ mavi səmasını” ədalətin sarı səmasının” əvəzləyəcəyi haqqında nəzəriyyə yaratdılar. Əslində isə səma tökülən qanların şəfəqlərindən al rəngə boyandı: üsyandan sonrakı iğtişaşlar dövründə Çinin əhalisi 50 milyondan 7,5 milyona qədər azaldı. Bütün bəlalarda daos təbliğatını ittiham etmək ağılsızlıq olardı, çünki hadisə iştirakçılarının böyük əksəriyyəti üçün hər hansı bir fəlsəfi nəzəriyyə yabançı idi. Bizim üçün futuristik dünyabaxışının mövcudluğu və sanki xalqın həyatından sıxışdırılıb çıxarılan passeistik dünyagörüşünün tənəzzülü ilə eyni zamanda fəallaşması mamkündür. Təsadüf deyil ki, III əsr qədim və orta əsr Çinini bir-birindən ayrılan dövr sayılır. Həm ideoloji, həm də maddi sahədə yeni dəyərlərin toplanması VI əsrdə Suy sülaləsi dəvründə passeistik cərəyan şəklində formalaşdı. N.İ.Konrad bu hadisəni Çin İntibahı adlandırırdı. Bu zaman “qədimliyə qayıdış” şüarı altında yaranan yeni orijinal mədəniyyət “Beş barbar” adlandırılan dövrün əsgər və köçərilərəməxsus çarlıqlarının mənəvi parçalanmasına və kobudluğuna qarşı dururdu. (26)

Belə bir qənaətə gəlmək olardı ki, zamanın futurustik davranışı həddən artıq az-az rast olunması üzündən anormallıqdır. Bu, doğru deyil, çünki dıgər ikisi kimi, o da qanunauyğundur, lakin etnik birliyə o qədər məhvedici təsir göstərir ki, etnos ya bütövlükdə məhv olur, ya “xəyalpərəstlər” qırılır, ya da onlar öz arzularını həyata keçdiyini bəyan edərək, aktualçılara çevrilirlər, yəni hamı kimi yaşamağa başlayırlar. Dünyanın futurstik qavranışı ətrafdakılar üçün yalnız yalxı formada və yüksək “sıxlıqda” olduğu halda təhlükəlidir. Dünyanı digər qavrayış formaları ilə qarışıq olduqda o, hətta rəğbət də doğura bilir. Misal üçün, İohan Leydenski Münsterdə ehtirasların cuşə gəlməsinə və buradan doğan mütləq [95-96] qanaxmaya nail oldu. Lakin müasir bartistlər - obivatellərdir və bu səbəbdən də qəbul etdiyimiz təsnifatda öz ideya və mənəvi sələflərinə yox, obivatel - katolik, protestant, ateistlərə daha yaxındırlar. Başqa sözlə ideyaya inam zaman münasibəti əks etdirmir və onunla bağlı deyil. Zamanın futurustik qavranışının çox variantlılığı ondadır ki, onun təntənəsi etnik dezinteqrasiya /bütövün hissələrə parçalanması-tər./ prosesini doğurur. Bu cür proseslər araşdırdığıməz bütün dövrlərdə müşahidə edildiyində etnosların çox olması, həmçinin, yenilərinin meydana çıxması heç də təsadüfi deyil. Hər ikisi eyni dialektik prosesin -etnogenezin tərkib hissasidir və biz bir insan kimi istənilən düşüncə tərzinə rəğbət bsləyə biləriksə, bir alim kimi sadəcə olaraq tərkib hissələrini araşdırılan hərəkətin ümumi istiqamətindəki nisbət və vektorlarını təyin etməliyik.

Passeizm aktualçılıq və futurizm etnik dinamikanın üz mərhələsini əks etdirirlərər. Lakin bundan əlavə, zaman kateqoriyasının etnosun statik vəziyyətinə müvafiq gələn giymətləndirmə sistemi də olmalıdır və belə bir sistem həqiqətən mövcuddur. Bu, zamana qarşı etinasızlıqdır. Belə təbiətə malik adamları zaman maraqlandırmır, çünki onlar zamanın hesablanmasından azuqələrini təmin edən fəaliyyət üçün heç bir şey əldə etmirlər. Bu adamlar /yuxarıda biz onları obivatel adlandırmışıq/ bütün mərhələlər də yaşasalar da, başqa kateqoriyalar olan zaman bir o qədər də nəzərə çarpmırlar. "Futurizmin" təntənəsilə bütün rəqimləri yox olduqda isə, heç vaxt məhv olmayan iste "dadsız, qabiliyyətsiz adamlar daldanacaqlarından sürünüb çıxır, tarixi zaman donub qalır, torpaq isə başlı-başına buraxılır. Beləliklə, biz təhlilimizin bütün xətlərini qapadıq və etnik təşəkkülün konstruksiyasının dörd üzvdən ibarət olması barədə fərsiyyəmizin təsdiqini əldə etdik. Beç də təsadüfi uyğunluq və ixtiyari qurum yox, etnik parçalanma prosesinin məğzinin əksidir. Lakin bizim təhlil mövzunu başa çatdırsaydı, yalnız etnoloqiya deyil, etnosların özləri də artıq çoxdan yox olardı, çünki ötüb keçən müddət ərzində parçalanardılar.

Görünür, etnosdaxili təkamülün dağıdıcı proseslərilə yanaşı, quruculuq prosesləri də mövcuddur ki, onların sayəsində yeni etnik birliklər meydana çıxır. Bu səbəbdən də bəşəriyyətin etnik tarixi ara vermir və Yer üzündə adamlar mövcud olana qədər ara verməyəcək,çünki etnos insanların sadəcə riyazi cəmi deyil,ətraflı şərh olunmalı "sistem"dir. [96-97]

## VII. ETNOS SİSTEM KİMİ

"Sistem"in sadə izahı. Sosial sistemin hamıya bəlli olan nümunəsi bir evdə yaşayan ailədir. Sistemin elementləri: ailə üzvləri və onların məişət əşyaları, o cümlədən, ər, arvad, qaynana, oğul, ev, quyu, pişik və i.a. Onlar ər-arvad bir-birindən boşanana, uşaqlar çıxıb gedənə, qaynana ilə gəlin savaşana, quyu lillənənə, pişik çardaqda balalayana qədər bir ailə təşkil edirlər. Əgər bundan sonra, hətta su kəməri çəkildiyi halda belə, onlar bir evdə qalmaqda davam edirlərsə, bu artıq ailə deyil, məskunlaşmış sahə olacaq. Yəni canlı və cansız təbiətin elementləri yerində qalsa da, ailə sistemi yox olacaq. Əksinə,qaynana vəfat etsə,ev yenidən qurulsa, pişik qaçıb getsə, sevimli oğul təhsil almağa yollansa, belə ailə, elementlərinin sayının dəyişməsinə baxmayaraq, hifz olunacaq. Bu o deməkdir ki, sistemin real mövcud olan və təsirli amili əşyalar deyil, əlaqələrdir, halbuki, onların nə kütləsi, nə də temperatusu, nə də müəyyən yükü var.

Sistemli əlaqənin real təzahürü də elə məhz bir-birinə bənzəməyən ayrı-ayrı adamlar arasındakı həmin daxili əlaqədir və o, başqa heç bir göstərici vasitəsilə aşkarlana bilməz.

Sistemdəki əlaqələr həm müsbət, həm də mənfi ola bilər və həm də fərdin həyati boyu yarımsistemin bəzi əlaqələri və işarəsini dəyişməyə qabildir. Misalımızı davam etdirək. Yeni doğulanla ondan böyük arasında əlaqə müəyyən istiqamət və "çəkiyə"27 malikdir. Ona qayğı göstərir, tərbiyə edir və öyrədirlər. Yetkinləşib ailə sahibi olduqda isə, əlaqə əks işarə alır: o özü valideynlərin qeydinə qalır və uşaqları öyrədir. Nəhayət, qocalanda yenə də qayğı və qulluq tələb edir. Bu qanunauyğunluq göstərir ki, istənilən sistem sükunətdə deyil - ya dinamik tarazlıqdadır /homeostaz/, ya da həmin sistem xaricində olan hər hansı bir təkan, impulsun doğurduğu hərəkətdədir. Əlbəttə, ali dərəcəli sistem üçün bu sistemin məhdud olması istisna deyil, lakin təsir mexanizminə bunun dəxli yoxdur.

Ailə sistemi əyani nümunədir. Lakin daha mürəkkəb sistemlər, məsələn, etnos, sosial orqanizmlər növ, biogeosenos da eyni qanunauyğunluğa tabedir. Hətta iyerarxiya prinsipinə əsasən qurulsalar belə: yarımsistemlər sistem vahdətləri - supersistem təşkil edir, supersistemlər - hipersistem və i.a. Beləliklə, dinamik stereotiplər əmələ gətirən ümumi əlaqələrin mövcudluğu bu və digər dərəcədə sabit olsa da, heç vaxt əbədi deyil. [97-98]

Beləliklə, bir sistem kimi etnosun sabitlik meyarı onun kütləsi, yəni əhalinin sayı və əcdadları dəqiq təqlid etməsilə deyil, müxtəlif çəki və işarələrin orta statistik toplusu ilə təyin olunur. Müəyyən hüdudlardan kəskin şəkildə çıxmaq ya məhvə, ya da gur inkişafa səbəb olur. Etnosun ona xarici təsirləri yumşaltmaq və bəzən hətta onları regenerasiya etməyə imkan verən - "çoxəlaqəli" sistem əlaqələrin yenidən qurulmasından yaranan ziyanı bərpa edir - elastikliyi də məhz bununla yaradılır.

Belə anlaşıqlı izahdan sonra elmi təyinlərə, yəni bizə gərək olan həcmdə kibernetika və sistemləşdirməyə müraciət edək.

Etnologiyada "sistem". N.Viner kibernetikanın canlıda və maşında idarəetmə və əlaqələr haqqında elm kimi səciyyələndirmişdir.(28) "Kibernetikanın" üstünlüyü mürəkkəb sistemlərin araşdırma üsulundadır, çünki sadə sistemlərin araşdırılması zamanı kibernetika üstünlük əldə etmir."(29) Kibernetikanın araşdırma predmeti obyektin davranış üsullarıdır: "o, (kibernetika -tər.) "bu nədir?" yox, "o nə edir? Soruşur". (30) "Buna görə də obyektin xüsusiyyətləri onun davranışının adlarıdır".(31) "Kibernetika davranışının bütün formaları ilə məşğul olur, çünki onlar ya müntəzəm, ya determinləşən, ya da təkrarlana biləndir. Fizikanin adi qaydalarına riayət olunub - olunmaması kimi, maddilik də onun üçün bir önəm kəsb etmir".(32)

Gətirdiyimiz örnəklər göstərir ki, etnos fenomeninin məğzilə maraqlanan və şəxsi müşahidələrini təbiətin ona məlum olan qanunları ilə uzlaşdırmaq zorunda qalan etnosun Viner kibernetikasının üsullarına tam aludə olmamalıdır. Araşdırmanın kibernetik üsullarının tətbiqi yalnız empirik ümumiləşdirmələrin ekstrapolyasiyası üçün təshih kimi xidmət edə bilər. Bu səbəbdən etnosun sistemli araədırılması metodikasının əsasını Vinerin fikirləri deyil, fiziki - kimya və termodinamika - kibernetika ilə uzlaşdıran L.Bertalanfinin ideyaları təşkil etməlidir.

L.Bertalanfinin sistemli yanaşma metoduna görə (33) "sistem qarşılıqlı təsirdə olan elementlər kompleksidir" (34), yəni informasiyanın ilkin elementləri ayrıca götürülmüş faktlar yox, onlar arasındakı ilişkilərdir. A.A. Malinovskiyə görə, "sistem qrupları müstəqil önəmə malik vahidlərdən, hər biri daha aşağı dərəcəli vahid olan həlqə, blok, yarımsistemlərdən ibarətdir ki, bu, verilmiş səviyyədə araşdırma aparmaq imkanı verən iyerarxiya prinsipini təmin edir".(35) [98-99]

Bu prinsipdən çıxış edərək, biz etnosu ğzünəməxsus elementlərə malik sosial və təbii vahidlər sistemi kimi nəzərdən keçirmək hüququ əldə edirik. Etnos bu və ya digər cizgilərinə görə bir birinə bənzəyən adamların sadəcə toplusu deyil, zövq və qabiliyyətlərinə görə fərqli adamların, onların fəaliyyət məhsullarının, ənənələrinin, coğrafi mühit dairəsinin, etnik əhatənin, həmçinin, müəyyən sistemin inkişafında aparıcı rol oynayan meyllərin sistemidir. Sonuncusu inkişafın istiqaməti olmaqla, xüsusilə önəmlidir, çünki "çoxluğun bütün halları üçün səciyyəvi olanı elementlərin hərəkətsiz, yaxud dinamik strukturlar əmələ gəlməsinə səbəb olan bütün fəallıq növlərinə sahib olmaq xassəsidir".(36) Bu yanaşmanın etnogenez proseslərinə tətbiqi tarixilik probleminin həlli ilə də ilgilidir, çünki müşahidə olunan bütün faktlar tarixi inkişafın dinamik sistemində yerləşir və bizə Ümumdünya tarixinin mövzumuzla bilavasitə ilgili hissəsini araşdırmaq qalır.

Beləliklə, real etnik sistemi yalnız adamları deyil, lahdşaft elementlərini, mədəni ənənəvi və qonşularla ilişkiləri də ehtiva edən dinamik sistem kimi səciyyələndirə bilərik. (37) Belə sistemdə ilkin enerji artağımı israf olunur, entropiya isə aramsız olaraq artır. Bu səbəbdən sistem ətraf mühitlə enerji və entropiya mübadiləsi etməklə, daim yığılıb qalan entropiyanı xaric etməli olur. Mübadilə nəsildən - nəsilə ötürülən informasiya ehtiyatlarının yararlanan idarəedici sistemlər tərəfindən nizamlanır. (38) Araşdırdığımız halda idarəedici sistem rolunu materiyanın ictimai və təbii formaları ilə bərabər şəkildə qarşılıqlı təmasda olan ənənə yerinə yetirilir. İstiqanlı canlıların əksəriyyətində toplanmış təcrübənin xələflərə ötürülməsi izlənsə də, alətlərin, nitq və yazının olması insanı digər məməlilərdən fərqləndirir. Etnos isə yalnız insana xas olan kollektiv varlıq formasıdır.

Etnik sistemlərin səviyyə və tipləri. Qəbul etdiyimiz yanaşma etnik təsnifatı etnik sistemləşdirmə ilə əvəzləmək imkanı verir. Təsnifat ixtiyarı olaraq götürülmüş istənilən əlamət - dil, irq, din, məşğuliyyət növü, bu və ya digər dövlətə mənsubiyyət - üzrə aparıla bilər. Bütün hallarda son dərəcə şərti olacaq. Sistemləşdirmə isə məhz şeylərin təbiətindəki əks etdirməklə, bəşəriyyəti texnika və domestikatları (əhliləşmiş heyvanlar və mədəni bitkilər) ilə birgə araşdırmaq imkanı verir. Bütövlükdə bəşəriyyətdən sonra (amorf antroposfer- Yerin qatlarından biridir) ən böyük vahid superetnos, yəni eyni zamanda və eyni bölgədə meydana çıxaraq, tarixdə özünü etnoslardan ibarət olan şəbəkəbari bütöv kimi göstərən etnoslar qrupudur. [99-100] Bilavasitə müşahidə edilən etnik taksonlar da məhz onlardır. Öz növbəsində, etnoslar subetnoslara, yəni yalnız etnosun vəhdətinə daxil olmaq sayəsində mövcud olan hissələrə bölünür. Etnossuz subetnoslar parçalanır və məhv olur.

Taksanomiyanın bu və ya digər bölməsinə aidlik təbiətdə heç vaxt mövcud olmayan fərdlərin ideal eyniliyilə deyil, verilən səviyyədə müəyyən baxımdan bənzərlik dərəcəsilə təyinlənir. Superetnos səviyyəsində (örnək üçün orta əsrlərə üz tutan) müsəlmanlar-ərəb, fars, türkmən, bərbər bir birinə Qərb-xristian superetnosunun üzvləri olan "firənglərə" (Qərbi Avropanın bütün katoliklərini belə adlandırırdılar) olduğundan daha yaxın idilər. Öz növbəsində, ümumi superetnosa daxil olan fransız, kastiliyalı, şotland öz aralarında digər superetnosların - müsəlman, pravoslav və s. üzvlərinə olduğundan daha yaxındılar. Etnos səviyyəsində fransızlar bir birinə İngilislərə olduqlarından daha yaxın olsalar da, lakin bu özününkülərə qarşı getdiklərini dərk edən burqundlara V Henrixi dəstəkləməyə və Janna dArkı əsir tutmağa mane olmadı. Hər hansı bir halda, müşahidə olunan tarixin bütün rəngarəngliyini yalnız bəzi hallarda insanın davranışını təyinləyən əsas amil ola bilən etnik birliyin dərkilə məhdudlaşdırmaq lazım deyil. Etnik yaxınlıq hissi isə daim var və bir invariant kimi insan təbiətinə aid edilə bilər. Başqa sözlə, etnos nə qədər şəbəkəvari və onun strukturu nə qədər çeşidli olsa belə, verilən səviyyədə o - bütövdür.

Ən maraqlısı isə odur ki, tarixçilər, demək olar ki, belə yanaşmanın mümkünlüyünü aşkar ediblər. Onlar qeyri-ixtiyari olaraq, etnoslsrı ya "mədəniyyət", ya "sivilizasiya", ya da "aləm" adlandırdıqları konstruksiyalarda qruplaşdırırlar. Məsələn, XII-XIII əsr üçün biz o dövrdə real mövcud olmuş bütövləri işarələyən anlamlarda məna tapırıq. Belə ki, Roma papasının ideoloji başçılığı və Almaniya İmperatorunun formal, heç vaxt tətbiq olunmayan süzerenliyi altında olan Qərbi Avropa özünü "Xristian aləmi" adlandırırdı. Bu zaman qərbi avropalılar özlərini yalnız İspaniya və Fələstində müharibə etdikləri müsəlmalara qarşı deyil, pravoslav yunan və ruslara, həmçinin, qəribə də olsa, İrlandiya və Uels keltlərinə qarşı qoyurdular. Təmamilə aydındır ki, onlar din ümumiliyini deyil, ixtiyari şəkildə götürülmüş göstəriciyə görə adlandırılmış sistem bütövünü nəzərdə tuturdular.

Eynilə, özünü həm yunanlar, həm də fransızlar, həm bütpərəst türklərə qarşı qoyan "İslam aləmi" də dini baxımdan vahid deyildi. Şiə/teist/, kərmat/ateist/ və sufi /panteist/ təlimləri həm bir-birinə, [100-101] həm də İslamın ortodoksal məzhəbinə- sünniliyə çox az bənzəyirdi. Lakin xristian-avropalılar da bir-birilə heç dost deyildilər. Amma müsəlmanlar, yaxud bütpərəstlərlə toqquşma zamanı onlar dərhal ümumi dil və qarşılıqlı güzəşt yolları tapırdılar. Bu, məsələn, o deməkdir ki, benesiyalılar genuyaiıiarla vuruşsalar da, bu, yalnız ərəb və ya bərbər-müsəlmanlarla üzləşənə qədər davam edirdi. Ümumi düşməni görən keçmiş rəqiblər onun üstünə birlikdə atılırdılar.

Tarixdən məlumdur ki, çox vaxt amansız müharibələr yaxın qohumlar arasında baş verir. Bununla belə, onlar böyük sistemlər səviyyəsində aparılan müharibələrdən köklü şəkildə fərqlənir. Sonuncu halda düşmən yabançı, mane olan və aradan götürülən bir şey kimi nəzərdən keçirilsə də, şəxsi hisslər- qəzəb, nifrət, paxıllıq və i.a. heç də ortaya çıxan qəddarlığın səbəbinə çevrilmir. Sistemlər bir-birindən nə qədər uzaq durursa, qarşılıqlı qırğın bir o qədər soyuqqanlı şəkildə aparılaraq, təhlükəli bir ova bənzəməyə başlayır. Pələng və timsaha isə acıqlanmaqmı olar? Əksinə, sistem daxilindəki mübarizənin məqsədi rəqibi məhv etmək yox, üzərində qələbə çalmaqdır., çünki rəqib də sistemin bir hissəsini təşkil edir və onsuz sistem mövcud ola bilməz. Belə ki, Florensiya gibellinlərinin başçısı Farinata delyi Uberti vətəninin düşmənlərə qələbə çalmaqda yardımçı olsa da, Florensiyanın məhvinə yol vermədi. O bildirdi: "Mən bu şəhərlə burada yaşamaq üçün döyüşürdüm. "Arbiya onun düşmənləri -Florensiya qvelflərinin qanından al rəngə boyandıqdan sonra Farinata delyi Uberti ömrünün axırına qədər bu şəhərdə yaşadı.

Lakin bu hələ harasıdır! Venesiyalılar məşhur kibellin Etselino da Romananın qardaşı Alberriqo ilə daha sərt davrandılar. 1260-cı ildə o, Trevizo yaxınlığındakı qəsrini venesiyalılara təsləm etdikdən sonra altı oğlu gözü önündə qətlə yetirildi, özünün boynu vuruldu, arvadı və qızı diri-diri yandırıldı. Bu mənasız qəddarləq nəyin naminə idi?

Belə halları başa düşmək üçün dərk etmək lazımdır ki, "qvelflər və gibellinlər - arxasında istənilən məna gizlənə bilən cəbri işarələrdir".39 Belə hesab olunur ki, gibellinlər feodal, qvelflərsə burger olmuşlar. Lakin bir sıra şəhərlərin popolonları gibellinlərin tərəfində idilər, bəzi gvelflər gibellin olurdular və əksinə, elə də olurdu ki, hər iki partiya ərəblər, yaxud yunanlar əleyhinə birgə çıxış edirdilər. Genuya və Venetsiya kimi iri şəhər - respublikalar [101-102] sırf siyasi mənafelərini rəhbər tutaraq, dəfələrlə bir düşərgədən digərinə keçmişlər. 40 Bəs qan nə üstündə tökülürdü?

Sistemin bütövlüyünün qorunub-saxlanması üsulları dövrdən, daha doğrusu- etnogenezin mərhələsindən asılıdır. Gənc sistemlərdə elementlər kifayət qədər gərgin, hətta ehtiraslı şəkildə təmasda olur ki, bu da toqquşmalara gətirib çıxarır. Tez-tez qanlı toqquşmalar bir təbəgə daxilində baş verir və nə sosial təbəgəyə, nə də sinfi mşnaya malik olmur: nümunə - İngiltərədə Al və Ağ qızılgül arasında, Fransada isə armanyaklarla burqunlar arasındakı müharibələr. Lakin bu daxili çəkişmələr etnik sistemin və dövlətin bütövlüyünü əhalinin biganəliyindən daha yaxşı dəstəkləyir. İkinci halda yaşamaq asan olsa da, etnoslar parçalanır və bir vəhdət kimi yox olub gedir.

Artıq qeyd etdiyimiz kimi, bir çox hallarda etnoslar dövlət qurumları ilə eyniyyət təşkil etmir: bir etnos müxtəlif dövlətlərdə və müxtəlif etnoslar bir dövlətdə yaşaya bilər. Bəs biz onları hansı mənada sistem kimi şərh edə bilərik?

İki ideal sistem tipinə bölgü qəbul edilib: sərt və korpuskulyar, yaxud diskret. Sərt sistemlərdə bütün hissələr /elementlər/ bir-birinə elə sıx uyğunlaşdırılıb ki, normal fəaliyyət göstərmək üçün onların hamısının eyni vaxtda mövcud olması gərəkdir. Korpuskulyar sistemlərdə elementlər azad şəkildə təmasda olur, asanlıqla eynilərilə əvəzlənir və bu zaman sistem nəinki fəaliyyətdən qalmır, hətta sonradan bərpa edilmək şərtilə, elementlərdən bəzilərinin itirilməsinə də yol verir. Bərpa prosesi baş vermədikdə isə, sistemin sadələşməsi gedir ki, bunun da limiti sistemin məhvidir.

Sistemin digər bölgüsü də mümkündür: açıq-aramsız enerji alan və mühitlə müsbət və mənfi entropiya mübadiləsi edənlər; qapalı - yalnız ilkin qüvvəsini potensial mühitin potensialı ilə bərabərləşənə qədər sərf edənlər. Hər iki səciyyələndirməni qarşılaşdıran zaman sistemlərin dörd variantı mümkündür: 1/ sərt-açıq; 2/sərt-qapalı; 3/korpuskulyar-açıq; 4/korpuskulyarqapalı. Bu bölgü şərtidir, çünki fəaliyyətdə olan istənilən sistem hər iki tipin əlamətlərini özündə birləşdirir. Lakin bu və ya digər qütbə yaxın olduğundan, bölgü də əməli cəhətdən doğrudur, çünki sistemləri elementlərin qarşılıqlı tabeçiliyinə görə təsnifləmək imkanı verir.

Həm dövlət, həm sosial, həm mədəni, həm də etnik tarixi araşdırarkən, təsvir edilən tiplərin yalnız sərt və ya yalnız diskretlərdən başqa, bütün çeşidinə rast olunur. Səbəbi də odur ki, birincilər həyat qabiliyyətindən məhrumdur: sərt sistemlər zədə aldıqdan [102-103] sonra özünübərpaya qadir deyil, diskret lərsə xaricdən zərbələrə müqavimət göstərmək qabiliyyətindən məhrumdur. Buna görə də, həqiqətdə biz müxtəlif sərtlik dərəcəsinə malik sistemlərlə üzləşirik, həm də insan əməyi ona nə qədər çox şey bəxş edərsə, sərtlik bir o qədər çox, sistemin yaranmasında onun elementlərini daim yeniləşdirən təbiət proseslərinin təşəbbüsü çox olduqca isə bir o qədər az olur. Son hədd texnosferlə biosferin qarşılaşdırılmasıdır.

Bəs insan orqanizminin özü təbiətin bi hissəsi olduğu halda, biosferlə texnosferin sərhədi haradadır? Güman ki, sosiosferlə /texnosfer/ biosferin sərhəddi insan bədəninnin yalnız xaricindən deyil, daxilindən

də keçir. Lakin buna görə farqlər yox olmur. Əksinə, biz burada sosial olanla biolojinin qarşılıqlı təmasının real məqamının izinə düşmüşük. Təbiətin bu müstəqil hadisəsi hamıya yaxşı məlum olan etnosdur.

İdealda etnos - korpuskulyar sistemdir, lakin qonşular tərəfindən məhv edilməmək üçün onu təşkil edən adamlar etnosa münasibətdə sərt yardımçı sistemlər olan özündə formalaşan, yaxud əxz edilmuş institutları quraşdırırlar. Misal üçün, nəsildə ağsaqqalların hökmranlığı, ov və ya müharibə vaxtı başçılıq, ailəyə münasibətdə öhdəliklər, nəhayət, dövlət yaradılması buna nümunədir. Beləliklə, sərt sistemlər - sosial-siyasi qurumlardır: dövlətlər, qəbilə ittifaqları, klanlar, drujinaçılar və i.a. Hər iki tipli sistemin, yəni etnosla dövlətin, yaxud qəbilə ittifaqının üst-üstə düşməsi, təbii görünsə də, məcburi deyil. Qədim dövlətlərin rəngarəng etnosları birləşdirən möhtəşəm imperiyalarını, yaxud etnosların orta əsrlərdəki feodal pərakəndəliyini xatırlayaq. Görünür, əlaqələnmənin qeyri-adiliyi də üst-üstə düşmələr kimi təbiidir. Hər iki tipli sistemlər dinamikdir, yəni tarixi zamanda yaranır və yox olurlar. Yalnız dəyişməsi xarici təsirlərlə bağlı olan homeostatik etnik sistemlər daxili istisna təşkil edir. Lakin unutmaq lazımdır ki, homeostaz yalnız sistemi yaradan və irəlilədən qüvvələri tükənən gərgin inkişafdan sonra yaranır. Buna görə ststikanı ləngidilmiş ətalətli hərəkət kimi qavramaq lazımdır. Onun limiti /son həddi-tər. / isə, demək olar ki, əlçatmaz olan sıfırdır. [103-104]

## VIII. SUBETNOSLAR

Etnosun strukturu. Etnosun strukturu həmişə bu və ya digər dərəcədə mürəkkəbdir, lakin etnosun dayanıqlılığını təmin edən də elə məhz mürəkkəblikdir ki, etnos onun sayəsində iğtişaş, hərc-mərclik və dinc tənəzzüllə dolu əsrləri yaşamaq imkanına malik olur. Etnik struktur prinsipini subetnik qrupların qarşılıqlı iyerarxik tabeliliyi adlandırmaq olar. Subetnil qruplar dedikdə, müşahidə edilə bilən bir bütöv olan etnosun daxilində yerləşən və onun birliyini pozmayan taksonomik vahidlər anlaşılmaıdır. İlk baxışda, ifadə edilən tezis bizim etnosun elementar bütöv kimi mövcudluğu haqqında müddəamıza ziddir. Lakin xatırlayaq ki, hətta molekul atomlardan, atomlar isə elementar hissəciklərdən ibarətdir ki, heç də hər hansı - molekulyar, atom və hətta subatom - səviyyədə bütövlük haqqında iddiaları təkzib edək.

Tver quberniyasından olan karel kəndlərində özünü karel, Moskvaya gəldikdən sonra isə rus adlandırır, çünki kənddə özünü ruslara qarşı qoymağın mənası vardı, şəhərdə isə yox - məişət və mədəniyyətdəki fərqlər o qədər cüzidir ki, itib gedir. Lakin bu, karel deyil, tatar olsaydı, özünü tatar adlandırmaqda davam edərdi, çünki din ayrılığı ruslarla etnooqrafik fərqləri daha da qüvvətləndirmişdir və onlar o qədər də kiçik deyil ki, səmimi şəkildə özünü rus elan etsin. Qərbi Avropa, yaxud gedib Çinə çıxan tatar oralarda rus sayılır və özü də buna etiraz etməzdi. Yeni Qvineyada isə onu ingilis, yaxud holland “tayfasından” olmayan avropalı kimi qəbul edərdilər. Bu misal etnik diaqnozlaşdırma və bununla da demoqrafik statistika və etnoqrafik xəritələr üçün çox mühümdür. Axı, sonuncuları tərtib edərkən, mütləq yaxınlaşmanın qayda və dərəcəsi barəsində razılaşmaq gərəkdir. Əks halda, etnosun struktur elementi kimi fəaliyyət göstərən etnosları fəaliyyətdə olan etnoslardan fərqləndirmək mümkün olmayacaq.

İndi isə etnosların qarşılıqlı tabeçiliyinə diqqət yetirək. Misal üçün, monolit etnosa parlaq nümunə olan fransızlar, artıq deyildiyi kimi, breton keltlərini, bask mənşəli qaskonluları, almanların xələfləri olan lotaringiyalıları və provansalları - roman qrupuna mənsub müstəqil xalqı əhatə edir.

“Fransız” etnik adlarının sənədlərdə ilk dəfə qeydə alındığı IX əsrin ortalarında sadalanan bütün xalqlar, həmçinin bir sıra digərləri də - burqunlar, normanlar, savoyarlar, akvitanlar hələ vahid etnos təşkil etmirdilər və bizim hazırda fransız adlandırdığımız [104-105] etnosu yalnız min illik etnogenez prosesindən sonra yaratdılar. Lakin qovuşma prosesi heç də lokal adət, ənənə, ayin və i.a. cilalanmasına səbəb olmadı. Onlar fransızların etnik bütövlüyünü pozmayan əyalət xüsusiyyətləri kimi qorunub saxlandı.

Fransada biz etnik inteqrasiyanın nəticələrini xüsusilə aydın şəkildə müşahidə edirik, çünki Reformasiya dövrü hadisələrinin gedişi ona gətirib çıxardı ki, XVIII əsrdə fransız-dugenotlar vətənlərini tərk etməyə məcbur oldular. Həyatlarını xilas etməklə, onlar etnik mənsubiyyətlərini itirdilər və alman zadəganlarına, holland burgetlərinə, Cənubi Afrikanı müstəmləkəyə çevirən çoxsaylı burlara çevrildilər. Fransız etnosu onlardan onsuz da rəngarəng klan strukturunun gərəksiz elementləri kimixilas oldu. Lakin sosial-siyasi bütöv kimi Fransa heç də zəifləmədi, əksinə, bir qədər qüvvətləndi də. Qatı qugenotların qoyub getdikləri bağlar və zəmilər etiqadsız adamlaraqismət oldu və onlar XVIII əsrdə artıq daxili müharibələrdən ziyan çəkməyən təsərrüfatı bərpa etdilər. Yaranmış etnik monolitik Napoleona əhalini səfərbər edərək, ən çoxsaylı və itaətkar ordu yaratmaq imkanı verdi ki, onun məğlubiyyətindən sonra əyalət separatizminin qalıqlarının mövcud olmasına baxmayaraq belə, Fransa parçalanmadı.

Etnosun öz-özünü nizamlaması. Bizim etnosa öz-pzünü nizamlamaq xassəsi aid etməyimiz qəribə görünə bilər. Lakin etnos tarixi inkişafında dinamikdir, deməli, uzun sürən hər hansı proses kimi, o da öz varlığına dəstəkləmək məqsədilə ən az enerji məsrəfi ilə kəsilib atılır və sönür. Bütün canlı sistemlər məhv edilməyə müqavimət göstərirlər, yəni onlar antientropikdirlər və xarici şəraitə mümkün olduğu qədər uyğunlaşırlar. Strukturun müəyyən mürəkkəbliyi etnosun xarici zərbələrə qarşı davamiyyətini artırdığı üçün, təəccüblü deyil ki,etnosun doğulduğu zaman kifayət qədər şəbəkəvari olmadığı yerdə, məsələn, XIV-

XV əsr Velikorossiyasında o özü subetnik təsisatlar şəklində fərqlənməyə başlayır, həmin təsisatlar isə bəzən zümrələr şəklində formalaşır.41 Cənub ucqarlarında kazaklar, şimalda isə pomorlap ayrıldılar. Sonralar onlara yeni torpaqlar kəşf edənlər /ilk baxışda, sadəcə olaraq, müəyyən məşğuliyyət növü nümayəndələri/ və onların ardınca yollanaraq, Sibir aborigenlərinə qarışıb sibirlilər, yaxud "çeldonldr" subetnosunu yaradanlar əlavə oludu. Kilsə təfriqəsi daha bir subetnik qrupun - etnoqrafik cəhətdən rusların əsas kütləsindən fərqlənən staroobryadçıların /köhnətəriqətçilər/ meydana çıxmasına [105-106] səbəb oldu. Tarixin gedişində bu subetnik qruplar etnosun əsas əsas kütləsində həll olsalar da, eyni zamanda yeniləri də fərqləndi.

Məsələn, XVIII əsrin II yarısında varlı zadəganların bir hissəsi öz uşaqları üçün fransız - quvernyorlar tutmağa başladılar. 1789-cu ildən sonra fransızların Rusiyaya axını qüvvətləndi və dil, zövq və davranışla yanaşı, fransız dünyagörüşü də yayılmağa başladı ki, bu da subetnik səviyyədə yeni davranış stereotipi yaratdı. Mühacirlər Napoleonla müharibə illərində rusları dəstəkləyirdilər. Sonralar isə Avropa mədəniyyətini öyrənmək ənənəsi öz ətalətilə davam etdi, çünki həyatın, yəni etnogenezin əsas axını öz əvvəlki məcrasına qayıtdı. Avropalaşmış "oneginlərin" xələflərini çexovvari "albalı bağlarında" başa vuraraq, həyatdakı yerlərinin digər subetnoslara verdilər.

Subetnosları fərqləndirmək çox asandır, çünki XIX əsrin sonunun etnoqrafiyası məhz bu səviyyədə işləyirdi. Etnoqraflar məişət mərasimlərini, yəni əhalinin davranış stereotipi paytaxtdakından kəskin fərqlənən qruplarını, məsələn, Olonets kəndlilərinin həyatını araşdırsalar da, Peterburq professorlarını nəzərdən qaçırırdılar. Çox nahaq yerə, çünki indiki dövrümüz üçün bu çox faydalı və maraqlı olardı. Hazırda isə, A.P.Çexovu oxumalı, üstəlik də onun subyektivliyini nəzərə alıb, düzəliştlər etməli oluruq.

Qısası, subetnoslar bilavasitə müşahidə olunur, çünki, bir tərəfdən, onlar etnos daxilindədir, digər tərəfdən- cubetnik davranış stereotiplərinin daşıyıcıları bütün digərlərindən ədaları, davranışları, hisslərini izhar etmək üsulları və s. ilə fərqlənirlər. Subetnoslar müxtəlif tarixi şərait nəticəsində meydana çıxır, bəzən zümrələrlə üst-üstə düşür, lakin heç vaxt siniflərə müvafiq gəlmir. Onlar nisbətən ağrısız əriyib yox olaraq, xaricən bənzəməyən, lakin eyni funksiyanı və taleyə malik digərlərilə əvəzlənirlər. Bu subetnik qurumların vəzifəsi-daxili qeyri-antaqonik rəqabət vasitəsilə etnik birliyi dəstəkləməkdir. Görünür, bu mürəkkəblik etnik sistem mexanizminin üzvi hissəsidir və etnogenez prosesinin özünün gedişində yaranır. Etnik sistem sadələşərək subetnoslsrın sayı birə qədər azalır və bu, etnosun persistent /həddən artıq mövcud olma/ vəziyyəti göstərir. Bəs etnosların meydana çıxma mexanizmi necədir? Cavab vermək üçün bizim iki dərəcəyə - konsorsiya və konviksiyalara böldüyümüz taksonomik vahidlərin yerləşdiyi aşağı pilləyə enməliyik. Bu dərəcələrə kiçik qəbilələr, klanlar, artıq adı çəkilən korporasiyalar, lokal qruplar və bütün dövrlərə aid olan digər insan qrupları daxildir. [106-107]

Konsorsiya və konviksiya. Terminlər barəsində şərtləşək. Biz ümumi tarixi tale eyniliyinin birləşdirdiyi adamlar qrupunu konsorsiya adlandırırıq. Bu sıraya "dərnəklər", artellər, quldur dəstələri və digər bunlara bənzər qeyri-sabit birliklər daxildir. Əksər hallarda onlar parçalansalar da, bəzi hallarda bir neçə nəslin ömrü boyu mövcud olurlar. Belə hallarda onlar konviksiyalara, yəni eynixassəli məişət və ailə əlaqələrinə malik insan qruplarına çevrilirlər. Konviksiyalar az rezistentdir, onları ekzoqamiya ayırır, suksessiya, yəni tarixi əhatənin kəskin dəyişməsi qatıb-qatışdırır. Salamat qalan yeni torpaq axtaranlar-mətin sibirliləri doğuran cəsur səyyahların və köhnətəriqətçilərin konsorsiyaları belələrindəndir. Amerikadakı ilk koloniyaları ingilislərin konsorsiyalara çevrilmiş konviksiyaları yaratmışdı. Yeni İngiltərənin əsasını puritanlar, Massaçusetsin əsasını - bartistlər, Pensilvaniyanin əsasını - kvakerlər, Merilendin əsasını-katoliklər, Virciniyanin əsasını - royalistlər, Corciyanın əsasını isə Hannover sülaləsinin tərəfdarları qoymuşlar. İngiltərədən ya Kromvellə, ya da Stuartlarla barışa bilməyən konsorsiyalar yollanaraq, keçmiş ziddiyyətlərin əhəmiyyətsiz olduğu yeni zəmində yeni qonşularına: fransızlar və hindulara qarşı çıxan konviksiyalara çevrildilər.

Yeni torpaq axtaranlar və köhnətəriqətçilər öz etnoslarının tərkibində qaldılar, lakin ispan konkistadorları ilə ingilis puritanlarının xələfləri Amerikada xüsusi etnoslar yaratdılar. Odur ki, məhz elə bu səviyyəli etnik divergensiyanın limiti hesab etmək olar. Həm də qeyd etmək lazımdır ki, vaxtilə ən qədim tayfalar da, güman ki, elə bu yolla yaranmışlar. Təcridolunma şəraitində fəal adamların ilkin konsorsiyası etnosa çevrilir ki, biz erkən dövrlərdə bunları "tayfa" adlandırırıq.

Konsorsiyanın taksonomik səviyyəsində konsorsiya başa çatır, lakin ehtiyac olduğu halda, qarşılıqlı tabeçilik prinsipi bundan sonra da fəaliyyətdə ola bilər. Bir səviyyə də aşağıda ətrafla bağlı olan tək adamı mqşahidə edirik. Bu, böyük adamların tərcümeyı-halı üçün faydalı ola bilər. Bir qədər də aşağı ensək, insanın bütün həyatı ilə deyil, ondan bir epezodla, məsələn, açıqlamalı olan cinayətlə rastlaşarıq. Daha da aşağıda isə elə böyük nəticələr verməyən təsadüfi emosiyalardır. Lakin biz unutmamalıyıq ki, şeylərin təbiətində olan bu sonsuz bölqnmə qarşıya qoyulan məsələnin həlli üçün əhəmiyyətli olan verilmiş səviyyədə bütövləri aramaq zərurətilə aradan götürmür. [107-108]

# IX. SUPERETNOSLAR

Superetnosun reallığı- "firənglər". Biz, müəyyən bölgədə meydana çıxmış, iqtisadi, ideoloji və siyasi təmaslı qarşılıqlı bağlı olan etnoslar qrupunu superetnos adlandırırıq. Qeyd edək ki, göstərilən bağlılıq həmin etnoslsr arasında toqquşmaları heç də istisna etmir. Lakin, misal üçün - avropalıların XVI-XIX əsrlərdə Amerika aborigenlərilə təmasları superetnos səviyyəsindəki toqquşmalardan fərqli olaraq, məhvə və ya köləliyə gətirib çıxaran superetnos daxilindəki müharibələr qarşılıqlı güzəşt əldə etməyə meylli olmaqla, sadəcə müvəqqəti üstünlük əldə olunmasına gətirib çıxarır /orta əsrlər Avropasında qvelflərlə kibellinlərin toqquşması; yaxud qədim rus knyazlarının daxili çəkişmələri/. Etnos kimi, superetnos da üzvlərinin simasında özünü bütün digər superetnoslara qarşı qoyur. Lakin etnosdan fərqli olaraq, superetnos divergensiyaya qadir deyil. Superetnos ölçüləri, qüdrəti ilə deyil, yalnız və yalnız etnoslararası yaxınlığı ilə təyin olunur. Bu tezisi müvəqqəti olaraq sübutsuz qəbul etməsini rica edir və kitabın sonunda dəlillər göstərəcəyimə söz verirəm.

İlk baxışda bu, qəribə görünür, çünki superetnosların haradan meydana çıxdıqları aydın deyil. Güman ki, onların meydana çıxmasının xarakteri həm etnoslar, həm də subetnik bütövlərinkindən fərqlidir. Lakin əgər belədirsə, onda mütləq fərz olunmalıdır ki, etnosların mənşəyinin sirri də məhz onun həllinin bir pillə yüksəkdə olması üzündən açılmayıb. Deməli, bizim əyani şəkildə müşahidə və hiss etdiyimiz bu və ya digər etnos fenomeni sadəcə olaraq onun şəbəkəvari sistem bütövünün elementi kimi daxil olduğu superetnosun variantından başqa bir şey deyil. Bu, sütun, yaxud kariatidanın (insan, daha çox qadın şəklində qaydalar,-tər.) sarayın bütövünə daxil olmasına bənzəyir, halbuki, kariaditanı yaxından müşahidə etmək mümkün olduğu halda, sarayı bütövlükdə yalnız uzaq məsafədən görmək olur. Lakin bir kariatidası olmayan saray öz funksiyasını yerinə yetirməkdə davam edir. Heykəl isə ən yaxşı halda muzey eksponatına, ən pis halda isə daş qırıntılarına çevrilir. Bunu tarixdən alınan örnəklər əsasında açıqlayaq.

Superetnik vəhdət də subetnik vəhdət qədər realdır. Artıq orta əsrlərin əvvəlində fransız etnosu Chretiente adlanan bütövə daxil idi. Bu bütöv Avropanın katolik ölkələrini əhatə edirdi ki, onların da əhalisinin bir hissəsi ariçilər (burqundlar), bir qismi isə [108-109] bütpərəstlər (frislər) idi. Lakin o dövrdə belə xırda şeylər heç kimi ilgiləndirmirdi. Karolinqlərin birləşdirdikləri böyük ərazidə iki iri etnik qrup məskunlaşmışdı: Latındilli voloxlar (welskes) və germandilli (teutskes). Böyük Karlın nəvələri dövründə bu etnoslar öz hökmdarlarını imperiyanın polad halqəsini qırmağa məcbur etdilər və 841-ci ildə Fontan yaxınlığında Strasburqda Daz Karl və Alman Lyudovik İmperiyanın milli bölgüsünü qoruyacaqlarına and içdilər.

Lakin bu yalnız ilk baxışda parçalanma idi. Bretan, Akvitaniya və Provans Qərb firəng krallığından ayrıldı, kiçicik Fransa isə Maasla Luara arasında yerləşdi. Bu "ərazi inqilabi" (42) onunla sonuclandı ki, Karolinqlərin qanuni tevton sülaləsi Parisin özündə devrildi və 895-ci ildə burada Anjuyli Robertin oğlu qraf Ed hakimiyyətə gəldi. Karolinqlərin yüz il ölkənin parçalanmasına qarşı mübarizə aparsalar da, geniş sapınma spektri əsasında meydana çıxan etnoslar inadla onlara tabe olmaqdan imtina edirdilər. X əsrdə başa çatmış "feodal inqilabı" nəticəsində Qərbi Avropa siyasi baxımdan parçalansa da, müsəlmanlar - ərəblərə, pravoslavlar-yunan və irlandlara, həmçinin, bütpərəstlərə slavyan və normanlara qarşı çıxan superetnik bütöv kimi qalmaqda davam edirdi. Sonralar o əvvəlcə anqlosakslar, daha sonra isə qərbi alavyanlar skandinavlar və macarlara katolikliyi aşılamaq yolu ilə onları da ehtiva etməklə genişləndi. Etnik şəbəkəvarilik superetnosun inkişafına mane olmurdu.

Superetnosun yaranması- Bizans. İkinci örnək. Qədimdə Aralıq dənizi hövzəsində inkişaf prosesində Latsium və Finikiya şəhərlərini də ehtiva etmiş vahid ellin mədəniyyəti mövcud idi. Etnik baxımdan o, Qərbi Avropa mədəniyyətini xatırladır, çünki əsas ellin özəyi çoxtərəfli ellin mədəniyyətinin bütün variantlarını ehtiva etmir. Əlbəttə, Roma, Karfagen, Rella öz lokal xüsusiyyətlərinə malik olmaqla, müstəqil etnoslsr idi. Lakin superetnik anlamda ellin mədəniyyətinin geniş çevrəsinə daxildilər. Əslində, bu heç də yeni bir şey olmasa da, lakin bizim üçün çıxış nöqtəsi kimi önəmlidir. Roma hökmdarlığı etnik cilalanmaya şərait yaradırdı, yunan dilinə latın dililə bərabər hüquqlar verilməsi isə ona gətirib çıxardı ki, Aralıq dənizi hövzəsinin demək olar ki, bütün əhalisi bir etnosda birləşdi.

Lakin eramızin I əsrində yeni, heç kimə bənzəməyən adamlar meydana çıxdı və sonrakı iki əsr ərzində həmin adamlar yeni bütöv şəklində formalaşdılar. Artıq ilk dövrlərdə onlar özlərini [109-110] "bütpərəstlərə", yəni bütün başqalarına qarşı qoydular və həqiqətən də onlardan fərqlənməyə başladılar. Əlbəttə bu anatomik, yaxud fizioloji əlamətlərə görə deyil, davranış xarakterinə görə fərqlənmə idi. Onlar bir birinə başqa cür münasibət bəsləyir, fərqli şəkildə düşünür və həyatda qarşılarına müasirlərinə mənasız görünən məqsədlər qoyurdular: axirət dünyasındakı səadətə can atırdılar. Ellin dünyasına asketizm (tərki-dünyalıq) yad idi- yeni adamlar Fivaidani yaratdılar; yunanlar və suriyalılar axşamları teatrlarda keçirir və "ari rəqsindən" (qədim striptiz) həzz alırdılar - bunlarsa söhbət etmək üçün toplanış və sakitcə evlərinə dağılışırdılar; artıq bir neçə əsr idi ki, ellinlər və romalılar öz allahlarını ədəbi obrazlar sayaraq, onların

kultunu dövlət ənənəsi kimi qoruyub saxlamışdılar, məişətdə isə çoxlu nişanələri rəhbər tuturdular - yeni moizəçilər və neofitlər axirət həyatını tam reallıq sayır və ona hazirlaşırdılar. Roma hökumətinə düşmən münasibət bəsləməsələr də, onun ilahi mənşəyini qəbul etmir və çox tez-tez buna görə həyatlarını qurban versələr də, imperatorların heykəllərinə baş əymirdilər. Onların davranışlarının təfərrüatları cəmiyyətin strukturunu dəyişməsə də, yeni adamlar etnik bütövdən kənarda qalır, bununla da şəhərin ümuma bənzəməmək prinsipinin inkarından çıxış edən aşağı təbəqələrinin qatı nifrətini qazanırdılar. Bu səbəbdən də həmin təbəqələr onların məhvini tələb edirdi.

Yaranan nifrətin səbəbinin etiqaddakı fərq olduğunu söyləmək düzgün olmazdı, çünki o dövrdə savadsız büdparastlərin heç bir möhkəm və səlis əqidəsi yox idi, yeni təbiətli adamjarda isə onlar fərqli idi. Lakin nədənsə Mitra, Kibela, Heliosla münaqişəyə girməyən romalılar və ellinlər üçün yalnız İsa istisna təşkil edirdi. Güman ki, ideoloji, yaxud siyasi əlaməti deyil, ellin mədəniyyəti üçün həqiqətən də yeni və qeyri-adi olan davranışı haşiyə çıxmaq gərəkdir.

Bildiyimiz kimi, saysız-hesabsız itkilərə baxmayaraq, yeni bütöv qələbə çaldı. Qnostiklər yox oldular, manihilər bütün dünyaya səpələndilər, markonitlər məhdud icmada qapandılar (sonralar pavlikian adlanırdılar). Yalnız xristian kilsəsi yaşamağa qabil oldu və öz adı olmayan bütöv yaratdı. Biz şərti olaraq onu bizans, yaxud ortodoksal xristianlıq adlandıracağıq. V əsrdə Roma imperiyası hüdudlarını da aşaraq, bir sıra qonşu ölkəni də bürüyən ilkin xristian icması əsasında özünü “romellər” adlandıran etnos yarandı. V əsrdən X əsrədək bolqarlar, serblər, macarlar, çexlər, ruslar və alanlar pravoslavlığı qəbul etdilər və pravoslav dünyasının [110-111]superetnik mədəni bütövü formalaşdı. O XIII əsrdə xaricdən “firənglər” (43), “türklər” və monqollar tərəfindən endirilən zərbələr altında süquta uğradı. XIV əcrdə velikoros xalqının intibahı və ilgili pravoslav ənənəsi də yenidən dirçəldi.

Lakin Moskva Rus dövlətini Bizansın ucqarı hesab etmək olmaz, çünki qüvvətli yerli ənənələr Rus torpağını müstəqil bütövə çevirdi. Ən önəmli məsələ isə budur ki, Ümumdünya kilsəsindən, V əsrdə cərəyanlar - nestorçular və monofizitlər Ümumdünya kilsə Toplantılarında lənətlənmələrinə rəğmən, pravoslavlarla ümumiliklərini hiss etməkdə idilər, mübahisə edən tərəflərdən heç birinin kafir adlandırmadığı 1054-cü ilin sadə kilsədaxili təfriqəsi isə vahid superetnik bütövün artıq baş vermiş parçalanmacının yalnız qeydə alınması idi: katoliklr “Xristian dünyası” sisteminin yeni strukturuna çevrildi. “Katolik” Avropasının arealı “Bizans” arealından onda məskunlaşmış adamların davranışının xarakterinə görə fərqlənir. Qərbi Avropada orta əsr Nationesləri meydana çıxdı ki, müasir millətlər, cəngavərlər, şəhər kommunaları, Avropa etnosunu dünyanın digər etnoslarından fərqləndirən hər şey də bundan törədi.

Amma 1054-cü il təfriqəsindən sonra da xristianlığın müddəası olduğu kimi qaldı, deməli məsələ onda deyil və din tarixi həssas bir indikator kimi həm sosial, həm də etnik tarixin dərinliklərdə baş verən proseslərini yalnız əks etdirir.

Superetnik çat. - ərəblər VII-X əsrlərdə. Ərəblər o qədər qədim xalqdır ki, eramızın əvvəlində keçmiş etnik vəhdət hissi artıq itib getmişdi. Ən savadlı ərəblər Bizansa məxsus Suriyada, yaxud İranın hakimiyyəti altında olan İraqda yaşayır, bu imperiyaların siyasi və mədəni həyatında iştirak edirdilər.

Qədim ərəblərin mənşəyinə yalnız xristianların dini kitablarındakı afsanələr dəlalət edir. Tarixi mənbələr isə göstərir ki, təqribən, 1000 il ərzində Ərəbistanda bədəvilər və bağçılıqla məşğul olaraq, pərakəndə halda yaşayan, yeri düşəndə ticarətə də baş qoşan və öz-özünə ad belə qoymayan tayfalar məskunlaşmışdı. Onların məişəti və qəbilə-tayfa quruluşu daha çox natural təsərrüfatla, deməli, məskunlaşdıqları ölkənin landşaftı ilə şərtlənirdi. Heç bir birləşmə meyli meydana çıxmırdı, ordunun qabiliyyəti ən aşağı səviyyədə idi. Bu səbəbdən VII əsrdə Ərəbistan üç qonşu ölkənin-Roma imperiyası, Parfiya- Sasani İranının və Abissiniyanın (Ağsum) rəqabət meydanına çevrilmişdi. Ərəbistanın [111-112] özündə ən fəal və rezistent olanları Hicaz və Yəmənin yəhudi icmaları idi.

Eramızın VI əsrində Ərəbistanda poeziyanın qəfil yüksəlişi müşahidə olunur ki, bunu fəallaşma modusu kimi nəzərdən keçirmək gərəkdir. Ehtiraslar cuşə gəlmədən yaxşı şer qoşmağın mümkünsüzlüyünün sübuta ehtiyacı varmı? VII əsrdə Məhəmməd ciddi təkallahlılığı təbliğ etməyə başladı və ətrafına mərd, mətanətli, son dərəcə cəsur və fanatik dərəcədə sadiq adamlardan ibarət kiçik bir tərəfdarlar qrupu toplayaraq, ilk növbədə, bir rəqib kimi şairləri məhv etdi. Müsəlman icmasının üzvləri köhnə ailə, nəsil ilişkilərini qıraraq yeni, xüsusi bir kollektiv yaradırdılar. Bizans kimi, o da konfessional dominanta və etnogenetik təbiətə malik idi, çünki Məhəmməd müsəlmanların qul ola bilmədiklərini bildirərək, İsalm formulunu söyləyən yeni qulları öz icmasına qəbul etmişdi. Yəni etiqadın təbliğindən əvvəl etnik enerjinin toplandığı inkubasiya dövrü gəlirdi.

Yaranan konsorsiya hələ Məhəmməd və Əbubəkrin sağlıqlarında subetnosa şevrildi. 5-10 adamdan minlərlə adama qədər çoxalan müsəlman subetnosu bütün Ərəbistanı bürüyərək, ərəblərə təkallahlığı aşıladı. Laqeyd Məkkə tacirləri və səhrada yaşayan bədəvilər riyakarcasına İslamı qəbul etməyi ölümdən, yaxud qul olmaqdan üstün tütdular. Beləcə, davranış stereotipi dəyişmiş etnos yarandı və öz-özünə ad da verdi - “ərəblər”.

Tabe edilmiş və zahirən İslamı qəbul etmiş adamların qüvvəsindən yararlanan iknci xəlifə Ömər Suriya, Misir və İranı istila etdi, lakin artıq üçüncü xəlifə olan Osmanın dövründə yeni iman gətirənlər

dövlətdə yüksak vəzifilərə yol tapdılar və ilkin kollektivin dini çırpıntılarından şəxsi zənginləşmə üçün yararlandılar. Dinin qeyrətini çəkənlər Osmanı qətlə yetirsələrdə, bu, fanatik olmayanlar arasında hiddət doğurdu ki, nəticədə peyğəmbərin dostu Əli onun düşməninin oğlu Müaviyə arasında daxili çəkişmə başladı. Bu mübarizədə "yalançı müsəlmanlar" qalib gəldilər. Amma onlar siyasəti və rəsmi ideologiyada dəyişiklik etmədilər və İslam bayrağı altında istilalara rəvac verdilər. Müaviyənin xələflərinin - Əməvilərin dövləti Atlantik okeanından Hind okeanına qədər ərazidə bərqərar olaraq, yalnız ərəb deyil, Suriya, İran, Soqdiana, İspaniya, Afrika, Qafqaz və digər elementləri də ehtiva etdi.

Ərəblər xilafətinin çeşidli etnoslara məxsus əhalisinə öz dillərini və mənəvi mədəniyyətlərini (İslam) aşıladılar. İstila olmuş [112-113] xalqların əksəriyyəti ərəb dilini qəbul etdi, öz dilini dillərini qoruyub saxlayanlarda isə (məsələn, farslarda) ədəbi dildəki sözlərin yarıdan çoxu ərəb sözləri idi.

Amma artıq X əsrdə Xilafət qəbilə areallarına müvafiq gələn ayrı-ayrı vilayətlərə parçalandı. İdrisilər (789-926), Rüstəmilər (777-909) və Ziridləri (972-1152) bərbərlər, Buidləri (932-1062) Gilan və Dəyləm dağlıları, Səmaniləri, (819-999) taciklər dəstəklədilər və i.a. Hətta ərəblər özləri də parçalandılar. İspaniya ərəbləri Əməvilərin yaşıl bayrağını, İraq ərəbləri Abbasilərin qara bayrağını, Misir ərəbləri fatimilərin ağ bayrağını ucaltdılar, Bəhreynin bədəvi ərəbləri isə əvvəlcə icma, daha sonra isə kərmat dövləti yaratdılar. Bütün bunlar faktiki olaraq, etnoslar şəklində bir-birindən təcrid olundular.

Bir sözlə, IX-X əsrlərdə xilafətin başına Böyük Karl imperiyasının başına gələnlər gəldi: Ot asfaltı dağıdan kimi, etnosların canlı qüvvələri də həm xristian, həm də müsəlman imperiyalarının polad həlqələrini dağıtdı. Lakin hər iki halda siyasi parçalanma mədəniyyət və ədəbi dillərin (ərəb və latın) bir sıra elementlərinin məlum bənzərliyində əks olunmuş superetnik vəhdəti pozmadı. Müsəlman superetnosu onu törədən ərəb etnosundan qat-qat davamlə oldu. Artıq XI-XII əsrlərdə xilafət ideyasını türkmən-səlcuqlar, XIII əsrdə isə qul bazarlarında satın alınan və orduya qəbul edilən kumanlar (polovetslər) və Sudan zənciləri dəstəkləyirdi. Məhəmmədin silahdaşlarının yaratdıqları sistemin ətalət qüvvəsi çox möhtəşəm oldu.

İndi isə sualımızı verək: dini konsepsiyanı təsvir olunan prosesin əsas qayəsi hesab etmək olarmı? Xarici təzahür kimi - şübhəsiz. Lakin daxilən, məzmununa görə məsələ daha mürəkkəbdir. Öz fəlsəfi qayəsinə görə kərmatçılıq İslam, xristianlıq, hətta yəhudilikdən də çox fərqlənməsinə rəğmən, o, superetnik konstruksiyanın - müsəlman mədəniyyətinin deyil, hətta ərəb etnosunun öz daxilində, onun hüdudlarında yerləşir. Türk muzdluları və Mərakeş quldurları dinə bir o qədər də önəm verməsələr də, XI əsrdə sünni dindarlığını öz qılıncları gücünə qoruyub saxlayan məhz onlar idi. Xatırlayaq ki, Məhəmmədin əvvəl ərəb şairləri - bütpərəst, xristian, yəhudi - nəsli mövcuddu. Odur ki, poeziyanın çiçəklənməsi təsvir etdiyimiz prosesin başlanğıcı oldu. Bura vasitəçilik ticarətini, qul kimi satmaq məqsədilə zənci ovunu, tayfa başçılarının kondotyerliyi (muzdla vuruşma,- tər.) də əlavə olmalıdır. [113-114]

Lakin ərəb etnosunun yaranması prosesinin (suberetnik anlamda isə - bütün müsəlman mədəniyyətinin) əsas qayəsi yerində bünövrəsi Məhəmməd tərəfindən qoyulan İslam oldu ki, onun üçün özündən əvvəl gəlmiş ərəb poeziyasının çiçəklənməsi dövrü münbit bir zəmin təşkil etdi. Yeni dini sistemin qüdrətli irəliləyişi zamnı adi hal olan (özünəməxsus antiteza qismində) çeşidli küfr və dini - ideoloji nəzmunlu çalarların meydana çıxması əsas prosesin cərəyan etməsini daha da qüvvətləndirirdi. Daha sonra həm ərəb etnosunun öz hüdudlarında, həm də superetnik mədəniyyət çərçivəsində çeşidlı əqli həyat inkişaf etdi və elm, incəsənət, məişətin özünəməxsus formalarının inkişafına gətirib çıxardı. Təsvir etdiyimiz proses zahirən dini - ideoloji qayə ilə səciyyələnən subetetnosun formalaşmasına örnəkdir. Belə bütövlər elmə çoxdan bəllidir: onları bəzən "mədəni tiplər", bəzən "sivilizasiya" adlandırırlar.

İqtisadiyyatın çiçəklənməsinə, sosial ilişkilərin normallaşmasına, fəlsəfə, əsəbiyyat, coğrafiya və tibbin məhz bu dövrdə maksimum şah əsərlərinin meydana çıxmasına rəğmən, X əsrdə ərəb - müsəlman etnosunun enerjisi tükənməkdə idi. Ərəblər döyüşçülərdən şair, alim və diplomatlara çevrildilər. Onlar memarlıqda parlaq üslub yaratdılar, bazarları və məktəbləri olan şəhərlər saldılar, suvarma sistemləri qurdular və artmaqda olan əhalini ərzaqla təmin edən gözəl bağlar saldılar. Lakin ərəblər özlərini düşməndən müdafiə etməyi yadırğadılar. İstilalar dövrünü itkilər dövrü əvəz etdi.

Fransız normanları Siciliyanı müsəlmanların əlindən aldılar. Asturiya dağlıları Mərkəzi İspaniyanı ələ keçirərək, onu "qəsrlər əlkəsinə"- Kastiliyaya çevirdilər. Bizanslılar Suriyanı geri qaytardılar (Dəməşqdən savayı). Gürcülər Tiflisi. Ərəb qarnizonundan təmizlədilər. Xilas olmaq üçün türkmənlər, bərbərlər və taureqlərə müraciət etmek lazım gəldi. Onlar da özlərini yetirdilər: Əlmörrəvilər ispanları şimala sıxışdırdılar, səlcuqlar isə Ermənistan və Kiçik Asiyanı ələ keçirdilər. Amma gəlmələr heç də qara qəpik qədər də dəyərli saymadıqları ərəb etnosunu deyil, (45) superetnosu -"İslam dünyası"nı müdafiə edidilər, çünki o onlar üçün etno-mədəni qayə olmuşdu. Parçalanmaqda olan Xilafətin strukturlarına nüfuz edən Orta Asiya türkləri, Sudan zənciləri və vəhşi kürdlər orada bərqərar olmuş adət, ənənə, görüş və i.a. qavrayaraq, Məhəmmədin yaratdığı icmanın işinin davamçılarına çevrildilər. Səlibçilərin həmlələrini də məhz bu xalqlar dayandırdılar. [114-115] Bütün bunlarla yanaşı, mədəniyyət-insanı əllərinin bəhrəsi olan əsərlər qalmaqda idi və özününkişəfa qadir olmadıqdan, yalnız dağılmağa qabil idilər. Lakin dağılma ləng gedirdi və bu mədəniyyətin ecazkar qüvvəsi Afrika, Hindistan, Malayya arxipelaqı və Çində

yeni-yeni əraziləri fəth edirdi. Bu yerlərdə həmin mədəniyyət onu törədən etnosun yüksəlişindən sonra keçən 1000 illik bir dövrə sinə gərərək, dövrümüzə qədər qorunub saxlanmışdır.

X-XII əsrlərdə ithaq olunmuş etnoslardan əxz edilən bu qədər çoxsaylı yabançı elementləri qavrayan həmin mədəniyyət simasının dəyişərək, dəhşətli dərəcədə eybəcər və qeyri-adi formalar doğururdu. Ərəblərə etnik baxımdan yabançı olan müsəlmanlar şiə, ismaili, sufi, yaxud xarici görünüşünə görə mömin, daxilən isə orijinal və Mghgmmgdin silahdaşları olmuş ilk xəlifələrin dünyagörüşlərindən uzaq təlimlərin təbliğatçılarına çevrilirdilər. Bu dövrdə siyasi ziddiyyətlər konfessional (dini, - tər.) formalar altında çıxış etdiyindən, əks istiqamətdə - mədəniyyətdən etnogenezə doğru hərəkət etməklə hər hansı, məsələn, Aralıq Asiya və Uzaq Şərq etnoslarının etnik təmaslarını aşkarlamaq və səciyyələndirmək mümkündür. Müəlliflə oxucu etnoloji metodikanın daha bir neçə üsuluna yiyələndikdən sonra bu mərəkkəb problemə irəlidə xüsusi diqqət yetiriləcək.

Yuxarıdakı bütün örnəklər göstərir ki, superetnoslar tarixçilərin şərti konstruksiyaları yox, etnoslardan heç də az real olmayan bütövlərdir. Hərçənd ki, onların bir sıra xüsusiyyətləri var ki, bir qədər sonra onlara ayrıca müraciət edəcəyik. Beləliklə, artıq deyə bilərik ki, etnos kimi, superetnos da ondan bir pillə yuxarıda duran sistem vəhdətidir. Özlərini digər qrupa qarşı qoyan bir neçə superetnosun yaratdığı daha yüksək hiperetnik səviyyəli bütöv forması da mövcud ola bilər. Lakin onlar sadəcə olaraq, ötəri, qısamüddətli qurumlardır və bu səviyyədə araşdırmalar məqsədimizə müvafiq deyil.

## X. ETNOGENEZİN ALQORİTMİ

Etnik qalıqlar. Etnik tarix tarixi zamanda yox olaraq, hazırda mövcud olanlara əvəzlənmiş iyirmidən yuxarı etnosun adını çəkə bilər. Hələlik, məqsəd superetnosların yox olma mexanizmini təsvir etməkdir, onların yaranması və yayılmasından [115-116] isə ayrıca söz açılacaq. Önəmli bir amil kimi onu qeyd edək ki, çox vaxt tarixi proseslərin süquta uğratdığı superetnosların yerində öz çiçəklənmə və tənəzzül dövrlərini yaşamış adacıqlar qalır. Belə kiçik etnoslara basklar, albanlar, Qafqazdakı bir sıra etnoslar və çox maraqlı və çox sabit irokez etnosu örnək ola bilər. Şimali və Mərkəzi Amerikanın bir çox məhv və ya assimilyasiya olan etnoslarının əksəriyyətindən fərqli olaraq, irokezlər öz sayını (20 min nəfər), dilini və bütün irokez olmayanlara qarşı qoyulmaq xüsusiyyətlərini qoruyub saxlamışlar. Doğrudur, onlar məişət tərzini dəyişmiş, döyüşçülərdən "muzey eksponatlarına" çevrilmişlər.

Qalıq etnosların sayı kifayət qədər çoxdur, həm də olanların bir qismi ölüb getməkdədir, bir qismi digər etnoslarla assimilyasiya edir, bir qismisə irokezlər kimi özünüdərk hissini, nisbətən sabit sayını və tutduqları ərazini qoruyub saxlayır. Belə etnosları biz persistent - yəni həddən artıq qoca və homeostaz vəziyyətində olan adlandırırıq. Etnoqrafiyaya coğrafi mövqeyilə ilgili digər etnoslarla təmasa cəlb olunmayan, yaxud yalnız son 100 il ərzində cəlb olunan çoxlu təcrid olunmuş etnos məlumdur. Kahadada xəz alveri edən şirkətlər meydana çıxanadək oradakı bir çox qəbilələr, kauçukla ilgili çaxnaşmalar başlayana qədər Braziliyanın daxili bölgələrinin hinduları, avropalıların gəlişinədək Avstraliya aborigenləri, Qafqazın bəzi dağlı xalqları (hətta Qunibin ruslar tərəfindən tutulmasından sonra da) belələrindən olmuşlar. Hindistan, Afrika və hətta Avropada da az və ya çox dərəcədə təcrid olunmuş bir çox xalq, yaxud qəbilə mövcuddur. Lakin ön önəmlisi təcridolunanların birbaşa tarixçinin gözü önündə meydana çıxmasıdır. Vikinqlərin adanı IX əsrdə məskunlaşdıran və 300 il ərzində əcdadlarının döyüşkənlik ruhundan məhrum olan xələfləri- islandlar da belələrindəndir. Norveç, Danimarka, İsveç vikinqlərilə İrlandiyada ələ keçirilən qadınların izdivəcindən törəyənlər artıq XI əsrdə kiçik olsa da, müstəqil, keçmişin bir sıra ənənələrini qoruyub saxlayan və öz adasının hüdudlarında nigahlara üstünlük verən etnos təşkil etdilər. (46)

Başqa tayfalarla vaxtaşırı ilişkilərin olmaması etnos daxilindəki münasibətlərin sabitləşməsinə gətirib çıxarır. Bizim "durğun" adlandırdığımız struktur meydana çıxır, etnosda isə "sistemin sadələşməsi" baş verir. Əyani örnək əsasında aydınlaşdıraq. [116-117]

Qədim Misirdə birləşmiş hamit tayfaları qüdrətli etnos və çoxsaylı sosial sistem yaratdılar. Burada firon və məşvərətçilər, kahinlər və mirzələr, tacirlər, əkinçilər və dilənçi muzdurlar vardı. Yadellilərlə toqquşmalar meydana çıxdıqcı, sistem mürəkkəbləşirdi. Nubiya və Suriyanını istilasını peşəkar əsgərlər həyata keçirdilər, Babilistanla müqavilələri təcrübəli diplomatlar bağladılar, kanallar və saraylar isə mütəxəssislərin - uşaqlardan təhsil alan mühəndislərin zəhmətinin bəhrəsi idi. Çoxşaxəli sistem giksosların həmləsinə duruş gətirdi və sanki daha da qüdrətli olaraq yenidən təşəkkül tapdı. Lakin e.ə. XX əsrdən etibarən sadələşmə prosesi başladı və etnosun müqavimət qüvvəsi azaldı. E.ə. 950-ci ildən Misirdə hakimiyyət liviyalıların əlinə keçdi. Onlar Assuriya ilə savaşda məğlub oldular və asuriyalılar artıq müqavimət göstərməyən Misiri istila etdilər. Sais sülaləsi ölkəni azad etsə də, liviyalılarla ellinlərin nizələrinə arxalanırdı. E.ə. 550-ci ildə bu sülalə də süqut etdi ki, bundan sonra Misirdə bir birinin ardınca farslar, makedoniyalılar, romalılar, bərbərlər, məmlüklər və türklər hakim oldular. Bütün sosial qruplardan eramızın I əsrinədək əkinçi-fəllahlar və ellinləşmiş şəhərlilər - kortların kiçik qrupu salamat qaldı. Fəllahlar təcridolanlara çevrildilər. Ətrafda fəal tarixi həyat cərəyan etsə də, bunun onlara heç bir

aidiyyatı yoxdu. Onlar etnik baxımdan özlərinə yabançı cəmiyyətdə yaşasalar da, 2000 il özlüklərində qaldılar. Biz bunu etnik statika (sükunət, durğunluq,-tər.), yaxud dinclik adlandıra bilərik. Bu isə o deməkdir ki, inkişafdakı lənglik onun nəzərə alınmamasını mümkün edir.

Statika və dinamika. Terminlər barədə şərtləşək. Biz şərti olaraq "statik" (sükunətdə olan, donmuş,-tər.), yaxud "persistent" adlandırdığımız etnoslarda həyat nəsildən-nəslə eynilə, dəyişiksiz dövr edir. Bu, əlbəttə, o demək deyil ki, belə xalqlar kənardan təsirlərə məruz qalmır. Çox vaxt ətraf mühit dəyişən zaman hətta məhv olurlar. Məsələn, tasmaniyalılar və Pataqoniyadakı araukanların taleləri belə oldu. Bəzən sabit etnik qruplar, tayfa, qəbilə və ya xalqlar öz sivilyasiyalı qonşularından nə isə əxz etməkdən yayınsalar da, əksər hallarda onlar adət etdikləri həyat ritmini dəyişməmək şərtilə özlərinə müvafiq gələn şeyləri çox asanlıqla qavrayır. Misal üçün, alqonkin tayfaları hələ XVIII əsrdə muşketlərlə silahlanmış, ingilis və fransız müstəmləkəçilərindən sərrast aşət açmağı öyrənmişdilər; pataqoniyalılar XIX əsrdə cəmi bir nəslin həyatı ərzində piyada ovçulardan atlılara çevrildilər; [117-118] tunquslar onların çumlarında çox əlverişli olan kibrit və dəmir sobaları məişətlərinə daxil etmişlər. Lakin bu xalqların etnik simaları XX sərədək əvvəlki kimi qalmışdı. Nə alqonkinlər, nə də araukanlar nə fransız, nə də ispan olmadılar.

"Dinamik" xalqlarda daim "atalar və oğullar" problemi yaranır. Gənc nəsil əvvəlkilərə bənzəmir. İdeallar, zövqlər, adətlər dəyişir, "dəb" ("moda") kateqoriyası meydana çıxır. Yeninin yaranması ilə yanaşı, köhnənin unudulması da baş verir ki, məhz bu dəyişiklikləri mədəniyyətin inkişafı adlandırırlar.

Dinamik xalqlar da əbədi deyil. Onlar ya heç bir iz qoymadan yox olur, ya da müəyyən inkişaf mərhələsindən sonra statikə çevrilirlər. Bir sıra şəkildəyişmələrdən sonra sonunculalar da, öz növbəsində, dinamik olur, başqalaşırlar. Bəzən yox olma etnosu təşkil edən xalqların tamamilə məhv olması ilə ilgili olsa da, əksər hallarda bu, etnik ümumiliyin parçalanması ilə bağlıdır. Həm də bu zaman salamat qalanlar qonşu etnik bütövlər tərəfindən assimilyasiya edilirlər: insanlar qalır, amma etnos sistem bütövü kimi yox olur. Etnosun bir hissəsi qalıq kimi mühafizə olunduğu hallarda izə izolyant, yəni təcridolunmuş da elə o olur.

Bunlar parlaq, göz önündə olan örnəklərdir. Amma, axı, ənənəviliyin istənilən qədər dərəcələri var və əgər bizə məlum olan bütün etnosları mühafizəkarlığın azalması ilə düzsək, məlum olacaq ki, heç bir etnos "sıfır" səviyyəsinə", yəni ənənələrin olmadığı səviyyəyə çatmayıb, çünki belə olduğu halda o məhv olaraq, qonşuların tərkibində əriyib gedərdi. Sonuncu durum vaxtaşırı müşahidə edilsə də, heç vaxt etnik kollektivin özünün məqsədyönlü sələrinin bəhrəsi olmur. Bununla belə, etnoslar məhv olur- deməli, buna bais olan destruktiv elementlər mövcuddur. Xarici təsirdən tam təcrid edilmiş etnoslar mövcud olmadığından, belə güman etmək lazımdır gəlir ki, bütün etnoslar öləridir. Ən maraqlısı isə odur ki, bəzən etnoslar onlar üçün qeyri-məqbul olan mövcudluqdansa, məhv olmağı üstün tuturlar. Niyə?

Fikrimizcə, mühitlə homeostatik tarazlıq mərhələsində olan etnosu populyasiya, bu və ya digər heyvan növündən fərqləndirən də elə budur- ölmək hüququna malik olmaq. Etnosun ölümü- sistem bütövünə daxil olan fərdlərin ucdantutma qırılması yox, onun parçalanmasıdır. Tarixdə ayrı-ayrı hindu qəbilələrinin amerikalılar, kiçik hun etnoslarının isə çinlilər tərəfindən ucdantutma qırılmasına dair şərəfsiz səhifələrə rast olunsa da, əksər hallarda məhv olmuş etnosların nümayəndələri yeni - qonşu [118-119] etnosların tərkibinə daxil olur. Bu səbəbdən də etnik eksterminləşmə daha çox bioloji yox, sosial olaydır.

Dialektik materializmə görə, ölüm - orqanizmin həyat fəaliyyətinin zəruri məqamı və qanunauyğun sonucudur. F.Engels yazırdı:"... Əslində, həyatın inkarı elə həyatın özündədir, odur ki, həyat daim onun ilk rüşeymində olan zəruri sonucu- ölümlə nisbətdə düşünülür". (47) Dialektikanın bu universal qanunu etnogenez proseslərində də qüvvədədir.

İnsan istənilən yaşda öldürülə bildiyi kimi, etnogenetik proses də istənilən mərhələsində durdurula bilər. Lakin etnogenezi ya yeni formalaşmağa başladığı zaman-etnos tam qüvvətlənməzdən əvvəl, ya da yekun mərhələsində toplanan qüvvə artıq israf olunduqda durdurmaq daha asandır. Həm də bu zaman nə texnika və mədəniyyətin səviyyəsi, nə də əhalinin sayı bir o qədər də önəmli olmur. XV əsrdə irokezlər birgəyaşayışın orijinal, inkişafda olan formasını - beş tayfanın ittifaqı, özünəməxsus respublika yaratdılar. Nahua asteklərin əcdadı idi, XIV-XVI əsrlər Montesuma dövlətini isə çətin ki, geridə qalmış hesab etmək olar (daha dəqiq desək, 1325-ci ildən- Tenoçtitanın əsası qoyulmasından, 1521-ci ilə - həmin şəhərin Kortes tərəfindən ələ keçirilməsinədək). Gətirdiyimiz örnəklər inkişaflarının əvvəlində xaricdən endirilən zərbələr altında durdurulan etnogenez proseslərinə aiddir.

Qədim yəhudilərin nümunəsi daha əyanidir. E.ə. XV əsrdə cərgərdan həbiru tayfaları Fələstinə təcavüz edərək, Lordan çayı sahilində bir sahəni ələ keçirdilər. Texnikanın səviyyəsi, təsərrüfat üsulları, hərb sahəsindəki bacarıqlarına görə onlar Suriya və Ərəbistandakı digər semit xalqlardan heç də üstün deyildilər, Misir və Babilistandan isə hətta geri qalırdılar. Amma bu xalq etnik baxımdan sürətlə inkişaf edən xalq idi və o bütün qonşularından daha uzun müddət mövcud olub, nəhayət, bir etnik vəhdət kimi (48) Roma piyadalarının qısa qılıncları altında məhv oldu. Lakin həmin sonuc yəhudi xalqının etnik divergensiyası ilə üst-üstə düşdü və güman ki, bu heç də təsadüfi deyildi. Məhz həmin vaxt fariseylər, səddükeylər və yesseylər birgəlik hissəsindən məhrum olaraq, bit birini ya kafir və xain (farisey və səddükeylərin yesseylərə münasibəti) kimi, ya xalqdan ayrı düşən kahinlər zümrəsi (səddükey və

yasseylərin fariseylərə münasibəti) kimi dəyərləndirirdilər. Halbuki, mədəni səviyyəsinə görə I əsrdə yəhudilər heç də nə romalılar, nə də yunanlardan geri deyildi. [119-120]

Gətirdiyimiz örnəklər əsasında belə düşünmək olardı ki, mədəniyyətin inkişafı ilə əriyib yoxa çıxan qüvvələr məhz barbarlıqda təmərküzləşib. Afrika və Cənub-şərqi Asiyanı XIX əsrdə ələ keçirən Avropa xalqları XX əsrin əvvəllərində demək olar ki, bütün poaneti əhatə edən müstəmləkələr sistemi yaratmışdılar. Bəzi hallarda bunu hərbi texnikadakı üstünlüklə açıqlamaq mümkün olsa da, heç də həmişə belə deyil. Misal üçün, Hindistan sipahiləri ingilis silahları ilə silahlanmış olsalar da, sayca özlərindən az olan ingilislər tərəfindən darmadağın edildilər. XVII-XVIII əsr türk ordusu silahlarının keyfiyyətinə görə rus və Avstriya ordularından geri qalmasa da, Yevgeni Sayovski və Suvorovun azsaylı və təhcizat bazalarından uzaq düşən ordularına məğlub oldu. Fransızlar Əlcəzair və Ənnamı yalnız əla texnika hesabına deyil, daha çox kiçik (antipartizan) savaş, şəraitinə alışmış züarların dillər əzbəri olan cəsurluğu sayəsində ələ keçirdilər. Əksinə, ən müasir silahlara malik italiyalılar 1896-cı ildə ox və nizələrlə silahlanmış və mədəniyyətlərinin qədimliyinə görə İtaliya sakinlərindən heç də geri qalmayan nequs Mənəlik və onun döyüşçülərinə məğlub oldular. Bax, belə.

Sadaladığımız bütün istilalar Qərbi Avropanın etnogenetik prosesindən ayrılmazdır ki, nəticədə, hələ feodalizm dövründən başlamış millət və müstəmləkə imperiyaları yaranması prosesi mümkün oldu. Lakin Avropa etnoslarını areallarının genişlənməsi XX əsrdə başa çatdı və aydın oldu ki, bu təkcə bütün dünyanın yox, hətta elə Qərbi Avropanın özünün də tarixində heç də təkamülün zirvəsi yox, mühüm, qanlı, qəhrəmanlıqlarla zəngin və ziddiyyətli bir epizoddur. Müstəmləkə imperiyalarının şahidi olduğumuz dağılması göstərir ki, etnogenez prosesi çiçəklənmə mərhələsini arxada qoymuş və tarix əvvəlki yönünə üz tütmuşdur- Avropa yenə də öz coğrafi hüdudlarına qayıtmışdır. Deməli. Məsələ heç də texnika, yaxud mədəniyyətin səviyyəsində deyil və etnik inkişaf modelini başqa prinsiplər üzərində qurmaq gərəkdir. Heç bir xalq, heç bir irq dəyişməz qalmır. Onlar daim başqa xalq və irqlərlə qarışır və aramız yeniləşir. Ölməkdə olan kimi görünə bilir, sonra isə yenidən başqa bir xalq, yaxud əvvəlkin başqa bir çeşidi kimi dirçələ bilirlə". (49)

Amma təcridolunmuş etnosların düşmən mühitə qarşı müqavimət qabiliyyətlərini nə səbəb itirdikləri müəmmalı qalır. A.Toynbinin "çağırışa" "cavab" konsepsiyasına görə, düşmənin "çağırışına" qüdrətli cavab verməli olduqları halda, onlar ya təslim [120-121] olur, ya da qaçıb gizlənirlər. Görünür, etnosa təcrid olunmuş halda mövcud olmaq imkanı verən homeostaza keçid, onun üçün ilkin mərhələlərdə rezistent olmaq imkanı yaradan hansısa əlamətin itirilməsinə ilgilidir. Belə etnoslar yalnız bir şeydə-yabançıları öz mühitlərinə buraxmaqda möhkəmlik nümayiş etdirir.

İnkorporasiya. Etnik fenomenin qeydə alınan və təsvir olunan xassəsi yabançı tayfalara mənsub olanların inkorporasiyası zamanı daim meydana çıxan çətinlikləri açıqlayır. Yabançı etnosa daxil olmaq üçün sadəcə şəxsi istək və hətta qəbul edən kollektivin sadəcə razılığı azdır. Şotlandiyalı, tutalım, Peru vətəndaşlığı aldığı halda peruluya çevrilmir, halbuki, perulular yaxın dövrlərdə - XIX əsrdə formalaşmış mürəkkəb tərkibli etnosdur. Əvəzində, tələbə-maorilər ingilis universitetlərində çox asanlıqla uyğunlaşırlar. Şotlandiyalı inklərin xələfləri kimi initsiasiya mərasimi keçməyib, konkistadorların xələfləri kimi hər həftə günorta ibadətinə getməyib, onun yaxşı və pis, nəciblik və alicənablıq, gözəllik və eybəcərlik haqqında təsəvvürləri perululardakı kimi deyil. Görünür, ölkənin vətəndaşı olmaq üçün əcnəbinin şəxsi iradəsi kifayət etdiyi halda, etnosu dəyişmək üçün bu azdır. Maorilər isə artıq 100 il ingilislərlə yanaşı yaşadıqlarından, ingilissayağı davranmaq üçün nə etmək gərək olduğunu uşaqlıqdan bilirlər. Məktəb, birgə oyunlar, işgüzar münasibətlər qarışıq nigahların da dair olmadığını edir. Yeni Zellandiyada maoriləri ingilislərə qarşı qoymağın mənası varsa, Kembricdə artıq Yeni Zelandiya sakinlərinin "ixtiyar, xeyrxah İngiltərə" sakinlərlə qarşılışdırılması daha önəmlidir.

Kiçik və natural təsərrüfatla yaşayan etnoslara daxil olmaq qat-qat çətindir. Lakin burada da istisnalar var. Məsələn, irokezlər etnoqraf Morqani, quronlarsa fransız səyyahı və xəz alverçisi Etyen Brüleni özününkü qəbul etmişdilər. Örnək çoxdur, amma Morqan bununla yanaşı, Amerika alimi kimi də qalmaqda davam edir. 1609-1633-cü illərdə hindular arsında fəaliyyət göstərən Brüle isə gəncləri köhnə ənənələrə qarşı qaldırdığı üçün tayfa başçısı tərəfindən qətlə yetirilmişdi. Bundan başqa, V.Q.Boqfaz "rus çukça"- çukçalar tərəfindən tərbiyələndirilən və rus dilini bilməyən yetim oğlan barəsində danışır. Çukçalar onu özününkü sayır və oğlan da razılaşdırdı.

Beləliklə, əməli məqsədlər üçün ən qədim dövrlərdən bəri tətbiq olunan inkorporasiya daim şüur və özünüdərkin sərhədlərindən xaricdə, hissələr sahəsində yerləşən amilin müqavimətilə rastlaşmışdır. Hissələrsə, məlum olduğu kimi, təbiətin şüur aparatı [121-122] tərəfindən heç də həmişə düzgün təfsirlənməyən olaylarını əks etdirir. Problem nə qədər mürəkkəb olsa da, indi nəticə çıxarmaq olar: etnik fenomen maddidir, o ali əsəb sistemimiz tərəfindən lokallaşdırılırsa da, şüurumuzdan xaric və ondan asılı olmayaraq mövcuddur. İnsanın xasiyyəti fəaliyyətinin təfərrüatlarında özünü göstərir və etnopsixologiyaya aiddir. Sonuncunu "insanların nə etdiyini... beş funksional vahidi - fəaliyyət, əhəmiyyət, şəxsiyyətin rolu və qrup- araşdırmaq yolu ilə" (50) açıqlamağı can atan sosial psixologiya ilə qarışdırmamalı. Sosial qrup- "bir bütöv kimi fəaliyyət göstərən adamlar qrupundan ibarətdir", yəni burada adamlar "müəyyən qəbildən olan hərəkətin iştirakçıları kimi nəzərdən keçirilirlər". (51) Belələrinə,

məsələn... futbol oyunu, yaxud “Linç məhkəməsi” iştirakçıları aiddir. Olsun, amma, axı, bu etnos deyil! Elə oradaca qeyd edilir ki, “Amerikaya köçən Avropa ziyalıları...çox vaxt onun tarixi, qanunları və adətlərini amerikalılardan yaxşı bilirdilər. Amma bu adamlar Amerika həyatına dair “birliklərə” malik idilər; onunla, “tanışlığa” yox. Onlar Amerikada böyüyən hər hansı bir uşağın intuisiya ilə hiss etdiklərinin əksəriyyətini anlamağa qadir deyildi”. (52) Bununla yanaşı (və bu səciyyəvidir), bəziləri Amerikada öz yerlərini tapır, digərləri isə, yaxşı qazanc əldə etmələrinə rəğmən, geri qayıtmağa can atırdılar. V.Q.Korolenko “Dilsiz” hekayəsində bunu çox gözəl təsvir edib.

Görünür, etnik vuruşmanın çeşidli dərəcələri mövcuddur. Bunlardan bəzilərində inkorporasiya mümükün, bəzilərində çətin, üçüncülərdə isə mümkünsüzdür. Bu qəribə fenomenin səbəbi nədir?

Yer üzündə neoantrop meydana gəldikdən sonra etnoslar daim mövcud olmuşdur. Bəşəriyyət tarixindən göründüyü kimi, onların mövcudiyyət üsulu eynidir: törəmə, genişlənmə, fəallıq dərəcəsinin zəifləməsi və parçalanma, yaxud mühitlə tarazlıq halına keçdi. Bu, mühitlə daim xüsusi, təkrarsız, orijinal ritmdə informasiya və entropiya mübadiləsi edən sistemin ətalət prosesindən səciyyəvi nümunəsidir. İnkorporasiyanı məhdudlaşdıran da elə budur. Həqiqi anlamda “özünkü” olmaq üçün prosesə qovuşmaq, yəni etnosdakı ənənə və ideallara varis olmaq gərəkdir ki, bu da yalnız inkorporasiya olanın körpəlikdən öz valideynləri tərəfindən tərbiyə olunması şərtilə mümkündür. Bütün digər hallarda inkorporasiya etnik təmasa çevrilir.

Tarazlıqla inkişaf arasındakı təfavüt. İndi isə sual verək: təcrid olunmuş etnosla gur inkişaf edən etnos arasında fərq [122-123] nədədir? Qalıq, etnoslar sistemində etnos üzvləri arasında mübarizə yoxdur. Rəqabət meydana çıxdığı hallarda isə, o məğlub olanın ölümü ilə sonuclanmır. Yalnız yeniliklər təqib edilir ki, bunları da, bir qayda olaraq, onsuz da heç kim arzulamır. Lakin belə olduğu halda, təkamülün amillərindən biri olan təbii seçim sönməyə başlayır. Etnolandşaft tarazlığı qalır ki, onun da fonunda yalnız ya sosial tərəqqi, ya da tənəzzül mümkündür. Amma yenidən uyğunlaşma və davranış stereotipinini dəyişməsinin mürəkkəb və çətin şəraitində təbii seçim yenidən meydana çıxır və onun formalaşdırdığı populyasiya ya məhv olur, ya da yeni etnosa çevrilir.

Beləliklə, etnosların ilkin təsnifatı (onların təşəkkülü baxımından) bir sıra əlamətlərə görə bir birindən kəskin fərqlənən iki dərəcəyə bölgüdən ibarətdir (bax: cədvəl I).

Təklif olunan bölgü indiyədək tətbiq olunanlarla - antropoloji, linqvistik, sosial və tarixi - mədəni - fərqlənən prinsipə əsaslanır. Cədvəldə qeyd olunan 12 fərqli əlamət (53) bütün dövr və ərazilər üçün invariantdır. Sinifli cəmiyyətdə persistent etnoslar mövcud ola bildiyi kimi, qəbilə quruluşunda da fərqlərin yenidən qruplaşmaları baş verir ki, bunlar sayəsində yeni qəbilə ittifaqları, yaxud hərbi-demokratik birliklər meydana çıxır. Birinci varianta örnəklər kimi Ərəbistandakı bədəviləri, Qərbi Afrikadakı Benin, Daqomeya və b., şimal-qərbi Amerika tlinkitlərini, nəhayət, XIX əsrə qədər əsir gürcüləri evlərində nökər və qulluqçu kimi saxlayan Qafqaz dağlılarını göstərmək olar. XIX əsrdə donuqlaşmış feodal münasibətləri qərbi və şimal-şərqi Tibetdə, Dağıstanda, yakutlar və malayyalılarda müşahidə olunurdu. Əksinə, XV əsrdə meydana çıxan irokez ittifaqı siniflərə qədərki cəmiyyət şəraitində yeni etnos yaranmasına parlaq örnəkdir. Həmin proses e.ə. III əsrdə Xunna dövlətində və eramızın VI-VIII əsrlərində hərbi-demokratik türk “Əbədi el”ində də mövcud olmuşdur. E.ə. I minillikdə ictimai münasibətlərin klan sisteminə malik olan keltlər də şübhəsiz; etnik bütöv təşkil edirdilər.

Örnəklərin sayını artırmaq mümkün olsa da, gətirilənlərlə kifayətlənək. Təsnifat zamanı materialın hər hansı bir bölgüsü şərtidir və məhz elə bu səbəbdən də səmərəlidir, çünki araşdırıcının qoyduğu məsələ ilə şərtlənir. Məqsədimiz izlədiyimiz olayların çeşidliyi sırasında etnik təşəkkülün yerini tapmıqdır. Bəs nəticəsi? Mə lum olur ki, etnosun törəməsi ümumi etnolandşaft tarazlıq fonunda az-az təsadüf olunan olaydır. Həmin tarazlıq isə guya ki, [123-124] bu və ya digər xalqların yararsızlığından doğan “gerilik”, yaxud “durğunluq” kimi dəyərləndirilə bilməz. Bütün müasir “durğun” etnoslar vaxtilə inkişaf edirdilər, hazırda inkişaf edən etnoslar isə, məhv olmadıqları halda, nə vaxtsa “sabit” olacaqlar.

**Cədvəl I. Etnosun persistent və dinamik durumlarının fərqli əlamətləri**

| Əlamətlər | Durum | |
|---|---|---|
| | Persistent | dinamik |
| Nəsillər arasında ilişkilər | Yeni nəsil əvvəlkilərin davranış stereotiplərini təkrar can atır. | Yeni nəsil əvvəlkinə oxşamamağa can atır (atalar və oğullar) |
| Vaxta münasibət | Vaxtın siklər üzrə hesablanması | Vaxtın xətti hesablanması |
| Təbiətə münasibət | Təsərrüfat landşafta uyğunlaşdırılıb | Landşaftın təsərrüfatın tələblərinə uyğunlaşdırılması |
| Qonşulara münasibət | Sərhədlərin müdafiəsi, qonaqpərvərlilik | Ərazini genişləndirmək meyli, istilaçı savaşlar |
| Xələflərə münasibət | Artımın qarşısını almaq meyli; uşaqların öldürülməsi | Qeyri - məhdud artıma can atma |

| | | |
|---|---|---|
| Dinə münasibət | Genoitizm, yadelliləri öz ehkamlarına yaxın buraxmamaq | Prozelitizm (yeni əqidəyə sadiqlik, - tər.) və dini dözümsüzlük |
| İctimai institutlara münasibət | Böyüklərin nüfuzlu olması | Hakimiyyət institutu |
| İctimai həyata münasibət | Əhalinin artıq formalaşan qruplarını qoruyub saxlasaq | Yeni sosial qrupların mənimsəməsi |
| Yabançı mədəniyyətlərə münasibət | Yabançı ideyalara etinasızlıq və texnikanın əxz olunması | Yabançı ideyaların fəal mənimsəməsi: onlardan yararlanma, yaxud imtina |
| Həyat siklinin müddəti | Yalnız kortəbii, yaxud antropogen mənşəli xarici təsirlə məhdudlaşır | Təkandan dinamik qurumdan çıxma anına (tam yoxolma və ya qalığa çevrilmə) 1200 (1500) ildən artıq olmamaqla |
| Durumunun yaranma mənbəyi | Başa çatmayan etnogenez prosesi | Mutasiyalar və populyasiyada etnogenetik əlamətlərin meydana çıxması |
| Fərqli durumlarda olan etnoslar arasındakı qarşılıqlı münasibətlər | Dinamik durumda olmaq qüvvələrin qeyri-təbii və mənasız zərfi kimi dəyərləndirilir | Persistent durumda olmaq "vəhşilik", "durğunluq", "yararsızlıq" kimi dəyərləndirilir |

Etnogenez və təbii seçim. Etnos fenomeninin yuxarıda verilən təsvirlərindən belə bir nəticə çıxır ki, sosial və etnik proseslər təbiətlərinə görə fərqlidir. İctimai və etnik ritmlər arasındakı uyğunluqlar təsadüfidir. Halbuki səthi müşahidə zamanı ilk nəzərə çarpan da onlardır, çünki interferensiyanın faza üzrə üst-üstə düşməsi effekti qüvvətləndirir. Yaranan problemi aşağıdakı kimi ifadə etmək gərəkdir: etnosları yaradan qüvvələr haradan meydana çıxır? Belə qüvvələr mövcud olmalıdır, çünki onlar olmasaydı təbii seçimlə təyinlənən entropiya çoxdan, hələ paleolit dövründə bütün etnik fərqləri aradan qaldırar və bəşəriyyətin bütün çeşidliyini vahid, simasız antroposferə çevirərdi.

Belə bir fikir bərqərar olub ki, təbii seçim həmişə yaşamaq uğrunda mübarizəyə daha çox uyğunlaşan fərdlərin salamat qalmaları ilə sonuclanmaladır. Lakin C.B.Holden qeyd edir ki, bu fikir özünü digər növlər və qeyri-üzvi təbiətdən qorumaq zonunda olan seyrək və pərakəndə növ üçün doğrudur. Əhali sıx olan kimi, növün də ayrı-ayrı nümayəndələri bir-birinlə rəqabətə girirlər. [125-126] Ayrı-ayrı fərdlər qalib gəldikləri halda da mübarizənin özü növ üçün bioloji baxımdan zərərlidir. Məsələn, erkəklərdə nəhəng buynuz və iynələrin inkişaf etməsi onlara şəxsi qələbələr əldə etməkdə yardımçı olsa da, çox vaxt növün yox olmasının başlanğıcına çevrilir. (54)

Bu təxmin hakim növ, biosenozun ən yuxarıdakı - tamamlayıcı həlqəsi olan insana da aiddir. S.Holden tərəfindən qeydə alınmış növ daxilində fərdlərin mübarizəsinin qida uğrunda növdaxili mübarizə ilə heç bir ortaqları yoxdur və onun qanunauyğunluqları insan cəmiyyətinə şamil etmək doğru deyil. Burada tamam başqa bir şey qeydə alınır: sürüdə üstünlük əldə etmək uğrunda mübarizə. Həm də, nə qədər gözlənilməz də olsa, məhz qaliblər özlərindən sonra heç bir nəsil qoyub getmirlər. Deməli, bir Darvinin ən uyğunlaşmış fərdlərin salamat qalması qanunu ilə deyil, bütövlükdə kollektivin təkamülünə təsir göstərməyən müəyyən sapıntılarla rastlaşırıq. Yetkinləşən erkəklərin toqquşmaları, yaxud böyüməkdə olan balaların sürüdən qovulması zamanı baş verən seçim yeni populyasiyaların yaranmasına səbəb olmur. Əksinə, o fərdlərin əksəriyyətinin əlamətlərini, o cümlədən davranış stereotipini qoruyub saxlayan amildir. Bu da tamamilə aydındır: müəyyən bölgədə məskunlaşan hər bir növ onun biosenozuna daxildir və ona ən əlverişli şəkildə uyğunlaşır. Bu durum yalnız ya fiziki-coğrafi şərait dəyişdikdə, məsələn, uzunmüddətli quraqlıq, yaxud münbit qatı alüvi (suların gətirdiyi,-tər.) çöküntülərlə örtülməsinə səbəb olan güclü daşqın və ya bölgəyə biosendakı tarazlığı pozan başqa heyvanların miqrasiyası zamanı pozulur.

Amma istənilən enzogen amillərin təsiri də aydınlaşdırmır ki, niyə fəlakətlər baş verməmdiyi halda belə, etnoslar bir birini əvəzləyərək, xələfləri üçün yalnız memarlıq abidələrinin qalıqları, heykəl qırıntıları, ədəbi parçalar, qab-qacaq qırıqları və acdadların şan - şöhrəti haqqında qarmaqarışıq xatirələr qoyub gedirlər. Güman ki, insan üçün seçmə başqa önəmə malikdir və S.Helden də məhz buna diqqət yetirir. "Bioloji seçim etnosun hər bir üzvünün digərindən daha çox övlada malik olmasını şərtləndirən əlamətlərə yönəlib. Bunlar aşağıdakılardır: xəstəliklərə qarşı müqavimət qabiliyyəti və fiziki qüvvə. Bir bütöv kimi etnosun (növün) artımına xidmət edən və bu səbəbdən adamlar tərəfindən xüsusilə yüksək dəyərləndirilən keyfiyyətlərə isə dəxli yoxdur". Holdenə görə, ideya və elm fədailəri, cəsur savaşçılar, şair və artistlərin genlərinə [126-127] sonrakı nəsillərlə getdikcə daha az-az rast olunur. Bizim araşdırma üçün isə başqa şey daha önəmlidir - etnosun sonrakı taleyində bu prosesin sonucu nə olacaq? Təbii ki, ictimai yox, hazırda bizi ilgiləndirən populyasiya - genetik baxımdan. C.Holden bu durumu belə açıqlayır: "Təbii seçim uyğunlaşma səciyyəsi daşıyan dəyişikliklərə təsir göstərir, həmin dəyişikliklərsə ixtiyari yöndə gedir. Onların çox hissəsi quruluşun mürəkkəbliyinin itirilməsinə, yaxud orqanların reduksiyasına - degenerasiyaya doğru aparır".(55)

Holden tərəfindən sübut edilən bu tezis, ilk nəzərdən, təkamülün mütərəqqi inkişaf olması haqqında orta məktəb təsəvvürlərinə ziddir. Amma dialektik metodu tətbiq etdiyimiz an ziddiyyət bir ilğım kimi yox olacaq. Növlər ya irlaşir, ya da sabitləşir və persistent olurlar. Lakin, yeni, əvvəlkilərdən daha mükəmməl növlər yaranır, onlar da yerlərini özlərindən sonra gələn, hələlik isə gələcək üçün yetişməkdə olanlara verirlər. Sürünən nəhng amfibiyaları, məməlilər - dinozavrları, müasir insan isə neandertal adamını əvəz etdi. Və hər bir yüksəlişdən əvvəl sonsuz uçuruma yuvarlanma gəlirdi.

Bunu etnoqrafiya dilinə çevirək və nümunə kimi ən sadə bir misal - lokal/əraziçə/, qapalı/genetik cəhətdən/, özüformalaşmış, /sosial baxımdan/ etnik kollektivi model seçərək, bizim materiala tətbiq edək.

Altruizm, daha doğrusu -antieqoizm. Öz mövcudluğunu bəyan edən hər hansı yeni doğulmuş etnos dərhal avtomatik şəkildə dünya tarixi prosesinə qoşulur. Bu o, deməkdir ki, həmin etnos daim ona qarşı düşmən münasibətdə olan qonşuları ilə təmasa daxil olur. Başqa cür ola da bilməz, çünki yeni, fəal, qeyri-adi olanın meydana çıxması artıq qərarlaşmış və rəğbət qazanmış həyat tərzini poxzur, dağıdır. Etnosun doğulduğu bölgənin sərvətləri həmişə məhdud olur. Bu, ilk növbədə, qida ehtiyatlarına aiddir. Tamamilə aydındır ki, artıq bərqərar olmuş qayda-qanun şəraitində sakitcə dolananlar heç də özlərini darıxdırmaq, yaxud yerlərini yabançı, anlaşıdmaz və xoşagəlməz adamlar təhvil vermək istəmir. Yeniliyə müqavimət təbii özünümüdafiə reaksiyası ikim meydana çıxır və həmişə çox çiskin, əksər hallarda qanlı müharibə formasını alır. Qalib gəlmək, ən azı isə özünü qorumaq üçün etnos daxilində kollektivin mənafeyini şəxsi mənafedən üstün tutan altduist etikanın meydana çıxması tələb olunur. Belə etika sürü halında yaşayan heyvanlar arasında da müşahidə olunsa da, o, [127-128] yalnız insanlarda yeganə növqurma amili əhəmiyyətinə yiyələnir. O daim xudpəsənd etika ilə qonşu olur. Xudpəsənd etika mövcud olduğu zaman, şəxsilə ailəvinin məcmuyu ictimaidən yüksəkdə durur. Lakin fərdlə kollektivin mənafeləri çox vaxt müvafiq gəldiyindən, kəskin toqquşmalar çox az-az olur. Növ taksonunun, yəni etnosun insani anloqunun qorunub saxlanması baxımından hər iki etik konsepsiyanın uzlaşması optimal vəziyyət yaradır. Funksiyalar bölüşdürülür. “Altruistlər” etnosu bir bütöv kimi qoruyur, “eqoistlər”/”xudpəsəndlər”/ isə nəsilartırma ilə məşğul olurlar. Lakin təbii seçmə “altruistlərin” sayının azalmasına doğru aparır ki, bu da etnik kollektivimüdafiəsiz qoyur və müəyyən müddətdən sonra müdafiəçilərindən məhrum edilmiş etnos qonşular tərəfindən mənimsənir. “Xudpəsəndlər”in xələfləri isə artıq başqa etnosların tərkibində yaşamaqda davam edir və “altruistlər”i öz qəhrəman müdafiəçiləri kimi yox, tərs, adamayovuşmaz, bədxasiyyətli adamlar kimi xatırlayırlar.

Bu fornulu tarixi material əsasında yalnız bir üsulla yoxlamaq mümkündür və bu barədə daha ətraflı danışmaq gərəkdir. Etika olanın olmalıya münasibətini nəzərdən keçirir. Olmalı isə, olaylar kimi, hər dövrdə dəyişir. Bu dəyişikliklər mənbələrin digər münasibətlərdə çəkinmədən faktları təhrif edən müəllifləri tərəfindən çox həssas şəkildə qeydə alınır. Bu halda isə onlar ona görə səmimidirlər ki, gerçəkliyi yox, onların özünə də hər dəfə mütləq görünən idealı təsvir edir. Bu səbəbdən da davranış imperativinin dəyişməsini qeydə almaq üçün biz tarixşünaslıqdan və hətta keçən əsrlərin bədii ədəbiyyatından da yararlana bilərik. Bu zaman onları informasiya mənbəyi kimi deyil, tənqidi şəkildə araşdırmalı olan faktlar kimi qəbul etməyli və onun köməyilə həmin prosesin həqiqətdə necə cərəyan etdiyini araşdırmalıyıq. Nümunə üçün oxucuya yaxud tanış olan xalqın /dövlət, siyasi qurum, sosial-iqtisadi münasibətin yox, məhz etnosun/ tarixindən tamamlanmış bir hissəsini götürək və ounun fazalarına nəzər salaq. Uyğun gələn nümunə - şəhər-dövlət, Qədim Romadır. Onun əfsanəvi çarlar dövrünü bir kənara qoysaq, ictimai sistemin xarakterini müəyyənləşdirən birinci setsessiyadan /plebeylərin patrisilərlə kompromissə gətirib çıxaran Müqəddəs dağa çıxıb getmələri/ Karakalla ediktinə qədər /əyalət sakinlərinin romalı kimi tanınması/ olan dövrdə, yəni 575-ci ildən eramızın 282-ci ilinədək “altruistlər”lə “xudpəsəndlər”in nisbətinin təkamülünü asanlıqla izləmək mümkündür. Əslində, bunu artıq qədim Roma tarixçiləri [128-129] həyata keçirmiş və həmin prosesi “əxlaqın pozulması” adlandırmışlar.

Qaynaq müəlliflərinin verdikləri məlumatlara görə, I dövrdə - Pun müharibələrinin başa çatmasına qədər, Vətən uğrunda canından keçmək arzusunda olanlar həddən artıq çox idi. Mutsi Stsevola, Attili Requl, Tsissinat, Emili Pavel və bir çox onlar kimisi, ehtimal ki, daha çox vətənpərvərlik rəvayətlərilə yaransalar da, əsas odur ki, davranış idealı kimi məhz belə adamlar çıxış edirdilər. Partiya rəhbərləri - Mari və ya Sulla, Pompey, Krass və ya Sezar və Sertori, Yuni Brut, yaxud Oktavian oldular. Onlar artıq həyatlarını vətən uğrunda qurban vermir, onu yalnız partiyaların məqsədləri və mütləq özlərinin mənafeyi naminə təhlükə altına qoyurdular. Prinsipat dövründə də xeyli cəsur və fəal xadimlərin olmasına baxmayaraq, onlar açıq-aşkar şəxsi mənfəət üçün çalışırdılar və ictimai rəydə bunu adi, hətta yeganə mümkün davranış kimi qiymətləndirirdi. İndi imperator və sərkərdələri öz vəzifələrini layiqincə yerinə yetirdiklərinə, yəni şərəfsizlik və qəddarlığa yol vermədiklərinə görə tərifləyirdilər. Lakin bu o deməkdir ki, onları “düşüncəli xudpəsənd”- lər kimi qavrayırdılar və onların özünə də bu sərf edirdi. Optimatlar və populyarlar partiyaları keçmişdə qalır, onların yerinə isə bu və ya digər legionun, məsələn, Suriya, Qalliya, Pannoniya və i.a. qrupları irəli çıxır ki, onlarda öz aralarında yalnız və yalnız hakimiyyət və sərvət üçün vuruşurlar. Severlər sülaləsi dövründə güc və mənfəət idealı bərqərar olur və təsadüfi deyil ki, həmin dövrdə Populus Romanus adlanan Roma etnosu istila etdiyi xalqlar içində əriyib itir.

Eyni səhnəni ən aktual məşğuliyyətin müsəlmanlarla müharibə olduğu orta əsrlərin Qərbi Avropasında da müşahidə edirik. İlk epik poemaların qəhrəmanları: Roland və Sid - xristianlığın sadiq cəngavərləridir. Əslində isə, birinci Bretoniya qrafı olmuş və mavrlar yox, basklar tərəfindən öldürülmüş; ikinci isə sadəcə, əqidəsiz bir fırıldaqçı idi. Ehtiyac yoxdur - ideallar da altruist və nəcibdir. Daha sonra, II dövrdə qəhrəman artıq özünü yaddan çıxarmır. Kortes və Pisarro, Vasko da Qama və Albukerki, Frensis Dreyk və Lepanto döyüşünün qalibi Xuan Avstriyski bələlərindəndir. Cəsur olmaqla yanaşı, mənfəətpərəstliklərin daha heç kim onlar üçün cəsur saymır, əksinə, bu, heyranlıq və alqış doğurur. Bir müddət keçir və ağıllı, dözümlü, soyuqqanlı olmaqla yanaşı, yalnız öz canının qeydinə qalan muzdlu əsgər qəhrəman olur. [129-130]

Gördüyümüz kimi, müəyyən istiqamətlərdə variantlara parçalanan ideal kollektivinin əhval - ruhiyyələrinin indikatorudur, çünki müəllifin qəhrəmana münasibəti emosionaldır, deməli, şüurlu yalan istisna edilir. Bu əhval-ruhiyyələr isə daha dərində yerləşən mahiyyəti - davranış stereotipinin dəyişməsini əks etdirir ki, insanın kollektiv varlığının etnik təbiətinin real əsası da elə budur.

Lakin bu zaman şüur dairəsinin nəzərə alınmasından boyun qaçırmaq olmaz, çünki yalnız o, ola bilməyən vəsiyyətdə ən optimal həll yollarını axtarıb tapmaq imkanı verir. Yeni etnik sistem formalaşıb ətalət qüvvəsi toplayana qədər proses kənardan müdaxilə vasitəsilə qırıla bilər, odur ki, sərt determinləşməyə /fatalizm/ yer yoxdur.

Qalıq etnosların möhv edilməsi. Sualın belə qoyulması etnosların nə üçün belə tez-tez ölüb getdiyini, həm də e.ə. III minillikdə, yəni tarixə yazıya alınmasına başladığı dövrdə mövcud olan etnoslardan hamısının, eramızın əvvəlində yaşamış və fəaliyyət göstərmiş etnoslardan isə böyük əksəriyyətinin niyə məhv olduğunu aydınlaşdırmağa imkan verir. Bu həm də ona görə zəruridir ki, qədim romalı, ellin, assuriyalıların tanınmaz dərəcədə dəyişmiş birbaşa olmayan xələfləri hal-hazırda da yaşasalar da, nə romalılar, nə ellinlər, nə də assuriyalılar deyillər, çünki əcdadlarından onlara yalnız genetik fond qalıb. Analoqlar üçün digər problemlərlə yanaşı, populyasiyaların məhv olması problemi ilə də məşğul olan paleontologiyaya müraciət edək. Burada tədqiq olunan obyektin böyüklüyü əhəmiyyətli deyil, çünki belə təxmin etmək mümkündür ki, ölüb getmə prosesləri bir qanunauyğunluğa malik olmalıdır.

Qəribə də olsa, ən az inkişaf etmiş, deməli keçən eraların təbii mühitinə ən az uyğunlaşmış növlər salamat qaldılar. Əvəzində, təbiətin keçmiş hökmdarları - dinozavrlar, mastodontlar, mahayrodlar, mağara ayıları və pələngləri layiqli rəqibləri olmasa da, yerli-dibli məhv oldular. Növlərin məhv olması arealın tədricən daralması və məhkum olunmuş növü bioxordan sıxışdırıb çıxaran qonşu növlərin rəqabətlə müşayiət olunur. Lakin bu “məhkumluğ”un nədən ibarət olduğu qaranlaq qalır?! Paleobioloji məsələlərin həllinə can atmasaq da, göstərə bilərik ki, etnologiyada bu, etnosun strukturundadır. Digər şərtlərin bərabərliyi şəraitində /say, texnika və i.a./ strukturun mürəkkəbləşdirilməsi düşmən əhatəyə qarşı müqavimət qüvvəsini gücləndirir, sadələşdirilməsi isə - zəiflədir. Buna görədir ki, fiziki və əqli cəhətdən tam dəyərə malik [130-131] xalqlar, məsələn, hindular, yaxud polineziyalılar öz xalqlarının heç də ən yaxşı nümayəndələri olmayan müstəmləkəçilər qarşısında aciz qaldılar. Beləliklə, həm etnoslar, həm də təbiət üçün ən böyük təhlükə inkişaf prosesində adaptasiya qabiliyyətini itirməyən və bu səbəbdən də öz arealını genişləndirən qonşular təşkil edir. Belə bir qonşu meydana çıxmadan, qalıq etnos sonsuz qədər uzun müddət mövcud ola bilər. 57. Lakin inkişaf etməkdə olan etnoslar daha yırtıcı qadınların yenilməz müqavimətilə üzləşərək, onların məhv olması, yaxud ucdantutma qırılması da istisna edilmir. Yalnız bircə misalla kifayətlənək. VI-VIII əsrlərin türkləri /türkyütlər/.

550-581-ci illərdə kiçik Altay etnosu - türkyütlər Çindəki bütün Böyük sədd boyuncadan Dona və Sibirdən İranadək ərazilərdə hökmran oldular. “Ədəbi El” adlanan sistem mühərrik və çoxşaxəli idi. “Mavi səma və qara torpağa” etiqad edən türk döyüşçülərlə yanaşı, burada çöl və dağ tayfaları, Soqdiana vahələri və Volqanın o dövrdə çox geniş olan aşağı axarının sakinləri, tacirlər, çobanlar, buddaçılar və atəşpərəstlər öz məskənlərini tapmışdılar. Lakin müzəffər Suy sülaləsi /589-618/ və müzəffər tabğac Tan imperiyası /619-967/ tərəfindən birləşdirilən Çin daha güclü və təcavüzkar idi. Çinlilər türklərin müqavimətini güc hesabına qıra bilməsələr də, diplomatik yolla əvvəlcə vahid kağanlığın Qərb və Şərq kimi bölünməsinə, daha sonra çəl sakinlərini Tarım çayı hövzəsi vahələrindən və Soqdianadan təcrid edərək, birinciləri özləri istila etdilər, ikincisini isə ərəblərə qurban verdilər. Daha sonra çinlilər uyğurlar, karluklar və bəsmalları türklərin əleyhinə qaldırdılar və 747-ci ildə türk ordasının darmadağın edilməsinə nail oldular. Qeyd edək ki, bu zaman qaliblər heç kimi əsir götürmürdülər. Lakin çinlilər özləri türk qaçqınlarını qəbul etdilər və onlardan sərhəd qoşunlarında yararlandılar. Bu “bəxtəvərlər” An Luşaninçin bürokratiyasına qarşı 756-763-cü illərdəki üsyanında iştirak etməklə məhv oldular. Üsyançılara qarşı çinlilərdən başqa çöl uyğurları və dağlarda yaşayan tibetlilər də çıxış, etdikləri üçün, qaçmağa yer də qalmadı. Təcrid olunan və bu yolla sadələşən sistem məhv oldu. Bunun eyni olan çarpışmaların müşahidə edildiyi hər yerdə prosesin mexanizmi dəyişməz qalır. [131-132]

# XI. ETNİK TƏMASLAR

Etnik taksonomiyanın iyerarxiyası. Etnik sistemləşdirmə sosial təsnifatdan fərqlənir.58 Onlar yalnız tək-tək hallarda üst-üstə düşür. Bu və ya digərindən istifadə olunması tədqiqatın aspektindən, yəni tarixi hadisələr zəncirinin nəzərdən keçirildiyi baxış bucağından asılıdır. Həmin baxış bucağı isə onun məqsədlərinə cavab verən yaxınlaşma dərəcəsini də seçən araşdırıcı qarşısında duran məsələ ilə şərtlənir. Bu məsələnin indiyədək dəfələrlə qoyulmasına və qənaətbəxş həllini tapmamasına baxmayaraq /D.Viks, O.Şpenqlər,, A.Toynvi/6 bu, tədqiqatçını, nə qədər ağır olsa da, empirik ümumiləşdirmələr aparmaq cəhdlərini davam etdirməkdən çəkindirməlidir. Prosesin necə getdiyini aydınlaşdırmağa cəhd göstərən bir sıra müəlliflərdən fərqli olaraq, bizim məhz nəyin dəyişikliyə məruz qalması sualına cavab vermək imkanımız var, halbuki, bu zaman hadisələrin yalnız müəyyən aspektlərini səciyyələndirən prinsipial birtərəfli model əldə edirik. Lakin, axı, konsepsiyaların yaradılması bütün tarixi təfsirlərin əsasını təşkil edir ki, tarixi /"həqiqət axtarışı"/ xronikalar və hadisələrin sadəcə sadalanmasından fərqləndirir. Biz, tarix elminin topladığı rəngarəng materialdan çıxış etdiyimiz üçün təhqiqat obyekti Spenqlerin "mədəniyyətin ruhu" və Arnold Toynbinin "əqllə dərk olunan araşdırma meydanı" yox, bu və ya digər müəyyən dövrdə bu və ya digər səviyyədə olur. Tarixi zamanda cərəyan edən növbəti dövr üçün təşkil edənlərin nisbəti artıq başqa cür olacaq.

İndi isə ümumi şəkildə etnik iyerarxiyanı quraşdıraq və eyni zamanda, terminlərin mənalarını dəqiqləşdirək.

Antroposfer - bütün insan orqanizmlərinin məcmu bioloji kütləsi. 59

Etnosfer - şəbəkəvari antroposfer, 60 yəni həmişə dinamik olan sistem etnolandşaft bütövlərinin ahəngdar birliyi.

Superetnos - eəni vaxtda və eyni bölgədə meydana çıxan və özünü tarixdə şəbəkəvari bütöv kimi göstərən etnoslar qrupu. [132-133]

Etnos - özünü bütün digər analoji kollektivlərə qarşı qoyan və tarixi zamanda qanunauyğun şəkildə dəyişən özünəməxsusu davranış stereotipilə fərqlənən dayanıqlı, təbii şəkildə formalaşan insan kollektivi.

Subetnos - etnosun bütün digərlər ilə qarşılıqlı əlaqəyə girən struktur elementi. Etnosistemin sadələşməsi zamanı, final mərhələsində subetnosların sayı birə qədər azalaraq, qalığa çevrilir.

Bir səviyyəli taksomanik vahidlər:

Konsorsiya - Bir tarixi talenin birləşdirdiyi insanlar qrupu; parçalanır, ya da konviksiyaya çevrilir.

Konviksiya - eyni səciyyəli məişət və ailə əlaqələrinin birləşdirdiyi insanlar qrupu. Bəzən subetnosa çevrilir. Tarix deyil, etnoqrafiya tərəfindən qeydə alınır.

Etnogenez dedikdə, yalnız onun başlanğıc anını - etnosun tarix sahəsində meydana çıxmasını deyil, həm də etnosun qalığa çevrilməsi və yox olması /bu barədə daha sonra danışılacaq/ ilə yekunlaşan inkişaf prosesinin bütövlükdə nəzərdə tutulması barədə razılaşdıqlan sonra, aşağıdakı tərifi vermək olar: bilavasitə müşahidə ediləe istənilən etnos etnogenezin bu və ya digər mərhələsidir, etnogenez isə biosferin dərinliklərində cərəyan edən prosesdir və yalnız materiyanını hərəkətinin ictimai forması ilə təması zamanı aşkarlanır. Deməli, etnogenezin araşdırılması mümkün olan xarici təzahürləri sosial simaya malikdir.

Elə buradaca əsas sual ortaya çıxır: etnoqraflar tərəfindən araşdırılan etnosları doğuran etnogenez prosesləri nə üçün meydana çıxır? Geniş yayılmış bir fikrə görə, sıx birgəyaşayış, zamanı ilkin etnik substratların /əsas, mühit-tər./ qarşılıqlı assimilyasiyası nəticəsində yaranır. 61 Etnosun yaranmaı zamanı qarşılıqlı assimilyasiya gərəkli olsa da, kifayət deyil. Reyn sahillərində fransızlarla almanlar min ildən artıqdır ki, yanaşı yaşayır, eyni dinə etiqad edir, eyni məişət əşyalarından yararlanır, bir-birinin dillərini öyrənir, lakin bir-birinə qovuşmurlar. Avstriyalılar - macarlar və çexlərlə, ispanlar-kataloniyalılar və basklarla , ruslar - udmurtlarla, verslər və çuvaşlarla da eynilə.

Bəzən, çox müstəsna hallarda, bir bölgədə etnosların qovuşması baş verir, lakin bu zaman qovuşan etnoslar yox olur, [133-134] əvəzində isə əvvəlkilərdən heç birinə bənzəməyən yenisi myedana çıxır. İlk vaxtlar yeni etnosun üzvləri hələ özlərinin özünəməxsusluqlarına alışa bilməsələr də, ikinci, yaxud üçüncü nəsidə əcdadlarından fərqli olduqlarını vurğulayırlar. Bu hadisələri qarşılıqlı assimilyasiyanın nəticəsi saymaq olmaz, çünik onlar heç də həmişə meydana çıxmır və həddən artıq böyük sürətlə cərəyan edir. Sanki partlayış verir. Deməli, onların meydaana çıxması üçün əlavə bir amil də tələb olunur ki, onun açıqlanması gərəkdir.

Təsvir etdiyimizdən əlavə, etnosların, əvvəlkiyə bənzəməyən daha bir yaranma üsulu mövcuddur. Tez-tez tarixi keşməkeşlər nəticəsində etnosdan bir qrup insan ayrılaraq, yaşayış yerini dəyişir. Zaman keçdikcə, bu adamlar yeni davranış stereotipi yaradır və metropoliya ilə əlaqəni itirirlər. Bəzən onlar məhv olurlar, lakin əksər hallarda aborigenlər, yaxud digər küçkünlərlə qarışaraq, müstəqil etnoslar təşkil edirlər.

İkinci varianta nümunə kimi XVII əsrin sonunda ingilislərlə bütün əlaqələri kəsən ingilis-sakson mənşəli amerikalıları; ispan konkistadorlarının xələflərini - kreolları; holland, fransız və Şimali Almaniya kəndlilərinin nəvə və nəticələrini - burları; XVI əsrdə bütün digər hindlilərdən fərqlənməyə başlayan və kastaları ləğv edən silkxləri; monqolların 1688-ci il qurultayında mancurlara tabe olmaqdansa, ruslarla ittifaqa girməyi üstün tutan hissəsini - buryatları və tarixi talenin keçməkeşləri üzündən onlar kimi öz əsas etnoslarından ayrılan bir çox başqalarını göstərmək olar.

Bir çətinliyi olmasa da, mütləq qeyd etmək lazımdır ki, hər iki variantın genezisi fərqlidir və hər iki variantda dəyişikliyin səciyyəsi tamamilə müxtəlifdir. İkinci variantda yeni yaranan etnoslar öz mədəniyyətlərinin orbitində qalaraq, yalnız lokal xüsusiyyətlər kəsb edirlər. Birinci halda isə, tamamilə yeni hadisə baş verir, onu törədən xalqların institutları qorunub saxlanır, lakin onlar yalnız köhnənin qalıqları, yaxud əxzetmələr şəklində olur. Güman ki, məhz birinci variant həqiqi etnogenez - yeni superetnosların doğulmasıdır, halbuki ikinci variant - yalnız superetnik rəngarəngliyin artmasıdır. Belə ki, ABŞ heç də superetnos yox, sadəcə olaraq, roman-german Avropasının və qismən də qul alveri sayəsində - Afrikanın okeanın o tayındakı davamıdır. Amerika superetnosunun qırıqları atabasklar, siular, alqonkilər və digər tayfalardır. Buna görə, bundan sonra biz yalnız birinci variant barəsində danışacağıq. [134-135]

Tarix- hadisələr haqqında elm olduğundan, hadisələr isə təmaslar zamanı meydana çıxan toqquşmalar vaxtı ğaş verdiyindən, məhz təmaslarsa daha çox diqqət yetirmək gərəkdir. Biz də bu mövzuya əvvəllər toxunsaq da, onu kifayət qədər əhatə etməmişik.

Müxtəlif səviyyədə təmaslar. Etnik təmaslar probleminə qayıdarkən, ilk növbədə təmasın həyata keçirildiyi səviyyə barəsində məsələ qaldırılmalıdır. /bax: cədvəl 2/. İki və daha artıq konsorsiya və konviksiyanın əlaqələnməsi səbatlı deyil. Bu, ya parçalanmaya, ya da dayanıqlı subetnosun formasının yaranmasına doğru aparır. Subetnik səviyyədə qarışma “məhrəm olmayanla” “qeyri-bərabər nigah” kimi mənalandırılır, həm də bu zaman çox vaxt sosial pilləkənin hansı pilləsində olmasının əhəmiyyəti yoxdur. Belə ki, hələ XIX əsrdə kazaklar kəndlilər, hətta mülkədarlarla nigahı “qeyri-bərabər” sayırdılar, halbuki ikincilər kazaklardan qat-qat zəngin və əsil-nəcabətli idilər. Mənə, güman ki, iğtişaşlar dövrünə aid olan, belə bir hikməti eşitmək nəcib olub. “Müqəddəs kitabda deyilir: yəhudilər, samaryanlarla, kazaklar isə mülkədarlarla oturub - durmayın.” Əlbəttə, heç bir “müqəddəs kitab”da belə şey yoxdur, lakin kürdlərin farslar və ermənilərə münasibəti buna necə də oxşarıdır! Dilənçi çoban-kürdün qədim və məlum əsl-nəcabəti olmayan fars mənşəli qadınını qohumlarına təqdim etməyə cürəti çatmır. Osmanlı imperiyasında - albanlar, İspaniyada -basklar, Böyük Britaniyada -şotland- haylenderlər, Hinduqişda isə patanlar özlərini bu yolla mühafizə etmişlər. Onlar digər subetnoslarla endoqamiya ilə möhkəmləndirilmiş simbioz əsasında səbatlı etnik bütövlər yaradırdılar. Avrasiya kontinentinin mərkəzi hissəsində simbioz formaları hələ ən qədim dövrlərdə özünü çox parlaq şəkildə biruzə verirdi. Etnoslar onların mədəni-təsərrüfat vərdişlərinə müvafiq olan landşaft bölgələrinə yiyələnir, bir-birinə mane olmur, əksinə, yardım göstərirdilər. Misal üçün, yakutlar Lenanın geniş subasarında, evenklər isə tayqanın suayrıcı zolaqlarında yerbəyer olurlar. Çay vadilərində məskunlaşan velikoroslar geniş çölləri qazaxlar və kalmıklara, qalın meşəlikləri isə uqor xalqlarına “bəxş edirdilər”. Belə etnik bütövün mürəkkəblik və çoxşaxəliyi artdıqca, onun möhkəmlik və rəistehtliyi də artırdı.

İki və daha artıq etnosun vahid sosial orqanizmdə yanaşı olması tamam başqa məsələdir. Bu və ya digər sosial orqanizmin xrakateri bir sıra hallarda eyni bölgədə yaşamağa, bir-birindən [135-136] usansalar da, bu birgə yaşayışa dözməli olan ortaq etnoslar qarşılıqlı fəaliyyətinə öz təsirini göstərir. Onları “kseniyalar” adlandırmaq olar. Vallonlarla flamandların sanki ümumi mənzildəki kimi yaşadıqları Belçika, simbiozlara xas olduğu kimi, ingilislər, fransızlar, fransız-hindu metislər, hazırda isə üstəlik slavyanların da bir-birinə qarışmadan və funksiyaları paylaşdıraraq yaşadıqları Kanada dediklərimizə nümunədir.

Lakin iki və daha artıq superetnosun təmasları bundan da ağrı-acılıdır. Bu vaxt yalnız etnik annihilyasiya deyil, həm də demoqrafik tənəzzül, yəni dözülməz şərait üzündən qırılma, yaxud zəif tərəfi fiziki cəhətdən məhvi daha tez-tez baş verir. XVIII-XIX əsrlərdə belə hallar hinduların skalpları /başın saçla birlikdə soyulmuş dərisi-tər./ üçün pul ödənildiyi ABŞ-da, “kauçuk xəstəliyi”nə tutulmuş Braziliyada, ingilislərin istila etdikləri Avstraliyada və Qədim Çin mədəniyyətinin qədim jun /təngüt/ tayfalarını mədəniyyətilə toqquşduğu Huanhe çayı vadisində baş vermişdi. Sonuncuları bir hədəf kimi məhv etmişdilər.

Lakin tarixdə elə dövrlər də müşahidə edilir ki, bu zaman superetnoslar dinc yanaşı yaşamasalar da, bir-birini məhv etməklə də məşğul olmurlar. Bəzən isə bir etnik bütövün superetnoslar bir-birinə nifrət etmək üçün bir bəhanələri olmadığı halda belə, öz aralarında dəhşətli müharibələr aparırlar. Ən parlaq

nümunə seçək və bunun necə baş verdiyini nəzərdən keçirək. Görək, dövlətin tarixi hadisələrin gedişinə qənaətbəxş açıqlama verə biləcəkmi?

**Cədvəl 2. Etnik iyerarxiya**

| Taksomanik vahid | Hibrid | İnkişafın istiqaməti | Formayaratmanın son həddi |
|---|---|---|---|
| Konsorsiya | Qeyri-sə-batlı birləş-mələr | Subetnik özünütəsdiq | Subetnos |
| Konviksiyalar | Təhrif olunmuş birləşmələr | Ərazi icması yaradılması | Subetnos |
| Subetnos | Simbiozlar | Etnik özünütəsdiq | Etnos |
| Etnos | Kseniyalar | Sosial institut yaradılması | Superetnosda aparıcı rol və strukturun dondurulması [136-137] |
| Superetnos | Ximera | Annihilyasiya | Relikt |
| Bəşəriyyət | Mezolitdə Karmel dağında paleontrop hipotetik qarışma | Etnogenez | ? |
| Hominoidlər | ? | Təkamül filogenez kimi | Növün yox olması |

Simbioz - etnosların qarşılıqlı faydalı birgəyaşayış forması. Bu zaman simbiontların /simbioza daxil olan tərəflərlər./ Hər biri özünəməxsusluğunu qoruyub saxlayır.

Kseniya - /yunanca - qonaq qadın, qonaqpərvərlik/ - özünəməxsusluqlarını saxlamaq şərtilə, etnosların neytral dinc yanaşı.

Ximera - / şir başı, keçi bədəni və əjdaha quyruğu olan mifik heyvan/ - burada - müxtəlif superetnik sistemlərin bir-birinə uyuşmayan etnoslarını təmas forması. Bu zaman onların özünəməxsusluğu yox olur.

Annihilyasiya -/fiziki - heçə çevrilmə, yoxolma/-müxtəlif işarəli elementar hissəciklərin işıq saçma /fotonlar/ və kütlənin itirilməsilə müşayiət olunan qarşılıqlı məhvetmə hadisəsi.

Relikt /latınca Reliktum sözündən/ - etnogenez prosesi başa çatdıqdan sonra sistemin qalığı

Müxtəlif səviyyəli etnik bütövlərin nisbəti. Etnosların təklif olunan bölgüsü yalnız müasir deyil, tarixi etnoqrafiya üçün də faydalıdır. Biz bunu yaxşı araşdırılmış və çoxdan başa çatmış bir dövrün - Avrasiya kontinentində XII əsrin nümunəsində 62 sübuta yetirməyə çalışacağıq. Haqqında çoxlu mübahisə gedən, bu səbəbdən də geniş yayılmış bayağı təsnifatda gah "Qərbə", gah da "Şərqə" aid edilən Qədim Rus isə, fərdi örnək kimi istifadə olunacaq. Bu tamamilə qeyri-səmərəli bölgü roman-german dünyasının ideoloji cəhətdən Roma Kilsəsi tərəfindən birləşdirilən və özünü bütün digərlərinə qarşı qoyan superetnik vəhdətində meydana çıxıb. Qısası, bu, orta əsrlərdə məna kəsb edən, lakin hazırda da Qərbi Avropada və onun davamı olan Amerikada qalmaqda olan obivatel avrosentrismdir. [137-138]

Qərb Xristian dünyası"nı superetnik etalon /1/ kimi qəbul etsək, ona bərabər aşağıdakılar olacaq: 2/ Levant, yaxud "İslam aləmi"-heç də dini deyil, etno-mədəni, İspaniyadan Qaşqaradək uzanıb gedən bütöv; 3/Hindistan-müsəlmanların hökmran olduqları hissəsi istisna olmaqla 63; 4/ Özünü sərhədləri boyu barbarlar yaşayan "Aralıq imperiyası" hesab edən Çin; 5/Bizans - sərhədləri həmişə superetnik sərhədlərdən olan şərqi-xristian bütövü; 6/XVI əsrədək öz orijinal ənənələrini ingilis feodallarından qoruyan kelt dünyası 64; 7/XII əsrdə reliktə /qalıq-tər./ çevrilən Baltikyanı slavyan-rus bütpərəst bütövü; 8/Şərqi Avropa superetnik bütövü - Rus torpağı. Diqqətimizi onun üzərində cəmləşdirsək də, onun etnik taleyini yuxarıda sadalanan bütün superetnosların bütün münaqişələrinin qaynayıb-qarışması fonunda nəzərdən keçirəcəyik, çünki Avrasiya kontinentində təcridolma yalnız onuncu superetnos - Sibirin sirkumpolyar xalqları üçün mümkün idi, lakin o da evenklər və ya yakutlar tərfəindən tez-tez pozulurdu.

Məlum olduğu kimi, Şərqi Avropada meydana çıxan zaman slavyanlar tayfalara bölünürdülər və artıq XII əsrin əvvəlində bu, yalnız "İlkin salnamə" müəlliflərinin xatirində qalmışdı. Təbiidir. Etnik qovuşma böyük şəhərlər ətrafında intensiv şəkildə cərəyan edir, buradakı yeni şəraitdə əvvəlki tayfa fərqləriəhəmiyyətini itirirdi. A.A.Nasanov XI-XII əsrlər Rusunu "Rus torpağı"ndan bir səviyyə aşağıdan yerləşən "yarımdövlətlər" 65 sistemi kimi təsvir edir: 1/Şəhərətrafları ilə birlikdə Novqorod respublikası; 2/Polotsk knyazlığı; 3/Smolensk knyazlığı; 4/Rostov-Suzdal torpağı; 5/Ryazan knyazlığı; 6/Turovo-Pan torpağı; 7/Üç knyazlığı-Kiyev, Çerniqov və Pereyaslavlı əhatə edən Rus torpağı; 8/Volın; 9/Çervon /Qızıl-tər./ Rus, yaxud Qaliç knyazlığı. Bu siyahıya Vladimir Monomaxin zəbt etdiyi Donla Karpat dağları arasındakı Qıpçaq düzünü də əlavə etmək lazımdır. XII-XIII əsrlərdə Böyük Bulqar, qıpçaqların Don arxasındakı köçləri, Şimali Qafqazdakı alan torpaqları, Volqa Xəzəristanı və onun Saksin şəhəri rus sərhədlərindən xaricdə yerləşirdi.

Bu dövrdə bulqarlar və xəzərlər levant, yaxud müsəlman superetnosuna aid idilər. Landşafta uyğunlaşma üsuluna görə onlar qonşularından fərqlənmirdilər. Lakin Bulqar şəhərinin İranla sistemli ticarət və mədəni əlaqələri coğrafi mühitin təsirindən daha keyfiyyətli idi. Volqa Bolqarıstanını "müsəlman" superetnosunun forpostu və Vladimir knyazlarının rəqibi edən də elə məhz bunlar oldu. [138-139]

Qəbul olunmuş prinsipə riayət etdiyimiz halda, alanları və Krım qotlarını Bizans, litvalıları və yatvaqları isə - Baltika superetnosuna aid etmək mümkündür. Polyaklar və macarlar hələ X əsrdə Qərbi Avropa superetnosuna daxil oldular, alman səlibçilərinin polab slavyanları üzərindəki qələbəsi isə katolik Qərbi Avropanı etnik cəhətdən şəbəkəvari olsa da, mədəni cəhətdən monolit olan bütövə çevirdi. XII əsrdə bu bütöv hər dəfə uğurlu olmasa da, aramsız olaraq əhatə dairəsini genişləndirirdi ki, bu da XII əsrdə böhranə - səlib yürüşlərində məğlubiyyətə gətirib çıxardı.

Bir qat da aşağı ensək, yəni rus subetnoslarından birini, məsələn, Kiyevi nümunə kimi götürsək, orada üç fəal konsorsiya görərik: qərblilər /knyaz II Svyatopolnuk tərəfdarları, o cümlədən Kiyev-Peçera lavrası/, yunanpərəstlər /Vladimir Monomaxır və Müq.Sofiyada yerləşənə mitropoliya tərəfdarları/ və Vseslav Kiyevdən qovulandan sonra rəğbət bəslədikləri üçün çox əziyyətlər çəkmiş millətçilər.66

Aydın görünür ki, konsorsiyalar sinfi, zümrə, dini və tayfa bölgələrilə üst-üstə düşərək, müstəqil fərqləndirmə sisteminin fenomenlərini təşkil edirlər. Bu sistem çox faydalı sayıla bilər. Çünki məhz onun sayəsində, misal üçün, yuxarıda sadalanan siyasi istiqamətlərin tərəfdarlarının əsaslandıqları motivləri duymaq mümkündür. Sinfi ziddiyyətlərin araşdırılması zamanı bunu etmək mümkün deyil, axı, olayların bütün iştirakçıları bir sinfə mənsub olub, xalq içindəki həmfikirlərindən güc alırdılar. Bununla belə, mübarizə çox fəal və sərtgedirdi. Nə, üstündə? Və nəyin naminə?

"Beş tayfa" ilə "Aralıq çöl" sakinlərinin ilişkiləri. E.ə. III əsrdən eramızın III əsrinin sonunadək əkinçilik ölkəsi olan Çinlə maldarlıqla məşğul olan xunların məskunlaşdıqları Böyük çöl yanaşı ömür sürürdü. Hər etnos öz landşaftlarında yaşamaqla yanaşı, qonşularla birlikdə köçəri mədəniyyəti və Uzaq Şərq sivilizasiyasının superetnik qurumlarına da daxildir. Hər ikisi polietnikdi. Köçərilər dünyasına xunlardan savayı sənbilər (qədim monqollar), tsyanlar (köçəri tibetlilər), kiçik yueçjilər, usünlər, qıpcaqlar və digər tayfalar daxildi. Çində çinlilərdən başqa dillərinə görə tibet-birma, tay və malay qruplarına aid olan aborigenlər: junlar (çunlar-?), dilər, mancurlar və yüelər yaşayırdı.

Ümumi mədəniyyətlə ilgili olan bu superetnosların mövcudluğu müddəti müasirlərinə tarixi fəaliyyəti "durum" kimi nəzərdən keçirmək imkanı versə də, əslində bunlar ləng cərəyan edən proseslərdi. Vahid Çin dövlətinin yaradılması və e.ə. III əsrdə [139-140] antaqonik ziddiyyətlərə çevrilən sinfi ziddiyyətlərin kəskinləşməsi sakinlərin 60%-dən çoxunun qırılmasına, eramızın III əsrində bu imperiyanın parçalanması isə həmin dövrdə mövcud əhalinin 80%-dən çoxunun məhvinə səbəb oldu. III əsrin sonunda kimsəsizləşmiş və dilənçi kökündə olan ölkəni Tsin sülaləsi birləşdirdi. Bu zaman Çində 50 milyondan cəmi 7,5 milyon adam qalmışdı. Sonralar IV əsrdə onların sayı 16 milyona qədər artdı.

Lakin ən qanlı sosial təlatümlər zamanı da çin etnosunun məhv olması üçün kifayət qədər daxili əsas yox idi. Boş torpaqlar çox olduğundan, əhalinin sayının artımı üçün şərait vardı. Dövlət sistemi fəaliyyətdə idi, mədəniyyətə qarşı təqiblərə xitam verilmişdi. Köçərilərlə sıx təmaslar və Tsin sülaləsinin özü üçün də çox gözlənilməz olan müqavimət qabiliyyətinin itirilməsi olmasaydı, qədim Çin etnosu varlığını davam etdirə də bilərdi.

Çöldə qəbilə quruluşu hökm sürür və onun dağılması o qədər ləng gedirdi ki, köçərilənə bir o qədər də zərər vermirdi. Əvəzində, onlar çöldə I əsrdə başlamış və III əsrdə artıq ən yüksək zirvəsinə yetişən quraqlıq prosesindən əziyyət çəkirdilər. Otlaqların kəskin azalması xunlarla sənbiləri Huanhe və Luaohe çaylarının sahilinə doğru sıxlışmaq və çinlilərlə təmasa girmək zorunda qoydu. Bu torpaqlar başlı-başına qaldığından, Tsin hökuməti səhəddə 400000 köçəri və təxminən 500000 müxtəlif qəbilələrə mənsub tibetlinin məskunlaşmasına razılıq verdi. III əsr Çin siyasətçiləri belə düşünürdülər ki, etnik mənsubiyyət - sosial durumdur və sayca cüzi olan yabançıları assimilyasiya etmək çətin şey deyil: knyazlara mədəniyyət aşılamaq, onların həmtayfalarını isə vergilər ödəyən bir zümrəyə çevirmək kifayətdir. Bu təxmin çox ötkəm və olduqca zay idi. Həmtayfalar məmurların özbaşınalığına və mülkədarların istismarına dözür, amma çinlilərə çevrilmirdilər; knyazlar heroqliflərə və klassik poeziyaya yiyələnsələr də, 304-cü ildə əlverişli məqam tapan kimi, həmyerlilərinin yanına qayıtdılar və itirilmiş hüquqları "silah gücünə qaytarmaq" məqsədi güdən üsyana başçılıq etdilər. Reallığa tətbiq olunan yalançı nəzəriyyə fəlakətə gətirib çıxardı.

Artıq 316-cı ildə 40000 xun bütün Şimali Çini, o cümlədən, iki paytaxtı, iki imperatoru və onların bütün mərvətlərini ələ keçirdi. Çinlilər o zamanlar Çinin ucqarları olan Yantsəı sahillərinə qovuldular və tropik cəngəlliklərdə man qəbilələrilə qarışmalı oldular ki, bu da onların xarici görünüş və psixoloji simalarını önəmli dərəcədə dəyişdi. Burada etnogenezin, sonralar Cənubi Çin [140-141] etnosunun yaranmasına gətirib çıxaran xüsusi prosesi cərəyan etməyə başladı. Vətəndə qalan çinlilərsə xunlarla qarışdılar və ... bununla da onları məhv etdilər. Müzəffər xunlarla çinli qadınların izdivacından törəyən elə ilk nəsil çöl köçərilərinin adətlərini unutdu. Sarayda tərbiyələnən bu nəsil enerji və cəsurluğunu qorumaqla yanaşı, "özününkü" hissini, çiyin-çiyinə durmaq qabiliyyətini və sədaqət imperativini itirdi.

Daxili çəkişmələr onları taqətdən saldı, halbuki ataları dinclik şəraitində yaşamağı bacarırdılar. Nəvələr nəsli isə adamyeyənlik və yaxınlarına xəyanətlə məşğul olan nadan kurtizanlara çevrildi. Hücum əməliyyatları barədə söz açmaq belə yersiz olduğu bir yana, xunlar hətta müdafiədə də məğlubiyyətlərə uğramağa başladılar. Nəhayət, 350-ci ildə imperatorun oğulluğa götürdüyü çmnli öz qardaşlarını - taxt - tac varislərini qətlə yetirdi və hakimiyyəti ələ keçirərək, ölkədəki bütün xunları qırmağı əmr etdi. Bu əmr elə canfəşanlıqla yerinə yetirildi ki, xunlara bənzəyən çoxlu saqqallı və donqarburun çinli də həlak oldu.

Soyqırımı müstəbidi xilas edə bilmədi. Syənbi-müyünlər onun çinlilərdən ibarət qoşununu darmadağın edərək, özünü də qətlə yetirdilər. Say üstünlüyünü çinlilərə köməyi olmadı- onlar da məniyyətlə birlikdə döyüşkənliklərini də itirmişdilər. Müyünlərin də taleyi xunlar kimi oldu. Onlar da çinliləşdilər və çöl tabğacları tərəfindən məğlub edildilər. Tabğaclar əvvəlcə köçərilərioz ətraflarında birləşdirsələr də (etnik metisləşmə səviyyəsində qarışma), sonradan öz başlarına bəla gətirdilər - monolit çinli əhalinin yaşadığı Henani işğal etdilər. V əsrin sonu üçün onlar çinlilərlə elə qaynayıb-qarışdılar ki, imperator titulu qəbul edən tabğac xanı doğma dilə, geyimə, saç formasına, hətta adlara da qabağa qoydu. Özünəməxsus davranış stereotipindən məhrum olunan təbəələr sülaləni devirən və ölkəni taqətdən salan fırıldaqçı-kondotyerlərin qurbanı oldular.(67) Üstəlik, ağlıq da bir tərəfdən ölkə əhalisinin 80 %-nin həyatına bais oldu.(68) İki superetnosun qarışması xalqlara belə təsir göstərdi ki, lakin sağ qalanlar gözlənilmədən VI əsrdə yeni etnosda birləşdilər. Tabğac (syanbilərin verdiyi ad) adlandırılmış bu etnos çin dilini (qədim çin dilindən fərqlənən) və yabançı ideologiyasını - buddaçılığı qəbul etdi. Bu, orta əsr Çin etnosunun əsasını qoyan möhtəşəm Tan dövrü idi. Həmin dövr yalnız XVIII əsrdə Çinin mancurlar tərəfindən istilası zamanı başa çatdı. Amma bu, artıq etnogenezin Bizansın qədim Romaya aid [141-142] olmasına bənzər olduğu kimi, özündən daha qədim dövrə aid olan yeni dövriyyəsidir. (69)

Gətirdiyimiz örnəkdə etnosla landşaftın ilişkiləri aşkar izlənir. Huanhe vadisini zəbt edən xunlar orada mal-qara otarır, çinlilər əkin sahələri salır, kanallar çəkirdilər. Nə maqdarlıq, nə də əkinçilik vərdişlərinə malik olmayan xun-çinlilərsə qonşularını və təbəələrini vəhşicəsinə var-yoxdan çıxarırdılar ki, bu da sahibsiz torpaqların meydana çıxmasına meşələrin qırılması və hökmdarların ov çıxması nəticəsində dırnaqlı heyvanların məhv edilməsi üzündən kasadlaşmış olsa da, təbii biosenosun bərpasına gətirib çıxardı. Lakin artıq XII əsrdə çinlilər itirdikləri torpaqları geri qaytardılar və aramsız, yırtıcı istismar yolu ilə landşaftı deformasiyaya uğratdılar. Amma bu barədə bir qədər irəlidə.

Barbarlarla romalıların təmasları. Etnosların pərakəndə qarışmasının yuxarıdakına bənzər mərhələsini elə həmin dövrdə kontinentin Roma imperiyasının dağıldığı ucqarlarında da izləyirik. Bu barədə bir çox mühakimələr yürüdülsə də, onların demək olar ki,hamısını E.Gibbonun məşhur tezisləri üstələyir: “Roma imperiyasında təcəssüm olunaraq, Antoninlər dövründə ən yüksək zirvəyə ucalan, ellin cəmiyyəti, iki istiqamətdən hücuma keçən düşmənlər -Dunay və Reyn arxasındakı səhralardan gələn barbarlar və zəbt olunsalar da, assimilyasiyaya uğramayan şərq əyalətlərində təşəkkül tapan xristian kilsəsinin eyni vaxtda baş verən hücumu sayəsində süquta uğradıldı”.(70) Görək, o haqlı idimi?

Roma imperiyasının germanlarla I əsrdən IV əsrədək davam edən savaşı onun qələbəsilə sonuclandı. Həm Reyn, həm də Dunay sərhədləri toxunulmaz qaldı. Qotlarla savaşlarda uğradıqları bir sıra məğlubiyyətlər və qot donanmasının Egey dənizi sahilboyunu talan etməsinə isə Feodosinin əldə etdəyi qələbələrlə bəraət qazandırıldı. Roma yalnız Germaniyanın Reynarxası vilayətlərini itirdi və Dakiyanı könüllü şəkildə tərk etdi. Lakin italiklər onsuz da bu vilayətlərdə yaşamaqdan imtina edirdilər, əyalət sakinləri isə buralara sürgün olunduqlarından, onların taleyi senat və Roma xalqını ilgiləndirmirdi. Yadelli təcavüzlərə qarşı müqavimətin kəskin şəkildə zəiflədiyi V əsrdə isə durum dəyişdi. Bu dövrdə Stilihon və Aetsi germanlar və hunlar üzərində qələbələr əldə etsələr də, onları romalılar özləri - al qumaş paltar geyib, diadema qoyan fitnə-fəsadçılar və degeneratlar aradan götürdülər. Romanın bəlası xaricdə yox, onun daxilində idi. (71) [142-143]

Heç barbarlar özləri də Roma mədəniyyətini məhv etməyə can atmırdılar. Viziqot kralı Ataulf, onun öz etiqadına görə, “bütün Roma domenini qot imperiyasına çevirmək ehtirası ilə yaşamağa başlasa da.. bir müddət sonra əldə etdiyi təcrübə onu inandırdı ki.. qanunla idarəetməni dövlətin həyatından kənar etmək cinayət olar, çünki dövlətdə qanun hökmran olmadığı halda, o özəlliyindən məhrum olur. Ataulf bu həqiqəti dərk etdikdə belə bir qənaətə gəldi ki, qotların həyati qüvvəsini Romanın şənini hər şeydə, ələlxüsus da onun qədim möhtəşəmliyində bərpaya sərf edərsə,...şöhrətlənər.”(72) Lakin əgər belədirsə, Roma mədəniyyəti, onunla birlikdə isə həm də bu mədəniyyətin vurğunu olan mərd və qüdrətli qotlar dünyanın etnik xəritəsindən niyə yox oldular?

Germanların müvəffəqiyyətlərinin zaman etibarilə Roma imperiyasının bütün ərazisinə xristianlığın təntənəsilə üst-üstə düşməsi bu doktrinin xalq və dövlət üçün fəlakətli olmasını sanki təsdiq edir. Bütpərəstliyin müdafiəçiləri, Kapitolidə Robedanın (qədim Roma ilahəsi,-tər.) mehrabını bərpa etməyə çalışan Yevgeni və Arboqast bu konsepsiyanı hələ 393-cü ildə irəli sürmüşdülər. Lakin 312-ci ildə olduğu kimi, yenə də xristian legionları daha dəyanətli çıxdılar. Bütpərəstlər ordusunun başçıları döyüşdə qəhrəmanlıqla həlak oldular, lakin bununla sübut etdilər ki, inkişaf perspektivi bu və ya digər dinə etiqadda deyil, daha adi, dünyəvi məsələlərdədir. Ən mraqlısı isə budur ki, kilsə başçıları da məhz elə bunu iddia edirdilər.

Müqəddəs Avqustun və ya V əsrin istənilən başqa bir xristian mütəfəkkiri deyə bilərdi ki; "Dakiyanı tərk etməyi və sərhədlərdə güclü hərbi məntəqələr yaradılmasını nəzərdə tutan siyasətdən imtina etməyi imperator Avreliana biz məsləhət görməmişdik. Hər cür adamı Roma vətəndaşı adına layiq görməsini, yaxud hərbi və mülki vəzifələr əldə etmək əhalini bir yerdən başqa yerə köçməyə və zorlamağı da Karakallaya məsləhət bilməmişdik... Vətənpərvərlik hissinə gəldikdə isə, məgər onu sizin öz imperatorlarınız məhv etmədilərmi? Qallar və misirliləri, afrikalılar və hunları, suriyalılar və ispanları Roma vətəndaşlığına qəbul edərkən onlar bilmirdilərmi ki, alabəzək kütlədən onları istila edən Romanın mənafelərinə sadiqlik gözləmək mümkün deyil? Vətənpərvərlik bir yerə cəmləşməkdən asılıdır, lakin parçalanmaya dözümü yoxdur." Müqəddəs Avqustun haqlı oladı, amma elə həmin an ortaya sual çıxır: bəs nə üçün özləri də eynilə etnik baxımdan rəngarəng olan [143-144] xristian icmalarında özünü fəda etmək, çiyin-çiyinə vermək, birgəlik hissləri və inkişaf etmək imkanı meydana çıxdı?

Cavab çox sadədir: irqi fərqlər həlledici, ümumiyyətlə isə, bir qayda olaraq, o qədər də böyük önəmə malik olmur, etnik fərqlərsə davranış dairəsində yerləşir. Xristian icmalarının davranış stereotipi ciddi şəkildə reqlamentləşdirilmişdi. İman gətirən ya onlara riayət etməli, ya da icmanı tərk etməli idi. Deməli artıq 2-ci nəsildə xristian konsorsiyaları əsasında heteroziqot (qeyri - yekcins, -tər.) olsa da, monolit subetnos formalaşdı. Halbuki, bütpərəst, daha dürüst desək, qeyri-dini imperiyada təbəələrin psixoloji baxımdan yenidən formalaşdırılması həyata keçirilmirdi.

Haqqında Avqustinin danışdığı əhalinin İmperiyadaxili miqrasiyaları da eyni məhvedici qüvvəyə malikdi. İnsanla onu əhatə edən təbiətin - landşaftın nisbəti bütün hallarda uyğunlaşan ilə təyinlənən daimi dəyərə malikdi. Suriya və Britaniya, Qalliya və Frakiyanın landşaftları fərqlidir. Deməli, köçkünlər şəhərlərdə yaşamağa üstünlük verirdilər - burada qala divarları onları yabançı, alışmadıqları və sevmədikləri təbiətdən təcrid edirdi. Bu isə o deməkdir ki, onlar təbiətə sırf istehlakçı, daha sadə desək - yırtıcı münasibət bəsləyirdilər. Nəticədə, Qalliyadakı meşələrin 2/3 hissəsi, Apennindəki fıstıq meşələri qırıldı, Atlas dağlarındakı vadilər şumlanaraq bəhərdən səlindi, Ellada və Frifiyanın təpəlikləri keçirilən qurbanı oldu. Ən dəhşətli tarmarı hərbi tribunaların özləri yox, onların kolonları, yəni qaçmalarını çətinləşdirmək üçün vətənlərindən uzaqlarda məskunlaşdırılan hərbi əsirlər törədirdilər.

Başqa sözlə, Roma imperiyasının sərt sosial ilişkilərinin toxunulmazlığı ilə yanaşı, etnik ilişkilər artıq IV əsrdə tamamilə pozulmuşdu. V əsrdə germanların hücumu isə bu prosesi daha da ağrılı etdi, çünki fəal metisləşmə qot, burqund, vandal tayfalarını da tədricən dağıtmaqla, onları ümumi dağılma prosesinə cəlb etdi. Elə həmin əsrləndə İmperiyanın şərq ucqarında yeni etnos formalaşdı. Deməli, burada əlavə "iks" amili fəaliyyət göstərirdi ki, görünür biz onun əhəmiyyətini də açıqlamalı olacağıq.

Etnoslar həmişə təmaslardan yaranır. Bəs superetnoslar bir-birindən nə ilə fərqlənir və onlara bir-birilə qovuşmağa, yaxud sələflərinin sərvətlərindən faydalanmağa nə mane olur? Axı, superenos daxilində olan etnoslar bir-birilə tez-tez və maneəsiz qovuşur. Superetnosların bu daha yüksək davamlılığını etnik dominantların, bu və ya digər ideaalların sözlə ifadəsinin mövcudluğu ilə açıqlamaq mümkündür ki, hər bir superetnosda bunlar eyni önəmə [144-145] və bu sistemə daxil olan bütün etnoslar üçün oxşar anlam dinamikamına malikdir. İdealı yalnız riyakarcasına əvəzləmək mümkündür, amma bu halda superetnosların qovuşması da saxta olacaq: fərqli superetnosların hər bir təmsilçisi qəlbinin dərinliklərində yalnız ona təbii və yeganə düzgün görünəni qoruyub saxlayacaq. Axı, ideal onun davamçısına daha çox indikator kimi yox, həyatda bərqərar olmağın simvolu kimi görünür. Beləliklə, biz elə olayı, yaxud olaylar kompleksini (dini, ideoloji, hərbi, məişət və i.a.) dominant adlandırırıq ki, o, etnogenez prosesi üçün ilkin olan etnomədəni rəngarənglikdən məqsədyönlüyə keçidi şərtləndirsin.

Xatırladaq ki, etnos fenomeni elə onu təşkil edən fərdlərin davranışıdır. Başqa sözlə, o, insanların cismində yox, hərəkət və qarşılıqlı münasibətlərindədir. Deməli, yenicə doğulmuş körpə istisna olmaqla, etnos xaricində olan adam yoxdur. Hər iki insan özünü hər hansı şəkildə aparmalıdır və onun etnikmənsubiyyətini məhz davranış xarakteri şərtləndirir. Əgər belədirsə, yeni etnosun meydana çıxması əvvəlkindən fərqli yeni davranış stereotipinin yaradılmasıdır. Tamamilə aydındır ki, yeni stereotipi insnalr yaradır, amma burada dərhal anlaşılmazlıqlar yaranır. Birincisi, bu yenilikçilər şüurlu, yoxsa kortəbii şəkildə hərəkət edir? İkincisi, həmişəmi yeni köhnədən yaxşı olur? Üçüncüsü, onlar yalnız həmtayfalarında deyil, əvvəlki etnosun canı-canından olduqlarından, elə özlərindəki ənənə ətalətini necə üstələyirlər? Nəzəri baxımdan, bü şübhələrin həlli yoxdursa da, köməyə paleoetnoqrafik müşahidələrdən əldə edilən materiallar yetişir. Bu materiallar empirik ümumiləşdirmə söyləməyə imkan verir: hər bir etnos özündən əvvəl mövcud olmuş iki və daha artıq etnik substratın, yəni etnosun qarışması nəticəsində meydana gəlib. Belə ki, ispanlar nisbətən gec- orta əsrlərdə bu adı daşıyan etnos kimi formalaşmış və həmin etnos qədim iberlər, Roma kolonistləri, german tayfaları- svevlər və vestqotlarla qovuşmuş, onlara basklar -iberlərin birbaşa xələfləri, alanlar - sarmatların xələfləri və osetinlərin ən yaxın qohumları, ərəb-semitlər, mavrlar, tuareq-hamitlər, normanlar və qismən öz etnik özünəməxsusluqlarını qoruyub saxlayan katalonlular qarışmışlar.

İngilislər - anqlar, sakslar, ərləri savaşlarda öldürülən kelt qadınları, danimarkalılar, norveçlilər, Anju və Puatyedən olan fransızlardan ibarət mürəkkəb etnosdur.

Velikoroslar öz tərkiblərində aşağıdakıları əhatə edirlər: Kiyev Rusundakı şərqi slavyanları, qərbi slavyanları- vyatiçləri, [145-146] finləri -meryalar, muromlar, veslər, zavolotsk çudları, əvvəlcə yuxarıda sadalana fin tayfaları ilə qarışan uqorları, baltlar-qolyadları, türklər- xaçpərəstliyi qəbul edən qıpçaqlar, tatarlar və çox az sayda monqolları.

Qədim çinlilər Huanhe vadisində və monqoloidlərin çeşidli antropoloji tiplərinə mənsub tayfaların qarışığıdır ki, bunların arasında hətta avropeidlər-dilər də vardı. Yaponiyada da durum bunun eyni idi. Hələ qədim dövrlərdə burada polipeniziyalılara bənzəyən hündürboylu monqoloidlər, saqqallı aynilər, alçaqboylu Koreya monqoloidləri və Çindən köçüb gələnlər monolit etnosda birləşmişdi.

Hətta tarixləri əsrlərin zülmətində gözdən itib gedən azsaylı və təcrid olunmuş etnoslar da relikt antropoloji və linqvistik əlamətlərində etnik substratların keçmiş fərqlərini qoruyub saxlayıblar. Eskimoslar və Pasxa adası sakinləri, mordva və marilər, evenklər və Hinduquş ətəklərində yaşayan patanlar belələrindəndir. Bu onu göstərir ki, qədimdə onlar mürəkkəb tərkibə malik etnik kollektivlər olmuşlar, hazırda izlənən eyniliklə müxtəlif ənənələr arasındakı uyğunsuzluqları hamarlayan uzunmüddətli etnogenetik proseslərin məhsuludur.

Lakin, axı, bu, etnosların qarışmasının fəlakətli olması barədə indicə verilən təsvirlərə ziddir. Halbuki, mən birincisi, həm də ikinci müşahidə təkzibolunmazdır! Daxili ziddiyyətə malik nəticə doğru ola bilərmi? Yalnız bir halda: aşkar olunmaması məsələnin həllini mümkünsüz edən hansısa çox önəmli detalı, "iks amili"ni nəzərə almadığımız zaman. Bu üzdən də sınaq və yanılma üsulundan yararlanaraq irəliləməkdə davam edək ki, bütün məlum amilləri açıqlaya bilən ziddiyyətsiz bir fərziyyə əldə etməyə nail olaq.

"İks amili. Daha bir ehtimal sınayaq. Bəlkə yeni etnos yaranmasının səbəbi uzun sürən bir proses deyil, ani bir sıçrayışdır? Bunu yalnız olayları kimi kifayət qədər təsərrüfatla təsvir olunmuş yeni tarixin timsalında yoxlamaq mümkündür. Latın Amerikasının tarixinə üz tutaq. İspan konkistadorları savaşlarda qəddar olsalar da, artıq III Pavelin 537-ci il bullasından (fərman,-tər.) sonra hinduları "aşağı irq" kimi deyil, layiqli rəqiblər kimi qəbul edirdilər. Salamat qalan hindu başçılarına xaçpərəstliyi aşılayaraq, onları öz mühitlərinə qəbul edir, sadə hinduları isə asiyendalarda (malikanə,-tər.) peonlara çevirirdilər. 200 il ərzində Meksika və Peru əhalisi beləcə formalaşdı, amma dağlarda və tropik meşələrdə [146-147] təmiz hindu tayfaları qalmaqda idi. Qul alveri Amerikaya zəncilərin gətirilməsinə səbəb oldu, müvhumatçılığın olmaması isə mulat və samboların (zəncilərlə hinduların izdivacından doğulanlar) yaranmasını şərtləndirdi. XIX əsrdə metropoliya-fransızların ələ keçirdikləri İspaniyadan azad olmaq uğrunda mübarizə başlandıqda isə, üsyançıların əsas başçıları ispanlar deyil, metis və mulatlar oldu. 1819-cu ildə Bolivar özü bu barədə belə demişlər: "Xatırlamaq lazımdır ki, xalqımız nə avropalı, nə də şimali Amerikalı olmayıb, avropalılardan daha artıq afrikalılarla amerikalıların qarışığıdır, zira İspaniya özü də Afrika qanına, qurumlarına və xarakterinə malik olması üzündən Avropaya aidiyyatını itirib. Bizim bəşəriyyətin hansı ailəsinə aid olduğumuzu dəqiq göstərmək mümkünsüzdür. Hindu əhalisinin çox hissəsi məhv edilib, avropalılar amerikalılarla, sonuncularsa hindular və avropalılarla qarışıb. Eyni ananın bətnindən doğulan, amma qanı və mənşəyi fərqli olan atalarımız - müxtəlif rəngli dəriyə malik əcnəbilərdir. Bu fərqlənmə önəmli nəticələrə bais olub."(73)

Tarixçilərin gözləri önündə yaranan bu xalq çox davamlı və qonşulara bənzəməyən bir xalq oldu. Bütün xarici əlamətlərinə -dil, mədəniyyət, din və i.a. - görə Venesuela və Kolumbiya sakinləri ispanlara yaxındır. Müstəqillik uğrunda mübarizə nəticəsində ispan himayəsini ingilis və Şimali Amerika ticarət şirəkətlərindən asıllıqla əvəzlənməsi iqtisadi baxımdan zərərli oldu. Bu savaş o qədər qanlı idi ki, əhalisi onsuz da az olan bir ərazidə 1 000000 adamın qırılmasına səbəb oldu - əhalisi qat-qat sıx məskunlaşan Avropada Napoleonun apardığı savaşlarda cəmi elə bu qədər adam həlak olmuşdu. Lakin üsyançıların nəzərində bütün qurbanlar bir şey naminə idi- onlar ispan deyillər və ayrıca yaşamalıdırlar. Maraqlıdır ki, bu zaman hindular İspaniya hökumətini dəstəkləyirdilər. Beləliklə, mənşəcə qarışıq olmaq etnosun yaranması üçün maneəyə çevrilmir.

Amma bu həqiqətənmi belədir? Axı məlumdur ki, heyvanlarda metis formaları çox vaxt davamsız və adətən, hər iki valideynin ixtisaslaşma qabiliyyətlərindən məhrum edilmiş olur ki, ilk nəsildə bu boşluq daha yüksək həyatsevərliklə dolur və həmin çassə sonrakı nəsillərə də ötürülür. Qarışıq nigahların xələfləri ya əvvəlki tiplərdən birinə (ata, yaxud ana) qayıdır, ya da ölüb gedirlər, çünki bu və ya digər mühitə uyğunlaşma bir neçə nəsil boyu formalaşır, iki ənənənin qarışığı isə uyğunlaşmada sabitsizlik yaradır. [147-148]

Bəli, əksər hallarda belə olur. Və bəzi hallarda insanlarda da təkrarlanır. Lakin bu daim baş versəydi, bir dənə də olsun yeni etnos meydana çıxmaz, ən qədim dövrlərdən bəri qarışıq nigahlardan istifadə edən bəşəriyyətsə hələ ilkin neolit dövründə qırılardı. Əslində isə az-az etnik qruplar məhv olaraq, etnoqrafik xəritədən silinir, bəşəriyyətsə bir nök kimi elə sürətlə inkişaf edir ki, hazırda əhali artımını demoqrafik partlayış adlandırırlar. Görünür, təbii seçimin destruktiv təsirilə xəbəredici irsiliyin, yaxud ənənəsinin sabitləşdirici rolunu tarazlaşdıran amil mövcuddur. Bu- "iks amili"dir, və o, davranış dəyişməsində özünü biruzə verməli, insanların özləri tərəfindən psixi strukturun xassəsi kimi qavranılmalıdır. Deməli, bu etnogenez proseslərini qıcıqlandıran və stimullaşdıran əlamətdir. "İks amili"nin

aşkarlamaq və aranan əlamətin məzmununu açmaqla biz özümüz üçün etnogenezin hər bir ayrıca götürülən olayı və ümumən hamısı üçün birlikdə səciyyəvi olan inkişaf mexanizmini aydınlaşdırarıq.

Qarşıya qoyulan məqsədə yetişməkdən ötrü bizə ümumbəşər tarixinin bol, yoxlanılan və ciddi şəkildə tarix qoyulan materialları gərəkdir. Həmin materialları təbiət elmində qəbul olunan üsullarla araşdırsaq, qarşıya qoyulan problemin həlli üçün bilgilər əldə edərik. Hələliksə, yuxarıda göstərilən anlaşılmazlıqları cavablamaqla kifayətlənək. 1. Yeni davranış stereotipini uydurmaq olmaz, çünki hər hansı bir qəribə adam qarşısına belə məqsəd qoysa da, özü əvvəlki, alışdığı - etnik kollektivin mövcud varlıq şəraitinə ən uyğunlaşmış şəkildə davranacaq. Etnosdan çıxmaq saçdan yapışaraq özünü bataqlıqdan çıxarmağa bərabər bir şeydir; məlum olduğu kimi, bunu yalnız baron Münhauzen bacarmışdı. 2. Yeni davranış stereotipi insanların qeyri-şüuru fəaliyyəti nəticəsində yarandığından, onun yaxşı, ya pis olması barədə məsələ qaldırmaq mənasızdır. Müqayisə üçün bir örnək yoxdur. Sadəcə olaraq, dərəcələmə tamamilə başqadır. 3. Lakin əgər davranış stereotiplərində əks olunan mövcud ənənəni qırmaq mümkünsüz,gərəksizdirsə və ümumiyyətlə, heç kim şüurlu şəkildə bunu arzulamırsa, onda görünür, bu, şəraitin özündən doğur. Hansı şərtlərdən? Məhz bu sualı cavavlamaq tələb olunur? [148-149]

# ÜÇÜNCÜ HİSSƏ

**E T N O S etnik hadisələrin araşdırılmasının hamı tərəfindən qəbul olunmuş üsullarının verildiyi və axtarılan nəticənin əldə olunmasının mümkünsüzlüyünü göstərən hadisədə**

## XII. ÜMUMDÜNYA TARİXİ HAQQINDA DÜŞÜNCƏLƏR

Ümumdünya tarixinin iki aspekti. Tarix -hadisələr, onların əlaqəsi və ardıcıllığı haqqında elmdir. Lakin hadisələr həddən artıq çox, müxtəlif xalqlarda onların əlaqələri müxtəlifdir. Hər hansı elmin vəzifəsi araşdırdığı predmeti bütövlükdə nəzərdən keçirməkdir ki, tarix bu barədə istisna deyil. Deməli, əlverişli müşahidə nöqtəsi tapmaq lazımdır və bu an təcrübəni, yəni aspekt seçimini qabaqlayan nəzəriyyəyə ehtiyac yaranır. Tədqiqat aspekti bu və ya digər fəlsəfi müddəadan doğmur, sırf əməli təxminlərlə şərtlənir və biz onu elm nəzəriyyəsi dairəsinə yalnız ona görə aid edirik ki, seçim material yığımı ilə deyil, araşdırmanın əvvəlində qoyulmuş məqsəddən irəli gəlir. Məqsədimiz -Ümumdünya tarixini Yerin təbəqələrindən birinin- etnosferin təşəkkülü kimi anlamaqdır.

Tarixi düşüncə nəzəriyyəsində çoxdan bəri zamanəmizdə mövcud olan iki fikir formalaşıb: ümumdünya -tarixi və mədəni-tarixi. Birincisi xalqlar tarixini insanlar məskunlaşan bütün bölgələri bu və ya digər əhatə etmiş vahid mütərəqqi inkişaf prosesi kimi mənalandırır. Bu fikir ilk dəfə orta əsrlərdə keçmişdəki "dörd imperiya"- assuriya, fars, makedon və Roma müddəası kimi ifadə olunur. Bura papa taxt-tacı ilə birgə VIII -IX əsrlər qovşağında Qərbi Avropada təşəkkül tapmış katolik billiyinə başçılıq edən beşinci - "German millətinin müqəddəs Roma imperiyası"nı da əlavə edirdilər /Chretiente/.

Hadisələrin belə təfsirləmə sistemində "tərəqqi" imperiya hakimiyyətinə tabe olan ərazilərin ardığıl genişləndirilməsi sayılırdı. XIV-XVI əsrlərdə Reformasiya Qərbi Avropanın ideoloji birliyini və Habsburqlar sülaləsinə mənsub imperatorların siyasi hegemonluğunu pozduqda isə, ümumdünya-tarixi konsepsiya duruş gətirdi və sadəcə, bir qədər başqa şəkildə ifadə olundu. Bundan sonra yenə də qərbi, roman-german Avropasının mədəniyyəti "sivilizasiya" kimi qəbul olunur, keçmiş "bütpərəst" və "təfriqətçilər" isə, sadəcə "vəhşi" və "geridə qalmış" xalqlar adlandırırdılar. Hətta onların hər ikisini "qeyri-tarixi" adlandırmaq [149-150] cəhdi də oldu. Haqlı olaraq "avrosentrizm" adlandırılan bu sistem XIX əsrdə çox vaxt qeyri-ixtiyari şəkildə, labüd və sübuta ehtiyacı olmayan bir şey kimi qavranılırdı.

Mədəni- tarixi konsepsiya ilk dəfə Avropanı Asiyaya qarşı qoyan Herodot tərəfindən bəyan edilmişdi. Avropa dedikdə, o, ellin polisləri sistemini, Asiya dedikdə isə - İran şahlığını nəzərdə tuturdu. Sonralar bura eyni dərəcədə nə İran, nə də Elladaya bənzəməyən Skifiya və Həbəşistanı əlavə etmək lazım gəldi, daha sonra isə mədəni bölgələrin siyahısı bütün yer üzü mədəni-tarixi bölgələrə bölüşdürülənədək genişləndi. İlk yanaşmada Avropa, Asiyada belə bölgələrə Qərbi Avropadan savayı, Yaxın Şərq, yaxud Levant, Hindistan, Çin, Sakit okeanın mədəni adalar bölgəsi, Avramiya çöl bölgəsi, Afrikaının Saxaradan cənuba doğru hissəsi və ibtidai etnosların bulunduqları sirkumpolyar bölgə.

Mədəni-tarixi məktəbin ümumdünya-tarixdən əsas fərqi aşağıdakı müddəadan ibarətdir: bir mədəni bölgənin öz inkişaf yolu var, deməli, qeyri-Avropa xalqlarının "geridə qalması", yaxud "durğunluqda olmaları" haqqında danışmaq olmaz, sadəcə olaraq, onların özünəməxsusluqlarını qeyd etmək olar. XIX əsrdə mədəni-tarixi məktəbin ən görkəmli nümayəndələri kimi F.Ratsel, N.Y.Danilevski və N.K.Leontyevin, XX əsrdə isə - O.Şpenqler və A.Toynbinin adlarını çəkmək olar.

A.Toynbi ilə niyə razılaşmıram. Sualın tarixinə çox da aludə olmayaq, çünki bu bizi məsələdən çox uzağa apara bilər. Lakin hər halda, bir müəllifi istisna etmək məsləhət deyil. A.Toynbi "sivilizasiyaların" meydana çıxmasının coğrafi qaynaqdan yararlanmaya əsaslanan konsepsiyasını təklif etdi. Qısa şəkildə bu təklif aşağıdakı kimidir:

Tarixin vahidi "cəmiyyət" sayılır. "Cəmiyyətlər" iki dərəcəyə ayrılır: "primitiv", inkişaf etməyən və 16 bölgədə 21 sayda olan "sivilizasiyalar". Deməli, bir bölgədə ardıcıl olaraq, 2-3 sivilizasiyanın meydana çıxması məqbul sayılır və bu halda sonrakılar "törəmiş" adlandırılır. Belələrinə Mesopotamiyada şumer və babil, minoy, ellin, Balkan yarımadasandakı ortodoksal xristian, Hindistandakı hind /qədim/ və indus /orta əsr/ sivilizasiyaları aid edilir. Bundan başqa, "aborotiv" /abort sözündən-cərrahiyyə yolu ilə hamiləliyə xitam verilməsi deməkdir-tər./ və "yubadılmış" etnoslar xüsusi bölmələrdə fərqləndirilir ki, birincilərə irlandlar, skandinavlar, Mərkəzi Asiya nestorçuları, [150-151] ikincilərə isə - eskimoslar, osmanlılar, Avrasiya köçəriləri, spartalı və polineziyalılar daxil edilir.

A.Toynbiyə görə, cəmiyyətin inkişafı mimesis, yəni təqlid vasitəsilə baş verir. İbtidai cəmiyyətlərdə qocalar və əcdadlar təqlid edildiyindən, bu cəmiyyətlər sükunətdə olur. "Sivilizasiyalar"da isə yaradıcı şəxslərin təqlidi inkişafın dinamikasını doğurur. Bu səbəbdən, tarixçinin əsas problemi dinamiklik amilini aşkar etməkdir. Həm də bu zaman A.Toynbi irqçiliyi istisna edir. Bu halda socrafi mühitin təsiri alır ki, burada A.Toynbi kifayət qədər orijinal bir həlli variantı təklif edir. "İnsan sivilizasiyaya bioloji istedadları /irslik, yaxud coğrafi əhatənin əlverişli şəraiti sayəsində deyil, onu indiyə qədər görünməmiş səylər göstərməyə ruhlandıran xüsusilə çətin vəziyyətin çağırışına cavab olaraq nail olur".

Beləliklə, istedadlılıq və ardıcıllıq qabiliyyəti orqanizmin xarici qıcıqlandırıcıya qarşı orqanizmin reaksiya halı kimi nəzərdən keçirilir ki, bununla bağlı fəsillərdən biri /VI/ "Bədbəxtçiliyin məziyyətləri" adlanır. "Çağırışlar" üç çeşidə bölünür.

1. Əlverişsiz təbii şərait, məsələn, Nil deltasının bataqlıq olması - qədim misirlilər; Yükatanın tropik meşələri - mayyalar; Egey dənizi dalğaları - ellinlər; meşələr və şaxta- ruslar üçün çağırışdır. Bu konsepsiyaya görə, ingilis mədəniyyəti yağış və dumanın törəməsi saylıa bilər. Lakin A.Toynbi bu barədə bir söz demir.

2. Yadellilərin hücumu da coğrafi məqam kimi /müəyyən miqrasiyalar/ nəzərdən keçirilə bilər. Misal üçün, A.Toynbinin fikrincə, Avstriyanın Bavariya və Badendən daha üstün inkişafının səbəbi türklərin hücumu idi. Lakin bundan əvvəl türklər Bolqarıstan, Serbiya və Macarıstana hücum etmiş və onlar da həmin çağırışa təslim olmaqla cavab vermişdilər. Avstriyanı isə Yan Sobeskinin qusarları xilas etmişdilər. Odur ki, bu örnək konsepsiyanın lehinə deyil, əleyhinədir.

3. Əvvəlki sivilizasiyaların çürüməsi - bu çağırışla mübarizə aparmaq gərəkdir. Belə ki, guya ellin - Roma sivilizasiyasının dağılması Bizans və Qərbi Avropa mədəniyyətlərini qədim yunanların törətdikləri biabırçılıqlara qarşı reaksiya kimi "doğurdu". Bunu da zaman koordinatları /biosenozun dəyişməsi/ nəzərə alınmaqla götürülmüş coğrafi şəraitə aid etmək mümkündür. Təəssüflər olsun ki, Bizansdakı pozğunluq heç də Romadakından geri qalmırdı, Qərbi Roma imperiyası ilə yaşamağa qabil kralların [151-152] təşəkkülü arasında isə 300 ildən çox keçmişdi. Bir qədər gecikmiş reaksiyadır.

Lakin ən əsas məsələ - insanla landşaftın əlaqələnməsi - A.Toynbi konsepsiyası ilə nəinki həll olunmur, əksinə, daha da düyünə düşür. Sərt təbiətin insanı daha yüksək fəallığa təhrik etməsi barədə tezis, bir tərəfdən, coğrafi determinizm variantı, digər tərəfdən isə - sadəcə yanlışlıqdır. Qədim rüs dövlətinin təşəkkül tapdığı Kiyev ətrafında iqlim heç də artıq deyil. "Çöl" üzərində hökmranlıq köçərilərdən o qədər çox enerji tələb edir ki, artıq heç nə qalmır". İddiası isə müəllifin məlumatsızlığını nümayiş etdirir. Türklər və monqolların formalaşdığı Altay və Onon iynəyarpağı meşəsi istirahət yerləridir. Əgər Yunanıstan və Skandinaviya sahillərini əhatə edən dənizlər "çağırış"sa, niyə yunanlar ona yalnız e.ə. VIII-VI, skandinavlarsa eramızın IX-XII əsrlərində cavab vermişlər"? Qalan dövrlərdə isə müzəffər ellinlər, nə yırtıcı finikiyalılar, nə qüdrətli vikinqlər yox, süngər və siyənək balığı tutanlar olmuşlar? "Suyu qurudan ayıran şumerlər Dəclə-Fərat vadisini Ədəmə çevrilmiş, türklərsə buraları baxımsız qoyaraq, yenidən bataqlığa döndərmişdilər. Halbuki, A.Toynbiyə görə, onlar Dəclə və Fəratın "çağırışına" cavab verməli idilər. Hər şey yanlışdır.

Sivilizasiyanın bölgələr üzrə təsnifatında da beləcə ixtiyarilik müşahidə olunur. A.Toynbiyə Bizans və Türk imperiyaları yalnız eyni ərazidə yerləşdikləri üçün, bir sivilizasiyaya aid ediliblər. Həm də bu zaman nə üçünsə, yunanlar və albanlar deyil, osmanlılar "yubadılmış" elan olunurr?! "Suriya sivilizasiyası"na Yəhudi çarlığı, Əhəməni imperiyası və Ərəb xilafəti aid edilib, Şumer və Babilistan isə ana və "törəmiş" kimi fərqləndirilib. Görünür, təsnifatın əsas meyarı müəllifin özbaşınalığı olub.

Mən bu süjet üzərində ona görə belə ətraflı dayandım ki, məhsuldar elmi ideyanın zəif dəlillər və axıra qədər düşünülməmiş prinsipin yanlış tətbiqi ilə nüfuzdan salınmasının nə qədər asan olduğunu nümayiş etdirim. A.Toynbinin sosioloji quruluşların bilərəkdən toxunmuram, halbuki onlar da xronologiya və hadisələrin real gedişilə heç də ziddiyyət təşkil etmir. Lakin bu, oxucuların əksəriyyətinə bəlli olduğu halda, "çağırış və cavab" haqqında coğrafi konsepsiyanı bir çoxları hələ də ciddi şəkildə qəbul edir. Ən acınacaqlı isə odur ki, belə təcrübələrdən sonra həmişə coğrafiyanın məlumatlarının qeydə alınması və nəzərdən keçirilməsindən ümumiyyətlə imtina edərək, təbiəti tarixi [152-153] proseslərə təsir göstərməyən, sabit göstərici kimi qiymətləndirmək meylləri meydana çıxır. İxtiyari götürülən müddəanın mücərrəd qurumlar vasitəsilə inkişaf etdirilməsi elmi çıxılmaz vəziyyətlərə salır.

Beləliklə hər iki yanaşmanın bir sıra üstünlükləri və çox böyük çatışmazlıqları var. Sonuncular mövzumuzun təhlili zamanı xüsusilə təsirlidir.Belə ki, ümumdünya-tarixi məktəbin baxımından türk-monqol xalqlarını və onların səciyyəvi köçəri mədəniyyətini nə Şərq sivilizasiyasına, nə də "vəhşilərə" aid etmək mümkün deyil. Deməli, onlar tarixçi-nəzəriyyəçinin diqqətindən kənarda qalır. Lakin türklər və monqollar bəşəriyyət tarixində öz əhəmiyyətlərini çox sanballı şəkildə biruzə verdiklərindən, dəfələrlə onları Çin, İran və Bizansın "barbar əhatəsi" kimi nəzərdən keçirmək cəhdləri olmuşdur. Bu isə artıq problemin qoyuluşu zamanı elə təhrif edilmiş mənzərə yaradırdı ki, elmi qavrama üçün sadəcə yararsız olurdu. Çıxılmaz vəziyyət!

Bununla yanaşı, bəşər tarixində türklər və monqolların rolunun yerini müəyyənləşdirən mədəni-tarixi məktəb onların tarixi inkişafının daxili qanunauyğunluqlarını açıqlamağa qadir deyil, çünki bu qanunauyğunluqlar yalnız lokal deyil, həm də bəşəri qanunauyğunluqların variantıdır. Ümumi nəzərə alınmadıqda isə, təfərrüatlar da anlaşılmazdır, çünki belə yanaşma zamanı onlar müqayisəedilməz və ölçüyəgəlməzdir. Bəşər tarixinin anlaşılmasında məqsədəuyğun olmayan qırıqlıq yaranır. Yenə də çıxılmaz vəziyyət!

N.İ.Konradla niyə razılaşmıram. Lakin bəlkə üçüncü yol doğru oldu: hər iki konsepsiyanın səmərəli rüşeymini götürərək, məqsədə maksimum yaxınlaşmaq üçün onları birləşdirmək. Məsələn, bir formasiyadan çıxarıb, digərinə yaxınlaşdıran keçid dövrlərini fərqləndirmək təklif edilir: 1/ qədim

cəmiyyətdən orta əsrlərə keçid dövrü - ellinizm; 2/orta əsrlərdən yeni dövrə keçid - Renessans 3/yeni dövrdən ən yeni dövrə keçid - XIX əsrin ortaları. İndikator kimi ədəbiyyat tarixi cəlb olunur:"... hər biri /üç dövrdən hər biri/ onun gəlişini bəyan edən dahi bir əsərlə başlanır. Birincidən "Tanrı şəhəri haqqında" /Avqustin/ risaləsi, ikincidən - "İlahi məzhəkə", üçüncüdən isə "Kommunist manifesti" 2 xəbər verdi.

Yeni konsepsiyanın müəllifi kifayət qədər ardıcıldır. O, analoji dövrlərinə qeyri-kamil, nə də mədəni cəhətdən Avropadan asılı saymadığı qeyri-Avropa xalqlarının mədəniyyətlərinin [153-154] inkişafında axtarır. Müəllif yazır: "Çinlilər və iranlılarda da qədimdən orta əsrlərə keçid beyinlərdə inqilabla müşayiət olunurdu... Çində bu, daoçuluq, İranda isə manihilik adlanır. Bura xarici amil:kənardan gəlmiş ideologiya sistemi də qoşulur. Çində bu buddaçılıq, İranda isə- İslam idi". 3 "İntibah", yaxud "Yeniləşmə" dövrü də eyni şəkildə izlənir. Bu dövr Çində VIII, Orta Asiya, Asiya, İran və Şimal-Qərbi Hindistanda - IX, nəhayət, İtaliyada -XIII əsrdir.4 Üçüncü keçid dövrü doğru olaraq işıqlandırılmır, çünki o, hələ başa çatmayıb.

Biz N.İ.Konradın irihəcmli kitabından məhz bu hissəni ona görə seçdik ki, burada müəllifin ideyaları ən qabarıq və dürüst şəkildə ifa olunub. Başqa oçerklərində N.İ.Konrad yalnız keçid proseslərini deyil, həm də sosial varlığın sabitləşmiş terminlərlə: qədimlik, orta əsrlər, yeni dövr 5 adlandırdığı qərarlaşmış formalarını da izləyir. Tarixi prosesin əsas istiqamətini xalqların iriləşdirilməsində və mədəni arealın genişləndirilməsində görməklə yanaşı, o eyni zamanda, dünya sivilizasiyasının genezisinin polisentrikliyini və xalqların inkişafında lokal əlamətlərin mövcudluğunu da qəbul edir.6 Güman etmək olardı ki, vəziyyətdən çıxış yolu tapılıb. Lakin yuxarıda verilmiş tezisin prinsipial tərəfinə diqqət yetirək.

N.İ.Konradın konsepsiyasında keçid dövrlərinin xronoloji qeyri-mütənasibliyi kəskin gözə çarpır. Ellinizm dövrü e.ə. IV əsrdə başladı və həqiqətdə də antik dünyagörüşünün böhranı ilə üst0üstə düşdü. N.İ.Konrad bu "keçid dövrünü" Avqustinə, yəni eramızın V əsrinə qədər uzadır. Cəmi - 900 il.

İtaliyada İntibah dövrü 150-200, üçüncü keçid dövrü isə yarım əsrlə məhdudlaşdırılır. Ani olaraq, belə bir fikir yaranır ki, müəllif yaxınlıq abberasiyasının təsiri altına düşüb, yəni yaxın hadisələr ona qədim hadisələrdən daha əhəmiyyətli görünür. Bu hadisələrin müqayisəyəgəlməz və hətta müxtəlif səviyyəli olmalarını göstərmək üçün ellinizmlə İntibahı müqayisə etmək kifayətdir. Yeni məlumatlar cəlb etmədən /bu, lazımi yerdə ediləcək/, köhnə, mübahisə doğurmayan məlumatları yeni, orijinal ideya ilə qarşılaşdırmaqla problemi yenidən nəzərdən keçirməyə cəhd edək. Əgər sonuncu doğrudursa -üst-üstə düşmə qaçılmazdır.

Ellinizim haqqında. E.ə. 336-cı ildən. Yəni makedoniyalı İskəndərin Fivə hegemoniyasını, Afinanın azadlığını, İranın möhətəşəmliyini, Hindistanın müstəqilliyini və Misirin qədim [154-155] mədəniyyətini /İskəndəriyyəni tikməklə/ darmadağın etdiyi dövrlə "İlahi məzhəkə"nin yazılması arasında aşağıdakılar baş verdi.

İranda uzun sürməyən makedon istilasından sonra, Aralətrafı çöllərdən gəlmiş parfiyalılar bərqərar oldular. Onlar əvvəlcə elmin mədəniyyətinin parıltısına, sonra isə /e.ə. 250 -eramızın 240-cı illəri/ zərduştlüyə valeh oldular. Daha sonra iranlıların müasir dövrdə milli adlandırıla bilən irticası başladı. Ərdəşir Papağan aristokratiyanın hegemoniyasına son qoyduqdan sonra, xırda mülkədarlarla /dehqanlar/ ruhanilərin /möbödlər/ ittifaqına arxalanmağa başladı. Rəhm edilən parfiyalı aristokratlardan süvari qoşun kimi istifadə olunurdu.

VI əsrin əvvəlində əyan Məzdək hakimiyyəti ələ keçirdikdən sonra adlı-sanlı adamların və ruhanilərin-əhalinin ən ağıllı hissələrinin qırğını başladı. Xosrov Ənuşirəvanın 570-cu ildə ildə etdiyi çevriliş islahata və onunla bağlı cismani cəzalara son qoysa da, sözün həqiqi mənasında əsgərləri hakimiyyətə gətirdi, çünki peşəkar döyüşçülər günəmuzd haqq alırdılar. 590-cı ildə onların başçısı Bəhram Çibinə taxt-taca yiyələnsə də, camaat elliklə ayağa qalxdı və onu darmadağın etdi.

Son dövr /591-651-ci illər/ - mədəniyyət və dövlət sistemi ərəb istilasına qədər durmadan pozulur, tənəzzülə uğrayırdı. Ərəb istilası bütün savadlı və təhsil görmüş farsların mühacirətinə və həlakına səbəb oldu ki, bundan sonra yeni mədəniyyətə, hətta yeni diləmalik yeni xalq formalaşmağa başladı.

Təsvir edilən dövr ərzində mədəniyyət dairəsində beş dəyişiklik baş verdi. Onlardan hər biri verilmiş sistem daxilindəki /bizim misalda - İran mədəniyyəti/ əhəmiyyətinə görə İtaliyadakı İntibaha bərabərdir, halbuki, nə genezisinə, nə xarakterinə, nə də nəticələrinə görə ona bənzəmirdi. 1. Parfiya çölçülərinin ellinləşdirilməsi, yəni yabançı sivilizasiyanın qavranması. 2. Parfiya zadəganlarının farslaşması - öz xalqı ilə yaxınlaşma cəhdi. 3. 224-226-cı illərdə zərdüştlərin Parfiya zadəganları üzərində qələbəsi - taxt-tacla mehriban ittifaqı. 4. Məzdəkilər. 5. Mitraçılıq irticası, çünki ermənilər Bəhram Çubinəni "Mihrəyə etiqad edən, qiyamçı adlandırırdılar. Elə bu fonda xristianlıq və onostisizmin əsl-nəcabətli və səbatsız ziyalıların cüzi birhissəsini əhatə etmiş gücələ duyulan mehi.

Xeyr! Heç cür inana bilmərəm ki, gərgin yaradıcı həyatın bu minillik dövrü yalnız makedon istilası ilə ərəb istilası arasında sadəcə keçid idi. İran üçün sumbad Maq, Babək üsyanları, Afşin [155-156] sui-qəsdi və ərəblər əleyhinə mübarizənin digər təzahürləri ilə səciyyəvi olan bu parfiya-sasani dövrü İtalyan İntibahına deyil, Karolinqlərdən Bonoparta qədər Qərbi Avropa roman-german mədəniyyətinə bərabər tutula bilər. Tutuşdurulan mədəniyyətlər bir-birinə tamamilə bənzəməsələr də, min il min ilə bərabərdir.

Lakin N.İ. Konradın konsepsiyasında oxşarlıqla yanaşı, həm də məhz "bənzərsizlik" əsas müddəalardan biridir.

Romada ellinizm üçün iki tarixdən birini başlanğıc kimi götürmək olar: 1/bir qrup sürgün olunmuş adamın yeddi təpədə məskunlaşaraq, yunan polisi kimi təşkilatlandığı on iki cədvəl dövründən. Lakin bu halda, bura bütövlükdə respublika dövrü Roması aid olur ki, bu da, çox güman, həmin tarixi keçid dövrünün başlanğıcı kimi qeyri-məqbul edir; 2/ Romanın, adətən, Stsipionun dərnəyinin e.ə. II əsrdəki fəaliyyətinə aid edilən mədəni ellinləşməsi. Bu, belə olmağına belədir, lakin N.İ.Konrad Roma respublikasını keçid yox, quldarlıq formasiyasının bərqərar olması dövrünə aid edir. Deməli, "keçid dövrü" üçün yalnız N.İ.Konrad tərəfindən "yüksəlişin zirvəsi və bununla yanaşı, parçalanma zamanı" adlandırdığı İmperiya dövrü qalır.

Lakin belə olduğu halda, biz bir neçə mədəni və bununla yanaşı, ictimai-siyasi dövr fərqləndirə bilərik və fərqləndirməliyik ki, bunlardan hər biri italyan İntibahına bərabərdir. Təkrar edirəm ki, bərabərlik heç də hadisələrin səciyyəsinin oxşarlığı ilə deyil, yalnız müasirlər üçün əhəmiyyətinə görə təsdiqlənir.

Qədim romalılar özləri e.ə. II-I əsrlər respublikasını heç də formalaşmış siyasi qurum kimi nəzərdən keçirmirdilər. E.ə. 133-cü ildə Tiberi Qrakhın qətlindən e.ə. 30-cu ildə Antoninin həlak olmasına qədər Roma dinclik bilmirdi. Vətəndaş müharibələri senat və xalqı o qədər taqətdən salmışdı ki, salamat qalanlar istənilən möhkəm hakimiyyətə şad idilər.

Oktavian Avqustun bəyan etdiyi "qızıl adilik" siyasi sabitləşmə, hərbi qüdrətin möhkəmləndirilməsi və nəsihətamiz nümunələr üçün keçmişə müraciət şüarına çevrildi. Bü dünyagörüş sistemi Mark Avrelinin ölümünədək, yəni 200 ilə yaxın duruş gətirdi. Hən Yuy və digər konfutsiçilərin fəaliyyətini Çində "İntibah" kimi qəbul etsək, Plini, Tit Livi və Svetonini Romanın özündə "Qədimliyin İntibahı" adlandırmaq düzgün və ardıcıl səciyyələndirmə olardı. Axı, biz termin barəsində belə şərtləşmişdik. [156-157]

İkinci dövr - Romanın Asiya mədəniyyətləri tərəfindən gur istilası. III əsrdən etibarən, burada beyinlərə örtüklü İzida, Hermes, allahlar anası Kibela, ecaskar Astarta, nəhayət, hamını üstələmiş əsgər allahı Mitra - məğlubedilməz Günəş hakim kəsilmişdi. Avreliandan Yulian Arostata qədər mitraçılıq Roma imperiyasının dövlət dini və rəsmi dünyabaxışı idi. Mədəniyyətdəki bu çevrilmiş humanizm, hətta Reformasiyadan da daha önəmli idi. Axı, XVI əsrdə italyanlar və almanlar həqiqi xristian olmaqla qalaraq, yalnız estetik və siyasi təsəvvürlərini yeniləşdirdilər. Lakin bu dəyişikliklər heç də əsaslı deyildi.

Eramızın I-V əsrlərində bütün Aralıq dənizi hövzəsini bürümüş üçüncü irəliləyiş daha möhtəşəm idi. Adətən, onu xristianlığın yayılması ilə əlaqələndirir, lakin bu zaman nəzərə almırlar ki, xristianlıq Roma imperiyasını çulğalamış yeni ideyalar axırında yalnız bir şırım idi. Xristianlarla eyni vaxtda Misir onostikləri - Materiyanı lənətləmiş Valentina Valentin və Vasilid, Suriya onostikləri -Xeyir və Şər ünsürlərini bərabərləşdirən Saturnın və Mani, qəddar bemiurq Yahvenin rəqibi - müdriklik gətirən İlana etiqad bəsləyən ofitlər, Əhdi-əqiqin müqəddəsliyini inkar edən markionitlər və təkidlə onunu şərti təfsirini arzulayan origençilər, ən nəhayət, ali monizmi - var olan hər şeyin tamlığını - İlahi Pleromanı bəyan etmiş qnostiklər təbliğat aparırdılar. Vasili Velikiy /Böyük Vasili/ və Qriqori Boqoslovun /İlahiyyatçı Qriqori/ xristian teodisseyasına ən yaxın və antik platonçuluqdan /əflatunçuluq-tər./ ən uzaq isə neorlatonçular oldular, baxmayaraq ki, onlar öz orijinal təlimlərin adlandırmaq üçün Platonun /Əflatun/ adını mənimsəmişdilər. N.İ.Konrad çox incə şəkildə qeyd edir ki, "beyinlərdə inqilab Roma Şərqində başlayıb genişlənsə də, o, "Roma torpaqlarının" formalaşmış dünyabaxışında öz böhran prosesi cərəyan edən yunan-latın hissəsini də bürümüşdü". 8

Haqlı qeyddir, lakin belə olduğu halda, bu ünsür Avropa mədəniyyəti tarixi üçün keçid dövr kimi nəzərdən keçirilə bilməz. Həqiqətən də, xristianlıq, yaxud manihiliyin Senekanın şüura əsaslanan mühakimələrinə, Avrelianın mitreumlardakı qanlı misteriyalarına, yaxud Helioqabalın pozğun əyləncələrinə nə dəxli? Dünyagörüşünün yeni yaradıcı axını hər ikisini eyni dərəcədə rədd edirdi. O, qocalıb taqətdən düşmüş antik fikri davam etdirmədi, süpürüb bir kənara atdı. Başqa sözlə, burada "Keçid dövrü" yox, köhnə ənənənin qırılması və yenisinin yaradılması baş verdi. [157-158]

Xristian və manihi kilsələri müasirlərini təəccübləndirən, lakin antik keçmişlə tam üzülüşmək hissindən məntiqi şəkildə doğan uyuşmazlıq nümayiş etdirdilər. Hətta imperator Konstantin bütpərəstliyi tam təslim etmək qərarına gəldikdə belə, xristian icması qarşısında yalnız bir dilemma meydan çıxdı: kilsə məsələlərində səsvermə hüquqna malik ola bilməsindən ötrü dünyanın hökmdarına dyakon rütbəsi vermələrini, yoxsa "İmperatorun kilsəyə nə dəxli var?" deyən karfagenli Donastın tələbinə müvafiq hərəkət edərək, onu mülkişəxs kimi saxlamalı? Əvvəlcə manihiçi, daha sonra isə xristian olan ist"dadlı yazıçı və böyük mübahisə ustası müqəddəs Avqustun məhz belə şəraitdə, artıq V əsrdən etibarən barbarların imperiyanı didib-dağıtdıqları bir dövrdə yaşayır, yaradır və fəaliyyət göstərirdi. Qeyd etmək lazımdır ki, Avqustinin əsas ideyaları katolik deyil, kafiranə fikirlərin fikirləri ilə səsləşmişdir. İnsan iradəsinin azad olması barədə katolik ehkamını əslində ləğv etmiş olan alın yazısı haqqında tezis, dünyada baş verən bütün biabırçılıqların suçunu Yaradana aid edirdi. Avqustinin bu tezisi min il sonra Jan Kalvin tərəfindən istifadə və inkişaf etdirilsə də, orta əsrlərdə dəyərə malik deyildi.

Zəmanəsinin ideyalarını təkzib etməsə də, müasirlərindən narazılıq edən Dantedən fərqli olaraq, Avqustin ist"dadının bütün qüdrətini keçmiş həmfikirləri - manihiçilərlə və Britaniyalı rahib Pelaginin humanist konsepsiyası ilə mübahisələrə sərf etdi. Pelagi təbliğ edirdi ki, insanın günahkar olması onun pis hərəkətlərinin nəticəsi olduğundan, xeyirxah bütpərəst qəddar xristiandan yaxşıdır. Avqustin ilkin günah tezisini irəli sürdü, bununla da bütün bütpərəstləri dəyərsiz elan edib, dini dözülməzlik nəzəriyyəsini əsaslandırdı. Bu ideya sonrakı beş əsrdə geniş yayılmalı, halbuki Dantenin şerləri hələ şairin sağlığında təkrarsız kimi qiymətləndirildi və onu layiq olduğu şan-şöhrətə yetişdirdi. Nə tarixi rolları, nə doğurduqları əks-səda, nə şəxsi keyfiyyətlərinə görə bir-birinə bənzəməyən Avqustin və Dante Aligverinin yaşayıb-yaratdıqları dövrlər bir-birinə bundan da artıq bənzəmirdi. Danteyə bənzəyən biri varsa, o da qüdrətli şair və eybəcərliklərin böyük ifşaçısı İohan Zlatoustdur. Lakin bu düzəliş qəbul edilərsə, sonrakı mühakimələr başqa cür olacaq. Bu yol daha məhsuldar görünsə də, bir qədər gözlənilməz şəkildə qavranılacaq.

Bizans haqqında. Xatırlayaq ki,təsvir etdiyimiz və erkən xristian,yaxud -şərti olaraq - Bizans /sözün heç də siyasi yox, sırf [158-159] "mədəni" mənasında/ adlandırıla bilən istiqamət, dünyəvi tarixdə yalnız II əsrin ortalarında, yənikilsə tarixindən 150 il sonra qeydə alınıb. Roma filosofları ilə xristian təbliğatçısı Yustin arasındakı mübahisə məhz bu zaman baş vermiş, qalib gəlmiş Yustin isə işgəncə ilə qətlə yetirilmişdi. Hesabımızı mübahisə və şübhə doğurmadığı üçün çox əlverişli olan bu məqamdan aparmağa başlasaq, aydın olacaq ki, IV əsrin sonunda /Yulianın dönüklüyündən sonra/ fikrin inkişafının yeni istiqaməti nəinki Roma imperiyasının bütün ərazisini bürümüş hətta onun hüdudlarından kənara da nüfuz etmişdi. Onun qolları inkişaf etmişdi: qərbi - İrlandiyada, cənubi-Həbəşistanda, şərqi-Orta Asiyada, şimali- Rusiyada, daha doğrusu, Dneprətrafı qotlarda.

Artıq təsvir etdiyimiz İran, yunan-Roma dünyası, sonralar isə Qərbi Avropa Chretientee-si kimi mədəniyyətin əsas sütunu- Bizans imperiyası ilə sözün həqiqi mənasında siyasi cəhətdən bağlı olmayan ətraf xristain mədəniyyətləri də özlərini bütöv kimi hiss edirdilər. Baxmayaraq ki, Fəratarxası Asiyada nestorçuluq, Suriya, Ermənistan və Afrikada isə monofizitilik hökm sürürdü.

Bizans mədəniyyətinin öz ellin qədimliyinin "İntibahı" - bu zaman yunan dili latın dilini idarəçilikdən sıxışdırıb çıxarmışdı /imperator Mavriki dövründə/, öz Reformasiyası - ikonaborçuluq, öz Maarifçilik dövrü - Makedon sülaləsi zamanı olmuşdur.Bu mədəniyyətin ocaqları,demək olar ki, eyni vaxtda can verdilər: XIII əsrdə İrlandiya süquta uğradı, Mərkəzi Asiya nestorçuları darmadağın edildilər, Konstantinopol müvəqqəti olaraq yırtıcı səlibçilərin əlinə keçdi, Abissiniya isə İslamı qəbul etmiş somalilər və qallasların mühasirəyə aldıqları dağ qalasına çevrildi. Nikey imperiyasının öz mövqelərini qorumaq üçün etdiyi son cəhd aqoniya prosesini daha yüz il də uzatsa da, artıq XVI əsrdə Paleoloqlar uniyanı qəbul etməli oldular, bu isə Qərbə, yəni Böyük Karlın istilaları nəticəsində yaranmış mədəni bütövə tam tabe olmaq idi. Avropa tarixişünaslığında məhz bu bütövü antik mədəniyyətin davamı kimi nəzərdən keçirmək qəbul olunmuşdu ki, bu özünü məktəb dərsliklərinin tərtibində də göstərir. Amma fikrimizcə, "Antik dövrü" "İntihab"dan ayıran 1000 illik bir dövry keçid dövrü kimi deyil, mədəniyyət tarixinin müstəqil bir bölməsi kimi nəzərdən keçirmək gərəkdir. Üstəlik, katolik cəngavər və ruhanilər Bizans mədəniyyətinin sərvətlərinə yunan və irland variantlarında varis olmadılar, sadəcə olaraq, onu yandırıb kül etdilər. [159-160]

Lakin əgər belədirsə, onla Avropadakı İntibahı özündən əvvəl gələn səlib yürüşləri və ondan sonrakı müstəmləkə istilalarının da aid olduqları olayların qanunauyğunluq və ardıcıllıq xəttinə aid etmək lazımdır. Bəli, məhz belə!

Qərbi Avropa mədəniyyəti yarandığı andan genişlənməyə can atırdı. Böyük Karlın baronlarının xələfləri qərb slavyanlarını, anqlisaksları, keltləri fəth etdilər, ərəbləri Piriney yarımadasından sıxışdırıb çıxardılar və müsəlmanlara qarşı savaşı Hind okeanı hövzəsinə keçirdilər. Orta əsr bürgerlərinin xələfləri Amerika, Avstraliya və Cənubi Afrikaya yiyələndilər. Hər ikisi Hindistan,tropik Afrika, Cənubi Amerika, Polineziyanı və i.a. istila etdilər. Bu, məkani genişlənmə idi. Bəs humanistlər? Onları da elə həmin qəsbetmə stimulu hərəkətə gətirirdi, amma onların ekspansiyası zamanda inkişaf edirdi. Qarşılarına keçmişi, həm də özlərinkini yox, özgəninkini istila etmək məqsədini qoymuşdular və ona nail oldular. Onların səylərinin bəhrəsi isə filoloji əsaslı Ümumdünya tarixi - digər mədəniyyətlərdə tayı -bərabəri olmayan bir olay oldu. Ona qədər həy yerdə tarix, bir qayda olaraq, öz əcdadlarının təsviri, yəni mütləqləşdirilmiş genealogiya idi. Lakin belə olduğu halda, "Çin İntibahı" Avropadakından əsaslı şəkildə fərqlənməli, oxşar əlamətlər isə təsadüfi uyğunluqlar sayılmalıdır. N.İ.Konrad əks baxışın tərəfdarıdır və bu əsas məsələnin həlli üçün Şərqi Avropa tarixinə üz tutaraq lazım gələcək.

Çin haqqında. Əvvəla, qeyd edək ki, Şərqi Asiyada iki etnolandşaft bölgə yerləşib: əkinçiliklə məşğul olan -Çin və köçəri - Mərkəzi Asiya və Tibet yayalası. Çinin əhalisinin sıxlığına və çöl sakinlərinin - türklər və monqolların azsaylı olmasına rəğmən, bu iki mədəni bölgə tarixi zaman boyu bərabər hüquqlar əsasında qarşılıqlı fəaliyyət göstərib. Arası kəsilməyən bu mübarizə nəzərə alınmadan, Asiya tarixi daim yanlış şərh olunacaq.

Keçən əsrdən qanunauyğun sayılan belə bir fikir mövcud idi ki, Çin mədəniyyəti sabit, yaxud durğundur, enişli-yüksəlişli inkişaf isə Qərbin nəsibidir. Bu konsepsiya - uzaqlıq abberasiyasına örnəkdir

ki, bu zaman, məsələn, Günəş ovucun içi boyda görünə bilər. Çin tarixi kifayət qədər ətraflı araşdırıldığı halda bu aberrasiya tüstü kimi dağılıb gedir və aydın olur ki, ənənələrin qırılması və cəhalət dövrləri Şərqdə də, Qərbdə də eyni şəkildə baş verirdi. Tarixin diskret (özistədiyi kimi,-tər.) inkişafını qədim dövrün iki böyük tarixçisi - Polibi və Sima Tsəyan göstərmiş və hər ikisi izlənən olayları dövrlərinin elminin inkişaf səviyyəsinə [160-161] əsaslanaraq dəyərləndirməyi təklif etmişlər. (9) Sima Tszyan "Tarixi qeydlər"ini e.ə. I əsrdə yazsa da, onun üçün artıq "antik" olan, yəni qırılmış ənənəli keçmiş dövrü qeydə almışdır. Sima Tszyan üçün antiklik - ilk üç sülalənin: Sya, İn və Çyou dövrüdür. Cyounun süqutundan sonra isə siyasi və mədəni parçalanma gəlir. "Üç çarlığın yolu dövretməyə bənzədi: başa çatdı və yenidən başladı". (10). Əlbəttə, bu o demək deyil ki, Xan sülaləsi qədimi olduğu kimi təkrarladı. Xeyr, o, kifəyət qədər  müstəqil, özünəməxsus lokal əlamətlərə malik olay oldu. Sima Tszyanın fikrincə, real gerçəklik deyil, onun tarixin təbii qanunu saydığı olayların daxili qanunauyğunluğu yeknəsəkdir.

Tarixçinin kəşf etdiyi qanunauyğunluq yalnız keçmişi açıqlamır, həm də öncəgörmələr söyləməyə imkan verirdi. Əgər arxaik Çin qaçılmaz daxili ritmlər üzündən dağılmışdısa, Sima Tszyan üçün müasir, bizim üçün isə Qədim Çin, yəni Xan imperiyası eyni taledən yayına bilməzdi. Əlbəttə, Sima Tszyan öz ölkəsinin məhvinin təfərrüatını göstərə bilməzdi, amma sonuc birmənalı olmalı idi. Elə də oldu. III əsrdə vətəndaş savaşı Çini taqətdən saldı, 312-ci ildə isə onun paytaxtı xunların çoxsaylı qoşunu tərəfindən fəth olundu. Bundar sonra xunlar Huanhe hövzəsindəki bütün tarixi Çin torpaqlarını özlərinə tabe etdilər. Ən inadkar Çin vətənpərvərləri yadelli ucqarlara - Yanszı hövzəsinə qaçdılar, orada Qədim Çin mədəniyyətinin aqoniyası isə daha 250 il, yəni Romadakından demək olar ki, uzun sürən müddətdə davam etdi. Çin xalqının vətənində isə bu zaman köçərilər və dağlılar, xunlar, tabğaclar və kyanlar (tibetlilər) tüğyan edirdilər.

Çinin yeni yüksəlişi, VI əsrdə başladı. Çin vətənpərvərlərinin başçısı Yan Tszyan cılızlaşan köçəri şahzadələrinin xələflərinə divan tutdu və Suy sülaləsinin əsasını qoydu. Bu orta əsrlər Çininin "şəhər nəsimi" idi. "Axşam nəsimi" isə XVIII əsrdə oldu. Bu vaxt mancurlar həm Min sülaləsinin qoşunlarına, həm də qiyamçı Li Tszi-çenin kəndlilərdən ibarət yığma qoşununa qalib gəldilər. Gələcəyi görə bilməyən Avropaaraşdırıcılarının Çinin daimi durumu saydıqları və "durğunluq" adlandırdıqları tənəzzül dövrü də elə onda başlandı. Sima tszyan konsepsiyasının öncəgörməsi özünü doğrultdu.

Amma Qərblə tutuşdurmada Şərqdə mədəniyyətlərin daha güclü varisliyini təmin edən bir xüsusiyyət vardı: heroqlif yazısı. Əlifba ilə müqayisədə çatışmazlıqlarına rəğmən, onun belə bir üstünlüyü var ki, semantemalar həm inkişafda olan dilin [161-162] fonekasının əvəzlənməsi, həm də ideoloji təsəvvürlərin dəyişməsi zamanı anlaşıqlı olmaqda qalır. Orta əsr çinlilərinin savadlanan kiçik bir hissəsi Konfutsi və Lao Tszini oxümaqda davam edir və onların ecazkar fikirlərinə o qədər aludə olurdular ki, İncili əzbərləyən orta əsr rahiblərinin onun təsiri altına düşmələrə dərəcəsi də bununla tutuşdurula bilməz. Səbəb isə budur ki, sözlər öz anlamını: a) tərcümədən; b) deyimdən (intonasiya); c) oxucunun məlumatlılığından (erudisiya) və e) onun assosiasiya (fikirlər arasında eynilik yaratmaq,-tər.) sistemindənasılı olaraq dəyişir. Heroqliflərsə riyazi simvollar tək biranlamlıdır. Buna görə də Çin daxilində mədəniyyətlər arasındakı qırıqlıqlar antik (yunan-Roma) və orta əsr (roman-german), orta fars və ərəb, yəni müsəlman mədəniyyətləri arasındakı qırıqlıqdan bir qədər az idi.

Bu təsərrüfat Çinin həm siyasi, həm də ideoloji tarixində öz əksini tapdı. Xüsusilə önəmlidir ki, heroqlif yazısının mühafizəkarlığını durğunluq kimi qavrayıb, onu Çinə şamil edən tarixçiləri çaşdıran da məhz elə bu xarici bənzəmə əlaməti idi. Əslində isə Çin tarixi heç də Aralıq dənizi hövzəsi ölkələrinin tarixindən az intensivliklə inkişaf etmirdi. Lakin Çin ərazisində gah meydana çıxan, gah da yox olan etnosların həyatının bu ehtiraslı gərginliyini görmək üçün incəsənət əşyalarının və mücərrəd fikrin dolambaclarının seyrindən ayrılaraq, Böyük çöl köçərilərilə Böyük Çin səddi sərhədində 1000 illik savaşın keşməkeşlərini ardıcıl izləmək gərəkdir. "Çöl trilogiyası" əsərimizin bütövlükdə bu mövzuya həsr olunub.

## XIII. ETNİK TARİX BARƏDƏ FİKİRLƏR

Etnologiyada qeyri-müəyyənlik prinsipi.  Güman etmək olardı ki, yuxarıda verilən örnəklərin hamısı mədəni-tarixi məktəbin haqlı olmasına dəlalət edir. Amma onların özlərində əks baxımın doğruluğunu sübut edən bir məqam var. Axı, lokal xassələrinə rəğmən, araşdırdığımız bütün "mədəniyyətlər" o qədər eynişəkilli inkişaf edir və məhv olurdular ki, burada ümumi dialektik prosesi görməmək mümkün deyil.

Lakin əgər belədirsə, biz nəinki qarşımıza qoyulan məsələni həll etmədik,üstəlik, onu hətta mürəkkəbləşdirdik də. Yenə dəmi çıxılmaz durum? Yox, irəliyə yol var və analogiyalar üçün digər üz tutan kimi onu tapacağıq. XVII əsrdən etibarən fizikada belə bir sual mübahisələr doğururdu: [162-163]

İşıq hissəciklərdən (korpuskulyarlar) ibarətdir, yoxsa efirdəki dalğalardır? Hər iki konsepsiyanın elə ciddi qüsurları vardı ki, heç biri üstünlük əldə edə bilmirdi. Mübahisə yalnız XX əsrin 20-ci illərinin ortalarında kvant mexanikasının meydana çıxması ilə həll olundu. Müasir fiziklər belə hesab edirlər ki, işıq nə dalğa, nə də hissəcik yox, eyni vaxtda onların hər ikisidir və hər iki xassələr qrupunu büruzə verə bilir. Buna əsaslanaraq, geniş yayılan qeyri-müəyyənlik prinsipi formalaşdırıldı - bir-birilə ilgili iki fizik

dəyişən (məsələn, impuls və koordinat, yaxud enerji və zaman) var ikən, hər ikisinin birlikdə deyil, onlardan birinin qiyməti təyin oluna bilər.

Etnik fenomenlərdə də hərəkətin iki forması göz önündədir - sosial və bioloji. Deməli, araşdırmanın bu və ya digər baxımında bu və ya digər üsullarla mürəkkəb olayın ya bu, ya da digər tərəfi təsvir oluna bilər. Bunu gösətrib, qeyri-müəyyənlik rinsipini materialımıza tətbiq edək.

İlk növbədə baxımı /aspekt/ dəyişək: hər iki məktəbin metodlarını birləşdirmək əvəzinə, onların tətbiq dairəsini fərqləndirək. Aydındır ki, bilavasitə müşahidə edilən tarixi hadisələr mədəni-tarixi prinsip əsasında qruplaşır, ümumdünya sxem isə fəaktləar üçün Prokrust yatağıdır. Lakin o da aydındır ki, hadisələrin birbaşa müşahidəsi qeyri-mümkün olan məğzi, lokal əlamətləri atıldıqdan sonra ümumdünya-tarixi konsepsiyanın nüfuz dairəsinə aiddir, inkişafın mədəni-tarixi məktəb tərəfindən qeyd və sübut edilən diskferliyi /qırıqlığı/ isə - sadəcə olaraq, vahid, lakin çox mürəkkəb prosesin xassələrindən biridir.

Daha sonra yanaşmanı dəyişək. Keçən əsrdə tarix ikili şəkildə araşdırılırdı: gimnaziyalarda coğrafiya, universitetlərdə isə - filologiya ilə birlikdə. Bizim dövrümüzdə predmeti qavramanın ikinci üsulu üstun gəldi və mənbəşünalıq hər şeydən önəmli tutulmağa başladı. Lakin burada çox böyük bir təhlükə var: tarixçi mənbə müəllifinin əsirinə çevrilərək, oxuduqlarını sadəcə nəql etməyə və bu zaman məzmunu mümkün qədər olduğu kimi çatdırmağa can atmağa başlaya bilər. Lakin axı, qədim müəllif bizim üçün qeyri - məqbul olan ideyaları əldə rəhbər tutur, onun bizimkindən fərqli eyniləşdirmə sisteminə malik oxucuları isə, yazılanları zəmanəmizin oxucularından fərqli şəkildə qavrayırdılar. Bu o deməkdir ki, Heredot, yaxud Rəşidəddin bizim üçün yazmalı olsaydı, eyni fikirləri başqa cür təqdim edərdilər. Mətnin hərfi ötürülməsi zamanı isə, biz onun həsr olunduğu mənanı duya bilmirik. [163-164] Nəhayət, təbii ki, qədim mənbə müəllifi bayağı, onun dövründə hamıya məlum olan həqiqətlərdən yan keçirdi. Lakin bizim üçün məhz onlar naməlum və xüsusilə maraqlıdır. Bu səbəbdən də xələflər üçün hər bir mənbə - kriptoqramdır və onun əsl mənasının bərpası çətin və yerinə yetirilməsi heç də həmişə mümkün olmayan bir işdir. “İqor polku haqqında dastan”ı xatırlamaq kifayətdir. Həm də hazırda mövcud olan hipotetik /fərziyyəyə əsaslanan/ təfsirlərə elə onların özü qədər əsaslandırılmış və inandırıcı daha bir neçəsinin əlavə olunmayacağına heç kim zəmanət verə bilməz. Qısası - problemin bizə müvafiq qoyuluşu üçün mənbəşünaslıq qarşıya qoyulan vəzifəyə - tarixi prosesin dərkinə heç vaxt qayıtmayaq həddinə qədər uzaqlaşmaq üçün ən yaxşı vasitədir.

Gimnaziya metodikası tamamilə başqa məsələdir. Mənbələrdən mübahisə doğurmayanları - çılpaq, lal faktları götürək və onları zaman və məkan əsası üzərinə yerləşdirək. Materialı təbiət üzərində bilavasitə müşahidələrdən əldəedən bütün təbiyyatçılar belə hərəkət edirlər. Bu halda məlum olacaq ki, mətnlərdən təcrid edilmiş faktlar öz daxili məntiqinə malikdir, statik qanunauyğunluqlara tabe olurlar və oxşarlıq və fərqlilik dərəcəsinə görə qruplaşırlar ki, bunun sayəsində də onların müqayisəli metod vasitəsilə araşdırılması mümkün olur.

Bu yanaşma ona görə məqsədəuyğundur ki, tarixi varlığın artıq tapılmaqda olan meyarını - tarixi bütövü dərk etmək imkanı verəcək. Amma nəyin tarixi bütövü?.. İndi artıq cavab vermək olar: həlqələr arasındakı ilişkilərin kauzallıq (səbəb) vasitəsilə həyata keçirildiyi olaylar zəncirinin. Birbaşa müşahidə göstərir ki, bu zəncirin əvvəli və axırı yəni burada mühitin müqavimətindən sönən ətalətə malik partlayış var. Mədəni-tarixi məktəbin bütün müşahidə və ümumiləşdirilmələrini birləşdirən mexanizm budur.

Lakin partlayışlar haradan meydana çıxır və niyə ətalət prosesləri bir-birinə bu qədər bənzəyir? Bu suala ümumdünya-tarixi konsepsiya cavab verməli olsa da, təəssüf ki, tarix elminin ixtiyarında olan vasitələr onu yalnız təsvir etməyə imkan verir. Humanitar elm üçün təsvit son həddir, fırıldaqçı fəlsəfə yolu ilə şərh isə həmanəmizdə heç kimi qane etmir. Yalnız tamamilə təbiyyat elmlərinə əsaslanaraq və “mədəniyyət” anlamının özəyi, təsvir etdiyimiz dəyişikliklərə məruz qalan maddi substansiya məsələ qaldırmaq qalır. [164-165]

İki qeydəalma sistemi. İzlənən faktların açıqlamasına dair yaranan ilk və ən sadə izah onu bu və ya digər istehsal üsuluna əsaslanan hər hansı bir formasiya ilə tutuşdurmaqdır. Aşağıdakı müddəaları şərh edən N.İ.Konrad da bu yolla gedib. “Quldarlıq quruluşu sadəcə quldarlıqla deyil, qul əməyinin xalqın tarixinin hazırki mərhələsində ictimai varlığın iqtisadi əsasını təşkil edən istehsal üsulu rolunu oynadığı ictimai quruluşa səciyyələnir”.(11) O, bu mərəhələni ardıcıl olaraq “antiklik”, yaxud bütün dünyanın qədim tarixiləqarşılaşdırır.

“Orta əsrlər” anlayışı da eyni asanlıqla şərh olunur - yenə də bütün dünyaya xas olmaqla, “feodalizmin təşəkkül, özünətəsdiq və çiçəklənmə dövrü” kimi. Burada yeni olan yalnız sosial-iqtisadi kateqoriyaları qanunauyğunluqlar çevəsinə, yaxud olaylar zəncirinin səbəb-nətıcə ilişkilərinə şamil etmək cəhdidir ki, bu da tamamilə yanlışdır. Səbəb isə budur ki, tarixi materializm nəzəriyyəsi heç də sülalərdən bir-birini əvəzləməsini, hərbi uğurları, yoluxucu xəstəliklərin yaradılmasını, yaxud dini nəzəriyyələrin təfərrüatlarının şərhi üçün deyil, xüsusi olaraq cəmiyyətin spiral üzrə mütərəqqi inkişafını əks etdirmək məqsədilə yaradılmışdır.

İctimai inkişaf və olayların ardıcıllığı - bunların hər birinin özünəməxsus məntiqi var. Hər iki sistem arasında qarşılılı və hətta əks ilişki var. Lakin məhz onun mövcudluğu göstərir ki, burada bir deyil, ən azı iki qeydəalma sistemi mövcuddur. Bu səbəbdən bdə tez-tez “mədəniyyətin” iki, yaxud üç, bəzən isə,

yuxarıda “keçid dövrləri” adlandırılanları səciyyələndirərkən göstərdiyimiz kimi, bir formasiyada yerləşir. Bundan əlavə, “mədəniyyətlər” formasiyalardan xeyli çoxdur ki, bu da həmin anlayışların uyğunsuzluğuna dəlalət edir. Ən önəmlisi isə, hər iki qeydəalma sistemi ziddiyyət təşkil etmir, əksinə biri digərini tamamlayır.

Aydınlaşdırım. Misir, Babilistan, Ellada, Hindistan və Çində qeydə alınan quldarlaq formasiyası əlamətləri bu cəmiyyətləri, bir taksomonik qrupa aid etməyə əsas versə də, onların genetik varisliyini və ya real mövcud olmauş qarşılıqlı ilişkilərin varlığını iddia etməyə heç cür əsas vermir. Əvəzində, “mədəniyyət” kimi sadalanan dövlətlərdən hər biri ictimai inkişafın tamamilə başqa pillələrində duran qonşuları ilə qarşılıqlı ilişkidə olur. Misal üçün, Afina və Korinf kimi quldarlıq mərkəzləri əkinçiliklə məşğul olan Fivə, maldar Etoltya və Fessaliyası, hətta dağılmaqda olan qəbilə quruluşunun mövcud olduğu Epir və Makedoniya ilə də vahid bir [165-166] bütöv təşkil edirdi. Amma hıması birlikdə Ellada deməkdir ki, qədim yunanlar özləri də onu bütöv sayırdılar. Nəyin?

Qədim Çində də eynilə! Hələ “çarlıq savaşları” dövründə Tsin və Çu kimi ucqar dövlətləri Siçuan və Cənub-şərqi Çindəki meşə sakinlərini, o cümlədən, Üue protomalay etnosunu özlərinə tabe etdilər. Çinlilərlə onların sosial quruluşları fərqli olsa da, ümumi tarixi taleyə malik idilər. Bu səbəbdən də onlaı müxtəlif formasiyalara, amma bir bütövə -xan bütövunə aid etmək gərəkdir. Əvəzində, öz torpaqlarını çinlilərin təcavüzündən qoruya bilmiş xunlar hər iki baxımdan onlardan fərqlənən xalqdır. Ən düzgünü onları usunlar, yarımköçəri dilər, yarıoturaq sərmarlar və əkinçi dinlinlərlə birlikdə Avrasiya köçəri bütövünə aid etmək olardı. Baxmayaraq ki, bu xalqlar həm irqi, həm də linqvistik baxımdan bir-birindən fərqlənirdilər. Bəs niyə bütün bu xalqlar - bütövdür?

Araşdırmamızın sonunda cavablamaq məqsədilə bu sualı cavabsız qoyaq. Axı, araşdırmanın məqsədi də elə həmin cavabdır. Hələliksə, sosial və etnik qeydəalma sistemlərindəki fərqləri göstərməklə kifayətlənərək, mədəni proseslər probleminə üz tutaq, çünki etnogenez problemlərinin həllini maddi və mənəvi mədəniyyət tarixində aramaq meyli dəfələrlə meydan çıxıb.

Mədəniyyət tarixi və etnogenez. Düşünmək olardı ki, etnosun fəaliyyəti onun əlaqələrinin və əqlinin məhsulunda, yəni mədəniyyətdə əks olunduğundan, lokal mədəniyyətlərin tarixini araşdırmaqla biz onları yaradan etnosların tarixini, bununla da etnogenezi dərk edirik.

Həqiqətən də belə olsaydı, araşdırıcının vəzifəsi xeyli yüngülləşərdi. Amma təəssüf ki, etnogenez, etnoslar tarixi və mədəniyyət tarixi arasında ilişki olsa da, o, hər cür üç halda fərqli olan əlavə olaylarla mürəkkəbləşdirilir. Mədəniyyət tarixindən başlayaraq, çünki o tarixi sintezin xüsusi üsulları təsbiq olunmadan görünür.

Mədəniyyət və etnos, hətta superetnos anlamları üst-üstə düşürmü? Bir qayda olaraq, yox. Ümumi qaydanı təsdiqləyən fərdi hallar halları istisna etmək şərtilə. Bunun ən sadə, hamıya bəlli olan nümunəsi Elladadır.

Həm materik Yunanıstanın, həm də koloniyalardıka ellin polislərinin mədəniyyəti hələ e.ə. VI-IV əsrlərdəki klassik dövrdə qeyri-ellin diyarlara, məsələn, İsgəndər dövründə “ellin işinin müdafiəçisi və rəhbəri rolunu öz üzərinə götürən Makedoniyaya da sirayət etdi, Ellin mədəniyyətinin sonrakı yayılması [166-167] makedoniyalıların zəbt etdikləri Yaxın Şərq, Misir, Orta Asiya və Hindistandakı dövlət və xalqları ehtiva etdi. Bura ellie mədəniyyətini Afinadan iqtibas yolu ilə almış Latsium da daxil oldu. Bu, “Ellinizm” adlandırdığımızın, yəni möhtəşəm etnosun yaranması idi.

Lakin ellin mədəniyyətini qavrayan etnosların heç də hamısı bu superetnosa daxil olmadı. Parfiyalılar yunanca danışmağı öyrəndilər, çarlarının saraylarında Evripidin faciələrini səhnələşdirirdilər, şəhərlərini ellin memarlarının planlarına əsasən möhkəmləndirir və onları Afina və Miletdəkilərinə bənzər heykəllərlə bəzəyirdilər, amma bütün bunlarla bərabər, “turanlılar” (12), İranın hökmdarları, makedoniyalıların - Suriya Sələvkilərinin düşmənləri qalmaqda davam edirdilər. Karfagen ellin polisləri tipində formalaşsa da, Suriyalı və Kiçik Asiyalılardan fərqli olaraq, onun sakinləri yunanlara bənzəmirdilər. Elladanı zəbt edən romalılar isə öz etnik cizgilərini yerli xüsusiyyətlər kimi qoruyub saxlayaraq, Ellada mədəniyyətinin varislərinə və qoruyucularına çevrildilər. Ellinist mədəniyyəti bütün vilayətlərə, İmperiyaınn süqutundan sonra isə Avropanın roman, qismən də german etnoslarına ötürən də onlar oldular.

Beləliklə, mədəniyyət tarixini araşdırarkən biz daim etniksərhədlərdən kənara sıxan aramsız ənənə xəttini müşahidə edirik. German və slavyanların xələfləri həndəsə, Əflatun və Ərəstunun idealist fəlsəfəsini, Hirrokrat təbabətini, inşaat sənətini - klassisizmi, hətta mifologiyanı da mənimsədilər, hərçənd ki, qədim allahları misteriyada deyil, operettalarda çıxış etdirirdilər. Lakin, axı, ellinlərlə romalılar artıq çoxdan yox olurlar. Deməli, möhtəşəm mədəniyyət onu yaradan etnosdan çox yaşadı. Burada həm məkan, həm də uaman uyğunsuzluğu göz önündədir.

Lakin bütün adiliyinə rəğmən, mədəniyyətin “çox yaşması” terminin tətbiq etmək məqbuldurmu? Mədəniyyət - texnikanın məhsulu, incəsənətin şah əsəri, fəlsəfi sistem, siyasi doktrin, elmi nəzəriyyə, yaxud sadəcə olaraq keçmiş əsrlər haqqında əfsanə olmasından asılı olmayaraq insan əməyinin məhsuludur. Mədniyyət mövcud olsa da, yaşamır, çünki insanların yaradıcı enerjisi olmadan o ya sadəcə mövcud olur, ya da dağılır. Lakin bu “yaşamaq” öz yaradıcılarının barlarına təsir göstərir, ondan əcaib formalar yapır

və sonra həmin formaların sayını o qədər artırır ki, ta ki, xələfləri artıq onları duymasınlar. Sonuncu halı qədim dünyagörüşlərinin köhnəlmiş, əhəmiyyətini itirmiş, özlərini [167-168] nüfuzdan salmış, məsələn, Roma imperiyasındakı Olimp allahları kimi, normalarından azad olma deyil, "vəhşiləşmə" adlandırmaq qəbul olunub. Bu allahların heykəlləri hər tində ucalsa da, artıq e.ə. I əsrdə onlara heç kim inanmırdı. Müxtəlif əlamətlərə inanan, öz sərkərdələrini yalnız onların gücü və hakimiyyəti qarşısında yaltaqlanmaq üçün allahlara bərabər tutun ikiüzlü və riyakar ellinlər və romalılar, bununla belə, boş qalan məbədgahları qoruyub saxlayırdılar, çünki mədəniyyəti itirmək qorxusu ona qarşı nifrətdən daha qüvvətli idi. Hansısa altıncı hiss vasitəsilə adamlar duyurdular: mədəniyyət üzücü bir hiss olsa da, onsuz yaşamaq olmaz. Bu səbəbdən də ən dərin tənəzzül də mədəniyyətin səviyyəsini sıfıra qədər endirə bilmir.. Qədim mədəniyyətin yox, köhnənin qırıntılarını toplayıb, onları öz ehtiyaclarına uyğunlaşdıran, onlardan yeni alətlər yeni etnosun. Mədəniyyətin şəklini dəyişdirməsi sxemi belədir.

Bəs etnogenez? .. Bu elə bir şərtdir ki, onsuz mədəniyyətin yaradılması, yaxud bərpası mümkünsüzdür. Axı, mədəniyyət insan əllərinin məhsuludur. Bizim dünyamızda isə etnossuz insan yoxdur. Etnosun yaranması və inkişafı, yəni etnogenez isə sanki durdurulan mühərrikə cərəyan qoşulmamışdır ki, bundan sonra o yenidən işə düşür.

Etnogenez təbii, deməli, durumdan asılı olmayan, mədəniyyətin təşəkkülü zamanı formalaşan prosesdir. O istənilən an başlaya bilir və qarşısına fəaliyyətdə olan mədəni bütövdən ibarət maneə çıxdığı halda, ya onu dağıdır, ya da özünü çırparaq, məhv edir. "Bəyaz torpaq" da başladıqda isə, təşəkkül efpmfqdf olan etnos öz mədəniyyətini yaradır - varlığı və inkişafı üsulu kimi. Hər iki halda çırpıntı heç kəsin şüuru tərəfindən idarə olunmayan təbii enerjinin kortəbii qüvvəsidir. Problemin bu cür həlli yuxarıda şərh olunan problemlərdən heç bir əkslik yaratmadan doğur.

Amma fərqli baxım da mövcuddur. "Etnosu təşkil edən sosial amillər, o cümlədən etnik şüur, onunla (etnosla, -tər.) ilgili olan populyasiyanın meydana çıxmasına gətirib çıxarır, yəni qarşımızda L.N.Qumilyovun təsvir etdiyinin tam əksi olan bir mənzərə canlanır".(13) Beləliklə, diskussiya varlığın şüurun, yaxud, əksinə, şüurun varlığın əsasında durması ətrafında gedir. Həqiqətən, məsələnin bu cür qoyuluşu zamanı mübahisə predmeti meydana çıxır. Aydınlaşdıraq.

Hər bir alimin öz məntiqi durumu üçün istədiyi müddəanı, hətta etnosun real varlığının onun şüuru tərəfindən təkcə [168-169] şərtləndiyini yox, törədildiyini iddia edənini belə, əsas götürməyə ixtiyarı var. Doğrudur, onun fikirlərini nə inam sahibi olan xristianlar, nə də materialistlər qəbul etməyəcəklər. Maddi reallığın yaradılması aktı dünyanı Yaradandan uca, yaxud ona bərabər tutulduğundan, onunla xristianlar razılaşmayacaqlar. Materialist filosoflar isə şüurun ilkin olması tezisini qəbul etməyəcəklər.

Amma empirist alimlərin də yuxarıda verilən tezislə razılaşmaq hüquq yoxdur, çünki o, enerjinin saxlanması qanununu pozur. Axı, etnogenez özünü işdə (fiziki anlamda) biruzə verir. Yürüşlər edilir, məbədlər və saraylar tikilir, landşaftlar yenidən qurulur, yaradılan sistemin daxilində və xaricində olanalr susdurulur. İşin yerinə yetirilməsindən ötrü isə enerji - ən adi, kiloqram- metr və kalorilərlə ölçülən enerji tələb olunur. Şüurun, hətta etnik şüurun da enerji generatoru ola biləcəyini düşünmək isə - telekinezin mümkünlüyünü qəbul etməkdir ki, bu da yalnız fantastikada məqsədəuyğundur.

İzah edirəm. Daş blokları ehramların zirvəsinə etnik şüur yox, "bir-iki, bir-iki" prinsipilə işləyən Misir fəhlələrinin əzələ gücü qaldırmışdı. Kəndirləri misirlilərlə yanaşı liviyalılar, nubiyalılar və başqaları çəkirdilərsə, bu.. heç nəyi dəyişmirdi. Burada şüurun, etnik yox, şəxsi - mühəndis-inşaatçı şüurunun rolu özünü ixtiyarında olan qüvvələrin koordinasiyasında biruzə verir, proseslə onu hərəkətə gətirən enerjinin idarə olunması arasındakı fərq isə göz önündədir.

Rəngarəng etnogenezlərin sosial proseslərlə keçmiş dövrlərdən miras qalan çeşidli mədəniyyətlər, insanları müxtəlif qida məhsulları bəxş edən landşaftlar fonunda əlaqələnməsi bir-birilə son dərəcə qeyri-adi şəkildə qaynayıb-qarışan etnik olaylar yaradır. Etnogenezdən fərqli olaraq, etnik tarix müxtəlif təsirlərə məruz qalan və onlara çox həssas şəkildə reaksiya verən çoxamilli prosesdir. Bununla belə, etnik tarix mədəniyyət və dövləətlər, sosial institutlar və sinfi mübarizə tarixi qədər əyani deyil, etnogenez mərhələlərinin dəyişməsilə ilgili olan olaylar qaynaqlarda qeydə alınmır. Başqa sözlə, etnik tarix- biosferin coğrafiyasına ən yaxın tarixi prosesdir ki, rəngarəngliyi şərtləndirən də elə budur. Bu xüsusiyyəti vaxtilə hələ R.Qrusse qeyd etmişdi. O, XX əsrin ortalarının tarixi panoramını çoxdan sönən, amma işığı Yerə təzəcə gəlib çatan və şüaları hələ Yerə doğru hərəkət etməkdə olduqlarından, observatoriyalarda izlənməyən ən yeni ulduzların yerləşdiyi ulduzlu səma ilə tutuşdurur. Bənzətməyi davam etdirən [169-170] R.Qrusse İslam ölkələrini XIV əsr Avropsı - "treçento"- ilə eyni yaşdı sayır. 1940-cı ildə adamların Fransada təcavüzünü Allah və Genzerihin V əsrdəki yürüşlərilə tutuşdurur, yapon qoşunlarını müasir hərbi forma geymiş samuray adlandırır. Skandinaviyalılar isə onun fikrincə, gələcəkdə, XXI əsrin ərəfəsindədirlər. Buradan aydın olur ki, R.Qrusse nə sosial, nə də etnik proseslərə deyil, yalnız zahiri cəhətə, yəni mədəni çarpışmalara diqqə yetirirdi.

Lakin əgər XX əsrdə, hər şeyi bərabərləşdirən urbanist sivilizasiya şəraitində fpansız şərqşünası belə möhtəşəm uüğunsuzluqlar aşkar etmişşə, deməli, ümumi texnosfer tərəfindən daha az nizamlanan digər dövrlərdə onların əhəmiyyəti dıhı böyük olmuşdu. R.Qrusse belə hesab edir ki, "bəlalarımızın əksəriyyətinin səbəbi eyni dövrdə yaşayan xalqların nə ümumi məntiq, nə də ümumi əxlaqa tabe

olmamasıdır". (14) O, qeyri-bərabər etnik inkişafı bir çox savaşların, almanların həbs düşərgələri kimi dəhşətlərin səbəbi sayır. Həqiqətən, real dövlətçilik zərurətindən doğmayan bu cür dəhşətli cinaytləri vicdan əzabı çəkmədən törətməkdən ötrü elə bir psixoloji struktura malik olmaq gərəkdir ki, onu yalnız patalogiya (anormallıq) şəklində təsəvvür etmək olar. Lakin bunlar təsadüfi fərdi sapıntılar deyil, kütlələrin sabit əhval-ruhiyysinə aid olan etnik yayınmalardır. Deməli, bu, etnogenezin norma kimi qəbul etdiyimiz başlanğıc nöqtəsilə tutuşmayan bir mərhələsidir. Lakin başlanğıc nöqtəsini əks tərəfə istinadən qəbul etdiyimiz halda, artıq bizim normal saydıqlarımız patalogiya görünəcək.

Əgər belədirsə, onda etnik tarixə tətbiq etmək üçün hansısa bir etalon (meyar) tapmaq gərəkdir (ictimai-iqtisadi formasiyalar sosial tarixin meyarı olduğu kimi). Lakin məsələ onunla mürəkkəbləşir ki, onun həlli yolunda əlavə çətinlik mövcuddur: etnosla onu əhatə edən coğrafi mühitin nisbəti. Bu mühit özü də dəyişir, həm də bu dəyişmə bəzən etnosun özünün dəyişməsindən də sürətli olur. Burada Kalliopa gücsüzlür və basıcı Uraniyadan yardım istəməli olur.

Uraniya və Klio. Coğrafiyanın tarixin ayrı-ayrı problemlərinin həllinə tətbiqi gah tam rəğbət, gah da acı məzəmmət doğurub doğurmaqdadır. Bir tərəfdən, güman ki, təsərrüfat və mədəniyyət yaratmaq üçün quru çöl və tropik cəngəlliklərin yaratdığı şəraitlər fərqlidir, digər tərəfdən - belə yanaşma "coğrafi determinizm" adlandırılır. Bunu aydınlaşdıraq. XVII-XVIII əsrlərin görkəmli mütəfəkkirləri Bogen, Monteskyö, [170-171] Herder dövrlərinin elmi səviyyəsilə ilgili güman edirdilər ki, insan fəaliyyətinin bütün təzahürləri, o cümlədən mədəniyyət, psixoloji üönüm, idarəetmə formaı və i.a. müxtəlif xalqların məskunlaşdıqları ölkələrin təbiətilə şərtlənir. Hazırda bu baxışla heç kim razılaşmasa da, əks konsepsiya - etnos tarixi üçün coğrafi mühitin ümumiyyətlə rədd edən "coğrafi nihilizm" (15) he də ondan yaxşı deyil.

Gəlin, problemi başqa şəkildə qoymağa çalışaq. Coğrafi mühitin sosial-iqtisadi formasiyaların əvəzlənməsinə təsir göstərməməsi təkzibolunmaz faktdır, amma əsrlik quraqlıq, yaxud daxili dənizlərin (Xəzər) uzunmüddətli tənəzzülü müvafiq bölgölərin təsərrüfatlarına təsir göstərməyə bilərmi? (16) Məsələn, VI0XIV əsrlərdə Xəzərin səviyyəsinin 18 metr qalxması cənubdakı dağlıq ərazilərə bir o qədər təsir etməsə də, Xəzəristanın şimalındakı məskunlaşmış əraziləri su altında qaldı. Bu, Xəzəristan dövlətinin təsərrüfatını o dərəcədə qüvvədən saldı ki, bir tərəfdən - xəzərlər vətənlərini tərk edərək, Don və Orta Volqaboyunda məskunlaşdılar, digər tərəfdən - 965-ci ildə Xəzər xaqanlığının ruslar tərəfindən darmadağın edilməsi baş verdi. (17) Tarixdə bunun eyni olan olayların sayı istənilən qədərdir.

Güman etmək olardı ki, fiziki coğrafiyanın etnik tarixdəki səlahiyyətini aşkar etmək tələb olunur. Amma bunun əvəzində "coğrafi disterminizmə" qapılmaq haqqında mənasız ittihamlar baş verir və coğrafiyanı sadəcə yaxşı bilmək də bura aid edilir. Coğrafiya tarixçisi M.K.Yatsuski bu acınacaqlı durumun səbəbini belə açıqlayır: "Tarixçilər coğrafiyaya zəif bələdirlər və əksinə".(18) Lakin bu da hələ dərdin yarışıdır! "Coğrafi araşdırma sahəsini tərk edərək, tarixlə məşğul olmağa başlayan coğrafiyaçı dərhal təbiyyatçılıqdan çıxaraq, tarixçiyə çevrilirsə," bu daha pisdir.(19) Tamamilə aydındır ki, həm bu zaman həm də əksinə olduğu halda burada müvəffəqiyyətdən danışmağı dəyməz. Beləliklə, uğursuzluqların kökü "açılır": problemin qoyuluşu və araşdırma metodikası işlənib hazırlanırmayıb. Deməli, bununla məşğul olmaq gərəkdir.

Tarixçi üçün işin tamamlanma məqamı etnoqraf və coğrafiyaçı üçün başlanğıc nöqtəsidir. Daha sonra səbəbləri məlum və ya cəmiyyətin kortəbii inkişaf dairəsinə (sosial-formasiyalar), ya da olayların öz məntiqinə (siyasi xadimlərin şəxsi hərəkətləri) aid olan olaylar istisna edilməlidir. Belə olayları coğrafiya ilə əlaqələndirmək mənasızdır. Etnogenez və miqrasiya dairəsi qalır ki, burada da insan cəmiyyətilə təbiətin qarşılıqlı təsiri qüvvəyə minir. [171-172] Bu, natural, yaxud sadə əmtəə təsərrüfat əsas rol oynadığı zaman xüsusilə nəzərə çarpır. İstehsal üsulu tayfa qrupunu, yaxud kiçik xalqı qida ilə təmin edən ərazinin təbii şəraitinin malik olduğu iqtisadi imkanlarla şərtlənir. Məşğuliyyət növünün landşaft "məsləhət görür" və o, tədricən yaranan etnik bütövün mədəniyyətini təyin edir. Transformasiya, miqrasiya, yaxud qonşular tərəfindən qırılan nəticəsində həmin etnos məhv olduqda isə, dövrün abidəsi - qdəim xalqın təsərrüfatının xarakterindən, deməli, onun yaşadığı dövrün təbii şəraitindən xəbər verən arxeoloji mədəniyyət qalır. Buna görə də siyasi səciyyəli tarixi olayları və daha çox fiziki-coğrafi şəraitin dəyişməsilə şərtlənən olayları bir-birindən fərqləndirmək imkanımız var.

Yer üzünün bütün adamları landşaftlarda təbiətin sayəsində yaşayır. Amma əgər landşaftlar müxtəlifdirsə, deməli, insanlar da bir o qədər fərqlidir, çünki insanlar antropogen relyef yaratmaq, yaxud flora və faunanın yenidən qurulması yolu ilə landşaftların şəklini nə qədər dəyişsələr də, onlar etnosun yaratdığı, yaxud nəzarət etdiyi ərazinin təbiətinin onlara verə biləcəyi nemətlərlə qidalanmalı olur. Bununla belə, dünyada heç bir şey əbədi deyil, landşaftlar o cümlədən. Etnoslar kimi, onların da öz inkişaf dinamikası, yəni tarixi var. Landşaft insan fəaliyyəti, iqlim dəyişikliyi, neotektonik proseslərdən, yaxud epidemiya doğuran məhvedici mikrobların meydana çıxmasından tanınmaz dərəcədə dəyişdiyi halda, adamlar ya yeni şəraitə uyğunlaşmalı, ya qırılmalı, ya da başqa ölkəyə köçməlidirlər. Burada biz artıq birbaşa miqrasiya probleminə yanşırıq.

Landşaftların şəklinin dəyişdirilməsi miqrasiyanın yeganə səbəbi deyil. Onlar demoqrafik partlayışlar zamanı, bəzən isə ictimai təkanlar vaxtı da meydana çıxır. Amma bu zaman təbiətinə görə birincilərdən o dərəcədə fərqlənirlər ki, onları bir-birilə qarışdırmaq çox çətin məsələdir. Lakin hər hansı

bir halda, köçüb gedənlər vətəndə alışdıqları şəraitə bənzər şərait axtarırlar. İngilislər qoyunçuluqla məşğul olmağa imkan verən mülayim iqlimli ölkələrə - Şimali Amerika, Cənubi Afrika və Avstraliya çöllərinə məmnuniyyətlə köçüb gedirdilər. Tropik bölgələr onları cəlbetmirdi və həmir yerlərdə onlar daha çox müstəmləkəçi qulluqçular və tacirlər, yəni, əsasən təbiət, daha dəqiq desək, yerli əhali hesabına yaşayan adamlar rolunda çıxış edirdilər. Bu da miqrasiyadır, amma tamamilə başqa səciyyə daşıyır. İspanlar quru və isti iqlimli yerləri müstəmləkələşdirir və tropik meşələrə biganə [172-173] qalırdılar. Onlar asteklərin qüdrətini yendikləri Meksika yaylalarında məskunlaşdılar. Amma Yukatanın tropik cəngəlliklərinə sığınan mayyalarsa Meksika hökumətinə qarşı "irqlər savaşı"nda öz müstəmləkələrini qoruyub saxlaya bildilər. XI əsrdə Lena çayı vadisinə gələn yakutlar burada Baykal sahillərindəki keçmiş həyatlarını təqlid edərək atçılıqla məşğul olmağa başladılar. Lakin onlar suayırıcı tayqa meşələrinə toxunmadılar və həmin meşələr evenklərin məskəni oldu. XVIII əsrdə rusların ilk dəstələri Sibirin bu başından o başınadək keçib getsələr də, yalnız meşə-çöl ətəklərində və çay sahillərində, yəni əcdadlarınını etnos şəklində formalaşdığı landşaftlara bənzər yerlərdə məskunlaşırdılar. XVIII-XIX əsrlərdə ukraynalılar da eyni şəkildə keçmiş "Vəhşi çöl"ü mənimsədilər. Hətta artıq bizim dövrümüzdə vətənlərini tərk edən tibetlilər Norveçi çiçəklənən Benqaliyadan üstün tutaraq, Osloda öz koloniyalarını yaratdılar.

Böyük miqrasiya yalnız tarixi deyil, həm də coğrafi hadisələr, çünki o, həmişə antropogen landşaftın yenidən qurulması ilə ilgilidir. Beləliklə, biz qarşıya qoyulmuş problemin həllində yardımçımız olacaq tarixi coğrafiyanın hüdudlarına yanaşdıq. Görək, o bizə nə verəcək. [173-174]

# DÖRDÜNCÜ HİSSƏ

## E T N O S  C O Ğ R A F İ Y A D A

**Burada etnosun insanı əhatə edən təbiətlə daimi qarşılıqlı təmasları təsvir edilir və sadalananların hamısının məsələnin həlli üçün kifayət olmadığı ilə əlaqədar təəssüf bildirilir.**

### XIV. TƏRS MƏSƏLƏ

Etnos-təbiət hadisəsidir. Beləliklə, indiyədək nəzərdən keçirdiyimiz və qoyulan problemə aidiyyatı olan bütün elmlər nəinki ağlabatan bir cavab verə bilmir, hətta həqiqət axtarışlarınının gələcək yollarını beləişıqlandırmırdı. Bu o deməkdirmi ki, "məsələni xətm etmək" gərəkdir? Xeyr, məsələ bir o qədər də sadə deyil! Axı, biz qoyulan məsələnin həlli üçün yararlı olan digər araşdırma yolu tapa bilərik. Bunun vünövrəsi isə artıq qoyulub: sivilizasiyanın daşıyıcıları kimi çıxış edən insanla təbii mühitin nisbəti probleminə "etnos" - fərdin özünü bütün digər analoji kollektivlərə qarşı qoyan, hər dəfə özünəməxsus daxili struktura və dinamik davranış stereotipinə malik sabit kollektivi Bəşəriyyətlə təbii mühitlə əlaqəsi məhz etnik kollektivlər vasitəsilə həyata keçirirlər, çünki etnos özü təbiət hadisəsidir.

Güman etmək olardı ki, etnos bu şəkildə onu əhatə edən coğrafi mühitdə baş verən dəyişikliklər nəticəsində meydana çıxmalı, inkişaf etməli və yox olmalıdır. Bu mühit kifayət qədər mütəhərridir. Müxtəlif bölgələrdə uzun sürən quraqlıq, yaxud rütubətin artması müşahidə olunub. Qeyd edək ki, Yerin müxtəlif bölgələrində landşaftların dəyişməsini və onların qarşılıqlı nisbətini şərtləndirən iqlim dəyişikliklərinin intensivliyi /tezliyi/ müxtəlifdir. Tarixi hadisələrlə iqlim dəyişiklikləri arasında bilavasitə əlaqə axtarmaq cəhdləri müvəffəqiyyətsizliyə məhkumdur ki, biz bunu diqqətini Fransa və ətraf ölkələr üzərində cəmləşdirən E.Lerua Ladyurinin timsalında müşahidə edirik. Lekin dolayı və mürəkkəb bağlılığı fransız tarixçisinin hiperkristisizmindən /kritisizm -tənqidi fəlsəfə - tər./ yayınmaq və artıq təklif etdiyimiz metodikanın tətbiqi yolu ilə aşkar etmək mümkündür.

Avropanın mülayim iqlimində landşaft fərqləri bir qədər nəzərə çarpmır, kontinental iqlim və geniş məkanlar şəraitində isə kəskin şəkildə üzə çıxır. Burada biz müxtəlif coğrafi bölgələrin [174-175] köçəri əhali qruplarında siyasi quruluşun səciyyəsindən indikator kimi istifadə edə bilərik. Həm də, landşaftyaratma proseslərinin dinamikasının aydınlaşdırmaq məqsədilə artıqbir dəfə bundan yararlanmışıq.2 İndi isə diqqətimizi tarixi-coğrafi bölgələşməyə, yəni Avrasiya məskunlarının siyasi sistemlərinin təsnifatını oradakı etnosların mövcudiyyat forması kimi dəyərləndirməyə yönəldək.

Qeyd edək ki, xalqların siyasi sistemləri onların məskunlaşdıqları ölkələrin təsərrüfat sistemlərilə sıx bağlı idi. Lakin ilk çətinlik də elə buruda meydana çıxır: IX əsrdən başlamış, eramızın XVIII əsrinə qədər Avrasiya söllərində bircə istehsal üsulu mövcud idi- köçəri maldarlıq. Ümumi qanunauyğunluğu heç bir düzəliş etmədən tətbiq etdiymiz halda, belə məxmin olunmalıdır ki, bütün köçəri cəmiyyətləri eyni cür qurulmuşdu və hər hansı tərəqqi onlara o qədər yabançı idi ki, onları elliklə səciyyələndirmək, fərqləri isə tayfalara şamil etmək mümküdür. Həqiqətən, XIX əsrin sonu, XX əsrin əvvəlində bu fikir aksiom kimi qəbul olunsa da, faktiki material yığımı onu rədd etmək imkanı verir. Ortaqların sahəsi, mal-qaranın və əhalinin sayı arasında nisbətin sabit olmasına baxmayaraq, Avrasiya çölündə ictimai-siyasi sistem yekrəngliyindən əsər-əlamət belə yox idi, mövcud olduğu üç min il ərzində köçəri mədəniyyəti elə bir yaradığı təkamül yolu keçdi ki, o heç də Aralıq dənizi və Uzaq Şərqdəkindən az parlaq və rəngarəng deyil idi. Lakin yerli şərait köçərilərin tarixinə bir qədər başqa rəng verdi və bizim vəzifəmiz daha çox köçəri və əkinçi ictimai sistemləri arasında oxşarlıqları deyil, ziddiyyətləri aşkar etmək və onların mümkün səbəblərini göstərməkdir.

İlk növbədə qeyd edək ki, coğrafiya /fikrimizcə, ictimai coğrafiya istisna olmaqla/, həmçinin onun tərkibinə daxil olan etnoqrafia təbii elmlər, tarix isə humanitar elmdir. Deməli, etnogenezi /etnosların yaranması və məhvi/ biosferdə cərəyan edən elm kimi araşdıran alim coğrafi metodlar tətbiq edir, bölgənin etnik tarixinin tətbiqi zəmanı isə tarix elminin ənənəvi üsullarından yararlanaraq, coğrafi məlumatları onlara yalnız əlavə edir. Təbii ki, bunlar məktəb yox, müasir coğrafiyanın bilgiləridir. Burada antropogen biosenzların lokal xassələri, insanın yalnız davranış əlamətlərini dəyişən miromutasiyaları, miqrasiya prosesləriə ilgili susseksiyalara dair məsələlər qaldırılır. Etnosu "sosial kateqoriya" kimi nəzərdən keçirdikdə isə, bu o demək olacaq ki, coğrafi amillər etnosların inkişafı üçün "əhəmiyyətə malik ola bilməyəcək". [175-176]5 Düzgün olan bu sonuncu mühakiməni məqbul hesab etsək, onda ilkin şərtə görə, etnos sosial məcmu deyil.

Xatırladaq ki, Y.Bloxa 21-22 sentyabr 1898-ci il tarixli məktubunda F.Engels yazırdı ki;"... tarixin materialist anlamına görə, tarixi son nəticədə təinedici an real həyatın təmini və təsviridir. Nə mən, nə də Marks heç vaxt bundan artığının iddiasında olmamışıq. Əgər bir başqası həmin müddəanı guya ki, iqtisadi amilin yeganə həlledici məqam olması şəklində təhrif edirsə. Bu halda o, söylənilən müddəanı mənasız, cəfəng bir ifadə şəkliən salır". 6 Bu tezisə müvafiq olaraq, biz gümun edirik ki, etnogenezin bilavasitə müşahidə edilən istənilən prosesi aspektlə yanaşı, təbii aspektə də malikdir.

İnsan biosenozda. Onurğalıların hamısına aşağıdakılar xasdır: özünü nəsil artırmaqda və ona qarşı qayğıkeşlikdə büruzə verən fərdi və növ özünüqoruma instinkti, mümkün qədər geniş ərazilərə yiyələnmək istəyi və mühitə uyğunlaşa bilmək /adaptasiya/ qabiliyyəti. Lakin sonuncu qabiliyyət nəhayətsiz deyil. Əksər hallarda, hər hansı bir onurğalı yer səthinin əcdadlarının uyğunlaşdığı müəyyən bir sahəsində məskunlaşır. Ayı səhraya üz tutmaz, su qunduzu dağa çıxmaz, dovşan isə balıq tutmaq üçün suya atılmaz.

Bölgələr və müxtəlif qurşaqların iqlim xüsusiyyətləri isə daha böyük məhdudiyyətlər qoyur. Tropik növlər qütb dairəsində mövcud ola bilməz və əksinə. Mövsümi miqrasiyalar baş verdikdə belə, onlar təbii şəraitin şərtlərilə bağlı müəyyən marşrutlar üzrə istiqamətlənir.

Bu baxımdan insan istisnadır. Bir növə mənsub olmaqla yanaşı, o, planetin bütün quru hissəsinə yayılıb. Bu isə çox yüksük adaptasiya qabiliyyətinə dəlalət edir. Lakin ilk çətinlik də elə burada meydana çıxır: əgər ibtidai insan, məsələn, mülayim qurşağın meşə bölgəsinə uyğunlaşıbsa, nəyin xatirinə adət etdiyi qida və əlverişli şəraitin olmadığı səhralara və tropik cəngəlliklərə üz tutur? Axı, hər bir heyvan öz geobiosenozuna /hərfən - həyati təsərrüfat/, yəni "mövcudluq şərtlərinin ortaqlığı ilə tarixi, ekoloji və fizioloji cəhətdən bütöv halında birləşmiş qanunauyğun formalar kompleksinə"7 daxildir. Obrazlı şəkildə desək, biosenoz heyvanın evidir. Bəs doğma evi tərk etmək nəyə gərək?

Biogeosenoz mürəkkəb sistemdir. O, bir-birilə "qidalanma zənciri" və digər fəaliyyət hövlərilə bağlı olan bitki və heyvanlardan formalaşır. Burada bir növ digərilə qidalanır, biosenozun ən [176-177] yuxarı, tamamlayıcı halqası - iri yırtıcı. Yaxud insan isə öldükdən sonra torpağa qarışaraq, ona yem olmuş bitkiləri qidalandırır. Həmin biosenozda yüksək dərəcədə uyğunlaşmış növ bir sıra əlamətlər kəsb edir ki, onlardan təkamülün dönməzliyi qanuna müvafiq olaraq, artıq xilas ola bilmir. Bunlar insana da aid olsa da, o, həmin çətinliklərdən qurtularaq, bütün yer üzünə yayılmışdır. Bununla belə, insanın daha aşağı səviyyəli adaptasiya nəticəsində digər növlərə nisbətən daha yüksək mütəhərrikliyə malik olduğunu da iddia etmək olmaz. Onun uyğunlaşma səviyyəsi yüksəkdir.

Xeyr, hər bir iri biosenozda insan möhkəm mövqelərə malikdir. Yeni bölgələrdə məskunlaşdıqda isə, orqanizminin anatomiya, yaxud fiziologiyasını deyil, davranış stereotipini dəyişir. Lakin bu o deməkdir ki, o, yeni etnos yaradır! Doğrudur. Amma bu onun nəyinə gərəkdir? Daha doğrusu, onu buna nə təhrik edir? Bu suala sadəcə cavab vermək mümkün olsaydı, qarşıya qoyduğumuz məsələ həllini tapardı. Lakin biz mənfi cavablara kifayətlənməli oluruq ki, bunların da məğzi problemi məhdudlaşdırmaqdır.

Biloji, daha dəqiq desək, zooloji səbəblər rədd edilir, çünki onlar mövcud olsaydı, digər heyvanlar da eyni cür hərəkət edərdilər. Öz təbiətini düşünülmüş şəkildə dəyişməyə gəldikdə isə, bu ağlasığmaz bir şeydir. Səbəb sosial bəhanələr olsaydı, onlar mütləq istehsal üsulunun dəyişməsi, yəni ictimai formasiyaların əvəzlənməsilə əlaqələnərdi ki, bu da müşahidə edilmir. Bundan başqa, etnosun alışdığı, doğmalaşdığı "əhatə edən" landşafta uyğunlaşmasının mütləqliyi K.Marks tərəfindən "Məcburi emiqrasiya" məqaləsində qeyd edilib. Belə ki, orada köçərilər haqqında aşağıdakılar söylənir: "Barbar kimi qalmaq üçün, onlar azsaylı olmağa məcbur idilər. Bunlar maldarlıq, ovçuluq, müharibə ilə məşğul olan tayfalar idi və onların istehsal üsulları tayfanın ayrılıqda götürülmüş hər bir üzvü üçün geniş təkan tələb edir ki, Şimali Amerika hindu tayfalarında bu, indi də /XIX əsrin ortaları - L.Q./ özünü göstərməkdir. Bu qəbilələrdə əhali artımı ona gətirib çıxardı ki, onlar bir-birinin istehsal üçün zəruri olan ərazisini daraldırdılar".8 K.Marksın fikrini inkişaf etdirən F.Engels qida ilə müxtəlif tayfaların inkişaf səviyyəsi arasında birbaşa əlaqə olduğunu göstərir. Onun fikrincə, "arı və semitlərin daha üstün inkişafını, güman ki, onların, xüsusən də uşaqlarının, çoxlu ət və süd məhsulu yeməsilə izah etmək mümkündür. Həqiqətən, Yeni Meksikanın demək olar ki, sırf bitki mənşəli azuqə ilə qidalanan [177-178] hindularının beyni, barbarlığın daha aşağı pilləsində duran, lakin ət və balıqla daha çox qidalanan hindularının beynindən kiçikdir".9

Coğrafi mühit formasiyaların əvəzlənməsinə təsir göstərmir. Beləliklə, landşaftın etnosa birbaşa və dolayısı ilə təsiri heç bir şübhə doğurmur. Lakin qlobal inkişafa - materiyanın hərəkətinin ictimai formasına onun həlledici nüfuzu yoxdur. Əvəzində, etnik proseslərdə landşaft məcburi təsirə malikdir.10 İtaliyada məskunlaşmış, bütün xalqlar: etrusklar, latınlar, qallar, yunanlar, suriyalılar, lanqobardlar, ərəblər, normanlar, şvablar, fransızlar, tədricən iki-üç nəsil ərzində əvvəlki simalarını itirir və italyan kütləsi şəklində qovuşurdular. Şəbəkəvari olsa da, özünəməxsus, səciyyəvi davranış, xarakter və struktur xüsusiyyətlərinə malik bu etnos, tarixi dövr ərzində təkamül edirdi. Hər yerdə də eynə vəziyyət idi. Yeganə fərq süjetlərin araşdırılma dərəcəsilə şərtlənən barizlikdi. Deməli, biz etnosları sosial tərəqqinin funksiyası kimi deyil, müstəqil fenomen kimi araşdırmalıyıq.

Bəşəriyyətin təşəkülü, digər heyvanlarda olduğu kimi, yalnız təbiətin təsiri ilə deyil, texnika və sosial institutların xüsusi spontan /kortəbii-tər./ inkişafı ilə də ilgilidir.11 Əməli işdə hər iki inkişaf xəttinin interferensiyasını /üst-üstə düşməsini - tər./ müşahidə edirik. Deməli, formasiyalar vasitəsilə ictimai-iqtisadi inkişaf coğrafi mühitdə cərəyan etnogenezlərin eyni deyil. S.V.Kalesnik insanın eyni zamanda yaşadığı coğrafi və texnogen mühitlər arasındakı fərqi aydın şəkildə göstərmişdir. Coğrafi mühit insanın iştirakı olmadan meydana çıxaraq, öz-özünə inkişaf etmək qabiliyyətinə malik təbii elementləri qoruyub saxlamışdır. Texnogen mühit isə insanın əməyi və iradəsilə yaradılıb. Onun elə mentlərinin bakirə təbiətdə analoqları yoxdur və onlar öz-özünə inkişafa qabil deyil. Onlar yalnız aşılana bilirlər. Texno və sosio

mühitlər daim coğrafi mühitlə qarşılıqlı təmasda olsalar da, ona heç bir aidiyyatları yoxdur.12 Biz bu prinsipi araşdırmamızın təməl daşı kimi qəbul etmişik.

İnsanın təbiətlə müharibəsi. İnsanın haqqında danışılan uyğunlaşma qabiliyyəti əcdadları ilə müqayisədə sadəcə olaraq qüvvətlənməyib. Onlar insanı digər məməlilərdən fərqləndirən xüsusiyyətlə ilgilidir. İnsan landşafta uyğunlaşmaqla kifayətlənmir, həm də zəhməti sayəsində müxtəlif landşaftları öz tələbat və ehtiyaclarına uyğunlaşdırır. Deməli, müztəlif landşaftlardan keçən yolu onun üçün uyğunlaşma deyil, yaradıcılıq imkanları açır. Bu gün kimi aydın olsa da, çox vaxt bəşəriyyətin, həmçinin, ayrıca [178-179] fərqin yaradıcılıq çırpıntılarının epizodik olduğu və heç də həmişə istənilən nəticəni vermədiyi, deməli, insanın landşafta təsirinin də heç də həmişə müsbət olmadığı unudulur. Şumerlər e.ə. III minillikdə Fərat və Dəclə vadisində kanallar qazaraq, buranı qurutmuşdular, çinlilər isə 4 min il bundan əvvəl Huanhe çayı ətrafında dambalar qurmağa başlamışdılar. Yeni eranın başlanğıcında Şərqi İranın sakinləri yeraltı sulardan suvarma üçün faydalanmağı öyrəndilər. Polineziyalar Amerikadan öz adalarına şirin kartof /kumara/ gətirdilər. Avropalılara isə Amerikadan kartof, pomidor, tütünlə yanaşı, açıq rəngli spirohetani - sifilis mikrobunu da gətirmək nəsib oldu. Avrasiya çöllərində paleolit dövrünün ovçuları mamontların kökünü kəsdilər.13 Eskimoslar Berinq boğazındakı steller inəyini məhv etdilər; maorilər Yeni Zelandiya yaşayan moa quşunun axırına çıxdılar; ərəblərin və farsların daimi ovları Ön Asiyadan şirləri yox etdi; Amerika kolonistləri cəmi yarım əsr /1830-1880/ ərzində bizonları və səyyar göyərçinləri, avstraliyalılar.14 XIX-XX əsrlərdə heyvanların kökünün kəsilməsi elə bir fəlakətə çevrilmiş, zooloqlar və zoocoğrafiyaçılar bu barədə o qədər yazmışlar ki, bu məsələ üzərində bir qədər də artıq dayanmağa ehtiyac duymuruq. Yalnız onu qeyd edək ki, insanın təbiətlə vəhşicəsinə davranması bütün formasiyalarda baş verə bildiyindən, onun sosial tərəqqinin xüsusiyyətlərinin nəticəsi kimi nəzərdən keçirilməsi düzgün deyil. İnsan bütün formasiyalar dövründə təbiəti deformasiyaya uğradır. Güman ki, bu ona xas olan bir xüsusiyyətdir. Hər dəfə bunu başqa cür etsə də, fərqlər təfərrüatlara aid olub, proseslərin istiqamətini əhatə etmir.

Təbiət özü-özünü qoruya bilir. Yalnız incə gövdələrilə daş hörgüləri, qalın asfaltı dağıtmağa qabil olan bir sıra bitkilər deyil, bəzi heyvanlar da öz inkişafları üçün antroposferdən yararlanırlar. Belə ki, bizonların qırılması və prerilərin biosenozda onların qoyun və atlarla /mustanqlar/ əvəz olunması xəstə bizonlar, marallar və gəmiricilərlə qidalanan iri boz canavarların sayının kəskin şəkildə azalmasına səbəb oldu. Bu isə öz növbəsində, güclü epidemiyalara məruz qalan maralların sayının azalmasına, bizonlardan sonra başlı-başına qalmış otlaqlara qoyunlarla yanaşı ortaq çıxan gəmiricilərin sayının sürətlə artmasına gətirib çıxardı. Gəmiricilərin və köməksiz qoyunların sayının artması isə koyotların sayının artmasına səbəb oldu ... Prerilərin təbiəti bərpa oldu, lakin bir qədər biosenozun strukturunu sadələşdirməklə. [179-180]

Kartof monokültürünün yayılması Kolorada böcəyinin artmasına təkan verdi. Kordilyer dağlarından Atlantik okeanın sahillərinədək zəfər yürüşü edən bu böcək, Avropanı da fəth etdi. İngilis gəmiləri Polineziya adalarına siçovul, ən dəhşətlisi isə, ağcaqanad gətirdilər ki, nəticədə hazırda insanlar özləri dəniz küləklərinin əsdiyi qumsal sahilboyunda məskunlaşmalı olmuşlar. Avstraliyaya evdovşanı, Madeyraya isə keçilərin gətirilməsi üzrə eksperimentlərin faciəli nəticələri isə hamıya məlumdur. Lakin təbiətin regenerasiyasına dair faktlar bəşəriyyətin sosial tarixinin dönüş mərhələlərinin tarixlərilə üst-üstə düşmür. Bəs, bu iki qanunauyğunluq zənciri arasında təsadüfi, yaxud funksional asılılıq varmı? Güman ki, yox. Çünki insanın landşaft üzərinə "həmlələrini" nə obıvatel /daha yaxşıya can atma/, nə də elmi /aşağı formalardan ali formalara qədər inkişaf/ baxımdan "tərəqqi" adlandırmaq olmaz. Belə olduğu təqdirdə isə təbiətin tez-tez təhrif edilməsində müxtəlif etnosları səciyyələndirən elə həmin dinamik davranış stereotipləri suçludur. Görünür, kor-koranə, əllə yoxlaya-yoxlaya olsa da, sujetimizə yaxınlaşmışıq.

Sosium, politiya və etnos. Hər bir adamın bu və ya digər ictimai qrupa daxil olduğu şübhə doğurmur. Sosial inkişafın hər hansı bir pilləsində yerləşməyən, hər hansı bir tayfa, orda, dövlət, icma, drujina və digər bunlara bənzər topluların üzvü olmayan adam olmadığı kimi, hər hansı bir etnosa mənsub olmayan adam da yoxdur. Sosial, siyasi və etnik kollektivlər arasındakı mütənasibliyi uzunluq, çəki və temperatur vahidləri arasındakı mütənasibliyə bənzətmək olar. Başqa sözlə, bu hadisələr paralel olsalar da, ortaq ölçüyə gəlmirlər.

Tarixi coğrafiyanın səlahiyyət dairəsi məhduddur. Sərkərdə, islahatçı, diplomatların hərəkətlərində coğrafi səbəblər axtarmaq mənasızdır. Etnik kollektivlər isə qarşıya qoyulmuş problemə verilən tələblərə tam müvafiqdir. İnsanların təbiətlə qarşılıqlı əlaqəsi yalnız inkişafın erkən mərhələlərində deyil, XX əsrə qədər aydın izlənir.

İnkişafın qeyd etdiyimiz üç xəttini İngiltərə və Fransanın timsalında nümayiş etdirmək xüsusilə asandır, çünki onların keçmişi o qədər məlumdur ki, mənbəşünaslıq və biblioqrafiyaya dair xüsusi araşdırmalara heç bir ehtiyac belə qalmır. Sosial baxımdan hər iki ölkə bir neçə formasiyadan keçmişdir: icma quruluşu - keltlərdə Roma istilasına qədər mövsuddu; quldarlıq quruluşu - Roma imperiyasının tərkibində. Bu mərhələdə Britaniya [180-181] Qalliyadan üç əsr geri qalmışdı. Nəhayət, kapitalizm. Bu dəfə isə artıq Fransa yüz il arxadaydı. Siyasi baxımdan XX əsrin adamlarına elə gəlir ki, La-Manş

vasitəsilə bir-birindən ayrılan bu iki millət etno-ərazi bütövləridir, həmişə belə olub və başqa cür ola da bilməz.

Bizi maraqlandıran ərazi üç landşaft zonasını əhatə edir: subtropik - Fransanın cənubu; meşə - Şimali Fransa və Cənubi İngiltərə; subboreal - Şotlandiya və Nortumberlendin süpürgə kolları basmış çölləri. Hər bir landşaft bura düşən adamları onun xüsusiyyətlərinə uyğunlaşmağa məcbur edir ki, bu yolla da müəyyən birlik meydana çıxır. Məsələn, Romanın aşağı axarında məskunlaşan keltlər üzüm yetişdirirdilər; oralara müxtəlif dövrlərdə gəlib çıxan romalılar /I-IV əsrlər/, cəngavər burqundlar /V əsr/, ərəblər /VII əsr/, və katalonlar /XI/ da eyni işlə məşğul olduqları üçün, ümumi əməyin şərtləndirdiyi məişət ümumiliyi dilləri və adət-ənənələri bir-birinə uyğunlaşdırırdı. Hazırda bir-birindən fərqlənən katalonlar, provansalar və liquriyalılar XII əsrdə vahid xalq təşkil etmişdilər. Bu vəhdəti pozmaq üçün qanlı Albiqoy müharibəsi gərək oldu. Lakin ta XIX əsrə qədər cənublu fransızlar provansal dilində danışıqlar və fransız dilini bilməyənlər istisna idi.

Balıqçı uşaqları olan norveç vikinqləri Normandiyada məskunlaşandan sonra iki nəsil ərzində fransız əkinçilərinə çevrilərək, yalnız antropoloji tiplərini qoruyub saxlayıblar. Elə həmin norveçlər Tvid vadisində qoyun saxlamaqla məşğul olan şotland-loulenderlərə çevrildilər. Lakin onlar şimali Şotlandiya dağlarına yiyələnə bilmədilər. Burada keltlər - şotland-haylenderlər öz klan quruluşlarını qoruyub saxladılar. Landşaft, o cümlədən reyler siyasi deyil, etnik sərhədlər üçün həlledici amil oldu.

Fransanın ürəyi olan şimal hissəsində gəldikdə isə, burada landşaft konvergen inkişaf yolu ilə şərq və cənubi-qərbdən gələn külli miqdarda adamı tamamilə dəyişdi. Qədimdə - belqlər, akvitanlar və keltlər; yeni eranın əvvəlində - latınlar və germanlar; orta əsrlərin əvvəlində - franklar, burqundlar, alanlar, britlər; Reformasiya dövrünün italyan, ingilis, holland, ispan mühacirləri və i. a. - bunlar hamısı fransız kəndlərinin yekcins kütləsində qovuşdular. Həmin kütləni etnoqraflardan daha çox Balzak, Zolya və b. Yazıçı-realistlər parlaq təsvir etmişlər.

Lakin bu halda ortaya belə bir sual çıxır: niyə bu qədər oxşar landşaftlara, eyni sosial quruluşa malik, hələ qədim dövrlərdən bəri ən primitiv qayıqlarda belə üzüb keçilməsi mümkün olan boğazlara [181-182] ayrılmış iki ərazinin etnosları vahid kompleks şəklində birləşmədi? Axı, bu hər ikisi üçün əlverişli idi. Orta əsr kralları bunu çox gözəl başa düşdükləri üçün üç dəfə birləşməyə cəhd göstərmişdilər. 1066-cı ildə Fransa kralının vassalı istisna etdi. Norman sülaləsi aradan çıxdıqdan sonra isə, buralara digər fransız feodalı - Henri Plantagenet yiyələndi. Beləliklə, 1154-cü ildə yenidən Normandiyanın İngiltərə, daha sonra isə Puatu, Akvitaniya və Overnlə qovuşması baş verdi: Henrix Plantagenetin krallığı yarandı. Bu qurum etnoqrafik cəhətdən yəribə olsa da, 1205-ci ilədək mövcud ola bildi. Həmin ildə Fransa kralı Filip II Avqust Normandiya, Puatu, Turen və Anjunu ələ keçirdi, 1216-cı ildə İngiltərəni yenidən istila etməyə cəhd göstərdi. Lakin bu cəhd baş tutmadı. İngiltərə Plantagenetləri dəstəkləyən qaskon baronları sayəsində Bordo və Bayonna üzərində nüfuzunu saxlaya bilsə də, 1339-cu ildə hər iki ölkənin birləşdirilməsi uğrunda Yüzillik müharibə başladı. Həm də bu dəfə müharibənin təşəbbüskarı İngiltərə oldu. Uzun sürən müharibədən sonra Henrix V Plantagenet 1415-ci ildə Fransa tacına sahib olsa da, Janna d"Ark İngiltərədən güclü çıxdı və bundan sonra heç vaxt bu iki tərəfi birləşdirməyə cəhd göstərilmədi.

Təsvir etdiyimiz dəyişikliklərin səbəbini fiziki coğrafiyada axtarmaq mənasızdır. Bütün tarixçilərin artıq çoxdan etdikləri kimi, iqtisadi coğrafiyadan yararlanmaq gərəkdir. Şimali İngiltərədən yun, Kent və Normandiyadan buğda, Overndən şərab, Turendən müxtəlif parçalar alan Plantagenetlər möhkəm dayanmışdılar. İqtisadi əlaqələr tamasları canlandırır, hökmdarları zənginləşdirirdi. Lakin etnik qovuşma baş vermirdi. Niyə? Bu suala cavab vermək üçün üçüncü aspekti nəzərdən keçirmək lazımdır.

Xalqların vətənləri var! Roma hakimiyyəti suquta uğradı. Reynlə Biskay körfəzi arasındakı ərazidə Fransa yaranması ərəfəsində burada məskunlaşan tayfalar dil, adət-ən'ənə cəhətdən o qədər fərqli idilər ki, Ogüstyen Tyerri müasir Fransanın formalaşmasının tayfa konsepsiyasını təklif etdi və haqlı oldu. "Həqiqətənmi V-XVIII əsrlər Fransa tarixi eyni mənşə, adət, dil, vətəndaş və siyasi mənafelərə malik vahid xalqın tarixidir? Əsla yox! "Fransızlar" sözünü sonradan təkcə Reyndən o tərəfdəki tayfalara deyil, hətta birinci sülalə dövrünə aid etdikdə belə, əsl anaxronizm əmələ gəlir". Daha sonra O.Tyerri həmin fikrini bu cür açıqlayır: "Məgər əcdadları franklarla müstəqil xalq kimi danışıqlar aparan bretonlu üçün Xlodviq və ya Böyük Karlın [182-183] xələflərinin tərcümeyi-halı milli tarix ola bilərmi? VI-X əsrlərdə və hətta bir qədər sonralar da Şimali Fransanın qəhrəman oğulları Cənub üçün əsl bəla idi." /15/ Fransızlar germanların Müqəddəs Roma imperiyasının domeni olan Dofine, Burqundiya və Provans yalnız XIV əsrdə Fransa krallığına birləşdirdilər. Lakin süzerenləri Plantagenet sülaləsinə mənsub ingilis kralı olan Bordo, Bayonna və Biskey körfəzi sahili boyu uzanan zolaq müstəqilliklərini qorudular. Bu, heç də İngiltərənin Qaskon üzərində hökmranlığı yox, qaskonluların özlərini Fransa istilasından qorumaq üsulu idi .

1339-cu ildə Fransa ilə İngiltərə arasında başlayan yüzillik müharibə qüvvələr nisbətində kəskin fərq olmasına baxmayaraq /1327-28-ci illərdə Fransada 18 mln., /16/ İngiltərədə isə cəmi 3 mln. adam yaşayırdı, üstəlik, arxada Şotlandiya təhlükəsi mövcuddu/, İngiltərənin böyük üstünlüyü şəraitində cərəyan edirdi. Səbəb isə yalnız qaskonlularla bretonluların və Navarra krallığının ingilisləri dəstəkləmələri idi.

Mərhəmətli İohan vəfat etdikdən sonra onun böyük oğlu Karl kral, o biri oğlu Filip isə Burqundiya hersoqu oldu. Güman etmək olardı ki, qardaşlar öz aralarında razılığa gələcəklər. Lakin belə olmadı, çünki baronları onlardan yox, onlar baronlarından asılı idilər. Burqundiyadıkı Valua sülaləsini Fransanın şərq əyalətlərinin başında duraraq, Artua, Flandriya və Franşkonteni Burqundiyaya birləşdirdikdən sonra parislilərin də onlara rəğbət bəsləmələrindən istifadə edərək, bütün Fransa üzərində hökmranlıq iddiasına düşdülər. Onlara qarşı qraf Armanyakın rəhbərlik etdiyi qərb və cənub bölgələrin sakinləri çıxış etdi. Onlar arasındakı müharibə ingilislərin işini yüngülləşdirdi. Onlar burqundiyalılar və parislilərlə ittifaqa girdilər /sonuncular belə hesab edirdilər ki, "armayanklar" - cənublar və Bretan sakinləri "fransız krallığına mənsub deyillər" /18/, yə'ni onları fransız adlandırmaq olmaz/. Fransanı fransız dilində alman ləhcəsilə danışan Janna d'Ark xilas etdi. Təcrid olunmuş Burqundiyanı isveçrəlilər darmadağın etdilər və o, Bretan və digər icqar ayalətlərlə birlikdə Fransaya mənsub oldu. Müqavimətin bu qədər uzun sürməsinin səbəbini sonuncu hersoq - Cəsur Karl belə açıqladı: "Biz - başqa portuqalları" /19/. Bunu söyləməklə o, burqundlarla fransızlar arasındakı fərqin ispanlarla portuqallar arasındakı fərqə bərabər olduğuna işarə edirdi. Valua familini daşıması və mənşəcə fransız olması da onu çəkindirmirdi.

Lakin hər halda etnik rəngarənglik yerini "Böyük niyyət"də ifadə olunan "təbii sərhədlər" nəzəriyyəsinə verdi. Ministr Sülli [183-184] bu nəzəriyyəsinin öz kralı IV Henrixə mənsub olduğunu göstərmişdir. Fransanın "təbii sərhədləri" kimi Piriney və Alp dağları, Reyn çayı, yə'ni qədim kelt Qalliyasının ərazisi göstərilirdi. Bunu əsaslandırmaq üçün kral və onun naziri Fransanı Qalliyanın səfəri elan etdilər. Elmi cəhətdən çox e'tibarsız olan bu bünovrəyə əsaslanan Burbonlar Fransanın əvvəlki şan-şöhrətini qaytarmağa, yə'ni basklar, italyanlar və almanlar məskunlaşan əraziləri can atırdıar. IV Henrixin "mən ispanca danışılan ərazilərdə ispan kralının, almanca danışan yerlərdə isə Avstriya imperatorunun hökmranlığına e'tiraz etmirəm. Lakin fransızca danışılan yerləri mən idarə etməliyəm" deyə bəyan etməsinə baxmayaraq, Fransa Navarra, Savoya və Elzası işğal etdi, çünki coğrafiya filologiyaya üstün gəldi.

Fransız feodallarının qismən Ağ və Al qızılgül müharibəsində həlak olduğu, qismən də yerli anqlosakson zadəganlara qarışdığı İngiltərədə də eyni proses cərəyan edirdi. Daha sonra XVIII əsrdə krallıq öz təbii sərhədlərinə qədər genişlənərək, bütün adanı əhatə etdi. İngiltərə anqlosaksların yaşadıqları əkinçilik diyarı Kenti, keltlər və skandinavlar - vikinqlərin xələflərinin heyvandarlıqla məşğul olduqları Şotlandiya, Uels və Nortumberlendi öz tərkibinə daxil etdi. Yeri gəlmişkən, Fransanın özünə birləşdirdiyi Provans, Bretan və Qaskon sakinlərinin də öz dilləri, məişətləri və təsərrüfat sistemləri var idi.

Təsvir etdiyimiz prosesi "etnik inteqrasiya" (qovuşma) adlandırmaq olarmı? Çətin hər iki halda böyük qəddarlıqla müşayət olunan birbaşa işğal baş vermişdi. Bundan əlavə, istila olunan etnoslar dövrümüzə qədər gəlib çıxmışlar. Bəs, müasir Fransa və İngiltərə fiziki-coğrafi bölgələrdirmi? Şübhəsiz. Əks halda onlar mövcud etnik rəngarənglik şəraitində çoxdan parçalanırdılar. Beləliklə, coğrafi və etnoloji kateqoriyalar üs-üstə düşür və deməli, landşafta etnosun əlaqəsi landşaftlara yiyələnə və geobiosenozları yenidən quran etnosların tarixi vasitəsilə ifadə edilir. Susseksiya adlanan bu hadisə haqqında söhbət gedən halda antropogen susseksiya adlanmalıdır. Yeni şəraitdə adaptasiya etnogenezin coğrafi aspektidir - qarşılıqlı assimilyasiya və tam uyğunlaşma baş vermir, məğlubların subetnos kimi mövcud olduqları etnik sistem bütövlərini meydana çıxır. Lakin uzun yerlər boyu istilaçı etnosla qonşuluq etmək də hədər getməyib: Bretan keltləri fransızlar, Uels keltləri isə ingilislərlə dostlaşıb. Amma etnoloq yadda saxlamalıdır ki, bu xalqların bugünkü dostluğu [184-185] yaxın keçmişdəki düşmənçiliyi əvəz edib. Sonra nə olacaq 0 onu bu məsələdə estafeti coğrafiyadan qəbul edən etnik tarix göstərir.

O.Tyerrinin tarixi diskret nəzəriyyəsindən fərqli olaraq, Füstel de Kulanj fransız kəndlilərinin məişətində Roma dövrü institutlarının cizgilərini görür. Onlar hər ikisi haqlıdır. Birinci miqrasiyaların xarakterini, ikinci isə landşaftın təsirini qeyd edir. Lakin həm bütövlükdə miqrasiyaların xarakteri, həm də uyğunlaşma dərəcəsi coğrafiya elminə, onun etnologiya adlanan bölməsinə ail olan hadisə kimi nəzərdən keçirilə bilər və keçirilməlidir. Çünki bəşəriyyətin coğrafi mühitlə əlaqələri məhz burada cəmlənib. Onların qarşılıqlı təsir vasitələri də elə həmin əlaqələrdir.

Beləliklə, yalnız tək - tək frdlərin deyil, etnosların da vətəni var. Etnosun vətəni onunu ilk dəfə yeni sistem şəklində formalaşdığı landşaftlar məcmusudur. Bu baxımdan, XIII-XIV əsrlərdə formalaşan velikoros etnosunun elementləri sırasında uqro-slavyan və tatar-slavyan metisləşməsi, Bizansdan əxz olunmuş məbəd memarlığı, bılina eposu və sehrli tülkü və canavarlar haqqında nağıllarla yanaşı, ağcaqayın meşələri, Volqa - oka çayarasının vadiləri və sakit çayları bərabər hüquqa malikdir. Tale rusları hara aparıb çıxarsa da, onlar bilirdilər ki, "öz yerləri" - Vətən var.

İngilislər barəsində də R.Kiplinq yazırdı: "Analarımız isə bizə öyərədirlər ki, qoca İngiltərə - evimizdir". Ərəblər də, tibetlilər də, irokezlər də öz ilkin ərazilərinə malikdirlər, həmin ərazilər landşaft elementlərinin təkrarsız məcmusu ilə səciyyələnir. Belə bir "vətən" "etnos" adlanan sistemin komponentlərindən biridir.

İnkişaf məkanı. Homo sapiens növünə mənsub kollektivlər kimi etnik birliklərə coğrafi landşafların təsiri barədə nəticə çıxarmaq üçün gətirdiyimiz örnəklər kifayətdir. Lakin bir haşiyə çıxmağa tələsirəm: 1922-ci ildə L.S.Berq bütün orqanizmlər, o cümlədən insanlar barədə də bu qənaətini artıq söyləmişdi:

“Coğrafi landşaft orqanizmə məcburi şəkildə təsir göstərərək, bütün fərdləri növün təşkilinin verdiyi imkanlar daxilində müəyyən istiqamətlərdə seçim imkanı verir. Tundra, meşə, çöl, səhra, dağlar, su mühiti, adalarda yaşamaq və s. - bütün bunlar orqanizmlərdə xüsusi iz qoyur. Uyğunlaşa bilməyən orqanizmlər ya başqa coğrafi landşaftlara köçməli, ya da məhv olmalıdırlar”./21/ “Landşaft” dedikdə isə “yer səthinin digər sahillərindən keyfiyyətcə fərqlənən, təbii sərhədlərlə əhatə olunan sahəsidir. Bu sahə əşya və hadisələrin [185-186] kifayət qədər geniş məkanda tipik ifadə olunan və hər cəhətdən landşaft örtüyü ilə qırılmaz şəkildə bağlı olan vahid və qarşılıqlı şərtləndirilmiş qanunauyğun məcmusudur”. /22/ Bu anlayışı P.N.Savitskinin çox uğurlu bir termini - “inkişaf məkanı” /23/ kimi adlandıraq /“yataq” anlayışının analoqu kimi/.

Müəllifin insanları heyvanlarla tutuşdurmağa başlayaraq, sonda onları minerallar səviyyəsinə endirməsi oxucunu təəccübləndirə, hətta təhqir edə bilər. Lakin incimək lazım deyil! Hər birimz təbiətin istənilən qanunauyğunluğuna ancaq bir tərəfdən toxunuruq. İnsan şəxsiyyəti isə çoxcəhətlidir, həm estetika, həm etika, həm də hazırda “informasiya”, yaxud “noosfer” adlandırılan bütün qalan şeylər üçün kifayət qədər yer var. Lakin biz hələlik yer üzərindəki işlərimizə qayıdaq, çünki landşaftlar haqqında söhbətimiz hələ başa çatmayıb.

## XV. LANDŞAFTLARIN AHƏNGDARLIĞININ ROLU

Landşaftların yeknəsəkliyi və rəngarəngliyi. Heç də istənilən ərazi inkişaf yeri ola bilməz. Belə ki, Avrasiyanın başdan-başa meşələrlə örtülü olan və Oneqa gölündən Oxotsk dənizinə qədər uzanan nəhəng zolağında nə bir xalq təşəkkül tapmış, nə də bir mədəniyyət meydana çıxmışdır. Burada nə olubsa və nə varsa, hamısı cənubdan, ya da şimaldan gəlib.Təmiz, hamar çöl də inkişaf üçün imkan yaratmır. Altaydan Karpat dağlarına qədər uzanıb gedən Dəşti - qıpçaq Genius losi olmayan yerdir. Bu çöllər başqa yerlərdə, məsələn qarışıq relyefi və rəngarəng landşaftı olan Monqolustanda formalaşmış xalqlar məskunlaşırdı. Hentey və Hanqayın ətəklərində sıx meşələr bitir. Tola və Kerulenin aşağı axarlarındakı yaşıl çöl cənubda daşlıq Qobi səhrası ilə əvəzlənir. Bu səhrada qar mart ayında əriyir və yayın istisi başlayana qədər mal-qara otlamaq imkanına malik olur. Müvafiq olaraq, buraların faunası da rəngarəngdir. Arxeoloji mədəniyyətlər isə hunlar, türklər, uyğurlar, monqollar və oyratlar kimi məşhur xalqların bir-birini əvəzləməsini göstərir.

Əksinə, Böyük çölün İrtışın mənsəbindən Donun aşağı axarına və Sibir tayqasının kənarlarından Balxaş və Arala qədər uzanan qərb hissəsi yeknəsəkdir, buralarda məskunlaşan xalqlar isə bir o qədər də tanımırlar.Hazırda qazaxlar yeknəsək çöl landşaftına malik nəhəng bir ərazidə məskunlaşıblar. XIII əsrdə çöl qanlı monqol - qıpçaq müharibələri nəticəsində kimsəsizləşmiş və [186-187] üç orda arasında bölüşdürülmüşdü: qızıl, yaxud Böyük Orda - Volqa boyunca, Göy orda - Aral dəniziylə Tümen arasında və Ağ orda - Tarbağatay və Yuxarı İrtışda. /24/ Volqaboyunda müxtəlif xalqların qarışmasından tatarlar formalaşdı. Göy orda zəifləyərək, XIV əsrdə Qızıl ordaya birləşdi. Sibir tayqasının Ob çayın qədər uzanan ətəklərinə, Altayın yamac və ətəklərinə, Sırdərya çöllərinə, buralarda tez - tez rast olunan şam meşəliklərinə əsaslanan Ağ orda isə müstəqil etnom kimi inkişaf ketdi ki, sonralar həmin etnos Aralətrafı çöllərdə, Manqışlarda və Rinpeskini məskunlaşdırdılar. /25/

Həqiqi inkişaf məkanı iki və daha artıq landşaftın uyuşduğu ərazilərdir. Bu müddəa təkcə Asiyaya deyil, bütün yer üzü üçün doğrudur. Avrasiyada əsas etnogenez proseslərinin təşəkkül tapdığı yerlər: a) şərq hissədə - dağlıq və çöllük landşaftlar uyuşan zaman; b) qərbdə meşə və çəmənliklər /Volqa -Oka çayarası/ bir birini tamamlayarkən; c) cənubda - çöl və vahələr /Krım, Orta Asiya/; d) şimalda - meşətundra və tundra. Lakin mən sonuncuları xüsusi sirkumpolyar /qürbətrafı/ mədəniyyətlər bölməsində fərqləndirmək istərdim, çünki şimalda təcrid olunan bu mədəniyyətlər Avrasiyadakı inkişaf məkanına heç vaxt təsir göstərməmişlər.

Yoxlayaq. Hunlar İn-Şanin meşəli ətəklərində formalaşmış və yalnız bundan sonra monqol çöllərinə üz tutmuşdular. Uyğurlar Nan-Şan, türkyutlar Altay, monqollar Hinqan və Hentay ətəklərində formalaşmışlar. Kidanların təşəkkül tapdıqları yer meşələrlə zəngin Mancuriyaya uzanan çöl zolağı, Yenisey qırğızlarınınkı - Minisink çölündəki “ada” və Sayan dağlarının ətəkləri olmuşdur. Qədim bolqarların xələfləri olan Qazan tatarları meşə çölün qovuşduğu Kama ətrafında, Krım tatarları - çöllük Krımla başdan başa vahələrdən ibarət cənub sahilboyunda. Bunlar bir xalq şəklində birləşən müxtəlif mənşəli türkləşmiş levantiyalılardır. İnkişaf məkanları Dağıstanın ətraf bölgələri olan xəzərlərin ilk paytaxtı - Səməndər şəhəri Terekin orta axarında yerləşirdi.

Haqqında danışılan prinsipi inkişaf etdirərək belə bir təxminsöyləmək olar ki, landşaft bölgələrinin sərhədlərinin yaygın olduğu, bir coğrafi şəraitdən digərinə rəvah keçid olduğu yerlərdə etnogenez prosesləri daha sakit olacaq. Məsələn, Orta Asiyadakı çayarasının bir qrup zəngin vahəsi yarımsəhralar və quraq çöllər əhatəsindədir, bəzi hallarda isə onlar vahələri bir birindən ayırır. Həqiqətən, Orta Asiyada etnogenez o qədər ləng cərəyan edirdi ki, [187-188] bəzən onları demək olar ki, duymaq belə mümkün deyildi. Şimalda və cənub - qərbdəki səhra zolağı silahlı quldurlar tərəfindən çox asanlıqla dəf olunsa da, həyat üçün az yararlı idi. Kopetdağ, tyan-Şan, Gissar dağətəklərində isə türkmən-səlcuqlar /XI əsr/,

qürğızlar /XV əsr/, taciklər /VIII-IX əsrlər/ və özbəklər /XVI əsr/ formalaşaraq, qədim soqdilərin xələflərinin yaşayış arealını Pamir və Gissarin dağ bölgələrilə məhdudlaşdırılır. Soqdilər həmin yerlərdə təcrid olunmuş şəkildə ömür sürürdülər.(26)

Şaquli qurşaq sistemli olmasına baxmayaraq, sıra dağlar sistemi yeknəsək bölgələr kimi nəzərdən keçirilməlidir, çünki insana münasibətdə vahid coğrafi təsərrüfat sistemi təşkil edir. Buna görə də Qərbi Pamir, Dərdistan, Hinduquş, Himalay, həmçinin Qafqaz və Piriney dağları qalıq persistent etnosların qorunub saxlanması üçün çox əlverişlidir. Hələ Kir və Makedoniyalı İskəndər dövründə hərbi dəstələr dağlıq əraziləri çox asanlıqla keçirdilər. Lakin yeni xalqlar dağlarda deyil, onların ətəklərində meydana çıxırdı.

Başdan başa çöllük olan ərazilərdə məskunlaşan xalqların hətta həddən artıq zəngin olduqda belə, inkişaf imkanları son dərəcə azdır. Belələrinə örnək kimi saklar, peçeneqlər, qıpçaqlar və türkmənlərin adlarını çəkmək olar. /Türkmənlərin səlcuq adlanan və IX əsrdə Kiçik Asiya və Azərbaycana köçən hissəsi istisnadır. Onlar həm etnik, həm də sosial baxımdan sabit idi/.

Ləvənt, yaxud Yaxın Şərq dəniz, dağlar, səhralar və çay vadilərinin toplusudur. Burada yeni etnik qovuşuqlar daha tez-tez meydana çıxırdı.Zaqafqaziyanın təcridolanlar üçün əlverişli şəraitə malik dağlıq yaylaları istisna təşkil edirdi. Belə ki, buralarda məskunlaşan kürdlər etnik özünəməxsusluqlarını farslar, yunanlar, romalılar, hətta osmanlı türklərindən də qoruya biliblər. Ümumi qaydanı təsdiq edən istisna.

Çin - vaxtilə sulardan azad edilmiş ölkədir /qədimdə buralar kiçik göllər və məcrasını daim dəyişən çaylarla zəngin bataqlıqlar ölkəsi idi/. Xuanxe sahillərinin çay, dağ, meşə və çöl landşaftlarında formalaşan çinlilər Yantszıdan cənuba doğru yerləşən cəngəllikləri yalnız yeni eranın birinci minilliyində məskunlaşdırmışlar. Lakin cənuba köçərək buradakı yerli əhali ilə qarışan qədim çinlilər həm öz əcdadlarından, həm də Huanhe vadisində hunlar və sənbilərlə qarışan şimaldakı çinlilərdən fərqlənən müasir cənubi çin etnosunu yaratdılar.

Dəniz və dağlarla əhatələnmiş Hindistan da yarımkontinent kimi nəzərdən keçirilə bilər. Lakin Avropadan fərqli olaraq, [188-189] o daha kasıb landşafta malikdir. Dekan yaylasının landşaftları bioloji cəhətdən bir birinə yaxın olduğundan, burada etnogenez prosesləri, yəni tarixi zaman ərzində yeni etnosların meydana gəlməsi çox zəif müşahidə olunur. Şimal -Qərbi Hindistanda isə iki böyük xalq formalaşdı: racputlar - təxminən VIII /27/ əsrdə və sikhlər - XVI-XVII əsrlərdə. Belə güman etmək olar ki, insan üçün zəngin, meşələrlə ötürlü Qanq vadisi Racəstan və Sind səhralarından xeyli əlverişlidir. Lakin hind çayı vadisində səhralarla tropik bitkilərin uyüşması açıq-aşkar müşahidə olunur. Mədəniyyət isə Hindistanın daxili bölgələrində çiçəklənsə də, yeni xalqların meydana gəlməsi sərhədyanı bölgələrlə ilgilidir.

Şimali Hindistanın cəngəlliklərinin Dekan və Macarıstanın sıx otlar bitən çöllərinin qovuşduğu Aşağı Narbada hövzəsində də xalqların təşəkkül tapma prosesləri kifayət qədər güclü cərəyan edirdi. VI əsrdə burada Çəlükyə - cəngavər kşatri tayfası /ola bilər ki, buralara Racputandan köçüb gəlmişlər/ (280, XVII əsrdə isə mərathlar fəallaşdılar. Casta sisteminin bir sıra məhdudiyyətlərindən imtina edən marathlar, Hindistan üzərində Böyük Moğolların hökmranlığını rədd edən bir xalq yaratdılar. Mərathların hindlilərin ümumi kütləsindən fərqləndiklərini Hindistanın bütün tarixçiləri qeyd edir.

Mərathlar ölkəsi üç fiziki-coğrafi bölgənin uyuşmasıdır: Qərbi Qhatla dəniz arasındakı sahilboyu zolağ, Qhat dağlarından şərqə doğru dağlıq ölkə və təpəliklərlə məhdudlaşan qaratorpaq vadi. (29) Beləliklə, bu bölgəni inkişaf məkanı adlandırdığımız kateqoriyaya aid etmək üçün bütün əsaslar göz önündədir, halbuki, Benqaliyanın mədəniyyəti qat-qat üstün idi.

Şimali Amerikada sonsuz meşələr və prerilər etnogenez üçün əlverişli şəpait yaratmır. Lakin burada da elə bölgələr var idi ki, orada hindu qəbilələri tarixçilərin gözü önündə xalqlar kimi təşəkkül tapırdı. Böyük Göllərin sahil xətti öoyunca Xv əsrdə beş qəbilədən ibarət irokez ittifaqı meydana gəldi. Bu yeni etnik qurum əvvəlkindən fərqli idi,çünki onlarla qan və dil qohumluğu olan quronlar bu ittifaqa daxil olmadılar.

Sakit okeanın Alyaskadan cənuba doğru qayalıq adalar morj və suitilərin yataq yerləridir və dəniz sahilboyunda məskunlaşanları dolandırır. Məhz bu ərazilərdə tlinkitlər qonşu ovçu qəbilələrdən həm dilinə, həm də adətlərinə görə kəskin fərqlənən quldarlıq cəmiyyəti yaratdılar. [189-190]

Kordilyer dağları əksər hallarda prerilərə tərəf sıldırım qayalıqlarla tamamlandığından, dağ landşaftı çöl landşaftı ilə uyüşmür, yalnız qonşuluq edir. Lakin cənubda, Nyu -Mexiko ştatında bu landşaftlar arasında keçid var və qədim “pueblo” mədəniyyəti də məhz burada təşəkkül tapmış, XII əsrdə isə məşhur asteklərin də mənsub olduqları naqua qrupu formalaşmışdır. Kontinentin hindular yaşayan böyük bir hissəsi bir növ Ninterland - inkişaf məkanlarında formalaşan xalqlarınq sığındıqları, yaxud yayıldıqları ərazi idi. Belə xalqlara örnək kimi alqonkin qrupuna mənsub qaraayaqlıları və bir çox başqa tayfaları göstərmək olar.

Bu qanunauyğunluq Cənubi Amerikanın timsalında daha əyani şəkildə nəzərə çarpır. Dağ və çöl landşaftlarının uyuşmasından ibarət olan And yaylası bir çox xalqların müxtəlif əsrlərdə yaratdıqları mədəniyyət abidələrini qoruyub saxlamışdır. Braziliya meşələrində və Argentina düzənliklərində is, kapitan Fossetin arzularının əksinə olaraq, heç bir mədəniyyət formalaşmamışdı. Gətirdiyimiz çoxsaylı

örnəklərdən göründüyü kimi, yarana da bilməzdi, çünki bu ölkələrin təbiəti yeknəsəkdir. Lakin bu yeknəsəklik başqa yerlərdə meydana çıxan xalqlara bu yerlərin sərvətlərindən həm keçmişdə, həm də indi yararlanmağa mane olmamışdır. Dağ sakinləriaraukanlar Pataqoniyada məskunlaşdılar; XVI əsrdə inklər braziliya meşələrini mənimsəməyə cəhd göstərdilər; XIX əsrdə isə portuqallar burada görünməmiş dərəcədə zənginləşdilər.

Eyni qanunauyğunluğu Afrika və Avstraliyada da aşkar edə bilərik. Lakin dənizlə bağlı etnoslara diqqət yetirərək, onların özünəməxsusu xüsusiyyətlərini üzə çıxarmaq daha məqsədəuyğundur.

Dəniz sahillərində və buzlaqlar kənarında. Sahil xəttinin xarakterindən və sahil boyu məskunlaşanların mədəni səviyyəsindən asılı olaraq, dəniz ikili rol oynaya bilər. İstifadə edilməyən və keçilməz dənizlər landşaftın məhdudlaşdırıcı elementidir. Hindlulər üçün Atlantik, zəncilər və Avstraliya aborigenləri üçün isə Hind okeanı, seneqlər üçün isə hətta Xəzər dənizi məhz həmin rolu oynaırdı. Dənizdən qida məhsulları əldə etməyə və gəmiçiliyə yiyələnməyə başladıqda isə, dəniz inkişaf məkanının tərkib hissələrindən birinə çevrilir. Belə ki, yunanlar Egey, vikinqlər- Şimal, ərəblər - Qırmızı, rus pomorları isə Ağ dənizdən yararlanmışlar. XIX əsr üçün artıq demək olar ki, [190-191] bütün dəniz və okeanlar mənimsənilsə də, bu heç də bütün dövrlər üçün səciyyəvi deyildi.

Tarixi dövr ərzində dənizin inkişaf məkanının tərkib hissəsi olduğu iki etno-mədəni bölgə göstərmək olar: Şimal Buzlu okeanı sahillərindəki sirkumpolyar mədəniyyətlər və Polineziya. Sonuncu barədə o qədər danışılıb ki, təkarara ehtiyac yoxdur. Yalnız onu xatırlamaq kifayətdir ki, Polineziya mədəniyyəti avropalıların gəlişinə qədər rəngarəng etnik törəmələri ehtiva edirdi. Bunlar isə hətta Pasxa adası kimi təcrid olunmuş quru parçasında belə öz aralarında mübarizə aparır, xarakterсə bir birinə çox yaxın olan, lakin öz mədəniyyətlərini yaradırdılar.

Sirkumpolyar xalqların mədəniyyətləri daha öz məşhurdur. Vaxtilə bir birinə bənzər mədəniyyətlər Şimal Buzlu okeanını da əhatə edir və okean da onları qidalandırırdı. Bunlar, əsasən, dəniz heyvanları ovçuları və ixtiofaqları idi. Artıq tarixi dövrdə uqor-samoyedlər onların torpaqlarını əvvəlcə ikiyə böldülər, daha sonra isə qərb hissədə yaşayanları qırdılar. Bunların ardınca tunquslar şərqdəkiləri məhv etdilər. Yalnız paleoasiyalılar və Yana və İndigirka boyundakı “omok” xalqı istisna təşkil etdilər. Sonuncular yakut istilası dövründə məhv edildi. Yakutların cənubdan şimala hərəkəti yalnız birtərəfli idi - sallar üzrənidə çay aşağı üzüb gələn yakutlar geri qayıda bilmirdilər. (30)

Gənc sirkumpolyar xalq olan eskimoslar I əsrdə Okeaniyadan yayılmağa başlayaraq, onlar X əsrdə hinduları Kanadanın cənub sərhədlərinədək sıxışdırdılar, XIII əsrdə isə Qrenlandiyada vikinqlərin xələflərini süpürüb dənizə atdılar. (31) Burada yenə landşaftların uyuşmasıdır: qida mənbəyi olan dəniz və meşə - tundra, yaxud buzlaq.

Lakin təkcə qida bəxş edən dəniz deyil, başdan başa buzla örtülü və bu səbəbdən də tamamilə bəhrəsiz olan bölgələr də etnosların təşəkkülünə yardımçı ola bilir. E.ə. X minillikdə Pribaltika və Skandinaviyada belə bir proses baş verib, onun mexanizmi isə sadədəir.

Böyümək üçün buzlaq okeandan soyuq yağış və sulu qar şəklində kifayət qədər atmosfer rütubəti almalıdır. Lakin buzlaq üzərində daim antisiklon olduğundan, rütubətli hava onun kənarlarına toxunaraq, elə oradaca yağış şəklində yağır. Avrasiya kontinenti üçün bu atlantik siklonların Taymıra qədər yayıldığı qərb ucqarıdır. Deməli, buzlaq qərbə doğru yayılır, onun şərq [191-192] hissəsi isə günəş şüaları altında əriyir, çünki bulud örtüyü olmayan yerlərdə insolyasiya daha qüvvətlidir.

Coğrafi təzad yaranır: absolyut temperaturun daha yüksək olduğu yerdə rütubət, külək, buludlar hökm sürdüyündən, burada insanlar və heyvanlar soyuqdan əziyyət çəkirlər. Tempuratur aşağı olan yerdə isə sakit, aydın vəquru hava olduğundan, insanlar və heyvanlar günəşin birbaşa şüaları altında qızınır və soyuq havadan çəkinmirlər. Buzlaq antisiklonu həmişə buzlaqların böyük olduğundan, buzlaqətrafı bölgələri də əhatə edərək, onları quru tundraya çevirir. Buzlaqlardan axıb gələn bulaqlar şirin suyu olan göllər əmələ gətirir, həmin bulaqlar və göllərdə balıqlar və suda yaşayan quşlar iəskən salır, ətraflarında bitən meşəliklər xəzdərili heyvanlar sığınacaq olur. Qar örtüyünün o qədər də qalın olmadığı quru tundrada otyeyən heyvanların sürüləri otlayır. Buralar ibtidai ovçu və balıqçılar üçün cənnətdir.

Sonuncu buzlaşmanın Pomeraniya mərhələsində Şərqi Avropada məhz belə şərait formalaşmışdı. Uzaqlaşmada olan buzlağa bitişən tundrada çay və göllər ətrafında seyrək meşələr bitdi. Elə bu zamanlar Neman və Dvina sahillərində balt qrupunun qədim etnosları formalaşdı və iqlimin istiləşməsi üzündən yeknəsəkləşmiş landşaftda zəmanəmizə qədər gəlib çxdı. Baltika toponimləri və hidronimləri qədim dövrlərlə bağlı əlamətləri özlərində qoruyub saxlamışdılar. (32) Yalnız etnoslar deyil, landşaftlar da öz tarixlərinə malikdir.

Landşaftın xarakterinin etnogenezə təsiri. Artıq apardığımız araşdırmadan bəzi nəticələrə gələ bilərik: yeknəsək landşaft burada məskunlaşan etnosları sabitləşdirir, rəngarəng isə yeni etnik törəmələrin meydana çıxmasına aparan dəyişiklikləri dəstəkləyir.

Ortaya belə bir sual çıxır: landşaftların uyuşması etnogenezin səbəbidir, yoxsa etnogenez üçün əlverişli şərait? Yeni xalqların meydana çəxmasının səbəbi coğrafi şərait olsaydı, daimi təsirə malik bu şərait aramsız olaraq yeni xalqlar əmələ gətirərdi. Əslində isə belə bir şey müşahidə olunmur. Deməli, etnogenez coğrafi şəraitlə şərtlənsə də, başqa səbəblərdən doğur ki, həmin səbəbləri aşkarlamaq üçün digər

elmlərə müraciət edilməlidir. Bu problemlər xüsusi bölmələrdə araşdırılacaq və son nəticədə əsas suala cavab aşkarlanacaq: niyə və nə üçün etnoslar bir birinə bənzəmir və etnogenezin digər təbiət hadisələrinə nə dəxli var?

Opponentlərimdən biri mənim yeni etnosların meydana çıxmasının iki vədaha artıq landşaftın qovuşma bölgələrinə təsadüf [192-193] etməsi, onların inkişafının isə maneəsiz şəkildə yeknəsək landşaftlarda cərəyan etməsi haqda tezisimi təkzib edir. (33) Lakin elə həmin abzasda yazır: "Etnogenes hər hansı /fərqləndirmə bizimdir - L.Q./ azsaylı xüsusi landşaftlarda lokallaşmayaraq, əslində, yer üzünün bütün bölgələrində cərəyan etmişdir. Sadəcə olaraq, bəzi hallarda təbii şərait etnik proseslərin gedişini bir qədər /fərqləndirmə bizimdir - L.Q./ sürətləndirə və ya səngidə bilər". Nədənsə, opponentim onun etirazını aradan qaldıran ziddiyyətlərə yol verdiyini görmür. Axı, yeni etnosun, yəni yeni sistem bütövünün meydana gəlməsi həmişə yeni etnosa etnik substrat münasibəti bəsləyən köhnə etnosların dağılması ilə müşayət olur. Bu işin yerinə yetirilməsi üçün impuls tələb olunur. Bu impuls ya yeni etnik prosesin başlanğıcını qoyacaq, ya da mühitin müqaviməti üzündən sönüb itəcək. Yuxarıda söylənən "bir qədər" də elə məhz bu zaman həlledici əhəmiyyət qazanır ki, biz bunu artıq qeyd etmişdik, irəlidə isə bu barədə izahat verəcəyik.

İndiyədək landşaftlar haqqında bakirə təbiətin məhsulu kimi danışsaq da, Yer üzündə insan təsirinə məruz qalmayan landşaft olmadığını da çox gözəl bilirik. Biz bilərəkdən belə bir sadələşməyə problemi aydınlaşdırmaq məqsədilə yol versək də, süni landşaftlar ən qədim dövrlərdən bəri məlumdur. Qədim Babildə milyona yaxın, Romada 1,5 milyona yaxın, Konstantinopolda milyondan artıq əhali yaşayırdı. Bu nəhəng şəhərləri müstəqil landşaft bölgələri kimi nəzərdən keçirmək olar. Elə onlar özləri də məhz belə landşaftlar kimi biruzə verirlər: şəhərlə kəndin sərhədində daim subetnoslar yaranır. Əksər hallarda müvəqqəti, keçici, bəzən isə dayanıqlı olan bu qurumlar həmişə orijinal, təkrarolunmaz, onların üzvləri üçün məcburi olan davranış stereotiplərinə malik olurdular.

Daha bir ağrılı sual da var: Bizim texiniki sivilizasiya dövrü olan zəmanəmiz müasirliyin deyil, tarixin araşdırılması nəticəsində aşkar edilən qanunauyğunluqların tətbiq oluna bilmədiyi xüsusi bir dövr deyil ki? Bu sual artıq çox kəskin və dürüst şəkildə qoyulub: "Çöl və səhra bu terminlərin landşaft anlamında çöl və səhra kimi qalmaqdadırmı? Ən çox dəyişikliyə məruz qalan bitki aləmidir /çöldə-əkinçilik, səhrada- heyvanların otarılması və suvarma əkinçiliyi/ ki, bu səbəbdən yeraltı suların axarı, üst layla, aşınma prosesi və təbii komplekslərin tərkib hissələrinin bütün sonrakı "zənciri" dəyişikliyə uğrayıb". (34) [193-194]

Həqiqətən, son üç min il ərzində landşaftyaranmanın antropogen amili yer səthinin simasının formalaşmasında mühüm yer tutmuşdur və onun əhəmiyyəti getdikcə artmaqdadır.

Kənd təsərrüfatı flora və faunanı dəyişir, memarlıq relyefin mühüm elementinə çevrilir, neft və kömür yandırılması atmosferin tərkibinə təsir göstərir. Bu baxımdan Paris sürətləndirilmiş inkişaf ritminə malik meşə landşaft zonasındakı antropogen geoxor (35) kimi nəzərdən keçirilməlidir, çünki bu, mikrorayonun müasir görünüşü həm Paris qrafının orta əsrlərdəki qəsrindən, həm də Roma Lütesiyasından fərqlənir. Lakin onu da qeyd edək ki, axarı olmayan göl də sürətlə dayazlaşan zaman bataqlığa çevrilir, onu əhatə edən meşəlik isə həmin müddət ərzində dəyişmir. Antropogen və hidrogen törəmələr arasındakı fərq nə qədər böyük olsa da, təbiətşünaslıq baxımından prinsipial deyil. Lakin oxşarlıq və fərqlərin qeyd olunması qoyduğumuz suala: "İnsan yer üzünü niyə və necə dəyişir?" - cavab vermir. Buna görə də qədim ellinlər dediyi kimi "həqiqət axtarışını", yəni tarixi araşdırmalarımızı davam etdirək.

## XVI. ANTROPOGEN LANDŞAFTLARIN TƏŞƏKKÜLÜ

Cəmiyyətin inkişafı və landşaftın dəyişməsi. Söhbət müxtəlif etnoslara daxil olan fərdlərin "davranışından" getdiyindən, ən sadəsi tarixi talenin qismət etdiyi bu və ya digər təbii landşafta onların necə təsir göstərdiklərinə diqqət yetirməkdir. Başqa sözlə, biz landşaft yaranmanın amilinin xarakter və variantlarını izləməli və bu zaman bəşəriyyətin artıq haqqında danışdığımız etnik kollektivlərə bölgüsünü nəzərə almalıyıq.

Məsələ insanın etdiyi dəyişikliklərin böyüklüyündə, həcmində və hətta öz nəticələrinə görə onların xeyirli, yaxud məhvedici olmasında yox, nə vaxt və necə baş verməsindədir.

Şübhəsiz, sənaye bölgələrinin, süni suvarma olan ərazilərin lındşaftı çöl, tayqa, tropik meşə və ya səhradakından daha çox dəyişdirilib. Lakin biz burada sosial qanunauyğunluq axtarışına başlasaq, dəfolunmaz çətinliklərlə üzləşəcəyik. E.ə. V əsrdə qəbilə quruluşu dövründə yukatanda yaranan mayya əkinçilik mədəniyyəti sinfi münasibətlərin təşəkkül tapmağa başladığı dövrdə tənəzzülə uğradı, İspaniya hökmranlığı dövründə isə Avropadan müasir texnika götirilməsinə və xristianlığı qəbul etmiş hindulara himayə edilməsinə baxmayaraq, bərpa olunmadı. [194-195] Feodalizm dövründə Misirin təsərrüfatı yavaş-yavaş da olsa, dönmədən tənəzzülə uğrayır, elə həmin dövrdə və elə həmin sosial münasibətlərin hökm sürdüyü Avropada isə ticarət bir yana dursun, əkinçilik və sənətkarlıq görünməmiş bir yüksəliş keçirirdi. Bizim araşdırmamız baxımından bu, o deməkdir ki, bu zaman Misirdə landşaft sabit idi, Avropada isə

kökündən dəyişirdi. XIX əsrdə Misir relyefinə antropogen məqamların daxil edilməsi - Süveyş kanalının qazılması - isə heç də yerli fəllahların fəaliyyətilə deyil, buralara fransızlar və ingilislərin nüfuz etməsilə bağlı idi.

XVI əsrdə kapitalizmin yenicə başladığı İngiltərədə "qoyunlar adamları yedilər". Monqolustanda isə XIII-XIV əsrlərdə qoyunlar Sayan dağlarının, Hamar Dabanın cənub, Böyük Hinganın isə şimal ətəklərində məskunlaşan tunqusları "yedilər", halbuki həmin yerlərdə heç feodalizm belə kifayət qədər inkişaf etməmişdi. Monqol qoyunları otu yeyir, kiçik gölməçələrdəki suyu içir, bununla da vəhşi dırnaqlı heyvanları yem və sudan məhrum edirdilər. (36) Sonuncuların sayı durmadan azaldıqca, ovçuluqla məşğul olan tayfalar da adət etdikləri qidadan məhrum olaraq zəifləyir, köçəri maldarlardan asılı vəziyyətə düşür və Asiyanını etnoqrafik xəritəsindən itirdilər. Daha bir neçə misal : Azor adalarını çılpaq qayalıqlara Meksika və Niderlandda tüğyan edən ispan feodalları deyil, keçilər çevirmişdilər. Onları isə bu yerlərə qəbilə quruluşunun hələ yox olmadığı asturiyalılar və basklar gətirmişdilər. Amerikada bizonlar kapitalizm quruluşu dövründə məhv edilmişdilər, Yeni Zelandiyada mao quşunu isə sinfi təbəqələşmə barədə heç təsəvvürləri belə olmayan maorilər qırıb qurtardılar. Öz adalarında Amerikadan gətirilən kartofu yerli şəraitə uyğunlaşdıran da elə həmin maorilər olmuşdu, halbuki Rusiyada imperatriça II Yekaterina bu məqsədlə nəhng hərbi-bürokrat maşının yardımından istifadə etməli oldu. Buradan belə nəticə çıxır ki, qanunauyğunluq başqa müstəvidə yerləşir.

Sualı başqa cür qoyaq: bəşəriyyət təbiətə necə təsir göstərir yox, inkişaflarının müxtəlif mərhələlərində olan xalqlar təbiətə necə təsir edir? Bunnunla da biz indiyədək bu qarşılıqlı təmasın vasitəli xarakterini qeydə almaq üçün indiyədək çatışmayan aralıq həlqəni daxil edirik. Belə olduqda ortaya yeni bir təhlükə çıxır: əgər hər bir xalq, üstəlik, mövcudluğunun hər bir mərhələsində təbiətə xüsusi şəkildə təsir göstərirsə, onda bu kaleydoskopu bütövlükdə nəzərdən keçirmək qeyri-mümkündür və biz hər hansı bir ümumləşdirmə [195-196] aparmaq, deməli, araşdırdığımız hadisəni dərk etmək imkanından məhrum olmaq təhlükəsilə üzləşirik.

Lakin bu məqamda köməyimizə təbiət elmlərində adi hal olan müşahidə edilən faktların təsnifi və sistemləşdirilməsi gəlir ki, humanitar elmlərdə bu, bir qayda olaraq, lazımi şəkildə öz əksini tapa bilmir. Bu səbəbdən də etnosların onların landşafta münasibəti baxımından danışarkən, biz coğrafi xalqşünaslıq mövqeyində qalır və humanitar etnoqrafiya sahəsinə keçmirik.

Etnik təsnifatın humanitar elmlərdə qəbul olunmuş əlamətlərindən - irqi, ictimai, maddi-mədəni, dini və s. - imtina edərək, coğrafiya elmindəki ilkin prinsip və aspekti seçməliyik. Səciyyəvi cəhəti kompleksi təşkil edən bütün formalardakı fərdlərin daimi mütənasibliyi olan və artıq təsvir etdiyimiz biosenoz prosesi buna nümunə ola bilər. Məsələn, müəyyən ərazidə canavarların sayı bu ərazidəki dovşan və mişovulların sayından, onların sayı isə ot və suyun miqdarından asılıdır. Adətən, bu nisbət müəyyən hüdudlar arasında dəyişir, tarazlığın pozulması isə istisna hallarda baş verir və bir o qədər də uzun çəkmir.

Düşünmək olardı ki, təsvir etdiymiz mənzərənin insana dəxli yoxdur. Lakin bu heç də həmişə belə deyil. Axı, sayca az olsalar da, bu və ya digər bioxorlarda biosenozların tərkibinə daxil olan külli miqdarda etnik vahid mövcuddur. Bu kiçik xalqlarla, bəzi hallarda isə sadəcə olaraq qəbilələrlə müqayisədə müasir və tarixi sivilizasiyalar onlarla müqayisədə nəhəng olsalar da, sadəcə azdırlar. Biz ilkin təsnifatımızı elə məhz bunun əsasında qurmuşuq: 1) biosenoza daxil olan, landşaftla uyğunlaşan və bununla da adamları məhdudlaşan etnoslar; bu yaşayış üsulu öz inkişafında sanki dayanıb durmuş bir çox heyvan növlərinə xasdır. Zoologiyada bu qruplar persistent adlandırılır və bizim bu termini inkişafın müəyyən nöqtəsində donub qalan etnoslara tətbiq etməməyə heç bir əsasımız yoxdur; 2) intensiv artaraq, öz bioxorunun sərhədlərindən kənara çıxan və öz ilkin biosenozunu dəyişən etnoslar. Coğrafi baxımdan bu hal susseksiya adlanır.

Birinci qrupu təşkil edən etnoslar həm təbiətə münasibətdə, həm də bəzi qanunauyğunluqlarda mühafizəkardırlar. Buna dair bir neçə nümunə gətirək.

Hindular, Sibir tayfaları və onların landşaftları. Kanada və prerilərdə yaşayan hinduların əksəriyyəti avropalıların gəlişindən əvvəl Şmali Amerika biosenozlarının tərkibində yaşayırdılar. Qəbilələrdə adamların sayı ilə şərtləndiyindən və bununla əlaqədar [196-197] təbii artımın məhdudlaşdırılması təbliğ olduğundan, qəbilələrarası qanlı müharibələr birgəyaşayış normasına çevrilmişdi. Bu müharibələrin məqsədi nə yeni yeni ərazilər tutmaq, nə qonşuları işğal edərək, əmlaklarına sahib olmaq, nə də siyasi üstünlük qazanmaq idi.. Xeyr! Bu qayda-qanunun kökləri çox qədim dövrlərə gedib çıxır və onun bioloji təyinatı tamamilə aydındır. Şikarın miqdarı nəhayətsiz olmadığı üçün, özünün və xələflərini ov etmək imkanı ilə təmin etmək, yəni rəqiblərindən xilas olmaq çox mühüm idi. Bu, bizim anlamımızdakı müharibələr yox, müəyyən biosenozu dəstəkləyən mübarizə idi. Bu şəkildə yanaşma zamanı, təbiətdə edilən hər hansı bir dəyişiklik, hinduların fikrincə, kamillik zirvəsi olan təbiətin arzuolunmaz şəkildə korlanması deməkdi.

Əkinçiliklə məşğul olan qəbilələr - pueblo hinduları da özlərini eyni şəkildə aparırdılar. Yeganə fərq ondan ibarət idi ki, onlarda vəhşi heyvan ətini qarğıdalı əvəz edirdi. Onlar öz tarlalarını genişləndirmir, axar sulardan suvarma üçün yararlanmır, texnikalarını kamilləşdirmirdilər. Xəstəliklərin zəif körpələri öldürməsinə yol verməklə əhalinin sayının nizamlanması üstünlük təşkil edirdi. Daha sağlamlar isə

hərtərəfli hazırlıq keçir və sonralar apaçilər və navahlarla toqquşmalarda həlak olurdular. Gördüyümüz kimi, təsərrüfatçılıq üsulları müxtəlif olsa da, təbiətə münasibət eynidir. Yalnız bir şey qaranlıq qalır: niyə navahlar pueblo hindularından əkinçiliyi, onlar isə navahlardan sarsıdıcı həmlələr taktikasını əxz etməmişlər.

Digər tərəfdən, naqua qrupuna mənsub olan asteklər XI-XIV əsrlərdə Meksika yaylasına köçərək, onun landşaft və relyefini intensiv şəkildə dəyişdilər. Onlar teokallilər /relyef variasiyaları/ quraşdırır, akveduklar və süni göllər yaradır /texnogen hidrologiya/, qarğıdalı, tütün,pomidor, kartof və bir çox başqa faydalı bitkilər becərir /flora variasiyası/, al qırmızı boya verən qırmız böcəyi saxlayırdılar /fauna variasiyası/. Bir sözlə, aparıcı və navahlar təbiəti qoruduqları zaman, asteklər onu dəyişdirirdilər.

Güman etmək olardı ki, burada həlledici rolu cənubi Meksikanın istiiqlimi oynayırdı, halbuki Rio-Qrande sahillərinin iqlimi ondan bir o qədər də fərqlənmirdi. Lakin Şimali Amerikanın düz ortasında - Ohayo ştatında aşkar edilmiş nəhəg torpaq sədlərin nəyə xidmət etdiyini isə heç müasir hindular özləri də bilmirlər. (37) Yəqin nə vaxtsa buralarda da təbiəti dəyişməklə məşğul olan və anqlosakson mənşəli amerikalılar kimi iqlim şəraitindən heç bir əziyyət çəkməyən xalq yaşamışdır. [197-198]

Bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, hindu qəbilələrindən biri - tlinkitlər, həmçinin aleutlarda quldarlıq və qul alveri geniş miqyasda yayılmışdı. Qullar şimal-qərbi Amerika əhalisinin demək olar ki, üçdən bir hissəsini təşkil edir, bəzi zəngin tlinkitlərin 30-40 qulu olurdu.

Qulları tez-tez alıb-satır, ən ağır və çirkli işlərdə işlədir, qurbanvermə mərasimlərində onlardan istifadə edir, qul qadınlar sahibləri üçün məşuqə olurdular. (38) Bütün bunlarla yanaşı, tlinkitlər istehsal deyil, mənimsəməyə səciyyəli təsərrüfata malik ovçu qəbiləsi idi.

Şimali Sibirdəki vəziyyət də bunun eyni idi. Məişət və təsərrüfatlarının xarakterinə görə uqor, tunqus və paleoasiya qruplarının xalqları sanki landşaftın bir fraqmentini, biosenozun tamamlayıcı tərkib hissəsini təşkil edirdilər. Daha dəqiq desək, onlar landşafta "daxil olurdular". Yakutlar bir qədər istisna təşkil edirdilər: şimala doğru irəliləyərkən onlar özlərilə at və inək gətirmiş, yeni ərazilərdə biçənəklər təşkil etmiş, bununla da Lena vadisinin landşaft və biosenozunda dəyişikliklər etmişlər. Lakin bu antropogen susseksiya yalnız yeni biosenozun yaranmasına aparıb çıxardı ki, o, rusların gəlişinədək sabit vəziyyətdə saxlanmaqda idi.

Avrasiya çölündə vəziyyət tamamilə başqa idi. Düşünmək olar ki, həyatın əsasını köçəri əkinçilik təşkil etdiyi bu yerlərdə də təbiətdə dəyişikliklər olmamalıdır. Əslində isə çöl onun relyefini dəyişən kurqanlarla, vəhşi otyeyən heyvanları demək olar ki, sıxışdırıb çıxaran ev heyvanları sürülərlə zənginləşib, ən qədim dövrlərdən onun ərazisində az da olsa, darı tarlaları olub.(39) Hunlar, türklər və uyğurlar primtiv əkinçiliyi tətbiq edirdilər. Burada daim təbiətin qeydinə qalaraq ondan yararlanmağa cəhd edildiyi göz qabağındadır. Əlbəttə, Çin, Avropa, Misir və İranla müqayisədə bu təsir çox cüzidir və əkinçiliklə məşğul olan xalqların təbiətə təsirindən bir də onunla prinsipial şəkildə fərqlənir ki, köçərilər mövcud landşaftı kökündən dəyişməyə deyil, onu yaxşılaşdırmağa can atırdılar. Lakin biz Avrasiya köçərilərini təsnifatımızın da daxil etdiyimiz ikinci dərəcəsinə aid etməliyik. İlk baxışda bu qənaətlər nə qədər qeyri-adi görünsə də, araşdırmanı elmi nəticələrlə başa vurmaq üçün biz təsnifat prinsipinə ciddi ardıcıllıqla əməl etməliyik.

Köçəri mədəniyyətinin tənəzzülünə səbəb olan daxili ziddiyyət vaxtilə onun mütərəqqi inkişafını təmin etmişdi - köçərilərin ari bölgəsinin geobiosenozlarına daxil olması. [198-199] Köçərilərdə əhalinin sayı ərzaq məhsullarının, başqa sözlə, mal-qaranın miqdarı ilə təyin olunurdu ki, o da öz növbəsində otlaqların sahəsilə məhdudlaşdırılırdı. Nəzərdən keçirdiyimiz dövrdə çöl əhalisinin sayı əhəmiyyətsiz dərəcədə dəyişirdi: hun dövndəki 300-400 min nəfərdən (40), monqol ulusunun çiçəklənmə dövründəki 1 milyon 300 min nəfərədək (41). Sonralar bu rəqəm azalsa da, XVI-XVII əsrlərə dair dəqiq demoqrafik məlumat yoxdur. (42)

Geniş yayılmış fikrin əksinə olaraq, köçərilər yerlərini dəyişməyə əkinçilərdən daha az meildir. Həqiqətən, bol məhsul əldə edən əkinçi bir neçə illik, həm də yığcam şəkildə olan ərzağa malik olur. Unu torba, yaxud kisələrə doldurub araba və ya qayıqlara yükləmək, silah tədarükü görmək kifayətdir ki, uzaq yolla çıxmaq üçün hazırlıq başa çatsın. Üstəlik, belə səfərə çıxan bir də onu arxayın olurdu ki, onun qarşısını silahlı qüvvədən başqa heç nə kəsə bilməz. Şimali Amerika skvatterləri, Cənubi Afrika burları, ispan konkistadorları, rus torpaqlar kəşf edənləri, hicrənin ilk dövrlərinin əslən Hicas, Yəmən və İrandan olan ərəb döyüşçüləri və Aralıq dənizini başdan başa üzüb keçən ellinlər məhz belə hərəkət edirdilər.

Köçərilərin işi isə bundan xeyli çətindir. Onların ərzağı canlı şəkildədir. Qoyunlar və inəklər tələsmədən hərəkət edir, üstəlik, alışdıqları yem tələb edirdilər. Hətta yaşıl yemin dəyişməsi belə mal-qarının qırılmasına səbəb lda bilər. Heyvansız qalan köçəri isə dərhal aclığa düçar olur. Məğlub edilmiş ölkənin qarət edilməsi döyüşçülərin yalnız özlərini doyuzdura bilər, ailələrini də yox. Odur ki, uzaq yürüşlərə gedərkən hunlar, türklər və monqollar arvad-uşağı evdə qoyurdular. Bundan əlavə, adamlar onları əhatə edən təbiətə alışır və kifayət qədər əsas olmadan vətəni tərk etməyə can atmırlar. Köçmək zərurəti olan hallarda belə onlar tərk etdikləri landşafta bənzər landşaft seçirlər. 202-ci ildə Çin ordusuna qalib gələn hunların heç bir ərazi iddiasında olmamaları da elə bununla bağlıdır. Hunlar özləri bunu belə əsaslandırırdılar: "Hunlar Çin torpaqlarına yiyələnsələr də, buralarda yaşaya bilməyəcəklər". (43) E.ə. II

əsrədək hunlar nəinki, Çin, heç Semireçyeyə də köçmürdülər, çünki ora çöl olsa da, mövsümi rütubətləşmə sistemi fərqli idi. II-III əsrlərdə isə onlar vətənlərini tərk edərək, Huanhe, İli, Emba, Yaik və Aşağı Volqa sahillərinə yiyələndilər. Niyə?

Çoxsaylı və bir birilə bağlı olmayan çeşidli mənbələrdən aldığımız bilgilərə görə, III əsr Avrasiyanın bütün çöl bölgəsi üçün [199-200] çox quraqlıq keçmişdi. Şimali Çində Tsinlin sıra dağlarındakı subtropik cəngəlliklərdən Ordos və Qobi səhralarına keçid çox ardıcıl şəkildə baş verir: cəngəllikləri çəmənlər, çəmənləri çöl, çölü yarımsəhra əvəz edir və nəhayət, Bəy-Şanın barxan və qayalıqları bərqərar olur. Rütubət yuxarı olduğu zaman bu sistem şimala, aşağı olduqda isə cənuba doğru hərəkət edir, onunla birlikdə otyeyən heyvanlar və onların çobanları da yerlərini dəyişir. (44)

Şərqin ən savadlı tarixçisi R.Qrusse məhz landşaftların belə yerdəyişməsini nəzərdən qaçırıb. Köçərilərin Çinə qarşı apardıqları böyük müharibələri çöllərin quruması ilə əlaqələndirənlərə qarşı haqlı olaraq etiraz edən bir tarixçi yazır ki, çinli müəlliflər hər dəfə Çinin daxili siyasi vəziyyətinə əsaslanaraq bu toqquşmalara məntiqi izahlar verirlər. Onun fikrincə, köçərilərin hücumları Böyük çöldə dəyişikliklərilə yox, Çin səddi xəttinin pis müdafiəsi ilə daha asan izah olunur. (45)

O, qismən haqlıdır. İri hərbi əməliyyatlar həmişə epizod səciyyəlidir, müvəffəqiyyət isə bir çox səbəblərdən asılıdır ki, bunların içində natural iəsərrüfat iqtisadiyyatından rolunu görmək heç də həmişə mümkün olmur. Köçərilərin əkinçilər üzərinə etdikləri daimi basqınlar da elə bir əhəmiyyətə malik deyil, çünki bunlar etnoslararası mübadilənin üstüörtülü formasıdır: basqın zamanı köçəri sadəlövh təması və hiyləgərlik bacarması üzündən bazarda itirdiklərini özünə qaytarır. Nə birincinin, nə də ki, ikincinin miqrasiyaya heç bir dəxli yoxdur.

Lakin hadisələri bir qədər diqqətlə araşdırarkən oturaq yaşayan qonşularla münaqişələrdən yayınmağa çalışaraq, öz mal-qarasını suyu hələ çəkilməmiş bulaqlarda suvarmağa can atan dinc əhalinin yerdəyişmələrini fərqləndirmək asandır. Buna bənzər vəziyyət gözümüz önündə Saheldə də /Saxara səhrasından cənuba doğru quru çöl/ yaransa da o, müharibəyə deyil, taureq etnosununu faciəli şəkildə dezinteqrasiyasına /tərkib hissələrinə parçalanmasına/ gətirib çıxardı. (46) Doğrudur, burada məsələ Qərbi Avropa kapitalının taureqlərin natural təsərrüfatını əmtəə təsərrüfatına çevirməsi, nəticədə otlaqların tapdaq altında qalması ilə qəlizləşsə də, bunları nəzərə almaq şərtilə həmin prinsip daha qədim dövrlərə də tətbiq edilə bilər.

Çinin şimal sərhədində, yəni Böyük Çin səddi bölgəsindəki hadisələri daha dərindən araşdırarkən belə bir şey görürük: əvvəlcə hunlar şimala /E.ə. II əsr -eramızın I əsri/, sonra isə cənuba doğru hərəkətə meylli idilər. Cənuba doğru irəliləmə eramızın IV əsrində [200-201] xüsusilə güclənmişdi. Həmin dövrdə hunlar və sənbilər /qədim monqollar/ Şənsi və Şənsinin Səddən cənuba tərəf olan hissələrində məskunlaşsalar da, Hunanın rütubətli bölgələrinə nüfuz etməmişdilər.

Bir mühüm cəhəti də qeyd etmək lazımdır ki, köçərilərin cənuba doğru ilk irəliləmələri heç də mühtəşəm müharibələrlə bağlı deyildi. Çinə istilaçılar yox, heyvanlarını su ilə təmin etmək üçün çayların sahillərində məskunlaşmaq üçün izn istəyən kasıblar gəlmişdilər. Sonralar Şimali Çin istila olunsa da, bunun əsas səbəbi çinli əkinçilərin də tədricən və hiss olunmadan öz tarlalarını atıb, kifayət qədər yağış yağan cənuba doğru köçmələrəi idi. Beləcə, köçərilər boş qalan tarlalara yiyələnir və onları otlaqlara çevirirdilər.

Lakin artıq IV əsrin ortalarından etibarən əks proses müşahidə olunur. Digər tayfalarla yanaşı uyğurların da daxil olduqları böyük tayfa qrupu tale /teleutlar/ Qansu vahələrindən Cunqariya və Halhuya köçdü. Eyni yolla həmin yerlərə gələn qədim türklər VI əsrdə çöl bölgəsinin hüdudları ilə məhdudlaşan Böyük kağanlıq yatardılar.

Bu, nə deməkdir? Böyük çöl yenə köçəri maldarlıq üçün yararlı idi. Böşqa sözlə, buradakı səhralar yenə otlarla zəngin çöllərlə əvəz olunurdu, yəni zonalar şimala doğru hərəkət etmişdi. Lakin əgər belədirsə, onda Şimali Çində də çinlilərdən ötrü rahat, köçərilər üçün isə öldürücü olan rütubətli iqlim bərpa olmalı idi. Deməli, müharibədə üstünlük də cənublularda olmalı idi. Əslində də elə düşündüyümüz kimi oldu. VI əsrin əvvəlləri üçün bütün Huanhe hövzəsinə sahib olan köçəri Toba imperiyası çinlilərin Vey imperiyasına çevrildi və bu imperiyada sənbi geyimləri, adətləri, hətta dili belə ölüm cəzası ilə təhdid edilirdi. Bunun ardınca təbii çinlilər hakim sülalərin üzvlərini qıraraq, öz Suy imperiyalarını yaratdılar ki, həmin imperiya yabançı olan hər şeyə düşmən və kifayət qədər təcavüzkar idi.

Eyni səciyyəli miqrasiyalar elə həmin dövrdə qərb ucqarlarında da cərəyan edirdi. 155-ci ildə sənbilər tərəfindən darmadağın edilən şimal huuları qərbə tərəf çəkildilər. Onların bir hissəsi Tarbağatay dağlıq diyarında möhkəmlənərək, bir qədər sonra /çöldə rütubət artmağa başlayan dövrdə/ Semireçrəyə də sahib oldu. Digər hissəsi isə Aşağı Volqa sahillərinə gəlib çıxaraq, qüdrətli almanlarla toqquşdu. Hunlar "aramsız mübirəzə yolu ilə alanlara qalib gəldilər" (İordan) və 370-ci ildə Don çayını keçdilər. [201-202] Bu dövrdə onlar möhtəşəm bir qüvvə olsalar da, artıq V əsrin ortalarında qərbdə gepidlər, şərqdə isə bolqarlar tərəfindən darmadağın edilərək, tarixin səhnəsini tərk etdilər. Aborigenlər gəlmələr üzərində qələbə çaldılar.

Köçərilərin yerdəyişməsinin növbəti dalğası X əsrə aiddir. (47) Bu zaman Qara dəniz ətrayındakı çöllərdə Aral sahillərindən köçmüş peçeneqlər, indiki Qazaxıstan ərazisindən gəlmiş türklər və Barabin

çölü sakinləri - qıpçaqlar peyda oldular. Bu dəfə də istiladan danışmaq olmaz, çünki irəliləmə yenə də kiçik qruplarla və tədricən baş verir, yürüş və böyük savaşları isə kiçik toqquşma və basqınlar əvəz edirdi.

Həmin dövrdə Yaxın Şərqdə də eyni vəziyyət yaranmışdı. Karluklar Cunqaistandan buzlaq və yeraltı suların zəngin olduğu Qoşqar və Hostan vahələrinə köçdülər. Türkmən- səlcuqlar Qızılqumdakı məskənlərini tərk edərək, Xorasana köçdülər. Burada qüdrətli bir qüvvə kimi formalaşaraq, onlar 1040-cı ildə Məsud Qəznəvinin nizami ordusunu darmadağın etdilər.

Daha sonra İranı ələ keçirdilər. 1071-ci ildə isə Bizans imperatoru Roman Diogeni məğlub etdikdən sonra isə bütün Kiçik Asiya və Suriyaya yiyələndilər. Maraqlıdır ki, onlar yaşayış üçün tərk etdikləri vətən landşaftlarına bənzəməyən quru iqlimli çöl və dağətəklərini seçimişdilər.

Monqolların Ənnam və Birma cəngəlliklərinə, İordan çayı vadisinə və mavi silaı olan Adriatika sahillərinə qədər gəlib çıxdıqları XIII əsrdə is artıq buna bənzər bir şey görmürük. Bu yürüş və qələbələrlə bağlı heç bir yerdəyişmə, yeni ərazilərə köçəm baş verməmişdi. Monqollar müharibələri kiçik, pis silahlanmış, lakin çox çevik və son dərəcə gözəl təşkilatlanmış dəstələr vasitəsilə aparırdılar. Qərb uluslarının hakimlərinə müəyyən qədər etibarlı qoşun vermək tələb olunduqda belə, mərkəzi monqol hökuməti istila olunmuş tayfaların nümayəndələrindən təşkil edilmiş dəstələri ayırırdı. Belə ki, Hülakü xana haymanlar, Batıya isə sayları bir heçə min nəfər olan məngitlər və çurçenlər /hinlər/ göndərilmişdi.

Çingiz xanın övladları və nəvələrinin yürüşlərini iqlim dəyişiklikləriIə əlaqələndirmək üçün heç bir əsas yoxdur. Fikrimizcə, bu dövrdə çöldə köçəri maldarlıq üçün ən əlverişli şəraitin olmasının danışmaq daha münasibdir: üç ordu kifayət qədər at vardı, 1200-1208-ci illərin qanlı tayfalararası savaşından sonra qaramalın sayı tezliklə öz yerini aldı,əhalinin sayı isə 1 milyon 300 min nəfərə çatdı. Əksinə, nisbətən dinc dövr olan XVI əsrdə [202-203] Monqolustan müstəqilliyini, XVII əsrdə isəbağımsızlığını itirdi.

O dövrün ən qüdrətli dövlətinin zəifləməsinin səbəbini XVII əsr çin coğrafiyaçısı belə izah edir: “Bütün Monqolustan hərəkətə gəldi, monqol ailə və tayfaları isə su və yaxşı otlaqlar axtara-axtara pərən-pərən düşdülər. Odur ki, onların qoşunları da artıq bütövlüyünü itirmişdi”. (48) Bax, bu artıq həqiqətən miqrasidır. Lakin monqolların quraqlığa məruz qalan vətən torpaqlarından Tibetin sərt dağətəyi bölgələrinə, bol sulu Volqa sahillərinə və Türküstan vahələrinə köçüb getmələri ümumdünya-tarixi miqyasda necə də nəzərə çarpmadan baş verdi. (49) Köçəri mədəniyyətinin son parçası olan Oyrat ittifaqı 1758-ci ilədək duruş gətirdi, çünki onun təsərrüfatı Altay və Tarbağatayın daf otlaqlarına əsaslanırdı. Lakin o da mpncurlar və çinlilərin qurbanı oldu.

Beləliklə, e.ə. III əsrlə eramızın XVIII əsri arasındakı ikiminillik dövr ərzində biz çölü bürümüş üç quraqlıq dövrünü qeyd etdik ki, bunlardan hər bir köçərilərin Böyük çölü ucqarlarına, hətta onun hüdudlarından kənar bölgələrə üz tutmaları ilə bağlıdır. Bu yerdəyişmələr istila səciyyəsi daşımırdı. Köçərilər kiçik qruplar halında hərəkət edir və qarşılarına heyvanlarını doyuzdurmaq və özlərini təmin etməkdən başqa bir məqsəd qoymurdular.

Əksinə, çöl bölgəsində rütubətlilik artan zaman köçərilərin əcdadlarının qaytması, onların sürülərinin artması və bolluqla bağlı olan davakar siyasətin üstünlük təşkil etməsi müşahidə olunur. Onu da qeyd edək ki, bu dövrlərdə istilalar dövlət mənafeyindən irəli gəlir və heç də “həyat üçün zəruri ərazilərin” əldə edilməsi məqsədi güdmürdü. Köçərilər artıq sadəcə ömür sürmək istəmirdilər. Onların məqsədləri üstünlük qazanmaq idi.

Tropik qurşaqdakı tayfa və kiçik xalqların nəzərdən keçirilməsi artıq bizə məlum olan bilgilərə yeni heç bir şey əlavə etməyəcək və bu səbəbdən də təbiətin dəyişdirilməsinə dair klassik örnəklərə müraciət edək: Misir, Mesopotamiya və Çin. Avropanı hələlik bir kənara qoyaq, çünki bizim vəzifəmiz qanunauyğunluq axtarmaqdır. Onu isə yalnız artıq başa çatmış proseslərdə aşkar etmək mümkündür.

“Bərəkətli ayparanın qədim sivilizasiyaları”. E.Bruksun araşdırmalarına görə, vyurm buzlaşması dövründə atlantik siklonlar şimali Saxara, Livan, Mesopotamiya, İran üzərindən keçərək, Hindistanadək gəlib çatırdı. (50) O dövrdə çiçəklənən, bolsulu çaylar axan, fil, hippopotam, vəhşi öküzlər, cüyürlər, şirlər, [203-204] ayılar və b. Vəhşi heyvanlarla zəngin bir çöl idi. Bu heyvanların Saxara, hətta Ərəbistan səhralarındakı qayalar üzərindəki rəsmləri Homo sapiens növünün nümayəndələri tərəfindən çəkilib. Saxaranın e.ə. IV minilliyin sonundan etibarən tədricən quraqlıq bölgəyə çevrilməyə başlaması siklonların şimala doğru istiqamətlənməsilə bağlıdır ki, bu da Saxaranın qədim sakinlərinin Nil vadisinin bataqlıq ərazilərinə üz tutmalarına səbəb oldu. Buralarda isə vadinin ucqarlarında yabanı otlar arasında buğda və arpanın əcdadları da bitirdi. (51) Neolit dövrünün tayfaları əkinçiliyi öyrəndilər, mis dövründə isə misirlilərin əcdadları Nil subasarındakı torpaqların ardıcıl becərilməsinə başladılar. (52) Bu proses Misirin fironların hökmranlığı altında birləşdirilməsilə başa çatdı. Bu hakimiyyət artıq dəyişdirilmiş landşaftın nəhəng ehtiyatlarına əsaslanırdı. Landşaft sonralar əsaslı dəyişikliklərə məruz qalmasa da, əlbəttə, memarlıq qurğuları: kanallar, bəndlər, məbədlər isitisna təşkil edirdi ki, biz onları relyefin antropogen formaldarı sayırıq. Lakin daha kiçik miqyaslı dəyişikliklər, məsələn, XII sülalə dövründə məşhur fayum bahəsinin yaradılması XXI sülalə dövrünə qədər davam etmiş və bundan sonra Misir yadelli işğalçıların basqınlarına məruz qalmağa başlamışdır. Nubiyalılar, liviyalılar, makedoniyalılar, assuriyalılar və romalılar Misirin sərvətlərindən yararlandıqları bir vaxtda, misirlilər əcdadlarının yaratdıqları biosenozu var qüvvələrilə qoruyub saxlayan fəllahlara çevrilmişdilər.

Müəyyən miqdar fiziki - coğrafi fərqlərinə baxmayaraq, buna bənzər mənzərəni Mesopotamiyada da müşahidə etmək olar. Fərat və Dəclənin gətirdikləri çöküntülərdən yaranan torpaqlar çox bərəkətli idi, dənizdən təcrid olmuş kiçik göllər və çay axarlarında çoxlu balıq və suda yaşayan quşlar vardı, xurma ağacları yabanı şəkildə bitirdi. Lakin bu ibtidai "cənnətin" mənimsənilməsi gərgin əmək tələb edirdi. Əkinə yararlı torpaqlar əldə etmək üçün "suyu qurudan təcrid etmək tələb olunurdu". Bataqlıqları qurutmaq, səhranı suvarmaq, çayları bəndlərlə təcrid etmək gərəkdi. (53) Bu işləri şumerlərin sadə əkinçi-maldar olan, yaşamaq üçün digər imkanlardan məhrum əcdadları yerinə yetirdilər. Hələ yazı nə olduğunu bilməyən, şəhərlər tikməyə başlamayan, demək olar ki, siniflərə bölgüdən hələ ki, uzaq olan (54) bu adamlar landşaftı o qədər əsaslı şəkildə dəyişmişdilər ki, sonrakı nəsillər onların əllərinin məhsulundan bəhrələnirdilər. [204-205]

Lakin heç də primitiv xalqların landşaftı dəyişdirmək məsələsində sivilizasiyalı xalqlardan üstün olduğunu düşünmək lazım deyil. Nil və Fərat vadiləri dəfələrlə dəyişdirildi və bu, Qədim çarlıq dövrünə aid bir çox kəndlərin səhradakı qumlar, şumer və aakad kəndlərinin isə lil altında qalmasına səbəb oldu. Fəratdan qərbə doğru yerləşən otlaqların artıq Bağdad xilafəti dövründə şoranlaşması məlumdur. Qədim dünyada ilk şəhər olan Babil artıq yeni eranın əvvəllərində əhali tərəfindən tərk edilmişdi, çünki yerli ehtiyatlar hesabına iyirmi əsrlik rifah və çiçəklənmədən sonra ərzaq qıtlığı yaranmışdı. Çində suvarma sisteminin tarixi daha ibrətamiz olduğundan, bu barədə ətraflı danışmaq tələb olunur.

Qədim Çində. E.ə. III minillikdə Çinin ərazisi indikinə çox az bənzəyirdi: buzların əriməsi vaxtı daşan çaylardan qidalanan bataqlıqlar və bakirə meşələr, Geniş çöllər, nazik şoran qatı və yalnız yüksəklikləri örtən çəmənliklər və çöllər. Şərqdəki çayların aşağı axarlarında və deltalarındakı düzənliklərdə səbatsız torpaqlar zənciri uzanıb gedirdi, I və Huay çayları isə Yantsızının aşağı axarında yerləşən bataqlıq vadidə gözdən itirdi. "Vey-ye çayının hövzəsi gur yaşıllıqlara bürünmüşdü; burada möhtəşəm palıd ağacları göyə ucalır, hər yerdə sərv və küknar ağaclarından ibarət qruplar görünürdü. Meşələrdə çoxlu pələng, ayı, qaban, sarı bəbir və vəhşi öküz vardı, çaqqallar və canavarlar ulaşırdı". (55)

Lakin buralarda insanın əsas düşməni çaylar idi. İlin quraqlıq dövründə onlar tamamilə dayazlaşsalar da, dağlarda yağışlar yağan kimi gurlaşır və aşıb-daşırdılar. Nəzərə almaq lazımdır ki, daşan zaman çaylarda axma sürəti aşağı düşür və onlar çoxlu çöküntü gətirirlər. Huanhe isə daşqın vaxtı 46%-ə qədər lil və qum gətirir. (56) İbtidai əkinçilər torpaq sədlər qursalar da, bu sədlər dağılır və onlar orta hesabla 2,5 ildən birsıradan çıxırdı. (57) Qədim Çinin sakinlərinin bir qismi suların şiddətli təzyiqi qarşısında dağlara çəkilərək, burada ovçuluqla məşğul olmağa başladı və elə buradaca it-bat oldular. Digər hissəsi - Şansiyə qərbdən gəlmiş "qırx qarabaş ailəsi" çayla mübarizəyə başladı. Çinlilərin əcdadları da elə onlar idi. Onlar əvvəlki vəhşi azadlıqlarından imtina edərək, sərt təşkilatlanma və nizam-intizama, müstərid idarəçilik formalarına ystünlük verməli oldura. Əvəzində təbiət onları səxavətlə mükafatlandıraraq, sürətli artım və orijinal mədəniyyət yaratmaq imkanları bəxş etdi. (58) Toraq işlərinin ağırlığından və suların yaratdıqları təhlükədən baş götürüb dağlara pənah aparanlar isə junlar, dilər və kyan-tibrtilərin [205-206] əcdadları oldular. Onlar təbiətin taleyi və landşaftın dəyişdirilməsini tələb etməyən bəhrələrindən yararlandıqlarından, dövlət qurumları yaratmağa ehtiyat duymurdular. Onların məşğuliyyətləri, həyat tərzləri və nəhayət, ideologiyaları çinlilərinkindən kəskin fərqləndiyindən, nəsildən nəslə hər iki xalq bir birindən uzaqlaşmaqda idi. Bu ziddiyyətlə erkən dövrlər Çininin və onun qonşularının tarixiniin istiqamətini müəyyənləşdirən düşmənçiliklə nəticələndi.

İndi isə landşaftın antropogen ldəyişməsi faktlarını xronoloji axarla üst-üstə qoyaq. Təbiətlə mübarizənin birinci mərhələsi, təxminən, eramızdan əvvəl 2278-ci ildə baş vermişdi. Bu zaman Yuy adlanan ilk Çin sülaləsinin əfsanəvi əcdadı Hunhe çayının yatağının nizamlanması üzrə tədbirlər həyata keçirdi. Bundan sonra Şimali mərkəzi hissəsi (Şansi və Şensinin bir hissəsi) əkmnçilik diyarına çevrildi. E.ə. 602-ci illədk, yəni on altı əsr ərzində çay özünün sakit apardı. (59) Tarixən bu, qədim Çin mədəniyyətinin monolit dövrüdür və bura üç sülalə daxildir: Sya, Şan-İn və Çyou. Həmin sülalər dövründə Çin çoxsaylı knyazlıqların konfederasiyası idi və həmin knyazlıqlar bir birilə o zaman üçün mədəniyyətin ən yüksək nailiyyəti olan heroqlif yazısı ilə bağlanmışdı. (60) Bütün bu dövr ərzində Yuyun süni landşaft qorunub saxlansa da, 722-ci ildən başlanan "Bahar və Payız"/ bu şərti ad həmin dövrün təsvir olunduğu salnamənin başlığından götürülüb/ dövründə hər şey dəyişdi. Vanın /çarın/ başçılığı altında knyazlıqlar konfederasiyası 124 müstəqil dövlətə parçalandı və onlar da öz növbəsində, bir birini qəsb etməyə qurşanıllar. Belə olan halda, həm dağlarda yaşayan junlar, həm də Huanhe suları da həmləyə başladı. Torpaq sədrlərin baxımsız qalması nəticəsində e.ə. 602-ci ilədək Huanhenin axarının ilk qeydə alınmış dəyişməsi baş verdi. (61) Elə o vaxtdan ta XVIII əsrədək əsas iş sədrlərin qorunub saxlanması və suyun dağıtdığı hissələrin bərpası olmuşdu. (62) Bizim qəbul etdiyimiz baxımdan bu hal mövcud landşaftın dəstəklənməsidir, yəni biz belə bir qeyri-adi qənaətə gəlirik ki, çinliləri də alqonkinlər və ya evenklərin aid olduqları etnoslar sırasına aid etmək lazımdır. Lakin gəlin ilkin qənaətimizi yoxlayaq.

E.ə. IV əsrdə dəmir o qədər çox idi ki, ondan yalnız silah deyil, bellər də düzəltməyə başladılar. (63) Texniki təkmilləşdirmə sayəsində suvarma sistemləri yaradıldı ki, bunlardan da ən mühümü şimali Şensidə 162 min hektar əkin sahələrini suvaran Veybey sistemi idi. (64) Bu suvarma sistemi sayəsində "Şənsi əyaləti [206-207] məhsuldar, qıtlıq nə olduğunu bilməyən bir bölgəyə çevrildi. Belə olduqda, varlı və

qüdrətli Tsin Şi Huandi digər knyazları da özünə tabe etməyə nail oldu.” (65) Çinin bu məşhur birləşdirilməsi məğlubların qılıncından keçirilməsi, sağ qalanların qul halına salınmışdı, Böyük Çin səddinin çəkilməsi, yalnız alimlərin deyil, “texniki” ədəbiyyatdan /burada falaçma, tibb və aqronomiya üzrə kitablar nəzərdə tutulurdu/ savayı bütün kitabların, bütün tarixi və fəlsəfi risalə oxuyanlar, həmçinin poeziya həvəskarlarının məhv edilməsilə başa çatdı.

Burada biz belə bir sual verə bilərik: landşaftın məqsədyönlü şəkildə dəyişdirilməsi nəhəng insan qırğını ilə əlaqədar idimi, yoxsa onlar bir dövrə təsadüfən düşmüşlər? Bəlkə hər iki hadisənin səbəbi eynidir? Problemi həll etmək üçün Çinin və Veybey suvarma sisteminin tarixini araşdırmaqda davam edək.

E.ə. 206-cı ildə baş verən xalq üsyanı Tsin imperiyasının məhv etdi. Xan sülaləsi dövründə isə belə dəhşətli qırğınlar olmurdu. Ölkə getdikcə daha zəngin olurdu, çünki Huanhe sahillərindəki əvvəlki Şansı zəmilərinə Vey və Tszin sahillərindəki yeni münbit ərazilər də əlavə olmuşdu. Lakin elə bu zaman təbiət özünü göstərdi. Suvarma sistemi suyu qarşısı bəndlə kəsilmiş Tszin çayından alırdı. Lakin çay məcrasını dərinləşdirdiyindən, su kanalları qurudu. Bu səbəbdən yeni kanal qazmaq və əvvəlkindən bir qədər yuxarıda yeni bənd qurmaq lazım gəldi. Sonrakı əsrlərdə bu hadisə on dəfə təkrarlandı və hər dəfə külli miqdarda əmək sərf olunsa da, XVII əsrdə Veybey sistemi demək olar ki, baxımsız qaldı. (66)

Ötüb keçən iki min il ərzində Çinin orta tarixi - onun imperatorluq dövrü təşəkkül tapdı. Etnoloji baxımdan bu dövr çinliləri qədim çinlilərə aiddir /italiyalılar romalılara, fransızlar is qallara aid olduqları kimi./ Başqa sözlə, Huanhe sahillərində bizim əvvəlki sözlə (adla) adlandırdığımız yeni bir xalq yarandı. Lakin bizim terminologiyanın çatışmamazlıqlarını araşdırma obyektinə şamil etmək lazım deyil. Üstəlik, “çinlilər” termini XII əsrdə karvan ticarətinin inkişafı ilə əlaqədar meydana çıxan şərti termindir və həmin dövrdə italyan və rus tacirlərinin alver etdikləri monqoldilli tayfanı bildirirdi. Sonralar həmin ad (“Çin”) onun özlərini buna qədər sadəcə “Orta düzənlik sakinləri” adlandırılan qonşularına şamil oldu. Araşdırmamız üçün bu çox mühümdür, çünki ümumişlək olan “Çin” sözü taksonomik cəhətdən “Fransa” və ya “Bolqarıstan” deyil, “Avropa”, yaxud “Levant” /Yaxın Şərq/ [207-208] kimi anlayvşlara yaxın gəlir. Çinin imperator Tsin Şi Huandi tərəfindən birləşdirilməsilə Çin dövlətinin müstəqilliyini itirməsi arasında keçən dövr ərzində Huanhe ilə Yantszı arasındakı ərazilərdə iki böyük etnos təşəkkül tapmış, formalaşmış və qüvvədən düşmüşdür. Onlar şərti olaraq şimali və cənubi Çin etnosları adlandırılır. İkinci etnos da landşaftın dəyişdirilməsilə ilgilidir, çünki qədim çinlilər (hər iki etnos onlardan əmələ gəlib) geniş bir axın kimi Yantszı vadisinə gəldikləri zaman cəngəlliklərin yerində düyü plantasiyaları saldılar. Şimali çinlilər isə quru çöllərdə suvarılan əkin yerləri yaradaraq, özlərini müstəqil xalq kimi aparmağa, yadellilərin kifayət qədər müvəffəqiyyətlə dəf etməyə başladılar. Lakin bütün bunlar yalnız suvarma sistemini qoruyub saxlamaq üçün kifayət qədər enerji olanadək davam etdi. XVII əsrdə suvarma sistemi məhv oldu və elə həmin əsrdəcə mancurlar Çini istila etdilər. Bu istiladan bir qədər əvvəl baş verən qüdrətli kəndli üsyanı Min imperiyasının qüdrətini əsaslı şəkildə sarsıtdı. Lakin bildiymiz kimi, kəndliləri qanlı müharibəyə sövq edə bilən yeganə şey kənd təsərrüfatının tənəzzüldə olmasıdır. Həqiqətən, kanallar lilləndikdən sonra qum basmış şimal-qərb əkin torpaqlarının itirilməsi Çinin müqavimət gücünü zəiflətdi və onu təcavüzkardan təcavüz qurbanına çevirdi.

Təşəkkül və tənəzzüllər. İndi artıq qoyulan suallara cavab verə bilərik. Əkinçi xalqların süni landşaftlar dövrlər bir o qədər də çox çəkmir. Onların qanlı müharibələrlə eyni vaxta düşməsi də təsadüfi olmasa da, təbii ki, torpaqların meliorasiyası qan tökülməsi üçün bəhanə deyil. Belə bir iddiada bulunmaq, coğrafi determinizm istiqamətində M/nteskyönün özündən də irəli getmək demək olardı. Lakin pralel olan hər iki hadisədə ümumi olan bir cəhət var - etnik kollektivin qeyri- adi səylər göstərmək qabiliyyəti. Bu səylərin nəyə yönəlməsi başqa məsələ, çünki araşdırdığımız baxımdan məqsəd önəmli deyil. Önəmlisi odur ki, qeyri - adi gərginlik qabiliyyəti zəifləyən zaman yaradılan landşaft yalnız əvvəlki saxlanır, həmin qabiliyyət yox olduqda isə etnolandşaft tarazlıq, yəni konkret boihorun biosenozu bərpa olur. Bu, edilən dəyişikliklərin moqyasından, fəaliyyətin qurucu və ya yırtıcı səciyyə daşımasından asılı olmayaraq, həmişə və hər yerdə baş verir. Belə olduğu halda, deməli biz yeni, indiyədək nəzərə alınmayan bir hadisə ilə üzləşmişik: təbiətin dəyişməsi xalqların ona aramsız təsirinin deyil, həmin xalqların özlərinin inkişafındakı qısamüddətli [208-209] vəziyyətin nəticəsidir. Bunlar isə elə etnogenezin stimulları olan həmin yaradıcılıq proseslərdir.

Qənaətimizi qədim Avropaya aid material əsasında yoxlayaq. E.ə. I və II əsrlərin sərhəddində Qərbi Avropa dəmir emal etməyi bacaran xalqlar - keltlər, latınlar, axeylilər və b. tərəfindən ələ keçirilib məskunlaşdırıldı. Onlar çoxlu əkinçilik icmaları yaratdılar və torpağı becərmək yolu ilə landşaftı dəyişdirdilər. Demək olar ki, min il ərzində Avropada iri dövlətlər yaranmadı, çünki hər bir tayfa özünü müdafiə edə bildiyindən, istila çətin və zərf etməyən bir iş idi: tayfalar tabe olmaqdansa, son nəfərədək qırılması üstün tuturdular. Xatırlayaq ki, nə Afina, nə də Sparta Ellada üzərində hökmranlıq qazana bilməmişdi, Romanın latın və samnit müharibələri isə bütün sonrakı istilalardan daha ağır başa gəlmişdi. E.ə. I minillikdə sahələrin aramsız istismarı ilə səciyyələnən parselyar /kiçik sahələrə bölünməklə/ əkinçilik yaradılmış mədəni landşaftı qoruyub saxlayan institut idi. E.ə. I minilliyin sonunda parsellər /kiçik

sahələr/ latifundiyalarla əvəz olunmağa başladı. Latifeundiyalarda təbiətə münasibət yırtıcı səciyyə daşımağa başlayır və eyni zamanda istila imkanları yaranır.

Belə bir fikir bərqərar olub ki, Romanın Aralıq dənizi hövzəsini və Qərbi Avropanı ələ keçirməsinin səbi onun hansı səbəbdənsə "qüvvətlənməsi" olmuşdur, Lakin məlumdur ki, Roma öz qüvvələrində qaldığı, əiraf ölkələrin isə zəiflədiyi halda da elə həmin nəticə əldə olunacaqdı. Əslində, elə belə də olmuşdu. Roma təcavüzü ilə paralel isə tarlaların otlaqlara, daha sonra isə səhralara çevrilməsi baş verirdi ki, bu da nəhayət, V-VI əsrlərdə təbii landşaftın meşə və kolluqların bərpası ilə nəticələndi. Bu zaman əhalinin sayı azaldı və Roma imperiyası tənəzzülə uğradı. Etnosların təşəkkülündən onların tam itib getməsinə qədər davam edən landşaftın dəyişdirilməsi və etnogenez prosesi təxminən 1500 il davam etmişdir.

İnsan fəaliyyətinin, həmçinin orta əsr etnosları yaranmasının yeni yüksəliş mərhələsi IX-X əsrlərdə baş verdi və hələ də davam etməkdədir. Güman ki, bu dövrün elm və texnikanın görünməmiş inkişafı ilə ilgili xüusiyyətlərini açıqlamaq əlavə düzəlişlər etmək lazım gələcək. Lakin bu məsələ xüsusi araşdırılmalıdır, çünki bizi qanun maraqlandırır, istisnalar yox.

İndi isə hindulara və Sibir xalqlarına qayıdaq, çünki biz, nəhayət, yuxarıda qoyulan suala cavab verə bilərik: niyə ovçularla əkinçilər yanaşı yaşasalar da, bir birindən əmək və məişət üçün [209-210] faydalı olan vərdişləri əxz etmirlər? Cavab göz qabağındadır: yəqin ki, vaxtilə hər ikisinin əcdadları landşafta yiyələnmə dövrlərini keçmiş və onu müxtəlif şəkildə dəyişmişlər. Əcdadların yaratdıqları statusun daşıyıcıları olanlar isə keçən dövlətlərin mirasını ənənə şəklində özlərinə yük edərək, ondan xilas olmağf bacarmır və istəmirlər. Hətta anqlosaks axını hindular üçün fiziki cəhətdən qırılma təhlükəsi yaratsa da, onlar mərdliklə öz həyat tərzlərini qoruyub saxlayırdılar, halbuki, ondan imtina etdikləri təqdirdə yeni gələnlərə qarışaraq salamat qalmaq imkanı əldə edirdilər.

Bununla belə, böizim yuxarıda yaradıcı kimi səciyyələndirdiyimiz vəziyyətdə olan asteklər qəinki dəhşətli tarmara duruş gətirdilər, hətta özlərində istilaçıların bir hissəsini assimilyasiya edərək, 300 ildən sonra ispan hökmranlığını devirmək və hindu elementinin aparıcı rol oynadığı Meksika respublikasının əsasını qoymaq üçün kifayət qədər qüvvə tapdılar. Əlbəttə, Xuaresin silahdaşları heç də Montesuma tərəfdarlarının eyni deyildilər. Lakin onların Kortes əsgərlərinə bənzəyişləri bundan da az idi. Meksikalılar etnogenezi tarixçilərin gözü önündə cərəyan edən gənc xalqdır. XVII-XVIII əsrlərdə formalaşan bu xalq mədəni bitkilər əkmək və Amerika üçün yabançı olan heyvanları - at və inəkləri yerli şəraitə alışdırmaqla landşaftın xarakterini xeyli dəyişdi.

"Mədəni" landşaftı dəstəkləməyən, yenidən bərqərar olan təbii tarazlığa uyğunlaşan etnosları "vəhşi" adlandırmaq adi hala çevrilsə də, bu düzgün deyil. Onların təbiətə münasibəti passivdir: biosenoza ən yuxarı, tamamlayıcı həlqə kimi daxil olurlar. Bu sonuncu etnoslar qrupunun təbiətə münasibətini ilkin hesabat səviyyəsi kimi qəbul etmək əlverişlidir. Başqa etnosun məskunlaşdığı ərazilərə gəlib çıxdıqları zaman etnoslar yerli etnosların hesabına mövcud olmağa alışırlar. Onlar üçün qidalandıran etnos əhatə edən landşaftın tərkib hissələrindən boronə çevrilir. Belə bir hadisə bu yaxınlarda Braziliyada baş verdi. Burada ovçuluq və təbiətin nemətlərini toplamaqla dolanan karaju hindu tayfası aşkar edildi. Kinoşirkət bu bölgəyə ekspedisiya yolladı və çəkilişlərdə iştiraka görə hinduları yaxşı mükafatlandırdı. Kinoreklam külli miqdarda turist cəlb etdi ki, bunlar üçün otellər və barlar tikildi. Ətrafda isə xidmətçi personal, polislər, həkimlər və i.a. məskən saldı. Nəticədə hindular pulsuz azuqə almağa alışdılar və meşədə ov etmək və təbiətin bəxş etdiyi nemətləri toplamaq vərdişlərini yadırğadılar. Onlar daha çoxsaylı və zəngin [210-211] olan, onlara bir oyuncaq kimi yanaşan etnosun hesabına yaşayan etnos-parazitə çevrildilər. Lakin məsələdir ki, onlar dəbdən düşən kimi taleyin ümidinə qalacaq, azadlığa buraxılan əl heyvanları kimi məhv olacaqlar, çünki vəhşi növlərin rəqabətinə davam gətirə bilməyəcəklər. Təkamülün dönməzliyi qanunu etnologiyada da qüvvədədir.

Mərhələlər üzrə dövrələşdirmə. İndi artıq biz müşahidələrimizi ümumiləşdirmə və onları etnosun təbii, yəni landşaft şəraitinə münasibətdə sxem kimi təsvir edə bilərik. Hələlik aydın olmayan hansısa səbəb üzündən meydana çıxan yeni etnos /çox vaxt ad altında/ landşaft təbii şəraitə uyğunlaşmanın yeni ysulu vasitəsilə dəyişdirir. Bir qayda olaraq, bu yüksəliş mərhələsinin inkubasiya dövründə baş verir və tarixi mənbələrdə qeydə alınmır. /əfsanələrdən savayı/. Tarixi mənbələrdə təsvir olunan dövr, xarici sapınma olmadıqda etnogenezin aşağıdakı mərhələlərini əhatə edir: 1) yüksəliş mərhələsinin aşkar dövrü; 2) etnosun son dərəcə fəal, landşafta təsirin isə az olduğu akmatik mərhələ; 3)antropogen təzyiqin maksimum və destruktiv olduğu çat /dönü/ mərhələsi; 4) texniki vasitələrin və ideoloji dəyərlərin toplanması baş verən ətalət mərhələsi; bu zaman landşaft əvvəl salındığı vəziyyətdə saxlanır; 5) nə mədəniyyət, nə də landşaftın qeydinə qalınmayan cəhalət (obskurasiya) mərhələsi. Bundan sonra homeostaz mərhələsi bərqərar olur. Bu zaman demək olar ki, qırılmış etnosun qalıqları ilə kasadlaşmış landşaft qarşılıqlı əlaqədə olur məhv olmuş palıd meşəliklərinin yerində gur bitən pıtraqlar arasında isə istilaçıların nəticələrilə quldurların övladları birgə oynayır.

Bu dövrdə persistent (qalıq) etnosun təbiətə münasibəti həm istehlakçı, həm də qoruyucu səciyyə daşıyır. Lakin təəssüflər olsun ki, həm birincisi, həm də ikincisi düşünülmüş, öz iradəsilə verilmiş deyil, ənənə ilə şərtləndirilən qərar səciyyəsi daşıyır. Bu vəziyyət yeni etnos landşaftı yenidən dəyişənədək davam

edir. Görünür, etnogenez vahid qlobal hadisə yox, bu və ya digər bölgələrdə cərəyan edən çoxlu müstəqil etnogenezlərdir.

Bütün kompleks təbii hadisələrdə olduğu kimi, etnogenezdə də mərhələlərin sərhədləri "xətti" və tamamilə dürüs olmur: onlar bu və ya digər dərəcədə "yayğın" olur. Lakin sərhədlərin bir qədər mücərrəd olması konkret etnogenezlərin sonrakı araşdırılması zamanı mərhələlərin əvvəli və sonlarını müəyyən tarixi nişanələrlə fərqləndirmək zərurətini heç də azaltmır. Lakin bu zaman yadda [211-212] saxlamaq lazımdır ki, bu nişanələrin tarixləri şərtidir və yalnız səciyyəvi dönüş məqamlarını səciyyələndirir.

Lakin biz etnosları landşaftlarla tutuşdurmaqdan uzaqlaşaraq onları tarixi bütövlər kimi nəzərdən keçirməyə başlasaq, yenə də eyni səhnənin şahidi olarıq: mərhələlər tədricən dəyişir, yalnız qeydiyyat sistemi başqadır. Bu, bizim doğru yolda olduğumuzu göstərir. Bu səbəbdən də bir qədər irəli gedərək etnogenez mərhələlərinin gələcəkdə çox gərəyimiz olacaq sxemini verək. Bir də ki, qoy oxucu bizim hələlik " niyə?" deyil, "necə?" sualına cavab verməyimizdən məyus olmasın. Əgər fenomen açıqlanması qərəzli deyilsə, ondan əvvəl həmişə bu fenomenin təsviri gəlir.

Beləliklə, əvvəlcə yeni etnosun formalaşmasının inkubasiya mərhələsi gəlir ki, o da adətən, tarixdə gözəçarpan bir iz qoymur. Bu "təkanverici mexanizm" heç də həmişə yeni etnos yaranmasına səbəb olmur, çünki prosesin kənar qüvvənin təsiri altında qəfildən boşa çıxarılması ehtimalı mövcuddur. Müəyyən məqamda tarix səhnəsində kimliyi təyin edilə bilən, sürətlə inkişaf edən, öz etnik simasını və özünüdərkini ("Biz və bizdən olmayanlar", yaxud "Biz və başqaları")formalaşdıran insan qrupu və ya konsorsiya meydana çıxır. O, nəhayət, dövrə müvafiq sosial forma kəsb edir və geniş tarixi səhnəyə atılır ki, bu da çox vaxt ərazi istilaları ilə müşayiət olunur. Etno-sosial sistemin formalaşması yüksəliş mərhələsinin inkubasiya dövrünün sonu deməkdir. Formalaşmış etnos ya məhv olur, ya da ki, məsələn, Roma və ya Bizans etnosları kimi nisbətən uzun sürən keşməkeşlər dövrünü - tarixi mövcudluğu yaşayır. Landşaftlarda olduğu kimi, bu dövr aşkar passionar yüksəlişi, akmatik, çat, ətalət və cəhalət mərhələlərini əhatə edir.

Əksər hallarda akmatik mərhələ xarakterinə, domanantlarına və cərəyan edən etnik proseslərin intensivliyinə görə kifayət qədər rəngarəng və müxtəlif olur.

Etnogenezin etnik sistemin sadələşməsilə bağlı olan mərhələləri (çat, ətalət və bir qədər də cəhalət mərhələləri) tez-tez regenerasiyanın əks prosesləri tərəfindən pozulur. Bu halda etnik dinamikanın yeni tələblərinə müvafiq gələn sosial yeniləşmə təşəbbüsünü indiyədək aparıcı etnos və ya subetnosun mövcudluğu ilə məhdudlaşdırılan etnik yarımsistemlər ələ keçirir. Etnik tənəzzülün qarşısını alan qüvvələr özünü yalnız əvvəlki lider səhnəni tərk etdikdən sonra göstərə bilir. [212-213]

Ən mürəkkəb iş etnogenezin yekun və xüsusən, ilkin mərhələlərini araşdırmaqdır ki, buna da səbəb salnaməçilərin işinin özünəməxsusluğudur. Bu və ya digər qüdrətli xalqın necə yox olması ilə maraqlanan, sadəcə də olsa ona şərh verən salnaməçilər, bir qayda olaraq, etnogenezin ilkin təzahürlərinə etinasız yanaşır, onları boş, lazımsız bir şey sayırdılar. Anatol Frans "İudeya prokuratoru" hekayəsində və "Ağ daş üzərində" əsərindəki Roma müdriklərinin dailoqlarında bunu çox gözəl nümayiş etdirib.

Asanlıqla müşahidə etmək mümkündür ki, etnogenez prosesləri cəmiyyətin inkişafı üçün fon təşkil edir, çünki onlar bir birilə korrelyasiya edir (korrelyasiya - qarşılıqlı asılılıq, münasibət). Tarix elmi məhz bu daimi korrelyasiyanı qeydə alır. Etnologiya üçün isə əvvəlcə təhlil aparmaq, yəni təbii və sosial stimulları fərqləndirmək zəruridir. Bizim can atdığımız sintez isə yalnız bundan sonra mümkündür. Lakin bu məqsədə yetişmək üçün daha bir maneəni dəf etmək tələb olunur ki, həmin maneə artıq arxada qalan maneələrdən daha ağırdır. Ayrı-ayrı ölkələrdə iqlim dəyişiklikləri tarixi dövrdə baş verir və bir neçə yüzilliklərlə ölçülür. Təbii ki, bu ölkələrin landşaftı dəyişir və bu, təsərrüfata, bununla da etnosun həyatına öz təsirini göstərir. Belə olduğu halda, təbii şəraitin bu dinamikası yeni etnoslar yaranmasının səbəbi deyilmi? Bir çox mürəkkəb məsələləri aradan qaldırdığından, məsələnin bu cür həlli çox cazibədar görünür. Lakin bütün çətinliklərmi aradan qalxır?

Bəşəriyyətin ətraf təbiətdən, daha doğrusu, coğrafi mühitdən asılığı heç vaxt təkzib olunmurdu. Halbuki müxtəlif alimlər bu asılılığın dərəcəsini fərqli şəkildə qiymətləndirirlər. Lakinq bütün hallarda Yer üzündə həm keçmişdə, həm də indiki məskunlaşmış xalqların təsərrüfat həyatı məskunlaşdıqları ərazilərin landşaft və iqlimilə ilgilidir.

Bu müddəa doğru olsa da, məsələnin bu cür həlli tam qənaətbəxş sayıla bilməz, çünki iki "ağrılı" sual cavabsız qalır. 1. İnsanlar təbii şəraitiöz tələbatlarına uyğunlaşdırmağı bacarırlar. Antropogen landşaftlar yaratmaqla isə onlar özləri üçün arzuolunmaz olan dəyişikliklərin qarşısını alırlar. Bəs, onda bizim "sivilizasiyalar" adlandırdığımız təsərrüfat sistemlərinə malik qüdrətli etnoslar nə səbəbdən məhv olur? Həm də bu proses tarixçilərin gözü qarşısında baş verir. 2. İqlim dəyişiklikləri və onlarla ilgili proseslər olanlara, yəni mövcud etnoslara təsir göstərə bilər. Onlar bütöv populyasiyaları məhv etmək qabiliyyətinə [213-214] malikdirlər. Məsələn, e.ə. XXIV əsrdə Dəclə və Fərat vadisində olduğu kimi. "Enuma Eliş" adlı babil poemasında və qədim yəhudilərin "Varlıq kitabı"nda təsvir olunub və tarixləri də uyğun gəlir. (67) Onlar insanları doğma torpaqlarını tərk edərək, qürbət ellərə pənah aparmağa məcbur edə bilər ki, XVI-XVII əsrlərdə monqolların başına məhz belə bir hadisə gəldi. (68) Lakin onlar hələ mövcud olmayan bir şey qarşısında acizdirlər! Onlar yeni bir süni landşaft yaratmağa qabil yeni etnos

meydana çıxara bilmir. Deməli, qarşımızda duran məsələ qismən həll olunub və biz yeni inkişaf məkanının necə deyil, kim tərəfindən yaradılmasına qayıtmalıyıq, çünki bununla etnosların meydana çıxmasının sirrinin açılmasına yaxınlaşmış oluruq.

Lakin burada da qarşımıza çətinliklər çıxır: əgər sivilizasiyaların sonu və məhv olmaları göz qabağındadırsa, onda etnogenezlərin başlanğıc nöqtələri haradadır? İnkubasiya dövrünün mövcudluğunu nəzərə alıb ilkin nöqtələri bir kənara qoysaq da, araşdırdığımız bütün proseslər üçün ortaq olan hesabı aparmağa imkan verən məqamlar aşkar olunmalıdır. Əks halda müxtəlif etnogenezlərin tutuşdurulması özünü doğrultmayacaq.

Lakin bu məsələnin də həlli mümkündür, çünki yeni etnoslar köhnələrin parçalanması yolu ilə deyil, artıq mövcud olanların, yəni etnik substratların sintezi yolu ilə meydana çıxır. Həm də bu etnik qruplar həddər artıq qısa müddət ərzində ciddi şəkildə çevrələnmiş coğrafi bölgələrdə təşəkkül tapır. Bölgələr isə hər dəfə dəyişdiyindən, yer səthindəki şəraitin təsiri istisna olunur. Coğrafi determiniz adlanan həmin şəraitin rolunu E.Sempl aşağıdakı kimi təyin edir: "İnsan yer səthinin məhsuludur". (69) Lakin heç də tamamilə yox! Yerə günəşinfəallığının və planetin səthinə ara-sıra gəlib çatan kosmik şüalanmanın təsiri də məlumdur və artıq təsvir edilib. (70)

Artıq şübhələrimizin sadalanmasına xitam verək və fenomenin təsvirinə keçək.

## XVII. ETNOGENEZ PARTLAYIŞLARI

Eramızın I əsrində etnogenez partlayışı. Etnoslar "sosial kateqoriyalar" olsaydı, onlar oxşar sosial şəraitlərdə təşəkkül tapardı. Əslində isə, aşağıda görəcəyimiz kimi, etnogenezlərin ciddi faktiki material əsasında izlənilməsi mümkün olan başlanğıc məqamları zamanca üst-üstə düşür və ya paralelər, [214-215] ya da meridianlar boyu uzanan, yaxud onlara münasibətdə bucaq altında olan bölgələrdə yerləşir. Bütütn hallarda onlar bütöv bir zolaq şəklində olur. Landşaftın xarakterindən və əhalinin məşğuliyyətindən asılı olmayaraq, belə zolaqlarda müəyyən dövrlərdə qəfildən etnik yenidənqurma - etnik substratlardan, yəni köhnə etnoslardan yeni etnosların formalaşması prosesi başlanır. Bu zaman köhnələr dağılır, yenilər isə kifayət qədər fəal inkişaf edir.

Belə zolaqla yanaşı isə dinclik hökm sürür - sanki heç yerdə heç nə baş vermir. Təbii ki, arxayınçılıq içində bulunan etnoslar öz narahat qonşularının qurbanı olur. Başqa bir məsələ qaranlıq qalır: etnogenez başlanğıclarının yerləşmə məkanlarının belə mütləqliyi nədən doğur və niyə hər dəfə proses yeni yerdə başlanır? Sanki kimsə Yer kürəsini qamçılayır və damcı dəyən yerlər qan olaraq şişir.

Lakin qoyulan suala cavab verməzdən əvvəl bunun necə baş verdiyini aydınlaşdıraq ki, fenomenin açıqlanması onun təsvirinə müvafiq olsun.

I əsrdə Roma və Parfiya imperiyaları etnik kasadlaşma keçirirdi. Əhalinin sayı azalır, xeyirxah əməllər unudulurdu, əvvəllər geniş yayılan mədəniyyət bar ixtisaslı mütəxəssislərin nəsibinə çevrilirdi. Bu dövrdən etibarən iqtisadiyyat təbii sərvətlərə yırtıcı münasibətə əsaslanmağa, əkin sahələri isə azalmağa başladı. Qanlı vətəndaş müharibələrindəki itkilər üzündən bacarıqlı çinovniklər və zabitlər çatışmamazlığı meydana çıxmış, lümpen-proetarların sayı isə artmışdı. Romada əyyaşlıq və pozğunluq məişət normasına çevrilmişdi. Sadalanan hadisələr etnogenezin cəhalət mərhələsi adlandırmağa cəsarət etdiyimiz mərhələsinin tərkib elementləridir.

Səfilləşən və əvvəlki döyüşkənliyini itirməkdə olan german və sarmat tayfaları da heç də yaxşı vəziyyətdə deyildilər. Germanik çətinlik çəkmədən Reyndən Elabayadək düşmən torpaqlarından keçib getdi; Britaniyanın istilası da həddən artıq asanlıqla başa gəldi. Qəribə orası idi ki, e.ə. III əsrdə etnik təcavüz təşəbbüsü qərbdə keltlərə, şərqdə isə sarmatlara məxsus idi. Sezarın Qalliyada, Pompeyin Suriyada, Mark Antoninin Parfiyada və Klavdinin Britaniyada apardıqları kampaniyaların ümumi gedişi və detallarını araşdırarkən görürük ki, Roma qartalları yalnız son dərəcə zəif müqavimətlə üzləşdikləri yerlərdə müvəffəqiyyət əldə edirdilər. Parfiya çox kasıb ölkə idi və Ərşəkilər sülaləsi İranda [215-216] heç bir nüfuza malik deyildi, çünki "turanlı" sayılırdılar. Bununla belə, onlar Fərat çayı boyu sərhədi qoruyub saxlamağa müvəffəq oldular. E.ə. 36-cı ildə Roma legionerləri Talas çayı yaxınlığında çinli arbaletçilərlə toqquşduqda isə, sonuncular bir nəfər belə itki vermədən romalıları oxlarla qırdılar. (71) Buna əsaslanaraq, belə bir qənaətə gəlmək olar ki, romalılar barbarlara ona görə qalib gəlirdilər ki, sonuncular onlardan daha sürətlə zəifləyirdilər.

Lakin II əsrdə ümumi cəhalət prosesi pozuldu. Şərq uzunluq dairəsinin 20-4-cı dərəcələri arasında uzanıb gedən geniş zolaqda indiyədək ətalət içində bulunan xalqların fəallaşması baş verdi. Birinci olaraq daklar irəli çıxdılar. Lakin onlar məğlubiyyətə uğradılar və Trayanın legionerləri tərəfindən qılıncdan keçirildilər. Daha çonra Roma ordusunu bol-bol təmin edən illiriyalılar fəallaşaraq, öz başçıları Severləri sezar taxtına otuzdurdular. Demək olar ki, bütün III əsr boyu bu kiçik xalq Roma imperiyasının hegemonu olsa da, gərginliyə duruş gətirmədi və onun xələfləri quldur-arnautlara çevrildi. Visla mənsəbindən Qara dəniz sahillərinədək nəhəng ərazilər qısa müddətdə istila edən və Egey dənizi sahillərinə qədər yürüşlər keçirən qotların bəxti daha çox gətirdi. Hətta hunlar tərəfindən məğlubiyyətə uğradıqdan sonra belə, qotlar özlərində İtaliyanı və İspaniyanı istila etmək, qısa müddətə də olsa,

Konstantinopolun Vlahern sarayına sahib kəsilmək üçün qüvvə tapdılar. Bu qanlı yüksəlişin taleyini qotlarla vandallar və antlar da bölüşdülər. II-III əsrlərdə Şərqi Almaniya tayfalarındakı həddən artıq böyük gərginliyə duruş gətirmək qabiliyyəti Qərbi alman tayfaları və sarmat-alanlardakı ətalətlə kəskin ziddiyyət təşkil edir. Sonuncular o qədər də böyük olmayan hun onrdularına onları əsarət altına almağa imkan vermişdilər.

Lakin ən mühüm hadisə özünü "xristian" adlanan etnosun yaranması idi. Bu etnos heç vəchlə mənşə, dil, ərazi cəhətdən vahid ola bilməzdi: "Barbar və skif, ellin və yəhudi eynidir". Müxtəlif dinlərə qarşı həddən artıq dözümlüyü ilə fərqlənən Roma imperiyasında xristianlar istisna təşkil edirdilər. Təbii ki, buna səbəb nə hələ 325-ciılədək bərqərar olmamış xristian ehkamları, nə hökumət tərəfindən tətbiq olunan terror deyildi, çünki təqiblərə yol verməməyə çalışan imperatorlar xüsusi fərmaknlarla xristianlarla çubuqlamağı qadağan etmişdilər. Sinfi fərqlər dəsəbəb deyildi - müxtəlif təbəqələrə mənsub adamlar xristian olurdular. Səbəb bütün qalanlara münasibətdə xristianların özlərini "yabançı təbiətli" hiss etmələri idi. I-III əsrlərdə hər adam yox, yalnız özünü [216-217] "el içində" özgə, icmada isə özününkü kimi hiss edənlər xristian olurdu. Belələrinin sayı daim artırdı və IV əsrdə onlar artıq çoxluq təşkil etməyə başladılar. Elə bu zaman Roma Bizansa çevrildi.

İncil doktrinasında deyilənlərə baxmayaraq, ilkin xristanlar etnogenezdə yeni etnos yaradılması üçün zəruri olan bütün keyfiyyətləri nümayiş etdirdilər. Həmin keyfiyyətlər isə aşağıdakılardan ibarətdir: məqsədyönlülük və həddən artıq böyük gərginliyə duruş gətirmək. I əsrdə baş verən təkanın ətalət qüvvəsi min beş yüz ilə kifayət etdi. Bu müddət ərzində Bizans tarixi dövrün bütün mərhələlərindən, o cümlədən cəhalət mərhələsindən də keçdi ki, bundan sonra fanariotlar* persistent etnosa çevrildilər, qalan bizanslılar isə türklər və slavyanlar tərəfindən assimilyasiya olundu.

İşarələdiyimiz zolağın şərq ucqarlarında III əsrdə köhnə ad altında yeni bir xalq özünü göstərməyə başladı: farslar. Onlar qədim farslara müasir italyanlar romalılara, yaxud müasir yunanlar ellinlərə aid olduqları qədəraiddir. Əhəmənlər sülaləsi ənənəvi Yaxın Şərqin uzun sürən mədəni, ictimai və etnik inkişafının tarixi yekunu idi. Makedoniya istilası bu ənənənin düzxətli inkişafını dayandırdı, İranı Sələfkilərdən xilas edən parfiyalılar isə yerli əhali üçün istilaçı və "yabançılar" olaraq qaldılar. 266-cı ildə farslar öz dövlətlərini və öz etnomədəni komplekslərini yaratdılar. Bu orijinal kompleks konfessionalvə tayfa prinsiplərinin çox ağıllı şəkildə birləşdirilməsinə əsaslanırdı. Rəsmi dinə çevrilən zərdüştlüyə, xristianlıqdan fərqli olaraq, przelitizm (qəbul edilmiş əqidə, məsləkə sadiqlik) yabançı idi. Lakin bu boşluğu iransayağı qnostisizm - manihillik doldururdu. Bizansdan fərqli olaraq, fars populyasiyasının inkişafı xarici təcavüzlər - əvvəlcə ərəb, daha sonra isə səlcuq - pozurdu. Sonuncu sırf fars dövləti olan Səmənidlər çarlığı 999-cu ildə süquta uğradı və bundan sonra İran mədəni ənənəsi tədricən çıxdı. Fars etnosu isə bundan sonra müsəlman mədəniyyəti adlanan sistemə daxil oldu və yenidən dəyişərək, qədim davranış stereotipindən yalnız adını və bəzi məişət cizgilərini saxlamağa müvəffəq oldu. [217-218]

Nəhayət, qərb ucqarında Yutlandiyada həmin bu yüksəliş dalğasının təsirinə məruz qalan anql xalqı da, bir qədər gecikmiş şəkildə olsa da, özünü göstərərək V əsrdə Britaniyaya hücum etdi. Gengist və Qorzanın azsaylı dəstələrinin bu zəngin ölkənin çoxsaylı əhalisindən qüvvəliçıxmasının səbəbini anlamaq çətindir. İqtisadi və texniki baxımdansakslar və anqllar romanlaşmış britlərdən zəif olsalar da, etnik baxımdan daha cavan idilər və məhz yaşlarının potensial imkanı keltlərlə qeyri-bərabər mübarizədə onlara üstünlük verirdi. Britaniyanın geridə qalmış və bu səbəbdən də keltlərin hələ öz əvvəlki döyüşkənliklərini qoruyubsaxlamış olduqları bölgələri (Uels, Kornuels və Şotlandiya) istisna təşkil etdiyindən, bu bölgələr yadellilərin hücumlarını dəf etməyə müvəffəq oldu.

Hunlar III-V əsrlərdə. Belə bir fikir geniş yayılmışdır ki, Avropada xalqların Böyük mühacirəti onlara Volqaarxası köçəri hunların təzyiqi üzündən baş verib. Lakin tarixlərlə yaxından tanışlıq bu fikri tamamilə rədd etməyə imkan verir.

Hunnu (Xunnu-?) e.ə. IV əsrdə müasir Monqolustan ərazisində yaranan köçəri dövləti idi. Sinifləraqədərki cəmiyyətə malik türkdilli hunlar "xalqlar üzərində hökmranlığa" əsaslanan dövlət yaratdılar. E.Ə. 209-cu ildən eramızın 97-ci ilinədək Hunnu dövləti durmadan güclənir və qüdrətli Çin dövlətinin ən seçmə qüvvələrini darmadağın edir. Bundan sonra isə qalib gəlmiş Hunnu kəskin şəkildə zəifləməyə başlayır, məğlub edilmiş Çin isə vəziyyətə hakim kəsilir, yəni qələbənin hunlar üçün səmərəsi olmur.

Eramızın I əsrində hunlar Çinin hökmranlığından azad olsalar da, dörd qola parçalandılar. Bunlardan ən yenilməz və azadlıqsevər olan bir qol hər tərəfdən həmlə edən düşmənlərdən qurtularaq, Böyük Çin səddindən qərbə pənah apardı, Volqa -Ural çayarasındakı uqorlarla qarışaraq 200 il ərzində Şərqi Avropa etnosuna çevrildi. Qarışıq salmamaq üçün bu etnosu "qunlar" adlandırırlar. (72)

---

* İstanbuldakı Fənər məhəlləsində yaşayan qədim bizanslıların xələfləri. 1453-cü ildə Konstantinopolun türklər tərəfindən fəthindən sonra onlara burada qalmaq verilmişdi. 1821-ci ildəki yunan üsyanında müsəlmanların Moreydə qırılmasına cavab olaraq qılıncdan keçirilmişlər.

III-IV əsrlər ərzində qunlar alanları" sonsuz müharibələrlə taqətdən salaraq", (73) onlara qalib gəldilər və yalnız V əsrdə Karpat dağlarını aşaraq, Dunay çayı vadisinə daxil oldular. Bu zaman onların bir hissəsi olan akatsirlər Don və Volqa boyundakı doğma çöllərdə qaldı.

Beləliklə, qunlar təsvir etdiyimiz fəallaşma dövründən III əsr sonra fəallaşdılar. Həm də bu zaman Asiyadan kütləvi şəkildə köçüb gəlmə də baş vermədi. Sadəcə olaraq, diplomatiya və [218-219] strategiyada çox təcrübəli olan rəhbərlərin müdrik siyasəti mövcud idi. Qunlarla müqayisədə qotlar sadəlövh və qayğısız uşaq kimi idilər. Onların müharibəni uduzmalarının və Qara dəniz sahillərindəki gözəl ölkələrini itirmələrinin səbəbi də elə bu oldu.

II-IV əsrlərdə Qara dəniz ətrafındakı çöllər Konstantinopolun ikinci (Misirdən sonra) zəmis idi. Deməli, alanların məskunlaşdıqları çöllərvə çay vadilərində əkinçilik mövcud idi. Don çayını keçən qunlar 371-ci ildə alanları darmadağın etdilər, rossomanların köməyi ilə qotlara qalib gəldilər və təxminən, 420-ci ildə Pannoniyaya yiyələndilər. Deməli, qun orduları cənub çöllərində əlli ildən də az müddət olmuşdur. Onu da qeyd edək ki, sayca bir o qədər də çox olmayan qunlar (740 istila etdikləri alan, rossoman, ant, ostqot və digər yerli tayfaların dəstəyindən faydalanırdılar. Əgər Şərqi Avropanın bütün yerli sakinləri qılıncdan keçirilmiş olsaydılar, bəs onda qunlar Roma imperiyası və İranla müharibələr aparmaq üçün lazım olan canlı qüvvəni haradan alardı? Doğrudur, qun istilası zamanı oturaq -əkinçilik təsərrüfatı dağıdılmışdı, lakin bu o demək deyil ki, Terek və Volqanın meşələrlə zəngin vadilərində, yaxud Volqa deltasının qamış basmış ərazilərində yaşayanlar köçərilərin qısamüddətli basqınını öz pünhan sığınacaqlarında gizlənərək yola verə bilmədilər. Onlar üçün bu bir o qədər də çətin olmadı, çünki əkinçilik deyil, ovçuluq və balıqçılıqla məşğul olurdular. Hətta alanlar belə X əsrədək Şimali Qafqaz və Don çöllərində yaşamaqda davam edirdildər. Bu isə Mərkəzi Avropada gərgin etnik proseslər cərəyan etdiyi bir dövrdə Şərqi Avropadakı sabitliyə dəlalət edir.

Bir mühüm şeyi də mütləq qeyd etmək lazımdır: qunların müvəffəqiyyətləri çölü bürüyərək alanların əkinçilik təsərrüfatını gücdən salan və bununla da onların hərbi qüdrətini zəiflədən quraqlığın kulminasiya nöqtəsilə üst-üstə düşdü. (75) Quraqlıq alışmış qunlar isə nisbətən az zərər çəkdilər. 160-cı ildən 370-ci ilədək həlledici qələbələr əldə etmədən apardıqları müharibələrdə qunların qalib çıxmalarını şərtləndirən də elə bu oldu. Lakin quraqlıq dövrü başa çatan kimi, qunların üstündlüyü də yox oldu. Vi əsrdə qüvvələr çöldə qüvvələr nisbəti bərpa olundu, lakin qunların yerini bolqarlar, alanların yeriniisə xəzərlər tutdu.

Və nəhayət, ən başlıcası: Asiya hunları kimi, qunlar da gənc xalq deyildi. Onların tarixini e.ə. 209-cu ildə atasını qətlə yetirərək hakimiyyətə yiyələnən başçıları Modenin möhtəşəm islahatlarından başlayaraq izləmək mümkündür. [219-220]

Müqayisəli metoda üz tutaq: e.ə. 209-cu ildə qurulan hun imperiyası 257 il - eramızın 29-cu ilinədək mövcud oldu. Karolinq imperiyasının xərabələri üzərində yaranan Fransa 843-cü ildə təşəkkül tapdı. 1100-cü il isə (843+257) feodalizmin ən quraqlıq, müdhiş dövrü idi - hunlar eyni myddət ərzində mədəniyyət üçün fransızlardan daha çox iş görmüşdülər. (76)

Qəbilə ittifaqlarına əsaslanan Hunnu dövləti bəşər tarixində siniflərəqədərki cəmiyyətin qüdrətli təşkilatlanmasına dair yeganə örnək deyil. Geniş miqyaslı hərbi tədbirlər qüvvələrin koordinasiyası olmadan mümkünsüzdür. Bizə isə e.ə. I minillikdə keltlərin möhtəşəm yürüşləri, e.ə. II minillikdə arilərin Hindistana yiyələnmələri, hələ patriarxal quldarlıq institutu təşəkkül tapmazdan əvvəl Anaukedə XI əsrdə raqua dövlətinin yaranması (77), nəhayət, XIX əsrdə Cənubi Afrikada amazulu dövlətinin təşəkkül tapması, həmçinin ona bənzəyən qədim türk etnosu (78), hətta XII əsrin Çingizəqədərki monqollar (79) barədə faktlar məlumdur.

**Eramızın VI əsrində etnogenez partlayışı**. VII əsrdə Mərkəzi Ərəbistanda baş verən hadisələr səciyyə və nəticə etibarilə yuxarıdakıların eyni idi. Məhəmməd peyğəmbər ətrafında cəmləşən cəngavər tərəfdaşlar icması köhnə qəbilə-icma münasibətlərini dağıdaraq, yeni davranış stereotipi yaratdı. Bədəvi və yəmənlilərin pərakəndə qəbilələri hətta yeni etnonim də qəbul etdilər - ərəblər. Həmin dövrdə qonşu xalqlar - iranlılar, suriyalılar və misirlilərdə isə belə bir fəallaşma yox idi.

Elə həmin coğrafi en dairəsində yerləşən Hind çayı vadisində də elə həmin dövrdə yeni bir xalq - yerli və gəlmə etnik elementlərin qaynayıb-qarışmış xələfləri olan racputlar formalaşdı. (80) Racputlar Qupt istibdadını (sülalə başa çatdıqdan sonra), buddaçılar icmasını (81) və köhnə qayda-qanunu dəstəkləyən bütün digərlərini darmadağın etdilər. (82) Bunların xərabaları üzərində isə hind teokratiyasını və son dərəcə geniş hüquqlara malik kiçik knyazlıqlar sistemini yaratdılar. Müsəlmanların həmlələrinə duruş gətirə bilməmələrinin səbəbi də elə knyazlıqlara geniş səlahiyyətlər verilməsi oldu. Həmin təcavüz isə etnogenez ətalətinin düzxətli inkişafına xitam verdi. Lakin, axı, bizim üçün araşdırdığımız sistemin siyasi müvəffəqiyyəti yox, etnogenetik əlamətin - həddən artıq böyük gərginliyə duruş gətirmək qabiliyyətinin olması əsasdır. Rasputlarda bu qabiliyyət çox yüksək səviyyədə idi və onların XI əsrdə müsəlmanlarla toqquşma zamanı məğlubiyyətə uğramalarını [220-221] da müəyyən dərəcədə elə bu şərtləndirdi, çünki bir kiçik knyazlıq təkbaşına müsəlmanlarla döyüşə atılaraq məhv olmağı öz qonşusunun ona rəhbərlik etməyindən üstün tuturdu. Etnosun fəal xarici siyasət yetirməsi üçün həddən artıq böyük gərginliklərə duruş gətirməyin ən yüksək deyil, orta səviyyəsinin əlverişli olduğu aşkarlanır, çünki bu zaman qüvvələri bir yerə cəmləşdirmək və fəaliyyəti bir istiqamətə yönəltmək mümkün olur. Etnik kollektivdə gərginlik bir

qədər də zəifləyən zaman idarəetmə asanlaşsa da, xarici təsirlə müqavimət qüvvəsi zəifləyir. Belə ki, ingilislər cəngavər arilərin xələfləri olan benqal hindlilərini öz müstəmləkə ordularında qulluq etməyə götürmürdülər, çünki həmin adamlar döyüşkən əsgər olmaq üçün həddən artıqitiətkar idilər. Ost-Hind kompaniyasına Hindistana sahib kəsişməyə imkan verən ayrı-ayrı ictimai qrupların dəstəyi yox, ölkəni müstəmləkəyə çevrilməkdən xilas etməyə can atan raca və sultanların əl-qolunu buxovlayan ən çoxsaylı hind etnoslarının passivliyi oldu. Yeri gəlmişkən, XI əsrdən sonra baş verən müsəlman istilaları da eyni şəkildə baş verirdi. Görünür, Hindistanın başına gələn bəlaların səbəbkarı elə hindlilər özləri idi.

Elə həmin dövrdə bir qədər də şərqdə artıq tibet xalqı formalaşaraq, Şimali Tibet tayfalarını birbaşa və qısamüddətli istila sayəsində o vaxtadək parçalanmış şəkildə olan Tibet yaylasını birləşdirdi. İstilaçıların əcdadları Tsanqponun (Vrahmaputra) orta axarından gəlmiş kiçik tayfa idi.Vaxtilə onlar V əsrdə Xesidən sıxışdırılıb çıxarılmış sənbilərdən (83) və nepallı dağlılardan bir qismini öz tərkibinə qatdıqlarından, VI əsrdə artıq etnik baxımdan qarışıq əhali meydana çıxmışdı. VII-IX əsrlərdə Çinin Şərqi Asiyadakı hegemonluğunun əleyhinə çıxan məşhur Tibet imperiyasını yaradan da elə bu xalq oldu. Nəhayət, elə həmin dövrdə Qərbi Çində qüvvətli etnik partlayış baş verdi və bu partlayış barbar Vey imperiyasını süquta uğratdı. Bunun nəticəsində orta əsrlər çin xalqı təşəkkül tapdı (84) və müstəqil imperiya tarixi ənənəsi yarandı ki, həmin ənənəni XVII əsr mancur istilası pozdu.

Təsvir olunan etnogenez hadisələri həm sinxrondur, həm də eyni zolaqda cərəyan etmişdir ki, həmin zolağın mehvəri Məkkə ilə Çanahı birləşdirən xətt idi. Şərqə doğru bu xətt cənubi Yaponiyadan keçir (burada da etnik qovuşma baş vermişdi) və Sakit okeanda itir. Qərbə doğru uzanarkən isə kimsəsiz Liviya səhrasını arxada qoyub, Qərbi Sudana qədər uzandı. [221-222] Lakin haqqında danışdığımız dövrdə bu bölgədə etnogenez prosesləri qeydə alınmayıb. Qəribədir, deyilmi?

Eramızın XI əsrində etnogenez partlayışı. Belə bir təsəvvür yaranır ki, Yer kürəsinin intensiv etnosyaranma prosesləri cərəyan edən xətti sahələri bütün yer səthini əhatə etmir, yalnız həmin xərlərin əmələ gətirdikləri əyrilərlə məhdudlaşır - sanki məktəb qlobusunun üzərinə işıq zolağı düşür və yalnız işıq mənbəyinə tərəf çevrilən hissəni işıqlandırır. Bu müqayisə daha çox illüstrasiya səciyyəsi daşıyır, onun məzmunlu şəkildə əsaslandırılmasının nədən ibarət olması haqqında isə irəlidə söz açılacaq. Hələlik isə bütün digərlərini (Avropa və Mərkəzi Amerika) kənara qoyaraq, dahi bir hadisəni nəzərə alaq. Bu, alışdığımız, lakin qənaətbəxş olmayan açıqlamaları istisna etmək üçündür.

XII əsrdə Şərqi Asiyada eyni vaxtda iki qüdrətli etnos və hələ körpə ikən məhv olan kiçik bir tayfa formalaşdı. Bu dəfə də etnogenez bölgəsi coğrafi baxımdan ciddi şəkildə məhdudlaşsa da, yer üzündə baş verən landşaft, sosial və mədəni hadisələrə heç bir aidiyyatı yox idi.

XII əsrin əvvəllərindək Amur çayı və onun qolları boyu məskunlaşmış tunqusdilli curcenlər homeostaz vəziyyətində idi ki, bu da özünü sosial bəsitlik, tayfalara parçalanmada və cənubdakı təcavüzkar qonşuları olan Lyao kidan imperiyasından mühafizə oluna bilməməkdə göstərirdi. Curcenlər kidan imperatorlarına xərac kimi xüsusi təlim keçmiş alıcı quşlar və hərbi qulluq üçün gənclər göndərirdilər.

Ümumi adları ya “tsubu”, ya da “da-dan” kimi məlum olan Şərqi Zabaykalye tayfaları da eyni vəziyyətdə idi. Mədəni kidanlar onlarla XIX əsr Şimali Amerika kolonistləri hindularla davrandıqları kimi rəftar edirdilər.

Lakin artıq 1115-ci ildə hər şey dəyişdi. Curcenlər üsyan qaldırdılar və artıq 1126-cı ildə Lyao imperiyasını darmadağın etdilər7 Onların etnogenezinin istiqaməti, yəni dominantı tayfanın birləşməsi oldu. Bu, keçmiş tayfa başçısı Aqudaya sonralar “Qızıl” adlandırılan imperiyanı yaratmaq imkanı verdi.

Köçərilərdə dominant tamam başqa idi. Qəbilələrdən tək-tək cəngavərlər - “azadlıqsevərlər” ayrılırdı. Əvvəl vaxtlar bir çox çətinliklərlə üzləşən bu adamlar XII əsrin sonunda Temucin adlı bir nəfərin başçılığını qəbul edərək, onu Çingiz xan adlandırdılar və özlərinə xan seçdilər. Qanlı vətəndaş müharibəsində “azadlıqsevərlər” qəbilə quruluşunu darmadağın edərək, yerində [222-223] Monqol ulusunu yaratdılar ki, burada qaliblərlə məğlublar birləşərək, bir etnos halında qovuşdular.

Nəhayət. Baykalın cənub sahillərində cəngavər merkit tayfası özünü göstərməyə başladı. Merkitlərin mənşəcə kim olduqları bəlli deyil. Nə monqol, nə də türk olmayan merkitlər, çox güman ki, səmodilərdi.Lakin bizim üçün önəmli olanı bu yox, 1216-cı ildə merkitəlrin Mərkəzi Asiyada monqolların hökmoranlığına ortaq çıxmalarıdır. Deməli, burada biz yuxarıda təsvir olunanların eyni olan etnogenez partlayışının şahidiyik. Önəmlisi odur ki, bu etnogenez partlayışının əhatə dairəsi də ondan əvvəlkilərdəki kimi çox ciddi şəkildə sərhədlənib. Nə şimaldakı evenklərlə yakutlar, nə də cənubdakı koreyalılar, çinlilər və tanqutlar bu çevrəyə daxil olmamışdılar. Qərbdə Baykalın cənub qurtaracağından keçən bu çevrə monqollar kimi köçəri həyat tərzi keçirən oürat və kumanlara polovestlər də toxunmadı. Belə düşünmək olar ki, qarşımızdakı əhatə dairəsinin sonuclarıdır. Onun əsas hissəsi isə Sakit okeandadır. Əgər belədirsə (etiraz etmək üçün heç bir əsas yoxdur), onda etnogenetik partlayış, yaxud təkanlar fiziki coğrafiyadan təcrid edilə bilməyən bir hadisədir. İqlimşünas siklon və mussonların yerdəyişməsini, tarixçi-coğrafiyaçı isə Avrasiya köçərilərinin miqrasiyalarını qeydə aldığı kimi, tarix də yalnız bu hadisələri qeydə alır. İndi artıq aydındır ki, Avrasiyaının çöl və meşə etnoslarının heç də həmişə iqlim dəyişiklərilə ilgili olmayan, lakin daim orta əsr salnaməçilərini riqqətə gətirən fəallaşmaları etnogenez partlayışlarının nəticəsidir.

Monqolların yüksəlişini xalqların Böyük yerdəyişməsi, Bizans pravoslavlığının qədim Roma bütpərəstliyi üzərində qələbəsi, cinad müharibələri vasitəsilə müsəlmanlığın yaylması, Tibet çarlığının yaranması, racputların qəhrəmanlıqları və Tan sülaləsi imperatorları sarayının cah-cəlalı ilə yaxınlaşdıran da yalnız budur. Görünür, müəyyən6 ərazilərdə təmərküzləşən bu cür "təkan", yaxud "partlayışlar" qədim etnosların təşəkkül tapmasına rəvac verən əsas amildir. Həmin etnosların ilkin dövrləri mənbələrdə orta əsrlərdə olduğu qədər işıqlandırılmır.

Müxtəlif hadisələrdə oxşarlıq elementini duymağı öyrəndikdən sonra onların fərqlərini açıqlamaq çox asandır. Xarici mühit şəraiti müxtəlif olduqda eyni impulslar özlərini fərqli şəkildə büruzə verməlidir. Dağ başından keçərkən ayağı ilə bir daşı itələyərək, onu üzüaşağı diyirlədən adamı təsəvvür edək. Bəzi hallarda bu daş bir neçə qəsəbəni yerlə yeksan etməyə uçqun [223-224] doğura bilər. Lakin elə də ola bilər ki, diyirlənib bir yarığa düşər, ya da daha böyük bir qaya parçasına rast olaraq, ordaca qalar. Təkanın gücü və istiqaməti, həmçinin onun yolu üstündəki bütün maneələr haqqında məlumatımız olduğu halda onun yolunu və taleyini təxmin etmək mümkün olsa da, əməli cəhətdən belə ətraflı bilgilər əldə etmək qeyri-mümkündür.

Söylədiyimiz etnogenetik təkanın taleyinə dair əyani bir örnəkdir. Prosesin inkişafını sapındıran maneələr rolunu isə ötüb keçən əsrlər ərzində formalaşan sosial şərtlər, artıq formalaşaraq əcdadlardan miras qalan mədəniyyət, bölgənin coğrafi mühiti, etnik əhatə, o cümlədən beynəlxalq əlaqələr, siyasi məqsədlər və müasirlərin fitnə-fəsadları oynayır. Lakin onlar hamısı etnik sistemə onu dəyişən və möştəşəm işlər görməyə imkan verən enerji daxil olduqdaq sonra qüdrətli amilə çevrilir.

Bəs, bu hansı enerjidir? Onun xarakterini təyin etməklə, biz etnogenez problemini həll etmiş oluruq.

Qeyd edək ki, etnik tarixi araşdırmaqla biz yalnız ictimai münasibətlər və sosial institutları görürrük. Lakin bu o demək deyil ki, mövzu bizim müşahidələrimizlə tükənir. Axı, elektrik vəistiliyi biz yalnız onlar özünün büruzə verən zaman, məsələn, elektrik lampasının telini qızaran görəndə, yaxud onun istisini hiss edəndə aşkar etsək də, bu bizə heç də təcrübəni ümumiləşdirməyə və nəzəri müddəalar söyləməyə mane olmur. Əslində isə "həyat" və "sosial formasiyalar" kimianlayışlar da elə bir çox müşahidələrin ümumiləşməsidir. Güman ki, elə etnos da bu qəbildəndir.

Etnosla sosial və bioloji kateqoriyalar arasındakı əlaqə əşyanın uzunluğu, çəkisi və temperaturu arasındakı əlaqə kimidir. Həm də ikincilər müxtəlif təbiətli proseslərin parametrləri (ölçüləri, meyarları) olub, bir birilə eyniləşdirilmir. Sosial proseslərlə etnogenezlərin paralel inkişaf etdiyini artıq dəqiq bildiyimizdən, etnosların populyasiyalar - onlarla eyni səviyyəli bioloji taksonlarla necə əlaqələndiyini yoxlamaq zəruridir. Qarşıda bizi daha böyük sürprizlər gözləyir. [224-225]

# BEŞİNCİ HİSSƏ

# TƏBİƏT BİZİM DAXİLİMİZDƏ

**burada insanın hansı hissəsinin təbiətə mənsub olması,hansının isə olmamasından, insan vücudundan xaricdə olan dünyanın hansı hissəsinin təbiətdən kənar olmasından, həmçinin burada və bundan əvvəl nəql olunanların hamısının hələ etnogenez probleminin həlli demək olmamasının səbəbindən söz açılır**

## XVIII. ETNOS VƏ POPULYASİYA

Etnos populyasiya deyil. Bəzən ən adi hadisələr perspektivlərimaktəbdə əldə etdiyimiz təsəvvürlərdən çox-çox geniş olan qənaətlərə gəlmək üçün zəmin yaradır. Etnos haqqında elmdə bir çox şeyləri yenidən dərk etmək və bir çox adət etdiyimiz şeylərdən imtina etmək lazım gələcək.

Bir o q dər də səriştəli olmayan oxucuda belə bir təsəvvür yarana bilər ki, biz etnosu bioloji funksiyalara malik orqanizmlə eyniləşdiririk. Lakin buradakı zahiri, fərqlər isə prinsipial səciyyəlidir. Etnos bəzən koloniyalar yaratdığı, bəzən isə səpələnmiş şəkildə mövcud olduğu halda, bədəndən ayrılan əl və ya qulaq mütləq məhv olur. Orqanizm mütləq özünə bənzər nəsil törədir, etnos isə (hər bir etnos) təkrarsızdır və ənənə superetnik vəhdətlərin sərhədlərini aşmır.

Etnos və onun kimi (heyvanlar arasında) nəzərdən keçirilə bilən populyasiya arasında heç vəchlə bərabərlik işarəsi olmaz. Buradakı fərq bənzərlikdən daha dərindir. Populyasiya bir növə mənsub fərdlərin bir neçə nəslin ömrü boyu müəyyən ərazidə məskunlaşan toplusudur ki, onun daxilində sərbəst cütləşmə baş verir və eyni zamanda, o qonşu populyasiyalardan müəyyən dərəcədə təcrid olmuş şəkildə yaşayır. Etnos isə, artıq gördüyümüz kimi, oxşar fərdlərin toplusu deyil. O, yalnız həm genetik, həm də funksional baxımdan müxtəlif fərdlərdən yox, həm də bir çox nəsillərin yaratdıqları məhsullardan: texnika, antropogen landşaft [225-226] və mədəni ənənələrdən ibarət sistemdir. Dinamik etnoslar üçün bundan əlavətarixi vaxtı duymaq da səciyyəvidir ki, bu da müxtəlif hesablama sistemlərinə malik təqvimlərdə özünü göstərir. Lakin homeostaz mərhələsində etnoslarda bir etnopsixoloji kateqoriya kimi tarixi vaxtı duymaq hissinin olmaması da bizə hələ imkan vermir ki, onları yalnız populyasiya kimi nəzərdən keçirək. Hətta durğunluq halında olan etnos da müəyyən hüdudlar çərçivəsində coğrafi mühit dəyişdiyi hallarda alışdığı şəraiti tapmaq məqsədilə miqrasiya edə və məskunlaşma yerini dəyişə bilər. Etnosdaxili cütləşmələr isə yə zümlərarası münasibətlər, ya qan qohumları arasında nigahlara qoyulan ənənəvi qadağa, ya da hüquq və din normaları ilə nizamlanır. Bəzi hallarda bu dalğalar zəiflədikdə isə, bu həmişə etnosun yaxınlaşmaqda olan parçalanmasından xəbər verir.

Və nəhayət, qonşulardan etnik təcridolunmanın xarakteri ərazi ilə ilgili deyil. İki populyasiya bir ərazidə bulunduğu zaman mütləq onların qovuşması baş verir. İki və daha artıq etnos isə əsrlər boyu bir ərazidə mövcud olaraq, ya superetnos, ya da istənilən səviyyəli etnik təmas bölgəsi yaratmağa qabildir. Əksinə, etnoslararası mübarizə tez-tez baş verən hadisədir, halbuki uğrunda mübarizə baxımından bunu izah ektmək qeyri-mümkündür, çünki əksər hallarda bu mübarizə bölgədə həddən artıq çox adamın məskunlaşmasından törəmir. Diskret sistem olmaq etibarı ilə populyasiyalar arasında mübarizə isə mümkün olan şey deyil, çünki populyasiyada fərdin məqsədi salamat qalmaq və yeni nəsil törətməkdir.

Ali məməlilərin populyasiyalarının varlığının sürü formaları, ilk nəzərdən elementar etnoslara bənzəsə də, bu bənzəyiş aldadıcıdır. Sürülər monoqram, poliqam, yaxud mövsümü ailə özəkləridir. Başçı-erkək zəifləyən, övladları üzərində nüfuzunu itirən kimi, onlar da parçalanır. Etnos isə konsorsiyadan, yəni ümumi taleyə malik insanlar qrupundan yaranır. Bu qrup yalnız kişilərdən ibarət olduqda, onlar özlərinə kənardan arvad alır və ailə münasibətləri ikinci-üçüncü mərhələdə meydana çıxır. Ailə münasibətləri yaranan etnosu möhkəmlətsələr də (1), onlar mütləq deyil, çünki geniş ekzohamiya (qohum-əqrabadan, öz tayfasından, qəbiləsindən evlənməyə qadağa-tər.) halları məlumdur ki,bu da hərəmxanaların formalaşdırılması zamanə xüsusilə aydın nəzərə çarpır. [226-227]

Beləliklə, etnos zooloji populyasiya yox, yalnız xas olan sistemli hadisədir. O özünün hər dəfə orijinal olan sosial formalarda biruzə verir. Bu orijinallıq isə ölkənin təsərrüfatının həmişə qidaverən landşaft, texnikanın səviyyəsi və istehsal münasibətlərinin xarakterindən doğur. Əlbəttə, bu o demək deyil ki, etnoloq populyasiya genetikasını etinasız olmalıdır.Lakin yadda saxlamaq lazımdır ki, o, araşdırdığımız prosesin yalnız bir, həm də əsas olmayan tərəfini əks etdirir. Bu səbəbdən də ondan sonrakı araşdırmalarımız üçün faydalı olan bilgiləri əldə etməyə çalışaq.

Bir şeyi qeyd etmək vacibdir ki, hər bir populyasiya bir çox müxtəlif genotipləri ehtiva edir. Ayrı-ayrı populyasiyalarda genotiplərin təmərküzləşməsi müxtəlifdir, lakin hər bir populyasiya qrupu həmin növdə rast olunan demək olar ki, bütün genotip kombinasiyalarına malikdir. (2) Lakin azsaylı populyasiyalar bu və ya digər genotipləri itirdiklərindən, onların mütəhərriklik səviyyəsi aşağı düşür və müvafiq olaraq, uyğunlaşma qabiliyyəti azalır. Bu, cırlaşma adlanır. Populyasiya genetikasının prinsiplərinə görə, populyasiyaların əksəriyyəti dinamik tarazlıq vəziyyətində olmaqla, öz aralarında ölçüləri, strukturları və genetik tərkiblərinə görə fərqlənir. Tarazlığın pozulması təkamül, mutasiya prosesləri amillərinin təzyiqi, miqdar fluktuasiyaları (dəyişikliklər,-tər.), yaxud “həyat dalğaları”, təcridolma və təbii seçmənin pozulması nəticəsində baş verir. Bu təsirlər nəticəsində ya təcavüz baş verir, ya da həm genotiplərin, həm də bütöv populyasiyaların sayının azalması başa verir. Bir sıra hallarda isə mutasiya və fluktuasiyalar yeni növ yaranmasına səbəb olur. (63) Etnos növün daxilində olduğundan, kiçicik təcridolma və azacıq fluktuasi dəyişiklikləri şəraitində onun yaranmaı üçün cüzi (növlə müqayisədə) mutasiya təzyiqi kifayətdir. Buna görə də etnoslar növlərə nisbətən daha tez-tez təşəkkül tapır, lakin onlar həm də əhəmiyyətli dərəcədə daha qısa müddət mövcud olur ki, bu da həmin proseslərin tarix tərəfindən qeydə alınmasına imkan yaradır.

Monomorfizm. Etnik tarixi müşahidə edərkən asanlıqla görmək olar ki, aramsız görünən yeniləşmə prosesində etnosun bu və ya digər landşafta uyğunlaşmanın ən yüksək zirvəsinə yetişməsilə ilgili olan sabitlik dövrləri də mövcuddur. Bu müşahidə populyasiya genetikası əsasında ixtioloq Y.P.Altuxov və antropoloq Y.Q.Rıçkovun gəldikləri qənaətlə üst-üstə düşür. Onlar tezisi aşağıdakı şəkildə tamamlamışlar: “nəsli dəyişkənliyin növləratarası səviyyədə olan və növ hüdudlarında uyğunlaşma [227-228] əhəmiyyətinə malik qabiliyyəti”. Buradan da belə çıxır ki, “həqiqi hərəkət sabitliyə çevrilir” (4) və təcridolunmuşları istənilən qədər uzun müddət dəstəkləyən də elə budur. Lakin qarşılaşan proseslər müşahidə olunmasaydı (daimi fəaliyyət göstərən olmasalar da) nə heyvanlar aləmində növlərin yaranması, nə də təcrid olanları sıxışdırıb aradan çıxaran yeni etnosların təşəkkül tapması mümkün idi. Müəlliflər bu məsələni aşağıdakı şəkildə həll edirlər: “Təkrarsız növ xassəlrinin dəyişməsi istisna hallarda yeni növün yaranması deməkdir. Lakin bunu ayrı-ayrı fərdlərin reproduktiv (yaddaşda qalan,-tər.) təcrid olması ilə ilgili tək-tək hadisə kimi təsəvvür etmək gərəkdir, populyasiya səviyyəsində baş verən daimi ehtimali proses kimi yox”. (5) Axı, ana bətnində uşağın maya tutması da işıq sürətilə baş verir.

Biz bu tezisi etnologiyaya tətbiq edəcəyimiz təqdirdə bu, normadan kənara çıxma, yəni təkan konsepsiyasınaçevriləcək ki, onun da nəticələri yalnız mühitin qeyri-sabitliyinin yaratdığı xüsusilə əlverişli şəraitdə özünü biruzə verməyə qabildir. Digər hallarda təkanın ətaləti söndürüləcək, “ayrı-ayrı” fərdlər isə soydaşlarının qurbanı olur. Həm də burada həmin bir birinə bənzəməyən adamları özündə ehtiva edən etnosun persistent dinclik - homeostaz vəziyyətində olmasının, yaxud etnik təşəkkül zamanı bütün mərhələlərdən sel kimi ötüb keçməkdə olmasının heç bir təfavütü yoxdur. Hər iki halda o, haqlı olaraq (öz mövqeyindən) nacins və bədxah adlandırdığı adamları məhv edəcək. Lakin buna baxmayaraq, yeni etnoslar meydana gəlməkdədir. Deməli, “ayrı-ayrı” fərdlərə nəinki salamat qalmaq, hətta qalib gəlmək imkanı verən şərtlər mövcuddur. Güman ki, bunlar həm landşaft, həm də etnik mühit şərtləri, sadəcə desək, araşdırılan fərdin qonşuları arasındakı qarşılıqlı münasibətlərin xarakteridir. Lakin biz qədim insanların soydaşlarının paxıllığı, kütbeyinliyi və zalımlığı üzündən özünü lazımınca göstərə bilməyən tərcümeyi-hallarını çox çətinliklə izləyiriksə, bir neçə pillə yüksəkdə duran sistemlərin, yəni etnosların araşdırılmasına keçəcəyimiz təqdirdə zəruri bilgilər əldə edə bilərik. Bunlar bizə normadan kənara çıxmanı etnogenezin başlanğıc anı kimi əsaslandırmaq imkanı verir. Həm də araşdırılan sistemin dərəcəsi nə qədər yüksək olarsa, yanlışlıq ehtimalı və ehtiyatlı olmaq zərurəti bir o qədər az olar. Bütün yuxarıda söylənənlərdən aydın olur ki,etnoslar daim bu və ya digər sosial qılafaf bürünmüş biofiziki reallardır. Deməli, yeni etnosun yaranması zamanı nəyin - bioloji, yaxud sosiolojinin ilkin olması [228-229] barədə mübahisə yumurtada nəyin - ağının, yoxsa qabığının ilkin olması barədə mübahisəyə bənzəyir. Aydındır ki, biri digərsiz mümkün deyil və buna görə də həmin mövzuda disput mənasız işdir.

Həqiqətən də, yalnız bilavasitə yer üzündəki landşaftlara təsir göstərən (6) və bu səbəbdən də mücərrəd yox, real şəkildə mövcud olan böyük kollektivlər - etnoslar daxilində deyil, ayrıca götürülən bir fərd daxilində də materiyanın hərəkətinin bütün formalarının əlaqələnməsimüşahidə olunur. İnsanın davranışının bütün detallarının onun sosial əhatəsi tərəfindən diktə olunduğunu qəbul etsək belə, rüşeymin genetik kodu bioloji, adrenalinin ifrazının səviyyəsini aşağı olması isə kimyəvi hadisədir. Lakin hər iki sosial amillərlə yanaşı insan fəaliyyətinin xarakterinə təsir göstərir.

İnsanın təbii mühitlə qarşılıqlı əlaqəsindən danışan və tarixə etinasız olan hər hansı bir səthi müşahidəçi sadələşdirmə prinsipinə sadiq qalır. Belə bir təsəvvür yaranır və bərqərar olur ki, əmək məhsuldarlığı və əhali artımının sürətlə artımına əlverişli şərait olan yerdə insan cəmiyyətinin tərəqqisi daha sürətlə, olmadığı yerdə isə daha ləng getmişdir. Bəs, hansı şərait əlverişli sayılmalıdır? Andaluziyada iqlim İngiltərə vəKastiliyadakından daha mülayim olmasına baxmayaraq, Qranada kastiliyalılar tərəfindən 1492-ci ildə istila edilmiş, İngiltərə isə 500 il ərzində dənizlərdə hökmran olmuşdur. 2 min il ərzində Norveçdə şərait dəyişməsə də, vikinqlər dənizlərdə yalnız IX-XII əsrlərdə dolaşmışlar. IX əsrdə

Norveç durğunluq vəziyyətində idi, Kalmar uniyasından sonra isə Danimarka istilasının qurbanı oldu. Niyə?

Bütün bu təsvirlər yalnız bir məqsədə xidmət edir: etnogenez partlayışlarının inkişafda və ya durğunluq vəziyyətində olan xalqların mədəniyyət və məişəti, onların irqi tərkibi, iqtisadiyyat və texnikanın səviyyəsi, etnosun ekologiyasını dəyişən iqlim dəyişiklikləri ilə deyil, məkan və zamanın xüsusi şəraiti ilə ilgili olmasını göstərmək. Özü özlüyündə landşaft yeni etnoslar törətmir, çünki bəzi hallarda onlar bu və ya digər əlverişli yerlərdə minilliklər boyu belə yaranmır. Etnogenez bölgələri daim dəyişir. Bizi maraqlandıran proses gah orada, gah da burada başlanır. Deməli, onu bizim nəzərə aldığımız yerüstü qüvvələr deyil, arayıb tapmalı olduğumuz başqa şeylər doğurur.

Fon və amil. Müstəqil hadisə kimi etnosun landşaftla təmasının araşdırılması göstərdi ki, onlar arasında qarşılıqlı əlaqə var. Lakin nə etnosdaimi təsirə malik landşaftyaradıcı amil deyil, [229-230] nə də landşaft kənar təsirsiz etnogenezin səbəbi ola bilməz. Etnik və sosial qanunauyğunluqların nisbəti isə hətta əks əlaqəni belə istisna edir, çünki Yerin etnosferi sosial inkişaf üçün amil deyil, yalnız fondur.

Yalnız istehsal qüvvələri və texnika yox, elm və incəsənət kimisahələr də öz inkişaf qanunauyğunluqlarına malikdir. Onların əvvəli çox qədim dövrlərə aid olsa da, vərəsəlik dövrümüzə qədər gəlib çatır və nə qədər ki, Yer üzündə insanlar yaşayır, o da davam edəcək.

Ənənə əleyhinə etiraz meydana çıxdıqda belə, bu etiraz da ənənəvidir, çünki qədimdən bəri təqlid dövrləri yeni və orijinal olanların axtarılması dövrlərilə əvəzlənir. Lakin əgər bu prinsip sabitdirsə, onda elmi ixtira, kəşf, incəsənət əsəri olmasından asılı olmayaraq, hər bir ayrıca götürülmüş hər bir şey yenidir, çünki tamamilə eyni olan surət düzəltmək mümkün deyil. Lakin burada başqa bir məsələ ortaya çıxır: bəlkə mədəniyyətin inkişafının əbədiliyi qəbul olunması etnosun hərəkətlərini determinizmə uğradır? Əsla yox!

Polşa yazıçısı və filosaofu S.Lem xüsusi araşdırmasında yazır: “Mədəniyyət fiziki, bioloji, sosial, texnoloji iqtisadi amillərlə şərtlənir. Əgər bütün bu determinatların qiymətləri varsa, “sırf mədəni variasiya” məkanı sıfıramı bərabərdir, yoxsa hansısa azad birzolaq qalacaq? Antropoloji komparativistika göstərir ki, belə məkan mövcuddur və burada artıq forma və mənaların mədəni dəyişkənliyi özünü göstərir”. (7) Bəs, “azadlıq zolağı” nə ilə doldurulub? Güman ki, qərar vermək hüququ və imkanına malik fərdlərin fəaliyyətilə. Qoy olsun, lakin fiziki anlamda iş demək olan bu fəaliyyət üçün fərdin psixofiziologiyasında əks olunan enerji tələb edilir. Beləliklə, sosial və bioloji baxımları sikkənin üz və arxa tərəflərinə bənzətsək, onda bu enerji və onun təzahürləri sikkənin özünün metalıdır.

Birbaşa müşahidə zamanı biz yalnız hər iki üzdəki təsvirləri müşahidə edirik ki, bunlar da daxildəki mahiyyəti (məsələn, sikkənin töküldüyü metalların nisbətini) əks etdirmir. Dərin qatlarda baş verən hadisələrin dərki isə yalnız “empirik ümumiləşdirmə” yolu ilə mümkündür. Bu səbəbdən də nəyin - “sikkənin üz və ya arxa tərfəinin” (bizim nümunədə isə “vahid” coğrafiya, yaxud hər şeyi əhatə edən sosiologiyanın) üstün olması haqqında mübahisəmənasızdır. Bundan əlavə, bu mübahisə hətta əməli səciyyə daşımır, çünki hər iki halda alimlər tərəfindən [230-231] qoşulmuş məsələnin qeyri-şüuri şəkildə sadələşdirilməsinə, yəni sayğısızlığa meyl mövcuddur ki, bu zaman araşdırmanın özü belə mənasızlaşır, çünki onun nəticəsinin tam dolğun, yəni dürüst olmaması göz önündədir. Lakin anlaşma əldə olunmaı üçün araşdırma zəruridir. Odur ki, biz hadisənin qərəzli ideya qəlibinə müvafiq gəlməyən komponentlərinin rədd edilməsi yolu ilə deyil, onlardan hər birinin yerinin və rolunun açıqlanması yolu ilə getmək fikrindəyik. Bu, son nəticədə araşdırmanın məqsədinə - sintezə gətirib çıxaracaq və bundan sonra aydın olacaq ki, sosial, bioloji və coğrafi yanaşmalar arasındakı ziddiyyətlər xəyalidir.

Ən sadə varianta müraciət edək - bir fərdi götürək. İnsanda anatomiya, fiziologiya və psixologiya sıx şəkildə bir birinə qovuşub və bir birindən o qədər asılıdırlar ki, araşdırmamız zamanı insan varlığının həmin cəhətlərinin bir birindən təcridinə ehtiyac yoxdur. Aydındır ki, insan sosial məxluqdur, çünki onun şəxsiyyəti başqa insanlar və əcdadlarının əllərilə yaradılmış əşyalarla (texnika) aramsız təmasda formalaşır. Yaxşı, bəs, spermatozoid? Bu, ornurğalıların təkamül qanunlarına müvafiq şəkildə inkişaf edən sırf bioloji “fərddir”. Lakin insan şəxsiyyətinin öz rüşeymi ilə əlaqəsi şübhəsizdir. Deməli, ali əsəb fəaliyyəti də daxil olmaqla (psixika), insan bədəninin özü də materiyanın ictimai və təbii hərəkət formalarının əlaqələndiyi laboratoriyadır.

Lakin inkubasiya dövründən çıxdıqdan və sosial mühitə tam şəkildə daxil olduqdan sonra belə, insan fərdləri bir sıra təbii qanunauyğunluqlara tabe olur. Cinsi yetkinləşmə və qocalma dövrləri sosial inkişafın pillələrindən deyil, növdaxili təkamül prosesində yaranmış irsi əlamətlərdən asılıdır. Məsələn, tropik qurşaqda yaşayan xalqlarda cinsi yetkinlik şimaldakından daha tez başlanır; neqroidlərin reaksiyası avrepoid və monqoloidlərdəkindən daha itidir; bir sıra xəstəliklərə, məsələn, qızılçaya qarşı polineziyalıların davamiyyəti avropalılarınkından zəifdir və i. A. Bu xassələrin sosial inkişafa heç bir aidiyyatı olmasa da, onlar müxtəlif ölkələrdən olan insanların davranışında özünü büruzə verir. Şübhəsiz, bu fərqlərin mənşəyi bu və ya digər populyasiyaların əcdadlarının fərqli coğrafi şəraitdə uyğunlaşması və həm əvvəllər mövcud olmuş, həm də hazırki etnosların yaranması ilə ilgilidir. Bəşəriyyətin eyni inkişaf pillələri -ictimai -iqtisadi formasiyaları keçən zaman meydana etnik rəngarəngliyi yaradan da məhz uzun sürən uyğunlaşma prosesləri ərzində formalaşan əlamətlərin toplanmasıdır. Lakin etnogenez [231-232]

probleminin mürəkkəbliyi sosial formalarla bitmir. Axı, belə olduğu halda, etnoqrafiya sadəcə sosiologiyanın bölməsinə çevrilər, eyni, məsələn, quldarlıq formasiyasına mənsub cəmiyyətlərdə yaşayan adamların davranışı isə eyni olardı. Lakin Çin antikası yalnız ellin deyil, yapon, hind, yaxud Misir antikasından fərqlidir. Sosial oxşarlıq etnik orijinallığı istisna etmir.

Komplimentarlıq. Etnosun bioloji vahid olmasını iddia edən ideya məqbul ola bilərmi? Xeyr, bu da məsələnin həlli deyil, çünki etnik proseslər növün monomorfluğu şəraitində cərəyan edir. Lakin hər halda, görünür, insanın bir sıra bioloji xassələri müəyyən rol oynayır. Tutalım, bir qlobal hadisə kimi etnogenez ümumi təkamülün yalnız ayrıca hadisələrindədir. Lakin bu "ayrıca hadisə" son dərəcə mühümdür, çünki etnik bütövün qarışıq mənşəli, müxtəlif mədəni səviyyəli və fərqli xüsusiyyətli fərdlərdən (adamlardan) ilkin təşəkkülü problemınə toxunarkən, özümüzə aşağıdakı verə bilərik: bəs, onları bir birinə cəlb edən nədir? Güman ki, burada şüurlu şəkildə planlaşdırmadan və mənfəət əldə etmək istəyindən danışmağa dəyməz, çünki birinci nəsil nəhəng çətinliklərlə - öz tələblərinə müvafiq yeni qarşılıqlı münasibətlər bərqərar etmək üçün artıq mövcud olanlarını dağıtmaq zərurətilə üzləşir. Bu həmişə təhlükəli iş olduğundan, onun əsasını qoyanlar qələbədən çox az hallarda bəhrələn bilirlər. Sosial yaxınlıq prinsipi də yaramır, çünki yeni etnos köhnəyə məxsus institutları məhv edir. Deməli, yeni etnosa onun təşəkkülü zamanı daxil olmaq üçün insan adət etdiyi köhnədən tam imtina etməlidir. Romalılara çevrilən yeddi təpəlikdə məskunlaşan kvirit canavar tayfası, erkən xristian və müsəlmanların konfessional icmaları, Şotlandiya, İslandiya, Normandiya və İngiltərədə məskunlaşan vikinq drujinaları, həmçinin onları dəf edən feodallar, XIII əsr monqolları, ümumiyyətlə, bizə məlum olanların hamısı məhz belə təşəkkül tapıb. Başqa bir prinsipi tətbiq etmək daha münasib olardı -fərdlərin qarşılıqlı təhtəlşüur rəğbətilə ilgili olan komplimentarlıq. Sevgiyə əsaslanan nigahlar bu prinsipdən doğur. Lakin komplimentarlığı sekslə məhdudlaşdırmaq olmaz, çünki seks bu prinsipin təzahürünün variantlarından yalnız biridir. Etnosun rüşeymi olan ilkin kollektivin təşəkkülündə müəyyən xasiyyətli adamların bir birinə qarşı təhtəlşüur şüur meyl etməsi əsas rol oynayır. Belə meyl daim olsa da, o qüvvətlənən zaman etnik ənənənin yaranması üçün şərtlər əmələ gəlir. Bunun ardınca isə sosial institutlar yaranır. [232-233]

Beləliklə, hər hansı bir etnik ənənənin və onunla ilgili sosial institutun təşəkkülü rüşeymin - bir birinə rəğbət bəsləyən müəyyən sayda adamın birləşməsilə şərtlənir. Seçdikləri məqsəd və tarixi talenin möhkəm qovuşdurduğu bu adamlar fəaliyyətə başlayaraq, tarixi prosesə qədəm qoyurlar. Onların taleyi necə olursa olsun, o - "qaçılmaz şərtdir". Bu cür qrup dəniz quldurları dəstəsinə, mormon dini təriqətinə, tampliyerlər ordeninə, buddaçı rahiblər icmasına, impressionistlər məktəbinə və i.a. çevrilə bilər. Lakin burada ümumi olanı, xüsusi olaraq qeyd edilməlisi kortəbii qarşılıqlı cazibədir (bir birilə müharibə aparmaq üçün olsa da). Bu səbəbdən bir qədər əvvəldə bu cür rüşeym" birləşmələrini konsorsiyalar adlandırmışıq. Onların heç də hamısı salamat qalmır, əksəriyyəti hələ banilərinin sağlığında parçalanır. Lakin duruş gətirə bilənlər cəmiyyət tarixinə daxil olur və tezliklə sosial formalar kəsb edərək, çox zaman ənənə yaradır. Xaricdən zərbələr altında məhv olmayan kiçik bir qisim daha yüksək fəallıqlarını təbii şəkildə itirənədək mövcud olur, lakin qarşılıqlı cazibənin ətalətini qoruyub saxlayırlar ki, bu da özünü ümumi vərdiş, zövq, dünyanı duymaq və digər hisslərdə göstərir. Komplimentar birliyin bu mərhələsini konviksiya adlandırmışıq. O artıq əhatəsindəkinə təsir qüvvəsinə malik deyil və sosioloqların deyil, etnoqrafiyanın nüfuz dairəsinə aiddir, çünki bu qrupu məişət birləşdirir. Əlverişli şəraitdə olan konviksiyalarda mühitə qarşı müqavimət sıfıra doğru can atdığından, onlar ətraf konsorsiyalar arasında səpələnir.

Komplimentarlıq prinsipi etnos səviyyəsində də mövcud olub, kifayət qədər təsirlidir. Burada o, vətənpərvərlik adlanır və tarixin nüfuz dairəsinə aiddir, çünki xalqı onun əcdadlarına ehtiram bəsləmədən sevmək mümkün deyil. Bir qayda olaraq, etnosdaxili komplimentarlıq qüdrətli qoruyucu qüvvə olmaqla etnos üçün faydalıdır. Lakin bəzən o, eybəcər, mənfi forma kəsb edərək, yabançı olan hər bir şeyə qarşı nifrətə çevrilir ki, bu halda şovinizm (millətçilik) adlandırılır.

Superetnos səviyyəsindəki komplimentarlıq yalnız mücərrəd ola bilər. Adətən, o özünü təkəbbürlü üzdə göstərir ki, bu zaman bütün yabançı və özlərinə bənzəməyənləri "vəhşi" adlandırırlar.

Komplimentarlıq prinsipi sosial hadisələrə aid deyil. O, vəhşi heyvanlarda müşahidə olunur, ev heyvanlarındakı komplimentarlıq isə hamıya müsbət (at və ya itin sahibinə bağlılığı), həm də mənfi formalarda məlumdur. [234-235]

Gördüyümüz kimi, bu prinsip yalnız kollektivin varlığının ictimai formaları olmadığı halda aparıcı rol oynayır. Lakin tabe vəziyyətini sabit sosial qanunlar mövcud olduqda belə qoruyub saxlayır. Bu cəhət bizi insanın biologiyasına üz tutmağa məcbur və xöşbəxtlikdən, bu sahə artıq kifayət qədər araşdırılıb.

**Araşdırmanın bioloji xətləri**. Terminlər barədə şərtləşək. Yalnız anatomiya və genetika deyil, orqanizmin ətrafla ilgili təzahürlərini araşdıran elmlər olan refleksologiya, ekologiya, biosenologiya və etologiya (davranış haqqında elm) də bioloji fənlərə aiddir. Biz belə güman edirik ki, orqanizmin fəaliyyətilə ilgili olanların hamısı öz təbiətinə görə sosial deyil. İnsandan başqa, heyvan və quşlar da öz balalarını tərbiyə edir və öyrədir. Sürü halında yaşayan bütün heyvanlar siqnallar sistemi, cinsi münasibətlərin nizamlanması və düşmənlərdən müdafiə olunarkən cins - yaş ixtisaslaşmasına malikdir. Erkəklər dişiləri və balalarını qoruyur. Materiyanın ictimai hərəkəti baxımından bu qəbildən olan

münasibətləri sosial adlandırmaq mümkündürmü? Sovet elmində qəbul olunmuş anlamına görə - yox, çünki ictimai inkişaf iqtisadi inkişafa əsaslanır və istehsal qüvvələrinin inkişafı ilə ilgilidir.Beləliklə, sosial münasibətlər daim bu və ya digər formasiya ilə şərtlənir. Bu, sovet elmində qəbul olunmuş terminologiyadır və onu dəyişdirmək həm özümüzü, həm də oxucunu dolaşdırmaq deməkdir. Lakin növün kollektiv varlıq formaları bizim uzaq əcdadlarımıza da xas idi. Sosial varlıq olmazdan əvvəl insan sürü halında yaşayan canlılardan biri idi ki, bu da heç də onun insani məziyyətlərini alçatmır.

Hazırda kollektivin fərdin fiziologiyasına təsiri kifaəyət qədər araşdırılıb. Cırnatmaq vasitəsilə hətta siçanda belə hipertoniya (yüksək qan təzyiqi - tər.) doğurmaq mümkündür. Lakin siçan, laborant və təcrübəçidən ibarət kompozisiyanı bizdə qəbul edilmiş anlamda sosial adlandırmaq çətin ki, mümkün olsun.

Doğrudur, xaricdə bioloji qanunları ictimai həyata şamil edən " sosial - darvinizm" cərəyanı mövcuddur. Lakin adət etmədiyimiz, lüzumsuz, həm də oxucumuz üçün aktual olmayan terminologiyadan uzaq olmaq məsləhətdir.

Bəs, biologiya araşdırmamıza necə yardımçı ola bilər? Ab ovo başlayaq. Birgəyaşayışın kollektiv formaları Yer üzündə yaşayan bir çox canlıya xasdır: qarışqalar, dırnaqlı və yırtıcı heyvan sürüləri və i.a. Lakin hər bir növ kollektiv yaratmanın özünəməxsus səciyyəsinə malikdir. Homo sapiens növü üçün belə bir forma etnos olsa da, bu heç vəchlə o demək deyil ki, etnos qarışqa yuvası, yaxud sürünün analoqudur. İnsna digər onurğalılardan köklü şəkildə fərqləndiyi kimi, etnoslar da digər canlıların kollektivinə bənzəmir.

Heyvan kollektivlərilə etnoslar arasında fərqlər çoxdur, lakin araşdırma məqsədləri üçün mədəni ənənənin rolu problemini açıqlayacağımız zaman bizə gərək olacaq elementar sxemlə kifayətlənək. Ümumi əcdadlara malik, ciddi şəkildə məhdudlaşmış ərazidə yaşayan və məişət, adət, din və məşğuliyyətinə görə qonşulardan tam fərqlənən bir tayfa təsəvvür edək. Bu halda nigahların əksəriyyəti həmin etnosun nümayəndələri arasında bağlanacaq, çünki ailəni təmin etmək üçün zəruri əmək və məişət vərdişlərinə malik olmayan şəxsi kollektivə qəbul etmək məqsədəuyğun deyil. Aydın məsələdir ki, digər şəraitlə ilgili olan başqa vərdişlərin tətbiqi qeyri - mümkündür. Kənar qüvvələrin qüdrətli təcavüzü olmadan (istila) təcrid olunmuş etnosun mədəni siması nisbətən sabitdir, çünki hər yeni nəsil əvvəlki nəslin həyat dövrünü yenidən yaşamağa can atır, həmin etnosun mədəni ənənəsi də elə budur. Güman etmək olardı ki, ənənə heç vəchlə biologiyaya aid edilə bilməz. Lakin professor M.Y.Lobaşev nəsillər arasında qarşılıqlı əlaqə mexanizmini məhz heyvanları öyrənmək əsasında aşkar etmişdir. Onun üzə çıxardığı "siqnal irsiliyi" (8) sadəcə olaraq, ənənənin başqa bir adıdır. Heyvanlar aləmində fərdi uyğunlaşma şərti refleks mexanizmi vasitəsilə həyata keçirilir ki, bu da heyvan üçün ən optimal həyat özünümüdafiə şəraitinin seçimini təmin edir. Bu şərti reflekslər valideynlərdən övladlara, yaxud böyüklərdən kiçiklərə ötürülür və məhz bunun sayəsində davranış stereotipi uyğunlaşmanın ən ali forması olur. İnsanda bu hadisə sivilizasiyanın irsiliyi adlanır və onu "siqnallar siqnalı" olan nitq təmin edir. Bu irsiliyə məişət vərdişləri, düşüncə tərzi, sənət nümunələrinin qavranması, böyüklərlə davranma qaydaları və cinslər arasında münasibətlər daxildir. Bütün bunlar mühitə ən iyi uyğunlaşmanı təmin edir və siqnal irsiyyəti vasitəsilə ötürülür. Endohamiya, yəni genetik fondun tərkibini sabitləşdirən qonşulardan təcridlə birlikdə ənənə etnik kollektivin dayanıqlılığını təmin edən amil kimi xidmət edir.

Və nəhayət, antropogenetika və antropologiya da mühüm əhəmiyyət malikdir. Onlar Homo sapiens növünün populyasiyalarını bioloji zamanda, yəni nəsildəyişməsində müşahidə edir. Etnosun həyatı bioloji zamanın tarixilə üst-üstə [235-236] düşməsi, nəsildəyişmənin səbəbiyyət əlaqəsinə müvafiq şəkildə düzülən hadisələr zəncirilə eyniyyət təşkil etməsidir. Genetik yaddaşın tarixi vərəsəliklə əlaqələnməsi sayəsində bu üst - üstə düşmə kazual (təsadüfi) qanunauyğunluqların pozulmaması şərtilə həyata keçirilir ki, bunun sayəsində etnos bütöv kimi mövcud olur.

Lakin bütöv populyasiyada bizim metamorfik şəkildə "iks amili" adlandırdığımız əlamətin meydana çıxması daha mühümdür, çünki etnogenezin sonralar sönən prosesləri məhz onun sayəsində təşəkkül tapır. Bu əlaməti aşkar etməklə problemi həll edərik. Lakin onu tapmaq çox çətindir və axtarışı ardıcıl şəkildə aparmaq lazımdır.

## XIX. FİLOGENEZ, YOXSA ONTOGENEZ

**İnsanın tərəqqi və təkamülü**. Qəbul olunmuş təkamül nəzəriyyəsinə görə, Homo sapiens növü dördüncü dövrün əvvəlində bir neçə fərqli hominid formalarında meydana çıxıb. Ola bilər ki, bunlar bir birinin ardınca yaranmış, yaxud bəzən yanaşı mövcud olmuşlar. Təxmin edilən əcdadları olan avstralopitek kimi, hominidlər də iri yırtıcı idi. Onlara kanniballıq (adam yemək, - tər.) yabançı olmadığından, biosenozlarda ən yuxarı ekoloji yuvaya sahibdilər. Sonuncu buzlaşma ərəfəsində bu nəslin bütün hüquqları məhv oldu və yalnız Homo sapiens növü, yəni müasir insanların əcdadları salamat qaldı. Lakin bu sonuncu planetin bütün quru ərazilərinə yayılaraq, tarixi dövr ərzində hidrosferin səthini də mənimsədi və Yer üzündə elə dəyişikliklər etdi ki, hazırda Yerin bütün landşaft örtüyünü haqlı olaraq antropogen adlandırırlar. Qütb buzlaqları istisna edilməklə, Yer üzündə elə bir bölgə yoxdur ki, orada daş

və dəmir dövrlərinə aid arxeoloji abidələr olmasın. Biz paleolit dövrünə aid məskənləri müasir səhra və cəngəlliklərdə, neolit dövrünə aid olanları isə tundra və tayqada aşkar edirik. Bu, bir sıra bölgələrin vaxtilə insanlar tərəfindən məskunlaşdırıldığını göstərir. Sonralar insanlar həmin yerləri tərk etsələr də, indi yenidən texnika tətbiq etməklə buralara qayıdırlar. Əlbəttə, keçən 17-20 min il ərzində müxtəlif bölgələrdə iqlim şəraiti dəyişmişdir. Lakin onurğalıların digər növlərindən fərqli olaraq, Homo sapiens növünün müəyyən bölgə ilə məhdudlaşmaması, müxtəlif iqlim şəraitlərinə uyğunlaşması fakt olaraq qalır və bu da onun onurğalılar ekologiyasında xüsusi mövqeyə malik olmasına haqq qazandırır. [236-237]

XIX əsr və XX əsrin əvvəllərində texnikanın inkişafı təbii sərvət ehtiyatlarını vəhşicəsinə istismar etməyə imkan yaratdı və hələ təsəvvür edilirdi ki, tərəqqi yolu da elə məhz budur. İndi isə artıq sənaye ehtiyacları üçün şirin su çatışmır, flora bərbad haldadır, ABŞ -qasırğaları prerilərin biosenozunun məhv edilməsinin qisasını alır, böyük şəhərlərin havasında oksigen qıtlığı var, son 300 ildə onurğalıların 110 növü məhv olub və daha 600 növ təhlükə altındadır. Hələ bu yaxınlarda bu proses noosfer və təbiət üzərində qələbə adlandırılırdı. İndi isə aydındır ki, biz tamamilə başqa (sosial olmayan) qəbildən olan bir hadisəni -Yer planetinin komponentlərindən biri olan Homo sapiens növünün daha yüksək uyğunlaşma qabiliyyətini və təcavüzkarlığını müşahidə edirik.

Elə buradaca ortaya birinci sual çıxır: haqqında danışdığımız hadisə Homo sapiens növünün özünün də aid olduğu onurğalıların təkamülünün hüdudlarına nə dərəcədə uyğun gəlir? İkinci, heç də daha az əhəmiyyətli olmayan bir sual: alətlər düzəldən və oddan yararlanmağı öyrənən insan biosenozun tərkibində onun ən ali, tamamlayıcı həlqəsi kimi qalmaqda davam edirmi, yoxsa təbiətlə qarşılıqlı münasibətlərin hansısa başqa bir mühitinə keçir və əhliləşdirilmiş heyvanları və mədəni bitkiləri də onun əhatə dairəsinə cəlb edir? Bu bir də ona görə əhəmiyyətli məsələdir ki, təkamülün dönməzliyi qanununa görə, insanın təsiri altında tanınmaz dərəcədə dəyişdirilən heyvan və bitkilər müstəqil həyata qayıda bilməzlər, çünki tək-tək istisnaları çıxmaqla, vəhşi formalarla rəqabətə duruş gətirə bilmirlər. (9) Beləliklə, biosfer daxilində xüsusi bir təbəqə yarandı. Bu təbəqədə təbii seçim qanunları qüvvədədirmi?

Ç.Darvin də daxil olmaqla, təkamül nəzəriyyəsinin bir çox tərəfdarları belə hesab edirlər ki, müasir insan da əcdadlarının məruz qaldıqları təbii seçimin təsiri altındadır.(10)* Buna şübhə ilə [237-238] yanaşanlar fikirlərini aşağıdakı şəkildə əsaslandırırlar: "Yaşamaq uğrunda mübarizənin tədricən zəifləməsi insanı qaçılmaz şəkildə biosenozun tərkibindən çıxmağa doğru aparırdı. Ləng cərəyan edən bu proses ona gətirib çıxardı ki, insan üçün təbii seçim əvvəlcə zəiflədi, daha sonra isə tamamilə itib getdi.. Lakin təbii seçimin olmaması təkamül amillərindən birinin təsirinin başa çatmasına bərabər idi.. və insanın bioloji təkamülü dayanmalı idi. Bu 50 min il bundan əvvəl - kromanyon adamı formalaşdığı zaman baş verdi".(11)

1955-ci ildə Y.Y.Roginski və M.Q.Levin yazırdılar ki, müasir insanın simasında bioloji təkamül prosesi təkamülün sönməsinə səbəb olan növ xassələrin sahibini yaradıb. (12) Deməli, belə bir təsəvvür yaranır ki, insanın təkamül prosesinin çoxdan başa çatdığı heç bir şübhə doğurmur. Lakin növ daxilində modifikasiyalar davam etdiyindən, problemin bu şəkildə qoyuluşu zamanı belə araşdırma predmeti tükənmir. Lakin araşdırmanı davam etdirmək üçün yeni baxım və yeni metodika zəruridir, çünki yalnız hadisənin xüsusiyyətlərin təsvir etdikdən sonra bu və ya digər baxıma qoşulmaq olar.(13)

**Bölgə mutasiyaları**. A.P.Bistrovun monoqrafiyası işıq üzü görəndən dörd il sonra Q.F.Debets sarsıdıcı qənaətinin əks olunduğu araşdırmasını çap etdirdi. İnsan kafasının qədim dövrlərdə çox qalın olan sümükləri nazikləşir (qratsilizasiya). Həm də bu, tədricən deyil, sıçrayışlarla, üstəlik, hər yerdə yox, en dairəsi bölgələri üzrə baş verir. (14) Belə ki, subtropik bölgədə kafanın qratsilizasiyası e.ə. VI minillikdə, mülayim iqlimli meşə bölgəsində isə e.ə. I minillikdə baş verib. Q.F.Debets bu tarixləri ovçuluq təsərrüfatından əkinçiliyə keçidin tarixlərilə tutuşdurur və eyni zamanda göstərir ki, "əkinçiliyə keçidin kafa quruluşunun dəyişməsinə səbəb olduğunu təxmin etmək mümkündür". Lakin dəyişən insanın yeni məşğuliyyət növünə səbəb olması da eyni dərəcədə mümkündür. Onun digər bir fikri isə tamamilə haqlı müddəadır: ".. nə müqayisəli anatomiya, nə də etnoqrafiya bizə ixtiyar vermir ki, Homo sapiens növü hüdudlarında qratsil formaların daha mükəmməl olduğunu iddia edək." Tamamilə doğrudur! Lakin yaxşı məlumdur ki, əlamətlərdən birinin modifikasiyaya uğraması yalnız insanın anatomiyasında deyil, davranışında da əks olunur. Q.F.Debets belə bir qənaətə gəlir ki, [238-239] "məsələ bioloji mahiyyətə dəyişikliklərdədir". Deməli, tarixi mövcudluq şəraitində insan birliklərində hətta skelet dəyişikliklərini təşviq edən bioloji proseslər cərəyan etməkdədir. Lakin bu halda fiziologiya və davranışda öz əksini tapan daha kiçik diapazonlu variasiyalar da olmalıdır. Onları aşkarlamaq daha çətin olsa da, hazırda artıq örnəklə təsdiq olunan mövcudluqları bizə insan fəaliyyətinin hamıya yaxşı bəlli olan amili ilə yanaşı

---

*Antidarvin konsepsiyalarını (A.Doderleynin ətalətin qüvvəsi, T.Eymerin ortogenez, A.S.Berqin nomogenez, X.Osbornun aristogenez nəzəriyyələri) nəzərdən keçirmirik, çünki ümumi səciyyəli təbiət qanunauyğunluqlarının bütün faunaya münasibətdə təsadüfi olan hadisələr şamil edilməsi yanlışlığa gətirib çıxaracaq. Səbəb isə sadəcə olaraq miqyasların qeyri-mütənasibliyidir: bütövlükdə təkamül prosesi araşdırılan zaman müəyyən əhəmiyyətə malik təfərrüatlar məhdud dövr ərzində bir növün araşdırılması zaman ya çox əhəmiyyətli, ya da məsələyə heç bir aidiyyatı olmayan təəssüratı yaradır.

fəaliyyət göstərən digər bir amilinin axtarışına başlamamız üçün imkan verir. Bəlkə bu ictimai qaynaqların təsiri altında forma növün öz ilkin məskunlaşma bölgəsinin hüdudlarından kənara yayılması şəklini almış növdaxili təkamüldür? Bəlkə də nə isə yeni, hələ araşdırılmamış bir şeydir? Baxarıq.

Təkamül nəzəriyyəsi üçün əsas material paleontologiya verir. Lakin yadda saxlamaq lazımdır ki, onun salnaməsi dolğun deyil və növlərin ölüb getməməsi indiyədək mübahisələr doğurur. Xronologiyanın qeyri-dəqiqliyi xüsusi çətinlik yaradır və bu zaman növlərin yaranması ilə yox olmaları arasındakı müddətin təyin edilməsindəki xəta bir sıra hallarda milyon illərə bərabər olur. Homo sapiens növünün bir sıra somatik bölmələrinin, məsələn, avropeoid, monqoloid, avstraloid və neqroidlərin araşdırılması zamanı eyni çətinliklərlə üzləşirik. Deməli, hətta zaman məhdudiyyəti qoyulmaq şərtilə belə, problemə sırf bioloji yanaşma bizə heç bir üstünlük vermir. Bundan başqa qəbul etmək lazımdır ki, irqi mənsubiyyət insan planetin simasını dəyişdirmək imkanı bəxş edən daha yüksək uyğunlaşma qabiliyyətilə heç cür ilgili deyil. Nəhayət, böyük irqlər o qədər mücərrəd birliklərdir ki, antropologiyada xarici əlamətlərinə - dərinin piqmentləşməsi, kafa quruluşu və i.a. görə onların müxtəlif təsnifatları mövcuddur. Ən əsası isə odur ki, fərdlərin böyük əksəriyyətində birinci olmasa da, ikinci sıra əcdadları müxtəlif irqlərə mənsubdur. Deməli, real şəkildə mövcud olan və bilavasitə müşahidə edilən insan birlikləri həmişə hetoregendir (tərkibcə müxtəlif cinsli, - tər). Homo sapiens növünün kollektiv varlıq formaları da elə məhz bizim xalq, etnos adlandırdığımız həmin birliklərdir. Onlar məskunlaşdıqları bölgələrin landşaftları, yəni elementar ekoloji növdaxili taksonlarla qarşılıqlı əlaqədədir.

**Biosenoz konversiyaları və susseksiya**. Biz artıq qeyd etmişdik ki, qalıq etnos nə qonşular, nə də landşaft üçün təhlükə törətmir. İndi isə bunun səbəbini bir qədər də ətraflı açıqlamağa çalışaq. Əgər etnos geobiosenozun ən yüksək, tamamlayıcı həlqəsini təşkil [239-240] edirsə, o həm də həmin geobiosenozun konversiya silsiləsinə də daxildir. Sonuncu anlamın açıqlanmağa ehtiyacı var.

Aydınlaşdırıram. İngilis bioloqu T.Geksli aşağıdakı tezisi bəyan etmişdir: “Konversiya silsiləsi bir məskunlaşma məkanındakı bitki və heyvanlar arasında enerji dövriyyəsini təmin edən mexanizmdir. Başqa sözlə, bu həmin yaşayış məkanına xas olan ekoloji birlikdə maddələr mübadiləsidir. Məskunlaşma məkanının qorunub saxlanması üçün enerji dövriyyəsinin dəstəklənməsi və qüvvətləndirilməsi zəruridir”. (15) Sonuncu bizim üçün son dərəcə önəmlidir. Keçmişdə qalıq etnosda təbii artım bir qayda olaraq, uşaq ölümünün çox yüksək səviyyəsilə məhdudlaşırdı. Nigah bağlamış cütlərin qocalıq dövrü üçün topladıqları isə, adətən, yalnız etnosun mühitlə tarazlığını qoruyub saxlamaq üçün kifayət edir və ekzogen təsirlərə - müharibə, epidemiyalar, təbii fəlakətlər və s. qarşı müəyyən qədər sığorta rolunu oynayır. Təcrid olunmuş cəmiyyətin normal səyləri də elə daim meydana çıxan həmin çətinliklərin aradan qaldırılmasına sərf edilir. Belə etnos təcavüzkarlıqdan məhrumdur və təbiəti dəyişməyə qadir deyil. Tamamilə aydındır ki, belə etnos məskunlaşdığı bölgənin təbiətini eybəcərləşdirən sarsıntılara bais ola bilməz. Lakin tez-tez digər, bir birinin tam əksi olan toqquşmalar meydana çıxır. 1948-ci ildə F.Osborn yazırdı: “Təbii ehtiyatlardan yararlanmaq baxımından millətin (amerikalıların) keçən əsr ərzindəki tarixləri heç də təkrarsız deyil.. əslində bu, kortəbii və baxımsız enerjisinin tarixidir”.(16) Lakin etnoslararası münaqişələr baxımından da o, eynilə həmin şeydir! Hinduların qırılması, qul alveri, 1836 -1848-ci illərdə Texasın istilası, 1855-ci ildə Kanadada franko - hindu metislərin qırğını, qızıl axtaranların Kaliforniya və Alyaskaya sahib olmaları - bütün bü hadisələr kortəbii və özbaşına baş verib. ABŞ və Kanada hökumətləri artıq reallığa çevrilən faktları yalnız sonradan dəstəkləmiş və onlardan yararlanmışlar.

Ərəblərin Şərqi Afrikaya nüfuz etməsi və hollandların Kap diyarına, oradan da Narıncı çaya doğru irəliləmələri də elə həmin prinsip üzrə olmuşdur. Ruslar Sibiri, çinlilər isə Yantszı çayından cənuba doğru yerləşən əraziləri də eyni üsulla ələ keçirmişlər. Aralıq dənizi hövzəsinin ellinləşdirilməsi və vikinq yürüşləri də təsvir etdiyimiz hadisələrdən heç də fərqlənmir. Güman ki, keltlərin yürüşləri və Şimali Hindistanın arilər tərəfindən istilası da eyni səciyyəyə malik idi. Deməli, biz tez-tez təkrarlanan bir hadisə - etnosun, yaxud onun bir hissəsinin dinamik vəziyyətə keçidilə rastlaşırıq. Bu zaman onun təcavüzkarlığı və uyğunlaşma qabiliyyəti görünməmiş dərəcədə artır və bu da ona yeni, indiyədək alışmadığı yaşayış şəraitinə uyğunlaşmaq imkanı verir.

Həm təsvir edilən, həm də onlarla eyni olan hərəkətlər onların iştirakçılarından həm fiziki, həm əqli, həm də emosional sahələrdə həddən artıq nəhəng iş görmələrini tələb edir. Hər hansı bir işi yerinə yetirmək üçün isə müvafiq enerji sərf olunmalıdır ki, bu enerji də haradansa əldə olunmalıdır. Bəs, nə elektrik, nə mexaniki, nə istilik, nə də qravitasiya enerjisi olmadığı bəlli olan bu enerji nədir? Özlərini ölüm təhlükəsi qarşısında qoyan adamlar bu enerjini haradan alır? Həm də onlara belə ziyanlı bir əyləncə gərəkdirmi? Buna baxmayaraq, həmin enreji sərf edilirsə və əksər hallarda həmin insanlar qalib gəlmir, əksinə həlak olurlarsa, onda ortaya qanunauyğun bir sual çıxır: təsvir etdiyimiz hadisə təkidlə aradığımız “iks amili” ilə ilgili deyil ki? Ola bilər. Lakin əvvəlcə problemin qoyuluşunu dəqiqləşdirək.

**Antroposusseksiya**. Bir sıra tarixi hadisələrdə qeydə alınmış xüsusiyyətləri onun bütün hadisələrinə şamil etmək gərək deyil. Bu, insan fəaliyyətinin bütün təzahürlərini ictimai qaynaqlarla bağlamaq qədər yanlış olardı. “Ən möhtəşəm qayda.. qarışdırmaq yox, fərqləndirmək lazımdır, çünki müxtəlifliyin azaldılması hələ həqiqətə aparıb çıxarmır. Yeknəsəklik necə də əlverişlidir! O, hər şeyi təhrif etsə də, heç olmasa, bütün məsələləri də həll edir”. (17) Ogüsteyn Tyerri bu sözləri acı təəssüflə yazsa da, son dərəcə

haqlıdır! Yüzillik müharibə, yaxud Prussiyanın Napoleon tərəfindən istilasını təbii proseslərlə eyniləşdirmək nə qədər də gülüncdür. Bu qəbildən olan hadisələr instinktlər deyil, siyasi xadimlərin ictimai şüur tərəfindən diktə olunan şüurlu niyyətlərilə çox gözəl açıqlanır. Təsnifatın meyarı da elə budur və burada ayrıca götürülmüş bir adamın hərəkətlərinin şüurlu və təhtəlşüur şəklində psixoloji təsnifatında olduğu qədər dəqiqlik var. Burada indikator qərar qəbul edilməsindəki müstəqillik, yəni öz hərəkətlərinə görə mənəvi - hüquqi məsuliyyətdir. İnsanların əməli fəaliyyətində bu iki davranış xətti heç vaxt bir birinə qarışmır. Belə ki, gənc yaşlarında aşiq olmaq haqlı olaraq təbii bir şey sayılır, xuliqanlıq və fahişəlik isə şüurlu şəkildə edilən cinayətlər kimi cəzalandırılır; qoca yaşlarında dişlər və saçların tökülməsi insan üçün suç sayılmır, lakin onlar, məsələn, iş yerlərində fitnə - fəsadla məşğul olmağa haqq qazandırmır, hərçənd ki, sonuncunu müəyyən qədər sklerozla əsaslandırmaq mümkündür. Tarixin müxtəlif [241-242] səciyyəli hadisələrinin fərqləndirilməsinə yuxarıdakının eyni olan yanaşma elmi araşdırmada da həyata keçirilə bilər. Biz bunu artıq bir dəfə çöl bölgəsinin rütubətlilik səviyyəsindən asılı olaraq Avrasiyanın köçəri xalqlarının yerdəyişmələrinin müxtəlif səciyyəli olmasına dair fərdi nümunədə açıqlamışıq. (18) İndi isə sadəcə olaraq qeyd edirik ki, belə bir nisbət bütövlükdə Homo sapiens növü üçün xasdır.

Xalqların adət etdikləri şəraitə köçmələri özlərini etnik sistem kimi mühafizə etmək və onları qidalandıran landşaftı dağıntıdan qorumaqdır. Antroposusseksiya, yəni heç də həmişə məskunlaşmalı olmasa da, istila edilə bilən bölgələrə təcavüz isə əks yükə malik miqrasiyadır. Ən dəhşətlisi isə odur ki, qaliblər heç də məğlublardan az cəfa çəkmir, çünki müvəffəqiyyəti möhkəmləndirmək üçün onlar yeni şəraitə uyğunlaşmalıdırlar. Bu isə öz təbiətlərinin köklü şəkildə dəyişdirilməsi deməkdir. Aydın məsələdir ki, buna yalnız ən gənc, mütəhərrik, yəni qeyri - sabiq olanlar qadirdir.

Lakin proses artıq mövcud olarkən (susseksiya, yaxud təcavüz - oxucu necə istəsə) bu elementlər yalnız tabe rol oynayır. Aparıcı fərdlər üçün qanlı hadisələr zəncirinin başlanmasına rəvac vermək qeyri - məqsədəuyğun və arzuolunmazdır. Lakin hər hansı bir halda antroposusseksiyalar baş verdiyindən, görünür, onların səbətləri insan şüurunun əhatə dairəsindən kənarda yerləşir. Amma bu halda etnogenezin dinamika və statistika (sükunəti) eyni dərəcədə qanunauyğundur və onlarda günah və məsuliyyət kateqoriyaları yoxdur. Əsla yox! Bu tezis heç də hər şeyin əhfi demək deyil! Etnogenezin mərhələlərindən asılı olmayaraq, ayrı - ayrı adamlar, əlbəttə, törətdikləri cinayətlərdə suçludurlar. Lakin etnik qanunauyğunluqlar daha yüksək səviyyədə durduqlarından onlara həm böyük rəqəmlərin sükunət qanunu, həm də Nyutonun üçüncü qanunu tətbiq edilə bilər: təsir əkstəsirə bərabərdir - qaliblər məğlublarla bərabər, yaxud onlardan bir qədər sonra məhv olurlar. Lakin burada məhv olmaq fiziki yox, etnik yenidənqurma anlamındadır. Etnoslar ilanlar kimi deyil: onlar dərilərini yox, ruhlarını dəyişir.

## ÖLÜMSÜZLÜK ÖLÜMDƏN BETƏR OLURKƏN

Etnogenez etnogenezə çevrilir. Romantik və nihilistlərin beynini düşündürən - insan heyvan, yoxsa ilahi varlıqdır? Sual [242-243] ətrafında mübahisələr, xöşbəxtlikdən, artıq əhəmiyyətini itirib. Aydın olur ki, insan yalnız heyvan deyil, həm də heyvandır və bu heç də onun ləyaqətini alçatmır. Bu səbəbdən də o, kollektivlərdə - səciyyəvi birliklər olan etnoslarda yaşayır. Bizim mövzumuz üçün ən önəmlisi səciyyəvi hadisə kimi etnosun Homo sapiens növü hüdudlarında yerini açıqlamaq, etnosun nisbi sabitliyini nəyin dəstəklədiyini aydınlaşdırmaq, onun yox olma və təşəkkül səbəblərini anlamaqdır (birincisi sadə, ikincisi isə həddən artıq mürəkkəb sualdır).

Bu zaman onu da qeyd etmək lazımdır ki, məhz etnik kollektivlər bu və ya digər lokal şəraitə uyğunlaşır, inkişaf mərhələləri - formasiyalar möhtəşəmdir və onların coğrafi mühitlə əlaqəsi isə şəbəkəvari antroposfer, yəni təbiyyatçının müşahidə edə bildiyi etnosfer vasitəsilədir. Çoxsaylı hadisələrlə rastlaşan zaman biz onları oxşarlıq və səbəb ardıcıllığı prinsiplərinə əsasən qruplaşdıra, yəni tarixi materiala təbiət elmlərinin metodikasını tətbiq edə bilərik. Bu halda aşağıdakı qənaətə gəlirik: etnoslar müasirlərinin bu və ya digər təsəvvürlərinin olub olmamasından asılı olmayaraq meydana gəlir. Deməli, etnoslar insanların kollektiv fəaliyyət formaları ilə ilgili olsalar da, ayrı - ayrı adamların sosial özünüdərkinin məhsulu deyillər.. Sosial inkişaf materiyanın hərəkətinin bütün digər formalarında əks olunur, çünki onlar insanlarla ilgilidir. Lakin heç kim və heç vaxt qravitasiya və ya elektrik keçiriciliyini, epidemiyaları, ölüm və ya irsiliyi sosial baxımdan açıqlamağa cəhd gösətrməyib, çünki bunlar təbiətşünuslığa aiddir. Yuxarıda təsvir olunan "təkanlığı, həmçinin bunlara bənzər bir sıra hadisələri antropogen susseksiyalar kimi nəzərdən keçirməyə ixtiyarımız var. Bu zaman meydana çıxacaq təəccüb və şübhələri isə bir qədər sonra, onların səbəbini, yəni haqqında danışdığımız "iks amilini" aydınlaşdırdıqdan sonra açıqlayacığıq. Hələlik isə fenomenin təsvirini davam etdirək.

Son 5 min il ərzində landşaftın antropogen dəyişiklikləri dəfələrlə meydana çıxmaq, lakin müxtəlif intensivlikdə olmuş və həmişə müəyyən bölgələr hüdudunda baş vermişdir. Tarixlə tutuşdurulan zaman təbiətin antropogen dəyişməsilə yeni etnosların təşəkkül tapması dövrləri arasında səlis əlaqə aşkar olur.

Həm etnosun təşəkkülü və landşaftın onun yeni istəklərinə müvafiq şəkildə yenidən qurulması, həm də silah və əmək alətlərilə birlikdə çoxlu adamın miqrasiyası fiziki anlamda iş deməkdir. Deməli, onlar enerji sərfini tələb edir. Üstəlik, etnosun bir sistem [243-244] kimi dəstəklənməsi də onun ətrafının

göstərdiyi daimi müqaviməti aradan götürmək üçün sərf edilən enerjisiz mümkün deyil. Hətta etnosun tənəzzülü, yəni onun inkişafının səngiməsi qüvvə tətbiqi məqamı - mənfi-müsbət tezləşməni doğuran səbəblə ilgilidir.

Mənim formalaşdırdığım bu tezis (19) Y.K.Yefremov (20) və Y.V.Bromley tərəfindən dəstəklənmişdir. Sonuncu bu tezisin müəllifliyini Y.K.Yefremova aid etsə də (21), Yefremovun özünün səmimi şəxsi etirafına görə, onun bunda heç bir suçu yoxdur. Lakin ən qəribəsi budur ki, etnik proseslərdə "bioenergenetik mənbənin rolunu" qəbul edən Y.V.Bromley belə güman edir ki, bu enerji "onların (etnik birliklərin) mövcudluğunun konkret - tarixi şəraitindən asılıdır". Fikrimizcə, enerjinin itməməsi qanununun müdafiəyə ehtiyacı yoxdur və bu barədə mübahisəyə girmək mənasızdır. Lakin etnogenezin bir proses kimi baş verməsindən ötrü aparılmalı olan işin yerinə yetirilməsi üçün müəyyən enerji növünün mövcudluğunun qəbul edilməsi özü də müsbət haldır.

Enerjinin bu səciyyəvi formasının xarakteristikası V.İ.Vernadskinin gözəl əsərində verilir: "Bütün canlılar aramsız dəyişən, öz aralarında ən sıx şəkildə ilgili ən müxtəlif canlı maddələrdən ibarət, geoloji zaman ərzində təkamül prosesinə uğrayan orqanizmlər toplusudur. Bu, zaman ötdükcə sükunət halında tarazlığa keçməyə can atan özünəməxsus tarazlıqdır.. Əks istiqamətdə fəaliyyət göstərən bərabər dəyərə malik heç də bir hadisənin olmaması şəraitindəki mövcudiyyatı nə qədər uzun sürərsə, "azad enerji", yəni özünü entropiyaya əks istiqamətdə biruzə verən "canlı maddə enerjisi sıfıra bir o qədər yaxın olacaq. Çünki canlı maddənin fəaliyyəti iş yerinə yetirməyə qadir olan azad enerjinin inkişafını doğurur". (22) Deməli, etnosun quruluşu və davranış stereoitipi dinamik dəyərlərdir ki, bu da eyni dərəcədə nə sosial, nə də bioloji bənzəməyən etnosdaxili təkamülün mövcudluğu ilə təyin olunur.

Bu qənaəti etnologiya dilinə çevirərkən göstərmək olar ki, bütün etnosların qisməti etnolandşaft tarazlığına tədrici keçiddir. Sonuncu isə etnik kollektivin, məsələn qəbilənin bu və ya digər bölgənin biosenozuna daxil olduğu və bioxorun imkanları ilə məhdudlaşan əhali artımının başa çatdığı vəziyyəti nəzərdə tutur. Etnoslar göstərilən baxımdan geobiokimyada da öz yerlərini tutur: etnosun sabit vəziyyəti - bu halda təbii mühitdən alınan bütün enerji bütövlükdə sisitem daxilindəki proseslərin dəstəklənməsinə sərf olunur və kənara ötürmə sıfıra yaxın olur; dinamik hal qəfildən [244-245] yaranan külli miqdarda enerji udmaq və onu iş şəklində etnik sistemin hüdudlarından kənara ötürmək qabiliyyəti. Bu, etnogen əlamətin böyük miqdarda enerji udmaq və onu məqsədyönlü şəkildə iş şəklində ötürmək qabiliyyətinin tədricən itirilməsini şərtləndirir və etnosun quruluşunun sadələşməsilə müşayiət olunur.

Lakin hər bir qalıq (persistent) etnos vaxtilə formalaşdığı, deməli, inkişafının dinamik mərhələsini yaşadığı üçün mövcuddur. Deməli, o, bir tərəfdən, baş vermiş prosesin kristallaşmış forması, digər tərəfdən isə yeni etnoslar yaranması üçün substaratdır. Dinamik halda olduğu müddət ərzində hər hansı etnos yalnız ələ keçirdiyi bölgələrin təbiətinin deyil, öz fiziologiya və etologiyasının (davranış) çox ağrılı dağıdılma prosesində iştirak edir və bu öz əksini onun orqanizminin yeni şəraitə uyğunlaşdırılmasında tapır. Lakin yeni dinamik hala keçidlə ilgili dağıntı heç də həmişə mümkün olmur. Artıq gördüyümüz kimi, onlar nisbətən az-az baş verən xalqların kortəbii köçmə dövrlərində baş verir, bundan sonra isə uzun müddət etnoqrafik xəritələrdə qeydə alınan ənənəvi sistem bərqərar olur.

Beləliklə, Homo sapiens növü daxilində bioloji təkamül qalmaqdadır, lakin o digər heyvan növlərinə xas olmayan cizgilər kəsb edir. Filogenez etnogenezə çevrilir.

**Təkamül və etnogenez**. Əlbəttə, etnogenezi filogenezə bərabər tutmaq lazım deyil, çünki yeni etnoslar növün hüdudlarında qalır. Qeyd etdiyimiz analogiya (bənzətmə) prinsipə dolğun deyil və bunun sayəsində makro və mikrotəkamül prosesləri arasındakı fərqləri açıqlayır. Lakin müasir insanın bioloji təkamülünün mövcudluğunu qəbul edən etnoloq, Qərbdəki müasirlərimizin insanın bütün görünüşünü dəyişməli olan kafa beyninin məqsədyönlü inkişafı haqqında proqnozları ilə razılaşa bilməz.

Yeni hominid növünün - Homo sapienttissimus - portretini yaradan C.Holden (23), güman ki, gələcəkdə yalnız və yalnız tərəqqi görmək istəyən auditoryasının zövqlərini əsas tutmuşdu. Lakin məhz belə olsaydı, onda 2-5 min il bundan əvvəl yaşamış adamlarla bizim aramızda nəzərə çarpan somatik fərqlər olardı. Q.F.Debetsin kəşf etdiyi qratsiallaşdırmanı xatırlamaq mümkündür. Lakin irqlərin dəyişkənliyinin tərəfdarı olan Q.F.Debets də bildirdi ki: "Ayrı-ayrı "bəsit" və "mütərəqqi" əlamətlərə bütün irqlərdə rast olunur, lakin əgər onları qabaqcadan "damğa" vurulmasa, heç biri "bəsit", yaxud "mütərəqqi" əlamətlər kompleksilə fərqlənmir. Meyar kimi antropoid meymununun və ya [245-246] heç olmasa, neondertal adamın kafasının primitivliyi qəbul edilərsə, onda Rusiya düzənliyinin eneolit dövrünün protoavropa tipi əlamətlər məcmusuna görə heç də qədim slavyanlar, yaxud müasir ukraynalılardan primitiv olmayacaq". (24)

Həqiqətən, bəşəriyyətin inkişafı arealın genişlənməsi və növdaxili variasiyaların, yəni etnosların sayının artırılması xəttilə getmişdir. Sonuncuların bir qismi xələfləri üçün maddi və ədəbi abidələr qoyub gedərək məhv olur, bir qismi heç bir iz qoymadan yox olur. Lakin elə bir hal olmayıb ki, yaranan şəraitdən asılı olmayaraq, vahid davranış stereotipinə malik populyasiyanın təhtəlşüur hərəkətləri öz təbiətinin məqsədyönlü şəkildə dəyişdirilməsinə aparsın.

Demə, bəzi hallarda insanlar şərəfli ölümü həyatlarını qorumaq naminə könüllü şəkildə özlərini eybəcərləşdirməkdən üstün tuturlar, çünki sonuncu halda həyat onlar üçün bütün cazibəsini itirir.

Növdaxili psixoloji stereoitipin bu xüsusiyyəti lokal proses kimi etnogenezin imkanlarını məhdudlaşdırır və etnogenezlə təkamülün analogiyasını şübhə altına alır.

Nə qədər qəribə olsa da, bu qənaət ardıcıl və doğrudur, çünki sosial formalar kəsb edən etnos təbii fenomen olmayan siyasi institutlar yaradır. Romalılar senat, konsulluq, tribunluq və hüquq sistemi; türklər VI əsrdə tayfa ittifaqları və hərbi birliklərin (orda) qovuşduğu kimi el; inklər hindu qəbilələrinin əsarətə salınmasının mürəkkəb konstruksiyasını və özlərinin iyerarxiyalarını yaratdılar. Lakin bütün bu institutlar insan fəaliyyətinin məhsulu idi və bu baxımdan, möhtəşəm məbəd və saraylara, əmək alətləri və geyim əşyalarına bənzəyirlər. Bir qədər əvvəldə artıq göstərmişdik ki, özünüinkişafdan məhrum olduqları üçün bunların hamısı yalnız zamanın təsiri altında dağılmağa qabildir.

İnsan dühası və zəhmətilə yaranan formalar əşyaların yox olmasının qarşısını alsa da, kifayət qədər güclü olan hər hansı bir kənar təsir formanı sındırmaq və onun tərkibini parçalanmaya məhkum etməklə nəticələnə bilər. Belə bir faciə baş verdikdən və onun ardınca dərhal regenerasiya gəlmədikdə isə, etnos qrobiosenozun tərkib hissəsi olan amorf populyasiyaya çevrilir. Onu düşdüyü çıxılmaz vəziyyətdən qurtulmağa, qonşularla qarışmağı və yeni etnik dominat bəyan etməyə qadir qüvvə isə yeni etnogenez partlayışıdır. Lakin bu halda artıq etnos meydana çıxacaq. [246-247]

Yaradıcılıq, yoxsa həyat? İlk nəzərdə, bu sərbəst qənaət öz pessimizmilə dəhşətə gətirsə də, bu yalnız ilk təəssüratdır. Gəlin, bir düşünək - insanlara “tanrısız, inamsız, məhəbbət, göz yaşları və həyat olmayan” əbədi “sürünmək” gərəkdirmi?

Məgər insanlara xas olan ən yaxşı xassə yaradıcılıq qabiliyyəti deyilmi? Lakin o, insan orqanizminin həyati enerjisinin əvəzi ödənilməyən sərfinə səbəb olur. Əgər söhbət ali dərəcəyə mənsub sistem olan etnosdan gedirsə, burada da eyni qanunauyğunluq qüvvədədir. Qüvvətli düşmən üzərində müstəqillik uğrunda aparılan, yaxud istilaçı müharibədə əldə olunan qələbə bir çox qəhrəmanların həyati və təbiətin onlara bəxş etdiyi genlər bahasına başa gəlir. Lakin mənfur qul vəziyyətini belə qurbaqlardan üstün tutmağına dəyərmi? Landşaftın dəyişdirilməsi, yeni ölkələrin, bizim dövrümüzdə isə yeni planetlərin kəşfi, laboratoriya və ya kitabxanada yalnız vəzifə borcuna görə deyil, vicdana görə üzücü iş insanları ailələrindən uzaqlaşdırır, bəzən isə ümumiyyətlə ailə qurulmasına mane olur. Lakin biz Kolumb və Magellan, Prjevalski və Livinqston, Evarist Qalua və Anri Puankare, Ogüsteyn və Dmitri İvanoviç Mendeleyev kimi özlərini bütövlüklə sevimli məşğuliyyətlərinə həsr edilmiş adamların xatirəsini əziz tuturuq. Bəs, rəssamlar? Rembrandt və Van Qoq, Andrey Rublyov və Mixail vrubel! Bura şair və bəstəkarları da əlavə edin. Vətən uğrunda döyüşmüş qəhrəmanları isə heç sadalamağına dəyməz, çünki belə örnəklər hamıya bəllidir. Onlardan bir çoxu genofondda iz qoymasa da, bu gün də xələflərini heyran edən mədəniyyət abidələri onların bu fədakarlığı üzərində ucalır.

Lakin bu cür adamların bir qisminin ailəsi olmuş, amma övladları valideynlərindəki istedadlı nümayiş etdirməmişdi. Bu, bizim gəldiyimiz qənaətə zidd deyilmi? Aydınlaşdıraq.

Özü özlüyündə istedad hələ hər şey demək deyil. Xarüqələr yaratmaq üçün insanları ideallara (real və ya xəyali) fədakarcasına xidmətə təhrik edən fitil lazımdır və məhz həmin fitil, güman ki, [247-248] sessiv (çünki heç də həmişə ötürülmür) bir əlamət kimi nəzərdən keçirilə bilər. Təsvir etdiymiz xarakterli fərdlərin hərəsinin yüz övladı, bəlkə də bu halda faiz hesablamaq, bununla də əlamətin ötürülməsi ehtimalını təxmin etmək mümkün olardı. Lakin təəssüflər olsun ki, noxud və milçəklər üçün yarayan araşdırma üsulları insana tətbiq edilə bilməz. Tarix isə müxtəlif etnosların müxtəlif, lakin ciddi şəkildə dəqiqləşdirilən müddətlər ərzində fəaliyyətlərinin səciyyəsini ümumiləşdirən materiala malikdir. Etnik tarix və müxtəlif etnogenezlərin araşdırılması aşağıdakı qarşılıqlı asılılığı aşkar etməyə imkan verir: etnogenezin intensivliyi sistemin mövcud olduğu müddətlə tərs mütənasibdir. Lakin bununla yanaşı, etnik sistem sonsuz mövcud ola bilməz.

Birincisi, kədərli mövcudiyyatın yeknəsəkliyi insanların həyatsevərliyini o qədər zəiflədir ki, əmələ gəlmiş mənəvi boşluğu doldurmaq üçün narkotik maddələrə və ən iyrənc pozğunluğa meyl yaranır. Bu isə bir sistem kimi etnosu həmişə qüvvədən salır. İkincisi, ekstremal genotipləri öz həyatından rədd edən etnos rəngarəngliyin azalması nəticəsində sadələşir ki, bu da öz növbəsində, bütövlükdə etnik kollektivin rezistentliyini zəiflədir. Dinc şəraitdə bu bir o qədər də hiss olunmasa da, bioloji mühit, əsasən, qonşularla toqquşmalar zamanı ixtisaslaşmış və fədakarlığa hazır elementlərin olmaması son dərəcə ağrılı şəkildə hiss edilir. Etnosun “özünümühafizə instinktinə əsaslanaraq irəli gedən fərdləri əqli baxımdan məhdudlaşdırmağa və onları ümumən səviyyəsinə endirməyə” can atdığını güman edən S.M.Şirokoqov kimi (25) bu prosesi şüurlu saymaq, çətin ki, düzgün olar.

Heç bir etnos düşünən və döyüşkən adamların məhvi haqqında şüurlu qərar verməyib. Onlar iştirakçılarının iradəsindən kənar olan hadisələrin məntiqinə müvafiq olaraq həlak olurdular. İmperatorların hökmranlığı altında olan Romada da elə belə idi - əsgər qiyamları zamanı onların qurbanları ən intizamlı senturionlar olur, bundan sonra isə başçısız qalan legionçuları barbarlar asanlıqla məğlub edirdilər. 1204-1453-cü illərdə əhalinin qala [248-249] divarlarına qalxaraq, öz evlərini müdafiə etməkdən imtina etdiyi və cəsur döyüşçülərin həlak olmasına biganə qaldıqları Bizansda, əhalinin də, hökumətin də curcenlər və monqollara təslim olduqları XII-XIII əsrlər Çinində də belə idi. Lakin, axı, bu hal yalnız tənəzzül dövrlərində baş verir ki, bu zaman tarixi hadisələrin məntiqinin vektoru bioloji cırlaşma və sosial böhranlarla üst-üstə düşür. Hər bir etnogenez isə sistemin məhvi ilə bitdiyindən, teleoloji prinsip də cəfəngiyyat kimi görünür. Özünün dəhşətli həlakın can atmaq mümkün olan şeydirmi? Yalnız mərdliklə onun qaçılmaz olduğunu qəbul etmək olar.

Beləliklə, təkamülün nə darvinpərəst, nə də antidarvin, nə də ki, ən yeni sintetik nəzəriyyələri etnogenezi açıqlamaq üçün yaramır. Bu, təbii haldır, çünki etnologiya bioloji deyil, coğrafi elmdir və deməli, onun öz özünəməxsusluğu var. Hərçənd ki, bu özünəməxsusluq yeni orqanizmlərin və onların yaşadıqları mühitin davranışı ilə ilgilidir.

**S.İ.Korjinskinin fikirləri**. Amma hər halda, bizim sület üçün yararlı olan bir konsepsiya mövcuddur. Təbii ki, düzəlişlər və ayrı-ayrı tezislərin təəssübkeşliyindən uzaq olmaq şərtilə.

1899-cu ildə S.İ.Korjinski Peterburqda "Hetepogenezis və təkamül" adlı kitabını nəşr etdirdi. Onun fikrincə, yaşamaq uğrunda mübarizə və təbii seçim yeni formaların yaranmasını məhdudlaşdıran və variasiyalar toplanmasının qarşısını alan amillərdir, çnki orta tiplərin ömrünün uzadılmasına, yəni status quo dəstəklənməsinə yardımçı oluralar. Yeni formaların meydana çıxması bu və ya digər coğrafi bölgədə baş evrən tək-tək sıərayış variasiyaları"nın nəticəsidir. təkamül prosesi yeni irqlə onun soy başı arasında cinsi sədd (cütləşmə) əmələ gəlməsinə və yeni heterogen variasiyaların yaranmasına gətirib çıxarır. (26)

Yeni coğrafi irqin meydana çıxması aşağıdakı şəkildə təsvir edilir: "Hər hansı bir növ, yaxud irqin normal nümayəndələrindən törəmiş və eyni şəraitdə inkişaf edən xələflər arasında qəfildən həm öz nəslinin başqa nümayəndələrindən, həm də valideynlərindən ay [249-250] və ya çox dərəcədə fərqlənən ayrı-ayrı fərqlər meydana çıxır. Bəzən bu sapınmalar kifayət qədər əhəmiyyətli olur və bir sıra əlamətlərlə ifadə edilir, əksinə hallarda isə çox az, hətta bircə fərqlə məhdudlaşır. Lakin əlamətdar haldır ki, bu əlamətlər çox böyük sabitliyə malikdir və nəsildən nəslə irsən ötürülür. Beləcə, dərhal ən qədim dövrlərdən bəri mövcud olan irqlər qədər möhvə sabit bir irq meydana çıxır". (səh 12)

Görünür, S.İ.Korjinskinin mülahizəsinin irq və növyaranmaya aid olaraq, məqsədəuyğunluq problemindən yan keçdiyini, növyaranma ilə adaptasiogenez arasındakı əlaqə məsələsini qaldırmadığını qeyd edən K.M.Zavadski haqlıdır. Deməli, bu fərziyyənin məqsədəuyğun əlamətlər yaranması kimi anlaşılan təkamülə birbaşa aidiyyatı yoxdur. (27)

S.İ.Korjinskinin növlərin yaranmasına dair qənaətlərinin nə dərəcədə düzgün olmasını dəyərləndirmək fikrində deyiləm. Lakin söhbət neçə pillə aşağıda yerləşən bir proses olan etnogenez haqqında gedərsə, onları bütövlükdə tətbiq etmək mümkündür: etnosların yaranması prosesləri təkamül prosesləri deyil. Etnogenezin antropogenezin təfavütü də bundadır.

**Eksses və etnogenezdə ətalət**. Heterogenez konsepsiyası etnogenetik proseslərin xarakterinə dair demək olar ki, bütün anlaşılmazlıqları aradan qaldırır. Təbii seçim etnik sistemi sabitləşdirir ki, bu da mütləq onun sadələşməsinə gətirib çıxarır. Bu isə öz növbəsində, eksses, yəni vaxtaşırı baş verərək, etnosun yaranması ilə ilgili energetik səviyyənin dəyişməsinin təbii axarını pozan təkan-mikromutasiya konsepsiyasının qəbul olunmasının zəruriliyinə dəlalət edir.

Axı, təsvir edilən proseslər eyni dərəcədə qüdrətli, lakin əks işarəli proseslərlə tarazlaşdırılmasaydı, yeni etnoslar da yaranmazdı. Bu halda bəşəriyyət hələ paleolit dövründə bir birinə bənzəyən və bir iqlim qurşağında məskunlaşan amorf antropoid kütləsinə çevrilərdi. Bu ikiayaqlı yırtıcılar çox ləng artardı, çünki bütün digər heyvanlar kimi, onları da qidanın miqdarı [250-251] məhdudlaşdırardı. Zəkaya da ehtiyacları olmazdı, çünki adət etdikləri şəraitə uüğunlaşmanın maksimumuna çatdıqda, dəyişikliklərə ehtiyac duymayacaqdılar. Bir sözlə, onlar hamısı müasir təcrid olmuş persistentlər kimi ömür sürərdi.

Əslində isə vaxtaşırı olaraq etnogenez partlayışları baş verir ki, bunlar da arealın genişlənməsinə və "bəşəriyyət" adlanan hipersistemin bir çox elementlərinin yenidən paylanmasına səbəb olur. Artıq bir qədər

əvvəl deyildiyi kimi, bu partlayışlar sosial inkişafla izah oluna bilmir, çünki onlar heç də təkamülə istiqamətlənməyib və formasiyaların əvəzlənməsilə o qdər istisna hallarda üst-üstə düşürlər ki, belə hallara təsadüf kimi yanaşmaq lazımdır. Deməli, Homo sapiens növünün bioloji təkamülü konsepsiyasına qayıtmaq gərəkdir. Belə bir fikir formalaşıb ki, yuxarı paleolit dövründə həqiqi insan cəmiyyəti təşəkkül tapandan sonra, "bir növyaradıcı qüvvə kimi seçim aradan çıxdı" və "nitq və təfəkkürün yüksək inkişaf səviyyəsilə müqayisədə Homo sapiensin digər xüsusiyyətləri həlledici əhəmiyyətə malik deyildi, baxmayaraq ki, əlbəttə, tamamilə əhəmiyyətsizləşməmişdilər". (28) sonuncu haşiyə artıq kifayətdir.

İnsanın fiziologiya və anatomiyasını dəyişməyən, yalnız davranış stereotipini təhrif edən ekssesin meydana gəlməsi üçün o, bir o qədər də güclü olmalıdır. Hətta əksinə. Yalnız ekses coğrafi, fizioloji və sosial fona toxunmaz və bu halda fon üzərində yeni psixoloji əhvar-ruhiyyənin cizgiləri dəqiq əks olunur. Həmin eksses, yaxud təkanın baisi isə daha əvvəllər adını artıq bir neçə çəkdiyimiz "iks amili" ola bilər.

## XXI. ZİDDİYYƏTLƏRİN (ƏKSLİKLƏRİN) MƏCMUSU

Cavab hələlik tapılmayıb. Etnik hadisələrin məğzinin ziddiyyətsiz açıqlamasını tapmaq məqsədilə müxtəlif elmlərə üz tutsaq da, hər dəfə aldığımız cavablar tam qənaətbəxş olmayıb. Demək olmaz ki, bu cavablar bizə lazım deyil, əksinə, onlar zəruridir. Lakin hər dəfə etnogenezin həqiq səbəbi yox, bu və ya [251-252] digər şərtləri işıqlandırılırdı. Məsələnin şərtinə görə isə həmin səbəb invariant, yəni daim mövcud olan olmalı və hadisələrə birmənalı təsir göstərməli idi. Fikrimi açıqlayıram.

Etnosların ekzohamiya və ya assimilyasiya yolu ilə irqi, yaxud irqdaxili sapınması bəzən yeni etnoslar doğurur, bəzən geri - ilkin formalara doğru aparır, bəzən is populyasiyanın cırlaşmasına, hətta məhvinə səbəb olur. Görünür ki, bu proseslər də eyni zamanda nəticələri köklü şəkildə sapındıran nəzərə alınmayan bir əlaəmt də iştirak edir.

Endohamiya vasitəsilə həyata keçirilən təcridolma çox zaman etnosları qoruyub saxlasa da, bəzən onları o qədər zəiflədir ki, həm təbii, həm də etnik mühitə qarşı müqavimətlərini itirirlər. Bu halda qonşuları tərəfindən sıxışdırılıb çıxarılan, yaxud məhv edilən etnos da yox olur.

Müxtəlif səciyyəli landşaft şəraitində uyğunlaşma etnik divergensiyaya bəzən apara, bəzən də aparmaya bilər. Hətta müxtəlif iqlim bölgələrində belə, etnos monolit qala bilər. Təbii ki, şəbəkəvariliyin müvafiq səviyyəsində.

Və əksinə. Miqrasiyalar nəticəsində iki-üç etnosun gəli çıxdığı ərazinin landşaft şəraitinin oxşarlığı bəzən qarşılıqlı assimilyasiya doğurur, bəzən isə etnoslar bir birinə qarışmadan yanaşı yaşayır. Aydındır ki, səbəb bölgənin təbiətində deyil, etnosların özündədir və o, aşkar edilib açıqlanmalıdır.

İki və daha artıq landşaftın uyüşması lokal etnogenetik prosesin başlanması üçün məcburi şərt olsa da, təkcə o kifayət etmir. Təsvir olunan şəraitdə etnoslar heç də həmişə yaranmır. Deməli, əlavə amil araşdırılmalıdır.

Vahid mədəniyyət tipinin, məsələn, dini sistemin yayılması bəzən etnosların qovuşmasına aparıb çıxarır, bəzən isə yeni xəlb olunanların etnik inkişafının müstəqilliyinə zərrə qədər təsir göstərmir.Eynilə maddi mədəniyyətlərin oxşarlığı ya xalqları yaxınlaşdırılır, ya onları rəqabətə sövq edir, ya da onların qarşılıqlı münasibətlərinə heç bir aidiyyatı olmur. Mədəni tiplərin [252-253] fərqləndirilməsi barədə də eyni şeyi söyləmək gərəkdir. Yeni təriqət, yaxud təlim meydana çıxarkən onun tərəfdarları bəzən xüsusi etnos şəklində fərqlənir, bəzən isə öz etiqadlarını saxlamaqla köhnənin tərkibində qalırlar. Dözülməzlik heç də bütün dövrlər və bütün xalqlar üçün səciyyəli deyil.

Sosial şəraitin oxşarlığı etnosların assimilyamiyasını müşayət edə bilsə də, bu, məcburi deyil. Tez-tez elə olur ki, bir etnosda adamların bir qismi qəbilə, digəri feodalizm, bir qrupu isə hətta kapitalist münasibətləri şəraitində yaşayır. Bu artıq məlum hadisədir və "çoxukladlılıq" adlanır. Bəlkə, ümumbəşəri tarixi proses möhtəşəm etnik bütövlərin yaranmasına aparıb çıxarır? Bəzən belə də olur, bəzər isə etnosun iki-üç hissəyə parçalanması baş verir ki,bunlardan da ya miqrasiya edən, ya da eyni ərazidə yanaşı yaşayan etnoslar tbrəyir. Yenə də qanunauyğunluq deyil, mümkünlük, təxmin.

Lakin burada sadalanan mümkün istiqamətlər bu və ya digər etnos hüdudlarında etnogenezin cərəyan etməsi üçün hər halda müəyyən əhəmiyyət malik olduqlarından, görünür, onları nəzərə almaq daha doğru olar. Lakin amillər kimi deyil, parametrlər kimi, çünki bütün etnogenezlər üçün vahid olan şəqiq "iks amilin" yalnız lokal variasiyaları istisna etmək yolu ilə aşkar etmək mümkündür. Bu isə bütün anlaşılmazlıqları həllə etmək üçündür.

**Etnogenez və enerji**. İstənilən etnoslar üçün ümumi olan cəhətlər aşağıdakılardır: 1) özünü bütün başqalarına qarşı qoyma, deməli - özünütəsdiq; 2) şəbəkəvarilik, daha doğrusu - sistem əlaqələri vasitəsilə möhkəm bağlılığa əsaslanan sonsuzbölünmə; 3) ilk andan başlamış, akmatik mərşələdən keçməklə səpələmə, yaxud qalığa çevrilməyə qədər davam edən prosesin eyni şəkililiyi. Etnosun nə "amorf hal", nə "sosial kateqoriya", nə də "dil, iqtisadiyyat, ərazi və psixoloji tərz ortaqlığı kompleksi" dyeil, etnogenez prosesinin mərhələsi olduğunu bildiyimizdən, məsəln həlli də məhz üçüncü məcburi (mütləq) xüsusiyyətdədir.

Artıq öz özünə ortaya çıxan qənaəti ifadə edək. Həm başlanğıc anı, həm akmatik mərhələyə yetişmək, həm də regenerasiya üçün yeni yaranan populyasiya həddən artıq böyük gərginliklərə duruş gətirmək qabiliyyətinə malik olmalıdır. Sonuncular isə özünü təbiətin dəyişdirilməsində, miqrasiyalarda və i.a. büruzə verir. Aradığımız "iks amili" də elə budur! Bizə məlum olan etnosların demək olar ki, hamısı özünəməxsus konstruksiyalar - superetnik bütövlərdə qruplaşıb. Etnosların yayılması onların [253-254] yaranma məkanları, miqrasiyalar, təbii fəlakətlər və qonşularla mübarizələrdəki qələbə və məğlubiyyətlərlə ilgilidir. Məhv olmamaq üçün isə adi səylər kifayət etmir. Mühitin hər hansı bir aqreqat halı ətalətlidir və onu pozmaq üçün əritmə və ya buxaryaratmadakı "gizli istiliyin" eyni olan əlavə enerji sərfi tələb olunur. Lakin həddən artıq böyük səy göstərildikdən sonra ətalət prosesi başlanır və bu proses yalnız mühitin müqaviməti nəticəsində səngiyir.

Bizə iki etnik "hal" məlumdur: homeostatik - burada həyati dövriyyə nəsillərdə təkrarlanır; dinamik - burada etnos artıq sadaladığımız inkişaf mərhələlərindən keçir, son həddi isə homeostaz olur. Hər iki halda hərəkət müşahidə olunsa da, birinci halda bu hərəkəti məcazi şəkildə fırlanma, ikincidə isə titrəyiş kimi adlandırmaq olar. Həm də ikincinin intensivliyi amplituda (titrəyişlərin tezliyi - tər.) ilə dəyərləndirilir. Srsial tərəqqi irəliyə hərəkət olsa da, biz artıq onun etnogenezdən fərqini göstərmişik.

Hərəkət edən nədir? - sualına cavab veririk: Yerin biosferinin tərkibində olan etnik sistem. Hara hərəkət edir? - sualını cavablandırırıq: heç bir yerə, çünki titrəyişli hərəkət zamanı "irəli" və "geri" anlamları tətbiq oluna bilməz. (29) Etnogenez üçün araşdırmanı xeyli yüngülləşdirə bilən riyazi ifadə tapmaq mümkündürmü? sualına qısaca cavab vermək mümkün deyil. Bir qədər geniş açıqlamağa xəhd göstərək.

Etnoloji problemlərlə ilgili hər hansı bir məsələnin qoyuluşu zamanı rast olduğumuz çətinliklər bir o qədər də aydın ifadə olunmayan hər hansı bir texniki məsələni müasir hesbalama texnikası vasitələrinin yardımı ilə həll etməyə xəhd göstərəcəyimiz təqdirdə üzləşəcəyimiz çətinliklərin eynidir. Hər iki halda rəqəmlərdən istifadəyə əsaslanan metodlar yaramır. Lakin hər iki halda məlum modelləşdirmə üsullarını tətbiq etməklə məsələni həll etmək mümkündür. Prosesin bizim ona baxışlarımızın məcmusunu əks etdirən modeli yaradılır və onu həqiqi fəaktlar əsasında düzəlişlər edilir. Sonra bu modeldən həm qalan külli miqdarda fakt və hadisələrin eyniləşdirilməsi, həm də prosesin gələcək, yaxud keçmişdə bizə məlum olamayan halının səciyyələri barədə proqnozdaşdırıcı rəy üçün istifadə edilir. Məqsədyönlü şəkildə aparılan araşdırmalarsayəsində aşkarlanan hər bir yeni amilə (həqiqətəbənzər həll məlumdur) təsdiqlənən və evristik dəyərləndirmə əsasında doğruluğunu qəbul etdiyimiz hər bir həll modeli dəqiqləşdirir və inkişaf etdirir. [254-255 ]

Nəhayət, bizə məlumdur ki, hazırda mövcud olan etnosların hamsı nisbətən yaxın dövrlərin məhsuludur, qədimdəkilərdən yalnız qalıq etnoslar salamat qalıb, ən ilk etnoslardan isə heç biri dövrümüzə qədər gəlib çıxmayıb. Bu onu göstərir ki, sərt tipli sistemlər doğuran sosiogenezlə korrelyasiya etsə də, etnogenez də digər təbii hadisələr kimi daim cərəyan edən bir prosesdir.

Biz artıq qeyd etmişdik ki, bu və ya digər tipli sistemdə hər hansı bir yenidənqurma müəyyən iş görülməsini, yəni enerji sərfini tələb edir. Təbii ki, nə elektromaqnit, nə istilik, nə qravitasiya (cazibə), nə də sırf mexaniki enerji deyil. Təbii mühitin müqaviməti nəticəsində səngiyən antropogen susseksiyalar da bu enerjinin təkan və partlayışları ilə şərtlənir. (30)

**Etnik tarixin diskretliyi**. Hələ qədim dövr tarixçiləri tarixin bir sıra proseslərinin diskretliyini qeyd edirdilər. Sima Tsyan bu qanunu son dərəcə lakonik şəkildə ifadə etmişdir: "Üç çarlığın yolu başa çatdı və yenidən başladı". (31) Bu ideya İbn Haldun və Cambattista Vikodan başlamış, O.Şrenqler və A.Toynbiyədək bir çox tarixçilərdə var. O, bəşəriyyətin sosial tarixinə tətbiqən edildiyi halda doğru deyil, ayrı-ayrı dövlətlərin tarixinin araşdırılmasına tətbiq edildikdə isə qeyri-dəqiqdir. Lakin etnogenez prosesləri araşdırılarkən tətbiq edilə bilər. Təbii ki, əsaslı düzəlişlərlə.

Birincisi, "son" heç də həmişə "başlanğıcın" meydana gəlməsindən xəbər vermir. Etnoslar və superetnik mədəniyyətlər heç də həmişə əvvəlki inkişaf sikli başa çatan zaman təşəkkül tapmır. Bəzən bundan sonra kifayət qədər uzun bir müddət keçir. Ciddi ritm axtarıb tapmaq istəyi faktlarla təsdiqlənmir. Belə ki, Bizans etnosu ellin - roma etnosunun çiçəklənməsi dövründə təşəkkül tapmış və bir neçə əsr ərzində onlar yanaşı mövcud olmuşlar. Həm Bizans, həm də roman - german superetnoslarını sıxışdıran müsəlman superetnosu, eyni zamanda, orta İran etnosu (Sasanilər İranı və Soqdiana) da öz tərkibində həll etdi. Xunlarla türklər və türklərlə monqollar arasında isə uzun əsrlər sürən durğunluq dövrü var ki, bu zaman çöldə qalıq etnoslar məskunlaşmışdı. Görünür, məsələ daha mürəkkəbdir, yaxud (bu daha dotru olar) etnogenezin səbəbləri heç də etnoslar tarixinin ritmlərində deyil.

İkincisi, prosesin yüksəliş, çiçəklənmə və tənəzzül kimi qəbul edilmiş adi bölgüsü sadə bir suala cavab vermir: nəyin yüksəliş, yaxud tənəzzülü? Həyat səviyyəsi bu mərhələlərdən asılı olmayaraq dəyişir, mədəniyyətlərin çiçəklənməsi əlverişli iqtisadi və ya siyasi [255-256] vəziyyətlə üst-üstə düşmür, dövlətin qüdrəti heç də həmişə yaşayışın asanlığının göstəricisi deyil: Napoleonun hakimiyyəti dövründə fransızların vəziyyəti çox ağır idi- qənd, kofe, yun parçalar tapılmırdı. Bir sözlə, keyfəyyət dəyərləndirmələri qaçılmaz şəkildə qərəzlidir və etnogenezin də aid olduğu təbiət hadisələrinin təsviri zaman nəzərə alına bilməz.

Nəhayət, həm ayrıca götürülmüş bir adamda, həm də ictimai kollektivdə sosial və bioloji olanlar arasında sərhəd haradadır? O, bir tərəfdən, insan bədəninin daxilində, digər tərəfdən isə ondan çox uzaqda yerləşir. Anatomiya, fiziologiya, refleksologiya, genetik kod - bütün bunlar sosial deyil, bioloji, biokimyəvi, hətta biofizikidir. Əksinə, dövlət münasibətlərinin inkişafı xarakteri, siyasi tələbatlar, etnik və estetik ideallar bioloji və ya coğrafi amillərə aid edilə bilməsələr də, ictimai inkişafın məhsullarıdır. İnkişafın bu iki xəttinin araşdırılmasının əlaqələndirilməsi ayrı-ayrı etnosların tarixini bərpa etmək imkanı yaradır, landşaftlar və mədəniyyət tarixi də əlavə olunduqda isə, bu artıq etnik tarix olur.

Bəs, "iks amili" hanı? İndi artıq etnogenez hadisəsi müxtəlif baxımlardan təsvir olunduğundan, "bu ətalət proseslərinin yaranmasının səbəbi nədir?" sualını vermək olar. Heç bir hərəkət qüvvə tətbiq etmədən baş verə bilmədiyindən, güman ki, enerjinin bilavasitə insanların davranışına təsir göstərən növünü və həmin enerjinin insan psixikasında aşkarlana bilən təsirini aramaq gərəkdir. Bu, bütün orqanizmlərə xas olan şəxsi və hətta növ özünüqoruma instinktini üstələmək üçün kifayət edəcək qədər qüvvətli impuls olmalıdır.  Başqa sözlə, o, hətta öz övladlarına da şamil edilən fədakarlıq kimi ifadə olunur ki, heç bir başqa heyvan növünə belə bir şey xas deyil. Lakin əvəzində heyvanlarda etnoslar da yoxdur; onların birlikləri materiyanın hərəkətinin ictiami formasından və öz-özünə inkişaf edən institutlardan məhrumdur. Deməli, bizi maraqlandıran  "iks amili" insan psixikası çərçivəsində əks olunur. (32)

Etnosu doğuran və dağıdan amili alarkən yadda saxlamaq lazımdır ki, o aşağıdakı fondlarda fəaliyyət göstərir: 1) dəyişən coğrafi mühit; 2) ictimai inkişafın təkamül prosesləri; 3) tarixi keşməkeşlər; 4) mədəniyyətin yüksəlməsi, yaxud tənəzzülü. Təbii ki, sadalananlardan hər hansı birinin araşdırılması zaman fon təşkil edənlər sırasında etnogenez də düşür. Deməli, istənilən problemin həllinin, yəni elmi sintezin açarı elmlərin məcmusu deyil, onların qarşıya qoyulmuş vəzifə tərəfindən müəyyənləşdirilən sistemidir. [256-257] Məhz bu səbəbdən əsas süjetdən əvvəl etnos fenomeninin, onun cəmiyyət və qədim keçmişdən miras qalan mədəni ənənələrlə qarşılıqlı təmaslarına dair uzun uzadı təsvir verilib.

Tamamilə aydındır ki, bu "iks amili"ni tək-tək adamların davranışının araşdırılması aşkar etmək cəhdlərinin hamısı uğursuzluğa məhkumdur. Ayrıca götürülən hallarda, ilk növbədə, fərdi və təsadüfini ümumnöv və qanunauyğun olanlardan fərqləndirmək imkanından məhrmuq. Lakin böyük rəqəmlərin ətalət qanun qüvvəyə minən kimi, qanunauyğunluqdan kiçik sapmalar bir birini qarşılıqlı şəkildə tamlaşdırır və ümumi mənzərəni heç də təhrif etməyən müsbət -mənfi sapmalara malik əlaqə sistemləri üzə çıxır. Lakin ayrıca götürülmüş örnəklərdə prinsipin açıqlanması üçün zəruri olan əyanilik olduğundan, biz də onlara qarşı etinasız qalmayağağıq. Lakin yadda saxlamaq lazımdır ki, örnəklər nə qədər gərəkli olsalar da, mənanı əvəz etmirlər.

**Klio Saturna qarşı**.  İndi isə tarix barəsində danışaq, çünki deməyə sözüsüz var. Cahillər tarixi boş əyləncə, əyləncəni oxu materialları, zəngin avaraların ədəbazlığı, təbliğat vasitəsi, hətta "keçmişə yönəlmiş siyasət" kimi dəyərləndirməlidirlər, yalnız hər şeyə şübhə ilə yanaşan XIX əsrə aid deyil. Bu yaxınlarda tarixi, zamanın guya ki, öz axarı boyu həm böyük, həm də kiçik hadisələrin yerinə yetirilməsi üçün zəruri olan enerjini ifraz edən fnuksiyası kimi nəzərdən keçirmək cəhdi edilmişdir. (33) Lakin bu konsepsiya da tutarsızdır, çünki həqiqətən də zaman boyu cərəyan edən tarixi proseslər entropik və ətalətli olduğundan, deməli, öz övladlarını yeyən Xronosun sayəsində deyil, onun ziddinə olaraq meydana çıxır.

Lakin əgər belədirsə, onla tarix elmi zamanla mübarizədir. Ellinlər təsəvvüründə isə zaman doğma atası Uranı axtalayan və sonradan ildırımlar hökmdarı Zevs tərəfindən taxtdan salınan dəhşətli tanrı Saturn kimi fərdiləşdirilir. Lakin ildırım enerji, bizim təbirimizcə isə yarandığı zaman məhvolma proseslərini - Kainatın entropiyasını pozan antientropik impulslardır. Tezləşdirmənin səbəbi - olan qüvvə Kosmosu Xaosa çevrilməkdən xilas edir və bu qüvvənin adi Həyatdır.

Lakin əzəli ünsürlərin əbədi savaşında Saturnun nökərləri olan nəhənglər, yaxud asurlar (sanskr.) heç nə itirmir, çünki itiriləsi bir şeyləri yoxdur. Xronos hər an onların simalarını dəyişir və bununla da şəxsi keyfiyyət və xassələrdən məhrum edir. Lakin [257-258] nozamlı Kainatı təmsil edən  Kosmosun sadiq xəngavərlərinin təbiəti elədir ki, onlar formalar, deməli həm də hər dəfə təkrarsız olan şəxsiyyət kəsb edir. Xaosla mübarizədə onlar ölümlərilə qarşılaşırlar.  Y.İ.Vernadski bu ölümü məkanın zamandan ayrılması kim qəbul edirdi. (34)  Mikrob və ya baobab ağacı, insan və ya rüşeym olmasından asılı olmayaraq, bütün ölənlər üçün zaman yox olur. Lakin biosferin bütün orqanizmləri bir birilə ilgilidir. Bunlardan birinin məhvi bir çoxları üçün itki deməkdir, çünki bu həyatın əbədi düşməni olan Xronosun qələbəsidir. İtki ilə barışmaq mövqeləri təslim etmək demək olduğundan, ölümə qarşı Yaddaş entropiyanın artıq varlıq yox, şüur səddi ucalır. Zamanı keçmiş, indi və gələcək kimi bölən elə məhz yaddaşdır və bunların arasında yalnız keçmi reallıqdır.Lakin bu bölgü universal deyil. O, avropalı obivatelə xasdır. Bir çox Şərq xalqları

isə hesablama sistemi kimi təkrarlanmaya əsaslanan dövri sistemlər tətbiq edirdi. Məsələn, şumerlərdə bu dövr yeddi gün təşkil edirdi və həftə də bizə onlardan miras qalıb. Hindistan Şərqi Asiya xalqlarına on iki illik heyvani sikli bəxş etdi. Bu siklə görə, keçmiş intibah keçirərək, yalnız xülya olan gələcəyi əvəz edir. Erkən buddist təlim olan hinayana görə, insan üçün heç bir hərəkət olmadığından (tam sükunət hökm sürdüyündən) vaxtın, deməli, xülyaların da olmadığı nirvanaya keçid mümkündür. Buddaçılara tarix gərək deyil, lakin bizim üçün hisslərimizlə dərk etdiyimiz real gerçəklik maraqlıdır. Hər hansı bir müşahidə və ya sınaq isə artıq bizdən kənar və bizdən asılı olmadan mövcud olan keçmihdir.

Lakin cahillər deyil, digərləri də iddia edirlər ki, keçmişə bələd olmaq əməli həyatımız üçün səmərəsizdir. Keçmişdə bu qəbil adamlar gələcəkdən xəbər bilmək üçün falçı və astroloqların yanına gedirdi. Onlar da fal açır və bəzən təəccüb doğuracaq qədər haqlı olurdular. Bəs, falçılar bu uğuru necə qazanırdılar? Keçmişi araşdırmaq, mühüm variantları yoxlamaq və proqnozları dəqiqləşdirməklə, çünki bu halda variantların sayı həmişə məhduddur. Hlə o anadan olmamışdan da çox illər əvvəl oynanılan yüzlərlə partiya və etüdü araşdırdığı üçün gedişləri xeyli qabaqcadan hesablayan yaxşı şahmatçı da beləcədir. Şahmat oyununun tarixi ona ən ehtimal olunan, bu səbəbdən də ən düzgün proqnozlar irəli sürmək, bunun ardınca isə turnir və matçlarda qalib gəlmək imkanı verir. Bələd olan keçmiş indiki zamanda, yəni müvəffəqiyyətdə öz əksini tapır. [258-259]

Yazıya alınarsa, fizik, yaxud kimyaçının hər bir sınağı, geoloq, yaxud botanikin hər bir müşahidəsi, nəzəriyyəçinin mülahizələri və yaiqtisadçının hesablamaları tarixi mənbəyə, yəni qeydə alınmış keçmişə çevrilir ki, bununla bacarıqla davrana bildiyimiz halda, xəyali gələcəkdəei məqsədlərə nail olmaq üçün ən səmərəli davranış variantları tapmaq imkanı əldə edirik.

Nəhayət, məgər özünü və dünyadakı yerini dərk etmək yalnız pul qazanmaq yoludurmu? Xeyr, bir çox hər cür ehtirama layiq adamlar üçün bu məqsəddir! Məgər yaşadığımız şəhərləri bina edən, səyahətə yollandığımız yeni ölkələri kəşf edən, həzz aldığımız rəsm əsərlərini yaradan, bizim üçün örnək olan kitabları yazan əcdadlarımıza qarşı minnətdarlıq hissi insani hissəlrini itirməmiş hər bir kəsin borcu deyilmi? Məgər həyatlarını xələfləri yolunda qurban verən keçmiş qəhrəmanlarla fəxr etmək keçmişin qalığıdırmı? Xeyr! Tarixə eşq olsun!

Lakin tarix axtarışlardır, çünki qədim mənbələrin məlumatları üfunətli çirkaba bənzəyən yalan damcıları ilə ləkələnib. Uydurma ilə əvəzlənən, natamam ötürülməklə təhrif edilən, mənasız təfərrüatlarla bəzədilən keçmiş gerçəkliyini itirir. Yalanın banisi sadəlövh cahillərə pıçıldayır ki, tarixdə həqiqət yox, yalnız şəxsi qavram var (37); hadisələr bir birilə kazual şəkildə ilgili olan zəncir yox, yadda saxlaması qeyri - mümkün olan kaleydoskopdur (38); mətnləri hərfi mənada anlamaq gərəkdir, sanki salnaməçi onları müasirləri deyil, xələflər üçün yazıya alıb; nəhayət, etnosların bütün miqrasiyaları, yüksəliş və tənəzülləri, şöhrət, əzəmət və məhv olmaları - hamısı ay işığının gölün səthində doğurduğu kölgələrdir. (39) Axı, əgər belədirsə, onda tarixi öyrənmək lazımsız bir işdir, yaddaşdan silinən bütün olub keçənlər keçmişə çevrilmir, Xaos isə Kosmosun yerinə yiyələnir.

Səhv etmirəmsə, VIII əsrin sonunda Tibetdə buddaçı rahiblər belə bir təbliğat aparırdılar ki, dünya xülyadır, qurtuluş yolu Nirvanaya qovuşmaq, ora aparan yol isə nə qəddar, nə də xeyrxah hərəkətlər edilməsidir, çünki "həm qara, həm də ağ buludlar günəşi eyni dərəcədə bizdən gizlədir". Buna cavab olaraq Tibet şeni, bon dini kahini xalaqa üz tutaraq cavab verib ki: "Mahayançıların boşboğazlıqlarına qulaq asmayın: nəyin ağ, nəyinsə qara olduğunu ürəyiniz sizə xəbər verəcək". Aydınlıq və intuisiya elmlə incəsənətin sərhəddindədir. Məhz bu səbəbdən tarixin öz ilahəsi var - Klio.

Yox, söhbət heç də əsassız, demək olar ki, həmişə mənasız, guya ki, intuisiyadan doğan, yaxud Günəşin Yer ətrafında [259-260] fırlanması kimi göz önündə olan bəyanatlardan getmir. Aldatma özü-özünü aldatmaya əsaslanan zaman da mümkündür. Kilo öz pərəstişkarlarına digər və daha mühüm bir işdə yardımçı olur: düzgün tezislərin sübutlarını tapmaq, ilkin bilgilərin toplanmasındakı yanlışlıqları açıqlamaq və məntiqi qurumlarda sapıntıları duymaq. İlk nəzərdə bunlar sadə görünsə də, əslində tarixi həqiqətə doğru hər bir, hətta ən kiçik addım da şücaətdir.

Ən sadə görünən ümumiləşdirmələr də elə bir ruhi yüksəliş və hisslərin gərginləşməsini tələb edir ki, bu zaman fikir metal tək əriyir və yeni forma kəsb edir. Həmin forma səmimi oxucunu əvvəlcə heyrətə gətirir, daha sonra isə inandırır. Həm də məsələ tezisin fikrin hansı axarı, yaxud dəlilərin necə seçilməsində deyil; bu, elm sənətinin mətbəxidir. Əlbəttə, həmin mətbəxlə lazımlı olsa da, təkcə bu kifayət deyil. Əsas sual başqadır: niyə bəzən yeni tezis tapmaq və onu sübuta yetirmək mümkün olur? Yaradıcılıq psixologiyasının bu sirrini qədim yunanlılar tarix muzası Kiloya ünvanlayırdılar.

Lakin bir dəfə belə demişdir: "Bəs vaxtilə zamanın axarı adlandırılmış dəhşətlə nə edək biz?" Saturnun sosial-iqtisadi formasiyaların qanunauyğunluqlara dəyməyən orağı həyatın hər hansı bir şəxsi təzahürünü amansızcasına doğrayır. Yalnız həmin formasiyalar tərəqqi yolu ilə irəliləyir, keçən əsrlərdə təkrarsız və gözəl olan hər şey isə itkilərdir. Bu səbəbdən də etnogenez təkamül yox, Kilonun daimi müdaxiləsinin azaltdığı itkilər siyahısıdır. Çünki hətta məhv olan, lakin yaddaşlarda hifz edilənlər də ölmüş deyil.

Lakin Kilo yalnız keçmişin zamanın tozu basmış və Yalanın külü altında qalmış qalıqlarını qoruyub saxlamağa qadir deyil. O, bu yırtıcıların əlindənşikarlarını ala da bilir, bunu gözümüz önündə və bizim

əlimizlə edir. Troya xərabələri və Babil gülləsi tapılıb, Tutanhamon sərdabəsinin sərvətləri xilas edilib, mayya heroqlifləri oxunub, İvan Qroznının salnamədə etdiyi saxtalaşdırma üzə çıxarılıb, monqollar haqqında qara əfsanəyə xitam verilib. Şəxslərin də olmasa, onların möhtəşəm əməllərinin həyata qaytarılması siyahısını sonsuz olaraq uzatmaq mümkündür, çünki gah orda, gah da burada böyük və kiçik kəşflər baş verir.

Məgər bu, Saturn üzərində qələbə deyilmi? Məgər bu, etnos - əcdadların həyata qaytarılması sayılmırmı?

İndi isə artıq əsas sualı vermək olar: etnoslar niyə meydana çıxır və onların sonucu niyə qaçılmazdır? [260-261]

# ALTINCI HİSSƏ

# ETNOGENEZDƏ PASSİONARLIQ

**O olmadan etnogenez proseslərinin başlamadığı və davam etmədiyi əlamətə, həmçinin onun etnik sistemlərin özləri və onların fəallıq və xarici təsirlərə müqavimət qabiliyyətinin meyarı olan energetik tutumlarının səciyyələndirilməsinə həsr olunub**

## XXII. ETNOGEN ƏLAMƏT, YAXUD "İKS AMİLİ"

Budur, "İks amili"! İndi isə oxucudan onunla birlikdə uzun müddət coğrafi, bioloji süjetlərin "cəngəllik və səhralarını" dolaşdığım və sirrin nədən ibarət olduğunu dərhal söyləmədiyim üçün üzr diləyirəm. Axı, oxucu sadəcə olaraq, mənə inanmazdı! Deyərdi ki: "Axı, bu tamamilə aydındır. Etnos dil, irq, coğrafi mühit, sosial münasibətlər, özünüdərk və təkamıl prosesi, yaxud da onların hamısının və ya ixtiyari olaraq seçilən bir neçə amilin kombinə edilməsi ilə müəyyənləşlirilir". Bu fikir mütəxəssiz olmayanlara deyil, bir çox peşəkarlara da xasdır, halbuki onu etnogenezin araşdırılmasına əməli şəkildə tətbiq etmək cəhdləri hər dəfə uğursuzluqla sonuclanır.

Mənim vəzifəm yalnız sadalanan amillərdən hər birinin deyil, onların istənilən şəkildə kombinə edilməsinin də fərziyyə qurmaq, yəni etnogenezin hazırda məlum olan bütün faktlarının ziddiyyətsiz açıqlamasını vermək üçün imkan yaratmadığını göstərmək idi. Baxmayaraq ki, ciddi şəkildə qeydə alınan faktların sayı heç də sonsuz deyil. Buradan belə bir nəticə çıxır ki, təklif olunan həll variantları mükəmməl deyildi. Deməli, yenisini aramıq, yəni orijinal fərziyyə qurmaq ixtiyarı əldə edirik. Məqbul sayılması üçün hər hansı bir fərziyyə bütün məlum faktları açıqlamalıdır. Lakin fərziyyənin nəzəriyyəyə çevrilməsi çox mürəkkəb prosesdir və bu səbəbdən də heç bir alimin keyfiyyətin bu keçid anın təyin etməyə ixtiyarı yoxdur. Alimin vəzifəsi başqadır: öz fikrini açıqlamaq, onun əsaslandırılmasını isə müasirləri və xələflərinin öhdəsinə buraxmaq. [261-262]

Hazırda orqanizm səviyyəsində psixologiya dedikdə, hormonal təsir nəzərə alınmaqla ali sinir sisteminin fəaliyyəti anlaşılır. Həmin hormonal təsir isə özünü insanların davranışında biruzə verir. Fərdi psixologiya çox vaxt ali sistemlər - sosial və etnik psixologiyada birləşsə də, məsələnin bizim qoyduğumuz şəkildə qoyuluşu zaman sistemin ölçüləri rol oynamır. Odur ki, ayrı - ayrı fərdlərin hərəkətlərini doğuran səbəblər bizim araşdırmamız üçün heç də əhəmiyyətsiz deyil, çünki davranışın etnik stereotipləri onlardan formalaşır.

Psixologiyadan fərqli olaraq, etnopsixologiya sistemlərin kifayət qədər mürəkkəb olan və öz növbəsində sistem təşkil edən orqanizm səviyyəisndən bir pillə yuxarıda duran populyasiya səviyyəsində davranışının səbəblərini araşdırır. Etnopsixologiyanı birbaşa müşahidə edə bilməsək də, onun funksiyası olan etnik davranış çox asanlıqla qavranılan və hiss olunandır.

İnsanın tələbatları təsnif edilə bilir və bunun üçün çoxpilləli bölgü təklif olunur ki, bizim ona heç bir ehtiyacımız yoxdur. (1) Bizim araşdırmamız üçün müxtəlif işarəli iki qrupa bölgü ilə kifayətlənmək məqsədəuyğundur. Bunlardan birincisi fərd və növün özünümühafizəsini təmin edən tələbatlar toplusu olan "ehtiyac tələbatları"dır; ikincisi, digər qəbildən olan motivlərdir ki, bunların sayəsində hələ dərk olunmayan idrak tərəfindən qavranılır və daxili təşkilatlanma mürəkkəbləşir - "artım (boy atma, inkişaf) tələbatı: (2) "Karamazov qardaşlarında F.M.Dostoyevski onu "dərk etmək tələbatı" kimi təsvir edib, (3) çünki "insanın varlığının sirri yalnız yaşamaq deyil, nəyin naminə yaşamaq və bu zaman mütləq bütün dünyaya yayılmaqdır", çünki insana ideallarin ümumiliyi, yəni bizim etnik dominant adlandırdığımız gərəkdir. Lakin sonucu özbaşına yaranmır, etnogenez mərhələlərilə birgə meydana çıxır və dəyişir, yəni aradığımız "iks amili"nin funksiyasıdır. İndi biz artıq demək olar ki, məqsəd yetişmişik.

Etnogenez proseslərinin başladığı şərait kifayət qədər çoxvariantdır. Lakin bunun yanaşı, həmişə onların sonrakı axarının bəzən kənar təsirlər tərəfindən pozulan, bu və ya digər dərəcədə yeknəsəkliyi müşahidə olunur. Ümumbəşəri qanunauyğunluğu üzə çıxarmaq məqsədilə prosesin daimi olan mərhələ sxemindən yararlanıb, xarici təkanlar təsadüfi əngəllər kimi etinasız qaldığımız halda isə mütləq yer üzündə bütün etnosların yaranmasının bir səbəblə ilgili olması qənaətinə [262-263] gələcəyik. Aradığımız invariant kimi haşiyə çıxmalı olduğumuz "iks variantı" da elə bu olacaq.

Aşkar etdiymizin məhz etnogenezin impulsu olduğuna əmin olmaq üçün, onu nəzərə arankən yuxarıda qeyd olunan üç təsnifatın bir sxemə yerləşdiyini nümayiş etdirməliyik. Həmin təsnifatlar isə aşağıdakılardır: a) "antixudpəsəndlər" və "xudpəsəndlər" kimi paylaşmanı nəzərə alan etnoloji; b) landşafta münasibəti təsvir edən coğrafi; C) yüksəliş və tənəzzül mərhələlərini keçmiş etnki birliyin

qanunauyğun ölümünü səciyyələndirən tarixi. Üç xəttin gəlməsi təklif edilən konsepsiyanın düzgünlüyünü və "iks amili"nin açıqlanmasını dəqiqləşdirir.

"Empirik ümumiləşdirmə " yolunu tutaq. Rəngarənglik dərəcəsindən asılı olmayaraq, etnogenez başlanğıclarının hamısında hansı məqamın daim iştirak etdiyini araşdıraq. Gördüyümüz kimi, yeni etnosun formalaşması həmişə bə"zi fərdlərdə məqsədyönlü fəaliyyətə doğru qarşısıalınmaz daxili istəklə ilgilidir. Həmin fəaliyyət isə daim ictimai və ya təbii olan əhatəsilə dəyişdirilməyə bağlıdır. Həm də bu zaman çox vaxt xəyali, yaxud subyektin özü üçün də öldürücü olan məqsədə yetişmək onun üçün həyatından da dəyərli görünür. (3) Bu cür, şübhəsiz, az-az rast olunan hal növ davranış normalarından sapınmadır, çünki təsvir edilən impuls özünümühafizə instinktinə müxalif və deməli, əks işarəyə malikdirə. O həm də yüksək qabiliyyətlər (istedad), həm də orta səviyyəli bacarıqla ilgili ola bilir ki, bu da onun psixologiyada təsvir olunan digər davranış impulsları sırasında müstəqilliyinə dəlalət edir. İndiyədək bu əlamət heç bir yerdə və heç vaxt nə təsvir edilib, nə də araşdırılıb. Lakin kollektivin (hətta düzgün anlaşılmayan olsalar belə) maraqlarının yaşamaq istəyi və öz xələfləri haqqında qayğını üstələdiyi antixudpəsənd etikanın əsasını da məhz o təşkil edir. Əlverişli şərait olduğu halda, bu əlamətə malik olanlar elə hərəkətlər edirlər (etməyə bilməz) ki, onların məcmusu ənənənin ətalətini qırır və yeni etnoslar yaranmasına səbəb olur.

Bu genetik əlamətin doğurduğu xüsusiyyət çoxdan qeydə alınmışdı. Üstəlik, bu təsir hətta ehtiras kimi tanınıb. Lakin adi anlamda hər hansı bir qüvvətli istəyi belə adlandırmağa başladılar, daha sonra kinayə ilə hər bir, hətta ən zəif istəyi də bura qoşdular. Bu səbəbdən də elmi araşdırma məqsədləri üçün yeni təklif edirik - passionarlıq (latınca Passio, ionis, f.). Bu anlamdan pozulmuş psixikanın əlamətləri olan xudpəsənd etika və şıltaqlıqları [263-264] şirnikləndirən heyvani instinktləri, həmçinin ruhi xəstəlikləri istisna edirik, çünki passionarlıq, əlbəttə, növ normasından sapınma olma da, pataloji 9anormal, qeyri - normal) sapınma deyil. İrəlidə "passionarlıq" anlayışının məzmununu dəqiqləşdirəcək, onun fiziki əsasını göstərəcəyik.

F.Engels insan ehtiraslarının rolu barədə. F.Engels insan ehtiraslarının gücünü və onların tarixindəki rolunu parlaq şəkildə təsvir edir: ".. sivilizasiya elə işlər görüb ki, qədim qəbilə cəmiyyəti onları heç təsəvvürünə gətirə bilməzdi. Lakin onları insanın ən alçaq hiss və ehtiraslarını hərəkətə gətirmək və həmin hiss və ehtiraslarını bütün digər qabiliyyətlərin zərərinə inkişaf etdirməklə yerinə yetirilib. Alçaq tamah ilk günündən zəmanəmizə qədər sivilizasiyanın hərəkətverici qüvvəsidir; sərvət və yenə də sərvət arzusu. Həm də cəmiyyət üçün yox, bu miskin fərd üçün. Budur onun yeganə və hər şeyi şərtləndirən məqsədi. Bu zaman həmin cəmiyyətin dərinliklərində elm getdikcə inkişaf edir və incəsənətin ən yüksək çiçəklənmə dövrləri təkrarlanırdısa da, bu yalnız ona görə baş verirdi ki, onlarsız dövrümüzün sərvət toplamaq sahəsindəki bütün nailiyyətləri mümkünsüz olardı". (5)

Bu fikir F.Engelsin "Ailə, şəxsi mülkiyyət və dövlətin mənşəyi" əsərində bir qırmızı xətt kimi keçir. O göstərir ki, antaqonik siniflərin meydana çıxmasına səbəb məhz "sərvət acgözlüyü" oldu. (6) Cəmiyyətdə (fəaliyyət göstərən etnosların, fikrimizcə, homeostazda olduğu cəmiyyətdə) qəbilə quruluşunun süqutundan danışarkən F.Engels yazırdı . "Bu ibtidai birliyin hakimiyyəti məhv edilməli idi və edildi də. Lakin o, elə təsirlər altında oldu ki, köhnə qəbilə quruluşunun yüksək mənəvi səviyyəsilə müqayisədə onlar bizdə tənəzzül, günaha batma təsəvvürü oyadır. Ən alçaq ehtiraslar - nifrətamiz xəsislik, kobud ehtiraslar, şəxsi mənafe üçün ictimai mülkiyyəti qarət etmək istəyi yeni sivilizasiyaları sinifli cəmiyyətin xaç atasıdır; ən mənfur vasitələr - oğurluq, zorakılıq, məkr və xəyanət köhnə sinifsiz qəbilə quruluşunu zəiflədir və onun süqutuna gətirib çıxarır". (7)

F.Engels bəşəriyyətin mütərəqqi inkişafını belə görürdü. Tamahkarlıq isə təhtəlşüur emosiya, ali sinir sisteminin psixologiya ilə fiziologiya sərhəddində yerləşən funksiyasıdır. F.Engelsin adlarını sadaladığı acgözlük, həzz almaq ehtirası, xəsislik, xudpəsəndlik, həmçinin, hakimiyyətpərəstlik, şöhrətpərəstlik, həsəd bir birinin tayı olan emosiyalardır. Obivatel mövqeyindən bunlar "pis hisslər"dir, lakin fəlsəfi baxımdan yalnız hərəkətlərin şüurlu [264-265] və azəd şəkildə seçilmiş motivləri "pis" və ya "yaxşı" ola bilər, üstəlik, baxır onlar hansı hərəkət doğurur. Hərəkətlər isə ən müxtəlif, o cümlədən, kollektiv üçün obyektiv şəkildə faydalı ola bilər və olur. Məslən, şöhrətpərəstlik artisti auditoriyanın rəğbətini qazanmağa can atmağa və bu məqsədlə öz istedadını təkmilləşdirməyə məcbur edir. Hakimiyyətpərəstlik siyasi xadimlər bəzən dövlət əhəmiyyətli qərarlar belə qəbul etmək üçün zəruri olan fəallıqlarını şirnikləndirir. Tamahkarlıq maddi sərvətlər toplanmasına səbəb olur və i. a. Axı, bütün bu hisslər bütün insanlara xas olan, lakin həddən artıq müxtəlif miqdarına görə fərqlənən passionarlıq moduslarıdır. Xarakterin ən müxtəlif cizgilərində özünü büruzə verə bilən passionarlıq eyni asanlıqla şücaət və cinayətlər, xeyir və şər doğurur, yalnəz fəaliyyətsizlik vəbiganəliyi istisna edir.

Fəlsəfə tarixinə dair mühazirələrdə F.Hegel də eyni qətiliklə çıxış edir. "Biz israr edirik ki, ümumiyyətlə hnç bir şey onda iştirakı olanların marağı olmadan həyata keçirilməyib və biz fərd onda olan və ola bilən bütün maraq və məqsədləri arxa plana ötürərək, özünü bütövlükdə bir şeyə həsr edib bütün qüvvə və tələbatını bu məqsəd üzərində cəmləşdirdiyindən, biz marağı ehtiras adlandırdığımız üçün ümumiyyətlə deməliyik ki, yer üzündə heç bir şey ehtirassız baş vermir". (8)

Bütün gözəgəlimliyinə baxmayaraq, sosiopsixoloji amilə dair gətirdiyimiz örnəkdə mühüm bir çatışmamazlıq da var. Hegel ehtirası "maraqla" məhdudlaşdırır. XIX əsrdə isə bu söz maddi nemətlər əldə etməe demək idi ki, bu da özünü fəda etməyi elə bu başdan istisna edir. təsadüfi deyil ki, Hegelin davamçıları tarixi  şəxsiyyətlərin davranışından öz ehtiras obyektlərinə münasibətdə səmimiliyi və təmənnasız fədakarlığı inkar etməyə başladılar. Təəssüf ki, ümumi yanlışlığa çevrilən belə bayağılaşdırma alman filosofunun fikrini dəqiq ifadə etməməsindən irəli gəlir.

Lakin marksizm klassikləri bu mərhələni keçməyə nail oldular. İnsanların bütün hərəkətlərində yalnız cansız xudpəsəndlik görən filisterlərin meydan sulayan bayağı fikirlərinə qarşı onlar insan psixikasının təzahürlərinin rəngarəngliyini məqbul sayan vasitəsi determinləşmə konsepsiyasını irəli sürdülər.

F.Engelsin İ.Bloxa 21-22 sentyabr tarixli məktubunda yazdıqlarını bir daha xatırlayaq: "tarixin materialist anlamına görə, tarixi prosesdə son nəticədə təyinedici məqam istehsal və həqiqi həyatın davam etdirilməsidir. Əgər kimsə bu maddəni təhrif edir və belə məqamın yalnız iqtisadi məqamla ilgili olduğunu iddia edirsə, [265-266] o, həmin iddianı boş, mücərrəd, mənasız bir ifadəyə çevirir". (9) Bəli, ideya hərəkət və yaradıcılığı məhdudlaşdıran buxovlar yox, alimləri gecənin zülmətində yeni xarüqələrə səsləyən işıqlardır. Sələflərə ehtiram onların nə və nə etdiklərini unutmaq yox, onların şücaətlərini davam etdirməkdədir.

## XXIII. PASSİONAR OBRAZLAR

**Napoleon.** Artilleriya poruçiki Napoleon gəncliyində kasıb idi və karyera arzusu ilə yaşayırdı. Bu, bayağı olduğu qədər də aydın bir şeydir. Ogüsten Robesruyerlə şəxsi əlaqələri sayəsində Napoleon kapitan rütbəsi aldı, Tulonu ələ keçirdi və buna görə general rütbəsilə mükafatlandırıldı. 1795-ci ilin oktyabrında Parisdə monarxiyaçıların qiyamını yatıran Napoleon artıq mənsəb sahibi olsa da, bunlar, həmçinin füsünkar Jozefina Boharnye ilə evlənməsi ona var-dövlət gətirmədi. Lakin artıq İtaliya yürüşü Napoleonu varlandırdı. Odur ki, həyatının bütün qalan hissəsini heç bir zəhmət çəkmədən yaşaya bilrdi. Amma nə isə onu çəkib Misirə apardı, 18 brümerdə isə ölüm təhlükəsilə üz-üzə durmağa sövq etdi. Nə? Yalnız və yalnız hakimiyyətpərəstlik! Məgər fransızların imperatoru olandan sonra o sakit oldumu? Xeyr. Əksinə, müharibə, diplomatiya, qanunvericilik işi kimi ağır yükləri öhdəsinə götürdü, üstəlik İspaniya savaşı və Moskva üzərinə yürüş kimi fransız burjuaziyasının mənafelərinə müvafiq olmayan kampaniyalara da rəvac verdi.

Əlbəttə, Napoleon etdiyi hərəkətlərin səbəbini bir cür açıqlayırdı. Lakin onların həqiqi səbəbkarı onun tükənmək bilməyən fəaliyyət göstərmək istəyi idi. Bu istək hətta sürgündə olduğu Müqəddəs Yelena adasında da onu rahat buraxmadığı üçündür ki, işsiz qala bilməyən Napoleon burada öz memuarlarını yazdı. Müasirləri üçün Napoleonun fəaliyyətini stimullaşdıran səbəb bir sirr olaraq qaldı. Təsadüfi deyil ki, 1814-cü ildə Parisə daxil olan rus ordusunu salamlayan yerli burjuazlar bağırırdılar, "Biz savaşmaq yox, ticarət etmək istəyirik".

Həqiqətdə də, böyüməkdə olan fransız kapitalizminin sosial sifarişini yerinə yetirən kral-burjua Lui Filip İngiltərə ilə artıq ənənəyə çevrilmiş savaşa xitam verdi və öz döyüşkən təbəələrinin fəaliyyətini Əlcəzairə yönəltdi, çünki bu daha əlverişli, təhlükəsiz olmaqla yanaşı, həm də sül və əmin-amanlıq arzulayan, fransızların böyük əksəriyyətinə toxunmurdu. Bəs, niyə Napoleon da Amyen [266-267] sülhündən sonra beləcə hərəkət etmədi? Napoleon Lui Fəlippin tayı olmadığından, Paris baqqalları ona heç bir göstəriş verə bilmirdilər. Onlara yalnız niyə imperatorun savşa can atmasına təəccüblənmək qalırdı. Makedoniyalı İskəndərin "dostları" adlandırılan ən yaxın silahdaşları da eyni vəziyyətdə idilər.

**Makedoniyalı İskəndər.** Makedoniyalı İskəndər doğulduğu gündən insana lazım olan hər şeyə - yemək, əyləncələr, ev-eşik, hətta Ərəstunla söhbətlərə malik idi. Bununla belə, Beotiya, İlliriya və Frakiyaya yalnız ona görə hücum etdi ki, guya sonuncular artıq yunanların özlərinin də unutduqları yunan - İran savaşları zamanı farsların törətdikləri dağıntıların qisasını almaq üçün başladığı müharibədə ona yardımçı olmaq istəməmişdilər.(107) Farslar üzərində qələbədən sonra isə Orta Asiya və Hindistana yürüş etdi və sonuncu savaşın mənasızlığı makedoniyalıların özlərini belə hiddətləndirdi. Por üzərində parlaq qələbədən sonra "bir qədər sakit təbiətlilər yalnız öz hallarına ağlayır, digərləri isə qəti şəkildə bəyan edirdilər ki, İskəndərin ardınca getməyəcəklər.."(Arrian.V. 26). Nəhayət, Polemokratın oğlu Ken cəsarətə gələrək dedi: "Səninlə nə qədər makedoniyalı və ellin gəldiyini və onların nə qədərinin salamat qaldığını özün də görürsən. Sənin bina etdiyin şəhərlərdə məskunlaşdırılan ellinlər də narazıdırlar.. Bəziləri döyüşlərdə tələf oldu, digərləri.. Asiyaya səpələnib. Xəstəliklərdən ölənlərin sayı bundan da çoxdur. Çox az adam qalıb və onlar artıq taqətdən düşüb. Mənəvi yorğunluqları isə dəhşətli dərəcədədir. Valideynləri olanların hamısı onların xiffətini çəkir;  arvad - uşaqları, vətən torpağı üçün həsrət çəkirlər və bu həsrəti başa düşmək olar: oranı tərk edərkən kasıb idilər. İndi isə sən onları ucaltmısan və həmin yerlərə varlı və samballı adamlar kimi qayıtmaq arzusundadırlar. Əsgərləri onların iradəsinin əleyhinə ardınca aparma" (Arrian. V. 27). Bu, qoşunun əhval - ruhiyyəsini nəzərə alan və onu ifadə edən ağıllı və işgüzar bir adamın fikridir. Real siyasət baxımından Kenin ğam haqlı olduğu göz önündə olsa da, bizim "ellinizm" (11)

adlandırdığımız və Yaxın Şərq etnogenezindəki rolu heç bir şübhə doğurmayan hadisənin meydana çıxmasında dərrakəsi yox, İskəndərin davranışının irrasional (əqlə zidd) olması mühüm rol oynamışdır.

Bu baxımdan, çarın özünün nitqi, döyüşçüləri yürüşü davam etdirməyə sövq etmək məqsədilə gətirdiyi dəlillər bizim çox maraqlıdır. Öz qələbələrini sadalayan İskəndər bəyan etdi: "Möhtəşəm məqsəd naminə çətinliklər və təhlükələrə duruş gətirən [267-268] adamlar üçün dünyada ən şirin şey şan-şöhrət işində yaşamaq və öləndən sonra özləri haqqında ölməz xatirə qoyub getməkdir. Makedoniyada dinc öz torpağımızı qorumaq və bizimlə düşmən olan qonşularımızı dəf etməklə işimizi bitmiş hesab etsəydik yer üzündü möhtəşəm və təkrarsız sayılan hansı şeyləri etmiş olardıq?" (Arrian. V. 26-27). Şöhrəti şəxsi rifah və ölkəsinin mənafeyindən üstün tutan adamın proqramı budur. Bu zaman "o özü kef etməyə etinasızlıqla yanaşır, şəxsi əyləncələrinə pul xərcləməkdə xəsislik göstərir, lakin çoxlu xeyirxahlıqlar edirdi" (Arrian.VII. 28). Aristobulun şəhadətinə görə, kef məsclislərini də dostları üçün keçirir, özü az içirdi (Arrian.VII, 29). Axı, müharibəyə kefdən ötrü gedilmir! Əsgərləri isə hindlilərlə heç döyüşmək belə istəmirdilər. Üstəlik, artıq qarət etdikləri sərvətləri o dövrdəki nəqliyyatla doğma diyara heç daşımaq da mümkün deyildi. Buna baxmayaraq, onlar döyüşür, həm də necə döyüşürdü!

Makedoniya çarını yürüşə çıxmağa sövq edən səbəbi ticarət şəhərləri üçün yeni bazarlar əldə etmək istəyində, yaxud finikiyalıların rəqabətini aradan qaldırmaq arzusunda axtarmağa dəyməz. Silah gücünə yenicə ram edilən Afina və Korinf Makedoniyanını düşmənləri kimi qalmaqda idi. Odur ki, düşmən üçün özünün qurban vermək mənasız bir işdir. Beləliklə, İsgəndərin davranışınını səbəblərini onun öz xarakterində axtarmaq lazım gəlir. Həm Arrian, həm də Plutarx İskəndərdə ifrat dərəcəyə çatan iki səciyyəni qeyd edir: şöhrətpərəstlik və qürur, yəni bizim artıq təsvir etdiyimiz passionarlığın təzahürləri7 Bu enerji çoxluğu nəinki qələbələr qazanmaq, həm də təbəələrini onların özlərinə gərək olmayan müharibələr aparmağa məcbur etmək üçün kifayət etdi.

Əlbəttə, İsgəndərin bir çox silahdaşı - Perdikka, Klit, Selevk, Ptolomey və b. Da passionralığa malik idi və öz çarlarının başladığı işdə iştirak edirdilər. Bunun sayəsində də sadə makedoniyalı və yunanları yürüşlərdə iştiraka sövq etmək mümkün oldu. Fars dövlətini yıxıb, onun yerinəd bir neçə makedon dövləti yaratmağa, hətta yeni - suriya etnosunun binasını qoymağa bir adam deyil, Makedoniya ordusunun tərkibində olan bütöv bir passionra adamlar qrupu nail oldu. Makedoniyalılar və farsların özləri isə yeni şəraitdə tanınmaz dərəcədə dəyişərək, romalılar və parfiyalıların qurbanı oldular.

Bəlkə İsgəndəri bu qəhrəmanlıqlara sövq edən Elladanın şərqlə qovuşdurulması ideyası olmuşdu? Xeyr. İsgəndərin fəlsəfə müəllimi Ərəstun olmuşdu. O isə belə şeylər öyrətmirdi. [268-269] Xronoloji cəhətdən də bu ideya İranın istilasından əvvəl yox, sonra meydana tapmışdı. Əks halda, Perserol sarayı yandırılmazdı. Məğlub edilmiş xalqın incəsənət incilərini məhv etməklə məsələnin güzəştli yolunu axtarmazlar.

Beləliklə, passionarlıq ətrafı dəyişmək, yaxud fizika dilində desək, mühitin aqreqat halının ətalətini pozmaq bacarığı və bunu etmək istəyidir.

Passionarlaq impulsu o qədər qüvvətli olur ki, bu əlamətin daşıyıcıları olan passionarilər öz hərəkətlərinin nəticələrini təxmin etmək imkanına malik olmurlar. Çox mühüm olan bu cəhət göstərir ki, passionarlıq şüurun deyil, təhtəlşüurun atributu olub, sinir sisteminin quruluşunun özünəməxsusluğunda ifadə olunan mühüm əlamətdir. Passionarlıq dərəcələri fərqli olsa da, onların görünən və tarix tərəfindən qeydə alınan formalara malik olması üçün passionarilərin çox olması zəruridir. Yəni bu, təkcə fərdi yox, həm də populyasiyaya xas əlamətdir.

**Lutsi Kornelli Sulla**. Aşkar etdiymiz əlamətin düzgünlüyünü bir neçə başqa fərdlərin nümunəsinə yoxlayaq. Roma patrisisi və nobil Lütsi Kornelinin Romada evi, onun ətraflarında villaları, çoxlu qulu və müştərisi vardı. İsgəndər kimi, onun da nə gözəl təamlar, nə də əyləncələr sarıdan heç bir ehtiyacı yox idi. Bəs, onu nifrət etdiyi Marinin qoşununa qoşulmağa vadar edən nə idi? Üstəlik, o, qərargah zabiti kimi qulluq etməklə kifayətlənməyərək döyüşlərdə iştirak etmiş, həyatını təhlükə altına qoymaqla Yuqurtanı əsi almış, Romaya gətirərək, Mamertin məhbəsində acından ölməyə məhkum etmişdi. Bütün bu şücaətlərinə görə o yalnız bir mükafata layiq görülmüşdü: forumda dostları ilə gəzişərkən Marini sərsəri, özünü isə qəhrəman adlandırmaq hüququ. Buna çoxları inanırdı ki, hamı yox. Belə olan halda Sulla yenə də savaşa atılaraq, Romaya hücum etmiş barbarların başçısı ilə döyüşdə üstün gəldi, onu öldürdü və .. bir az da çox lovğalanmağa başladı. Lakin bununla da kifayətlənə bilmədi. tutalım, Mariniüstələmişdi, amma İsgəndər haqqında xatirələr qalmaqda idi. Odur ki, Sulla Şərqi fəth etmək və Makedoniya çarından da artıq şöhrətlənmək xəyalına düşdü. Elə bu zaman ona: "Bəsdir! İmkan ver, qoy başqaları da bir iş görsün!" - dedilər. Güman etmək olardı ki, Sulla razı qalmalıdır - Roma respublikası qarşısında xidmətləri yüksək dəyərləndirilib, evi, sərvəti, ətrafdakıların ehtiram və məftunluğu. Bundan artıq nə lazımdır - yaşa və həyatdan həzz al! Lakin Sulla başqa cür hərəkət etdi: [269-270] legionları ayağa qaldıraraq, doğma şəhərini hücumla ələ keçirdi. Həm də bu zaman tərəfdar larını ruhlandırmaq üçün barrikadalar üzərinə hücuma dəbilqəsiz gedirdi. Nəhayət, ona nail oldu ki, onu növbəti dəfə ağır bir savaşa yolladılar. Onu təhrik edən nə idi? Güman ki, burada mənfəət istəyi rol oynamırdı. Lakin bizim fikrimizcə, passionarlığın daxili təzyiqi həm özünümühafizə instiktindən, həm də mədəniyyət və ənənənin onda tərbiyə etdikləri qanunlara hörmətdən də qüvvətli idi. Bütün sonrakılar hadisələrin məntiqinin sadəcə inkişafı, A.S.Puşkin

dövründə "əşyaların gücü" adlanan bir şeydir. Bu artıq bütövlüklə etnologiyanı dəstəkləyən tarix elminə aiddir. Eramızın 87-ci ilində Mari təcrübəli döyüşçülərdən və qələbə əldə olunacağı halda azadlığa buraxılmayacaqları barədə vəd almış qullardan ibarət qoşunla Sullaya qarşı yürüşə çıxdı. İtalikləri, yəni istibdad altında olan etnosları populyasiyaların tərəfinə cəlb edən konsul Tsinna da onu dəstəklədi. Romanı ələ keçirən Mari, ən humanist sərkərdəsinə qullardan olan döyüşçüləri qılıncdan keçirməyi əmr etdi, çünki onlara arxalanması onun nüfuzuna xələl gətirirdi. 4 min nəfər yatmış halda öz silah dostları tərəfindən qətlə yetirildi. Bu qətliam göstərdi ki, demokratiyadan dəm vurmaqlarına baxmayaraq, populyasiyalar öz düşmənləri olan optimallardan bir o qədər də fərqlənmirdilər.

Lakin hər halda müəyyən fərq vardı: Sulla da öz qoşununa 10 min qul səfərbər etmişdi, amma qələbədən sonra onları torpaq sahələri və Roma vətəndaşlığı ilə mükafatlandırdı. Mari ilə Sulla arasındakı fərqlər partiya proqramlarından daha çox, şəxsi keyfiyyətlərlə şərtlənir. Üstəlik, İsgəndərdən fərqli olaraq, Sulla şöhrətpərəst və təkəbbürlü deyildi, çünki istəklərinin həyata keçməsindən məmnunluq duyan kimi, özü hakimiyyətdən imtina etdi. O, son dərəcə şöhrətpərəst və paxıl olsa da, bu keyfiyyətlər yalnız passionarlığın təzahürüdür. Bir də onu mütləq qeyd etməliyik ki, Sullanın müvəffəqiyyəti yalnız onun şəxsi keyfiyyətlərindən deyil, ətrafındakılarla təmaslarından da asılı idi. Onun zabitləri olan Pompey, Kraş Lukull, hətta legionçuların da bir hissəsi passionarilər olduqlarından, başçılarını duyur və onunla birgə hərəkət edirdi. Əks halda, Sulla Roma diktatoru olmazdı.

**Jan Qus, Janna de Ark və protopop Avvakum**. Bəzən də elə olur ki, passionari yaxınlarını öz ehtiraslarına fəda etmək əvəzinə, özünü onların xilası üçün, yaxud ideya naminə qurban verir. Belə bir fədakarlıq örnəyi Praqa universitetinin professoru Yan Qusdur. [270-271] O demişdir: "Mən demişəm və yenə təkrar edirəm ki, fransızlar Fransada, almanlar da öz ərazilərində olduqları kimi, Çexiya krallığında da çexlər qanuna.. və təbiətin tələbinə görə vəzifələrdə birinci olmalıdır.." Lakin bələdiyyə başkanını və Lyuksemburqlar sülaləsindən olan bivec kral IV Vatslavın alman məsləhətçilərini Novi Qorod (Praqanın bir bölgəsi) ratuşasının pəncərəsindən dişarı atan Jirka və Prokop qardaşları, Praqa universitetinin tələbələri, şəhərlilər və cəngavərlər, çex keşişləri və kəndliləri olmasaydı, Qusun Konstansadakı qurbanı bəhrəsiz qalacaqdı. Son dərəcə qəzəblənmiş bu adamlar almanların xəyanət etdikləri və tonqallarda yandırdıqları rektorları üçün çıxarılan haqsız hökmün intiqamını alırdılar.

Napoleon, Makedoniyalı İsgəndər və Sulla ilə ilgili örnəklərdə bir çox haşiyələr çıxmaqla da olsa, "kütləni ardınca aparan qəhrəmanlardan" danışmaq mümkündürsə, hadisələrin cərəyan etməsinə baxmayaraq, güman ki, burada artıq məsələ "qəhrəmanlıqda" deyil, etnik dominantın yaradılmasındadır. Həmin etnik dominant isə öz növbəsində, sistemin passionarlığını təşkilatlandırır və nəzərdə tutulan məqsədə doğru istiqamətləndirir. Axı, qəhrəman və vətənpərvər başçının həmvətənlərini əldə silah öz ailələrini qəddar düşməndən müdafiə etməyə təhrik edə bilməməsinə dair bir çox örnəklər məlumdur. 1204-cü ildə Konstantinopolun qala divarları üstündə səlibçilərə qarşı döyüşən Aleksandr Murzuflu xatırlamaq kifayətdir. Aleksandrın ətrafında yalnız varyaqlardan ibarət dəstə və bir neçə yüz könüllü vardı və onların hamısı həlak oldu. Konstantinopolun 400 minlik əhalisi isə səlibçilərə öz şəhərlərini qarət etmək və talamaq imkanı verdi. Başçının rolu ilə etnosun passionarlıq səviyyəsilə şərtlənən imkanları arasındakı fərq də elə buradadır.

Romada 41-ci ildə baş verən hadisələr əvvəlkilərdən də bir qədər əlamətdardır. Avqustun bərqərar etdiyi rejim bütün respublika qanunlarını onun sağa, prinsepsinatın özbaşınalığını ört - basdır etmək üçün təmtəraqlı dekorasiyaya çevirdi. Tiberi, xüsusən də Kaliqula dövründə varlı vətəndaşlara qəddarlıqla divan tutulması dəb düşdü. Onların sərvətləri isə imperator xəzinəsinə qismət olurdu. Bundan əlavə, paranoya (ruhi xəstəlik - tər.) xəstəliyinə tutulan Kaliqula gözünə sataşan, yaxud təsadüfən yadına düşən hər bir kəsi işgəncə içində tədricən öldürməyi əmr edirdi. Respublika dövründə belə şeylər heç kimin ağlına belə gəlməsə də, vətəndaş müharibələri o qədər passionarini məhv etdi ki, [271-272] senatorlar və atlılar qorxudan əssələr də, evlərində oturub ölümlərini gözləyirdilər. Lakin Kassi Herey və Korneli Sabin adlı iki nəfər cəsur adam tapıldı və onlar Kaliqulanı qətlə yetirdilər. Senat qanuni şəkildə ona mənsub olan hakimiyyəti ələ almaq imkanına malik olsa da, senatorların çoxu qaçıb evlərində gizləndi, camaat isə meydanda bir qədər durub dağılışdı, imperatorun canqoruyanları olan germanlar onu ölmüş görüb çıxıb getdilər. Çevriliş baş vermədi. Əsgərlərdən biri Kaliqulanın qorxusundan əsən əmisi Klavdini taparaq, onu yoldaşlarının yanına gətirdi. Onlar isə hər legionçuya 15 min sestersi verməsi müqabilində imperator elan etdilər. Senatdakı "səsvermə" (12) isə bütün koqortalar Klavdinin tərəfinə keçənədək davam etdi. Sui- qəsdçi respublikaçılar edam edildi və müstəbid hakimiyyə bərpa olundu.

Budur, başçılar "qəhrəman", "kütlə" çoxsaylı, lakin Roma etnosu sistemi Roma xalqını bütün qonşuları üzərində qalib, Romanı isə dünyanın yarısının paytaxtına çevirən passionar enerji tutumundan artıq məhrum olmuş halda. Odur ki, legionçulara heç qalib gəlmək də lazım olmadı, çünki heç bir müqavimətlə rastlaşmadılar.

Gəlin, Praqa Universitetinin rektorunu itirən çexlərə qayıdaq. Çexlər Prinsipat dövrü yox, Mari və Sulla dövründəki romalılara bənzəyirdilər. Əlbəttə, Qus yaxşı professor idi və çex tələbələrn arasında sevilirdi. Lakin onun çex etnosunun bütün təbəqələri arasındakı nüfuzu görünməmiş dərəcədə artdı. "Qəhrəman" deyil, onun etnik özünütəsdiq rəmzinə çevrilən ruhi çexləri ayağa qaldıraraq, almanlar

üzərinə yürüşə səslədi. Həm də necə.. Almaniya və Macarıstanın cəngavərlərindən ibarət dəstələri çex partizanlarından dəhşət içində qaçırdı. Çexlərin praqalı professorun ideyalarından ilham aldıqlarını iddia etmək heç də doğru olmaz. Qus ingilis keşişi Viklifin təlimini müdafiə edir, onun davamçıları isə.. bəziləri priçaşeniye (xristianlığa qəbul, - tər.) ayinini xam vasitəsilə icra etməyi, yəni pravoslavlığa qayıtmağı; bir qismi Roma papasını rədd etməmək şərtilə milli kilsəni; üçüncülər iyerarxiyanın zəruriliyinin ləğvini məqbul sayırdılar. Elələri də vardı ki, özlərində "Adəmçilər" adı qoyub, tamamilə çılpaq gəzir və ümumiyyətlə hər şeyi istisna edirdilər (bu ağılsızlları çexlər özləri qırdılar).

Bu 20 illik (1414-1436) savaşda çexlərə qələbə qazandıran müsbət proqram deyil, "almanlara ölüm" şüarı altında çıxış edən mənfi etnik dominant oldu. Almanları həm katolik, həm zadəgan, [272-273] həm də köməksiz kəndli, həm sayəsində varlanmaq mümkün olan imkanlı burger, həm.. bir sözlə, istənilən bəhanə ilə məhv edirdilər. Qələbə əldə olundu, lakin nəyin bahasına? Çexlər əhalinin çox hissəsini, Saksoniya, Bavariya və Avsriya, təxminən, yarısını itirdi. Pomeraniya, Macarıstan və Brandenburqun itkiləri bir qədər az olmasa da, hər halda hissediləcək dərəcədə idi.

Çexlər azadlıq və mədəniyyətlərini qoruyub saxlasalar da, buna yalnız qardaş qırğını sayəsində nail oldular. Lipanlar dövründə utrakvist-camçılar laborit-protestantları darmadağın edərək, onlara amansız divan tutdu. Bundan sonra adamlarla sülh bağlamaq imkanı yarandı. Yorğunluğa əsaslanan dözümlülük siyasətini kral Georgi Podebrad (1458-1471) həyata keçirdi.

Bu qısa icmal passionarlığın kortəbii hadisə olduğunu nümayiş etdirsə də, passionarlıq bu və ya digər etnik dominant tərəfindən də təşkil oluna bilir (Etnik dominant dedikdə, biz etnogenez üçün başlanğıc olan etnomədəni rəngarəngliyin məqsədyönlü həmahəngliliyə keçidini şərtləndirən dini, ideoloji, hərbi, məişət hadisəsi, yaxud hadisələr kompleksini nəzərdə tuturuq). Lakin o, vahid axında qovuşmayaraq, dağıla da bilər və XV əsrdə Çexiyada məhz bu baş verdi.

Elə həmin illərdə Fransanın İngiltərə kralı VI Henrix və onun müttəfiqləri olan burqundların hakimiyyətindən azad edilməsi tam eyni şəkildə olmasa da, buna bənzər şəkildə baş verdi. Onu da qeyd edək ki, hersoqlarının da Valua nəslinə mənsub olmasına baxmayaraq, burqundlar var qüvvələrilə Fransadan ayrılmağa can atırdılar. Fransızca alman tələffüzü ilə danışan lotaringiyalı qız - Janna de Ark yalnız dofin və onun məşuqəsi Aqnessa Sorelin saray adamları kimi quyruqbulayanların arasında qalaraq, Dünya və Lya Gir, marşal Bussak və kapitan Ponton da santrayl, fədakar cəngavərlər və sərrast arbaletçilərin əhatəsinə düşməsəydi, nə Orleni, nə kralı, nə də vətənini xilas edə bilərdi. Ona qədər də dofinin tərəfində "ingilis olmaq" (13) istəməyənlər döyüşsələr də, nəyin naminə qələbəyədək çarpışmaq lazım gəldiyini anlamaq üçün onların etnik dominantın ifadəsi olan ikicə sözü - "Gözəl Fransa" ifadəsini kifayət etdi. Avvakum da tənha deyildi: onun tərcümeyi - halının alov saçan səhifələrini, oxuduqları naminə özlərini od - alov içinə atmağa belə hazır olan adamlar təkrar - təkrar oxuyurdu.

Köhnətəriqətçilərin gücü heç də əqlin doğurduğu dəlillərdə deyildi. Onlar heç nikonçularla sakitcə mübahisə aparmırdılar da. Üstəlik, Avvakum heç də qədim pravoslavlığı yox, artıq adət [273-274] etdiklərinin müdafiəsinə qalxmışdı ki, bu da eyni şey deyil. Örnək kimi tutuşdurmaq məqsədilə Nikon Venetsiyadan yunan mətnlərinin Alda qardaşları tərəfindən buraxılan ən yaxşı nəşrlərini gəzişdirmişdi. Avvakum isə təsnihin XIII- XIV əsrlərə aid rüs tərcümələri əsasında aparılmasını tələb edirdi. Bu tərcümələr çox gözəl olsalar da, IV-V əsr orijinalları ilə müqayisədə qüsurlu idi. Köhnətəriqətçilərin ikonaların parlaq boyalarla işlənməsinə etiraz etmələri isə zamanın təsiri altında qaralmış simalara alışqanlıqla ilgilidir. Andrey Rublyov və Feofan Qrek parlaq boyalarla işləyirdilər. Bu isə XVII əsrdə artıq unudulmaz bir şey idi.

Bir sözlə, mübahisənin süjetləri təsadüfi olsa da, onun özü qanunauyğun idi, çünki velikorus etnosunun sonralar "köhnətəriqətçilər" subetnosunun ayrılması ilə nəticələnən parçalanmasını ifadə edirdi. Sonralar köhnətəriqətçilər arasında ehkam birliyinin heç izi də qalmadı, çünki əvvəlcə "keşişlilər" və "keşişsizlər", daha sonra isə çoxsaylı "təriqətlər" yarandı. Lakin etnos parçalanmadı. İsveçlilərin bəyaz Rusiyaya təcavüzü zamanı köhnətəriqətçi - mühacirlər partizan dəstələri yaratdılar və Lesnaya yaxınlığında qələbə qazanılmasında Menşikova xeyli yardımçı oldular.

Deməli, möhtəşəm işləri ayrı-ayrı passionarilər yox, passionar gərginlik səviyyəsi adlandırıla bilən əhval-ruhiyyə görür. Hüqo Kapetin Karolinqlər üzərində fransız etnosunun özəyinin formalaşmasına gətirib çıxaran qələbəsini araşdırarkən Ogüsteyn Tyerri bu hadisənin mexanizminin parlaq təsvirir verib: "Hərəkətə gələn xalq kütlələri onlara təkan verən qüvvə haqqında təsəvvürə malik olmur. Onlar instiktin təsiri altında hərəkət edərək, məqsədə doğru irəliləyir, onu dəqiq təyin etməyə isə heç cəhd belə göstərmirdilər. Səthi mühakimə yürüdülərsə, belə düşünmək olar ki, onlar kor - koranə hansısa rəhbərin şəxsi mənafeyinə xidmət edir və tarixə də yalnız həmin adamın adı düşür. Lakin bu adlar yalnız ona görə məşhurlaşır ki, onlar böyük miqdarda adam üçün cazibə mərkəzinə çevrilir: bu adamlar isə həmin adları çəkərkən, onların nə demək olduğunu bildiklərindən, həmin ad daha arzu, istək və məqsədlərini daha dəqiq ifadə etmək ehtiyacı duymurlar".(14) Deyilənlər həqiqət olsa da, bu , o deməkdir ki, nəzərdən keçirdiyimiz bütün hadisələrin əsasında, daha dəqiq desək isə dərinliyində etnik tutum durur. İsgəndər də, Sulla da, Yan Qus da, Avvakum da müxtəlif mərhələ və bölgələrdəki etnogenezlərin iştirakçıları kimi

nəzərdən keçirilməlidirlər. Beləcə, fərdi psixoloji [274-275] abrislərin (çevrə, kontur, - tər.) fərqləndirilməsi vasitəsilə özünü davranış impulslarının dairəsi kimi büruzə verən etnopsixologiyaya yetişirik.

Etnoqrafiya tərəfindən toplanmış külli miqdarda material ümumiləşdirilməsini təkidlə tələb edir. Bir çox sovet etnoqrafları bu möhtəşəm materialı dərk etmək imkanı verən prinsipi arayırdı. (15) Aydın məsələdir ki, prinsip yeni (əks təqdirdə, onu artıq çoxdan tətbiq edərdilər) və universal olmalıdır. Etnik birliklərin davranışına təbiətin təsirinin nəticəsi kimi, real mövcud olan passionarlıq hadisəsi bu tələblərə cavab verir. Lakin bu, etnosun "sosial hal" olması haqqında artıq bərqərar olmuş konsepsiya ziddir. (16)

Köhnəlmiş və yalnız baxımlara aludəlik induktiv metodun məlum məntiqi səhvi olan metaforik deformasiyaya gətirib çıxarır. Yeni fikir, təəssürat və i. a. ilə rastlaşan beyni aralıq proses olan analoqlaşdırmada (eyniləşdirmə, eynisini arama) dinclik axtarır. Həmin proses isə məlum olanla naməlum olan yeni arasında körpü yaradaraq, ona tanış don geydirir. Bu yol bizi cəlb etmir. Biz növbəti addımı atmaq fikrindəyik. Lakin əvvəlcə artıq əldə etdiyimiz qənaətləri ifadə edək, çünki indi onlar artıq çıxış müddəalarına çevrilir.

Yığım, yoxsa israf? Xatırlayaq ki, V.İ.Vernadski canlı maddənin biokimyəvi enerjisini çəyirtkə dəstələrinin toplusunu yataqdakı filizin kütləsilə tutuşduran zaman aşkar etmişdi. Çəyirtkələrin sayı çox idi və onlar öz özlərinə doğru uçurdu. Bəs, onları bunu etməyə vadar edən nədir? Bu suala cavab arayarkən biosferin Yerin antientropik xassələrə malik qatı olması haqqında təlim yaradıldı. Lakin, axı, insanlar da biosferin bir hissəsidir. Deməli, canlı maddənin enerjisi bizim də, əcdadlarımızın da canına nüfuz edərək, müxtəlif etnogenezləri dəstəkləyib və gələcək nəsillərdə bu proses təkrarlanacaq. İndi isə vəzifəmiz aşkar və təsvir etdiyimiz fenomenin etnogenez və etnik tarixin yuxarıda qoyulan suallarını cavablaya bilib bilməyəcəyini nümayiş etdirməkdir.

Diskret proses kimi etnogenezin yuxarıda təsvir olunan sxemi bu və ya digər bölgə daxilində passionar etnoslar qrupunun qəfil meydana çıxmasını, sonradan həmin bölgənin hüdudlarından kənara yayılmasını, etnik sistemin mürəkkəbliyini itirməsini və onu təşkil edən fərdlərin ya səpələnməsini, ya da dalğaya çevrilməsini təxmin edir. Bir çox lokal variasiyalarına rəğmən, bu sxem hər [275-276] yerdə müşahidə edildiyindən, onun heç olmasa tutuşdurma yolu ilə də olsa təfsinə ehtiyac yaranır.

Qəfil təkan almış kürəni təsəvvür edək. təkan enerjisi əvvəlcə sükunətin ətalətinin öhdəsindən gəlməyə, daha sonra isə kürənin hərəkət etməsinə sərf olunur. Bu hərəkət mühitin müqavimət nəticəsində tədricən səngiyəcək və nəhayət, kürə dayanacaq. Bu kürənin keçəcəyi məsafə isə onun hamar yerlə diyirlənməsindən və ya maneə, çala və s. ilə rastlaşmasından asılı olacaq. Lakin bu əməliyyatı istənilən qədər təkrar etsək də, hərəkət prinsipi birdir - təkanın ətaləti, yəni daxil olan impulsun enerjisinin zərfi.

Biosferdə bu qəbildən olan hadisələr susseksiya adlanır. Susseksiyalar həm müddət, həm xarakter, həm də nəticə etibarı ilə müxtəlif olsalar da, hamısında müşahidə edilən bir oxşar cəhətləri var - ətalətlilik. Həmin cəhət insanlarda özünü passionar impulsun sərfi şəklində büruzə verir. Bu, insanları biosferin digər hadisələrilə qohumlaşdırsa da, yalnız insana xas olan sosial və mədəni qurumlar hərəkətin başqa səciyyəsinə malikdir. Etnos fenomeni hərəkətin iki formasının sərhəddindədir.

## XXIV. PASSİONAR GƏRGİNLİK

**Passionarlığın biokimyəvi aspekti**. Hər bir adam və hər bir kollektivin biosferin bir hissəsi və cəmiyyətin tərkib eleminti olması heç bir şübhə doğurmur. Lakin materiyanın hərəkətinin formalarının qarşılıqlı əlaqəsinin səciyyəvi dəqiqləşdirilməlidir. Qarşıya qoyulan məqsədə yetişmək və məsələni həll etmək üçün sivilizasiya daşıyıcısı olan insanla təbii mühitin nisbəti probleminə "etnos" anlayışı daxil edilib. Bu anlayış özünü bütün digər eyni kollektivlərə qarış qoyan, ayrıca götürülən hər bir halda daxili struktura malik və dinamik davranış stereotipi olan sabit fərdlər kollektivini işarə etmək üçündür. Bəşəriyyətin təbii mühitlə əlaqəsinin özünəməxsus variantları məhz etnik kollektivlər vasitəsilə həyata keçirilir. Lakin elə burada təbii və sosial olanlar arasında sərhəd və nisbət məsələsi ortaya çıxır. Texnosferin hüdudlarından kənarda təbiətin hökmran olduğu məlum həqiqətdir, amma o həm də insanların bədənindədir. Fiziologiya (o cümlədən, patofiziologiya) orqanizmin əcəb və hormonal fəaliyyətinin məhsulu olan psixologiya ilə sıx ilgilidir. Yod çatışmamazlığı əqldən kəmliyə səbəb olur; adrenalin ifrazı qorxu, yaxud qərəz doğurur; cinsiyyət vəzlərinin hormonları məhəbbət [276-277] lirikasını və sentimental romanı dəstəkləyir; dopinq şəklində olan kimyəvi birləşmələr idmançıların yalnız fiziki deyil, psixi vəziyyətinə də təsir göstərir; narkotiklər bütöv xalqların cılızlaşmasına aparıb çıxarır və i.a. İnsanda materiyanın hərəkətinin ictimai formasının qanunauyğunluğu bioloji, biokimyəvi və biofiziki ilə dərəcədə çulğaşır ki, onların dəqiq fərqləndirilməsinin zərurəti göz önündədir.

Araşdırma obyekti kimi bir adamı götürərkən buna nail olmaq son dərəcə çətin olduğundan, ali səviyyəli sistem olan etnosu vahid kimi götürmək işi asanlaşdırar, çünki burada araşdırmaının qaçılmaz çatışmazlıqları qarşılıqlı şəkildə bir birini dəqiqləşdirirdi. Əlbəttə, keçmiş dövrlərdə yaşamış adamların passionarlığını hesablamaq bir yana dursun, hətta təsvir etməklə belə çox çətindir. Lakin düşüncələrin əks hərəkəti də mövcuddur. Etnik kollektivin yerinə yetirdiyi iş passionarlıq səviyyəsi ilə düz mütənasibdir.(17)

Deməli, etnos daxilindəki hadisələri çox böyük təxminiliklə hesabladıqda belə, enerji sərfinin nəticələrini əldə edirik ki, bunun əsasında ilkin enerji artımı, yəni passionarlıq haqqında fikir yürüdə bilirik.

Passionarlığın şərtləndirdiyi hadisələr ümumbəşəri fərdi və növ özünümühafizə instinktinin mövcudluğu üzündən edilən hərəkətlərindən çox asanlıqla fərqlənir. Onların xarici qıcıqlar, məsələn yadelli basqını nəticəsində yaranan reaktiv (reaksiya doğuran, - tər.) aksiyalardan fərqi də eynilə. Bir qayda olaraq, reaksiyalar qısamüddətli və bu səbəbdən də nəticəsiz olur. Passionarilər üçün isə özlərini bu və ya digər məqsədə həsr etmək səciyyəvidir və bəzi hallarda onlar həmin məqsədi ömürlərinin sonunadək izləyirlər. Bu, istənilən dövrü passionarlıq baxımından səciyyələndirmək imkanı verir. Araşdırdığımız etnosun etnogenezinin müxtəlif mərhələlərini bu baxımdan səciyyələndirməklə biz passionar gərginlik əyrisinin ən ehtimal olunan formasını çəkmək üçün göstəricilər əldə edirik. Müxtəlif etnoslar, daha yaxşısı, superetnoslar üçün belə hesablamaların mövcud olduğu halda isə etnogenezin ümumi qanunauyğunluğunu duya bilərik. Deməli, bu qanunauyğunluğu duymaq üçün hadisələrin tirixini yaxşı bilmək gərəkdir, çünki ictimai münasibətlər haqqında elm olduğundan, tarix bu deyil, tamamilə başqa qanunauyğunluğu əks etdirir - materiyanın ictimai formasına xas olan daxili səbəblər üzündən doğan inkişaf. [277-278]

Materiyanın hərəkətinin ictimai formasının öz-özünə inkişafı ideyasına qarşı Homo sapiens növünün daxilindəki variasiya kimi etnogenezə xas olan ətalətli hərəkətə malik eksses (asayişi, dincliyi pozma) konsepsiyasının qarşı qoyulmasının qanuna müvafiq olması şübhə doğura bilər. Güman etmək olardı ki, insanın bioloji dəyişiklikləri canlı maddə enerjisinin artıb - azalması, passionar enerji effekti olmadan da baş verə bilər. Lakin bu halda bü və ya digər şəraitə uyğunlaşmasının maksimal dərəcəsi inkişafın istənilən tipi üçün çıxılmaz bir vəziyyət olardı ki, bu halda o, yalnız populyasiyaının tam məhvi ilə nəticələnə bilər. Axı, fizioloji və ekoloji cəhətdən yenidən qurulmaq üçün növ (etnos) artıq formalaşmış orqanlardan (vərdişlərdən) imtina etməli, yəni yeni bir yol tapmaq naminə geriyə doğru bir addım atmalıdmır. Əksinə, mutasiyanın meydana çıxmasının mühit şəraitinə dəxli yoxdur, başqa sözlə, eksses populyasiyaya məcburi şəkildə təsir göstərəcək, onun dəyişmiş hissəsini itirilmiş cənnətə - hələ Ovidinin “qızıl əsr” kimi təsəvvür etdiyi homeostaza yetişmək üçün yollar apamağa məcbur edir.

**Etnik sistemin çoxvektorluğu sxem şəklində**. Passionar enerjisiz etnogenez olmadığından və ola da bilmədiyindən, passionarlığı etnogenezin, məcburi elementi saymaq olar. Bu element, obrazlı şəkildə desək, mötərizədən kənara çıxarılarsa, orada bu və ya digər etnosların lokal cizgiləri qalar. Qanunauyğunluğun seçimi üçün də elə məhz bütün proseslər üçün ümumi olan cizgi mühümdür.

Lakin bir hadisə kimi, bilavasitə passionarlığı heç kim və heç vaxt müşahidə etməyib və etməyəcək. Deməli, biz onu yalnız təzahürlərinə əsasən səciyyələndirə bilərik. Lakin bu da ən böyük çətinlik deyil. Ən böyük çətinlik etnosun passionarlığının doğurduğu müxtəlif istiqamətli dominantları qeydə almaq və dərk etməkdir. Etnosu bir neçə qüvvənin təsir göstərdiyi fiziki cismə bənzətsək, bu qüvvələrin cəmi vektorların təsirinin cəmi olacaq: V1 +V2+V3+V4+V5= 0. Hərəkətin müşahidə edilə bilən real səmərəsi bu qüvvələrin riyazi (V3) deyil, vektorlar cəminə bərabər olacaq, yəni cisim yuxarı etməklə sağa hərəkət edəcək. Tərkib hissələrdən dördü - V2, V3, V4 və V5 aradan götürüldükdə isə, cisim V1 istiqamətində daha böyük sürət əldə edəcək, yəni həmin qüvvənin təsiri daha səmərəli olacaq, çünki bu zaman V1 əvvəlki V . Deməli, bu halda sürətlənmə qüvvələrin artımı yox, onlardan bir qisminin itirilməsi sayəsində yaranır, çünki nəticə doğuran qüvvə daha [278-279] böyük qiymətə malik olur, deməli, nəticə özü də daha çox nəzərə çarpır.

**Şəkil.1. Qüvvələrin fiziki cismə təsiri (ümumiləşdirilmiş sxem)**

**Örnəklər əsasında aydınlaşdıraq**. E.ə. VIII-V əsrlərdə Elladanın passionarlığı aşıb-daşırdı. Triremlər Aralıq və Qara dənizlərin sularını dolaşırdı, ellin koloniyaları Qafqazdan İspaniyaya qədər səpələnmişdi, İoniya və Böyük Yunanıstanda (İtaliyada) isə əhalinin sayı metropoliyanı ötmüşdü. Lakin ellin polisləri öz qüvvələrini əlaqələndirə bilmirdilər, çünki hər biri öz müstəqilliyini həyatından artıq sevir, tabe olmaq isə qul olmağa bərabər tutulurdu. Hətta Kserksin yürüşü zamanı yaranan dəhşətli təhlükə belə, Fessajiya və Beotiyanı onun tərəfində vuruşmaqdan çəkindirmədi, halbuki onlar yunan olduqlarını heç də unutmamışdılar. Bunun cəzası amansız oldu - Plateya ətrafındakı döyüşdən sonra afinalılarla spartalılar əsir düşmüş iranpərəst yunanları edam edir, iranlılara qarşı isə mərhəmət göstərirdilər.

Peloponnes və Fivə savaşları Elladanı taqətdən saldıqdan dərhal sonra isə qüvvələrin bir yerə toplanması və İsgəndərin İran üzərinə yürüşü mümkün oldu. Ellinizm arealı ellinçiliyin arealından xeyli geniş idi, lakin bu qələbələr Elladanın ümumi passionar səviyyəsinin enməsi sayəsində mümkün oldu ki, bu zaman Makedoniya ilə yanaşı, mədəni və iqtisadi cəhətdən ən az inkişaf etmiş bölgələr olan Etoliya və Ahaya da öncüllük iddiasında bulunmağa başladı. Bu heç də onların daha qüvvətli olmaların yox, Afina, Fivə və Spartanın zəifləməsi deməkdir. Başqa sözlə, bir sistem kimi Elladanın ümumi qüdrəti zəiflədi və bu səbəbdən də o, asanlıqla Romaya qənimət oldu. Ellinlərin əvvəlki potensial qüdrətinin ətaləti Roma kübarlarına ellin mədəniyyətini aşılamaq üçün kifayət etsə də, bu zəifləmə ellinlərin qalıqlarının Bizans yunanlarının özəyinə çevrilməsinədək davam etdi və I əsrdəki passionar təkan onları tamamilə başqalaşdırdı. Lakin bu artıq başqa bir prosesdir.

Beləliklə, təshihlərin nəzərə alınmadığı sadə müşahidələr əksər hallarda yanlış qənaətlərə gətirib çıxarır. Passionar gərginliyin tənəzzülü yüksəliş kimi dəyərləndiriləcək, çünki hər iki halda çoxsaylı möhtəşəm hadisələr baş verir. "Möhtəşəm əməllər"in az olması da passionarlığın həm aşağı, həm də nisbətən yüksək səviyyələri üçün eyni dərəcədə səciyyəvidir, çünki ikinci [279-280] halda müxtəlif istiqamətli qüvvələrin tarazlaşması və müvəqqəti sabitləşmə mümkündür. Etnosun həyatının ayrı - ayrı məqamlarını deyil, prosesi bütövlükdə araşdırmaq gərəkdir. Bu halda passionarlığın artdığı, yaxud azaldığı da aydın olar.

Davranışı şərtləndirən məqamların çoxamilliliyi üzündən ayrıca götürülən fərqin ən ciddi şəkildə araşdırılması zaman fərqləndirilməsi mümkün olmayan şeylər böyük kollektivlərin bəşəriyyət tarixində özünü göstərən fəaliyyətinin araşdırılması zaman üzə çıxır. Birincisi, önəmli olmayan amillər bir birini qarşılıqlı tamamlayır; ikincisi, tarixi hadisələr mütləq, bioloji, yaxud geoloji proseslər isə nisbi zamanda qeydə alınıb. Bü səbəbdən, yalnız tarix təbiət elmlərinə mütləq xronologiyaya bəxş edib, əvəzində empilik ümumiləşdirmə üsulları əldə edə bilir və bundan sonra etnologiya - humanitar materialları təbiət elmlərinin üsulları ilə araşdıran elm meydana çıxır.

Passionarlığın əsasında vahid gen, yaxud genlərdən ibarət kombinasiyaının durub - durmaması, bunun geriləmə və ya üstünlük əlaməti olması, orqanizmin sinir, yaxud hormonal fəaliyyətilə ilgili olması barədə fikir yürütmək istəməzdik. Qoy bu sualları başqa elmlərin nümayəndələri cavablasınlar. Öhdəmizə düşən etnoloji vəzifə isə yerinə yetirilib - biz antroposferin ictimai ilə yanaşı, biocoğrafi inkişafını və onu doğuran səbəbi aşkar etmişik. Passionarlıq hadisəsinin məğzi və onun biosferin digər elementlərilə əlaqələrini isə daha irəlidə nəzərdən keçirəcəyik.

**Passionar induksiya**. Passionarlıq çox mühüm olan daha bir xassəyə malikdir - o, keçicidir. Bu o deməkdir ki, passionarların bilavasitə yaxınlığında olan harmonik (impulsivlər isə onlardan da artıq dərəcədə) özlərini elə aparmağa başlayırlar ki, sanki onlar da passionardır. Lakin passionarlardan kifayət qədər uzaqlaşan kimi isə, öz təbii psixo - etnik davranış simalarını bərpa edirlər. Xüsusi olaraq dərk edilmədən bu hadisə kifayət qədər geniş yayılıb və əsasən, hərb işində nəzərə alınır. Burada passionarları duymaq yolu ilə seçir və onlardan xüsusi zərbə dəstələri yaradır, ya da səfərbər olunanların ümumi kütləsi arasında paylaşdıraraq, "döyüş ruhunu" yüksəlməyə çalışırlar. İkinci halda belə hesab edilir ki, iki -üç passionari bütöv bir rotanın döyüş qabiliyyətini artırmağa qabildir. Həqiqətən də belədir.

F.Engels "Süvarilər" məqaləsində yazır ki, iki süvari dəstəsinin üz - üzə döyüşü çox nadir bir şeydir. Adətən, onlardan biri döyüşə girmədən geri dönür, yəni burada mənəvi amil olan [280-281] şücaət maddi qüvvəyə çevrilir", onun həlledici anı isə çırpıntı ("dash")(18) olur ki, bu zaman əsgər qələbəni (ideal məqsəd) öz həyatından daha yüksək dəyərləndirir.

Təbii ki, polkdakı süvarilər psixi xassələrinə görə bir birindən kifayət qədər fərqlənir. Lakin buna baxmayaraq, döyüş zamanı polk özünü bu və ya digər dərəcədə passionar olan bütöv kimi aparır. Polkun passionarlığı qələbəni həyatdan daha yüksək dəyərləndirməsindədir. Yaranmış vəziyyətdəki paradoks isə ondadır ki, daha az passionar olan hərbi birləşmə məhv olur, çünki süvarilər qaçanları çox asanlıqla qılıncdan keçirir. Nəzərə alaq ki, bir neçə yüz adamı eyni dərəcədə "cuşa gətirmək" yalnız induksiya yolu ilə, yəni hər bir fərqə başqa bir fərdin passionar təsir göstərməklə mümkündür. Eyniləşdirmənin məntiqi davamı ayrıca götürülən adamların psixologiyasına bir cür, populyasiya halında olan elə həmin fərdlərin psixologiyasına isə tamamilə başqa şəkildə təsir göstərmək xassəsinə malik passionar sahə (elektromaqnit sahəsinə oxşar) olardı.

"Qəhrəman və kütlə" nəzəriyyəsindən fərqli olaraq, məsələnin məğzi qəhrəmanın hərbi hissəyə rəhbərlik etməsində yox, əsgərlər arasında passionarlıqlarından savayı heç nə ilə fərqlənməyən bir neçə nəfərin olması sayəsində bu hissənin F.Engelsin qeyd etdiyi çırpıntıya malik olması və bir sıra hallarda bününla fərasərsiz sərkərdəni xilas etməsindədir. Məsələn, heç kim Beniqsen, Vitgenşteyn, Vellinqton və Blüxerin istedadlarını Napoleonun istedadı ilə tutuşdurmaq niyyətində bulunmasa da, 1853-1814-cü illərdə rus, ingilis və Prussiya qoşunlarının əzmi yeni səfərbər edilən və demək olar ki, uzaq olan fransızlarınkından daha qüvvətli idi.

Fikrimizcə, ən mühüm cəhət ondan ibarətdir ki, belə həlledici hallarda insanların şüuruna təsir göstərmək, demək olar mənasızdır. Heç bir dəlil də kömək etmir. Qeyri - bərabər müharibədə qələbənin astanasında çırpına çırpına qalan Hannibalın faciəsini xatırlayaq. Kann yaxınlığındakı savaşdan sonra Romanı ələ keçirmək və Karfageni xilas etmək üçün ona daha bir kiçik piyada döyüşçü dəstəsinin dəstəyi zəruri idi. Karfagen ağsaqqallar şurasında Hannibalın səfirlərinin və Barka nəsli tərəfdarlarının gətirdikləri dəlillər son dərəcə inandırıcı idi. Lakin eşitmək istəməyən eşitmir, dərk etmək istəməyən isə heç nə başa düşmür. Karfagen ağsaqqalları sərkərdəyə belə bir cavab [281-282] ünvanladılar: "Sən ki, qələbə çalırsan, əlavə qoşun nəyinə gərək?" Bununla da onlar öz nəvələrini ölümə məhkum etdilər.

Bununla belə, Karfagen rəhbərlərinin ağılsız, yaxud qorxaq olduqlarını da demək olmaz. Məsələ ondadır ki, uzaqda olanın onlara təsiri yox idi. Məğlub olmuş Hannibal doğma şəhərə qayıtdıqda isə məlum oldu ki, onun nüfuzu həddən artıq yüksəkdir. Bu, qüdrətli rəqiblərini də onun qarşısında baş əyməyə məcbur etdi. Hannibal yalnız Roma senatının ultimatumundan sonra vətənini tərk etmək qərarına gəldi. Bununla özünü qurban verən Hannibal onu başa düşürdü ki, başqa çıxış yolu yoxdur.

Daha bir örnək, həm də bu dəfə ədəbiyyat tarixindən. Rusiya ədəbiyyat həvəskarları cəmiyyətinin 8 iyul 1880-ci il tarixli toplantısında F.M.Dostoyevski Puşkin haqqında nitq söylədi. Müasirlərin şəhadətinə görə, bu nitq görünməmiş müvəffəqiyyət qazanmışdı, halbuki onu oxuyarkən bir o qədər də güclü təsir göstərmir. O, "Karamazov qardaşları"ndakı fəsillərə xas olan kəsərə də malik deyil. Görünür, F.M.Dostoyevskinin şəxsən orada olması onun nitqinin dinləyicilərinə belə qüdrətli təsir göstərməsində heç də az rol oynamamışdır.

Passionar induksiya özünü hər yerdə göstərir. Bu, musiqi və teatr həvəskarlarının Konservatoriya, yaxud Moskva teatrlarının qapılarında toplaşan müasirlərimizin timsalında xüsusilə əyani şəkildə müşahidə olunur. Axı, onlar çox gözəl anlayırlar ki, elə həmin pyeslərin radio və televiziya tamaşalarından alınan təəssürat teatr zalında yaranan təəssüratla eyni dəyərə malik deyil. Etnogenez hadisələrilə müqayisədə bu örnək mikroskopik olsa da, hər iki halda eyni qanunauyğunluq var.

Passionar induksiyaya ən parlaq örnəklərdən biri 1796-cı ildə baş verən Arkol körpüsü üzərindəki savaşdır. Avstriya və Fransa ordularını bir birindən üstündən körpü atılan dayaz, lakin bataqlıqlaşmış çay ayırırdı. Fransızlar üç dəfə həmlə etsələr də, hər dəfə top atəşi ilə geri oturdulurdular. Nəhayət, elə bir məqam yarandı ki, əsgərləri daha bir hücuma qaldırmağın mümkünsüzlüyü artıq heç bir şübhə doğurmurdu. Elə bu an general Napoleon Bonapart bayrağı qapıb irəli şığıdı və onun ardınca maqnitə doğru axışan dəmir tozutək, bütün qrenadyor dəstəsi körpüyə cumdu. Birinci sıradakılar yenə də toplardan atılan karteçlə darmadağın edilsə də, arxadan gələnlər özlərini avstriyalıların toplarına çatdıra və topçuları süngülərlə məhv edə bildilər. Fransızlar savaşı [282-283] qazandılar, Napoleon isə yalnız ona görə sağ qaldı ki, həmlə zamanı onu itələyib körpüdən çaya salmışdılar.

Yuxarıdakı örnəyi məqbul saydığımız baxımdan araşdıraq. İtaliyaya göndərilən ordu o zaman cəbhələrdə döyüşən bütün fransız ordularından ən zəifi idi. Bura Fransanın parislilər tərəfindən taqətdən salınmış, tapdağ altına düşmüş cənub bölgələrinin (19) demək olar ki, təlim görməmiş kəndliləri səfərbər olunmuşdu, ordunun təhcizatı isə bərbad halda idi. Bunlar süst, peşəkar hərbçi vərdişləri olmayan adamlardı. Ordunun təhcizat işlərini əllərində saxlayan qatı fırıldaqçıların xeyli hissəsini Bonopart hələ yürüşə çıxmazdan əvvəl israfçılıq üstündə güllələtdirdi. Deməli, passionar fərdlərin sayı həddən artıq cüzi qalmış, onlara qarşı isə Qabsburq monarxiyasının ən yaxşı polkları göndərilmişdi. Lakin buna baxmayaraq, fransızlar dörd böyük döyüşdə qalib gəldilər (Lodi, Kastilyone, Arkol, Rivoli), çünki rəqibi general Albintsdən fərqli olaraq, Napoleon öz passionarlığını induksiya edə bilmişdi. Bir qədər sonra isə həmin induksiya olunmuş passionarlıq yox oldu və Suvorov üç döyüşdə (Adda, Trebiya və Novi - 1799-cu ildə) fransızların İtaliyada əldə etdikləri müvəffəqiyyətləri heçə endirdi. Bunun günahını heç də fransız generalları Jurden, Makdonald və əlaxüsus da Moroda görmək lazım deyil. Öz işlərini gözəl bilən bu adamlar yalnız cəhd göstərir, qeyri-adi səy nümayiş etdirmirdilər. Suvorov isə Bonopart kimi, özünün aşıb-daşan passionarlığını təkcə rus deyil, yabançı əsgərlərə də ötürə bilirdi. Lakin Suvorov hofkriqsrata təsir etmək imkanından məhrum idi., çünki o, Vyanada işləyirdi. Passionar induksiya üçün isə müəyyən yaxınlıq tələb olunur və yüz kilometr uzaqlıqda onu hiss etmək mümkün deyil.

Məğlubiyyətlə başa çatan İsveçrə kampaniyası və geriləmədən (qəhrəmancasına olsa da) sonra Vyanaya qayıdan Suvorov teatra daxil olub, oradakılara xeyir-dua verdikdə isə heç kim bunu gülünc, yaxud yersiz bir hərəkət kimi dəyərləndirmədi. Əksinə, Suvorova imperatora layiq ehtiram göstərildi, bundansa, yarım il əvvəl onun fəaliyyətinə əngəl olmamaq daha çox fayda gətirərdi.

Biz bu örnəklər üzərində ona görə belə ətraflı dayandıq ki, bunlarla eyniyyət təşkil edən külli miqdarda digər halları xatırlamağa ehtiyac qalmasın. Lakin əslində, inkişaf etməkdə olan etnosların bütün hərbi və siyasi tarixi passionar induksiyanın bu və [283-284] ya digər variantlarından ibarətdir ki, bu yolla harmonik fərdlərdən ibarət kütlələr hərəkətə gətirilir.

Lakin bu variantlar da müxtəlifdir və həlledici məqam etnik yaxınlıq dərəcəsidir. Suvorov vətənpərvərlik modusu vasit əsilə rus qoşunlarında macar, tirol, xorvat. Yaxud çex əsgərlərində doğurduğundan daha qüvvətli ruh yüksəkliyi doğururdu. Napoleonun fransızlara təsiri vestfaliyalılar, saksoniyalılar, hollandlar və neapollulara təsirindən daha güclü idi və 1812-1813-cü illər kampaniyası da bunu təsdiq etdi. Belə qənaətə gəlmək olar ki, passionari ilə harmonik fərdinə etnosları bir birindən uzaq olduqca, passionar qıcıqlandırma rezonansı da bir o qədər zəifləyir, əlbəttə, digər amillərin eyni olması şərtilə. Bu hal, əlamət kimi çıxış edən passionarlıq problemini yenə də etnik monolitliyin məğzi problemilə yaxınlaşdırır. Lakin induksiya kimi, rezonans da energetik anlamdır. Onlar etnosa nə dərəcədə şamil edilə bilər?

Yuxarıda gördüyümüz kimi, bütün etnogenez prosesləri kiçik insan qruplarının konsorsiyalar qəhrəman, bəzən hətta fədakar hərəkətlərilə başlanır, əhatəsində olduqları kütlələr isə səmimi şəkildə onlara qoşulur. Əlbəttə, hər hansı bir adam inamsızlıq və ya xudbinliyə qapıla bilir, lakin gözləri önündə yaranan sistemə daxil olduqdan sonra onun şəxsi əhval - ruhiyyəsi elə böyük bir əhəmiyyətə malik olmur. Qeydə aldığımız passionar induksiya və rezonans həmin məlum hadisəni açıqlayır. Passionarlığın sirayət etdiyi adamlar üçün maya rolunu oynayan passionarların əhəmiyyətini anlamağa yardımçı olan da onlardır. Sonuncular olmadan birincilər passionar induksiya generatoru yox olan və rezonans ətaləti bitən kimi prakəndə şəkildə dağılışır. Bu isə, bir qayda olaraq, çox sürətlə baş verir.

**Passionarlığı itirmək qaydaları**. Beləliklə, istənilən etnogenez sistem tərəfindən passionarlığın bu və ya digər intensivliklə itirilməsi, başqa sözlə passionarilərin və onların genlərinin məhvi deməkdir. Bu özünü müharibələr zamanı xüsusilə aydın şəkildə biruzə verir, çünki passionar döyüşçülərin əksəriyyəti cavan yaşlarında həlak olur və öz keyfiyyətlərini sonrakı nəslə ötürmək imkanından istifadə edə bilmir.

Lakin ən maraqlısı budur ki, passionar gərginlik yalnız müharibələr dövründə azalmır. Bunu kollektivin tənətənəsi yolunda həyatlarını çox asanlıqla qurban verən fərdlərin həlakı ilə çox asanlıqla əsaslandırmaq olardı. Lakin möhkəm sülh dövrlərində də passionarlıq durmadan azalır, həm də bu azalma qanlı - qadalı [284-285] dövrlərdəkindən sürətlə baş verir. Etnos üçün ən dəhşətlisi də elə dinclik dövrünü başqa bir etnosun hücumundan müdafiə dövrünün əvəz etməsidir. Həmin dövrdə etnos məhv olmazsa, mütləq çat baş verir ki, bu da heç vaxt ağrısız keçmir. Bu hadisəni sosial səbəb, yaxud amillərlə açıqlamaq qeyri - mümkün olsa da, daha yüksək passionarlığı irsən keçən əlamət kimi qəbul etdiyimiz zaman hər şey aydın olur.

Müharibə dövründə qadınlar döyüşə gedən əsgərləri daha çox dəyərləndiklərindən, sonuncular həlak olmazdan əvvəl qeyri - qanuni nigahlar vasitəsilə də olsa, nəsil qoyub getmək imkanına malik olur. Uşaqlar böyüyür və atalarından xəbərsiz belə olduqları halda, yenə də genlərin təhrik etdiyi hərəkətləri edirlər. Əksinə, dinc dövrlərdə mülayim, ailəyə qarşı qayğıkeş adamlar ideala çevrilir, passionarlar isə həyatda öz yerlərini tapa bilmirlər. İ.A.Qançarovun gənc varlı mülkədarı inqilabçıdan da, artistdən də üstün tutduğu "Uçurum" əsəri məhz belə bir vəziyyəti işıqlandırır.

Çoxarvadlılığın hökmran və qadının sanki hüquqsuz olduğu yerlərdə də həmin qanunauyğunluğu müşahidə edirik. Xilafət dövründə ərəblərin, daha sonra isə osmanlı türklərinin sürətli artımı çoxarvadlılıq sayəsində mümkün olmuşdu. Lakin hərəmxanalar üçün qadınları döyüşdə əldə edir, onları hərbi qənimət, yaxud istila olunmuş ölkələrdən alınan gəlirlər hesabına saxlayırdılar. Özününkülərdən qız almaq həddən artıq baha başa gəlirdi, çünki bu zaman ödənilməli olan başlıq ailəni başçısız qalacağı halda dolanmasına kifayət etməli idi. Bu səbəbdən də bir o qədər də varlı olmayan köçəri bədəvilər bir arvadla kifayətlənirdilər, üstəlik həmin qadının boşanmaq hüququ da olurdu, çünki nigah vətəndaş vəziyyəti sayılırdı. Beləliklə, müsəlman qanunçuluğu - şəriət qadına öz zövqünə müvafiq gələn ər seçmək imkanı verirdi. Zövq isə dəbə uyğun şəkildə ya qənimətlə qayıdan qəhrəmanlara, ya da evin hər ehtiyacını təmin edən ailəcanlı kişilərə üstünlük verirdi. Hər hansı bir halda, qərbdə də, Şərqdə də ehtiyac olmayan, bəzən isə hətta cəmiyyətə maneçilik törədən passionarlar qanuni xələfləri olmadan ölüb gedirdilər. Onların populyasiyadan yox olmaları xaricdən zərbələr etnosu lərzəyə gətirməyənədək hiss olunmurdu. Bu baş verəndən sonra isə məlum olurdu ki, həmin itiklər əvəzsizdir. Elə bu zaman cəhalət (obskurasiya) mərhələsi, yəni can vermə başlanırdı. Deməli, bizim belə bir iddia söyləməyə ixtiyarımız var ki, etnik proseslər sosial proseslərin bir növü deyil. Halbuki, daim onlarla qarşılıqlı əlaqədədir və tarixi coğrafiyanın rəngarəngliyi də [286-287] həmin əlaqədən doğur, çünki onda həm etnik, həm də sosial proseslər bir tuşda qovuşur.

Beləliklə, passionarlıq, sadəcə, "yaramaz meyllər" yox, etnik substratların yeni kombinasiyalarına həyat verərək, onları yeni superetnik sistemlərə çevirən mühüm irsi əlamətdir. İndi artıq biz onun səbəbini harada aramaq lazım gəldiyini bilirik: ekologiya və ayrı - ayrı adamların şüurlu fəaliyyəti istisna olunur. Geniş təhtəlşüur fəaliyyət sahəsi qalır ki, bu sahədə fərdlərə yox, kollektivin fəaliyyəti nəzərdə tutulur. Həm də passionar təkanın fəaliyyət müddəti əsrlərlə ölçülür. Deməli, passionarlıq bioloji əlamətdir, ətalət dincliyini pozan ilkin təkan isə müəyyən sayda passionar fərdlərin daxil olduğu nəslin meydana çıxmasıdır. Onlar artıq mövcud olmaları ilə hamının alışdığı şəraiti dəyişirlər, çünki günə dəlik qayğılarla, onları cəlb edən məqsəd olmyan bir şəraitdə yaşaya milmirlər. Əhatə edən mühitə qarşı müqavimət göstərmək zərurəti onları birləşməyə və əlaqəli şəkildə fəaliyyət göstərməyə vadar edir. Beləcə, dövrün ictimai inkişaf səviyyəsindən irəli gələn bu və ya digər sosial formalara çox sürətlə yiyələnən ilkin konsorsiya meydana çıxır. Əlverişli şərait olduqda passionar gərginliyin doğurduğu fəallıq bu konsorsiyanı ən əlverişli vəziyyətə yetişdirir, halbuki, pərakəndə halda olan passionarları ən qədim dövrlərdən bəri "ya qəbilədən qovur, ya da öldürürdülər". (20) Sinfi cəmiyyətdəki vəziyyət də elə buna oxşardır. Bunu qeyd edən A.S.Puşkin yazırdı: " .. yalnız ortabablığa gücümüz çatır və bizə qəribə gəlmir" (Yevgeni Onegin, fəs. VIII, IX).

Doğrudur! Passionarilər məhkumdur. Lakin onlar həmişə heç bir görməyə macal tapmadan həlak olsaydılar, biz indi də körpələri qurban verər, qocaları öldürər, öldürülən düşmənlərin cəsədini yeyər, qohum və dostlarımızı cadugərlər vasitəsilə məhv etməyə çalışardıq. Nə piramidalar, nə məbədlər, nə Amerikanın "kəşfi", nə cazibə qüvvəsinin ifadə olunması, nə də kosmosa uçuşlar olmazdı. Lakin bütün bunlar mövcuddur və hələ paleolit dövründə toplanmaqdadır. Əks halda, hazırda Yer üzündə müasir fransızlar, ingilislər, ruslar və i.a. yox, şumerlər, piketlər və b. yaşayardılar.

Passionarilərin ən faciəli şəkildə həlakı etnogenezin son mərhələlərinə təsadüf edir. Bu zaman onların sayı azalır onlarla obivatel kütlələri arasında qarşılıqlı anlaşma itir. 1203-cü ildə Bizansda məhz belə oldu. Səlibçilərin cəmi 20 min nəfərdən ibarət olan kiçik bir dəstəsi taxtdan salınan imperatorun oğlunu [286-287] onun yerinə oturmaq məqsədilə Konstantinopolun qala divarlarına yaxınlaşdı. Yunanlar 70 min nəfərlik qoşunla çıxış etmək imkanına malik olsalar da, qala divarlarına qalxaraq müqavimət

göstərən varyaq drujinasını və azsaylı cəsur könüllüləri dəstəkləmədilər.. şəhər ilk dəfə zəbt olundu: 18 iyun 1203-cü il və 12 aprel 1204-cü ildə. Sonuncu dəfə şəhər dəhşətli dağıntı və qənaətlər məruz qaldı. Səlibçilər isə şəhərə həmlə zamanı cəmi.. bir nəfər itirdilər! Passionarilər döyüşdə, digərləri isə tonqallara çevrilən evlərində həlak oldular. Qorxaqlıq heç kimi xilas etmir. Biz, axı müqavimət göstərmək üçün kifayət qədər qüvvə vardı? Yalnız salamat qalmaq yox, qələbə də qazanmaq mümkün idi. Müharibəyə əyalətlər qoşulandan sonra məhz belə də oldu - qələb çalındı və Konstantinopol azad edildi. Azad edildi ki, 1453-cü ildə eyni şəraitdə yenidən süquta uğrasın. Yenə də sakit oturub, qaliblərin onları qırmalarına imkan verən çoxlu adam oldu. Yaxşı, bəs bunlar nə cür adamlardır?

## XXV. SUBPASSİONARİLƏR

**Harmonik fərdlər**. Etnogenezdə passionarilərin rolu nə qədər böyük olsa da, onların etnos tərkibindəki sayı həmişə məhduddur. Axı, sözün həqiqi mənasında biz yalnız elə adamları passionari adlandırırıq ki, onlarda impuls həm fərdi, həm də növ özünümühafizə instinktindən qüvvətdir. Normal fərdlərin böyük əksəriyyətində bu impulsların hər ikimi tarazlaşır və bu, dərrakəli, işgüzur, mülayim, lakin bir o qədər də fəal olmayan harmonik fərd yaradır. Bundan əlavə, başqa bir adamın passionar fədakarlıqsız mümkünsüz olan qarşısıalınmaz özünü qurban vermək halları həmin adamlar üçün yad və xoşagəlməzdir. Bura elə şeyi də əlavə etmək zəruridir ki, qalıq etnoslarda olduğu kimi inkişaf etməkdə olan etnoslarda da fərdlərin böyük əksəriyyəti çox zəif passionarlığa malikdir. Fərd yalnız ondadır ki, dinamik etnoslarda aşıb - daşan enerjilərini öz sistemlərinin inkişafına sərf edən passionarilər var və fəaliyyət göstərir.

Lakin qeyd etməliyik ki, inkişafın intensivliyi heç də həmişə etnosa fayda gətirmir. Passionarlığın şüurlu məqsədəuyğunluğun nəzarətindən çıxaraq, qurucu deyil, dağıdıcı qüvvəyə çevrilməsinə səbəb olan “qızmalar” da mümkündür. Bu halda, harmonik şəxsiyyətlər öz etnoslarının xilaskarı olur, lakin bu da müəyyən həddə qədər baş tutur. [287-288]

Bu cür düşüncəyə malik adamlar etnosun cismində çox mühüm elementlərdir. Onlar etnosu yaşadır, passionar partlayışların gücünü bir qədər zəiflədir, artıq mövcud örnəklər əsasında maddi nemətlərin sayını daha da artırırlar. Xarici düşmən meydana çıxanadək onlar passionarilərsiz asanlıqla keçinir. Belə ki, vikinqlərin İspaniyada yaşayan xələfləri passionarlıqlarını tədricən itirdilər. XII əsrdə onlar uzaq diyarlara gəmilərdə yürüşləri, XIII əsrdə isə ailələr arasındakı qanlı qarşıdurmaları dayandırırlar. 1627-ci ildə yarımadaya yürüş edən Əlcəzair dəniz quldurları heç bir müqavimətlə rastlaşmadılar. Evlərinin yandırılması, qadınlarının zorlanmasına, övladlarının isə qul kimi tutulub aparılmasına imkan verən islandiyalılar da özlərində müqavimət göstərmək üçün qüvvə tapa bilmədilər (21).

Tutalım, hər hansı konkret halda digər izahlar da tapmaq mümkündür. Əlcəzairlilər peşəkar baş kəsənlər idi və ola bilər, gözlənilmədən hücum etməklə, çaşqınlıq yarada bilmişdilər; islandiyalılar Otuzillik müharibəyə qoşularaq o zaman məğlubiyyətlərə düçar olan metropoliyanın - Danimarkanın dəstəyindən tamamilə məhrum idi.. Nəhayət, bizim ideyamıza müvafiq olaraq, islandiyalıların passionar gərginliyi getdikcə azalmalı idi. Həqiqətdə də belə idimi? İki əsr sonrakı İslandiyaya nəzər salaq.

1809-cü ildə Reykyavikdə otuz əsgər, kapitan, qubernator və onun gözəl qızından ibarət Danimarka qarnizonu yerləşirdi. Həmin ilin iyun ayında yaxınlıqda qara bayraq altında bir gəmi peyda oldu və şəhərin təslimini tələb etdi. Danimarkalı zabit atəş açsa da, gəmidən atılan mərmi onu yaraladı və əsgərlər silahı yerə qoydular. Quldurlar sahilə çıxdılar və məlum oldu ki, onlara əvvəllər məşhur saatsaz olmuş və mənşəcə islandiyalı olan Yurgen Yurgenson başçılıq edir. Aydın oldu ki, bu alçaq qubernatorun qızına aşiqdir və onu özü üçün tələb edir. Üstəlik, özünü İslandiya kralı elan edən bu adam quldurlarına şəhər sakinlərini qarət etməyə icazə verdi. Xöşbəxtlikdən, qız ağır xəstələndi. Lakin islandiyalıların düşdükləri hala bir nəzər yetirin! Bir dəstə quldura heç bir müqavimət göstərilmədi. “Dənizləri cuşa gətirən”, İngiltərə, Normandiya və Vinlandı ələ keçirən, sayları minlərlə olanlar bir ovuc quldurun törətdiyi biabırçılıqlara dinməzcə dözür, nəinki müqavimət göstərmir, hətta qaçmağa belə cəhd etmirdi. Onlara qarşı çıxış edənlər isə heç də İspaniya və Fransanın kral donanmalarına meydan oxuyan cəsur mavrlar yox, Şimal dənizi [288-289] limanlarının bir ovuc tör - töküntüsü idi. Bu, passionarlığın azalması deyilmi?

Lakin çoxluğu hamı ilə eyniləşdirmək lazım deyil. Ayrı - ayrı adamlar soyuqqanlığı itirmədi. Ümumi qorxaqlıq və gücsüzlüyü aradan götürməyə qadir olmasalar da, özlərini qorumağı bacardılar. Bunların arasında füsunkar danimarkalı qızın nişanlısı da vardı. Balıqçı qayığında üzüb getməklə qurtulan bu gənc ingilis freqatı ilə rastlaşdı və kömək istədi. İngilislər tez Reykyavikə yaxınlaşıb top atəşinə tutmaqla hədələməklə quldurları təslim olmağa məcbur etdilər və onları qandalladılar. Qubernator və onun qızı xilas edildi. Dəniz quldurlarının başçısını mühakimə edən ingilis məhkəməsi ona bəraət verdi, çünki o, İngiltərə vətəndaşlarının mənafelərinə toxunmamışdı. (22) İslandlar isə kral - dəniz quldurunun altı həftəlik hakimiyyətindən sonra yenə də öz işlərilə məşğul olmaqda davam etdilər, çünki harmonik, sivilizasiyalı, özlərindən başqa hamı üçün ziyansız adamlar kimi bundan artıq bir şeyə qadir də deyildilər.

**“Səfillər”, “səfil-əsgərlər” və “səfihlər”.** Və nəhayət, etnosların tərkibində demək olar ki, həmişə “mənfi” passionarlığa malik adamlar kateqoriyası da mövcuddur. Başqa sözlə, onların hərəkətlərini vektorları passionar gərginliyə əks olan impulslar idarə edir.

İslandlar heç olmazsa, öz ailələrini dolandırmaq, həmçinin həyati əhəmiyyətə malik mənbələri: balıq tutduqları vətəgələri, qaqara tükü topladıqları qaqara koloniyalarını, sağmal qaramal otarılan kiçik otlaqları qoruyub saxlamaq üçün zəruri olan iş qabiliyyətini itirmədilər. Lakin qədim dövrlərin urbanist aqromerasiyalarındakı subetnik qurumlar qat - qat pis varisantlara örnəkdir. Roma vətəndaşlarının öz torpaq paylarını (bartsellər) itirmiş xələfləri I əsrdə Romada toplaşmışdılar. Onlar beşmərtəbəli evlərdəki kiçicik mənzillərdə sığınacaq tapır, “kloakadon”- hər cür murdar tullantıların Tibr çayın axıdıldığı dayaz dərədən qalxan üfunətlə nəfəs alır, insan səhhəti üçün zərərli olan qurğuşun piyalələrdən şərab içir və bütün bunlara baxmayaraq, hökumətdən daim “çörək və əyləncə” tələb edirdilər. Hökumət də verməli olurdu, çünki əks halda bu subpassionar kütlələr çörək payını artırmaq və sirkdə daha möhtəşəm tamaşalar göstərmək kimi vədlər verməklə çevriliş etmək niyyətinə düşən passionar fırıldaqçını dəstəkləyə bilərdi. Özünün dönməz məntiqinə əsaslanan subpassionaridə belə bir əminlik var ki, heç kim gələcəyi görə [289-290] bilməz. Səbəb isə ondan ibarət idi ki, çörək payı alan və sirk əyləncələrinin tamaşaçıları olan bu adamlar ehtimala əsaslanan proqnozlar verməyi bacarmırdılar. Ona görə də subrassionari alınan informasiyanı xoşagələn və xoşagəlməyən kimi iki növə bölür, ikincisinin daşıyıcılarını öz şəxsi düşmənləri sayır və əlverişli məqam tapan kimi onlara divan tuturdu.

Bütün bunların nəticəsi Romanın Alarıh tərəfindən fəthi (410-cu il) oldu. Həm bu zaman qotların sayı, İtaliya bir yana dursun, elə təkcə Roma şəhəri çevrəsində döyüş qabiliyyətinə malik və hərbi mükəlləfiyyətlərin sayından az idi. Hətta bu biabırçılıq da romalılara dərs olmadı. Qotlar onlarla mülayim davrandılar və qayıdıb getdilər ki, bu da təkrar arxayınçılığa səbəb oldu. Özünü Karfagenin qisasçısı adlandıran vandal Genzerixi Romanı ələ keçirdikdə isə (455-ci il) asanlıqla subpassionarilər qırğını törətməyə nail oldu, çünki harmonik və ziyansız islandiyalılardan fərqli olarq, bunları heç kim xilas etmək arzusunda bulunmadı. Vandal tarmarından sonra Roma artıq dirçələ bilmədi. Lakin ona bir o qədər də yazığımız gəlmir.

Yabançı barnarların dyeil, xəlifin pulla aldığı türk mənşəli qulların - qulamların sahib olduqları Bağdadda da eyni vəziyyət yaranmışdı. IX əsrdə artıq coca döyüşçüləri qalmamışdı. Onların xələfləri xırda ticarət və bazarlarda boşboğazlıq etməyə üstünlük veorirdilər. Xələfəni, bəzən isə zətta xilafətin sərhədlərini qorumaq üçün peşəkar döyüşçülər tələb olunurdu. Nə etməli, belələrini Orta Asiya çöllərindən və Nubiya səhralarından pulla almalı oldular. Onlar Bağdadda yeganə real qüvvəyə çevrildilər və istədikləri adamları xəlifə təyin etməyə başladılar. Nəhəng şəhərin əhalisi isə ağlayır, söylənir və eyhamlı lətifələr qoşur, lakin yenə də işləmədən yaşamaq və diz çökmüş vəziyyətdə ölməyi üstün tuturdu, təki ondan müdafiə olunmasını tələb etməsinlər.

Sistemin passionar gərginliyini itirməsi bu cür nəticələrə və idealın dəyişməsinə gətirib çıxarır. “Özü üçün yaşamaq” şüarı şərəfsiz məhvə aparan ən asan yoldur.

Ayrıca götürülmüş bir adamın passionarlığı həm yüksək , həm orta, həm də kiçik qabiliyyətlərlə uzlaşır; həmin adamın quruluşunun bir cizgisi olduğundan, xarici təsirlərdən asılı olmur; etnik normalara aidiyyatı olmadığından, eyni asanlıqla qəhrəmanlıqlar və cinayətlər, yaradıcılıq və dağıntı, xeyir və şər törədir və yalnız biganəliyi istisna edir; insanı “kütləni” ardınca aparan “qəhrəmana” da çevirmir, çüni passionarilərin əksəriyyəti [290-291] elə məhz həmin “kütlənin” içində olmaqla, müəyyən məqamlarda onun nəyə isə qadir olmasını və fəallığını şərtləndirir. tarixdə subpassionari qrupları “səfillər” və peşəkar muzdlu əsgərlərlə (landsknextlər) ən parlaq şəkildə təmsil olunub. Onlar dünyanı nə dəyişmir, nə də dəstəkləmir, sadəcə olaraq, onun sayəsində dolanırlar. Mütəhərrik olmaları sayəsində çox vaxt etnosların talelərində mühüm rol oynayır, subpassionarilərlə birlikdə istila və çevrilişlər edirlər. Lakin passionarilər özlərini subpassionarilərsiz də göstərə bildikləri halda, sonuncular passionarilərsiz heç nədir. Ondar dilənçilik və soyğunluğa qadirdir ki, bu zaman sırf passionarlıq daşıyıcıları, yəni əhalinin əsas hissəsi onların qurbanı olur. Lakin bu halda “səfillər” mümkündür: onları izləyib tapır və məhv edirlər. Bununla belə, onlar hər nəsildə meydana çıxırlar.

**Passionarlığın dərəcələri**. Passionariləri “kütləni” ardınca aparan “qəhrəmanlar”la eyniləşdirmək, “səfil-əsgərləri” isə “aparılanlar” adlandırmaq cazibəli görünsə də, tarixi hadisələrin mexanizmi bir o qədər də sadə deyil. Baniləri istisna olmaqla, ispan Habsburq və fransız Burbonlar sülaləsinin nümayəndələri, həmçinin, onların saray əyanlarının əksəriyyəti ən adi adamlar idi. Sonuncular arasında vaxtaşırı olaraq, Fuke və Con Lo, yaxud Manuel Qode kimi fırıldaqçı - nazirlər meydana çıxırdı. Lakin idalqo və şevalyelər, tacirlər və korsarlar, missionerlər və konkistadorlar, humanistlər və rəssamlar birlikdə elə bir daxili gərginlik yaradırdılar ki, İspaniyanın XVI, Fransanın isə XVI-XVII əsrlərdəki siyasəti etnogenetik prosesin tərkib hissəsi kimi təsvir edildiyi halda, bu etnosların yüksək passionarlığını əks etdirəcək.

Bu səbəbdən də, passionarilərin tez - tez xalq hərəkatlarına başçılıq etmələrinə baxmayaraq, onları “aparıcılar” yox, “təkanverənlər” adlandırmaq doğru olar, çünki onların xeyli hissəsi heç bir xatirə qoyub

getmədən həlak olmasa ənənəni, yəni ətaləti qırmaq mümkün deyil. Qədim ispan balladası da elə buna həsr olunub:

Olivyeroya, Rolana nəğmələr bəstələyirlər,
Cəsur kapitan Surrakin heç yada düşmür.
Rolan da vəsf olunub, Olivyero da vəsf olunub,
Cəsur kabalyero Surrakın unudulub. [291-292]

Beləliklə, biz azalmaqda olan passionarlığın üç dərəcəsini qeydə aldıq. Lakin zərurət yaranarsa, dərəcələmə daha da artırıla bilər. Ona görə də üçüncü xarakteroloji tipi “subpassionarilər” adlandırmaq doğru olar. Ən əsası isə qeyd etdiyimiz tipləri sinfi, yaxud zümrə təbəqələrilə qarışdırmamaqdır. Onlardan istənilən biri hər üç tipi, lakin müxtəlif cür əlaqələnmiş şəkildə və dominatlara malik halda ehtiva edir. Onların etnos daxilində nisbətlərinin həm miqdarı, həm də vektor dəyişməsini etnogenez prosesi şərtləndirir.

Bu tezis o qədər mühümdür ki, passionarlıq anlayışını bir daha örnəklərlə açıqlayaq və bu dəfə əyanilik üçün tarixi yox, problemə çox yaxınlaşmış A.S.Puşkinin əsərlərindən ədəbi xarakteristikalardan yararlanacağıq.

Heç də “qəhrəman”, yaxud “rəhbər” olmayan tipik passionarilər aşağıdakılardır: tamahkarlıq mərəzinə tutulan Xəsis cəngavər; yalnız qələbə əldə etmək naminə məhəbbət macəralarına can atan Don Juan; paxıllığından Motsartı öldürən Solyeri; qısqanclıqdan Zemfiranı qətlə yetirən Aleko. Puşkinin qəhrəman olmayan passionari və başçıları - Mazepa və Puqaçov (tarixi prototiplərindən kifayət qədər fərqli olsalar da), passionari olmayan qəhrəmanlar isə vətəndaşlıq və insanlıq borcu naminə həyatlarını təhlükə altına qoyan Qrinyov və Maşenka Mironovadır. “Savaşda şöhrətlənmək aşiqi, dəbilqə naminə tacı kənara atan”, yəni ölkəsinin mənafeyini öz şəxsi mənafelərinə qurban verən, kral olmasına baxmayaraq, “rəhbər” olmayan passionari və qəhrəmana örnək isə XII Karldır. Rusiya qarşısında borcunu yerinə yetirən, öz şıltaqlıqlarının qulu olan daha güclü harmonik şəxsiyyət kimi təsvir olunmuş I Pyotr ona qarşı qoyulur. Puşkinin bədii təxəyyülü onları belə görürdü və bu həqiqətə yaxındır, çünki şəxsi xassələri: qızğınlığı, uşaq kimi qəddarlığı və s. istisna olunmaqla, Pyotr öz atasına bənzəyirdi, yəni dövrünün adamı olub, hələ XVII əsrin əvvəllərində Mixail Fyodoroviç dövründə meydana çıxan rus mədəni ənənəsinin istiqamətlərindən biri olan Avropa ilə yaxınlaşma xəttini davam etdirirdi. Lakin bu zaman Pyotru nə rəhbər, nə də qəhrəman olmayan Menşikov, Romadonski, Kikin kimi passionarilər əhatə edirdi. Odur ki, passionariləri rəhbərlərlə tutuşdurulması uydurmadır və bunda məqsəd davranış əlamətlərindən birinin təsvirini bayağı, çoxdan kənara atılmış nəzəriyyəyə aparıb çıxarmaqdır.

Ən müxtəlif adamların hərəkətinin bütün motivlərini mənfəət əldə etmək istəyinə bağlayan və mənfəət dedikdə yalnız pul və ona [292-293] bərabər sərvətlər nəzərdə tutan əks baxım da elə həmin dərəcədə cəfəngdir. Subpassionar obivatelin bu bayağı mövqeyi çox vaxt materializm kimi təqdim olunsa da, əslində, ona heç bir aidiyyatı yoxdur. Bir qayda olaraq, obivatel təxəyyüldən məhrumdur. O, özünə bənzəməyən, digər ideallarla yaşayan, yalnız pula deyil, başqa dəyərlərə doğru can atan adamların olduğunu təsəvvür belə etmir və bunun istəmir. Bilavasitə mənfəət konsepsiyası heç vaxt dəqiq ifadə olunmayıb, çünki bu halda onun cəfəngiyyat olduğu əyani şəkildə görünərdi. Lakin təbii bir şey kimi hər hansı məsələ ilə ilgili mühakimələrdə özünə yer tapdığından, hətta elmi mühakimələrə də sirayət etdiyindən, özünə qarşı diqqət tələb edir.

**Hannibal və Karfagen**. İndi isə bizim baxımımızdan Hannibalın İkinci Rus savaşı dövründəki davranışını araşdıraq. Barka nəsli Karfagendə ən zəngin ailələrdən biri idi. Hannibalın atası Numidiya və İspanuyanı özünə tabe etməklə sərvətini bir qədər də artırdı, Hannibal isə faktiki olaraq, buralarda çarlıq edirdi. Roma ilə savaş Hannibala heç bir mənfəət gətirməyəcəkdi, əksinə, son dərəcə böyük təhlükəli idi. Şəxsi maraqlar baxımından savaş Hannibala heç lazım olmasa da, vətəni Karfagen üçün qaçılmaz idi. Axı, təsadüfi bir ox Karfagen sərkərdəsinin sinəsinə saplansaydı, onun ölümünü heç bir hərbi qənimət əvəz edə bilməzdi. Üstəlik, onun özünün də pula heç bir ehtiyacı yox idi. Bəlkə o, həmvətənlərinin iradəsini yerinə yetirirdi? Əsla. Onlar savaşa girmək xahişi ilə çıxış etməmişdilər, ən həlledici anda kömək göndərmədilər və ona özü üçün deyil, ümumi iş üçün nə isə etmək lazım gəldiyini hiss edən obivatelin qadir olduğu ehtirasın bütün qüvvəsilə nifrət edirdilər. Belə hallarda obivatel ona hər hansı bir mükəlləfiyyətdən boyun qaçırmaq imkanı verən bəhanə arayır. Əlbəttə, bu, bir qədər də uzaqgörənlik olmasa da, insanlar heç də həmişə tədbirli olmurlar ki, bu da faciəvi nəticələrə gətirib çıxarır. Bir sözlə, şəxsi mənafeyi naminə Hannibal Hadesdə oturub, kef etməli, Karfagen ağsaqqalları var qüvvələri ilə öz sərkərdələrini dəstəkləməli, miqyaslı süvarilər nifrət etdikləri finikiyalı müstəmləkəçilərin yolunda həlak olmamaq üçün fərailik etməli, ispaniyalı sapandatanlar isə üsyan qaldırıb, öz azadlıqlarını qaytarmalı idi. Əslində isə hər şey əksinə oldu! Baş verən hadisələr nəticəsində Karfagenin zəngin punik ədəbiyyatı yox oldu. Əhalisinin sayı milyonu ötmüş Romanı buğda ilə təmin etməli olan Atlas dağları ətəklərindəki münbit torpaqlar qüvvədən salındı və yiyəsiz qaldı. Romalıların qəddarlığından qurtulmağa can atan [293-294] bərbərlər Qərbi Saxaranın o zamanlar hələ yaşıllıqlar içində olan düzənliklərinə köçdülər. Onların sürülərinin

dırnaqları altında torpağın yaşıl örtüyü məhv olduğundan, həmin ərazilər daş səhralara çevrilməyə başladı. Hannibal dövründə Şimali Saxarada çaylar axır, fillər dolaşır, atlar otladığı halda, Roma və ərəb istilaçılarının iki minillik antropogen təsirindən sonra bütün bu zəngin faunanı tənha gəzib dolaşan dəvə əvəz etdi.

Lakin biz belə möhtəşəm dəyişiklərin səbəbini etnoqrafiya və fiziki coğrafiyada tapmağa cəhd göstərsək belə bir şey aydın olar: Karfagen obivatellərinin subpassionarlığı abır bir yük kimi Barka nəslinin passionarlığının üzərinə düşmüşdü. Məğlubiyyətlə nəticələnən müharibəyə, mühasirədə olan Karfagenin qala divarları arasında həlak olmalarına bais olan da elə odur. Nubiyanın fəthi və landşaftın məhvi kimi sonrakı hadisələr də onların davamı idi.

Bəs, başqa cür ola bilərdimi? Əlbəttə! Hannibala vaxtında yardım edilməsi Romanın məhvi, samnitlər və tsizalpin qallarının azad edilməsi, həddən artıq şişirdilən, süni urbanlaşmanın dayandırılması, bununla da Apenin yarımadasındakı cökə və palıd meşələrinin, Kapuya və Tarent, Arno vadisindəki kiçik errusk şəhərcikləri ətraflarındakı üzüm bağlarının deməkdi. Qalliyanın sərvətləri və Elladanın sənət inciləri uzun müddətə təhlükəsiz əldə edər, lakin nə Appi yolu, nə Karakalla termləri, nə də sonrakı dövrlərin məktəblərində latın dilinin tədrisi olmazdı. Amma bu halda da istehsal münasibətlərinin inkişafı öz yolunun davam etdirəcəkdi. Ölməkdə olan antik quldarlığın yerini tutan feodalizm bir qədər tez və ya bir qədər gec gələcəkdi. Bəşəriyyətin sosial inkişafı dedikdə ictimai - iqtisadi formasiyaların əvəzlənməsi nəzərdə tutularsa, passionar eniş və yüksəlişlər həmin inkişafa təsir göstərmir. Həm də idrakın hökmdar olduğu bir yerdə emosiyalar nəyi və necə dəyişə bilər. İndi isə bunun niyə belə olduğunu görəcəyik.

## XXVI. PASSİONARLIĞIN ZƏİFLƏMƏSİ

**Partlayış və kül**. İndi artıq demək olar ki, etnogenezin "başlanğıc məqamı" - populyasiyada qəfildən müəyyən sayda passionar və subpassionar adamın meydana çıxması: yüksəliş mərhələsi - ya təbii artım, ya da inkorporasiya (qoşulma, ilhaq, - tər.) yolu ilə passionar fərdlərin sayının sürətli artımı; akmatik mərhələ - passionarilərin maksimum sayda olması; çat mərhələsi [294-295] - onların sayının kəskin azalması və subpassionarilər tərəfindən sıxışdırılıb çıxarılması; ətalət mərhələsi - passionar fərdlərin sayının tədricən azalması; cəhalət mərhələsi - passionarilərin demək olar ki, bütövlükdə subpassionarilərlə əvəz olunması deməkdir. Sonuncular öz təbiətlərinə müvafiq olaraq, ya etnosu bütövlükdə məhv edir, ya da onu yadellilərin kənardan müdaxiləsinədək məhv etməyə macal tapmırlar. İkinci halda harmonik fərdlərdən ibarət olan və məskunlaşdıqları biosenoza ən yüksək, tamamlayıcı həlqə kimi daxil olan qalıq mühafizə olunur.

Yalnız yazıya alınmayan tarixləri əsrlərin zülmətində itib getdiyi üçün primitiv saydığımız bütün etnoslar həmin etnosdaxili təkamülü keçiblər. Lakin elə həmin səhnəni tarixdə də müşahidə edirik. Onun ən bariz təzahürləri isə özünü subetnik bütövlərdə, məsələn, Sibir kazaklarında göstərir.

XVV əsrdə ruslaşmış xəzərlərin xələfləri rusca olan "brodniki" adını türkcə "kazaklar"la əvəzlədilər. XV-XVI əsrlərdə onlar çöl noqaylarının qəniminə çevrilərək, Sibir ərazisində savaşa başladılar və sonuncu noqay xanı Küçümü məhv etdilər. Moskva hökumətindən yardım alan kazaklar bir əsr ərzində bütün Sibiri fəth edərək, Sakit okean sahillərinə yetişdilər. Əlavə qüvvələrə ehtiyacı olan kazaklar velikorosları öz sıralarına həvəslə qəbul etsələr də, həmişə onları özlərindən fərqləndirirdilər. Bu adamların hamısını birlikdə təzə torpaqlar fəth edənlər - zemleproxodtsı adlandırırlar.

XVII əsr rus zemleproxodetsləri dikbaş, comərd və tərs adamlar idi. Onlar nə rəislərdən, nə də şimalın ağır iqlimindən çəkinmirdilər. Yüzbaşı Pyotr Beketovun Lena sahilində ilk qışlağın əsasını qoyduğu 1632-ci ildən kazak Semyon Motoranın Anadır yürüşünün baş verdiyi 1650-ci ilədək kazaklar Sibirin bütün şimal - şərqini keçib getdilər və samur xəzlərilə ödənilən yasaq hesabına konkistadorların Amerika qızılından qazandıqlarından heç də az olmayan gəlir əldə etdilər. Onlar bir birinin ardınca tayfalardan yasaq toplayır, bəzən isə kobud qayıqlarda Şimal buzlu okeanına da çıxırdılar. Lakin artıq XVII əsrin sonunda onların xarakteri dəyişməyə başladı. Yürüşlərdən: "Qayıqlarımız zəif, yelkənlərimiz isə kiçikdir. Böyük gəmilər düzəltməyi isə bacarmırıq". XVIII əsrdə şimali Sibirin rus əhalisi sanki kristallaşır. Təşəbbüs və fəallıq tamamlə yox olur, ilgilik cəsarətsizliklə əvəzlənir". (23) Nəhayət, XIX əsrdə kazakların xələfləri çukçalar tərəfindən məğlubiyyətə uğradılar və vəzifəsinin icrasında yol verdiyi qüsurlara görə [295-296] cənubdan Şimala göndərilən hər bir dövlət məmurunun heç bir hüquqa malik olmayan qullarına, dövlət təhkimlərinə çevrildilər. İspan konkistadorlarının, Kanadadakı fransız kolonistlərinin (hindularla qarışanlar istisna olmaqla) Hind okeanı hövzəsində isə ərəb və portuqal tacirlərinin, qədim dövrlərdə isə vikinq və ellinlərin xələflərini də eyni şəkildə və eyni xronoloji müddətlərdə elə həmin tale nəsib olduğundan, təsvir edilən prosesi qanunauyğun saymaq olar. Passionarlığın israf edilmiş enerjisi partlayışdan sonra əvvəlcə qızmar, daha sonra isə soyuq və rütubətli olan kül qoyub gedir.

Belə bir təsəvvür yaranır ki, konkistadorların tamahgirliyi, Makedoniyalı İsgəndərin məğrurluğu, Sullanın şöhrətpərəstliyi və Qusun alovlu inamı bir birinə bənzəməyən hadisələrdir. Xarici görünüşdə bu belə olsa da, onların və onlara bənzər bir çox hadisələrin əsası birdir - passionarlıq. Səbəb isə aşağıdakıdır.

Sadalanan bütün örnəklərdə xüsusi olaraq qeyd edilir ki, passionarlıq əlaməti, yaxud impuls yalnız fərd deyil, populyasiya üçün səciyyəvidir. Diqqəti ayrı -ayrı fərdlər üzərində cəmləşdirməklə məqsədimiz əlamətin özünü mümkün qədər qabarıq şəkildə nəzərə çarpdırmaq olub. Həqiqətdə isə proseslər daha mürəkkəbdir. Doğrudur, bu mürəkkəblik sistem tətbiq etmək və ona ardıcıl riayət etməklə proseslərin araşdırılmasını çətinləşdirmək səviyyəsinə qədər qalxdı.

Əvvəlcə belə bir təsəvvür yarana bilər ki, fərd və ya sistemin passionarlığı yüksək olduqca, ictimai qrupun yaradıcılıq həyatı və etnosun mədəniyyəti bir o qədər zəngin olur. İtaliyadakı dövrü isə istedadlı adamlarla zəngin olduğundan, onu etnogenezin akmatik mərhələsi kimi qəbul etmək fikri də yarana bilər. Lakin Xv əsrdə İtalyan etnosu çox ağır bir dövrü çat mərhələsini yaşayırdı. Milanda kondotyerlər Viskonti və Sfortsa, Florensiyada Mediçi nəsli bərqərar olmuşdu, Romada papalar açıq - aşkar hepotizm və simoniyanı (tanışbazlıq və satqınlıq) dəstəkləyir, Neapol və Siciliyada kobud, davakar, humanizmdən uzaq ispanlar hökmranlıq edirdilər. Vaxtilə italyanlara alman imperatorlarının sərt hakimiyyətindən xilas olmaq imkanı verən şəhər respublikaları, vətənpərvərlik və comərdlik ənənələri tamamilə itib getmişdi. Məhz belə bir ümumi çürümə fonunda incəsənət və elmin parlaq çiçəkləri açıldı - rəssamlardan Beato Anjeliko və bottiçelli, hemanistlərdən Can Coviano Pontano, Lorenso Valla, Marsillo Fiçino və Piko della Mirandola. [296-297]

Lakin XVI əsrin birinci yarısında baş verən və Leonardo da Vinçi, Rafael Sansio, Mikelancelo Buonarotti, Tisyan, Ariosto, Makiavellinin adları ilə nişalənən “Yüksək İntibah” İspaniya ilə Fransa arasında sürəkli savaşlar fonunda cərəyan etmişdir ki, bu zaman İtaliya savaşın iştirakçısı yox, bir birilə mübarizə aparan yırtıcılar üçün savaş meydanı idi. Bu savaşlar 1494-cü ildə İtaliyaya Fransanın soxulması və 1525-ci ilədək bu ölkəyə hökmranlıq iddiasında olması ilə başlandı. Paviya ətrafında fransızları məğlubiyyətə uğratdıqlan sonra müharibəni zəfərlə başa vuran imperator V Karl qoşunlarını italyanlrın müqavimətini qırmaq üçün göndərmək məcburiyyətində qaldı və 1527-ci ildə Romanı dəhşətli dağıntılara düçar etməklə buna nail oldu.

İtalyanların dinməzcə oturub, müstəbidlərin zülmünə itaət göstərdiklərini iddia etmək heç də doğru olmaz. Xilas olmaq məqsədilə onlar bəzən hətta yadelli qonşuların dəstəyindən də yararlanırdılar. Belə ki, 1494-cü ildə fransızlar Florensiyaya yaxınlaşarkən şəhərdə Mediçilərin hakimiyyəti devrildi və hakimiyyətə dominikan rahibi Savonarolenin əlinə keçdi. 1498-ci ilə Savonarelinin həlak olması da vəziyyəti yüngülləşdirmədi. Yenidən yaradılan respublika özünün tam gücsüzlüyünü nümayiş etdirdi və 1512-ci ildə Mediçilərin hakimiyyəti yenidən bərpa olundu. Respublikasının bərpası üçün dahi rəssam Mikelancelonun iştirakı ilə 1527-ci ildə edilən ikinci cəhd də 1530-cu ildə imperiya qoşunları tərəfindən ləğv edildi. “Florensiyanın qəhrəmanlıq dövrünün bitməsilə italyan İntibah mədəniyyəti də başa çatdı”. (24)

XVI əsrin ikinci yarısında İtaliya İspaniyanın nüfuz dairəsinə düşdü. 1563-cü ildə Trident kilsə toplantısında qəbul olunmuş Kontrreformasiya, əslində isə yeni katolismizm prinsipləri İtaliyadakı bütün xalq deyil, düşünmək qabiliyyətinə malik tək - tək fərdlərin müqavimətilə rastlaşdı. Katolik irtica onları çox asanlıqla aradan qaldırdı. Cordano Bruno yandırılandan, Kampanella məhbəsə atılandan və Qaliley öz fikirlərindən imtina etdikdən sonra tam tənəzzül başladı və həmin dövr 150 ilədək davametdi. (25) İtaliyanın passionarlığı başa çatdı. Passionar və yaradıcı “çiçəklənmələrin” üst -üstə düşməməsini necə açıqlamalı?

Zəif, lakin təsirli passionarlıq.Görünür, təsvir etdiyimiz parlaq örnəklərdən savayı, daha zəif ifadə olunan variantlar da olmalıdır ki, bu zaman passionari özünü tonqala atmasa da (Qus və Sulla), öz məqsədi naminə çox şeyi qurban verir. Qoqol və Dostoyevskinin yaradıcılıq ehtirası ilə yanmaları, Nyutonun [297-298] könüllü tərkibdünyalığı, Vrubel və Musorqskinin üzgünlüyü - butun bunlar da passionarlığın özünü büruzə verməsinə dair örnəklərdir, çünki “birbaşa hərəkət” (26) şücaəti kimi, elm və ya incəsənətdəki qəhrəmanlıqlar da fədakarlıq tələb edir. Etnogenez proseslərində alim və incəsənət ustaları da mühüm rol oynayır, hərçənd ki, bu rol siyasi tarix xadimlərinin rolundan fərqlidir. Onlar öz etnoslarına özünəməxsus çalar verir və bununla da onu digərlərindən fərqləndirir, ya da etnoslararası təmasa yardımçı olurlar ki, nəticədə superetnik bütövlər və mədəniyyətlər təşəkkül tapır. Bir qədər az gərginliyə sahib olsalar da, qotik məbədlərin adları naməlum qalan inşaatçıları, qədim rus memarları, nağılları yadan adamlar və digər ağır peşələri yalnız qəlblərinin çağırışına seçən bir çox başqaları passionarilərə aiddir. Aydın məsələdir ki, qəbul etdiymiz təsnifata görə həmin bölməyə düşən istedadlı salnaməçilər də bu cür qəbildən olan adamlardır.

Sistemin passionar gərginliyinin nisbətən zəif, lakin yaradıcı dərəcələrinə diqqət yetirək. Bunlar ikidir: biri, sistemin “akmatik mərhələ” adlandırdığımız “həddən artıq qızma”yan əvvəlki yüksəlişi dövründədir, ikincisi isə “ətalət mərhələsi” adlandırdığımız mərhələyə keçidi işarələyə və çat mərhələsində yerləşir. Obrazlı şəkildə desək, bizi maraqlandıran hər iki məqam etnik sistemin passionarlığın artımını göstərən əyrinin sapıntılarıdır(+-). Onu da qeyd edək ki, hətta tənəzzül zamanı da gərginliyin tam itirilməsi xeyli müddət tələb edir. Passionarlığın bir o qədər yüksək olmayan belə bir səviyyəsi zaman davranış stereotipi və insanın ictimai imperativi onu özünün seçdiyi ideal və ya hətta xəyali məqsəd naminə özü də hiss etmədən könüllü şəkildə ölümə təhrik edəcək halda deyil. Lakin bu dövrdə etnosda olan passionar

gərginlik həmin məqsədə can atmaq və əhatəsində olduğu reallığı azacıq olsa da dəyişmək üçün kifayət edir. Məhz bu zaman müvafiq qabiliyyətlərə malik insanlar müasirlərini inandırmaq və ofsunlamaq məqsədilə özlərini elm və ya incəsənətə həsr edirlər.

Həm şer, həm rəsm əsərləri, həm də teatr tamaşaları onları qavrayan adamlara təsir göstərir, onları dəyişdirir və biz bu dəyişmənin yaxşılığa, yoxsa pisliyə doğru olması məsələni heç qoymaq fikrində də deyilik. Belə qabiliyyətlər olmadıqda isə adamlar sərvət toplayır, karyerası ilə məşğul olur və i.a. Passionarlığın bu səviyyəsinin hakim olduğu tarixi dövrlər mədəniyyətin çiçəklənməsi kimi nəzərdən keçirilsələr də, bunlardan [298-299] sonra həmişə iki mümkün qəddar dövrdən biri gəlir:  ya passionarlığın yüksəlişi zamanı artıq təsvir etdiyimiz "həddən artıq qızma" baş verir, ya da onun tədricən azalması zaman tənəzzül bərqərar olur. Belə ki, İntibahi (XIV-XV əsrlər) Reformasiya  (XVI-XVII əsrlər) əvəz etdi, Otuzillik müharibə, qugenot savaşları və draqonadanın dəhşətlərindən, Engelsin təbirincə desək, Roberspyer və Napoleonu bir simada birləşdirən Kromvelin "dəyirmibaşları"nın qəddarlıqlarından sonra passionarlıq səviyyəsinə görə İntibaha bənzəsə də, vektoruna görə onlan fərqli olan nisbətən sakit bir dövr bərqərar oldu (XVIII əsr). Əvvəldə səviyyə yüksəlsə də, kataklizmdən sonra enmə başladı. Bu o deməkdir ki, passionarilərin nisbi faizi azalmış, onların yerlərinə isə təhlükəsizliyi riskdən, sərvət yığımını sürətlə varlanmaqdan, sakit və harın yaşamağı sərgüzəştlərdən üstün tutan adamlar gəlmişlər. Onlar passionarilərdən nə pis, nə də yaxşı idilər. Sadəcə, bunlar başqa adamlardı.

Bu proses heç vaxt və heç yerdə mənbələr tərəfindən qeydə alınmayıb, çünki yalnız dövr və ölkələrin geniş əhatəyə malik qarşılaşdırılması zaman bütövlükdə üzə çıxır. Odur ki, onun təsvirini yalnız etnologiya vasitələrilə və etnik çərçivəsində vermək mümkündür.

Lakin demək olardı ki, daha az gərginliyə malik passionarilər - rəssam, şair, alim, qulluqçu, və b. etnogenezdə rol oynamırlar, yaxud bu rol sərkərdə, konkistador, yeresiarx və ya demaqoqların oynadıqları roldan daha az önəmlidir? Xeyr, bu rol heç də az önəmli olmayıb, yalnız tamamilə başqadır. Biz artıq qeyd etmişdik ki, soydaşlarının dəstəyini almayan çox  böyük passionar gərginliyə malik şəxsiyyət də heç nəyə nail ola bilmir. Müvafiq mənəvi durum yaratmaq üçün ən gözəl vasitə isə məhz incəsənətdir. O, ürəkləri ahəngdar şəkildə vurmağa məcbur edir. Elə bu səbəbdən də iddia edə bilərik ki, iğalyan etnosunun bütövləşməsi üçün Dante və Mikelancelo heç də Sezar Borcia və Makiavellidən az ih görməmişlər. Təsadüfi deyil ki, ellinlər Homer və Hesioda Likurq və Solona bəslədikləri qədər ehtiram bəsləyir, qədim farslar isə Zərdüştü Dari I Gidaspdan üstün tuturdular. Passionarlıq etnosu müxtəlif dozalarda bürüyüncə inkişaf davam edir və bu yaradıcı əməllərdə öz ifadəsini tapır. Lakin oxucusuz şair, müəllimsiz və davamçılarsız alim, dindarlarsız peyğəmbər, əsgər və zabitlərsiz sərkərdə ola bilmədiyindən, inkişaf mexanizmi bu və ya digər [299-300] fərdlərdə yox, passionar gərginliyin bu və ya digər dərəcəsinə malik etnosun sistem bütövlüyündədir.

Persistent etnosların üzvləri qonşuları və səyyəhlar tərəfindən qeyd olunan və kifayət qədər yüksək dəyərləndirilən bir çox məziyyətlərə malik olur. Məsələn, səyyahlar "yeni kəşf edilən" hindu, polineziyalı, tanqut, evenk və ayniləri çox tərifləyirdi. Anatomiya və fiziologiyalarına görə onlar öz areallarının landşaftına tam uyğunlaşaraq yaşayan tamamilə normal adamlar olsalar da, passionar gərginlikləri o qədər azdır ki, etnosların inkişaf prosesi sönmək üzrədir. Hətta onlar arasında təsadüfən passionar adamlar meydana çıxdıqda belə, həmin adamlar qüvvələrini öz vətənlərində yox, kənarda tətbiq etməyə can atır. Məsələn, XV-XVIII əsrlərdə albanlar xidməti irəliləyişə ya Venetsiya, ya da İstanbulda nail olurdular. Müasir buşmen, qond və Yukatandakı maya xələflərinin passionarlığı bir qədər də aşağıdır. Bundan da aşağı səviyyə isə biganəlik (apatiya), yəni cılızlaşma və məhv olmadır. Lakin bu artıq nəzəri ektrapolyasiyadır, çünki real həyatda qonşular zəifləmiş etnosun ölüb getməsinə imkan vermədən onun işini bitirir.

Deyilənlərdən belə bir nəticə çıxır ki, etnosun həyatında ən ağır dövr çatdıq - passionarlığın son dərəcə gərginləşdiyi akmatik mərhələdən ətalətin əqləuyğun şəkildə bərqərar olmasına, daha sonra isə homeostazın qayğısız dincliyinə keçiddir. Məqsəd və vəzifələr dəyişməsə də, qüvvələr azalmaqdadır. Harmonik və subpassionar adamların nisbəti artır, "fanatik" adlandırılmağı başladığı yaradıcı və vətənpərvər fərdləri bütün səylərini demək olar ki, puça çıxarır. Etnosların azsaylı, lakin passionar rəqiblərin qurbanı olmasını da elə "özününkülər"in daxildən dəstək verməsidir. XX əsrin bir yazıçısı ölümqabağı deyib ki, "biganələrdən qorx".

Bir qədər əvvəl artıq göstərmişdik ki, etnosun həm qırılmaq, həm də assimilyasiya yolu ilə məhvindən əvvəl onun daxili strukturunun sadələşməsi və davranış stereotipinin kasadlaşması gəlir. Qeyri - adi fərdləri öz mühitində məhv edən ortabablıq kollektivi zəruri olan rezistentliklən məhrum edir və nəticədə özü də qonşuların qurbanına çevrilir. Burada yalnız dağ və ya səhranın qalıq etnosun son sığınacağı olduğu hallar istisnadır. Filogenezlə etnogenez arasında tam da olmasa, məlum analogiya olsa da, mütərəqqi sosial inkişaf tarixi materializm nəzəriyyəsində kifayət [300-301] qədər dolğunluqla təsvir edilən tamamilə başqa qanunauyğunluqlara tabedir.

Bastardlar. Qeyri -adi əlamət olmaqla passionarlığın itirilməsi prosesi sosial şərait  xaricində baş versəydi, o, sürətli, əyani və demək olar ki, nəticəsiz olardı. Lakin etnik tarixin mürəkkəb keşməkeşlərində ictimai - iqtisadi proseslərlə daimi qarşılıqlı təmasda passionarlığın rolu və əhəmiyyəti bir qədər

pərdələnib. Odur ki, yenə tarixə qayıdaraq, ətraflı araşdırılmış dövrə aid örnəklərə müraciət edək. Belə örnəklər bizə tam araşdırılmayan materiallara əsaslanan anlaşılmazlıqlardan yaınma imkanı verər.

Qərbi Avropa passionarilərini müstəmləkəçilik xəstəliyi məhv edirdi, çünki Qərbi və şərqi Hindistandan çox az adam geri qayıdırdı. Başqa bir səbəb sifilis xəstəliyi idi. Ondan ən çox dənizçilər və əsgərlər ziyan çəkirdi. Sonuncular o dövrdə könüllü şəkildə bu peşəni seçdiklərindən, ya passionari, ya da "səfil əsgər", yəni subpassionarilər idi. Əhalinin şəhər və kəndlərdəki ətalətli hissəsi bu iki bədan daha az əziyyət çəkdiyindən, sistemin passionar gərginliyi azalırdı. Lakin proses gözlənildiyindən daha ləng cərəyan edirdi. Passionarlığın azalmasına əngəl olan bir cəhət mövcud idi.

Məsələ ondadır ki, müharibədə həlak olmayan əvvəl passionari təsadüfi əlaqələr sayəsində öz genofondunu populyasiya yaymağa macal tapırdı. Gənci qanlı savaşa təhrik edən fəaliyyət istəyi onunla həmyaş olan qızlara iəftun etdiyindən, onlar bu hissələrini özlərinə məxsus şəkildə biruzə verirdilər. Yüksək passionar gərginlik dövrlərində ictimai rəy belə hərəkətlərinə görə bir o qədər də sərt mühakimə etmirdi. Riyakarlıq yalnız passionarlığın zəifləməsilə meydana çıxdı. Orta əsrlərdə "bastard" sözü heç də təhqiramiz deyildi. VII Karl dövründə Fransanın konnetablı olmuş Dünya hətta prins - bastard adlanırdı. Həm də belələri çox idi. Yüzillik savaş zamanı əyanlarla meşşan zümrəsinə mənsub qızların izdivacından doğulan oğlanlar "ağ dəstələri" təşkil edən səfil - əsgərlər, yəni subpassionarilər kimi özlərinə cəngavər titulları və mülklər qazanırdı. Bu dəstələr "kasıb, lakin inadkar, həm öz vətənlərində, həm də onun sərhədlərindən kənarda yalnız öz mənfəətini arayan qüvvətli adamlardan ibarət idi". (27) 1431-ci ildə Lotaringiya uğrunda savaş zamanı Burqundtya hersoqu Xeyirxah Filippin muzdla xidmətə götürdüyü de Yümyer, de Brimen, [301-302] de Nevill və Şinderhannes nəslindən olan Robino Lovçi kimi bastardlar onun qələbəsini təmin etdilər. (28)

Şərqdə vəziyyət bundan da asan idi. Poliqamiyanın normal hal olduğu coca, türk və monqollarda bütün, hətta əsir qadınlardan olan uşaqlar da "qanuni" sayılırdı. Birinci arvaddan olan uşaqlarla kənizdən olan övladlar arasında yalnız taxt - taca sahib olmaq məsələsində fərq qoyulsa da, əhalinin əsas hissəsi üçün bunun bir o qədər də önəmi yox idi. Qadınlar da kişilər qədər genləri ötürmək qabiliyyətinə malikdir və onlar qədər passionarlar da ola bilirlər. Bu səbəbdən, ilkin genetik fondun hərəmxanalarda paylaşması etnososial sistemlərin passionar gərginliyi səviyyəsinin variasiyalarının yaranmasının Avropadakından daha az ağrılı olmasına gətirib çıxarırdı.

Bu cür davranış stereotipi passionarlıq əlamətinin dolaşmasına səbəb olurdu. Bu, passionarlığın hər hansı bir sinfə mənsub olması haqqında fikri təkzib edir. Şərait təsadüfən belə bir müvafiqliyə gətirib çıxarsa belə, həmin vəziyyət növbəti nəsildə "qanunsuz" adlanan övladların meydana çıxması sayəsində rozulacaq, həmin uşaqlar isə özlərini hüquqi deyil, faktiki əcdadlarından miras qalan passionarlıq səviyyələrinə müvafiq şəkildə aparacaq. Məsələn, XVII əsrə qədər Fransada zadəganlar qapalı bir zümrə deyildi.Əslində krala xidmət edən istənilən kifayət qədər fəal adam zadəgan ola bilərdi. Rişelyenin fərmanı ilə bu sahədə bir sıra məhdudiyyətlər qoyuldu: quqenotlarla savaşdan sonra keçirilən yoxlamalar vaxtı özünü zadəgan adlandıran hər bir şəxs əcdadlarının bir neçə nəslinin də zadəgan olduğunu sübuta yetirməli idi. Bəs, nə baş verdi?.. XIV Lyudovik dövründə demək olar ki, bütün nazirlər, bir sıra görkəmli sərkərdə və bütün böyük yazarlar (Fenol, Laroşfuko və madam Sevinyidən savayı) zadəgan yox, burqua oldu.(29) Feodal krallığında onların ardıcıl rol oynamalarına onların "qanuni" əcdadlarına xas olmayan işgüzarlıq qabiliyyətləri oldu. Həmin "qanuni" əcdadlar da bu keyfiyyətlərə malik olsaydılar, ya Filip, ya da Müdrik Karl dövründə irəli çəkilərdilər, çünki o zamanlar kral qulluğundakılar üçün zümrə məhdudiyyətləri qoyulmurdu. Həqiqətən də, passionarilər bir sosial qrupda cəmləşsəydilər, onda elə ilk qanlı savaş bütün passionarilər populyasiyasını məhv edər və başlamaqda olan etnogenez prosesini birinci mərhələdəcə durdurardı. Lakin gördüyümüz kimi, belə bir şey baş vermir. [302-303]

Tez-tez etnik regenerasiya, yəni sarsıntılardan sonra etnosun strukturunun bərpası hadisəsi də müşahidə edilir. Həm də bu zaman vətənin xilaskarları banilərdə olana bənzər, onların qanuni əcdadlarınkından isə qat - qat daha güclü passionarlıq nümayiş etdirir. Onların meydana çıxmaları mənbələrdə çox az qeydə alınsa da, bəstəkarlar bütün dövrlər və bütün xalqlarda olub. Lakin mənbələrdəki qeydlərin azlığı heç də onların mövcud olmadıqlarına dəlalət etmir.

Etnik regenerasiya mexanizmi aşağıdakı kimidir. Adətən, etnos təşkil edən subetnoslar arasında daha təşəbbüskar, deməli, aparıcı olur. Bu subetnosda fərdlərin passionarlığı intensiv şəkildə əməllərə çevrildiyindən, passionarlığın zərfi də daha sürətlə baş verir. Həmin passionarlıq başqa subetnoslar hesabına tamaalansa da, əks proses də mövcuddur: passionar genetik fond kəbinsiz ilişkilər sayəsində bütün populyasiyaya yayılır və bu zaman belə izdivacdan doğulan uşaq öz subetnosunu mühitində, daha dəqiq desək, anasının ailəsində qalır. Bu səbəbdən də sistemin passionarlıq sərfi səngiyir.

Aparıcı subetnos bütün imkanlarını sərf etdikdən sonra iflasa uğradıqda isə, estafeti etnoslardan biri ələ keçirir və qırılmaq ərəfəsində olan etnogenez prosesi davam edir. Nizamlanmış nigah əlaqələri şəraitində belə bir şey baş verə bilməzdi, çünki valideynlər övladlarını özlərilə insan ehtiraslarının coşduğu burulğana aparmalı olar və uşaqlar da valideynlərinin nəsibinin qurbanına çevrilərdi. Genealogiyanın itirilməsi sayəsində isə həyatları qorunub saxlanırdı.

Təbii ki, etnosun hər bir regenerasiyası mədəni inkişafda sapıntıya səbəb olur. Lakin bu yalnız öz sistemi hüdudlarında baş verdiyindən, etnos bayağı mövcudluğun deyil, fəal yaradıcı yaşantının ömrünü uzadır. Lakin rasional davranış normalarını dağıdan instinktlərin qovuşmasına xeyir - dua vermək üçün elə bu müddət də kifayət edir. Təbiət insan niyyətlərindən daha güclüdür.

Etnosları birləşdirən nədir? Etnik təşəkkülün, yaxud etnogenezin təbiəti haqqında süala cavab verdikdən sonra, heç ondan az önəmli olmayan daha bir problemə yanaşdıq - etnik dayanıqlığın səbəbi nədir? Axı, bir çox eğnoslar qalıq halında passionarlığın elə cüzi bir səviyyəsində mövcud olmaqdadırlar ki, bu səviyyə demək olar ki, sıfıra bərabərdir. Buşmenlər, avstraliyalılar, piqmeylər. Dekkanın alçaqboylu neqroidləri və b. məhz belələrindəndir. Kiçik millətlər şəklində yanaşmaqda olan [303-304] normal etnoslara dair örnəklərin sayı bundan da çoxdur. Həmin kiçik xalqlarda passionarlıq o dərəcədə zəifləmişdir ki, onlar yalnız həyat tərzlərini qoruyub saxlayır və istisna hallarda əcdadları qədər passionar olan fərdlər meydana gətirirlər. Passionarlığın bu səviyyəsinə örnək kimi Skandinaviya ölkələri, yaxud Hollandiyanı göstərmək olar.

Mövcud maddi baza, idarəetmə təcrübəsi və digər sosial - texniki amillər tənəzzülə meylin qarşısını alır. Bütün həyatı boyu etnos hər hansı bir superetnik sistem daxilində fəaliyyət göstərdiyindən, supersistem elementlərilə “energetik” mübadilə baş verir. Bu passionarlıq səviyyəsindəki enib - qalxmaları şərtləndirir. Buradan bəlli olur ki, etnosun xarici əlaqələr sistemin fəaliyyəti həm inkişafın sürətlənməsinə, həm də tənəzzül və hətta məhvə də gətirib çıxara bilər. Bir şərtlə ki, mübadilə həcmi hansısa böhran doğuran qiymtdən artıq olsun. Həmin qiymtə isə prinsip etibarı ilə etnosun həyatının müxtəlif anları üçün müxtəlifdir. İndi isə bizim belə bir sual verməyə ixtiyarmız var: müxtəlif, çox vaxt bir birinə bənzəməyən adamları etnik adlandırılan bütöv halnıda məhz nə birləşdirir? Başqa - sosial dəyərləndirmə sistemində bu rolu spontan (daxili səbəblərdən doğan, - tər.) inkişaf qabiliyyətinə malik istehsal münasibətləri yerinə yetirir. Lakin etnoslar üçün digər dəyərləndirmə sistemi mövcuddur və hadisələri səbəb və ardıcıllıqla araşdıran, sosial institutların təşəkkül və məhvini çox gözəl təsvir edən tarix elmi də aşağıdakı sualı cavablamaqda acizdir: niyə düşməni olan spartalı afinalıya onunla dinc ticarət edən finikiyalıdan daha yaxın idi? Tarix elmi yalnız onu qeyd edəcək ki, afinalılar və spartalılar ellin, yəni siyasi baxımdan parçalanmış olsa da, vahid bir etnos idilər. Etnos nədir və onun üzvlərini bir birinə nə bağlayır? Sualını isə tarix cavabsız buraxır. Deməli, təbiətə müraciət etmək lazımdır.

Biz artıq etnik tarixlə (təbiət qüvvələrinin özünü göstərməsi), insan əlləri və zəkasının məhsulu olan mədəniyyət tarixi arasındakı fərqin harada bulunduğundan xəbərdarıq. Həyat rəvac tapır və ölümlə yekunlaşır. Ölüm prosesin təbii sonucu kimi dəyərləndirilir, vaxtlı və ağrısız baş verdikdə isə hətta arzulayan bir şey olur. Bu səbəbdəndir ki, biosferin bütün rəqibləri sonucludur (disretdir). Aramsız inkişafda isə nə ölüm, nə də təşəkkül üçün yer yoxdur.

Mədəniyyət tarixində isə hər şey əksinədir. Saray və məbədlər illərlə inşa olunur; landşaftların yenidən qurulmasına əsrlər sərf edilir; elmi araşdırmalar və poemalar on illərlə çəkilən zəhmətin bəhrəsidir.. [304-305] və hamısı da ödməzlik arzusundan. Bu ümid özünü doğruldur: insanın yaratdıqlarının nəsibi ölüm yox, tədricən qocalma və unudulmaqdır. İnsanın yaratdıqlarını öz passionarlığı yoxdur, yalnız hərəkətin maddəyə forma verənin, daha doğrusu, onun hiss və ehtiraslarının doğurduğu atəşin bəxş etdiyi passionarlıq zərrələri var. Təəssüf ki, bu zərrəciklər inkişaf və dəyişməyə qadir deyil, çünki onlar biosenoz şərtlərindən kənarda qalıb. Ölmək hüququ yalnız canlıya məxsusdur!

Məhz bu səbəbdən etnosların yaratdığı və arxeoloqlar tərəfindən araşdırılan mədəniyyətlər birincilərdən daha uzunömürlü olur, ikinciləri isə yanıldır, yaradılanı yaradanla eyniləşdirməyə, əşyalarla insanlar arasında bənzətmələr aramağa məcbur edir. Passionarilər populyasiyanı tərk etdikdən sonra orada çoxlu adam, bundan da artıq əhya və bir qədər ideya şaldığından, bu azdırma daha təhlükəlidir. Beləcə, artıq sönmüş uzaq ulduzun işığı kimi, mədəniyyət də gördüyünü mövcud olan kimi dərk edən müşahidəçini aldadır. Lakin fenomenin təsvirindən açıqlanmasına keçid digər araşdırma üsulunun - fərziyyənin, yəni sübuta yetirilməyən, lakin bütün məlum faktlara müvafiq gələn və onların qarşılıqlı əlaqələrini açıqlayan təxminən tətbiqini şərtləndirir. Artıq biz təbiət elmləri sahəsinə üz tuturuq. [305-306]

# YEDDİNCİ HİSSƏ

## ELMLƏR ARASINDA KÖRPÜ

**Burada təsvir edilən etnogenez hadisəsini
bir birinə çox yaxın elmlərin bilgilərilə
qarşılaşdırmaqla açıqlamaq cəhdi edilir.
əvvəlkilərdən fərqli olaraq, bu hadisə
təxminlərə əsaslanır, lakin hər hansı
bir açıqlama etnogenezin xarakterinin
yuxarıda verilən təsvirilə bir araya gəlməz**

## XXVII. ÇÖL SİSTEMDƏ

**Etnosenoz**. Nə qədər ki, etnoqraflar təsnifatları dil, somatik əlamətlər (irqlər), təsərrüfat üsulları, dinlər, texnikanın səviyyə və xarakteri kimi göz önündə olan əlamətlər əsaslanaraq qururdular, superetnoslarla etnoslar arasındakı uçurum keçilməz görünürdü. Lakin diqqətimizi sistem əlaqələrinə yönəldən kimi, bu uçurum yox olur. Təsviri etnoqrafiyanın yerini həm superetnik sistemin rəngarəng elementləriarasındakı sabit qarşılıqlı münasibətləri, həm də onun qonşu sistemlərlə ilişkilərini qeydə alan etnik tarix tutur. Və bu zaman aydın olur ki, mücərrəd sayılan şey mövcuddur, sanballı və təsirlidir. Deməli, “ellin mədəniyyəti” (Makedoniya və Romanı da əhatə etməklə), “Müsəlman aləmi”, başqa kontinentlərə də yayılan “Avropa sivilizasiyası”, “Aralı imperiya” (Çin - etnik baxımdan son dərəcə rəngarəng ölkə), yaxud “Avrasiya köçəri mədəniyyəti” türklər və monqollar kimi anlamlar sadəcə söz yox, etnik bütövlərin texniki cəhətdən əşyalaşmış və sosial baxımdan formalaşdırılmış məcmularının işarələnməsidir. Həmin məcmular isə etnoqraf - müşahidəçilərə araşdırmaq nəsib olanlardan bir pillə yüksəkdə yerləşir.

Aydındır ki, yazının meydana çıxmasından əvvəlki bu səviyyəli etnik bütövlər elə həmin tezliklə meydana gəlir, eyni inkişaf mərhələlərini keçir, özlərindən sonra çaxmaq daşı qırıntıları, zibil topaları və saxsı qab tikələrindən ibarət abidələr qoyub gedir, bəzi hallarda isə keçilməz cəngəlliklər, yaxud ayrıca bir adada “qəbilə” kimi qalırdılar.

Lakin əgər belədirsə, onda sivilizasiyanın “erkən” mərhələlrində olduğu güman edilən bir çox təcrid olunmuş [306-307] etnoslar, texnikalarının son dərəcə aşağı səviyyəsinə baxmayaraq, etnogenezin başlanğıc deyil, yekun mərhələsindədir. Afrikanın tropik meşələrində yaşayan piqmeylər, Avstraliya aborigenləri, Sibirin paleoasiya etnosları; Pamir dağlıları belələrindəndir. (1) Təbii şəraitə uyğunlaşma dərəcəsi onlarda o qədər yüksəkdir ki, əmək alətləri və silahları təkmilləşdirmədən biosenoz tərkibində yaşamaq imkanı verir. Lakin təbiət və etnik əhatə ilə qarşılıqlı münasibətlərin bu sistemi əhali artımına məhdudiyyətlər qoyur. Bu, Yeni Qvineyanın timsalında özünü daha bariz şəkildə göstərir: son zamanlaradək burada gənc papuas yalnız qonşu qəbilədən olan bir nəfərin başını kəsib gətirəndən sonra evlənmək hüquq qazanırdı, üstəlik, həmin adamın adını da mütləq öyrənməli idi, çünki adlar da ciddi şəkildə məhdud idi. Bu yolla papuaslar özlərilə məskunlaşdıqları bölgənin təbii ehtiyatları arasındakı tarazlığı dəstəkləyirdilər. Bu, passionarlığın sıfıra yaxın səviyyəsidir Digər cəhətlərdən onlar dinamik xalqlardan geri qalmırlar.

Bir qayda olaraq, qalıq etnoslar sabit sistemlər təşkil edirlər ki, bura insanların sayından başqa canlı təbiət elementlərinin məlum miqdarı və texniki baxımdan elan olunmuş cansız maddə daxildir. Bu o deəmkdir ki, etnosenoza (təsvir etdiyimiz mürəkkəb kompleksi belə adlandırırıq) insanlarla yanaşı, bu və ya digər ev heyvanları, mədəniləşdirilmiş bitkilər və məişət əşyaları daxildir. Eskimosları it, iqlu (buz koma, - tər.) və kayaksız (ona daxiliyanma qayıq motoru assalar belə) təsəvvür etmək mümkün deyil. Tunquslar maral və laykalar (it cinsi, - tər.). ərəblər dəvələr, pueblo hinduları qarğıdalı qıçaları ilə ilgilidir. Etnosenozun azacıq pozulması etnosun yalnız şəklini dəyişir, kifayət qədər böyük olduqda isə onun dağılmasına səbəb olur.

Bəzi hallarda etnosenozun dağılması etnosun, həmçinin onunla ilgili olan heyvan və bitkilərin məhvinə səbəb olur. Əksər hallarda yalnız sistem məhv olur, onun komponentləri isə başqa etnos və etnosenozların tərkibinə daxil olur. Elə hallar da olur ki, etnosun tam məhvi və biosenozun pozulması ilə yanaşı, ilkin tipdən müəyyən sapıntıları olan etnogenezlərin təkrarlanması müşahidə edilir. Bu, mədəniyyətlərin varisliyi adlanır. Belə ki, Roma etnosu yox olandan və imperiya məhv olandan bir çox əsrlər sonra da bütün Avropada Roma mədəniyyətinin ritmləri duyulmaqda idi. Lakin əgər belədirsə, onda biz etnik ətalət anlayışı ilə rastlaşmışıq, ətalət isə fiziki hadisədir. Həm də artıq mövcud olmayan cismin ətaləti nə deməkdir, axı? Görünür, araşdırmamızda nə isə çatışmır. [307-308] Deməli, yeni bir anlam daxil etmək tələb olunur. Bir qədər irəliyə qaçaraq, açıq deyək ki, təbiətdə etnik sahə mövcuddur. Bu sahə məlum elektromaqnit, cazibə və digər sahələrə bənzəsə də, həm də onlardan fərqlidir. Onun

mövcudluğu faktı özünü ayrı -ayrı adamların fərdi reaksiyalarında deyil, fərdlərə təsir edən kollektiv psixologiyada büruzə verir.

**Etnik sahə**. Fərd və növün həyatında sahə prinsipi universal şəkildə, onun bütün təzahürlərində və bütün mərhələlərində həyata keçirilir. Lakin bu təzahürlərin özlərinin də iki kateqoriyaya bölündüyünü görmək çətin deyil. Onlardan bəziləri növün inkişaf proseslərini, yəni onun varlığının latent (potensial) formasının açıq (aktual) formasına keçidini əhatə edir. Digərləri üzvi bütövün (fərd, koloniya, növ) elementlərinin onun varlığını, bütövlüyünü (həyati birlik) və formalarının qorunub saxlanmasını təmin edən davranışındadır. Hər iki halda bütövün çoxsaylı elementlərinin uzlaşdırılmış fəaliyyəti var, yəni sahə prinsipi özünü göstərir. Lakin inkişaf prosesində onun obyekti (fərd) formalar, yəni aramsız olaraq həm morfologiya, həm də fiziologiya dəyişikliklərə məruz qalır. Buna müvafiq olaraq, inkişaf sahələri də (embrional, yaxud morfogen sahələr) dinamikliyi ilə fərqlənir. İnkişafda olan orqan, yaxud gənc fərdin hər hansı bir sahəsi istənilən an əvvəlki anda olduğundan fərqlənir. Bunun əksinə olaraq, sahələr üzvi qurumun elementlərinin onun nisbətən statik, həmin qrupun mövcudluğu ilə şərtlənən bütövlüyünü təmin edən davranışını nizamlayır. Lakin aydındır ki, ali taksonomik qruplara xas olan birgəlik onların varlığının başqa cəhətlərinə sirayət etməyə bilməz. Bizim üçün bu vəhdət yalnız forma deyil, həm də qrupların təkamül prosesindəki davranışı vasitəsilə nümayiş etdirilir ki, həmin prosesdə onların hər biri bütöv və vahid bir şey kimi iştirak edir. Təkamül prosesinin hamı, yaxud orqanizmlərin əksəriyyəti üçün deyil, ayrıca götürülən qruplar üçün də səciyyəvi olan qanunauyğunluqlarının mövcudluğu buna kifayət qədər aydın dəlalət edir.

Qrupların bütövlüyü və onların quruculuq və təkamül prosesində davranışın eyniliyində ifədə olunmuş vəhdətindən çıxış edərək belə bir qənaətə gələ bilərik ki, bu prosesi nizamlayan və uzlaşdıran sahələr də var. Bu sahələri filogenetik adlandırmaq olar. Bu və ya digər tipdən olan qrupun xassələri onun ən dolğun xarakteristikası olduğundan, təkamül prosesinin məğzini qrup tiplərinin təkamülündə görə bilərik. Bu zaman tip anlamı dinamik əhəmiyyət kəsb edir, halbuki indiyədək o, statik işlənirdi. (2) [308-309]

Beləliklə, tarix, etnoqrafiya, hətta psixologiya ilə məşğul olmaq sözün tam mənasında təbiətşünaslığa qayıtmağa imkan verdi. İnsanlar Yerin biosferinə daxil olduqlarından, onların təhtəlşüuruna, yaxud emosiyalarına təsir göstərən biokimyəvi proseslərdən yayına bilmirlər. Emosiyalar isə insanı etnogen və landşaft proseslərilə birləşən hərəktlərə heç də şüurdan az dərəcədə təhrik etmir. Nəticədə passionarlıq ətalətini mühitin müqaviməti üzündən itirən passionar nəsil meydana çıxır. Həmin nəsil etnolandşaft tarazlığın qalıq formasına keçir ki, bu tarazlıq da öz növbəsində, yeni passionar təkan, yəni mikromutasiya ilə pozulur.

Fərdi fəaliyyət ən əyani şəkildə ictimai heyvanların kollektiv hərəkətlərində müşahidə olunur. İnsan cəmiyyətində kollektivin hərəkətləri isə onun özü, yaxud başçısı tərəfindən şüurlu şəkildə seçilən məqsədlə ilgilidir. Bu məqsədi rəhbər tutan və ona nail olmaq üçün müəyyən plana malik olan insanlar şəhərlər salır, təsərrüfatın müxtəlif sahələrini inkişaf etdirir, əldə etdikləri yaşamaq üçün zəruri olan şeyləri paylaşdırırlar və i.a. İctimai həşəratlar da bütün koloniya üçün ümumi olan sığınacaqlar tikir, qidanı birgə axtarır və bölüşdürür, yeni nəsil tərbiyələndirir və s.

Heyvanlarda nadındividual davranışın məğzi hazırda elmi baxımdan kifayət qədər açıqlanmayıb. Çox vaxt onu instinktiv adlandırırlar. Lakin bu epitetlər nəyi aydınlaşdırır? Təbii seçim nəzəriyyəsi həm instinktlərin, həm də ümumiyyətlə orqanizmin bütün xassələrinin mənşəyi haqqında sualı cavablayır. Lakin, birincisi, həmin hadisələrin bu nəzəriyyə baxımından açıqlanması, onun vasitəsilə bütövlükdə təkamül prosesinin açqlanmasında olduğu qədər az inandırıcıdır, ikincisi, hər hansı bir hadisənin mənşəyini bilmək özü özülüyündə onun məğzini anlamaq üçün kifayət deyil. Biz özümüz də hələlik nadındividual davranışın təbiətini dəqiq təyin etmək və instinktlərin mənşəyi məsələsini həll etmək fikrində deyilik. Ola bilsin ki, hazırda nəinki bunun üçün kifayət qədər faktiki materiallarımız yoxdur, üstəlik hətta bu sahədə işlənməli olanq anlayışların özləri də hələ işlənib hazırlanmayıb. Lakin bunlar bizə aid olan faktları toplamağa, onları təsnifatlandırmağa, müşahidə edilən qanunauüğunluqları qeydə almağa və qəbul etdiyimiz ümumi müddəalardan çıxış edərək onları açıqlamaq cəhdi göstərməyimizə heç də mane olmur.

Sahə prinsipini fərdi və növ həyatının bütün təzahürlərinə tətbiq etməklə, bu sahənin təsir obyektlərini konkret şəkildə təsəvvür edirik. Fərdin reallığı hamı üçün tamamilə aydındır. [309-310] Növün reallığı isə onuntək bilavasitə qavranmır. Lakin qeyri - iradi şəkildə onu təkcə bioloqlar qəbul etmir. “İlan”, “ qarğa”, “it” kimi növ bildirən adamlar hətta məişətdə də sayılıb.

Bir reallıq kimi növ öz vəhdəti sayəsində özünü nümayiş etməyə nail olur. Lakin sistemləşdirmə üsullarından yararlanın hər bir kəs üçün aydındır ki, yalnız növlər deyil, etnoslar da reallıqdır, çünki onlar tarixi vəhdətdə mövcuddur və onlara tarixi tale ümumiliyi xasdır.

Etnik sahə ritmləri. Etnik sahənin rolu konsepsiyası burada ona görə belə ətraflı açıqlanıb ki, etnologiyaya şamil edilən zaman o, ən mürəkkəb problemləri həll edir.

İşlətdiyimiz terminlərin mənaları barədə şərtləşməyimiz tələb olunur. Yaxın elm sahələrində qəbul olunanlarla detallarına görə fərqlənsələr belə, həmin terminlər müəllifin fikrini oxucu üçün açıqlayacaqlar,

çünki belə bir anlaşma süjetin sonrakı araşdırılması üçün zəruridir. Belə deyək: orqanizmin sahəsi - orqanizmin gözlə görünən hüdudlarından kənarda, davamı, deməli, bədən - onunelə bir hissəsidir ki, burada güc xətləri bizim hissiyat orqanlarımız tərəfindən qavranıla bilən tezliyə malikdir. Hazırda artıq məlumdur ki, sahələr daim bu və ya digər tezlikli titrəyişli hərəkətdədir. (3) Bu titrəyişlər, yəni "vibrasion qıcıqlandırıcıların bir xassəsi var - onlar maneəsiz olaraq bir mühitdən digərinə ötürülür ki və bərk, maye və qazvari mühitlərdə eyni yayılma xarakterinə malikdir. Hava mühitinin 16- 20000N zolağında vibrasiyaya məruz qalmasını insan səs qıcıqları kimi qəbul edir. Orqanizmdə öz titrəyişlərini qəbul etmək üçün xüsusi reseptor orqan yoxdur". Bu sözlərin müəllifi olan Q.İ.Akinşikova daha sonra daxili orqanlar üçün normal titrəyişlər rejiminə dair bilgilər verir və titrəyişlərin orqanizmə sürəkli təsirinin doğurduğu nevroloji və fizioloji sapınmaları göstərir. İnsan təsir göstərən titrəyişlər sırasına orqanların Günəş və ayın təsiri, geomaqnit sahəsinin dəyişməsi və xarici mühitin digər təsirlərilə şərtlənən gündəlik, aylıq, illik və çoxillik titrəyişləri aid edilir. (4) Lakin bu müşahidə toplanan bütün etnoloji materiala şərh vermək üçün kifayətdir. Yalnız araşdırmanın meyarı kimi etnik sistemi götürmək, yəni orqanizm səviyyəsindən populyasiya səviyyəsinə keçmək lazım gələcək.

Gətirdiyimiz bilgilərdən aydındır ki, sistemin artıq alışdığı müəyyən titrəyiş tezliyi, bir tərəfdən, onun üçün ən optimal, digər tərəfdən isə perspektivsizdir, çünki inkişaf üçün imkan və bəhanə qalmır. [310-311] Lakin bu ritmlər vaxtaşırı olaraq təkanlar tərəfindən (bizim halda - passionar təkanlar) pozulur və yenidən durulan sistem (etnik sistem nəzərdə tutulur) cazibədar tarazlığa can ataraq, bu prosesə əngəl olan elementləri xaric edir. Beləliklə, etnos səviyyəsində ritm və dincliyin pozulması, həzz və yaradıcılığın qəribə şəkildə uzlaşması müşahidə edilir, həm də sonuncu həmişə məşəqqətli olur.

**Daha bir misal**. Müxtəlif bölgələrdə etnogenez partlayışlarından söz açarkən, biz bu hadisələrin ritmikliyini ümumfəlsəfi təxminlər səbəbindən deyil, sadəcə, ritmiklik fərziyyəsinin müşahidələrə zidd olması üzündən rədd etmişik. Lakin etnik sahənin (bu ifadə işləmi olduğu üçün ondan yararlanırıq) bu və ya digər tezlikli titrəyişlərini intensivliyi etnogenez prosesinin gedişində dəyişən ritmə bərabər tutula bilər. Söylədiklərimizi aydınlaşdırmağa çalışaq: sim (yaxud kamerton) mizrabla toxunduqdan sonra səslənməyə başlayır, lakin onun titrəyişləri tədricən zəiflədiyindən, səs də zəifləyir və kəsilir; mizrabı bir daha və bu dəfə artıq başqa qüvvə ilə toxundurduqda isə səs əvvəlkindən ya zəif, ya da qüvvətli çıxacaq. Əslində, hərfi mənada üst-üstə düşmə olmadığından və təbiətdə bir sim deyil, zal akustikasına malik nəhəng orkestr səsləndiyindən, bütün etnik sahələr eyni qanunauyğunluğa - dincliyin pozulması (mikromutasiya) nəticəsində yaranan ilkin impulsun sönməsinə tabe olsalar da, bir birinə bənzəmirlər. Bu açıqlama sübuta yetməmiş induktiv yolla anlaşılsa da, bütün məlum faktları izah etməsilə təsdiqlənir ki, bu da təbiyyat elmlərində zəruri və kifayətdir.

Biz təsvir olunan etnik sahəni (yaxud ona bərabər fenomeni) etnik yaxınlıq, yaxud, əksinə, yabançılıq kimi qəbul edirik. Bütün etnoslar üçün səciyyəvi olan və bilavasitə hissiyyatla ilgili özünü hamıya qarşı qoyma prinsipi ("biz" və "qeyrilər") təklif edilən baxımdan çox sadə açıqlana bilər. Bir ritmin daşıyıcıları başqa bir ritmin daşıyıcıları ilə rastlaşan zaman yeni ritmi yabançı, onların özlərinə üzvi şəkildə xas olan ritmə bu əv ya digər dərəcədə həmahəng olmayan bir şey kimi qəbul edirlər. Yeni ritm bəzi hallarda xoşa gəlsə də, uyğünsuzluq şüur tərəfindən açıqlanması olmayan, lakin bununla yanaşı, mövcudluğu heç bir şübhə doğurmayan fakt kimi qeydə alınır. Etnik sahənin ritmləri isə, artıq dediyimiz kimi, təkrarsız davranış stereotipində özünü göstərir.

Görünür, tarixi talenin hissələrə parçaladığı və müxtəlif mədəniyyətlərin təsirinə məruz qalan etnosların dağılıb [311-312] səpələnməsinin səbəbi də məhz etnik sahənin olmasıdır. Etnik sahənin ilkin ritmini pozan səbəblər aradan götürüldüyü halda isə, bu etnoslar hətta regenerasiya da edə bilərlər. Yeri gəlmişkən, nostalgiya hadisəsinin açıqlanması da elə bununla ilgilidir. Mehriban, suyuşirin olsalar da, yabançı olan adamlar arasına düşən insan narahatçılıq və qüssə hiss edir. Lakin həmin hisslər soydaşları arasında olduqda zəifləyir, doğma yurda yetişəndə isə yox olur. Bu zaman nə iqlim şəraitinin, nə də hər cür rahatlığın olmasının önəmi yoxdur.

Deyilənlər etnosun qavranılmasının ilkin olmasına şübhələri aradan qaldırır. Etnik birgəliyin əsasında biofiziki hadisə durduğundan, onu sosial, ekoloji, linqvistik, ideoloji və i.a. amillərin törətməsi gülüncdür. İndi artıq biz: yeni doğulan uşaqlar niyə "milliyətsizdir", yəni etnos dışındadır? - sualını cavablaya bilərik. Etnik sahə, yəni etnos fenomeni uşaq və ananın bədənlərində cəmləşir, özünü yalnız onlar arasında büruzə verir. İlk çığırtısı və ana südünün ilk udumu ilə anası iləəlaqə yaradan uşaq onun etnik sahəsinə daxil olur. Həmin sahədə olması onun öz etnik sahəsini formalaşdırır, sonralar atası, qohumlar, başqa uşaqlar və bütövlükdə xalqı ilə təmaslar nəticəsində həmin sahə yalnız şəklini dəyişir. Lakin həyatın ilk dövründə etnik sahə zəifdir və uşaq başqa etnik mühitə düşəcəyi halda yenidən qurulan coşqunluq, qabiliyyət və bacarıqlar yox, məhz bu sahə olur. Bu, uşaq yaşlarında nisbətən ağrısız keçən etnik mənsubiyyətin dəyişməsi kimi qəbul olunacaq.

İnsanın şəxsiyyəti həyatının ilk üç-beş ili ərzində formalaşır. A.S.Makarenko iddia edir ki, beş yaşınadək düzgün tərbiyə olunmayan uşaq yenidən tərbiyələnməlidir. L.A.Orbeliani "şərtsiz reflekslərin artıq uşaq anadan olduqdan sonra xarici mühitin təsiri altında tam yetişməsi haqqında təcrübi şəkildə əsaslandırılmış nəzəriyyə" (5) yaratdı. Üç yaşdan kiçik uşaqların anadan, daha dəqiq desək, yalnız

yedizdirən deyil, daha çox mehriban, diqqətli, xeyirxah olan adamdan ayrı düşmələri həddən artıq təhlükəlidir. Bu, çox vaxt əqlin zəifləməsinə, sosial davranışda qeyr - adiliklər, daha yüksək incikliyə və davakarlığa səbəb olur. (6)

Aydındır ki, burada gen aparatı yox, uşaq və böyüyün təmas zamanı qarşılıqlı fəaliyyət göstərən biosahələri təsir göstərir. Deyilənlər yalnız fərdlərə deyil, ali səviyyəyə mənsub sistemlər - etnoslara da aiddir.

**Etnik sahə və etnogenez**. Bİr qədər əvvəldə biz etnosların əmələ gəlməsinin ancaq iki yolunun açıqladıq: divergensiya və qovuşma. [312-313] İndi isə toplananların yerdəyişməsindən deyil, ən əsas məqamdan - yaradıcılıq anından söz açacayıq. Qeyd etmişdik ki, etnogenezin başlanğıc anı daim passionar gərginliyin səviyyəsinin kəskin qalxması ilə üst -üstə düşür. Məcazi mənada demək olar ki, sintez reaksiyası yalnız yüksək energetik qızma olduqda baş verir və bu zaman ilkin komponentlər olan etnik substratlar bir anlığa strukturlarını itirdikdən sonra, indiyədək görünməmiş birləşmələr şəklində yenidən kristallaşır.

Belə qızma dövrlərini Bizans bütövünün yandığı II, müsəlman superetnosu, Tibet və Şimali Çin etnoslarının meydana çıxdığı VIII, orta əsr Avropa millətlərinin formalaşdıqları IX, monqol və curcen etnosların doğuran XIII və velikorusların meydana çıxdıqları XIV sərlərdə qeydə almışıq. Güman ki, hər belə hadisədən əvvəl inkubasiya dövrü yaşansa da, göz önündə olan tarixi araşdırmaq yolu ilə onu aşkar və təsvir etmək mümkün deyil. Lakin qanunauyğunluğu bildiyimiz üçün belə bir məntiqi nəticəyə gələ bilərik - yalnız adları qeydə alınan tarix deyil, ya qalıq şəklində yaşamaqda olan, ya da yalnız qədim mənbələrdə adları çəkilən qədim etnoslar da bu yolla yaranmışlar.

Yadda saxlamaq lazımdır ki, bəşəriyyət tarixi həmişə enyi dərəcədə işıqlandırılmayıb. Lakin əgər biz paleoasiyalılar, tuelçilər (pataqoniyalılar), melaneziyalılar, yaxud koysanların (hottentotlar və buşmenlər) etnogenezlərinin dinamik proseslərindən bixəbəriksə, bu o demək deyil ki, onların öz akmatik mərhələləri olmayıb. Bunun üçün heç əsasımız da yoxdur. Əksinə, aşkar etdiyimiz qanunauyğunluğa əsasən bu etnosların hamısının öz qəhrəmanlıq dövrləri və çiçəklənmə mərhələləri olmayıb. Lakin zalım zəmanə bu dövrlər haqqında xatirələri məhv etmişdir, çünki ənənə pozulan və oxunulması mümkün olan yazılı abidələr olmayan yerdə ənənəvi tarixi metodika gücsüzdür. Odur ki, mümkün, zəruri və məqsədimiz üçün kifayət olanları etməklə kifayətlənək.

Bu və bunun eyni olan digər çoxsaylı hadisəni davranışın məqsədəuyğünlüğünün şərtlənməsi, deməli öz taleyinin şüurlu şəkildə seçilməsinin mövcudluğundan çıxış edərək açıqlamaq mümkün deyil. Burada biz etnik kütlələrin davranışını qanunauyğunluq və səbəbiyyat əlaqəsindən asılı edən (təbii ki, statistik baxımdan) təhtəlşüur, kortəbii proseslərlə rastlaşırıq. Çin və köçəri superetnoslarının "sahələrinin" ritmləri o qədər fərqli idi ki, [313-314] hətta siyasi mənafelərdən doğan dostluq münasibətləri də daim qeyri - sabit və qısamüddətli olurdu. Və bu heç də təsadüfi deyil.

Bir ritmin digəri ilə uyuşması zaman, nəzəri baxımdan ya harmoniya, ya da ahənglərin tutuşmaması baş verə bilər. Birinci halda etnik qovuşma baş verir, ikincidə isə ya bir, ya da hər iki sahənin ritmi pozulur ki, bu da onlar arasında əlaqələri pozur və özünəməxsusu annihilyasiyaya səbbə olur.

Lakin passionar təkan və ya partlayış baş verən zaman əlaqələri pozulan sahələr məxsus ritmləri indiyədək malik olmadıqları yeni ritmə sahib olur. Yeni sahənin xarakteri həi təkanın gücündən (mutasiyanın), həm bölgənin landşaft şəraitindən, həm ehtiva etdiyi populyasiyaların genetik kodundan, həs sosial inkişafın səviyyəsindən, həm mədəni ənənələrin sabitliyindən, həm də ya ətalətli, ya da qatı düşmən olan etnik əhatədən asılıdır. Daha bir çox təyinedici məqam sadalamaq mümkün olsa da, biz burada passionar təkanları və onların nəticələrini ötəri təsvir etmək niyyətində deyilik, çünki bunu ayrıca etmək daha məqsədəuyğundur. Etnogenez titrəyişli hərəkətin əvvəlcə, bir qayda olaraq, qısamüddətli güclənməsi, daha sonra isə tədricən sönməsi, etnik təmaslar isə etnik sahələrin titrəyişlərinin interferensiyasıdır. Etnik tarix isə başdan başa yüksəliş və enişlərdən ibarətdir.

Beləliklə, etnogenez biosferin bəzən meydana çıxan və aşağıda sadalanan üç daimi fəaliyyət göstərən amillə birlikdə etnik tarixin komponentlərindən biri olan təbii prosesdir. Həmin amillər bunlardı: 1) sosial -siyasi, çünki insanlar həmişə öz kollktivlərində müəyyən qarşılıqlı münasibət qaydaları bərqərar etmişlər; 2) texniki, çünki əmək aləti olmadan insan olmur; 3) coğrafi, çünki həyat üçün zəruri olan hər şey ətraf təbiətdən əldə olunur, Yerin landşaftları isə müxtəlif olduğundan, insanları ehtiva edən ekosistemlər də müxtəlifdir. Homeostaz vəziyyətində olan istənilən etnosu səciyyələndirmək üçün bu üç parametr kifayət etsə də, etnogenez dinamikası dördüncü amil - bəzən yer səthinin müəyyən sahələrində meydana çıxan və bir etnos yox, superetnos, yəni ayrı - ayrı etnosların hissə, həlqə və yarımsistem olduğu etnoslar qrupu doğuran passionar təkan sayəsində cərəyan edir.

**Superetnosun təbiəti**. Bəs, superetnik sistem üzvlərinin öz aralarındakı yaxınlığı şərtləndirən nədir, axı? Niyə onlar bir birilə yaradıcılıq əlaqələrinə girə bilir və onları bir superetnosu digərindən ayıran müəyyən hüdudlardan kənara doğru istiqamətdə [314-315] genişləndirə bilmir? Gördüyümüz kimi, müxtəlif superetnoslar arasındakı uyğunsuzluqlar o qədər böyükdür ki, onların məcburi şəkildə uzlaşdırılması demokratik annihilyasiyaya səbəb olur. Başqa sözlə, fransız cəngavərləri ərəblərin adət - ənənələrinə, yunanların savadına, kelt və ya litvalıların mərdliyinə, kumanların (polovestlərin) şücaətinə

nə qədər valeh olsalar da, təmas bölgələrində yalnız etnik xərabələr meydana gəlirdi. Obrazlı şəkildə desək, iki möhtəşəm bərk cisim toqquşan zaman sürtünmə baş verərsə, ətrafa ovuntular səpələnir və onları əvvəlki fiziki hala qaytarmaq artıq qeyri - mümkündür. Superetnik səviyyədə təmaslar zamanı baş verən dağıntılar dönməzdir.

Elədir. Lakin superetnos daxilində də: 1) sosial -iqtisadi struktur; 2) birinci və ya ikinci sıra irq; 3) dil; 4) adət və məişət mərasimləri; 5) din rəngarəngliyi var. Bütün bu fərdi halları ardıcıl araşdırmaq, çünki daim bu və ya digər xarici əlaməti hadisənin dərin mahiyyəti kimi qəbul etmək istəyi meydana çıxır.

XII əsrin sonunda "Xristian dünyası" bir çox dillərdən istifadə edirdi: fransız, provansal, kastil, portuqal (qalisiya), bask, breton, toskan, neapol (ümumitaliya dili hələ yox idi), Cənubi İngiltərədə - sakson, Şimali İngiltərədə isə - norveç, polyak, çex, macar, latın dilləri və alman dilinin müxtəlif dialektləri. Hətta böyük hersoqluq, yaxud kiçik bir krallıqda doğma dilləri müxtəlif olan adamlar da yaşayırdı, lakin qarşılıqlı təmas üçün heç bir əngəli olmurdu. Onlar ya qonşularının dilini öyrənir, ya da latın dilindən mədəniyyət və din dili kimi yararlanırdılar.

"Müsəlman aləmi"ndə də ərəb, fars, suriya, kürd dilləri, türk dialektləri vardı. Bizansda təkcə Konstantinopolda yunan, erməni, slavyan, isavri dillərində danışır, yazı üçün isə qədim yunan dilindən istifadə etməyə çalışırdılar. (7)

Buradan birmənalı bir nəticə çıxır: artıq gördüyümüz kimi, dil etnik əlamət deyil, deməli, dil müxtəlifliyi qarşılıqlı təmasa mane olmur.

XII əsr superetnosunun vahid iqtisadi strukturundan danışmaq gülüncdür, çünki əhalinin böyük əksəriyyəti natural təsərrüfatla yaşadığından, qonşularla təmaslarına ehtiyac duymurdu. Ən canlı iqtisadi ilişkilər ucqarlarında baş verirdi və qarşılıqlı qırğınlar da burada cərəyan edirdi. Şəhərlərdəki iqtisadi həyat kifayət qədər fəal olsa da, burada əhali artımı mənfi qiymətə malik idi. Sıxlıq və natəmizlik şəraitində istənilən yoluxucu çoxlu [315-316] ölüm halları ilə sonuclansa da, şəhərlər yenidən kəndlərdən köçüb gələn adamlar hesabına dolurdu.

Superetnos şəklində birləşən irqlər müxtəlif, onların uyuşmaları isə təsadüfi idi. Mavi gözlü normandiyalı və saksoniyalılar, yaşılgöz, sarışın burqundiyalılar, qarayanız, arıq provansallılar, yekəburun italiyalılar (hələ Roma imperiyası dövründə Lombardiyada məskunlaşan suriyalıların xələfləri) və ərəblərdən heç də həmişə fərqlənməyən ispaniyalılar səlib yürüşlərinə birgə gedirdi.

Müsəlman qoşunlarında türkmənlər və Sudan zənciləri, Atlas dərələrinin hamitləri və Ararat ətəklərinin kürdləri çiyin-çiyinə döyüşürdü. Təmtəraqlı bədəvi nəsillərindən olan ərəblərin özlərinin ana və nənələri isə gürcü, yunan, italyan, soqdi, hind, çərkəz və abbisiniyalı qızlar idi. Xeyr, irqi tərkib superetnosun antroloji monolitliyini deyil, yalnız istilaların hüdudlarını nümayiş etdirirdi.

Mədəniyyət, yaxud "informasiya kommunikasiyalarının" (8) oxşarlığı da yox idi. Buna, müəyyən dərəcədə, sosial arakəsmələr və fəaliyyətin xarakteri, daha sonra isə ərazi pərakəndəliyi əngəl olurdu. Özünü cəngavər, yaxud zirehli döyüşçü kimi görmək arzusunda olan oğlan uşağı altı yaşından qılıncoynatma və atminmə ilə məşğul olmalı idi, əks təqdirdə, elə ilk savaşda həlak olardı; keşiş olmaq istəyən gecə - gündüz latın dilini öyrənirdi; usta yardımçısı emalatxanada çalışır, kəndli isə inəkləri otarır və tənəklərə qulluq edirdi. Hıma öz işi ilə o dərəcədə məşğul idi ki,  bir birilə boşboğazlıq etməyə vaxtları qalmırdı.  Üstəlik, peşə maraqları arasındakı kəskin fərqlər üzündən "informasiya kommunikasiyalarına" ehtiyac çox cüzi idi. Və əgər Nortumberlend ingilislərini şotlandların basqınları narahat edirdisə, Kant sakinləri bu barədə düşünmür, bordolular isə heç düşünmək belə istəmirdilər. Həlbuki, hamısı bir kralın hakimiyyəti altında bulunurdu. Xilafətin ərazi əmirliklərinə asanlıqla parçalanması ərəblərin özünü də mat qoydu, halbuki, yeni yaranan müstəqil ölkələrin alimləri arasında ilişkilər qırılmadı. Lakin məgər etnosun birgəliyini ilahiyyat və fəlsəfəmi təyin edir?

Bundan başqa, mükalimıəyə müxtəlif fikirlər toqquşan zaman başlamaq məsləhətdir. Lakin bu zaman həm də mübahisə və çəkişmələr də başlanır. Klervolu Bernadla klyuniyalı rahiblərin Pyer Abelyar və Paris tələbələrilə mübahisələri məhz bu cür idi. [316-317]

Katolik kilsəsini savadsız keşişlər və pozğun yepiskoplardan təmizləməyə nail olan Bernard iki kralı - fransız VII Lui və alman III Konradı səlib yürüşlərinə təhrik etdi.

Abelyar katolik kilsəsinə fəlsəfi sistem - konseptualuzm, bir papa (II Selestin), bir yaresiarx (Arnold Breşianski), 19 kardinal və 50 yepiskop bəxş etdi. Kilsədən uzaqlaşdırılan Abelyar düşmənlərinin monastrına Klyuniyə pənah apararaq, onu təqib edənlərlə barışdı və 1142-ci ildə elə burada vəfat etdi. Yaxşı, nəyi "kommunikasiya toplusu sayaq? Tonqala aparıb çıxaran qovğanı, yoxsa gor qarşısında dinməzcə razılığı? Bir qədər də sadə ifadə etsək, bədnam informasiya ilişkiləri etnogenez amili yox, qarşıduran tərəflərdən birinə mənsubiyyət göstəricisidir.

Elə həmin XII əsrdə bərbər ilahiyyatçısı İbn Tümart Şimali Afrikada taureq marabutları (tərki - dünyalar) əleyhinə qaldırdığı "tanrının birliyi" haqqında mübahisə daha dəzşətli şəkildə sonuclandı. Savadsız sadəlövh adamlar Tanrının insana bənzəyişini sözün birbaşa anlamında başa düşdüklərindən, belə güman edirdilər ki, onun da əlləri, sifəri və i.a. var. İbn Tumart bildirdi ki, "Allahın əli onun xassələrindən biridir və bu halda hərəkət deməkdir, onun siması isə başqa bir xassəsi, məsələn, eşitmə, görmədir", bu əllərin həqiqətdə nə olması isə insan idrakının hüdudlarından kənardadır. (9) Güman etmək

olardı ki, "kommunikativ informasiya"nı tətbiq etməyəin əsl vaxtıdır. Xeyr, belə olmadı: "vəhdət" tərəfdarları - Əlməhidlər "çoxallahlıları" - Əlmürrəviləri qılıncdan keçirdilər. Çətin ki, çox az adam üçün anlaşıqlı olan ilahiyyata dair bu mübahisəni qan tökülməsinin əsl səbəbi olsun. Sadəcə olaraq, bərbərlər taureqlərlə mübarizə aparırdı və artıq bərqərar olan fikir də elə budur.

Müsəlman ilahiyyatında 1000 il ərzində davam edən belə mübahisələr heç də həmişə qan tökülməsinə gətirib çıxarmırdı. Əksinə, inadlı və qanlı savaşlar başqa, məsələn, Əli və Fatimə xələflərinin taxtına sahib olmaq hüququnun müdafiəsi bəhanəsi altında baş verdi. Deməli, məsələ elmi ifadələrdə yox, başqa bir şeydədir ki, vəzifəmiz onu tapmaqdır.

Lakin əgər biz etnosların monomorfinizminin gözlə görünən bütün səbəblərini bir kənara atmışıqsa, sistemlərin öz aralarında bu qədər bənzərsiz olması şəraitində etnogenez proseslərinin yeknəsəkliyini nə ilə açıqlamaq olar? Görünür, invariant bir amil də olmalıdır. Bəli, belə bir amil var. Onu belə adlandıraq: məkan - zaman energetik nisbətlərinin bölgənin etnik substratlarını [317-318] deformasiyaya uğradan konstellyasiyası. İndi isə bunun nə demək olduğunu açıqlayaq.

Alt hissəsi hamar olmayan və bir tərəfində bir xətt boyu müxtəlif ölçü və çəkili kürəciklər olan məcməyi təsəvvür edin. Bu diyircəklər sırasını kiçik kürəklə dağıdaq. Kürəklə toxunduğumuz kürələr müxtəlif sürətlə diyirlənərək, qalanlar isə yerindən tərpənməyəcək. Diyirlənənlər tədricən dayanacaq və yeni qəribə bir fiqur yaradacaqlar. Təkrar başqa bir yerdə təkan versək, kürəciklərin həcm və ətalət müxtəlifliyi, səthin hamar olmaması üzündən başqa bir fiqur əmələ gələcək. Lakin yeni fiqur da təkanın nəticəsidir. Passionar təkan (mikromutasiya) müəyyən bölgəni ehtiva edərək, oradakı etnosları hərəkətə gətirir və həmin hərəkət passionarlıq sıfıra doğru azaldıqca zəifləyir. Passionarlıq əlaməti isə seçim yolu ilə aradan götürülür. Hərəkətin başlanğıcında yeni sistemlər meydana çıxır ki, onlara münasibətdə köhnələr substrat rolunu oynayır. Bölgənin passionarlığın təsirinə məruz qalan bütün etnosları qidalandıran landşaft və etnik əhatəyə münasibətlərini dəyişir ki, bu da müşahidə oluna bilən rəngarənglik yaradır. Lakin eyni impuls aldıqlarından, oxşarlıq əlamətləri də nümayiş etdirirlər (bir istiqamətdə diyirlənirlər). Onları superetnosda birləşdirən də elə budur.

Bəs, superetnosu "mədəni çevrə", yaxud passionar təkanla eyni vaxtda rəvac tapmış ideoloji konsepsiya ilə qarşılaşdırmaq olarmı? Belə bir fikir cazibəli olsa da, bu yalnız xülyadır. Nəzəriyyələr, estetik qanunlar, etika normaları və i.a. təbii hadisələr yox, insan zəkasının məhsuludur. İnsan əllərinin düzəltdiyi şeylər kimi, bu dəyərlər də ya qorunub saxlanır, ya da amansız zaman tərəfindən məhv edilir. Təbliğ yolu ilə onları yaradan etnoslardan daha sürətlə yayılsalar da, yeni zəmində təhrif olunmaları qaçılmazdır. İkicə örnək kifayətdir.

V əsrdə xristian doktrinası təbliğat yolu ilə Hindistandan İrlandiyaya və Qafqazdan Həbəşistanadək yayıldı. Hər yerdə zəfər çaldı, lakin.. qəhrəman əməllər və fədakar təbliğat sayəsində əldə olunan bu bənzəyiş kamlar, ibadət qaydaları, bir də dolaşan ədəbi süjetlərlə (məsələn, Qraal əfsanəsi) məhdudlaşırdı. Həmin yaxınlıq isə yalnız passionar yüksəlişin zirvəsindəki müvəqqəti bir an idi. Bu zirvə arxada qalan kimi hər şey darmadağın oldu. Mənəvi müstəqilliyə can atan Misir monofizit oldu, nestorçular İran şahının himayəsi altında Mesopotamiyada sığınacaq tapdılar, yeni superetnosun başında duran Roma öz - özünə "qopdu". [318-319] Ərəbistanda isə Bizansda təqib olunan bütün küfürləri özündə ehtiva edən islam onları ərəblərin özünütəsdiq simvoluna çevrilən təlim şəklində birləşdirməyə nail oldu. Mədəni varəsəlik göz önündə olsa da, təbii proses ondan yan keçərək, insanların yaratdıqları bütün bəndləri darmadağın etdi.

Buddaçılığın təbliğinin taleyi də bunun eynidir. Öz vətəni Benqaliyada yox olan bu təlim Seylon, Yaponiya, Çin,Siam və Monqolustanda o dərəcədə fərqli formalar kəsb etdi ki, hətta ehkamı əsaslar da itirildi. Yalnız terminologiya və Buddanın adı - Şakya Muni qorunub saxlandı. Yeri gəlmişkən, xristianlarda da bu adama şəhzadə İosaf adı altında ehtiram göstərilir. Qraalla ilgili örnəkdə olduğu kimi, yenə mədəni təsir heç də etnik yaxınlığa dəlalət etmir.

Beləliklə, superetnosun invariantı coğrafiyanını əhatə dairəsindədir və passionar təkanın impulsu ilə bölgənin landşaft xassələrinin uyuşması ilə təyin olunur. Passionar təkan coğrafi sədrlərlə təcrid olunmuş iki, üç, dörd bölgədə baş verdikdə isə bir birilə ilgili olmayan müvafiq sayda superetnos meydana gəlir. Lakin eyni yaşda olduqlarından, bu superetnoslar daha əvvəl, yaxud daha sonra meydana çıxanlardan fərqli olaraq, sinxron inkişaf edir. Bu halda bizim təsvir etdiyimiz və onlara bənzər digər çaxnaşmalar baş verir.

Passionar təkanın toxunmadığı qonşu etnoslar da yeni etnos üçün substratdır. Etnik əhatə etnogenezin xarakterinə homeostaz istisna olmaqla, istənilən mərhələdə təsir göstərir. Deməli, öz bölgəsində ondan əvvəl olmuş və qonşu etnoslara münasibətdə hər bir yeni etnos törəmədir. Bununla belə, yeni etnosun meydana çıxması qonşu etnoslara və onların inkişafına (bu inkişaf yeni etnosun meydana çıxması ilə ilgili qırılmasa belə) qaçılmaz şəklində təsir göstərir. Etnik inkişafın mexanizmi mürəkkəb olsa da, onun prinsipi açıqlanmalıdır.

Xeyr, insanların davranış stereotipini yalnız mənfəət və maddi nemətlər formalaşdırmır! Onların məhəbbət və nifrətləri xeyli dərəcədə psixikanın təftəlşüur ünsürlərilə ilgilidir ki, bunun sayəsində "özününkü" və "yabançı" sözləri mücərrəd anlayışlar yox, həqiqətən mövcud olan etnik sahə və ritmələrin

hiss olunmasıdır. Elə bu səbəbdən etnoslar və onların toplusu olan superetnoslar minilliklər boyu mövcud olur, təsadüfi külək və ya sarsıntıdan yıxılan zaman komanın gününə düşmür. Lakin passionarlıq, yəni etnik sahəni təlatümə /ətirən qüvvə yox olduqda, [319-320] sifoniya da susr və etnos (yaxud superetnos) özü öz ağırlığının təsiri altında dağılır.

**Xülyalar**. Tez - tez elə olur ki, etnoslar bir birinin içindən “bitir”. Bir superetnos daxilində bu, heç bir faciəli sonuca səbəb olmur, lakin superetnik səviyyədə belə metastazlar məhvə aparıb çıxaran xəyali kompozisiyalar (ximeralar/10/) törədir. Prosesin mexanizminin sxemi belədir.

Təkan nəticəsində meydana çıxan super etnik sistem öz bölgəsinin təbiətilə sıx ilgilidir. Onun həlqə və yarımsistemləri olan etnos və subetnosların hər biri özü üçün ekoloji sığınacaq tapır. Bu onların hamısına yaşamaq uğrunda mübarizəni minimuma endirmək və fəaliyyətlərini uzlaşdırmaq imkanı verir ki, bu da öz növbəsində, ictimai formaların yaranmasını asanlaşdırır. Bu halda da qan axıdılsa da, onun miqdarı bir o qədər də çox olmur və bu, həyat üçün əngəl törətmir. Lakin bu vəziyyətə yeni yabançı etnik bütöv qarışarsa, o, özü üçün ekoloji sığınacaq tapmadığından, landşaft yox, onun sakinlərinin hesabına yaşamalı olur. Bu, sadəcə qonşuluq  və simbioz (bir birindən yararlanaraq yaşama, -tər.) yox, xülya (ximera), yəni iki müxtəlif uyuşmaz sistemin bir bütövdə olmasıdır. Zoologiyada, məsələn, canlıların orqanlarında bağırsaq qurdlarının olması nəticəsində yaranan konstruksiyalar ximera adlanır. Heyvan parazitsiz mövcud ola bilsə də, parazit onsuz məhv olar. Lakin heyvanın bədənində yaşayan parazit onun prosesində iştirak edir: qidaya olan ehtiyacın artmasını şərtləndirir, sahibi, yaxud daşıyıcısının qan və ya ödünə zorla yeridilən qormonları ilə orqanizmin biokimyasını dəyişir. Onun simbiozdan fərqi də elə bundadır. Məsələn, simbioz tənha yaşayan xərçəng öz qını üstündə onu düşmənlərdən qoruyan aktiniyanı gəzdirir, xərçəngin belində “gəzən” aktiniya isə daha çox qida əldə edir.

Superetnik səviyyədə simbioz zamanı hər iki komponent təbiətin nemətləri hesabına mövcud olur ki, bu da ara - sıra baş verən münaqişələri heç də istisna etmir. Bununla belə, simbioz zamanı baş evrən superetnik toqquşmaların dəhşətləri superetnoslar səviyyəsindəki ximeraların zəhərilə müqayisədə heç nədir. Lakin artıq etnos və ya subetnos səviyyəsindəki metisləşmələr yv assimilyasiya, ya da qalıq subetnos doğurur ki, bu da məhvolma elə sonuclanmır.

Təbii ki, möhkəm, passionar gərginliyə malik etnik sistemlər öz mühitlərinə kənar elementlərin daxil olmasına yol vermir. Bu səbəbdən XII əsrə qədər Qərbi Avropada xülyəvi konstruksiyalara [320-321] rast olunmur. XIII əsrin əvvəllərində isə onlar meydana çıxmağa başlayır. Qılıncgəzdirənlər ordeninin Pribaltikada yaratdıqları dövlət buna bir örnək ola bilər. Döyüşkən livlərin iştirakı ilə döyüş əməliyyatları aparan bu orden təhkimli halına salınan lett və kurların hesabına dolanırdı. Pskovlular və litvalılarla qanlı savaşlar və lettlər, nə də livlərə gərək olmasa da, onlar yadellilərin onlara hökm sürdüyü sistemə düşdüklərindən, başqa əlacları qalmamışdı. Odur ki, özgə mənafeyi naminə canlarından keçməli olurdular.

Marginal (sərhədyanı) xülyaya başqa bir örnək Bolqarıstandır. Doğma Qafqaz çöllərindən xəzərlər tərəfindən sıxışdırılıb çıxarılan bolqarlar, təxminən, 660-cı ildə slavyanların məskunlaşdıqları Dunay vadisini ələ keçirdilər. Bolqarlar Avrasiya çöl superetnosunun nümayəndələri olduqlarından, demək olar ki, 200 il boyu onların slavyanlarla simbiozu xülyəvi sistem idi. Lakin bolqarların sayı az idi, üstəlik onların bir qismi slavyan arasında əriyib getdi, bir qismi də Dobruca və Bessarabiyada, yəni ölkənin ucqarlarında məskunlaşdı.(11) Nəhayət, 864-cü ildə slavyanlaşmış bolqar çarı Boris xaç suyuna çəkilməni qəbul etdi ki, bu da onun xalqının bizim şərti olaraq “Bizans” adlandırdığımız superetnosa daxil olması demək idi. Lakin bu, onsuz da üzvi olmayan sistemin elementlərinin sayını artırdı. Yunan pravoslavlığı ilə yanaşı, Bolqarıstana Kiçik Asiya markionçuluğu və boqumillik sirayət etdi ki, nəticədə ölkə daxilindəki ideoloji qarmaqarışıqlıq daha da artdı. Bizansla getdikcə daha qəddar şəkildə aparılan savaş 1018-ci ildə Bolqar çarlığının süqutu ilə bitdi. Yalnız 1185-ci ildə bolqarlar və balaxlarla simbioza daxil olan Avrasiya köçəriləri - polovetslərin dəstəyinə arxalanan Aseni valaxlarının başçıları bolqarları azad etdilər.

Qismən etnoparatizmin elementlərindən biri də qul alveri institutudur. Başqa bir insanı qul halına salmazdan əvvəl onun quldardan fərqli olduğuna inam yaranmalıdır. Misirlilər və anqlosakslar üçün belələri zəncilər, romalılar üçün barbarlar, yəhudilər üçün sünnət olunmayan, müsəlman üçün kafirlərdir və i.a. Lakin özününkülərin qul halına salınması da olub.

Maraqlıdır ki, borc üstündə qul halına salınma həmişə əxlaq qanunlarına zidd sayılmış və onun əleyhinə çıxanlar olmuşdur: Afinada Solon, qədim İsraildə İkinci qanunun müəllifi və s. Digər tayfadan olanlardan qul kimi yararlanmaq isə dəniz heyvanları ovu ilə məşğul olan tlinkit və aleutlarda da təbii bir şey sayılırdı. Bu məşğuliyyət növü qul əməyinin tətbiqini mümkünsüz etdiyindən, [321-322] qadınları qulluqçu kimi evdə işlədir, kişiləri isə mərasimlərdə qurban verirdilər.

Xatırlayaq ki, messen ilotlarının qeyzlənmələrinə səbəb qarət və qətllərə məruz qalmaları yox, bunun onların özləri kimi Heraklidlərin xələfləri olan doryan - spartiadların etməsi idi. Ellinlər özləri də qullar və qul alverçiləri olsalar da, həmin fakt onların hamısında narazılıq doğururdu.

Quldarlıq quruluşuna klassik örnək olan qədim Elladada tayfalararası savaşların qalibləri məğlub olanlar şəxsi azadlıqdan məhrum etmir, yalnız onlardan xərac alırdı. Belə ki, fessaliyalıların bu düzənlik diyara Pind ətəklərindən gələn əcdadları onlara itaət edən ellinləri penest (kasıblar) adlandırırdılar.

Şübhəsiz, V əsrdə dağılan Roma imperiyasının əyalətlərinin əsarət altına alınması - kolonat kimi, bu da sosial hadisədir.

Etnos "yaşa" dolduqca xasiyyətlər də sərtləşirdi. E.ə. 435-ci ildə Korinf koloniyası olan Epidamnı ələ keçirən kerkirlilər onların özləri kimi Korinfdən olmayan bütün əsirləri qül kimi satdılar. (12) E.ə. 413-cü ildə də eyni hadisə baş verdi - sirakuzalılar əsir tutduqları afinalıları daş karxanalarına sürgün edib, burada onlara susuzluqla işgəncə verməyə başladılar, susuzluğa tağ gətirə bilmiş qeyri - afinalıların nəsibi isə yenə də qul kimi satılmaq oldu. (13) Artıq rəqiblərə düşmən kimi yanaşırdılar.

Romalılar daha ardıcıl idilər. 69-cu ildə Vespasianın legionları Kremonanı ələ keçirdikdə bütün sakinləri qırdılar, çünki Roma vətəndaşları olduqlarından, onları qul kimi satmaq mümkün deyildi. (14) Burada da eyni sosial hadisə müşahidə olunur və onun ərəb, portuqal və ingilis - fransız qul alverindən fərqi göz önündədir.

Lakin yanaşmanın istinad etdiyi ilkin münasibət bir qədər dəyişdirilərsə, belə hesab etmək olar ki, ölkənin yerli əhalisi landşaftın tərkib hissəsidir və etnos -parazit ondan heyvanlar, bitkilər və qiymətli minerallardan yararlandığı kimi yararlanır. Lakin çətin ki, belə yararlanmada maraqlı olanlardan başqa kimsə bu baxımı qəbul etsin, üstəlik tarix də onu daim təkzib edir. Quldarlıq institutu daim müşahidə olunsa da, etnik parazitizmin ayrı - ayrı halları səbatsız və qısaömürlü olur, lakin tez -tez yenidən meydana çıxırdı.

Beləliklə, ilk baxımda təbiətlə ilgili olmayan istisna etnosların varlığı da etnosun landşaftla ilgili olması haqqında əsas tezisi təkzib etmir. Üstəlik, məsələn, iqlim şəraiti, epidemiyalar, [322-323] yaxud qidanın xarakteri kimi amillərin passiv qavranışı parazit etnoslarda da birbaşa öz bölgəsinin təbiətilə ilgili etnoslarda olduğu kimidir. Odur ki, bütün Yer üzündə vahid etnos yaratmaq üçün iqlim zonaları, atmosferin siklon hərəkətini, meşə və çöl arasında fərqi və əlbəttə ki, dağ və dərələri məhv etmək gərəkdir. Xöşbəxtlikdən, bu, mümkünsüz bir şeydir.

Etnoslararası çarpışmaları nə bioloji, nə də sırf sosial kateqoriyalara aid etmək olmaz. Halbuki, təklif etdiyimiz açıqlama passionarlığın biosferin canlı maddəsinin biokimyəvi enerjisinin modusu kimi artıq yuxarıda verdiyimiz təsvirindən doğur. Superetnik səviyyədə etnik təmasların dörd variantı mümkündür və artıq aydındır ki, təyinedici amil təmasda olan etnosların passionar gərginliyinin dərəcəsidir. Passionarlığın aşağı olduğu qalıq halı ilə passionar gərginliyə malik etnosun uyuşmasını müşahidə etdiyimiz halda assimilyasiya, yaxud zəif etnosun sıxışdırılıb aradan çıxarılması ehtimalı daha güclüdür. İki və daha artıq passionarlığı zəif etnos yanaşı olduğu halda isə onlar modus vivendi əldə edir və bir birinə təsir göstərmədən mövcud olur. Güclü, lakin bərabər passionarlığa malik etnoslar yanaşı olduqda isə metisləşmə baş verir. Həm də bu zaman ritmlərin üst üstə düşməsi davranış stereotipini təhrif etməklə, onu kollektivin zərərinə olaraq fərd üçün əlverişli edir. Adətən, kollektivlər annihilyasiyaya məruzdur, çünki hər kəs başqasının hesabına yaşamağa can atır. Lakin metisləşmə olan yerdə passionar təkan baş verirsə, metasiyaya uğramış populyasiyaların daha yüksək səbatsızlığı yeni davranış stereotipi, yeni struktur, deməli, ictimai - siyasi institutların yeni variantlarının yəni yeni etnosun yaranmasına imkan verir. Bu prosesi, bir tərəfdən, yalnız katalizatorun tətbiqi və yüksək temperatur olması şərtilə başlana bilən kimyəvi reaksiya, digər tərəfdən psixologiyadakı emosiyalar çərçivəsində (təhtəlşüurda) baş verən yaradıcı proseslə tutuşdurmaq olar.

Buradan belə çıxır ki, etnik (irqi yox) metisləşmə birmənalı dəyərləndirilə bilməz. Məkan və zamanın bir şəraitində o, etnik substratları məhv edir, bir başqasına dəyişdirir (təhrif edir), üçüncüsündə isə yeni etnosa çevrilir. Lakin o heç vaxt heç bir iz qoymadan keçmir. Elə bu səbəbdən, etnologiyaya qarşı istər dövlət, yaxud qəbilə ittifaqı, istərsə də monoqam ailə səviyyəsində etinasızlıq xələflərə münasibətdə düşünülməmiş, cayətkar bir hərəkət kimi dəyərləndirilməlidir. [323-324]

## XXVIII. PASSİONARLIĞIN TƏBİƏTİ.

V.İ.Vernadskinin biosfer haqqında təlimi. Etnogenezin energetik məğzi məsələsini qaldırmaqla, biz bu prosesləri energinin hansı formasının yaratdığını da göstərməliyik. Lakin bunun üçün bir sıra obivatel təsəvvürlərindən təcrid olunmaq və onları elmi təsəvvürlərlə əvəzləmək gərəkdir. Özümüzə başqa orqanizmlərlə daim qarşılıqlı əlaqədə olan müstəqil orqanizm kimi alışdığımız yanaşma əvəzinə, "canlı orqanizmləri bütöv və vahid bir şey kimi ifadə etməliyik, çünki onlar hamısı biosferin funksiyası və ... onu təyin edən möhtəşəm geoloji qüvvədir". (15) Yer üzündə məskunlaşan orqanizmlər yalnız fərdlər məcmusu yox, həm də "ətraf mühitlə atomların biogen cərəyanı nəfəsi, qidalanması və artımı ilə ilgili olan "(§ 33) "canlı maddə"dir.

V.İ.Vernadskinin təliminə görə, biosfer yalnız planetin səthi üzərində "canlı maddə" nazik pərdə yox, hə mə geoloji zaman ərzində onun həyat fəaliyyətinin bütün məhsullarıdır: torpaqlar, çöküntü və metaforik süxurlar və havanın sərbəst oksigeni. Biz əcdadlarımızın cəsədləri üstündə gəzirik; çox uzaq keçmişlərdə vəfat edənlərin həyatı ilə nəfəs alırıq və özümüz də bu ünsürə çeriləcəyik ki, xələflərimiz bizimlə nəfəs alsın. "Bütün canlılar öz aralarında ilgili olan və geoloji zaman ərzində təkamül prosesisinin təsirinə məruz qalan daim dəyişən orqanizmlər məcmusudur. Bu, zaman keçdikcə tarazlığa keçməyə can

atan dinamik tarazlıqdır.. Əks istiqamətdə fəaliyyət göstərən bərabər dəyərə malik hadisələr olmadan cərəyan edən mövcudluq nə qədər sürəkli olarsa, azad enerji sıfıra bir o qədər yaxın olacaq".

Bu prinsipi anlamaq üçün daha bir təfərrüatı mənimsəmək gərəkdir. Planetin ətalətli maddəsi entropiyanın artımı qanununa tabedir. Əksinə, canlı maddə antientropik xassələrə malikdir. Canlı və ətalətlinin bütün bu rəngarəngliyi "atomların biogen miqrasiyası", yaxud "biosferin canlı varlığının enerjisilə ilgilidir.

Enerjinin bu forması fiziklər tərəfindən araşdırılan bütün digərləri tək realdır. Həm də onlar kimi enerjinin itməməsi qanununa tabedir, yəni kalori və kiloqrammetrlə ifadə oluna bilər. Geoloji zaman ərzində planetimiz 1) Günəşin şüa enerjisi; 2) Yer təkində radioaktiv parçalanmanın enerjisi; 3) qalaktikamızdan gələn səpələnmiş elementlərin kosmik enerjisini mənimsəməklə enerji ilə zənginləşmişdir. (16) [324-325]

Orqanizmləri su gölməçəsinə baharda düşən yeganə su gölü (lemna) yarpağının nayızadək gölməçənin bütün səthini təbii hüdudlara - sahillərədək tutması kimi mümkün olan sərhədlərin hüdudlarına qədər inkişafa məcbur edən enerji forması da elə budur. Mümkün qədər yayılma qanunu biosferin bütün canlıları, deməli, insanlar üçün də qüvvədədir.

Lakin biosfer özü onun tərkib hissəsi olan orqanizmlər üçün sərhədlər qoyur. Biosfer, şəbəkəvaridir: heyvan və ya bitkilərin bəzi növləri digərlərini məhdudlaşdırır və həyat harmoniyası - böyük və ya kiçik miqyaslı biosenozların dinamik tarazlığı yaranır. Yer üzündə iqlim şəraitləri fərqlidir. Onlar bölgələr, okeanlardan uzaqlıq, atmosfer təzyiqi göstəricələrinin - siklonlarının başvermə tezliyi və digər səbəblərlə şərtlənir. Əgər belədirsə, orqanizmlərdə uyğunlaşmaq ehtiyacı yaranır ki, bu da yayılma imkanlarını artıq ərazi baxımından məhdudlaşdırır. Odur ki, canlı və ətalətli elementlərdən ibarət mürəkkəb sistemlər kimi səciyyələndirilə bilən geobisenozlar dayanıqlıdır. Onlarda enerjinin bir məskunlaşma məkanındakı bitki və heyvanlar arasında dövriyyəsini təmin edən daimi proseslər, yəni biosenozun konsersiyası baş verir.

Lakin, axı, insanlar da biosenozlara daxildir. Biosenozun tacı olan etnik birliyin gücü aramsız olaraq qarşılaşdığı çətinliklərin aradan qaldırılmasına sərf olunur. Dinc durumda o, qonşulara münasibətdə təcavüzkarlıqdan uzaqdır və təbiəti fəal şəkildə dəyişməyə qadir deyil ki, bu da intensiv artım sayəsində onun üzvlərinin sayının çoxalmasına səbəb olur.

Fərdlərin qarşılıqlı tabeliyinin mövcudluğun şərt olduğu bir sistem kimi etnos beləcə yaranır. Lakin elə həmin passionarlıq həm də sistemdə üstünlük qazanmaq naminə insanları qarşılıqlı qırğına təhrik edir və bu halda passionar gərginlik sıfıra çatana qədər azalır. Bundan sonra sosial institut və ənənələrdə bərqərar olan hərəkət ətaləti sistemin varlığını dəstəkləsə də, o, məhvə məhkumdur və homeostaza keçir. Deməli, bütün "durğun" etnoslar vaxtilə inkişafda olmuşlar və hazırda inkişaf edən etnoslar da, yox olmasalar, nə vaxtsa "sabit" olacaqlar.

Sayları nəzərə alınmadan, etnosların böyük əksəriyyəti müəyyən ərazilərdə keçmişdə, yaxud indi yaşamaqla, həmin landşaftın biosenozuna daxil olmuş və onunla birgə özünəməxsus "qapalı sistem" təşkil etmişlər. Digərləri inkişaf etmək və artmaqla öz bioxorlarının hüdudlarından kənara yayılırlar, lakin bu genişlənmə onların yeni mənimsənilən, lakin sabitləşmiş [325-326] uyğunlaşma bölgəsində birinci tipdən olan etnoslara çevrilmələrilə sonuclanır. Termodinamikanın kosmik proseslərilə tam eyniyyət müşahidə olunur: "Qapalı sistemdə entropiya durmadana artır. Deməli, orqanizm (yaxud orqanizmlər sistemi, L. Q.) yığılan entropiyanı vaxtaşırı kənar etməlidir. Odur ki, canlı ətraf mühitlə aramsız olaraq enerji və entropiya mübadiləsi etməlidir. Bu mübadilə idarəedici sistemlər tərəfindən nizamlanır ki, onlar da bunun üçün informasiya ehtiyatlarından yararlanır. İnformasiya ehtiyatlarının orqanizmdə və ya sistemdə özbaşına əmələ gəlməsi tamamilə görünməmiş bir şeydir. Deməli, onlar irsən ötürülür". (17)

Daha əvvəldə göstərildiyi kimi, fiziklər tərəfindən qeydə alınan informasiyanın irsən ötürülməsi tarixçələrin təbirincə "ənənə", bioloqlarda isə "siqnal irsiyyəti" adlanır. Yuxarıda deyilənlərin hamısının çıxış edərək etnogenez - energetik proses, passionarlıq isə enerjinin etnogenezi qidalandıran formasının təsirinin nəticəsidir.

**Muttasiyalar - passionar təkanlar**. Lakin geobiosenozların sakit vəziyyətləri ədəbi bir hal deyil. Onlar daşıyıcıları üçün ölümcül olan qəribə fəallıq dövrlərilə qırılır. Çəməndə sakitcə atılıb - düşən çəyirtkələr qəfildən məhvinə doğru uçan və rastına düşən hər şeyi məhv edən sapançaya çevrilir. Tropik qarışqalar öz abad məskənlərini tərk edərək, qarşılarına çıxan hər şeyi dağıdırlar ki, son nəticə özləri də ... yolda məhv olsunlar. Lemminqlər (ala siçanlar, - tər.) yüzlərlə verst yol qət edir ki, okean dalğalarına atılsınlar. Hətta mikroorqanizmlər də ... beləcə hərəkət edir və məhvedici epidemiyalar doğururlar. Bu qəribə hadisələri necə açıqlamalı? Görünür, yenə də V. İ. Vernadskinin biogeokimya üzrə araşdırmalarına üz tutmaq gərəkdir.

Birinci biogeokimyəvi prinsipdə deyilir: "Kimyəvi elementlərin biosferdəki biogen miqrasiyası daim maksimum şəkildə özünü göstərməyə can atır. Planetin bütün canlı enerjisi sərbəst enerji mənbəyidir və iş görməyə qabildir" (§206). Təbii ki, burada iş fiziki anlamda başa düşülür. "Sərbəst enerji" dedikdə isə V. İ. Vernadski "canlı maddənin entropiyanın əksi istiqamətində özünü göstərən enerjisini nəzərdə tutur, çünki canlı maddənin fəaliyyətilə iş görməyə qadir sərbəst enerjinin inkişafı meydana çıxır" (§206). Deməli, planetimiz kosmosdan biosferin tarazlıqda saxlanması üçün gərək olduğundan daha artıq enerji alır ki, bu

da heyvanlar arasında bir qədər əvvəl təsvir etdiyimiz hadisələrin, insanlar arasında isə passionar təkanlar, yaxud etnogenez [326-327] partlayışlarının baş verməsinə səbəb olan sapınmalara gətirib çıxarır.

Etnogenez prosesinin təşəkkül tapması və cərəyan etməsinin mütləq şərti (tam sönənə və bundan sonra etnos qalığa çevrilənədək) passionarlıq, yəni məqsədyönlü həddən böyük gərginliklərə qadir olmaq qabiliyyətidir. Onu yalnız qeyd olunan faktları açıqlayan, lakin digər açıqlamaların da meydana çıxmasını istisna etməyən fərziyyəni, yəni mühakiməni qəbul etməklə açıqlaya bilərik: passionarlıq orqanizmin xarici mühitin enerjisini udmaq və onu iş şəklində təqdim etmək kimi anadangəlmə xassəsidir. İnsanlarda bu xassə o qədər güclü şəkildə titrəyişlərə məruz qalır ki, bəzən onun impulsları həm fərdi, həm də növ özünümühafizə instinktlərini sındırır və nəticədə bəzi terminologiya ilə desək, passionarilər onların əhatəsinin dəyişməsinə aparıb çıxaran hərəkətlər etməkdən yayına bilmir və edirlər də. Bu dəyişiklik eyni dərəcədə həm təbii mühit, həm də insan birlikləri, yəni etnoslar daxilindəki münasibətlərə aiddir. Deməli, passionarlıq energetik təbiətə malikdir, fərdin psixikası isə yalnız passionarlıq daşıyıcılarının landşaflar, xalqlar və mədəniyyətlər yaradan və məhv edən daha yüksək fəallığını dəstəkləyən impulsları öz səviyyəsində transformasiyaya uğradır.

Bizim iddia heç də ziddiyyətli deyil. O, fiziologiyanın tam sübuta yetmiş müddəalarına əsaslanır. Hələ İ.M.Seçenov bir fizioloji amil kimi mühitin rolunu açıqlamışdı: “Orqanizm onu dəstəkləyən xarici mühitsiz ola bilmədiyindən, orqanizmin elmi tərifinə ona təsir göstərən mühit də daxil olmalıdır”. (18) Əgər belədirsə, onda mühitin energetik balansı da nəzərdən keçirilənlər arasında olmalıdır.

Təbii ki, orqanizm həyat fəaliyyəti üçün zəruri olan enerjini yalnız bədənin temperaturunu dəstəkləyən və ölmüş hüceyrələri bərpa edən qidalanma yolu ilə almır. Axı, nəfəsalma, yəni ağ ciyərlərdə baş verən oksidləşmə orqanizmin yaşaması üçün heç də daha az önəmli deyil. Enerjinin digər formaları - elektrik (örtüklərin ionlaşması, işıq, radiasiya və qravitasiya (cazibə) ilə qarşılıqlı ilişkolar barəsində də eyni şeyi söyləmək gərəkdir. Onların hamısı orqanizmə müxtəlif şəkildə təsir göstərərsə də, hər hansı biri olmadan həyat mümkün deiyl. Odur ki, xarici mühitin enerjisinin orqanizmin enerjisinə çevrilməsi mexanizmi fiziologiyaının predmetidir. Etnologiya üçün başqa şey önəmlidir: [327-328] niyə başqa canlılardan fərqli olaraq, insanda fəallıq dərəcəsinin titrəyişləri bu qədər böyükdür?

Burada iki bərabərhüquqlu fərziyyə təklif etmək olar. Ya passionar fərq normal fərddən daha artıq enerji qəsb edir, ya da bərabər enerji əldə edilən zaman passionar fərd onu təmərküzləşmiş şəkildə (təbii ki, kortəbii şəkildə) bu və ya digər məqsədin əldə olunmasına yönəldir. Hər iki halda nəticə eyni olur: fərdin ali sinir fəaliyyəti növə xas olan normal haldan daha fəal olacaq.

Beləliklə, əgər sosial şərait insan hərəkətlərinin istiqamətlərini şərtləndirirsə, onların energetik gərginliyi orqanizmin vəziyyətindən, o cümlədən genetik baxımdan şərtlənən əlamətlərdən asılıdır. Burada biz biologiyanın bir sıra hadisələrilə təmasda oluruq: qəfildən meydana çıxan, lakin sapınma məhsulu olmayan yeni əlamətin yaranması. Bu o deməkdir ki, passionar partlayışla yanaşı (yaxud passionar təkanla) normadan müxtəlif sapınmalar doğuran mutagen sapınma da baş verir. Lakin fiziki və psixi eybəcərlərin böyük hissəsi heç bir iz qoymadan məhv olduğu halda, mutasiya məhsulu olan passionarlıq bu baxımdan istisnadır.

Qeyri-irqilərlə müqayisədə irqi əlamətlərin daha mütəhərrik olmalarını göstərən Y.Y.Roqinski və M.Q.Levin bununla yanaşı qeyd edirdilər ki, metisləşmədən əlavə, tarixi dövr ərzində hətta irqi somatik (bədən) dəyişikləri də baş verir. (19) Əlamətlərin dəyişməsi ya yeni şəraitə uyğunlaşmanın, ya da mutasiyaların nəticəsidir.

Sonuncu halda, faydalı əlamət qorunub saxlanır, zərərli isə təbii seçim tərəfindən kənarlaşdırılır. Passionarlıq daşıyıcısı və onun qohumları üçün zərərli, hətta məhvedici olan qeyri - irqi bir əlamətdir. Səbəbi isə aşağıdakılardır. Savaş ölkənin hüdudlarından kənarda baş verərsə, passionarlıq uzaq ölkələrə yollanaraq, öz ailələrini başçısız qoyurlar ki, bu da təsərrüfatın tənəzzülünə səbəb olur. XVI əsr İspaniyasında məhz belə olmuşdu: konkistadorlar Anauka, Peru və Filippində, nizami qoşunlar isə Niderland və Fransada döyüşürdü. Bacarıqlı işçilərin çatışmamazlığı o qədər kəskin şəkildə hiss olunurdu ki, hətta gəmilərin inşası üçün zəruri olan mismarı Niderland və Almaniyada satın almaq gəlirdi. Halbuki, yüz il ondan əvvəl Toledoda istehsal olunan zirehlər Avropada birincilik qazanmışdı.

Lakin bu ad hələ məsələnin ən pis tərəfi deyil. Həddən artıq passionar qızmalar zamanı qanlı daxili çəkişmələr baş verir ki, çox vaxt onların qurbanı təkcə rəqiblər deyil, həm də onların ailələri olur. Avropada Qvelf və Gibellin savaşları və Çindəki Çarlıqlar [328-329] savaşı dövrü (e.ə. 403-221-ci illər) bu qəbildəndir. (20) Bu və bunların eyni olan digər savaşlarda savaşanlar yox, məharətlə gizlənməyi bacaranlar salamat qaldılar. Lakin bütün xassələrilə yanaşı, bir əlamət kimi passionarlığın xüsusiyyətlərindən biri də odur ki, o, valideynlərinin sosial deyil, bioloji xassələrinə varis olan “qeyri - qanuni” adlanan övladları sayəsində populyasiyada iz qoyub gedir. Həm sərt sosial, həm də korpuskulyar (etnik) sistem ilişkilərinin olması isə istər, “sosial orqanizm” olsun (21), istərsə də superetnos, bütövlükdə sistem üçün əlamətin önəmini artırır. Axı, təbii mühit və etnik əhatəyə təsir dərəcəsi yalnız texnikanın səviyyəsindən deyil, həm də bu və ya digər etnogenez mərhələsini keçən bütöv kimi etnosun passionar gərginliyindən də asılıdır. Bundan əlavə, Q.F.Debets (22) və İ.A. və N.N.Çeboksarovlar göstərirlər ki, mutasiyalar bütün Yer üzünü yox müəyyən coğrafi bölgələri əhatə edir. “Əcdadlarımızın qəhvəyi dərisi,

qara saçları və qonur gözləri vardı; mavi gözlü sarışınlar isə, əsasən, Şimali Avropada Baltik və Şimal dənizləri sahilləri boyu cəmləşmiş mutasiyalar yolu ilə meydana çıxıblar".(23)

Lakin məgər bu mutasiyalar passionar təkanlardan bir qədər daha tez-tez meydana çıxmalarındın savayı, başqa bir şeylə fərqlənirmi?

Mutasiyaların mənşəyi və mutogenezin səbəbi barəsində sualdan çox asanlıqla yayınmaq mümkündür. Bioloqlar özləri bu sualı cavabsız qoyur və haqlı olaraq göstərirlər ki, sınaq zamanı əldə olunan bilgilər, yəni artefakt və laboratoriyada izlənən qanunauyğunluqların təbiətdə gördüklərimizə mexaniki şəkildə şamil edilməsi özünün doğruldmur. Lakin bizim elmimiz - etnologiya tam dürüst xronologiyaya malikdir və belə bir alət əldə olan halda isə bir sıra faydalı nəticələr əldə etmək mümkündür.

Passinar təkanı mikromutasiya ilə eyni qəbul etdiyimizdən, tarixləri və bölgələri tarixi yolla araşdırmaqla biologiyanı elə bilgilərlə zənginləşdirə bilərik ki, bioloqlar onlar öz mövqelərindən təfsirlər vermək imkanına malik olarlar. Bir qədər əvvəldə əyani şəkildə nümayiş etdirilmişdi ki, mikromutasiyalar, etnologiya təbirincə desək - superetnosların passionar təkanla ilgili yaranması (24), daim yer səthinin meridian, yaxud en dairəsi istiqamətində uzanaraq, onlara hər hansı bucaq altında çevrilmiş zolağını əhatə edir. Bu bölgədə hər hansı bir landşaft zonasının - dağ, səhra, liman və i.a. olmasından asılı olmayaraq, o, daim monolit qalır. Landşaftlar və etnik substratlar yalnız passionar partlayışın əhatə [329-330] etdiyi bölgədə eyni dövrdə iki, üç, dörd müxtəlif superetnosun meydana çıxmasını şərtləndirir. Passionarlıq əlamətinin hibridləşmə vasitəsilə tamamilə istisna edilir, çünki bu mütləq metislərin antropoloji tipində öz əksini tapardı. Yerüstü səddlər mədəni mübadilə və təqlid yolu ilə əxz etməni də istisna edir. Bunların hər ikisini incəsənət və maddi mədəniyyət abidələrində asanlıqla müşahidə etmək mümkün idi.

Güman ki, biz, xüsusi təsvir tələb edən müstəsna bir hadisə ilə üzləşirik. Xatırladaq ki, yeni superetnos (yaxud etnos) bir neçə etnik substratın məcburi qarışığından yaranır. Lakin bu, cərəyan verməsi üçün sink, mis və turşu olmasını tələb edən sadə elektrik batareyasını xatırlamımı? Əlbəttə, bu, bənzətmədir, lakin mühitin müqaviməti nəticəsində tədricən sönən energetik prosesə bir örnəkdir. Lakin əgər belədirsə, onda impuls da energetik olmalıdır, çünki o, yer üzündədəki təbii və sosial şəraitdə ilgili olmadığından, güman ki, mənşəcə qeyri - planetar ola bilər. (25)

Passionar partlayış bölgələrini nəzərdən keçirən zaman belə bir təsəvvür yaranır ki, sanki Yer kürəsi hansısa bir şüa tərəfindən zolaq - zolaq edilib. Həm də bu zaman passionar təkanın yayılması planetin əyriliyilə məhdudlaşdırılıb. "Zərbə" dəyən yerdə müxtəlif mutantlar meydana gəlir ki, bunların da əksəriyyəti yaşamağa qabil olmadığından, elə ilk nəsildə yox olur. Passionarilər də normadan kənar olsalar da, passionarlığın xüsusisiyyəti belədir ki, təbii seçim onları kənarlaşdırmazdan əvvəl etnik tarixdə və incəsənət və ədəbiyyat tarixində iz qoyub gedirlər, çünki bunların hamısı hər ikisi etnosun həyat fəaliyyətinin məhsuludur.

Passionar partlayış, yaxud təkanların mənşəyinə dair başqa fərziyyələr də yürütmək olar: təsadüfi çalxalanmalar, sərgərdan dolaşan genin olması, ekzogen qıcıqlandırıcıya qarşı reaksiya. Lakin faktlar sadalananların hamısına ziddir. Burada söylədiyimiz fərziyyənin təsdiqlənməməsi də istisna olunmur, lakin bu, etnogenezin energetik təbiəti konsepsiyasının coğrafiya və tarixin ən ümdə problemlərinə tətbiqinə heç bir xələl gətirməyəcək.

**Landşaft "qovuşuqları".** Etnosun landşaftla uyuşması probleminə qayıdaq və oxucularımızın verdiyi sualı (26) cavablayaq: niyə yeni etnos yaranması üçün iki və daha artıq landşaft, iki və daha artıq etnos, iki və daha artıq sosial orqanizmin uyuşması tələb olunur? Bu, təsadüflər sırası, yoxsa qanunauyğunluqdur? [330-331]

Müstəqil bir hadisə kimi götürülən etnosun landşaftla qarşılıqlı ilişkilərinin araşdırılması göstərdi ki, hər ikisi əks asılıqla ilgilidir, lakin nə etnos daim fəaliyyət göstərən landşaftyaradan amil deyil, nə də landşaft kənar təsir olmadan etnogenezin səbəbi ola bilmir. Etnik və sosial qanunauyğunluqların nisbəti isə hətta əks əlaqəni də istisna edir, çünki sosial inkişaf üçün Yerin etnosferi amil yox, yalnız fondur.

Sosial qanunauyğunluqlardan fərqli olaraq, etnogenez üçün ərazi həlledici məqamdır. Lakin hər yeni halda bu, yeni bir bölgədir, təki yuxarıda qeyd etdiyimiz şərtləri cavablasın. Xalqların təşəkkül tapması polisentrikdir; etnogenez partlayışları inkişaf, yaxud durğunluq keçirən xalqların nə mədəniyyət və məişəti, nə irqi tərkibi, nə iqtisadiyyat və texnikalarının səviyyəsilə deyil, məkan və zamanın xüsusi şərtlərilə ilgilidir. Özü özlüyündə landşaft yeni etnoslar doğurmur, çünki onlar bu və ya digər hətta ən əlverişli yerdə belə, minilliklər boyu meydana çıxmır. Etnogenez bölgələri daim dəyişir. Bizi maraqlanıdaran proses gah orada, gah burada meydana çıxırsa, deməli, onu doğuran yer üzərində olan qüvvələr deyil. Odur ki, biz etnogenezin mənbəyini Yer planetinin əhatəsində aramalı və yenidən geobiokimyaya üz tutmalıyıq.

Etnosun bir sistem kimi passionar partlayışının doğurduğu təbiəti haqqında tezisimizdən çıxış edərək, etnosu energetik hadisə kimi dəyərləndirmək hüququmuz var. Başlanmaqda olan energenetik proses həmişə özündən əvvəl baş vermiş proseslərin ətalətini dəf etməli olduğundan, təbii ki, ətalət az olduqca, onu qəfil təkanla pozmaq bir o qədər asandır.

Bircinsli etnik tərkibin bərqərar olduğu və siyasi institutlar şəklini almış ənənələrin insanları birləşdirdiyi monolit landşaftlar nisbətən zəif təkanlara çox az reaksiya verən möhtəşəm qurumlardır. Landşaft müxtəlifliyi olan yerdə isə təsərrüfat üsullarının müxtəlifliyi də qaçılmazdır. İnsanların bir qismi dənizdə balıq tutur, bir qismi dalğalarda heyvan otarır, bir qismi əkin sahələrində buğda becərir, bir qismidə dağ ətəklərindəki tənəklərə qulluq edir. Onlar hətta bir əcdaddan törəmiş olsalar da, möhtəşəm fərqli şəraitlərinə uyğunlaşaraq zərurəti bir neçə nəsildən sonra onların artıq bir birinə çox az bənzəməsinə gətirib çıxarır. Bu bənzəyiş onlar arasındakı sistem əlaqələri zəifləyənədək azalacaq. Həmin əlaqələrin zəifləməsinə səbəb isə elə eyni dövrdə cəmiyyətin istehsal qüvvələri və istehsal münasibətlərinin inkişafına əsaslanan irəliləmə hərəkətinin olmasıdır ki, bu da öz növbəsində, mütləq [331-332] qocalmaqda olan ictimai sistemin yeniləşdirilməsinə doğru aparır. Tarixi talenin keçməkeşləri nəticəsində hər hansı bir etnos iki - üç dövlət və ya qəbilə ittifaqına malik olduqda isə sistemin dayanıqlığı bir qədər də azalır. Beləliklə, inkişafın sosial və etnik inkişaf xətləri sistem bir birinə qovuşur.

Əmək bölgüsü və ixtisaslaşma sayəsində bu cür sistemlər iqtisadiyyatın inkişafı baxımından çox məhsuldardır: etnik əhatəyə, yəni onları istila etməyə can atan qonşulara qarşı müqavimət qabiliyyəti qənaətbəxş səviyyədədir, çünki qarşılıqlı məhsul mübadiləsi qarşılıqlı yardım sahəsinə də sirayət edir. Lakin bir qayda olaraq, passionar təkan onları heyrətamiz bir yüngüllüklə dağıdır. Fərqli mədəni səviyyələrin, təsərrüfat üsulları, bir birinə bənzəməyən ənənələrin uyuşması da etnogenezin başlanğıc anı üçün eyni dərəcədə əlverişlidir. Burada ümumi olan müxtəliflik prinsipidir ki, onu bizi maraqlandıran baxımdan təfsir etmək mümkündür.

Etnosferi bir birinə toxunan geniş sal daşın qovuşuğu kimi təsəvvür edin. Bu quruma şaquli bir zərbə endirilir. Təbii ki, ilk növbədə sal daşlar yox, onlar arasındakı ilişkilər dağılır, daha sonra isə daşların özlərini də dağıntıya məruz qoyan zəncivari reaksiya baş verir. Örnək: VI-VII əsrlərdə Bizans və İran dayanıqlı sistemlər idi, onların qovuşduqları sərhədyanı bölgədə məskunlaşan ərəblər isə həmin sistemlərin təsirinə məruz qalırdılar. Passionar təkan ərəbləri elə çalxaladı ki, Məhəmmədin tərəfdarları olan bir qrup (konsorsiya) fərqləndi. Dörd nəslin həyatı ərzində Ebrodan Pamirə qədər yayılan etnos, daha sonra isə superetnos yarandı.

Yeni əhval-ruhiyyəyə malik fərdlər bir birilə ilgili fəaliyyət göstərdiklərindən, dərhal emosional, psixoloji və davranış baxımından eyni olan bütöv formalaşır ki, bunun da əsasını, güman ki, biofiziki fenomen təşkil edir. Çox ola bilsin ki, biz burada özünəməxsus vahid ritmlə rastlaşırıq. Müşahidəçilərin yeni, alışmadıqları, yabançı bir şey kimi qəbul etdikləri də elə məhz budur. İstila etnik yayılan və yabançıları öz sisteminə cəlb etməyin yeganə forması deyil. Mədəniyyətin dini təbliği və məişət, yaxud incəsənət əşyalarının geniş yayılması ilə köçürülməsi halları da məlumdur ki, bu da təsir obyekti olan sistemi dəyişir. Slavyanların xaç suyuna çəkilməsi Bizansın etnomədəni əhatə dairəsini genişləndirir; Çində tiryək və neft lampalarının satışı onu İngiltərə və Amerikadan asılı vəziyyətə saldı, məişət ənənələrini, daha sonra [332-333] dövlət hakimiyyətini, ən nəhayət, Tsin imperiyasının superetnik sistemini laxlatdı ki, bu da yalnız siyasi və sosial deyil, həm də etnik dəyişikliklərə, məsələn, mancurların çinlilər tərəfindən assimilyasiya olunmasına səbəb oldu.

Beləliklə, etnogenez baş verməsi üçün passionar impulsun olması məcburidir, həyatda müşahidə olunan rəngarənglik isə landşaft və iqlim şəraiti, etnki qonşuluq, mədəni ənənələr, həmçinin, təkanın, yəni impulsun özünün gücü ilə şərtlənir. Bütün etnosların orijinal və təkrarsız olmalarının səbəbi də elə budur, halbuki xarakter və istiqamətinə görə etnogenez prosesləri oxşardır.

**İonosfer barədə düşüncələr**. Artıq dəfələrlə qeyd olunduğu kimi, tarixi proseslərdə insanların şüurlu fəaliyyəti emosional fəaliyyətindən heç də az rol oynamasa da, onların xarakterləri prinsipcə fərqlidir. Təmənnasız həqiqət axtarışları texniki baxımdan təkmilləşdirmənin imkanlarını açıqlayır, bununla da istehsal qüvvələrinin inkişafı üçün ilkin şərtlər yaradır. Gözəlliyə aludə olmaq həm rəssam, həm də tamaşaçıların psixikasını formalaşdırır. Haqq - ədalət yanğısı sosial yenidənqurmaları dəstəkləyir. Bir sözlə, "enerji forması olmayan, lakin sanki o bənzər hərəkətlərə rəvac verən insan şüuru" (27) tərəqqi adlandırılan hadisənin impulsuna çevrilir, deməli, materiyanın hərəkətinin ictimai forması ilə ilgilidir. Böyük və ya kiçik bütün tarixi hadisələrdə birgə mövcud olan materiya hərəkətinin bu iki forması arasında əlaqə olması göz önündədir. V.İ.Vernadskiyə görə, biosferdə dayanıqlı olan həyat formalarının yaranmasına səbəb məhz təkamüldür (ikinci biokimyəvi prinsip). Deməli, istiqamətlənmiş (mütərəqqi) hərəkət planetlər hadisədir. Bu müddəanı dəqiqləşdirən Y.P.Trusov iddia edir ki, "onu törədən üzvi aləmə münasibətdə cəmiyyət yalnız vərəsəlik əlamətləri deyil, onu bütün bioloji aləmdən fərqləndirən dərin prinsipial yeni cəhətlərə də malikdir. Bu cəhətlər ilk növbədə idrakla - cahanın dərki və sosial baxımdan təşkilatlanmış əməklə ilgilidir". (28) Bu fərd onu biosferdə xüsusi sahəni - noosferi, yəni idrak dairəsini fərqləndirməyə məcbur edir ki, onun məhsullar sözün ən geniş anlamında texnikadır. O isə idrak fəaliyyətinin kristallaşması kimi incəsənət, elm və ədəbiyyatı da ehtiva edir.

Lakin insan əllərinin məhsulları təbiətin yaratdıqlarından kökündən fərqlidir. Onlar sistem bütövləri kimi biosenozların varlığını dəstəkləyən daimi maddələr və enerji mübadiləsi gedən [333-334] biosenoz konversiyalarından kənarda qalır. İnsan yaradıcılığı təbiətdən maddə hissəcikləri qoparır və onları forma buxovların salır. Daşlar ehtiramlara və ya Parfenona yun - pencəklərə, metal - qılınc və tanklara çevrilir.

Bu əşyalar isə öz özünə inkişaf etmək qabiliyyətindən məhrumdur, onlar yalnız aşılana bilir. Təbiət və sözün geniş anlamında texnikanın bu prinsipial fərqinə diqqət yetirən S.V.Kalesnik onu da qeyd edir ki, insanın yaratdıqlarının heç də hamısı belə deyil. (29) İnsanın təsirinə baxmayaraq, buğda zəmisi, su arxı, inək sürüsü və ya ev pişiyi coğrafi mühitin tərkibində qalmaqdadır.

Beləliklə, antroposfer cansız texnika ilə canlı təbiət arasında aralıq mövqe tutur. Lakin əgər belədirsə, deməli, onlar bir birinə müxalifdir. Burada Y.K.Yefremovun özünün "sosiosfer" adlandırdığı noosferə verilən dəyərləndirməyə etdiyi düzəlişi daxil etmək yerinə duşər. "İdrak çevrəsi" həqiqətənmi bu dərəcədə şüurludur? Axı, onun inkişafı planetimizi yerin təkində və çöküntü süxurlarında, daş kömür və neftdəki təmərküzləşmiş enerji ehtiyatları ilə zənginləşdirən canlı proseslərin əvəzlənməsinə aparıb çıxarır. Mikroorqanizmlərin əvvəlki həyatı bizə oksigenlə zəngin atmosfer və kosmik şüalanmanın öldürücü təsirindən qoruyan ozon təbəqəsi bəxş edib. Yer üzünü örtən bitkilər işıqdan canlı maberiya istehsal edən fotosintez fabrikləridir. Kiçik qardaşlarımız olan heyvanlar biosenosları tənzimləyir və bizə dayanıqlılıq verir". (30)

Bəs, tutalım, həqiqətən də mövcud olan noosfer bizə nə verdi? Paleolitdən külli sayda çaxmaq daşı qırıqları, təsadüfən itirilmiş ərsin və əmək alətləri, neolitdən isə insan məskənlərinin yerlərindəki zibilliklər miras qalıb. Antik dövr bizə şəhərlərin, orta əsrlər isə qəsrlərin xərabələrini bəxş edib. Qədim tikililər dövrümüzə qədər gəlib çıxdıqda belə (məsələn, Akropol, yaxud ehramlar kimi), bunlar həmişə ətalətli, nisbətən daha ləng dağılan strukturlardır. Çətin artıq indi meşə və çəmənlərin yerində tullantı qalıqları və beton meydançalar görməyi arzulayan adamlar tapılsın. Halbuki, texnika və onun məhsulları idrakın əşyavilәşdirilməsidir.

Bir sözlə, qarşımızda etnosların yaranmasının təşəbbüskarı olan passionarlıqla, mədəniyyət və texnikanı doğuran idrak dairəsinin nisbətini açıqlamaq vəzifəsi durur. [334-335]

# XXIX. PASSİONARLIQ VƏ ŞÜUR DAİRƏSİ

Qeydəalma sistemi. Etalon kimi anadangəlmə özünümühafizə fərdi və növ impulsunu (I) qəbul etdiyimiz halda, passionarlıq impulsu (P) əks işarəyə malik olacaq. Müvafiq şəkildə, passionarlıq impulsunun qiyməti özünümühafizə impulsunun qiymətindən böyük, kiçik və ona bərabər ola bilər. Deməli, fərdləri passionarilər (P>I), harmoniklər (R=I) subpassionarilər (R<I) kimi təsnifləndirmək mümkündür. Sistemdə, yəni bizim halda - etnosda passionar gərginliyin səviyyəsi bu qrupların nisbətilə təyin olunur. Passionar təkandan sonra bu səviyyə sürətlə yüksəlir, ardınca "həddən artıq qızma" gəlir, daha sonra isə tez-tez səngiyən və uzun sürən bir enmə baş verir. Bunu əyri xətt şəklində ifadə etsək, ətalət prosesinin təsvirini əldə edərik. Bütün qiymətlər müsbət olacaq, demək olar ki, əlçatmaz olan limit isə sıfıra bərabərdir.

Şübhəsiz, insanların etdiyi hərəkətlərin çox böyük əksəriyyəti ya fərdi, ya da növ özünümühafizə instinkti ilə şərtlənir. Sonuncu özünü nəsilartırma və xələfləri tərbiyələndirmə istəyində biruzə verir.

Lakin passionarlıq əks vektora da malikdir, çünki insanları özlərini və gələcək nəsilləri qurban verməyə də məcbur edir. Bu vaxt yeni nəsil ya heç doğulmur, ya da xülya olan şöhrətpərəstlik, tamahkarlıq, qürur, qısqanclıq və digər ehtiraslar üzündən ona qarşı tam etinasızlıq mövcud olur. Deməli, biz passionarlığı antiinstinkt, yaxud əks işarəyə malik instinkt kimi də nəzərdən keçirə bilərik. İlkin passionarlıq partlayışı ilə ilgili olmayan etnos istisna olunduğundan isə, bu bütün etnoslara aid edilə bilən bir dəyərdir.

Odur ki, bütün etnosları etnik sahənin passionar gərginliyinin artma və azalma dərəcəsinə görə təsnifləndirə bilərik. Çalxalanmanın olması bu prinsipi bir qədər mürəkkəbləşdirsə də, bu, bir o qədər də önəmli deyil, çünki sxem - passionarlığın sürətli yüksəlişi və tədricən itirilməsi - bizə məlum olan bütün etnoslar üçün qüvvədədir. Bu, təsadüf ola bilməz. Buna görə də etnogenezisin başlanğıc anını etnik sistemə mühitin müqavimətilə rastlaşan zaman itirilən ətalət bəxş edən təkana bənzədə bilərik.

Həm instinktiv, həm də passionar impulslar emosiyalar çevrəsindədir. Lakin, axı, psixi fəaliyyət şüuru da ehtiva edir. Deməli, şüur sahəsində impulsların elə bir bölgüsünü axtarıb tapmalıyıq ki, onu yuxarıda təsvir olunanla qarşılaşdıra bilək. [335-336] Başqa sözlə, o, bir sıra həyatı qoruyub saxlamağa istiqamətlənən və bir sıra da xülyalar naminə həyatı qurban verməyə yönələn impulslara bölünməlidir. Qeydiyyatı rahatlaşdırmaq üçün birinciləri "+", ikinciləri isə "-" kimi işarələyək. Bu halda həmin parametrləri adət etdiyimiz dekart koordinatları sisteminə bənzər müstəvi proyeksiya şəklində açmaq mümkündür. Onu da qeyd edək ki, müsbət heç də "yaxşı", yaxud "faydalı", mənfi isə "pis" demək deyil, axı, fizikada da anion və kationlar, kimyada isə turşu və qələvilərin keyfiyyət dəyərləndirmələri yoxdur.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, tərəqqinin durğunluq və ya tənəzzüllə qarşılaşdırmağın yalnız materiyanın ictimai hərəkətində müəyyən mənası var. Təbiətin diskret (öz-özünə baş verən) proseslərində şüurlu məqsəd aramaq isə yersiz cəfəngiyyatdır. Dağ əmələ gəlmə denudasiyadan heç nə ilə "yaxşı" olmadığı, döllənmə və doğuş isə eynilə ölüm kimi təbii hadisə olduğu kimi, etnik proseslərdə də yaxşı meyarı yoxdur. Lakin bu, o demək deyil ki, etnogenez sistem, hərəkət və hətta inkişafdan da məhrumdur. Sadəcə olaraq, onda "ön" və "arxa" yoxdur. İstənilən titrəyişli hərəkət yalnız ritm və az və ya çox gərginliyə (tezlik) malikdir.

Terminlər barədə şərtləşək. Şüurun müsbət impulsu yalnız bir məqsəd kimi reallaşması üçün dərrakə və iradə tələb edən qarşısıalınmaz xudbinlik olacaq. Dərrakə dedikdə şərait imkan verdiyi halda reaksiya seçmək, iradə dedikdə isə həmin seçimə müvafiq hərəkətlər etmək qabiliyyətləri anlaşılması barədə də şərtləşək. Beməli, fərdlərin bütün toxunulmaqla edilən və refleks hərəkətləri, o cümlədən, kifayət qədər sanballı amillərin təsir etdiyi şəraitdə, yaxud başqa adamlar tərəfindən məcbur edilməklə icra olunan hərəkətlər də bu qəbildən istisna olunur. Lakin nəzərə almaq lazımdır ki, daxili təzyiq - ya instinkt, ya da passionarlıq imperativi də davranışa təsir edir. Deməli, etnik sahənin və ənənələrin təzyiqilə yanaşı, onu da istisna etmək gərəkdir. "Sərbəst", yaxud "xüdbin" impulslar üçün kiçik, lakin ciddi çevrələnmiş bir sahə qalır ki, burada insan öz hərəkətləri üçün mənəvi və hüquqi məsuliyyət daşıyır.

Burada biz yenə də açıqlama verməyin imkansız olması ilə üzləşirik, hərçənd ki, əslində ona demək olar ki, heç ehtiyac da yoxdur. Bəşəriyyətin kollektiv təcrübəsi məcburiyyətdən doğan hərəkətləri cinayətlərdən çox dürüst fərqləndirir. Özünümüdafiə məqsədilə adam öldürmək soyğunçuluq və ya qisas naminə edilən [336-337] qərldən, yoldan çıxarmaq isə zorlamadan fərqlənir. XIX əsrin ortalarında belə hərəkətləri eyniləşdirmək cəhdləri olsa da, bu, əsassız uzunçuluqdan savayı bir şey deyildi. L.N.Tolstoyun F.M.Dostoyevski ilə üstüörtülü mübahisəsini xatırlamaq kifayətdir. Görünür, zəmanəmizdə insanın özünün qeydinə qalması nə qədər ağıllı hərəkət olsa da, bu ona qonşuların və ya kollektivin hüquqlarını tapdalamaq hüququ vermir.

**Şəkil 2. Fərdlərin passionar-attraktiv prinsip üzrə təsriflənməsi.**

Şərti işarələr: 1) obivatellər; 2) səfil-əsgərlər; 3) canilər; 4) şöhrətpərəstlər; 5) işgüzar adamlar; 6) fırıldaqçılar; 7) alimlər; 8) yaradıcı adamlar; 9) peyğəmbərlər; 10) təmənnasızlar; 11) seyrçilər; 12) tovladanlar.

“Düşünülmüş xudbinliyə” əks vektorlu impulslar qrupu qarşı durur. Passionarlıq kimi, o da hamıya yaxşı məlumdur və o da heç vaxt vahid dərəcə kimi fərqləndirilməyib. Bütün insanlarda həqiqət (əşya barədə tam uyğun təsəvvür əldə etmək istəyi), gözəllik (qərəzçilik etmədən bəyənilənə) və ədalətə (əxlaq və etikanın uyuşması) qəribə bir meyl var. İmpulsunun qüvvəsi çox güclü sapınmalara məruz qalan bu meyl daim fəaliyyətdə olan "düşünülmüş xudbinlik”lə həmişə məhdudlaşdırılsa da, bir sıra hallarda daha qüdrətli çıxır və passionarlıq kimi, o da fərdi qaçılmaz məhvə aparıb çıxarır. O, sanki passionarlığın idrak sahəsindəki analoqudur və təbii ki, eyni işarəyə malikdir. Onu "attraktivlik" (lat. attractio, ionis, f. - cazibə sözündən) adlandıraq.

İdrakın təbiəti kimi, attraktivliyin təbiəti də aydın olmasa da, onun instinktiv özünümühafizə impulsları və passionarlıqla nisbəti qayıqda hərəkətə gətirənlə (avar və ya mühərrik) sükanın nisbəti kimidir. Attraktivliyin antipodu - “düşünülmüş xudbinliyin” onlara nisbəti də eynilədir.

Odur ki, fərqləndirdiyimiz impuls dərəcələrini koordinatlara paylaşdıra bilərik: təhtəlşüuru - absis, şüuru isə ordinata üzərinə. (bax: şək.2)

Lakin belə mürəkkəb qurum lazımdırmı və nəyə lazımdır?

İmpuls dərəcələrinin nisbətləri. İnstinktiv impulsların bioloji təbiətə malik olmalarına heç bir şübhə yoxdur. Həm uzun ömür sürmək, həm də nəsil qoyub getmək bir növ kimi insana xas olan bioloji əlamətlərdir. Lakin əgər belədirsə, fərdin hərəkətlərinə təsir göstərmək baxımından onun qiyməti sabit olmalıdır. [337-338] Bu o deməkdir ki, insanın yaşamaq istəyi həm indiyədək yaşamış, həm indi yaşayan, həm də gələcəkdə yaşayacaq adamlar arasında ayrıca götürülən hər bir halda da eyni olacaq. İlk nəzərdə, bu, müşahidə etdiyimiz gerçəkliyə ziddir.

Həqiqətən, həyatı son dərəcə dəyərsiz saydıqlarından könüllü şəkildə müharibəyə yollanan istənilən qədər adam var; intihar hallarına rast olunur; valideynlər tez-tez övladlarını buraxıb gedir, bəzən isə hətta öldürürlər də. Bura savaşdan yayınan fərariləri, yaşamaq naminə alçalmağa razı olanları, bir çox hallarda ləyaqətsiz və nankor çıxan övladları yolunda canından keçən valideynləri də əlavə etmək olar. Nəhəng bir bilgilər səpgisi! Belə bir təsəvvür yaranır ki, müşahidə olunan hadisələr məcmusunda heç bir sistem yoxdur.

Bu, qədim insanların ağır cisimlərin yüngüllərdən daha sürətlə enməsi barədə təsəvvürlərini xatırlamırmı? Yalnız Qalileyin sınaqları ağırlıq qüvvəsinin quş tükü və dəmir kürəyə eyni təsir göstərdiyini, düşmə sürətlərindəki fərqin isə kənar amil - hava mühitinin müqavimətindən asılı olduğunu sübuta yetirdi. Diqqətimizi cəlb edən süjetdə də eyni şey baş verir.

Şək. 2-də geriyə impuls-passionarlıq təsvir olunub. Cəbri yolla toplama zamanı onun qiyməti müsbət absis üzərində təsvir edilən impulsun bu və ya digər hissəsini, bəzən isə onu bütövlükdə ödəyir. P impulsunun qiyməti instinkt impulsundan (vahid kimi qəbul olunması çox rahatlıq gətirən qiymətdir) az, bərabər və çox ola bilər. Yalnız sonuncu halda biz həmin adamı passionari adlandırırıq. P=I örnək: qraf L.N.Tolstoyun əsərindəki knyaz Andrey Bolkonski; P<I - Çexovun təsvir etdiyi ziyalılar; bir qədər də aşağı olanda isə sadəcə obivatel, onun da ardınca A.M.Qorkinin ilk hekayələrindəki səfil-subpassionari gəlir. Bunlardan da aşağıda isə maymaq və degeneratlardır.

Bəs, əgər passionar gərginlik instinktivdən yüksəkdirsə? Bu halda, fərdin passionar (davranış) statusunu işarələyən nöqtə absisin mənfi qoluna sürüşəcək. Burada konkistadorlar və yeni torpaqlar kəşf edənlər, şairlər və yeresiarxlar, nəhayət, Sezar və Napoleon kimi təşəbbüskar fiqurlar özünə yer edəcək. Bir qayda olaraq, onların sayı çox olmasa da, malik olduqları enerji tarix mövcud olan hər bir yerdə qeydə alınan çox böyük fəallıq göstərməyə imkan verir. Hadisələrin sıxlığının müqayisəli araşdırılması passionar gərginliyin qiymətinin ilk təxmini dəyərini təyin etmək imkanı verir. [338-339]

Ordinat oxu üzrə yerləşən şüurlu impulslarda da eyni ardıcıllığı müşahidə edirik. “Düşünülmüş xudbinlik”, yaxud “hər şey mənim üçün” prinsipinin son limiti (həddi) sabit qiymətə malikdir. Lakin o, vahiddən (vahid kimi xudbinlik impulsunu qəbul etmişik) ya az, ya bərabər, ya da ondan yuxarı olan attraktivliklə səngidilir. Sonuncu halda fədakar alimləri, sənət naminə yüksək vəzifələrdən imtina edən rəssamları, həyatlarını təhlükə altına qoyaraq ədaləti müdafiə edən həqiqətpərəstləri, bir sözlə müxtəlif “dərəcəli” Don Kixotvari tipləri izləyirik. Deməli, fərdin izləmək imkanına malik olduğumuz real davranışı iki sabit müsbət və iki dəyişən mənfi qiymətin cəmindən doğur. Beləliklə, davranış kateqoriyalarının real həyatda göz önündə olan müxtəlifliyini yalnız sonuncular şərtləndirir. (bax: şək.2).

Əslində, təsvir edilən impulsların hamısı psixologiyada qəbul olunmuş “dominantlar”a müvafiq gəlir. Lakin məsələnin həlli üçün bir neçə konkret əhəmiyyəti olmayanlar kimi diqqətimizdən kənarlaşdırmalıyıq. Seçdiyimiz dominantların vektorlarını təyin etmək daha da mühümdür, çünki bu, onların nisbətini duymaq imkanı verir.

Konsepsiyanı etnogenezə tətbiq edək. Təklif edilən baxım və qeydəalma sistemi ayrıca götürülən fərdin psixologiyasının araşdırılması üçün çox az şey verir. Passionarlıq səviyyəsi insana anadangəlmə verilən və ona bütün həyatı boyu xas olan bir əlamət olduğundan, qiymətlərin nisbəti dəyişmir. Attraktivliyə gəldikdə isə, o başqa adamlar - müəllimlər, dostlar, yetişdirmələrin təsirilə dəyişdiyindən, onun dəyişkənliyi fərdin yox, kollektivin təsirilə şərtlənir. Etnogenez araşdırılarkən təklif etdiyimiz konsepsiyanın prinsipləri kifayət qədər səmərəli olsa da, bilik və imkanların hazırki səviyyəsində əldə olunan nəticələr yalnız şərti nisbətlərlə ifadə oluna bilər. Rəqəmlə ifadə olunan bilgilərin əldə edilməsi, hələlik, bizim imkanlarımız xaricindədir. Lakin hətta artıq açıqlananlar da araşdırma üçün faydalıdır.

**Şəkil 3. P funksiyasının etnogenez prosesini səciyyələndirən ideallaşdırılmış axarı.**

Şərti işarələr: aramsız xətt - P səviyyəsi variasiyalarının son hədləri; a) -P səviyyəsinin akmatik mərhələdəki variasiyaları; b) - kənar sapınma nəticəsində P səviyyəsinin kəskin enməsi. [339-340]

Biz yaxşı bilirik ki, bütün etnoslar idealda, yaxud sxem şəklində yeknəsək olan bir sıra mərhələlərdən keçir. Sxemdən çoxsaylı yayınmalar, məsələn, inkişafdakı qırıqlıq, yaxud kənardan müdaxilələr nəticəsində sapınmaları nəzərə almaq və əsas qanunauyğunluq nəzərdən keçirilən zaman istisna etmək çox asandır. Sintez zamanı, yəni xalqın həqiqi tarixi bərpa olunarkən onları sonradan nəzərə almaq da eynilə asan bir məsələdir. Təsadüfü qanunauyğunluqdan ayıraq.

Örnək üçün bir qrup müxtəlif adam götürək və təsəvvür edək ki, onların hər birinin passionarlıq və attraktivliyi bizə bəllidir. Bu halda, onlardan hər biri üçün artıq koordinat oxları üzərində deyil, onlar arasındakı müstəvilərdə yer tapılacaq. Hər rübdə yalnız psixofizioloji quruluşun şərtləndirdiyi xüsusi xasiyyətlərə malik insan kateqoriyaları bərqərar olacaq (bax: şəh.2). Çertyojdan göründüyü kimi, əxlaqi meyar nəzərə alınmır ki, bu da təklif olunan təsnifata əşyanı obyektiv şəkildə nəzərdən keçirmək imkanı verən təbiyyat-tarixi təsnifat kimi yanaşmaq imkanı verir.

Tutalım, əlimizdə koordinat sisteminə bir yox, aralarında yüz il keçməklə on məqamın salınması üçün kifayət edəcək qədər bilgi var. Beləliklə, biz passionar gərginliyin variasiyalarının etnos ömrünün orta müddəti üçün ifadəsini əldə etmiş olarıq. P-nin qiymətini açıqlamaq və onu rəqəmlə ifadə etmək imkanına malik olsaydıq, passionar gərginliyin dəyişməsini əks etdirən əyrini qurmaq, daha sonra isə həmin əyrini riyazi baxımdan təsvir edən tənliyi tapmaq imkanına malik olardıq. Lakin hələlik, fenomenoloji təsvirlə kifayətlənmək lazım gəlir. (şək. 3).

Lakin bu da araşdırma üçün çox şey verir. Zaman intervalının hadisələrlə zənginliyi həmişə başqa bir intervalın zənginliyilə tutuşdurula bilər. Bu nisbətlər ətraflı sinronistik cədvəllərdə əks olunsa da, tarixçilərin diqqətini cəlb etmirdi, çünki onlarda əks olunan hadisə - passionarlıq nəzərə alınmırdı. İndi artıq bu cədvəllər məna və əhəmiyyət kəsb edib.

Tarixi sintezdə passionarlığın yeri. Belə bir təsəvvür yarana bilər ki, müəllif passionarlığı həlledici amil saydığından, ona bu qədər çox diqqət yetirir. Lakin bu belə deyil. Passionarlıq haqqında təlim yalnız etnogenezin birtərəfli araşdırılmasından doğan boşluğu doldurmaq üçündür. Tarixi sintez üçün zəruri olan nəzəri girişin məqsədi tarixdə sosial inkişafın birinciliyi haqqında təlimin əvəzlənməsi yox, onun təbiyyat elmlərinin təkzibolunmaz bilgilərilə tamlaşdırılmasıdır. (31) [340-341]

İndi isə etnik proseslərə səbəbiyyat təsirlərinin dörd əsas qrupları arasındakı nisbəti açıqlamaq məqsədəuyğundur. Onlardan ikisi ali, ikisi isə tabe mənsəblidir. Ümumi şəkildə bu, sxem şəklində olsa da, istənilən tarixi (32) və coğrafi fəndə daim bir-birinə qovuşan təsadüfi ilə qanunauyğun olanı fərqləndirməkdən ötrü bizə elə məhz sxem gərəkdir, çünki hər ikisi zaman ərzində dəyişən və etnogenezə təsir göstərən dəyişkən dəyərlər törədir.

İctimai inkişafın birinci və əsas amili istehsal qüvvələrinin artımıdır ki, bunun nəticəsində istehsal münasibətlərinin, onun ardınca isə cəmiyyətin təşkilatlanmasının dəyişməsi baş verir. Bu ümumbəşəri proses marksist-leninçi tarixi materializm nəzəriyyəsində hərtərəfli ümumiləşdirilib.

İmpulsu yox, etnogenez proseslərinin gedişatını şərtləndirən ikinci amil coğrafi mühitdir ki, onun roluna etinasızlığı S.V.Kalesnik doğru olaraq, “coğrafi nihilizm” adlandırıb. (33) Lakin artıq qeyd etdiyimiz kimi, coğrafi mühitin rolunun həddən artıq şişirdilməsi, yəni “coğrafi determinizm” də müsbət nəticələr vermir. (34) A.Labriola ilə polemikada bunu incəliklə nümayiş etdirən Q.V.Plexanov qeyd edirdi ki, “müasir italyanlar (XIX əsrin sonu) da qədim romalıların yaşadıqları təbii əhatədə olsalar da, onların “temperamentləri” Karfagenin məğrur fatehlərinin temperamentlərinə çox az bənzəyir!” (35). Etiraz etmək olardı ki, 2300 il ərzində antropogen təsir İtaliya landşaftını dəyişib, lakin bununla belə, aydındır ki, italyan ordusunun Aduya ətrafında məğlub olmasına səbəb fıstıq meşələrinin limon plantasiyaları və sahilboyu kolluqlarla əvəzlənməsi deyil.

Bir-birilə təmasa girən bu qüdrətli amillər hadisələrin “fərdi simasını” və onların bəzi səciyyəvi olmayan nəticələrini (36) deyil, sosial-tarixi proseslərin yalnız “ümumi istiqamətini” təyin edir. Əslində isə məhz belə xırdalıqlar konsorsiyaların yaranması və ya dağılmasına təsir göstərir, bəzən subetnosların qalması və ya səpələnməsində rol oynayır, çox az-az da olsa, etnosların taleyində əks olunur, istisna hallarda isə superetnosun təşəkkülünə də təsir göstərə bilir. Tarixin müəyyən dövrləri ərzində qarşılığı

ödənilən belə tarixi dolambaclara dair örnəklər G.V.Plexanovun adı çəkilən əsərində kifayət qədərdir (yalnız Avropa tarixinə dair materiallar əsasında olsa da). Uzaq Şərq tarixindən müvafiq bilgiləri bizim "Çöl trilogiyası" əsərimizdə də görə bilərsiniz. (37)

Beləliklə, aşağı mənsəbdən olan amili fərqləndirmək mümkündür: səbəb-nəticə əlaqələrinin öz-özlüyündə qanunauyğun [341-342] olsa da, ali mənsəbə məxsus proses üçün təsadüf sayılan qısa silsilələrinin nəzərə alındığı hadisələr məntiqi. Öz növbəsində, tarixin gedişində daim qırılan qısa qanunauyğunluqlar da ikinci dərəcəli təsadüflərdən (38) asılıdır və i.a.

Qlobal prosesləri, məsələn, formasiyaların əvəzlənməsini nəzərdən keçirərkən həmin variasiyalara etinasız yanaşmaq mümkün olsa da, etnogenez üçün onların qeydə alınması zəruridir. Bax, elə burada biosferin təşəkkülünə münasibətləri hadisə məntiqinin materiyanın hərəkətinin ictimai formalarına münasibəti kimi olan passionar partlayış və çalxalanmaların rolu üzə çıxır. Başqa sözlə, passionarlıq etnogenezi şərtləndirən yeganə amil olmasa da, mütləq amildir. Passionarlıqsız etnogenez yoxdur! Bu səbəbdən də ona qarşı etinasızlıq kifayət qədər nəzərə çarpan və nəticəyə təsir göstərən yanlışlığa səbəb olur. Güllə hədəfə dəymədikdə isə, onun bir neçə millimetr, yaxud beş metr aralı keçməsinin heç bir önəmi yoxdur - hər iki halda hədəf salamat qalır. Odur ki, qeyd etdiyimiz hadisənin təsvirini davam etdirək.

**Ümumiləşdirmə**. Yuxarıda haqqında danışılan bütün müşahidələr və onların ümumiləşdirilməsi inkişafın sosial və etnik ritmlərinin uyğun gəlmədiyini qeyd etməyə imkan verir. Birincisi - spiral boyu aramsız spontan (öz-özünə törəyən), ikincisi - qeyri-müntəzəm, ətalətli mühitin müqavimətinə rastlaşarkən sönən daimi partlayışlı hərəkətdir. Xronoloji sosial irəliləyişlər - formasiyaların əvəzlənməsilə etnogenetik proseslər heç cür üst-üstə düşmür. Bəzən, məsələn, ruslarda olduğu kimi, etnos bir neçə formasiya yaşayır, bəzən isə, məsələn, parfiyalılar və türkyutlar kimi, bir formasiya daxilində yaranır və məhv olur. Bəşəriyyətin ictimai inkişafı mütərəqqidir, etnoslar isə yox olmağa məhkumdur.

İndi də nəticə çıxarmaq olar. Etnogenez ətalətli prosesdir və burada ilkin enerji atımı (V.İ.Vernadskinin təsvir etdiyi biokimyəvi enerji) mühitin müqaviməti nəticəsində sərf olunur ki, bu da homeostaza - etnosun landşaft və insan əhatəsilə tarazlığına, yəni onun yaradıcı qüvvədən məhrum, həddən artıq yaşamış (persistent) qalığa çevrilməsinə səbəb olur. Məhz passionarlığın çox yüksək qızğınlığı sayəsində materiyanın ictimai və təbii formaları arasında qarşılıqlı ilişkilər baş verir ki, bunları yalnız yüksək temperatur və katalizator olması şərtilə baş verən kimyəvi reaksiyalarla tutuşdurmaq olar. Canlı maddənin biokimyəvi enerjisi olmaqla, passionarlıq impulsları insanın psixikasının istiqamətini dəyişərək, [342-343] passionarlıq zəifləyən kimi yox olan etnosları yaradır və qoruyub saxlayır.

Sonda təklif etdiyimiz konsepsiyanın dialektik və tarixi materializm nəzəriyyəsinə nə dərəcədə müvafiq gəldiyini dəqiqləşdirmək lazımdır. Burada tam bir uyğunluq var. İctimai formaların inkişafı spontandir (daxili səbəblərdən törəyir); müxtəlif bölgələrdə qeyri-bərabər olmasına baxmayaraq, ictimai-iqtisadi formasiyaların əvəzlənməsi qlobal hadisədir; materiyanın ictimai hərəkət formasının hərəkəti irəliləmə və mütərəqqi, onun istiqaməti isə spiraldır. Deməli, bu inkişafın ümumi qanunları haqqında fəlsəfi nəzəriyyədir, bununla da bütöv kimi götürülən antroposferdən biri, etnosların zamanı və məkanı şəbəkəsi olan etnosferdən isə iki pillə yüksəkdədir. Başqa sözlə, etnologiya mövzu və baxımın nəzərə alınması ilə dialektik materializmin fərdi tətbiqi halıdır.

Məlum olduğu kimi, bütün təbii qanunauyğunluqlar ehtimalı və bu səbəbdən stoxastik qanunauyğunluqların təsirinə mübtəladır. Deməli, səviyyə yüksək olduqca, qanunauyğunluğun obyektə təsiri bir o qədər qaçılmazdır və əksinə, səviyyə aşağı olduqca, təsadüfün rolu bir o qədər artır ki, bu da elə sərbəstlik dərəcəsinin artması deməkdir. Birinci halda limit qalaktika, ikinci halda isə atomdur, çünki superqalaktik və subatom hadisələri fərqli üsullarla araşdırılır və şüurumuz tərəfindən fərqli şəkildə qavranılır. Onlar arasında isə hadisə səviyyələrinin dərəcələri yerləşir. Hər bir dərəcə isə özünə qarşı diqqət və xüsusi yanaşma tələb edir. Etnos fenomeni həmin arada keçid mövqeyi tutur. Etnoslarda hərəkət tipi titrəyiş, inkişaf ətalətli və diskretdir, dayanıqlılıq sistem əlaqələri, təkrarsızlıq və yaradıcılıq isə həm fərdi, həm də populyasiya səviyyəsində psixikada əks olunan canlı maddənin biokimyəvi enerjisi effekti - passionarlıqla təmin edilir.

Fikrimizcə, "etnos" anlayışının açıqlaması bu şəkildədir. Bu, nə sosial, nə də bioloji kateqoriyalarla eyniləşdirilməyən elementar anlamdır. Bu qənaət tarixi-coğrafi faktların empirik (təcrübədən doğan) ümumiləşdirilməsidir.

**Etnogenez əyrisi**. Mikrokosmdan (bir fərdin həyatı) makrokosma (ümumiyyətlə insanın inkişafı) qədər bütün tarixi proseslərdə hərəkətin ictimai və təbii formaları o qədər qeyri-adi şəkildə mövcud olur ki, bəzən əlaqənin xarakterini belə anlamaq çətindir. Bu, inkişafda olan etnos fenomeni, əni bizim etnosun yaranışdan yox olma, yaxud homeostaz halına keçmə anına qədər [343-344] təşəkkülü prosesi kimi anladığımız etnogenezin yerləşdiyi mezokosma xüsusilə aiddir.

Onu da qeyd etmək yerinə düşər ki, bu anlam son dövrlərədək etnoqrafiyada mövcud olan anlamdan etnogenez etnosun mənşəyi, yəni etnik özünüdərkin yaranması ilə başa çatan andır - fərqlidir.

Coğrafi baxımdan etnosun yaranması üçün əsas populyasiyadır. Bizi maraqlandıran süjetdə o, landşaftı öz ehtiyaclarına uyğunlaşdıran və eyni zamanda, özü də landşafta uyğunlaşmış passionar fərdlər qrupu kimi nəzərdən keçirilə bilər.

Lakin doğum anı qısadır. Yeni doğulan kollektiv dərhal üzvlər arasında müəyyən funksiya bölgüsü aparılmış sistem kimi təşkilatlanmalıdır. Əks halda o, sadəcə qonşular tərəfindən məhv ediləcək. Sistemin bütövlüyünü dəstəkləmək məqsədilə sosial institutlar təsis olunur ki, ayrıca götürülən hər bir halda onların xarakteri yer (coğrafi şərtlənmə) və məkan (bəşəriyyətin inkişaf mərhələsi) şəraitilə şərtlənir. Sistemin sürətli inkişafını, ərazicə genişlənməsini və etnosdaxili ilişkilərin mürəkkəbləşməsini şərtləndirən də məhz özünütəsdiqə olan ehtiyacdır. Onun inkişafı üçün güc isə populyasiyanın passionarlığından alınır. İnkişafın mühitin müqaviməti və sərbəst enerjinin səpələnməsi nəticəsində tədricən itib gedən ətalətini də elə məhz sistemin böyüməsi yaradır.

Etnosun həyat fəaliyyəti optimumdan aşağı düşən hallarda belə, sosial institutlar fəaliyyətini davam etdirir və bəzən onları yaradan etnosdan da artıq yaşayır. Belə ki, Roma hüququ Qərbi Avropada kök saldı, halbuki, antik Roma və məğrur Bizans çoxdan xatirələrə çevrilib. Lakin absisdə zaman təmərküzləşmişsə, onda, bəs, ordinatda nəyi əks etdirməli? Güman ki, enerjinin etnogenez proseslərini dəstəkləyən formasını, yəni passionarlığı. Bu zaman yadda saxlamaq lazımdır ki, passionarlığın maksimumu (minimumu da eynilə) həyat və mədəniyyətin çiçəklənməsini heç də dəstəkləmir. Passionar “həddən artıq qızma” həm sistem daxilində, həm də onun sərhədlərindəki etnik təmas bölgələrində qan tökülməsinə səbəb olur. Əksinə, hər hansı bir ölkənin əhalisinin tam ətalət və süstlük içində bulunduğu, passionarlıq səviyyəsi isə sıfıra yaxınlaşdığı zaman isə etnik və təbii əhatəyə qarşı müqavimət qabiliyyəti itirilir ki, bu da həmişə məhvə aparan ən qısa yoldur. Passionarlıq bütün etnik proseslərdə mövcud olduğundan, bu, qlobal miqyaslarda etnoloji tutuşdurmalar aparmaq imkanı verir. [344-345]

Lakin biz hələ digər bir çətinliyin öhdəsindən gəlməmişik: passionarlığa meyar ola bilən ölçü vahidi hələ aşkarlanmayıb. Bizə bəlli olan faktiki material əsasında yalnız yüksəliş, yaxud tənəzzül, passionar gərginlik dərəcəsinin (etnos həyatında hadisələrin tezliyindən) az və ya çoxluğundan bəhs edə bilərik, lakin artımın (azalmanın) neçə dəfə olması bizə məlum deyil. Lakin bu maddə bir o qədər də önəmli deyil, çünki təbiət elmlərində “çox”-“az” dərəcələrinin nisbəti artıq özlüyündə fenomenoloji nəzəriyyələr qurulması üçün kifayət qədər əməli və məhsuldardır, müşahidə olunan qiymətlərin dəqiqliyi və empirik elmlərin rəsmiləşdirilməsi isə heç də yeganə və həmişə əlverişli olan idrak yolu deyil.

Odur ki, göstərilən “çətinlik” konsepsiyasının çatışmazlığı yox, daha çox xassəsidir.

Bizim dövrdə məktəbdə oxuculara iki qərəzli fikir aşılanıb: şəhadətlərə inam və rəqəmlərin təbii sırasının reallığına inam. Hər iki fikir yanlış olmasa da, bir o qədər dəqiq də deyil.

Hazırda tarixi mənbələrin gerçəkliyi tarixi tənqidlə məhdudlaşır ki, onun da prinsipi şübhədir. Natural rəqəmlər isə abstraksiyadır, çünki təbiətdə qərəmlər yox, fenomenlər mövcuddur. Natural rəqəmlərdən onlara prinsipcə bərabər, yaxud eyni heç bir şey olmayan təbiətşünaslıq və ya tarixdə deyil, mühasibat işlərində yaralanmaq daha səmərəlidir. Riyazi aparat fizikada çoxdan tətbiq olunsa da, “belə düşünmək olmaz ki, elmi baxımdan açıqlana bilən bütün hadisələr riyazi şəkildə ifadə oluna bilər… idrakımızın ideal məhsulları olan riyazi örtüklər onlara toxunarkən qayalara toxunan dalğalar tək ətrafa səpələnəcək”. (39) Albert Eynşteyn isə bir qədər də qəti fikir söyləyir: “Əgər riyazi nəzəriyyələr real aləmin inikasına şamil olunduqları halda yanlışdır; onlar yalnız reallığa istinad etməyənədək dəqiqdir”. (40) Lakin XX əsrin əvvəllərində riyaziyyat qarşısında səcdə olunması təbiyyət və humanitar elmlərin nümayəndələrinin xeyli qüvvəsini yayındıran özünəməxsus bir ehkama çevrilmişdi.

Etnogenez mərhələlərini təyin etmək üçün araşdırılan dövrün parametrləri aşkarlanmalıdır ki, bunların əsasında onu birmənalı səciyyələndirmək mümkündür. Bunlar davranış imperativi (qeyd-şərtsiz tələb), təkan ani və hadisələrin məntiqi olacaq. Hadisələrin məntiqi biosfer çalxalanmalarının əlamətdar mərhələlərini, o cümlədən, etnik sistemin passionarlığını əks etdirir. (41) İstənilən etnik sistem iyerarxikdir, yəni superetnosa bir neçə etnos, etnosa bir neçə subetnos, yaxud konsorsiya daxildir və i.a. Aşağı səviyyəli [345-346] taksonların sayının artması həmişə passionarlığın artımı ilə ilgilidir və əksinə. Beləliklə, passionarlıqların qiymətlərinin qarşılaşdırılması bilavasitə də olmasa, dolayısı ilə mümkündür, hərçənd ki, taksonların miqdarının hesaba alınması yalnız ekspert dəyərləndirməsi üsulu ilə mümkündür. Məhz bu üsul superetnik sistemlərin passionar gərginliyi səviyyəsində müxtəlif lokal etnogenezlərin gedişində baş verən dəyişiklikləri ümumiləşdirmək imkanı verir. Bu asılılığın qrafik təsviri aşağıda verilir (şək. 4).

**Şəkil 4. Etnik sistemin passionar gərginliyinin dəyişməsi (ümumiləşdirmə).**

Şəkildə absis oxu üzərində illərlə verilmiş zaman işarələnib və burada əyrinin çıxış nöqtəsi etnosun meydana çıxmasına səbəb olan passionar təkana müvafiqdir. Ordinat oxu üzrə isə üç şkala üzrə etnik sistemin passionar gərginliyi verilib: 1) P2 səviyyəsindən (ehtirasları ödəməyi bacarmamaq) R6 səviyyəsinədək (fədakarlıq) - keyfiyyət dəyərləndirmələri; 2) “subetnosların miqdarı” (etnos yarımsistemlərinin) şkalasında n+1, n+3 və i.a. Burada n- təkanın əhatə etmədiyi və homeostaz halında olan etnosda subetnosların miqdarıdır; (42) 3) “etnik tarix hadisələrinin baş vermə tezliyi” şkalasında (hadisə dedikdə bizim anlamda nəzərdə tutulur ki, bu da ik dəfə K.P.İvanov tərəfindən təklif olunan açıqlama ilə uyğun gəlir - etnik ilişkilərin qırılması prosesi). Etnik sistemin taksonomik dərəcəsinin asılı

olaraq (konviksiya (konsorsiya) subetnos - etnos - superetnos) hadisənin miqyasından danışmaq olar. Passionar gərginlik əyrisi qurmaq üçün etnik miqyaslı hadisələri - iki və daha artıq subetnosun toqquşmasını fərqləndiririk. Etnosda subpassionarilərin sıxlığının keyfiyyət baxımından gedişi qırıq xətlə qeyd olunub. Etnogenez mərhələlərinin adları zaman şkalası üzrə əks olunan parçalara müvafiq gəlir. Bu əyri müxtəlif təkanlar nəticəsində yaranan müxtəlif etnoslar üçün qurduğumuz 40 fərdi əyrinin ümumiləşdirilməsidir. Hər təkan üçün passionar gərginlik səviyyəsinin keyfiyyət göstəriciləri eynidir və onlar göstərilən ardıcıllıqla ehtirasları ödəməyi bacarmamaqdan fədakarlığadək dəyişir. Lakin bu səciyyələndirmələri etnosun bir növ ortaq məxrəcə gətirilən siması kimi nəzərdən keçirmək lazımdır. Etnosda eyni zamanda şəkildə qeyd olunan bütün tiplərin nümayəndələri olsalar da, statistik baxımdan passionar gərginliyin müvafiq səviyyəsinə uyğun gələn tip hökmrandır. [346-347]

Passionarlığın özünü büruzə verməsinin adət etmədiyimiz əyrisi nə istehsal qüvvələrinin tərəqqisi əyrisi - eksponentə, nə yüksəliş və enişlərin ilin fəsilləri tək ritmik şəkildə təkrarlandığı sinusoid, nə də bioloji inkişafın simmetrik sikloidinə bənzəmir. Təklif etdiyimiz əyri zamanın axarına nisbətdə simmetriyasız, diskret və anizotropdur. O, kibernetiklərə tonqalın yanması, barıt anbarının partlaması və yarpağın solmasını təsvir edən əyri kimi çox yaxşı tanışdır. Birinci örnəklə kifayətlənək.

Tonqal bir kənardan alovlandı. Alov budaqları çevrə üzrə bürüyür və tonqalın daxilindəki oksigeni sürətlə udur. Temperatur aşağı düşür və ətrafdakı oksigen odun qalağının ortasına axışaraq, odunları od tutmağa məcbur edir. Bir neçə dəfə belə şölələndikdən sonra alov itir, tonqalın yerində isə yavaş-yavaş soyuyub külə çevrilən kömür parçaları qalır. Prosesin təkrarı üçün yeni odunlar və alovun yenidən cilvələnməsi tələb olunur. Kürəni itələyən zaman da eyni şey baş verir - əvvəlcə təkanın qüvvəsi sayəsində irəliləyir, daha sonra isə mühitin müqaviməti nəticəsində ətalətini itirir və dayanır, daha doğrusu, muhitlə tarazlıq halına düşür ki, mexanikada bu, hərəkətsizlik adlanır.

Yuxarıda təsvir olunanlar kimi, etnogenez prosesləri də antroposferə münasibətdə kənar partlayış, yaxud təkanlardan doğur. Bu impulslar antroposferi monolitdən şəbəkəvariyə çevirir, yəni o, etnosfer olur. Vahid olan bəşəriyyət nə iləsə bir-birinə bənzəyən, müəyyən cəhətlərilə, ən əsası - davranış stereotipinə görə bir-birindən fərqlənən çeşidli, daim dəyişən fərd və mikropopulyasiya birləşməsinə çevrilib.

Təkanlara səbəb yalnız mutasiyalar, daha dəqiq desək, davranış stereotipində əks olunan, lakin fenotipə çox istisna hallarda təsir göstərən mikromutasiyalar ola bilər. Bir qayda olaraq, mutasiya öz arealındakı bütün populyasiyanı əhatə etmir. Yalnız ayrı-ayrı, bir o qədər də çoxsaylı olmayan fərdlər mutasiyaya məruz qalır. Lakin bu, sonralar bizim orijinal etnoslar kimi qeydə aldığımız “cinslərin” yaranması üçün kifayət ola bilər.

Etnogenez partlayışları, yaxud passionar təkan arealları heç də yerin müəyyən bölgələrilə ilgili deyil (43) (bax: şək.5).

Şəkildə rum rəqəmlərilə təkanın sıra nömrəsi, ərəb rəqəmlərilə isə həmin təkan nəticəsində meydana çıxan etnoslar sıralanıb.

Bir qədər aşağıda etnosun tarixi və ya şərti adı verilir, daha sonra isə mötərizə içində onun meydana çıxdığı coğrafi, yaxud [347-348] etnomədəni bölgənin xəritədəki nöqtəyə müvafiq gələn adı verilir. Bəzi hallarda yüksəliş mərhələsi qısaca səciyyələndirilir, yaxud onun ən mühüm mərhələləri sadalanır. Nömrədən sonra mötərizə içində təkanın vaxtı göstərilir.

I (e.ə. XVIII əsr). 1. Misirlilər -2 (Yuxarı Misir). Qədim çarlığın süqutu. e.ə. XVII əsrdə giksosların Misiri istila etməsi. Yeni çarlıq. Paytaxt Fivədə (e.ə. 1580-ci il). Etiqadın dəyişdirilməsi. Oziris kultu. Ehkamların tikilməsinin dayandırılması. Nubiya və Asiyaya təcavüz. 2) Giksoslar (İordaniya, Şimali Ərəbistan). 3) Xetlər (Şərqi Anadolu). Xetlərin bir neçə hatt-hürrit qəbiləsindən yaranması. Xatussanın yüksəlməsi. Kiçik Asiyaya tərəf genişlənmə. Babilin istilası.

II (e.ə. XI əsr). 1) Çjoular (Şimali Çin: Şensi). Çjou knyazlığının Şan İn imperiyasını istila etməsi. Səma kultunun yaranması. İnsanların qurban verilməsinə son qoyulması. Arealın Cənubda Yantszı, Şərqdə dəniz və Şimalda səhraya qədər genişləndirilməsi. 2) (?) Skiflər (Mərkəzi Asiya). 3) Küşitlər (Nilin böyük dönəmi). E.ə. X-VIII əsrlərdə Napat çarlığının formalaşması və təşəkkülü. Napatın yüksəlişi və birləşmiş Misir-Küşit dövləti.

III (e.ə. VIII əsr). 1) Romalılar (Mərkəzi İtaliya). Çeşidli italik əhali (latın-sabin-etrusk) əvəzinə Roma icma-ordusunun meydana çıxması. Sonradan Orta İtaliyaya yayılması, İtaliyanın e.ə. 510-cu ildə Respublika aradılması ilə sonuclanan istilası. Kult, qoşunun təşkilatlanmasının və siyasi sistemin dəyişdirilməsi. Latın əlifbasının meydana gəlməsi. 2) Samnitlər (İtaliya). 3) Ekvlər (İtaliya). 4 (?) Qallar (Cənubi Fransa). 5) Ellinlər (Orta Yunanıstan). E.ə. XI-IX əsrlərdə krit-miken mədəniyyətinin tənəzzülü. Yazının unudulması. Peloponnesdəki dori dövlətlərinin yaranması (e.ə. VIII əsr). Ellinlərin Aralıq dənizi hövzəsini koloniyalaşdırmaları. Yunan əlifbasının meydana çıxması. Allahlar panteonunun (sırasının) yenidən qurulması. Qanunvericilik. Polis həyat tərzi. 6) Lidiyalılar. 7) Kilikiyalılar (Kiçik Asiya). 9) Farslar (Fars ölkəsi). Midiyalılar və farsların yaranması. Deyok və Əhəmən - sülalə baniləri. Midiyanın genişlənməsi. Assiriyanın bölüşdürülməsi. Fars ölkəsinin (Persida) Elamın yerində yüksəlməsi və bunun

Yaxın Şərqdə Əhəmənilər çarlığının yaranması ilə sonuclanması. Etiqadın dəyişdirilməsi. Atəşpərəstlik. Kahinlər.

IV (e.ə. III əsr). Sərmatlar (Qazaxıstan). Avropa Skifiyasına təcavüz. Skiflərin qılıncdan keçirilməsi. Cəngavərlərə bənzər ağır süvari qoşunun yaranması. İranın parfiyalılar tərəfindən işğalı. [348-349] Zümrələrin meydana çıxması. 2. Küşan - soqdilər (Orta Asiya). 3) Xunlar (Cənubi Monqolustan). Xun tayfa ittifaqının formalaşması. Çinlə toqquşmalar. 4) Sənbilər. 5) Püyö. 6) Kögüryö (Cənubi Mancuriya, Şimali Koreya). Qədim Koreya Çoson dövlətinin (e.ə. III-II əsrlər) yüksəliş və tənəzzülü. Qarışıq tunqus-mancur-koreyalı-çinli əhalinin yerində sonralar Kögüryö, Silla, Pekçe kimi ilk koreya dövlətlərinin əsasını qoymuş tayfa ittifaqlarının yaranması.

V (eramızın I əsri). 1) Qotlar (Cənubi İsveç). Qotların Baltik dənizindən Qara dənizinə doğru köçmələri (II əsr). Antik mədəniyyətin xristianlığın qəbul edilməsilə sonuclanan geniş mənimsənilməsi. Şərqi Avropada qot imperiyasının yaradılması. 2) Slavyanlar. Karpat dağları ətrafından Baltik, Aralıq və Qara dənizlərinədək geniş yayılma. 3) Daklar (müasir Rumıniya). 4) Xristianlar (Kiçik Asiya, Fələstin, Suriya). Xristian icmalarının yaranması. Yəhudilikdən uzaqlaşma. Kilsə institutunun yaranması. Roma imperiyası hüdudlarından kənara yayılma. 5) Yəhudilər - 2 (İudeya). Kult və dünyagörüşünün yeniləşdirilməsi. Talmudun meydana çıxması. Roma ilə savaş. İudeya sərhədlərindən kənara geniş mühacirət. 6) Ağsumitlər (Abissiniya). Ağsumun yüksəlməsi. Ərəbistan və Nubiyaya geniş təcavüz, Qırmızı dəniz sahillərinə çıxış. Bir qədər sonra (IV əsr) xristianlığın qəbulu.

VI (VI əsr). 1) Ərəb-müsəlmanlar (Mərkəzi Ərəbistan). Ərəbistan yarımadası tayfalarının birləşməsi. Etiqadın dəyişməsi. İslam. İspaniya və Pamirədək genişlənmə. 2) Racputlar (Hind çayı vadisi). Qupta imperiyasının devrilməsi. Hindistanda buddaçılar icmasının məhvi. Siyasi pərakəndəlik hökm sürdüyü şəraitdə kasta sisteminin mürəkkəbləşdirilməsi. Vedanta dini fəlsəfəsinin yaradılması. Üç ünsürlü monoteizm: Brahma, Şiva, Vişnu. 3) Botlar (Cənubi Tibet). Buddaçılara inzibati-siyasi baxımdan əsaslanmaqla mütləqiyyət çevrilişi. Mərkəzi Asiya və Çin istiqamətində genişlənmə. 5) Çinlilər - 2 (Şimali Çin: Şensi, Şandun). Şimali Çinin demək olar ki, qırılıb qurtaran əhalisinin yerində iki eyni etnos meydana çıxdı: çin-türk (tabğaclar) və Quanlın qrupundan yaranan orta əsr çin etnosu. Tabğaclar Tan imperiyasını yaradaraq, bütün Çin və Mərkəzi Asiyanı birləşdirdilər. Buddizm, türk və hind dəblərinin yayılması. Çin millətçilərinin müxalifəti. Sülalənin məhvi. 6) Koreyalılar. Silla, Pekçe və Kögürö krallıqları arasında hegemonluq uğrunda savaş. [349-350] Tan təcavüzünə müqavimət. Koreyanın Silla hakimiyyəti altında birləşdirilməsi. Konfusi əxlaqının mənimsənilməsi, buddaçılığın yayılması. Vahid dilin formalaşması. 7) Yamato (Yaponiya). Tayk çevrilişi. Padşahın başçılıq etdiyi mərkəzləşmiş dövlətin yaranması. Konfusi əxlaqının dövlət etikası kimi qəbulu. Buddaçılığın geniş yayılması. Şimala doğru təcavüz. Kerqanlar tikilməsinin dayandırılması.

VII (VIII əsr). 1) İspaniyalılar (Asturiya). Rekonkistanın başlanması. İspan-romalı, qotlar, alanlar, luzitanlar və b. qarışmalarına əsaslanan Asturiya, Navarra, Leon krallıqları və Portuqaliya qraflığının yaradılması. 2) Franklar (fransızlar). 3) Sakslar (almanlar). Böyük karl imperiyasının milli-feodal dövlətlərinə parçalanması. Vikinqlər, ərəblər, macarlar və slavyanların dəf olunması. Xristianlığın ortodoksal və papaçı qollara parçalanması. 4) Skandinavlar (Cənubi Norveç, Şimali Danimarka). Vikinq hərəkatının başlanması. Poeziya və runa yazılarının meydana çıxması. Loparların tundraya sıxışdırılması.

VIII (XI əsr). 1) Monqollar (Monqolustan). "Azadlıqsevərlər"in meydana çıxması. Tayfaların xalq-ordu kimi birləşməsi. Qanunvericiliyin - Yasanın və yazının meydana çıxması. Ulusun Sarı dənizdən Qara dənizədək genişlənməsi. 2) Curcenlər (Mancuriya). Yarımçin tipli Tszin imperiyasının yaradılması. Cənub istiqamətində təcavüz. Şimali Çinin istilası.

IX (XIII əsr). 1) Litvalılar. Sərt knyaz hakimiyyətinin yaradılması. Litva knyazlığının Baltik dənizindən Qara dənizədək genişlənməsi. Xristianlığın qəbulu Polşa ilə qovuşma. 2) Velikoroslar. Litvalıların istila etdikləri (Novqoroddan savayı) Qədim Rus dövlətinin yox olması. Moskva knyazlığının yüksəlişi. Qulluq adamları zümrəsinin artması. Şərqi Avropanın slavyan, türk və uqor əhalisinin güclü metisləşməsi. 3) Osmanlı türkləri (Kiçik Asiyanın qərbi). Yaxın Şərqin fəal müsəlman əhalisinin, əsir slavyan uşaqlarının (yanıçarlar) və Aralıq dənizindəki dəniz səfillərinin (donanma) Osmanlı bəyliyi tərəfindən birləşdirilməsi. Hərbi tipli soltanlıq. Osmanlı dövləti (Porta). Balkan yarımadası, Ön Asiya və Mərakeşədək Şimali Afrikanın istilası. 4) Həbəşlər (Əmraha və Şoa Həbəşistanda). Qədim Ağsumun yox olması. Süleymanilər çevrilişi. Həbəş pravoslavlığının təcavüzü. Şərqi Afrikada Abissiniya çarlığının yüksəlişi və genişlənməsi.

(Şəkil 5) [350-351]

Passionar təkan bölgələri en dairəsi boyunca yönəldikdə, təxminən, 300 km, meridian boyunca istiqamətləndikdə isə bundan bir qədər uzun olan ensiz zolaqlardır. Onlar geodeziya xətlərinə bənzəyir. (44) Təkanlar çox az-az min il ərzində iki və ya üç dəfə baş verir və demək olar ki, heç vaxt eyni yerdən keçmir. Belə ki, e.ə. min il ərzində iki təkan aydın müşahidə olunur: VIII əsr - Akvitaniyadan Latsium, Ellada, Kilikiya, Parsdan keçərək, Hindistanadək; III əsrdə - müasir Monqolustan və Qazaxıstan çöllərində.

Artıq qeyd etdiyimiz kimi, əhatə etdiyi bölgə çeşidli fiziki-coğrafi bölgələri ehtiva etdiyi halda, bir təkan bir neçə yüksək passionarlıq ocağı (və bir nəticə kimi - bir neçə superetnos) yarada bilir. Belə ki, eramızın VI əsrindəki təkan Ərəbistan, Hind çayı vadisi, Cənubi Tibet, Şimali Çin və Orta Yaponiyanı əhatə etmişdi. Bütün bu ölkələrdə həmyaş, etnoslar yarandı və onların hər biri orijinal stereotip və mədəniyyətə malik idi. Qonşuları - Bizans, İran, Böyük çöl, aynilər onlardan yaşlı idi. XII əsrdə meydana çıxan curcenlər və monqollar hamıdan gəncdi. Xalqların Böyük yerdəyişməsindən (köçündən) sonra xarabalıqlar içində olan Qərbi Avropa IX, Şərqi Avropa isə XIV əsrdə yeniləşdilər. Məhz bu səbəbdən Rusiya və Litva Fransa və Almaniya ilə müqayisədə geridə qalmış yox, daha gənc etnoslardır. Əslinə qalsa, Rusiyanı superetnos adlandırmaq daha doğru olar, çünki Moskva istilaya əl atmadan öz ətrafında bir çox etnosları birləşdirib.

Lazım gələrsə, təqdim etdiyimiz əyrini (şək. 4) zaman miqyasını dəyişmək və etnik təmasların təsirini nəzərə almaqla konsorsiya, konviksiya, subetnos və etnosa da tətbiq etmək mümkündür. Etnogenezlər sinxronlaşdırılarkən superetnik səviyyədə etno-mədəni sistemlərin dinamikasını (şək. 6) və onların qanlı və dinc, iqtisadi, ideoloji və estetik ola bilən ilişkilərini müşahidə edirik. Fərqli tarixi keşməkeşlərdə, iqlim variasiyalarında və passionarlığın tənəzzülü və ya yüksəlişi fonunda toqquşmaların nəticələri müxtəlif olur. Etnik tarixin predmeti də elə bu ilişkilərdir.

(Şəkil 6 - səh. 344-dən)

Aydındır ki, etnogenezin müxtəlif mərhələlərinin nisbi müddəti fərqlidir. Bütün yüksəliş mərhələsi, təxminən, 300 il davam edir - artım prosesi kifayət qədər intensiv cərəyan edir. Akmatik mərhələdə müddətcə elə buna yaxındır. Etnosun kompleks özünəməxsusluğu məhz bu dövrdə formalaşır, onun genişlənməsi başa çatır və superetnik mədəni qurumların formalaşması üçün [351-352] şərait yaranır. Çat daha qısa müddət davam edir və 150-200 il sürür. Ətalət və cəhalət mərhələləri müddətcə xüsusilə müxtəlifdir. Bu, həm etnosun daxili parçalanma proseslərinin intensivliyindən, həm də tarixi taledən asılıdır. Sonuncu isə əvvəlki dövr ərzində toplanan maddi bazisin inkişaf dərəcəsi, arealın fiziki-coğrafi şəraiti və qovuşan etnosların vəziyyətilə şərtlənir. Nəhayət, tarixi qalıqların mövcud olduqları homeostaz mərhələsinin müddəti dağılmış etnosun qalıqlarını ağuşuna almış tarixi-coğrafi xassələrindən bütövlüklə asılıdır. Əgər şərait əlverişlisə, o, təcrid olmuş etnosa çevrilir və qeyri-müəyyən qədər uzun sürən müddət, yəni onun ərazilərinə qonşular göz dikənədək mövcud olur. Beləliklə, etnososial sistemin formalaşmasından etnosun qalığa çevrilməsinədək davam edən etnogenez sikli təxminən 1200 ili əhatə edir. Əlbəttə, etnogenezi istənilən mərhələdə poza bilən xarici sapınma olmaması şərtilə.

**Tarix və etnologiya**. Etnogenez sxemi əyanidir və etnik tarixin araşdırılmasını yüngülləşdirir. Lakin o yalnız mnemonik (yaddaşı möhkəmləndirən) yardımçı üsuldur. Bu üsulun tarixi rəvayətə aidiyyatı kitabxana kataloqunun kitabxanadakı kitablara, yaxud Moskvanın köhnə planının müasir şəhərə olan aidiyyatı kimidir; yeni şəhərdə köhnə dalanlar qalsa da, binalar təzələnib. Lakin həyat planda yox, şəhərdə cərəyan edir. Hərçənd ki, planın olması tanınmaz dərəcədə dəyişmiş küçələrlə hərəkət etməkdə yardımçı ola bilir.

Etnogenez haqqında elmdən fərqli olaraq, etnik tarix çoxamilli hadisədir. Onda coğrafi və bioloji olanlarla yanaşı, çoxsaylı natamam proseslərin iştirakçıları kimi sosial-siyasi, tarixi-psixoloji və mədəni amillər də iştirak edir. Passionarlığın istisna önəmi yalnız bundadır ki, o, rəqabət aparan etnik sistemlərin potensial imkanlarının meyarıdır və bu səbəbdən həmin dövrdə qüvvələrin paylaşmasını təyinləsə də, hadisələrin sonucunu determinə edir. Lakin biosfer fenomeni olmaqla etnos haqqında elmin məziyyəti də elə ondan ibarətdir ki, o, gətirilən bir çox amilləri dəyərləndirilə bilən az sayda dəyişənlərlə ifadə etməyə nail olur və ənənəvi tarixi baxım üçün həlli mümkünsüz olan məsələləri sadələşdirir. Onun metodikasın ənənəvi tarixi metodikaya münasibəti cəbrlə hesab arasındakı nisbət kimidir. O, daha az əmək sərfi ilə başa gəlir, deməli, eyni həcmdə qüvvə sərf etməklə daha böyük bölgəni və daha sürəkli dövrü əhatə etmək imkanı verir ki, bu da öz növbəsində, ilk nəzərdə bir-birilə ilgili olmayan faktların [352-353] qarşılaşdırılması yolu ilə bir sıra dəqiqləşdirmələr aparmaq imkanı verir. Bundan əlavə, hər bir cəbri formul hesab yolu ilə yoxlana bildiyi kimi, etnoloji qənaətlər də tarix elminin ənənəvi metodları ilə yoxlana bilər. Lakin tarixdən sözün geniş anlamında yararlansa da, ondan "həqiqət axtarışlarında" istifadə etsə də, etnologiya heç də ictimai tarixin əvəzlənməsi deyil. Axı, ikiüzlü Yanus kimi tarix də yalnız araşdırma predmeti insan əməyinin və zəkasının məhsulları, yəni binalar və zavodlar, qədim kitabələr və folklor nümunələri, feodal institutlar və yunan polisləri, fəlsəfi sistemlər və cəfəng, cahil ideyalar, baltalar, bəzəkli dolçalar, yaxud rəsm əsərləri olduğu zaman humanitardır.

Bununla belə, etnoloji metodikanın tətbiqi mütləq şəkildə uzaqlıq və yaxınlıq sapıntılarından, onlarla ilgili olan və artıq həddən artıq yayılma sayəsində məcburiyə çevrilən alışdığımız təsəvvürlərdən şüurlu şəkildə imtina olunmasını tələb edir.

Obivatel qədim insanın müasir sənaye şəhərlərinin sakinlərinə nisbətən son dərəcə primitiv olması və bunu yalnız tədricən, saysız-hesabsız nəsillərin əvəzlənməsi, bacarıqların toplanması və ixtiraların tətbiqi yolu ilə aradan qaldırdığına əmindir. Bu cür mütərəddid zəmin üzərində bəzi alimlərin də bölüşdüyü belə bir təsəvvür yaranıb ki, zaman, yəni inkişaf keçmişdə indikindən ləng cərəyan edib və bu səbəbdən də tarixçilər, məsələn, paleoliti həddən artıq uzanmış Renessans dövrü kimi vahid bir dövr kimi görürlər. Bu,

uzaqlıq aberrasiyasıdır (sapdırma) və belə təsəvvürü Günəşin yumruqdan böyük olmadığına əmin olan uşağın təsəvvürü ilə tutuşdurmaq olar. Lakin müasir polineziyalıların uzaq əcdadları dəmir alətlərə malik olmasalar da, Sakit okeanı bals ağaclarından düzəldilən sallarda üzüb keçmək üçün T.Heyerdal qədər vaxt sərf etmişlər. Müasir seleksiya və genetikadan bixəbər olan qədim mayalar pambığın mədəni növünü yetişdirmiş və onun xromosomlarının sayını ikiqat artırmışlar ki, bunu da tədricən etmək mümkün deyil. Obsidian ox ucluqlarından yararlanan Şimali Amerika hinduları isə, vəhşiləşmiş ispan mustanqlarını əhliləşdirmiş və 60 il ərzində preriyalara sahib olmuşlar.

Mütəxəssis olmayanlara elə gəlir ki, etnik tarix "əvvəli və sonu olmayan həyatdır, "təsadüflər" kaleydoskopu isə heç bir sxemə müvafiq gəlmir, sadəcə olaraq elə bircə ona görə ki, müxtəlif müşahidəçilər istənilən hadisənin fərqli tərəflərini görür. Bəli, müasirlər heç vaxt passionar təkanı duymamışlar. Baş verənlərin [353-354] hamisi onlarda təbii, həmişə baş verən təsəvvürü yaradırdı. Qədim romalılar 300 il respublikanın imperiya ilə əvəzləndiyini görmürdülər və yalnız Diokletian saray mərasimlərini dəyişdiyi zaman onlarda monarxiya bərqərar olunduğundan hali oldular. Yaxınlıq aberrasiyasının paralel proseslərə, məsələn, landşaft və ya iqlim tarixinə etinasız yanaşılması ilə daha da ağırlaşdırılan nəticələri belədir. Ümumiyyətlə, landşaft və iqlim çox vaxt daimi bir şey kimi qəbul olunsa da, bəzən hakimiyyətin siyasi formalarından da sürətlə dəyişir.

Lakin süjetdən lazımi uzaqlıqda olan etnoloq bir dövrün digərinə tədricən keçməsini nəzərə almaqla belə, zamanın "rənginin" dəyişməsini görür. Lakin bu zaman o, adət edilən üsuldan - mənbələrdəkini sadəcə nəql etməkdən uzaqlaşır, çünki salnaməçilərin həmişəki canlı hekayətləri əvəzinə hadisələr haqqında quruca bilgilər zənciri əldə edir. Paleobioloq, yaxud geoloq kimi, o da hadisələrin məntiqini aşkarlamalıdır, sadəcə olaraq, proseslər və zaman miqyasları başqadır. Lakin bu, humanitar elmlərin metodlarından uzaqlaşma deməkdir, axı? Söhbət insanın araşdırılmasından getdiyi zaman belə pozuntu məqbuldurmu?

Bəli! Təkcə məqbul yox, həm də zəruridir.

Adətən, belə düşünülür ki, humanitar elmlər insan və onun əməllərini, təbiyyat elmləri isə canlı, ölü və hərəkətsiz, yəni heç vaxt canlı olmayan təbiəti araşdırır.

Lakin bu bayağı bölgü səmərəsiz və onu mənasız edən ziddiyyətlərlə zəngindir. Təbabət, fiziologiya və antropologiya insanı araşdırsalar da, humanitar elmlər deyil. Qədim kanallar və şəhərlərin xərabələri - antropogen metamorfozlaşmış landşaft təbiyyat elmi olan geomorfologiyanın əhatə dairəsindədir. Əksinə, XVI əsrədək səyyahların onlarla ağızdan keçərək gəlib çatan əfsanəvi, bəzən də fantastik hekayətlərinə əsaslanan coğrafiya da, bütün Yer üzünü bürümüş daşqın və Atlantida haqqında hekayətlərə əsaslanan geologiya da humanitar elmlər idi. Hətta Kopernikə qədərki astronomiya da humanitar elm olaraq, Ərəstun, Ptolomey, bəzən isə hətta Kosma İndikoplovun mətnlərinin araşdırılmasına əsaslanırdı. İnsanlar sonsuz Boşluqda asılı vəziyyətdə olan kürəcikdənsə, Okeanın əhatəsində olan yastı Yer üzərində yaşamağı üstün tuturdu. Başdan başa orta təhsil verilməsinə baxmayaraq, indi də həmin inanc qalmaqdadır. [354-355]

Deyilənlərdən çıxış edərək asanlıqla belə bir qənaətə gəlmək olar ki, düşüncə tərzlərinin, deməli, elmlərin də araşdırma predmetinə görə paylaşdırılması doğru deyil. İlkin informasiya əldə olunması üsuluna görə bölgü daha səmərəlidir. Burada iki cür yanaşma mümkündür, oxu, dinləmə və azad fikir bəhrələrinin çatdırılması - əsatir yaradıcılığı, yaxud bəzən sınaqla müşayət olunan müşahidə, yəni sözün həqiqi anlamında təbiət elmləri. (45) Belə paylaşma zamanı müşahidə olunan faktların ümumiləşdirilməsinə əsaslanan etnologiya təbiətşünaslığın bir hissəsinə çevrilir, ondakı eksperiment rolunu isə, kriminalistikada olduğu kimi, ekspertiza (mütəxəssis rəyi) yerinə yetirir ki, bunda da məqsəd mənbələrdəki şəhadətlərin ziddiyyətli olmasına yol verməməkdir. Axı, cinayət araşdırılarkən də şahid ifadələrinin tutuşdurulması aparılır, çünki onlara kor-koranə inam çox vaxt söylədiklərinin həqiqət kimi qəbul olunmasında maraqlı olan bir çox şahidlər üçün əlverişli olar. Bəs, niyə salnaməçilər qərəzsiz sayılmalıdır?

Nə vaxtadək ki, tarix yalnız müasirlər tərəfindən qeydə alındığından həmişə qeyri-adi olan (yalnız belə hadisələr diqqəti çəkirdi) ayrı-ayrı faktlar kaleydoskopu idi, "empirik ümumiləşdirmə" qurmaq da real deyildi. Ayrıca bir müşahidə tənqidi şəkildə qavranılmışdır. O, təsadüfi, natamam, müşahidəçinin olduğu şərait və hətta onun şəxsi əhvalının təsirilə təhrif oluna bilər. Bütün bu çatışmazlıqlar isə yalnız müşahidələrin sayının çoxluğu ilə aradan qaldırılır. Bu zaman qaçılmaz yanlışlıq o qədər kiçik olur ki, nəticəni ifadə etmək üçün onu nəinki nəzərə almamaq olar, hətta bunu etmək zəruridir.

Məhz tarixi zaman ərzində məlum olan bütün etnosları qeydə almaq (dolğunluq prinsipi) və hazırda müşahidə etdiyimiz təbiət qanunlarının keçmişdə də eynilə fəaliyyət göstərdiyini iddia edən aktualizm prinsipini əldə rəhbər tutmaqla biz etnogenezin etnosların coğrafi mühit fonunda doğulması və məhvinə şəhadət edən qanunauyğunluğunu aşkarlamışıq. Toplanan material isə nə hüquqi məktəbə mənsub tarixçilər, nə də strukçular tərəfindən istifadə olunmamışdı. Çünki hər ikisi dinamikanı yox, statikanı araşdırırdı. [355-356]

# SƏKKİZİNCİ HİSSƏ

# ETNOSUN YAŞI

**Burada etnik bütövlərin inkişaf sxemi təsvir olunub və əbədiliyin ona nə üçün xas olmadığı açıqlanıb**

## XXX. ELMİ AXTARIŞ ÜSULU

**Zaman və tarix**. Tarix zamanda cərəyan edən proseslərin araşdırılmasıdır. Lakin zamanın nə demək olduğunu heç kəs bilmir. Burada təəccüblü heç bir şey yoxdur. Güman ki, balıqlar da suyun nə olduğunu bilmir, çünki onu qarşılaşdıracaqları bir şey yoxdur. Havaya çıxarıldıqda isə, hava ilə suyu tutuşdurmaq üçün vaxtları qalmır.

V.İ.Vernadski ölümü məkan və zamanın bölgüsü kimi təyinləyib (1), çünki onun fikrincə, sükunətdə olan maddə zamandan xaricdir. Güman ki, o haqlıdır, lakin tarixçilər yalnız mövcud olanın keçmişə çevrildiyi ölüm prosesləri ilə rastlaşırlar. Bəs, keçmiş realdırmı? Bu sualla ilgili müasir alimlər arasında yekdillik yoxdur. Artıq qeyd etdiyimiz bir sıra fikirləri daha ətraflı nəzərdən keçirək.

Kifayət qədər geniş yayılan bir fikrə görə, keçmiş ümumiyyətlə yoxdur. Covanni Centile yazır: "Keçmiş zamanlarda insanlar anadan olur, düşünür və zəhmət çəkirdilər… lakin onlar da gözəlliyindən həzz aldıqları çiçəklər, gözləri önündə yazda yaşıllaşan, payızda isə saralıb tökülən yarpaqlar tək kimi ölüdür. Onlar haqqında xatirə yaşamaqda olsa da, fantaziyalar aləmi kimi, xatirələr dünyası da heçlikdir və xatirələr heç də xəyaldan üstün deyil"… ("Tarixçi bilir ki, keçmiş faktların həyatı və önəmi xartiyalar, kitabələr və ya keçmişin istənilən digər həqiqi qalıqlarında açıqlana bilməz; onların mənbələri tarixçinin öz şəxsiyyətindədir". (2)

Deyilənlərlə razılaşmaq mümkünsüz olsa da, bir qədər tələsməyək, bu mövzuya toxunan digər müəlliflər də var.

V.Diltey, P.Qardiner və B.Rassel bir qədər də qəti fikir yürüdür. Əslində, onlar tarixi rədd edir və iddia edirlər ki, onun qənaətləri yanlışdır, çünki tarixçilərin qaçılmaz şəkildə subyektiv olmaları qərəzsizliyi istisna edir. V.Diltey yazırdı: [356-357] "Tarix dünyasının ilkin elementi subyektin öz mühitilə fəal həyatı qarşılıqlı ilişkilərdə olduğu təəssüratdır". (səh. 112) P.Qardiner iddia edirdi ki: "Müxtəlif səviyyələrdə və müxtəlif məsafələrdən müxtəlif məqsəd və maraq güdən tarixçilərin müxtəlif yanaşma və baxımdan onların tarixçilər tərəfindən açıqlanmasının intizarında olan mütləq real səbəblər yoxdur" (səh. 192). B.Rassel isə bildirirdi ki, tarixin dəyərliliyi ondadır ki, o, "fövqəladə, bizimkindən fərqli şəraitdə olan insan varlıqları haqqında ciddi təhlili yox, it həvəskarı olan adamın öz iti barəsində bildiklərinə bənzər biliklər" bəxş edir. (səh.176)

Fikrimizcə, sadalanan mütəfəkkirlərin yuxarıdakı bədbin qənaətlərə gəlmələrinə səbəb olan materialları onların müasirləri olan tarixçilər vermişlər ki, onların çox nəfis təsviri Anatol Fransa məxsusdur: "Məgər biz də tarix yaradırıq? Məgər hər hansı bir sənəd, yaxud mətndən zərrə qədər də olsa, həqiqət və ya həyat əldə etməyə can atırıqmı? Biz, sadəcə olaraq, mətnləri çap etdiririk. Biz, hərfin ətəyindən yapışmışıq… Fikir deyilən şey yoxdur" (Pinqvinlər adası"). Bu mövqeni müdafiə etmək istəyi olmasa da, əslində, mübahisə məhz onunla ilgilidir. Odur ki, zəruri olan aydınlaşdırma gətirək.

Əgər mübahisə başlansa da, filoloji anlaşılmazlıq üzərində qurulardı. Hazırda bir-birilə ilgili olsalar da, kifayət qədər fərqli olan bir sıra məşğuliyyətləri tarix adlandırırlar. 1. Qədim mənbələrin çapı və tərcüməsi - zəruri olsa da, yalnız xammal verən bir məşğuliyyət. 2. Qədim müəlliflərin şüurlu, bəzi hallarda isə qeyri-ixtiyari yalanlarını çeşidləyən tarixi tənqid - yarımfabrikat əldə olunması. 3. Əldə olunan materialın əvvəllər toplananla tutuşdurulması - bu, hələ istehlak predmeti olmasa da, artıq hazır məhsuldur. 4. Bilgilərin qarşıya qoyulan problem baxımından təfsiri. 5. Elmlərin qovuşuğuna çıxan yeni problemlərin qoyulması.

Yuxarıda sadalanan və onlara yaxın olan bir çox filosoflar əslində ondan məyus olurdular ki, aralıq emal olmadan xammaldan sifariş olunan suveniri əldə edə bilmirdilər. Bu, həqiqətən də qeyri-mümkün olan bir işdir, lakin başqa yol yoxdur və olmayacaq. Filosoflar başqa bir şeydə haqlıdırlar: bu yolu heç də hər kəs keçə bilməz.

İlk nəzərdən həddən artıq sadə görünən ümumiləşdirmələr də elə mənəvi yüksəliş və hisslərin qızmasını tələb edir ki, bu zaman fikir əriyib, əvvəlcə heyrətə gətirən, daha sonra isə əqidəli oxucunu inandıran yeni forma kəsb edir. Həm də məsələ tezisin hansı axarı, [357-358] yaxud dəlillərin nə şəkildə seçimi ilə sübuta yetirilməsində deyil - bu, elmlə məşğulluğun astar üzüdür və o, əlbəttə, bələd olmaq zəruridir, lakin təkcə bələdlik kifayət deyil. Məsələ niyə bəzən yeni tezisi tapmaq və sübuta yetirməyin mümkün olmasındadır. Bu, yaradıcılıq psixologiyasının sirridir və qədim yunanlar onu tarix ilahəsi Klioya aid edirdilər. Bu ilahə bizə pıçıldayır ki, filosofların şəkki əsassızdır və keçmiş nə şəxsi hiss-həyəcan, nə də

xəyal deyil. Çünki hazırki məqam yalnız bir göz qırpımında keçmişə çevrilən bir andır. Gələcək yoxdur, çünki bu və ya digər nəticələrə səbəb olacaq hərəkətlər hələ edilməyib və onların edilib edilməyəcəyi də hələ məlum deyil. Olacağı yalnız hesablamaları əməli dəyərdən məhrum edən statistik təxminlə hesablamaq mümkündür. Keçmiş isə mövcuddur və mövcud olan hər bir şey keçmişdir, çünki istənilən əməl ani olaraq keçmişə çevrilir. Məhz bu səbəbdən tarix elmi bizdən xaric və bizdən asılı olmadan mövcud olan yeganə reallığı araşdırır.

Subyektiv qavramanın mötəbər olmaması haqqında söhbətlər isə obivatel boşboğazlığıdır. Mötəbərlik həmişə müəyyən hüdudlar çərçivəsində gərəkdir və onlardan kənara çıxarkən mənasız olur. Moskvadan Leninqradadək məsafəni millimetr dəqiqliyilə ölçmək mümkünsüz və lazımsız bir işdir. Tarixdə də belədir, lakin burada məsələnin qoyuluşunda özünəməxsusluq var.

Tarixi şəxsiyyətlərin hissiyyatlarının çalarlarını deyil, sosial, etnik və mədəni prosesləri araşdırmaq məqsədəuyğundur. İlkin bilgilər toplanan zaman dəqiqlik dərəcəsi az olsa da, uzun sürən prosesi izləyərkən təsadüfi yanlışlıqlar bir-birini ödəyir və bunun sayəsində əməli vəzifəmizə - dövrün anlaşmasına cavab verən təsvir əldə etmək mümkündür. Əhatə geniş olduqca isə, dəqiqlik də bir o qədər yuxarı olur. Məsələnin bu şəkildə qoyuluşu zamanı təfərrüatların sayını zəruri olandan çox artırmaq mənasızdır, çünki onlar kibernetik “küylər” törədir. Bilgilərin seçim prinsipi isə qoyulan vəzifədən doğur.

Etnosun biofiziki fenomen, passionarlığın biosferin canlı maddəsinin effekti olduqlarını idrakın, həmçinin onunla ilgili olan mədəniyyət tarixinin də sükan deyil, mühərrik rolunu oynadıqlarını aşkarlamaqla biz qarşıya qoyulan məsələni həll etmədik, yalnız onun həlli üsulunu nəzərdə tutduq. Lakin tələsməyək və müasir elmdə problemin analoji şəkildə qoyuluşunun olub-olmadığını araşdıraq. Var! K.Yaspers məsələnin həlli yolunu təklif edib, gəlin, onunla tanış olaq. (3) [358-359]

V əsrdən etibarən, yəni Avqustindən Hegelə qədər Qərbi Avropada (və yalnız orada) hakim olan fəlsəfi-tarixi konsepsiya tarixi prosesi əvvələ və sona malik, başqa sözlə, mənalı sonuca malik vahid xətt kimi nəzərdən keçirirdi. Bu konsepsiyadan əvvəlcə tarixin mütləqə doğru canatma kimi dini dərki, daha sonra isə ateist “tərəqqi dini” doğdu. Bu nəzəriyyənin ən yeni variantı K.Yaspersin baxışlarıdır.

K.Yaspers bütün tarixdən “mehvər zamaı” fərqləndirir. e.ə. 800-200-cü illər arasındakı bu dövrdə Çin, Hindistan, İran, Fələstin və Elladada paralel olaraq dini hərəkatlar meydana çıxdı və guya ki, indiyədək mövcud olmaqda davam edən insan tipini formalaşdırdı. Bu, Çində Konfutsi və Lao Tszi, Hindistanda Upanişadlar və buddaçılıq, İranda Zərdüşt, Fələstində peyğəmbərlər, Elladada Homer və dahi filosoflar idi. Bütün böyük dinlər və fəlsəfi sistemlərin mənşəyi bunlardır, bütün digər, o cümlədən, “mehvərəqədərki” xalqlar isə qeyri-tarixidir və yalnız “mehvər” xalqları və onların davamçılarından “maariflənə” bilərlər, çünki “mehvər zaman”da “ruhun oyanması” baş verib və “mövcudiyyatın son sualları” - ölərilik, sonucluluq, faciəvi yanlışlıq və insan varlığının mənası haqqında suallar qoyulub. “Mehvər zaman” sanki bütün sonrakı tarixin köküdür.

K.Yaspers bir-birindən asılı olmayan mədəniyyətlərin inkişafında qeydə aldığı paralelliyin haradan və necə yarandığını açıqlamır. Nə köçəri arilərin Çin, Hindistan və Avropaya təcavüzü, nə də həmin ölkələrdəki sosial şərait məsələnin qənaətbəxş həllini vermir. Fenomenin genezisi məsələsi cavabsız qalsa da, həmin dövrdə və həmin bölgələrdə K.Yaspersin fikrincə, xalqlar və mədəniyyətlər arasında həqiqi ilişkiləri təmin edən “fəlsəfi dinin” təşəkkül tapması heç bir şübhə doğurmur. Həqiqi ilişki nə nəsil, nə təbii, nə də sosial yox, mənəvi ilişkidir və o, yalnız “cəfəng vəziyyətlər”, “son suallar”la üzləşən zaman əldə edilir ki, bu vaxt insanlar arasında təmaslar ekzistensial səviyyədə baş verir.

Burada dayanacağıq, çünki ekzistensializm təliminin fəlsəfi tərəfi, müasirlik və gələcək haqqında mühakimələr və tarixin mənasını açıqlamaq cəhdləri yalnız kifayət qədər möhkəm bünövrə qurulduğu zaman maraqlı ola bilər. Məhz elə bu, bir qədər şübhə doğurur.

İlk növbədə, bu “mehvər” həddən artıq genişdir. 600 il elə bir müddətdir ki, bura bir çox şeylər doldurmaq mümkündür. Üstəlik tarixin e.ə. 800-cü ilədək və 200-cü ilədək olan kəsiklərini [359-360] tutuşdursaq görərik ki, bu müddət ərzində müxtəlif ölkələr üçün fərqli şəkildə sonuclanan möhtəşəm dəyişikliklər baş verib. Məsələn, Çin Xan sülaləsi tərəfindən birləşdirilib, Ellada və İran isə “qeyri-tarixi” barbarlar - makedoniyalılar və parfiyalılar tərəfindən istila edilib. Burada nə isə bir uyğunsuzluq var.

Sonrasını diqqətlə oxuyuruq. Müəllif “yüksələn inkişaf dövrünün sonucunu” - Çində Tsin imperiyası (e.ə. 221-202), Hindistanda Maurya çarlığı, Roma imperiyası və ellin dövlətlərini tutuşdurur. Lakin e.ə. III əsrdə diadohların Misir, Suriya, Makedoniya, Baktriyadakı çarlıqları heç də qüdrətli deyildi, Roma isə İkinci Pun savaşında üzülmüşdü. Hindistandakı Maurya çarlığı e.ə. 266-cı ildə Aşokinin vəfatından sonra parçalandı. Alınmır! Qərbdə - parçalanma. Çində isə - birləşmə. Çini Avqust dövrü ilə tutuşdurduqda isə xronoloji kəsir 300 ilə çatır. Çox deyilmi?

“Mehvər zaman”ın mənəvi həyat mənbəyi olması ideyası qədim Amerika tarixi tərəfindən təkzib edilir, halbuki, maya, tolteklər və inklərin And dağlarındakı sələfləri (Tiuanako mədəniyyəti) heç də qədim çinli, hindistanlı, fars, yəhudi və yunanlardan əskik deyildilər. Çinin köçəri monqolların təzyiqinin qarşısını alması isə tamamilə yanlışdır və bunun əksi daha həqiqətə uyğundur.

Təəccüblənmək üçün başqa səbəblər tapmaq mümkün olsa da, məsələ bunda deyil. K.Yaspersin konsepsiyası tarixini durğunluğu “yararaq”, yaxud irəli sıçrayaraq sanki yenidən doğulan həmin beş

xalqın qədim barbarlara göstərdiyi xeyirxahlıq kimi dərk edilməsinə həsr olunan ən əsaslandırılmış cəhddir. Bu, təkcə ideyaları bütün orta əsr cəfəngiyyatları üçün qaynaq olan Avqustinin yox, özlərinin Tanrı tərəfindən seçilmiş xalq olmaları haqqında təlim yaradan qədim yəhudi mütəfəkkirlərinin də baxışlarının elmiləşdirilməsidir. Etnogenezin hər yerdə meydana çıxması təlimindən çıxış etdiyimiz halda K.Yasperslə razılaşmaq mümkün deyil. Lakin sadəcə razılaşmamaq azdır. Sübutları əksdən çıxış edərək (ad absurdum) tətbiq etməyə cəhd göstərək. Lakin bu zaman hər hansı bir mübahisəni bataqlıq kimi udan təfərrüatların akademik araşdırılması yolundan yox, "mehvər zaman" ardınca gələn min il boyu mövcud olmuş tarixi reallığı əyani şəkildə icmal üsulundan yararlanaq.

Əvvəla, onu deyək ki, K.Yaspersin qeydə aldığı qədim dövrün bir neçə mədəniyyətinin inkişafındakı paralellik həqiqətən mövcud olmuş, lakin o, nə yeganə, nə də o dərəcədə məhsuldar [360-361] deyildi ki, çinlilər, hindlilər, iranlılar, yəhudilər və yunanlar xüsusi insanlar kateqoriyası kimi fərqləndirilsinlər. (4) Üstəlik, etnogenezin digər passionar partlayışları kimi, o da sonda tamamilə söndü. Bizim əks tezisimiz belədir. İndi də onun açıqlamasını verək.

**Tarixi coğrafiyadan etnik psixologiyaya**. Etnosdan kənarda olduğu kimi, əcdadlarının onun tələbatlarına uyğunlaşdırdıqları təbii şəraitdən kənarda bulunmaq da insan üçün ağırdır. Biz antropogen landşaftların aranma mexanizmini və onun etnogenez mərhələlərilə ilişkilərini təsvir etmişdik. Kifayət qədər cod olan bu ilişki də etnosenoz təşkil edən etnik sistemin kollektiv durumundan asılıdır. Artıq bildiyimiz kimi, həmin etnosenozun inkişafı da, öz növbəsində, passionar gərginlik səviyyəsi, həmçinin landşaftda uyuşmanın xarakteri və bu və ya digər etnik dominantın olması ilə ilgilidir. Araşdırma süjetinə bu yanaşma zamanı texniki sivilizasiyanın digər tipli inkişaflar üzərində üstünlüyü barədə yevrosentrist ideya öz-özünə aradan çıxır. Həqiqətən, niyə Hindistanın əkinçi mədəniyyətləri, yaxud Kanada eskomoslarının ovçu mədəniyyətləri möhtəşəm şəhərlərdə yaşayanların həyat tərzindən qeyri-mükəmməl sayılmalıdır? Yəni yalnız ona görəmi ki, sonuncu oxucularımızın əksəriyyəti üçün daha çox alışdıqları bir şeydir?

Lakin obivatel qərəzliliyindən uzaqlaşsaq, etnos və superetnik mədəniyyətləri tutuşdurmaq üçün daha etibarlı meyara ehtiyacımız olacaq, çünki onlar həqiqətən eyni dəyərə malik sayıla bilməz. Bu məqsədlə yenidən etnogenetik proseslərin xassələrinin nəzərdən keçirilməsinə üz tutmaq və sadəcə təsvirlə kifayətlənməyərək, kəşf etdiyimiz passionarlığa əsaslanan təfsir vermək lazım gələcək. Burada etnogenez mərhələləri və antropogen landşaftların vəziyyətlərinin dəyişməsi bir-biri üçün təshih rolunu oynayacaq.

Etnopsixoloji stereotiplər fərqinin etnik inkişaf məkanlarının iqlim, relyef, flora və faunası ilə şərtləndiyi Monteskyödən də xeyli əvvəl məlum idi. Coğrafi determinizmin əsasını təşkil edən bu ideyalara hələ X-XIV əsr ərəb coğrafiyaçılarında rast olunur. Onların yanlışlığı yalan olmalarında deyil, müşahidə olunan hadisələrin açıqlanmasının qənaətbəxş olmamasındadır. Bu yönə mənsub coğrafiyaçılar əsas şeyi - əsrlər boyu yeknəsək və qanunauyğun şəkildə dəyişən etnopsixoloji durumları nəzərə [361-362] almırdılar. Bunu rus ədəbiyyatı və tarixindən əyani örnəklərlə açıqlayaq.

Rus, daha doğrusu, velikorus etnosu çox qədimdən mövcuddur. Mifik Rürixi və ondan heç də az mifik olmayan Oleq və İqoru kənara qoysaq belə, hər halda bizim birbaşa əcdadlarımız artıq tatar basqınından sonra, təxminən, XIV əsrin əvvəllərindən məlumdurlar. Onlar da rus olsalar da, məgər özlərini bizim kimi aparırdılarmı? Bəli, heç də yox. Məsələn, Puşkin xətrinə dəydikləri zaman duelə çıxdı. Axı, bizlərdən heç birimiz şərlənsə, haqqında nalayiq sözlər deyilsə, yaxud qadını təhqir olunsa duelə çıxmayacaq. Özümüzü başqa cür apardığımızdan, Puşkinin müasirlərinə münasibətdə biz başqa bir etnos təşkil edirikmi? Belə güman etmək olardı ki, bu soruya müsbət cavab verilməlidir… Bəlkə də yox? Çünki intuisiya bizə pıçıldayır ki, Puşkin də bizim kimi bir rus idi. Artıq davranış stereotipinin dəyişməsi də bizə təbii gəlir. Axı, Puşkin dövründən də üç yüz il əvvəl, hələ duellərin heç məlum olmadığı İvan Qroznı dövründə də opriçnik Kiribeyeviç qadınını təhqir etdiyi zaman tacir Kalaşnikov da özünü eyni cür aparmışdı. Lermontov bunu son dərəcə dəqiq təsvir edir. Namuslu yumruq savaşı vaxtı tacir əlverişli məqam tapan kimi rəqibinin gicgahına xain bir zərbə endirir, həyatını qurban vermək bahasına da olsa, onu təhqir etmiş adamdan qisas alır. Puşkin və Lermontov zəmanəsi adamlarının baxımından bu, alçaq bir hərəkat idi. Belə olmaz! Namuslu savaşa çıxmısansa, mərdliklə döyüş. Lakin tacir Kalaşnikovun müasirlərinin baxımından o tamamilə haqlı hərəkət etmişdi. Hətta İvan Qroznı özü də demişdi ki: "Səni edam etməyinə edəcəyəm, amma əmr verəcəyəm cəllad bayramsayağı bəzənsin və bütün Moskvada zənglər çalınsın. Sənin qohumların isə bundan sonra vergi və rüsum ödəmədən ticarət edəcəklər, çünki sənin mənim sadiq nökərimi öldürməyə əsasın vardı".

Lakin 200 il də ondan əvvəl belə hallarda heç kim onu təhqir edən adamı öldürməyə cəhd göstərməzdi, xüsusən də təhqir edən yüksək sosial mənsəbə (knyaz, yaxud nüfuzlu boyar) mənsub olardısa. Alçaldılan drujinaçı, keşiş, yaxud sadə kəndli köçüb başqa bir knyazlığa gedirdi. Moskvada xətrinə dəyirdilərsə, Tverə, orada incidirdilərsə - Suzdala, Suzdalda da xoşuna gəlməyəndə Litvaya yollanırdı. İncidilməyə qarşı tamamilə başqa reaksiya, tamamilə başqa davranış stereotipi. Deməli, qəbul etdiyimiz prinsipə görə, bu halda söhbət tamamilə müxtəlif etnoslardan getməlidir. Lakin bizə bəllidir ki, belə deyil və bunlar eyni etnosa [362-363] aiddir. Rastlaşdığımız isə sükunətdə qeydə alınan hadisə yox, qanunauyğun dəyişikliklər prosesləridir; hər hadisəni onun keçmişilə birlikdə və gələcək perspektivlə

götürmək gərəkdir. Davranışın incidilməyə qarşı reaksiya kimi təfərrüatlarının coğrafiya üçün önəmliliyindən şübhələnmək də olar. Lakin bir o qədər parlaq olmasalar da, antropogen landşaftı formalaşdıran bərabər dəyərli hadisələr də var.

Müxtəlif etnosların təbiətə fərqli münasibət bəslədikləri artıq tərəfimizdən açıqlanmışdır. Lakin eyni etnos etnogenezinin müxtəlif mərhələlərində təsərrüfat müxtəlif üsullarla aparır və bununla da əhatə edən landşafta fərqli şəkildə təsir göstərir.

Bundan başqa, yalnız şəhərlərin deyil, ayrı-ayrı yaşayış məskənləri - hətta tək-tək malikanələrin arxitekturası da antropogen landşaftın tərkib hissəsidir. Onun həmin etnosun adamlarının fəaliyyətinin xarakterindən asılı olması isə sübutsuz da aydındır.

Beləliklə, "milli xarakter" adlandırılan anlam xülyadır, çünki etnogenez mərhələlərinin əvəzlənməsi ardıcıllığı pozulmadıqda belə, o hər yeni dövr üçün başqa olacaq. Məsələn, İlya Oblomov və nökəri Zaxar tənbəldirlər. Lakin onların əcdadları Zavoljyenin bərəkətli torpaqlarını tatarların əlindən almış, buralarda yüksək gəlir gətirən təsərrüfatlar yaratmış, gözəl və rahat evlər tikmiş, həmin evləri zəngin kitabxanalar və nəfis rəsm əsərlərilə bəzəmişlər. Ranevskaya əcdadlarının saldıqları albalı bağını puç etdi. Ostrovskinin pyeslərindəki tacirciklər babalarının topladıqları kapitalları dağıdırlar. Bəs, "rus" psixoloji tipi üçün səciyyəvi olan nədir: ciddi yığımsıllıq (qənaət), yoxsa şən, qayğısız məsrəf? Görünür, hər ikisi, lakin dövrdən, yəni etnogenez mərhələsindən asılı olaraq. Funksional baxımdan nə coğrafi mühitin modifikasiyaları, nə də ictimai-iqtisadi formasiyaların əvəzlənməsilə ilgili olmadan bu dəyişikliklər durmadan getsə də, yuxarıdakıların hər ikisilə daim qarşılıqlı ilişkilərdədir. Lakin bu, tarixi prosesdə qoşalaşmış "müstəqil dəyişənlərin" interferensiyasıdır.

**Baxmayaraq ki… (Ziddinə rəğmən).** Tarixi zamanın funksiyası kimi nəzərdən keçirsək və bununla ilgili qabaqcadan formalaşmış bütün qənaətlərdən imtina etsək, məlum olar ki, zaman özünü eyni şəkildə aparmır. Bu mühakimə o qədər qeyri-adidir ki, terminlər barədə şərtləşmək zəruridir, çünki burada təklif olunan təriflər yalnız "tarixi zamana" aid olub, Nyuton və [363-364] Eynşteynin riyazi konsepsiyaları və araşdırılan növün nəsillərinin dəyişməsilə ölçülən "bioloji" zamanı əhatə etmir. Aşağıda təsvir olunan xassələri geoloji zaman proseslərinə də tətbiq etmək lazım deyil, çünki sükunətdə olan maddənin öz qanunauyğunluqları var. İnsanın və onun təşəkkülünün səciyyəviliylə kifayətlənək. Bu özü də elə az deyil.

Bioloji, fiziki (sürəkli) və nisbi (kontinium) zamanlardan fərqli olaraq, tarixi zaman özünü hadisələrlə zənginlik vasitəsilə büruzə verir. Bizim "zaman" adlandırdığımız - energetik potensialların tarazlaşdırılmasıdır. Bəzən partlayışlar (təkanlar) bunu pozaraq, energetik potensialların qeyri-bərabərliyini, yəni rəngarəngliyi bərpa edir. Həmin təkanlar üzündən biosferdə yaranan impulslar yaradıcılığın maddi əsasıdır ki, bu da özünü gah gözəlliyə (incəsənət), gah həqiqətə (elm), gah ədalətə (əxlaq), gah hakimiyyətə (bunun sayəsində dövlətlər yaranır), gah qələbəyə (istər qonşu ölkənin istilası olsun, istər opera müğənnisinin ötəri müvəffəqiyyəti) göstərir. Bu impulslar müsbət, yəni canlı olan hər bir şeyə rəhm edən və insan əllərinin bütün məhsullarını yüksək dəyərləndirən və mənfi - enerji, informasiya və həmin informasiyanın sığınacaq tapdığı maddəni parçalayan ola bilər. Mənfi impuls enerji kvantlarını (hissəcik) zamanın sərhədlərindən kənara aparır… bu da sözün əsl mənasında prosesin sonudur. Lakin müsbət impuls enerjini sükunətdə olan maddə ilə yenidən qovuşdurur, informasiyanı qəbul edir və dünya varlığını davam etdirir. Enerji artımı itirilən zaman gözəl və təkrarsız olanların hamısı yox olur. Böyük əməllərlə zəngin dövrlərdəki itkilərin möhtəşəmliyinin səbəbi də elə budur. Lakin Yaddaş məhvolmanın əleyhinə çıxış edir; etnosların kollektiv yaddaşı isə elə məhz mədəniyyət tarixidir.

**Yüksəliş və tənəzzüllər**. Tərəqqi nəzəriyyəsinə görə, nə yüksəliş, nə də tənəzzül var. Avrasiya kontinentinin qərb yarısının bəşəriyyət tarixində xüsusi önəmə malik olması fikri artıq adiləşmişdir və bunun üçün müəyyən qədər əsas da var. Dəlil kimi klassik Elladanın çiçəklənməsini, Makedoniyalı İsgəndərin yürüşünü, Roma imperiyasının yaranmasını, İntibah dövrünün füsunkar rəsmlərini, XVI-XIX əsrlərin "möhtəşəm kəşflərini" və müstəmləkə istilalarını örnək göstərirlər. Lakin bu zaman nəzərdən qaçırılır ki, sadalanan "çiçəklənmələr" yalnız Ümumdünya deyil, Aralıq dənizi hövzəsi tarixi axarında da yalnız epizodlardır. Elladanın çiçəklənməsi, əslində, Afinanın qısamüddətli [364-365] hegemonluğu idi. İsgəndərin qələbələri parfiyalılar, saklar və hindlilərin əks-zərbələrinə və Makedoniyanın müstəqilliyinin məhvinə səbəb oldu. Roma… onun haqqında xüsusi söhbətimiz olacaq. İspanlar, fransızlar və ingilislərin okeanın o tayındakı qırmızı, qara, sarı dərili etnosları onlar heç gözləmədikləri bir halda qəfildən istila etmələrinə gəldikdə, artıq indinin özündə konkistador, fırıldaqçı və iri tacirlərin bu qələbələrinin nə qədər qısamüddətli olması göz önündədir.

Durğunluq dövrləri isə xeyli sürəkli olmuşdur. Avropa tarixçiləri bu dövrlərdən yazmağı xoşlamasalar da, bunlar bizim araşdırma predmetimiz olacaq. Mədəni tənəzzüllər tarixin yüksəlişlər qədər önəmli olan hadisələridir. Bəs, incəsənət, ədəbiyyat, fəlsəfəsiz bütöv əsrlər haradandır? Aydınlaşdıraq.

Bütöv xalqların tez-tez başqa ölkələrə üz tutduqları dövrlərdə yabançı mədəniyyətlərin qarşılıqlı tanınmaması və superetnik səviyyədə təmaslar şəraitində incəsənət abidələrinin qorunub saxlanması üçün son dərəcə əlverişsiz şərait mövcud idi. Roma antik irsi yalnız torpağın altında qalmışdı və XV əsrdən etibarən humanistlər onun tapılıb üzə çıxarılması ilə məşğul olmuşlar. Bizans mədəniyyətinin yüksəliş dövrünə aid olan nəfis ikonalar ikonoborçuların qurbanı oldu. Uqor, alan, rus və xəzərlərin gözəl, zəngin

qızıl və gümüş bəzək əşyalarını əridib sikkələr tökdülər. Türklərin heyrətamiz çaki naxışları, ipək parça üstündə rəsmləri, zəngin zərxara geyimləri, tozağacı qabığı üzərindəki poemaları zaman keçdikcə itib getdi, kosmosun yaranması haqqında qəhrəmanlıq dastanları və miflər isə rapsodların onları söylədikləri dillər ölüb getdikdən sonra unuduldu. Elə buna görə də eramızın I minilliyini “zülmət”, “durğunluq”, hətta “vəhşi” dövr adlandırırlar.

Hadisələr tarixini araşdırmaqdan keçən dolayı yol göstərdi ki, həmin dövr yaradıcı, gərgin və faciəvi bir dövr olub. Müşahidə etdiyimiz boşluğu isə qəlb və şüurlardakı durğunluq doğurmayıb, ürək və ehtiraslarda kükrəyən alov yana bilən hər şeyi külə döndərib.

Etnik tarixin qlobal qanunauyğunluqlarının araşdırılmasına başlayarkən dərhal bir çoxlarının sübuta ehtiyacı olmayan bir şey kimi qəbul etdiyi yevrosentrizm prinsipindən imtina etmək gərəkdir. Həqiqətən də XVI əsrdən XX əsrin əvvəllərinədək Avropa xalqları dünyanın yarısını müstəmləkə əməliyyatları, qalan [365-366] hissəsini isə əmtəə və ideya ixracı vasitəsilə ələ keçirmişlər. Sonuncular da kifayət qədər gəlir gətirirdi.

XIX əsrdə Avropa xalqlarının başqa xalqlar üzərində üstünlüyü o qədər əyani idi ki, F.Hegel tarix fəlsəfəsini germanlar və anglosaksların həyata keçirməli olduqları ümumdünya tərəqqi prinsipi üzərində qurdu, çünki Asiya və Afrika sakinlərini, Amerika və Avstraliya aborigenlərini “qeyri-tarixi xalqlar” sayırdı. Lakin cəmi 150 il keçdi … və məlum oldu ki, Avropanın dünyadakı ağalığı tərəqqi yolu yox, bir epizoddur. Avropanın (Qərbi) okeanın o tayındakı davamları olan Amerika və Avstraliya da elə həmin qanunauyğunluq xəttilə bilavasitə ilgilidir. Bunun eyni olan xətt artıq qədim xalqlarda da izlənib ki, bunlarda həmin xətlər təbii şəkildə sonuclanıb. Başqa sözlə, geridə qalmış adlandırmağa adət etdiyimiz xalqlar sadəcə olaraq öz çiçəklənmə və tənəzzül dövrlərini artıq arxada qoymuş qalıqlardır. Qara avstraliyalılar, buşmenlər, mundruku və hətta eksimoslar haqqında demək olar ki, onlar qoca etnoslardır, maddi mədəniyyətlərinin belə kasad, mənəvi mədəniyyətlərinin isə bu qədər natamam olmasına səbəb də elə budur. Etnogenezlər diskret proseslərdir, odur ki, etnoslara “yaş” anlamı xasdır.

Xalqların qocalması haqqında çox danışılsa və yazılsa da, tarixçilər bu terminologiyanı bədii məcaz kimi qəbul edirdilər. Həqiqətən, uşaqlar doğulur, deməli, nəsillər yeniləşir, bəs, qocalan nədir? Biz də elə məhz bunu açıqlamağa çalışsaq və bu dəfə sistemologiyanın ümumi mülahizələrindən deyil, geniş dünyagörüşə malik hər hansı tarixçi, yaxud etnoqraf üçün göz önündə olan konkret etnopsixologiyadan çıxış edəcəyik.

**Hesablaşma prinsipi**. İstənilən etnosun yaşa görə təsnifinin əsasında hər bir sistem üçün zəruri olan məqam - kollektivin fərdə münasibəti durmalıdır. Hər bir kollektiv üzvlərindən hər birinin azadlığını ayrılıqda götürülən hər başqa üzvlə və bütövlükdə kollektivin mənafeyilə hesablaşmaq zərurətilə məhdudlaşdırır. Etnos da ümumi qaydadan istisna olmasa da, zaman keçdikcə onu təşkil edən fərdlərə olan təsirin xarakteri dəyişir və bu dəyişikliklərdə müəyyən qanunauyğunluq izlənir.

Hərəkətsiz vəziyyətdə olan etnos üçün üzvləri arasında qarşılıqlı münasibətlərin dondurulmasına canatma səciyyəvidir. Məsələn, qəbilə quruluşunun bərqərar olduğu cəmiyyətdə ənənələrin sərt hökmranlığı hər bir yeni doğulan uşağa həyatdakı yerini və imkanlar hüdudunu çevrələyirdi ki, bu zaman onun şəxsi [366-367] bacarıqlarının səviyyəsi tamamilə nəzərə alınmırdı. Məsələn, qəhrəman, yaxud dahi yaşca maymaqdan kiçikdirsə, hər hansı bir halda ictimai mövqeyinə görə ondan aşağı sayılacaq. Qonşularla qanlı savaş, yaxud kütləvi şəkildə qırılan soydaşları müalicə etmək zərurəti doğuran yoluxucu xəstəlik epidemiyası yaşca kiçik olanın “köməyinə” gəlməzsə, çox ola bilər ki, o, kollektivin onun istedadlarından yararlanacağı anı görməmiş həyatdan getsin. Lakin bu halda da istisna yalnız qəbilənin xilaskarına aid edilir, yaşca böyüklük prinsipi isə toxunulmaz qalır.

Fərdə belə münasibət yalnız qəbilə quruluşunda mövcud deyil. İnkişaf etmiş sinifli cəmiyyətdə onun parlaq təzahürü kasta sistemi, bir qədər zəif ifadə olunan forması isə zümrələrə parçalanmadır. Bu variantların hər birində kollektiv fərdə onun yerini göstərir və ondan yalnız bir şey tələb edir: özündən və öz vəziyyətindən razı qalmaq, çünki razı qalmaq münasibətlərin dondurulması üçün əsas şərtdir. Güman etmək olardı ki, bu hal nə alqışlanmalı, nə də rəğbət doğurmalıdır. Lakin nəticə çıxarmağa tələsməyək.

Sükunətdə olan etnos əhatəsində olduğu təbiətə münasibətdə də elə həmin prinsipləri əldə rəhbər tutur. Təbiət sərvətlərinin artığını bəxş etməklə etnosu qidalandırır, o da öz növbəsində, üzvlərindən bundan artığını istəməməyi tələb edir. Hər il təbii seçim və həyat uğrunda mübarizə nəticəsində meşədəki ağacların 10%-i məhv olursa, deməli, həmin 10% yanacaq və tikinti məqsədləri üçün istifadə oluna bilər, artıq yox. Dırnaqlı heyvan sürülərindəki təbii artımdan da yararlanmaq olar, bir şərtlə ki, nəsil artıranlara xətər dəyməsin.

Siular və başqa hindu qəbilələri bizonlara münasibətdə həmin normaları necə də dürüst təyin edirdilər! Onlarda ov ictimai iş idi və hər hansı bir özbaşınalığa qarşı həddən artıq sərt tədbirlər görülürdü. Bunun sayəsində etnosla onun məskunlaşdığı landşaft bir-birilə insanlar, heyvanlar və bitkilərə istənilən qədər uzun müddət birgə yaşamaq imkanı verən dinamik tarazlıq (homeostaz) halında idi. Lakin bizə məlumdur ki, Afrika, Avstraliya, yaxud Qrenlandiyada olmasından asılı olmayaraq, istənilən landşaftdakı bu cür tarazlıq əvvəllər cərəyan etmiş etnogenez prosesinin nəticəsi, onun son mərhələsidir.

Təəssüf, tarix yalnız onu bilənə xeyir verir. Əks halda isə obivatel “sağlam düşüncəsi” cahil təbiətin ram edilməsi kimi məhvedici konsepsiya irəli sürür. 1894-cü ildə Amerika [367-368] geoloq-antropoloqu C.Makqi yazırdı: “Vəhşi heyvanları özünə tabe etməklə insan yalnız əhliləşə bilənləri saxlayır; bütün qalanlar məhv edilməlidir” (5). Ən maraqlısı isə odur ki, bunun əleyhinə yönələn konsepsiya ilə yalnız aşağıdakıları iddia edən siular çıxış etdilər: “Yerin Ruhunun yaratdığı parçalana bilməz; bizimlə bütün yaratıqlar arasında qohumluq ilişkiləri var” (6). Nəticə birmənalıdır: siular öz əməli fəaliyyətlərində “geobiosenoz” və “biosfer” anlamlarını əldə rəhbər tuturdular, hərçənd ki, bunları başqa cür adlandırırdılar; öz dövrünün elmi baxışları səviyyəsində və onların təsiri altında olan sivilizasiyalı alim isə təbliğ edirdi ki, insan öz gücünü nümayiş etdirərək, “təbiətin simasını dəyişmiş, onu əvvəlkinə nisbətən yaxşılaşdırmış, faydalı heyvan və bitkilərin qorunub saxlanmasını dəstəkləmiş, zərərliləri isə məhv etmiş, qocalmaqda olan planeti zaman və taqətsizliyin təsirindən qorumuşdur”. (7)

Amerika aliminə və onun müasirlərinə simasını belə asanlıqla dəyişdikləri və hazırda nəvələrinin həsrətini çəkdikləri təbiətin tərkib hissəsi olmaları fikri yabançı idi. O dövrdə şöhrətlənmiş “İnsanın Gücü” artıq 1948-ci ildə F.Osborn tərəfindən başqa cür səciyyələndirilirdi: “Əslində, bu, kortəbii və nəzarətsiz insan enerjisinin tarixçəsidir” (8). Bu enerji, yaxud sistemin passionarlığı yalnız bitki və heyvanları deyil, həyat tərzi və davranışları passionarlıq daşıyıcıları üçün anlaşılmaz və nifrətamiz olan həmin hinduları da məhv etdi. (9) Amerikalıların təbiət fəlsəfələri onları özlərinkinin inkişafını 300 il qabaqlayanları “vəhşi” saymalarının səbəbi də elə budur. Nəticə - biosenozlarda ekoloji sığınacaq tapa bilmiş hindular “kiçik qardaşları” ilə birlikdə həlak olurdular, çünki haqlı olaraq onları dəyişikliyə məruz qalmalı olan təbiətin tərkib hissəsi kimi görürdülər.

Yeni xassələrə malik fərdlər yeni etnik bütöv yaradan kimi, yeni birgəyaşayış prinsipi, yeni davranış stereotipi də irəli sürürlər: “Kim olmalısansa, o da ol”. Kral özünü kral kimi, drujinaçı drujinaçı kimi, nökər isə nökər kimi aparmalıdır, çünki sərt tabeçilik olmadan sistem ya xarici düşmən, ya da bir qayda olaraq, köhnə qayda-qanuna üstünlük verən soydaşlarla toqquşma zamanı dağıla bilər.

Belə bir təsəvvür yarana bilər ki, birinci və ikinci prinsiplər arasında fərq bir o qədər də böyük deyil, lakin bu belə deyil. Dinamik etnosun təşəkkülündə birincilik indiyədək olduğu kimi, doğuluşla şərtlənən hüquqlara deyil, kollektiv qarşısında vəzifəyə [368-369] məxsusdur. Tutduğu mövqeyə müvafiq gəlməyən kral ya taxtdan imtina etməli, ya da öldürülməli, bacarıqsız cəngavər qovulmalı, fərasətsiz nökər isə qamçılanmalıdır. Hüquqlar yoxdur, yalnız mükəlləfiyyətlər var ki, bunlara görə mükafat düşür. Sonuncu müxtəlif şəkildə olur: bəzən pul (benefisiyalar), bəzən mənfəətli vəzifəyə sahib olmaq izni, bəzən hökmdarlarla hakimiyyəti bölüşmək ixtiyarı. Lakin bütün hallarda rifah əldə etmək üçün əsas amil işgüzarlıq prinsipidir.

Adətən, yeni yaranan etnosdaxili sistem təcavüzə meylli olur ki, bunun ilk qurbanları qonşulardır. Qonşular qüvvətli olduqda sistem onların müqaviməti nəticəsində dağılır, zəif olduqda isə zəfər çalır və etnogenez prosesi sürətlə cərəyan edir. Lakin yeni tipə mənsub fərdlərin özləri üçün yox, daha çox onları soydaşları və qonşuları üzərində qələbələrə çatdıran prinsip üçün təhlükə də elə buradadır. Daha dəqiq desək, ən böyük təhlükə elə qələbənin özüdür. Qarşıya qoyulan məsələlərin əksəriyyəti həll olunan kimi, vəzifə borcu insanları usandırmağa başlayır və əvvəlki prinsip yenisilə (üçüncü ilə) əvəzlənir: “Özün kimi ol”.

Drujinaçı yalnız knyazın silahdaşı deyil, həm də Romuald, yaxud Bertran olmaq xəyalına düşəndə, rahib yalnız müqəddəs mətnləri oxumaqla kifayətlənməyərək, küfr danışmaqda ittiham olunacağından da çəkinmədən onlara təfsirlər verməyə başlayanda, rəssam çəkdiyi tabloya imza atanda, tacir yeni ticarət yolları aramaqdan savayı, firma da təsis edib, ona öz adını qoyanda, kəndli isə təkcə icmanın hüquqlarını qorumaqla kifayətlənməyib, “Bəs, Adəm yer şumlamaq, Həvva toxumaqla məşğul olanda centlmen kim idi?” sualını verəndə vəzifə imperativinin buxovlarını qırıb atan yeni nəsil meydana çıxır.

Vəzifə gücünün yerini güc hüququ tutur və onu yalnız qonşunun da kifayət qədər güclü və təcavüzkar olduğunu nəzərə almaq zərurəti məhdudlaşdırır. Əməkdaşlıq edənlərdən rəqabət aparanlara çevrilən qonşuların bir-biri üzərində gücləri sınamaları qaçılmaz şəkildə qanlı toqquşmalara səbəb olur. Həmin toqquşmalar isə hadisələrin inkişaf sürətilə ayaqlaşa bilməyən və yeni nəsil nümayəndələrinin şöhrətpərəst iddialarının obyektinə çevrilmək istəməyən əsas kütlədə yaranan qeyzlənmə ilə daha da mürəkkəbləşir.

Həddən artıq sərvət toplanması və zəruri xarici vəzifələrin həlli müəyyən sayda adamı əsas vəzifələrindən azad edir ki, bu zaman fərdləşmənin qüvvətlənməsi baş verir. Kollektiv bunu [369-370] dinməzcə aşağıdakı imperativ şəklində formalaşdırır: “Yalnız öz vəzifəsini yerinə yetirən tribun yox, həm də Qay Qrakh, sadəcə cəngavər deyil, Pyer Bayyar, ancaq Boyar dumasının üzvü yox, həm də Vasili Şuyski ol”, yəni indi artıq fərdi xüsusiyyətlər ictimai işlərdə iştirakdan da artıq təzahür edir. Əvvəllər isə bu adamlar bütün qüvvələrini mədəni dominantın şərtləndirdiyi işə xidmətə sərf edirdilər.

Lakin fərdiyyətçiliyin inkişafı fəal fərdlər arasında toqquşmalara aparıb çıxarır ki, bunların da əksəriyyəti qan tökülməsilə sonuclanır. Etnos daxilində, yaxud superetnik birgəlik səviyyəsində (“mədəniyyət”) indiyədək xarici vəzifələrin həllinə yönəldilən qüvvələrin sərfinə səbəb olan kəskin rəqabət meydana çıxır. Məsələn, XI-XIII əsrlərdə Avropada “Xristian aləmi”nin passionarlığı akmatik mərhələyə

qədəm qoydu. Nəticədə, macarların dəf olunması, normanların tarmar edilməsi və rekonkista qvelflərlə gibellinlərin savaşı və səlib yürüşlərilə əvəzləndi ki, bu da mədəniyyət və hətta dövlətçilik üçün əlverişsiz idi. Qvelflərlə gibellinlərin savaşı cəngavər Hogenştaufenlərin məhvinə və Roma papasının “Avinon əsirliyi”nə, başqa sözlə, imperiyanın dağılmasına və kilsənin məhvinə səbəb oldu. Səlib yürüşləri, yəni ilk müstəmləkə təcavüzü cəhdi bütün istiqamətlərdə görünməmiş məğlubiyyətlərlə sonuclandı, Yerusəlim krallığı və Latın imperiyası o dövr xəritələrindən birdəfəlik silindi, Livon ordeni isə salamat qalsa da, Avropa cəngavərlərinin Şərqə yürüşlər üçün plasdarmından, nə Litva, nə də Rusiyanın ərazisinə şərik çıxmadıqları kiçik bir feodal quruma çevrildi.

Əksər hallarda, belə “çiçəklənmə” reaksiya, yəni didişmə və qətllərə son qoymaq meyli oyadır. Buna rəvac verən bir cəhət var: fərdiyyətçilərin nümayəndələri bir-birini o qədər intensiv şəkildə qırır, yaxud zəngin qənimət vəd edən müstəmləkə savaşlarında o qədər çox həlak olurlar ki, sayları durmadan azalır. Doğrudur, akmatik mərhələdə passionarlığın ümumi enməsi özünəməxsus şəkildə baş verir. Yüksəliş dövrləri passionar durğunluq dövrlərilə növbələşir ki, bu zaman passionar gərginliyin səviyyəsi əvvəlcə kəskin şəkildə azalır, sonra isə yenidən yüksəliş dövrü başlamır. Lakin sonrakı yüksəliş artıq əvvəlkinin səviyyəsinə yetişə bilmir.

Bu cür növbələşmələrin mexanizmi aydındır: bu mərhələdə passionarlıq kifayət qədər çox olduğundan, onların genofondunun səpələnmə dairəsi də genişdir. Onların qanuni, daha çox isə qeyri-qanuni xələfləri sistemi ata və böyük qardaşlarının daxili [370-371] savaşlarda həlakından sonra düşdüyü bərbad vəziyyətdən xilas edir. Lakin ümumi enmə prosesi davam etməkdə olduğundan, nəhayət, elə bir vaxt yetişir ki, sistemdəki passionarlıq ehtiyatı onu növbəti durğunluqdan çıxarmaq üçün kifayət etmir. Tənəzzül sabit şəkil alır və onun yeknəsəkliyi etnogenezin yeni mərhələsi üçün yol açır.

Etnosun öz soydaşlarının şöhrətpərəst iddialarından cana gələn və çoxluq təşkil edən passiv hissəsi yeni imperativ formalaşdırır: “Biz dahilərdən bezmişik!” və hamılıqla qəhrəman olmaq arzusunda bulunan soydaşlarını dəstəkləməkdən imtina edir. Belə şəraitdə tənəzzül sürətlənir, sosial yenidənqurma etnik dinamikanın şərtləndirdiyi tələbatlardan mütləq geri qalır.

Vəziyyətin kəskinliyi azalmaqda olsa da, hələlik kifayət qədər olan passionarlıq ehtiyatı qəti tədbirlərə meyli şərtləndirir. Bu zaman bir qisim idealı “əvvəlki gözəl dövrə” (akmatik mərhələyə) qayıtmaqda, digərləri isə qonşulardakı sivilizasiyalı yaşayışa (ətalət mərhələsi) keçiddə görür. Hamı başa düşür ki, başqa cür yaşamaq lazımdır, lakin hər kəs hamı üçün məqbul olan yollar axtarmağa deyil, başqasını özünün istədiyi şəkildə yaşamağa məcbur etməyə üstünlük verir. Divergensiya qaçılmaz olur. Salamat qalan passionarilər bu və ya digər qrupa qoşulur və bu səbəbdən də çat mərhələsinin mütləq atributu olan vətəndaş savaşlarında bir-birini qırırlar.

Lakin passionarilər bir dəfə də bir-birini qırandan sonra onların sayı o qədər azalır ki, qüvvə və vəsait çatışmazlığı üzündən vətəndaş savaşını davam etdirmək mümkün olmur. Bu halda qalib gələn passionarilərdən biri birgəyaşayış prinsipini bir qədər dəyişərək, bəyan edir: “Mənim kimi ol”. Anlamı: “Mən dahiyəm və sənin (hamıya aid edilən müraciət) borcun məni təqlid etməkdir, çünki bundan imtina etmək küfr və ya qiyam deməkdir; lakin sən məndən üstün və ya mənə tay ola bilməzsən və olmamalısan, çünki bu qiyam və dikbaşlıqdır; mənə bənzəmək üçün can atmamağın tənbəllikdir ki, son nəticədə bu da qiyamdır”. Yeni yaradılan kollektivdə isə qiyama yer yoxdur, çünki ötüb keçən dövrdə zorakılıq o qədər gözdən düşüb ki, böyük əksəriyyət qoluzorluların özbaşınalıqlarından qurtulmaq ümidi verən istənilən nizamlamaya üstünlük verir.

Bəzən qalib və qanunverici real şəxsiyyət (məsələn, Oktavian avqust və onun vərəsələri) olsa da, bu örnək və təqlid obyekti olmalı olan insan idealıdır. Hər iki halda məsələnin məğzi dəyişmir, [371-372] etnoloji araşdırma üçün isə fiziki və mənəvi məcburetmə arasındakı nisbət variasiyaları önəmli deyil.

“Çiçəklənmə” və adətən, “sivilizasiya” adlandırılan sonrakı hal, eyni mərhələnin tərkib hissələri yox, müstəqil mərhələləridir. Yuxarıda söylənən və ardıcıl şəkildə riayət edilməli olan prinsipə görə, inkişaf mərhələsi yeni davranış xassələrinə malik fərdlər nəslinin çoxluq təşkil etmələrilə təyinlənir ki, bunun şahidiyik. “Sivilizasiya” (inkişafın ətalət mərhələsi kimi) maddi mədəniyyət ehtiyatlarının yaradılması, məişətin nizamlanması və keçmiş dövrlərdən miras qalan lokal etnoqrafik xüsusiyyətlərin silinməsi üçün əlverişli zamandır. Bu, zəhmətkeş Roma obivateli - Avqustun “qızıl ortababları” qol-qanad açdığı bir vaxtdır. Obivatel tipinə etnosun inkişafının bütün mərhələlərində rast olunsa da, erkən mərhələlərdə cəngavərlər və fərdiyyətçilər onu baş qaldırmağa qoymur. Burada isə onun qeydinə qalırlar, çünki heç yerə burun soxmur, heç bir iddiası yoxdur və ağalara ehtiram göstərməyə hazırdır, təki onu rahat buraxsınlar.

Qiyamlar dövründən sonra mütləq sağlam “obivatel” arsızlığı (sinizm) gəlir. Avropada o öz ifadəsini C u i u s r e g i o, e i u s r e l i g i o tezisində tapdı ki, bu zaman katoliklərlə protestantlar bir-birini fərqləndirmirdilər - biganəliyin ən böyük təzahürü. Bizansda belə bir “yorğunluq” makedoniya sülaləsi və Duklar dövründə (XI əsr) bərqərar oldu. Həmin dövrdə cəsur slavyan varanqları (100 və bacarıqlı erməni zabitləri tərəfindən mühafizə edilən imperiya getdikcə zənginləşir, piylənir və … tənəzzülə uğrayırdı. İslam mədəniyyətində sivilizasiya dövrü Teymurilər, Səfəvilər və Böyük Moqollar dövrü, Çində Yuan və Min sülalələri hakimiyyəti vaxtı, Romada isə Diokletianın islahatları ilə sonuclanan prinsipat zamanı idi.

Heç də tam olmayan bu sadalamadan da göründüyü kimi, göstərdiyimiz anlamda "sivilizasiya" hadisəsi müvafiq yaş həddinə çatanadək məhv olmayan bütün xalqlara xasdır.

Güman etmək olardı ki, təsvir edilən sistem son dərəcə dayanıqlı olmalıdır. Lakin tarixi təcrübə bunun tam əksini göstərir. Daniil peyğəmbər məhz Nvuxodonosorun (?) "sivilizasiyalı" çarlığını gil avaqlar üzərində ucalan dəmir nəhəngə bənzətmiş və bu obraz klassik obraza çevrilmişdir. Yuxarıda sadalanan "sivilizasiyalar"ın hamısı heyrətamiz bir asanlıqla azsaylı və "geridəqalmış" düşmənlərin zərbələri altında tarmar olmuşlar. Ayrılıqda götürülən hər bir hal üçün lokal səbəblər arayıb tapmaq [372-373] mümkün olsa da, aydındır ki, nə isə ümumi, hadisənin üst qatında deyil, səbəbiyyat ənginliklərində bulunan bir şey var. Aydınlaşdıraq.

Həqiqətən, "Xristian aləmi"ndə birlikdən əsər-əlamət belə yox idi. Krallar papa fərmanlarını saymırdılar. Feodallar "Allah sülhü", yəni Kilsənin elan etdiyi barışıqla hesablaşmayaraq, bir-birilə savaşmaqda idi. Şəhərlərdə manihi-katarlar təbliğat aparırdılar. Kəndlərdə bütpərəst ayinlərə riayət etməkdə idilər. Hər kəs bəyan edilən və əleyhinə çıxılmayan prinsiplər uğrunda deyil, özü üçün mübarizə aparırdı. Lakin bir-birindən fərqli bu meyllər kütləsi superetnos daxilində deyil, onun sərhədlərində kafirlər və təfriqəçilərlə savaşda özünü büruzə verən etno-mədəni dominant şəklində birləşirdi.

XVI-XVII əsrlərdə əhatəyə qarşı münasibət kəsərli olmağa başlasa da, sistemin passionarlığı bir qədər də azalan kimi, onun növbəti sadələşməsi baş verdi və o zaman hüdudlarını aradan götürdü. XIX əsrdə davranış stereotipinin aparıcı əlaməti ən bayağı zənginləşmə yanğısı - bir növ vulqarlaşdırılmış tamahkarlıq oldu.

Xatırlayaq ki, konkistadorlar və korsarlar özlərini ölümcül təhlükəyə atır və yalnız az-az salamat qalanlar evə bol qızılla qayıdırdı ki, həmin qızılları meyxanələrdə göyə sovursunlar. XIX əsrdə risk etməməyə çalışır və gəlirləri banklarda yerləşdirirdilər. Quqenotlarla liqa tərəfdarlarının savaşları parlamentdə səsvermələrlə sonuclandı, duellər isə təhlükəsizləşdi, çünki ilk yara alınan kimi dayandırılırdı. Savaşlar artıq XVIII əsrdə hökmdarların siyasi aksiyalarına çevrilmişdi və yalnız hərbçilərə aidiyyatı vardı. Sternin Fransaya məşhur səyahəti həmin ölkə ilə İngiltərə arasında savaşın ən qızğın çağına təsadüf etsə də, heç kimin ağlına belə gəlmirdi ki, yazıçı və mütəfəkkir olan bu adamın hərbi əməliyyatlara hər hansı bir aidiyyatı var. Hətta Avropanın Napoleon tərəfindən istilası da yalnız orta əsr ənənələrinin qalmaqda olduğu İspaniya və Tirol kimi "geridə qalmış" ölkələrdə ümumxalq, yəni kortəbii, impulsiv müqavimətə rast oldu. Passionarlığın yüksək olduğu Rusiya isə düşmənin üçqat üstünlüyünə baxmayaraq, 1812-ci ildə qələbə qazandı.

Lakin passionarlıq səviyyəsinin enməsi az passionar və subpassionar fərdlərin fəaliyyətinin təşkili üçün görünməmiş imkanlar yaratdı. Avropada zor gücünə yox, ənənələrin dəstəyinə əsaslanan qayda-qanun bərqərar oldu. Bu mərhələdə əldə edilən nizamlama sayəsində Amerika, Avstraliya, Hindistan, Afrikanın [373-374] (Abissiniya istisna olunmaqla) müstəmləkə işğalı, Çin, Türkiyə və İranın isə iqtisadi baxımdan asılı vəziyyətə salınması mümkün oldu. Elmin nailiyyətlərinə əsaslanan texniki sivilizasiya son dərəcə inkişaf etdi, incəsənət və humanitar elmlər isə zəruri dəbdəbə sayıldığından, ona bir qədər pul sərf etməkdən çəkinmirdilər. Qısası, Pax Romana yerində okeanın o tayında da davamı olan Pax Europaica meydana çıxdı. Bu sivilizasiyaların hər ikisinin çiçəklənməsinin səbəbi passionarlığın maksimumdan optimuma, minimuma doğru aparan yol hərəkətin başladığı dönüş nöqtəsinə qədər azalması olmuşdur.

Burada çıxdığımız haşiyəni yarımçıq kəsirik, çünki araşdırmanın əvvəlində qoyduğumuz şərtə görə, nisbətən yaxın dövrlərdə baş verən hadisələri daha uzaq keçmişə aid olanlardan önəmli göstərən, yəni əhatəliliyi pozaraq, hər hansı bir araşdırmanı mənasız edən yaxınlıq aberrasiyasından uzaqlaşırıq. Bu zaman yalnız analoji dəyərlərin, yəni superetnik sistemlərin superetnik sistemlərlə tutuşdurulması məqsədəuyğundur. Bu səbəbdən konsepsiyanın açıqlanması prosesində biz dəfələrlə örnək üçün antik dövrə, orta əsrlər Yaxın Şərqinə üz tutmuşuq və artıq təkrara ehtiyac görmürük.

Məcazi anlamda "etnosun yaşı" adlandırdığımız etnogenez mərhələlərinin ətraflı təsvirinə keçək.

## XXXI. PASSİONAR YÜKSƏLİŞ VƏ HƏDDƏN ARTIQ QIZMA MƏRHƏLƏLƏRİ

Etnosun dofulması. Etnogenezin başlanmasının ən sadə variantı təsvir etdiyimiz öz-özünə dəyişə bilməyən hərəkətsiz hal fonunda yeni etnosun yaranmasıdır. Əvvəla, etnos üzvlərinin heç biri bu cür dəyişiklikləri arzulamır; ikincisi, heç kim onu hətta təsəvvür də edə bilməz; üçüncüsü, prosesin xarakterini dəyişmək üçün çox qüvvətli və məqsədyönlü enerji impulsu gərəkdir ki, onu heç bir şüurla yaratmaq mümkün deyil, çünki bu enerjinin itməməsi qanununa zidd olardı. Bununla belə, etnoslar vaxtaşırı olaraq meydana çıxır. Görək, bu necə baş verir.

Müxtəlif təsərrüfat sistemi və mədəniyyətlərə malik bir neçə etnos bir bölgədə qonşu kimi yaşayır. Onlar bir-birinə alışıblar, aralarında daim münaqişələr baş versə də, onlar önəmli olmur və bir qayda olaraq, gözə çarpan nəticələrə səbəb olmadan sonuclanır. [374-375] Titrəyişlər sərt hüdudlar çərçivəsində baş verdiyindən, bu homeostazdır.

Lakin budur, bölgə əhalisi dinamik hala keçir, yəni inkişaf etməyə başlayır. İnkişafın birinci mərhələsi artıq bərqərar olmuş qarşılıqlı münasibətlərin partlayışvari dağıdılmasıdır. Bu daim aşağıdakı şəkildə baş verir: bir-iki nəsildə babalarının məmnuniyyətlə dözdükləri məhdudiyyətlərlə barışmayan müəyyən sayda fərd meydana çıxır. Onlar həyatda bu və ya digər ailədə dofulmaları ilə deyil, bacarıq, istedad, şücaət, müvəffəqiyətlərinə müvafiq gələn mövqe tələb edirlər. Kollektivin onlara müqavimət göstərməsi üzündən öncüllər həlak olsalar da, artım prosesi zəruri intensivliklə getdiyi zaman belə "narazıların" sayı birləşərək, əvvəlki xarakterə malik adamlara öz iradələrini aşılamaq üçün kifayət edəcək qədər olur. Qədim məbədin bünövrəsi cəfakeş və qurbanların cəsədləri üzərində qurulur. Romanın əsası qoyulan zaman belə idi - latınlar yeddi təpədə toplaşaraq, Alba-Lonqa çarları ilə savaşa hazırlaşırdılar; xeyli itkilərə məruz qalan on iki yəhudi tayfasını (habiru) birləşdirib, onların əsasında mərkəzləşdirilmiş hakimiyyət və dinə malik qüvvətli dövlət yaradan çoban-quldur Davidin "vəfalıları" da belələrindən idi. Hər iki halda quldarlıq quruluşu qorunub saxlandı. Məhəmmədin silahdaşları - mühacir və ənsarlar, Çaki, Dinqan və Seqevayonun qəhrəman döyüşçüləri olan zuluslar, həmçinin Zambezi sahillərinin eballar da onlardan heç nə ilə fərqlənmirdi. Bu sıranı davam etdirmək də olar - vikinq drujinaları, ilk Karolinq baronları, Böyük Karlın qrafları da hamının alışdığı məişət qaydalarını rədd etmişdilər və bunu heç də günah yox, şücaət kimi dəyərləndirirdilər.

Passionar təkan və davranışın etnik stereotipinin dəyişməsinə aid daha bir parlaq örnək. XII əsrdə Böyük çöldə çeşidli xalqlar məskunlaşmışdı ki, onların sosial həyatı hərbi-demokratik qurumlar olan ordaların parçalanmasından sonra yaranan tayfa-nəsil məişət normaları ilə nizamlanırdı. Köçərilərin yarısından çoxu nestorçuluq təriqətinə mənsub xristian olsalar da, Zabaykalye və Şərqi Monqolustan monqollarının müstəqil dinləri vardı. (11) Bu etnik substratda nəzərə çarpmadan tayfalardan "azadlıqsevərlər" (12) adlandırılan, yəni ən passionar, qəbilə quruluşuna uyuşa bilməyən adamların fərqlənməsi prosesi gedirdi. İlk vaxtlar dağlarda və çöldə dolaşan bu adamlar mütləq qarətə əl atmalı olurdular ki, bununla da özlərinə ölüm hökmü kəsirdilər. Daha sonra onlar kiçik dəstələr təşkil etməyə başladılar və nəhayət, [375-376] müflisləşmiş nəcabətli Borciqan nəslinə mənsub olan və doqquz yaşından yetim qalan Temucin ətrafında birləşdilər. XII əsrin ikinci yarısında Temucin bacarıqlı siyasəti və gözəl təşkilatçılıq istedadı sayəsində əvvəlcə kiçik bir orda yaratdı, daha sonra isə Urala qədər Böyük çölü birləşdirməyə nail oldu. Onun silah gücünə birləşdirdiyi tayfalar bir-birilə o dərəcədə barışmışdılar ki, monqollarla bərabər uzaq yürüşlərə çıxırdılar.

Onların dominantının istiqaməti son dərəcə ağır və daim mürəkkəbləşən vəziyyətə reaksiya vermək zərurətindən doğmuşdu. Çinlilər və Orta Asiya müsəlmanlarının türk və monqollara münasibəti Şimali Amerika kolonistlərinin hindulara münasibətinin eyni idi. Onlar köçəriləri fiziki baxımdan məhv etmək məqsədilə daim onlara hücumlar edirdilər. Bu zaman yalnız sonradan qul kimi satdıqları körpələr sağ qalırdı. (13) Bu səbəbdən də, qan intiqamı və kollektiv məsuliyyət kimi qəbilə kateqoriyalarını rəhbər tutan köçərilərdə təcavüzkara qarşı qeyri-ixtiyari də olsa, şüurlu şəkildə savaşmaq tələbatı vardı.

Temucinin birləşdirdiyi çöl zərbəyə zərbə ilə cavab vermək, əbədi düşmənlərini darmadağın etmək üçün kifayət qədər qüvvətli oldu. Ən əlamətdar isə o idi ki, xristianlar və bütpərəstlər birgə hərəkət edirdilər. Çingiz xanın varislərinin sonrakı yürüşləri yalnız və yalnız Sun çin milli imperiyası, xarəzmli Cəlaləddinin darmadağın edilmiş dövlətinin "qalıqlarının", qıpçaqların (polovetslər) tərəfini tutmuş rus knyazlarının və monqol səfirliyini qətlə yetirən macarların düşmənçilik hərəkətlərinin nəticəsi idi. Monqolların ələ keçirdikləri ərazilərin bir qismini əllərində saxlaya bilmələrinə səbəb yerli əhali arasında monqol xanları ilə ittifaqı özləri üçün xilas yolu sayan qrupların meydana çıxması idi. Belələrinə Ön Asiyada müsəlmanların təzyiqinə məruz qalan ermənilər və Rus torpağını katoliklərdən qoruyan (isveçlilər, almanlar və onların müttəfiqləri olan litvalılardan) Aleksandr Nevskini örnək göstərmək olar. Çeşidli əhalisi olan nəhəng ərazi bir bütöv təşkil edə bilmədiyindən, bir neçə dövlətə parçalandı ki, onların yerli əhalisi monqol istilaçılarının kiçik qruplarını assimilyasiyaya uğradaraq, fərqli sosial quruluş və mədəniyyətlərə malik yeni etnoslar yaratdı: Qızıl Orda tatarları, yəni Volqaboyu şəhərlərin Çingizilərə müsbət münasibət zəminində birləşən müxtəlif tayfalara mənsub əhalisi; qazax tayfa ittifaqlarında (cuslar) birləşən Yaik çöl noqayları və şərq köçəriləri; özbəklər, oyratlar, buryatlar və halva-monqol və turqutların qalıqları. [376-377]

Etnik sistemin yaranmasına dair bu örnəyin əyaniliyi onun sadəliyindədir. X əsrdə baş verən dəhşətli quraqlıq bir əsr müddətinə Böyük çölü viran qoyduqdan sonra, onun yenidən məskunlaşması ariad bölgənin XI əsrdə baş verən rütubətliləşməsindən sonra oldu. Yenidən uyğunlaşma prosesi çöl əhalisinin artımına səbəb olsa da, qovuşma baş vermədi. Yalnız passionar təkan pərakəndə tayfaları iki qüdrətli yaradıcı etnos halında birləşdirdi: şərqdə curcenlər və Zabaykalyedə monqollar. Birləşmə kifayət qədər asan baş verdi, çünki ilkin etnik substratların homeostaz halına əsaslanmaqla meydana çıxmışdı. Yeni etnosların genişlənməsinə, əsasən, yadellilər müqavimət göstərirdi. Say və texnika baxımından həddən artıq böyük üstünlüyə malik olmalarına baxmayaraq, onlar məğlub oldular. Bu, əlbəttə, o demək deyil ki, monqolların qələbəsi labüd idi, çünki eyni şəraitdə asteklər və zuluslar məğlub olmuşdu. Sadəcə olaraq, monqollar qələbə imkanından yararlanmağı bacardılar ki, bu da artıq etnogenez yox, siyasi tarixdir.

Passionar təkan sükunət halında yox, etnogenezin ilkin mərhələlərini keçərək, dinamik durumda olan substratları ehtiva etdiyi hal bir qədər mürəkkəbdir. Belə bir hal eramızın birinci əsrində baş verib. Bu zaman Roma imperiyası hüdudlarında, ellin, qədim yəhudi və suriya etnoslarının qovuşuğunda sadalananların hamısına eyni dərəcədə həm yaxın, həm də yabançı olan bir populyasiya yarandı. Bu öz sıralarında ellinlə yəhudini fərqləndirməyən, etnik dominantı yabançı və anlaşılmaz olduğundan, ətrafındakıların hamısının nifrət etdiyi xristian icması idi.

I əsrin kiçicik xristian icmasından əvvəlcə etnos, daha sonra isə bizim hazırda Bizans mədəniyyəti adlandırdığımız mədəniyyətə malik möhtəşəm superetnos yarandı. Xristian etnosunun formalaşması mexanizmi xarici görünüşünə görə əvvəldə nəzərdən keçirdiklərimizdən fərqli olsa da, məğzinə görə onların eynidir. (14) Təbliğatçılar və şəhidlər, məddahlar və seyrçilər özlərini Ronseval dərəsində həlak olan Roland, Fermopil keçidini qoruyan Spartalı Leonid, məmlüklərin əsir tutduqları Kitbuğa noyon və bir çox başqa bahadırlar kimi aparırdılar.

İlk xristianların konkret əməlləri cəngavər və döyüşçülərin hərəkətlərindən fərqlənsə də, onların davranış dominantı, onun psixoloji strukturu, üstəlik nəticələri də eyni idi: orijinal mədəniyyətə malik yeni insan kollektivi, yəni eyni etnos [377-378] yaradılması. Həmin etnos üç yüz il sonra yalnız açıq, qanuni şəkildə mövcud ola bilmək naminə cüzam xəstəliyinə tutulan müstəbid və qatil Konstantini dəstəkləyərək, ona qələbə və zəfər gətirdi. Məhz 313-cü ildən etibarən yeni “xristian-romeylər” etnosu ümumdünya-tarixi əhəmiyyətli fakta çevrildi.

**Passionarlığın artması**. Etnogenezin yüksəliş mərhələsi həmişə təcavüzlə ilgilidir ki, bunu qızmaqda olan qazın genişlənməsinə bənzətmək mümkündür. Bu baxımdan Bizans xristianları heç də istisna deyil. Lakin öz qarşısıalınmaz enerjisini doğma vətənin hüdudlarından kənara çıxaran döyüşçü və tacirlər yox, rahib-təbliğatçılar oldu. Artıq III əsrdə Misir zahidləri Fivaidani tərk edib, bütpərəst Roma və druid Britaniyasından keçərək, heç vaxt Roma istibdadı və sivilizasiyanı dadmamış yaşıl Erin adasına gedirdi.

V əsrdə İrlandiyada müstəqil xristian icması meydana gəldi. Bu icma nə Roma papası, nə də qərb kilsə təqvimini qəbul etmişdi, çünki onun ənənələri yeni qurum - Bizansın meydana gəldiyi Şərqdən gəlmişdi.

Bizans etnosunun əcdadları yoxdur. Bu, əlbəttə, o demək deyil ki, onu təşkil edən adamlar pitekantroplardan əmələ gəlməmişdi. Lakin etnos insanlar toplusu yox, tarixi zamanda meydana çıxan dinamik sistemdir. Onun yaranması üçün isə başlanğıc anında köhnə mədəniyyəti dağıdan proses olan etnogenezin zəruri tərkib hissəsi kimi passionar təkanın varlığı ilə şərtlənir.

Qədimdə Aralıq dənizi hövzəsində inkişaf etdikcə, Latsium və Finikiya şəhərlərini də ehtiva edən vahid ellin mədəniyyəti mövcud idi. Etnik baxımdan o, Qərbi Avropa mədəniyyətini xatırlayır, çünki əsas ellin özəyi çoxşaxəli ellin mədəniyyətinin bütün variantlarını ehtiva etmir. Əlbəttə, Roma, Karfagen, Pella özünəməxsus cəhətlərə malik olmaqla, müstəqil etnoslar idi, lakin superetnik baxımdan ellin mədəniyyətinin geniş əhatəsinə daxildilər. Söylənilənlər heç də yeni bir şey olmasa da, bizim üçün çıxış nöqtəsi kimi önəmlidir. Roma hökmranlığı etnik eyniləşdirməni dəstəkləyirdi, yunan dilinin latın dili ilə bərabər hüquqlara malik olması isə Aralıq dənizi hövzəsinin demək olar ki, bütün əhalisinin bir etnosda qovuşmasına səbəb oldu.

Lakin eramızın I əsrində sonrakı iki əsr ərzində yeni etnik bütöv yaradan yeni adamlar peyda oldu. Elə ilk gündən onlar özlərini “bütpərəstlərə”, yəni bütün qalanlara qarşı qoydular [378-379] və həqiqətən də onlardan fərqlənməyə başladılar. Əlbəttə, bu fərqlənmə anatomik, yaxud fizioloji əlamətlərə deyil, davranışın xarakterinə aiddir. Yeri gəlmişkən, bu, romalılar və yunanlarla qovuşmamalarına baxmayaraq, dinlərinə görə heç bir təqibə məruz qalmayan yəhudilər üçün də yabançı idi. (15)

Xristian icmalarının üzvləri “bizans” etnosunun özəyini təşkil etdilər. Onların buna necə nail olduqlarını isə indi görəcəyik.

330-cu ildə imperator Konstantin paytaxtı kiçik Bizans şəhərinə keçirərək, onu dəbdəbəli Konstantinopola çevirdi. Bura hər yerdən passionarilər axışıb gəlirdi. Qoşunda xidmət etmək bəhanəsilə xeyli qot Frakiyada məskunlaşdı. Dunay istehkam xəttini yaran slavyanlar Peloponnes də daxil olmaqla, Balkan yarımadasında yerləşdilər. Suriyalılar Po çayı vadisindən Huanhe sahillərinədək yayıldılar. VI əsrədək müxtəlif xalqlardan ibarət və müxtəlif dillərdə danışsa da, monolit olan bir etnos yarandı ki, biz onu Bizans etnosu adlandırırıq. Qədim dövrlərdən miras qalan yunan dili yalnız dövlət və hamının anladığı bir dil idi - evdə hamı doğma dillərində danışırdı. Çox qısa bir müddət ərzində bu “bizans” etnosu superetnosa çevrildi, çünki ermənilər və gürcülər, isavrlar və slavyanlar, alanlar və Krım qotları da onun cazibəsinə tabe oldular.

Bizans tarixi ya Roma tarixinin davamı (Gibbon), ya xristian “Yunan çarlığı” yaradılması (F.İ.Uspenski), ya da feodal kormasiyasının Şərqi Avropa variantı kimi yozulurdu. Bütün bu baxımlar bizans tarixinin müxtəlif tərəflərini işıqlandırsa da, bizans mədəniyyətinin orijinallığı problemi həllini tapmadı. Bizim baxım da universallıq iddiasında olmasa da, Avropanın etnik tarixindəki boşluğu doldurur.

Passionar təkan nəticəsində I-II əsrlərdə Fələstin, Suriya və Kiçik Asiyada peyda olan, Kilsə kimi formalaşan, onun bütün qol və cərəyanları ilə dünyəvi hakimiyyətlə qarşılıqlı təmas stereotipi əldə edən

hadisəni “Bizans” adlandıracağıq. Bu bütöv Şərqi Roma imperiyasının hüdudlarından xeyli geniş idi və ondan əsrlərcə artıq ömür sürmüşdü. Bu ada etiraz etmək mümkün olsa da, bunu etməyinə dəyməz, çünki o anlaşıqlıdır və problemi məsələnin gələcək mühakimələr üçün səmərəli qoyuluşda sonuclandırır.

İkinci Roma, yoxsa Antiroma? Biz etnogenez əyrisinin enən qolunu təsvir etsəydik, işimiz asan olardı. Etnososial sistemin artan sadələşməsini, rezistentliyinin aşağı düşməsini və yabançı elementlərin sızmasını aşkar edərdik. Lakin artan qolu təsvir etməli [379-380] olduğumuz halda işimiz xeyli mürəkkəbləşir. Passionarlıq artmaqda olan zaman dominantı dərhal tapmaq olmur. İnkişafın bir neçə istiqaməti meydana çıxır və onlar öz aralarında təbii düşmənləri - ölməkdə olan superetnosun ənənəsilə apardıqlarından daha amansız mübarizə aparır.

Lakin buna baxmayaraq, rəqabət aparan bütün sistemlər əvvəlkinə münasibətdə eyni şəkildə hərəkət edir, hətta onu dəstəklədikləri hallarda belə. Dönük Yulian roma dinini yeniləşdirməyə cəhd göstərdi və İsanı Mitra ilə əvəz etdi. Halbuki, mitraçılıq romalılar üçün xristianlıq qədər yabançı bir din idi və bu dinlər Romaya eyni vaxtda - Neron dövründə məlum olmuşdu. Nitraçılığın tərəfdarları isə roma nobilləri yox, daha çox əsgər imperatorları idi. Bu dini qəbul edənlərin əksəriyyəti də elə evlərindən və qohumlarından uzaq düşən yadelli legionçular olurdu. Yulian qalib gələrək, xristianlığın kökünü kəsməyə nail olsaydı belə, o, tanrı Kvirinlə dişi canavardan törəyənlərin xələflərini yox, sistemi möhkəmləndirəcəkdi ki, onu xristianların yaratdığından yalnız xarici görünüşü ilə fərqlənəcək Antirim kimi anlamaq daha doğru olar.

Üç əsr ərzində nəzərə çarpmadan fəaliyyət göstərən xristian icmaları çoşqun ehtiraslar və yaradıcılığın qarşısını kəsən dağılmaqda olan sistemdən kənara çıxan passionar elemetləri birləşdirməklə məşğul oldu. Xristian icmaları İmperiyanın ən passionar konsorsiyaları idi.

“Şərq” və “Qərb” kimi inzibati baxımdan parçalanmasına baxmayaraq, Roma imperiyası vahid mədəni-sosial siyasi bütöv olduğundan, burada, təbii ki, bir-birilə entropiya və neqentropiya mübadiləsi edən həm passionar, həm subpassionar bölgə populyasiyaları yanaşı yaşayırdı. Başqa sözlə, əxlaqın antik tənəzzülünün daşıyıcıları coşğun mif yaradıcıları, yeni ənənələrin banilərilə yanaşı yaşayırdı. Başqa-başqa ərazilərdə yaşamaq onlar üçün böyük bir səadət olsa da, bu mümkünsüz bir şey idi - Roma ətraf etnosları o qədər incidirdi ki, onlar bütün romalılara nifrət edirdilər. Bir etnosun (Roma) digəri (Bizans) tərəfindən sıxışdırılıb ortadan çıxarılması prosesinin Roma imperiyasının bütün ərazisində baş verməsi və bu qədər ağrılı olmasının səbəbi də elə bu idi. Odur ki, yeni etnogenez prosesinin və onun təşəkkülünün birinci mərhələsinin “başlanğıcı” kimi hər hansı bir tarixdən yalnız şərti olaraq bəhs etmək olar. [380-381]

II əsrin ortalarında Yustin Filosofun fəaliyyəti sayəsində xristianlar yəhudilikdən qəti şəkildə uzaqlaşaraq, xüsusi subetnos kimi fərqləndilər; müasirləri qnostisizm tərəfdarlarını da xristianlara aid edirdilər.

IV əsrin əvvəllərində xristianlar roma superetnosu tərkibində etnos idilər və Konstantin də bunu təsdiqləməyə məcbur idi. Bununla belə, onun yaratdığı Şərqi İmperiya terminin etnoloji anlamında hələ Bizans deyildi; onu daha çox kilsə xristianlığının yeni etnik mühitin tarixçinin gözü önündə yaranan və müasirləri üçün aşkar olan mitraçı, neoplatonçu, donatist, arian və digər bölmələrilə rəqabət meydanı kimi anlamaq gərəkdir.

Qərbin vaxtilə cəngavər, daha sonra isə azadlıqsevər olan etnosları romalılar tərəfindən itaət altına alındıqdan sonra legionları cəsur süvarilər və sərrast oxucularla təmin edirdi, lakin IV əsr ərəfəsində artıq bu da başa çatmışdır. Qarşısıalınmaz “passionar entropiya” prosesləri hər şeyi özü ilə apardı. Fərdi keyfiyyətlərə - cəsusluq, fiziki qüvvə, dözümlülük və s. malik olmalarına baxmayaraq, yalnız qall-romalılar və britlər yox, bataçlar, frizlər, iberlər və numidiyalılar (16) da əmlak, ailə və həyatlarını düşmənlərdən qorumaq imkanı verən əlavə bir keyfiyyətdən məhrum idilər. Bölgənin şərq ucqarında yaşayan və vəhşi və azsaylı hunlara özlərini əsarət altına almaq imkanı verən zəngin və mədəni alanlar da eyni şəkildə hərəkət edirdilər. Hamıdan qorxaq gəlmə asiyalıların məskunlaşdıqları gözəl İtaliyada hələ də rast olunan “sonuncu romalılar” idi.

Cəsur frakiyalı və illiriyalılar öz passionarlıqlarını hələ III əsrdə sərf edib qurtarmışdılar. Bu prosesin mexanizmi çox sadə idi: cəsur və fəal gənclər “uğur və səadət” ardınca legionlara gedir, passiv olanlar isə vətəndə qalır və ailə qururdular. Beləcə, ekstremal əlamət populyasiyadan kənarlaşdırıldı.

IV əsrdə ən döyüşkən və intizamlı roma qoşunları xristian icmaları nümayəndələrində ibarət idi. Hətta Dönük Yulian da onlardan yararlanmalı olmuşdu. Lakin onlar öz dindaşları, məsələn, III əsrin sonunda Qalliyada qiyam qaldıran baqaudlara qarşı savaşmaqdan qəti imtina edərdilər. Bu cür prinsipiallıq bəzən narahatçılıq gətirsə də, xristian icmalarının sərtqaydaları çərçivəsində tərbiyələnmiş xristian legionerlərini Roma imperiyasının Yupiter və Marsa inanmayan, sədaqət və vicdan deyilən şeylərin nə olduğunu çoxdan unutmuş və mənəvi baxımdan [381-382] düşkünləşmiş vətəndaşlarından daha etibarlı edən də elə məhz bu idi.

III əsrdə Roma imperiyasının şərq və qərb bölgələri arasında meydana çıxan fərqlərin səbəbini sosial quruluşda aramaq boş şeydir. O hələ II əsrdə tam eyniləşdirilmişdi. Əhalinin irqi tərkibi də önəmli deyildi, çünki hələ I əsrdə Yunanıstan və Suriya sakinləri Romada vaxtilə qüdrətli olmuş əcdadların cılızlaşmış xələfləri kimi nəzərdən keçirilirdi. Və bu ədalətli yanaşma idi.

Lakin IV əsrdə Şərq şəhərlərinin sakinləri ələ keçirdilər, axı, şəhərlərdə kənd həyatının yeknəsəkliyindən cana gələn passionarilər bura yığışırdılar. Passionar təkanın nəticələri elə həmin IV əsrdə özünü göstərdi. Kiçik Asiya, Balkanlar və Suriyada Roma imperiyası vətəndaşlarının yerini şərti olaraq Bizans adlanan yeni etnos tutdu. Onun səyləri nəticəsində barbarların həmlələri dəf olundu, Konstantinopol kimi nəhəng bir şəhər tikildi, sənətkarlıq inkişaf etdirildi, yalnız qonşularla deyil, hətta Çinlə ticarət ilişkiləri yaradıldı və ən önəmlisi, Suriya, Kiçik Asiya, Frakiya və Makedoniyanın landşaftları qorunub saxlandı. Güman ki, bu ölkələrin yetişdirmələrinə məxsus olan latifundiyalardakı ekstensiv təsərrüfat üsulu Bizansda hamı kimi mövcud qanun və adətlərə riayət etmək məcburiyyətində qalan mühacirlərə xas olan yırtıcı meyllərin də qarşısını müəyyən dərəcədə alırdı.

Hətta imperiyanın paytaxtı Konstantinopolda da milyondan artıq sakin olmasına baxmayaraq, təbiət qorunub saxlanmışdı. Şəhər qayğıkeşliklə qorunan və sahiblərini azuqə ilə təmin edən yaşıl bağlar içində itib-batırdı. Qara və Mərmərə dənizləri əhalini balıqla təmin edirdi, buğdanı isə torpağı hər il Nilin daşması sayəsində təzələnən Misirdən və qaratorpaq "Skifiya"dan (şimali Qaradənizboyundakı çöllər) gətirilirdi. Deməni, təbiəti məhv etmədən də mədəniyyət yaratmaq, sənətləri inkişaf etdirmək və möhtəşəm tikililər ucaltmaq mümkündür. Bizanslılar buna artıq enerjini (passionarlığı) ilahiyyatla ilgili mövzularda mübahisə və münaqişələrə sərf etməklə nail olmuşdular. Bunlar onların özlərinə bir çox bəlalar gətirsə də, əhatəsində olduqları landşaftlar üçün ziyansız idi.

**Çürümə və intibah**. Əvəzində, Qərbdə hər şey başqa cür oldu. Mühəndis texnikasının inkişafı (yollar, akveduklar, nəhəng qaleralar) iki milyon əhalisi olan Romanı təmin etməyə imkan verdi. Bura Siciliya və Şimali Afrikadan başqa, Yunanıstan və Provansdan şərab, İspaniyadan yun gətirirdilər. O dövrdə yalnız [382-383] təzə ət və gülləri uzaq məsafələrə çatdıra bilmədiklərindən, İtaliya buynuzlu qaramal üçün otlaqlar və çiçək plantasiyaları diyarına çevrilmişdi. Roma özü heç nə istehsal etmir, yalnız istehlakla məşğul olurdu. Lakin əgər I-II əsrlərdə roma məmurları əyalətlərin istismarını təşkil etməyi bacarır və onların qarət olunan sakinlərini müəyyən qədər qanunçuluqla (heç də həmişə riayət olunmayan) müşayət olunan möhkəm qayda-qanun yaradılması ilə mükafatlandırırdılarsa, III-IV əsrlərdə bu barədə heç danışmağa dəyməzdi. Əsgər imperatorları ölkəni hakimiyyət uğrunda vətəndaş savaşları məkanına çevirmişdilər. Leionçuları mükafatlandırmaq lazım gəldiyindən isə, zəngin latifundiyaçıların mülklərinin ucdantutma müsadirəsi və kasıb kəndlilərin var-yoxdan çıxarılması baş verirdi. Sonuncular, öz növbəsində, öz sahələrinin (parsell) torpağını qüvvədən salaraq, bu gün azuqə əldə etməyə çalışırdılar, çünki sabahkı cəzalar barədə düşünmək də dəhşət doğururdu. Əhalinin sayı durmadan azalır, sağ qalanlar müqavimət qabiliyyətini itirirdi. Bu dövrdə Roma imperiyasının möhtəşəm binasını sökməyə qoymayan etnosun canlı qüvvələri yox, ictimai struktur və dövlət ənənələri idi. Lakin bu çox davam edə bilməzdi.

Taqətdən düşmüş Qərb çox asanlıqla kükrəyən Şərqə tabe oldu və sonuncu müqavimət cəhdindən - frank Arboqastın başçılıq etdiyi 393-394-cü illər qiyamından sonra artıq inzibati şəkildə pravoslav imperiyası kimi formalaşan Bizansın ucqar əyalətinə çevrildi. Bu tədbiri Feodosi həyata keçirdi və bunun kifayət qədər önəmli nəticələri oldu: "İsa etnosu" o qədər genişləndi ki, superetnosa çevrildi, xristian fikir cərəyanları isə həm dünyəvi, həm də mənəvi mərkəzləşmiş hakimiyyətə düşmən durumda olan etnosların özünütəsdiq simvoluna çevrildi.

Qotlar 381-ci ildə Ümumdünya Konstantinopol Kilsə Toplantısının pislədiyi ariançılığı qoruyub saxladılar. Bununla da onlar özlərini bizans bütövündən kənarlaşdırdılar. Numidiya bərbərləri heç kafir sayılmayan təfriqəçi donatçıları dəstəklədilər və … Afrika Roma imperatorlarının əlindən çıxdı. Əvəzində, Qalliya və İspaniya bütpərəstlərinin xələfləri dəstək üçün Ümumdünya Kilsəsinə üz tutur və imperator hökumətindən yardım gözləyirdilər. Əfsuslar olsun ki, nahaq yerə. Şərqdə də hərbi qüvvəçatışmırdı.

Qalliyanı hun və german ordularından müdafiə edən, lakin 454-cü ildə işgüzar söhbət zamanı imperator Valentinian tərəfindən şəxsən öldürülən Aetsi - romalı qadınla germanın izdivacından doğulmuş qəhrəman belə həddən artıq ağır şəraitdə yaşamış, [383-384] zəfərlər qazanmış və həlak olmuşdu. Nə Aetsi, nə də Valentinianoda romalıdan əsər-əlamət də qalmasa da, birinci cəsur və ağıllı, ikincisi isə paxıl və pozğun idi. Hər etnosda bir-birindən fərqli adamlar olur. Lakin Şərqdə Aetsi kimi adamların sayı çox idi. Elə buna görədir ki, Konstantinopolda tez-tez baş verən alçaq cinayətlər bu şəhəri məhv etmədi, Roma isə aetsinin ölümündən dərhal sonra - 455-ci ildə vandallar tərəfindən dağıdıldı. Orada həqiqi romalılar olsaydı, onlar öz "Əbədi şəhər"lərini qoruyardılar.

Bəziləri güman edir ki, "Roma imperiyasını məhv edən barbarlar roma xalqını da məhv etmədilər və onunla birləşdilər". Bu belədirmi? Bəzi demoqrafik bilgilərə nəzər salaq: eramızın I əsrində İtaliya 7-8, 600-c№ü ildə isə cəmi 4-5 milyon nəfər yaşayırdı. Lanqobard, gerul, ruq, qot, Suriya və Kiçik Asiya mühacirləri, yəni semit-xristianların güclü axınına baxmayaraq, əhalinin sayı iki dəfə azalmışdı; Şimali İtaliyanın Milan, Verona, Paduya, Ravenna, Akviley kimi şəhərlərinin əhalisini də elə məhz sonuncular oldu. İtaliyanın latın əhalisinin sayının kəskin şəkildə azalmasına səbəb Mari islahatlarından sonra əhalinin kasıb hissəsinin kişilərinin əksəriyyəti legionlarında qulluq edir və oradan elə halda qayıdırdı ki, ailə qurmaq heç yada da düşmürdü. Zəngin nobil və atlıların ya kənizləri olurdu, ya da qeyri-təbii pozğunluqlara qurşanırdılar. Hələ Sezar dövründən başlamış, kübar qadınları da bu sahədə onlardan geri qalmırdı. (18) Beləliklə, şimaldan və şərqdən mühacirətin qeydə alınması ilə yanaşı, əhalinin sayının

deməkolar ki, iki dəfə azalması V-VI əsrlərdə İtaliyada etnosun dəyişməsinə dəlalət edir. Köhnə yox oldu, onun yerində isə etnik konqlomerat yarandı.

Qot və lanqobardlar Apennin yarımadasını ələ keçirən zaman buralarda seyrək əhali vardı ki, bu da yeni gələnlərin işini bir qədər də asanlaşdırdı. Biz bu örnək üzərində ona görə bu qədər ətraflı dayandlıq ki, məqsədimiz etnik tarixdən kənarda həll edilməsi mümkünsüz olan etnogenez problemlərinin həllinin bütün mürəkkəbliyini açıqlamaqdır.

Keçmiş İmperiyanın şərq ucqarında vəziyyət başqa cür idi. Burada xristian cərəyanı daha dözümlü çıxaraq, başqa bir bütöv yaratdı. V əsrdə artıq Roma imperiyasının bütün ərazisini və bir sıra qonşu ölkələri əhatə edən erkən xristian icması əsasında yeni bir etnos yarandı. Bu etnos özünü köhnə adla adlandırırdı - "romeylər". VI əsrdən etibarən Makedoniya, Frakiya və Peloponesdə slavyanlar, Epirdə albanlar, Kiçik Asiyanın [384-385] cənubunda isavrlar, mərkəzində-qalatlar, şimalında-lazlar, şərqində aysorlar məskunlaşmışdı. Suriyada yalnız şəhərlərdə azsaylı yunan təbəqəsi qalmaqda idi. Yerli yunan əhali adalarda daha uzun müddət duruş gətirsə də, VIII əsrdə Krit və Kipr ərəblər tərəfindən istila edildi və onların yunan əhalisi qul bazarlarında satıldı. Beləliklə, Konstantinopolun kifayət qədər çeşidli də olsa, yunan dilindən ümumişlək və əbədi dil kimi yararlanan əhalisi qalır.

Sələflərindən zəngin mədəni irs: gözəl ədəbiyyatları olan dillər, su kəmərləri olan şəhərlər, yollar, bağlar və sərhədlərdəki qalalar alsa da, bizans etnosunu roma, yaxud ellin etnosunun davamı saymaq olarmı? Yeni adamlar bu nemətlərin bir hissəsindən yararlandılar, bir qisminə etinasız qaldılar, bəzilərini isə dərin hüznlə itirdilər. Lakin "bizanslıların" - roma xristianlarının bütövlükdə durumu ellin və latınlarınkından fərqli idi. Ən önəmlisi isə o idi ki, etnik dominantın köklü şəkildə dəyişməsi zamanı sistemin passionar gərginliyi artırdı.

Xristian konfessional konsorsiyalarından doğan bu yeni etnos Roma imperiyasında tamamilə tükənmiş güman edilən bir enerji nümayiş etdirdi. Bu enerji Fivaidanın misirli rahiblərini və Oront və Fərat sahillərinin Suriya əzbərçilərini İrlandiya, Hindistan, Orta Asiya və hətta Çinə aparıb çıxarırdı. Bu mənəvi-əqli təcavüz bir də onunla heyrət doğurur ki, silah gücü ilə dəstəklənmir, heç bir başqa əməli məqsəd, yaxud maddi maraq güdmürdü. Bu fəaliyyətin səbəbləri onun özündə idi. Bunlar borcunu yerinə yetirmək hissindən doğan məmnunluğu duymaq üçün edilirdi. Bu cür səmimilik yeni cəlb olunanların qəlbinə təsir göstərərək, təbliğatçıların yüksək passionarlıqları sayəsində pravoslavlığın təbliğinə sərf edilən səylərdən qat-qat çox müvəffəqiyyət qazandırdı.

Lakin elə həmin bu xassə imperiya daxilində insanları siyasi münaqişələrə çevrilən münaqişələrə sövq edirdi. Allah-Ata Allah-Oğul münasibətləri gah həmxilqət, gah da bənzərxilqət kimi açıqlanaraq, nə pravoslavlara, nə də arianlara heç bir xeyir vermədiyi halda, niyə qanlı olaylara səbəb olmalı idi? Bu zərurət haradan doğurdu? Əksinə, IV-VI əsrlərdə bizanslılar əksəriyyəti yaşamaq qabiliyyətinə malik olmayan və itib gedən prinsiplər naminə iqtisadi və siyasi mənfəətləri qurban verirdilər.

Lakin onların müəyyən, həm də güman ki, ən dəyərli hissəsi, qorunub saxlanmışdı. Bunlar antik dövrə məlum olmayan, xristian [385-386] Qərbinin mənimsəmədiyi və müsəlman Şərqinin özünəməxsus şəkildə dəyişdirdiyi prinsiplər idi. Bizans dövlət münasibətləri sisteminə bir sıra elementləri, məsələn, o olmadan daxili qarşılıqlı münasibətləri qurmaq çox çətin olan əxlaq kateqoriyasını daxil etdi və onları dövlətin ehtiyacları ilə uzlaşdırmaq imkanı tapdı. Sonuncu bundan heç də zərər görmədi.

Bizansa Qərbi Avropanı didib-dağıdan "qara yara" - dünyəvi hakimiyyətlə mənəvi hakimiyyətin mübarizəsi məlum deyildi. Konstantin Pavnoapostoldan başlayaraq, taxta çıxan imperator diakon dərəcəsi də alırdı ki, bunun sayəsində kilsə toplantılarında iştirak etmək və onlara öz iradəsini aşılamaq imkanı əldə edirdi. Bu qərarlar məcburi idi, çünki "imperator kilsə üçün ali hakim və dinin müdafiəçisi" sayılırdı. (19) Bu patriarxı ikinci yerə sıxışdırsa da, ona Roma papasının malik olmadığı imkanlar da verirdi. Axı, imperator təkcə qüdrətli hökmdar yox, həm də zəif, günaha batan bir insan idi. Mənəvi rəhbər kimi, patriarx ona tövbə etməyi buyura, kilsəyə daxil olmasını qadağan edə, ona evlənmək, yaxud boşanmaq izni verməkdən boyun qaçıra bilərdi. Doğrudur, imperator orduya komandanlıq edirdi, lakin patriarxın xeyir-duası olmadan ordu döyüşə getmirdi. İmperatorun bürokratik idarəetmə aparatı vardısa, patriarxa da rahib və ilahiyyatçılar ordusu tabe olurdu. Mənəvi və dünyəvi qüvvələr bir-birini tarazlaşdırdığından, yeni etnik bütöv möhkəmlənirdi. Lakin mədəniyyət?…

**Passionar "həddən artıq qızma"**. Antik təfəkkürün hər iki istiqaməti: ellinçi coğrafiyanı doğuran naturfəlsəfə və sokratik, stoik və epikurçuların etikası ölümdən sonra dirilməyə inanmış adamlar üçün aktuallığını itirdi. Axirət həyatı real həyat kimi mütləq bir şey sayıldığından, ölümdən sonra ruhun xilası qayğısına qalmaq zərurəti meydana çıxdı. Bu, indiki ötəri həyatın qorunub saxlanmasından daha önəmli görünürdü, çünki axirət həyatı əbədi həyat kimi təsəvvür olunduğundan, əməli məna da oradakı rifahı təmin etmək idi. Dünyanın əbədi qayğılarından birdəfəlik qurtulmaq yolunu isə əzablı ölüm təmin edirdi. Odur ki, artıq Milan ediktindən sonra "sirkumtsellon" (hərfi anlamda - "ətrafda dolaşanlar") adlandırılan afrika donatçıları fanatiklərdən ibarət dəstələr təşkil edib, tənha yolçuların qarşısını kəsməyə və isa xətrinə onları öldürmələrini xahiş etməyə başladılar. Həmin adamlar toyuq başı belə kəsə bilmədiklərini söyləyib onları rahat buraxmalarını istədikdə isə, qarşılarına seçim qoyulurdu: ya öldür, ya da özün öldürüləcəksən. Axı, bu fanatiklər istənilən hərəkəti [386-387] etməkdə azad idilər, çünki əzablı

ölüm bütün günahları əfv edirdi. Həmin bədbəxt də dəyənəyi əlinə alıb, növbə ilə onların kəlləsini əzməli olur, onlar da əbədi səadət arzusu ilə ölürdü.

Bu hərəkatı Şimali Afrikadakı Hippon şəhərinin yepiskopu Müqəddəs Avqustin təqib etməyə başladı və onun ləğvinə nail oldu.

Misir və Suriyada fanatiklik daha mülayim formalar kəsb etmişdi - rahiblik. İnsanlar əbədi səadət naminə özlərini iztirablar, məhrumiyyətlər, aclıq və evlənməmək kimi əzablara düçar edirdilər. Onlardan səhralara pənah aparanları - tərki-dünyalar heç kimə mane olmurdu. Lakin sayca çox olan səyyar rahiblər əyalət hökmdarları və hətta imperatorlar üçün daimi narahatçılıq törədirdilər, çünki heç kimdən qorxmur, heç kimə itaət etmir və özlərini kortəbii şəkildə son dərəcə fəal aparırdılar ki, bu da heç də həmişə ətrafdakılar üçün xatasız ötüşmürdü. Passionarlığın nə şəxsi şüura, nə də şəraitə tabe olmayan son həddi elə budur. Bu səbəbdən rahiblər çox tezliklə həlak olsalar da, elə onlar özləri də bunu arzulayırdılar.

Gənc Bizansın xoşbəxtliyindən, fanatiklər azlıq təşkil edirdi. Kilsə və dövlətdə aparıcı mövqeləri passionar olsalar da, soyuqqanlılığı itirməyən adamlar tuturdu. Qurtuluş doktrinası onlar üçün də önəmli olsa da, onu dərk etmək istəyirdilər. Nə qədər ki, kilsə təqiblərə məruz qalır, xristianlar isə ölüm təhlükəsi altında yaşayırdı, bu adamlar bir-birini dəstəkləyirdi. Onlara öz dinlərinə açıq şəkildə etiqad etmək ixtiyarı verildikdə isə aydın oldu ki, dinin əsas prinsiplərini fərqli şəkildə qavrayır və dərk edirlər. O dövrün adamlarının qəlblərini alovlandıran passionarlıq atəşi isə, dostyana söhbət və mübahisələr deyil, axıdılan qanlarla söndürülən yanğınlar törətdi.

Təklif edilən konsepsiya baxımından, passionarlığın inkişafı və artması şəraitində təkandan 300 il sonra və inkubasiya mərhələsi başa çatarkən ictimai formalar kəsb edən konsorsiyalar yaranmalıdır. Bizansda bunlar xristianlığın bu və ya digər tezislərinə etiqad edən sektalar formasında oldu. Hər etiqadda (sektada) səmimi tərəfdarlardan ibarət özək, onların fikirlərini bölüşən, yaxud onlara rəğbət bəsləyənlərdən ibarət qat və biganə olan, lakin bu çaxnaşmalardan yararlanan adamlardan ibarət mühit vardı. Səmimi mitraçı olan Dönük Yulian istisna edilməklə, demək olar ki, bütün imperatorlar sonunculara aid idi. Lakin Yulian incə siyasətçi idi. O, heç bir təqibə əl atmır, çeşidli dini fikir [387-388] cərəyanlarına öz aralarında mübarizə aparmaq imkanı verirdi ki, onun hakimiyyəti toxunulmaz qalsın.

Bu şəraitdə ən müdhiş rolu şəhər əhalisi oynayırdı. Konstantinə qədər onlar xristianların qanına susayaraq, o qədər çuğulçuluq edirdilər ki, Troyan hətta bu qəbildən olan məktublara baxılmasını qadağan etmişdi. Onun fərmanına görə, xristianı yalnız o zaman edam edirdilər ki, o könüllü olaraq özünü ifşa edirdi. Xristianlığın qələbəsindən sonra bu alçaqlar bütpərəstlər, qnostiklər və kafirlərdən çuğulluq etməyə, filosofların evlərinə basqınlar etməyə və hökumət əleyhinə qiyamlar qaldırmağa başladılar. Lakin onların öz etiqadları yox idi və onu əldə etməyə can da atmırdılar.

Asanlıqla anlamaq olar ki, dövlətin ehtiyacları üçün nə passionar rahiblər, nə də subpassionar kütlələrdən yararlanmaq mümkün deyildi. Sərhədlərdə vəziyyət ağır olduğundan isə əsgər və məmurlara çox böyük ehtiyac vardı. Bu vəzifələrə yadelliləri götürməli olur və bu zaman vandal, gepid və gerullardan daha alicənab olan qotlara üstünlük verirdilər.

Qot gəncləri məmnuniyyətlə Konstantinopolda qulluğa girir, bəzən general rütbəsinə qədər yüksəlir və tez-tez dövlət çevrilişləri edirdilər, çünki qot sərkərdəsini ona inanan soydaşları dəstəkləyirdi. Bunlar paytaxtın urbanistik landşaftındakı təbii konsorsiyalar idi. Onlar məcburi şəkildə xristianlığı qəbul edir və etiqadlardan birinə qoşulurdular. Şübhəsiz, ilahiyyatın incəliklərindən bixəbər olan bu adamlar qəti əmin idilər ki, rəqibləri sözün ali anlamında haqlı deyillər, lakin niyə - bu artıq ilahiyyatçıların işidir.

Germanlara qarşı duran qüvvə vəhşi isavrlar, Kilikiya dəniz quldurlarının xələfləri idi. Avqust tərəfindən darmadağın edildikdən sonra onlar III əsrdə baş verən qiyamlar zamanı Roma hökumətinin təsirindən tamamilə azad oldular, quruda və dənizdə qarətlərinə yenidən rəvac verdilər. Onlardakı vəhşi şücaət bizansda yüksək mövqelərə yiyələnmək imkanı verirdi: onların atamanlarından biri olan Zenon imperator oldu (474-491), digəri sərkərdə İsavr isə 717-ci ildə hətta öz sülaləsinin əsasını qoydu. Qotların rəqibləri olduqlarından, məzmunundan asılı olmayaraq, başqa etiqada mənsub idilər.

IV əsrin əvvəllərində İsgəndəriyyədə alim və nəcib insan olan presviter Ari ilə yepiskop Aleksandr arasında mübahisə başladı. Sonuncunu zahid və öz etiqadı uğrunda dönməz mübariz diakon [388-389] Afanasi dəstəkləyirdi. Onlar qot və isavrlar barəsində heç düşünməsələr də, aralarındakı mübahisə mübarizə simvolu və etnogenez proseslərinin indikatoru oldu.

Misir və Suriya ilə Mesopotamiya da müstəqillik və orijinallığa eyni bir meyl nümayiş etdirdilər. Hər ikisində konfessional əlamətlərə malik konsorsiyalar yarandı. Bu proseslərin nəticələri uzun əsrlər boyu Asiya və Şimali Afrikanın tarixini və mədəni inkişafını təyinlədi. Lakin passionar gərginlik səviyyəsinin etnik sistemlərin dinamikasına və bu prosesin ideoloji dönümünə göstərdiyi təsir haqqında daha ətraflı danışmaq gərəkdir.

**Anlamlar poeziyası**. Dərketmə və anlamaya tələbat heç də qida, yaxud qadına olan ehtiyacdan zəif deyil. O daha çeşidli olub, bəzilərində yaradıcılıq ehtirası, gah da korkoranə inam yanğısı kimi aşkarlanır. Lakin o daim passionar gərginliyə düz mütənasibdir, onun vektoru isə aktual problemlərin mövcudluğu ilə təyinlənir.

IV əsrdə artıq İsanın Allah-Ata olduğunu iddia edən monarxiançılıq da, Pavel Samosadskinin İsanın ilahi müdriklik nəsib olan adam olması haqqında təlimi də rədd edilmişdi. Düşünən beyinlər: “Bəs necə olsün?” sualını verirdi. Bu sualı presviter Ari cavablayırdı: “İsa ilahi Loqosdur, lakin Allahın oğlu olduğu üçün, deməli, elə bir zaman vardı ki, onda o yox idi. Loqos əbədiyyat ərəfəsində olsa da, əbədi deyil, Atadan “kiçikdir”, çünki “başlanğıcı” var. Əgər Loqos doğulmayıbsa, deməli, “Allah-Ata ata deyil, Allah-Oğul isə oğlu deyil”.

Yepiskop Aleksandr və diakon Afanasi ona etiraz edirdilər; “Xeyr, Ata və Oğul birgə mövcuddur, Oğul isə işıq mənbəyindən doğan şüaya bənzər. “Ata” və “Oğul” sözləri sadəcə məcazdır; əslində, Loqos Müqəddəs Üçlüyün vahid simasıdır”. (20)

Problemi dəqiqləşdirək. Ari Oğulun Atanın bənzərxilqət, Afanasi isə həmxilqət olduğunu iddia edirdi. Yunan dilində bu sözlər bircə hərflə fərqlənir… Həmin bircə hərf naminə demək olar ki, 300 il ərzində bu qədər adamı qətlə yetirməyinə dəyərmi? Əlbəttə, dəyməzdi. Həm də ki, qətlə yetirəndə də onun naminə yox, sadəcə onun bəhanəsilə öldürürdülər.

Lakin bəhanə seçimi göstərir ki, yalnız kilsə mütəfəkkirləri yox, savadsız insan kütlələri də bayraqlarında fəlsəfi simvolları əks etdirə və bu bayraqlar altında savaşa yollana bilirlər. O zamanlar hamı fikrə ehtiram göstərirdi. [389-390]

Fəlsəfi anlamlar poeziyası İmperiyanın bütün şərq hissəsini ehtiva etdi. Alim ilahiyyatçılar və xalq bu mübahisələrdə eyni dərəcədə iştirak edirdi. 325-ci ilin Nikey Ümumdünya Kilsə Toplantısı məsələnin düzgün həllini Afanasinin verdiyini bildirdi. Ari sürgün edildi, əsərləri isə yandırıldı.

335-ci ildə böhtana məruz qalan Afanasi sürgün olundu, daha bir il sonra isə Konstantin Ariyə bəraət verdi. Az keçmədi ki, Ari müəmmalı şəkildə öldü: onun zəhərləndiyi, yaxud muzdlu qatil tərəfindən öldürüldüyü sirr olaraq qaldı. Buna baxmayaraq, ariçilər 341-ci ildə onlar Antiohiya Toplantısında qələbə çaldılar, çünki imperator Konstansi onlara himayə edirdi. Lakin həmişə olduğu kimi, qaliblər öz aralarında küsüşürdülər: bəziləri nikey təriqətilə barışıq arayır, digərləri yollarına davam edərək, Arini də arxada qoyur və ehkamlarına hamı üçün aydın olması tələbini irəli sürür, üçüncülər haqsızlıqda ittiham olunmamaqdan ötrü sürüşkən anlamlara əl atırdılar.

Ariançılığın rəsmi doktrinasını 350-cu ilin Rimini Toplantısı işləyib hazırladı. İki toplantı arasında keçən dövr ərzində qotlar, burqundlar, vandallar və lanqobardlar xaça etiqad gətirdilər. Onlar kifayət qədər qarmaqarışıq bir ölkəni idarə edən Konstansinin qvardiyasını təşkil etdilər.

Nikeyçilər isə sürgünlərdə ömür sürürdülər. Onları yalnız kafir Yulian azad etdi ki, onun da məqsədi xristianları bir-birilə dalaşdırmaq idi.

Yalnız 381-ci ildə ispaniyalı Feodosi Konstantinopolda II Ümumdünya Kilsə Toplantısını çağırmağa nail oldu və bu toplantıda ariçi və makedonçuları lənətlədi. (21) Bundan sonra ariçilik romalıların deyil, germanların etiqadına çevrildi. Filosofema isə anlam poeziyasından etnologiyaya keçdi.

Bəzən münaqişələr ehkamların önəmli məsələləri üzrə yox, heç də ilahiyyatla ilgili olmayan anlaşılmazlıqlar zəminində meydana çıxırdı. 430-cu ildə əslən fars, çox ciddi və savadlı adam olan Nestori Konstantinopol patriarxı seçildi. Onun bu cəhətləri paytaxt ruhanilərinə xoş gəlmirdi, çünki onlara dünyəvi hisslər yabançı deyildi. Həmin hisslər ki, hələ 397-404-cü illərdə İoann Zlatoust onları pisləmişdi. İlahiyyat mövzusunda mübahisələrin birində Nestori “Allahın anası yoxdur” ifadəsini işlətdi. Düşmənləri dərhal bu tezisi Bakirə Məryəm anaya qarşı küfr kimi mənalandırdılar və 431-ci ilin Efes Toplantısında Nestorini pisləyərək, onu uzaqlaşdırdılar. [390-391]

Güman etmək olardı ki, sülhü bərqərar etməyin vaxtı çatmışdı. Lakin Misir rahibləri İsada insaniliyin əleyhinə çıxdılar və 449-cu ildə yenə də Efesdə Ümumdünya Kilsə Toplantısında İmperiyanın bütün kilsələrinin, həmçinin bu və ya digər qolların nümayəndələri yığışdı. Mübahisə İsada ilahi substansiya ilə yanaşı, insani substansiyanın da olub-olmamasından gedirdi. O zamanlar bu heç də mənasız sual deyildi. Əgər Misir monofizitləri haqlıdırlarsa, onda çarmıxda əziyyət çəkən insan yox, Allah olub. Allah üçün isə həmin işgəncələrə dözmək çox asandır, hətta onları hiss etməyə də bilər. Bu halda o, bizim üçün örnək ola bilməz, çünki biz insanlar zəiflik və ağrıdan qorxuruq. Lakin digər tərəfdən, İsanın insani təbiətinin qəbul olunması onun önəminin azaldılması demək deyilmi? Odur ki, monofizitlər “İkili təbiəti tanıyanları ikiyə parçalayın!” deyə bağırırdılar. Toplantının gərgin keçəcəyi gözlənilirdi.

İkili təbiət təlimini yunanlar və italyanlar (patriarx və papa) dəstəkləyirdi. Misirlilər onların əleyhinə çıxırdılar. İclas zamanı Toplantının keçirildiyi binaya minlərlə saqqallı, saçları daraq üzü görməyən, əyinlərində qıldan toxunan rahib paltarı, əllərində isə baltalar olan minlərlə misirli rahib soxuldu. Rahiblər yepiskopları döydülər, katiblərin barmaqlarını sındırdılar, patriarxı təpik altına saldılar. Satın alınmış əyanın göndərdiyi gözətçilər isə kənarda durub baxırdılar, çünki onlar kortəbii passionarlıqdan, deməli təşəbbüskarlıqdan məhrum idi.

İndi isə yaranan durumu araşdırmağa cəhd göstərək. Suriya kəndliləri Nestori patriarx taxtına çıxmazdan əvvəl də, o, Konstantinopolda hökm sürəndə də, sürgünə göndəriləndən sonra da Bizans məmurlarından narazı olsalar da, bunun Bakirə Hamiləliyə və Milada (İsanın doğum günü) heç bir dəxli yox idi. Güman ki, Suriya əhalisi Nestorinin baxışlarını onlara yaxın və anlaşıqlı olması üzündən dəstəkləmişdi. Lakin fars Mesopotamiyasına efes ilahiyyat məktəbinin yetişdirmələri və monofizitliyin

əlehdarları olan bir sıra Antiohiya iyerarxları mühacirət etdikdən sonra, Suriyadakı xalq hərəkatı sakitləşdi. Konstantinopol hökumətinin istibdadından narazı olanlar qalsalar da, monofizitlərlə barışıq elan edən imperator fərmanından (“Enotikon”) sonra (482-ci il) misirlilərlə birləşdilər, başqa sözlə, sosial-siyasi mövqelərini saxlamaq naminə ideoloji mövqelərini 180° dəyişdilər. [391-392]

Nestorini sürgündə əzablara düçar olmuş mömin kimi dəyərləndirən səmimi davamçıları isə Nəsibdə xristian universiteti təsis etdilər, xristianlığı yayaraq, Çinə qədər gedib çıxdılar və İran şahının təbəələri, yəni Konstantinopolun siyasi rəqibləri də oldular. Lakin düşüncə tərzi, psixi yönümləri və davranış stereotiplərinə görə onlar bizanslı kimi qalmaqda idi. Beləcə, qaynayan maye içində olduğu qabdan aşıb-daşdığı kimi, Bizans da dövlət sərhədlərindən kənara yayılırdı.

Bundan sonra Konstantinopolla İsgəndəriyyə, yəni yunan patriarxlığı ilə Misir kilsəsi arasında toqquşma baş verdi. Qüvvələr, demək olar, bərabər idi. Problemi kilsənin artmaqda olan nüfuzundan qorxuya düşən dünyəvi hakimiyyətin mövqeyi həll edirdi.

451-ci ildə Halkidonda imperator Markianın başçılığı altında Kilsə Toplantısı keçirildi. Bu Toplantı 449-cu il Efes Toplantısının qərarını ləğv etdi və onu “efes quldur basqını” adlandırdı. Misirlilər bunu təfriqə ilə cavablandırdılar, yunan dilini ibadətlərdən kənarlaşdırdılar və xüsusi kopt patriarxı seçdilər. Akov Baradey Antiohiyada ikinci patriarxlığı təsis etdi və onun davamçıları yakovitlər adını aldılar.

İmperator İraklinin barışıq yolu ilə təfriqəyə son qoymaq cəhdi ona gətirib çıxardı ki, VII əsrdə meydana çıxan daha bir cərəyan Livan dağlarında möhkəmlənən maronitlər sektası şəklində formalaşdı. Beləliklə, IV əsrdə vahid olan bizans etnosu bir-birilə qarşılıqlı düşmənçilik aparan dörd sübetnosa parçalandı. Bu, Roma patriarxlığının, deməli, bütövlükdə Qərbin ayrılmasına, nestorçuların şərqə mühacirətinə, monofizitlərin ərəb xəlifələrinin hakimiyyəti altına keçmələrinə səbəb oldu. VIII əsrdə Şərqi Roma imperiyası yunan çarlığına çevrildi.

İndi isə olayların araşdırılmasına başlayaq. Konfessional mübahisələrdə qazanan kim oldu? Yalnız pravoslavlıq və Bizansın düşmənləri. Ariçi-lanqobardlar İtaliyanın çox hissəsinə yiyələndilər; müsəlman-ərəblər Suriya, Misir, Karfagen, Ermənistan və Gürcüstanı istila etdilər; bütpərəst-slavyanlar Balkan yarımadasını soyub-taladılar və Peloponnesə qədər uzanan ərazilərdə məskunlaşdılar. Bizans birliyə böyük ehtiyac duysa da, buna nail ola bilmədi. Şəhər əhalisinin passionar gərginliyi artır və onun daşıyıcılarını özlərini rəqabət aparan konsorsiyalarda birləşməklə göstərməyə sövq edirdi. Öz növbəsində, sonuncular subetnoslara çevrilir, imperiyadan ayrılandan sonra isə etnos kimi [3-3] formalaşırdı. Bəzən belə icmaların əsasını ellin eyniləşdirməsindən sonra salamat qalan qədim tayfalar təşkil etsə də, əksər hallarda bunlar iri şəhərlərdə meydana çıxan, genetik baxımdan rəngarəng, öz birliyini yalnız davranış dominantı və komplimentarlıq sayəsində saxlaya bilən konsorsiyalar olurdu. Başqa sözlə, bu, intensiv etnogenez prosesi idi ki, buradakı ehkamlar olay iştirakçıları üçün simvol rolunu oynayır, tarixçilər üçün isə indikatordur.

## XXXII. SAPINMALAR

Burada da qanunauyğunluq var. Biz qlobal etnogenezin faktiki tərəfini deyil, əslində bu etnosa münasibətdə xarici olan təsirlər tərəfindən daim pozulan ideal qanunauyğunluğu təsvir etdik. Odur ki, Ümumdünya tarixindən örnəklər gətirməli olduq. Burada heç kim tənha yaşamır, gah daha yaşlı və daha təcrübəli, gah da daha gənc və daha qızğın qonşular istənilən etnosu daim narahat edir. Lakin ideal əyri prosesin pozuntularının xarakterinin təfsirlənməsi üçündür, çünki reallıqda biz daha çox etnik tarixin uzun sürən dövrləri ərzində bir-birini qarşılıqlı tamamlayan sapmalarla rastlaşırıq. İndi bizə artıq məlumdur ki, istənilən, hətta ən əlverişli variant olduqda da passionar təkanın ətaləti 1200 il ərzində sərf olunur, lakin ən xoşbəxt etnoslar təbii sonuca qədər qala bilirlər. Tarixdə ən çeşidli yaşlarda olan etnogenezlərin sonuclandığının da şahidi oluruq. Lakin burada da statistik qanunauyğunluq mövcuddur.

Etnogenezin ilkin mərhələlərində olan etnos demək olar ki, məhv və istila edilə bilməz, çünki bunun üçün zəruri olan məsrəfləri heç bir qələbə ödəməyə qadir deyil. Lakin inkişaf mərhələsini dəyişən etnos çox zəifdir və qonşusu kifayət qədər passionar olduğu halda, asanlıqla onun şikarına çevrilə bilər. Odur ki, etnosun passionar enerji əyrisinin mərhələ keçidlərinə diqqət yetirək. Ələlxüsus da ona görə ki, onlar daim rəvan və qeyri-müəyyən sərhədli olur. Bu sərhədlərin də öz imperativləri var.

Sabit durumdan yüksəlişə keçid “dünyanı düzəltmək gərəkdir, çünki o, pisdir” imperativi altında baş verir. Bu imperativ həmişə bu və ya digər dərəcədə əsaslandırılmış olsa da, risk böyükdür. Hələ güc toplamayan yeni doğulmuş etnos kiminsə onları təshih etməsini istəməyən qonşuların güclü müqavimətilə rastlaşaraq, məhv ola bilər. Belə bir şey XIX əsrdə zulusların [393-394] başına gəldi. Çaka (1810-1828) onları təkmilləşdirilmiş asseqaylarla təmin etdi, sıra ilə addımlamağı öyrətdi və qələbəyə doğru apardı. Lakin Çaka Avropadakı texniki tərəqqini nəzərə almadı. Lülədən doldurulan yivsiz tüfənglər ştutserlərlə əvəz olunduqdan sonra burlar zulusları 1838-ci ildə darmadağın etdilər və ələ keçirdikləri torpaqlarda Transvaal respublikasını yaratdılar.

1820-ci ildə Çaka dövlətindən ayrılan digər zulus dövləti - Natabele bir qədər artıq duruş gətirdi. Cənubu istila etməyə göndərilən ordunun komandiri Mzilikazi geri qayıtmadı - özü kral oldu. 1888-ci ildə

onun oğlu Longenqula Sesil Rodsun ingilis qoşunları tərəfindən darmadağın edildi. Zulusların passionar təkanı öz qanında boğuldu.

Bunun eyni olan örnəklərin sayı o qədər çoxdur ki, etnos üçün yüksəliş mərhələlərindən akmatik mərhələyə keçid zamanı yaranan təhlükəni göstərmək daha önəmlidir. Bu dövrdə struktur elementlərinin qarşılıqlı tabeliliyi pozulur, "hərə özü kimi olmaq" arzusuna düşür və bunun naminə yaranmış təşkilatı dağıdaraq, bu zaman bol qan axıdılsa da, mədəniyyət zərər çəkmir, əksinə, hətta çiçəklənir də.

Buna dair ən parlaq örnək X əsrdə Ərəb Xilafətinin əmirliklərə parçalanmasıdır. Siyasi parçalanmanın müsəlman polietnik mədəniyyətinin çiçəklənməsilə bütün mütəxəssislər tərəfindən qeyd olunan üst-üstə düşməsi, güman ki, təsadüfi deyil. Təkrarsız yaradıcı şəxsiyyətin dəyərli olmasının qəbul edilməsi ərəb dilində yazan alimlərin xüsusi mövqe tutmalarına səbəb olurdu. Soltan və əmirlər onlara rəqib nəzərilə baxmır, zəhmətlərini dəyərləndirir, əqli və estetik sahələrdə "özləri kimi olmaq" üçün imkan yaradırdılar. Lakin bəzən belə "sapınma" faciəli sonuca səbəb olur ki, bu barədə daha sonra.

Etnos üçün üçüncü - akmatik mərhələdən çat mərhələsinə keçid daha təhlükəlidir. Burada "Biz dahilərdən usanmışıq" imperativi meydana çıxır və onun əsasında yalnız artıq passionarilər deyil, lazımlılar və hətta tamamilə ziyansız orijinal adamlar da həlak olur.

Etnosda passionar gərginliyin aşağı düşməsi dövründə afinalılar Sokrat və Alkiviadı öldürdülər. Sokratın qətli onları əsrlər boyu davam edən rüsvayçılığa düçar etsə də, buna birtəhər dözərdilər, lakin Alkiviadın iki dəfə qovulması Peloponnes savaşında məğlubiyyəti və bundan doğan ağır nəticələri təmin etdi. Platon və Aristoteldən "xilas olduqdan", bir sıra fəal vətəndaşları [394-395] aradan götürdükdən sonra - bunun çox sadə yolu vardı: fəal vətəndaşları çağırır və bildirirdilər ki, səsvermə yolu ilə onların (məsələn, Afinanı skif taxılı ilə təmin edən tacirin) teatr tamaşasını, yaxud triyera (gəmi) inşasını maliyyələşdirmələri barədə qərar qəbul edib, - Afina müstəqilliyini itirdi. Makedoniyalı İsgəndər bu gözəl şəhərə rəhm etsə də, sonrakı istilaçılar - romalılar afinalılarla dövrün qaydalarına müvafiq şəkildə rəftar etdilər: bir hissəsini qırdılar, bəzilərini isə hətta qul kimi satdılar.

Antik yunan-latın superetnosu çat mərhələsini e.ə. II-I əsrlərdə yaşadı. Bu dövrdə ellin passionariləri həyatda mövqelərinin yaxşılaşmasına heç bir ümid bəsləmədən Respublikaya ya əsgər, ya da dil-ədəbiyyat müəllimi kimi işləməklə xidmət göstərə bilərdilər. 100 ildən artıq davam edən vətəndaş savaşları xalq və senatı taqətdən salmışdı. Qrakhlar inqilabı, Marilə Sulla arasındakı savaş, birinci triumviratın soyqırımı və ikincinin proskripsiyaları Roma dövlətini böhran halına saldı. Yalnız Avqust və onun tərəfdaşlarının fəaliyyətilə əlamətdar olan ətalət mərhələsinə keçid müəyyən dinclik gətirdi. Lakin bu baha başa gəldi. Qalib gələn "Mənim kimi ol" imperativi ənənəvi "roma azadlığını" yerlə yeksan etdi. Bütün respublika təşkilatları prisepsin iradəsini pərdələyən təmtəraqlı dekorasiyalara çevrildi. Ovidi sürgündə öldü, Horatsi və Vergili isə saray yaltaqları idi. Seneka Neronun paxıllığının qurbanı oldu, diqqəti cəlb etdiyinə görə öldürülən sadə, lakin istedadlı adamların sayı isə hesaba gəlmir. Svetoninin "On iki sezarın həyatı"nda və Q.Buasyenin "Roma sezarları dövrlərinin müxalifətləri"ndə köməksiz və günahsız soydaşlara tutulan bu divanların xarakter və yönü əyani şəkildə təsvir edilib.

Zəngin və əsil-nəcabətli olmağa görə yox, şəxsi keyfiyyətlərinə görə qətlə yetirmə sistemi zamanın rəmzi, etnogenez prosesinin sönməsinin qanunauyğun sonucu idi. Güman ki, elə həmin "xəstəliklə" ilgili eyni əlamətlər Duklar dövrü Bizansda da (XI əsr), monqol dövrünün sonu İranın da (XIV əsr), Teymurilər dövründən sonrakı Orta Asiyada da (XVI əsr) müşahidə olunur. Beləliklə, bu, yaşla ilgili "azad edir". Bunu nəzərə alır və yenidən Romaya üz tuturuq.

**Passionar kasadlaşma**. Keçmiş İmperiyanın Şərqi qaynar qazana bənzədiyi bir zaman, onun Qərbi durmadan soyumaqda idi. V əsrdə Reyn və Dunay boyu keçən sərhəd pozuldu. 402-ci ildə vestqotlar İtaliyaya girə bilsələr də, Verona ətrafında darmadağın edildilər. [395-396] 405-ci ildə svev, burqund, vandal və alanlardan ibarət axın İtaliya ərazisinə daxil oldu, lakin Florensiya yaxınlığında məğlub olduqdan sonra təslim oldu. Onları Qalliyaya yönəltdilər ki, burada da artıq franklar və alemanlar Reyn sahillərini ələ keçirmişdilər. Onlar vandalları darmadağın etsələr də, artıq müflisləşmiş Qalliyanı deyil, yalnız özlərini xilas etdilər. Qallar isə müdafiə olunmaq əvəzinə, yalnız Allaha yalvarmaqla məşğul idilər. Kimin ağlına gələrdi ki, bunlar qəhrəman keltlərin xələfləridir?! İspaniyada da eyni şey baş verdi. Burada svevlər Qalisiya, alanlar Luzitaniya, vandallar isə Betikada (bu zamandan həmin bölgə Andalusiya adlanmağa başladı) məskunlaşmaq qərarına gəlmişdi. 410-cu ildə qotlar Romanı ələ keçirib qarət etdilər və yalnız kilsələrə toxunmadılar, 412-ci ildə cənubi Qalliyanı tutdular, 419-cu ildə vandalları İspaniyadan Afrikaya qovdular və bunun qarşılığında Akvitaniyanı ərməğan aldılar. Burqundlar Romanın, alemanlar isə Reynin sol sahilində məskunlaşdılar. 430-439-cu illərdə qotların İspaniyadan Afrikaya qovduqları vandallar mavr və numidiyalıların dəstəyindən yararlanaraq, Afrikaya yiyələndilər, 445-ci ildə isə Romanı ələ keçirərək, onu mənasız dağıntılara məruz qoydular. 449-cu ildə anql, saks və utlar Roma legionlarının tərk etdikləri Britaniyaya gəldilər. Britaniya keltləri Qalliya keltlərindən bir o qədər də fərqlənmirdilər, odur ki, soyqırımına heç müqavimət də göstərmədilər.

476-cı ildə Romada əsgəri xidmətdə olan gerullar hakimiyyəti öz əllərinə aldılar və Qərb imperiyasını ləğv etdilər. On ildən sonra vəhşi frankların ələ keçirdikləri son sivilizasiya "adası" məhv edildi. Sonuncu roma qəhrəmanı Siaqri qeyri-bərabər savaşda həlak oldu.

489-cu ildə ostqotlar Dunay və Balaton gölü sahillərini tərk edərək, İtaliyaya üz tutdular və 493-cü ildə onu müdafiə edən germanları darmadağın etdilər. Bu germanların hamısı I əsrdə baş verən passionar təkanın təsirinə məruz qaldıqlarından, yüksəliş mərhələsində idilər.

Bir şey əlamətdardır: Qərb və Şərq imperiyalarında eyni sosial quruluş və din hakim idi, düşmənləri də eyni idi - hər iki tərəfə eyni qüvvə ilə təzyiq göstərən barbarlar. Lakin Şərq onları dəf etdi, Qərbsə süquta uğradı, çünki cəhalət mərhələsində idi. Elə buna görə də Romanı şərqlilər - vandal Stilihon və yarı alman Aetsi müdafiə edirdilər. Bu qəbildən olan adamlar Qərbdə [396-397] tanınmasalar da, Şərqdə çox məşhurlaşmışlar: Velizaridən Aleksey Murzufl və İoan Kantakuzinədək.

Bu qısa yaddaş passionarlığın, hətta lazımınca müdafiə olunmağı da mümkünsüz edən, itirilməsinin nə dərəcədə dəhşətli bir hadisə olduğunu aydın təsəvvür etmək üçündür. Axı, barbarların sayı həddən artıq az idi. Məsələn, vandallar - cəmi 80 min nəfər, onlardan da yalnız 16 mini döyüşçü. (22) Amma onlar Romanı yandırıb külə çevirdilər! Germanların ələ keçirdikləri torpaqlar uzun illər boyu ağır itki sayılırdı.

VI əsrdə Yustinian Roma imperiyasını bərpa etməyə cəhd göstərdi. O, vandal və ostqot krallıqlarını məhv etməyə və İspaniyada vestqotları bir qədər sıxışdırmağa nail olsa da, istilanın müvəffəqiyyətlə başa çatdırılması üçün Konstantinopolun nə pulu, nə canlı qüvvəsi, nə də müvafiq ideyaları qalmamışdı. Həm də ki, arxada slavyanlar və iranlılar təzyiq göstərdikləri, qotların yerini lanqobardların tutduğu, onların ardınca isə özlərindən də vəhşi frankların gəldiyi bir dövrdə qotlarla mübarizə barədə düşünməkmi olardı? Sonunculara (franklara, -tər.) qarşı moizə silahdan daha kəsərli olsa da, əqli təsir üçün missionerlərin qarşılıqlı yardımını təmin edən məqsədin aydın dərki və daxili birgəlik zəruridir. Hətta qnostik və neoplatonçulardan xilas olan Bizansda da bunlar heç vaxt olmamışdı.

Bizans sərkərdələrinin ostqotlardan azad etdikləri İtaliyaya lanqobardların təcavüzü 568-ci ildə baş verdi. Lakin onlar İtaliyanın yalnız bir hissəsinə yiyələndilər. Beləcə, Bizansla itirilmiş ərazilər arasında sərhəd yarandı. Həmin ərazilərdə isə german krallıqları yerləşirdi, Roma vətəndaşları istila olunmuş xalqlar və məzlum siniflərə çevrilirdi.

Beləliklə, xalqların böyük yerdəyişməsini izah etmək mümkündür: o, passionar təkanın nəticəsi idi. Bu təkan daklar və yəhudiləri hələ qüvvədə olan Roma üzərinə vaxtından əvvəl atılmağa məcbur etdi və Bizansı yaradan xristian icmalarının qələbəsinin təminatı oldu. Deməli, Şərqdə passionar potensiallar bərabər olduğundan, istila baş vermədi, potensiallar fərqinin kifayət qədər olduğu Qərbdə isə sivilizasiyalı bölgələrə sanki kortəbii şəkildə qot, vandal, burqund, svev, alan, lanqobard və franklar axışıb gəldi. Onlar azsaylı, lakin passionar idilər, yəni hər biri təkcə özünü yox, tayfasını, ailəsini, başçısını, şöhrəti və gələcəyi düşünürdü. Aralıq dənizinin gözəl sahillərinə yiyələnən Baltikyanı meşələr və Qara dəniz ətrafı çöllərinin sakinləri yeni şəraitə alışa bilmədilər. [397-398] Onlar özləri təsərrüfatı idarəetməyi bacarmasalar da, qalib olduqlarından, bütün yaxşı şeyləri mənimsəyirdilər. Lakin aborigenlərin iştirakı olmadan bu mümkün deyildi. Bu səbəbdən də V-VI əsrlərin barbar krallıqları yırtıcı, lakin dayanıqsız fantastik bütövlərə çevrildi. VIII əsrdə Afrika və İspaniyanı özlərinə tabe edən ərəblər yalnız Atlas və Asturiya dağlılarının, yəni roma sivilizasiyasının minimal təsirinə məruz qalan landşaft sakinlərinin müqavimətilə üzləşdilər. Buralarda təbiətlə həmrəy şəkildə yaşayan qədim etnoslar - bərbərlər və basklar qalmışdı. Onları qoruyan da elə öz torpaqlarının təbiəti oldu.

Meşələri dəbdəbəli villa və məbədlər ucaltmaq üçün qıran roma kolonistlərinin İspaniyanın viran qoyulan geniş ərazilərində sənaye qoyunçuluğu ilə məşğul olan təsərrüfatlar yaradan, Atlas dağlarının cənub ətəklərində isə indiyədək bərpa olunmayan nazik çürüntü qatını hökumət ilxılarının dırnaqları altında məhv edən xələfləri həm şimaldan (skandinavlar), həm şərqdən (avarlar), həm də cənubdan (müsəlmanlar - ərəb-bərbərlər) gələn qəddar istilaçılar qarşısında aciz qaldılar. Bu bədbəxt adamlar artıq Şərqdən də kömək gözləmirdilər. Aradan keçən V-VII əsrlər ərzində yunanlar və velski (latın dilində danışan adamlar, onları volox da adlandırırlar) artıq özlərini soydaş saymırdılar. Tarixi tale, yaxud "əşyaların qüvvəsi" onları ayrı-ayrı yollarla aparmışdı.

**Qarşılıqlılıq**. Uzun müddət qaliblərlə məğlublar - tevtonlarla velski yanaşı yaşasalar da, bir-birinə qarışmır, yalnız qarşılıqlı nifrət və həqarət duyurdular. Qərbi Avropa superetnosdan etnik ilişkilər bölgəsinə çevrildi ki, bunun da sonucu məlumdur. İstila olunmuş ərazilərdə yaranan bütün barbar krallıqları görünməmiş sürətlə dağılaraq, Roma mədəniyyətini də, qədim germanların VII əsrin sonunda artıq vəhşilik və qəddarlığa çevrilən mərdliyini də özlərilə apardılar. (23) Etnik sapınma zamanı dağılma prosesləri həm qaliblər, həm də məğlublar üçün eyni dərəcədə sürətlənir.

Bizansın ikonoborçuluqda əks olunan müdhiş daxili sarsıntı keçirdiyi, Asiyada isə VII əsrdə yaranan superetnosların - ərəb-müsəlman, tabğac (orta əsr Çini), türk-tibet (onları genezis və ərazi əlamətlərinə görə birləşdirmək olar) çiçəkləndiyi və genişləndiyi VIII əsrdə Qərbi Avropa dərin tənəzzül keçirirdi. O, təcavüz obyektinə çevrilmişdi. Ərəblər Luaraya çatmışdılar, alanlar Reynə qədər yürüşlər edirdilər, slavyanlar isə Elbanın sağ sahilini ələ keçirdilər və hətta onun aşağı axarında çayın sol sahilinə də keçdilər. Romadan miras qalan təsərrüfat sistemi tamamilə dağıldı [398-399] və Fransada təbii meşələr bərpa oldu. (24) Sonuncu amil passionarlığın son dərəcə aşağı düşdüyünü göstərir, çünki ən mühafizəkar sinif olan kəndlilər torpağın becərilməsini acından ölməmək imkanı verən minimuma endirmişdilər. Merovinq sülaləsindən olan krallar hətta o zaman belə, "tənbəl" ləqəbi qazanmışdılar, onların

drujinaçıları isə özbaşınalıq, sədaqət və borc ənənələrinin unudulmasında yarışa çıxmışdılar. İki superetnosun birgəliyi hər ikisi üçün zərərli idi.

Ərəblərin təzyiqinin qarşısını alan və Roma papası ilə ittifaqa girən ilk Karolinqlər - Uzun Pipin, Karl Martell və Gödək Pipinin siyasətləri qayda-qanun yaratmaq cəhdi idi. Onların səyləri Böyük Karl imperiyasının yaradılması ilə sonuclansa da, bu imperiya artıq Karlın nəvələri dövründə dağıldı. Bu imperiyada hər şey kənardan alınmışdı: ideologiya Bizansdan, təhsil İrlandiyadan, hərbi texnika (cəngavərlərdən ibarət süvarilər) avarlardan, təbabət-ərəblər və yəhudilərdən. Bunlar hamısı bir yerdə "Karolinq intibahı" adlandırılır.

Ənənəvi tarixşünaslıqda karolinqlər imperiyası fransız sülaləsi kimi nəzərdən keçirilir və onun krallarının sırası Böyük Karldan başlanır. Daha əsaslı konsepsiyanı O.Tyerri təklif etmişdir. O göstərirdi ki, Karolinqlər müasir Fransa ərazisindəki hökmranlıqlarını yalnız zor gücünə həyata keçirirdilər. Bretan, Akvitaniya, Provans və Burqundiya yalnız müstəqilliklərini qoruya bilmədiklərindən onların hakimiyyətini qəbul edirdilər. Əksinə, frankonların əcdadları olan qərb frankları Karolinqlərlə qırılmaz şəkildə ilgili idilər. Beləliklə, bu sülalə və onu dəstəkləyən etnos - franklar xalqların böyük yerdəyişməsinin german superetnosuna aid edilməlidir. Bu, həqiqətən də belədir və bu baxımdan onların hərbi nailiyyətləri asanlıqla açıqlanır.

Qall-romalıların xələflərilə qarışan german mühacirlərinin azalmaqda olan passionarlığının ümumi fonunda Karl Martel, Gödək Pipin və Böyük Karl ətrafında toplaşan bir dəstə drujinaçı həqiqi qüvvə idi, çünki rəqibləri onlardan da zəifdi. Karolinqlər Provansın (737-739), Akvitaniyanın (760-768), Lombardiyanın (774), Bavariyanın (788), saks tayfasının (797) müstəqilliklərini məhv etdilər, Barselonanı ərəblərin əlindən aldılar (801) və avarlara qalib gəldilər (802-803). Lakin sonuncu iki əməliyyat istisna olunmaqla, bütün qalan hallarda özününkülər üzərində qələbələr əldə edilmişdi: "almanlar almanları əzirdilər". Böyük Karlın varisləri dövründə isə bu nailiyyətlər də heçə endirildi: Dunay və [399-400] Elba vadilərinə slavyanlar yiyələndi, "ispan markası" imperiyadan ayrıldı, sonuncu isə, öz növbəsində, tərkib hissələrinə parçalandı.

Beləliklə, Karl imperiyasını orta əsr Avropa superetnosunun başlanğıcı kimi yox, xalqların böyük yerdəyişməsinin ətalətinin başa çatması kimi nəzərdən keçirmək daha doğru olar.

Bir qayda olaraq, sistemin artımı inkişaf ətaləti yaradır. Bu ətalət mühitin müqavimətinin təsirilə tədricən yox olur ki, nəticədə etnogenez əyrisinin enmə qolu, yüksəlmə qolundan xeyli uzun olur. Hətta etnosun həyat fəaliyyəti optimumdan aşağı düşən hallarda da sosial institutlar fəaliyyətini davam etdirir, bəzən isə onları yaradan etnosdan da artıq mövcud olurlar. Belə ki, antik roma və məğrur Bizans xatirələrə çevrilsələr də, roma hüququ Qərbi Avropada kök saldı.

Etnoloji dövrləşmə sosial-iqtisadi ilə heç də üst-üstə düşmür. Qalliya ərazisindəki erkən feodal dövlətləri V-VI əsrlərdə, bu zəngin ölkəni bölüşdürən istilaçı Merovinqlər, burqundlar və britlər dövründə yaranmışdı. Bu o deməkdir ki, fransız etnogenezinin başlanğıcı ilə feodal formasiyasının meydana çıxması arasında dörd əsr var. Deməli, bu proseslər funksional baxımdan ilgili deyil, üstəlik, bu diyarda meqdaya çıxan feodalizm tipoloji baxımdan fərqləndirilə bilir. (25)

Feodalizmin beş tipi burada barbarların təcavüzləri nəticəsində yaranan beş etnik bölgəyə müvafiq gəlir. Franklar Sena və Marna vadilərində "barbar və antik elementlərin harmonik qarışığını yaratdılar". Romanın keçmiş federatları olan burqundlar yerli əhalidən servlərin 1/3-ni, malikanələrin 1/2-ni, əkinə yararlı torpaqların 2/3-ni aldılar və ariçi olduqları üçün uzun müddət aborigenlərlə qaynayıb qarışmadılar; vestqot, ostqot və ərəblərin bir-birini əvəzlədiyi Provans antik şəhərlərə məxsus elə çox əlamət qoruyub saxlamışdı ki, Qərb aləmini yox, "Bizansı xatırladırdı"; vestqotların yüz ildən də az (418-507) hökmran olduqları Akvitaniya isə həm qonşu Provans, həm də frank bölgələrindən fərqlənirdi. Bretan, yəni qədim Armorika xüsusi yer tutur. V əsrdə britlər buranı romalıların əlindən almış və 845-ci ilədək franklardan qorumuşdular. Bundan sonra müstəqil Bretan krallığı və separat Dol arxiyepiskopluğu yaradılmışdı.

Beləcə, sosial inkişaf materiyasının toxjumaları arasından etnogenez proseslərinin cizgiləri də görünür.

**Anomaliyalar**. Biz artıq çox həyəcan doğuran bir problemlə üzləşirik: ideoloji və texniki bütövlər olan mədəniyyətlərlə, biosfer [400-401] hadisəsi olan etnosun ilişkiləri. Erkən xristian mədəniyyəti (nəzərdən keçirdiyimiz IV-VIII əsrlərdə tamamilə müəyyən məzmuna malik anlam idi) nəinki keçmiş Roma imperiyasının bütün ərazilərini, hətta ətraf bölgələri - Ermənistan, Ərəbistanın bir hissəsi, Abissiniya, Germaniya və yaşıl Erin adasını da əhatə etmişdi. Sonuncunun taleyi xüsusilə əlamətdardır.

Keltlər xristian ənənələrini 432-461-ci ildə Romadan deyil, Suriya və Misirdən əxz etmişdi. Yaşıl adada dilənçi rahiblər yeni Fivaida aratdılar. Təfavüt yalnız onda idi ki, onlar mağaralar əvəzinə qamış komalarda aşayırdılar. Onlarda dəbdəbəli kilsə ənənələri yaranmasa da, rahiblərin xalqa nəhəng təsiri vardı. Roma ilə heç bir ilgiləri yox idi. Hətta pasxanı da yulian təqvimi ilə deyil, baharın müəyyən günündə qeyd edirdilər. XI əsrin sonunadək İrlandiya rahibləri Qərbi Avropada ən mədəni xristianlar idi və onların kilsələrinə mənsub olan adamlar sakson və norman olan İngiltərə krallarından asılı olmamağa can atdıqları inadkarlıqla, onlar da Roma papalarından asılı olmamağa can atırdı.

Deməli, bu toqquşmanı mədəniyyət tarixi baxımından nəzərdən keçirərkən, keltləri erkən xristian, yəni bizans bütövünün variantlarından biri saymalıyıq. “Karolinq intibahı” və vestqot İspaniyası da bura aid edilməlidir. Bu, problemin məntiqi və ardıcıl həlli olar. Lakin hər bir tarixçi onun kifayət və bu səbəbdən də qənaətbəxş olmadığını görür. Axı, başqa cür ola da bilməzdi, çünki biz bu mədəniyyətin (bütün digərlərinin də) daşıyıcılarının insanlar olduqlarını nəzərə almamışıq. Yer üzərində isə etnossuz adam və vətənsiz etnos yoxdur. Etnosun vətəni deyildikdə isə landşaft və geobiosenozların orijinal və təkrarsız uyuşması başa düşülməlidir.

Biz artıq qeyd etdik ki, passionar təkan Şərqi Avropa və Yaxın Şərqin İsveçdən Fələstinə qədər uzanan zolağını əhatə etmişdi. Deməli, keltlər onun təsirindən kənarda qalmışdılar. Güman ki, elə bu səbəbdən 406-407-ci illərdə romalıların tərk etdikləri britlər bütün kelt kişilərini qıran pikt və anqlosakslarla savaşda məğlub oldular. Britaniyanın təkcə qərb bölgələri qəddar düşmənə qarşı uzun müddət duruş gətirdi. Keltlər tez-tez əks hücuma keçir, kiçik qələbələr əldə edirdilər. Onlar hətta kontinendə yerləşən romanlaşmış Armorikanı ələ keçirərək, orada frank krallarından asılı olmayan, onlara qarşı düşmən mövqe tutan kelt Bretanini də yaratdılar. Onlar anqlosakslar və normanlarla bu mübarizələrini X əsrədək davam etdirdilər. Qısası, sanki qəfildən [401-402] hansısa qüvvəyə yiyələnmişdilər. Lakin bu dərəcədə sadədirmi? Aydınlaşdıraq.

Uels, Kornuels, xüsusən də İrlandiya roma mədəniyyətinin təsirinə həddən artıq az məruz qalmışdı. Onlar öz tayfa ənənələrini və istila dövrlərindən qalmış nisbətən kiçik passionarlıq ehtiyatlarını qoruyub saxlamışdılar. Bu ehtiyat Qalliya və Britaniyanın roma və german təcavüzlərinə müvəffəqiyyətlə duruş gətirməsi üçün kifayət etməsə də, sonuncular passionarlıqlarını sərf etdikdən sonra keltlərin qüvvələr nisbətini bərabərləşdirmələrinə bəs etdi. Həm də onların Bizansdan əxz etdikləri mədəniyyət bu zaman onların impulsunu nə artırdı, nə də azaltdı. Əvəzində, həmin mədəniyyət onlara mənfi də olsa, təsirli olan etnopsixoloji dominantı təyin etməkdə yardımçı oldu: "Biz german deyilik və onlara bənzəmək də istəmirik". Bizans mədəniyyəti ənənələrinin tam itirilməsinə baxmayaraq, belə qarşılaşdırma Uelsin ingilislərə 1283-cü ilədək, İrlandiyanın isə bundan da xeyli uzun müddət müqavimət göstərmələri üçün tamamilə bəs oldu.

Biz yalnız ilkin açıqlama təklif etdik. Ola bilər ki, eramızın əvvəlində Atlantika sahillərində Erindən cənuba - Baskoniya, Atlas, Saxaradan keçərək Qvineya körfəzinədək uzanan xüsusi passionar təkan da baş veribmiş. Bu halda taureqlər (Əlmörəvilər) və bərbərlərdə (Əlmöhədlər) müşahidə olunan fəallaşmalar və bantuların yayılmasının başlanması açıqlana bilər. Lakin bu təxmin hərtərəfli yoxlanmalıdır və burada işçi fərziyyə kimi təklif olunur.

**Gəncliyin zəifliyi**. Avropanın gənc xalqlarının taqətdən düşmüş Romanın öhdəsindən gəlmələri, ondan çeşidli qüsurları əxz etmələri və yox olmaları təəccüblü deyil. Lakin akmatik mərhələyə qədəm qoyan etnoslar özlərindən zəif rəqibləri tərəfdən məhv edilirsə, bu təəccüb doğurur. Görünür, mərhələdən mərhələyə hər hansı bir keçid etnos üçün təhlükəlidir. İlan dərisini dəyişən zaman köməksiz olduğu kimi, etnos da “ruhunu”, yəni davranış stereotipi və ictimai imperativi dəyişən zaman gücsüz olur.

Belə bir fikir geniş yayılıb ki, ispan konkistadorları mərkəzi və Cənubi Amerikada qədim sivilizasiya aşkar etmiş və ona divan tutmuşlar. Hinduları sevən bütün adamlar, o cümlədən, bu sətirlərin müəllifi də bu münasibətlə irqlərinin ən yaxşı təmsilçiləri və çoxəsrlik mədəniyyətin daşıyıcıları saydıqları astek və inklərin taleyinə acıyırdı. [402-403]

Xoşbəxtlikdən, son zamanlar Amerika etnogenezinin bir sıra mərhələlərini açıqlamaq mümkün olmuşdur. Məlum olub ki, Meksika və Peru hindularının qədim mədəniyyətləri nisbətən yaxın zamanlarda, lakin kökündən məhv olub. Meksika körfəzi sahillərində yaşayan Olmeklər VI əsrdə yox olmuş və yerlərini gəlmə totonaklara vermişlər. Anauka mədəniyyətinin yaradıcıları olan tolteklər öz dövlətlərini, təxminən, 720-ci ildə qurmuşlar. Bəs, onlara qədər nə vardı? VIII-X əsrlərdə Peruda qədim arxeoloji Moçica və Tiauanako mədəniyyətləri - aymar etnosunun inklərəqədərki mədəniyyəti yox oldu. Arxeolojilərlə birgə etnik qurumlar da yox oldu, çünki Amerikada savaşlar düşmən tam məhv edilənədək aparılırdı. İnklər bir qədər istisna təşkil etsələr də, onlara hələ yox idi. (26) Bu qədim etnosların ink və asteklərə münasibəti romalıların onlardan dil mədəniyyəti ənənələrinin, genofondun bir hissəsini, şəhərlərin xərabələrini və pərakəndə biliklər miras alan fransızlar və ispanlara münasibəti kimi idi. Lakin sonuncular romalı deyildi. Eyni yerlərə köçən ink və asteklər də yeni etnoslar oldular.

Lakin IX-X əsrlərdə fransızlar, provansallar, ispanlar, almanlar, lombardiyalılar və pyemontlular artıq yeni tipli etnoslar kimi formalaşmağa başlamışdılar, Amerikada isə “Xalqların böyük yerdəyişməsi” daha gec başlamışdı.

Əfsanəyə inansaq, yalnız XI əsrdə Perunun cənubunda ilk inklər - Manko Kapak və Mama Oklyo məskunlaşdı və təxminən, elə o vaxt - 1068-ci ildə asteklərin əcdadları Rio-Qrandeni keçərək, başqa qəbilələrlə birlikdə cənuba üz tutdular. XII əsrdə çiçimeklə (hərfən: “vəhşilər”) tolteklərin qalıqlarını istila etdilər və sonuncuların mədəniyyəti də Qalliya və İspaniyada roma mədəniyyəti kimi tənəzzülə uğradı. Yalnız XIV əsrdə asteklər Tenoçitlanın əsasını qoydular (1325) və toltek mədəniyyətinin qalıqlarını əxz etdilər. Elə həmin XIV əsrdə Virakoça sonralar ispanların istila etdikləri imperiyanın əsasını qodu. Lakin Virakoçanın tarixi şəxsiyyət olması şübhə doğurur. 1437-ci ildə İnka Paçakautek inklərin layiqli rəqibləri

olan çanklara qalib gəldi, onların hökmdarını edam etdi və bu etnosun qalıqları həyat üçün həddən artıq təhlükəli olan amazoniya selvasına pənah aparmalı oldu. (27) Daha sonra o, taxt-tacı ələ keçirdi, inklərin tarixinə bələd olan alimləri edam etdirdi, yazının öyrənilməsini qadağan etdi, əxlaq polisi yaratdı və bununla da ink sivilizasiasını bərqərar etdi. O, Janna d'Ark, Yan Qus, Petrarka və Djottonun müasiri idi. [403-404] Etnogenezdəki yerlərinə, yaxud etnosun yaşına görə isə Virakoça Böyük Karla, Paçakautek isə Mömin Lyudovikə və vəhşi Avropaya savadlılıq və yaradıcı təfəkkür gətirən "Karolinq intibahını" bəxş edən Lotara bərabərdir.

Paçakutekin varisi olan İnka Tupak Yupanki 1476-cı ildə Çimu dövlətini (müasir Ekvador) istila etdi, burada hinduların amansız istismarı rejimini bərqərar edib, onları dövlət torpaqlarını becərməyə, qışda isə And dağlarında yollar çəkməyə məcbur etdi. Güman etmək olar ki, hindulara azacıq da rəğbət bəsləyən adam inklərə nifrət etməlidir və bu, tamamilə məntiqidir.

İtaliyada İntibah dövrünün başladığı elə həmin XV əsrdə astek çarı İtskoatı (1428-1440) və onun müşaviri olan mütəfəkkir Tlakaelel toltek mədəniyyətini dirçəltdilər. İtskoatl və onun varisi I Montesuma (1440-1468) Anauakı (Cənubi Meksika) istila etdilər, Tlakaelel isə "çiçək kultunu", yəni Yerin gələcək bəlalardan qurtulması naminə insanların qurban verilməsi ayinini yaratdı. Bu, qətl xatirinə qətllər, sırf qəddarlıq idi.

Hindular var qüvvələrilə müdafiə olunurdu. Huastek və taraskilər onlardan qurban vermək üçün gənclər almaq istəyən astekləri darmadağın etdilər. Araukanlar onlara sivilizasiya "bəxş etməyə" gələn astek qoşununu geri oturtdular. Kito (Ekvator) ətrafında yaşayan qəbilələrin başçıları İnki Tupak Yupankinin hindu kənizindən olan qeyri-qanuni oğlu Ataulpadan qanuni vərəsəsi İnki Uaskara əleyhinə istifadə etdilər. 1527-ci ildə üsyançılar qələbə çaldılar və təslim olan bütün inkləri öldürdülər. Qadın və uşaqlara xüsusi işgəncələr verirdilər. İnklərin çox az qismi salamat qaldı. Elə bu faciəvi məqamda ispanlar meydana çıxdı. 1532-ci ildə Pisarro Ataulpanı əsir tutdu, məbədlərin sərvətlərini qarət etdi, girovu azad etmək üçün verilən pulu mənimsədi, əsiri edam etdirdi və… heç kim yerindən də tərpənmədi.

Axı, Atautalpanın müdafiəsinə kim qalxa bilərdi? İnklər onu müstəbid və xain, hindular isə zülmkar inklərin törəməsi sayırdılar. Sonuncu Böyük İnka - Manko kapak hinduları azadlıq savaşına səslədikdə isə onun ardınca çox az adam getdi və onları darmadağın etmək üçün Almaqro dəstəsindəki bir neçə yüz ispaniyalı bəs oldu. (1535)

Muisklərin müasir Kolumbiya ərazisindəki dövləti də eyni asanlıqla məhv edildi. Tamahkar və xəyalpərvər konkistadorların can atdıqları "Eldorado" da elə bura idi. 1536-cı ildə Qonsalo Kesadanın bəxti gətirdi. Muisklər ona çox zəif müqavimət [404-405] göstərdilər. Demə, onlar da nisbətən yeni etnos idi, çünki şimali Anddakı qədim mədəniyyətlər yalnız eramızın II minilliyinin əvvəllərində məhv olmuşdu. Şimaldan gələn qəbilələr aborigenləri qılıncdan keçirdilər. (28) Qalib gələn ispaniyalılar bu ölkədə yuxarıların aşağıdakılara qarşı elə təhqiramiz davranışı ilə üzləşdilər ki, özləri bunun heç yarısına da qadir deyildilər. Məsələn, ali mənsəbə mənsub muiskin üzünə belə baxmağa cürət edən hidu tam zülmət içində zəhərli ilanların üzdükləri yeraltı gölə atılırdı. Bədbəxt orada ilanla rastlaşana və onun sancmasından ölənədək üzürdü. Hər hansı bir məsələ ilə rəislərə müraciət etmək üçün isə arxası ona tərəf yerə oturmaq və üzü bükülmüş dizlərə söykətmək tələb olunurdu. Təbiidir ki, hindular öz hakimlərinin müdafiəsinə qalxmadılar.

Əvəzində, cənub araukanları elə bir rəşadət göstərdilər ki, konkistador Pedro Valvia və onun bütün dəstəsi 1553-cü ildə həlak oldular. İspaniya Araukaniyanı müstəqil dövlət kimi tanıdı və onun səfirini Santyaqode-Çilidə qəbul etdi. Lakin araukanlar "sivilizasialı" xalq deyildilər. Onlar qədim ənənələri qoruyub saxlayırdılar. Bu o deməkdir ki, onlar XIII əsrin passionar təkanı və XII əsrdə baş verən Amerika "Xalqların böyük yerdəyişməsi"ndən kənarda qalmışdılar. Etnogenezin ilkin mərhələlərində də etnos son mərhələlərdə olduğu kimi zəifdir.

Cəmi min nəfər ispaniyalı döyüşçüsü olan Kortes də 1521-ci ildə Kuautemokun 30 min cəsur astekdən ibarət ordusuna qalib gəldi, çünki tontonaklar və Tlaskala çiçimekləri asteklərin hegemonluğuna son qoymaq üçün 50 min döyüşçü göndərmişdilər. Hindular şüurlu şəkildə özlərinə tay bildikləri ispaniyalılara üstünlük verdilər. Bəlkə də onlar yanılmışdılar, axı, ispaniyalıların Amerikaya gətirdikləri inkvizisiyanı yaxşı bir şey adlandırmaq olmaz. Lakin ondan qurtulmaq mümkün idi, çünki, əslində, inkvizisiya hücum üçün deyil, müdafiə olunmaq üçün yaradılmışdı.

**Aydınlaşdırıram**. 1529-cu ildə türklər Əlcəzairə yiyələndilər. İspaniya sahilləri müsəlmanlar üçün açıq idi, ölkə daxilində isə bunun arzusunda olan çoxlu yəhudi və morisk yaşayırdı. Başqa dinlərə mənsub olanların təəssübkeşliyinə haqlı olaraq şübhə edən İspaniya hökuməti onlara hərbi və mülki vəzifələr tutmağı qadağan etsə də, xaç vurmağı qadağan edə bilməzdi. Xaçpərəstliyi qəbul edən mavr və ya yəhudi ispanlarla yanaşı vəzifə tutmaq və irəliləmək hüququ əldə etdiyindən, çoxları yalandan bu dini qəbul edir, lakin köhnə dinlərinə sadiq qalırdı. İnkvizisiya məhz beləlırini [405-406] üzə çıxarır və cəzalandırırdı. Deməli, tribunala düşməməkdən ötrü, katolikliyi qəbul etməmək də olardı.

Amerikada inkvizisiya insanların, xüsusən də uşaqların qurban verilməsinə görə ciddi cəzalandırırdı. Əlbəttə, bu, hinduların mənəviyyatını zorlamaq demək idi. Lakin nə edəsən, uşaqlar da yazıqdı. Qurban vermək ayinindən imtina edən hindu öz həyatı üçün təlaşlanmaya bilərdi. Asteklərdən qorunmaq isə xeyli

müşkül məsələ idi. Onlar əllərinə keçən hər bir əsiri teokalliyə sürükləyirdilər. Müdrik, cəsur və gözəl olanların obsidin bıçağın qurbanı olmaq şansları daha çoxdu. Elə buna görədir ki, ispanlar 300 il müddətinə Amerikada bərqərar oldular.

Avropa və Amerikanın tarixini təklif olunan diaxronik baxımdan nəzərdən keçirsək, görərik ki, Amerikanın öz “Böyük yerdəyişmə”si və “antik mədəniyyətin məhvi” dövrləri olub, lakin passionar təkan 500 il gec - XIII əsrdə baş verib. Yerli əhali üçün öz imperiyalarını yaradan astek və inklər keltlər üçün anqlosakslar, qall-romalılar üçün isə franklar kimi idi. Deməli, XVI əsrin əvvəllərində astek və inklər fransız, ispan və italiyanların X əsrdə olduqları yaş dövrünü yaşayırdılar. Bu isə Romadan miras qalan Avropa mədəniyyətinin dezinteqrasiyası (tərkib hissələrinə parçalanma.-tər.) və xaricdən zərbələrə qarşı davamlılığın azalması dövrü idi! Macar, bərbər, skandinavlar Karolinq imperiyası və anqlosaks krallıqlarını XVI əsrdə ispan və portuqallar öz gələcək müstəmləkələrini talan etdikləri qədər uğurla var-yoxdan çıxarırdılar. Görünür, astek və inklər inkişaflarının dönüş anında, dinamik yüksəliş mərhələsinin çiçəklənən akmatik mərhələyə keçidi zaman yaxalanmışdılar. (bax: cədvəl 4). [406-407]

**Cədvəl 4. Qərbi Avropa və Amerikada VII-XV əsrlərdə etnogenez mərhələləri**

| Əsr | Anauak | And dağları | Şimal-şərqi Amerika | Avropa |
|---|---|---|---|---|
| VII | Totonaklar olmeklərin yerində | | | Avropada xalqların böyük yerdəyişməsinin başa çatması |
| VIII | Tollanda ilk toltek hökmdarı (təx.720-ci il). | Moçika mədəniyyəti yox oldu | Eskimosların cənuba və şərqə yayılmaları | Ərəblər Akvitaniyada. Avarlar Pannoniyada. Loparlar Skandinaviyada. Keltlər Bretanda. Demək olar ki, məhvolma! |
| IX | Mişteklərin Tilatonqoda ilk sülaləsi (1838) | | | Karl imperiyası (800-809) Etnoərazi inqilabı. Vikinq yürüşləri |
| X | Ketsalkoatl Yukatana qaçdı (947), Mayyapanın əsasını qoydu (987) və insanların qurban verilməsi başladı | Aymarların inklərəqədər ki mədəniyyətlərinin dağılması | Notmanlar Vinlanda çatdılar | Feodal inqilabı. Etnik krallıqların yaranması. Karolinq imperiyasının parçalanması |
| XI | “Mayya intibahının başlanğıcı. Asteklər cənuba üz tutdular (1068). Kulua tolteklləri istila etdi. Hausteklər Meksika körfəzinə çatdı | İlk inklər: Manko Kapak və Mamo Oklyo | Atapasklar eskimoslara qarşı | “Xristian dünyası”nın qonşular üzərində qələbəsi [407-408] |
| XII | Çiçimeklər toltekləri məğlub etdi.Mayyapan lı Hunak Keel Çeçen-İtsunu aldı və Yukata nı birləşdirdi (1194) | Sallar üstündə üzüb gələn çi mular Peruda dövlətlərini ya ratdılar. Çinça Peruya girdi. İnka Sinça Roka ay mara qəbilələrinə hücum etdi | Atapasklar Arizonaya gəldi | Təcavüz: Səlib yürüşləri. Rekonkista |
| XIII | “İtsa adamları” Mayyapanı tutub,“dağlardan gələn yadları” qovdu (1204-44). Asteklərkuluakanlara tabe oldu. Mayyapanda Kokomların hökmranlığı | İnklər aymara, kolya, keçua və çankları istila etdi | Eksimoslar Qrenlandiyadanormanlara rast oldu | Əndəlusiyanın istilası |
| | Tenoçtitlanın | Tauantinsuyyu | Eskimoslar | Krallarla |

| | | | | |
|---|---|---|---|---|
| XIV | əsasının qoyulması (1325). Çiçmeklər mədəniyyət əxz etdi.Tepaeklərin yüksəlişi.Mayya "adamyeyənləri" dəf etdi. | yarandı | normanlara qalib gəldi (1362) | feodalların müdhiş savaşları. Yüzillik savaş İspaniyaya da keçdi. |
| XV | İtskoatl (1428-40) tepaneklərə qalib gəldi. Tlakaelel "rənglər kultu"nu tətbiq etdi. Ax Şupan Mayyapanı darmadağın etdi (1441). I Montesuma Anauakı ələ keçirdi (1440-68) Tuastek və tarasklar asteklər məğlub etdi. | İnka paçakutek çankları məğlub etdi (1437), hakimiyyəti ələ keçirdi, hökmdar və alimləri öldürdü. İnka Tupak Yupanki Çimanı ələ keçirdi (1467) | Eskimoslar Qrenlandiyaya yiyələndi. İrokez ittifaqının yaranması | İspaniyanın birləşdirilməsi Amerikanın kəşfi [408-409] |

Lakin sabit mərhələlərdə olan qəbilələrlə üzləşən kimi, ispanlar məğlub oldular və müdafiəyə keçdilər. Üstəlik, XVIII əsrin əvvəllərində komançilər ispanları Rio-Qrandedən o tərəfə sıxışdırmağa başladı, seminollar isə hətta onların artıq kifayət qədər bərqərar olduqları Floridanı ələ keçirdilər. Meksika və And dağlarında ispanların hindularla metisləşməsi hər iki komponentdə böyük passionar gərginlik olmaqla, o qədər intensiv cərəyan etdi ki, yeni etnoslar meydana gəldi və onlar 1810-1822-ci illərdə müstəqilliyə nail oldular. İspan koloniyalarının yerində konkistadorların nail ola bilmədiklərini - Yukatan, Çili, Pataqoniya və Odlu Torpaq hindu etnoslarının istilasını həyata keçirən Anti-İspaniya yarandı. Arası kəsilən proses yenidən bərpa olundu, lakin yalnız XVI əsrədək cərəyan etdiyi yerlərdə. Şimali Amerikada hindu superetnoslarının yerində Avropa və Afrikadan gələn etnosların təmas bölgəsi yarandı.

Şimali Amerikada nisbətən qədim, homeostaza qayıdan etnoslar məskunlaşmışdı. Bunların arasında avropalıların gəlişindən bir qədər əvvəl qərbdən Böyük Çöllər bölgəsinə nüfuz edən irokezlər (29) və Kordilyer dağları ətəklərindəki atapasklar istisna təşkil edirdi. Etnogenez partlayışının törəmələri və Amerikadakı "Xalqların böyük yerdəyişməsi"nin iştirakçıları da yalnız bu sonuncular idi. Təxminən, XII əsrdə atapaskların bir hissəsi eksimosları tundraya sıxışdırdı, digər hissəsi isə cənuba - Arizonaya üz tutdu. Lakin onlar cənubda qüdrətli dövlət yarada bilmədilər, çünki piyada ovçular ucsuz-bucaqsız prerilərə yiyələnə bilməzdi. Şərq qonşuları komançilər kimi, atapasklar da çay vadilərinə sığınmalı oldular, buralarda hökm sürən ərzaq qıtlığı isə əhali artımını durdurdu. Lakin ispanların prerilərdə başlı-başına qalaraq vəhşiləşən atları mustanq ilxılarına çevrilən kimi, çöl hinduları atçılığı mənimsədilər, apaçilərlə navahların adları bütün dünyaya yayıldı.

Amma artıq gecdi. Kolonistlərin artıq Amerikaya uyğunlaşan xələfləri-skvatter, trapper və kovboylar hinduları say və texnikaları ilə üstələdilər. Bu da qırılan etnogenezə dair daha bir örnək. [409-410] Lakin cənub variantından fərqli olaraq, burada proses təzələnmədi. İspanlar irqçi deyildilər və qarışıq nigahlardan dəhşətə gəlmirdilər. Əvəzində, anqlosakslar, xüsusən də qadınlar, hindulara nifrət edir, onların ərləri isə "Yaxşı hindu ölü hindudur" qaydasını əldə rəhbər tuturdu. Şimal hindularının faciəsi XIX əsrin 70-ci illərindəki "hindu savaşı" adlandırılan qırğınla başa çatdı. Bundan sonra ABD-də hindu etnosları qalıq kimi mövcud olmaqdadır.

Qaytarılmış gənclik. Nə qədər ki, İspaniya məğlubedilməz görünənədək Cənubi Amerika və Meksikadakı koloniyaları istədiyi kimi idarə edirdi. Lakin 1808-ci ildə Napoleon Bayonnada kral ailəsini həbs etdirəndən, Madriddəki taxta qardaşı Jozefi oturdandan və öz ənənə və müstəqilliklərini müdafiə edən ispanlara qarşı savaşa başlayandan sonra müstəmləkələr İspaniyadan ayrıldı. 1810-cu ildən 1821-1822-ci illərədək İspaniya üsyançıları ram etməyə çalışsa da, bir şeyə nail ola bilmədi. Müstəmləkə rejimini yalnız bir sıra hindu qəbiləsi dəstəklədi ki, bunun da səbəbi onların üsyan edən kreollara ispanlardan da daha artıq nifrət etmələri idi. Diqqətimizi Meksika üzərində cəmləşdirək, çünki burada istilanın sapdırdığı etnogenez prosesinin bərpası ən əyani şəkildə baş verdi.

XVI əsrdə ispanlarla hindular sürətlə qarışır və belə bir təsəvvür yaranırdı ki, burada ispan etnosunun lokal variantı yaranacaq. Amma bunun tam əksi baş verdi: XVIII əsrin sonu üçün iki əvəzinə,

bir-birinə nifrət edən dörd etnik qrup yarandı. Belə bir fikir var ki, bu, uğursuz inzibatçılığın sonucudur, lakin, görünür, səbəblər daha dərində yerləşir - təmas superetnik səviyyədə baş verdiyindən, müvafiq nəticələrə gətirib çıxarmışdı.

Ali sosial təbəqə olan "qaçupinlər" (mahmızlı adamlar) (30) İspaniyadan gələnlərdən ibarət olub, ən yüksək vəzifələri və ticarəti öz əllərində təmərküzləşdirmişdilər. Bunların sayı az, onlara münasibət isə mənfi idi. Lakin qaçupinlər ordu və ruhaniləri özlərinə tabe etdiklərindən, öz imtiyazlarını kifayət qədər qoruya bilirdilər.

Çox vaxt hindularla qarışığı olan meksika sakinləri - konkistadorların xələfləri olan kreollar (təxminən, 1 milyon nəfər) birincilərdən bir pillə aşağıda dururdu. Bunlar hinduların işlədikləri asiyendaların zəngin sahibləri idi. Krala və kilsəyə sədaqətli olan və bürokratik-qaçupinlərə nifrət bəsləyən kreollar dəbdəbəli və sərgərdan bir ömür sürürdülər.

Lakin XIX əsrin əvvəllərində kreollar arasında öz gücünü tətbiq etməyə yer axtaran passionarilər meydana çıxdı. Bu adamlar [410-411] fransız ədəbiyyatını oxumağa başlayaraq, həyatda özlərinə məqsəd tapdılar ki, elə həmin məqsəd onlardan çoxunun iztirablar içində həlakına səbəb oldu.

Üç və ya dörd milyon hindu peon (mozdur) kimi asiyenda, ya mədənlərdə çalışır, ya da kasiklərin (başçıların) rəhbərliyi altında öz kəndlərində yaşayırdı. XVI əsrdə vəziyyət yaxşılaşdı, çünki ispan məmurlarının tələbləri heç də asteklərin tələblərindən yüksək deyildi, üstəlik, uşaqları Uitsilopotçliyə qurban vermək də lazım gəlmirdi. Lakin XVII-XVIII əsrlərdə mülkədar-kreollar hindu qəbilələrinin torpaqlarını zəbt etməyə başladılar, məmur-qaçupinlər isə onları kifayət qədər müdafiə etmədilər. (31) Rahimlər bir çox hinduları katolikliyə cəlb etsələr də, bu hal o qədər sərhi səciyyə daşıyırdı ki, hindular adətlərini və bütlərini qoruyub saxlamışdılar. Amma məktəblərdə hindu uşaqları ispan uşaqlarından daha yüksək nəticələr əldə edirdilər və bəzən elə olurdu ki, asteklərin xələfləri müəllimliyə qədər ucalır və konkistadorların xələflərinə latın dili və katolik ilahiyyatından dərs deyirdi. (32)

Lakin hamıdan pis XVI əsrdə qarışıq nigahlardan törəyən iki milyon metis yaşayırdı. Mədəni səviyyə yüksəldikcə, kreollar onları öz mühitlərindən qovur, qaçupinlər isə hindular arasında yaşamalarını qadağan edirdilər ki, qiyam törətməsinlər. Metisin nəsibi yalnız ən ağır işlərdə işləmək, ya da quldurluqla məşğul olmaq idi. Lakin onlara qarşı xüsusi polis yaradılmış və ona məhkəməsiz-filansız metisləri öldürmək hüququ verilmişdi. (33) Buna baxmayaraq, metislərin sayı da, onlardakı passionar gərginlik də artmaqda idi, çünki bunlarda konkistadorlarla asteklərin qanı qarışmışdı. Odur ki, onlar məhv olmadılar, əksinə, inkişaf perspektivinə malik xüsusi subetnik qrup kimi fərqləndilər.

Beləliklə, XIX əsrin əvvəli üçün Meksika XVI əsrdə Kortes istilasının durdurduğu yüksəliş mərhələsinə qayıtdı.

1808-ci ildə bütün etnik qruplar qaçupinlər və bir-birilə mübarizəyə başladı, çünki qarşılıqlı nifrət bəsləyirdilər. Yalnız bir məsələdə hamısı yekdil idi - özlərini amerikalı adlandırmaqda. Qalan məsələlər üzrə razılıqdan əsər-əlamət də yox idi. Elə bu üzdən İdalqo və Morelos adlı keşişlərin başçılıq etdikləri ilk hindu üsyanları (1810-1817) zabitləri kreol, əsgərləri isə metis və mulatlardan ibarət olan nizamı ordu tərəfindən darmadağın edildi. Lakin artıq 1812-ci ildə damarlarında hindu qanı da axan kreol olan polkovnik İturbide müstəqillik tələb edənlərin tərəfinə keçdi [411-412] və ispan qoşunlarını meksikadan sıxışdırıb çıxartdı. Qaçupinlər tarix səhnəsini tərk etsələr də, onların yerini polkovnik İturbidenin də mənsub olduğu meksika mühafizəkarları tutdu.

Qüvvələrin sonrakı durumu aşağıdakı kimi idi. Mühafizəkarlar ruhanilər və orduya dayanırdılar ki, bunlar da əsasən, ispanların xələfləri olan kreollardı. Mülayim liberallar - kreollar öz malikanələrini saxlamaq şərtilə liberal parlament respublikası arzulayırdılar, ifrat liberallar - metislər kilsə və ordunun düşməni idilər. Hindular isə afdərililərin çıxıb getmələrini və onları rahat buraxmalarını istəyirdi. Vətəndaş savaşları və çevrilişlər 1920-ci ilədək davam etdi və hinduların sosial institutunu-kasiçiliyi qəbul edən metislərin qələbəsilə sonuclandı. Bir etnos kimi hindular qalib gələ bilməzdilər, çünki bütöv halında deyildilər. Odur ki, passionar hindular, məsələn, mənşə və tərbiyə baxımından sapotek olan Huares ifrat liberal metislərə qoşuldu və fransız nizami qoşunları üzərində qələbə çaldı.

Amerika diplomatları Meksikaya gülür və deyirdilər ki, bu ölkə öz ərazisində qayda-qanun yarada bilmir. Lakin akmatik mərhələnin sonunda onların əcdadları da Al və Ağ qızılgül savaşına vermişdilər. Sadəcə, Meksika bu mərhələni zaman etibarilə üç əsr gecikməklə yaşayırdı.

Adətən, passionar "həddən artıq" qızma bir çox incəsənət abidələri və mədəniyyət elementlərini yer üzündən yox edir. Meksika da bu baxımdan istisna deyil. Avropadakı orta əsrlər də geridə qoyan qəddarlıqla müşayiət olunan pronunsiamentolar zamanı gözəl heykəllərlə zəngin olan dəbdəbəli məbədlər yerlə yeksan edildi. Metislər Avropa ilə ilgili hər şeyə, o cümlədən katolikliyə də düşmən kəsilmişdilər. Hindular dinpərəst olsalar da, onlara ruhanilər yox, kilsələr gərəkdi: öz bayramlarında kilsələrə gəlir, müqəddəslərin heykəllərini öz bütlərini bəzədikləri kimi, çiçəklərlə bəzəyir və onların qarşısında rəqs edirdilər. Ruhanilərin müdafiəsinə qalxan kreollar 1926-1927-ci illərdə "kristeros" dəstələri təşkil etdilər. Qiyam amansızlıqla yatırıldı və bu zaman heç bir günahı olmayan kəndlilər zərər çəkdilər.

Beləliklə, Meksikanın ispanlar tərəfindən istilası orada yaşayan etnosların maddi mədəniyyət və ideologiya elementlərinə qüvvətli təsir göstərdi (dəmirdən istifadə: at, inək, qoyun, donuz, üzüm, zeytun

ağaclarından yararlanma nəticəsində flora və faunada baş verən dəyişikliklər; katolisizm və i.a.). Lakin etnogenezin istiqaməti öz məcrasına qayıtdı. Üç yüz il sürən ispan [412-413] hakimiyyəti dövrünü etnogenez əyrisi üzərində sapıntı kimi nəzərdən keçirmək ən doğru baxım olardı. Sonrakı hadisələr haqqında fikir yürütməyə cəsarət etmirik, çünki Latın Amerikasının akmatik mərhələsi hələ başa çatmayıb, proqnoz isə yalnız hadisənin ümumi qanunauyğunluğu aydınlaşdıqda verilə bilər.

## XXXIII. ÇAT MƏRHƏLƏSİ

**Passionar çat**. Biz artıq Bizansın timsalında gördük ki, etnik sistemdə passionar gərginlik artıqlığı heç də həmişə onun üçün faydalı olmasa da, passionarlığın yox olması daha da məhvedicidir. VIII əsrdə aydın oldu ki, Roma imperiyasını bərpa etmək cəhdi baş tutmadı. Yustinian öz xalqının gücünə həddən artıq arxayın olmuş, şərqdəki düşməninin qüvvəsini isə layiqincə dəyərləndirməmişdi. Sonuncu yanlışlıqda onu suçlamağına da dəyməz: Yustinianın fikrincə, Bizansın sonuncu ciddi düşməni İran idi. Bu dövlət isə vəzir Məzdəyin (4888-529) islahatları və onların aradan qaldırılması, həmçinin nizami ordunun ən yaxşı hissələrinin məhv olmasına gətirib çıxaran Bəhrəm Çubin üsyanı (590-591) ilə taqətdən salınmışdı. Bununla belə, Bizans 604-628-ci illər savaşını bütün qüvvələrini səfərbər etməklə uddu, üstəlik bu qələbə üçün Xəzəristana söykənən türkyutların dəstəyinə də minnətdar olmalı idi.

Bu savaş Bizansı da, İranı da o dərəcədə zəiflətdi ki, Ərəbistan yarımadasının qalıq etnoslarından formalaşan yeni ərəb-müsəlman etnosunun səhnəyə atılması həm yunanlar, həm də farslar üçün faciəvi oldu. İran bütövlüklə istila olundu və başdan-başa talan edildi. Bizans Suriya, Misir, Karfagen, Kilikiyanın düzənlik hissəsini itirdi. Yalnız 718-ci ildə ərəblər Konstantinopolun qala divarları ətrafında darmadağın edildilər ki, bundan sonra Kiçik Asiya ərazisində gedən savaş qarşılıqlı talançılıq yürüşləri halını aldı.

Bizans Balkan yarımadasında da itkilərə məruz qalırdı. Xəzərlərdən qaçan bolqarlar 679-cu ildə Dunayı keçdilər və Dunayla Balkan yarımadası arasında yerləşən ərazini tutdular. Şərqi Roma imperiyası vəhşiləşmiş Qərbi Avropaya heç bir aidiyyatı olmayan yunan çarlığına çevrildi. Qərbi Avropa isə dünyanın ən qüdrətli bölgəsindən cənubdan ərəblərin, şərqdən avarların, şimaldan isə skandinav vikinqlərinin yürüşlər etdikləri [413-414] bir bölgə oldu. Passionarlıqsız bütün bu düşmənləri dəf etmək çox çətindi.

Bununla belə, Bizansın qüvvəsi o qədər böyük idi ki, əhalisi ayrılmaq istəyən əraziləri itirdikdən sonra da Konstantinopol hökuməti Balkan yarımadasındakı tayfaları özünə tabe etdi (689) və 718-ci ildə ərəbləri paytaxtın ətrafından qovdu. Müsəlmanlarla savaş təşəbbüsünü cəngavər isavrlar öz öhdələrinə götürsələr də, onlar da yunanlardan kifayət qədər fərqlənirdilər. Passionarlığın səviyyəsi aşağı olarkən zəif hiss olunan etno-mədəni fərqlər VIII əsrdə son dərəcə kəskinləşdi. Bu zaman bizans etnosu amansız çat mərhələsinə qədəm qoydu ki, bu da özünü İsavr sülaləsinə mənsub imperatorların ikonoborçuluğunda göstərdi.

Fikrimizcə, bu dövr ondan əvvəl gələn akmatik mərhələdən də qeyri-təbii idi. Halbuki həmin mərhələdə bütün bölgənin artmaqda olan passionarlığı İmperiya sərhədlərinin qızıl həlqəsini qıraraq, Suriya, Misir, Afrika və Ermənistanı Əməvi xəlifələrinin qurbanı etdi, İtaliyanı isə lanqobard krallarının boyunduruğu altına saldı. O zaman bölgü təbii şəkildə baş verirdi: ariçi, monofizit və nestorçular iddia edirdilər: “Biz sizin kimi cahil deyilik, çünki Əhdi-ətiq və Əhdi-cədidi daha yaxşı dərk edirik”. Xalkedonçular da onlara eyni cavabı verir və bundan sonra konfessional bəyanatları etnopsixoloji motivlərə əsaslanan etik parçalanma baş verirdi. Lakin dalaşandan sonra hərə bir tərəfə çəkilə bilir ki, bu da təbii haldır. İkonoborçuluqda isə hər şey qeyri-təbii və bu üzdən də dəhşətli idi.

Həqiqətən, kafir müsəlmanlar və bütpərəst bolqarlara qalib gələn pravoslav çar möhtəkir fəlsəfə ilə incəsənətin hissi (emosional) aləmini fərqləndirmək bəhanəsilə, qəflətən dini incəsənəti qadağan edir, üstəlik, xidməti vəzifəsindən sui-istifadə edərək, öz işinin mütəxəssisləri olan rahiblərə ağıl öyrətmək xəyalına düşür. Bəs, onu dəstəkləyənlər kimlərdir? Cahil və kobud adamlar, bir də həm dünyəvi, həm də ruhani vəzifə yaltaqları. Küfrə bənzəməsə də, həqarət doğurur.

Biz ikonoborçuluğun siyasi, iqtisadi və ideoloji baxımdan tarixi araşdırılmasını bilərəkdən bir kənara atırıq. Onlar barədə çox yazılsa da, etnoloq üçün önəmli olana toxunulmayıb. İmperator və patriarxların ən dərin fikirləri də əsgər isavrin Müqəddəs ananın rəsmini qılıcla doğramasının, yunan qadınlarının isə həyatlarını təhlükə altına qoyaraq bu əsgəri daşa basmalarının səbəbini açıqlamağa qadir deyil. Halbuki, hər iki tərəf savadsızdı, ilahiyyat [414-415] və siyasətdən başları çıxmırdı, üstəlik, belə anlarda o dərəcədə mürəkkəb mətləblər barədə heç düşünmürdülər də.

O dövr hadisələrinin sadə və çox düzgün bir açıqlaması var: ikonoborçuluq Kiçik Asiya, ikonalara ehtiram isə ellin hadisəsidir. Asiyalı üçün ikonalar məbədin bəzəyi idi ki, insan öz ruhunu həmin məbəddə gözlə görünən əksi olmayan mücərrəd Həqiqətin səviyyəsinə ucaltmalı idi. Yunan üçün isə ikona varlığın başqa formasına açılan pəncərədir; burada əks olunan nə sima, nə görünüş və hətta üz də deyil. Odur ki, mənəvi təkmilləşmə estetik qavrama ilə ilgilir ki, həqiqət də elə onun vasitəsilə əyan olur.

VIII əsrdə Bizansda passionarlıq səviyyəsi çat mərhələsinədək azaldı. Nəticədə, hətta önəmli olmayan narazılıqlar da qan tökülməsi üçün bəhanəyə çevrilirdi ki, bunun da ümumi işə heç bir xeyri yox idi. İtaliya Bizansdan ayrıldı. Burada lanqobardlar 751-ci ildə Ravennanı ələ keçirdilər və 756-cı ildə isə Roma papalarının dünyəvi dövləti yarandı. İmperator Konstantin Kapronim isə təfriqəçi bölgədə qayda-qanun yaratmaq əvəzinə, köməksiz təsviri sənət həvəskarlarına divan tutmaqda idi.

787-ci ilin yeddinci Nikey Kilsə Toplantısı müvəqqəti sakitlik gətirsə də, qarışıqlıq dövründə bolqarlar Dunayda möhkəmlənməyə imkan tapdılar. Yalnız Asiyada bir sıra nailiyyətlər əldə olunmuşdu ki, buna da səbəb ərəb-müsəlman superetnosunu birləşdirən Xilafətdə durumun bundan da pis olması idi. Abbasilər dövründə xilafət hissələrə parçalanırdı və Bizansda olduğu kimi, burada da konfessional formalar kəsb edən etnik prinsip həlledici rol oynayırdı. Xilafət Bizansı qabaqladı, sonuncu isə etnogenezin sonrakı mərhələsində - ətalətdə siyasi və iqtisadi baxımdan möhkəmlənməyə macal tapdı və elə bunun sayəsində Xilafətdən daha uzunömürlü oldu. İndi isə nəticə çıxaraq.

Etnogenezin ilk iki mərhələsi dövründə etnik sistem kənar təsirləri dəf edir, artan passionar gərginlik isə onun rezistentliyinə bais olur. Lakin həmin başlanğıc mərhələlərində də etnosda daim harmonik - passionarlıqları ilə instinktləri tarazlaşmış fərdlər var və onlar sayca çoxluq təşkil edir. Bunlar ciddi adamlardır və subpassionarilər onların mühitində qarışıqlıq salan zaman sonuncuları məhv edir, onları sürgünə göndərirlər və i.a. Bununla da davranış stereotipi və insanların siqnal irsliliyinin əsası olan ənənəni möhkəmləndirirlər.

Passionarların işi bir qədər qəlizdir, axı, onlar lazımlıdır və özlərini müdafiə etməyi bacarırlar. Odur ki, onlara bir-birini [415-416] qırmaq ixtiyarı verilir və onlar da bundan bol-bol yararlanır. Lakin sistemdə passionarlığın varlığı artıq sistemi qıvraq və kənardan təsirlərə qarşı davamlı edir, çünki passionarilər ən mürəkkəb durumlardan çıxış yolu tapa bilir. Və etnos üzvlərinin bu tipləri arasında optimala yaxın olan mütənasiblik yarandıqda isə sistem demək olar ki, məğlubedilməz olur. Lakin mərhələlər əvəzlənən zaman bu nisbət pozulan kimi, sistem kənardan zərbələrə qarşı həssaslaşır. Bu halda etnos sapınma nəticəsində asanlıqla məhv ola bilər.

Belə bir sapınma ərəb superetnosu üçün faciəvi oldu, çünki Xilafətin ehtiva etdiyi bölgələr ərəblərdən passionarlıq əxz edərək, Bağdaddan ayrılmağa başladılar. Bəzən üsyanlar külli miqdarda əsgəri qüvvə sərfi sayəsində yatırılsa da (762-ci ildə Orta Asiyada baş verən Mühənna üsyanı kimi), əksər hallarda müvəffəqiyyət qazanırdı. 789-cu ildə Mərakeş, 820-də Xorasan, 867-də Seistan ayrıldı. İki il sonra ərəbin başçılıq etdiyi qulzinclərin dəhşətli üsyanı başladı. 872-ci ildə İbn Tulun özünü Misir hakimi elan etdi, 877-ci ildə Bəhreyn kərmatları, 903-909-cu illərdə isə Tunis Fatimiləri hücuma keçdi. Passionar gərginlik istənilən siyasi sistemin buxovlarını qırır və yarım əsr ərzində çiçəklənən iqtisadiyyat və yüksələn mədəniyyətə malik qanuna itaət edən abad ölkəni bir-birilə mübarizə aparan etnoslar, yaxud etnos kimi formalaşmağa can atan konsorsiyalardan ibarət kaleydoskopa çevirirdi.

Qan o qədər bol axıdıldı ki, ərəblər öz ölkələrində də hegemonluğu itirdilər. Afrikada təşəbbüsü bərbər və tuareqlər, İranda indiyədək siyasətdən uzaq olan dağlarda yaşayan dəyləmilər ələ keçirdilər. Orta Asiyada uzun sürən mübarizədən sonra taciklər üstünlüyü türklər və türkmənlərə verdilər. Müsəlman etnogenezinin möhtəşəm gücü öz sistemləri daxilində sərf olunurdu. Ərəblərin doğurduqları etnogenez onların özlərini məhv edərək, uzun müddət qonşularını da öz əhatə dairəsinə cəzb edən təkrarsız mədəniyyət və onunla ilgili olan ənənəyə toxunmadı.

Bu proses roman-german dünyasında bir qədər başqa cür cərəyan etdi. Buralarda o, bir qədər daha az intensiv idi ki, bu da avropalıların xeyrinə oldu, halbuki, Qərbi Avropada akmatik mərhələnin əlamətləri son dərəcə aydın ifadə olunmuşdu.

**Çiçəklənmələr sırası**. Qərbi Avropa, yaxud roman-german superetnosunun sonrakı tarixinə nəzər saldıqda asanlıqla görmək olar ki, burada ayrı-ayrı etnoslar növbələşərək liderlik edir. Bu liderlik fərqli şəkildə nəzərə çarpsa da, ona superetnosu təşkil edən [416-417] etnosların passionar gərginliyinin funksiyası kimi yanaşılarsa, formalar rəngarəngliyi artıq araşdırıcını çaşdırmaz.

Karolinq imperiyasının dağılmasından sonra birinci yeri almanlar tutdular. Onların kralları Henrix Quştutan və Böyük Otton macarların basqınlarının qarşısını almaqla, Reynin hər iki sahilində Almaniyanın iqtisadi inkişafını təmin etdilər. Onların domeninin sərhədləri Elba və Rona idi, İtaliyada isə lanqobardların dəmir tacı onlara miras qalmışdı. II Oton Cənubi İtaliyanı bizanslıların əlindən almağa cəhd göstərsə də, müvəffəqiyyət qazana bilmədi. Daha sonra fransız normanları onların təşəbbüsünü davam etdirməyə çalışdı, lakin onlar da 1194-cü ildə almanların qurbanı oldu.

Bu dövr ərzində Almaniyada üç sülalə dəyişdi: sakson, frankon və şvab (Qogenştaufenlər) və XIII əsrdə almanlar artıq mövqelərini əldən verməyə başladılar. Fransızlar Langedoku və Lotaringiyanın bir hissəsini alman imperiyasından qopardılar, italyanlar isə ümumiyyətlə "vəhşi irqdən" ayrılmağa nail oldular. Siyasi baxımdan bu papalarla imperatorların, sosial baxımdan-feodalların şəhərlərlə mübarizəsi tarixi-mədəni baxımdan hüquqşünaslarla prelatların rəqabəti, etnik baxımdan isə - almanların aparıcı tayfası olan şvabların öz passionarlıq ehtiyatını sərf etməsi və bununla ilgili olaraq əyalətlərin ayrılması idi.

XIV və XV əsrlərdə katolik Avropanın aparıcı etnosu idi. Səlib yürüşləri, Bizansın talanı, Şərqlə ticarət və sələmçilikdən zənginləşən İtaliya həm də Avropanın bütün krallarını hüquqşünas, diplomat, ilahiyyatçı, şair, rəssam, inşaatçı və dəniz səyyahları ilə təmin edirdi. Dante yazırdı: "Əzəmətli qismətinlə fəxr et Fyorensa, torpaq və dəniz üzərində qanad açmısan, hətta cəhənnəm də şöhrətinə bürünüb…" Florensiyalılarla heç də onlardan az fərasətli və vicdansız olmayan venetsiyalılar, satqın romalılar, hiyləgər bolonyalılar, riyakar siyenlilər, başkəsən kalabriyalılar müvəffəqiyyətlə rəqabət aparsalar da, Dantenin fikrincə, cəhənnəmə aparan yolda birincilik hüququ öz ticarət məqsədləri naminə yalnız Qızıl Ordaya deyil, qədim Rus dövlətinə də gedib çıxan genuyalılara məxsusdur (baxmayaraq ki, orada uğursuzluğa düçar olmuşdular).

İtaliyada şəhər-respublikaların çiçəkləndiyi dövrdə Avropanın digər ölkələri çox ağır dövr yaşayırdılar.

İngiltərə və Fransa bir-birini didirdi və bu zaman ingilisləri qaskonlar, fransızları isə şotlandlar dəstəkləyirdi. Yüz ildən artıq [417-418] sürən bu savaş hər iki ölkənin əl-ayağını bağlamış və onları taqətdən salmışdı. İngilislər "füsunkar Fransa"nı tərk etdikdən (Kale istisna olmaqla) sonra da sakitləşmək bilməyən ehtiraslarını bir-birinə qarşı yönəldərək, Al və Ağ qızılgül savaşına başladılar. Bu feodallar işləməyi o qədər yadırğamış və vuruşmağa o qədər alışmışdılar ki, "İxtiyar İngiltərə" dinclik bilmirdi.

Belə olan halda indiyədək kiçik sayılan ölkələr ayağa qalxdı: çex qusçuları və İsveçrə dağlıları Almaniya, Avstriya və Burqundiyanı qan çanağına çevirdilər. Qısası, Qərbi Avropanın demək olar ki, bütün qüvvələri özlərinə qarşı yönəlmişdi və qarşılıqlı qırğın gedirdi. Passionar çat "Xristian dünyası"nı gücsüzləşdirdi ki, bu da Türkiyə və Rusiyanın, yəni XIV əsrdən etibarən yüksəlməyə başlayan, bu səbəbdən də Qərbi Avropaya nisbətən gənc olan ölkələrin güclənməsinə kifayət qədər səmərəli təsir göstərdi.

Avropa superetnosunun germanlarla slavyanların təmasda olduqları şərq hissəsində də bunun eyni olan passionar çiçəklənmələrin əvəzlənməsi müşahidə edilirdi. XIV əsrdə çex quşçuları həm Çexiya, həm də onunla həmsərhəd bölgələrini Almaniyanın taqətdən salaraq, Reformasiyanın birinci mərhələsini həyata keçirdilər. XVI əsrdə Litvanı öz tərkibinə daxil edən və Kontrreformasiyanın dayağına çevrilən Polşa birinci yerə çıxdı. Onu süquta uğradan da elə bu oldu, çünki pravoslavlarla təmas yaratmaq imkanını itirdi.

XVII əsrin ortalarında Ukrayna kazakları polyak qoşunlarına bir neçə sarsıdıcı zərbə endirdi, daha sonra isə isveçlilər Polşanı başdan-başa qarət etdilər, türklər də Podoliyanı tutdular. 1683-cü ildəki şanlı qələbə Avstrianı xilas etsə də, Polşanı tamamilə taqətdən saldı və XVIII əsrdə orada hökm sürən tənəzzül hamıya bəllidir.

XII əsrdə ən böyük nailiyyətləri İsveç əldə etdisə də, əhalisi az olan bu ölkə öz passionarilərini Qustav Adolfla Almaniyaya, X Karlla Polşaya, XII Karlla Rusiyaya göndərdikdən sonra əhali artımı hesabına dəyən zərəri ödəyə bilmədi. Doğulan uşaqların sayı kifayət qədər olsa da, onların arasında XVI-XVII əsrlərdə doğulanlara tay olanlar yox idi.

Onu da qeyd etmək lazımdır ki, nə skandinav, nə slavyan ölkələrində, nə Almaniyanın qərb hersoqluqlarında, nə Avstriyada, nə də Hollandiyada iqtisadi və mədəni geriləmə müşahidə olunmurdu. XVIII əsrdə demək olar ki, bütün Avropa ölkələri [418-419] akmatik mərhələnin passionar "həddən artıq qızma"sının öhdəsindən gələrək təsərrüfatları inkişaf etdirir, gözəl şəhərlər salır, bütün dünya ilə ticarət edərək, böyük qazanc əldə edir və yazıçı, rəssam və alimlərə, yəni istedadlı, lakin həddən artıq passionar olmayanlara himayə göstərirdilər. Bu, Maarifçilik dövrü adlanan dövr idi. Avropada passionar gərginliyin optimal səviyyəsi "artıq" passionarilərin müstəmləkələrə yollanmaları və Volter, Russo, Kant və Hegeli yada salmadan oralarda tüğyan etmələri sayəsində əldə olunurdu.

Bununla belə, XVIII əsrdə Avropada passionar gərginliyin artdığı bir ölkə vardı. Bu, açıqladığımız konsepsiyaya zidd deyilmi? Aydınlaşdıraq.

Almaniya Reformasiya, Kontrreformasiya və Otuzillik savaşın dəhşətlərindən digər ölkələrə nisbətən daha çox zərər çəkmişdi. Bunun səbəbi var: bir qədər əvvəl qeyd etdiyimiz kimi, Almaniyada passionar gərginlik artıq XIII əsrdə azalmağa başlamışdı. Belə olan halda, bu zəngin və sivilizasiyalı ölkə yüksək passionarlıq səviyyəsinə malik etnosların qurbanına çevrildi. Xorvatlar, ispanlar, vallonlar, danimarkalılar, isveçlilər və fransızlar Almaniyanı başdan-başa dolaşır, həm katolik, həm də lüteran almanlar isə ya landsknextlərin özbaşınalıqlarına dözür, ya da elə özləri də onlara qoşulurdu. Burada etiqad rol oynamırdı - daha yüksək muzd verən polkovniklərin yanına gedirdilər.

Katoliklər 1618-ci ildə Belaya Qora yaxınlığında qələbə çaldıqlarından, Çexiya protestantları xilası mühacirətdə axtarmalı oldular, onların bir çoxu qonşu Brandenburq markqraflığında sığınacaq tapdı. Fransız qugenotları və polyak "ariçiləri" də məmnuniyyətlə bura köçürdü. Berlin möhkəm etiqada malik protestantlar üçün sığınacağa çevrildi, onlar isə özlərilə passionarlıqlarını da gətirdilər.

Brandenburq markası lyutiç slavyan tayfasının torpaqlarında bina edildiyindən, XVIII əsrdə onun əhalisi də qarışıq - slavyan-german tərkibinə malik idi. Passionarlığın idxalı bu etnosların qovuşmasına səbəb oldu. Beləliklə, brandenburq-prus dövlətinə çevrilən Qrandenburq qərbi Almaniya və Avstriya ilə

müqayisədə etnogenezdə bir mərhələ geri qalmışdı: ətrafdakıların hamısının "maarifləndiyi" bir dövrdə prussaklar hələ savaş arzusunda idi. Bu səbəbdən onlar Avstriya mirası uğrunda savaşı, Yeddillik savaşı, I Napoleonla savaşı və nəhayət, III Napoleonla savaşı da qazandılar ki, bundan sonra Prussiya [419-420] birləşmiş Almaniyanın başında duraraq, Avstriya və Lüksemburqu onun tərkibindən kənarlaşdırdı.

XV əsrin sonunda Kastiliya ilə Araqonun birləşməsi, ispanların Qrenadaya yiyələnməsi, Amerika (1492) və Hindistanın (1498) kəşfi baş verdi. İspan və portuqal passionariləri qüvvələrini tətbiq etmək üçün yer tapdıqlarından, Piriney yarımadasında passionar gərginlik optimuma endi. Bu, ispan tacının varisləri olan Habsburqlara nəhəng üstünlük verdi. Bütün XVI əsr ərzində ispan piyada qoşunu qələbədən qələbəyə doğru irəliləyir, ispan qızılı diplomatiyanın ən müşkül məsələlərini həll edir, İspaniya bayrağı isə dənizlər hökmdarı idi. Türklər üzərində Lepanto yaxınlığında qələbənin (1571) şəfəqləri savaşdakı məğlubiyyətin doğurduğu qəm-qüssəni bir qədər dağıtdı, üstəlik acı bəhrələrini Venetsiya dadırdı. Lakin Məğlubedilməz armadanın məhvi (1585) və Hollandiyanın ayrılması (1581) göstərdi ki, İspaniyanın gücü zəifləməkdədir. Ordu və donanmanı təmin etmək, sənayenin ehtiyaclarını ödəmək, Amerikadakı müstəmləkələri ingilis və fransız korsarlarından qorumaq üçün adam çatışmırdı. Həm də demək olmaz ki, İspaniyada əhalinin sayı azalmağa başlamışdı (depoplyasiya), sadəcə, ispanlar daha pis vuruşur və az çalışırdılar. 1648-ci ilin Vestfal sülh müqaviləsinə görə ispanlar Avropada hegemonluğun Fransaya, dənizlərdə hökmranlığın isə Hollandiyaya keçməsilə barışmalı oldular. Lakin hollandların zəfəri uzun sürmədi, çünki meydana İngiltərə atıldı. Bundan sonra onun Fransa ilə yeni yüzillik savaşı başladı və Vaterloo döyüşü ilə başa çatan (1815) bu savaşdan sonra Qərbi Avropada birincilik İngiltərəyə keçdi.

Əvvəlki mərhələlərdə məhv olanlar istisna edilməklə, elmə məlum olan etnosların hamısı bu mərhələni keçib. Avropada bu mərhələ Reformasiya, Böyük kəşflər, İntibah və Kontrreformasiya dövrlərilə üst-üstə düşür. Romada Mari, Sulla, Pompey, Sezar, həmçinin vətəndaş savaşları dövrlərinə müvafiq gəlir. Bizansda müvafiq yaradıcı və ağır dövrlər isavr sülaləsinin qələbələri və ikonoborçuluqdur. Ərəb xilafətində bu yaş həddi ən faciəvi dövr oldu: Xilafət parçalandı, İspaniya və Məğrib, Mavərənnəhr (Orta Asiya) və Xorasan müstəqilləşdi, yalançı müsəlmanlar (kərmatlar, sufilər, təkrar şiələr - Buidlər) meydana çıxdı, Misir Xilafətdən ayrıldı, Bağdad ətrafında isə qara zinclər, enli sifət türklər və qoçaq dəyləmilər çarpışırdılar. Ərəblərə yalnız mədəniyyət sahəsi qalsa da, onlar burada son dərəcə yüksək nailiyyətlər əldə etdilər. [420-421]

Çində isə. Qədim Çində bu - yeddi "Savaşan çarlıq" dövrü idi. Əyanilik üçün IV əsr Çinini XVI Avropası ilə qarşılaşdıraq. Cəngavər və mavr ruhuna tutulmuş İspaniyanın analoqu Tsin çarlığı idi. Bu çarlıq Şensinin meşəli vadilərində və Siçuan cəngəlliklərində yaşayan cəngavər tayfalarını istila edərək, onları yezuitliyin analoqu olan legizm doktrinasının sərt intizamına tabe etdi. Fransaya şimaldan mavi Yantszı çayı, cənubdan isə keçilməz cəngəlliklərin qoruduğu zəngin, mədəni və şən Çu ölkəsi müvafiq gəlir. Çu Tsinin ən təhlükəli rəqibi olub, sərt əsgəri sistemə cah-cəlal, incəsənət və azadlığın cazibəsini qarşı qoyurdu. Çinin qəlbi, Cjou imperiyasının varisi olan Tszin çarlığının ərazisi bir o qədər də böyük olmayan üç çarlığa parçalandı: Xan, Vey və Çjao. Bulara həmçinin parçalanmış və həm də German millətinin Müqəddəs Roma imperiyasının varisi olan Almaniyanın ərazisi müvafiq gəlir. Şandunda yerləşən şərq Tsi çarlığını İngiltərə, ucqar Lyaodundakı Yan çarlığını isə asanlıqla İsveç, yaxud Danimarka ilə tutuşdurmaq olar. Qüvvələrin bu cür paylaşması zamanı yaranan durumlar da eynidir: Kontrreformasiyaya başçılığı ələ keçirən İspaniya bütün Avropanı özünə tabe etmək fikrində idi. Amma bəxti gətirdi ki, bu istəyinə nail olmadı. e.ə. III əsrdə Tsin öz leğizm doktrinası ilə bütün Çimi ram etdi və … başına bəla açdı.

Bircə anlığa təsəvvür edək ki, II Filip də… Avropanı özünə tabe etməyə nail olmuşdu. Nə baş verərdi? Bütün Avropanı bürüyən İnkvizisiya; Paris, London, Cenevrə, Stokholm, Venetsiyada ispan hərbi qarnizonları qoyulmalı idi ki, bunu etmək üçün İspaniyanın bütün gəncləri də bəs etməzdi. Ordu və polisə çəkilən nəhəng məsrəflər problemi meydana çıxacaqdı, çünki Türkiyə cəbhəsində mübarizə aparmaq gərəkdi. Bütün bunlar isə ümumxalq nifrəti doğuran dəhşətli vergilər deməkdi. Elə ilk fürsət düşən kimi xalqlar qiyam qaldıracaq və istilaçılara qarşı amansız olacaqdı. İspaniya belə bir taledən qurtulsa da, e.ə. 207-ci ildə Tsin çarlığının başına həmin fəlakətlər gəldi. Tsin bir daha dirçələ bilmədi. Taqətdən düşmüş Çini isə bunu etməyə qadir olan istənilən adam birləşdirə bilərdi. Belə bir adam tapıldı. Bu, xərabələr üzərində yenidən qurduğu imperiyaya Xan adı verən kəndli Lyü Ban oldu. Bir-birinə bənzər hallarda fərqli nəticələr ola bilir.

Qərbi Avropanın "Xristian aləmi" qədim Romanın xərabələri üzərində yarandığı kimi, orta əsrlər Çini də etnik bütöv kimi VI əsrdə qədim Çinin xərabələri üzərində yüksəldi (34) və XII-XIII əsrlərdə eyni mərhələyə yetişdi. Onun taleyi isə başqa cür [421-422] oldu: Sun dövrünün parlaq mədəniyyəti mənfur inzibatçılıq və düşkünləşmiş hökumət sayəsində yadellilərə - tanqut, curcen və monqollara qismət oldu. Ərəb xilafəti və ərəbdilli müsəlman etnosundan fərqli olaraq, Çin Min sülaləsi dövründə yenidən yüksəldi. Lakin bu artıq etnogenezin başqa mərhələsidir.

Gətirdiyimiz örnəklərdən göründüyü kimi, çətin ki, çat mərhələsini "çiçəklənmə" adlandırmaq mümkün olsun. Məlum olan bütün hallarda hadisənin məğzi əcdadların topladıqları sərvət və şöhrətin sərf olunmasıdır. Bununla belə, xələflər bütün dərsliklərdə, icmal xassəli bütün araşdırmalarda, bütün çoxcildli

incəsənət və ya ədəbiyyat “tarixlərində” və bütün tarixi romanlarda məhz bu mərhələni mədh etmişlər. Halbuki, Leonardo da Vinçi ilə bir dövrdə Savonarollanın dəhşətlər törətdiyindən, Benvenuto Çellininin isə xain konetabl Burbonu topdan atəş açmaqla şəxsən öldürdüyünü çox gözəl bilirdilər.

Güman ki, hərəkətlərin qəhrəmanlıqlardan cinayətlərə qədər olan bu geniş diapazonu araşdırıcı, yaxud roman yazanda çox qüvvətli təəssüratlar yaradır, hər bir insana isə spektrin işıqlı hissələrini yadda saxlamaq, qaranlıq ləkələri isə unutmaq xasdır. Elə bu səbəbdən də həmin müdhiş dövrləri “çiçəklənmə” adlandırırlar.

**Çiçəklənmə qurbanları**. XVI əsrin əvvəlləri və XVII əsrdə Avropada passionarilərin faizi azaldı, subpassionarilərin faizi isə əhalinin ən zəhmətkeş və qanuna riayət edən mühafizəkar hissəsi olan harmonik adamların qırılması sayəsində artdı. Superetnos sistemi dayanıqlığını itirdi, çünki ayrı-ayrı passionarilər asanlıqla subpassionarilərdən səfil-əsgərlər toplamaq imkanına malik idi. Onlar da bunu gah moizlər - Lüter, Kalvin, Savonarola, Loan Leydenli, gah kondotyerlər (muzdlu dəstə başçıları, -tər.) - Morits Saksonlu, Mansfeld, Vallenşteyn, gah da krallığın qanunlarını pozan krallar - VIII Henrix Tüdor bununla məşğul olurdu. Əgər əvvəllər belə cəhdlər dərhal digər passionarilərin müqavimətilə rastlaşırdırsa, onların sayı azalandan sonra hər biri böyük areala və deməli, ətalət toplamaq imkanına malik oldu. Bu səbəbdən Reformasiya və Kontrreformasiya dövrlərinin toqquşmaları geniş vüsət qazandı və daha böyük qurbanlar hesabına başa gəldi. Vahid sistem parçalandı və insanlar düşmənlərin əlinə düşməməkdən ötrü dostlar axtarmağa başladılar. Lakin hökmdarlara arxayın olmaq mənasız iş olduğundan, komplementarlıq prinsipi qüvvəyə mindi: [422-423] həqiqi dostlar axtarır və onlara qarşı səmimi olurdular, çünki bu ən etibarlı sığorta idi.

Həm də ki, bu biçarələrin özlərini qorumaq üçün birləşməyə can atmaqdan başqa çarələri vardımı? Hersoq Giz qugenotların zəbur surəsi oxuduqları samanlığa od vurdurmuşdu, Janna Navarralı ibadətə gedən katolikləri yeraltı zindana saldırmışdı, ingilis kralı VIII Henrix isə katoliklə kalvinçini bir dar ağacından asdırmışdı, çünki birinci papaya ehtiram göstərir, ikinci isə messanın (xristian ibadətlərindən biri, - tər.) müqəddəsliyinə inanmırdı. Qansız hökmdarlar kafirlərdən də mənfurdular, çünki onların ixtiyarında imanı, namusu və vicdanı olmayan cəllad və çuğulçular vardı (sub passionarilər).

Lakin hökmdarlar da səmimi və sədaqətli nökərlər olmadan keçinə bilmirdi. Deməli, onlar da iki birləşdirici ideologiyadan birinə: protestantçılıq, ya da islah edilmiş katolikliyə (ənənəvi katoliklikdən yalnız xatirələr qalmışdı) qoşulmalı olurdular. Katolik liqası və Protestant uniyası da beləcə yarandı və onların otuzillik savaşı Almaniyaya əhalisinin dörddə üçünün həyatı bahasına başa gəldi. Digər ölkələr ona nisbətən az zərər çəksələr də, onlar da kifayət qədər böyük itkilərə məruz qalmışdı. Təəssüflər olsun ki, etnogenezin bu mərhələsində dünyəvi və mənəvi hökmdarların yalnız ideya və ya siyasi rəqibləri həlak olmurdu.

İntibah dövründə adam öldürmək Qərbi Avropa sakinlərinin gündəlik məşğuliyyəti idi və kütləvi xarakter daşıyırdı. Burada daha çox mütəfəkkir, şair, filosoflar yox (onlar da kifayət qədər zülmə düçar olsalar da, Cenevrədə Migel Servet, Romada isə Cordano Bruno yandırıldı), təxəyyülə malik sadə, ziyansız adamlar təqiblərə məruz qalırdı. Onları cadugər və küpəgirən elan edir və amansızcasına tonqallarda yandırırdılar. Lakin bir əlamətdar cəhəti qeyd etmək lazımdır: hələ VIII-IX əsrlərdə germanlarda cadugərlik haqqında təlim xurafat sayılırdı. (35) Odur ki, lanqobard krallarının qanunlarında qadının süpürgəyə minib havaya qalxmaqda ittiham edilməsi böhtan sayılır və bunu edən adam cəzalandırılırdı - zindana salınırdı. (36) Böyük Karl dövründə isə belə çuğulçuluğa görə ölüm cəzası kəsilirdi. (37) IX əsrdə Ankvirdəki Kilsə toplantısında ifritələrin gecə məclisləri çuğulçunun uydurması elan edilmişdi. Bununla belə, bir sıra yepiskoplar - İsidor Sevilyalı, Raban Mavr, Ginkmar Reymli lamiyələr haqqında təlimi qəbul edirdilər. (39) [423-424]

Bu humanist qanunvericilik cəhalət mərhələsinə yaxınlaşan Romadan qalan miras deyildi. Orada cadugərləri ya sürgün, ya da edam edirdilər. (40) Əlbəttə, bu xələfləri gələcəyini təmin etməyə çalışan passionar adamların sağlam düşüncəsi idi. Onların öz nəvələrinin böhtan və istibdad qurbanı olmamalarının qeydinə qalmamaları təəccüblü olardı.

Bəs niyə imperator Romasında cadugərlərə qarşı təqiblər başlandı? Yarımvəhşi respublikaçı Romada cadugərliklə maraqlanmırdılar, istila olunmuş Şərqdən dəbdəbəli sivilizasiya dalğası gəldikdə isə, onunla bərabər ağıla, idraka nifrət meydana çıxdı. I əsrin yəhudi şəriət müəllimləri cadugərləri qırmağa səsləyirdilər (Talmud) (41), II əsrin ortalarında Apuley Fessaliya cadugərləri qarşısında qorxu psixozunu yayırdı. Falçıların təqibi də elə xristianların təqibinə başlandığı vaxt - II əsrin ortalarında başladı. Romada bu dövr etnogenezin ətalət mərhələsinin cəhalət mərhələsinə keçməsi ərəfəsinə təsadüf edir. Avropa Romanı qabaqladı. Cadugər qadınlara qarşı təqiblər XV əsrdə başladılar. (42) Həm də bu bədbəxt qadınları küfrdə və kilsə əleyhinə mübarizədə suçlandırmırdılar. Onları yalnız başqalarına bənzəmədiklərinə görə tonqallarda yandırırdılar.

Beləliklə, orta əsrlərin “zülmət illərində” köməksiz yaradıcı adamlar, xəyalpərəstlər və təbiyyatçılar sakit yaşaya bilərdilər. Əlbəttə, savaş dövrlərində onlar əziyyət çəkirdilər, lakin bu əziyyət onların həmvətənlərinin çəkdiklərindən heç də artıq olmurdu. Nəhayət, humanistlik, dini və fəlsəfi axtarışlar, Böyük kəşflər dövrü gəlib çatdı. Bəs nə vaş verdi? XVI əsr başladı. Yüksək İntibah, Reformasiya və

kilsənin düşmənləri olan katarlarla yox, köməksiz xəyalpərvərlər və xalq təbabəti bilicilərilə mübarizə aparan İkinci İnkvizisiya. Burada katoliklərlə protestantlar vahid cəbhədə fəaliyyət göstərirdi. Nə qədər qəribə də olsa, bərabər zaman ərzində tonqallarda yandırılanların sayına görə birincilik İspaniyaya yox, Amerikaya məxsusdur. Bu onu göstərir ki, edamların səbəbi dini ehkamlar deyil, superetnik sistemin passionar gərginliyinin aşağı düşməsinin doğurduğu davranış dəyişiklikləridir. Mərhələdən mərhələyə keçid başa çatan kimi, cadugərlərin edamı obivatellər tərəfindən keçmişin qalığı kimi dəyərləndirilməyə başladı. Etnosun mərhələdən mərhələyə keçdiyi bütün yerlərdə belə hallar müşahidə olunur.

Adətən, obıvatelin ifşaedici pafosu səmərəsiz olur, çünki nizama salınmış mühakimə üsulu ilə rastlaşır ki, bu üsulda [424-425] çuğullara tənqidi münasibət məcburidir. Amma inkviziyaçılardan Y.Şpenger və Q.İnstitorisin hərəkətləri onların özlərinin də yüksək səlahiyyətlərə malik obivatel olduqlarını güman etməyə imkan verir. Onlar çox gözəl bilirdilər ki, nəcabətli adamın cadugərlikdə ittiham olunması onların özlərinə də xələl gətirə bilər. Odur ki, qonşularının çuğulluq etdikləri köməksiz qadınları tutur, onlara işgəncələr verir və tonqalda yandırırdılar. Özünəməxsus bir genosid alınırdı: çuğulçuluqdan çirkinən təmiz adamlar və qibtə doğuran istedadlı fərdlər həlak olur, natəmiz əxlaqa malik olanlar isə artıb çoxalırdı. XIX əsr üçün səciyyəvi olan Avropa obivatelləri nəslini törədən kütbeyinlər də elə bələləri idi. Sükunət halında olan bu proses qarşısıalınmazdı.

**Etnik sahənin parçalanması**. Otuzillik savaşın sonunda (1618-1648) yorğunluq əmələ gəldi. Amma o da birləşməyə səbəb olmadı. Yüz əlli il ərzində protestantlar da, katoliklər də fərqli davranış stereotipləri işləyib hazırladılar ki, onların yanaşı mövcud olması yalnız dözümlülük əsasında mümkündü. Bunu prinsip kimi bəyan etsələr də, əslində bu prinsipə son dərəcə qeyri-ardıcıl şəkildə riayət olunurdu. Köhnə inciklikləar yalnız XVIII əsrdə unuduldu və Avropa yenidən bütöv halına düşdü ki, bu da artıq “xristian aləmi” yox, “sivilizasiyalı dünya” adlandırılırdı. Lakin buna da superetnosun passionar gərginliyinin azaldılması bahasına nail olmuşdular. Bu azalma Avropanın özü üçün nisbətən ağrısız keçdi, çünki passionarilər və subpassionarilərin (əsasən, səfil əsgərlər) əksəriyyətini okeanın o tayına yollamışdılar.

Üç katolik və iki protestant ölkəsi - İspaniya, Portuqaliya, Fransa, İngiltərə və Hollandiya fəal müstəmləkə siyasəti yeridirdi. Aydın olmaq üçün terminlər barədə şərtləşəcək. Əgər ölkə yenicə ələ keçirdiyi diyarlara işləmək, öz əlinin zəhmətilə dolanmaq arzusunda olan kəndliləri göndərirsə, bu - məskunlaşma, əsgər, məmur və tacirləri ünvanladıqda isə bu - müstəmləkəçilikdir.

Yerli əhali üçün bunlardan hansının daha pis olduğu isə artıq başqa məsələdir. Avropa superetnosunun vahid sahəsinin özünü protestantlarla katoliklər arasında dini savaşlarda göstərən əvvəlki parçalanmasının nəticələri də elə burada üzə çıxdı. Amerikanın məskunlaşdırılması zamanı ispanlarla fransızların hindularla (hamısı ilə olmasa da) nisbətən daha asanlıqla təmasa girmələri, ingilislərin isə yalnız diplomatik ilişkilər (məsələn, XVII əsrdə irokezlərlə) yaratmağa qadir olduqları və hər öldürülən hindu üçün mükafat verməklə skalp (insan kəlləsinin saçla birlikdə kəsilib [425-426] götürülən üst dərisi, - tər.) ovunu şirnikləndirdikləri müşahidə olundu. Nəzəri bir həll təklif etmək cəhdi göstərək.

İspanlar, ingilislər və fransızlar həm əvvəllər, həm indinin özündə də roman-german superetnik bütövünə daxil olan etnoslardır. Amma bu bütöv daxilində onlar etnopsixoloji dominantlarına görə bir-birindən xeyli fərqlənir. Amerikanın məskunlaşdırılması Reformasiya, yəni superetnosun davranış strukturunun çat mərhələsində tam yenidən qurulması ilə eyni vaxta təsadüf etdi. Struktur sadələşdi və bu zaman azad olan enerji daxilində ayrı-ayrı mədəniyyətlərin bir-birindən təcrid olduğu Qərbi Avropa geobiosenozunun hüdudlarından kənara yönəldi. Trident Kilsə toplantısından sonra təkcə protestantlar deyil, katoliklər də əcdadlarına bənzəməyə başladılar, çünki Savonarola, Eney Silvi Pikkolomini, İqnati Loyola etnomədəni deformasiya üçün heç də Martin Lüter, yaxud Jan Kalvindən az iş görməmişdilər. Beləliklə, millətin təcrid olması etnogenezin təbii məhsulu, lakin davranış stereotiplərinin fərqlənməsi onun qaçılmaz nəticəsidir. Avropalıların hindulara fərqli münasibətini şərtləndirən də elə həmin fikir ayrılıqları oldu.

İspanlar hindu qəbilələrinin kasiklərini yerli zadəganlar kimi dəyərləndirir və xaç suyuna çəkilənlərinə “don” titulu verirdilər. Nəticədə, Meksika və Peruda hinduların əksəriyyəti assimilyasiyaya uğradı. Kanadada fransızlar hindu həyat tərzinə aludə oldular və XIX əsrdə hindu qəbiləsinə bənzəməyə başladılar. Lui Ril üsyanı vaxtı metislərlə hindular birgə hərəkət edirdilər. Anqlosakslar hinduları rezervasiyalara doldurdular. Yalnız amerikasayağı həyat tərzinə razı olanlar üçün güzəştlər edilirdi.

Qeyd etdiyimiz fərqləri bir qədər əvvəl təklif etdiyimiz etnik sahə konsepsiyası vasitəsilə izah etmək mümkündür. Əgər hər bir superetnos öz titrəyiş tezliyi olan sahədirsə, onda bu baxımdan superetnosların sahələri müxtəlif yaxınlıq dərələrinə malikdir. Deməli, güman etmək olar ki, “katolik” etnosların sahələrinin ritmləri hinduların sahələrilə səsləşmişdir, Avropada protestantçılığa üstünlük verənlərdə isə bu xassə olmamışdır. XVI əsrdə isə Avropanın demək olar ki, bütün millətləri katolik və protestantlara bölünmüş, bu zaman onlardan hər biri özünə müvafiq gələn stereotipi seçmişdi.

Yoxlayaq. Velikoroslar rus mədəniyyətini xeyli dərəcədə əxz etmiş tatar və buryatlarla qarışmış, özləri asanlıqla yakutların arasında əriyib itmişlər, uqor xalqları isə slavyanlarla [426-427] uzunmüddətli, sıx və dostyana təmasda olmalarına baxmayaraq, bənzərsizliklərini qoruyub saxlaya bilmişlər. Alyaska və Kaliforniyadakı hindularla isə ruslar ümumi dil tapa bilmədilər və aleut və eskimosların dəstəyinə

baxmayaraq, həmin ərazilərdə kök salmağı bacarmadılar. Təsadüfi deyil ki, Otuzillik savaş zamanı Rusiya Katolik liqa ilə mübarizə aparan Protestant dünyasını dəstəklədi, protestant-almanları qulluğa götürürdü və Hollandiya ilə ticarət edirdi. Halbuki, ehkam və ayinlərinə görə katoliklik slavyanlığa lüterçilikdən daha yaxındır. Görünür, burada da etnik məqam ideyanı üstələmişdi.

Cənubi Afrikaya düşən protestantlar - hollandlar, almanlar, fransız qugenotları "burlar" adlanan etnos kimi formalaşdılar. Onlar aborigenlərə qarşı son dərəcə dözümsüz idilər. Transvalda quldarlıq yalnız 1901-ci ildə ləğv olundu. Fransızlar isə Haitidə qul-zəngilərə fransız dili öyrədir və onlara katolikliyi aşılayırdılar. Zənci keşişlər bu dini özünəməxsus şəkildə təfsirləyirdilər. 1792-ci ildə ingilis donanması inqilabı Fransanı blokadaya alan zaman zəncilər fransız plantasiya sahiblərinə qarşı qiyam qaldırdılar və bunu aşağıdakı kimi əsaslandırırdılar: "Tanrı ağdərililərə əyan oldu və ağdərililər onu öldürdülər. Tanrının intiqamını alaq - ağdərililəri öldürək". Onlar adadakı bütün fransızları öldürdülər.

Bununla belə, bu, özgələşmə deyil, superetnik səviyyədə ideya ilişkiləri formasıdır. Hazırda Haiti zənciləri deqomeya Vodu kultunu - ilana etiqadı bərpa etmişlər. Lakin misteriyalara yalnız katoliklər, o cümlədən avropalılar buraxılır.

Təsvir etdiyimiz müşahidələrdən belə nəticəyə gəlmək olar ki, Reformasiya ideyalar qiyamından daha çox, çat mərhələsi, yəni akmatik və ətalət mərhələləri arasında keçiddir.

**Çat və onun əhəmiyyəti**. Bütün deyilənlərdən belə bir qənaət hasil olur ki, etnogenezin mərhələləri yalnız passionar gərginliyin səviyyəsilə təyinlənən rəngarənlik dərəcələrilə fərqlənib. Homeostaz üçün səciyyəvi olan subpassionarilər həmişə mövcuddur, lakin bir neçə nəsil passionarilər meydana gələn zaman onlar artıq formalaşmış sistemdə öz müstəsna əhəmiyyətlərini itirir, sadəcə olaraq nəzərə çarpmırlar. Yüksəliş zamanı öz mükəlləfiyyətlərini lazımınca yerinə yetirən harmonik adamların rolu artır. Passionar "həddən artıq qızma" zamanı bir-birinin ardınca ən passionar fərdlərin həlak olduqları akmatik mərhələdə də onlar yox olmur.

Çat dövründə vətəndaş savaşı zamanı icraçı kadrları formalaşdıran subpassionarilərin əhəmiyyəti artır. Daha sonra [427-428] ətalət mərhələsində harmonik fərdlərin əhəmiyyəti artsa da, cəhalət mərhələsində yenidən kəskin şəkildə azalır. Bu zaman sakit subpassionarilərlə yanaşı, ətalət mərhələsinin tullantıları olan dəlisov səfil-əsgərlər meydana çıxır. Bunlar çox məharətlə harmonik fərdlərə divan tutur və sistemi rezistentliyini itirənədək sadələşdirirlər. Bu halda onlar özləri də məhv olur, etnos iflasa uğradıqdan sonra isə onun təkrarsız mədəniyyəti də unudulur və homeostaz bərqərar olur. Bu etnososial qanunauyğunluq etnoqrafik material əsasında da izlənir. Bütün mərhələlərin xarakteristikaları uyğun gəlir.

Meydana çıxan zaman etnos məskunlaşma landşaftını öz tələbatına müvafiq şəkildə "yonub hamarlayır" və eyni zamanda, özü də landşaftın şəraitinə uyğunlaşır. Qısası, burada əks əlaqə prinsipi qüvvədə olur ki, bu zaman təbiətə minimum zərər dəyir. Etnik sistemin enerji ilə zənginləşdiyi akmatik mərhələdə istila və miqrasiyalar dövrü başlanır ki, bunlardan birincilər qonşuların müqaviməti, ikincilər isə üstəlik təbii şəraitlə də məhdudlaşdırılıb. Təbiət ikili şəkildə zərər çəkir. Vətəndə olan passionarilər üçün torpaqda eşələnmək cansıxıcıdır. Onlar daha çətin, lakin həm də daha cazibədar olan yaşamaq və çiçəklənmək üsullarına üstünlük verirlər. Sivilizasiyanın təbiətə təzyiqi azalır, həmin qızğın dövrlərlə çox vaxt əhali artımının azalması da ilgili olduğundan isə, təsərrufat da tənəzzülə uğrayır ki, nəticədə təbii landşaftların - meşə, bataqlıq və çöllərin, həmçinin vəhşi heyvanların sayının bərpası baş verir.

Əvəzində, passionarilərin ələ keçirdikləri ölkələr daha çox zərər çəkir. Bir qayda olaraq, passionar gərginlik səviyyəsi aşağı olan etnoslar istila qurbanlarına çevrilir, çünki bu amil onlara səmərəli müdafiə qurmağa mane olur. Odur ki, onlar özləri də, ölkələrinin sərvətləri də, o cümlədən təbii ehtiyatları da qaliblərin qənimətinə çevrilir.

İspanların Meksika və Perudan qızıl daşıyan "qızıl donanmalarını", yaxud Potosinin (Boliviya) saysız-hesabsız hindunun məzarına çevrilən gümüş mədənlərini xatırlamaq kifayətdir. Braziliyadakı plantasiyalar isə yalnız Yava və digər Zond adalarındakı holland müstəmləkələrilə tutuşdurmaq mümkündür. Hər iki bölgədə minlərlə malayyalı və zənci Portuqaliya və Hollandiyadakı təpəliklərdə yerləşən gözəl meşəlikləri dəbdəbə naminə risq və təhlükədən çəkinməyən, nə özlərinə, nə də başqalarına rəhm etməyən iri tacir və zadəganların [428-429] malikanələrinə çevrilməsi üçün həlak olurdu. Kanadanın xəz dəri kompaniyaları hazırda yalnız qoruqlarda qalan su qunduzlarının demək olar ki, axırına çıxdılar, Afrikada isə ovçular bütöv fil sürülərini məhv edirdilər ki, onların dişlərinin satışından əldə etdikləri pulları London birjasında xərcləsinlər. Qədimdə də belə idi. Çində gərgədanlar məhv edildi, Hotanda yerüstü nefrit yataqlarının axırına çıxdılar. Lakin gətirdiyimiz örnəklər kifayətdir, gəlin, məsələyə başqa baxımdan nəzər salaq.

Passionar istilaçılar nə qədər yırtıcı olsalar da, onlar təbiəti məhdud şəkildə korlayırdılar. Onlar üzdə olanları, uğrunda zəhmət çəkmək yox, vuruşmaq lazım gələnləri mənimsəyirdilər. Odur ki, onların müzəffər yürüşlərindən sonra bərpa oluna bilən biosenozlar, xeyli itkilərə məruz qalsalar da, tamamilə məhv edilməyən hindu, zənci, polineziyalı və papuas qəbilələri qalırdı. Nəzərə alın ki, bu zaman istilaçılar hər an həyatlarını təhlükə altına qoyurdular.

Biz bunun bir sıra hallarda məhvedici sonuca səbəb olduğunu gördük. Lakin Qərbi Avropanın roman-german bütövünün bəxti gətirdi. Qərbi Avropa Avrasiya kontinentinin yarımadasıdır. Dəniz onu üç tərəfdən qoruyurdu. Təhlükə yalnız cənub-şərqdən gəlirdi ki, burada Bizansı çökdürən türklər XVI-XVII əsrlərdə geniş hücuma keçmişdilər. Macarıstan süqut etdi. Növbə İtaliya və Almaniyanın idi. Bu zaman Qərbi Avropanın ən geridə qalan və bu səbəbdən də nisbətən böyük passionar enerji ehtiyatı qoruyub saxlayan (43) Polşa özünü qurban verdi. Yan Sobeskinin qusarları 1683-cü ildə Vyananı xilas etdilər. Almaniya uğrunda qanlarını axıdan polyaklar öz vətənlərinin bölüşdürülməsi üçün zəmin hazırladılar. Almaniyada çat başa çatdıqdan milli birliklə əlamətdar olan ətalət mərhələsi bərqərar olduqdan sonra Avropa yenidən məğlubedilməz və təcavüzkar oldu. Lakin o artıq əvvəlki dövrdəki Avropaya bənzəmirdi: "cəngavər" Avropasından "tacir" Avropasına çevrilmişdi ki, bu barədə ayrıca danışmağına dəyər. İndi isə, hələlik, K.Yaspersin konsepsiyasına, daha dəqiq desək, Qərbi Avropa tarix filosoflarının baxışlarına qayıdaq. Avqustindən başlayaraq, onların hamısı tarixi istiqamət, məqsəd və məna kimi görürdü. Bütün şərq mütəfəkkirləri tarixə yüksəliş və parçalanma kimi baxır, başqa sözlə, prosesləri məqsəd sayır, mənanı isə tarixin yalnız fon kimi çıxış etdiyi şəxsi təkmilləşmədə görürdülər. [429-430]

Güman ki, bu fərq təsadüfi deyil. Fikrimizcə, həmin fərq qərbçilərin insan əllərinin yaratdıqlarının - texnosferin tərəqqisindən danışırdılar ki, bura fəlsəfəni də aid etmək gərəkdir, şərq mütəfəkkirləri isə canlı təbiətdən bəhs edirdilər ki, bura insanlar da bir tərkib hissə kimi daxildir, texnika isə bir fondur. Bunu elmi dildə ifadə edək: qərbdə sosial-mədəni tarixi, şərqdə isə etnik tarixi, əksər hallarda isə sadəcə olaraq genealogiyanı araşdırırdılar. Bunların hər ikisi zəruridir. Yalnız sosiologiya metodikasını təbiət hadisələrinin araşdırılmasına tətbiqi pisdir. Yaxşı ki, əksinə olmur.

K.Yaspers və din və tərəqqinin digər teleoloji sistemlərilə mübahisəni bununla tamamlamaq olardı. Etnik proseslərdə iki aparıcı amil iştirak edir: ilkin təkan ətalətinin itirilməsi - qocalma, qonşu etnoslar, yaxud digər təbiət qüvvələrinin zor vasitəsilə təsiri (44) sapınma. Sonuncu təbiətin özü tərəfdən proqramlaşdırılan etnogenezi həmişə deformasiyaya uğratsa da, sapınma yalnız mərhələ keçidləri zamanı faciəvi ola bilir.

## XXXIV. ƏTALƏT MƏRHƏLƏSİ

**Sivilizasiyanın "qızıl payızı"**. Yaşadıqları sarsıntılardan sonra insanlar müvəffəqiyyət deyil, dinclik arzulayır. Onlar bütün orijinallığı ilə özünü göstərməyə cəhd edən fərdlərin qonşular üçün ən böyük təhlükə olduqlarını artıq dərk etmişlər. Lakin ondan yalnız ictimai imperativi dəyişməklə qurtulmaq olar. Ən yaxşı davranış stereotipinin ideal daşıyıcısını (o heç vaxt mövcud olmasa belə) sadəcə olaraq uydurmaq, yaxud təsəvvür etmək və hamıdan onu təqlid etməyi tələb etmək kifayətdir.

Qədim dünyada Allaha bərabər çar kultu buna əsaslanaraq yaradılmışdı. Dünyanı bu cür qavramanın əsasını hələ Makedoniyalı İsgəndər qoymuşdu: Misir kahinləri ona anlatmışdılar ki, ellinlərin Zevslə eyniləşdirdikləri Ammon adlı tanrının oğludur. Bu, İsgəndərin xoşuna gəlsə də, sərkərdələri həmin fərziyyəni qətiyyətlə rədd etdilər və onun İsgəndərin valideynləri - Filip və Olimpiada üçün təhqiramiz olduğunu bildirdilər.

Lakin bu ideya yalnız qısa müddətə aradan çıxdı. Diadoxların vərəsələri dövründə, xüsusən də Avqustdan sonrakı Romada o yenidən təşəkkül tapdı. Hökmdarlar onlara Allahlara göstərilənlərə bərabər ehtiram göstərilməsini tələb etməyə [430-431] başladılar. Bu o demək idi ki, hökmdarın şəxsi deyil, vəzifəsilə ilgili keyfiyyətləri ilahiləşdirilməlidir. Bununla da onlar bütün təbəələrinin təqlid etmələri məcburi olan örnəyə çevrilirdilər.

Romalılar çox gözəl başa düşürdülər ki, taxt-taca yalnız qarınlarına xəncər soxub öldürülməyə layiq olan alçaqlar, xainlər, qatillər yiyələnir. Bununla belə, onlar "sezarın ilahiliyi" prinsipini mövcud quruluşa ləyaqətli və müsbət münasibətin mütləq şərti idi. Qanlı çat illəri haqqında xatirələr o qədər dəhşətli idi ki, qayda-qanunun bərqərar olmasına dair hər hansı bir zəmanət alqışlanırdı.

Yeni dövrdə - XVII-XIX əsrlərdə eyni prinsip imkan daxilində təqlid edilməli olan vicdanlı və tərbiyəli adam - "centlmen" obrazında öz əksini tapdı. Təqliddən boyun qaçırma qanun deyil, ictimai rəy tərəfindən pislənsə də, elə bu cür təzyiq də kifayət edirdi.

Şərqdə çox vaxt qədim dövrlərin ehtiram bəslənən hər hansı bir qəhrəmanını təqlid etmək təklif olunurdu. Bununla məsələnin məğzi dəyişmirdi. Qısası, ideala çevrilən ortabablıq naminə orijinallığın hər hansı bir təzahürü təqib edilirdi.

Lakin proses ləng gedirdi. Öz orijinallığından imtina etmək istəməyən adamlara heç bir ziyanı olmayan kimi görünən incəsənət və elm sahələri qalırdı. Bu səbəbdən də XVI əsrdə qılınca əl atanlar, XVIII əsrdə evdə oturub, istedadlı olanda dəyərli, olmayanda isə mənasız risalələr yazırdılar. Sonuncuların sayı həmişə çox olduğundan, heç kimə gərək olmayan və heç kimin oxumadığı kitablarla dolu nəhəng kitabxanalar yarandı. "Mədəniyyətin artması" adlandırılan budurmu?!

X əsrdə ətalət mərhələsinə qədəm qoyan Uzaq Şərqdə də eyni vəziyyət yaranmışdı. Çində bu, Tan dövründən qalanlar qədər dahiyanə olmasalar da, onlardan da ustalıqla yerinə yetirilən külli sayda

incəsənət əşyaları qoyub gedən Sun dövrüdür. Tibetdə isə monastırlar qədim orijinallardan tərcümə edilən, əksər hallarda isə üzü köçürülən kitablarla doldurulurdu.

Əlbəttə, bu fonda dahilər: mütəfəkkir, alim, şairlər də meydana çıxırdı, lakin onların sayı qəddar akmatik mərhələdəkindən artıq deyildi. Əvəzində, yaxşı yetişdirmələri vardı, konsepsiyaları isə güclü əks-səda doğururdu. Məsələn, Tszonxavanın (1355-1418) "sarı etiqadı" ayrı-ayrı konsorsiya və sektaları deyil, bütöv xalqları - monqollar, oyratlar və tibetlilərin bir hissəsini əqli cəhətdən zənginləşdirdi. Bizansda həmin rolu XIV-XV əsrlərin Afon abidələri oynadı. Onların düşkünləşmiş, [431-432] məhkum olunmuş Konstantinopolda qəbul edilməyən ideyaları Velikorossiyada öz əks-sədasını tapdı.

Lakin yenə də örnəklər artıq bəs edər. Aydındır ki, etnogenezin ətalət mərhələsi etnik sistemin passionarlığının aşağı düşməsi, maddi və mədəni dəyərlərin intensiv şəkildə toplanmasıdır. Qənaətimizi bitərəf indikatorda - roman-german superetnosu səviyyəsində davranış stereotipinin əvəzlənməsində yoxlayaq.

**"Xristian dünyasından "sivilizasiyalı" dünyaya**. Superetnos miqyasında davranış stereotipinin əvəzlənməsi kimi möhtəşəm hadisənin indiyədək nə qeydə alınmaması, nə də təsvir olunmaması təəccüb doğurardı. Xeyr, hər ikisi yerinə yetirilib, hərçənd ki, bizimkindən tamamilə fərqli olan başqa mövqelərdən və fərqli anlam və terminlər sistemində. Ziyanı yoxdur! Başqa hesaba alma sisteminin terminlərini həmişə özününkünə çevirmək mümkündür; birbaşa müşahidələr bununla öz dəyərini itirmir.

Verner Zombart "Müasir iqtisadi insanın mənəvi inkişaf tarixinə dair etüdlər"i yazdı və orada belə bir sual verdi: "kapitalizmə qədərki", yəni "təbii insan" indi hər addımda rast olduğumuz obivatel, meşşan, heyvərəyə necə çevrildi? V.Zombartın kapitalizmin meydana çıxdığı XII-XIV əsrlərədək "təsərrüfat fəaliyyətinin başlanğıc anı nemət tələbatıdır: insan nə qədər məsrəf edirsə, bir o qədər də əldə etməlidir". (45) Bundan artıq yalnız axmaqlar toplayır.

Lakin iki sinif var: zəngin senyorlar və xalq kütlələri. Amma onlar arasında fərq bir o qədər də böyük deyil. Daim həyatını təhlükə altına qoyan senyor bir çox nemətlər əldə edir və təcili olaraq onları təmtəraqlı ov mərasimlərinə, dəbdəbəli ziyafətlərə və gözəl xanımlara sərf edir. Pul yığmağın mənası yoxdur - onsuz da növbəti də olmasa, ondan sonrakı savaşda öldürəcəklər. Odur ki, sağ-salamat olduğu müddəti senyor keyf çəkməklə keçirir.

Kəndlinin özünü və ailəsini dolandırmaq üçün lazım olan qədər torpağı var. Sənətkar "şən yaşamaq üçün kifayət edəcək qədərdən artıq işləməməyə ağlı çatır". Bu cür adamlar Rokfelleri görsəydilər, onu divanə sayardılar.

Lakin orta əsr avropalıları ipək paltar və qızıl bəzək sahiblərini ağılsız saymırdılar. Onlar sərvəti dəyərləndirir və nə özlərinin, nə də özgələrinin həyatına rəhm etmirdilər. Lakin onlar yalnız XII əsrdən etibarən meyl etməyə başladıqları pul şəklində olan qızılı deyil, gözəl əşyalar şəklində olan qızılı yüksək [432-433] dəyərləndirirdilər. Yalnız XII əsrdən etibarən indiyədək yalnız yəhudilərdə müşahidə olunan (səh. 23) "qazanc ehtirası" meydana çıxdı. Tamahkarlıq əvvəlcə katolik ruhanilərə, sonra şəhərlilərə və nəhayət, bütöv ölkələrə sahib oldu, lakin fərqli dərəcədə və fərqli variantlarda. Bəzən uzaq ölkələrin qarət olunması, bəzən ticarət yolu ilə (bu yol da kifayət qədər təhlükəli idi) həyata keçirdi. Bir sıra hallarda sərvətə aparan yol "nifrətamiz sələmçilik"dən, bəzən sərfəli vəzifələrə yiyələnməkdən keçirdi və i.a. Lakin bütün hallarda fəaliyyətin rəhbər stimulu indiyədək demək olar ki, müşahidə edilməyən kortəbii zənginləşmə ehtirası idi.

Təxmin etmək olardı ki, tamahkarlıq onu ödəmək imkanı yaranan zaman meydana çıxır. V.Zombart "kapitalizm ruhu kapitalizmin özü tərəfindən yaradılır" tezisini rədd edir. (səh.149-150). O, protestantçılıqla kapitalizm arasında əlaqə olması məsələsində də M.Veberlə razı deyil. Bunun əvəzinə V.Zombart "kapitalist ruhunun inkişaf səbəbini … əcdadlardan miras qalan daxili meyllilikdə" görür (155-156). Bizim üçün anlaşıqlı olan elmi dildə bunu belə ifadə etmək olar: bu meyllər - irsi əlamətlərdir. Deməli, xüsusi "burjua təbiətlilər" var ki, onları V.Zombart "iş adamları" və "meşşanlar" kimi fərqləndirir. (səh. 157-163). Birincilər cəsur məcəraaxtaranlar, kapitalizmin əsasını qoyanlar, ikincilər isə onlardan əvvəlkilərin həlakından sonra əmələ gələn boşluğu öz kütləsilə dolduran qəmgin, mülayim və səliqəli klerklərdir (ruhanilər).

V.Zombarta görə, kapitalizmə "meyllilik" təkcə fərd və ya orqanizm deyil, etnos səviyyəsində də müşahidə edilir. Bu, müəllifdə həmin hadisənin bioloji təbiətə malik olmasına dair əminlik yaradır (səh.165). O, "kapitalizmə zəif meylli olan" etnoslara keltlər və qotları aid edir ki, onlardan da aşağıda yalnız "qızılın demək olar ki, bütün xalqları ovsunlayan cazibəsinə yabançı olan" ispan iberləri durur (səh.167).

Kapitalizmə meylli olan etnoslar iki növə ayrılır: "qəhrəmanların xalqları" və "ticarətçi xalqları" kimi fərqləndirilir (səh. 167). V.Zombart birincilərə romalılar, normanlar, lanqobardlar, sakslar və frankları (deməli, fransızlar və ingilisləri də), ikincilərə isə florensiyalılar, şotland-loulenderlər və yəhudiləri (səh.169), həmçinin "ən erkən zamanlarda ağıllı, bacarıqlı ticarət adamları sayılan" frizləri aid edir (170). Sonuncu V.Zombarta hollandlar və şotland loulenderlərinin ticarətçiliyini əsaslandırmaq üçün lazımdır, çünki belə bir təxmin var ki, Aşağı Şotlandiya [433-434] digərlərilə yanaşı, frizlər tərəfindən də məskunlaşdırılıb. V.Zombart slavyan və yunanları nəzərdən keçirmir və güman ki, yəhudilərdən fərqli

olaraq, onları Avropa xalqı saymır. Bu ona dəlalət edir ki, onun diqqət dairəsində coğrafi bölgə yox, superetnosdur. Bu xüsusiyyət onun araşdırmasını bizim mövzu üçün maraqlı edir, çünki əslində o, çat mərhələsini akmatik mərhələdən ətalət mərhələsinə keçid kimi təsvir edir, lakin xalqları (etnosları) irqlərin sabit sistem, bölmələri kimi dəyərləndirdiyindən, Toskanada "meşşan ruhu"nun təntənəsini etrusk "qanı" qarışması ilə izah edirdi, halbuki etrusklar e.ə. IV əsrdə yox olmuş, Florensiya isə XV əsrdə meşşanlaşmışdı. Artıq iki min illik bu boşluq şübhə doğurur və konsepsiyanın tənqidinə keçməyə məcbur edir.

Zənnimcə, V.Zombartın müşahidələri doğru, ancaq onların təfsiri yanlışdır. İberlər avropalıların artıq Roma dövründə homeostazda olan ən qədim layıdır. Etnogenezin yalnız yekun mərhələsini görməklə əvvəlki mərhələlər barədə mühakimə yürütmək olmaz. Ticarətçi etruskların xələfləri korsikalılardır. Onlar əcdadlarının vərdişlərini artıq çoxdan itirmiş və hələ XIX əsrdə vendettanı (qan düşmənçiliyi, -tər.) ticarətdən üstün tutmuşlar. Keltlər barədə bir qədər əvvəl artıq danışmışıq. V.Zombartın sadaladığı ticarətçi xalqların isə bir ümumi əlaməti var - metisləşmənin yüksək dərəcəsi. Toskana Romadan şimala doğru yerləşirdi. Elə yalnız X əsrdən sonra buradan şvab-gibellinlər, ispanlar, fransızlar, avstriyalılar keçib getmiş, hamısı da toskanalılar populyasiyasında öz genetik fondunu səpələmişdir. Şotland Loulendi skottlar, anqllar, norman-vikinqlər ingilis və şotland kralları dəvət edirdilər, çünki buralar çox qarışlıqlıq olan bir sərhəd idi. Frizlərin yaşadıqları Aşağı Reyn də german, roman və kelt əhalisinin etnik təmasları bölgəsi idi. "Xalq-ticarətçi"lər üçün yalnız bu əlamət ümumi olsa da, lakin elə o da kifayətdir. Bura V.Zombartın güman ki, diqqətindən yayınan cənubi İtaliya və Andaluziyanı da əlavə etmək mümkündür. Durum dəyişməyəcək.

"Senyorlarla" "işbazlar" arasında fərq bir o qədər də böyük deyil. Hər ikisi passionardır, lakin fərqli çeşiddə birincilər şöhrətpərəst, ikincilərsə tamahkardır. Ən önəmlisi isə odur ki, hər ikisi "kapitalist ruhunun" həqiqi daşıyıcıları olan meşşan və klerklərdən kəskin fərqlənir. Həmin "ruh" isə, zənnimizcə, passionar yüksəliş zamanı həmişə meydana çıxan ilkin yaradıcı [434-435] közərmənin soyumasıdır. "Meşşanlar" "senyorları" onlar kimi olmağı arzuladıqları, lakin buna nail ola bilmədiklərindən qınayırdılar (səh.273). Onlar yaradıcı yüksəlişin davamçılarıdırlar və yüksəlişdən yalnız "qazanc ehtirasını" qoruyub saxlamışlar, yəni harmonik, hətta subpassionar fərdlərdirlər. (səh. 278) Lakin buradan belə bir nəticə hasil olur ki, qarşımızdakı qaynar qazın soyuması, suya və daha sonra isə buza (buz dedikdə, hər hansı bir etnogenezin son həddi olan homeostaz halı anlaşıla bilər) çevrilməsinə bənzər adi entropiya prosesidir.

İndi isə V.Zombartın müşahidələrini bir qədər əvvəl təklif etdiyimiz etnogenez sxemilə üst-üstə qoyaq. Avropada hələ "kapitalist ruhunun" olmadığı IX-XI əsrlərdə fəal metisləşmə də yox idi. İnsanlar yaxın zamanlarda formalaşan və özünəməxsusluqlarını saxlayan kiçik etnik qruplarda yaşayırdılar. Yeni doğulan bu etnosların fərqli irqi komponentlərdən ibarət olmasının bir önəmi yox idi. Onların davranış stereotipləri orijinaldı. Bu və ya digər etnos qarşısında duran vəzifələr onun hər bir üzvü üçün ümumi idi. Passionarlıq əhalinin bütün təbəqələrində eyni dərəcədə özünü büruzə verdiyindən, sosial durumlar dəyişkəndi: qorxaq feodallar həlak olur, cəsur villanlar isə ya cəngavər, ya da azad şəhərlilərə çevrilirdilər.

XIII-XV əsrlərdə parçalanma müşahidə olunur. Monolit etnoslarda sosial sistemlərin mürəkkəbləşməsi, krallıqların böyüməsi, artıq passionarilərin səlib yürüşlərinə, yaxud qonşu ölkələrə ünvanlanması (Yüzillik savaş) baş verirdi. Etnik ilişkilər bölgələrində isə "ticarətçilər" meydana çıxır və zənginləşirlər. Akmatik, daha çox isə çat mərhələlərində onlar hökmdarların himayəsindən yararlanaraq, çəkişmələr sayəsində yaşayırlar. Lakin tədricən güc toplayaraq, özləri üçün ən əlverişli olan ikinci - ətalət mərhələsinə olan keçidi həyata keçirirlər. Bu mərhələ onlara o qədər xoşdur ki, onun üçün fəxri ad da seçiblər - sivilizasiya və güman edirlər ki, bu, nəhayətsiz bir haldır.

Artıq bildiyimiz kimi, mühitin aqreqat halındakı hər hansı bir dəyişik ilk böyük enerji məsrəfi tələb edir. Bizim misalımızda bu passionar enerjidir. Hər bir enerji kimi, passionarlıq potensiallar (yüklər) fərqli olan zaman təsirlidir. Bu fərqlilik ya təbii hadisə olan passionar təkan, ya da bir etnosun passionarlığı digərininkindən artıq olan etnoslararası sıx təmas sayəsində meydana çıxa bilər. Nəticələr müxtəlif olacaq: təbii landşaftların dağılması yalnız ikinci variantda müşahidə edilib ki, bu da bir sıra örnəklərlə açıqlanıb. [435-436]

Bununla belə, qeyd etmək lazımdır ki, antropogen landşaftlarda dağılma qanunauyğunluq yox, xoşbəxtlikdən kifayət qədər az-az rast olunan kədərli istisnadır. Axı, başqa cür olsaydı, neoantropun mövcud olduğu 50 min il ərzində bütün geobiosenozlar məhv edilər, insan özü isə tamamilə bəhərsizləşdirilən Yer üzündə acından həlak olardı. Deməli, razılaşmalıyıq ki, insanın biosferə təsiri iki əks istiqamətdə baş verir: həyat bəxş edən və həyatı məhv edən.

XVI-XVIII əsrlərdə roman-german superetnosunun "soyuması" sürətlə gedirdi. Passionarlar koloniyalara yollanır və orada ya həlak olur, ya da xəstələnib geri qayıdırdılar. Harmonik fərdlər vətənlərində tarlalar, emalatxanalar, dəftərxanalar və universitet auditoriyalarında yorulmaq bilmədən çalışırlar. Onlar əslində yalnız artıq yük olan üstünlük uğrunda mübarizə aparmağa heç vaxt da tapmırlar. Elə bu zaman passionarilərin boşaltdıqları yerləri "ticarətçilər" - florensiyalı sərraflar, yaltaq diplomatlar,

fitnə-fəsadlar, avantüristlər tutur. Onlar yerli etnosa yabançı olsalar da, məhz bu səbəbdən taxt-tac sahibləri üçün çox əlverişli olurlar, xüsusən də ümumiyyətlə vətənləri olmayanda.

Gözlənilmədən Uatt onların rifahı üçün buxar maşınını düzəldir və bundan sonra ən müxtəlif texniki təkmilləşmələr gəldi. Şəhərlər böyüyür və polietnik olurdu. Adamlar öz etnoslarından təcrid olunmuş şəkildə yaşamağa başlayaraq, yalnız tək-tük hallarda onunla əlaqə saxlayırdılar. Elə bu zaman avropalıların V.Zombart tərəfindən belə yaxşı təsvir edilən və alçaldılan "kapitalist ruhu" özünü göstərdi.

Bəs niyə hər şey belə asanlıqla baş verdi? Yalnız ona görə ki, məcazi şəkildə desək, "su soyudu və dondu"; Bax, o artıq tamam donandan, yəni cəhalət mərhələsi bərqərar olandan sonra ticarətçilər - etnosu içərisindən gəmirən bakteriyalar məhv olacaq, etnosdan isə hələ qalıq qala bilər.

Sivilizasiya və təbiət. Tutuşdurma şkalamız olmasaydı, burada təklif olunan etnogenez anlamı subyektiv olardı. Lakin belə bir şkala var. Bu, antropogen landşaftlar tarixi, yəni "etnos" adlandırılan mexanizm vasitəsilə texnika və təbiətin qarşılıqlı ilişkilər tarixidir. Təsvir etdiyimiz mərhələdə insanların ətraf mühitə münasibəti kəskin şəkildə dəyişir və bu yenə də etnik sistemlərin passionar gərginliyinin azalması sayəsində baş verir.

Passionarilər nə qədər tüğyan etsələr də, bizi qida ilə təmin edən təbiətə münasibətdə obivatelin təntənəsi qat-qat artıq dağıdıcı [436-437] təsirə malik hadisədir. Bu mərhələdə risq heç kimə gərək deyil, çünki lazım olan qələbələr artıq əldə edilib. Elə bu zaman köməksiz olanlara divan tutulmasına başlanır. Biosferdən də köməksiz olanı varmı?

"İnsan təbiətin şahıdır" elan olunandan sonra, ondan sakit və planlı şəkildə xərac almağa başladı. Diksilen təpəlikləri (ABŞ-in cənub ştatları) başdan-başa pambıq plantasiyaları ilə örtüldü və çox da uzun çəkməyən məlum müddətdən sonra onları qumsallıqlara çevirdi. Preriləri şumlayıb, görünməmiş məhsul toplamağa başladılar, amma bir şey pisdi: hərdənbir baş verən tozlu fırtınalar Atlantik okeanına qədər uzanıb gedən şərq ştatlarında bağ və əkinləri məhv edir. Sənaye inkişaf edir və nəhəng gəlir gətirir. Reyn, Sena və Visla isə çirkab arxlarına dönüb.

Bütün bunlar indi baş verib, amma əvvəllər də belə olub, axı. Eramızdan 15 min il əvvəl Yer üzündə səhra deyilən şey yox idi, indi isə hara baxsan, səhra görürsən. Biz artıq göstərdik ki, Etszin-qol, Hotandərya və Lob-nor sahillərini qumlu təpəliklərə çevirən türk və monqol bahadırlarının basqınları olmamışdı. Buna yalnız bu ilin məhsulunun qeydinə qalan və gələcəyi düşünməyən əkinçilərin planlı fəaliyyəti bais olmuşdu. Saxaranın torpağını yumşaldan və səmum küləklərinə onu göyə sovurmağa imkan yaradanlar da elə yuxarıdakılarına bənzəyən zəhmətkeş kəndlilərdi. Belələri öz qəsəbələrinin ətrafını sənaye tullantıları və şüşələrlə zibilləyir, zəhərli kimyəvi maddələri isə çaylara axıdırlar. Belə şeylər heç bir passionarinin ağlına belə gəlməzdi, amma harmonik adamlara nə isə anlatmaq mümkün deyil. Həm də ki, anlatmağa dəyərmi? Axı, bu - etnogenezin son mərhələsi deyil.

Əcdadları tərəfindən toplanan möhtəşəm mədəni ehtiyatlara malik etnoslar da özlərini eyni şəkildə aparır. İstənilən texniki nailiyyətlər zamanı aramsız məhvedici təsiri altında dağıla bilsələr də, insanların iştirakı olmadan müstəqil şəkildə mütərəqqi inkişafa aparır. Yeni çarlıq dövründəki Misir və Mesopotamiyanı ələ keçirən Assiriya Qədim çarlıq dövründəki Misir və Şumerə nisbətən əkinçilik mədəniyyəti səviyyəsinə geriləmişdi. Görünür, məsələ əşyalarda yox, insanlarda, daha doğrusu, onlardakı yaradıcı enerji ehtiyatlarında - passionarlıqdadır. Odur ki, texnika və mədəniyyəti etnik proseslərin indikatoru, əvvəlki nəsillərin passionarlıqlarının bir növ kristallaşması kimi nəzərdən keçirmək olar.

Bəlkə biz coğrafi risalədə siyasi tarixdən həddən artıq sui-istifadə edirik? Axı, belə bir fikir formalaşıb ki, tarix və [437-438] təbiətşünaslıq bir-birindən həddən artıq uzaq olduqlarından, onları qarşılaşdırmaq məqsədəuyğun deyil. Con Stüart Kollins "Hər şeyə qalib gələn ağac" kitabında yazır: "Antiohiya sakinlərinin tanrının qəzəbinə gəlmələrini arzulayan Müqəddəs Pavel haqlı idi. Şəhərlərə lənət oxuyan digər peğəmbərlər də haqlı idilər. Lakin doğru hərəkət edən zaman onlar yanlış motivləri əldə əsas tuturdular. Günahın məğzi onun mənəvi tərəfində deyildi, o, ilahiyyata yox, ekologiyaya aid idi. Həddən artıq zəşəxxüs və dəbdəbə insanları tanrının qəzəbinə düçar etməzdi: yaşlı tarlalar bəhər verər, şəffaf sular isə sərinlik gətirməkdə davam edərdi. Əxlaqsızlıq və özbaşınalıq görünməmiş dərəcədə artsa da, bundan nə yüksək qala bürcləri yerindən laxlamış, nə də möhkəm qala divarları uçub dağılmazdı. Lakin insanlar Allahın onlara yaşamaq üçün bəxş etdiyi Yerə xəyanət etdilər, qanunlar qarşısında günah işlətdilər: meşələri viran qoydular və sulara yol açdılar. Odur ki, onları əfv etmək olmaz və bütün yaratdıqları da qumun altında qalıb". (46)

Parlaq, lakin yanlış fikir! Şəhərlərdəki əxlaqsızlıq və özbaşınalıq meşələr və çöllərə tutulacaq divanın ərəfəsi idi, çünki hər ikisi etnososial sistemin passionarlıq səviyyəsinin aşağı düşməsindən doğur. Bundan bir qədər əvvəl baş verən passionarlığın artımı zamanı səciyyəvi cəhət həm özünə, həm də qons, ulara qarşı sərtlik olmuşdu. Passionarlıq aşağı düşən zaman isə "insanpərvərlik", çatışmazlıqların bağışlanması, daha sonra isə vəzifəyə etinasızlıq və nəhayət, cinayət səciyyəvidir. Sonunculara aludəlik isə "abırsızlıq hüququ" insanlardan sonra landşafta şamil edilməsinə aparıb çıxarır. Etnosun əxlaqilik dərəcəsi də təbii etnogenez prosesinin canlı təbiətin vəhşicəsinə məhv edilməsi kimi bir hadisəsidir. Bu ilişkini duya bilmək sayəsində antropogen, yəni insan tərəfindən deformasiyaya uğradılan landşaftın tarixini yaza bilərdik, çünki qədim müəlliflərdə təbiətdə yararlanmaya dair bilgilərin kasadlığı araşdırılan dövrün əxlaqi səviyyəsi və siyasi

çarpışmalarının təsviri ilə dolğunlaşdırıla bilər. İnsanın biosferdə yeri barədə elm olan etnologiyanın predmeti də məhz təsvir etdiyimiz qarşılıqlı ilişkilərin dinamikasıdır.

Əslində, biz passionar təkanın pozduğu tarazlığın bərpası kimi səciyyələndirilə bilən mikromutasiyanın təzahürünü açıqladıq. Həmin passionar təkan bölgənin təbiətində heç də orada məskunlaşanda əks olunduğundan heç də az əks olunmur. Enerjinin lazım gələndən artıq olması yeni tələbatların, deməli, məskunlaşma landşaftının yenidən qurulmasına səbəb olur. Bir [438-439] qədər əvvəldə buna dair örnəklər gətirmişik və indi onları ümumiləşdirməli və yönünü müəyyənləşdirməliyik.

Bir qayda olaraq, birinci mərhələ üçün abadlaşdırmaya can atma səciyyəvidir. Etnogenezin ilkin mərhələlərində yaşayan adamlar onların sisteminin sonu olacağını heç təsəvvürlərinə belə gətirmirlər. Belə bir fikir kiminsə ağlına gəldiyi halda isə, heç kim ona qulaq asmaq istəmir. Odur ki, həmişə qüvvə əsirgəmədən əbədi şeylər qurub-yaratmaq istəyi mövcud olur. Təbiətin sərvətləri hələ ki, nəhayətsiz görünür və əsas vəzifə onların maneəsiz olaraq əldə edilməsini sahmanlamaqdır. Bəzən bu vəhşicəsinə istismara aparsa da, yaradılan və dəstəklənən ciddi qayda-qanun fərdi şəxslərin təşəbbüsünü məhdudlaşdırır. Axı, ingilis kralları və onların şerifləri orta əsrlərdə "Robin Qud" adlandırılan qanunsuz ov edənlərin əleyhinə sərt qanunlar tətbiq etməsəydilər, hazırda İngiltərədə nə bir maral, nə bir ağac, nə də tapdaq altına düşməyən bir çəmənlik qalardı. Fikrimcə, ingilis xalq balladalarının qəhrəmanları ilə deyil, onların düşmənlərilə fərəhlənmək gərəkdir. Hər iki tərəf artmaqda olan passionarlığın daşıyıcısı olsa da, öldürülən biçarə heyvanlar bundan məhrum idi. Çoxlu insan həyatı bahasına başa gələn, lakin Qoca İngiltərə ilə Gözəl Fransanın təbiətlərinin məhvinin qarşısını bir qədər alan Yüzillik savaş heyvanlar üçün faydalı oldu.

Belə təlatümlər dəfələrlə baş versə də, faciəvi olmurdu, çünki bəzən təbiət tarixdən daha sürətlə dəyişir.

Artıq qeyd olunduğu kimi, Qərbi Avropada cəhalət prosesi IX əsrdəki passionar təkanla durduruldu. Amma keçən dövr ərzində biosferə vurulan yaralar qaysaq bağlamışdı. Daha yüksək rütubətlilik sayəsində Qalliya və Britaniyada meşələr və çəmənlər bərpa olunsa da, İtaliya və Andalusiyada limon və apelsin bağları salınsa da, quraqlıq Şimali Afrikada səhra bərqərar oldu. Əgər hələ II əsrdə romalılar Atlas dağlarının ətəklərində otlayan saysız-hesabsız ilxılardan atlar alırdılarsa, artıq VIII əsrdə ərəblər buralarda dəvə saxlamağa başladı. Sabit antisiklon - tropiklərarxası maksimum bölgəsi olan bu ərazidə iqlim dəyişiklikləri baş verməmişdi. Lakin belə iqlim şəraitində bir neçə əsr ərzində nazik qumus qatını bərpa etmək mümkünsüzdür. e.ə. II əsrdən eramızın IV əsrinədək romalılar planlı şəkildə tauqerlərin əcdadları olan numidiyalıları cənuba doğru sıxışdırırdılar. Onlar da quru çölləri tədricən daşlıq Saxaraya çevirən sürülərilə birlikdə köçüb gedirdi. Kontinentin şərq ucqarında isə romalıların rolunu çinlilər yerinə yetirirdilər: xunları şimala sıxışdırdılar və İnşanın [439-440] meşəli ətəklərini daşlıq Qobi səhrasının ucqarlarına, Ordos çöllərini isə qumsal təpəliklərə çevirdilər. Doğrudur, burada antropogen proseslər iqlimin arid və qumid bölgələrin (47) daha yüksək rütubətliliyinin geteroxronluğu ilə ilgili variasiyaları ilə birləşsə də, bu fenomeni nəzərə alaraq, düzəliş etmək və onun nəticəyə təsir göstərmədiyinə əmin olmaq mümkündür. (48)

Belə bir təxmin yaranır ki, quraqlıq və daşqınlar da təbiət üçün dövrünə müvafiq texnika ilə silahlanan insanların fəaliyyətindən heç də az təhlükəli deyil. Lakin bu belə deyil! Təbii proseslər ilkin vəziyyəti bərpa etmək imkanı verən dəyişikliklər törədir. Məsələn, Avrasiyada Böyük çölün dəfələrlə aridləşdirilməsi quru çöl və yarımsəhraların daşlıq Qobi səhrasından şimala və cənuba doğru yayılmasına səbəb olurdu. Lakin sonrakı qumidləşmə əks proses doğururdu: səhralarda çöl otları bitir, meşələr çöllər üzərinə hücuma keçirdi. Bununla birlikdə isə antroposenozlar da bərpa olurdu - köçərilər öz sürülərilə "ot və suyun ardınca" hərəkət edirdilər.

Lakin etno genezlər təbii proseslərdir, deməli, özlüyündə onlar biosferdə dönməz dəyişikliklər yaratmamalıdır. Əgər yaradırlarsa, bu, daha bir amilin mövcudluğunu göstərir. Hansı? Aydınlaşdıraq.

Tarixi dövr ərzində Böyük çöldə etnogenez üç dəfə başlamışdır: e.ə. V-II əsrlərdə xunları (49); eramızın V-VI əsrlərində türklər və uyğurları (50); XII əsrdə monqolları (51), yaxınlıqdakı sunqar tayqasında isə mancurları (52) əhatə etmişdi. Yeniləşən bütün bu etnoslar özlərindən əvvəlki aborigenlərin xələfləri idi. Öz ölkələrini sevdiklərindən, artıq passionarlığı təbiətin dəyişdirilməsinə deyil, orijinal siyasi sistemlər - xun qəbilə dövləti, türk "Əbədi Eli", monqol ulusu yaradılmasına, Çin və İrana qarşı yürüşlərə sərf edirdilər. Bu baxımdan köçərilər bizanslılara bənzəyirdilər. Təsadüfi deyil ki, avropasentrizm mövqeyindən hər ikisi "ikinci dərəcəli", yaxud "kefiyyətsiz" sayılır, halbuki, ətraf mühiti mühafizə etmək zərurətindən çıxış edilərkən avropalılar və çinlilər türklər və monqollardan öyrənməlidir.

Lakin sivilizasiya mərhələsində ən pisi qeyri-təbii miqrasiyalar, daha doğrusu, bütöv populyasiyaların təbii landşaftlardan antropogenlərə, yəni şəhərlərə köçmələrinin şirnikləndirilməsidir. Böyüklüyündən asılı olmayaraq, hər bir şəhər təbii ehtiyatlar hesabına mövcud olsa da, elə böyük texniki əsas yaradır ki, onun sayəsində bir-birinə heç bənzəməyən ölkələrdən [440-441] gələnlər burada yaşamaq imkanı əldə edir. Urbanistik landşaftda onlar ən azı, bu süni landşaftı yaradan və qoruyub saxlayan aborigenlərin istismarı hesabına qida əldə etmək imkanına malik olurlar. Bu çarpışmada ən faciəlisi odur ki, miqrantlar aborigenlərlə əks əlaqəyə girir, onlara məsləhətlər verməyə, öz doğma landşaftları üçün

yararlı olan texniki təkmilləşdirmələri mexaniki şəkildə həmin diyarlara şamil edirlər. Bəzən belə xülyaların doğurduğu mənfi nəticələri aradan qaldırmaq mümkün olsa da, bir sıra hallarda çiçəklənən diyarlar sadəcə səhralara yox, texnikanın məhvedici təsirinin dönməz olduğu pis torpaqlara (bedlend) çevrilir.

Tarixi talenin keşməkeşləri nəticəsində belə bir tale Fərat və Dəclə vadisinin qisməti oldu. Burada şumerlər bataqlığı Ədəmə çevirdilər, semit-akkadlar isə "Tanrının qapısı" - Bab əl-ol şəhərini tikdilər. Bəs, niyə hazırda onun yerində yalnız xarabəliklər qalıb?

Babili kim dağıtdı? Min beş yüz il ərzində Yaxın Şərqin mədəni və iqtisadi mərkəzi olan şəhərin heç bir əsaslı səbəb olmadan məhv olması qeyri-adi gəlir. Bəs onlar hansılardır və məhvedici təsir mexanizmləri nədən ibarətdir? Ədəbiyyatda bu sual cavablandırılmır.

Bu möhtəşəm şəhərin əsası e.ə. XIX əsrdə amoreylər tərəfindən qoyulmuş, e.ə. VIII əsrdə assuriyalılar tərəfindən istila edilmişdi. Bu istila çox qanlı idi və hər hansı bir qiyam amansızlıqla yatırılırdı. Savaşa qonşular - ələmilər və Şərqi Ərəbistan tayfalarından olan haldeylər qarışdılar. e.ə. 612-ci ildə haldeylər Assuriyanı darmadağın edərək, Babilə yiyələndilər. Şəhərin əhalisinin sayı bir milyona yetişsə də, qədim babillərin xələflərinin sayı çox az idi. (53) Lakin şəhərin mədəniyyət və iqtisadiyyatı öz yaradıcılarından daha artıq yaşadı və yeni etnik tərkibə yiyələnən sistem fəaliyyətini davam etdirdi. Axıdılan bütün qanlara rəğmən, dayanıqlı antropogen landşaft e.ə. VI əsrədək dağıdılmadı.

Babilistanın təsərrüfatı Fərat və Dəclə vadisinin suvarma sisteminə əsaslanırdı. Suyun artıqları Dəclə vasitəsilə dənizə axıdılırdı. Bu, düşünülmüş tədbir idi, çünki daşqınlar zamanı bu çayların yuub gətirdiyi çoxlu qum və daşların münbit torpaqlara qarışması məqsədəuyğun deyildi. Lakin e.ə. 582-ci ildə Navuhodonosor Misirlə sülhü şəhzadə Nitokrislə nigahla möhkəmləndirdi ki, həmin qadın sonralar onun varisi Nabonidin də qadını oldu. Onunla birlikdə Misirdən bir dəstə savadlı misirli də gəlmişdi. Güman ki, onların məsləhətilə Nitokris ərinə [441-444] yeni kanal çəkməyi və suvarılan əraziləri geişləndirməyi təklif etdi. Çar-haldey öz misirli qadınının təklifini qəbul etdi və VI əsrin 60-cı illərində Babildən yuxarıda başlanan və çaybasarlardan kənarda yerləşən iri torpaq sahələrini suvaran Pallukat kayalı qazıldı. (54) Bəs, nəticəsi necə oldu?

Fəratın axma sürəti azaldı və suyun gətirdiyi müxtəlif süxurlar kanallarda çökməyə başladı. Bu, suvarma sisteminin əvvəlki vəziyyətdə saxlanması üçün əmək məsrəflərini artırdı. Quru ərazilərdən keçən Pallukanın suyu torpaqların şoranlaşmasına səbəb olurdu. Əkinçiliklə məşğul olmaq artıq sərfəli olmasa da, bu proses hələ uzun müddət sürdü. e.ə. 324-cü ildə Babil hələ o qədər böyük bir şəhər idi ki, xəyalpərəst Makedoniyalı İsgəndər hətta onu öz paytaxtı etmək arzusuna da düşmüşdü. Lakin daha soyuqqanlı olan Selevk Nikator e.ə. 312-ci ildə onu ələ keçirdikdən sonra, Dəclə sahilindəki Selevkiya və Orontdakı Antiohiyaya üstünlük verdi. Babil kimsəsizləşirdi və e.ə. 129-cu ildə parfiyalıların əlinə keçdi. Eramızın əvvəllərində onun yerində xarabələr və kiçik yəhudi yaşayış məntəqəsi qalmışdı. Bir qədər sonra o da yox oldu. (55)

Yəni həqiqətənmi bir şıltaq qadın nəhəng şəhəri və çiçəklənən ölkəni məhv etməyə qadirdi? Güman ki, onun rolu həlledici deyildi. Axı, Babilistanın çarı yerli sakin olsaydı, o ya özü düşünülməmiş suvarma sisteminin hansı fəlakətli sonuca səbəb olacağını anlar, ya da həmyerlilərilə məsləhətləşə və yəqin ki, onların arasında mütləq bir ağıllısı tapılardı. Lakin çar haldeydi, qoşunu ərəblərdən təşkil olunmuşdu, məsləhətçiləri isə yəhudilər idi. Bunların heç biri istila edilən və taqətdən salınan ölkənin coğrafi məsələlərilə tamamilə maraqlanmırdı. Misir mühəndisləri isə öz suvarma üsullarını Nildən mexaniki olaraq Fərata şamil etdilər. Nil daşqınlar vaxtı münbit lil gətirir, Liviya səhrasının qumluqları isə istənilən miqdarda suyu süzür. Odur ki, Misirdə torpaqların şoranlaşması üçün heç bir təhlükə yoxdur. Ən təhlükəlisi hətta yanlışlıq deyil, məsələnin qoyuluşu zəruri olan yerdə ona qarşı biganəlikdir. Babilin öldürülən və qovulan yerli sakinlərini əvəz edən yeni sakinlərinə hər şey o qədər aydın görünürdü ki, onlar heç düşünmək də istəmirdilər. Lakin "təbiət üzərində növbəti qələbənin" nəticələri onların bu şəhərin tikilməsində iştirak etməyən və sadəcə olaraq burada məskunlaşan xələflərini məhv etdi. "Əhalinin coğrafiyası" ilə etnoqrafiya arasındakı fərq də elə bundan ibarətdir. Birincidə çılpaq statistika, [442-443] ikincidə isə etnogenezin müxtəlif mərhələlərində etnosla landşaftın qarşılıqlı münasibətləri üstünlük təşkil edir.

İki çay arasındakı vadidə görülmüş bu meliorasiya işlərinin doğurduğu nəticələri xələflər də aradan qaldıra bilmədilər. VII-IX əsrlərdə ərəblərin ixtiyarında külli miqdarda ucuz işçi qüvvəsi vardı. Onlar Zənzibardan gətirildikləri üçün "zənci" adlandırılan qulları Babil ətrafında duz kristallarını zənbillərə toplayaraq, başqa yerlərə daşımağa məcbur edirdilər. Bu yolla torpağı təmizləmək ideyası yerinə yetirilə bilməzdi, çünki kiçik kristallar sadə gözlə seçilmir. Qızmar günəş altında əllərin dərisini soyub aparan duzu toplamaq isə əsl cəhənnəm əzabı idi.

Ümidlərini itirən zəncilər üsyan qaldırdılar. 869-cu ildən 892-ci ilədək davam edən bu üsyan, gözlənildiyi kimi, bu bədbəxtlərin hamısının məhv olması ilə sonuclandı. Lakin bu hələ hamısı deyil: onlar üçün ağır bir yükə çevrilən həyatlarını qurban verən bu adamlar Bağdadı Xilafətini də məhv etdilər, çünki Misir və Xorasan valiləri Bağdaddan ayrıldılar, quldur Yaqub Səffar paytaxtın qala divarlarına yaxınlaşdı. Bəhreyn təfriqəçiləri - kərmatlar isə müstəqillik əldə etdilər. Bütün bunlar yalnız ona görə baş

verdi ki, xəlifə bütün qüvvələrini zinclərə qarşı göndərmiş, bütün vəsaitini isə seyrəkləşməkdə olan orduya türkmən muzdlularının gətirilməsinə sərf etmişdi.

Bağdadda yeganə real qüvvə olduqlarını görən bu cəngavər çöl sakinləri xəlifələri öz istəklərinə uyğun olaraq dəyişməyə və öz köhnə sahibləri - ərəblərin hər hansı bir narazılığını silah gücünə aradan qaldırmağa başladılar. Onları yalnız ərəblərdən gələn hər şeyin düşməni olan dağlılar - Buidlərin köməyilə qovmaq mümkün oldu. Bundan sonra isə sonuncular xəlifəni öz əllərində oyuncağa çevirdilər.

Birincisi qədər düşünülməmiş həyata keçirilən ikinci meliorasiya cəhdinin bahası bu şəkildə oldu.

Xeyr, heç də hər hansı bir suvarma sisteminin yaradılmasının torpaq üçün ziyanlı olduğunu düşünmək lazım deyil. Bu yalnız düşünülməmiş, ərazi öyrənilmədən və nəticələri nəzərə alınmadan həyata keçirilərkən belə sonuclanır. Qədimdə isə belə hallar işə yabançı, yerli olmayan adamlar başlayanda baş verirdi. Onların durumu araşdırmağa vaxtları yox idi, təcili fəaliyyət göstərməyə can atırdılar ki, … bu da axırı! Məskunlaşma landşaftının tərkib hissəsini təşkil edən etnosa mənsub adamlar isə tamamilə başqa cür hərəkət edir. Həmin landşaftı dəyişən zaman onlar təbii proseslərin [443-444] gedişi ilə ziddiyyətə yol vermirlər. Bununla da bitki, heyvan və insanların hərəsinin öz ekoloji sığınacağı olan dayanıqlı biosenoz yaradılır. Adətən, belə etnolandşaft sisteminin yaradılması etnogenezin ilkin mərhələlərində olur, çünki etnogenezlər Yerin landşaft örtüyünün təbii şəkildə formalaşması prosesinə daxil olan təbii proseslərdir.

**“Mədəniyyətin tənəzzülü” nə deməkdir?** Qəddar, zülmət və yoxsul dövrlərə müraciət etməyimiz təsadüfi deyil. Rəngarəng, təkrarsız şedevrlərlə zəngin dövrlər dəfələrlə təsvir olunub və onların təsvirini təkrarlamağın heç bir mənası yoxdur. Mədəniyyətin işıqlı dövrlərinin zülmət dövrlərilə əvəzlənməsinin səbəbini açıqlamaq daha məqsədəuyğun olar.

Orta əsrlərin düşünən beyinləri səmimi olaraq belə hesab edirdilər ki, antik dövrdən: Roma imperiyası və həvariyun (apostol) xristianlığından qalan mirasın durmadan itirilməsilə əlamətdar olan tənəzzül dövründə yaşayırlar. Bu hiss yalnız XV əsrdə yox oldu ki, nəticədə həmin əsri İntibah adlandırdılar.

Maraqlıdır ki, Xan dövrü mədəniyyətinin həsrətini çəkən çinlilər də, (56) öz tarixlərinə nəğmələr qoşan farslar da (58), ortodoksal islama Tövrat və İncil peyğəmbərlərini - Adəm, Nuh, Musa və onlara bərabər tutulan Davud və Süleyman padşahlarını qarşı qoyan Ərəbistan bədəviləri də bu fikirdə idi. Onların heç birinin tarix barədə təsəvvürü də olmasa da, sadəcə olaraq, öz fikirlərini tarixi personajların dililə ifadə edirdilər ki, çox zaman sırf sərsəmləmə olan həmin ideyalarını bir qədər inandırıcı etsinlər. Bunun naminə onlar bəzən müəllif hüquqlarını da qurban verirdilər. Həqiqətən də qaranlıq və darıxdırıcı olan reallığa qarşı etirazları məhz bu qədər qüdrətli idi.

Bu mühakimələrin haqlı olub-olmaması barədə mübahisə etməyə dəyməz. Onlar özlüyündə fakt olan dövrü hissetmənin tərkibinə daxildi. Bu hissetmə qlobal olduqda isə, artıq tarixi fakta çevrilir. Əgər belədirsə, bu faktı elmi baxımdan araşdırmaq mümkündür və həmin iş yerinə yetirilməlidir.

İlk növbədə, qarşıya belə bir sual qoyulmalıdır: nəyin tənəzzülü (yüksəlişi də həmçinin)? Etnik proseslərdə və mədəniyyət tarixində yüksəliş və tənəzzülər var, lakin onlar mərhələlərinə görə bir-birinə uyğun gəlmir. Bu da təsadüfi deyil. Etnogenez prosesinə rəvac verən passionar partlayış, bir qayda olaraq, özündən əvvəlki mədəniyyət üçün məhvedici olur. Qədim xristianlar antik heykəltaraşlıq şedevrlərini sındırır, qot, vandal və franklar [444-445] təkrarsız memarlıq abidələri olan şəhərləri yandırır, ərəblər İsgəndəriyyə və Ktesifondakı kitabxanaları məhv edir, Karfagen və Kordovada məbədlərin divarlarındakı freskaların üstündən mala çəkirdilər. İncəsənət dəhşətli, əvəzsiz itkilərə məruz qalsa da, bunu tənəzzül adlandırmaq olmaz, çünki yaradıcı impulsa ehtiram göstərilir, yalnız mədəni dominant dəyişirdi.

Əksinə, klassik tənəzzül dövrü - II-IV əsrlər Roma imperiyası heykəl və freskaların sayının artması, məbəd və teatrlar tikilməsi, zəfər tağları və mitreumlar ucaldılması ilə səciyyələnir. Amma burada estetik normaların, bizim təbirimizcə - keyfiyyətin aşağı düşməsi xarakterikdir. İmperatorların təsvirləri bayağıdır, qadın heykəllərində cazibə yoxdur, çünki hər ikisi o zaman qəbul edilmiş ədəb normalarına müvafiqdir. Arxitekturada durum bundan da bərbaddır: Konstantin üçün zəfər tağını vaxtında quraşdırmaqdan ötrü Trayanın şərəfinə ucaldılan tağı sökdülər. Bu isə artıq sənətkarlıq yox, başdansovma görülən bir işdir. Romadakı çoxmənzilli evlər o qədər keyfiyyətsiz tikilirdi ki, tez-tez sakinlərinin başına uçurdu. Roma hələ qot və vandal çapqınlarından əvvəl yaradıcı həyatı yadırğamışdı. Sakinlərinin əbədi şəhəri qorumamalarının səbəbi də elə bu idi.

Lakin həqiqətən belə idimi? Axı, ən qəddar əsrlərdə də ölməz əsərlərin müəllifləri olan Samosatlı Lukian, Ammian Martsellin, Sidoni Apollinari yaşamışlar. Biz hələ xristian filosoflarını və ruhən onlara yaxın olan neoplatonçuları bir kənara qoyuruq.

Bəli, belədir. Amma onu da xatırlayaq ki, müəllif nə qədər gec dövrdə yaşayırdısa, onun oxucusu da bir o qədər az olurdu. Sidomi Apollinari mənəvi tənhalıqdan acı-acı şikayətlənir. Filosoflar Prokl və İpatiya hamı tərəfindən tərk edilərək tənha yaşayırdılar. İpatiyanın şagirdləri öz müəllimlərini İsgəndəriyyənin qara camaatının hücumundan heç müdafiə də etmədilər. Daha gec dövrlərdə yüksək ustalıqla düzəldilən heykəllərin ayrı-ayrı parçalarını da aşkar etmək mümkün olsa da, adi sənət nümunələrilə müqayisədə onların sayı çox cüzidir. İncəsənətin əsl tənəzzülü də elə zövqlərin bu cür

bayağılaşması və üslubun ekletika ilə əvəzlənməsidir. Onun dəhşətli dağıntılarla müşayət olub-olmaması isə tarixi proseslər və etnik yerdəyişmələrin detallarıdır.

Hər yerdə də belədir. IV əsrdə Bizansda İoan Zlatoust qüdrətli imperatriçanın rəqibi kimi çıxış edir və ölümündən sonra müqəddəslər cərgəsinə aid edilir. XI əsrdə isə nüfuz öz fitnələrilə [445-446] qəhrəmanları - vətənin müdafiəçilərini məhv edən sinklitin (ali məmurlar) əlində cəmləşir. Şairlər isə yerli-dibli yoxdur.

Ərəb Xilafətində alimlərə ehtiram göstərsələr və memarlıq abidələrini dağıtmasalar da, şüubiyyə - Quranın yaradıcı təfsiri ehkamı əzbərçiliklə əvəzləndi. Çində konfusiçilikdə savayı bütün dinləri qadağan edən Sun sülaləsi də eyni şəkildə hərəkət edərək, bu yolla idrakı müxtəlifliyi aradan qaldırdı. Görünür, mədəniyyətin tənəzzülü hər yerdə baş verən prosesdir.

İndi artıq ümumiləşdirmələrə keçmək olar.

Etnik ətalət mərhələsində arealı genişləndirə bilmək qabiliyyəti azalır və öz ölkəsinin landşaftlarına təsir göstərmək məqamı yetişir. Texnosfer, yəni gərəkli və gərəksiz bina, məmulat, abidə və əşyaların sayı artır. Təbii ki, təbii ehtiyatlar hesabına. Belə dəyişikliklərin bir hissəsi - arxlar, monobitki tarlaları, nəhəng buynuzlu heyvan sürüləri təbiətin nisbətən ziyansız təhrifləridir. Diqqətsiz qaldıqları halda onlar təbii geobiosenozlara qayıdır. Lakin təbii materialların ciddi formaların buxovlarında dustaq olduğu yerlərdə öz-özünə inkişaf sonuclanır və əksər hallarda dönməz olan ləng, lakin aramsız aşılanma ilə əvəzlənir. Belə xərabələr yalnız arxeoloqlara gərəkdir. Onlar böyüməkdə olan etnosların izlərini yox, əsrlər uzunu saxsı qab-qacaq qırıqları, üzərində babil mixi yazıları olan lövhəciklərin parçalarını, ehramlar və Balabəy platformasını, orta əsr qəsrlərinin və Yukatan cəngəlliklərindəki qədim mayya məbədlərinin xərabələrini araşdırırlar. İnsanları qida ilə təmin etməyə qadir olan biosfer onların planetin səthini biosenozların əvəzlənməsi silsiləsindən əldə edilən zir-zibillə başdan-başa örtmək cəhdinin qarşısını ala bilmir. Bu mərhələdə etnos Antey kimi torpaq, yəni həyatla əlaqəsini itirir və qaçılmaz olan tənəzzül başlanır. Bu tənəzzülün siması aldadıcıdır. Ona firavanlıq və çiçəklənmə maskası geydirilib. Müasirləri bunları əbədi sanır, çünki özlərini təbii sərvətlərin nəhayətsiz olması xəyalı ilə sakitləşdirirlər. Lakin bu yalnız öz-özünü aldatmadır və sonuncu, bu dəfə artıq həlledici olan mərhələ keçidi bərqərar olan kimi yox olub gedir.

Etnogenezin son mərhələsi dağıdıcıdır. Təkamül dönməzliyi qanununa müvafiq olaraq, biosferlə təmasa qayıda bilməyən etnos üzvləri yırtıcılığa keçirlər, lakin onları bu da xilas etmir. Demoqrafik tənəzzül gedir ki, bundan da sonra yalnız etnogenezin baş xəttilə minimum dərəcədə ilgili olan ucqar subetnoslar qalır. Onlar ya qalıq kimi güzaran keçirir, ya da fərqli davranış [446-447] dominantına malik yeni etnoslar yaradır. Bu halda proses yenidən başlanır. Əlbəttə, növbəti passionar təkan baş verdiyi halda.

## XXXV. CƏHALƏT MƏRHƏLƏSİ

**Etnos “axşamçağı”**. “Sivilizasiyanın” fərqləndirici cəhəti fəal elementin azalması və emosional baxımdan passiv və zəhmətkeş əhalinin tam razılıq içində bulunmasıdır. Lakin üçüncü variantı - yaradıcı və zəhmətkeş olmayan, emosional və əqli baxımdan qüsurlu, amma həyatdan daha çox şey tələb edən adamların mövcudluğunu da nəzərdən qaçırmaq olmaz Qəhrəmanlıqlarla zəngin böyümə və özünü göstərmə dövrlərində bu adamların salamat qalmaq şansları çox azdır. Onlar pis əsgər, fərasətsiz işçilərdir, cinayətkarlığa aparan yol isə həmin dövrlərdə qısa bir müddətdə eşafota aparıb çıxarırdı. Lakin ümumi maddi bolluqla əlamətdar olan mülayim sivilizasiya dövründə hamı üçün bir tikə çörək və qadın tapılır. “Həyatsevərlər” (bu neologizmə görə müəllifi əfv edin) qeyri-məhdud şəkildə artmağa başlayır və yeni səciyyəli adamlar olduqlarından, öz imperativlərini yaradırlar: “Bizim kimi ol”, yəni yeyilməsi və ya içilməsi mümkünsüz olan nəyə can atma. Hər hansı bir artım, inkişaf əcaib bir şey kimi dəyərləndirilir, əməksevərlik lağa qoyulur, idrakın doğurduğu sevinc nifrətlə qarşılanır. İncəsənətdə üslubun bayağılaşması baş verir, elmdə orijinal araşdırmalar kompilyasiyalar (iqtibaslar) tərəfindən sıxışdırılıb aradan çıxarılır, ictimai həyatda korrupsiya qanuniləşdirilir, orduda əsgərlər qiyam qaldırmaqla hədələyərək, zabit və sərkərdələri itaətdə saxlayır. Hər şey alınır və satılır, heç kimə inanmaq, arxayın olmaq mümkün deyil və hakimiyyətdə qalmaq üçün hökmdar quldurbaşı taktikasını tətbiq etməlidir: öz silahdaşlarından şübhələnmək, onları izləmək və qətlə yetirmək.

“Cəhalət” mərhələsi adlandırılması daha doğru olan bu mərhələdə bərqərar olan qayda-qanunu hec cür demokratik adlandırmaq olmaz. Əvvəlki mərhələlərdə olduğu kimi, burada da yalnız qruplar hökmran olsa da, onların seçim prinsipi dəyişmiş - mənfi işarəli olmuşdur. Bacarıq və istedad yox, onların olmaması, savad yox, cahillik, ideyalara sadiqlik əvəzinə prinsipsizlik dəyərləndirilir. Heç də bütün obivatellər bu tələblərə cavab vermədiyindən, yeni imperativ baxımından xalqın əksəriyyəti qüsurlu, deməli, qeyri-bərabər hüquqlu olur. Lakin elə bu zaman qisas məqamı yetişir: həyatsevərlər yalnız “sivilizasiya” dövrü [447-448] ərzində “piy bağlamış” xalqın hesabına parazit ömür sürməyi bacarırlar. Özlərinin əlindən isə nə qurub-yaratmaq, nə də qazanılanları qoruyub saxlamaq gəlmir. Onlar insan orqanizmini bürüyən xərçəng xəstəliyi tək xalqı didib-dağıdır, lakin qələbə çaldıqdan, yəni rəqibini öldürdükdən sonra özləri də həlak olur.

Həqiqətən, hətta ailəni qorumaq və övladları tərbiyələndirməkdən ötrü ciddi-cəhdlə hamıya aşılanan keyfiyyətlərdən tamamilə fərqli keyfiyyətlər tələb olunur. Əks halda, əlverişli məqam tapan kimi, övladlar valideynlərinə divan tutacaqlar. Beləliklə, cəhalətin təntənəsindən sonra onun daşıyıcıları duman kimi dağılıb, yalnız sükunət durumunun ilkin daşıyıcılarının bütün keçməkeşlərdən salamat çıxan xələfləri qalır. Bunlar xərabələr üzərində yenidən övladlarını öyrətməyə başlayır, qonşular və bir-birilə münaqişələrdən uzaq olmağa çalışırlar. Anatomiya və fiziologiya baxımından onlar landşafta uyğunlaşmış tam dəyərli adamlar olsalar da, passionar gərginlikləri o qədər azdır ki, etnosların inkişafı prosesi irəliləmir. Hətta onlar arasında təsadüfən passionar fərd doğulduqda belə, o, özünü ifadə etmək üçün vətənində deyil, qonşu ölkələrdə imkan axtarır. Məsələn, albanlar ya Venetsiya, ya da Konstantinopolda qulluğa girir və ucalırdılar. Bu zaman iki imkan yaranır: vətəndə qalanlar ya relikt etnos kimi yazıq bir güzaran keçirir, ya da yeniləşmə alovuna bürünərək, bir sıra əlverişli şərtlər olduğu zaman bir neçə qalıq parçasından yeni bir etnos yaranır. Bu etnos öz mənşəyini dumanlı şəkildə xatırlayır, çünki onun üçün yeni doğum tarixi daha önəmlidir. Bu dəfə də proses sadaladığımız mərhələləri təkrar keçir, bir şərtlə ki, kənardan təsir onu durdurmasın.

Digər mərhələlərə nisbətən, cəhalət mərhələsini nəzərə çarpdırmaq üçün əyani örnəklər məhduddur. Həm Qərbi, həm də Şərqi Avropa xalqları düşkünlüyə düçar olacaq qədər də qoca deyillər. Odur ki, qədim dövrlərə üz tutmalıyıq.

**Çiçəklənmədən tənəzzülə**. Ən aydın olandan - e.ə. IV əsr Aralıq dənizi hövzəsindən başlayaq. Üz il əvvəl İspaniya və İtaliyada ərazilər ələ keçirən və artmaqda olan etrusk mədəniyyətini ağır itkilərə məruz qoyan cəngavər keltlərin təcavüzləri məhz bu vaxt sonuclandı. Elə həmin əsrdə Karfagenin hərbi və iqtisadi qüdrəti çiçəkləndi, etrusk əsarətindən qurtulan Romada mürəkkəb dövlət sistemi formalaşdı. Lakin əsas rolu artıq parlaq dövrlərini arxada qoyan və şəbəkəvari etnosdaqn superetnosa çevrilən ellinlər oynayırdılar. [448-449]

Makedoniyanı da ehtiva edən ellin superetnosu onunla rəqabət aparan Karfagen və Etruriya etnoslarını sıxışdırıb, şərqdə Hindistan, qərbdə isə İspaniya (Saqunt) və Qalliyada (Massiliya) qədər genişləndi. Sonuncuların hər ikisi müstəqilliyini saxlaya bilsə də, dənizlərdəki hökmranlıqlarını itirdilər. Lakin passionar elementlərin ucqarlara axını və bir qədər əvvəlki savaşlar (Peloponnes, Fivə və Makedoniya savaşları) Elladanın rezistentliyini azaltdı ki, bu da yarımvəhşi Epir və Etoliya dağlılarının, sadə Ahaya kəndlilərinin təşəbbüsü Afina və Spartanın əlindən almalarında özünü göstərir. Onların bir o qədər də böyük qüvvəyə malik olduqlarını söyləmək olmaz. Sadəcə, əvvəlki passionarlıq mərkəzləri təcrid olunan zaman onların qüvvələri hegemonluq uğrunda mübarizəyə qoşulmaq və nəyəsə nail olacaqlarına ümid bəsləmək üçün kifayət etdi. İtaliyada cərəyan edən eyni proses yeddi təpəlik üzərində yerləşən quldur respublikasını yüksəltdi və onu Əbədi Şəhərə çevirdi. Burada bir mühüm müşahidəni yada salmaq yerinə düşər. Romalıları şücaətinə görə heç də onlardan geri qalmayan əsas rəqibləri olan samnitlərdə belə bir adət vardı: onlar öz gənclərini muzdlu əsgərlər kimi gah Karfagenə, gah da Tarent, Sirakuza və digər ellin şəhərlərinə göndərirdilər. Təbii ki, sərgüzəşt və sərvət axtarışlarına yollananların əksəriyyəti həlak olur, vətənə qayıdanlar isə acınacaqlı vəziyyətdə qayıdırdı. Romalılar isə, əksinə, öz gənclərini, onlardan xeyli başağrı çəksələr də, vətəndə saxlayırdılar. Beləliklə onlar passionar fondu qorumağa nail oldular və Pirr və Hanniballa savaşlarda ondan yararlandılar. Bu da Romaya Aralıq dənizi hövzəsində hökmranlıq gətirdi. Bununla belə, həmin fond getdikcə azalmaqda idi ki, bu da Qay Mari islahatına - subpassionarilərdən sıravi əsgərlər kimi yararlanmaq imkanı verən dəmir intizama malik daimi peşəkar ordunun yaradılmasına səbəb oldu. Roma etnosunun strukturu parçalandı və iki yarımsistem yarandı - senat və ordu. Sezar dövründə ordu qalib gəldi. İkinci qələbə Sezar həlak olduqdan sonra Oktavianla Antoninin başçılığı altında əldə edildi. Sonrakı üç əsr ərzində ordu Roma imperiyasının bütün passionar əhalisini özünə çəkirdi, vətəndaş savaşları isə bir superetnosa - Roma dünyasına (bax: Romana) daxil olan müxtəlif etnosların nümayəndələrindən tərtib edilən hərbi qruplar arasında gedirdi.

Birinci savaş 68-ci ildə başladı. Akvitaniya çarlarının xələfi olan Qalliya propretoru Yuli Vindeks Romanın zülmündən azad olmaq istəyən soydaşlarının üsyanının başında durdu. Üsyana qoşulan İspaniya legionları Servi Sulpitsi Qalbanı imperator elan etdilər. [449-450] Lakin Qalba Piriney dağlarını aşmağa macal tapmazdan əvvəl Yuxarı Reyndəki legionlar akvitaniyalılara həmlə etdi. Hər iki qoşunun başçıları savaş barədə heç düşünməsələr də, legionçular onlara tabe olmadılar. Döyüşdə 20 min akvitaniyalı, o cümlədən, Vindeks də həlak oldu.

Qalba ispan legionlarının başında Romaya daxil oldu və yeddi aydan sonra əslən italiyalı olan pretorianlar (seçmə qoşun, -tər.) tərəfindən öldürüldü. Sonuncular həlak olmuş Neronun şərab dostlarından biri olan Otonu imperator elan etdilər. Lakin Aşağı Reyn legionları qiyam qaldırdı. Onlar öz başçıları Avl Vitellini də özlərilə Romaya getməyə zorladılar. 69-cu ildə bu legionlar pretorianları darmadağın etdilər, Oton isə xəncəri öz sinəsinə sapladı. Lakin Suriya və Misir legionları Vitellinin hakimiyyətini tanımaqdan boyun qaçırdı və komandanları Vespasiyanı hakimiyyət uğrunda mübarizədə onlara başçılıq etməyə məcbur etdilər.

Vitellidən Otonun intiqamını almaq istəyən Meziya, Pannoniya və İlliriya legionları da onlara qoşuldular. German legionlarının komandanı Tsetsinanın təslim olmaq cəhdi boşa çıxdı. Əsgərləri onun

əl-qolunu zəncirləyib döyüşə getdilər. Kremona ətrafında Vespasianın qoşunları qələbə qazandı. Əsgərlər şəhəri dəhşətli qarətlərə məruz qoydular və sakinlərini ucdantutma qırdılar, çünki Roma vətəndaşları olduqları üçün, onları qul kimi sata bilməzdilər. Vitelli hakimiyyətdən imtina etsə də, əsgərləri bunu qəbul etmədi. Onlar Kapitoliyə basqın etdilər və Vespasianın qardaşı olan Roma prefektini öldürdülər və son nəfərə qədər vuruşdular. Roma xalqı isə növbəti qalibin tərəfinə keçirdi.

Sadalanan cinayətlərdən görünür ki, peşəkar ordu Roma xalqından ayrıldı və senatın birbaşa düşməni oldu. Lakin o da bütöv halında qala bilmədi və bir neçə ərazi konsorsiyasına parçalandı. Legionçularla dinc əhalinin davranış stereotipləri fərqləndi və getdikcə daha da qütbləşməyə başladı, çünki orduya əsgər həyatı naminə qohum və soydaşlarını tərk edib əyalətlərdən gələnlər götürülürdü.

70-ci ildə İmperiyanın malik olduğu otuz region yalnız səfərbərlik və könüllülər hesabına deyil, təbii artım yolu ilə də tamlaşırdı. Dinc dövrlərdə legionçular şəxsi ehtiyacları üçün torpaq sahələrini becərir, evlənməyə ixtiyarları olmasa da, özlərinə “rəfiqələr” tapırdılar. Bu izdivaclardan doğulan uşaqlar mexaniki olaraq döyüşçü olurdu. Beləliklə, əsgərlər Roma imperiyasında əhəmiyyəti [450-451] ildən-ilə artan, davranış stereotipi isə ömürlük əsgəri xidmətin şəraitinə uyğun olaraq dəyişən müstəqil subetnos yaratdılar.

Roma vətəndaşları öz ordularına nə qədər pis münasibət bəsləsələr də, əsgərlər dinc əhaliyə nə qədər divan tutsa da, qeyd etmək lazımdır ki, əyalətlərin zənginləşməsi və paytaxtın əyləncələrdən ləzzət ala bilməsi yalnız ordunun sayəsində mümkün olurdu. Romalılar çox iyrənc əylənirdilər: qladiator savaşları, heyvanlara işgəncə verilməsi, xristianların qətlləri, əsir qadınların alçaldılması, qul alveri. Nə etməli, klassik qədimlik xoşlananları heyran edən roma stereotipi belə idi.

Təsvir olunan bütün dəhşətlərlə yanaşı, Romanın imperatorlar dövrünü etnogenezin ətalət mərhələsi saymaq lazımdır. Əgər e.ə. II-I əsrlərdə həddən artıq passionarlıq vətəndaş savaşları yolu ilə sərt sosial sistemi dağıdırdısa, eramızın əvvəllərində isə passionarlıq sistemdə qayda-qanun və dincliyi qorumaq üçün kifayət edəcək qədər idisə, artıq I əsrin sonunda ordunu döüşkən, yəni passionar əyalət sakinlərilə tamlaşdırmaq zərurəti medana çıxdı. Bu sonucun başlanğıcı idi.

Nə baş verdi? Legionlarmı zəiflədi, yoxsa İmperiyanın qonşuları gücləndi? Fikrimizcə, hər ikisi və eyni vaxtda. Bizim üçün önəmli olanı da elə budur.

Əlbəttə, Roma etnosunun (o dövrdə antik yunan-roma superetnosu ilə eyniyyət təşkil edirdi) legionlara daxil olan hissəsi passionar gərginliyini savaş meydanlarında olmalı olduğundan daha sürətlə itirirdi. Sayı həddən artıq çox olan hər bir çevriliş zamanı əsgərlər acıqlarını kiçik komanda heyətindən çıxır, yəni intizamı dəstəkləyən zabitləri qırırdılar. Bu o deməkdir ki, ən məsuliyyətli, təşəbbüskar, borcuna sadiq adamlar aradan götürülür, onların yerini prinsipsiz və satqın adamlar tuturdu. “Əsgər” imperatorlarının əxlaqi və mədəni səviyyələrinə münasibətdə bu düşgünləşmə qeydə alınıb təsvir olunsa da, bizim mövzu üçün onun ordunun bütün təbəqələrinə sirayət etməsini göstərmək daha önəmlidir. Həmin dövrdə ordu roma etnosunun bütün passionar elementlərini özünə çəkirdi, çünki şöhrətpərəst gənclər həyatlarını təhlükə altına qoymaqla da olsa, yalnız orduda irəliləmək imkanına malik olurdular.

Ətalət sistemin mövcudluğunu II əsrədək dəstəklədi və bitdi. Bu zaman yeni mərhələnin növbəsi yetişdi.

**Qanlı zülmət**. Etnogenez mərhələlərinin bir-birinə keçidi o qədər axıcı olur ki, bir qayda olaraq, müasirlər onları duya bilmir. [451-452] Lakin tarixçiyə aydındır ki, keçidlər önəmi yalnız uzaq məsafədən duyulan mühüm hadisələrlə üst-üstə düşür.

Roma etnosunun həyatında dönüş divanə imperator Kommod qətlə yetiriləndə - 193-cü ildə baş verdi.

Bu hadisələr üzərində xüsusi olaraq dayanmağa dəyər. Bu zalım və qaniçən hökmdar bir dəfə kənizlərindən birinin yatağında üstündə ölümə məhkum etdiyi adamların adları yazılmış lövhəni qoyub gedir. Məhkumlar sırasında öz adını da görən qadın siyahıda adları olanları xəbərdar edir. Xüsusi olaraq çağırılmış qladiator Narsis zülmkarı öldürür. Senat hamının hörmət etdiyi qoca Pertinaksı imperator seçir. Pretorianlar da ona itaət edirlər, çünki Pertinaks namuslu, sadiq və bacarıqlı inzibatçı, xeyirxah, ədalətli və mülayim hökmdar kimi tanınırdı. Nahaq tutulanlar mənsəblərdən buraxıldı və sürgünlərdən geri qaytarıldı, çuğulçular cəzalandırıldı, məhkəmələrdə və təsərrüfat işlərində qayda-qanun yaradıldı. Pertinaks Kommodun eyş-işrətlə məşğul olduğu qulları satdı. Belə bir təsəvvür yaranmışdı ki, ölkə cəmi üç ay ərzində yenidən dirçəldi.

Lakin bir gün sarayın qapılarına bir dəstə pretorian yaxınlaşdı. Keşikçilər onları içəri buraxdı. Gələnlər Pertinaksı öldürdülər. Xalq göz yaşı içində idi. Vətəni xilas etmək cəhdi beləcə başa çatdı.

Pretorianlar hakimiyyəti ən çox pul təklif edənə verməyi təklif etdilər. Taxt-tacı uzun illər uzaq əyalətlərdən birinin valisi olan və külli miqdarda var-dövlət qarət edən zəngin senyor Didi Yulian aldı. Onun hakimiyyətinin heç bir dayağı yox idi: senatorlar və atlılar hisslərini büruzə vermir, kütlə isə deyinirdi. Pretorianlara heç bir ümid qalmamışdı. Bunlar artıq 69-cu ildə öz başçıları Otonu Vittelinin zəhmli sərhədçilərindən qoruyan rəşadətli legionçular deyildi. Keçən 124 il ərzində pretorianlar o qədər pozğunlaşmışdılar ki, artıq onlara heç kim inanmırdı.

Roma legionçularına qarşı dərhal əyalətlərin prokonsulları çıxış etdilər. Britaniyada Mark Avreli və Kommodun dostu, "filosof plaşı altında bütün qeyri-təbii əxlaqsızlıqları gizləyən" Klodi Albin döyüşçülərinə azadlığı geri qaytarmağı təklif etdi. Öz əyalətində və Romada dəbdə olan bacarıqlı və gülərüz Suriya valisi Pestsenni Nigerin şansı xeyli yüksək olsa da, əslən afrikalı olan Roma atlısı, Pannoniya hökmdarı Septimi Sever təşəbbüsü ələ keçirdi. O, cəld tərpəndi və Romaya yaxın olmasından istifadə edərək, Əbədi şəhəri döyüşsüz ələ keçirdi. Pretorianlar tərəfindən xəyanət edilən və tək qalan Didi ulian öz sarayında öldürüldü. [452-453]

Lakin qəsbkarın pişvazına dəfnə çələnglərilə çıxan pretorianlar da anıldılar. Septimi Sever silahdaşlarına onları tərksilah etməyi əmr etdi, sonra isə müxtəlif əyalətlərdə yerləşən koqortalara yolladı. Beləliklə, vaxtilə istila olunan İlliria və Frakiya Roma üzərində qələbə çaldılar. Frakiya-illiriya legionlarının şücaəti sayəsində Niger və Albin üzərində qanlı qələbələr qazanandan sonra Septimi Sever əsgərlərin vəziyyətini yüngülləşdirdi və ordunu şərq əyalətlərinin sakinləri - frakiyalılar, illiriyalılar, qalatlar, mavrlar, yəziqlər, ərəblər hesabına qüvvətləndirdi. Nəticədə, III əsrin əvvəllərində demək olar ki, bütün Roma ordusu yadellilərdən təşkil olunmuşdu. Bu onu göstərir ki, ordunu vətənin könüllü müdafiəçilərilə təmin edə bilməyən roma etnosu passionarlığını itirmişdi. İmperiyanın strukturu, dili və mədəniyyəti ətalət sayəsində hələ də qalmaqda olsa da, hətta İtaliyada da cəmi bir neçə əsl romalı ailəsi qalmışdı. Qalanları Suriyadan köçüb gələnlər və qul hərbi əsirlərin xələfləri olan kolonlar idi.

Severlərin hərbi diktaturası Roma sisteminin ömrünü qırx il də uzatdı, sonra isə başladı, nə başladı… 235-ci ildə əsgərlər Aleksandr Severi və onun müdrik anası Mammeyanı öldürüb, taxt-tacı frakiyalı Maksiminə verdilər. Əslən romalı olan Afrika prokonsulu Qordian oğlu ilə birlikdə ona qarşı çıxdı və … hər ikisi həlak oldu. 238-ci ildə əsgərlər Maksimini, pretorianlar isə iki konsulu - Pupiyen və Balbini öldürdülər. III Qordiani 244-cü ildə pretorianların prefekti Filip Ərəb, onun özünü isə 249-cu ildə Detsi qətlə yetirdi. Detsi həlak olandan sonra əsgərlər qallarla döyüşdə Qalla xəyanət edərək, onu öldürdülər, daha sonra isə həmin işi Emilianın da başına gətirdilər. Onun rəqibi olan Valerianın qoşunu ən həlledici anda itaətdən çıxdı və imperatorun farslara təslim olsun. O, "sükunət qülləsi"ndə ömrünü başa vurdu. İmperiya üç hissəyə parçalandı: qərbdə qəsbkar Postum, şərqdə farsları geri oturdan Palmira çarı Odenat hökmran idi. Romada isə hakimiyyətə bir-birinin ardınca Qalliyen, Avreal, II Klavdi, Kvintill gəldi və hamısı da öldürüldü. Sonuncu cəmi 17 gün hakimiyyətdə oldu. Nəhayət, 270-ci ildə hakimiyyətə yiyələnən Avrelian qayda-qanun yaratdı və imperiyanı birləşdirdi. 275-ci ildə onu azadlığa buraxılan qul Mnesti qətlə yetirdi (onun özünü də öldürdülər). Bundan sonra bir-birinin ardınca qoca konsulyar Tasit, onun qardaşı Florian, pannoniyalı zabit Prob, Kar, Numerian, Ari Apr öldürüldülər. Yalnız 284-cü ilin sentyabrında rəqibi Karinin (Karin oğlu) öz silahdaşları tərəfindən öldürülməsindən istifadə edən Diokletian çar oldu. [453-454]

Sadə adamların müqayisəyəgəlməz sayda daha artıq həlak olduqlarını nəzərə alsaq, qətlə yetirilmiş çarların bu uzun siyahısı etnik inkişafın gedişatını anlamağa imkan verir. Qarşımızdakı cəhalət mərhələsidir ki, bu zaman qələbə naminə intizamı bərpa etməyə can atan sərkərdə qarşıduran tərəfdən də pis düşmən kimi dəyərləndirilir. Artıq itirilən passionarlığın tarazlaşdırmadığı instinktiv reaksiyalar: aclıq, tamahkarlıq, tənbəllik roma qoşununu yaramaz və xainlər toplusuna döndərdi. Demək olmaz ki, yarım əsr ərzində bir nəfər də olsun iradəli sərkərdə, yaxud ağıllı diplomat tapılmadı. Nəhəng ölkədə beləlari kifayət qədərdi, sədaqətli icraçılar çatışmırdı. İmperatorlarla birlikdə öldürüldüklərindən sayları aramsız olaraq azaldığı üçün, davranış stereotipi də dəyişirdi. Roma etnosu barbarların təcavüzündən də əvvəl artıq ölmüş və çürüyüb getmişdi.

Diokletian anladı ki, onu yalnız geridə qalmış əyalət xilas edə bilər. Odur ki, sərhədlərin qorunması üzrə qayğıları üç silahdaşı ilə paylaşdı, iqamətgahını Romadan uzaqda - Kiçik Asiyadakı Nikomediya şəhərində yerləşdirdi və özünü hələ döyüşkənliklərini itirməyən illiriyalı, frakiyalı və meziyalı dağlılardan ibarət qoşunlarla əhatə etdi. Pozğunlaşan cəmiyyətə inanmamağa tam əsası olduğundan, o, bürokratiyanı yaratdı. Xristian və manihi icmalarına qarşı təqiblərə başladı, çünki onun qoyduğu qanunlarla yaşamırdılar. Qısası, artıq bitdiyi üçün etnosun deyil, əvvəlki nəsillərin yaratdığı mədəniyyətin ətalətindən yararlandı. Lakin o da mövcud vəziyyətin qarşısında təslim oldu, çünki respublika başçısı deyil (princeps), dövlətin çarı (dominus) olmuşdu.

Diokletianin dövlətinin yalnız adı Roma dövləti idi. Əslində, bu Aralıq dənizi hövzəsi ölkələrinin etnik prinsipi tam rədd etməklə birləşdirilməsi idi. İmperiyanın əhalisinin əksər hissəsi cəhalət qasırğasına tuş olmuşdu, yəni superetnosa etnik mənsubiyyətini itirmişdi. Bu adamları yalnız bacarıqlı inzibatçılıqla ifadə olunan mədəni ənənə birləşdirirdi. Bu isə o deməkdir ki, səmimi vətənpərvərlik lazımi əlaqələri olan və vicdanını tamamilə itirən təsadüfi adamlar arasından seçilən maqistratlara itaətlə əvəzlənmişdi. Belə bir sistem möhkəm ola bilməzdi. Lakin elə öz əhalisinin bütün səylərinə rəğmən, o duruş gətirdi, çünki tərkibində yaşamağa qabil olan konsorsiyalar meydana çıxdı. Onlar roma etnosu ənənələrinə düşmən idi, dominanta yox, baxmayaraq ki, dominant onlara meylli deyildi. Birinci dominusun ölümündən çox keçməmiş bu yeni qüvvələr Qədim Romanın meyidini qalvanlaşdırdılar. [454-455]

**Əvəzləmə**. Lakin faciəvi duruma baxmayaraq, Roma ordusu Reyn və Tvid üzrə sərhədləri qoruyub saxlayır, numidiyalılar və mavrlarların öhdəsindən gələ bilirdi. Şərqdə vəziyyət daha ağır idi. Qot gəmiləri

Egey dənizində cövlan edir, 50 dəfə az ehtiyatlara malik İran Mesopotamiyada müvəffəqiyyətlər qazanırdı. e.ə. II əsrdə dak və yəhudilərin darmadağın edilməsi üçün isə Roma imperiyası bütün qüvvələrini səfərbər etməli oldu. Əslində, III əsrdə imperiyanı yalnız illiriya-frakiya hərbi hissələri və onların Avreliandan başlamış, Diokletiana qədər imperator olmuş başçıları xilas edirdi. “Sonuncu romalı” adlandırılan Aetsi də onların sırasındadır. Amma məsələ bir o qədər də sadə deyil.

Görünür, legionlara Frakiya və İlliriyadan gələnlərlə xristian icmalarına daxil olanlar eyni təbiətli adamlardı. Əlbəttə, onların dominantları başqa idi, amma bunun bizim araşdırma üçün önəmi yoxdur. Önəmlisi odur ki, passionar təkanı interpolyasiya etməklə biz balkan yarımadasının məhz elə bölgələrini ehtiva edirik ki, nəzəri baxımdan oralarda təkan olmalıdır və nəzəriyyəmiz təsdiq olunur. Deməli, Aetsini də, legionçuları da "sonuncu romalılar" yox, "ilk bizanslılar" saymaq lazımdır.

Beləliklə, bir faktı qeydə alırıq - eramızın II əsrindən etibarən Roma imperiyasının şərq əyalətlərində və onlardan şimala doğru yerləşən bir sıra ərazilərdə əhalinin fəallığının artması müşahidə olunur. İmperiya hüdudlarından kənarda bu yeni xalqlar: qotlar, antlar, vandalların etnogenezinin başlanğıcıdır. İmperiya hüdudlarında passionarlığın artımı orijinal dominanta malik oldu - qarışıq etnik əsasa malik həm xristian, həm qnostik və bütpərəst (neoplatonçular) icmaların yaranması. Adətən, xristianlığın qullar dini olduğunu söyləyirlər. Burada müəyyən qədər həqiqət olsa da, onu da yaddan çıxarmamalıyıq ki, qulların böyük əksəriyyəti hərbi əsirlərdi. Sahibləri müxtəlif tayfalardan olanlara nigah bağlamağa izn verir, bizim konsorsiya adlandırmağa cəsarət etdiyimiz xristian icmalarının rəhbərləri isə başqa dinlərin nümayəndələrilə ailə qurmağı qadağan edirdi. Bu yolla xristian konsorsiyalarında, məlum olduğu kimi, daha yüksək labiallığa malik olan hibridlər qruplaşdı. Bir qayda olaraq, belə formalar səbatsız olur və iki-üç nəsil ərzində dağılır. Lakin burada xristian icmalarına dayanıqlılıq verən əlavə amil vardı: nəhəng passionar gərginlik. Dəhşətli təqiblərə baxmayaraq, görünməmiş fədakarlıq sayəsində artıq təşkilatlanmış (kilsə) xristian icması imperator hakimiyyətini əvəzlədi. [455-456]

Xristianlar imperator Diokletianın ən loyal təbəələri və ən intizamlı əsgərləri olsalar da, bütün legionçuların iştirakının məcburi olan bütpərəst qurban mərasimlərində xaç vurur və Diokletianın fikrincə, bununla ayinin təsirliliyini məhv edirdilər. 303-cü ildə o, Roma imperiyasında xristianlara qarşı son təqiblərə başladı. Bu təqiblər cəmi iki il sürdü, çünki 305-ci ildə Diokletian hakimiyyətdən imtina etdi və vətəni İlliriyaya yollandı. Burada onun Spalatro şəhəri böyüklükdə evi vardı. 313-cü ildə qadını və qızının vəhşicəsinə öldürüldüklərini, onun özünü isə tezliklə ölümdən də pis durum gözlədiyini biləndən sonra öldü.

Diokletian bürokratiya dahisi idi. O, Dəclədən Hibraltar və Tvidədək uzanıb gedən ölkəni icraçı müdiriyyətsiz idarə etməyin mümkünsüzlüyünü görürdü. Əməkdaşlarının bacarıqlarından xəbərdar olduğundan, onların üç ən bacarıqlısını seçərək, ikinci avqust və iki sezar titulları verdi. Həmin vəzifələri dəyişən etdi. O hakimiyyətdən imtina etdikdən sonra Şərqin avqustu xristianlara qarşı təqiblərin təşəbbüskarı Qaleri, Qərbinki isə insanpərvər və mülayim Konstansi Xlor oldu ki, onun oğlu Konstantin idi. Qalliya və Britaniyada xristianlara qarşı təqiblər sona çatdı, çünki Diokletianın fərmanları sadəcə icra edilmirdi.

306-cı ildə İtaliya Qalerinin əleyhinə qiyam qaldırdı. Qiyamın başında Diokletianın hakimiyyəti dövründə avqust olmuş bir şəxsin oğlu, çox kobud, qabiliyyətsiz və əxlaqsız adam olan Maksensi dururdu. Lakin Qalerinin İtaliyanı ram etmək cəhdi uğursuzluqla bitdi və o, 311-ci ildə öldükdən sonra dostu Lisiniyə Balkan yarımadasındakı əyalətlər üzərində hakimiyyət qismət oldu. Kiçik Asiya, Suriya və Misiri Masensinin qardaşı Maksimin idarə edirdi.

Hər iki qardaş elə adamlardı ki, hətta Neron deyil, Kaliqula, Kommod və Karakalla dövrlərinin geri qayıtdığı təsəvvürü yaranırdı. Hər ikisi də Konstantin və Lisiniyə dəhşətli dərəcədə nifrət edirdi. Savaş 312 və 313-cü illərdə başladı. Xristianların dəstəklədikləri Konstantin və Lisini qalib gəldilər. Halbuki, hakimiyyət, sayca üstünlük, iqtisadi ehtiyatlar, hətta qədim ənənələrin təsiri də Maksensi və Maksimin tərəfdə idi. Lakin onlar həlak oldular və bu aşağıdakı kimi baş verdi.

312-ci ildə Konstantin əksəriyyəti qallardan ibarət olan 40 minlik ordu ilə Alp dağlarını keçdi. Qarşısında dördqat üstünlüyə malik düşmən dururdu. Konstantin Po çayı vadisində bir neçə savaşı qazandı, Tibr çayına yetişdi və burada Maksensinin qoşunu ilə toqquşdu. Konstantin üzərində parlayan xaç təsvir olunmuş [456-457] bayraq altında çıxış etdi. Onun qall süvariləri hər iki cinahda roma atlılarını darmadağın etdi, veteran-sərhədçilər isə pretorianları qılıncdan keçirdilər. Maksensi qaçmaq istəyərkən Tibrdə boğuldu.

Lisini Konstantinin bacısı ilə evləndi və hər iki avqust birlikdə Milanda dinlərə qarşı dözümlülüyü bəyan edən fərman verdi. Fərmana görə, xristianlara öz ayinlərini yerinə yetirməkdə sərbəstlik verilirdi. Daha sonra Lisini-Maksiminin təcavüzünə məruz qalan Suriya və Frakiyaya yollandı. Lisininin illiriyalı əsgərlərinin döyüş qabiliyyəti Maksiminin qarmaqarışıq suriyalı legionçularındakından daha yüksəkdi. 313-cü ildə Herakleya ətrafında Lisini qələbə qazandı, qaçmağa cəhd edən Maksiminsə zəhərlə öldürüldü.

Qalib gələn Lisini də heç bir günahı olmayan, lakin onun hakimiyyəti altına düşən adamlara dəhşətli zülmlər etdi. 315-ci ildə Konstantinə qarşı sui-qəsd təşkil etdi, daha sonra isə sərhəddəki Emon şəhərində onun heykəllərini dağıtdı. Konstantin savaşa başladı və iki dəfə Lisininin qoşunlarını məğlubiyyətə

uğratdıqdan sonra, sonuncu barışıq dilədi. Konstantin Makedoniya və Yunanıstanı Lisinin əlindən aldı, onun ixtiyarında isə Şərqin qalan hissəsi qaldı.

Bu iki hökmdar arasında toqquşmalar səngisə də, hər ikisi bunun qaçılmaz olduğunu anlayırdı. Bütün İmperiyanın xristianları Konstantinə qüvvətli dəstək verirdi.

Maksiminlə mübarizə apararkən Milan ediktini öz ərazilərində bəyan etməyə məcbur olan Lisini nə etməli idi? Bunun sayəsində Herakleya döyüşü zamanı onun döyüşçüləri "uca tanrı"dan kömək dilədilər və onun dəstəyini aldılar da. Lakin Konstantinin anası Yelena xristian, özü isə xristian partiyasının tanınmış lideri olduğundan, Lisiniyə yalnız təqiblərə yenidən rəvac verməkdən savayı bir şey qalmırdı. 324-cü ildə vahid hakimiyyət iddiasında olan iki namizədin qoşunları Andrianopol yaxınlığında toqquşdu. Lisininin şücaətlərilə ad qazanan məşhur frakiya-illiriya legionları sayca üstün olsalar da, darmadağın edildilər. İkinci məğlubiyyət Bosforun o tayındakı Xrizopol yaxınlığında baş verdi. Əfv ediləcəyi barədə təminat alan Lisini təslim oldu, amma bir neçə aydan sonra onu boğub öldürdülər (325). Onun üçün heyfslənməyə dəyməz, özü də heç bir günahı olmayan adamları qətlə yetirirdi. Əslində, Lisini onun naminə həlak olan əsgərlərin taleyini bölüşməli, Konstantinin qadını olan bacısının qoltuğuna sığınmamalı idi.

Bu savaş bütpərəst olan köhnə ilə, xristian olan yeni arasında rəqabətin əksi yox, artıq formalaşan etnosun iki subetnosu arasında [457-458] üstünlük uğrunda çarpışma idi. Bizans həmin etnosdan təşəkkül tapdı. Romalıların yeniləşən etnik mühitdə hələ həll olmayan xələflərinə gəldikdə isə, onlar üçün cəhalət mərhələsi başa çatdı və artıq fəaliyyət göstərmək qabiliyyətindən məhrum olduqdarı dövr yetişdi. Onlara yalnız xatirələrə qalmaq qalırdı.

Hər yerdə də belə. Örnəklərin sayının artırılmasının heç bir təsir göstərmədiyi qənaətə gəlmək üçün yararlandığımız material tamamilə kifayətdir. Antik, yaxud ellin superetnosunun passionarlığı azalaraq, topladığı ətalət sayəsində qonşuların təzyiqlərinə duruş gətirməyə qadir olan sivilizasiyalar şəklində kristallaşırdı. Bu sistem Skandinaviya, Şərqi Avropa, Kiçik Asiya və Suriya bölgəsində baş verən qüvvətli passionar təkanla içəridən partladıldı. Bu lokallaşma göstərir ki, açıqlanan fenomenin quldarlıq sisteminin sosial böhranına aidiyyatı yoxdur və o, vəziyyətlərinin niyə qəfildən belə pisləşdiyini dərk edə bilmədən həlak olan adamların şüurlu fəaliyyətinin məhsulu da deyil. Nə Diokletianın bürokratik dühası, nə Konstantinin siyasi çevikliyi, nə də Feodosinin hərbi istedadları prosesin qarşısını almaq və ölkəni xilas etməyə qadir deyildi. Şərti olaraq "Bizans" adlandırılan yeni etnosun yarandığı Şərqdə barbarlar dəf edilib, qərbdə isə onlar sadəcə olaraq, tarix səhnəsini tərk edən roma vətəndaşlarını əvəz edirlər.

Bizansda Angellər dövründə də eyni proses cərəyan etdi və 1204-cü ildə Konstantinopolun süqutu ilə sonuclandı. Nikey imperiyasındakı vətənpərvərlik dalğası dağılan ölkəni bir müddət canlandırsa da, etnik parçalanma prosesi davam edirdi və hətta İoan Kantakuzinin fədakarlığı da onu durdura bilmədi. Bizans etnosu osmanlılar köməksiz, daha doğrusu, özünü müdafiə etməyə iradəsi qalmayan Konstantinopola yiyələnməzdən (1453) xeyli əvvəl itib getmişdi.

Əhəməni imperiyası xaricdən endirilən zərbədən məhv oldu və Yaxın Şərqə cəhalət daha gec gəldi. O, Makedoniyalı İsgəndərin deyil, Sulla, Lukull və Pompeyin, həmçinin, Qədim İranın xərabələri üzərində Parfiya çarlığının əsasını qoyan saks başçısı Ərşakın qələbələrini asanlaşdırdı.

Orta əsrlər Çinində cəhalət mərhələsi oğrun-oğrun yaxınlaşırdı. XVII əsrin ortalarında çürümüş Min bürokratiyası Li Tsiçenin kəndlilərdən ibarət yığma qoşunu qarşısında təslim oldu. Bu qoşun isə knyaz Nurhatsinin yenicə birləşdirdiyi bir dəstə mancurun (58) ildırım sürətli həmləsilə dağıdıldı. Bundan sonra Çin iki yüz il müddətinə katalepsiya halına düşdü ki, bu da avropalı [458-459] müşahidəçilərə müvəqqəti letargiyanı (hərəkətsizlik, -tər.) çin mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirmək üçün bəhanə verdi. Həqiqətdə isə burada artmaqda olan mədəniyyətin xəstəliyə düçar olması deyil, 1000 ildən artıq ömür sürmüş (581-1683) etnosun qanunauyğun şəkildə qocalması baş verirdi.

Nə qədər qəribə də olsa, cəhalət mərhələsi etnik mədəniyyətə əvəzsiz ziyan vursa da, heç də həmişə etnosun məhvinə bais olmur. Cəhalətin sürətlə inkişaf etdiyi və yaxınlıqda yırtıcı qonşuların olmadıqları hallarda "Bizim kimi ol" imperativi məntiqi bir reaksiya ilə qarşılaşır: "Bircə gün də olsa, mənim olsun!". Nəticədə etnik dominantın və dağıdıcı olsa da, hər hansı bir kollektiv tədbirlərin qorunub saxlanması imkanı yox olur. İstiqamətlənmiş inkişaf "broun hərəkəti"nə bənzər bir hərəkət səviyyəsinədək cılızlaşır ki, buradakı elementlər - ayrı-ayrı adamlar və qismən də olsa, ənənəni qoruyub saxlayan ciçik konsorsialar qüvvətlənməkdə olan tənəzzülə meylə duruş gətirmək imkanı əldə edirlər. Azacıq passionar gərginlik və etnosun əvvəlki mərhələlərdə formalaşdırdığı məişət normaları ətalətinin mövcudluğu şəraitində onlar ayrı-ayrı mədəniyyət "adacıqları"nı konservləşdirir, bununla da etnosun bütöv sistem kimi mövcud olmasının hələ başa çatmaması barədə aldadıcı təsəvvür yaradır. Bu, özünü aldatmadır. Sistem artıq yox olub, yalnız tək-tək adamlar və keçmiş barədə yadda qalıb.

Cəhalət mərhələsi tam qiymətlə müqayisədə əhəmiyyətsiz olan passionar səviyyənin kəskin dəyişmələri sırası ilə dəhşətlidir. Belə sürətli və daimi dəyişikliklər zamanı uyğunlaşma qaçılmaz şəkildə yubandığından, etnos sistem bütövü kimi məhv olur.

Beləliklə, aydındır ki, passionarilər heç kimi etnosdan sıxışdırıb çıxarmır, lakin özlərindəki həddən artıq enerji sayəsində etnik sistemi mürəkkəbləşdirən müxtəliflik yaradırlar. Mürəkkəb sistemlər isə sadələşmiş sistemlərdən daha dayanıqlıdır.

Etnogenezin - təbii prosesin mexanizmi bu şəkildədir. Aydındır ki, nə Avqustinin Tanrı şəhəri ideyası, nə Hegelin mütləqə meyli, nə də K.Yaspersin fəlsəfi ekzistensiyası bu hadisənin açıqlanmasına tətbiq oluna bilməz.

## XXXVI. SONUCDAN SONRA

**Xatirə mərhələsi**. Keçmiş haqqında xatirələr passionar impulsların ətalətindən artıq yaşasa da tək-tək adamlar onu saxlamağa qadir deyil. Onların səyləri müəyyən bəhrə versə də, [459-460] müasirləri tərəfindən dəstəklənmir. Şairlərin əsərləri folklor şəklində qalır, rəssamların şedevrləri xalq yaradıcılığı motivlərinə çevrilir, vətənin müdafiəçilərinin qəhrəmanlıqlarının tarixi isə əfsanə və ya salnaməyə çevrilir ki, burada təsvir dəqiqliyi janra ziddir.

Belə bir halı Altayda müşahidə edirik. Burada məskunlaşan altı tayfadan şimaldakı üçü türkləşmiş uqotlar, cənubdakı üçü isə qədim türklərin qalıqlarıdır. Teleslər türkyutların xələfləri, telengit və teleutlar uyğurların da mənsub olduqları teles qrupu tayfaları, altay-kiji isə naymanların Altaya XII əsrdə gələn qoludur. Hamısının zəngin qəhrəmanlıq dastanları var ki, bunların da bir çox süjetləri Tan imperiyası ilə mübarizədə məhv olmuş türk kağanlığı dövrünə (VI-VIII əsrlər) aiddir. (59) Qırğından qurtulan türkyutlar Dağlıq Altay vadilərində sığınacaq taparaq, yenidən yüksələcəkləri dövrü gözləsələr də, belə bir zaman yetişdi. (60) Onlar homeostaza yaxın olan bir vəziyyətə daxil oldular, amma qəhrəmanlıq poeziyalarını keçmiş olan bir vəziyyətə daxil oldular, amma qəhrəmanlıq poeziyalarını keçmiş barədə xatirə kimi qoruyub saxladılar.

Yalnız qədim deyil, nisbətən yaxın keçmişə aid belə bir yaddaşı Tyan-Şan qırğızları, cunqar oyrotları (XVII əsrdə çinlilərlə savaş barədə), pueblo hinduları (teva) və vaxtilə qüdrətli etnoslar olan, indi isə azsaylı “tayfalara” çevrilənlərin əksəriyyəti qoruyub saxlamışdır. Kristallaşan passionarlıq - incəsənət onları qonşuların tərkibində həll olmaqdan, assimilyasiya və onunla ilgili təhqir və alçaldılmalardan xilas etdi.

Etnogenezin bu mərhələsində olan etnoslar alim-etnoqraflarda və aborigenlərlə ümumi dil tapan yeni məskunlaşan “harmonik” (passionarlığın dərəcəsi anlamında) fərdlərdə həmişə ehtiram doğurur. Subpassionarilər və yırtıcı passionarilərdə isə dinc təması istisna edən vəhşi, qarşısıalınmaz nifrət yaranırdı. Bu, Şimali Amerika tarixində xüsusilə aydın nəzərə çarpır.

Atlantik okean sahillərilə prerilər arasında məskunlaşan hindu qəbilələrinin əksəriyyəti hələ avropalılar gəlməzdən əvvəl artıq dinamik dövrlərini yaşayırdılar. Avropalıların gəlişindən bir qədər əvvəl qərbdən Ontario gölü sahillərinə köçüb gələn irokezlər və güman ki, seminollar istisna təşkil edirdilər. Hər ikisi müəyyən qədər passionarlığa malik olduqlarından, avropalılarda dəhşətli nifrət oyadırdılar. Əvəzində, bu diarların qədim sakinləri olan alqonkinlər, Luizianada fransızların amansızlıqla qırdıqları mədəni natçezlər, həmçinin, mandan və krilər avropa ədəbiyyatında mərdlik, namusluluq, sadiqlik və digər müsbət xüsusiyyətlərin timsalına çevrildilər. [460-461] Fenimor Kuper və Şatobrian onları bu şəkildə təsvir edirdilər. Lakin avropalılar passionar hindular - apaç navax, kmançlarla rastlaşan kimi… Dinc və zəhmətkeş pueblo hinduları isə ümumiyyətlə heç cür dəyərləndirilmədilər. Avropalı müəllifləri onların özlərindən daha çox, ənənəvi memarlıqları maraqlandırırdı. Bu da təsadüfi deyil. Hindu əkinçiləri çox qədim, mədəniyyətlərindən bir çox şeyləri itirən xalqlardır. Alqonkinlər daha çox şey qoruyub saxlasalar da, passionarlıqdan məhrum olmuşdular ki, bunsuz da müstəqillik mümkün deyil. Nəticədə, onlar fransız və ingilislərlə dostlaşmalı oldular. İrokezlər isə özlərini müdafiə etməyi bacarırdılar. Onları yalnız müstəmləkələrin üsyanı zamanı parçalanmaları məhv etdi. Bir qismi ingilislərin, bir qismi isə amerikalıların tərəfini tutdu və … hər iki tərəf onları qırdı.

Qədim mədəniyyəti unutmayan və onu yüksək dəyərləndirən çoxlu təcrid olmuş etnos tapmaq mümkündür. Lakin məlum olur ki, tarixi taleyin keçməkeşləri üzündən irəliləmə hərəkətindən uzaqlaşdırılan və “gözəl keçmiş” haqqında onlar üçün əziz olan xatirələri hifz etmək naminə məişət stereotipini şüurlu şəkildə konservləşdirməyə üstünlük verən subetnoslar da mövcuddur. Hələ XIX əsrin əvvəlində Rusiya imperiyasındakı köhnətəriqətçi icmaları da bu şəkildə yaşayırdı. II Yekaterina dövründə onlar etiqadlarına görə təqiblərdən xilas oldular və “köhnə” saydıqları ayinlərini qoruyub saxlamaq imkanı əldə etdilər.

Sonuncu səmimi bir yanlışlıq idi. Onlar Andrey Rublyov və Nil Sorski dövrlərində deyil, XVII əsrin ortalarınadək formalaşan adətləri qoruyub saxlayırdılar. Qarışıqlıq dövrü və polyak-isveç təcavüzündən sonra yabançı olan hər bir şeyə qarşı kəskin reaksiya yaranmışdı. Lakin Rusiyanın əqli və estetik həyatının məhz bu anını qeydə alan köhnə təriqətçilər ondan imtina etmək istəmirdilər. Ətrafdakı canlı, kükrəyən reallıq, baş verən etnogenez prosesləri olmasaydı, onlar sonsuz dərəcədə uzun müddət beləcə yaşaya bilərdi.

Köhnə təriqətçiliyin banilərinin rəqibləri olan skomoroxlar da eyni vəziyyətə düşmüşdülər. Öz mahnı, rəqs, maskarad və məzhəkələrlə insanları din və kilsə ayinlərinin yerinə yetirilməsindən yayındırdıqları üçün XVII əsrdə Şimala sürgün olunan bu biçarə artistlər öz sənətlərini uşaqlarına aşılayırdılar. Bu hal XIX əsrin ortalarına, yəni folklorçular onlara rast olana qədər davam etdi.

Xoşbəxtlikdən, hələ gec deyildi, çox şeyləri qələmə almaq və çap etdirmək mümkün oldu. Beləcə, xatirə mərhələsində olan kiçik konviksiya [461-462] (hətta subetnos da yox) ilə rastlaşma sayəsində biz əcdadlarımızın vəhşi, savadsız, Avropadan maariflənmə gözləyən kütbeyinlər olmadıqlarından xəbərdar oluruq. Savadsızlıq sonradan - köhnə ənənələrin yarımçıq təhsil tərəfindən sıxışdırıldığı XIX əsrdə bərqərar oldu.

Gətirdiyimiz örnəklər göstərir ki, etnogenezin dinamik mərhələlərindən sonra salamat qalan adamlar heç də daha pis, yəni indiyədək etnosu təşkil edənlərin əksəriyyətindən maymaq və ağılsız olmur. İnsanlar deyil, etnik sistem bütövü dəyişir. Əvvəllər əksəriyyət təşkil edənlərin yanında həyəcanlandıran, yerindən oynadan, çoxlarına maneçilik törədən, lakin bununla yanaşı, sistemə, yəni etnosa müqavimət göstərmək qabiliyyəti və dəyişikliklər etməyə can atmaq qabiliyyəti bəxş edən passionar “maya” vardı. O zaman ideal, daha doğrusu, uzaq proqnoz - inkişaf, indi isə - konservləşdirmədir. Təbii ki, etnik sistemin təcavüzkarlığı yox olur, rezistentliyi aşağı düşür, passionar entropiya qanunu isə öz təsirini saxlayır. Amma artıq heç nə əldə edilmir, əksinə, itkilər baş verir. Bu zaman çox şey etnik əhatənin xarakterindən asılı olur.

İnkişaf ətalətini itirən subetnos, əlbəttə, məhkumdur. Lakin onu təşkil edən adamlar öz etnosları hüdudlarında başqa subetnoslarla qarışmaq imkanına malikdir. Burada onlar özününkülərdir və onları öldürməyəcəklər. Lakin köməksiz etnos başqa superetnosların nümayəndələrilə əhatə olunduğu hallarda isə elə bir durum yaranır ki, adamın qanı damarlarında donur. İngilislər tasmaniyalıları adam saymır və onları “ovlayırdılar”. Argentinalılar “artıq” tuelçləri (pataqoniyalılar) qırdılar, Odlu Torpaq sakinlərinə isə çiçək xəstəliyi virusları olan yorğançalar satırdılar. Zənci bantular gir işləri gördürmək üçün buşmenləri ələ keçirir, onların özlərini isə burlar qula çevirirdilər. Quduz düşməni dəf etmək üçün etnos passionarlıq qalıqlarını da sərf etməli olurdu, axı, düşməni dəf edənlər ən cəsur, yəni ən passionar olanlardı. Subpassionarilərsə özlərinə sığınacaqlar taparaq həyatlarını xilas etsələr də, qələbəyə heç bir ümidləri qalmırdı. Təkamülçü etnoqrafların “primitiv” adlandırdıqları etnosların faciəsinin mexanizmi bu şəkildədir.

Lakin cəhalət və qəddarlıq dənizindəki bu mədəniyyət adacıqları duruş gətirə və özü-özünü məhv edən xaosa dalmasalar da, onlar homeostazdan əvvəl gələn qalıq mərhələsi qarşısında gücsüzdür. Bu zaman passionarlığını çoxdan itirən ən süst konviksiyaların üzvlərinin xələfləri “Özün özündən razı qal, troll” imperativini əsas tutur. Çünki onlar artıq bir sistem kimi etnosun üzvü deyil, [462-463] qədim norveçlilərin etiqadlarına görə kolların dibində və dərələrdə yaşayan trollilərin bənzərləri idi. İfadəni isə İbsendən götürmüşük, çünki çox yerinə düşür. Mənası budur: “Çalış, başqalarına mane olma, onların zəhləsini tökmə, özün də qüssələnmə və heç nə üçün heyfsilənmə”.

**Heçliyə keçid**. Düşünmək olardı ki, başqa çıxış yolu - təcridolma da mümkündür. İnanmaq istərdik ki, əlverişli şəraitdə, xaricdən təsir olmadığı halda etnos öz orijinal mədəniyyətini və artıq formalaşmış davranış stereotipini sonsuz uzun müddət saxlaya bilər. Qoy ətrafda hər şeyi passionar təkanlar dağıtsın və üyüdüb toza çevirsin - təki dinclik olsun, etnos özü-özünü artıracaq. Bir çox sadəlövh adamlar məhz belə düşünür.

Lakin məsələ ondadır ki, etnogenezin son mərhələsinin adamları keçmişə dair yaddaşla yanaşı, əvvəlcə öz fərdi və ya ailə tarixçəsi - “canlı xronologiya” (61) hüdudlarından kənarda zaman hissini itirirlər. Son mərhələlərdə onlar yalnız ilin fəsillərini, bəzən isə yalnız gecə-gündüzü qeydə almaqla kifayətlənirlər. Sonuncu halı müəllif çukçalarda şəxsən müşahidə edib, ilin fəsilləri onların diqqətindən kənardır. Bununla belə, onlar gözəl ovçulardır və inkişaf etmiş mifologiyaları var, cəsur və diribaşdırlar. Xronologiyanın olmaması onlara heç də mane olmur.

Mərkəzi Afrikaın piqmeylərilə təmasda olmuş avropalılar da buna bənzər bir durumu təsvir edirlər. Piqmey neçə yaşı olduğundan bixəbərdir, çünki onun üçün il həddən artıq uzun müddətdir. Üstəlik, yaşadığı illərin sayı onun üçün heç önəmli də deyil. Qalan məsələlərdə piqmeylər o qədər də sadədil deyillər, təkcə avropalılar deyil, bantuların da dərhal səmti itirdikləri tropik meşələrə çox gözəl bələddirlər.

Bantular piqmeylərlə sıx təmasda yaşayır və sonunculardan bələdçi kimi istifadə edirlər. Əvəzində, çox gözəl dəmirçilər olan bantular piqmeyləri dəmir məmulatlarla təmin edirlər. Burada mövzumuz üçün önəmli olan bir cəhət var: göstərdikləri xidmətlər üçün piqmeylərin haqqını dərhal ödəmək gərəkdir, çünki onlar zəruri ehtiyaclarını, yaxud hər hansı bir şıltaqlıqlarını ödəmək üçün işləyirlər.

**Əyani bir örnək**. Piqmeylər onlardan savayı kimsənin görə bilmədiyi bir işi bacarırlar: geniş çaylar üzərindən lianalardan körpülər qurmaq. Kiçik çayları üzüb keçmək olar, böyük çaylar isə təhlükəlidir, çünki oralarda timsahlar var. Odur ki, körpü salmaq lazımdır. Bunun üçün lianalar və çayın iki sahilində iki ağac tələb olunur. [463-464] Piqmeylər sahildəki palmalardan birinə liaqna dolayır, bir gənc ondan yapışır və onu o qədər bərk yelləndirib buraxırlar ki, o biri sahildəki ağaca çata və ondan yapışa bilsin. Əgər gənc azacıq da səhv edər və ağacdan yapışa bilməzsə, çox iti sürətlə geri qayıdan liana onu ağaca çırpa bilər. Lakin piqmeylər çox təhlükəli olan bu işin öhdəsindən məharətlə gəlirlər. Birinci liana o biri sahildəki palmaya bərkidiləndən sonra onun vasitəsilə o biri lianalar da qarşıdakı sahilə çəkilir və onlardan çox gözəl asma körpü düzəldilir. Bu prosesi lentə almaq istəyən amerikalı kinooperatoru tanış piqmeyə müraciət etmiş və müqabilində nə istəsə verəcəyini söyləmişdir. Lakin ona belə cavab verib:

“Yox, heç nə etmək istəmirəm, çünki mən artıq sənin üçün işləmişəm. Əvəzində sən mənə bıçaq verdin, qazança verdin, isgənə verdin. Sağ ol, mənə daha heç nə lazım deyil. Nəyə görə risq etməliyəm?” “Ehtiyat saxla”. Piqmey təəccüblənir: “Nə? Ehtiyat nədir? Mən sənin nə dediyini anlamıram, ağılsız ağdərili”. Amma amerikalı çıxış yolu tapa bildi. Soraqlaşıb öyrəndi ki, piqmey evlənmək istəyir. Piqmeylərdə isə qadın çox yüksək qiymətləndirilir - onu əldə etmək üçün çoxlu pul ödəmək, qulluğunda dayanmaq lazımdır. Amerikalı piqmeyə bu xərcləri ödəməyi təklif etdi, o da əvəzində onun üçün körpü saldı.

“Ehtiyat”, “gələcək” anlayışları, həmçinin, piqmeyin özünün doğumundan əvvəlki dövr onlara yabançıdır. Bantilarla ilişkilər piqmeylərə dəstək olur, onlarda maraq oyadır, amma alışdıqları coğrafi mühitdən məhrum etmir, çünki indiyədək heç kim tropik cəngəlliklərin ən keçilməz sahələrinə sahib olmaq xülyasına düşməyib. Artıq formalaşmış simbioz sayəsində piqmeylər uzun əsrlərdir ki, yer üzündə yaşayırlar.

Beləliklə, məlum olur ki, passionarlığını itirən etnoslar qonşu etnosun passionarlığı hesabına mövcud ola bilər, həm də bu zaman passionarlıq hətta cinsi yolla deyil, sistem ilişkilərilə ötürülür. Simbioz hər iki tərəf üçün əlverişli olan mürəkkəbləşdirilmiş sistemdir. Burada yeganə təhlükə etnik təmasın assimilyasiya müstəvisinə keçirilməsidir ki, bu da final mərhələlərinin yaşla bağlı daimi xəstəliyidir. Bu zaman insanlar ətrafdakı gerçəkliyi araşdırmaq əvəzinə, onu özlərindən uydurmağa başlayırlar. Lakin hələ ki, heç kim təbiətdə mövcud olanlardan daha uğurlu variant tapmağa nail olmayıb.

Deməli, etnogenezin final mərhələlərinin də passionarlığa ehtiyacı var. Hətta kənardan alınma olsa da. Elə buna görədir ki, [464-465] passionar təkanlar təkan bölgəsilə qonşuluqda olan etnosları yalnız məhv yox, həm də xilas edir.

Lakin bu mərhələdə olan etnos tam təcrid olunubsa və passionar təkan onun məskunlaşdığı ərazinin yaxınlığından keçərsə, daha kədərli sonuc baş verir. Faktlara üz tutaq, çünki heç kəs məntiqə inanmaq istəmir.

Kiçik Andaman adalarında füsunkar təbiət və həddən artıq gözəl iqlim şəraitində onqh adlanan kiçik zənci qəbiləsi yaşayır. Onları heç vaxt və heç kim incitməyib. Həmin ərazilərdə qoruq yaradılıb və hətta turistlər də ora buraxılmır. Sakinlər çox dinc, ədalətli və təmizkardır. Əsas dolanışıqları balıq ovudur. Xəstəliklər çox az-az baş verir və zəruri hallarda qoruğun müdiriyyəti lazımi köməklik edir. Əsil cənnətdir, amma əhalinin sayı durmadan azalır. Sadəcə - yaşamağa da tənbəllik edirlər. Bəzən qida axtarmaqdansa, ac qalmağı üstün tuturlar, qadınlar doğmaq istəmir, uşaqlara isə yalnız bir şey - üzmək öyrədirlər. Yaşlıların sivilizasiyadan istədikləri isə ancaq tütündür. (62) Bütün bunlarla yanaşı, onqhlar son dərəcə ədalətlidir və incikliyə dözmürlər. Onların qadınları çox ismətlidir və buralara gəlib çıxan və bu barədə müdiriyyətə xəbər verdilər. Həm də bu zaman özlərinin günah sahibi olmalarından yox, sadəcə qayda-qanun yaratmaqdan söhbət gedirdi. Təbii ki, kiminsə cəzalanması heç yada da düşmədi. Tamamilə doğrudur! Başqa etnosda müvafiq şəkildə davranmaq lazımdır.

Lakin burada qəribə bir şey də var. Antropologiya departamentində bölmə müdiri olan çox savadlı hindli Çoudhuri oçerk müəllifinə aşağıdakıları söyləmişdi: “… onqhlar bəşəriyyətin 20 000 il bundan əvvəl yaşadığı kimi yaşayırlar. Onlar üçün heç nə dəyişməyib. Təbiətin bəxş etdiklərilə qidalanır, günəş və tonqaldan isti alırlar".”(63)

Təkamülçü etnogenez nəzəriyyəsinin qeyri-tənqidi qavranmasının hipnozedici təsiri belədir. Bəs, hindli barədə düşünmürmü? Axı, onlar təkcə sahilboyu (kabotaj) gəmiçiliyi ilə kifayətlənə bilməzdilər. Çətin ki, təlatümlü Hind okeanında qarasına üzmək mümkün olaydı. Ox-yayı da ya kəşf, ya da qonşulardan əxz etmək gərəkdi. Hətta ən gənc yaşlarında dul qalan qadına təkrar ərə getməyi və yaxın qohumlar arasında evlənmələri məhdudlaşdıran nigah adətləri heç də primitiv deyil. Hind etnoqrafları hələ onqh dilinə yiyələnmədiklərindən, o, bir o qədər də bəlli deyil. Lakin bu baş verdikdən sonra, yəqin ki, onqhlarda hələ unudulmayan əsatir və nağılların, əcdadlar haqqında xatirələr aşkarlanacaq. Amma onqhların [465-466] yaşamaq qabiliyyəti aşağıdır. Gənc qadınların dörddə bir hissəsi sonsuzdur. Əgər vəziyyət 20 000 il bundan əvvəl də belə olsaydı, onqhların əcdadlarının kökü artıq çoxdan kəsilmişdi.

Xeyr, onqhlar və onlara bənzəyən etnoslar uşaq deyil, qocalardır. Passionarlığı olmayan insanlara Yer üzündə yaşamaq çox çətindir. Hətta heyvanların da bu baxımdan üstünlüyü var: sabit və əlverişli şəraitdə onlar məhv olmur. Elə həmin Andaman adalarında timsahlar əlində tüfəng olan adam görəndə gizlənməyi öyrənmişdi. Ox-yayla silahlanmış aborigenlərdən isə heç qorxmurdular. (64)

Passionarlığın bu səviyyəsində etnogenezlər başa çatır.

Lakin biosferdə olduğundan dağılma fenomenləri doğurmayan birbaşa etnogenez proseslərindən savayı, inkişafdakı pozulmalar da var ki, bunlar ekosistemlərdə dönməz sadələşmələr doğurur. Onları xüsusi diqqətlə nəzərdən keçirəcəyik. [466-467]

# DOQQUZUNCU HİSSƏ

# ETNOGENEZ VƏ MƏDƏNİYYƏT

**Burada cazibələrə və xülyalara uyan halda, təbii sonucdan əvvəl həlak olmağın mümkünlüyünün niyə belə asan olması açıqlanır**

## XXXVII. ETNOGENEZDƏ MƏNFİ QİYMƏTLƏR

**Kristallaşmış passionarlıq**. İndiyədək biz passionarlıq anlayışından etnoslar tarixinin rəgarəng faktlarının empirik ümumiləşdirməsi kimi danışdıq. Bəs, biz müşahidəçilər passionarlığı bilavasitə izləyə bilirikmi? Müəyyən dərəcədə, bəli!

İdrakın dərk edə biləcəyi hər bir şey şüur baxımından (prizmasından) keçir və qeydə alınan zaman insan əllərinin məhsuluna çevrilir. İnsan cisminin daxili təbiətinin bir hissəsi olan insan hissləri incəsənət əsərləri və bədii ədəbiyyatda əks olunub. Məlum olduğu kimi, rəsm çəkmək və şer yazmağı öyrənmək çox çətindir. Bir sıra qabiliyyətlər olduğu zaman, rəssam sənətinə yiyələnmək mümkün olsa da, bunu etməyə dəyməz, çünki yaradıcı təxəyyülsüz təqlid və ya üzünü köçürmə sərhədlərini açmaq mümkün deyil. Lakin bunların varlığı da hələ kifayət deyil, çünki məqsədə doğru inadla irəliləmə, yəni yaradıcı əcəri tamamlamaq ehtirası olmadan heç nə yaratmaq olmaz: “İncəsənət qurban tələb edir” istilahı sənətkardan xülya naminə özünü qurban vermək bacarığı tələb edir ki, passionarlığın özünü büruzə verməsi də elə budur. Lakin əgər belədirsə, deməli, hər fəlsəfi, bədii və incəsənət əsərində üç elementdən ibarət kombinasiya var: sənətkar işi, enerjisinin bir hissəsini əsərinə “köçürən” ustadın fikirləri və passionarlığı. Deməli, əgər kollektivin passionar gərginliyi mürəkkəb və uzunmüddətli hazırlıq tələb edən tarix və ya arxeologiya kimi elmlər tərəfindən qeydə alınırsa, incəsənət şedevrlərində hər bir adam ənənəni sənət və mövzudan ayırmağa qadirdir! Bunlardan sonra qalanı ustadın passionarlığının izidir.

Təəssüf ki, tarixçilər izləri araşdırarkən onları qoyub gedənləri xatırlamır, abidələrdən danışarkən onlara tamaşa edənləri və müəllifin onları kimin üçün yaratdığını unudur, filosofemlərə toxunur, amma müasirlərin onlara reaksiyasını göstərməyi yaddan çıxarırlar. [467-468] K.Yaspersin “ox zamanı” ideyası beləcə yaranıb. Onun pərəstiş etdiyi Ellada həqiqətdə təqdim olunandan çox uzaqdır.

Tarixinin ən şanlı dövründə - e.ə. V-IV əsrlərdə Sparta, Afina, Fivə, Sirakuz əsas dövlətlər (subetnoslar) idi. İkinci sırada isə Korinf, Aqriqent və Fessaliya dururdu.

“Vətəndə sadə və sərt bir güzaran keçirən spartalılar azadlığa çıxan kimi eyş-işrətə qurşanırdılar. Vizantini idarə edən Pavzani İrandakı satraplar kimi yaşayır, hətta Elladanı İrana tabe etmək arzusuna da düşmüşdü ki, burada İranın valisi olsun. Lizandr qarmostları da özlərini beləcə aparırdılar. Sparta dünyaya nə şair, nə alim bəxş etmədi.

Müasirlərinin iddialarına görə, fivəlilər əqldən kəm qarınqulular və içki düşkünləri idi. Fessaliyalılar da onlar kimi əqli fəaliyyətə xor baxan əyyaş və əxlaqsızlardı. Sibarit (naz-nemətə alışan, işləməyi xoşlamayan, -tər.) sirakuzali və aqriqentlilər heç nədə qədər bilmir, korinfliləri isə ellin müəlliflər asiyalılara bənzədirdilər. Bəs, ellinlərin dillər əzbəri olan səciyyələri kimi aiddir? İncəsənətə məhəbbət, incə estetik zövq, zərifliyi dəbdəbədən üstün tutmaq, nəşədə təmkinlilik, yeməkdə gözütoxluq. Yunanların kef məclisləri şən keçsə də, əyyaşlıq və acgözlükdən uzaqdı. Yalnız Marafon savası ilə Peloponnes savaşı arasındakı dövrdə yaşamış afinalıların iki nəslində. Nə buna qədər, nə də bundan sonra!” (1) Əgər kifayət qədər qaranlıq olan bu fonda əsərləri dövrümüzə qədər gəlib çatan və təxəyyülümüzə hakim kəsilən beş-on istedadlı adam vardısa da, yadda saxlamaq lazımdır ki, Demokrit, Platon (Əflatun), Qorgi, Aristotelin (Ərəstu) sağlığında onların əsərləri müsahiblərinin çox az hissəsinə məlum idi. Heç bir iz qoymadan yox olan həyat, yəni etnogenezlə, təbii materialları sütun və heykəllərin, poema və fəlsəfi təlimlərin ciddi formaları şəklinə salan mədəniyyət arasındakı fərq də elə bundan ibarətdir. Sonuncular birincilərdən daha uzunömürlü olduqlarından, onları kölgədə qoyur və bu əvəzləməni açıqlamaq çox çətindir.

Alman filosofları mürəkkəb və çox incə məntiqi mühakimələrə qlobal əhəmiyyət şamil edirdilər ki, müasirlərinin əksəriyyəti onları heç anlaya da bilmirdi. Əlbəttə, Aristotel dahidir. Məgər şübhə edən var?! Amma e.ə. IV əsrdə onu haralarda tanıyırdılar? Tərəqqipərvər Afinada, vətəni Evbeydə və Makedoniya çarının sarayında. Güman ki, onun əsərlərini Sirakuz, Tarent, bəlkə lap Olviyada da oxuyurdular. Amma kimlər? Kiçik həqiqətpərəstlər dəstəsi. Bəs, əsas kütləsi - iki milyon ellin?! Beotiya kəndliləri, Etoliya quldurları, [468-469] İoniya tacirləri, Sparta döyüşçüləri, Arkadiya çobanları? Onların bunun üçün nə vaxtları vardı, nə də həvəsləri! Amma Elladanın müstəqilliyini onlar müdafiə edirdi. İranı ələ keçirən və diadoxları dəstəkləyən də onlardı. Peloponnesin təbiətini tanınmaz hala da onlar salmışdılar. Və təsəvvür edin ki, bütün bunları Aristoteli oxumadan vermişdilər!

Əvəzində, istila olunmuş yunanlar gənc romalı sərsərilərə dərs deyən zaman Aristoteli də onlara öyrədirdilər. Bolonyada Qoqenştaufenlərin hüquqlarını papaların iddiaları və şəhər kommunalarının

özbaşınalıqlarından müdafiə etmək üçün hüquqşünaslar hazırlayanda da tələbələrə Aristoteli öyrədirdilər. Müasir dövrümüzdə də namizədlik minimumu vermək üçün Aristoteli bilmək lazımdır, halduki o, artıq çoxdan köhnəlib.

Qorunub saxlanmayanı mövcud olmayan sayıldığı tarixi aberrasiya da elə beləcə yaranır. Doğulan ömür sürür və ölür, düzəldilən isə həm müəllifindən, həm ünvanlandığı adamlardan, həm də onların xələflərindən uzunömürlü olur, çünki formaya salınan sükunətdə olan maddə zaman xaricindədir. (2) Onda zaman məkandan uzaqlaşdırılıb. O keçib gedənlərin abidəsi, keçmiş həyatın izidir. Lakin adamlar Yer üzündə gələcək arxeoloqlar üçün abidələr yaratmaq üçün ömür sürmür? Elə deyilmi?

**Ardıcıllıq**. K.Yaspersi ardıcıllığına görə təqdir etmək lazımdır. Onun mehvərə qədərki dinləri əvəz edəcək "fəlsəfi din"in yaradılması üçün "mehvər zamanı"nın önəmi barədə müddəası müşahidələrin nəticəsi yox, qərəzçilikdən doğan müddəadır. O özü də bunu anladığından, erkən araşdırmalarından biri olan "Dünyagörüşlərinin psixologiyası"nda iddia edir ki, dünyagörüşləri müxtəlif psixoloji tiplərin ifadələri kimi dəyərləndirilə bilər. Təbii ki, bu zaman onların dəyərlilik, yəni həqiqilik dərəcəsinə görə tutuşdurulması yersizdir. Dünyagörüşlərinin fərqliliyi müxtəlif etnos və ya mədəni bölgələrə mənsub adamlar arasında qarşılıqlı anlaşmanı istisna edir. Bu yalnız elm, iqtisadiyyat, hüquq kimi rasionallıq çevrəsində olanlara aid deyil. Lakin fəlsəfi din tərəfdarlarının "ekzistensial ilişkiləri" etnik məhdudiyyəti (özümüzdən əlavə edək: təbiiliyi də) dəf etməyə qadirdir. Belədirmi?

Lakin bu azdır. K.Yaspers çox gözəl başa düşür ki, bütün maddi və mənəvi mədəni dəyərlər təbii sistem bütövləri, yəni etnoslarda birləşən insan kollektivləri tərəfindən yaradılıb. İnsan daim öz yaxınları üçün və öz landşaftında işləyir, yabançı deyil, öz əcdadlarının təcrübəsinə əsaslanır. Bu səbəbdən də insanların yaratdıqları [469-470] rəngarəng olsa da, heç də pərakəndə və qarmaqarışıq deyil. Bəs, onda nəyi etnik tiplərin sərhədlərindən kənara çıxarmaq və "ekzistensial ilişkilər" adlandırmaq olar? Həyatın mənasını açıqlayan "son" həqiqətlərdən şüurlu şəkildə bixəbər olmaq. Konfusinin möizələrini mütaliə etmək əsasında tərbiyələnən Çin filosoflarını Vişna (həyatın dondurulması) və Şivaya (ölüm vasitəsilə dəyişmə) etiqad edən Hindistan panditləri, bizans ilahiyyatçıları və Qərbi Avropa təbiətşünasları ilə yalnız o birləşdirə bilər. Pozitiv sistemlər daim fərqli və bir-birini istisna edəndir. Yalnız boşluq, yəni sonsuzluq ümumidir.

Lakin Yaspersə görə "Boşluq" heç də heçlik yox, fikrə transsendent olan, bu səbəbdən də hər hansı (mifoloji, ilahiyyatçı və elmi) mümkün bilik dairəsindən kənarda yerləşən bir şeydir. Bu baxımdan insanların hər hansı bir pozitiv həqiqət ətrafında istənilən şəkildə birləşməsi qeyri-həqiqi və hətta dəyərsizdir. Axı, hər hansı bir pozitiv tezis ətrafında mübahisələr, deməli, ziddiyyətlər yaranır, Kantın transsendensiyası, yaxud Naharcunun (e.ə. II əsr) "şunyatası" barədə isə söyləməli bir şey yoxdur. Odur ki, bilik olmayan halda ziddiyyətlər də aranmır və bir prinsip kimi rəngarəngliyi ləğv edən ekzistensial birlik əmələ gəlir.

Əslində, fikir tarixi baxımından ekzistensializm fəlsəfi ikonoborçuluğun incə bir variantı və xristianlıqdan iudaizmə üz tutmaq cəhdidir. (3) Bu səbəbdən də Yaspersin ideya da olmasa, tarixi sələfləri sırasına Jan Kalvini və müəyyən dərəcədə İoan Sko Erigeni, onun təliminin əleyhdarları sırasına isə Pelagini və bizi əhatə edən aləmi araşdıran təbiətşünasları aid etmək lazımdır. Sonunculara real şəkildə və real aləmdə cərəyan edən proseslərin kazual ilişki və qanunauyğunluqlarını duymağa can atan həm erudit məktəbinə mənsub, həm də nəzəriyyəçi tarixçiləri də aid etmək olar. Bu iki istiqamətin məqsədləri fərqlidir. Olan şeyləri araşdıran təbiətşünas və ilahiyyatçılardan fərqli olaraq, Yaspers "tarixdə bulunmaqla, tarixi olan hər şeyin hüdudlarını aşmaq, idrakımızın imkanları xaricində olsa da, hər halda toxunmaq imkanına malik olduğumuz hər şeyi ehtiva edənə yetişmək - tarixin mənasını açıqlamaq" (4) arzusundadır.

Lakin əgər ekzistensializm ardıcıl konsepsiyadırsa, onda biz təbiətşünaslar da spekulyativ (təcrübəyə əsaslanmayan, -tər.) fəlsəfəyə güzəştə getməyəcəyik. Tarixin mənasını açıqlamağa cəhd göstərmədən, biz onun inkişafının daxili məntiqindən çıxış edərək fenomeni təsvir etmək istəyir, yanlış olduğunu güman etdiyimiz konsepsiyanın [470-471] meydana çıxma səbəblərini açıqlamağı arzulayırıq. Həm də bunu hərənin öz zövqünə müvafiq seçə bildiyi fəlsəfi postulatlar (əsası, sübutu olmayan fərziyyə, -tər.) əsasında yox, faktlar və bir qədər əvvəl verilən sxem zəminində etmək gərəkdir. Mübahisənin predmeti "mehvər zamanı" olacaq.

Xeyr! Qeyd etdiyimiz kimi, K.Yaspers müxtəlif passionar təkanların etnogenezlərinin akmatik mərhələlərinin üst-üstə düşdüyünü görmüşdü. Bunlar heç də ilkin, başlanğıc mərhələlər olmadığından, səthi müşahidə zamanı daim gözə çarpır. Yaspersin məntiqi olsalar da, yanlışlığa aparan qənaətləri də buradan doğur.

Etnogenezin ilkin mərhələləri həmişə son dərəcə özünəməxsusdur, çünki səciyyəvi landşaft və iqlim şəraitlərində etnik substratların təkrarsız uyuşması və yeni etnos tərəfindən dəyişdirilən müxtəlif ənənələrin mövcudluğu zamanı formalaşırlar. Akmatik mərhələdə isə artıq bərqərar olmuş məişətdən narazı olan çırpınan fərdin refleksiyası (düşünüşləri, -tər.) qaçılmaz şəkildə yeknəsəkdir. Sokrat, Zərdüşt, Budda (Şakya Muni) və Konfutsidəki oxşarlıq da elə buradan doğur: hamısı canlı, coşqun reallığı bu və

ya digər mücərrəd mənşə anlamı daxil etməklə nizamlamağa can atırdı. Onları bir-birinə yaxınlaşdıran yeganə şey də elə budur, çünki nizamlama prinsipləri fərqlidir.

Bunların hər ikisini duyan K.Yaspers həddən artıq böyük ümidlərini puça çıxaran həyatı qəbul etməyən bütün akmatik mərhələ xadimləri üçün ümumi olanı haşiyə çıxıb - öz həyatları alınmadığından, özgə həyatına nabələdlik və ondan xoşlanmamaq. İlk nəzərdə məntiqi görünsə də, bu neqativ fəlsəfələrin hamısı rədd etdikləri həyat zəminində boy atıb. Deməli, onlar həyatın nankor və son nəticədə məhvedici olan törəmələridir. Onların müvəffəqiyyət qazandıqları mərhələ - insanları əhatə edən təbiəti taqətdən salan və onların qəlblərini də qurudan çat mərhələsi keçib gedəcək və alatoranlıq, təhtəlşüurun qaranlıq bucaqlarından sürünüb çıxan subpassionar kölgələrin çarlığı qurulacaq. Bax, onda məlum olacaq ki, bu cür kəskin temperatur dəyişiklikləri zamanı spekulyativ fəlsəfə sarayları çat verir və qəlpələrə parçalanır.

Şi Xuandinin Tsin veteranlarından ibarət qüdrətli dəstələrinin hücumu zamanı (e.ə. III əsr) konfusiçi məktəblər beləcə məhv oldu. Cəsur racputlara dünyanı Tanrının yaratdığını və ona ölməz ruh - atman bəxş etdiyini açıqlayan bəhmən Kumarillanın (VIII əsr) alovlandırdığı tonqallarda buddaçı-mahayanaçılar beləcə yandılar. Alovlu Yahve (e.ə. VII əsr) yəhudi tutyaları beləcə yox edildi. [471-472] Ələ keçirdikləri Bəlxdə (təx. e.ə. VI əsr) turanlılar Zərdüştü beləcə qətlə yetirdilər, onun davamçıları isə İsgəndərin qoşununun gümüş suyuna çəkilmiş qalxanlarının parıltısına duruş gətirə bilmədilər (e.ə. IV əsr). Lakin ən dəhşətlisi Afina iftiraçılarının qurbanı olan Sokratın edamı idi. Bəyaz spiroxet insan orqanizmini dağıldığı və onunla birgə məhv olduğu kimi, "Fəlsəfi etiqad", daha doğrusu, neqativ ideologiya da sığınacaq tapdığı etnosu dağılır. Etnogenez baxımından "fəlsəfi din"in meydana çıxması yüksəliş mərhələsindən akmatik mərhələyə keçid, onun təntənəsi - çat mərhələsinə keçid, yox olması isə cəhalət mərhələsinin başlanmasıdır. Əgər belədirsə, deməli, "mehvər zamanı" tarixdə yeganə olmayıb, bütün iri etnogenez proseslərinin təkrarlanan "yaşla ilgili xəstəliyi"dir. Lakin bu halda tarixin bütün bəşəriyyət üçün ümumi olan "mənası"ndan danışmamaq olar, çünki transsendensiya və bilməməzliyin təntənəsi sonsuzluğa yuvarlanma deməkdir.

Bəs, bizim adi bir söz kimi artıq ikinci dəfə işlətdiyimiz "sonsuzluq" termini nə deməkdir? Oxucu bunu bilməyə borclu deyil və bilə də bilməz, çünki bu, bir o qədər də sadə deyil.

XVIII əsrdə Lavuazye maddənin mühafizə edilməsi qanununu formalaşdırdı. Lakin bu qanun bir qədər qeyri-dəqiqdi. Hermetik qabda baş verən yanma prosesi o dövrün kimyaçısına çəkinin dəyişmədiyini nümayiş etsə də, səbəb onun tərəzisinin kifayət qədər həssas olmaması idi. Əslində, foton itirilsə də, Lavuazye bu itkini duya bilməzdi. İndi artıq fiziklər bilirlər ki, intensiv termodinamik proseslər zamanı işıq enerjisinə çevrilən maddə itirilir, həmin enerji isə öz sistemini tərk edərək, qalaktikalararası sonsuzluğa yollanır. Bu, ölüm deyil, ondan da dəhşətli olan annihilyasiyadır.

Etnogenez prosesləri də enerji təbiətinə malik olduqlarından, güman ki, bu qanunauyğunluq ona da aiddir. Qədimdəki müdriklərin bundan xəbəri vardı. Onlar o dövrlərin adətinə uyğun olaraq, hətta annihilyasiya prinsipini fərdiləşdirmiş və onu Lütsifer, yəni "işıq daşıyan" adlandırmışdılar (qeyri-dəqiq olan "işığı aparan" daha doğru olardı; hara? - sonsuzluğa!). Sonsuzluğu isə təsəvvür edə bildikləri ən dəhşətli yer - cəhənnəmlə tutuşdurdular. Həm də onlar özünü təbiət hadisələrində büruzə verən adi iblisləri "sonsuzluq iblisilə" qarışdırmırdılar. Qədimdə birincilərə qurbanlar verir, onlarla yaxşı münasibətdə olmağa çalışırdılar. Sonsuzluq iblisi isə düşmən idi, onunla təmas dünyəvi sevinclərdən, dünyaya məhəbbətdən imtina və inkar prinsipindən doğan tam tənhalıq deməkdi. [472-473] Bu fantasmaqoriyanı müasir ekzistensial fəlsəfə dilinə çevirsək… "bilməməzlik" prinsipi və "sonsuzluq" dərhal anlaşıqlı olar.

Mən K.Yaspersin konsepsiyasını bəyənmirəm. Mən başqa cür düşünmək istəyirəm!

Bəlkə "sonsuzluq" anlayışı qədim insanlar və idealist filosofların mənasız uydurmasıdır? Bu halda etnogenez haqqında elmi əsərdə ondan danışmağa dəyərmi? Məlum olur ki, dəyər. Müasir fizika da bu anlamdan yararlanır. Əlbəttə, burada onun adı başqadır - vakuum.

**"Sonsuzluq" (vakuum).** Sonsuzluq sonu, yəni axırı olmayan məkandırsa, deməli, onun əvvəli və axırı var. Deməli, sonsuzluq "boşluq"dur.

Müasir bilgilərə görə, maddənin 98%-nə yaxını ulduz və planetlərdə cəmləşsə də, onların arasındakı fəza kosmik tozla doludur və daim hərəkətdə olan elementar zərrəciklərlə zəngindir. Lakin onlar hamısı boşluqda və məhz bu boşluğun - vakuumun olması sayəsində hərəkət edir. Boşluq olmayan halda hərəkət də olmazdı, çünki hər hansı bir impuls başladığı nöqtədəcə başa çatardı. Hərəkət hər yerdə olduğundan (ən böyük sıxlığa malik olan maddədə də elektronlar atomların ətrafında fırlanır), deməli, vakuum materiyanı, materiya (maddə+enerji) da vakuumu - gizli və bizim indiyədək dərk etmədiyimiz və bizim real dünyamızın bir hissəsi olmayan fiziki aləmi bürüyür.

Vakuum tarixi olmayan aləmdir. Məkanın istənilən qədər kiçik həcmində "zərrəcik-antizərrəcik" cütlüyü yaranır, onlar dərhal bir-birini məhv edir, annihilyasiya olur və işıq kvantları buraxır ki, bunlar da öz növbəsində "heçliyə yuvarlanır". Nəticədə heç nə olmur, halbuki, istənilən mikro həcmdə zərrəciklər və şüalanma kvantları rəngarəngliyi mövcuddur. O yaranan kimi məhv olur. Həm var, həm də yoxdur. Bu hadisə vakuumun sıfır titrəyişləri adlanır, eyni zamanda həm mövcud olan, həm də olmayan zərrəciklər isə virtual hissəciklər adlandırılıb.

Məgər bu, ölümsüz ruhu işıq zərrəciyi sayan qədim insanların anlamında cəhənnəm deyilmi? Həyatı qəbul edən dinlərin tərəfdarları baxımından virtuallıq kəsb edən zərrəcik iztirab çəkir. Həm də ki, materiyanın vakuumla ilişkiləri aramsızdır, çünki vakuum hissəciklərin öz nüvələri ətrafında fırlandıqları atomlarda da var.

Lakin demə, "boşluğa" güclü elektrik sahəsilə təsir göstərilərsə, virtual zərrəciklər real hissəciklərə çevrilə, yəni cəhənnəmdən qurtula bilər. Lakin ikili aləmin bünövrəsi məhz boşluqdur, maddələr, [473-474] sahələr, şüalanmalar isə onun səthində zərif ləpələnmədir. Lakin bu "ləpələnmə" olmasa, vakuum özünü büruzə verə, virtuallıq aşıladığı real maddə və işıq zərrələrini əldə edə bilməzdi. Başqa sözlə, maddə və enerji isə hərəkət etmək imkanından məhrum olardı. Deməli, substansiya (cövhər, -tər.) və boşluğun bir-birindən təcrid edilməsi dünyanın axırıdır (ən azı, yaşadığımız və araşdırdığımız).

Maraqlısı odur ki, məsələnin bu şəkildə qoyuluşu iki min il, bəlkə də bundan da çox əvvəllər də məlum idi. Sadəcə olaraq o zamanlar fizikasız keçinərək, onu fəlsəfə ilə əvəz edirdilər. Eramızın əvvəllərinin ən geniş yayılan filosofemaları dünyanın bipolyar olduğunu iddia edir və yalnız bir məsələdə fikir ayrılığına yol verirdilər - nəyi xeyir, nəyi şər saymalı. Zəmanəmizdə fizikaya keyfiyyət dəyərləndirmələri daxil etmək məqbul sayılmır. Beləcə təbii şəkildə maddi substansiyanı xeyir, "Boşluq", yaxud "Sonsuzluğu" şər sayan həyatsevər sistemlərə və materiyanın ruhu tora salaraq, onu iztirablara düçar etdiyini, ruhun, yaxud şüur kvantının isə azadlığa can atdığını, yəni real hissəcikdən virtuala çevrilməyə çalışdığını güman edən sistemlər. Hər iki yanaşma eyni dərəcədə əsassızdır. Hərə öz zövqünə müvafiq olanını seçə bilər. Lakin iki davranış dominantı, müvafiq olaraq, psixologiyadakı fərq də elə burada üzə çıxır və aydın olur ki, populyasiya davranışı ilə populyasiya psixologiyası bipolyardır (ikiqütblü, -tər). Bir qütbdə Dersu Uzala - V.K.Arsenyevin təsvir etdiyi personaj, digərində isə adını belə bilmək istəmədiyim DDT-ni kəşf edən adam durur. Lakin burada məsələ yalnız kimya elmlərinin uğurlarında deyil.

Hətta paleolit dövrünə aid texnika ilə silahlanan passionar adam da ətrafındakı bütün canlıları məhv etməyə qadirdi. Bu zaman onun heç ağlına da gəlməzdi ki, bununla özünü və xələflərini məhv edir. Axı, təbiətə bəsit dualist yanaşma - heyvanların "faydalı" və "faydasız" kimi fərqləndirilməsi biosenozların dağıdılmasını nəzəri baxımdan əsaslandırırdı. Nə insanlar, nə də heyvanlar biosenozlardan xaricdə yaşaya bilməsələr də, bu qədim dövrlərin sadə adamlarına bəlli deyildi. Elə indinin özündə də çoxları bundan bixəbərdir.

Güman etmək olardı ki, biosenologiyanın əcdadlarından xəbərləri olmayan qədim adamlar məhz bu şəkildə hərəkət etməli idi. Lakin amansızcasına məhv etmək paroksizmləri az-az baş verir və heç də hər yeri əhatə etmirdi. Bu da təbiidir: insan yalnız iradəyə və istənilən durumda seçim hüququna malik sosial vahid deyil, həm də yer səthinin biosferlə qırılmaz şəkildə ilgili olan üzvi elementidir. [474-475] Bu bağlılıq onu məhv olmağa qoymayan instinktlər vasitəsilə həyata keçir.

Şüuru şərtləndirən sosial varlıq həqiqətən də Homo sapiens növünün biologiyasının hüdudlarından kənara çıxır. Hər bir adama və hər bir sosial bütövə dünyanın əzab-əziyyətlərindən azad olmağa, yəni vakuuma meyllə, məhəbbət obyekti bizdən kənar və bizdən asılı olmadan mövcud olan reallıq - canlı təbiəti hər hansı bir dağıntıdan qorumaq istəyi arasında seçim imkanını o və yalnız o verir. Başqa sözlə, insanların şüurlu fəaliyyəti mövcud iki tərəfdən birinə yönələ bilsə də, bioloji fəaliyyətlə ilgili seçim imkanı yoxdur.

**Əməllər və hadisələr**. Antropogen landşaftların tarixinin dərindən araşdırılması zamanı (bu barədə bir qədər əvvəl danışmışıq) belə bir fikir yaranır ki, əməllər, yəni insanların şüurlu istəklərilə yanaşı, insanın biosferə aidliyilə ilgili təbii proseslər də cərəyan edir. Bunlar isə artıq təbiətin insanlar ətrafındakı (coğrafi mühit) və onların bədənindəki durumu (ali əsəb fəaliyyətinin fiziologiyası) formalaşdıran hadisələridir (fenomenləri). Hər ikisi həm ayrıca götürülən fərdlərin, həm də kollektivlərin, yəni etnosların davranışına gah tez-tez ya quraqlıq, ya da daşqınlardan məhv olan təsərrüfatlar, gah xəstəliklər, gah da bəzən ionosferi keçərək, Yer səthinə yetişən kosmik şüalanmalar vasitəsilə təsir göstərir. Bir qayda olaraq, insanlar onlarda yaradıcı ruh yüksəkliyi və ya əksinə, ruh düşkünlüyünü nəyin yaratdığını anlamasalar da, elm bunların səbəbini aşkar etməyə qadirdir.

İnsanlar özlərini son dərəcə qeyri-ardıcıl aparır. Digər ali heyvanlardan fərqli olaraq, insan məskunlaşma landşaftlarını yalnız dəstəkləmir, bəzi hallarda onlara aradan qaldırılması mümkünsüz olan zərər vurur, bu landşaftları bəhərsiz, ölü ərazilərə göndərir. Bununla da bir növ kimi özünə ziyan gətirir, çünki xələflərini mövcudolma vasitələrindən məhrum edir. Belə davranmanın səbəbi nədir? Bu haqlı cavablamaq çətindir, çünki əvvəlcə belə ağılsız hərəkətlərin harada və nə vaxt edildiyinə diqqət yetirmək gərəkdir. Bir qədər əvvəl qeyd etmişik ki, təbii proses olmaqla, etnogenezlər özlüyündə təbiət üçün zərərsizdir, lakin iki şərtin uyuşması nəticəsində məhvedici ola bilirlər.

1. Mərhələlər bir-birini əvəzləyərkən. Bu zaman etnos bir müddət ona xas olan elastiklik və xarici təsirlərə müqavimət göstərmək qabiliyyətini itirir, yəni xəstələnir. [475-476]

2. Fəal etnoslararası ilişkilər zamanı (miqrasiyalar). Bunlar özlüyündə dəf olunandır, çünki etnos istənilən mərhələdə demək olar ki, ölümsüzdür. Bunu belə başa düşmək lazımdır ki, sağlam etnosun məhv

edilməsi qonşulardan o qədər böyük qüvvə sərfi tələb edir ki, onlar bu qüvvəyə ya malik olmur, ya da onun sərfi məqsədəuyğun sayılmır.

Məğlub etnosla birgə onun məskunlaşdığı landşaft da deformasiyaya uğrayır, çünki etnos həmin geobiosenoz, yaxud ekoloji sistemin tərkib hissəsi idi. Holosen dövrü ilə məşğul olan arxeoloq və paleoqraflar tez-tez belə deformasiyaların izlərilə rastlaşırlar. (5)

**Məsələnin qoyuluşunu dəqiqləşdirək**. Təzə bina ucaltmaq üçün həmin yerdə duran köhnə evin uçurulmasının zəruri olduğu şübhə doğurmur. Bu, təbiət və tarixdə adi hal olan formaların əvəzlənməsidir. Bu zaman heç də həmişə yaxşı daha yaxşı ilə əvəz edilməsə də, onun yerini mütləq nə isə real, dövrün tələblərinə cavab verən bir şey tutur. İstənilən etnik sistemin inkişafının özünəməxsusluğu bundan ibarətdir. Ətrafdakı mədəni və ya təbii mühitin gərəksiz elementlərinin sadəcə dəstəklənməyərək köhnəldiyi tənəzzül dövrlərində də belədir.

Amma mədəniyyət abidəsi (saray, rəsm, bağ və i.a.), yaxud təbiət (meşə, göl, bizon sürüsü) məhv edilir və heç nə ilə əvəzlənmirsə, bu artıq inkişaf yox, onun pozulması, sistem deyil, antisistemdir. Xərabələr və ya meyidlər nə inkişaf edə, nə də xələflər üçün qorunub saxlana bilməz. Dinamika durğunluq, həyat ölüm, strukturun dəyişdirilməsi annihilyasiya ilə əvəzlənir. Düşünmək olardı ki, vandalizm də passionarlığın funksiyasıdır və deməli, təbiət tərəfindən qanunauyğunluğun variantlarından biri kimi şərtlənib. Xeyr! Planetin təbiətidə annihilyasiya prosesləri müşahidə edilmir. Orada daimi yığım prosesləri cərəyan edir ki, bunun sayəsində hazırda neft, kömür, mərmər yataqları, münbit torpaqlar aşkar edilib. Axı, bu, biosferin milyard illər sürən fotosintez sayəsində formalaşan cismidir; Günəş və ulduzların materiya şəklini alan işığıdır.

Təbii hadisə olan passionar təkanlar da uyğunlaşma sindromları doğuran yaradıcı impulslar yaradır. Bu sindromlar mövcud olduqda, etnos həmişə alışdığı landşaftla həmahəng olur. Bütün etnos deyil, kiçik bir etnik qrup onun üçün yararlı olmayan şəraitə düşdükdə isə, o ya öz qınına qapanır (izolyatlar), ya da xoşagəlməz ətraf mühiti dağıdır. Köməksiz heyvanlar, güllər, füsunkar dağlar və tərtəmiz suyu olan çaylar məhv olur. Lakin belə divanı yalnız yabançı tuta bilər. Özününkünün hayıfı gələr. [476-477]

Amma özü-özlüyündə miqrasiya hələ antisistem səciyyəli deyil və heç də həmişə antisistem yaranması üçün bəhanə olmur. Etnik miqrasiyalar insanları öz ardınca sürükləyən kortəbii proseslərdir. Bu zaman insanın yabançı ölkəyə öz xoşu ilə yollanması barədə təsəvvürü xülyadan başqa bir şey deyil. İnsanları Amerikaya köçməyə təhrik edən Kent və ya Maklenburqda sadə ömür sürməklə qənaətlənmələrinə mane olan passionar gərginlikləri idi. Baxmayaraq ki, vətəndə kifayət qədər yeməkləri, evləri, ailələri vardı. Missuri vadisində isə bütün bunları böyük risqlə əldə etməli olurdular. Çətin ki, prerilər və ya Kanada meşələrindəki həyat Avropadakı dinc, sakit kənd həyatından asan ola bilsin. (6)

Deməli, burada təbiətin determinə olmuş hadisəsilə rastlaşırıq. Bu zaman gözəl bakirə təbiət və möhtəşəm yabançı mədəniyyət məhv olsa da, insan bunun üçün mənəvi məsuliyyət daşımır. Əlbəttə, kədərli haldır. Amma nə etmək olar?

Lakin bu köçüb gələn skalpa görə mükafat almaqdan ötrü körpə hindunu öldürür, qonşusuun cadugər və ya küpəgirən olması barədə çuğulluq edir və bununla da onun tonqalda yandırılmasına bais olursa, meşədəki taxtadan düzəldilmiş kiçik və gözəl kilsəni yandırırsa, yaxud çöldə azan səyyahın həyatını xilas edirsə - bütün bunlar artıq onun əməlləridir və onlara görə vicdanı qarşısında məsuliyyət daşıyır. Hadisə ilə əməl arasında əsaslı təfavüt var, çünki əməlləri etmək, yaxud etməmək mümkündür. Onlar azadlıq zolağında yerləşir.

Düşünmək olar ki, insanın bütün əməllərinə şəxsi mənafeni dərk etmə rəhbərlik edir ki, onun naminə digər insanların həyatını qurban vermək hüququna malik olur. XVIII əsr fransız maarifçiləri belə düşünür və öz baxışlarını materializm adlandırırdılar. Lakin tarixin araşdırılması onların yanıldıqlarını göstərir. Heç bir şeylə izah oluna bilməyən başqa adamlar və ya vətən naminə canını fəda etmə də, boş, mənasız yerə incəsənət əsərləri və ya landşaftların məhv edilməsi də mövcuddur. Bunlar tarixin qeydə aldığı faktlardır və yalnız passionar enerji olduğu halda baş verə bilir. Amma hadimələrin baş verdiyi istiqaməti təyinləyən hansısa bir amil də var. Xatırlayaq ki, Romanı ələ keçirən qotlar xərac almaqla kifayətləndilər, eyni passionarlığa və mədəni səviyyəyə malik olan, qotlar kimi ariçilik etiqadına mənsub vandallar isə qarətdən daha çox boş yerə gözəl binaları dağıdır, heykəlləri sındırır, freskaları qaşıyıb yerə tökürdülər. Müasirlərini dəhşətə gətirən də elə bu səbəbsiz vəhşilik olsa da, [477-478] sonrakı əsrlərdə belə hallar müxtəlif yerlərdə də baş vermiş, müasir Amerikada da müşahidə edilmişdir.

Qot və vandalların taleləri də fərqli oldu. Qotlar İspaniyada möhkəm krallıq yaratdılar, yerli əhali ilə əvvəlcə ortaq siyasi sistemdə, daha sonra isə ispaniyalılar adlandırılan vahid etnosda qovuşdular. Vandallar Afrikada tüğyan etdilər və yerli əhalinin hiddətindən qurtulmaq üçün qalalarda sığınacaq tapdılar. Nəhayət, kiçik bir dəstənin başında gələn Velizari bu qalaları dağıtdı ki, bundan sonra vandallar da məhv oldular. Görünür iki qonşu sistem tam bir-birinin əksi olan istiqamətlərdə inkişaf edirdi.

Vandalizm fəaliyyət dairəsini incəsənət abidələrilə məhdudlaşdırmır. Təsir obyekti köməksiz təbiət olan zaman daha da azğınlaşır. Burada bir mühüm terminoloji dəqiqləşdirmə verməliyik.

Planetimizin səthi üzərində quraqlıq ərazilər də var, "səhralar" da. Onlar arasındakı fərq kifayət qədər önəmlidir. Yüksək rütubətliliyin bölgələr üzrə yerdəyişməsi bəzi kontinental ərazilərdə bitki örtüyünün müvəqqəti kasadlaşmasına səbəb olsa da, siklonların əvvəlki yollarına qayıtmaları Qobi və ya Saxaranın fitosenozunu bərpa edir. Daşqınlar bütöv şəhərləri yuyub aparsa da, suyun səviyyəsi azalandan sonra çay vadilərində yenidən həyat coşub-daşır. Başqa sözlə, təbii proseslər dönəridir (vulkanik lava püskürmələri istisna olmaqla).

Amma heç bir təbii şərait dəyişiklərilə əvvəlki həyata qaytarıla bilməyən istənilən sayda səhralar da var. Bəzən bunlar Tarimin cənub qollarının vadiləri tək quru səhralardır, bəzən də qədim hinduların əkin sahələri olmuş Amazonka və Yukatanin ot basmış selvası kimidir. Buralarda həmişə qədim insanların izləri - daş alətlər, yaxud saxsı qırıntıları tapılır. Əslində, bunlar heç səhra da yox, ingiliscə bedlend adlandırılan ərazilərdir. Faydalı qazıntı tullantıları, beton meydançalar, ehramlar da onların eynidir.

İnsan landşaftda bərpası mümkünsüz olan dağıntılar törədir ki, bu da incəsənət abidələrinə münasibətdə vandalizmin eynidir. Biz isə bu cür fəaliyyətin bir növ kimi insana xas olmadığını, xüsusi bir əhvali-ruhiyyənin yaranması və yox olmasından doğan ikinci dərəcəli xassəyə malik olduğunu artıq müşahidə etmişik. Görünür, ən qədim dövrlərdə yaradıcı etnogenez proseslərini belə əhvali-ruhiyyə müşayiət edirmiş.

Beləliklə, təbiətin kasadlaşması və mədəniyyət incilərinin məhv edilməsini həyat uğrunda mübarizənin nəticəsi saymaq olmaz. [478-479] Onlara bərbad hala salınan planetdə yaşamalı olacaq xələflərə qarşı cinayət kimi baxılmalıdır.

Miqrasiyalardan fərqli olaraq, vandalizm faktlarının hadisə yox, əməl olması təkzibolunmazdır. Amma bu biabırçılıq passionarlıqla ilgilidirmi? Əlbəttə! Lakin bu passionarlığın xarakteri bir qədər əvvəl hərtərəfli təsvir etdiyimizdən fərqlidir. Onun mənşəyi də başqadır və təbii mənşəli olmayıb, durumla ilgili səciyyəyə malikdir. Toqquşanadək hər iki etnos passionarlıq səviyyələri müxtəlif olan normal sistemlərdir. Onların qovuşması zamanı passionarlıq səviyyəsi daha yüksək olan sistemdən səviyyəsi daha aşağı olana yönələcək və beləliklə ümumi səviyyə bərabərləşməyə başlayacaq. Meydana çıxan antisistemi, yəni mənfi hisslərə malik insanların sistem bütövünü qidalandıran enerji formasını da elə bu səviyyələr fərqi yaradır.

Belə nisbətdən hər iki sistem əziyyət çəkir. Vandalizm həm məhv edilənləri, həm də məh edənləri eyni dərəcədə deformasiyaya məruz qoyur, çünki xərabələr və viran qoyulan ərazilərdə yaşamağın mümkünsüzlüyü bəlli olur. Antisistem orqanizmdəki bakteriya, yaxud infuzoriya populyasiyasına bənzəyir: insan və ya heyvanın daxili orqanlarına nüfuz edən bakteriyalar onu öldürür və … özləri də soyumaqda olan cəsəddə məhv olur. Amma belə təsəvvür yarana bilərdi ki, antisistem təbiətin qanunauyğun hadisəsidir.

Xeyr! İnsan mikrob deyil. Artıq qeyd etdiyimiz kimi, fəaliyyət xarakterinin seçimi insanın öz hərəkətləri üçün cavabdehlik daşıdığı "azadlıq zolağında"dır. Sənət incilərinin məhvini, köməksiz insanların təhqir edilməsini, qidaya ehtiyac olmadığı halda heyvanların öldürülməsini tələb edən təbiət qanunu yoxdur. Bir-birini istisna edən bu iki davranış xəttini adi danışıqda xeyir və şər adlandırır və heç vaxt onları qarışdırmırıq. Çünki xeyir və şər bir-birinin güzgüdəki əksi yox, tamamilə fərqli ünsürləridir. Burada vakuumun substansiyaya qarşı durduğu hesabat sistemidir. Qədim insanların terminologiyası ilə desək: "Sonsuzluq" - "məxluqat aləmi qarşıdurması.

**"Azadlıq zolağı"nda**. Bəs, "xeyirxah" adamları "şər" adamlardan fərqləndirmək mümkündürmü və necə? Axı, heç kim və heç vaxt bəşəri "şərə" xidmət etdiyini boynuna almaz. Həm də bir mövqeni "şər", onun əksi olanı isə "xeyir" saymaq nə dərəcədə qanunauyğundur? Bu və digər dəyərləndirmənin obyektiv meyarı varmı? Çıxılmaz durum. [479-480]

Bəli, fərdi səviyyədə fərqləndirmək qeyri-mümkündür. Amma populyasiya səviyyəsində meyar var - ətraf mühitə, yəni dünyaya münasibət. Bu zaman hər iki istiqamətin yalnız özlərinin haqlı olduqlarına tam səmimiyyətlə inanan nümayəndələri yeganə düzgün və sübuta ehtiyacı olmayan saydıqlarını söyləməyə başlayır.

Birinci mövqe: maddi aləm dəhşətlidir və mövcud olmaq ixtiyarına malik deyil, çünki canlı olanın hamısının nəsibi məhvolma demək olan ölümdür. İkinci mövqe: dünya gözəldir, daim həyatın ardınca gələn ölümsə, sadəcə olaraq mürəkkəb, çox vaxt dözülməz olan durumlardan çıxış yoludur. Ölüm nemətdir, çünki qeyri-dünyəvi zülm, inciklik, iztirabdan xilas edir. Bunlarsa ölümdən də pisdir. Hər iki mövqe ardıcıldır və bəyəniləni seçmək olar.

Eramızın əvvəllərində fikrin asudə olduğu, ellin, yəhudi və fars dünyadərklərinin təmasları zaman xurafatın xəzəl kimi kənara atıldığı Aralıq dənizi sahillərində insanlar öz fikirlərini açıq izhar edirdilər. III-IV əsrlərdə bu konsepsiyalar bir neçə sistemdə kristallaşdı: qnostisizm, talmud iudaizmi, xristianlıq və zərdüştilik. Onların hamısı ayrısa təsvir olunmağa layiq olsalar da, əsas məsələdən - bipolyarlıq prinsipinin aydınlaşdırılmasından yayınmamaq üçün bu təsvirləri sonraya saxlayaq. Bu prinsip zəmanəmizə qədər gəlib çatmış və artıq XX əsrdə iki fəlsəfi sistem - inkarı inkar qanunu vasitəsilə həyatla ölümün uyuşdurulmasının zəruriliyini ehkama çevirən dialektik materializm və varlığın son məqsədini sondakı "Heç nə"yə qovuşmaqda görən ekzistensializm. Ən maraqlısı odur ki, bu ixtilaf eramızın əvvəlindən bəri

izlənə bilər. K.Yaspers nəzəriyyəsinin əsil müjdəçiləri qnostiklər, buddaçı-mahayanaçılar və manihiçilər olmuşlar.

Beləliklə, qnostik konsepsiyalar Yer planetindəki həyatı ağır bəla sayır və ondan qurtulmağı zəruri bilirdilər. İntihar çıxış yolu deyil, çünki ruh (eon, işıq zərrəsi) yenidən materiya, yaxud zülmətə bürünəcək və yeni iztirablar çevrəsi keçməkdən ötrü zühur edəcək. Qurtuluş askezada - nəfsin buxovlarını zəifldən dünyəvi nemətlərdən imtinadadır. Askeza həyata qarşı nifrət oyadan sərxoşluq və əxlaqsızlığı da məqbul sayırdı. Ən önəmlisi materiya, yəni biosferdən tam azad olmaqdır.

Deməli, qnostiklərin təliminə görə biosfer insanın düşmənidir. Düşmənə isə, məlum olduğu kimi, divan tutmaq lazımdır. Yaxşı ki, həmçinin biosferin bir hissəsi olan qara camaata nifrət etdiklərindən qnostiklər öz təlimlərini geniş yaymadılar. Onlar bütün diqqətlərini özlərinə yönəltdilər, aramsız pəhrizlə özlərini cisimdən [480-481] azad olmaq dərəcəsinə çatdırdılar və III əsrin əvvəli üçün heç bir iz qoymadan yox oldular. Yalnız manihilər istisna təşkil edir ki, onlar barədə ayrıca danışılmalıdır.

Bununla belə, qnostik ideyaların bütün fantasmaqorikliyinə baxmayaraq, burada əməli bir cəhət də oldu - onlar gözlə görünən aləmi əhatə edən enerjilər dünyasını açıqladılar. Heç bir cihazları və mürəkkəb riyazi hesablamalarsız XX əsr fiziklərinin kəşflərini necə qabaqladılar - bilmirəm. Düzdür, onlar bizə cəfəngiyyat təsiri bağışlayan terminologiyadan yararlanırlar, amma fikirləri aydın və səlisdir.

Onların ideyalarını müasir terminologiya ilə ifadə etsək və bu zaman "eon" və "iblis" (demon) yerinə "şüalanan enerji impulsları" və "radioparçalanma" sözlərindən yararlansaq, görərik ki, II-III əsrlərin düşünən zəkalarını da elə bizi ilgiləndirən problemlər maraqlandırırdı. Dəyərləndirmə isə artıq başqa məsələdir! Qnostiklər əhatəsində olduqları aləmə nifrət etdiklərindən, məhvedici radioparçalanmaya etiqad edirdilər. Odur ki, bizim baxımımızdan qnostikləri ətraf mühiti məhv edənlər sırasına aid etmək lazımdır.

Qnostiklərin mövqelərinin əsasını diskret sistemləri (biosenoz) sərt sistemlərlə əvəzləmək istəyi durur. İnkişafın məntiqinə görə belə sistemlər canlı maddəni ətalətli maddəyə çevirəcək, termik reaksiya zamanı həmin maddə molekullara ayrılacaq, molekullar atomlara parçalanacaq, atomlardan ifraz olunan real hissəciklər isə annihilyasiyaya uğrayıb virtual olacaq. Bu cür inkişafın son həddi vakuumdur. Və əksinə sistemin həyatla ölümün yanaşı addımladığı mürəkkəbləşməsi zamanı meydana çıxan rəngarənglik dərhal psixologiya çevrəsinə ötürülərək, incəsənət, poeziya və elmi yaradır. Amma təbii ki, varlığın qüssə və sevinclərini qanunauyğun fiziki ölümlə ödəmək lazım gələcək. Burada məntiq yoxdur, çünki tezisin düzgünlüyü təcrübə və intuisiya ümumiləşdirilməsində verilib. Əks istiqamət belədir. Seçim yolu açıqdır.

Bir sistem kimi etnos insandan, yəni sistem kimi götürülən fərddən ölçüyəgəlməz dərəcədə möhtəşəmdir. Lakin hər iki halda eyni qanunauyğunluq var. Etnos ya homeostaza qədər yaşaya və məskunlaşdığı landşaftın ən yuxarı həlqəsinə çevrilə, ya da digər bir etnosla toqquşma zamanı ximera yarada, bununla da "azadlıq zolağı"na qədəm qoya bilər. Təbiət və mədəniyyəti məhv etmək tələbatı oyadan davranış sindromu yalnız ikinci variantda meydana çıxır, çünki vakuum nə substansiyalı dünyanın güzgüdəki əksi, nə də antidünya yox, xüsusi xassələr aləmidir. Odur ki, maddi dünya [481-482] ilə vakuumun birləşməsi zamanı harmoniya yaranmır, əksliklərin aramsız mübarizəsi baş verir.

Bu mübarizə energetik impulslar səviyyəsində gedir. Qədim insanlar onları "qüvvələr" adlandırırdılar. Passionarlıq da bu impulslar sırasındadır. Superetnik səviyyədə təmasların böhran keşməkeşlərində simasız enerji kimi passionarlıq ximera sisteminə düşmək kimi bədbəxtçiliyə düçar olan adamların fəaliyyətinin hər iki istiqamətini qidalandırır.

Belə paylaşmanın mexanizmi o qədər mürəkkəbdir ki, onun açıqlamasını yalnız fərziyyə kimi təklif etmək olar. Məgər, şüurdan gələn impulsları idealizmə qapılmadan və enerjinin saxlanması qanunu ilə ziddiyyətə girmədən başqa cür təsrifləmək mümkündürmü?

V.İ.Vernadskinin dərki. İkinci biogeokimyəvi prinsipi atomların biogen miqrasiyasının artımı haqqında təlimi təfsir edən böyük alimimiz təkamülün istiqamətlənməsi və noosferin təşəkkülündən danışarkən belə bir ifadə işlədib: "… İnsan idrakı enerji formulu deyil, amma ona müvafiq gələn hərəkətlər edir. Bunu empirik fakt kimi qeydə alır və düşünürəm ki, elmi bilgilərin sonrakı inkişafı bəlkə də yalnız təsəvvür etdiyimiz ziddiyyətlərdən ..enerjinin saxlanması qanuni vasitəsilə çıxmaq imkanı yaratdı". (7)

İkici dərəcəli kimi görünən bu fikir bizə noosfer haqqında təlimdən daha dəyərli və perspektivli görünür. Üstəlik, həmin fikir həm də bu təlimə tamamilə ziddir. Məsələnin həlli bir obraz şəklində əyan oldu ki, əsas məsələdən yayınmanı da elə onunla açıqlamağa başlamaq olar.

Qız topu divara vurur və top geri qayıdır. Divar topu itələmir, o özü ona dəyib geri qayıdır. Bu, uzun sürməyən proses olduğundan, səbəb-nəticə əlaqəsi aydındır. Lakin əgər belə bir proses əsrlər boyu davam edərsə, üstəlik, həmin əsrlər barədə məlumatlar pərakəndə, həm də qarışıq olarsa, onda biosfer impulsla - qızın əli ilə əks hərəkət - topun divardan geri qayıtması arasındakı əlaqə asanlıqla itə və araşdırıcı üçün qaranlıq qala bilər. Ona elə gələcək ki, topu divar atıb, yəni əks əlaqə əvəzinə, birbaşa əlaqəni görəcək.

Fəlsəfi nəzəriyyələr, roman, mif, əfsanə və i.a. yaradan insan zəkasının noosferə deyil, biokimyəvi impulsları günəş işığının şüasını əks edərək onu parlaq ləkə şəklinə salan güzgüyə bənzər ekrana aparan

yol olduğunu təxmin etsək, enerjinin saxlanması qanunu ilə ziddiyyət yox olar. Biokimyəvi enerjinin insan şüuru tərəfindən qeydə alınan geriyə yolu isə dünyanı dərk etmə adlandırdığımız olacaq ki, bunu şüur hadisəsi olan dünyagörüşlə qarışdırmamalı. Əgər belədirsə, deməli, biz mənəvi mədəniyyətin, o cümlədən spekulyativ (ağılla dərk olunan) fəlsəfənin bizim özümüzün də mənsub olduğumuz biosferlə ilişkisi mexanizmini duya bilmişik. Doğrudur, gəldiyimiz qənaət gözlənilməzdir. Vakuum canlı maddənin enerji impulslarının məhdudlaşdırıcısı kimi çıxış edir. Təkmilləşmə üçün maneə də məhz odur. Yerin biosferindən gələn impulsların istiqamətini dəyişməklə biosferin özünü təhrif edən də elə vakuumdur. Analodiyaları davam etdirərək aşağıdakı fikri söyləmək olar: ekran-məhdudlaşdırıcı - vakuumun geri qaytardığı ilkin təbiət hadisəsi insanın azad iradəsilə şərtlənən ə m ə l ə çevrilir. Əməllərin nəticələrini isə əvvəlcədən təxmin etmək qeyri-mümkündür. Onlar xeyirxah və məhvedici ola bildiyi halda, hadisələrin nəticələri həmişə neytraldır, çünki xeyir və şər, tərəqqi və tənəzzül, onları doğuran biosfer üçün xeyir və ziyan çevrəsindən kənarda yerləşir. Biosfer isə şüurdan gələnlər istisna olmaqla, bütün proseslərə biganədir.

Beləliklə, biz V.İ.Vernadskinin qoyduğu sualı cavabladıq və birinci biogeokimyəvi prinsipə qayıtdıq: “Biosferdə kimyəvi elementlərin biogen miqrasiyası daim maksimum şəkildə təzahürə can atır”. (8) Biosferin bütün proseslərini, o cümlədən etnogenezləri mürəkkəb və dəyişkən vəhdəti materialist monizm kimi açıqlamaq üçün bircə bu həm zəruri, həm də kifayətdir.

Belə təsəvvür yarana bilər ki, bizim açıqlama da nəzərə alınmaqla, vakuumun rolu haqqında təxmin müəllifin qeyri-adi mülahizəsindən başqa bir şey deyil. Lakin vakuumu öz idealı sayan milyonlarla pərəstişkarı olan və bütün dünyaya yayılan fəlsəfi sistemlər mövcud olduğundan, təbiətin qorunması üçün bu əhvali-ruhiyyələr zəruridir.

## XXXVIII. ETNOSFERİN BİPOLYARLIĞI

**Yalan prinsip kimi**. Sözlər çoxmənalıdır. Cümlənin mənası mətn, intonasiya, mətnin həsr edildiyi şərait və i.a., mətnin mənası isə sosial və təbii əhatədən asılı olduğu kimi, sözün də mənası bütünlüklə mətndən asılıdır. Hətta "masa" kimi sadə bir sözün də özlüyüdə mənası yoxdur, çünki “yazı masası”, “yemək masası”, “uşaq masası” və i.a. söz birləşmələrində işlənə bilir. Amma bu semantik fərqlər sadədir, çünki mətni oxuyan hər hansı oxucu söhbətin nədən getdiyini anlayır. Eyni dərəcədə çoxmənalı olan, lakin mənası pərdələnən anlayışlar daha mürəkkəbdir. Məsələn, “öldürmək”. Hamıya gün kimi aydındır ki, qarət məqsədilə adam [483-484] öldürmək cinayət, həzz almaq naminə öldürmək (sadizm) isə ən dəhşətli və mənfur cinayətdir. Dueldə adam öldürmək cəzaya layiq əməl olsa da, cinayət deyil, çünki sağ qalan da həyatını eyni dərəcədə təhlükə altına qoymuş və namusunu qorumuşdur. Savaşda düşmənin öldürülməsi cinayət yox, qəhrəmanlıq, cəlladın cinayətkarı edam etməsi (bu da öldürməkdir) isə vəzifə borcunun icrası deməkdir. Amma suçsuzluğu bəlli olan adamın öldürülməsi artıq cinayətdən də ağır bir şey - günah işlətməkdir. Sözlərin mənasını mətndən, İncil mətnlərini isə eramızın I əsrindəki tarixi şəraitdən kənar açıqlayan qraf L.N.Tolstoyun fəlsəfi uzunçuluqları mənasızdır. Görünür, qraf bu zaman səmimi olmuşdu kip, bu daha pis - təhlildəki prinsipial yanlışlıq aradan götürülmür, səfehliksə insan balalarının elə pisliyə bərabər bir mənbəyidir. Hətta bəzi hallarda o bəd iradədən də pis olur, çünki özü üçün məsuliyyətsizlik hüququ tələb edir: “Mən belə düşünürdüm, odur ki, suçlu deyiləm”. Elə bu zaman bəd iradə özü üçün zəruri meydan qazanır. Birbaşa fəaliyyətdə həmişə müəyyən risq olduğundan, o, özgənin göstərişilə hərəkət edərək, əməlləri barədə fikirləşməmək hüququna malik olduqlarına əmin olan aldadılmış maymaqlar vasitəsilə dolayısı ilə hərəkət edə bilər. Bununla ilgili İncildə deyilir: “metanoite”, yəni “dəfələrlə düşünüb-daşının”. Hazırda bunu artıq ilkin anlamını itirmiş “tövbə edin” kimi işlədirlər.

**“Yalan” anlayışına qayıdaq**. Canlı təbiətdə belə bir şey varmı? Müəyyən mənada, bəli! Heyvanlardakı mimikriya (bəzi heyvanlarda mühitə uyğunlaşma xassəsi, -tər.) yırtıcını, yaxud şikarı aldatmaq cəhdidir. Amma yırtıcıların, həm də onların qurbanlarının aclıqdan və ya yeyilməkdən xilas olmaq hüququ olduğundan, mimikriyaya biosferin xeyir və şər xaricində olan qanunauyğunluqlara bəraət qazandırır.

Savaş zamanı adamlar çox vaxt düşməni yayındırmaq üçün yalan məlumatlar verir. Bunu yalan adlandırmaq olarmı? Formal cəhətdən olar, lakin savaş istisna durum olduğundan, bütün məlumatlara inanmaq lazım deyil. İnformasiyanı yoxlamaq gərəkdir, çünki savaşda yalan məqbul sayılır. Güman ki, burada söhbət “yalan” adlansa da, başqa qəbildən olan anlamdan gedir. Semantik çalarlara etinasızlıq terminin özünü mənasızlaşdırır.

Qədim dövrlərin adamları üçün bu problemə dolaşıqlıq yox idi. Onlar “and”, yəni bəzən xeyirli, hətta xilasedici olan alandan hüquqi imtina anlayışını yaratdılar. Yalan söyləmək, ikibaşlı, yaxud qeyri-səmimi danışmaq hüququ yalnız gündəlik həyata aid idi. [484-485] And isə fövqəladə akt, təbiət qanunlarına, yəni özünümüdafiə instinktinə riayətdən imtina kimi fərqləndirilirdi. Bu səbəbdən şahid, daha doğrusu, andı qoruyanlar kimi allahlara üz tutur, onların andı pozanları cəzalandıracaqlarına inanırdılar. Bununla andın supertəbii önəmi vurğulanırdı.

İncildə kamilləşmə və ya müqəddəsləşmə yolunu tutanlara and içməkdənsə, həmişə doğru danışmaq məsləhət görülür. Bütün başqaları üçün isə xristian ölkələrinin hamısında and yarı hüquqi, yarı dini akt kimi indi də öz əhəmiyyət və mənasını saxlamaqdadır, çünki yalan sadəcə pis, yaramaz hərəkət, andın pozulması, yəni inananı aldatmaq isə qeyri-təbii, ilahi qüvvələrə qarşı yönəldilən cinayətdir, dünya qanunlarının təhqir edilməsi - xəyanətdir.

Coğrafiyaya həsr olunan elmi araşdırmada artıq unudulmuş fantastik təlimlərin tarixilə məşğul olmağa dəyərmi? Bəli dəyər, çünki Yer üzündə həyata münasibət probleminin onlar tərəfindən qoyuluşunda fəslin əvvəlində verdiyimiz - özü yaşadıqları biosenozu kim, necə və nə üçün məhv edir? - sualı üstüörtülü şəkildə cavablanır. Əslində, biz cəbrdə olduğu kimi yerləri dəyişdirilə bilən müsbət və mənfini aşkar etmişik. Belə yerdəyişmə obyektiv qarşılaşdırmaya xələl gətirmir, yalnız bizim subyektiv keyfiyyət dəyərləndirməmiz dəyişir. Əgər biosferin canlı varlıqların öldürülməsi də daxil olan qanunauyğunluqları ilə təsdiqlənməsini müsbət hal kimi qəbul etsək, onda əks mövqe, zülmə tabe olmağı təbliğ etsə də, mənfi olacaq. L.N.Tolstoy “Kreyser sonatası”nda ardıcıl olaraq göstərir ki, bəşəriyyət mövcud olmaq üçün öldürməli olduğundan, Yer üzündən yox olsa daha yaxşıdır. XIII əsr fransız manihiləri (katarlar) belə hesab edirdilər ki, istiqanlı heyvanları öldürmək olmaz. Odur ki, albiqoy savaşı zamanı katari katolikdən fərqləndirmək məqsədilə əsirlərə toyuq kəsmək təklif edilirdi. Katarlar imtina edir və … tonqallarda yandırırdılar.

Amma fransızlar toyuqları kəsməsəydilər, onda heç saxlayıb artırmaz, meşələrə qovardılar ki, burada onlar bayquş və tülkülərə yem olardı. Görünür bu zaman toyuqların halı daha pis olacaqdı, amma ardıcıl həyatı inkar sistemi bunu nailiyyət kimi dəyərləndirərdi: daha bir canlı növü həyat dəhşətlərindən qurtuldu.

Həyatı bəyənənlər isə öldürür və özləri də öldürülürlər ki, xələfləri də onların cəsədləri üzərində elə həmin əməlləri davam etdirsin, ölümün başqalaşdırdığı həyat isə artıq geridə qalan geoloji dövrlərdə olduğu kimi planetin səthi üzərində yayılsın. Dünyanı dərk etmənin bu formalarının hər ikisi ardıcıl olsa da, məqsədləri [485-486] və Yer landşaftlarında qoyub getdikləri izlər kimi passionarlıqlarının mənşələri də fərqlidir.

Fərd səviyyəsində yalan yalnız xoşagəlməz davranış stereotipi deyil, həm də ətrafdakı etnik və landşaft mühitə təsir üsuludur. Populyasiya səviyyəsində bu artıq əks sistemlərdə sosial və mədəni mühitlərə təsir göstərməyə qadir kütləvi yalan məlumatdır (dezinformasiya). Lakin biosfer səviyyəsində ali canlıların mikroorqanizmlərlə əvəzlənməsinə (cəsədlərin çürüməsi) aparıb çıxaran sadələşmə prosesləri baş verir: canlı maddə sükunətdə olana çevrilir, həmin maddə molekullara, molekullar atomlara, atomdaxili real zərrəciklər virtuallara çevrilir və fotonlar “Sonsuzluğa”, yəni vakuuma qovuşur. Halbuki, hər şey çox önəmsiz görünən boş şelərdən başlamışdı.

Bəs, yalana qarşı duran həqiqət nədir? Həddən artıq əllaməlik etmək, həm oxucunu, həm də özümüzü aldatmaq gərək deyil. Müşahidə edilmiş faktların verilən toplusuna müvafiq olan və xətanın qanunun yol verdiyindən artıq olmadığı mühakiməni həqiqət adlandıraq. Koordinat oxu üzərində yerləşdirən zaman həqiqi mühakimələr müsbət, yalanlar isə mənfi qiymətlər olacaq, həm də qlobal miqyasda.

Müsbət və mənfi qiymətlərin mənşələri də fərqlidir: birincilər biosferin canlı maddəsinin enerjisinin birbaşa törəməsi, ikincilər isə vakuum, yəni fikrin əks olunmasıdır.

**Üçüncü parametr**. Xatırlayaq ki, etnogenez proseslərində passionarlıqla idrak çevrəsinin nisbətini təsvir etmək məqsədilə attraktivlik anlayışı daxil etmiş və onu ordinat xətti üzərində yerləşdirmişik. Bununla passionar təkan, yaxud genetik dreyfi (axına düşüb hərəkət etmək, -tər.) tərəfindən əsası qoyulan etnogenezlərin təsviri üçün zəruri olan əyaniliyə nail olduq. Lakin müxtəlif xarakterli etnik sistemlər və onlarla ilgili olan “düşüncə sistemlərinin” (hazırda onlar “mədəniyyətlər” adlandırılır) üst-üstə düşməsi baş verən zaman xarici görünüşdən etnoslara bənzəsələr də, onlardan prinsipcə fərqlənən ximeralar yaranır.

Etnosla ximera arasındakı fərqi gözlə duymaq olmur. Lakin əgər etnos bütün yaş səviyyələrini keçir və zor gücünə məhv edilmirsə, onda ximera ya mövcud olur, ya da parçalanır. Bu isə o deməkdir ki, etnosla ximera arasında nisbət orqanizmlə xərçəng xəstəliyinin əmələ gətirdiyi şiş arasındakı kimidir. Sonuncunun genişlənmə maksimumu orqanizmin hüdudlarıdır və bu şiş tərkibində olduğu orqanizm hesabına mövcuddur. Şiş kimi, ximeralı antisistem də [486-487] (ximeralar ziyansız, yəni passiv də olur) etnos, yaxud superetnosdan mövcudiyat üçün zəruri olan şeyləri sorub çıxarır və bu zaman yuxarıda təsvir edilən yalan prinsipindən yararlanır. Bu, attraktivliyin bir növü deyil, çünki sonuncu həmişə səmimiliyə əsaslanır. Tamamilə başqa qəbildən olan bu hadisənin təsviri üçün üçüncü koordinat oxu - applikata zəruridir. Onun müsbət hissəsində həyatsevərliyi təsdiq edən, o cümlədən növün varlığını dəstəkləməkdən ötrü fərdin, bir çox hallarda isə özünün də həyatını qurban verən impulslar, mənfi hissəsinə isə kədər və sevinc, yaxın qohumlar və uzaq tanışlar, həqiqəti sevmək və yalanı inkar etməkdən imtina hesabına fərdin dünya iztirablarından xilas aparan çıxarılacaq. Heç də dolğun olmayan bu sadalama antisistemi səciyyələndirir. Belə bir təsəvvür yarana bilər ki, buddaçılıq nümunəvi antisistemdir. Amma bu yalnız qismən doğrudur. Buddaçılığın istiqamətləri çoxdur. Mərhəmət bodisatvasi Avalokita, müdriklik

bodisatvası Mancjuçriyə etiqad edilən və dünyanın yaradıcısı Adi-budda barədə təlim olan yerlərdə dünyanı dərk etmə müsbət olaraq qalır. Seyrçilik və fəaliyyətsizlik məktəblərində neqativ impuls üstündür və erkən xristianlığın qnostik istiqamətlərində və K.Yaspersin müasir ekzistenzialinində də olduğu kimi, həyatı inkara əsaslanan dünyanı dərk etmə açıq ifadə olunub (sonuncu açıq-aşkar ateist səciyyəli olsa da). Amma bizi maraqlandıran bu deyil.

Qeyd olunan parametrlər əhəmiyyət və xarakter baxımından fərqlidir. Bir qayda olaraq, passionar təkanların qüvvətli impulsları ayrı-ayrı adamları şəxsi davranış tərzi seçmək imkanından məhrum edir. Kimdəsə belə bir istək meydana çıxan hallarda belə, kollektivin imperativi şəxsə əl-qol açmaq imkanı vermir. Toplanan mədəni ənənələrin fərdi formalaşdırdığı ətalət mərhələsində də eyni şey baş verir. Sonuncu mərhələlərdə isə subpassionarilərin alışdıqları dünyadərkini yeniləşdirmək üçün bəhanələri olmur. Odur ki, normal etnogenez axınında antisistem yarana bilməz.

İki superetnosun qovuşduğu və təmas bölgəsində etnik ximera yarandığı zaman isə antisistem dəhşətli bir qüvvə ilə inkişaf edir. Həm də dünyaya neqativ baxışın məqbul sayılmasına məişət şəraitinin pisləşməsi, yaxud iqtisadi çətinliklərin təhrik etdiyini də söyləmək olmaz. Xeyr, onlar indiyədək mövcud olanlardan heç də çox deyil, bəzi hallarda isə hətta azdır, çünki təmas bölgələrində, adətən, intensiv əşya (alver), insan (qul alveri) və ideya (dinlə alver) mübadilələri gedir. Güman ki, səbəb başqa şeydədir. [487-488]

**Məhvedici fantom**. Sualı belə qoyaq: ismaililik, kərmatlıq, markonist pavlikiançılıq, boqomilçilik, albiqoyçuluq və digər analoji sistemlərlə K.Yaspers ekzistensializmi arasında ümumi nə var? Etiqadların mənşəyi, ehkamlar, esxatologiya və ekzegetika baxımından - heç nə. Amma bu sistemləri doğmalaşdıran bir cəhət var - həyatın inkarı. O özünü həqiqətlə yalanın qarşı qoyulmaq əvəzinə bərabər tutulmasında göstərir. Qatillik proqramı da elə buradan törəyir, çünki əgər ya xülya (tantarizm), ya güzgüdəki əksə bənzər ilğım (ismaililik), ya iblis əməli (manihiçilik) kimi dəyərləndirilən real həyat yoxdursa, rəhm obyekti olmadığından, rəhm edilməlilər də yoxdur. Rəhm edilməli də deyil - tanrıya etiqad gətirmirlərsə, deməli, qarşısında hesabat verilən də yoxdur. Rəhm etmək olmaz - bu, əslində xəyali olan varlığın uydurma, amma ağrılı iztirablarının ömrünü uzatmaq deməkdir. Əgər belədirsə, onda obyekt olmadığı bir durumda yalan həqiqətə bərabərdir və məqsədə nail olmaq üçün hər ikisindən yararlanmaq olar.

Orta əsrlərin adamlarını layiqincə dəyərləndirmək zəruridir: ardıcıl olduqlarından, onların söylədikləri də çox inandırıcı səslənirdi. Reallıq bəzən o dərəcədə dəhşətli olurdu ki, adamlar istənilən, ələlxüsus da bu cür məntiqi, ciddi və incə xülyaların ağuşuna “atılmağa” hazır idi. Axı, fantasmaqoriya və ovsun aləminə daxil olmaqla onlar bu aləmə sahib kəsilirdi, daha dəqiq desək, buna tam səmimiyyətlə inanırdılar. Azadlıq və ətrafdakılar üzərində hökmran olmaq hissi naminə tampliyerlər kimi xaça tüpürmək, yaxud kərmatlar kimi Kəbə meteoritini tikə-tikə parçalamaq lazım gəldiyi isə onları zərrəcə çəkindirmirdi. Doğrudur, bu yolu tutmaqla onlar heç də şəxsi azadlıq əldə etmirdilər. Əksinə, bu və ya digər pozitiv sistem daxilində malik olduqları son dərəcə məhdud azadlığı da itirirdilər. Həmin sistemlərdə qanun və adətlər daşıdıqları mükəlləfiyyətlərə müvafiq gələn bir sıra hüquqlara zəmanət verir, yeni sistemdə isə heç bir hüquqları olmurdu. Ciddi intizam onları üzünü görmədikləri rəhbərə, pirə, vaizə tabe edir, əvəzində ətrafdakılara istədiyi qədər zərər vurmaq imkanı verirdi. Bu isə o qədər xoş və sevindirici idi ki, həyatı da qurban verməк olardı.

Üstəlik, neofitləri (yeni iman gətirənlər, -tər.) antisistemlərə gətirib çıxaran təkcə bədbəxtlik və inciklіklər deyildi. İnsanlar çox vaxt pis yaşasalar da, heç də hər yerdə və həmişə belə deyildi. Təlatümlü dövrlər sakit dövrlərlə əvəzlənsə də, dinc kənd həyatının obivatel durğunluğu dialektik şəkildə təsir göstərir və ilkin şərtlərin əksinə olan nəticələrə səbəb olurdu. Passionar gənci doyunca yedizdirib, [488-489] lakin ona bir şey etməyi, yaxud məntiqi fikir yürütməyi qadağan etdikdə, bu gənc gücünü sərf etmək üçün yer axtarmağa başlayırdı. Qüvvəsini inkarın təbliğinə sərf etməyə başlayan belə gənc qarşıya qoyulan məqsədin xülya olduğunun heç təfavütünə də varmırdı. Nağıl və mif hər gün yaranırdı. Elmin ciddi qənaətləri və reallığın əməli qabaqgörmələri onlara qarşı gücsüzdü. I minillikdə onlar antisistemlərin yaranmadığı Rusiya və Sibir istisna olmaqla, bürümüşdü.

Bu hal çox asanlıqla açıqlanır. Dayanıqlı antisistemin meydana çıxması üçün iki parametr zəruridir: tənəzzül, məsələn, yerli etnogenezin bir mərhələsindən digərinə keçid və yabançı etnosun nüfuz etməsi. Hər iki sistem həm iqtisadiyyat, həm də mədəniyyət baxımından müsbət, yaradıcı proseslər ərəfəsində olsalar belə, bunun bir önəmi yoxdur. Qovuşarkən iştirakçıların iradəsindən asılı olmayaraq onlar ikinci dərəcəli, qanundankənar hadisə olan antisistemi törədir. Sibir və Qədim Rus XIII əsrədək kənar təsirlərdən təcrid olunduğundan, sakinlərinə yabançı olan ideyalar buralara gəlib çıxsa da, Avrasiyanın şimal meşələrində kök sala bilmirdi.

Biz etnosun müəyyən tezlik, yaxud ritmə malik biofiziki sahə kimi konsepsiyasını irəli sürmüşdük. Hazırda bu konsepsiya təsdiqlənir. İki müxtəlif ritm üst-üstə düşən zaman insanların qeyri-təbii bir şey kimi qavradıqları ahəngsizlik yaranır və burada qəribə bir şey yoxdur. Amma belə olduğu halda insanlar məskunlaşma mühitini sevmək əvəzinə, ciddi məntiqin dəstəyinə arxalanaraq həmin coğrafi mühitdən çıxış yolu aramağa başlayır və bu dərəcədə narahat olan aləmə qarşı nifrətlərinə bəraət qazandırmağa çalışırlar.

E.ə. II-I əsrlərin qədim ellin dövlətlərində məhz belə bir durum yaranmışdı. Makedoniyalı İsgəndərin yürüşlərinə qədər ellinlər yəhudiləri tanımır, yəhudilər də "yavanlar"a - ioniyalılara bir o qədər də fikir vermirdilər. (9) Sələvkilərin hökmran olduqları Suriyada və ptolomey Misirində isə onlar qonşu idi. Yəhudilər Platon və Aristoteli, ellinlər də yunan dilinə tərcümə olunmuş İncili öyrəndilər. Hər iki etnos passionar və istedadlı olsa da, onların təmasından möhtəşəm və cazibədar antisistem - qnostisizm təşəkkül tapdı. (10)

III əsrdə ellinçiliklə irançılığın toqquşması təkcə Roma, Bizans və İranda deyil, dinlərə qarşı dözümlü Çində (11) və bir qədər sonra Fransada da təqiblərə məruz qalan qüdrətli antisistemi - manihiliyi törətdi. (12)

Kuşan və sakların təcavüz etdikləri Hindistanda qüdrətli filosof Naharacuna eramızın II əsrində boşluq haqqında dünyanı [489-490] inkar edən bir təlim (şunyata) yaratdı və inkarda o dərəcədə ifrata vardı ki, hətta özünün mövcudluğunu da xülya adlandırdı. (13)

Lakin ən dəhşətlisi bir əsr sürən quraqlığın xun və sənbiləri köçüb gəlməyə məcbur etdiyi III əsr Çinində baş verdi. Üç əsr ərzində qırğınlara məruz qaldığından, buralarda sistem və filosofemalar yaramırdı. Bu daimi savaşlarda qədim çin (xan) etnosu da daxil olmaqla, 27 etnos məhv olmuşdu. Məhvə məhkum ölkəni yalnız orta əsr çin etnosuna (tabğac) həyat bəxş edən passionar təkan xilas etdi.

Eynilə, eramızın əvvəlləri ərəfəsində baş verən passionar təkan qnostik fantasmaqoriyaların qarşısını alan orijinal müsbət sistemi - xristianlığı, VI-VII əsrlərdə baş verən yeni təkan isə İran antisistemlərinin - zindiklərin varlığına xitam verən İslam dünyadərkini yaratdı.

Lakin Xilafətin çox tezliklə ximera bütövünə çevrildi, çünki hərəmxanalar vasitəsilə həyata keçirilən ekzohamiya yeni ərəb-müsəlman etnosuna fars, gürcü, erməni, bərbər, türk, yunan və i.a. daxil olmasına səbəb oldu. Buna görədir ki, həmin fonda artıq IX əsrdə antisistem - ismaililik meydana çıxdı və yalnız XIV əsrdə monqollar tərəfindən süquta uğradıldı. Monqollar passionarlıq daşıyıcıları olsalar da, antisistemlərlə toqquşmalarda öz passionarlıqlarını sərf etsələr və XIV əsrdə qürub etdilər.

Bizansda antisistem IX əsrdə Kiçik Asiyada müsəlmanlarla sərhəddə yarandı. Sonradan Balkan yarımadasına sirayət etdi və yunanlardakı savadlılığı əxz edən bolqarlar öz ximeralarını - Bolqar çarlığını yaratdılar. Boqumilçilik adlanan bu antisistem yalnız XIII əsrdəki passionar təkandan sonra osmanlılar tərəfindən sıxışdırıb aradan çıxarıldı.

Provans manihilərinin taleyi isə qat-qat mürəkkəb oldu. Onlar XIII əsrdə məhv olsalar da, öz dünya dərklərini Qərbi Avropaya şamil etməyi bacardılar və burada nifrətamiz bir sosial institut - inkvizisiya yarandı. Bu barədə ətraflı danışmağa dəyər.

Qədim dualizm. Həm manihilik, həm də xristianlıq dünyada iki ünsürün - İşıqla Zülmətin uyuşduğunu eyni dərəcədə qəbul edir. Lakin manihilər materiyaya, ələlxüsus cismə "zülmət" kimi baxır, xristianlarsa maddi aləmi Tanrının yaratdığı sayır, saf cismani istəklərə, nigah, şadyanalıq, vətənə məhəbbətə xeyir-dua verirlər… Hər iki dünyagörüşün bir araya sığışmasının mümkünsüzlüyü göz önündədir, onlar arasındakı rəqabət isə hələ də davam edir. [490-491]

Qərb manihiliyi III əsrdən etibarən xristianlıqla rəqabət aparmış, Diokletian dövründə xristianlıqla eyni təqiblərə məruz qalmışdır. Xristian imperatorları həmin təqibləri davam etdirmişlər. Feodosi manihiliyə mənsub olmağa görə edamı qanuniləşdirdi, Qonori isə bunu dövlət əleyhinə cinayət elan etdi. Vandal kralı Hunnerix Şimali Afrika manihilərini qılıncdan keçirdi. Yalnız İtaliyaya qaça bilənlər qurtuldu. VI əsrdə manihiliyin mərkəzi Ravenna oldu, çünki Lombardiyanın Roma ilə mübarizə aparmalı olan ariçi sakinləri onlara sığınacaq verdilər. X əsrdə manihilik Langedokda yayıldı və Bolqarıstanın analoji təlimlərilə qovuşdu. Cənubi Fransa, hətta İtaliyada manihi moizəçiləri kütlələri bəzən elə cuşə gətirirdilər ki, hətta papalar da şəhərin küçələrində təhqir olunmaqdan qorxur və möhkəmləndirilmiş qalanı tərk etmirdilər. Üstəlik, tərkibində cəngavərlərə də rast olunan belə dəstələri təbliğatın təsirinə müəyyən qədər məruz qalan feodallar da sakitləşdirməkdən imtina edirdilər.

XI əsrin ikinci yarısında manihilik təlimi ali mənsəbli ruhanilərin əxsaslıqlarının sıravi dindarların qanuni narazılığını doğurduğu Lombardiyaya nüfuz etdi. 1062-ci ildə keşiş Ariald Milanda ruhanilərin nigah bağlamalarının əleyhinə çıxsa da, arxiyepiskop Qvidonun etirazı ilə rastlaşdı və öldürüldü.

Mübarizə ara vermir, Qvido və onun varislərini gizli şeytanpərəst (satanizm) imperator IV Henrix, islahatçıları isə papalar II Aleksandr və VII Qriqori dəstəkləyirdi. Görünür, nə papalar, nə də imperatorlar məsələnin məğzi ilə maraqlanmır, sadəcə özlərinə tərəfdarlar axtarırdılar. Başçıların rəqabətinin acısını Milan sakinləri çəkdi - şəhər 1075-ci ildə küçə döyüşləri və yanğından yerlə-yeksan oldu. İtaliyada pataren adlandırılan manihilər XII əsrdə Roma da daxil olmaqla bütün şəhərlərə yayıldılar. Bu zaman küfrə qarşı ən dayanıqlı təbəqə kəndlilər, ən səbatsız isə əyan və ruhanilər, yəni o dövrki əhalinin ən passionar hissəsi oldu.

Almaniya krallarının artıq yalnız xəyalı himayəsi altında olan Langedokda manihiliyin mərkəzi Albi şəhəri oldu ki, bundan sonra fransız manihilərini yunanca "təmizlər" demək olan katarlarla yanaşı, həm də albiqoylar adlandırmağa başladılar. Onların icması "kamillər", "sədaqətlilər" və dünyəvilərə ayrılırdı. "Kamillər" ailə qurmur və oruc tutur, "sədaqətlilər"ə təlim keçir, onlar öləndə maddi dünyanın buxovlarından xilas olmaları üçün son məqamda onları "kamillər" sırasına qəbul edirdilər. Katarlara

rəğbət bəsləyən dünyəvilər Əhdi-əqidin kitablarını qəhrəmanlıq dastanları [491-492] şəklində xalqların dillərinə çevirir, bununla cəngavərlik ideallarını və öz oxucularının davranış stereotiplərini dəyişirdilər. İşin qalan hissəsini provanslıların yabançı və təcavüzkar etnos olan fransızlara qarşı nifrəti görürdü. 1176-cı ilədək Langedokdakı əyan və ruhanilərin əksər hissəsi katar oldu, qalan kiçik bir hissə və kəndlilər isə susmaq və etiraz etməməyi üstün tuturdu.

X əsrdə növbəti tənəzzül keçirən sxolastikanın imkanlarından məyus olan orta əsrlərin tanrı axtaranları problemin həllini mövcud dini məktəblərdən kənarda tapmağa can atır və qoyduqları suallara cavabları Şərqdən (Balkan yarımadasından) gələn manihilərdən alırdılar. Manihilərin təlimi isə aşağıdakı kimi səslənirdi.

**Şər əbədidir**. O, ruhun can verdiyi, lakin onu bürüyən materiyadır. Dünya şəri ruhun materiya torunda iztirablarıdır. Deməli, maddi olan hər bir şey şər mənbəyidir. Əgər belədirsə, onda hər hansı bir əşya, o cümlədən, kilsələr və ikonalar, xaçlar və insan vücudları da şərtidir. Bunlar hamısı məhv edilməlidir.

Manihilər üçün ən sadə çıxış yolu intihar ola bilərdi. Amma onlar öz doktrinalarına ruhun köçməsi təlimini daxil etmişdilər ki, bu təlimə görə ölüm intihar edən adamı yenidən doğulmağa məhkum etdiyindən, iztirablar yenidən təkrarlanır. Odur ki, ruhun xilası naminə başqa yollar təklif olunurdu: cismi ya askeza, ya dəhşətli eyş-işrət, ya da kollektiv əxlaqsızlıqla o qədər taqətdən salmalı ki, zəifləyən materiya ruhu caynaqlarından buraxsın. Manihilər yalnız bu məqsədi layiqli sayır və təbii ki, dünyəvi məsələlərdə əxlaqı bir kənara atırdılar. Axı, əgər materiya şərdirsə, onun istənilən şəkildə və nəyin bahasına olursa-olsun məhv edilməsi xeyirdir. Qətl, yalan, xəyanət, satqınlıq - bütün bunlar heç bir önəmə malik deyildi. Maddi dünya əşyalarına münasibətdə hər şey məqbul sayılırdı.

Belə konsepsiya orta əsr fransızlarını qorxutdu və qeyzləndirdi. 1022-ci ildə şagirdlərinin çuğulladıqları on katar tonqalda yandırıldı. Onların arasında kral I Robertin keşişi Etyen, sxolast Lizoy və kapellan Geribert də vardı.

Bir insan kimi namuslu, səmimi, hər şeylə maraqlanan adamlar olduqlarından, onlara bir qədər heyfsilənirik. Katolisizmin böhran keçirdiyi dəhşətli bir zamanda, prelatların kafedralara (yepiskopluq nəzərdə tutulur, -tər.) öz feodal mülkiyyətləri kimi yiyələndikləri, alayarımçıq savada malik keşişlərin kilsələrə gələnlərə xristian etikasının ən sadə əsaslarını belə açıqlaya bilmədikləri bir dövrdə bu adamlar gerçəkliyin onlar qarşısında qoyduğu və həll edilməsi zəruri olan problemlərin məntiqi şəkildə açılması yollarını arayırdılar. [492-493] Onların gəldikləri qənaətlər məntiqi cəhətdən qüsursuz olsa da, qeyri-təbii idi. Orta əsrlər fransızlarının sağlam intuisiyasının məntiqə qarşı üsyan qaldırmasının səbəbi də elə bu oldu. Yüksəliş mərhələsindən akmatik mərhələyə keçid zamanı sistem antisistemlə toqquşdu və Yer üzündə tonqallarda yandırılanların külü qaldı.

Manihiliyə eyni münasibət həmişə və hər yerdə müşahidə olunur. Bu səbəbdən I minilliyin manihi icmaları gizli yaradılır, yalan isə onların davranış stereotipinə çevrilirdi. İtaliya və Fransaya yetişən manihi emissarları təlimlərini şəhərbəşəhər dolaşıb təbliğ etmək imkanı əldə etməkdən ötrü özlərini “toxucular” adlandırırdılar. Əslində isə onların “toxuculuğu” heç də masonların “bənnalığı”ndan fərqlənmirdi.

Buna baxmayaraq, həmin yalançı ad məsələdən agah olmayan və hər yerdə sinfi mübarizə izləri arayanları yanıltmaqdadır. Şair A.A.Blok “Qızıl-gül və xaç” pyesində albiqoyları məhz göründükləri kimi dərk edir. Amma şairi bu yanlışlıqda suçlamağa dəyməz.

Əslində, albiqoy savaşı nə Jakeriyanın bənzəri, nə Tuluza ilə Paris arasında feodal çəkişməsi, nə də provanslıların fransızlarla milli savaşı deyildi. Səbəbi isə aşağıdakı kimidir: bir çox patriarxal və plebey antikilsə hərəkatlarından fərqli olaraq, katarlar sosial cəhətdən rəngarəng idilər ki, bu da nə sosial, nə də etnik çərçivələrlə məhdudlaşdırılmayan təlimin müvəffəqiyyətlə yayılmasına dəstək olurdu.

Kəndli və şəhərlilərin feodallara qarşı sinfi mübarizəsi heç zaman ara vermirdi. Amma bu mübarizə bir-birilə ilgili olmayan iki xətt üzrə gedirdi. Kəndlilər baronların azğınlığına etiraz edirdilərsə də, proqramları aydın ifadə olunmuşdu: “Xeyirxah senyorumuz bizi mürtəd düşmənlərdən və zalımlardan qoruyur”. Məntiqi olsa da, maddi olan hər şeyin şər və buna görə də məhvi zəruri şeylər olması barədə təlimlə heç bir ilişkisi yoxdur. Əksinə, kəndlilərin sinfi təbiəti onları azadlıq əldə etdikdən sonra torpağı becərməyə, evlər tikməyə, uşaqları böyütməyə, sərvət toplamağa təhrik edirdi, xülyalar (məntiqi olsalar da) naminə bunların hamısını bir kənara atmağa yox. İkinci xətt kral hakimiyyətilə ittifaqa girən şəhər icmalarının (kommunalar) hersoq və qraflara qarşı mübarizəsidir. Bu halda da yeni yaranmaqda olan burjuaziya tərki-dünyalıq və yoxsulluğa deyil, sərvət, dəbdəbə və hakimiyyətə can atırdı. Qərbdə şəhərlər gah papanı, gah imperatoru, Şərqdə isə xəlifəni dəstəkləyirdi. [493-494] Bizansda onlar pravoslavlığın dayağı idi, çünki şəhərlilərin rifahı yabançı və anlaşılmayan axirət idealları naminə dünyanı məhv etməkdən yox, yer üzündə qayda-qanunun möhkəmləndirilməsindən asılı idi.

Çətin ki, xilasedici yoxsulluğun təbliğini sosial proqram kimi qəbul etmək mümkün olsun. Axı, xristian rahibləri, müsəlman mərəbut və sufilər də yoxsulluq tərəfdarları idi. Papalar və kilsə toplantıları da yepiskopların dəbdəbəsini, nepotizm və simoniyanı pisləsələr də, heç kim onları küfrdə ittiham etmirdi. Bəzən həddən artıq canfəşaqlıq edən ifşaçıları arxadan vurur, yaxud qondarma ittihamlarla edam

edirdilərsə də, həmin qəddar dövrlərdə bunsuz da cəlladın şikarına çevrilmək çox asandı, xüsusən, ideyaya qapılan adam taxt-tac sahibi üçün maneəyə çevrildiyini hiss etmədikdə. İdeoloji suçlamalar olmadan da edamlar edilirdi. Həqiqətən, mistik bir təlim sinfi mənafeləri necə əks edə bilərdi? Axı, bunun üçün o, kütləvi olmalıdır. Bu halda isə rəhbər prinsip - gizli mənsubolma və kor-koranə itaət itiriləcəkdi.

Bəs mürtədlərin özlərinin davranışı necə idi? Hər şeydən az sülhü arzulayırdılar. Yalnız feodalları öldürməklə kifayətlənmir, kəndli və şəhərlilərə də eyni qəddarlıqla divan tutaraq var-yoxlarını əllərindən alır, qadın və uşaqlarını qul kimi satırdılar. Manihi və ismaili icmalarının sosial tərkibləri həddən artıq alabəzəkdi. Bunların arasında dilənçi halına düşmüş sənətkarlar və zəngin tacirlər, kəndlilər və səfillər, kilsədən qovulan keşişlər, nəhayət, peşəkar döyüşçülər, yəni feodallar da vardı ki, bu sonuncular olmadan o zamanlar uzunmüddətli və uğurlu müharibə aparmaq mümkün deyildi. Qoşunda döyüşçüləri döyüş sırasına düzməyi, qəsrləri möhkəmləndirməyi, mühasirəni təşkil etməyi bacaran adamlar olmalı idi. X-XIII əsrlərdə isə bunları yalnız feodallar bacarırdı.

Yanlış bir təsəvvür yarana bilər ki, katoliklər katarlardan (albiqoylar) yaxşı, xeyirxah, namuslu və nəcib adamlardı. Həm bu, həm də bunun əksi olan fikirlər tamamilə yanlışdır. Hansı etik doktrinalar təbliğ olunmasından asılı olmayaraq, insanlar özlüklərində qalır. Həm də ki, günahları səlib yürüşünə sərf olunan pulla yığmağın mümkünlüyünü bəyan edən konsepsiya nəyinə görə maddi dünya ilə mübarizəyə çağırışdan daha yaxşıdır? Əgər bir təlim digərindən yaxşıdırsa, onda kimin üçün? Odur ki, keyfiyyətcə dəyərləndirmə məsələsini qaldırmaq mənasız və məsələn, turşu, yaxud qəlevinin yaxşı olması barədə suala bənzəyir. Hər ikisi dərini yandırır. [494-495]

Lakin əgər belədirsə, onda niyə bu düşmənçiliyə bu qədər diqqət yetirilib? Halbuki, eyni zamanda feodallar sinfilə təhkimli kəndlilər arasında sosial münaqişələr getdikcə kəskinləşir, böyüməkdə olan krallıqlar arasında ərazilər uğrunda, ticarət şəhərləri arasında isə yeni bazarlar uğrunda rəqabət getdikcə güclənirdi. İlkin hesabat nöqtəsi kimi qəbul etdiyimiz yarıgizli savaş bunlardan nə ilə fərqlənirdi?

Bir böyük etnik-sosial sistem daxilində siyasi hökmranlıq uğrunda mübarizədən, hətta fərqli mədəni-sistem bütövləri arasında toqquşmalardan da fərqli olaraq, burada bir-birini məhv etmək üçün savaşırdılar. Bir arealda yaşaya bilmək üçün fransız manihilərilə fransız katolikləri bir-birinə həddən artıq bənzəyirdi, çünki tərəflər sistemin əks istiqamətlərdə inkişafını arzulayırdı. Toqquşan zaman onlar Tanrının yaratdığı deyil, dünyəvi şər sandıqları məhz həmin materiyanın annihilyasiyasına bais olurdular. Hər yerdə - Bizans, İran, Mərkəzi Asiya, hətta dinlərə qarşı dözümlü olan Çində də özlərini bu cür aparırdılar. Odur ki, hər yerdə təqib olunurdular. Orta əsrlərin dövlətlər arasında çarpışmaların və etnosların təşəkkülünün müşahidə edilən tarixi arxasından sezilən çalarını da elə onların bəzi hallarda çox fəal olan müqaviməti vermişdir. O dövrdə bir-birinə zidd iki davranış və psixoloji strukturun mövcudluğu qlobal bir hadisə idi. Həmin dövrə aid incəsənət abidələrinin sayının bu qədər az olmasının səbəbi də elə budur.

XIV əsrin sonunadək manihilərin Yer üzündən yox olmaları heç də təəccüb doğurmur, çünki əslində onlar özləri də elə buna can atırdılar. Maddi aləm və onun sevinclərinə nifrət etməklə, onlar həyatın özünə də nifrət etməli, deməli, yalnız durumun dəyişməsi demək olan ölümü də deyil, antihəyat və antidünyanı arzulamalı idilər. Yer üzünü İntibah dövrü üçün təmizləyərək, məhz elə ora da köçüb getdilər. Müvəffəqiyyətsizlikləri isə yalnız ondan ibarət idi ki, heç də həmişə könüllü olmayan şəhidlikdən keçirməklə bütün adamları məh etməyə nail ola bilmədilər. Amma buna çox çalışdılar. Onların suçu deyil ki, insan psixikasının həyatsevər qayəsi onların təzyiqinə tab gətirdi və onun sayəsində xalqların tarixi öz axarını durdurmadı.

İspan rahibi Dominik tərəfindən yaradılan və kafir-katarlar, yaxud albiqoylar əleyhinə yönəldilən birinci inkvizisiya da elə bu fonda meydana çıxdı. Əlbəttə, heç kim inkvizisiyanın heç bir sübut olmadan, yalnız şəxsin etirafına əsaslanaraq məhkum etmək prinsipini nə dəstəkləmək, nə də təqdir etmək belə istəməz. [495-496] Etiraf işgəncə verməklə əldə edilir, çuğullar yalan, hakimlər qərəzli və özbaşına olurdusa da, belə məhkəmələrin yaradılmasının motivləri aydındır. İnkvizisiyaçılar öz casuslarını XIII əsrdə fransız və italyan cəmiyyətlərinin bütün təbəqələrinə nüfuz etmiş katarların intiqamından qoruyurdular. Savaş yalnız Langedokda getmirdi, bütün saraylar, sexlər, kilsə icmaları, hətta bazarlar da onun meydanına çevrilmişdi. Bu, cəbhə xətti olmayan amansız bir qırğındı və bu zaman katarların və inkvizisiya casuslarının şərlədiyi köməksiz və suçsuz adamların hamısı onun qurbanı olurdu. Katarlar materiya ilə mübarizə aparmaq üçün yalandan geniş yararlanmağı məsləhət görən dinlərinin iznilə yalan danışmaq hüququndan geniş istifadə edirdilər. “Katolisizmə keçən keçmiş katarlardan Rober Le Buqr, Veronalı Pyotr və Raynir Sakkoni XIII əsrdə ən amansız inkvizisiyaçılardı. Onların əlilə yüzlərlə katar və valdens yandırılmışdı”. (14) Bura şər atılan katoliklər də əlavə olunmalıdır. 20 il ərzində Milanda katar olan Rober Le Buqr bu sektanın adət-ənənələrinə çox gözəl bələddi. 1233-cü ildə papa IX Qriqori onu inkvizisiyaçı təyin edəndən sonra həmin geniş biliklərini tətbiq etməyə başladı. Məsələn, Marna üzərindəki Şalon şəhəri yaxınlığındakı Mont-Emedə 1239-cu ildə o, 182 katarı tonqala atdırdı. Sonralar da eynilə: tampliyerlər ordeninin qrossmeysteri Jak Mole və digər cəngavərlər tonqalda yandırılan katarın nəvəsi olan kansler Gilyom Noqarenin rəhbərlik etdiyi məhkəmə prosesindən sonra 1214-cü ildə Parisdə yandırıldılar. Gizli məhkəmə ikitərəfli itilənmiş solahdır.

Ölməkdə olan dualizm bu dəfə monist bir konsepsiyaya çevrilməyə imkan tapdı. Axı, antisistem üçün prinsiplərə sədaqət kimi xırdalıqlar önəmli deyil. Önəmli olanı məqsəddir - materiya və cismdən qurtulmaq. V əsrin istedadlı mütəfəkkiri, fəaliyyətini gizli manihi icmasında üzvlükdən başlayan, ömrünü isə Hibbon şəhərinin (Afrikadadır) yepiskopu kimi başa vuran və ölümündən sonra kilsə başçısı elan edilən Müqəddəs Avqustinin təlimilə silahlandılar. Müqəddəs Avqustin sxolastikanın üç istiqamətindən birinin - insanların ya cənnət, ya da cəhənnəmə əbədən və əvvəlcədən məhkumluğu təliminin müəllifi idi. Əlbəttə, bir sıra haşiyələr də vardı, amma əsas məsələ bunda deyil.

Müqəddəs Avqustinin əsas dəlili ondan ibarət idi ki, Adəm günaha batmış və onu "başlıca günah" kimi genetik şəkildə ötürmüşdür. Bu səbəbdən bütün insanlar yaramazdır və onların yeri yalnız cəhənnəmdir. Tanrı bəzilərinin əzəli və mütləq xilasını buyursa da, qalanları məhvə məhkumdur. Artıq nə suçluların xidmət [496-497] və şücaətlərinin, nə də seçmələrin bəd əməllərinin önəmi yoxdur. Belə sistemdə iblisə yer yoxdur, çünki onun yerinə bütün işləri Tanrı görür.

O dövrün ilahiyyatçılarına qarşı ədalətli olmaq gərəkdir: onlar Avqustinin təlimini qəbul etmədilər. Bu konsepsiyanın tərəfdarları pisləndi, rahib Qolşalk isə alın yazısı, yəni Tanrının insanların günahları üçün məsuliyəti ideyasının təbliğinə görə hətta ömürlük məhbəsə salınmışdı.

Lakin orta əsrlər arxada qaldı və Reformasiya bərqərar olduqdan sonra Jan Kalvin Avqustinin ideyalarını yenidən canlandırdı. İkinci inkvizisiya nəzəriyyəsi də onlara əsaslanırdı. İkinci inkvizisiya nəzəriyyəsi də onlara əsaslanırdı. Tanrı ilə İblisin barışması Avropanın bütün yaramazlarını qane edirdi.

**İblislə Konkordat**. XVI-ıXVIII əsrlərdə fəaliyyət göstərən İkinci inkvizisiya Birincidən pis idi. Edilən cinayətləri nizamlamaq və onlara bəraət qazandırmaqdan ötrü inkvizisiyaçılar Müqəddəs Avqustinin ideyalarına əsaslanan nəzəriyyə yaratdılar. Bu nəzəriyyəyə görə Tanrı o qədər rəhmlidir ki, yaratdıqlarında şərə yol verməzdi, amma o, buna yol verir, çünki şəri xeyirə çevirəcək qədər qüdrətli və xeyirxahdır". Buradan belə çıxır ki, "müstəbidlərin təqiblərilə məzlumların səbri möhkəmləndirilir, küpəgirən qarıların ovsunları isə möminlərin inamını təkmilləşdirir. Bu səbəbdən də Tanrının şərin qarşısını almasına ehtiyac yoxdur". Etiraz etmək olardı ki, Tanrı müstəbid və küpəgirən qarılara qarşı əsassız haqsızlıq göstərir, onları möminlərə iztirablar verməyə məcbur etməklə, cəhənnəm oduna məhkum edir. Amma bunu da cavablamaq mümkündür. Günahkar şeytandan da pisdir, çünki "İblis ona günah işləməyə imkan verən və məhəbbətlə qeydinə qalmayan tanrıdan uzaqlaşıb… İblis hiddət içindədir, çünki Tanrı onu rədd edib və ona öz lütfünü bəxş etmir". Üstəlik, Tanrı şeytana yaxşılıq arzulayır, bədbəxt şeytan isə "küpəgirən qarıların törətdikləri əməllərin xeyirə çevrildiyini gördükcə əzab çəkir". Ümumiyyətlə, şeytan heç günahkar da deyil, çünki "Tanrının iradəsi olmadan heç nə edə bilməz", "Tanrı isə şər arzulaya bilməz, amma ona izn verə bilər".

İnkviziyaçıların təklif etdikləri nəzəriyyə yalnız onların özlərinin deyil, guya ki, mübarizə apardıqları iblisin də mədhidir. Onların fikrincə, tarixdəki bütün bəd əməllərin suçu Tanrıdadır. Daha pisi odur ki, belə əməlləri alqışlamağa səsləyirdilər, çünki (guya) şərdən xeyir törəyir. Bu iblis dialektikası, əslində, metafizika səviyyəsinə [497-498] yüksəldilən obivatel yaltaqlığıdır. Həmin divanə sərsəmləmələrinə görə isə, bir baxın, nə qədər qanlar axıdılıb!

Başqa cür ola da bilməzdi! Alın yazısı haqqında təlim öz tərəfdarlarını yalnız bir azadlıqdan - Xeyirlə Şər arasında seçim azadlığıdan məhrum etdi, əvəzində isə onlara öz vicdanlarına münasibətdə məsuliyyətsizlik bağışladı. Əgər sonuc əvvəlcədən şərtlənibsə, onda istədiyin kimi hərəkət etmək olar. Elə bu zaman əks əlaqə özünü göstərdi.

Fərdin tam məsuliyyətsizliyi vicdan yox, rəislərin əmrinə əsaslanan qanuni qüvvəyə mindirən cəmiyyət üçün zərərlidir. Belə qanunla hesablaşmaq daha sərfəli olsa da, ondan yan keçmək heç də əxlaqsızlıq deyil. Bacardı və qazandı! Odur ki, Şimali Amerikada hinduların qırğını, qul alveri, Hindistanın qarəti, Çinə opium satılması kifayət qədər məntiqi idi və heç də qeyri-əxlaqi deyildi… Axı, bu əməllər qadağan olunmamışdı və oluna da bilməzdi, çünki Tanrı şəri xeyirə çevirir, şeytan isə onun nökəridir.

Lakin əgər belədirsə, niyə də iblislə təmas yaradılmasın? Üstəlik, iblis ona göstərilən xidmətləri real nemətlərlə ödəməyə hazırdır. O elə çox şey də istəmir: ölümsüz olan (onun ölümsüz olmasına hələ inanmaq gərəkdir) ruhu ona satmaq və "qara messalar"da iştirak etmək. Bu messaları mütləq kilsədən uzaqlaşan keşişlər aparır və onlar heç nəyi qadağan etməyən xeyirxah ağaya - İblisə həsr olunurdu. Müqəddəs ənamlara çılpaq qadının qarnı üstündə ibadət edilir, sonra isə onlar murdarlanırdı. Bəzən bu messaların iştirakçılarına elə gəlirdi ki, İblis özü onlara qonaq gəlib və dalındakı yumşaq yeri öpməyə izn verir. Analarından oğurlanan körpələrin ona qurban verilməsi halları da olurdu. Misteriyalar gecəyarısı, gizli keçirilsə də, çoxları onlardan xəbərdardı.

**Bir əyani örnək**. 1089-cu ildə rus knyaginası Yevpraksiya Vsevolodovna German millətinin Müqəddəs Roma imperiyasının imperatoru IV Henrixə ərə getdi. İmperator öz qadınını da "qara messa"da iştiraka cəlb etdi. Yazıq qadın elə bir pis hala düşdü ki, ərinin əlindən onun düşmənlərinin yanına Kapossaya qaçdı və burada qrafinya Matilda tərəfindən qəbul edildi. 1094 və 1095-ci illərdə imperatriça Kilsə toplantılarında ərini ifşa edən çıxışlar etdi. Papa II Urban bilmədən işlədiyi günahı onun üstündən götürdü və vətəninə yolladı. Yevpraksiya ömrünü 1109-cu ildə monastırda başa vurdu.

Bəs, IV Henrix?.. O 1105-ci ilədək imperatorluq etdi və hakimiyyəti heç də iblisə pərəstişə görə yox, vassallarını xaincəsinə [498-499] öldürdüyünə görə itirdi. Lakin bundan sonra da Lyej, Köln, Bonn sakinləri və yəhudi icması onu dəstəkləməkdə davam edirdi. Deme, satanizm heç də əksəriyyətin heyrətinə səbəb olmurdu.

Hələ XIX əsrdə Parisdə "qara messa"lar keçirilməkdə idi. Bura sekta üzvlərindən savayı yalnız dəvət olunanların gəlməsinə izn verilsə də, həmin dəvəti əldə etmək bir o qədər də çətin deyildi. Təfərrüatları Güismansın "Sonsuzluq" əsərində oxumaq olar. Burada müəllif izlədiyi orgiyanın ciddiliyini təsdiqləməklə aldadılmış olmaq istəyi arasında tərəddüd edir. Şəkkak-pozitivist üçün hər hansı bir prinsipin fərdləşdirilməsi qeyri-məqbuldur! Sadəcə, o bundan çiyrinir.

Artıq XIII əsrdə gərəksiz olan fərdiləşdirmədən imtina etdikdə isə Absolyut (Mütləq) nəzəriyyəsi, özünün daxili əxlaqi qanuni qalır. Belə qanuna ibadət etmək mümkün deyil. Bu, XIX əsrdə aydınlaşır, konsepsiyanın ardıcıl inkişafı isə ekzistensializmi - K.Yaspersin fəlsəfi etiqadını doğurur. Yaspers yalnız bir şeydə haqlı idi: belə sistemlər eramızdan əvvəl də meydana çıxırdı. Lakin o nəzərdən qaçırır ki, onlar həmişə məhv olur və filosoflara inanmış minlərlə insanın həyatını özlərilə aparırdı.

Nəhayət, ciddi monizm nəzəriyyəsinin sonuncu ən önəmli nəticəsi - fərd və onların yaratdıqlarına olduğu kimi, bütövlükdə biosferə münasibətin də mənfiləşməsi. Köməksiz təbiəti vicdansız adamlardan qorumaqdan ötrü onlara biosenologiyanın xeyrini anlatmaq lazımdır ki, bu da çox çətin işdir. Yer planeti üzərindəki həyatın harmonikliyindənsə, faydalı və zərərli heyvan və bitkilər haqqında təlim obivatel düşüncəsi üçün daha yaxın və anlaşıqlıdır. Obivatel özünü təbiətin tərkib hissəsi deyil, çarı, hökmdarı hiss etməyə üstünlük verir. Odur ki, əslində ciddi monizm şərq dualizmi - manihiliklə qovuşur. Fərq yalnız ondadır ki, təkcə "Zülmət"in obyektiv mühiti yox, konkret adam maneçilik törədən bütün xoşagəlməz şeylər şər sayılır. Bu isə xeyir və şər, işıq və zülmət, tərəqqi və tənəzzülü bir-birindən fərqləndirməyin rəhbər prinsipinin özbaşınalıqdan ibarət olması deməkdir. Fərq bir o qədər də önəmli olmasa da, məntiq baxımından heç də monizmin xeyrinə deyil.

Bəs niyə monist və dualist təlimlər xristianlığı sıxışdırıb aradan çıxara bilmədi? Axı, papaların imperatorlarla savaşdığı, sxolastların isə qüvvələrini bir-birilə heç bir mənası olmayan mübahisələrə sərf etdikləri orta əsrlərdə yaxşı imkan vardı. Fikrimizcə, ona görə ki, monizm və manihiliyə qarşı dərk olunmamış dünyagörüşü dururdu və onu aşağıdakı şəkildə ifadə etmək olar: Tanrı Yeri yaradıb, [499-500] amma İblis bu dünyanın knyazıdır; Yer üzündə İblis Tanrıdan qüvvətlidir, məhz elə buna görə nəcib cəngavər və fədakar rahib məzlumların müdafiəsinə qalxmalı və qüdrətli düşmənlə son damla qanlarına qədər vuruşmalıdırlar. Axı, Tanrı gücdə yox, həqiqətdədir və onun yaratdığı Yer füsunkardır; Şər isə kənardan, Cəhənnəm qapısından gəlir, ən sadə və ən layiqli iş də onu gəldiyi yerə qovmaqdır. İblisi Tanrının yaratmadığı isə sübutsuz da aydındır və belə bir təxmin yürütməyin özü mürtədlikdir.

Bu konsepsiya ziddiyyətsiz, qavramaq üçün sadə, o dövrün adətlərinə də olmasa, ideallarına müvafiqdi. İdeal isə duyumla qavranan uzaq proqnoz olduğundan, özünü doğrultdu. Biosfer mövcud olmaqdadır.

**Çarəsizlikdən çıxış yolu**. Biz XX əsrin övladlarıyıq və bilirik ki, şeytan yoxdur. Bununla belə, antisistemlər tarixinə nəzər salan zaman bizi vahimə bürüyür. Qulyəbani xassələrinə və iblisanə məqsədyönlüyə malik qaniçən konsepsiyalar var. İnsanların nə qüdrətli idrakı, nə dəmir iradəsi, nə də təmiz vicdanı bu fantomlar qarşısında duruş gətirə bilmir. Müxtəlif ritmli etnik sahələrin üst-üstə düşməsi - etnik ximera baş verən yerlərdə antisistemlər meydana çıxır. İnsanın Yer üzündə mövcud olduğu dövr ərzində isə bütün etnoslar artıq çoxdan bir-birilə təmasa girdiklərindən, güman etmək olardı ki, antisistemlər etnosları sıxışdırıb aradan çıxarmalı, onları əvəzləməli, öz areallarındakı canlı olan hər şeyi məh etməli, öz real impulslarını virtuallaşdırmalı idi ki, onlar qarşılıqlı annihilyasiyaya nail olsun. Lakin hansı səbəbdənsə bunlar baş vermədi.

Deməli, dünyada antisistemlərin yayılmasının qarşısını alan və güman ki, Yer üzünü onlardan təmizləyən qüdrətli impuls da mövcuddur. Amma gördüyümüz kimi, antisistemlər aramsız meydana çıxır. Odur ki, həmin impuls daim olmasa da, kifayət qədər tez-tez fəaliyyət göstərməlidir. Həm də o, insanların şüur çevrəsində olmamalıdır, çünki bu çevrə aldanma, yaxud əşyanın natamam anlaşması, yəni yanlışlıq üçün açıqdır. Bu impuls bizə göylərdən əta da edilməyib, çünki antisistemlər teist olur, etnik mədəniyyətlərin idealları isə ateistikdir. O, təkamül prosesində də formalaşmır, çünki bunun üçün gərək olan müddət ərzində məhv olardı. [500-501] Bizə belə xassələrə malik impuls bəllidirmi? Bəli, bəllidir! Bu - passionar təkandır.

Ximeraları və onlarda yuva salan antisistemləri həyatını qurban verən ayrı-ayrı passionar fərd və şəxsiyyətlərin şücaəti deyil, məhz passionarlıq əlaməti doğuran və yeni yaranan etnoslara orijinal biosahə ritmi aşılayan passionar təkan, mutasiya məhv edir. Passionar impuls sanki yüksək bir közərmə yaradır ki,

burada ximeralar "əriyir" (bu məcaza görə müəllifi qınamayın) və geobiosenozların şəlqəsi kimi landşaftlarla harmonik şəkildə uyğunlaşan etnoslara çevrilir. Belə yüksək közərmədə antisistemlər mövcud ola bilmir. Amma bundan sonra artıq təsvir etdiyimiz etnogenez prosesi cərəyan edir ki, bu zaman bəzən yaranan şərait üzündən mənfi işarəli impulslar da meydana çıxır.

Beləliklə, passionar təkanlar bəşəriyyətin təkamülündə yalnız maneə deyil, həm də təmizləyici qüvvədir ki, bunsuz təkamül ümumiyyətlə davam edə bilməzdi. Bu qüvvə ilə təbiət biosferin tarazlığını dəstəkləyir. Bura onların fikirləri nə qədər fantastik olsa da, özlərinin Yer planeti üçün ən dəyərli olduqlarını təsəvvür edən insanların cismlərinin tarazlığı da daxildir. İndi artıq bizə məlumdur ki, bütün fəlsəfi təlimlər və peyğəmbəranə deyimlər həyatın hər addımını güdən möhtəşəm vakuumun müəyyən tərəfinin geri qaytardığı biosfer impulslarından başqa bir şey deyil. Elə bunun üçün Sonsuzluqdan Dünyaya hər biri "şəxsi şüur" adlanan qara dəliklər açılıb. Onlara "vicdan" adlanan qapaqlar taxmaq yaxşı olardı.

Etnosferin titrəyişlərini açıqlayan empirik ümumiləşdirmə kimi təsvir edilən passionar təkanın özü isə gözgörəsi Kainat təbiətlidir. Təkcə təkan bölgələri oxlarının yer səthində sonucları planetin əyriliyilə məhdudlaşan xətlər kimi yerləşməsi, onların şaqullarının isə Yerin mərkəzindən keçməsi təkan mehvərinin planetin maqnit sahəsindən asılılığını göstərir. Yerə endirilən bu enerji zərbələrinin Günəşdən yox, Kainatın pərakəndə enerjisindən ünvanlanması barədə təxminlər artıq dəqiqləşdirilib. Amerika astronomu Con Eddi aşkar edib ki, Günəşin fəaliyyəti o qədər dəyişkəndir ki, [501-502] günəş ləkələrinin 11 illik fəallıq dövriyyəsi də ardıcıl izlənilmir. Bu qənaətlər əsasında Con Eddi 5 min il üçün günəş fəallığının qrafikini tərtib edib. (15) Məlub olub ki, tarixi bəlli olan bütün passionar təkanlar günəş fəallığının ya minimum səviyyəsi, ya da onun azalması dövrlərilə eyni vaxta düşür. Bu artıq hadisəni təfsirləmək imkanı verən qanunauyğunluqdur. Günəş fəallığının azalması zamanı ionosferin qoruyucu xassəsi də azalır və bu ayrı-ayrı kvantlara, yaxud enerji toplularına yer səthinə yetişmək imkanı verir. Sərt şüalanma isə, məlum olduğu kimi, mutasiyalar doğurur…

Biz dünyada tək deyilik! Yaxın Kosmos təbiətin mühafizəsində iştirak edir və bizim vəzifəmiz onu korlamamaqdır. Təbiət yalnız evimiz deyil, həm də biz özümüzük.

Artıq başa çatan bu əsər də elə bu tezis naminə yazılıb. Onu təbii mühitin antisistemlərdən qorunması kimi möhtəşəm bir işə həsr edirəm. [502-503]

## SON SÖZ

**Sxem qurmaq təcrübəsi**. Biosferin sistem bütövü kimi araşdırılması böyük çətinliklərlə üzləşir. Prosesləri yalnız təsvir etmək deyil, həm də onların mənşəyini aşkarlamaq imkanı verən ənənəvi təbiətşünaslıq üsulları bir o qədər də dəqiq olmayan tarixlərin belə olmaması üzündən qənaətbəxş deyil. Məsələn, asanlıqla nəzərə çarpır ki, siklonların hərəkət istiqamətinin dəyişməsi hansısa bölgədə uzunmüddətli quraqlığa səbəb oldu ki, nəticədə bitki örtüyünün, deməli, faunanın da xarakteri dəyişdi. Amma dəqiq xronologiyasız bu fenomenin başladığı və bitdiyi tarixləri açıqlamaq mümkünsüzdür. Sonuncu tarixçilərin vəzifəsi olsa da, təəssüflər olsun ki, onlar öz vəzifələrini yerinə yetirməkdən yayınırlar.

Bu heç də təsadüfi deyil. Hadisələrin əlaqə və ardıcıllığı haqqında elm kimi tarix öz toplama dövrünü XVIII əsrin sonunda başa vürmüş, elə bu zaman onun təfsirinə ehtiyac yaranmış və o öz sonucunu tarixi materializmdə tapmışdır.

Lakin sosial qanunauyğunluğun - istehsal qüvvələri və istehsalat münasibətlərinin mütərəqqi inkişafının açıqlanması çoxcəhətli fenomenin yalnız bir tərəfini işıqlandırdı, bəşəriyyətin biosferlə ilişkiləri isə dialektik materializmin nüfuz dairəsində qaldı. Bu cür paylaşmaya hazır olmayan tarixçilər mənbələrin verdikləri bilgilərdəki təfərrüatları dəqiqləşdirməyə aludə oldular. Amma bu zaman etnik tarixin əsas obyekti olan diskret çoxəsrlik etnogenez prosesinin, onun başlanğıc və sonuclarının cizgiləri (konturları) qaçılmaz şəkildə kayb edilirdi.

İdi isə müəllifin çox tez-tez rastlaşdığı bir sualı savablamağa cəhd edək: "Əgər etnogenez qanunauyğunluqları təbiətdədirsə və biz onları dəyişməyə qadir deyiliksə, belə bir elm lazımdırmı? Ona vaxt və qüvvə sərf etməyə dəyərmi?" Bəli, həqiqətən də hətta ən qüdrətli texnika ilə silahlanan adamın imkanları ilə müqayisədə də etnogenez prosesləri o qədər möhtəşəmdir ki, onlara birbaşa düzəlişlər etmək cəhdləri mənasızdır. Amma bu o demək deyil ki, onların göstərdikləri təsirin qeydə alınmasının heç bir əməli önəmi yoxdur, etnologiyanın araşdırılması isə perspektivsiz məşğuliyyətdir. Axı, siklon və antisiklon kimi atmosfer hadisələrinə təsir göstərə bilməsə də, heç kim hava durumu haqqında elm olan meteorologiyanı, yaxud atmosfer fizikasını gərəksiz saymır. Əksinə, bu elmlər [503-504] son dərəcə xeyirli sayılır, çünki qlobal atmosfer hadisələrinin insanlara və onların fəaliyyətinə təsiri çox böyükdür. Bu halda hava durumunun təsirinin hamı üçün gün kimi aydın olması daha önəmlidir: onu yalnız gəzintiyə çıxarkən deyil, təsərrüfatla ilgili qabaqgörmələrdə də nəzərə alırlar.

Yuxarıda meteorologiya və atmosfer fizikası barədə deyilənlərin hamısını predmetləri insandan kənarda olan, əməli əhəmiyyətləri isə şübhə doğurmayan seysmoqrafiya, geomorfologiya və Yer haqqında bir sıra digər elmlərə də tam əsasla aid edə bilərik.

Etnologiyanın xeyri, onun tətbiqi əhəmiyyəti bir o qədər də nəzərə çarpmır. Səbəb isə aşağıdakı kimidir. Etnogenez də statistik təbii proses və onun nəticələri də tufan, yaxud vulkan püskürməsi qədər böyük miqyasa malik olsa da, onun cərəyan etmə müddəti çox sürəklidir: passionar təkan anından onun ətalətinin tam başa çatmasına qədər min ildən artıq bir müddət keçir. Öz işlərilə məşğul olan müasirləri yaxınlıq aberrasiyası aldadır və onlara elə gəlir ki, onların həyatı dövründə etnik sistemdə önəmli bir şey baş verməyib. Amma bu hələ bəlanın yarısıdır. Daha pisi odur ki, buna əsaslanan elmi araşdırıcılar etnosu daimi bir dəyər kimi qəbul edir və onun təsirinə qarşı etinasızlığın heç bir mənfi nəticə doğurmayacağına əmindirlər.

Belə baxışın davamlı olmasını asanlıqla açıqlamaq mümkündür: təəssüf ki, tarix elmləri hadisələrin ardıcıllığı, ən yaxşı halda isə onların sinxronistik cədvəllər qurmaq imkanı verən coğrafi bölgələr üzrə təsniflənməsi üzərində dayandılar.

Bu, həqiqi tarixi araşdırmanın tarixdə onun real inkişafı kimi çoxsaylı "broun hərəkətləri"nin təsvirilə əvəzlənməsinə səbəb oldu. Bununla belə, buluddan ayrılan bircə damcı da düz aşağı düşmür. Hər hansı bir uzun sürən hərəkət sadə olmur. O, bir-birini qarşılıqlı ödəyən bir sıra xırda sapınmaları ehtiva edir. Bunu şəkildə də görə bilirik. (şək. 7)

Lakin, gəlin, damcının yerə qədər keçdiyi bütün yolu deyil, onun ortasındakı iki santimetrlik bir hissəni araşdıran müşahidəçini təsəvvür edək. Bu adam mütləq Nyuton qanununun yanlış olması qənaətinə gələcək: axı, onun müşahidələrinə görə, damcı yalnız aşağı yox, həm də yanlara, çox vaxt isə hətta yuxarı da hərəkət edir. Qənaət yanlış olsa da, məntiqidir, çünki yanlışlıq məsələnin [504-505] qoyuluşundadır: əhatəsində olduğu problemlərlə koordinasiya edilmədən araşdırıcıya mövzunu daraltmaq imkanı verilib.

Həm də qoy deməsinlər ki, belə şeylər olmur! Açıq-aşkar yanlışlığa aparan eyni metodikadan hələ Tur Heyerdalın Aku-Akusu şikayətlənirdi.

Oxucuya təqdim edilən araşdırma tarixi sadəcə aydınlaşdırmaqdan daha çox, onun təbiətşünaslıq problemlərinin həlli, xüsusən biosferin araşdırılmasında vəsait kimi anlaşması məqsədini güdür.

Etnik sistemlərin onun bir hissəsi kimi birbaşa araşdırılması isə yalnız tarixi materialın təbiət elmləri üsulları ilə tədqiqi zaman mümkündür. Bu üsullarla hər hansı bir etnosun tarixini araşdırmaqla biz prosesin gedişatını təyinləyən səbəb-nəticə ilişkilərini açıqlamış olarıq. Bura müxtəlif superetnoslar arasında uzun sürən müddət ərzində etnik ilişkilər tarixini də əlavə etsək, superetnosların inkişaf dinamikasını əldə edərik. (bax: şəh.6). Etnologiyanın həll etməyə çalışdığı məsələ də elə bu dinamikanın landşaft dəyişiklərilə qarşılıqlı asılılığının açıqlanmasıdır. Onun həlli zamanı aydın olur ki, insanların həm fərdi, həm də populyasiya səviyyəsindəki hərəkətləri sosial və etnik mühitlərdə tam əks nəticələrə səbəb olur. Sosial mühitdə insanın nə və necə düzəltməsi mühümdür: daş bıçaq, elektrik lampası, yaxud atom bombası. Əksər hallarda o öz ixtiralarının doğuracağı nəticələri görə bilmir, çünki sosiosferin inkişafı spontan səciyyə daşıyır ki, bunun da səbəbi onun öz daxilindədir.

Etnik mühitdə isə insan, yaxud sistem kimi götürülən etnos özü də bir hissəsi olduğu təbiət üçün zərərli olan bir şey etməyə də bilər. Deməli, təbiətə münasibətdə öz hərəkətlərinin nəticələrini qabaqcadan görmək zəruridir, çünki hər hansı bir yanlışlıq faciəvi ola bilər. Təkrara yol vermək və təbiətin müdafiəsi üçün sivilizasiya əleyhinə mübarizə aparılmasına rəvac verən çoxsaylı bəhanələrdən söz açmağa dəyməz (bu mövzu etnologiyanın nüfuz dairəsinə daxil olsa da).

Etnologiyanın əməli tətbiqinə dair ikinci imkan etnik ilişkilərin araşdırılması və simbioz yaranması üçün zəruri olan davranış xəttinin seçimidir. Xalqlar arasında birgəyaşayışın məhz belə formasının zəruriliyinin sübuta ehtiyacı yoxdur. Çətin bu gün soyqırımının təbliğini öhdəsinə götürməyə cəsarət edən adam tapılsın. [505-506]

Nəhayət, insanın etnogenez axınındakı əhvalı statistik qanunauyğunluqla determinə olunsa da, bu o demək deyil ki, fərd səviyyəsində bir neçə həll yolu arasında seçim azadlığı yox olur. Belə imkan isə daim yaranır və əsas məsələ fürsəti əldən buraxmamaqdır.

Bir adam etnogenez mərhələsi, yaxud etnik sistemdəki yarımsistemlərin sayını dəyişməyi bacarmasa da, subetnos, xüsusən də orqanizm kimi aşağı taksonomik səviyyələrdə ümumi statistik qanunauyğunluq tərəfindən yalnız müəyyən zaman keçdikdən sonra əvəzi ödənilə bilən hadisələr törətməyə qadir fərdi səylər mümkündür. Başqa sözlə, böyük passionarlığa malik adam inkişaf əyrisi üzərində hətta tarix tərəfindən də qeydə alınan sapınma törədə bilir. Əlbəttə, bütün bəlaları ya Allah, ya Laplasın təbiətin riyazi qanunları, ya da Eynşteynin məkan-zaman kontinuumunun üstünə yıxmaq çox cazibəli görünür. Amma iradi hərəkət də təbiət hadisəsidir, çünki insanın əsəb və hormonal fiziologiyası ilə birbaşa ilgilidir.

Heç bir adam onun gərginliklərini həm gücləndirməyə, həm də sıfıra endirməyə qadir olan etnik sistemdən xaric yaşaya bilmədiyindən, məhz insanların etnogenez mexanizminə biganə qalmaları da mümkünsüzdür.

Bir məsələni də qeyd edək. Passionar təkanların mümkün mənbələrindən danışarkən biz yalnız bir fərziyyəni kənara atmadıq - kosmik şüalanmanı. Düzdür, yaxın kosmos haqqında bilgilərin hazırki səviyyəsi şəraitində bu fərziyyə ciddi şəkildə sübuta yetirilə bilmir. Amma ona zidd olan faktlarla da rastlaşmır.

Əgər bu fərziyyə gələcəkdə də bu cür faktlara rast olmazsa, onda etnologiya mütləq xronologiyanın ciddi qeydə aldığı dövrlərdə yaxın kosmosun durum və Yer səhtilə təmasları barədə bilgilər əldə etmək imkanı verər. İnkubasiya dövrünün müddətini təyin etmək üçün 50 illik sapınma (bu və ya digər tərəfə) elə böyük bir şey olmasa da, 4-5 min il ərzində yaxın kosmosdakı enerji variasiyaları barədə bilgilərin dəyərliliyi heç bir şübhə doğurmur.

Yaxın kosmosun Yer üzündəki hadisələrə təsiri paradoks yox, daha çox trüizmdir (çeynənmiş, hamıya bəlli fakt, -tər.). Ay okeanlarda qabarmalar doğurur; günəş fəallığı tropiklərarxası maksimum atmosfer təzyiqinə təsir etməklə siklonların yönünün dəyişməsinə səbəb olur, viruslarda mutasiyalar yaradır və onlarla [506-507] ilgili epidemiyalar meydana çıxır. Bütün bunlar cəfəngiyyat deyil, coğrafiyadır. Bəs, planetin əhatəsinin onun səthinə təsirlərini inkar etməyə əsas verən hansı səbəblər mövcuddur?

Yaxşı, əgər hər hansı şüaların antroposferə təsir etməsi barədə fərziyyə təsdiqlənməsə, onda necə? Birdən bioloqlar onurğalıların ali növlərinin orqanizmlərinin anatomiyasını deyil, yalnız fiziologiyasını dəyişən mutasiya, xüsusən də mikromutasiyaların baş verməsinin başqa səbəbini tapdılar? Bu, kosmosun etnogenez partlayışlarının səbəbi olmadığı deməkdirmi? Xeyr! Çünki həmyaş etnosların yarandıqları zolaqlar empirik şəkildə qeydə alınan faktdır.

Bəlkə passionarlığın fizioloji mexanizmini aşkar edə bilən və onu orqanizmin vegetativ əsəb sistemi yox, hormonlarla, yaxud daşıyıcıları ilə simbiozda yaşayan mikroorqanizmlərin təsirilə əlaqələndirən istedadlı psixoloq meydana çıxdı? Yaxud o, passionarilərin daha yüksək fəallığını canlı maddənin biokimyəvi enerjisinin çoxluğundan doğan püskürmə kimi yox, enerjini istiqamətlənmiş şəkildə yönəltmək kimi açıqlasa? Ya da ki, genetik passionarlığın əlamət kimi ötürülməsi üsulunu dəqiqləşdirsə? Etnogenez

fenomeninin təsvirində nə dəyişəcək? Heç nə! Çünki etnogenez molekul, hətta orqanizm yox, yalnız onun özünə məxsus əlamətlərə malik populyasiya səviyyəsində müşahidə edilən hadisədir.

Kosmik və planetar variasiyalar etnogenezlərdən bir neçə səviyyə yuxarı olub, təkcə canlı orqanizmlər toplusunu deyil, mühiti, yəni bitkilərin cəsədləri və havadakı sərbəst oksigeni də ehtiva edən bütün biosferə təsir göstərirlər. Etnoslar biosfer okeanında damlalar olsalar da, onlar burada baş verən çalxalanmalara reaksiya verməyə bilmir.

Qısası, biz filosofeması olmayan təbii qanunauyğunluğu təsvir etmişik. Təsvir faktlara əsaslandığından, konsepsiyanı yalnız yeni təkzibolunmaz faktlar sarsıda bilər.

İyerarxiyalar. Bir qədər əvvəl (bax: cədvəl 3) oxucuya miqyas prinsipinə riayət etməyə və bütün lazımi tarixi materialdan yararlanmağa imkan verən yaxınlaşma iyerarxiyası təklif olunmuşdu.

Ardıcıl yaxınlaşmalar cədvəlindən yararlanaraq, yalnız biosfer deyil, spontan ictimai inkişaf tərəfindən də təsirə məruz qalan etnogenezin yerini tapmaq mümkündür. Bu təsir “hadisələrin məntiqi”, yəni tarixin savaşlar, diplomatiya, daxili çevrilişlər, hakimiyyət istilaları və i.a. ehtiva edən mərhələsi vasitəsilə ifadə olunub ki, [507-508] onun araşdırılmasına da elə bu mərhələdən başlanıb. Bu material bol olsa da, onun tətbiqi miqyasa ciddi riayət tələb edir. Bu tələb bir o qədər də önəmli olmayan hadisələrin iri hadisələrlə bir sıraya gətirilməməsi üçündür. Odur ki, ayrı-ayrı şəxslərin taleləri sosial sistemlərin talelərindən iki pillə aşağı yerləşdirilib (bax: şəh.8.).

**Cədvəl 5. Etnogenez mərhələləri**

| Mərhələlər | Hakim imperativlər | Mərhələ keçidləri |
|---|---|---|
| Etnos və landşaftların İlkin uyuşması | Rəngarəngdir. “Dünyanı düzəltmək gərəkdir, çünki o, pisdir!” | Passionar təkan: etnogenezin başlanğıc mərhələsi |
| Passionar yüksəliş: aşkar dövr | | Etnik sistemin formalaşması |
| Akmatik mərhələ | “Biz dahi olmaq istəyirik!” “Özün kimi ol!” “Biz dahilərdən usan-mışıq!” | Akmatik mərhələyə keçid. Çat mərhələsinə keçid |
| Çat | “Biz bilirik, biz bilirik, hər şey başqa cür olacaq!”“Qoyun yaşayaq, alçaqlar!” | Ətalət mərhələsinə keçid |
| Ətalət | “Mənim kimi ol!” “Biz - bezdik!” | Cəhalət mərhələsinə keçid |
| Cəhalət | “Bizim kimi ol!” “Bircə gün də olsa, mənim olsun!” | Xatirə mərhələsinə keçid: mümkün ola bilən regenerasiya |
| Xatirə mərhələsi | “Necə də gözəl olduğunu yadında saxla!” “Özün özündən razı ol, troll!” | Homeostaza keçid: qalıq |
| Homeostaz | İmperativlərin unudulması | Yeni etnogenez üçün başlanğıc olan etnos və landşaftların təkrar uyuşmasına qayıdış mümkündür [508-509] |

**Kitabda olmayanlar barədə**. Fikrimcə, “Etnogenez və Yerin biosferi” əsərində bəşəriyyətlə təbii mühitin qarşılıqlı münasibətləri problemi kifayət qədər dolğun təsvir olunub, hətta təbiət və mədəniyyətin qarşısıalınmaz dağıntılarının səbəblərinin açıqlanmasına da cəhd göstərilib. Bəli, indi artıq bizə bəllidir ki, biosenozların konversiyasının bu cür pozuntuları yalnız superetnos səviyyəsində ilişkilər zamanı meydana çıxır, lakin orada da həmişə olmur. Belə təmasın nəticəsi olan ximera isə etnosferdəki “zəif” yerdir. Qeyri-təbii olan bir şey buradan özünə yol etsə də, ximera onun meydana çıxması üçün yalnız bəhanədir, özlüyündə isə bu sadəcə səbatsız, ən kiçik təkandan, bəzən isə elə öz ağırlığından dağılan sistemdir.

Yabançı davranışlı və uyuşmayan iki superetnos meydana çıxan zaman şiddətli çaxnaşmalar dövrü başlayır. Davranış stereotipinin (etnogenez mərhələsinin əvəzlənməsi mərhələsini yaşayan ölkəyə sadəcə yabançı etnos yox, artıq formalaşmış antisistem icması düşdüyü hallarda durum daha faciəvi olur. Birinci halda təmasdan yeni etnik bütöv formalaşması mümkündürsə, bu hadisə XIX əsrdə Latın Amerikasında olduğu kimi, növbəti ayrılmadan sonra da baş verə bilir. Bu prosesin nə qədər qanlar axmasına səbəb olduğunu təsəvvür etmək belə dəhşət doğurur! Simon Bolivarın əhalisi seyrək olan cənubi Amerikada apardığı mübarizədə, əhalisi çox sıx olan Avropada Napoleonun apardığı savaşlar zamanı həlak olan qədər adam məhv olmuşdu - 1 milyon nəfər.

Amma bu da fəlakətlərin son həddi deyil. İki sistem yox, sistemlə antisistem üst-üstə düşən zaman savaş daha qəddar və mənasız olur. Kobud zorakılıq və insan ehtiraslarının özbaşınalığı nə qədər dəhşətli olsa da, yalan və satqınlıq bundan da pisdir, çünki onlar qeyri-təbiidir. Beləliklə, qanunauyğun şəkildə etnogenez mərhələlərindən keçən etnoslarla yanaşı, inkişafdan məhrum və yaşları olmayan ximera bütövləri yaranır və yox olur. Qısa bir müddət mövcud olmalarına baxmayaraq, onlar etnik tarixdə nəzərə çarpan rol oynamışlar. Bu səbəbdən onlar təsvir və araşdırılmağa layiqdirlər və bizim cəsur bahadırlar, tamahkar cəngavərlər və həşişdən ağlını itirən qatillərdən bəhs edən növbəti kitabımız məhz bu ximeralara həsr olunacaq. [509-510]

**Şəkil 8. Sosio və etnosferin qarşılıqlı ilişkiləri.**



## MÜƏLLİFİN ÖZ ARAŞDIRMALARINDA YARARLANDIĞI ANLAM VƏ TERMİNLƏRİN İZAHLI SÖZLÜYÜ

**Yaxınlıq aberrasiyası** - daha əvvəl baş vermiş hadisələrlə müqayisədə bir qədər yaxın dövrə aid olanların möhtəşəmliyinin şişirdilməsi.

**Uzaqlıq aberrasiyası** - uzaq keçmişə aid hadisələrin yayğınlığı. Bu onların əhəmiyyətsiz olması təsəvvürü yaradır.

**Durum aberrasiyası** - prosesin insan tərəfindən qavranılmasının qısamüddətli olması üzündən müşahidəçinin uzun sürən prosesin dinamikasını hərəkətsiz durumların məcmusu kimi anlaması.

**Etnogenezdə uyğunlaşma** - yeni davranış stereotipləri yaratmaq yolu ilə etnosun landşafta uyğunlaşması.

**Aktualizm** - zamanın hissi. Bu zaman mövcudiyyat yeganə obyektiv reallıq kimi qavranır.

**Annihilyasiya** - subatom səviyyəsində qalaktikalararası vakuuma uçub gedən işıq enerjisinin əvəzsiz itirilməsilə müşayiət olunan parçalanma.

**Etnik antisistem** - dünyanı mənfi dərk edən insanların sistem bütövü.

**Attraktivlik** - həqiqət, gözəllik və ədalətin mücərrəd dəyərlərinə meyllilik.

**Sonsuzluq** - maddi aləmin bir hissəsi olmayan boşluq, yaxud vakuum.

**Biosfer** - Yerin canlı maddə və onun fəaliyyət materiallarından ibarət və antientropik xassələrə malik örtüyü.

**Biokimyəvi enerji** - bax: canlı maddənin biokimyəvi enerjisi. [511-512]
**Bipolyarlıq** - sistemlərin iki istiqamətdə inkişaf etmək imkanı; ya mürəkkəbləşmə, ya da limiti vakuum olan sadələşmə.

**Vakuumun sıfır titrəyişləri** - vakuumda virtual hissəciklərin yaranma və məhv olmasının ani prosesi.

**Etnik təmas variantı** - etnik sistemlərin qarşılıqlı təmas üsullarındakı fərqlər.

**İradə** - azad seçimə müvafiq olaraq hərəkət etmək qabiliyyəti.

**Harmonik fərdlər** - passionar impulsları qiymətcə özünümühafizə impulsuna bərabər olan fərdlər.

**Tarixi zaman** -etnosfer elementləri arasında enerji potensiallarının passionar təkanlar tərəfindən pozulan tarazlaşma prosesi.

**Genetik "dreyf"**
**(axınla hərəkət)** - savaşlar zamanı adi olan təsadüfi cinsi əlaqələr yolu ilə passionar əlamətin səpələnməsi hadisəsi.

**Geobiosenoz, yaxud verilmiş**
**bölgənin biosenozu** - formaların mövcudolmanın şərtlərinin ümumiliyi üzündən tarixi, ekoloji və fizioloji cəhətdən bütöv halında birləşən tamamlanmış kompleksi.

**Əməllər** - insanın sərbəst seçiminin (şüurlu fəaliyyətinin!) nəticəsi olan (zadisələrdən fərqli olaraq) hərəkətləri.

**Diaxronik şkala** - müxtəlif etnik sistemləri etnogenez mərhələləri üzrə tutuşdurmaq üçün onların başlanğıc məqamlarından keçən müddətin hesablanma sistemi.

**Etnik divergensiya** - etnik sistem bütövünün etnik iyerarxiyanın verilmiş səviyyəsində komplimentarlığını duymaq hissini itirməklə parçalanması. [512-513]

**Etnik sistemin dinamik durumu** - etnik sistemin passionar təkan nəticəsində biokimyəvi enerjinin - passionarlığın titrəyişlərinin etnogenez mərhələlərinin dəyişməsinə və etnolandşaft mühitin fəal dəyişdirilməsinə (homeostazdan fərqli olaraq) aparıb çıxaran durum.

**Etnik tarixin diskretliyi** - hər hansı etnogenezin başlanğıc və sonunu təyin edən səbəb-nəticə ilişkilərinin qırıqlığı.

**İdeal** - uzaq proqnoz, bəzən xülya.

**Davranış imperativi** - etnik kollektivin fərdə münasibətinin ideal prinsipi; bu prinsipin etnosun davranış stereotipində hökmranlığı etnogenez mərhələsi, yaxud mərhələ əvəzlənməsilə ilgilidir.

**Mənfi davranış imperativi** - sistemin sadələşdirilməsinə can atmaq.

**Müsbət davranış imperativi** - sistemin mürəkkəbləşdirilməsinə can atmaq.

**İnstinkt impulsu** - bax: instinktiv davranış impulsu.

**İnstinktiv davranış impulsu (instinkt)** - şəxsi və övü qorunağa yönələn anadangəlmə davranış impulsu.

**Şüur impulsu** - həyata keçirilməsi üçün (attraktivlikdən fərqli olaraq) dərrakə və iradə tələb edən xüdpəsəndlik.

**İnkubasiya dövrü** - yüksəliş mərhələsinin passionar təkan, yaxud genetik dreyfdən (onların başlanğıcından) etnos yeni etnososial sistem kimi meydana çıxanadək olan hissəsi.

**Gizli inkubasiya dövrü** -inkubasiya dövrünün passionar gərginliyin artımının tarixi hadisələrin müasirlər tərəfindən qeydə alınmasına səbəb olmadığı hissəsi. [513-514]

**Açıq inkubasiya dövrü** - inkubasiya dövrünün passionar gərginliyin hadisələrin artıq müasirlər tərəfindən qeydə alınmasına səbəb olan, lakin hələ etnik divergensiya və yeni etnososial sistemin meydana çıxmasına gətirib çıxarmayan hissəsi.

**Həqiqilik** - müşahidə edilən faktların verilmiş cəminə tam müvafiq mühakimə. Burada xəta mümkün həddən kənara çıxmır.

**Tarixi tale** - hadisələrin onların daxili məntiqi ilə bir-birinə təsadüfi bağlılığı olan zənciri.

**Antropogen landşaftlar tarixi** -cəmiyyətlə təbiətin etnik sistemin mexanizmi vasitəsilə qarşılıqlı ilişkiləri tarixi.

**Komplimentarlıq** - müsbət (mənfi) - fərdlərin "özününkülər" və "özgələr" kimi fərqləndirən qeyri-şüuri qarşılıqlı rəğbət (nifrət) hissi.

**Konviksiya** - eyni xarakterli məişət və ailə əlaqələrinin birləşdirdiyi fərdlər qrupu, etnik ierarxiyanın ən aşağı taksonu.

**Konsorsiya** - tarixi talenin çox vaxt müvəqqəti olaraq tarixi tale tərəfindən birləşdirilməsi.

**Superetnosda kostellyasiya** - bir passionar təkandan təşəkkül tapma nəticəsində bir superetnos daxilində etnosların inkişafında inkişaf meyllərinin oxşarlığı.

**Kseniya (hərfən: qonaq qadın)** - simbioz variantı. Bu zaman başqa etnosun nümayəndələrinin kiçik qrupu aborigenlər arasında yaşayır və onlara qarışmır.

**Hadisələrin məntiqi** - hadisələr arasında onların özlərinin sonrakı gedişini determinə edən səbəb-nəticə ilişkiləri.

**Yalan** - həqiqətin bilərəkdən təhrifi. [514-515]

**İnkişaf məkanı, yaxud etnosun vətəni** - etnosun sistem kimi ilk dəfə formalaşdığı landşaftın elementlərinin təkrarsız uyuşması.

**Dünyanı hiss etmə** - vakuumdan əks olunan passionarlıq impulsunun (biokiməvi enerji) şüur tərəfindən qeydə alınan hərəkəti. İdeal mücərrəd dəyərlər və maddi aləmə münasibətlə ifadə olunur.

**Dünyanı mənfi hiss etmə** - maddi aləmə sistemi sadələşdirməyə meyldə ifadə olunan münasibət.

Dünyanı müsbət dərk etmə - maddi aləmə sistemi mürəkkəbləşdirməyə meyldə ifadə olunan münasibət.

**Etnosun şəbəkəvariliyi** - daxili strukturun etnik birliyi dəstəkləmək üçün zəruri olan qeri-yekcinsliyi.

**Passeizm (köhnəpərəstlik)** - zamanın keçmişin yeganə obektiv reallıq kimi qavranıldığı dərki.

**Passionarilər** - passionar davranış impulsu özünümühafizə instinkti impulsundan yüksək olan fərdlər.

**Passionar induksiya** - passionarilər olan yerdə harmonik adlar və subpas-sionarilərin davranışının passionar sahənin təsiri altında transformasiyası.

**Passionar gərginlik** - bax: Etnik sistemin passionar gərginlik səviyyəsi.

**Passionar sahə** - biokimyəvi enerji-passionarlıqla şərtlənən sahə

**Passionarlıq davranış xarakteristikası kimi** - canlı maddə biokiməvi enerjisinin artıqlığının çox vaxt xəyali olan məqsəd naminə fədakarlıq doğuran effekti. [515-516]

**Passionarlıq enerji kimi** -canlı maddə biokimyəvi enerjisinin instinkt vektoruna əks olan və həddən artıq böyük gərginliyə duruş gətirmək qabiliyyətini təyinləyən artıqlığı.

**Passionar impuls** - bax: Davranışın passionar impulsu.

**Davranışın passionar impulsu, yaxud passionar impuls** - şəxsi və növ özünümühafizə instinktinin əleyhinə yönəlmiş davranış impulsu.

**Passionar əlamət** - fərdin xarici mühitdən daha artıq biokiməvi enerji mənimsəməsini və bu enerjini iş şəklində qaytarmasını şərtləndirən resessiv genetik əlamət.

**Passionar təkan** -populyasiada passionar əlamətin meydana çıxmasına səbəb olan və bu və ya digər bölgədə yeni etnik sistemlərin yaranmasına səbəb olan mikromutasiya.

**Persistentlər (sinonimləri-izolyantlar, təcridolunanlar, sükunətdə olan etnoslar, qalıq etnoslar)** - Etnik homeostazda olan etnik sistemlər.
Araşdırmada sadalanan terminlər sinonimlər kimi işlənib.

**Populyasiya** -bir neçə nəslin həyatı ərzində müəyən ərazidə məskunlaşan və onun hüdudlarında sərbəst cütləşən fərdlər məcmusu.

**Etnologiyada qeyri-müəyənlik prinsipi** - hadisələrin ardıcıllığını izləyərkən müşahidəçinin imkanlarının obektiv məhdudlaşdırılması. Onları iki - ya sosial, ya da etnik (təbii) baxımdan təsvir etmək imkanı verir.

**Başlanğıc məqamı (ani)** - passionar təkanın mütləq zaman şkalasında diaxronik şkala üçün "0" nöqtəsi olan anı. [516-517]

**Etnosferin rəngarəngliyi** - passionar təkanların tarixi zamana daxil etdikləri enerji potensiallarının qeyri-bərabərliyi.

**Potensialların təmas fərqliliyi** - iki və daha artıq superetnosun təması zamanı yaranan passionarlıq (biokimyəvi enerji) fərqliliyi.

**Dərrakə** - imkan olduqda müstəqil reaksiya seçə bilmək qabiliyyəti.

**Etnik sahə ritmi** - etnik sahənin etnik sistemin davraış stereotipi vasitəsilə uyğunlaşdığı titrəyiş tezliyi.

**Etnosun özü-özünü nizamlaması** - etnik sistemin mövcudluğunu və mühitə uyğunlaşmasını biokimyəvi enerjinin - passionarlığın mümkün olan ən az sərfi ilə təmin edən istiqamətdə inkişaf edə bilmək qabiliyyəti.

**Həddən artıq böyük gərgilik** - mühitin aqreqat halını pozmaq üçün zəruri və kifayət olan məqsədyönlü səy.

**Siqnal irsilik** -vərdişlərin şərti təqlid refleksi vasitəsilə öyrədilmə yolu ilə xələflərə ötürülməsi. Davranış stereotipini uyğunlaşmanın ali forması kimi formalaşdırır.

**Simbioz** - iki və daha artıq etnosun bir bölgədə yanaşı yaşaması. Bu zaman hər etnosun öz guşəsi var.

**Sapınma, yaxud təmasın nəticəsi** - xarici təsir nəticəsində etnogenez prosesinin proqramlaşdırılmış gedişinin pozulması.

**Hadisə** - sistem ilişkilərinin qırılması.

**Ədalət** - əxlaq və etikaya müvafiqlik.

**Qocalma** - etnik sistemdə fərdi və etnik səviyyələrdə passionar təkanın ətalətinin kayb edilməsi prosesi. [517-518]

**Zamanı sükunət duyum** - bir reallıq kimi zamana qarşı etinasız olmaqla qavrama.

**Davranış stereotipi** - etnik sistem üzvlərinin zamanın gedişilə ilgili dəyişən davranış stereotipləri kompleksi. Siqnal irsiyyət vasitəsilə ötürülür.

**Etnosun davranış stereotipinin strukturu** - a) etnik kollektiv və fərd, b) fərdlərin öz aralarında, c) subetnosların öz aralarında, ç) etnosla subetnoslar arasında qarşılıqlı münasibətlərin ciddi təyinlənmiş norması.

**Subpassionarilər** - passionar impulsu özünümühafizə impulsundan az olan fərdlər.

**Subetnos** - etnos strukturunun elementi olan etnik sistem.

**Antropogen susseksiya** - uyğunlaşmaqda olan etnosun məskunlaşma landşaftında tədricən etdiyi dəyişiklik.

**Superetnos** - eyni vaxtda və eyni landşaft bölgəsində meydana çıxan bir neçə etnosdan ibarət etnik sistem. Tarixdə şəbəkəvari bütöv kimi təzahür edir.

**Mədəniyyət ənənəsi** - zaman keçdikcə etnosdan etnosa ötürülən bilik və təsəvvürlər məcmusu.

**Sadələşmə** - etnik sistemdə sistem ilişkilərinin sıxlığının azalması.

**Sistemin passionar gərginliyinin səviyyəsi, yaxud passionar gərginlik** - etnik sistemdə mövcud olan passionarlıq miqdarının etnik sistemi təşkil edən fərdlərin sayına bölünməsi.

**Etnik təmas səviyyəsi** - təmasda olan sistemlərin etnik iyerarxiyadakı dərəcələri [518-519]

**Mürəkkəbləşmə** - etnik sistemdə sistem ilişkilərinin sıxlığının artması

**Akmatik mərhələ** - etnik sistemdə passionar gərginliyin yüksəliş mərhələsindən sonra bu sistem üçün mümkün olan ən yüksək passionarlıq səviyyəsində titrəyişləri.

**Ətalət mərhələsi** - çat mərhələsindən sonra etnik sistemin passionar gərginliyinin aramla azalması.

**Çat mərhələsi** - akmatik mərhələdən sonra passionar gərginlik səviyyəsinin etnik sahənin parçalanması ilə müşayiət olunan kəskin azalması.

**Xatirə (memorial) mərhələsi** - etnosun cəhalət mərhələsindən sonrakı durumu. Bu zaman onun ayrı-ayrı nümayəndələri mədəni ənənələri qoruyub saxlayır.

**Cəhalət (obskurasiya) mərhələsi** - passionar gərginliyin homeostaz səviyyəsindən aşağı düşməsi. Ya etnosun bir sistem kimi yox olması, ya da qalığa çevrilməsilə müşayiət edilir.

**Etnogenez mərhələsi** - sistemin passionar gərginliyinin hər biri davranış imperativinin səviyyələr məcmusu üçün vahid olan davranış stereotipində hökmranlığı təyinləən səviyyələrinin məcmusu.

**Yüksəliş mərhələsi** - passionar təkan, yaxud genetik dreyf nəticəsində sistemin passionar gərginlik səviyyəsinin sabit artım dövrü.

**Futurizm** - gələcək yeganə obyektiv reallıq kimi qavranılan zaman duyumu.

**Ximera** - iki və daha artıq superetnik baxımdan yabançı etnosun bir ekoloji sığınacaqda yanaşı yaşaması. [519-520]

**Canlı maddənin biokimyəvi enerjisi** - canlı orqanizmlərin ətraf mühitdən udduqları sərbəst enerji.

**Entropik proses** - enerjinin qarşısıalınmaz itirilmə prosesi.

**Antieqoist (altruist) etika** - fərddə etnik kollektivin mənafelərini onun öz mənafelərindən üstün tutan etika.

**Eqoist (xudpəsənd) etika** - fərd və onun ailəsinin mənafelərinin etnik kollektivin mənafelərindən üstün olduğu etika.

**Etnik diaqnozlaşdırma** -etnosları davranış stereotipi və bu və ya digər etnik ənənəyə mənsubiyyətə görə fərqləndirmə üsulu.

**Etnik dominant** - etnogenez prosesinin başlanğıcdakı etnomədəni rəngarəngliyinin məqsədyönlü yeknəsəkliyə keçməsini şərtləndirən hadisə, yaxud hadisələr kompleksi (dini, ideoloji, hərbi, məişət).

**Etnik iyerarxiya** -etnogenez prosesində fərqli taksonomik səviyyələrə məxsus (dərəcələrə) etnik sistemlərin qarşılıqlı dinamik tabeçiliyi.

**Etnik tarix** -hadisələri mənbələrdə qeydə alınan dövrlər ərzində etnogenezlər və etnik təmasların funksiyası.

**Etnik regenerasiya** - sarsıntılardan sonra etnik strukturun bərpası.

**Etnik ənənə** - davranış stereotiplərinin şərti refleks mexanizmlə ötürülən toplusu.

**Etnik sahə baxımından etnik ilişkilər** - etnik sahələrin titrəyişlərinin interferensiyası. [520-521]

**Etnik homeostaz (homeostatik səviyyə, etnosun sükunət halı)** - etnik sistemin dayanıqlı durumu. Bu zaman biokiməvi enerji - passionarlıq titrəyişləri məhdud hüdudlarda baş verir, etnolandşaft tarazlığı və etnogenez mərhələlərinin olmamasını təyinləyir.

**Etnik təmas (ilişki)** - etnik iyerarxiyanın eyni, yaxud müxtəlif dərəcələrinə mənsub iki və daha artıq etnik sistemin qarşılıqlı əlaqə prosesi.

**Etnik substrat** -sonralar passionar təkan nəticəsində yeni etnosa daxil olan ilkin etnik kimponentlər (iki və daha artıq).

**Etnik sahə** - etnik sistem üzvlərinin passionar sahə əsasında meydana çıxan davranış və artraktivlik sahəsi.

**Etnogenez** - etnik sistemin medana çıxmasından, entropik passionarlığı itirmə prosesinin təsiri altında yox olmasına qədər davam edən proses.

**Etnik sahə baxımından etnogenez** - etnik sahənin titrəyiş hərəkətlərinin dinamikası.

**Etnologiya** - Yerin etnosferinin təşəkkülünü tarixi dövrdə etnogenez proseslərinin nəticəsi kimi araşdıran coğrafi elm.

**Etnos** - insanların orijinal davranış stereotipi əsasında şəkildə formalaşan kollektivi. Komplimentarlıq duyumundan çıxış edərək, özünü digər belə kollektivlərə qarşı qoyan enerji sistemi (strukturu) kimi mövcud olur.

**Etnosfer** - Yerin etnik baxımdan şəbəkəvari olan antroposferdən ibarət örtüyü. Yer üzündəki bütün etnosenozların məcmusundan formalaşır. [521-522]

**Etnosenoz** - biogeosenoz. Müəyyən etnosun uyğunlaşma vasitəsilə ifadə olunan inkişafı onun (biosenozun) hüdudlarında baş verir.

**Hadisələr** - biosferin insanın və etnik kollektivin davranışına təsirinin nəticələri. [522-523]

## QEYDLƏR

## GİRİŞ

1. “Müasir insanın simasında bioloji təkamül prosesi elə növ xassələri sahibi yaradıb ki, bunlar təkamülün sonrakı sönməsinə aparıb çıxarıb” (Roqinskiy Y.Y., Levin M.Q. Antropologiyanın əsasları. M., 1955. s.314); “Təbii seçimin olmaması təkamül amillərindən birinin olmamasına bərabərdir… və insanın bioloji təkamülü dayanmalı idi” (Bistrov A.P. İnsanın keçmişi, bu günü, gələcəyi. L., 1957. s.299); Debets Q.F. Müasir növ insanın quruluşunda dəyişikliklərin bəzi istiqamətləri barədə8 // Sovetskaya etnoqrafia. 1961, №2, s.16.
2. Kalesnik S.V. 1) “Vahid” coğrafiya barədə yeni diskussiyanın bəzi yekunları // İzvestiya VQO. 1965, №3. s.209-221; 2) Coğrafi mühit barədə bir neçə söz // Yenə orada. 1966, №3, s.247-248; 3) Coğrafi mühitin problemləri // Vestnik Leninqradskoqo universiteta. 1968, №12; 4) Yerin ümumi coğrafi qanunauyğunluqları. M., 1970.
3. Vernadski V.İ. Yerin biosferinin və onun əhatəsinin kimyəvi quruluşu. M., 1965, s.283-285.
4. Marks K., Engels F. Əsərləri. II nəşr, s.42, s.124.
5. Vernadski V.İ. Seçilmiş əsərləri VI cilddə. c.V. Biosfer. M., L., 1960. s.24-31.
6. Təbiət və cəmiyyət: Məqalələr toplusu // İ.P.Gerasimovun və b. redaktəsilə. M., 1968, 1969. Anuçin V.A. Coğrafiyanın nəzəri problemləri. M. 1972.
7. Tokarev S.A. Etnik ortaqlıqlar tipləri problemi. Voprosı filosofii. 1964. №2; Aqaev A.Q. Kiçik xalq sosial ortaqlıq kimi// Voprosı filosofii. 1965, №2; Kozlov V.İ. Etnik ortaqlıq anlamı barədə // Sovetskaya etnoqrafiya. 1967, №2; Çeboksarov N.N. Etnik ortaqlıqların tipologiyası problemləri sovet alimlərinin araşdırmalarında // Sovetskaya etnoqrafiya. 1967, №4. Bromley Y.V. 1) “Etnos” anlayışının səciyyələndirilməsinə dair // Rasi i narodı. Sovremennıe etniçeskie i rasovie problemı: İllik dərgi // Məsul redaktor İ.R.Qriquleviç. M., 1971; 2) Etnik mahiyətlərin tipologiyası təcrübəsi // Sovetskaya etnoqrafiya. 1972. №5.
8. Artamonov M.İ. Yenə “qəhrəman” və “kütlə” // Priroda. 1971, №2; s.75-77. [523-524]

## BİRİNCİ HİSSƏ

1. Xalq, kiçik xalq, millət, qəbilə, tayfa ittifaqı - bütün bu anlayışlar etnologiyada etnos termini ilə işarə olunur ki, bu kitab da onun açıqlanmasına həsr edilib. İstənilən terminin anlamı barədə razılaşmaq asan olsa da, bu araşdırmanın ilkin mövqeyindən savayı bir şey vermir. Termini açıqlamaq çətindir, çünki bu, fenomenin təbiət və tarixdəki yerini göstərmək deməkdir. Məndən soruşanda ki, “Sadəcə söylə”, cavab verirəm: “Bəs işıq nədir? Sadəcə söyləyin”. Hələ ki, heç kim cavab verə bilməyib. Bu səbəbdən də oxucudan təhkiyənin mütəkkəbliyinə görə üzr istəyir və kitabı heç nə ötürmədən əvvəldən axıradək oxumasını xahiş edirəm.
2. Lokvud D. Mən - aborigenəm. M., 1971. s.142-145.
3. Fesunenko İ. Təsbeh və Geyger sayqacı ilə // Vokruq sveta. 1972, №3, s.14-17.
4. Biosfer - elmə V.İ.Vernadski tərəfindən daxil edilən termin. Yerin qatlarından biridir. Canlı orqanizmlər toplusundan savayı, onların keçmiş həyatı fəaliyyətinin bütün bəhrələrini: torpaqları, çöküntü laylarını, atmosferin sərbəst oksigenini ehtiva edir. Beləliklə, etnogenezin biosferin biokimyəvi prosesləri ilə ilişkisinin açıqlanması bir sıra opponentlərini təxmin etdikləri kimi, “biologizm” yox, daha çox “coğrafiyaçılıqdır”. Hərçənd ki, bu “yarlıq” da heç də yerinə düşmür. Axı, Yer səthinin üzərində olan hər şey hər hansı bir halda ya fiziki, ya sosial, ya da tarixi coğrafiya çevrəsinə daxildir.
5. Vernadski V.İ. Yerin biosferi və onun əhatəsinin kimyəvi quruluşu. M., 1965, s.273.
6. Vernadski V.İ. Seçilmiş əsərləri 6 cilddə. c.V: Biosfer. M., L., 1960, s.19.
7. Malinovski A.A.Yaradıcı biologiyanın yolu. M., 1969, s.7.
8. Qumilyov L.N. 1) Xəzəristan və Kaspi // Vesti Leninqradskoqo universiteta. 1964. №6, s.95; 2) Xəzəristan və Terek // Yenə orada. №24, s.78.
9. Daha ətraflı məlumat üçün bax: Qumilyov L.N. 1) Aralıq Asiya köçəri mədəniyyətinin qaynaqları // Narodı Azii i Afriki. 1966. №4, s.85-94; 2) Avrasiyanın çöl zonası xalqlarının tarixində iqlim dəyişikliklərinin rolu // İstoriya SSSR. 1967. №1, s.53-66; 3) İqlim dəyişiklikləri və köçərilərin miqrasiyaları // Priroda. 1972. №4, s.44-52.
10. Selye H. From Dream to Diskvery. New Üork, 1964. [524-525]
11. Vernadski V.İ. Seçilmiş əsərləri. c.V. s.19.
12. Kalesnik S.V. Ümumi torpaq mülkiyyətçiliyinin əsasları. M., 1955, s.412-41.
13. Bax: Marks K., Engels F7 Əsərləri. 2-ci nəşr, c.21, s.176.
14. Boltin İ.N. C-b Leklerkin Rusiyanın qədim və müasir tarixinə general-mayor ivan Boltinin qeydləri: 2 cilddə. C.2. SPb. 1788, s.20.
15. Vernadski V.İ. Seçilmiş əsərləri, c.V.

16. Berq L.S. Homogenez. P.q. 1922. s.180-181.
17. Kalesnik S.V. Ümumi torpaq mülkiyyətçiliyinin əsasları. s.455.
18. Savitski P.N. Rusiyaın coğrafi xüsusiyyətləri // Praqa, 1927, s.30-31.
19. Plexanov G.V. Tarixə dair bir fikir. // Əsərləri: 24 cilddə, c.8. M., L., 1923, s.127.
20. Hegel F. Tarixin fəlsəfəsi // Əsərləri, 14 cilddə, c.8. M.1935, s.72.
21. Yatsunski V.K. Tarixi coğrafiya. M., 1955. s.3.
22. Berq L.S. İqlim və həyat. M., 1974.
23. Qrumm-Qrjimaylo Q.Y. Tarixi dövr ərzində Mərkəzi Asiyada səhraların artması və otlaq və mədəni torpaqların məhvi // İzvestiya QO. 1933, c.1.
24. Berq L.S. Tarixi zamanda Xəzər dənizinin səviyyəsi: Fiziki coğrafiya üzrə oçerklər. M., -L., 1949, s.205-279; Şnitkov A.V. Xəzərin ritmi // Dokladı AN SSSR. 1954. c.94, №4.
25. Betin V.V., Preobrajenskiy Y.V. Avropada qışların sərtliyi və Baltikanın büsluluğu. L., 1962; Buçinskiy İ.Y. Tarixi dövrdə Rus düzənliyinin iqliminə dair oçerklər. L., 1957.
26. Qumilyov L.N. Xunna. M., 1960, s.59-62.
27. Berq L.S. İqlim və həyat.
28. Merpert N.Y., Paşuto V.İ. Çerepnin L.V. Çingizxan və onun irsi // İstoriya SSSR, 1962, №5, s.56.
29. Qrumm-Qrjimaylo Q.Y. Tarixi dövr ərzində Mərkəzi Asiyada səhraların artması və otlaq və mədəni torpaqların məhvi.
30. Rudenko S.İ., Qumilyov L.N. P.K.Kozlovun arxeoloji araşdırmaları tarixi coğrafiya baxımından // İzvestiya VQO 1966, vıpusk 3, s.244.
31. Qumilyov L.N. 1) Qədimdə Avrasiyanın rütubətləşməsinin heteroxronluğu (Landşaft və etnos.IV) // Vestnik Leninqr. Un-teta. 1966, №6, s.64-71; 2) Orta əsrlərdə Avrasiyanın rütubətləşməsinin [525-526] heteroxronluğu (Landşaft və etnos.V) // vestnik Leninqr. Un-ta, 1966, №18, s.81-90.
32. Çin imperatoru Tsyan Lun oyratların kütləvi qırğınını törətdi ki, bu zaman mancurlar heç kimə aman vermir, qadınları, uşaqları, qocaları qılıncdan keçirirdilər. Rəsmi Çin tarixi sadə bir arayışla kifayətləndi: “Milyondan çox oyrat öldürüldü”. Möhtəşəm bir olay rəsmiyyət axarında itib etdi. Məgər, bircə bu olaymı?! Təəssüf ki, bəşər tarixi bizə təfərrüatları fərqli şəkildə olan bilgilər şəklində bəllidir. Bu isə coğrafiyaçının bir planşetdə 1:200 000, digərində isə 1:100 miqyaslı xəritələrə malik olmasına bərabərdir.
33. Lerua Ladyuri E. 1000 il ərzində iqlim tarixi. M., 1971, s.14-15.
34. “Miqrasia, yalnız mürəkkəb insani niyyətlərə və hərəkətverici qüvvələrə müvafiqdir. Aclıq dənli bitkilər istehsalı üçün son dərəcə əlverişsiz şərait yaranarkən baş verir və həmin şəraiti a priori açıqlamaq heç vaxt mümkün olmur, çünki söhbət … bəzən iqlim baxımından qısamüddətli və önəmsiz olan meteoroloji olaylardan gedə bilər” (yenə orada, s.17).
35. Bax: Marks K., Engels F. Əsərləri, c.3, s.16.
36. Semevski B.N. Coğrafiyanın metodoloji əsasları // Vestnik Leninqradskoqo universiteta. 1968. №24, s.58-60; Kalesnik S.V. Coğrafi mühitin problemləri // Yenə orada. 1968, №12, s.94.
37. Kozlov V.İ., Pokşişevski V.V. Etnoqrafiya və coğrafiya // Sovetskaya etnoqrafiya. 1973, №1, s.9-10.
38. Kon İ.S. Millətlərin inkişaf dialektikası. Millətlərin Lenin nəzəriyyəsi və müasir kapitalizm // Novıy mir. 1970. №3, səh. 133-149.
39. Kozlov V.İ., Pokşişevski V.V. Etnoqrafiya və coğrafiya. s.3-13.
40. Andrianov B.V., Çeboksarov N.N. Təsərrüfat-mədəni tiplər və onların xəritələşdirilməsi problemləri // Sovetskaya etnoqrafiya. 1972, №5.
41. Roqinski Y.Y., Levin M.Q. Antropologiyanın əsasları. M., 1955, s.325-329.
42. Bax: Timofeyev-Resoski N.V. Mikrotəkamül. Elementar olaylar. Mikrotəkamül prosesinin material və amilləri?? Botaniçeskiy jurnal. 1958, c.43, №3.
43. Bromley Y.V. Etnik ortaqlıqların tipikləşdirilməsi təcrübəsi // Sovetskaya etnoqrafiya. 1972, №5, s.61. - Görünür, elə həmin dərgidə bir ildən sonra “etnos” terminınə dair daha bir filoloji [526-527] araşdırmanın çap olunması təsadüfi deyil. Araşdırmada həmin terminin L.N.Qumilyov və Y.V.Bromleydəki anlamı əsaslandırılır (bax: Poplinskiy Y.K. “Etnos” termininin meydana çıxması tarixinə dair // Sovetskaya etnoqrafiya. 1973. №1).
44. Kozlov V.İ., Pokşişevskiy V.V. Etnoqrafiya və coğrafiya. s.10.
45. Alekseyev V.P. Əcdadların sorağında. M., 1972.
46. Qumilyov L.N. Qədim türklər. M., 1967, s.359-360.
47. Kozlov V.İ. Xalqların sayının dinamikası. M., 1969, s.56.
48. Tokarev S.A. Etnik ümumiliklərin tipləri problemi // Voprosı filosofii. 1964, №11, s.52-53. Həmçinin bax: Aqayev A.Q. Kiçik xalq sosial ümumilik kimi // Voprosı filosofii, 1965, №11, s.30.
49. Murzayev E.M. Sintszyanın təbiəti və Mərkəzi asiya səhralarının formalaşması. M., 1968, s.185-190.

50. Qumilyov L.N. Hotanın terrakot (gil) meymun fiqurları (təfsir təcrübəsi) // Soobşeniya Ermitaja. 1959, c.XVI, .55-57.
51. Bu yerlərin gözəl təsviri üçün bax: Murzayev E.M. Macəravə fantastikasız səyahətlər. M., 19626 s.52-58.
52. Biçurin N.Y. (İauinf). Şərqi və Aralıq Asiyanın tarixi coğrafiyası üzrə bilgilər toplusu / Tərtibçiləri: L.N.Qumilyov və M.F.Xvan. Çeboksari, 1960, s.558.
53. Murzayev E.M. Macəra və fantastikasız səyahətlər. s.113-129.
54. Daha ətraflı bax: Qumilyov L.N. Qədim türklər. s.381-386.
55. Marko Polonun kitabı / Məsul redaktor İ.P.Maqidoviç. M., L., 1956, s.81-82.
56. Şirokoqorov S.M. Etnos: Etnik və etnoqrafik olayların əsas prinsiplərinin araşdırılması // İzvestiya vostoçnoqo fakulteta Dalnevostoçnoqo universiteta (Şanxay). 1923. XVIII. C.I, Ön söz. s.4-6.
57. Yenə orada. s.28.
58. Yenə orada. s.122.
59. Yenə orada. s.124-126.
60. Toynbee A.İ. Study of History // Abridgement by D. Somervell, London; New Üork; Toronto, 1946.
61. Şirokoqorov S.M. Etnos… s.126-129.
62. Yenə orada. s.100.
63. Yenə orada. [527-528]
64. Yenə orada, s.118.
65. Yenə orada, s.119.
66. Kozlov V. Etnos nədir, axı? // Priroda. 1971, №2, s.74.
67. Artamonov M.İ. Yenə "qəhrəmanlar" və "kütlə" // Yenə orada, s.77.

## İKİNCİ HİSSƏ

1. Bu tezisin çeşidlənməsinin zəruriliyi geniş yayılan belə bir fikirlə şərtlənir ki, guya sosial amillərdən biri kimi etnik şüur etnosun yalnız varlığını yox, meydana çıxmasını da təyin edir (Bromley .V. Etnos və etnoqrafiya. M., s.121-123). Özünüdərk özünüadlandırmada büruzə çıxır. Deməli, hər ikisinin uyğun gəlməməsi sübuta yetirildiyi halda, onların funksional ilişkisi məsələsi də ortadan götürüləcək.
2. Daha ətraflı bax: Qumilyov L.N. Qədim türklər. M., 1967.
3. Qrumm-Qrjimaylo Q.Y. Şərq və qərb monqollarına parçalanma nə vaxt və hansı səbəbə baş verdi / İRQO. 1933, C.XVI. Pir.2.
4. Niknov V.A. Etnonimiya // Etnonimlər/ Məsul redaktor. V.A.Nikonov. M., 1970. s.10-11.
5. Şennikov A.A. Şimali Qara dəniz ətrafı noqaylarının yaşayış evləri // Slavyano-russkaya etnoqrafiya / Otv. redaktor İ.N.Uxanova. L., 1973, s.47-52.
6. Qumilyov L.N. Uydurulmuş çarlıq axtarışları. M., 1970, s.311-313.
7. Müqayisə et: Rıbakov B.A7 1) Özünüaldatmanın dəf olunması // Voprosı istorii. 1970. №3; 2) "İqor polku haqqında dastan" və onun müasirləri. M., 1971, s.28; Qumilyov L.N. Bədii ədəbiyat əsəri tarixi mənbə ola bilərmi? // Russkaya literatura. 1972, №1.
8. Biz daxili məntiqlərilə ümumiləşdirilmiş şəkildə bir-birilə ilgili olan olaylar zəncirini tarixi tale adlandırırıq.
9. İts R.F. Etnoqrafiyaya giriş. L., 1974, s.50.
10. Marks K., Engels F. Əsərlərinin 2-ci nəşri, C.I, s.313.
11. Yenə orada. C.13, s.20.
12. Yenə orada, s.37.
13. K.Marks və F.Engelsin arxivi. C.VI. M., 1939, s.356 və ardı. [528-529]
14. Tyerri O. Seçilmiş əsərləri. M., 1937, s.214.
15. Qorkiy A.M. Qarovulçu // Əsərləri: 30 cilddə. C.15, M., 1951, s.81.
16. Toynbee A.J. Study of History // Abr. By D.Somervell, London; New Üork; Toronto, 1946, p.120-121.
17. Qumilyov L.N. Etnogenez və etnosfer // Priroda. 1970. №1, s.46-47.
18. O zamanlar "reneqat" sözü təhqiramiz məna daşımırdı - düşmənin qulluğuna keçmək adi bir hal idi. Amma bir superetnos daxilində keçidlər heç xəyanət sayılmasa da, müsəlmanların tərəfinə keçmək reneqatı etnik mənsubiyyətindən məhrum edirdi.
19. Smirnov V.D. Küçübəy Gümürcinski və XVII əsrin digər osmanlı yazarları Türkiyənin tənəzzülünün səbəbləri barədə. SPb., 1873, s.266-267.
20. Bernye F. Böyük Moğol dövlətində son siyasi çevrilişlərin tarixi. M., 1936.
21. Bromley Y.V. Etnos və endohamiya // Sovetskaya etnoqrafiya, 1969, №6, s.84-91.
22. Biçurin N.Y. (iakinf). Şərq və Aralıq Asiyanın tarixi coğrafiyasına dair bilgilər toplusu // Tərt. L.N.Qumilyov, M.F.Xvan. Çeboksari, 1960, s.638.

23. XIX əsrdə Çinə tiryək gətirilməsi buna örnəkdir. Həm də əvvəlcə uyuşdurucunu ucuz qiymətə satmaqla ona tələbat yaratdılar. Xəz əvəzinə Kanada hindularına spirtli içkilər satışı da bunun eynidir.
24. Qumilyov L.N. Etnos və zaman kateqoriası // Dokladı Qeoqrafiçeskoqo obşestva SSSR. Vıpusk 5. L., 1970. s.143-157.
25. Kozin A. Məhrəm (gizli) rəvayət. M., L., 1941. s.140.
26. Konrad N.İ. Qərb və Şərq. M., 1966, s.119-149, 152-281.
27. Yaxud ilişki faktı zamanı əmsal (kibernetik anlamda). Məsələn, atanın öz oğlunun qeydinə qalma dərəcəsi.
28. Ross Eşbi U. Kibernetikaya giriş. M., 1959, s.13.
29. Yenə orada. s.18.
30. Yenə orada. s.13.
31. Yenə orada. s.21.
32. Yenə orada. s.14.
33. Bertalanfi L. Sistemlərin ümumi nəzəriyyəsi - tənqidi icmal // İssledovaniya po obşey teorii sistem // Pod redaksiey V.N.Sadovskoqo, E.Q.Yudina. M., 1969, s.28. [529-530]
34. Sadovski V.N., Yudin E.Q. Sistemlərin ümumi nəzəriyyəsinin vəzifələri, üsulları və tətbiqi // Yenə orada. s.12.
35. Malinovski A.A. Sistemlərin quruluşunun ümumi məsələləri və onların biologiya üçün əhəmiyyəti / Problemı metodoloqii sistemnoqo issledovaniya / Pod red. İ.V.Blauberqa i dr. M., 1970, s.145-150.
36. Raşevski N. Orqanizmik çoxluqlar. Bioloji və sosial orqanizmlərin ümumi nəzəriyyəsinə dair oçerk. // İssledovaniya po obşey teorii sistem. M., 1969, s.445.
37. Bu nə bioloji, nə də yalnız sosial sistem deyil, çünki "bioloji və sosial səviyyələrin eynilikləri əsaslandırılmayıb" (Malinovskiy A.A. Ümumi məsələlər. s.182).
38. Sviridov M.N. Kosmik elmin ön xəttində // Priroda. 1966, №8, s.112.
39. İtaliya tarixi: 3 cilddə. C.I. Pod.red. V.D.Skazkina. M., 1970, s.233.
40. Sokolov N.P. Venetsiya qvelflərlə gibellinlər arasında // Voprosı istorii. 1975, №9, s.142-153.
41. Tibbi proses barədə belə söyləyərkən biz antropomorfizmə yol vermir, sadəcə, "çay özünə yataq açdı və döngə yaratdı" tipli alışdığımız bir ifadə işlədirik.
42. Tyerri O. Seçilmiş əsərləri. s.244-247.
43. XIII əsrdə Yaxın Şərqdə bütün qərbi avropalıları "firəng" adlandırırdılar.
44. Bertels A.F. Nəsir-i Xosrov və ismailìlik. M., 1959, s.202-247.
45. Hazırda Yaxın Şərqin ərəb dilində danışan əhalisini ərəblər adlandırırlar. Bu doğru deyil. Suriya, İran, Şimali Afrika əhalisinin çox hissəsi təmas bölgəsində qədim etnosların qarışığıdır. Əsl ərəblərin xələfləri Səudiyyə Ərəbistanının bədəviləridir.
46. Steblin-Kamenski M.İ. İslandiya mədəniyyəti. L., 1967.
47. Marks K., Engels F. Əsərlərinin 2-ci nəşri. C.20, s.610.
48. Parfiya və Roma imperiyasının Reyn sərhəddində sığınacaq tapan fərarilər xilas oldular.
49. Neru C. Hindistanın kəşfi. M., 1955, s.53.
50. Şibutani T. Sosial psixologiya. M., 1969, s.28.
51. Yenə orada. s.32.
52. Yenə orada. s.42. [530-531]
53. Bunlardan ən mürəkkəb və önəmli olanına xüsusi araşdırma həsr olunub (bax: Qumilyov L.N. Etnos və zaman kateqoriyası // Dokladı otdeleniy i komissii VQO. Vıpusk 15, 1970).
54. Holden C.B.S. Təkamül amilləri. M., L., 1935, s.71 və ardı.
55. Yenə orada. - Kibernetika metodikasından yararlanaraq, eyni qənaətə gəlmək olar. "Birrəqəmli dəyişiklikliyə uğradılan çoxluqda rəngarənglik arta bilməz, adətən, azalacaq" (Ross Eşbi U. Kibernetikaya giriş. s.193).
56. "Altruizm" və "eqoizm" ("xudbinlik") anlayışlarını daxil etməklə biz heç də onlara kefiyət dəyərləndirməsi vermirik. "Yaxşı" və "pis"in onlara tamamilə heç bir aidiyatı yoxdur və sonrakı hekayət də buna dələlət edir. Adət etdiyimiz sözlərin elmi terminlər kimi işlənməsi yalnız oxucuya konsepsiyanı daha asan anlamaqda yardımçı olmaq üçündür. "Altruizmi" "antieqoizm" adlandırmaq daha dəqiq olar.
57. Riçkov Y.Q. Təcrid olunmuş populyasiyaların antropologiya və genetikası (Pamirin qədim təcridolunmuşları). M., 1969.
58. Bertalanfi L. Ümumi sistem nəzəriyyəsi. s.65-68.
59. Qərarlaşmış olsa da, problemin həlli və anlaşılması baxımından heç bir perspektivi olmayan çox ümumi bir termin.
60. "Şəbəkəvarilik" antroposferdə etnik əlamətə görə struktur parçalanmasının varlığını nəzərdə tutur.
61. İts R.F. Etnoqrafiyaya giriş. s.43-46.

62. Xüsusi təsvirə ehtiyacı olanlar kimi, Amerika, Okeaniya və Afrikanın Saxaradan cənuba doğru olan hissəsi nəzərdən keçirilmir.
63. Hindistan yarımadası ərazisində ən qədim dövrlərdən bəri superetnik bütövlərin meydana çıxdığı yarımkontinentdir. Müasir bütöv VIII əsrdə racputlar tərəfindən yaradılan superetnosun etnogenezinin xatirə mərhələsidir. “Rasput inqilabı” VII əsrdə ərəb-islam, tabfac (Çindəki Tan sülaləsi) inqilabları və qədim Tibetin yüksəlişilə eyni vaxtda baş vermişdir (bax: Qumilyov L.N. Qədim Tiöetin əzəməti və süqutu / Stranı i narodı Vostoka. M., 1968, s.153-182). Müsəlman və ingilis təcavüzləri çoxlu insan həyatına bais olan kənar təsirlər olsa da, Hindistanın etnogenez prosesini pozmadılar.
64. Artıq I minillikdə keltlər Qərbdə - romalılar, Şərqi Avropada - markomanlar, çöllərdə isə sarmatlar tərəfindən istila olunmuşdular. Lakin “kelt dünyasının” başlanğıcı e.ə. X əsrdədir. [531-532] Bu zaman keltlər Şimali Qafqazdan (kimmerlər) İslandiyayadək (keltiberlər) yayılmışdılar. Superetnosu səciyyələndirməkdən ötrü yalnız məkanı deyil, zaman sərhədlərini də nəzərdən keçirmək, deməli, superetnosları təşkil edən etnosların yaşını nəzərə almaq gərəkdir. Superetnosların səciyyələndirilməsi üçün hərbi qüdrətlə yanaşı, onların genişlənmə və daralmalarının da önəmi yoxdur. Önəmli olanı yalnız etnoslararası yaxınlıq dərəcəsidir.
65. Nasonov A.N. “Rus torpağı” və qədim rus dövlətinin ərazisinin yaranması. M., 1951.
66. Qumilyov L.N. Xəzər bac-xəracı haqqında rəvayət // Russkaya literatura. 1974, №3.
67. Daha ətraflı bax: Qumilyov L.N. Xunlar Çində. M., 1974.
68. Wieger L. Textes histoririques. Hien-Hien, 1905-1907, P.1428.
69. Grousset R. L’Empire des Steppes. Paris, 1960, P.96.
70. Toynbee A.İ. Study of Histori / Abridgement by D.Somervell. London; New York; Toronto, 1946, P.260-261.
71. Bununla A.Toynbi də razıdır (bax: İbid., p.262).
72. Sitat: İbid. P.409-410.
73. Bolivar S. Seçilmiş əsərləri, M., 1983, s.83.

### ÜÇÜNCÜ HİSSƏ

1. Toynbee A.J. Study of History / Abridgement by D.Somervell. London; New Üork; Toronto, 1946. P.60 sqq.
2. Konrad N.İ. Qərb və Şərq. M., 1966. s.454.
3. Yenə orada. s.455.
4. Enə orada. s.457.
5. Konrad N.İ. 1) Quldarlıq quruluşu haqqında // Yenə orada. s.33-35; 2) Orta əsrlər tarix elmində // Yenə orada. s.89-118.
6. Yenə orada. s.454.
7. Yenə orada. s.37.
8. Yenə orada. s.455.
9. Yenə orada. s.54-88.
10. Yenə orada. s.76.
11. Yenə orada. s.33.
12. İranın Turana, yəni zərdüştiliyi qəbul etmiş oturaq arilərin div kultunu qoruyub saxlayan çöl arilərinə qarşı qoyulması ta VII əsr ərəb istilasınadək əhəmiyyətini itirməmişdi. [532-533]
13. Bromley Y.V. Etnos və etnoqrafiya. M., 1973, s.122-123.
14. Grousset R. Bilan be l’Histoire. Paris, 1946, s.103-104.
15. Kalesnik S.V. Yerin ümumi coğrafi qanunauyğunluqları. M., 1970.
16. Daha ətraflı bax: Qumilyov L.N. Şərqşünaslıq araşdırmalarında tarixi coğrafiyanın yeri // Narodı Azii i Afriki. 1970, №1, s.85-94.
17. Qumilyov L.N. Xəzəristanın kəşfi. M., 1966.
18. Vatsunski V.K. Tarixi coğrafiyanın predmet v vəzifələri // İstorik-marksist. 1941, №5(93), s.21.
19. Yenə orada. s.27.

### DÖRDÜNCÜ HİSSƏ

1. Lerua Ladyuri E. 1000-ci ildən iqlim tarixi. L., 1971.
2. Qumilyov L.N. Xəzəristanın kəşfi. M., 1966.
3. Qumilyov L.N. Qədim türklər. M., 1967, s.87-100.
4. Kozlov V.İ. Etnik tarixin bioloji-coğrafi konsepsiyasına dair // Voprosı istorii. 1974. №12, s.72.
5. Yenə orada. s.80.
6. Marks K., Engels F. Əsərlərinin 2-ci nəşri. C.37, s.394.
7. Kalesnik S.V. Ümumi torpaqşünaslığın əsasları. M., 1961, s.359.

8. Marks K., Engels F. Əsərləri, C.8. s.568.
9. Yenə orada. C.21, s.32.
10. Berq L.S. Homogenez. Pq., 1922, s.180-181.
11. Kalesnik S.V. Yerin ümumi coğrafi qanunauyğunluqları. M., 1970, s.211.
12. Kalesnik S.V. Coğrafi mühitin problemləri // Vestnik Leninqradskoqo universiteta. 1968, №12, s.91-96.
13. Budiko M.İ. Pleystosenin sonunda bəzi heyvanların qırılma səbəbləri barədə // İzvestiya AN SSSR. Seriya qeoqrafiçeskaya. 1967, №2, s.28-36.
14. Dorst J. Təbiət ölməzdən əvvəl. M., 1968, s.54-55.
15. Tyerri O. Seçilmiş əsərləri. M., 1937, s.207-208.
16. Urlanis B.S. Avropada əhali artımı. M., 1941, s.40.
17. Yenə orada. s.57.
18. K.Marks və F.Engels arxivi. C.VI. M., 1939, s.320.
19. Grousset R. Bilan de l'histoire. Paris, 1946, P.33. [533-534]
20. Diplomatiya tarixi: 5 cilddə // Pod redak. V.A.Zorina i A.A.Qromıko. C.I, M., 1959, s.269-271.
21. Berq L.S. Homogenez. s.180-181.
22. Kalesnik S.V. Ümumi torpaqşünaslığın əsasları. M., 1955, s.455.
23. Savitski P.N. Rusiyanın coğrafi xüsusiyyətləri (I). Praqa 1927, s.30-31.
24. Qrumm-Qrjimaylo Q.Y. Qərbi Monqolustan və Üryanhay diyarı: 3 cilddə. C.2. L., 1926, s.502.
25. Qribanov L.N. Qazaxıstanda şam ağacının cənub sərhədlərinin arealının dəyişməsi // Vestnik selskoxozyastvennoy nauki (Alma-Ata). 1965, №6, s.78-86.
26. Riçkov Y.Q. Təcrid olmuş populyasiyaların (Pamirin qədim təcrid olmuşları). M., 1969.
27. Sinxa N.K., Bənərci A.Ç. Hindistan tarixi. M., 1954, s.113-114.
28. Yenə orada. s.106-107.
29. Yenə orada. s.256.
30. Okladnikov A.P. Yakut ASSR tarixi: 3 cilddə. C.I, M., L., 1955.
31. Rudenko S.İ. Berinq dənizinin qədim mədəniyyəti və eskimos problemi. M., L., 1946, s.113.
32. Seybutis A.A. Paleoqrafiya, toponimika və etnogenez // İzvestiya AN SSSR. Seriya qeoqrafiçeskaya. 1974. №6, s.40-53.
33. Kozlov V.İ., Pokşişevskiy V.V. Etnoqrafiya və coğrafiya // Sovetskaya etnoqrafiya. 1973. №1, s.9-10.
34. Sauşkin Y.Q. Bir mübahisəyə dair // Vestnik Moskovskoqo universiteta. 1965, №6, s.79-82. Müq. Et: Kalesnik S.V. "Vahid" coğrafiya barəsində yeni diskussiyaların bəzi nəticələri // İzvestiya VQO. 1965, №3, s.209-211.
35. Geoxor - Yer səthinin ekoloji xassələrinə görə yekcins olan və bu xassələrinə görə qonşu sahələrdən fərqlənən sahəsi.
36. Qrum-Qrjimaylo Q.Y. Tarixi dövr ərzində Mərkəzi Asiya səhraların artımı və otlaqlarla mədəni torpaqların məhv olması // İzvestiya VQO. 1933, s.65. Vıpusk 5.
37. Morqan L.Q. Amerika yerlilərinin evləri və ev həyatı. L., 1934. s.146-163.
38. Okladnikov A.İ. Baykal ətrafının neoliti və bürünc əsri. III. (Qlazkov zamanı). M., L., 1955. s.238-239.
39. Qumilyov L.N. Xunna. M., 1960. s.147. [534-535]
40. Haloun G. Zur Üetsi Frage // Ztschr. Dtshr. Morgenland. Ges. (Liepzig). 1937. s.306.
41. Munkuyev N.S. Qədim monqollar haqqında qeydlər // Monqolo-tatarı v Azii i Yevrope / Pod red. S.L.Tixvinskoqo. M., 1970.
42. XX əsrin əvvəlində Xarici Monqolustanın əhalisi 900 000 nəfərdi, amma Daxili Monqolustanda - keçmiş Tunqus çarlığı və curcenlərin Kin imperiyasının ərazisində 3 milyon monqol məskunlaşmışdı.
43. Qumilyov L.N. Xunna. s.66.
44. Qumilyov L.N. Xunlar Çində. M., 1974. s.10-11.
45. Groussel R. Bilan de l'histoire. Paris. 1946. P. 283-285.
46. Kuryer YUNESKO. May. 1975.
47. Qumilyov L.N. Əfsanəvi çarlığın sorağında. M., 1970.
48. Qrum-Qrjimaylo Q.Y. Tarixi dövr ərzində Mərkəzi Asiyada… s.437-454.
49. Qumilyov L.N. İqlimin dəyişməsi və köçərilərin miqrasiyaları // Priroda. 1972. №4, s.44-52.
50. Qordon Ç. Ən qədim Şərq ən yeni qazıntılar işığında. M., 1956. s.44-47.
51. Yenə orada. s.67.
52. Yenə orada. s.93.
53. Yenə orada. s.179-180.
54. Yenə orada. s.191-192.
55. Qrum-Qrjimaylo Q.E. Çinlilərin Sarı çayın orta və aşağı axarları hövzəsinin yerli əhalisi saymaq olarmı // İzvestiya VQO. 1933. T.65. Vıpusk 1. s.29-30.

56. Nesteruk F.Y. Çinin su təsərrüfatı // Çin elmi və texnikası tarixindən / Otv. red. İ.V.Kuznesov i dr. M., 1955. s.6.
57. Zayçikov V.T. Çinin təbii sərvətləri // İzvestiya AN SSSR. Ser. Qeoqrafiçeskaya. 1954. №6.
58. Lattimore O. İnner Frontiev of China. New Üork, 1940. p.275.
59. Nesteruk F.Y. Çinin su təsərrüfatı. s.11.
60. Qumilyov L.N. Çin xronoqrafiya terminologiyası N.Y.Biçurinin əsərlərində Ümumdünya tarixi fonunda (ön söz) // Biçurin N.Y. Sobranie svedeniy po istoriçeskoy qeoqrafii Vostoçnoy i Sredinnoy Azii. Çeboksari. 1960, s.648-649.
61. Nesteruk. Çinin su sərvətləri. s.19.
62. Yenə orada. s.22-23. [535-536]
63. Qumilyov L.N. Çin xronoqrafiya terminologiyası. s.652.
64. Nesteruk F.Y. Çinin su təsərrüfatı. s.51.
65. Yenə orada. s.62.
66. Yenə orada. s.52-55.
67. Şnitnikov A.V. Şimal yarımkürəsi materiklərinin ümumi rütubətliliyinin dəyişkənliyi // Zapiski QO. T.XVI. M., L., 1957. s.220-221, 262.
68. Qrum-Qrjimaylo Q.E. Tarixi dövr ərzində Mərkəzi Asiyada … s.437.
69. İsaçenko A.Q. Xarici coğrafiyada determinizm və indeterminizm // Vestnik Leninqr. un-ta. 1971. №24, s.90.
70. Yermolayev M.M. Coğrafi məkanın sərhəd və strukturu haqqında // İzvestiya VQO. 1969. №5, s.401-427.
71. Daha ətraflı bax: Qumilyov L.N. Xunna. s.171-173.
72. 1453-cü ildə İstanbulun fəthi zamanı türklərin əfv etdikləri bizanslıların xələfləri Fənər məhəlləsinin sakinləri idi. 1821-ci ildəki yunan qiyamı zamanı Moreydə törədilən müsəlman qırğınına cavab olaraq qılıncdan keçirilmişlər.
73. İnostransey K.A. Xunnu və hunlar // Trudi tyurkoloqiçeskoqo seminariya, T.I. L., 1926.
74. İordan. Getlərin mənşəyi və əməlləri / perevod E.Ç.Skrjinskoy. M., 1961. s.91. "Getlər" dedikdə qotlar nəzərdə tutulur.
75. Qumilyov L.N. Xunlar tarixinin bəzi məsələləri // Vestnik dreve istorii. 1960. №4.
76. Qumilyov L.N. Köçəri mədəniyyət ritmlərinin qaynaqları // Narodı Azii i Afriki. 1968. №3.
77. Qumilyov L.N. Xunna.
78. Kinjalov R., Belov A. Tenoçtitlanın süqutu. L., 1956. s.130-136.
79. Qumilyov L.N. Qədim türklər. M., 1967.
80. Qumilyov L.N. Əfsanəvi çarlığın sorağında. M., 1970.
81. Racputlar - sak, kuşan və eftalitlərin Hind vadisi aborigenlərilə qarışıq nigahlarından törəyən xələfləri.
82. Grousset R. Histoire de l'Extreme Orient. Paris, 1929. P.125.
83. Orta əsrlər Hindistan tarixi / Pod redaksiey L.B.Alaeva. M., 1968. s.76-83. [536-537]
84. Qumilyov L.N. Qədim Tibetin təntənəsi və süqutu // Strani i narodı Vostoka / Pod redaksiey D.A.Olderoqqe. Vip.8. M., 1969. s.156-157.
85. Qumilyov L.N. 1) Xunlar Çində. s.234-235; 2) Qədim türklər. s.10.

## BEŞİNCİ HİSSƏ

1. Bromley Y.V. Etnos və endohamiya // Sovetskaya etnoqrafiya. 1969. №6.
2. Çetverikov S.S. Müasir genetika baxımından təkamül prosesinin bəzi məqamları barədə. M., 1926; Timofeyev-Resovskiy N.V. Mikrotəkamül // Botaniçeskiy jurnal. 1958. №3.
3. İfadə S.S.Çetverikov və N.V.Timofeyev-Resovskiyə məxsusdur.
4. Altuxov Y.P., Rıçkov Y.Q. Növlərin genetik monomorfizmi və onun mümkün olan bioloji əhəmiyyəti // Jurnal obşey bioloqii. 1972, №3, s.282.
5. Yenə orada. s.296.
6. Kalesnik S.V. Yerin ümumi coğrafi qanunauğunluqları. M., 1970; Qumilyov L.N. Şərqşünaslıq araşdırmalarında tarixi coğrafiyanın yeri // Narodı Azii i Afriki. 1970. №1.
7. Lem S. Mədəniyyət modeli // Voprosı filosofii. 1969. №8, s.51.
8. Lobaşev M.Y. Siqnal varəsəliyi // İssledovaniya po genetike // Pod red. M.E.Lobaşeva. L., 1961.
9. Bıstrov A.P. İnsanın keçmişi, bu günü, gələcəyi. L., 1957. s.300.
10. Biz antidarvin konsepsiyalarını araşdırmırıq (A.Doderlenin ətalətin qüvvəsi, T.Eymerin ortogenezi, A.S.Berqin homogenezi, X.Osbornun aristo genezi), çünki ümumi səciyəli təbii qanunauyğunluqların bütün faunaya nisbətdə fərdi olan hala mexaniki şəkildə aid edilməsi yanlışlıqlara səbəb olacaq (elə sadəcə miqyasların qeyri-mütənasibliyi üzündən); bütövlükdə təkamülün araşdırılması zamanı önümlü olan detallar məhdud zaman kəsiyində bir növün araşdırılması zamanı ya həddən artıq

önəmli, ya da predmetə heç bir aidiyyatı olmayan kimi çıxış edir (bizim halda son 5000 il ərzində mövcud olan bəşəriyyətə).

11. Bıstrov A.P. Göstərilən əsəri. s.299. - A.P.Bıstrovun xronologiyası dəqiqləşdirilməlidir. Yeni C.14 bilgilərinə görə, [537-538] Avropada kromanyon adamının 20 000, Şimali Amerikada Homo sapiensi isə təxminən 37 000 il yaşı var. (bax: Molçanov Y.A., Yeni dünyanın məskunlaşmasının ilkin mərhələləri məsələsinə dair // Dokladı po etoqrafii VQO. VİP. 4. L., 1966. s.34).

12. Roqinski Y.Y., Levin M.Q. Antropologiyanın əsasları. M., 1955.

13. 1957-ci ilədək olan mübahisələrin tarixi üçün bax: Bıstrov A.P. Göstərilən əsərləri, s.277.

14. Debets Q.F. Müasir növ insanın quruluşundakı dəyişikliklərin bəzi istiqamətləri barədə // Sovetskaya etnoqrafiya. 1961, №2, s.9-23.

15. Dorst K. Təbiət ölməzdən əvvəl. M.1968. s.350.

16. Yenə orada, s.45.

17. Tyerri O. Seçilmiş əsərləri. M. 1937, s.210.

18. Qumilyov L.N. 1) Aralıq Asiya köçəri mədəniyyəti ritmlərinin qaynaqları // Narodı Azii i Afriki. 1966. №4, s.85-94; 2) Avrasiyanın çöl zonası xalqlarının tarixində iqlim dəyişikliklərinin rolu // İstoriya SSSR. 1967. №1, s.53-66.

19. Qumilyov L.N. Etnogenez və etnosfer // Priroda. 1970. №2, s.49-60.

20. Yefremov Y.K. İnsanın təbiətlə ilişkiləri zəncirində mühüm həlli // Yenə orada. 1971, №2, s.79.

21. Bromley Y.V. Etnos və etnoqrafiya. m.1973. s.163.

22. Vernadski V.İ. Yerin biosferi və onun əhatəsinin kiməvi quruluşu. M.1965. s.284-285.

23. Bıstrov A.P. Göstərilən əsəri. s.292.

24. Debets Q.F. Müasir növ insanın quruluşundakı … s.19-20.

25. Şirokoqorov S.M. Etnos: etnik və etnoqrafik olayların dəyişməsinin əsas prinsiplərinin araşdırılması // İzv. Vostoçnoqo f-ta dalnevostoçn. un-ta (Şanxay). 1923. XVIII. T.1. s.130.

26. Zavadski K.M. Darvindən sonra təkamül nəzəriyyəsinin inkişafı. L.1973. s.223-225.

27. Yenə orada, s.225.

28. Roqinski Y.Y., Levin M.Q. Göstərilən əsəri. s.314.

29. Etnosun titrəyişli hərəkəti bir tarazlıq durumundan digərinə keçiddir. Bu hərəkət tipi Qədim Çində də məlum idi və onu "taleyin dönüklüyü qanunu" adlandırırdılar.

30. Qumilyov L.N. Etnos bir olay kimi // Dokladı otdeleniy i komissiy VQO. VİP.3. L.1967. s.106. [538-539]

31. Konrad N.İ. Qərb və Şərq. M. 1966. s.76.

32. Qumilyov L.N. Etnos və zaman kateqoriyası // Dokladı VQO. Vip. 15. L.1970. s.143-157.

33. Kozırev N.A. Səbəbiyyat mexanikası və zamanın xassələrinin təcrübi araşdırılması imkanı (əlyazma).

34. Vernadski B.İ. Yerin biosferi və onun əhatəsinin kimyəvi quruluşu. M.1. 1965. §135.

35. Qumilyov L.N. Etnos və zaman kateqoriyası // Dokladı otdeleniy i komissiy QO SSSR. Vip.15. L.1970. s.143-159.

36. "Tarixi dünyanın ilkin elementi - subyektin öz mühitilə fəal həyatı ilişkilərdə olduğu yaşantılardır". (Kom I.S. Göstərilən əsəri. s.112).

37. "Müxtəlif səviyyələrdə və müxtəlif məsafələrdən, müxtəlif məqsəd və maraqlarla və müxtəlif baxımlardan çıxış edən tarixçilərin onları kəşf etmələrini gözləyən mütləq real səbəblər mövcud deyil". (Kom I.S. Göstərilən əsəri. s.192).

38. Belələrindən Anatol Frans "Pinqvinlər adası"nda yazırdı: "Məgər biz də tarix yazırıq? Məgər biz hansısa mətn, sənəddən kiçicik də olsa, həyat, yaxud həqiqət zərrəciyi tapmağa can atırıq? Biz sadəcə mətnləri çap edirik. Biz hər şeyi olduğu kimi veririk… Fikir deyilən şey yoxdur".

39. Tarixin dəyəri ondadır ki, o insana "bizim şəraitdən son dərəcə fərqli şəraitdə olan insan varlıqları barədə biliklər verir - ciddi elmi biliklər yox, it xoşlayan adamın öz iti barədə malik olduğu biliklərə bənzələrini verir" (Kom I.S. Göstərilən əsəri. s.176).

## ALTINCI HİSSƏ

1. Marks K., Engels F. Əsərlərinin 2-ci nəşri. C.3. s.245.
2. Daha ətraflı bax: Simonov P.V. İnsanın ali əsəb fəaliyyəti. Motiv-hissi aspektlər. M., 1975. s.27-29.
3. Yenə orada.
4. Daha ətraflı bax: Qumilyov L.N. 1) Etnogenez və etnosfer // Priroda. 1970. №1. s.46-56; 2) Etnogenez - təbii prosesdir // Yenə orada. 1971. №2. s.80-82; 3) tarixi coğrafiya və etnologiyanın bilgilərinə əsasən təbiətlə cəmiyyətin nisbəti barədə // Vestn. Leninqr. un-ta. 1970. №24. s.39-49.
5. Drive termininin ingilis qarşılığı (bax: Sovirt Geoqrafhy. 1973. Vol. XIV. №5. P.322).
6. Marks K., Engels F. Əsərləri. C.21. s.176. [539-540]

7. Yenə orada. s.165.
8. Yenə orada. s.99.
9. Hegel F. Əsərləri: 14 cilddə. C.8. M., 1935. s.23.
10. Marks K., Engels F. Əsərləri. C.37. s.394.
11. Arrian. İsgəndərin yürüşü // Per. M.E.Serqeenko. M., L., 1962. II. 14.4; III. 18.12. - İrəlidə bu nəşrə istinadlar mətn daxilində veriləcək.
12. İsgəndərin yürüşləri nəticəsində meydana çıxan və ellin elementlərinin şərq elementlərilə qarışığından ibarət olan mədəniyyətləri ellinizm adlandırırlar.
13. Qay svetoniy Trankvill. On iki sezarın həyatı. M., 1964. s.132, 135.
14. Rayses V.İ. Janna d'Arkın məhkəməsi. M., L., 1954. Həmçinin bax: Rayses V.İ. Janna d'Ark. L., 1982.
15. Tyerri O. Seçilmiş əsərləri. M., 1937. s.255.
16. Bax: Bromley Y.V. 1) Etnosun mahiyyəti məsələsinə dair // Priroda - 1970, №2. s.51-55; 2) Etnos və etnoqrafiya. M., 1969, s.56.
17. Kozlov V.İ. Xalqların say dinamikası. M., 1969, s.56.
18. Etnosun passionar gərginliyi - etnik sistemdə olan passionar gərginliyin miqdarının etnosu təşkil edən fərdlərin sayına bölünməsidir.
19. Bax: Marks K., Engels F. Əsərləri. C.14. s.318.
20. XVIII əsrdə - albiqoy savaşı zamanı; XVI əsrdə - qugenot savaşları vaxtı; XVII əsrdə - kamizar qiyamı üzündən.
21. Kozlov V.İ. Etnos nədir // Priroda. 1971. №2. s.72.
22. Daha ətraflı bax: Steblin-Kamenski M.İ. İslandiya mədəniyyəti. L., 1957. s.11.
23. Tomski A. İsland kralı // Priroda i lyudi. 1912. №43. s.608-670; №44. s.684-686.
24. Boqoraz V.Q. Qütb bölgələrində Rusiya etnoqrafiyasının yeni vəzifələri // Trudi Severnoy nauçno-promıslovoy ekspedisii. Vip. 9. Pq., 1921. s.20-21.
25. Qukovski M.A. İtalyan savaşları və XVI əsrin Yüksək İntibahı (1559-cu ilədək) // Oçerki istorii İtalii / Otv. red. M.A.Qukovski. 1959. s.125-152.
26. Rolova A.D. İspan hakimiyyəti dövrü (XVI əsrin ikinci yarısı - XVIII əsr) Yenə orada. s.153-191. [540-541]
27. "Action directe" termini demək olar ki, tərcümə olunmur. O, impulsun (bizə görə, passionar impulsun) təzahüründə səmimiliyi ifadə edir.
28. K.Marks və F.Engels arxivi. C.VI. M., 1939. s.34.
29. Yenə orada. s.384.
30. Tyerri O. Seçilmiş əsərləri. s.193.

## YEDDİNCİ HİSSƏ

1. Rıçkov Y.Q. Təcrid olunmuş populyasiyaların antropologiya və genetikası (Pamirin qədim təcridolunmuşları). M., 1969; Altuxov Y.P., Rıçkov Y.Q. Populyasiya sistemləri və onların struktur komponentləri: genetik sabitlik və dəyişkənlik // Jernal obşey bioloqii. 1970. T.XXXI. №5. s.507-526.
2. Burada söylənən bioloji mühakimələr müəllifin biologiya elmləri doktoru B.S.Kuzinlə söhbətlərinin nəticəsidir. Məsləhətlərinə və sırf ixtisas problemlərinin açıqlanması üçün ona minnətdarlıq edirəm.
3. Akinşikova Q.İ. İnsanın somatik və psixofizioloji quruluşu. L., 1977. s.94.
4. Yenə orada. s.90.
5. Simonov P.V. İnsanın ali əsəb fəaliyyəti. M., 1975. s.31-32.
6. Yenə orada.
7. Şairlər bir neçə dildə, yaxud onların elementlərini ehtiva edən hibrid dillərdə yazırdılar.
8. Terminlər S.A. Arutyunov və N.N.Çeboksarovundur (bax: Arutyunov S.A., Çaboksarov N.N. Etnik proseslər və informasiya // Priroda, 1971, №7. s.58-63.
9. Müller A. İslam tarixi: 4 cilddə. C.4. SPb., 1896, s.228.
10. Ximera - şir başlı, keçi bədənli və əjdaha quyruqlu iblis. Məcazi anlamda - qətiyyən birləşə bilməyən elementlərin qovuşması.
11. Artamonov M.İ. Şimali və qərbi Qara dəniz ətrafının bolqar mədəniyyətləri // Dokladı VQO. Vip. 15. L., 1970. s.12-13.
12. Veber Q. Ümumdünya tarixi. 2-ci nəşr: 15 cilddə. C.1. M., 1894, s.597.
13. Yenə orada, s.657.
14. Yenə orada. C.4. M., 1898, s.224. [541-542]
15. Vernadski V.İ. Yerin biosferi və onun əhatəsinin kimyəvi quruluşu. M., 1965. (Bu əsərin müvafiq paraqraflarına istinadlar mətndə verilir).
16. Yenə orada. s.283.

17. Spiridonov M.N. Kosmik elmin ön cəbhəsində // Priroda. 1966. №8. s.112.
18. Seşenov İ.M., Pavlov İ.P., Vedenski N.Y. Əsəb sisteminin fiziologiyası // akad. K.M.Bikovun red. İlə. M.,1952. s.142.
19. Roginski Y.Y., Levin M.Q. Antropologiyanın əsasları. M., 1955. s.465-468.
20. Qumilyov L.N. Çində üç çarlıq // Dokladı VQO. Vip.5. L., 1968.
21. Semyonov Y.İ. "Sosial orqanizm" kateqoriyası və onun tarix elmi üçün önəmi // Voprosı istorii. 1966. №8.
22. Debets Q.S. Müasir növ insanın quruluşunda dəyişikliklərin bəzi istiqamətləri barədə // Sovetskaya etnoqrafiya. 1961. №2.
23. Çeboksarov N.N., Çeboksarova İ.A. Xalqlar, irqlər, mədəniyyətlər. M., 1971. s.121.
24. Eramızda cəmi yeddi passionar təkan müşahidə edilib və etnogenezin yekun mərhələlərinə əsasən eramızdan əvvəlki iki min il ərzində də daha yeddisinin baş verdiyi təxmin olunur (daha ətraflı bax: şək.5).
25. Yerin planetətrafı təbəqələrinin təsvirini verən M.M.Ermolayevə görə, ionosferin nazikləşdiyi gecə vaxtı kosmik şüalanmalar Yerin səthinə gəlib çata bilir. Kosmosdan endirilən belə təsadüfi zərbələrin önəmi məsələsi öz həllini gözləyir (bax: Yermolayev M.M. Coğrafi məkanın sərhədləri və strukturu barədə // İzvestiya VQO. Vip. 5. 1969.
26. Semevski B.N. "İnsan-təbiət" sisteminin qarşılıqlı ilişkiləri // Priroda. 1970. №8; Kurennoy V.N. Passionarlıq və landşaft // Yenə orada.
27. Vernadski V.İ. Göstərilən əsəri. s.272.
28. Trusov Y.P. Noosfer haqqında anlayış. // Priroda i obşestvo. M., 1968. s.37-38.
29. Kalesnik S.V. 1) Coğrafi mühit problemi // Vesti. Leninqr. un-ta. 1968. №12. s.91-96. 2) Coğrafi mühit haqqında daha bir neçə söz // İzvestiya VQO. 1966. №3. s.247-250.
30. Yefremov Y.K. Planetimizin landşaft mühiti // Priroda. 1966. №8. [542-543]
31. Təklif olunan yanaşmanın dəyərləndirilməsi üçün bax: Voprosı filosofii. 1971. №1. s.158.
32. Plexanov Q.V. Şəxsiyyətin tarixdə rolu məsələsinə dair / Əsərləri: 24 cilddə. C.8. M., L., 1923. s.273-306.
33. Kalesnik S.V. Yerin ümumi coğrafi qanunauyğunluqları. M., 1970.
34. İsaçenko A.Q. Xarici coğrafiyada determinizm və indeterminizm // Vestnik. Leninqr.un-ta. 1971. №24. s.85-96; 1972. №6. s.85-95.
35. Plexanov Q.V. Tarixin materialist anlamı barədə // Əsərləri. C.8. s.254-255.
36. Plexanov Q.V. Tarixdə şəxsiyyətin rolu məsələsinə dair. s.298.
37. Qumilyov L.N. 1) Qədim türklər. M., 1967; 2) Hunna. M., 1960; 3) Əfsanəvi çarlıq sorağında. M., 1970.
38. Plexanov Q.V. Tarixdə şəxsiyyətin rolu məsələsinə dair. s.294.
39. Vernadski V.İ. Elm tarixi üzrə seçilmiş əsərləri. M., 1981.
40. İqtisadi və sosial coğrafiya: Problemlər və perspektivlər / məsul red. O.P.Litovka. L., 1984.
41. Qumilyov L.N. Biosfer və şüur impulsları // Priroda. 1978. №12. s.97-105.
42. İvanov K.P. Etnogenez mexanizmi - etnomədəniyyət araşdırıcısının aləti // Problemı izuçeniya i oxranı pamyatnikov kulturı Kazaxstana. M., 1983, s.79-80.
43. Passionar təkanların coğrafiyası üzrə göstəricilər K.P.İvanov tərəfindən dəqiqləşdirilib. (bax: Qumilyov L.N., İvanov K.P. Etnoslar və kosmos // Kosmik antropoekologiya: araşdırma üsulları və texnikası. Materialı vtoroqo vsesoyuznoqo soveşaniya po kosmiçeskoy antropoekoloqii. L. 1984.)
44. Yenə orada. Müəllif 5 və 6-cı şəkillərin və onlara əlavə olunan təsvirlərin hazırlanmasında yardımçı olduğu üçün K.P.İvanova təşəkkür edir.
45. Qumilyov L.N. Tarixi coğrafiyanın humanitar və təbiyyat elmləri aspektləri // Ekonomiçeskaya i sosialnaya qeoqrafiya: Problemı i perspektivı. s.42-57. [543-544]

## SƏKKİZİNCİ HİSSƏ


1. Vernadski V.İ. Yer və onun əhatəsinin kimyəvi quruluşu. M.1985. §15.
2. Burada və daha sonra Qərbin idealist filosoflarının söyləmləri aşağıdakı əsərə istinadən verilir: Kon İ.Fəlsəfi idealizm və burjua fikrinin böhranı. M. 1959. s.155. - Bundan sonra bu kitaba istinadlar mətndə verilir.
3. Jaspers K. Vom PSprung und Ziel der Geschiete. Zürich. 1949.
4. Əslində K.Yaspers yarımheyvani "primitivlər" səviyyəsində qalan digərlərindən fərqli olaraq əqli inkişaf qabiliyyətinə yiyələnən xüsusi insanlar cinsi kimi meydana çıxmaları kimi ajladığı faktı fərqləndirmişdir. O, etnogenezin akmatik mərhələlərinin bənzərliyini duymuş, lakin müxtəlif bölgələrin tarixi-coğrafi rəngarəngliyinə etinasız yanaşmışdır.
5. Duqlas U.O. Üçyüzillik savaş. Ekoloji fəlakətin xronikası. M.1975. s.153.
6. Yenə orada. s.33.
7. Yenə orada. s.153.
8. Dorst D. Təbiət ölməzdən əvvəl. M.1968. s.45.
9. Qumilyov L.N. Etnogenez coğrafiya baxımından // Vestnik. Leninqr.un-ta. 1970. №12. s.89.
10. Varanqlar (rusca - "Varyaqi") - hərbi xidmət üçün muzdla tutulan əcnəbilər.
11. Daha ətraflı bax: Qumilyov L.N. Əfsanəvi çarlıq sorağında. M. 1970. s.229-304.
12. Xarici Asiya ölkələri tarixi. Orta əsrlər / A.M.Qoldobinin red. İlə. M. 1970. s.207.
13. Vasilyev V.P. Orta Asiyanın şərq hissəsinin X əsrdən XIII əsrədək qədim tarixi. SPb. 1857. s.227.
14. Xristian icmasını müxtəlif baxımlardan əzərdən keçirirdilər: qulların sosial hərəkatı kimi, sekta kimi, "daxili proletariatın" yaranması kimi (A.Toynbi). biz problemi başqa yöndən işıqlandıran etnoloji aspekt təklif edirik.
15. Zelinski F.F. Xristianlığın rəqibləri. SPb. 1910; Nikolayev Y. Tanrı sorağında. SPb. 1913.
16. Mommzen T. Roma tarixi: 4 cilddə. C.5. M.1949. s.440. [544-545]
17. Kozlov V.İ. Xalqların say dinamikası. M.1969. cədvəl 12.
18. Mommzen T. Roma tarixi. C.3. M. 1941. s.440.
19. Dil Ş. Bizans tarixinin əsas problemləri. M. 1947. s.11.
20. Bizans tarixi: 3 cilddə / S.D.Skazkinin red7 ilə. C.17 M.1967. s.168.
21. Makedoni öyrədirdi ki, Müqəddəs Ruh Üçlüyün siması deyil, yaradılandır.
22. Martial R. Vie et constance des Razces. Paris, 1939. P.80.
23. O.Tyerri. "Nerovinqlər dövründən hekayətlər"də bu barədə çox gözəl yazıb. O, "Torpaq herikdə olanda" nə baş verdiyini təsvir edir.
24. Dorst D. Təbiət ölməzdən əvvəl. M. 1968. s.39.
25. Daha ətraflı bax: Şevelenko A.Y. Feodalizmin genezisinin tipologiyasına dair // Voprosı istorii. 1971. №1. s.97-107.
26. Bu məsələ barədə ədəbiyyat kifayət qədər çoxdur. Zəruri olan ümumiləşdirilmiş göstəriciləri aşağıdakı mənbələrdən əldə etmək olar: Dieqo de landa. Yukatandakı durum haqqında bilgi. 1556-cı il. /tərcümə, giriş sözü və qeydlər Y.V.Knorozovundur. M., L. 1955; İnka Qarselaso de la Veqa. İnk dövləti tarixi / tərc. V.A.Kuzmişevindir. L. 1974.
27. Qəhrəman çanklar bu yaşıl cəhənnəmdə salamat qala bildilər. Bu sətirlər yazılandan sonra onların xələfləri Amazonkanın yuxarı axarında aşkar olunub.
28. Başilov V.A. Peru və Boliviyanın qədim sivilizasiyaları. M. 1972. s.196-197.
29. Bax: Averkiyeva Y.P. Şimali Amerika hinduları. M. 1974. s.172. - Bu konsepsiyanı arxeoloji bilgiləri cəlb etməklə təkzib etmək cəhdi dəlillərin xarakterinə görə inandırıcı deyil (bax: yenə orada. s.174-176).
30. Parks Q. Meksika tarixi. M.1949. s.93.
31. Yenə orada. s.102-103.
32. Yenə orada. s.97.
33. Yenə orada. s.123.
34. Qumilyov L.N. 1) Çində üç çarlıq // Dokladı QO. Vip. 5. L. 1967. S.107-127; 2) Xunlar Çində. M. 1974. s.235.
35. Bax: Lozinski S.Q. Orta əsrlərin qədər kitabı // Rahiblər Y.Şprenger və Q.İnstistoris. Küpəgirən gürzü. / Latın dilindən tərc. N.Svetkovundur. M.1932. s.8-9.
36. Rotarın 643-cü il fərmanı əcinnə və vampirlərə (qansoranlar) inanmağı qadağan edir və "divanələrin cadugərlikdə ittiham olunan qadınları öldürmələrinə" yol vermirdi. (Yenə orada).
37. 787-ci ilin ilk sakson kapitulyarisi (yenə orada). [545-546]
38. Orlov M.A. İnsanın iblislə ilişkiləri tarixi. SPb. 1904. S.183-184. - Nəşr edildiyi dövrün dəbinə müvafiq olan başlığının əksinə, bu kitab orta əsrlər folkloru üzrə kifayət qədər ciddi araşdırmadır.
39. Lozinski S.Q. Orta əsrlərin qədər kitabı. s.10.

40. Orlov M.A. Göstərilən əsəri. s.132, 135.
41. Yenə orada. s.134.
42. Yenə orada. s.183.
43. Bütün etnoslar enerjinin-passionarlığın səpələnməsinin entropik prosesinə məruz qaldıqlarından, “gerilik” sözü o deməkdir ki, etnos hələ bu enerji ilə kifayət qədər zəngindir (Soyumamış isti əşya kimi).
44. Burada təbiət qüvvələri dedikdə, landşaftda möhtəşəm dəyişikliklər nəzərdə tutulur. Məsələn, dənizin transqressiyası (quru sahələrini basması) adada vulkan püskürməsi, əsrlik quraqlıq və s.
45. Zombart V., Burjua M. ilsiz. s.7-9. Bu nəşrə sonrakı istinadlar mətndə verilir.
46. Duqlas U.O. Üçyüzillik savaş. s.161.
47. Qumilyov L.N. Orta əsrlərdə Avrasiyanın rütubətləşməsinin heteroxronluğu // Vestnik. Leninqr.un-ta. 1966, №18. s.81-90.
48. Qumilyov L.N. Xunlar Çində. s.12, 115-117.
49. Qumilyov L.N. Xunna. M.1960.
50. Qumilyov L.N. Qədim türklər. M.1967.
51. Qumilyov L.N. Əfsanəvi çarlıq sorağında. M.1970.
52. Vorobyov M.V. Etnos orta əsrlərdə (curcenlərin etnogenezi materialları əsasında) // Dokladı otdeleniy i komissiy VQO SSSR. Vip.3. 1967. s.58-73.
53. e.ə. VII əsrdən başlayaraq Babildə hətta dil də dəyişdi - Suriyada işlənən ərami dili işlənməyə başladı. Nəvahodonosor(?)un Babilə gətirdiyi yəhudilər böyük bir təbəqə təşkil edirdilər. Onlardan bir çoxu əsirlii başa çatdıqdan sonra yəhudi mənşələrini sübuta yetirə bilmədiyindən, Babildə qaldı. E.ə. VI əsrdə Babil monoetnik Akkadın paytaxtından urbanistik aqlomerasiyaya (etnik təmas bölgəsinə) çevrildi. (bax: Belyavski V.A. Etnos qədim dünyada // Dokl. Otd. İ kom. VQO SSSR. Vip.3. 1967. s.24-27.)
54. Belyavski V.A. Əfsanəvi Babil və tarixi Babil. M.1971. s.96-97, 174.
55. Yenə orada. s.298-299.
56. Konrad V.İ. Qərb və Şərq. M. 1966. s.119-151. [546-547]
57. Firdovsi. Şahnamə: iki cilddə / D.Y.Bertelsin red. İlə. C.1. M.1963; C.2. M.1962. bax: Osmanov M.N. Firdovsi. Həyat və yaradıcılığı. M. 1969.
58. Tunqus qrupuna mənsub etnos olan mancurlar Çinin istilamına 1644-cü ildə başladılar və bunu 1683-cü ildə başa çatdıraraq Çin milli dövlətinin varlığına son qoydular. Bizim Çin adlandırdığımız Aralıq düzənliyi 1911-ci ilədək Mancuriyanın əaləti, orada yaşayan xalq - çinlilər isə bütün hüquqlarından məhrum edilmişdilər. Tsin sülaləsinin daim çin sülaləsi hesab olunması əsassızdır.
59. Qumilyov L.N. Qədim türklər. s.346-348; Jirmunski V.M. Alpamış haqqında rəvayət və bahadır nağılı. M.1960; Malçi-Mergen: Altay qəhrəmanlıq eposu / Hazırlayanı N.U.Ulaqaşayev. 1947; Ulaqaşayev N.U. Altay-Buçay. Novosibirsk. 1942; Qraf A., Kuçiyak P. Altay nağılları. M.1939.
60. Qumilyov L.N. Türk-tüfyülərin (?) Altay qolu // Sovetskaya arxeologiya. 1959. №1. s.105-114.
61. Daha ətraflı bax: Qumilyov L.N. Etnos və zaman kateqoriyası // Dokl. VQO SSSR. Vip.15. 1970. s.143-155.
62. Vaydya S. Günəş işığına bələmiş adalar // Na şuşe i na more. M.1968. s.325-351.
63. Yenə orada. s.326.
64. Yenə orada. s.346, 350.

## DOQQUZUNCU HİSSƏ

1. Veber Q. Ümumi tarixin bəzi məsələləri üzrə elmi anlayışlar oçerki // Ümumdünya tarixi. II nəşr: 15 cilddə. C.IX7 M.1896. C.XX.
2. Vernadski V.İ. Yerin və onun əhatəsinin kimyəvi quruluşu. M.1965. §135.
3. Simon G. Die Achse der Weltgeschichte nach Karl Yasrers. Roma, 1965, s.184.
4. Yaspers K. Vom Ursrrunq und Ziel der Geschichte Zwrich. 1949.
5. Bax: Budiko M.İ. Pleystosenin sonunda bəzi heyvanların məhv olması səbəblərinə dair // İzv. AN SSSR. Ger. Qeoqrafiçeskaya. 1967. №2. s.28-36.
6. İspan kapitanı Sebastyan Biskaymonun dostuna yazdığı və ingilislər tərəfindənələ keçirilən məktubundan bir parça: [547-548] “Son 20 il ərzində (XVII əsrin əvvəllərində yazılıb - L.Q.) adalara (Filippin adaları-L.Q.) 14 000 ispaniyalı gəlib. Onlardan yalnız 1000-i sağdır. Qalanları xəstəliklərdən, savaşlarda və digər səbəblərdən həlak olub”. (Mojeyko İ., Sedov L., Tyurin V. Xaç və muşketlə. M. 1966. s.160.) Amerikada, Niderlandda və Əlcəzair korsarlarının hökm sürdükləri Aralıq dənizində nə qədər ispan həlak oldu! Həm də konkistadorların əksəriyyəti könüllü, yəni bizim təsvir etdiyimiz xasiyyətli adamlardı, çünki başqaları evdə oturub vergi ödəməyi üstün tuturdular ki, ispan hökuməti buna rəğbətlə yanaşırdı.
7. Vernadski V.İ. Yer və onun əhatəsinin kimyəvi quruluşu. §200. s.272.
8. Yenə orada. s.273.
9. Tümenev A. Yəhudilər qədimdə və Orta əsrlərdə. Pq., 1922. s.135 və ardı.

10. Nikolayev Y. Tanrı sorağında. Qnostisizm tarixinə dair oçerklər. SPb. 1913.
11. Bax: Qumilyov L.N. Qədim türklər. M.1967. s.427-428, 432.
12. Osokin N. Birinci inkvizisiya və Langedokun fransızlar tərəfindən istilası. Kazan. 1872.
13. Çatterci S., Datta D. Hind fəlsəfəsinə giriş. M. 1955. s.130-134.
14. Lozinski S. Orta əsrlərin qədər kitabı. M. 1932. s.31.
15. Eddi C. Yox olan günəş ləkələri haqqında hekayət // Uspexi fiziçeskix nauk. 1978. T.125. Vip.2. s.315-329. [548-549]

*Yığılmağa verilmiş 03.08.2005.*
*Çapa imzalanmış 21.10.2005.*
*Şərti çap vərəqi 34,5. Sifariş № 567.*
*Kağız formatı 60x84 1/16. Tiraj 300.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor:* ***prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@rambler.ru***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, Içərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*